AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Əhmədova Naibə, Kərimov Zakir

Azərbaycan tarixi

(1918 - 2025-ci illər)

ADPU-nun Elmi-Metodiki Şurasının 16 iyul 2025-ci il tarixli iclasının qərarına əsasən çap edilir (pr.№4)

Bakı – 2025

Elmi redaktor: **Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, tarix elmləri doktoru, professor Cəfər Məmməd oğlu Cəfərov**

Müəlliflər: **Əhmədova Naibə Əhmədağa qızı**
ADPU, Azərbaycan tarixi kafedrasının müdiri, t.ü.f.d., dosent
Kərimov Zakir Hafis oğlu
ADPU, Azərbaycan tarixi kafedrası, t.ü.f.d., dosent

Rəyçilər: **Məmmədov Xəqani Məmməd oğlu**
ADPU, Azərbaycan tarixi kafedrası, t.e.d., professor
Seyidova Sevinc Məmməd qızı
ADPU, Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası t.e.d., dosent
Ağalarlı Mübariz Zahid oğlu
ADPU, Azərbaycan tarixi kafedrası, t.ü.f.d., dosent
Əziz Boran Orduxan oğlu
BDU, Azərbaycan tarixi kafedrası (humanitar fakültələr üzrə), t.ü.f.d., dosent

Naibə Əhmədova, Zakir Kərimov. Azərbaycan tarixi (1918-2025). Dərs vəsaiti. Bakı: ADPU nəşriyyatı, - 2025. 689 s.

Azərbaycan tarixi (1918-2025-ci illər) dərs vəsaiti Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından başlayaraq günümüzədək (1918-2025-ci illər) Şimali və Cənubi Azərbaycanda baş verən siyasi, iqtisadi,sosial, mədəni proseslərlə zəngin olan ən mühüm tarixi hadisə və prosesləri əhatə edir. Dərs vəsaiti Azərbaycanın müasir tarixi üzrə elmi tədqiqat aparan elmi işçilər, doktorantlar, magistrantlar, ali məktəblərin tarix və coğrafiya fakültəsində təhsil alan tələbələr və Vətən tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

MÜNDƏRİCAT

GİRİŞ.....9
I FƏSİL.Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi. Dövlət quruculuğu sahəsində tədbirlər 11
1.1.Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi.....11
1.2.Cümhuriyyət hakimiyyətinin ölkənin bütün ərazisində bərqərar edilməsi.....17
1.3.Böyük Britaniya qoşunlarının Azərbaycana müdaxiləsi.....24
1.4.Cümhuriyyət bayrağı və gerbi haqqında.....27
1.5.Cəmiyyətdə demokratik dəyişikliklərin başlanması. Sosial-siyasi vəziyyət.....30
1.6.Azərbaycan ordusunun qurulması. Ərazi bütövlüyü uğrunda mübarizə.....39
II FƏSİL.Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi və mədəni quruculuq siyasəti.....52
2.1. İqtisadi problemlər.....52
2.2. Maliyyə-vergi siyasəti, ticarət.....54
2.3. Sənaye.....59
2.4.Mədəni quruculuq.....65
III FƏSİL.Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Cümhuriyyətin süqutu.....74
3.1. Cümhuriyyətin xarici siyasətinin əsas vəzifələri.....74
3.2.Türkiyə oriyentasiyası.....75
3.3.Qərb oriyentasiyası.....80
3.4.Beynəlxalq münasibətlər sisteminə daxil olmaq uğrunda mübarizə.....87
3.5.Cümhuriyyətin süqutu.....94
IV FƏSİL. Azərbaycan SSR-nin yaranması. Beynəlxalq və daxili vəziyyət (1920-ci il aprel - 1922-ci il).....109
4.1.Sovet dövlət quruculuğunun başlanması.....109
4.2.İctimai-siyasi təşkilatlar.....122
4.3.Antisovet üsyanlar.....126
4.4.Müdafiə tədbirləri.....131

4.5. Milli təmayülçülük.....140
4.6.Formal müstəqilliyin ləğvində ilk addım.....142
4.7.Şərq xalqlarının I Qurultayı.....145
4.8.Azərbaycan siyasi mühacirəti. …….....149
V FƏSİL.Cənubi Azərbaycan Dünya müharibələri arasındakı dövrdə (1917-1940-cı illər.....157
5.1.Cənubi Azərbaycan Birinci Dünya müharibəsinin sonlarında.....157
5.2.Milli-azadlıq hərəkatının yuksəlişi. 1920-ci il Təbriz üsyanı.....163
5.3.Cənubi Azərbaycan Qacarlar dövlətinin süqutu dövründə (1921-1925).....171
5.4.Pəhləvilər sülaləsinin hakimiyyəti və paniranizm siyasəti.....176
VI FƏSİL.Azərbaycan SSR yeni iqtisadi siyasət illərində (1921-1925-ci illər).....184
6.1.Yeni iqtisadi siyasətə keçid.....184
6.2.Yeni iqtisadi siyasətin ilk addımları.....197
6.3.Xalq təsərrüfatının bərpasının başa çatdırılması.....209
VII FƏSİL.Azərbaycan SSR sovet dövlət quruculuğunda yeni mərhələ (1921-1925-ci illər). Formal müstəqilliyin ləğvi.....213
7.1.Yoxsul komitələrinə keçilməsi.....213
7.2.Azərbaycan SSR-nin I Sovetlər qurultayı, ilk Konstitusiyanı qəbulu.....217
7.3.Milli azlıqlar arasında iş.....220
7.4.Naxçıvan MSSR-nin yaradılması.....222
7.5.DQMV-nin təşkili.....225
7.6.Cənubi Qafqaz respublikalarının təsərrüfat fəaliyyətinin birləşdirilməsi.....234
7.7.ZSSR Fİ və ZSFSR-nin yaradılması.....237
7.8.SSRİ-nin yaradılması.....244
VIII FƏSİL.Sovet mədəni quruculuğunun başlanması (1920-1925-ci illər).....248
8.1.Xalq təhsili. Kadr hazırlığı.....248
8.2. Mədəni-maarif işi.....255

8.3. Elm.....259
8.4.Ədəbiyyat və incəsənət.....260
IX FƏSİL. Azərbaycan SSR sosialistcəsinə yenidənqurma dövründə (1926-1937-ci illər).....268
9.1.Sənayeləşdirmə xətti.....268
9.2.Kənd təsərrüfatının kollektivləşdirilməsi.....282
9.3.İnzibati amirlik sisteminin formalaşması. Repressiyalar.....290
9.4.Milli müstəqillik uğrunda mübarizə.....296
9.5.Maddi və sosial vəziyyət.....299
X FƏSİL. Mədəni quruculuq (1926-1937-ci illər).....302
10.1. Xalq təhsili və mədəni-maarif işi.....302
10.2.Ali və orta ixtisas təhsili. Elm.....313
10.3.Ədəbiyyat və incəsənət..... .318
XI FƏSİL. Azərbaycan SSR keçid dövrünün sonları və İkinci Dünya müharibəsi ərəfəsində.....326
11.1. Sosial strukturda dəyişikliklər.....326
11.2.İctimai-siyasi vəziyyət.....329
11.3.Milli siyasətdə əyintilər. İnzibati amirlik sisteminin güclənməsi.....332
11.4. Xalq təsərrüfatı.....335
11.5.Dövət quruculuğu.....339
11.6.Beynəlxalq vəziyyət və Azərbaycan SSR.....339
XII FƏSİL. Azərbaycan SSR İkinci Dünya müharibəsi illərində (1939-1945-ci illər).....348
12.1.Müharibənin başlanması və Azərbaycan vuruşan tərəfləri planlarında.....348
12.2. Respublikada hərbi səfərbərlik.....352
12.3.Azərbaycan döyüşçüləri ön cəbhədə.....354
12.4.Azərbaycanlılar partizan və antifaşist hərəkatında.....362
12.5. Milli legion.....368
12.6.Müharibənin son həlledici dövrü və onun yekunları.....370
12.7.İqtisadiyyat müharibə illərində. Orduya ümumxalq köməyi..373
12.8.Mədəniyyət cəbhənin xidmətində.....381

XIII FƏSİL. Cənubi Azərbaycan 1941-1946-cı illər, 1978-1979-cu illər İran inqilabı və ondan sonrakı dövrdə.....385
13.1.Müttəfiq orduların İrana daxil olması. Milli demokratik hərəkatın başlanması.....385
13.2.Milli hökümətin təşkili, fəaliyyəti və süqutu.....390
13.3.Cənubi Azərbaycan İran inqilabı (1978-1979) və ondan sonrakı dövrdə.....392
XIV FƏSİL. Azərbaycan SSR-nin iqtisadı və sosial-siyasi həyatı (1945-1960-cı illər).....406
14.1.Müharibədən sonra xalq təsərrüfatının bərpası və inkişaf. Əhalinin sosial strukturu, rifahı və məişəti.....406
14.2.Totalitar siyasi rejimin sərtləşməsi 416
14.3.Qərbi Azərbaycandan - tarixi ərazilərindən azərbaycanlıların deportasiyası.....419
4.4.Siyasi həyatda mülayimləşmə. İctimai-siyasi həyatda deformasiya və dəyişikliklər.....425
XV FƏSİL. Mədəni quruculuq (1945-1960-cı illər).....432
15.1.Təhsil.....432
15.2.Mədəni maarif.....435
15.3.Mətbuat.....435
15.4. Elm.....436
15.5.Ədəbiyyat və incəsənət.....439
XVI FƏSİL. Azərbaycan SSR-nin inkişafında dönüş mərhələsi (1970-1985-ci illər).....448
16.1. Respublikanın ictimai-siyasi həyatı.....448
16.2.İqtisadi vəziyyət.....452
16.3.Əhalinin rifah və məişəti. Mədəniyyət.....454
XVII FƏSİL. Respublikanın sosial-siyasi həyatı (XX əsrin 80-ci illərinin ortaları -90-cı illərin əvvəli).....462
17.1.Yenidənqurma və Azərbaycan - Ermənistan münasibətlərinin kəskinləşməsi 468
17.2.Milli-azadlıq hərəkatının başlanması, siyasi vəziyyətin dəyişməsi.....470
17.3.Qanlı Yanvar.....473

XVIII FƏSİL. Azərbaycanın beynəlxalq əlaqələri (1946-1990).....481
18.1.Beynəlxalq əlaqələri şərtləndirən amillər.....481
18.2.Siyasi əlaqələr.....485
18.3.İqtisadi əlaqələr.....490
18.4.Mədəni əlaqələr.....496
XIX FƏSİL. Azərbaycan dövlətçiliyinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (1991-ci il fevral-2003).....499
19.1.Dövlət Müstəqilliyinin bərpası ərəfəsində Azərbaycanda siyasi vəziyyət.....499
19.2.Xocalı genosidi.....514
19.3.Vətəndaş qarşıdurması. Qurtuluş hərəkatı, dövlət çevrilişi cəhdləri.....529
19.4.Ordu quruculuğu. Atəşkəs. I Qarabağ müharibəsinin qəhrəmanları (1991-1994).....537
19.5.Demokratik cəmiyyət quruculuğu.....549
XX FƏSİL. Azərbaycan Respublikasında iqtisadi islahatlar. Sosial siyasət (1991-2003-cü illər).....554
20.1.İqtisadi islahatlar.....554
20.2.İqtisadi inkişaf strategiyası və onun gerçəkləşdirilməsi.....561
20.3. Aqrar islahatlar. Kənddə sahibkarlığın yaranması.....569
20.4. Sosial siyasət.....571
XXI FƏSİL. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003-cü illər).....577
21.1.Xarici siyasətin vəzifələri, əsas istiqamətləri.....577
21.2.Beynəlxalq təşkilatlarla əməkdaşlıq.....582
21.3.Dağlıq Qarabağ məsələsi beynəlxalq müstəvidə.....587
21.4.Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi.....596
XXII FƏSİL. Azərbaycan Respublikasının mədəniyyəti (1991-2025).....598
22.1.Maarif. Mədəni-maarif.....598
22.2.Milli ideologiyanın formalaşması.....608
22.3. Elm.....621

22.4.Ədəbiyyat və incəsənət.....624
22.5.İdman.....633
XXIII FƏSİL. Azərbaycan Respublikası III minilliyin əvvəllərində (2003-2025-ci illər).....634
23.1.Daxili siyasi həyat.....634
23.2.İqtisadiyyat.Əhalinin sosial-məişət şəraiti.....639
23.3.Vətən müharibəsi. Antiterror əməliyyatı. Suverenliyin tam bərpası.....644
23.4.Xarici siyasət.....656
23.5.İşğaldan azad olunmuş ərazilərdə bərpa quruculuq işləri. Böyük Qayıdış.....667
23.6.Şuşa və Bakı Bəyannamələri.....670
Ədəbiyyat.....676

GİRİŞ

Ulu Öndər Heydər Əliyev 31 yanvar 1997-ci ildə Prezident sarayında Azərbaycan Milli Elmlər Akademiyasının alimləri ilə görüşündə Azərbaycan tarixinin öyrənilməsinin vacibliyini vurğulayaraq demişdi: "Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya və yaxud başqa fənlərin hamısı inkişaf etməlidir. Bunların hərəsinin özünəməxsus çərçivəsi var. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq, ömrünün sonuna qədər lazımdır".

Tarixin öyrənilməsi mənəvi dəyərlərin qorunması və inkişafına kömək edir, vətənpərvərlik, milli düşüncə, milli mədəniyyət, milli ideya kimi dəyərlər, müstəqil vətəndaş mövqeyi bildirmək, keçmişlə gələcək arasında körpü qurmaq bacarığı aşılanır.

Azərbaycan tarixinin ən möhtəşəm hadisələrindən olan 44 günlük Vətən müharibəsindəki misilsiz qələbənin qazanılmasında milli köklərə bağlılıq, torpağa bağlılıq, Vətənə bağlılıq, vətənpərvərlik, tarixdən alınan ibrət dərsləri müstəsna rol oynadı. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il fevralın 14-də baş tutmuş andiçmə mərasimində "...əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Bu məsələyə çox ciddi yanaşmalıyıq və mən bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyuram",- deyərək yeni dövrün əsas tələblərini diqqətə çatdırdı.

Təqdim olunan dərs vəsaiti məhz sadalanan meyarlara sökənir. Dərs vəsaiti Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından başlayaraq günümüzədək (1918-2025-ci illər) baş verən siyasi, iqtisadi,sosial, mədəni proseslərlə zəngin olan ən mühüm tarixi hadisə və prosesləri əhatə edir.Azərbaycan xalqının tarixində keyfiyyətcə yeni mərhələ olan öz milli dövlətini – Azərbaycan Xalq Cümhuriyyətini yaratmaq, onun 23 aylıq fəaliyyəti dövründə həyata keçirdiyi daxili və xarici siyasəti,parlamentin yaradılması, daxili və beynəlxalq səbəblərə görə Cümhuriyətin süqutu və ondan sonra Azərbaycanda sovet hakimiyyətinin qurulması,inzibati-amirlik sisteminin bərqərar olması və nəhayət 1991-ci ildə yenidən Dövlət

Müstəqilliyinin bərpa edilməsi, Vətən müharibəsindəki Böyük Zəfərimiz, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpa edilməsi əlbəttə ki, Azərbaycan xalqının keçdiyi çox mürəkkəb, məşəqqətli və eyni zamanda şərəfli, müzəffər bir yolun yolçuluğunu sübut edir. Üç Respublika dövrünü - Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və Azərbaycan Respublikası dövrünü əhatə edən dərs vəsaitində baş verən siyasi, iqtisadi, sosial, mədəni proseslərlə zəngin olan milli tariximizə dair son elmi-tədqiqat işlərinin elmi nəticələri, elmi dövriyyəyə daxil olmayan tarixi hadisələr, qaynaqlar, internet resursları, dövrü mətbuat materialları öz əksini tapmışdır.

Mövcud xronoloji çərçivədə Cənubi Azərbaycanın inzibati-siyasi quruluşu, sosial-iqtisadi və mədəni həyatına dair verilmiş məlumatlar mövcud ədəbiyyat və dövrü mətbuat materialları əsasında təhlil edilmişdir. Hesab edirik ki, Cənubi Azərbaycan haqqında məlumatların kitaba daxil edilməsi dərs vəsaitinin müsbət məziyyətlərindəndir.

Dərs vəsaiti gənclərimizin geniş dünyagörüşlü, milli şüura malik, tarixçi təfəkkürü ilə düşünmək bacarığı, eyni zamanda onların vətənpərvər şəxsiyyət kimi formalaşmasına xidmət edəcəyinə əminik. 44 günlük Vətən müharibəsində biz sahidi olduq ki, gənclərimiz tarixi keçmişimizi unutmamışlar, qəhrəmancasına vuruşaraq, Vətən yolunda canlarından keçdilər.

Yeni dövrdə isə suverenliyimizi, ərazi bötövlüyümüzü gələcək nəsillərə ötürə biləcək sağlam gənclik yetişməlidir. Hal-hazırda ideoloji təzyiq Vətən müharibəsi dövründəkindən daha çoxdur. Bu təpkilərə müqavimət göstərə bilən güclü, savadlı, öz tarixi keçmişini yaxşı bilən və ona sahib duran yeni nəsil yetişməlidir. Hesab edirik ki, mövcud dərs vəsaiti məhz bu amallara xidmət edəcəkdir.Əminik ki,geniş oxucu kütləsinin mühakiməsinə verilən bu kitabın akademik nəşri faydalı olacaqdır.

I FƏSİL
Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi. Dövlət quruculuğu sahəsində tədbirlər.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi. 1918-ci il mayın 26-da Zaqafqaziya Demokratik Federativ Respublikasının süqutu Cənubi Qafqazda üç müstəqil dövlətin - Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının yaranması ilə nəticələndi. Mayın 27-də artıq keçmiş Zaqafqaziya Seyminin Azərbaycan fraksiyası yaranmış siyasi vəziyyəti müzakirə etmək üçün fövqəladə iclas çağırdı. Uzun sürən müzakirələrdən sonra Müvəqqəti Milli Şura yaratmaq qərara alındı. Müvəqqəti Milli Şuranın sədri vəzifəsinə M.Ə.Rəsulzadə (Müsavat partiyası MK-nın sədri), İcraiyyə Komitəsinin sədri vəzifəsinə isə F.X.Xoyski (bitərəf) seçildi.

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası sədrinin müavini Həsən bəy Ağayev, Mustafa Mahmudov(katib), Fətəli Xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Nəriman bəy Nərimanbəyov, Heybətqulu Məmmədbəyov, Mehdi bəy Hacınski, Sultan Məcid Qənizadə, Əkbər Ağa Şeyxülislamov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlikaslanov, Rəhim bəy Vəkilov, Firudin bəy Köçərli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Hacı Molla Axundzadə və başqalarından ibarət 28 nəfər tərkibdə Azərbaycanın İstiqlaliyyəti haqqında Akt (Əqdnamə) qəbul edildi. İstiqlal Bəyannaməsində M.Ə.Rəsulzadənin adının olmaması onunla bağlı idi ki,o Batumda konfransda iştirak edirdi. Tədqiqatçıların bəzisi göstərir ki, İstiqlal Bəyannaməsi 8 nəfərdən ibarət həmmüəlliflərin birgə işidir.Çünki Bəyannamədə yalnız həmin 8 şəxsin imzası var**:** Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyli, Nəriman bəy Nərimanbəyli, Cavad bəy Məlik Yeqanov, Mustafa Mahmudov(Taleh Şahsuvarlı).

Bəyannamədə deyilir:

1.Azərbaycan tam hüquqlu müstəqil dövlətdir. Cənubi Qafqazın Cənub və Şərq hissələrindən ibarətdir. Ali hakimyyət Azərbaycan xalqına məxsusdur.

2.Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.

3.Azərbaycan Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvləri ilə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə qonşuluq əlaqələri yaradacaqdır.

4.Azərbaycan Cümhuriyyəti öz sərhədləri daxilində milliyyətindən,dinindən,cinsindən,ictimai vəziyyətindən asılı olmayaraq,bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.

5.Azərbaycan Cümhuriyyəti onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaqdır.

6.Məclisi-Müəssisə toplanana qədər Azərbaycanda ali hakimyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və onun qarşısında cavabdeh olan Müvəqqəti hökümət sayılır.

İstiqlal Bəyannaməsinin müəllifi kimdir?-sualının cavabı bu günədək acıqdır. Araşdırmaçılar bu barədə müxtəlif mülahizələr irəli sürür.Əsasən 3 müəllifin: M.Ə.Rəsulzadə, N.Yusifbəyli, Rəhim bəy Vəkilovun üstündə dayanırlar.

Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya Aktı - İstiqlal Aktının qəbulu ilə Azərbaycan dövlətçiliyi dünyada Xalq Cümhuriyyəti formasında elan olundu. M.Ə.Rəsulzadə deyirdi ki, bütün türk dövlətləri yaranarkən dini əsasa söykənib, Azərbaycan Cümhuriyyəti isə onlardan fərqli olaraq xalqların öz müqəddəratını təyinetmə hüququna əsaslanır.

Bu siyasi və hüquqi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edilmiş, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdır. İstiqlal Aktında demokratik dövlətə məxsus atributların - hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi, bütün xalqların hər bir kəsin milli, dini, sinfi, silki və cinsi mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün şərait

yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi kimi prinsiplərin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün bəşəriyyətə nümayiş etdirdi. İstiqlal Bəyannaməsi Azərbaycan millətinin Kulturnation (millət-mədəniyyət) statusundan daha yüksək siyasi-hüquqi və mənəvi-psixoloji statusa - Statenation (millət-dövlət) statusuna qədəm qoyduğunu göstərdi.

Milli Şuranın elə həmin iclasında ilk Azərbaycan hökumətini təşkil etmək tapşırığı almış Fətəli xan Xoyski Müvəqqəti hökumətin(Nazirlər Şurasının)tərkibini elan etdi: Nazirlər Şurasının sədri və daxili işlər naziri - Fətəli xan Xoyski (bitərəf); Maliyyə və xalq maarif naziri - Nəsib bəy Yusifbəyli ("Müsavat"); Xarici işlər naziri - Məmmədhəsən Hacınski ("Müsavat"); Yollar və poçt-teleqraf naziri - Xudadat bəy Məlikaslanov (Müsəlman Sosialist Bloku); Ədliyyə naziri - Xəlil bəy Xasməmmədov ("Müsavat"); Əkinçilik naziri - Əkbər ağa Şeyxülislamov ("Hümmət"); Hərbi nazir - Xosrov-Paşa Sultanov ("İttihad"); Ticarət və sənaye naziri - Məmməd-Yusif Cəfərov (bitərəf); Dövlət nəzarəti naziri - Camo Hacınski (Müsəlman Sosialist Bloku). Elə həmin gün Nazirlər Şurasının sədri F.X.Xoyski bir sıra dövlətlərin xarici işlər nazirliklərinə müstəqil Azərbaycan Cümhuriyyətinin yaradılması haqqında radioqram göndərdi. Radioqramda hökumətin müvəqqəti olaraq Yelizavetpol (Gəncə) şəhərində yerləşdiyi göstərilirdi.

1918-ci ilin yayında Azərbaycanda siyasi vəziyyət ölkədə ikihakimiyyətlilik olması ilə səciyyələnirdi. Belə ki, Azərbaycanın şərq hissəsi (Bakı quberniyası) Bakıda fəaliyyət göstərən Xalq Komissarları Sovetinin, qərb hissəsi isə (Yelizavetpol quberniyası) Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin hakimiyyəti altında idi.

1918-ci ilin yayında Azərbaycanın beynəlxalq vəziyyəti olduqca mürəkkəb idi. Burada Böyük Britaniya (İngiltərə), Almaniya və RSFSR kimi üç böyük dövlətin siyasi və iqtisadi maraqları toqquşurdu. Onların hər biri Bakı neftinə yiyələnmək istəyir və bir-biri ilə rəqabət aparırdı. Dünyanı yenidən bölüşdürmək istəyən böyük

dövlətlər üçün həmçinin Xəzər dənizində öz hökmranlığını bərqərar etmək cəhdləri səciyyəvi idi.

Yaxın Şərqdə böyük hərbi qüvvəyə malik olan və Sovet Rusiyasına qarşı hərbi müdaxiləni başlayan İngiltərə Bakını onun əlindən almağa və Almaniyanı Bakıya yaxın qoymamağa çalışırdı. Sonralar ingilislərin 1918-ci ildə Bakıdakı fəaliyyətindən yazan İngiltərənin "Tayms" qəzeti onların məqsədini belə ifadə etmişdi: "Biz gəlmişdik ki, Bakının neft mədənlərini zəbt edək".

İngiltərə hökuməti Bakını işğal etmək əməliyyatını həyata keçirməyi İranın Ənzəli limanında cəmlənmiş Britaniya hərbi dəstəsinin komandanı general Denstervilə tapşırmışdı: Denstervill Bakıdakı eser, menşevik və daşnaklarla əlaqə yaratdi ki, şəhərin işğalı planını hazırlamaqda və həyata keçirməkdə onlardan kömək alsın.

Daşnak, menşevik və eserlər öz pozuculuq fəaliyyətlərini gücləndirir, şəhərdə vəziyyətin ağır olmasından, mövcud ərzaq böhranının kəskinləşməsindən istifadə edərək, ingilis ordusunun Bakıya dəvət edilməsi üçün geniş təbliğat aparırdılar və kütlələri inandırırdılar ki, ingilislər nəinki Bakını qoruyub saxlamağa kömək göstərəcək, həm də əhalini ərzaqla təmin edəcəklər.

1918-ci ilin iyununda İngiltərə konsulu Mak-Donnelin fəal iştirakı ilə Bakıda eserlər tərəfindən sui-qəsdə cəhd edildi, lakin o uğursuzluqla nəticələndi.

Neft mənbələri olan regionların zəbt edilməsi o zaman yanacağa kəskin ehtiyac duyan Almaniyanın da planlarında böyük yer tuturdu. Alman ordusunun baş qərargah rəisi general Lüdendorf belə hesab edirdi ki, Qafqazı ələ keçirməklə iqtisadi blokadanı yarmaq və Almaniyanı iqtisadi cəhətdən gücləndirmək, almanlarda qələbəyə inam oyatmaq mümkün olacaq. Lakin ordusu Qərb cəbhələrində olan Almaniya Bakını öz hərbi qüvvələri ilə zəbt edə bilməzdi, o, bu işdə yalnız öz müttəfiqinə-qoşunları Qafqaz İslam Ordusu tərkibində Bakıya hücum edən Türkiyəyə ümid bəsləyə bilərdi.

Almaniyanın bu hücuma münasibəti ikili idi və olduqca ziddiyyətli mahiyyət daşıyırdı: həm onu dəstəkləyir, həm də ondan ciddi ehtiyat edirdi.

Almaniyanın hakim dairələrində Qafqaz İslam Ordusunun Bakını ala biləcəyinə inam yox idi, digər tərəfdən Bakıya hücum zamanı bolşeviklərin neft mədənlərinin məhv edilə biləcəyindən də narahat olurdular.

Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadə İstanbul konfransında həmin vaxt RSFSR, Almaniya və Türkiyə arasında Bakı nefti uğrunda gedən,diplomatik dairələrdə "Bakı məsələsi" adlandırılan siyasi mübarizənin mərkəzində idi.O, M.H.Hacınskiyə məktubunda qeyd edirdi: "Sizə məlumdur ki, neft haqqında məsələ Azərbaycandan çox Türkiyə-Almaniya məsələsidir".Alman qoşunlarının Gürcüstanda yerləşən məhdud kontingenti Türkiyəyə müqavimət göstərmək və ya Bakını tutmaq üçün kifayət deyildi. Buna görə də Qafqaz siyasətində Almaniya yalnız diplomatik kanallardan istifadə etməyə çalışırdı.

M.Ə.Rəsulzadə xarici işlər naziri M.H.Hacınskiyə yazırdı ki, Almaniya və Türkiyə Bakı məsələsinə müxtəlif cür yanaşır. Neft mədənlərinin bolşeviklər tərəfindən dağıdılacağından ehtiyat edərək, almanlar bolşeviklərlə (sovet Rusiyası ilə) razılığa gəlib neftin alınması haqqında saziş bağlamağa meyl göstərir.

Həmçinin M.Ə.Rəsulzadə yazırdı ki, "neft məsələsində vasitəçilik edərək, türklər almanlardan istifadə etmək istəyir, halbuki almanlar belə sövdəyə razılıq vermir".

Bakı nefti uğrunda mübarizənin fəal iştirakçısı olan sovet Rusiyası isə onu həm hərbi, həm də diplomatik yolla öz əlində saxlamağa çalışırdı. RSFSR hökuməti bölgəyə kifayət qədər qoşun göndərmək imkanı olmadığına görə məqsədlərinə diplomatik yollarla nail olmaq ümidində idi. O, bir tərəfdən, Almaniya və onun müttəfiqlərindən Brest müqaviləsinin (1918-ci il mart) şərtlərinə əməl olunmasını və Qafqaz İslam Ordusunun Bakıya hücumunun dayandırılmasını tələb edir, digər tərəfdən isə Almaniyaya müəyyən iqtisadi güzəştlər

etməyə, o cümlədən Bakıdan aldığı neftin bir hissəsini ona verməyə razı olduğunu bildirirdi.

Bu mülahizələri müsbət qarşılayıb nəzərə alan Almaniya hökuməti sovet Rusiyası ilə "Bakı məsələsi" barədə danışıqlardan imtina etmirdi. Danışıqlar hələ 1918-ci ilin iyun ayında başlanmışdı. Almaniya hökuməti sovet səfirinin nəzərinə çatdırmışdı ki, onların yalnız müəyyən həcmdə Bakı nefti alacaqlarına təminat verildiyi halda, Türkiyə Bakıya hücumunu dayandırmağa məcbur ediləcək.

1918-ci ilin iyulun 7-də V.İ.Lenin Saritsında olan (indiki Volqoqrad) İ.V.Stalinə göndərdiyi teleqramda yazırdı ki, almanlara neftin bir hissəsini alacaqlarına təminat verildiyi halda, Osmanlı qoşunlarının Bakıya hücumunu dayandırmalarına razı olduqları barədə Almaniya hökumətinin Berlindəki rus səfirinə etdiyi təklifindən Şaumyanı xəbərdar etsin.

Stalin Şaumyana göndərdiyi məktubunda "Cənubi Qafqaz məsələsində bizim ümumi siyasətimiz ondan ibarətdir ki, biz almanları gürcü, erməni və Azərbaycan məsələlərinin Rusiyanın daxili işi olduqlarını rəsmən tanımağa məcbur etməliyik, almanlar Bakının RSFSR-də qalması ilə razılaşaraq, onlara müəyyən qədər neft ayrılmasını istəyirlər və bu xahişi yerinə yetirmək olar.

Beləliklə, Almaniya və RSFSR Bakının taleyini həll etmək fikrində idilər.Yaranmış vəziyyətdə Azərbaycan hökumətinin Bakı üzərində qanuni hüquqlarının təsdiq edilməsi olduqca çətin görünürdü.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məqsədilə M.Ə.Rəsulzadə Türkiyə hökumətinin rəhbərləri Ənvər Paşa (Hərbi nazir), Tələt Paşa (Baş nazir) ilə, həmçinin Almaniyanın səfiri ilə xüsusi görüşlər keçirirdi.

Azərbaycan Cümhuriyyətinin qərb sərhədləri haqqında məsələ İstanbul konfransında xüsusi müzakirə mövzusu olmuşdu. Müzakirə üçün əsas M.H.Hacınskinin göndərdiyi xəritə idi. Azərbaycanın şərq hissəsi respublikadan müvəqqəti təcrid vəziyyətində olduğu üçün hökumət ciddi maliyyə çətinliyi çəkirdi.

Cümhuriyyət hakimiyyətinin ölkənin bütün ərazisində bərqərar edilməsi. 1918-ci ilin yazı və yayında Azərbaycanın müxtəlif yerlərində, o cümlədən şimal-şərq regionunda - Quba və Xaçmaz bölgələrində azərbaycanlıların könüllü dəstələri və Bakı XKS-nin qoşunları arasında hərbi əməliyyatlar gedirdi. Könüllü azərbaycanlı dəstələri Bakı-Petrovsk (Mahaçqala) dəmir yol xətti boyunca fəaliyyət göstərirdi.

Əsasən erməni qulduru Hamazaspın başçılıq etdiyi daşnaklardan ibarət sovet qoşunları yerli əhaliyə amansız divan tutur,Quba-Xaçmaz bölgəsində dəhşətli vəhşiliklər törədirdi.

1918-ci il mayın 1-də Hamazaspın başçılıq etdiyi ermənilərdən ibarət cinayətkar dəstə Quba şəhərini mühasirə edib atəşə tutmağa başladı. Bu hadisələr zamanı onlar 122 kəndi viran etmişdi. Lakin cəbhənin ən mühüm hissəsi Kürdəmir istiqamətində idi. Bakı XKS-nin əsas qüvvələrinin Gəncə istiqamətində hücumu məhz buradan keçirdi.

Azərbaycan hökumətinin hərbi qüvvələri sovet qoşunlarının hücumlarını dayandırmaq üçün kifayət qədər deyildi. Belə şəraitdə kənardan hərbi kömək tələb olunurdu. M.Ə.Rəsulzadə yazırdı ki, o zaman yaranmış şəraitdə yalnız Türkiyəyə ümid qalırdı.

Azərbaycan hökuməti dərk edirdi ki, Azərbaycanın öz qüvvəsi ilə hüquqi dövlət qurması, ölkədə qayda-qanun yaratması mümkün deyil. Nuru Paşa Müsəlman Korpusunun vəziyyəti ilə tanışlıqdan sonra Osmanlı qoşunlarının Baş komandanlığına göndərdiyi məktubunda bildirmişdi ki, osmanlı qoşun hissələri Azərbaycana gəlməsə, burada genişlənən bolşevik təcavüzünün qarşısını almaq mümkün olmayacaq. Bu qoşun hissələrinin Azərbaycana göndərilməsi hüquqi cəhətdən məhz iyunun 4-də imzalanan həmin müqavilədə öz əksini tapdı.

Müqaviləni Azərbaycan tərəfindən Milli Şuranın sədri M.Ə.Rəsulzadə və Xarici işlər naziri M.H.Hacınski, Türkiyə tərəfindən isə xarici işlər naziri Xəlil bəy və Qafqaz cəbhəsinin Baş komandanı Vahib Paşa imzaladılar.

Batum konfransı son nəticə etibarilə Tiflis quberniyasının Axalkələk və Axalsıx qəzalarını, Batum və Qars vilayətlərini, İrəvan quberniyasının 1 milyon 250 min nəfərlik əhalisinin böyük əksəriyyəti yerli müsəlmanlar olan Sürməli qəzasını özünə birləşdirən Türkiyənin xeyrinə başa çatdı. Batum müqaviləsinə əsasən, Türkiyə ordusunun 5-ci və 15-ci diviziyası Azərbaycan Cümhuriyyətinə köməyə göndərildi. Əvvəlcə, Türkiyə ordusunda ən yaxşı diviziyalardan sayılan 5-ci diviziya gəldi. Birinci Dünya müharibəsi zamanı Dardaneli müdafiə etdiyinə görə o, "Çanaqqala diviziyası" adını almışdı. Onun ardınca gəlmiş 15-ci diviziya da çox təcrübəli və ən döyüşkən hərbi hissələrdən ibarət idi, 1914-1915-ci illərdə Süveyş cəbhəsindəki döyüşlərdə fəal iştirak etmişdi.

Köməyə gələn Türkiyə qoşunları Gəncə quberniyasına iyunda daxil oldu. Başda Nuru Paşa olmaqla Qafqaz İslam ordusunun qərargahı Gəncə şəhərində yerləşdirildi. Bu ordu 1918-ci il mart-avqust aylarında türk və Azərbaycan hərbçilərindən təşkil olunmuşdur. Aparıcı qüvvə türk hərbçiləri idi.

Azərbaycan əhalisi müttəfiq Türkiyə qoşunlarının gəlişini bayram edirdi. Türk qoşununun Gəncədə olması, Gürcüstan hökümətinin Azərbaycan Milli Şurası və hökümətindən öz ərazisinə köçürülməsini tələb etməsi nəticəsində Milli Şura və hökumət 1918-ci il iyunun 16-da Gəncəyə köçdü. Lakin burada fəaliyyət göstərmək o qədər də sakit və maneəsiz olmadı. Çünki Azərbaycanın hər yerindən Gəncəyə axışan burjua-mülkədar və klerikal dairələrdən olan nümayəndələrin məhdud dünyagörüşlü mürtəce hissəsi Milli Şura və hökumətin demokratik, inqilabi əhvali-ruhiyyəli şəxslərdən təşkil olunmasını istəmirdi. Azərbaycanın Türkiyəyə ilhaq edilməsinin tərəfdarı olan bu dairələr Milli Şuraya qarşı fəal kampaniya aparırdı. Gəncədə yerləşən Qafqaz İslam ordusunun komandanlığı ilə milli hökumət üzvləri arasındakı münasibətlər də çox gərgin idi. General Nuru Paşanın müstəqil dövlətin daxili işlərinə qarışaraq, F.X.Xoyskinin başçılıq etdiyi kabinetə etimadsızlıq göstərməsi siyasi böhranla nəticələndi. Milli Şuranın üzvlərindən ibarət nümayəndə heyətinin Nuru Paşa ilə görüşmək cəhdləri uğursuz oldu. Onlar yalnız Nuru

Paşanın müşaviri Əhməd bəy Ağayevlə görüşə bildilər. Həmin görüşdə Ə.Ağayev Milli Şuranın buraxılmasında və Nuru Paşa tərəfindən yeni hökumət kabinetinin təşkil olunmasında israr edib, əks təqdirdə türklərin hökuməti dəstəkləməyəcəklərini bildirdi.

Osmanlı qoşunları komandanlığının hərəkətləri Milli Şuranın radikal cinahının üzvləri N.Yusifbəyli, M.Y.Cəfərov və D. Vəkilovun etirazlarına səbəb oldu. Bu məsələdə onları sosialistlər dəstəklədi. İttihadçılar isə Türkiyəpərəst mövqe tutdular.

Milli Şuranın buraxılması ərəfəsində "Hümmət" fraksiyası etiraz əlaməti olaraq onun tərkibindən çıxdığını elan etdi.

Beləliklə, yaranmış siyasi böhrandan çıxmaq məqsədilə iyunun 17-də Milli Şura iki qətnamə qəbul etdi.1-ci qətnamədə göstərilirdi ki,Müvəqqəti hökümət altı ay müddətindən gec olmayaraq Müəssislər Məclisi çağırmağa borcludur,qalan məsələlərin həllində isə tam hüquqa malikdir.2-ci qətnaməyə görə isə Milli Şura öz fəaliyyətini dayandıraraq bütün hakimiyyəti F.X.Xoyskinin başçılıq etdiyi yeni hökümətə verir və ona tapşırır ki,yaxın vaxtlarda çağrılacaq Müəssislər Məclisindən başqa hakimiyyəti heç kimə güzəştə getməsin.

İyun böhranı nəticəsində fəaliyyətini müvəqqəti olaraq dayandıran Milli Şura öz tarixi missiyasını - Azərbaycanın Dövlət müstəqilliyini qoruyub saxlamaq vəzifəsini yerinə yetirdi.

1918-ci il iyunun 17-də Milli Şuranın qalan üzvlərinin iştirakı ilə "Müsavat" fraksiyası, bitərəflər və ittihadçılardan ibarət yeni kabinetin tərkibi təsdiq edildi. II Hökümət Kabinetinin tərkibinə aşağıdakılar daxil oldu: F.X.Xoyski - Nazirlər Şurasının sədri və ədliyyə naziri; M.H.Hacınski - xarici işlər naziri və s.

Yeni təşkil edilən hökumət kabinetində hərbi nazir vəzifəsi yox idi. Heç şübhəsiz ki, buna siyasi şərait öz təsirini göstərdi. Bu mərhələdə qarşıda duran ən mühüm vəzifə əvvəlcə Bakını bolşevik-daşnak işğalından xilas etmək və sonra gənc müstəqil dövlətin ərazi bütövlüyünün bərpasına nail olmaq, müdafiəsini təşkil etmək idi. Buna görə də Qafqaz İslam Ordusunun Komandanı Nuru Paşa öz qoşunlarına müraciətində: "Bizim məqsədimiz - Bakıdır" - demiş və

onun düşmən qüvvələrindən təmizlənməsini ən vacib məqsəd seçildiyini vurğulamışdı. Çünki Azərbaycanı Bakısız təsəvvür etmək mümkün deyildi.

Bakı XKS-nin rəhbərliyi, sovet Rusiyasının hərbi yardımına arxalanaraq, bütün mövcud qüvvələrini səfərbərliyə alıb Gəncəyə hücuma keçməyi qərarlaşdırdı.

Azərbaycan-Türkiyə birləşmiş qoşunları ilə XKS-nin qoşunları arasında ilk döyüş iyunun 16-18-də Göyçayın Qaraməryəm kəndi yaxınlığında baş verdi.İyunun 19-da xüsusi qatarla cəbhəyə gələn Nuru Paşa elə həmin gün 5-ci diviziyanın sovet qoşunları hücumunu xeyli itki bahasına dayandırdığı haqqında məlumat verdi. Lakin sonrakı günlərdə Bakı XKS-nin qoşunları yenidən Göyçaya tərəf irəliləyə bilmişdi.

Qafqaz İslam Ordusu komandanlığının cəbhəyə göndərdiyi yeni qüvvələr iyunun 19-da döyüş zonasına gəldi. Yeni qüvvələr arasında Azərbaycan xalqının övladlarından təşkil olunmuş bölmələr və könüllü dəstələr də var idi. Təkcə iyunun 19-da 600 nəfərdən ibarət Azərbaycan dəstəsi, onlardan sonra Dəllər və Zəyəmdən olan könüllülər cəbhəyə gəldi.

5-ci Türk diviziyasının komandiri Mürsəl bəy bu barədə öz mülahizələrini Nuru Paşaya bildirdi ki, birbaşa cəbhəyə yollanmaq üçün ona əlavə olaraq 5100 nəfər əsgər verilsin. Göyçay və Bərdədən olan dəstələri o, düşmən cinahlarına zərbə endirməyi, Şəkidən olan hissələri isə 5-ci diviziyanın cəbhə arxası təhlükəsizliyini təmin etmək üçün göndərməyi təklif edirdi. Nuru Paşa bu planı bəyəndi. Əsas zərbənin endirilməsi ilə eyni zamanda o, Şuşaya doğru irəliləməyi qərara aldı.

Döyüşlər əsasən Qaraməryəm-Ağsu şosse və Müsüslü-Kürdəmir dəmir yolları ətrafında gedirdi. İyunun 30-da sovet qoşun hissələri əvvəlki mövqelərinə - Qaraməryəmdən şərqə geri oturdulsa da, onlardan biri iyulun 1 -də yenidən Göyçaya soxuldu, lakin orada qala bilmədi. Türkiyə-Azərbaycan qoşun hissələri onu sıxışdırıb yenidən Göyçayı azad etdi. Sovet qoşun hissələri geri çəkilməyə məcbur oldu.

Qafqaz İslam Ordusunun Göyçay ətrafındakı döyüşlərdə qələbəsi Azərbaycanın şərq hissəsini,o cümlədən Bakını bolşevik-daşnak işğalından azad etmək uğrunda apardığı şərəfli müharibədə dönüş nöqtəsi oldu. İyulun 7-dən Kürdəmir uğrunda başlanan döyüşlər üç gün davam etdi. Bu döyüşlərin birində düşmən Moskvadan gəlmiş zirehli avtomobillər dəstəsini hücuma göndərdi, lakin Türkiyə artilleriyası onların bir neçəsini sıradan çıxardı. Türkiyə və Azərbaycan əsgərləri iyulun 10-da Kürdəmiri, iyulun 14-də isə Karrar stansiyasını aldılar.

İyulda Qafqaz İslam Ordusunun cəbhə xəttində fəaliyyət istiqaməti belə idi: sol cinahda (Şamaxı istiqamətində) və sağ cinahda (Salyan istiqamətində) Qafqaz İslam ordusu hərbi hissələri əməliyyatlar aparır, mərkəzdə (Kürdəmir istiqamətində) isə əsasən Azərbaycan qoşunları düşmənə hücum edirdi.

Kürdəmiri və Hacıqabulu azad edərkən döyüşlərdə Azərbaycan əsgərləri xeyli silah və döyüş sursatı anbarı ələ keçirdilər.

İyulun 7-dən başlayaraq Ağsu, Meysəri, Mədrəsə və Mərəzə kəndləri yaxınlığında ağır döyüşlərə girən Qafqaz İslam Ordusu hissələri iyulun 20-də Şamaxını azad etdi. Cəbhənin cənub istiqamətində vuruşan mayor Həmid bəyin dəstəsi iyulun 18-də Bankə balıq vətəgələrini tutdu.

Milli Şuranın qanunvericilik səlahiyyətini öz üzərinə götürmüş Azərbaycan hökuməti dövlət strukturlarını və atributlarını yaratmaqla məşğul idi.

Qafqaz İslam Ordusunun əks-hücumu Bakıdakı siyasi və iqtisadi böhranı daha da dərinləşdirdi. Bakı Xalq Komissarları Soveti vaxtilə ingilislərlə birlikdə Gilanda Kiçik xana qarşı vuruşmuş keçmiş çar ordusunun kazak zabiti, polkovnik Lazar Biçeraxovun xidmətlərindən istifadə etmək qərarına gəldi. Biçeraxov 1,5 min nəfərlik dəstənin başında iyulun 7-də Bakının müdafiə xəttinin sağ cinah komandanlığını öz üzərinə götürdü. Şəhərdə vəziyyətin ümidsiz olduğunu görən Biçeraxov iyulun sonunda öz dəstəsi ilə cəbhəni tərk etdi və Petrovsk istiqamətində şimala doğru irəlilədi.

1918-ci il iyulun 25-də Bakı Sovetinin iclası keçirildi və burada səsvermə ilə ingilis qoşunlarının Bakıya dəvət olunması haqqında qərar qəbul edildi. Bu qərara tabe olmaqdan imtina edən Bakı XKS iyulun 31-də Şaumyanın başçılığı ilə öz səlahiyyətlərindən imtina etməli oldu. Bakıda bolşeviklərin iflasından sonra hakimiyyət sağ eser-menşevik-daşnak blokunun əlinə keçdi və həmin blok avqustun 1-də Sentrokaspi Diktaturası və Fəhlə, Əsgər Deputatlarının Müvəqqəti İcra Komitəsinin Rəyasət Heyəti adlanan hökumət təşkil etdi. Yeni hökumət Lenin rejiminə qarşı duran demokratik Rusiyaya düşmən münasibətində olmadığını göstərmək üçün özünün loyal mövqedə durduğunu bəyan etdi. Elə həmin gün Sentrokaspi Diktaturası öz nümayəndələrini ingilis komandanlığının İrandakı qərargahına göndərdi. Avqustun 4-də Britaniya hərbi yardımının ilk təmsilçiləri Bakıya gəldi. İngilislər yerli xırda burjua partiyaları ilə sıx bağlı idilər.

İngilislər avqustun 9-17-də Bakıya 3 batalyon, bir səhra artilleriyası və bir neçə zirehli maşından ibarət qüvvə çıxardılar. Bu qüvvələr gözlənildiyindən çox az, hətta bolşeviklərin Bakıdakı Qızıl ordu hissələrindən də zəif idi. Bakı XKS-nin iflası, beynəlxalq vəziyyətin mürəkkəbliyi, sovet Rusiyasının özünün ağır vəziyyətdə olması eserlərə imkan verdi ki, Bakıda hakimiyyəti çox qısa müddətə ələ keçirə bilsin. Lakin onların hakimiyyətə gəlməsi demokratik qüvvələrin hakimiyyətə gəlməsi demək deyildi. Bakıda yeni rejimin yaradılmasına sağ sosialist partiyalarının hakimiyyət uğrunda mübarizəsinin nəticəsi kimi baxmaq olar.

Sentrokaspi Diktaturası (Xəzər Hərbi Dəniz Mərkəzi) ilə ingilis qoşunları komandanlığı arasındakı münasibətlər inamsızlıq əsasında qurulmuşdu. Bakıda hakimiyyəti ələ keçirən yeni qüvvələr ingilislərdən narazılıq edir, ingilislər isə hər şeyi ordudakıların üzərinə atırdı. Şəhəri xilas etməyin mümkün olmadığını görən Denstervil artıq sentyabrın 1-də onu tərk etməyə hazırlaşırdı.

Türkiyə qoşunları avqustun 26-dan sonra xeyli fəallaşdı. Bakı şəhərinə həlledici hücum sentyabrın 15-də səhər başlandı. Həmin günün sonunda Denstervilin dəstəsini göyərtəsinə almış, gəmilər

buxtanı tərk edirdi. Onların arxasınca Sentrokaspi Diktaturasının üzvləri və ermənilər də qaçırdı.Üç gün şəhərdə milli qüvvələrə hərəkət sərbəstliyi verildi.

Mart faciəsini yaşamış azərbaycanlılarda qisas almaq arzusu çox qüvvətli idi. Lakin sentyabrın 17-də Bakıya daxil olmuş Azərbaycan hökuməti kütləvi qırğın törədilməsinin qarşısını aldı.

Bakıya daxil olandan sonra yayılmış hökumət məlumatında bildirilirdi ki, Cümhuriyyət paytaxtına daxil olmuş Azərbaycan hökuməti şəhər və onun ətrafının əhalisini milliyyəti və dinindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün vətəndaşların həyatı, əmlakı və hüquqlarını eyni dərəcədə qoruyacaq. F.X.Xoyskinin imzaladığı bu bəyanat şəhərdə qayda-qanunun bərpa edilməsində mühüm addım oldu.

Sentyabrın 18-də türk qoşunları Bakıya daxil oldu, azərbaycanlı əhali onları xilaskar kimi qarşıladı. Osmanlı qoşunlarının komandanlığı bildirdi ki, onlar Bakının azad edilməsində Azərbaycan hökumətinin iradəsinə uyğun olaraq iştirak edib.

1918-ci il mayın 28-dən sonrakı dövrdə Azərbaycanın həyatında ikinci mühüm hadisə baş verdi: Bakı azad edildi və Azərbaycan hökuməti tam heyətdə əsil paytaxtda qərarlaşdı.

Bakıya köçdükdən sonra Azərbaycan hökuməti Bakı XKS-nin bütün tədbirlərinin ləğv olunduğunu elan etdi və özü sosial islahatlar keçirməyə başladı.

Real hərbi qüvvəyə malik olan Nuru Paşa ölkədə baş verən bütün hadisələri öz nəzarəti altında saxlayırdı. Müxtəlif yaşayış məntəqələrində yerləşən türk qarnizonlarının rəisləri bir çox hallarda Azərbaycan məmurları ilə hesablaşmır və öz bildikləri kimi hərəkət edirdilər.

Birinci Dünya müharibəsi illərində Türkiyənin iqtisadiyyatı ağır vəziyyətdə idi. Onun neft və neft məhsullarına böyük ehtiyacı olduğu üçün Türkiyə hökuməti Bakı neft mədənlərinə çox maraq göstərirdi. Bakı azad edildikdən sonra buradakı Türkiyə qoşunları komandanlığının ilk sərəncamlarından biri onun bütün mədən işçilərinin dərhal işə çıxması haqqında əmri oldu.

Azərbaycan 1918-ci il sentyabrın 16-da Azərbaycan və Türkiyə hökumətləri arasında bağlanmış müqaviləyə əsasən, Türkiyə hökuməti adından fəaliyyət göstərən Kelcas Yolları şirkəti idarəsinə 2 milyon türk lirəsi həcmində müxtəlif mallar, o cümlədən ərzaq malları, Osmanlı Dəmir Yolları və Hərbi Limanlar İdarəsi ilə imzalanmış xüsusi müqavilənin şərtlərinə görə isə 1 milyon türk lirəsi məbləğində neft, pambıq, yun və s.məhsullar verməli idi.

Neft məhsullarının daşınması üçün Bakı-Batum ağ neft kəmərinin təmiri üçün tədbirlər görülürdü. Azərbaycandan neft gətirilməsi Türkiyə iqtisadiyyatının vəziyyətini bir qədər yüngülləşdirməyə kömək etdi. Bakıdan yetərincə neft və ağ neft gətirilməsi nəticəsində İstanbulda onların qiyməti 10 dəfə azaldı.Türkiyə Azərbaycandan neftlə yanaşı pambıq və ipək də alırdı.

Azərbaycanda siyasi vəziyyət getdikcə kəskinləşir və bu, beynəlxalq şəraitin dəyişməsi ilə əlaqədar idi. Almaniya və Türkiyənin Birinci Dünya müharibəsindəki məğlubiyyətləri Azərbaycan üçün əlavə çətinliklər doğurdu. 1918-ci il oktyabrın 30-da Türkiyə Antanta ilə Mudros limanında barışıq müqaviləsi imzaladı. Həmin müqavilənin 2-ci maddəsinə əsasən Türkiyə öz qoşunlarını Cənubi Qafqazdan çıxarmalı, 14-cü maddəsinə görə isə Antantanın hərbi qüvvələri Bakı və Batuma daxil olmalı, bu ərazinin bütün dəmir yol xətləri, o cümlədən Azərbaycan dəmir yol şəbəkəsi onların nəzarətinə verilməli idi. Antanta ilə bağlanan sülhün şərtlərinə görə, Almaniya öz qoşunlarını Gürcüstandan çıxarmalı idi.

Noyabrın 10-da Azərbaycan hökuməti Nuru Paşa ilə vidalaşma mərasimi təşkil edib, onun şərəfinə təntənəli ziyafət verdi.

Böyük Britaniya qoşunlarının Azərbaycana müdaxiləsi. Mudros müqaviləsinin şərtlərinə görə Azərbaycan ərazisi ingilis qoşunlarının işğal zonasına daxil edilmişdi. İngilis komandanlığının buradakı AXC-nin müstəqilliyi ideyasına necə yanaşacağı isə aydın deyildi. Müstəqil dövlət taleyi üçün ciddi narahat olan Azərbaycanın siyasi liderləri bir sıra diplomatik tədbirlər həyata keçirdilər.

Ə.M.Topçubaşov hələ oktyabrın 31-də Baş nazir F.X.Xoyskiyə İstanbuldan yazdığı məktubda Rəşt və Ənzəlidə olan ingilislərlə

təcili surətdə danışıqlar aparılmasını məsləhət görürdü. Buna görə də 1918-ci il noyabrında N.Yusifbəyli, Ə.Ağayev və M.Rəfiyevdən ibarət nümayəndə heyəti Böyük Britaniyanın Şimali İran ordusunun komandanlığı ilə görüşmək üçün Ənzəliyə yola düşdü.

İngilis komandanlığı danışıqların əvvəlində Azərbaycan hökuməti ilə hesablaşmadı. Buna görə də ingilis ordusunun komandanı general Tomsona Azərbaycan Respublikasının hüdudlarına daxil olmazdan əvvəl onun müstəqilliyini tanımaq təklif olunanda o, "Azərbaycan Xalq Cümhuriyyəti adı altında bizə yalnız xalq kütlələri içərisində heç bir dayağı olmayan türklərin intriqaları ilə yaradılmış hökumət məlumdur"- deyə bəhanə tapıb təklifi qəbul etməkdən yayındı.

Danışıqların sonunda Tomson elan etdi ki, noyabrın 17-də səhər saat 10-dək Bakı həm Türkiyə, həm də Azərbaycan qoşunlarından təmizlənməlidir. Bəyanatda Bakı və onun neft mədənlərinin ingilislərin nəzarətinə keçməsi, ölkənin qalan hissəsinin Azərbaycan hökuməti və ordusunun nəzarətində qalması nəzərdə tutulur, eyni zamanda deyilirdi ki, Azərbaycan rəsmi surətdə tanınmır, lakin İngiltərə, Fransa və ABŞ nümayəndələri Azərbaycan hökuməti ilə de-fakto əlaqə yaradacaqlar, V.M.Tomson Bakının general-qubernatoru olacaq, Şəhər polisinə ingilis zabiti rəhbərlik edəcək, L.Biçeraxov və onun dəstələri Britaniya ordusu ilə birlikdə Bakıya daxil olacaq və nəhayət, silahlı ermənilər Şəhərə buraxılmayacaqlar.

Azərbaycan nümayəndələri ingilis hərbi komandanlığının bu planları haqqında Bakıya Nazirlər Şurasının sədrinə teleqrafla məlumat verdilər.

F.X.Xoyski 1918-ci il noyabrın 16-da V.M.Tomsona məktubla müraciət edərək, ingilis qoşunlarının Bakıya girməsinin Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyünə xələl gətirməyəcəyinə ümidvar olduğunu bildirdi. General Tomsonun başçılığı ilə hindli əsgərlərdən ibarət İngiltərə qoşunları noyabrın 17-də Bakıya daxil oldu. Bakıdakı ingilis qoşunlarının canlı qüvvəsi təxminən 1.000 nəfər əsgərdən ibarət idi.

Elə həmin gün Bakıya daxil olan L.Biçeraxov ordusunu şəhərin xristian əhalisi böyük rəğbətlə qarşıladı. Əksəriyyətini ermənilər

təşkil edən bu ordu Bakıya daxil olan kimi Azərbaycanın Dövlət rəmzlərini təhqir edir, milli hökumətin tezliklə dağılacağı barədə şayiələr yayırdılar. Bakıdakı rus və erməni milli Şuraları L.Biçeraxovun gəlişi ilə belə bir qərar çıxardılar ki, guya "heç bir Azərbaycan yoxdur, yalnız Rusiya vardır. Azərbaycan hakimiyyəti devrilməli və o, Biçeraxovun başçılıq etdiyi Xəzəryanı hökumətlə əvəz edilməlidir".

Qoşunlar Bakıya daxil olan zaman çox xoşagəlməz bir hadisə baş vermiş, general Tomson limanda Azərbaycan Cümhuriyyəti bayrağının İngiltərə, ABŞ, Fransa, İtaliya bayraqları ilə yanaşı asıldığını görərək, onu dərhal götürmək əmrini vermişdi.

Noyabrın 17-də axşam rus Milli Şurası üzvləri general Tomson tərəfindən qəbul edildi. Görüş zamanı rus Milli Şurasının üzvləri özlərini Azərbaycanın sahibi kimi apardılar. Onlar Tomsonun yaradılacaq koalision hökumətə daxil olmaq haqqında təklifini həm öz adlarından, həm də erməni Milli Şurasının adından rədd etdilər. Onların fikrincə, xristianların Azərbaycan hökumətinə daxil olması onun müttəfiqlər tərəfindən tanınmasını asanlaşdıra bilərdi. Bu adamlar Azərbaycanın Rusiya müstəmləkəçiliyindən azad olub öz milli müqəddəratını təyin etməsi əleyhinə idilər. Görüş zamanı Tomson onlara xatırlatmağa məcbur oldu ki, hazırkı vəziyyətdə Rusiya, sadəcə olaraq mövcud deyildir.

Bakıya daxil olan müttəfiq qoşunları öz əlində yalnız hərbi hakimiyyəti cəmləşdirir, əldə olunmuş razılığa əsasən, ölkənin və onun paytaxtının daxili işlərinə müdaxilə edilməməlidir, bütün hökumət idarələri əvvəlki qaydada fəaliyyət göstərməlidir, son nəticədə Rusiya xalqlarının öz müqəddəratını müəyyən etməsi məsələsi beynəlxalq sülh konfransında həll edilməlidir.

Lakin ingilis hərbi komandanlığı Bakıda yerləşdiyi vaxtdan ölkənin ictimai-siyasi və iqtisadi həyatına müdaxilə etməyə başladı. İngilis komandanlığı Bakıda hərbi vəziyyət elan etməklə, əslində Şəhərdə inzibati hakimiyyəti ələ keçirdi.Sonra onlar Şəhərin iqtisadi həyatına öz təsirlərini gücləndirməyə başladılar.

Mudros sülhünün şərtlərinə görə, ingilislər Batumu da tutdular və Cənubi Qafqaz dəmir yolunu öz nəzarəti altına götürdülər. Beləliklə, Qara dənizdən Xəzər dənizinə qədər mühüm strateji əməliyyat meydanı onların əlinə keçdi.

Neft sənayesini də nəzarətdə saxlamağa çalışan ingilislər "Britaniya Neft İdarəsi"ni təsis etdilər. Onların sərəncamı ilə Bakıdan daşınıb aparılan bütün neft məhsullarına heç bir aksiz rüsumları qoyulmur və bütün yüklər yubandırılmadan buraxılırdı. Tomson Azərbaycan Cümhuriyyəti dəmir yolu işçilərinə ingilis zabitlərinin yükünü və qatarda gedən zaman sənədlərini yoxlamağı qadağan etmişdi. Bütün bunlar milli hökumətin vəziyyətini daha da çətinləşdirirdi.

Lakin tezliklə aydın oldu ki, Tomsonun həyata keçirdiyi tədbirlər müvəqqətidir. Bakıda mövqeyini möhkəmləndirib vəziyyəti nəzarətə alan general-qubernator Tomson ölkədəki reallıqlarla yaxından tanışlıqdan sonra bildirdi ki, F.X.Xoyskinin hökuməti ölkədə fəaliyyət göstərən yeganə mülki hakimiyyət olaraq qalır.

Beləliklə, general Tomsonun Azərbaycan hökumətini təqdir edən mövqeyi düşmən qüvvələrin "vahid və bölünməz Rusiya"nın bərpa olunmasına bəslədiyi ümidi puça çıxartdı, dövlət müstəqilliyini təhdid edən təhlükəli vəziyyət aradan qaldırıldı. Eyni zamanda Azərbaycanın demokrat liderlərinin uzaqgörən siyasəti sayəsində de-fakto real hakim qüvvə kimi tanına bildilər.

Cümhuriyyət bayrağı və gerbi haqqında. Məlumdur ki, Cümhuriyyətin Konstitusiyası qəbul olunmamışdır.Hökümət Gəncədə olduğu zaman 1918-ci il iyunun 21-də (bəzi məlumata görə 24 və ya 27-də) Osmanlı Türkiyəsinin bayrağından cüzi fərqlənən,üzərində ağ rəngli aypara və səkkizgüşəli ulduz təsvirləri olan qırmızı rəngli Dövlət bayrağı haqqında qərar qəbul etmişdir.Bayrağın qırmızı rəngi Qərb demokratiyasına, Avropa hürriyyətinə etimad əlamətini bildirirdi.

Məlum olduğu kimi, "Aypara" vaxtilə Bizans imperiyasının rəmzi olmuşdur.Güman edildiyinə görə, 1453-cü il mayın 29-da qədimdə yunanların Vizanti adlanan koloniyası yerində salınmış

Konstantinopol (indiki İstanbul) şəhəri Osmanlı sultanı II Mehmed Fateh tərəfindən fəth edildikdən sonra aypara simvolu tədricən Osmanlıların rəmzinə çevrilir. Eyni proses sultan I Səlim Yavuz (1512-1520) tərəfindən XVI əsrdə Suriya, Fələstin və Misirin fəthi və onun xəlifə elan edilməsi ilə bağlı olaraq baş vermişdir.Osmanlı türkləri bütün dünyada İslamın təmsilçisinə çevrilmiş və İstanbul xəlifənin oturduğu şəhər olduğundan aypara da bütün müsəlman aləmində tədricən qəbul olunmuş və həmrəylik, hürriyyət, yardım rəmzinə çevrilmişdir.

Səkkizgüşəli ulduzun mənaları haqqında müxtəlif rəylər mövcuddur. Bayrağın təsdiq edildiyi gün Baş nazir F.Xoyski çıxış edərək bildirmişdir ki,ulduzun güşələrinin sayı dövlətin əski əlifba ilə yazılmış adında oxunan hərflərin sayına bərabərdir.

Maraqlıdır ki,vaxtilə ərəblər Azərbaycan sözünü öz qrafikaları ilə "Azərbeycan","Əzərbeycan" kimi yazırdılar.İstər göstərilən bu iki halda,istərsə də ölkənin adı ərəb qrafikası ilə "Od yurdu" kimi yazıldıqda hərflərin sayı səkkizə, yəni ulduzun güşələrinin sayına bərabər olur.

Ulduzun güşələrinin sayını cənnətin səkkiz qapısı olması,qədim türklərdə olmuş səkkizgüşəli yurtlarla (alaçıqlarla) əlaqələri də az deyil.

Noyabrın 9-da bu bayraq səthində ağ aypara və səkkizguşəli ulduz təsvir olunan, bərabər endə mavi, qırmızı və yaşıl zolaqlar rəngində bayraqla əvəz edildi. Cümhuriyyətin Dövlət bayrağının bu üç rəngi rəmzi olaraq "Türk milli mədəniyyətini, müasir Avropa demokratiyasını və islam sivilizasiyasını təmsil edirdi".

Mudros müqaviləsinə görə Azərbaycan üzərində səlahiyyət mandatı almış Böyük Britaniya komandanlığı AXC kökümətini tanımadıqlarını bildirmiş və bu höküməti Türkiyənin səyi ilə yaradılmış bir qurum kimi qiymətləndirmişlər. Bu bəhanələrin qarşısını almaq və milli hökümətin tanınmasına nail olmaq üçün Dövlət bayrağının dəyişdirilməsi qərara alındı. 1918-ci il noyabrın 9-da Nazirlər Kabinetinin iclasında Dövlət bayrağının dəyişdirilməsi haqqında aşağıdakı qərar qəbul edildi:

“Yaşıl, qırmızı və mavi rənglərdən,ağ aypara və səkkizgüşəli ulduzdan ibarət olan bayraq milli bayraq hesab edilsin. Bayraqdakı mavi rəng türkçülüyü, qırmızı müasirliyi, qərb demokratiyasını, yaşıl islam ideologiyasını ifadə edir. Bu barədə “Azərbaycan” (rusca) qəzetinin 1918-ci il 11 noyabr tarixli nömrəsində çap edilmişdir.

AXC-nin bayrağı Ziya Göyalpın “üçlü ideologiyası”nı-türkləşmək, müasirləşmək və islamlaşmaq ideologiyasını tam dolğunluğu ilə əks etdirmişdir.

1918-ci il dekabrın 7-də Parlamentin açılış mərasimində M.Ə.Rəsulzadə vurğulamışdır ki, “bir kərə yüksələn bayraq, bir daha enməz”. Azərbaycan qəzetinin baş redaktoru Ü.Hacıbəyli mavi rəngin ənginlik, böyüklük, türk azadlığını, ucalığını, yaşılın islam siviliziyasını və ondan bəhrələnməyi, qırmızının demokratiya və azadlıq uğrunda qaldırılan qırmızı bayraqlara işarə olduğunu göstərir.

Dövlət bayrağından fərqli olaraq AXC dövründə digər dövlət rəmzləri rəsmi qaydada qəbul olunmamış, yalnız onların qəbul edilməsi haqqında 1920-ci ilin yanvarın 30-da hökümət tərəfindən müsabiqə edilmişdir. Maarif Nazirliyinə tapşırılmışdır ki, milli himnin, gerbin və möhürün layihələri üçün pul mükafatı ayrılsın. Müsabiqə 1920-ci il mayın 1-də başa çatmalı idi (müsabiqəyə bir çox layihələr təqdim edilsə də, heç biri bəyənilməmişdir). Gerbin layihəsi o zaman Bakıda yaşayan gürcü rəssamı Knyaz Şeirşavidzeyə sifariş verilmiş və onun hazırladığı layihə bizə gəlib çatmışdır.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 1993-cü il 23 fevral tarixli qanunla gerb haqqında Əsasnamə qüvvəyə minmişdir. Qəbul olunmuş Azərbaycan Respublikasının gerbi AXC dövrünün 1920-ci ildə yaradılmış gerb layihəsinin təkrarıdır. Onun kompozisiyası ilk orijinalda olduğu kimi saxlanılmış, yalnız bəzi detallar-alovun “Allah” sözünün, palıd yarpaqları və sünbülləri rəssam R.Məmmədov tərəfindən təkmilləşdirilmişdir.

Azərbaycan Respublikasının Dövlət gerbi palıd budaqlaından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Dövlət bayrağının rəngləri fonunda (göy, qırmızı, yaşıl) səkkizgüşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. Ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı rəngdədir. Qalxanın və ulduzun sağanaqları, qalxanın düymələri və palıd qozaları qızılıdır.

Gerbin ortasındakı qırmızı rəngli məşəl-alov şöləsi sadə ərəb əlifbası ilə yazılmış Allah sözündən ibarətdir, ancaq bəziləri yalnış olaraq bunu alov-məşəl kimi qəbul edirlər.

Musiqisi Üzeyir Hacıbəyov, sözləri Əhməd Cavada (bu bir qədər mübahisəlidir) məxsus olan "Azərbaycan marşı"nı Milli Məclis 1992-ci il 27 mayda Azərbaycan Respublikasının Dövlət himni kimi təsdiq etmişdir. Himn haqqında əsasnamə 1993-cü il 2 martda Prezidentin təsdiqindən sonra qüvvəyə minmişdir. Prezident Heydər Əliyev demişdir ki, 1919-cu ildə "istiqlal marşı"nı Azərbaycan Respublikasının Dövlər Himnini böyük Ü.Hacıbəyov yaratmışdır.

Cəmiyyətdə demokratik dəyişikliklərin başlanması. Sosial-siyasi vəziyyət. Birinci Dünya müharibəsi qurtardıqdan sonra beynəlxalq münasibətlərdə yeni sistem yaratmalı olacaq sülh konfransının vaxtı yaxınlaşırdı. Bu vəziyyət tələb edirdi ki, Azərbaycanın bu konfransda onu təmsil edə biləcək hansısa bir siyasi orqanı olsun. Müəssislər Məclisinə seçkilər üzrə komissiya müvəqqəti parlament yaratmağı təklif etdi. Noyabrın 5-də komissiya ilk iclasında, "təcili olaraq sadələşdirilmiş şəkildə müvəqqəti Azərbaycan parlamenti çağırılması" qənaətinə gəldi.

Lakin əsas çətinlik bu parlamenti necə formalaşdırmaqda idi. Mürəkkəb siyasi şəraitdə ümumxalq seçkiləri keçirməyin mümkün olmaması göstərirdi ki, kontasiya (təyin etmə) yolu ilə təşkil edilmiş parlamenti dünya ictimaiyyəti ümumxalq mənafeyini təmsil edən qurum kimi tanımayacaq.Ona görə də yeganə çıxış yolu Milli Şuranı əvvəlki tərkibdə bərpa etmək ola bilərdi.

Bu yolu seçən hökumət 1918-ci il 9 noyabr tarixli qərarı ilə Milli Şuranın çağırılmasını noyabrın 16-a təyin etdi. Beş aylıq fasilədən

sonra noyabrın 16-da yığışan Milli Şura hazırkı fövqəladə şəraitdə Müəssislər Məclisinin çağırılmasının qeyri-mümkünlüyü ilə əlaqədar özünü parlamentə çevirməyi qərara aldı. Azərbaycan parlamentinin yaradılması haqqında qanun Milli Şura tərəfindən 1918-ci il noyabrın 20-də qəbul edildi.

Qanuna görə, birpalatalı parlamentə seçkilər gizli keçrilməli idi. İngilislərin demokratiya ilə bağlı məsələlərə həssas münasibətini nəzərə alaraq, seçkilərin milli təmsilçilik prinsipi əsasında keçrilməsi məqsədəuyğun sayıldı və bununla da respublikada millətlərarası sülhün tam bərqərar edilməsi üçün real şərait yaradıldı.

1918-ci il noyabrın 29-da M. Ə. Rəsulzadənin imzası ilə Milli Şuranın "Bütün Azərbaycan əhalisinə" müraciəti dərc olundu. Sənəddə Milli Şuranın parlamentə çevrilməsi niyyəti açıqlandı. Lakin parlamentə münasibət heç də birmənalı olmadı.

Azərbaycan Milli Şurası noyabrın 25-də erməni və rus Milli Şuralarına öz nümayəndələrini parlamentə göndərmək təklifi ilə müraciət etdi, hər iki şuradan əvvəlcədən mənfi cavab alındı. Ermənilər siyasi və milli-mədəni talelərindən gileylənərək, öz şuralarının bütövlükdə ermənilərin mənafeyini təmsil etmək hüququ olmadığını bildirdilər. Cənubi Qafqaz respublikalarının öz müstəqilliklərini elan etmələrinə baxmayaraq, Rus Milli Şurası Ümumrusiya Müəssislər Məclisinin qərarınadək bütün Cənubi Qafqazı Rusiya dövlətinin bir hissəsi saydığı üçün "Rusiyanın iradəsini bilmədən bizim nə Cümhuriyyəti, nə də onun parlamentini tanımağa haqqımız var" - cavabını verdi. Lakin Azərbaycan hökuməti bəyan etdi ki, hətta milli azlıqlardan heç biri də parlamentdə iştirak etmək istəməsə, yenə də o, parlamenti yaradacaq, çünki ölkənin taleyinə görə məsuliyyət çoxluğun üzərinə düşür.

Parlamentin əsas özəyini keçmiş Milli Şuranın 44 üzvü təşkil edirdi. Daha 36 müsəlman deputat isə keçmiş milli komitələrin xətti ilə şəhər və qəzalardan seçilmişdi. Nəzərdə tutulan 120 deputatdan 80 nəfəri müsəlman əhalini, 21 nəfəri erməni, 10 nəfəri rus milli

azlıqlarını, 4 nəfər də alman, yəhudi, gürcü və polyak azlıqlarını təmsil etməli idi. Həmkarlar təşkilatlarına 3 yer, Neft Sənayeçiləri Şurası və Ticarət-Sənaye İttifaqına 2 yer ayrılmışdı. Qanunda ərazi proporsiyası, yəni bölgələr üzrə seçiləcək deputatların da sayı müəyyənləşdirilmişdi

Rus partiyalarının əksəriyyəti - kadetlər, menşeviklər "vahid və bölünməz Rusiya" ideyasını müdafiə edir, yeni yaranmış dövləti tanımaqdan və yerli hökumətdə iştirakdan imtina etməyə çağırırdılar. Azərbaycanın milli partiyaları - "Müsavat", "İttihad", "Hümmət" və Müsəlman Sosialist Bloku isə Rusiya ilə yenidən birləşmək ideyası əleyhinə çıxış edirdilər. Bolşeviklər fəal boykot taktikasına keçmişdilər.

Azərbaycan parlamentinin açılışı dekabrın 3-də nəzərdə tutulmuşdu. Parlamentin açılmasının ləngiməsi ingilis komandanlığının Azərbaycan hökumətinə etdiyi təzyiqlərlə bağlı idi. Britaniya ordusu Baş qərargahının rəisi S.Stoks mayor Rolansona tapşırdı ki, koalision hökumət müttəfiqlər komandanlığı tərəfindən tanınmayınca parlamentin açılmasına imkan verməsin.

1918-ci il dekabrın 7-də müsəlman şərqi tarixində ilk dəfə olaraq parlament Azərbaycan Cümhuriyyətinin müvəqqəti ali qanunverici orqanı öz işinə başladı.Parlamentin açılışı böyük təntənə ilə keçdi. Müvəqqəti olaraq H.Z.Tağıyevin Nikolayev küçəsində yerləşən keçmiş qız məktəbinin binasında toplaşmış parlament xüsusi sayıqlıqla mühafizəyə alınmışdı.

Parlamentin birinci iclasını Milli Şuranın və "Müsavat" fraksiyasının sədri M.Ə.Rəsulzadə açaraq, Cümhuriyyət qarşısında duran ən mühüm məsələlər azadlıq və müstəqillik ideyalarını gerçəkləşdirmək və təsdiq etmək olduğunu vurğuladı.

Əli Mərdan bəy Topçubaşov parlamentin sədri, onun müavini Həsən bəy Ağayev, katibi isə Rəhim bəy Vəkilov seçildi. Ə.M.Topçubaşovun sədr vəzifəsinin icrası müvəqqəti olaraq H. Ağayevə həvalə olundu.

Hökumətin hesabatında ilk növbədə, Türkiyənin qonşuluq köməyi və onunla bağlanmış sülh müqaviləsi sayəsində çətinlikləri

qismən aradan qaldıraraq dövlət müstəqilliyinin qaydaya salınmasından danışılır, daxildəki hərc-mərcliyə son qoymağın vacibliyini nəzərə alıb polis işlərinə önəm verildiyi bildirilirdi. Hesabat məruzəsində həmçinin Azərbaycanın Gürcüstan və Ermənistanla şərikli pul buraxmasının məcburiyyət nəticəsində baş verdiyi və tezliklə milli pul buraxılacağı bəyan edilirdi.

Hökumətin hesabat məruzəsində İngiltərə, Fransa, Amerika kimi böyük dövlətlərin Azərbaycan xalqına, onun öz istiqlaliyyəti yolunda gördüyü işlərə kömək göstərəcəklərinə ümid bəslənilirdi.

Hökumət kabinetinin mütləq həll etməli olduğu mühüm məsələlərdən biri də Cənubi Qafqazda yaranmış respublikalarla, həmçinin digər qonşu ölkələrlə dostluq münasibətləri qurmaq vəzifəsi idi. Gürcüstanla daim qarşılıqlı anlamda olan Azərbaycan hökuməti hər hansı bir mübahisəni onunla danışıqlarla həll edə bilmişdi. Şimali Qafqaz xalqları ilə münasibətlər daha asan qurulmuş, heç bir mübahisəli məsələ yaranmamış, hər iki tərəf bir-birinə mümkün yardımını əsirgəməmişdi. Qonşu Ermənistanla normal ikitərəfli münasibətlər qurulması milli zəmində baş vermiş qırğınlar və müharibə yoluna qoyulmamışdı. Bu məsələ ilə bağlı vurğulanırdı ki, qonşu respublika ilə sülhə və normal qonşuluq münasibətlərinə nail olunmalıdır.

Hökumətin hesabatında maarif və ədliyyə sisteminin qurulması və işlək hala gətirilməsi, bir çox dövlət idarələrində Azərbaycan "türk dili bilən adamlar"ın vəzifələrə təyin edilməsi ciddi irəliləyişlər kimi qeyd edilir və hökumətin həmişə "Millətin hüququ, istiqlalı, hürriyyəti!" şüarını bir prinsip kimi rəhbər tutdugu vurğulanırdı.

Baş nazir F.X.Xoyski hökumət kabinetinin üzvlərinin parlamentdə seçilib təyin edilməsinin vacibliyini səbəb göstərərək, əvvəlki heyətdən ibarət hökumət kabinetinin istefa verdiyini elan etdi.

Parlamentin 1918-ci il 10 dekabr tarixli ikinci iclasında fraksiyalar fəaliyyətlərinin əsas prinsip və məqsədlərini əks etdirən bəyannamələrini açıqladılar.

"Müsavat"ın bəyannaməsi ilə çıxış edən M.Ə.Rəsulzadənin nitqində "Müsavat"ın milli demokratiya mövqeyində dayanması vurğulanırdı, yeni formalaşacaq hökumətin xarici siyasət sahəsində əsas vəzifələri kimi Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması və Qafqaz xalqlarının birliyinə nail olması göstərilirdi. Bəyannamədə aqrar məsələ ilə bağlı bildirilirdi ki, bütün torpaqların kəndlilərin tam mülkiyyətinə pulsuz verilməsi nəzərdə tutulur, kəndlilərə yalnız yerin üstü verilməli, yerin təki isə dövlətin mülkiyyətində saxlanmalıdır. Meşələr, göllər, şoranlıq və sular ümumxalq sərvəti elan edilirdi. Fəhlə məsələsi ilə bağlı tədbirlərdə 8 saatlıq iş gününə keçilməsi, sığortanın tətbiq edilməsi, barışdırıcı komissiyaların, əmək birjasının təşkili kimi mühüm vəzifələr nəzərdə tutulurdu.

Bəyannamədə həmçinin xalq təhsilinin inkişafı, Azərbaycan dilinin dövlət idarələrində işlədilməsi, ərzaq, ordunun təşkili məsələlərinə toxunulur, yeni hökumətin təşkilinə gəldikdə isə, onun koalisiya şəklində qurulması istəyi ifadə olunurdu.

Sosialist fraksiyasının (Müsəlman Sosialistlər Bloku və Hümmət) nümayəndələri A.Səfikürdski, Ə.Şeyxülislamov və Ə.C.Pepinovun bəyannaməsində yeni hökumətin koalision olması və demokratik prinsiplərə əsaslanması tələbi qoyulurdu. "İttihad" partiyasının bəyannaməsində Q.Qarabəyov hakimiyyətin millətə məxsus olması, Azərbaycanda yaşayan bütün xalqların sülh şəraitində birgə yaşamalarına imkan yaradılması vurğulanırdı. "Əhrar" partiyasının bəyannaməsində Abdulla bəy Əfəndizadə tələb edirdi ki, hər bir nazirliyin başında müvafiq sahənin mütəxəssisi dursun. Aqrar islahatlarla bağlı "Əhrar" iri mülkədar torpaqlarının özgəninkiləşdirilərək kəndlilər arasında bölünməsini düzgün sayırdı.

Parlamentin işə başlaması ilə bağlı olaraq, hökumətin həmin gün istefa verməsindən sonra dərhal yeni Nazirlər Şurasının təşkilinə başlandı.

Parlamentdə ən nüfuzlu qüvvə olan "Müsavat" fraksiyası dururdu. O, koalisiya prinsipini dövlətin maraqlarına uyğun hesab edərək, öz fəaliyyətində bütün siyasi təşkilatlarla konstruktiv

əməkdaşlığa meyl göstərirdi. Müsavatçılar parlamentdə dövlət siyasətinin əsaslarını müəyyənləşdirməkdə aparıcı rol oynayan qüvvə kimi qalaraq, sosialist fraksiyasına arxalanmağı məqsədəuyğun sayırdılar.

Sosialist fraksiyası "Hümmət" və "Müsəlman Sosialistlər Bloku" təşkilatları çərçivəsində fəaliyyət göstərən azərbaycanlı sosial-demokratları, eserləri və menşevikləri özündə birləşdirərək parlamentin sol cinahını təşkil edirdi. Bu qüvvələrin taktiki cəhətdən yetkin olmaması, hadisələrə və hakimiyyət daxili proseslərə yanaşmada birmənalı mövqe tutmaması da nəzərə çarpırdı.

Parlamentin sağ cinahı əsasən "İttihad" fraksiyasından ibarət idi. İttihadçılar ölkədə siyasi üstünlüyə malik milli-demokratik cərəyana qarşı sərt müxalif mövqeyində durur və 1919-cu ilin dekabrınadək hökumət kabinetlərinin formalaşmasında iştirak etməkdən imtina edirdilər.

Beləliklə, parlamentin daxilində yaranmış siyasi durumu və qüvvələr nisbətini nəzərə alaraq, yeni hökumətin məhz koalisiya şəklində qurulmasının məqsədəuyğun olması, hamı tərəfindən etiraf edilirdi.

F.X.Xoyski 1918-ci il dekabrın 26-da yeni, koalisyon hökumətin tərkibini parlamentin təsdiqinə çıxartdı. Sayca üçüncü Nazirlər Şurasının tərkibinə Fətəli Xan Xoyski (bitərəf) - Baş nazir və xarici işlər naziri, Xəlil bəy Xasməmmədov ("Müsavat") - Daxili işlər naziri, Səmədağa Mehmandarov (bitərəf) – Hərbi nazir, Nəsib bəy Yusifbəyli ("Müsavat"") - Xalq maarifi və etiqadlar naziri və s. daxil oldular.

General Tomson bu hökuməti yeganə qanuni hakimiyyət kimi tanıdığı haqqında bəyanat verdi.İngilis komandanlığının siyasəti təkcə Azərbaycan hökumətini yeganə qanuni hakimiyyət kimi tanımaqla məhdudlaşmırdı. Bununla da onlar bir tərəfdən, öz müstəmləkələrinin təhlükəsizliyini təmin etməyə, digər tərəfdən isə Rusiyanı parçalamağa və sabiq Rusiya əyalətlərinin bütün iqtisadiyyatını öz əllərinə keçirmək üçün imkan qazanmağa çalışırdılar.

Buna görə ingilislər Cümhuriyyətin daxili işlərini nəzarətdə saxlamağa can atırdılar. Siyasi vəziyyət çox mürəkkəb idi. Sosialist partiyaları liderlərinin rəhbərlik etdikləri Bakı Fəhlə Konfransı (BFK) yeni təşkil olunmuş hökumət üçün ciddi müxalifətə çevrilmişdi.

1918-ci il dekabrın 24-də BFK-nın rəhbərliyi altında tətil başlandı. AXC hökumətini tanımamaq mövqeyində duran sosialist partiyalarının liderləri konfransın qərarını ingilis komandanlığına göndərdilər. BFK ingilis komandanlığından tələb edirdi ki, kollektiv müqavilənin bərpası üçün sənayeçilər və fəhlə konfransı nümayəndələrindən ibarət saziş komissiyası yaradılsın. İclasda iştirak edən M.Ə.Rəsulzadə BFK liderlərinin bu cür fəaliyyətlərinə etirazını bildirdi və qeyd etdi ki, bu cür məsələlərin həllində ingilis komandanlığına deyil, Azərbaycan hökumətinə müraciət edilsin.

1918-ci ilin üç günlük dekabr tətili Bakı fəhlələrinin qələbəsi ilə qurtardı. Tətil həm fəhlə kütlələri arasında bolşevik nüfuzunun güclənməsini, həm də ingilis komandanlığının indiyədək Bakı proletariatının qüvvəsi haqqında tam təsəvvürə malik olmamasını göstərdi. İndi ingilis komandanlığı daha ehtiyatlı olmağa və fəhlələrin tələblərinə daha diqqətlə yanaşmağa başladı.

Fəhlə məsələsi hökumətin daxili siyasətində ən ciddi məsələlərdən biri olduğu üçün nə parlament, nə də BFK iclaslarının gündəliyindən düşmürdü. Əmək naziri A. Səfikürdski bildirdi ki, fəhlələrin vəziyyətinin ağır olması faktı doğrudur, hökumət onların vəziyyətinin yaxşılaşdırılması üçün bütün tədbirlərə əl atmalıdır.

"Müsavat" fraksiyasının hökuməti xilas etməsinə baxmayaraq, aydın oldu ki, parlamentdə qüvvələrin nisbəti hökumətin uzunmüddətli fəaliyyətinə imkan verməyəcək. Fevralın 25-də hökumətin başçısı F.X.Xoyski səhhətini əsas gətirərək öz səlahiyyətlərinin təhvil verilməsi haqqında bəyanatla çıxış etdi.

Yeni hökumətin təşkil olunması N.Yusifbəyliyə tapşırıldı. 1919-cu il aprelin 14-də Parlament 4-cü hökumət kabinetini aşağıdakı tərkibdə təsdiq etdi: Nazirlər Şurasının sədri və daxili işlər naziri N.Yusifbəyli ("Müsavat"), maliyyə naziri Əliağa Həsənov (bitərəf),

ticarət və sənaye naziri Ağa Əminov ("Müsavat"), xarici işlər naziri M.Y.Cəfərov (bitərəf), poçt və teleqraf naziri Camo Hacınski (sosialist), ədliyyə və əmək naziri A.Səfikürdski (sosialist), hərbi nazir S.Mehmandarov (bitərəf)və s.
Deməli, hökumət Müsavat, Sosialist və bitərəflərin nümayəndələrindən təşkil edilmiş koalision hökumət idi.

N.Yusifbəyli yeni hökumətin proqramını elan etsə də, aydın idi ki, parlamentin mövcud tərkibi ona bu proqramı yerinə yetirməyə imkan verməyəcəkdi. Parlament öz mövcudluğunun ilk 4 ayı ərzində yalnız xırda qanun layihələrinə baxmaqla məşğul oldu, günün başlıca məsələləri isə həll olunmamış qaldı.

Respublikada iqtisadi və siyasi vəziyyət mürəkkəb olaraq qalmaqda davam edirdi. 1919-cu il sentyabrın 12-də "Müsavat" partiyasının parlament fraksiyası hökumətə etimad məsələsini irəli sürdü, Müsavatdan fərqli olaraq, "Əhrar", "İttihad" və sosialistləri təmsil edən fraksiyalar hökumətə etimad göstərmədiklərini açıq şəkildə bildirdilər.

Bunu nəzərə alan Nazirlər Şurasının sədri N.Yusifbəyli 1919-cu il sentyabrın 13-də parlament sədrinə yazılı müraciət edərək göstərdi ki, koalisiyaya girdiyi partiyalarla hökumətə etimadsızlıq bildirən sosialistlər arasında dərin ixtilaflar meydana çıxdığı üçün bundan sonra özünün Baş nazir vəzifəsində qalmasını mümkünsüz hesab edir.

Rusiya ilə iqtisadi əlaqələrin qırılması, şimala neft ixracının dayandırılması üzündən neft sənayesində dərinləşən böhran, işsizliyin artması, fəhlələrin vəziyyətinin daha da pisləşməsi və aqrar məsələnin həll edilməməsi bu istefanın əsas səbəblərindəndir. Müxtəlif siyasi partiyalar arasındakı ziddiyyətlər koalisyon hökumət yaratmaq imkanını məhdudlaşdırırdı. Buna görə də hökumət böhranı uzun müddət - dekabrın sonuna qədər davam etdi. Heç bir partiya məsuliyyəti öz üzərinə götürüb koalisyon hökumət yaratmağa cəsarət etmirdi.

Hökumət böhranı davam edən dövrdə respublikanın siyasi həyatında bir sıra mühüm hadisələr baş verdi. Vətəndaşlıq haqqında

qanun qəbul edildi,vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində mühüm addımlar atırdı. Bununla bərabər, yeni hökumət kabinetinin formalaşdırılması prosesi də davam etdirilirdi. N.Yusifbəyli "Müsavat"dan sonra ən böyük parlament fraksiyasına malik olan "İttihad" partiyasının nümayəndələrini hökumətə cəlb etmək istəyirdi.

Millətlərarası razılıq əldə etməyə çalışan N.Yusifbəyli erməni fraksiyasının nümayəndələrini də hökumətə cəlb etməyə çalışdı. Lakin hökuməti ermənilər sıxışdırmaqda günahlandıran erməni fraksiyası əslində yerinə yetirilməsi mümkün olmayan şərtlər irəli sürürdü. Dekabrın əvvəllərində N.Yusifbəylinin fraksiyalarla danışıqları gedişində yeni koalisiya haqqında prinsipial razılıq əldə edildi. Ən çox mübahisəyə səbəb olan Daxili İşlər Naziri vəzifəsi idi. Bütün fraksiyaların bu vəzifəyə yiyələnmək cəhdləri həm polis orqanlarının, həm inzibati orqanların, həm də gömrük və vergi strukturlarının ona tabe olması ilə bağlı idi. Son nəticədə bütün fraksiyalar M.H.Hacınskinin namizədliyi ilə razılaşdılar.

1919-cu il dekabrın 22-də parlament 5-ci hökumətin tərkibini təsdiq etdi: N.Yusifbəyli - Nazirlər Şurasının sədri, Məmmədhəsən Hacınski - Daxili işlər naziri (Müsavat), Xəlil bəy Xasməmmədov - Ədliyyə naziri (Müsavat), Həmid Şahtaxtinski - Xalq təhsili naziri (İttihad), Rəşid Kaplanov –Ticarət,sənaye və ərzaq naziri (Əhrar), Əhməd bəy Pepinov - Əmək və əkinçilik naziri (sosialist), Camo Hacınski - Poçt və teleqraf naziri (sosialist), Sultan Məcid Qənizadə - Dövlət nəzarətçisi (İttihad), Səməd bəy Mehmandarov - Hərbi nazir (bitərəf), Xudadat bəy Məlikaslanov - Yollar naziri (bitərəf) vəzifələrini tutdu.

Yeni hökumət kabinetinə, demək olar ki, bütün fraksiyaların nümayəndələri daxil idi və onlardan heç biri çoxluq təşkil etmirdi.

Hökumət bəyannaməsində Azərbaycanın qonşu ölkələrlə münasibətlərdə sülh prinsiplərinə sadiq qalacağı bir daha vurğulanırdı. Bu zaman Gürcüstan hökuməti ilə hərbi müdafiə paktı imzalanmışdı, Azərbaycanla Ermənistan arasındakı bir sıra mübahisəli məsələlərin, o cümlədən sərhəd məsələlərinin müzakirəsi

üçün Bakıda Azərbaycan-Ermənistan konfransı keçirildi.N.Yusifbəyli öz məruzəsində Cümhuriyyətin qonşu Türkiyə və İran dövlətləri ilə qarşılıqlı əlaqələrinə toxunaraq, hər iki ölkə ilə siyasi və iqtisadi münasibətlərin möhkəm təməl üzərində qurulmaqda olduğunu qeyd etdi. Hökumət artıq İranda nümayəndəliyin açılması haqqında qərar qəbul etmişdi. Ancaq yeni hökumət bununla kifayətlənməyərək, Avropa ölkələri ilə də əlaqələrin genişləndirilməsini, böyük dövlətlərin paytaxtlarında diplomatik nümayəndəliklər açmağı nəzərdə tuturdu.

Rusiyaya xüsusi əhəmiyyət verən N.Yusifbəyli hələ dördüncü kabinetini formalaşdırarkən onunla sıx əlaqələr qurulması kursunu elan etmişdi. Rusiyanın Azərbaycan nefti üçün əsas bazar olduğunu qiymətləndirən hökumət birinci növbədə onunla diplomatik münasibətlər qurulmasının vacibliyini dərk edirdi. Lakin hadisələrin sonrakı inkişafı Azərbaycan-Rusiya münasibətlərində yeni təzadlar yaratdı.4 ay davam edən hökumət böhranı sosial həyat şəraitinin daha da pisləşməsinə səbəb oldu.

Parlamentdəki fraksiyalar arasında başlanan müzakirələrin gedişi göstərirdi ki, yenicə formalaşdırılmış koalisyon hökumətdə başlıca məsələlərə dair konsensusa nail olmaq çətin olacaq. Çünki koalisiyaya girən partiyalar arasında mövcud ixtilafları törədən ziddiyyətli səbəblər qalmaqda idi. Belə bir şəraitdə bolşeviklər fəallıqlarını artırdılar. Bolşeviklər ilk növbədə mədən-zavod komitələri nümayəndələrindən ibarət olan Bakı Fəhlə Konfransını ələ aldılar. BFK öz fəaliyyətinə iqtisadi məsələlərlə bağlı işlərdən başladı, sonra isə siyasi mübarizə yoluna keçdi, BFK-da liderlik uğrunda eserlər, menşeviklər və kommunistlər arasında gərgin mübarizədə rəhbərlik kommunistlərin əlinə keçdi.

Kommunistlərlə əlaqədə hərəkət edən digər müsəlman sosial-demokrat partiyası "Hümmət" idi.

Azərbaycan ordusunun qurulması. Ərazi bütövlüyü uğrunda mübarizə. Cərəyan edən proseslər xalqın müstəqilliyini qoruyacaq ordunun formalaşdırılmasını tələb edirdi. Cümhuriyyətin 1-ci Hökumətinin tərkibində Hərbi nazir vəzifəsi təsis olundu. İlk Hərbi

nazir Xosrov paşa Sultanov təyin olundu. Hələ Türkiyə hərbi qüvvələri Azərbaycanda olarkən başlanmış ordu quruculuğunu sürətləndirmək üçün 1918-ci il oktyabrın 23- də hökumət tərəfindən Hərbi nazirliyin yaradılması qərara alındı. Bu qərar Nazirlər Şurası tərəfindən noyabrın 1-də imzalandı. Azərbaycanın ərazi bütövlüyünün qorunması tamamilə Hərbi nazirliyin üzərinə qoyuldu. Bu struktur dövlətin qarşısında duran vəzifələrin həllində mühüm rol oynadığından ona rəhbərliyi ilk vaxtlar Nazirlər Şurasının sədri F.X.Xoyski öz üzərinə götürdü. Nazir müavini isə artilleriya generalı Səməd bəy Mehmandarov təyin edildi və ona nazirliyin formalaşdırılması tapşırıldı.

Hərbi nazirliyin aparatı yaradıldı. Noyabrın 15-də ordunun Ümumi Qərargahının (Qlavnıy ştab) təsis edilməsi barədə S.Mehmandarovun müvafiq əmri imzalandı. Onun tərkibi ləvazimat, mühəndis topçu, topoqrafiya, tibb, hərbi təhsil və s. nəzarət şöbələrindən ibarət idi. Hökumətin qərarı ilə Müsəlman korpusu 1918-ci il iyunun 26-da Azərbaycan korpusu adlandırıldı. General-leytenant Ə.Şıxlinski Azərbaycan korpusunun komandiri vəzifəsində saxlandı.

Mudros müqaviləsinə görə, Bakıya gəlməli olan ingilis hərbi qüvvələri komandanı general V.Tomson hələ Azərbaycana qədəm qoymamışdan əvvəl tələb etdi ki, 1918-ci il noyabrın 17-dək Türkiyə qoşunları kimi, Azərbaycan qoşunları da Bakı şəhərini tərk etsinlər. Çünki Tomson Bakı şəhərini istər iqtisadi baxımdan, istərsə də hərbi-siyasi baxımdan mühüm strateji mərkəz sayır və ona nəzarəti tamamilə öz əlində saxlamaq istəyirdi. O, müstəqil Azərbaycan hökumətini tanımaq istəmədiyi kimi, onun nəzarəti altında olan hərbi qüvvələrə də etibar etmirdi. Ona görə 1918-ci il noyabrın 22-də Hərbi nazirlik Gəncəyə köçdü.

Bütün hökumət strukturlarının Bakıda yerləşdiyi halda, Hərbi Nazirliyin Gəncəyə köçürülməsi, hökumət orqanlarının onunla əlaqələrində və bütünlüklə ordunun formalaşması prosesində çətinliklər yaradırdı. Bununla belə S.Mehmandarovun rəhbərliyi

altında hərbi komandanlığın apardığı yüksək təşkilatı işlər qısa zaman ərzində öz nəticəsini verdi.

Hərbi Nazirlik yaradılanadək mövcud olan ordu hissə və bölmələri əsasən Gəncə və Qarabağda yerləşdirilmişdi. Bu da tarixi şəraitlə və qoşun hissələrinin icra etdikləri vəzifələrlə bağlı idi. Nazirlər Şurasının 1918-ci il 25 dekabr tarixli qərarı ilə artilleriya generalı Səməd bəy Mehmandarov Hərbi nazir təyin edildi. Ona yüksək etimad göstərilməsi ordunun formalaşdırılması istiqamətində səmərəli fəaliyyəti ilə bağlı idi. Bunun nəticəsi idi ki, 1918-ci ilin sonundan başlayaraq bolşevik istilasına qədər bir neçə hökumət kabineti dəyişsə də, S.Mehmandarov əvəzsiz olaraq Hərbi nazir vəzifəsində qaldı.

General-leytenant Ə.Şıxlinski Hərbi nazirin müavini təyin edildi. Azərbaycan ordusunun yeni qanunvericilik bazasının qısa müddətdə yaradılması mümkün olmadığı üçün Hərbi nazirin 1919-cu ilin əvvəlində imzaladığı əmrlə Rusiya imperiyasında 1917-ci il yanvarın1-dək qəbul edilmiş hərbi qanunvericilik aktları hərbi nizamnamələr, səfərbərlik və s. qüvvədə saxlanıldı. Orduda xidmət əsasən həmin qanunvericiliyə müvafiq qurulmalı idi.

1918-ci il dekabrın 27-də S.Mehmandarovun Hərbi nazir kimi verdiyi ilk əmrə əsasən Azərbaycan dili orduda dövlət dili qəbul edildi Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün orduda müvafiq kurslar yaradıldı və həmin kursların aparılmasına təcrübəli mütəxəssislər cəlb edildi.

Hərbi qulluqçulann geyim formasında dəyişikliklər edilməsi və onun milli üslubda hazırlanması üçün xüsusi komissiya yaradıldı. Komissiyaya general-leytenant Ə. Şıxlinski sədrlik edirdi.Orduya milli kadrlar hazırlanması da mühüm vəzifələrdən biri idi. Hərbi Nazirliyin vəzifələrindən biri də xidmətə çağırış və səfərbərlik işini təşkil etmək idi. Bu məsələnin həllinin başlıca çətinliyi ondan irəli gəlirdi ki, əhalidə əsgəri xidmətə qarşı etimadsızlıq, təşviş və qorxu hissləri var idi. Digər tərəfdən, əvvəllər xidmətə cəlb olunanlara qarşı fiziki cəzaların tətbiq edilməsi, onların şəxsiyyətlərinin təhqir olunması fərariliyin artmasına zəmin yaradırdı.

1919-cu il yanvarın 10-da Hərbi nazirlikdə Müvəqqəti Hərbi Şura yaradıldı. İngiltərə hərbi qüvvələri Azərbaycan ərazisini tərk etdikdən sonra Hərbi nazirliyin rəhbər orqanları 1919-cu il iyun-iyul aylarında yenidən Bakıya köçürüldü.

1919-cu ilin payızında təşkil edilən ən əhəmiyyətli hərbi strukturlardan biri-Bakı İstehkam hissəsi, yəni Bakının Möhkəmləndirilmiş Müdafiə rayonu idi. Bu strukturun yaradılmasında başlıca məqsəd Denikin ordusunun şimaldan, xüsusən dənizdən ehtimal olunan təhlükəsinin qarşısını almaq və Bakının müdafiəsini təşkil etmək idi.

Ancaq 1920-ci ilin ilk 4 ayı Azərbaycan ordusunun həyatında çox mürəkkəb bir məqam idi. Erməni təcavüzü faktiki olaraq ara vermirdi. Martın sonlarına yaxın isə bu təcavüz açıq müharibəyə çevrildi.

Qarşıda duran başlıca vəzifələrdən biri qonşu ölkələrlə sərhəd mübahisələri və ixtilaflarının aradan qaldırılması, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi idi.

Ilkin olaraq Zaqatala məsələsi Gürcüstanla aparılan danışıqlar yolu ilə həll edildi: əhalisinin 91,9%-ni müsəlmanlar təşkil edən və Azərbaycanın əzəli torpağı olan Zaqatala mahalında Cümhuriyyətin hakimiyyəti bərqərar edildi. Ölkədə mürəkkəb hərbi-siyasi şərait mövcud idi. Bir tərəfdən, ölkənin cənub bölgəsi - Lənkəran Azərbaycanın müstəqilliyinə yad olan qüvvələrin nəzarəti altında idi və bu qüvvələr Azərbaycan Cümhuriyyətini tanımaq istəmirdilər. Digər tərəfdən isə Qarabağ və Zəngəzur bölgəsində erməni daşnakların təcavüzkarlığı kəskinləşməkdə davam edirdi. Bir tərəfdən də denikinçi qüvvələr şimaldan Azərbaycanın müstəqilliyinə təhlükə yaradırdılar.

Lənkəran bölgəsində möhkəmlənməyə çalışan bir neçə siyasi qüvvə qısa müddətdə orada öz hakimiyyətlərini elan etdi. 1918-ci ilin əvvəllərində müsavatçı qüvvələr buradakı silahlı ünsürləri tərksilah edib hakimiyyət orqanlarını nəzarət altına alsalar da, 1918-ci ilin aprelində bölgəyə gələn sovet qoşunları hakimiyyəti ələ keçirdilər. Ancaq bolşeviklərin hakimiyyəti də bölgədə uzun

sürmədi. Bakı XKS-nin yıxılması və "Sentrokaspi Diktaturası"nın yaradılması ilə cənub bölgəsində də bolşevik qüvvələrinin nüfuzu xeyli zəiflədi. Onların əvəzinə bölgədə rus qoşun hissələrinin millətçi zabitləri fəallaşmağa başladılar. Rusiyadakı Denikin qoşunları ilə sıx əlaqəsi olan bu qüvvələrə polkovnik İlyaşeviç rəhbərlik edirdi.

Beləliklə, rus zabitləri cənub bölgəsində hakimiyyəti öz əllərinə aldılar. 1919-cu ilin fevralında rus zabitlərinin nəzarəti altında olan ərazilər "Lənkəran Respublikası" elan edildi və "demokratik" hökumətin təşkil olunduğu bildirildi. 1919-cu il martın 21-də Azərbaycan Cümhuriyyətini parçalamaq iddiasında olan qüvvələrin Prişibdəki qurultayında belə qərar qəbul etdi ki, Paris sülh konfransı öz işini qurtaranadək, Lənkəran qəzası Azərbaycanın hakimiyyəti altına verilməsin və "Muğan vilayəti" adı altında yaradılan müstəqil quruma tabe etdirilsin.

Azərbaycan hökumətinin ölkənin cənubunda baş verən bu qanunsuzluqların qarşısını almağa hələlik kifayət qədər gücü yox idi. Çünki mövcud olan hərbi qüvvələr Qarabağda genişlənən erməni təcavüzünün və şimaldan yaxınlaşan təhlükənin qarşısının alınmasına cəlb edilmişdi. 1919-cu il aprelin 25-də kommunistlər İlyaşeviçi həbs edib Lənkəran bölgəsini nəzarətə aldılar.

1919-cu ilin avqustunda Qarabağda vəziyyət nisbətən sakit keçdi. Bu məqamdan istifadə edən Hərbi nazirlik Lənkəran bölgəsinə qoşun dəstəsi çıxarmaq qərarına gəldi. Həmin vaxt bölgədə nəzarət kommunist qüvvələrin əlində idi. Lakin onların elan etdikləri "Muğan Sovet Respublikası"nın ömrü uzun sürmədi. Avqustun 13-də general Həbib Səlimovun başçılıq etdiyi Lənkəran dəstəsi qısa müddətdə Lənkəranı azad etdi.

Batum konfransının 1918-ci il mayın 11-də keçrilən ilk iclasında Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşe Türkiyənin hərbi əməliyyatlar meydanında verdiyi qurbanların əvəzi olaraq Qars, Ərdəhan və Batum vilayətlərindən başqa, Tiflis quberniyasının Axıska və Axalkələk qəzalarını, İrəvan quberniyasının Aleksandropol (Gümrü) və Sürməli qəzalarını,

Eçmiədzin qəzasının Sərdarabad hissəsini, İrəvan qəzasının cənub və cənub-qərb hissəsini təşkil edən Kəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələrini, Şərur-Dərələyəz qəzasının Şərur hissəsini və Ordubad istisna olmaqla Naxçıvan qəzasını, habelə Qars-Aleksandropol-Culfa dəmir yolunu tələb etdi.

Osmanlı dövləti 11 may tarixli ultimatumuna cavab almadığı üçün Xəlil bəy Menteşe 26 may 1918-ci ildə Zaqafqaziya Federativ Respublikası nümayəndə heyətinə saat 20-də son ultimatumu verdi. Bundan beş saat əvvəl isə Zaqafqaziya Federasiyası artıq mövcud deyildi. Aleksandropol türklər tərəfindən tutulduqdan sonra ermənilər siyasi mərkəz olaraq İrəvanın verilməsi məsələsini gündəmə gətirdilər. Aleksandropolu ermənilərə vermək istəməyən türklər İrəvanı onlara güzəştə getdilər.

Bu dövrdə "erməni məsələsi" ilə bağlı Osmanlı siyasi dairələrində müəyyən fikir ayrılıqları var idi. Tələt və Ənvər paşalar "erməni məsələsi"ndə "çibanı kökündən təmizləməyi " ən xeyirli iş hesab edir, bölgədə erməni dövlətinin yaradılmasına imkan verməmək və bu mümkün olmadığı təqdirdə yaşamayacaq dərəcədə çox zəif bir Ermənistanın mövcudluğunu zəruri hesab etsələr də, Xəlil bəy və Vehib paşa kimi siyasətçilər beynəlxalq amillərlə bağlı olaraq ermənilərə bir mövcudiyyət və müəyyən güzəştlər verilməsinin vacib olduğunu bildirdilər. Tələt paşa erməni dövlətinin yaradılmasının gələcəkdə Türkiyə üçün baş verə biləcəyi problemləri öncədən görürdü və buna görə də erməni dövlətinin yaradılmasına imkan vermək istəmirdi.

Maraqlıdır ki, Tələt və Ənvər paşaların erməni dövlətinin yaradılmasına imkan verməmək istəyinə Azərbaycan nümayəndələri müsbət yanaşmırdılar. Deməli, onlar erməni dövlətinin yaranmasını istəyirdilər. Onlar bunu onunla əsaslandırırdılar ki, əgər bölgədə üç-gürcü, müsəlman və erməni kantonları (vilayət) yerinə yanlız gürcü və müsəlman dövlətləri yaradılarsa, o zaman Cənubi Qafqazda Osmanlı dövlətinə birləşdiriləcək ərazilərdə olan böyük erməni kütləsi Azərbaycana axışacaq. Bu da Azərbaycana daha böyük qırğınlar, müsibətlər və dağıntılar gətirəcək. Buna yol verməmək

üçün kiçik bir ərazidə ermənilərin milli dövlətini yaratmaq və onları ora cəm etmək lazımdır. Azərbaycan nümayəndələri 1918-ci il mayın 23-də Batumdan Ənvər paşaya bu barədə yazılı bir müraciət də göndərdilər.

Osmanlı dövləti isə Batum konfransında irəli sürdüyü ərazi tələblərində heç bir güzəştə getmək fikrində deyildi. Onda Xəlil bəy təklif etdi ki, Türkiyənin ermənilərdən aldığı torpaqların əvəzində azərbaycanlılara məxsus ərazilərin bir qismi ermənilərə verilsin. Xəlil bəy bu məsələ ilə əlaqədar M.Ə.Rəsulzadə və M.H.Hacınski ilə danışıqlar apardı və nəticədə Osmanlı yardımına böyük ehtiyac duyan Azərbaycan nümayəndələrinin razılığını ala bildi.

Batumdakı Azərbaycan və Ermənistan nümayəndələri arasında, eyni zamanda Osmanlı-Azərbaycan-erməni danışıqları zamanı razılıq əldə edildi ki, Azərbaycan Aleksandropol quberniyası hüdudlarında erməni dövlətinin yaradılmasına razıdır. Azərbaycan İrəvanı siyasi mərkəz kimi Ermənistana verməyə o şərtllə razıdır ki, ermənilər Qarabağın dağlıq hissəsinə olan iddialarından imtina etsinlər, türk-müsəlmanlara qarşı soyqırımı dayandırsınlar, Ermənistanda yaşayan azərbaycanlıların təhlükəsizliyinə təminat versinlər. Ermənistan daşnak hökuməti Bakıda Ş.Şaumyanla əlaqəyə girib oradakı azərbaycanlıların təhlükəsizliyinin təmin edilməsini də öz üzərinə götürsün. Bu barədə danışıqlar X.Menteşə-A.Xatisyan-M.Ə.Rəsulzadə arasında aparıldı.

Batumdan göndərilən direktiv əsasında Azərbaycan Milli Şurasının 1918-ci il mayın 29-da Həsən bəy Ağayevin sədrliyi ilə keçrilən iclasında İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi müzakirə edildi. Baş nazir Fətəli Xan Xoyski Aleksandropol türklər tərəfindən tutulduqdan sonra İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz olduğunu bəyan etdi. Çünki Ermənistanın paytaxtı ola biləcək başqa şəhər yox idi.Nəticədə 28 nəfər Şura üzvündən 16 nəfər bu təklifə səs verdi. Bu məsələdə Ermənistanın gələcəkdə yaradılacaq vahid Qafqaz Konfederasiyasına daxil olmaq istəyi də nəzərə alındı. Bununla da İrəvanın Ermənistana verilməsi məsələsi ermənilərin xeyrinə həll edildi. Lakin bu xeyirxah addım

iki dövlət arasındakı münasibətlərin kəskinləşib hərbi münaqişəyə çevrilməsinin qarşısını ala bilmədi. Çünki bu dövrdə Qafqazda yaranmış vəziyyəti və beynəlxalq şəraiti "böyük Ermənistan" ideyasının reallaşdırılması üçün əlverişli sayan ermənilər Azərbaycana qarşı ərazi iddiaları irəli sürərək,Naxçıvan, Qarabağ və Zəngəzur mahallarında etnik təmizləmə siyasəti həyata keçirməyə başladılar. Nəticədə Azərbaycanın bir sıra bölgəsində, xüsusilə həmin mahallarda yaşayan dinc əhali Andronik, Dro və Njdenin quldur dəstələri tərəfindən soyqırıma məruz qaldı.

1918-ci ilin ortalarından etibarən Zəngəzur qəzasında Andronikin dəstələri qəzanın azərbaycanlılardan təmizlənməsi və Ermənistana birləşdirilməsi üçün heç bir cinayətdən çəkinmirdilər. Noyabr-dekabr aylarında Türkiyə qoşunlarının Azərbaycanı tərk etməsi Zəngəzurda və Qarabağda erməni təcavüzünün yeni bir faciəli dövrünün başlanmasına səbəb oldu.

Müxtəlif xarici siyasi himayədarlığa can atan Andronik hərbi-maliyyə əlaqələri yaratmaq məqsədilə 1919-ci ilin yayında bir tərəfdən S.Şaumyan vasitəsilə sovet Rusiyasına yaxınlaşmağa, digər tərəfdən isə erməni katolikosunun vasitəçiliyi ilə ingilislərlə ittifaq yaratmağa çalışırdı. 1918-ci ilin yayında Andronik Naxçıvanı sovet Rusiyasının ayrılmaz hissəsi elan etmişdi. O, burada sovet hakimiyyətinin qurulduğunu bildirmiş, iyunun 4-də isə S.Şaumyana teleqram göndərərək dəstəsi ilə birlikdə Rusiya mərkəzi hökumətinin sərəncamına keçməyə və "Bakı Kommunası"na (Bakı XKS-na)yardım göstərməyə hazır olduğunu xəbər vermişdi. Həmin teleqram barədə Leninə məlumat verən Şaumyan Andronikə cavabında yazırdı:"Sizin şəxsinizdə əsl xalq qəhrəmanını salamlayıram". Andronikin Biçeraxov və Denikinlə əlaqələri var idi. O, bir sıra dövlətlərdən hərbi-siyasi və maliyyə yardımı alırdı. Belə bir vaxtda Qarabağın dağlıq hissəsi problemi meydana atıldı. Qarabağın dağlıq hissəsində kök salmış ermənilər 1918-ci ilin iyul və sentyabr aylarında keçirdikləri qurultaylarda bu mahalın müstəqilliyini elan etdilər. Bunun ardınca isə 1918-ci ilin payızında Zəngəzurun bir hissəsində möhkəmlənən Andronik burada bir növ

“erməni qubernatorluğu" təşkil edərək, Gorusu onun mərkəzinə çevirdi, sonra da paytaxtı Şuşa olacaq "kiçik Ermənistan" dövlətini yaratmağa çalışdı.

Mudros müqaviləsinə əsasən, Türkiyə qoşun hissələrinin Azərbaycandan, o cümlədən də Naxçıvan, Qarabağ, Zəngəzur mahallarından çıxması ilə ərazi bütövlüyü yenidən təhlükə qarşısında qaldı. Regionda Antantanın, xüsusən ingilislərin ikili siyasət yürütdükləri bir şəraitdə separatçı ermənilər fəallaşdılar. Bu zaman Naxçıvan bölgəsində yaradılan Araz-Türk Respublikasının mühüm əhəmiyyəti oldu ki, bu respublika 1918-ci ilin noyabrından - 1919-cu ilin martınadək fəaliyyət göstərdi Onun ərazisi Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarını, habelə, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və s. bölgələri əhatə etmiş, mərkəzi isə Naxçıvan şəhəri olmuşdu.

Araz-Türk Respublikası Azərbaycan Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışmış, onunla birləşmək üçün yollar aramışdı. Azərbaycan parlamenti yaradılarkən Naxçıvan bölgəsi - Araz-Türk Respublikası ilə bağlı məsələlər də nəzərə alınmışdı. Amma Araz-Türk Respublikası aşağıdakı səbəblərə görə tezliklə süquta uğradı: ermənilərin güclü hərbi və siyasi-diplomatik təzyiqi; ingilislərin Azərbaycan tərəfi dəstəkləməməsi və ermənipərəst mövqe tutması; Cümhuriyyətin bölgələrlə kifayət qədər əlaqələrinin yaradılmaması, ona yetərincə hərbi-siyasi yardım göstərə bilməməsi və s. Bununla belə Araz-Türk Respublikası bölgənin azərbaycanlı əhalisinin qüvvələrinin düşmənlərə qarşı birgə mübarizə aparılması məqsədilə birləşdirilməsində müəyyən rol oynadı və ən başlıcası isə mahalın ərazi bütövlüyü təmin edildi. Birinci Dünya müharibəsi başa çatdıqdan sonra Qafqazda, o cümlədən də Azərbaycanda möhkəmlənmək sahəsində təşəbbüsü ələ alan ingilislər öz məqsədlərinə çatmaq üçün ermənilərdən də istifadə etməyə başladılar. 1919-cu ilin yanvarında Naxçıvan mahalına çox az sayda ingilis hərbi qüvvələri gətirildi. Bununla eyni vaxtda isə Ermənistanın qoşun hissələri Zəngəzur, Naxçıvan, Qarabağ bölgələrinə qarşı təcavüzü daha da genişləndirdilər. Bu dövrdə

Şərurda erməni qoşunları üzərində mühüm qələbə qazanılsa da, bölgədə vəziyyət gərginləşməkdə idi. 1919-cu il oktyabrın 24-də Ermənistan üzrə ABŞ-ın Ali komissarı polkovnik Haskelin Naxçıvanda general-qubernatorluğun yaradılması barədə bəyanat verildi. Azərbaycan hökumətinin Naxçıvan əhalisinin etirazı nəticəsində bu plan baş tutmadı. Naxçıvan mahalını müvəqqəti bitərəf zona elan edərək, burada general-qubernatorluq yaratdıqlarını bildirdilər. Ermənilər üzərindəki Şərur qələbəsindən sonra Naxçıvan mahalında yeni diktatura hökumətinin yaradıldığı elan olunmuşdu. Bu hökumət isə mövcud vəziyyətdə Cümhuriyyət ilə geniş əlaqələrin qeyri-mümkünlüyü və s. səbəblərə görə İranla birbaşa münasibətlər yaratmağa cəhdlər göstərmişdi.

Azərbaycan hökumətinin öz dövlət ərazisi olan Naxçıvan bölgəsində suveren hüquqlarını həyata keçirməsi zəruri məsələ idi. Bu zərurət burada xüsusi general-qubernatorluğun təşkilini şərtləndirdi.

Azərbaycan hökuməti 1919-cu il 28 fevral tarixli qərarı ilə Naxçıvan general-qubernatorluğunu (arxiv sənədlərində "Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu", habelə "Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar rayonlarının müvəqqəti general-qubernatorluğu" adlanır) yaratdı. Həmin qərara əsasən də Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski və Hacı Mehdi Bağırov isə onun köməkçiləri təyin olundular, qoşun hissələrinin saxlanması üçün 500 min manat pul ayrıldı.

Doğrudur,Naxçıvan general-qubernatorluğu obyektiv (bölgənin Cümhuriyyət ilə sıx əlaqələrin qurulmasındakı çətinliklər) və subyektiv (bölgədəki siyasi qüvvələr arasındakı ixtilaflar) səbəblərə görə səmərəli fəaliyyət göstərə bilməsə də, onun yaradılması və tədbirləri bölgənin milli hökumətlə əlaqələrinin möhkəmlənməsində müəyyən rol oynadı.Osmanlı qoşunları getdikdən sonra Zəngəzur mahalında da siyasi-hərbi vəziyyət xeyli kəskinləşdi. Müttəfiqlərin Azərbaycana gəlişi ilə fəallaşan ermənilər yaranmış şəraiti özlərinin ərazi iddialarının reallaşması üçün əlverişli məqam sayaraq təxribatlara əl atdılar. Erməni silahlı dəstələrinin azğınlığı getdikcə

daha dəhşətli xarakter alırdı. Bu özbaşınalıqlara qarşı qətiyyətli mübarizə aparmaq üçün Nazirlər Şurası 15 yanvar 1919-cu il tarixli iclasında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları üzrə müvəqqəti general-qubernatorluq yaradılmasını qərara aldı.Həmin iclasda Xosrov bəy Sultanov Qarabağ general-qubernatoru vəzifəsinə təsdiq edildi. Qarabağ general-qubernatorluğunun təşkilini göstərilən amillər zəruri edirdi:1)ermənilərin separatçılıq hərəkətləri və yerli müsəlman əhaliyə qarşı törətdikləri zorakılıqlar; 2)Andronikin silahlı quldur dəstələrinin mahallara soxulmasından sonra burada vəziyyətin ağırlaşması; 3)Zəngəzurun Gəncə qubernatorluğunun tabeçiliyində olmasının çətinlikləri.

Qarabağ general-qubernatorluğunun yaradılması haqqında Azərbaycan hökumətinin qərarı Qarabağda və Zəngəzurda müsəlman əhaliyə qarşı qırğınların genişlənməsinə yeni bir təkan verdi. Andronikin quldur dəstəsi isə Zəngəzur istiqamətindən Qarabağın içərilərinə doğru irəliləyərək qarşısına çıxan bütün kəndləri talan etdi.Azərbaycan hökumətinin öz ərazisində general-qubernatorluq yaratmasını və X.Sultanovu ona başçı təyin etməsini Ermənistan hökuməti hay-küylə qarşıladı. Ermənistan XİN-nin beynəlxalq təşkilatlara və nüfuzlu dövlətlərə ünvanladığı çoxsaylı etiraz notalarında Azərbaycan hökumətini "Ararat Respublikasının hüquqlarına qəsd etməkdə", qonşu xalqlar arasındakı münasibətləri pozmaqda suçlandırılırdı. Vəziyyətdən yeganə ağıllı çıxış yolu kimi, bölgə ermənilərinə ya hər hansı bir general-qıubernatorsuz yaşamaq imkanı verilməsi, ya da burada müvəqqəti ingilis general-qubernatorluğunun yaradılması məsləhət görülürdü.Bölgədə ikili siyasət yürüdən ingilislər əvvəlcə Zəngəzur qəzasının bir hissəsinin Ermənistana verilməsini bildirsələr də, az sonra Azərbaycan hökumətinin Qarabağ general-qubernatorluğu yaratmasını himayə etmişdilər. Bu, ermənіləri xeyli çaşdırmış və narazı salmışdı. Lakin ingilislər ermənilərin şərtlərini bəzən diplomatik üsulla, bir sıra hallarda isə hədə yolu ilə rədd etmişdilər. Ümumiyyətlə, Qarabağ və Zəngəzura dair ingilis siyasəti ziddiyyətli səciyyə daşımışdır. İngilislər vədlərinə xilaf çıxaraq, bölgələrdə hakimiyyəti əslində

Azərbaycana deyil, Erməni Milli Şurasına vermiş, Xosrov bəyi vəzifəsindən kənarlaşdırmağa cəhd göstərmiş, bütün bunlarla da ermənilərin bölgədə çoxlu zorakılıq hərəkətlərinə yol verməsinə şərait yaratmışlar.İngilislərin Azərbaycandakı mövqelərinin zəiflədiyi zaman, yəni 1919-cu ilin ikinci yarısında fəallaşan ABŞ hökuməti Naxçıvan bölgəsi ətrafındakı erməni-azərbaycanlı münaqişəsindən faydalanmağa çalışdı. Naxçıvan ilə bağlı məsələlərdə əsasən ermənipərəst mövqe tutan ABŞ (regiona kifayət qədər hərbi qüvvə gətirə bilməməsi,mahalın azərbaycanlı əhalisinin çox güclü müqaviməti, Azərbaycan hökumətinin barışmaz mövqeyi və s.) ikili siyasət yürüdürdü. Müttəfiqlərin Ermənistandakı ali komissarı polkovnik V.Haskel Zəngəzur və Qarabağı Azərbaycanın tərkib hissələri kimi tanıyaraq, ermənilərlə müsəlmanlar arasında normal münasibətlər yaradılması adı altında Naxçıvan və Şərur-Dərələyəz qəzalarının müvəqqəti xüsusi bitərəf zona elan edilməsi və burada amerikan general-qubernatorluğu yaradılması haqqında 1919-cu ilin oktyabrın 24-də bəyanat vermişdi. Lakin mahalın azərbaycanlı əhalisinin müqaviməti sayəsində ABŞ-ın Naxçıvan bölgəsində möhkəmlənmək siyasəti boşa çıxdı. Ermənilərin amerikanlar vasitəsilə Naxçıvana yiyələnmək niyyətləri baş tutmadı. 1919-cu il noyabrın 23-də Azərbaycan və Ermənistan hökumət başçıları ABŞ nümayəndələrinin vasitəçiliyi ilə görüşüb əsasən ərazi məsələlərini müzakirə etdilər və Tiflisdə razılaşma imzaladılar. Sənəddə deyilirdi ki, Azərbaycan və Ermənistan qarşıdurmanı dayandırır və bir daha silah işlətməməyi öhdələrinə götürür, müqavilənin başqa bir maddəsində isə bildirilirdi ki, hər iki respublika sərhəd məsələlərini sülh konfransında həll etməyi öhdələrinə götürürdülər. Hər hansı bir məsələ mübahisə doğurduqda, üçüncü tərəf kimi ABŞ nümayəndəsinin fikri əsas tutulacaq. Əslində bıı saziş müvəqqəti xarakter daşıyırdı, çünki sazişə görə, dövlətlərarası mübahisəli məsələləri yalnız qarşıdakı Ermənistan-Azərbaycan konfransı həll edə bilərdi. Sazişin nəticələri Azərbaycanın siyasi və hərbi maraqlarına xələl gətirdi. Ermənilərin səmimi olmalarına inanan və müttəfiqlərin müraciətlərini əsas tutan

Azərbaycan hökuməti razılaşdırılmış məsələlərin həllini gözləmədən öz qoşun hissələrini Zəngəzurdan çıxartdı. Ermənistan hökuməti bu şəraitdən faydalanaraq, bölgəyə əlavə nizami silahlı qüvvələr yeritdi, hərbi əməliyyatların daha iri miqyaslı mərhələsinə başladı.

1919-cu il dekabrın 14-21-də Bakıda keçirilən Azərbaycan Ermənistan konfransı da onlar arasındakı gərgin münasibətlərə heç bir aydınlıq gətirmədi.

1920-ci ilin əvvəllərində Şimali Qafqazda Qızıl ordunun uğurlu hərbi əməliyyatları Könüllülər Ordusunun vəziyyətini yenidən ağırlaşdırdı. Mart ayında denikinçilərə ağır zərbə vuruldu. Denikinin Azərbaycana qarşı təcavüzü baş tutmadı. Cümhuriyyətin müstəqilliyinə başqa bir təhlükə-sovet Rusiyasının XI Qızıl ordusu yaxınlaşmaqda idi.

Ermənilərin Qarabağda və Zəngəzurda böyük qüvvələri cəmləşmişdi. Martın 29-da Azərbaycan qoşun hissələrinin Əsgəran istiqamətində hücumu başladı. Lakin ilk hücum uğurla nəticələnmədi. Əlavə nizami qüvvələrlə möhkəmləndirilən Ağdam dəstəsi aprelın 3-də yenidən Əsgəran istiqamətində hücuma başladı. Döyüş Azərbaycanın qoşun bölmələrinin uğuru ilə nəticələndi. Xeyli tələfat verən düşmən əvvəlcə Əsgəranı, sonra da Xocalını tərk etməli oldu.Rusiya qoşunları Azərbaycanın şimal sərhədlərinə yaxınlaşdıqca, erməni silahlı dəstələrinin fəallığı da artırdı. Azərbaycan qoşun bölmələrinin təzyiqinə davam gətirməyən erməni silahlıları ailələrini Zəngəzura köçürüb, kiçik dəstələrlə kəndlərimizə hücum edirdilər. Cümhuriyyətin mövcudluğu zamanı onun ərazisi 113.895.97 kv.km idi. Onun 97.297.67 kv.km mübahisəsiz, 16.598.30 km^2-i mübahisəli zonaları əhatə edirdi. Hərbi münaqişə Azərbaycan hökumətini əsas ordu qüvvələrini respublikanın qərb sərhədlərində yerləşdirməyə vadar etdi ki, bu da şimal sərhədlərinin xeyli zəifləməsinə gətirib çıxartdı.

Qarabağdakı qiyam Ermənistan hökuməti tərəfindən təşkil edilmişdi, onun məkrli planını sovet komandanlığı rəsmi İrəvanla birgə hazırlamışdı və Azərbaycana hücum edən XI Qızıl ordunun əməliyyatını asanlaşdırmaq məqsədini güdürdü.

II FƏSİL
Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi və mədəni quruculuq siyasəti.

İqtisadi problemlər. Azərbaycanda dövlətçiliyin təşəkkül tapması iqtisadiyyatın da yenidən qurulmasını tələb edirdi. Lakin Birinci Dünya müharibəsi, ikihakimiyyətlilik dövründə Cənubi Qafqazda, eləcə də Azərbaycanda baş alıb gedən anarxiya, hərc-mərclik, xalqın varidatının Bakı XKS ilə "Sentrokaspi" tərəfindən talan edilməsi və nəhayət, müstəqil dövlət quruculuğu dövründə xarici qoşunların təsiri nəticəsində iqtisadiyyatın dağılması gənc hökuməti böyük çətinliklərlə qarşılaşdırmışdı. Hökumətin iqtisadiyyat sahəsində əsas vəzifəsi yalnız dağılmış təsərrüfat sahələrini bərpa etmək deyil, həm də yeni iqtisadi sistemin prinsiplərini müəyyənləşdirmək və həmin prinsiplər əsasında islahatlara başlamaq idi. Neft sənayesi ilə birlikdə kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının əsas özülünü və ölkə əhalisinin 76%-nin fəaliyyət və dolanışıq mənbəyi sahəsini təşkil edirdi. Torpaq məsələsi ən kəskin iqtisadi, sosial və siyasi məsələlər sırasında dururdu. Onun həll edilməsi həm bütün sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmağa, həm də böyük kəndli kütləsinin yeni hökumətə etimad göstərməsinə imkan yaradardı.

1917-ci ildə aqrar bölmənin quruluşu aşağıdakı kimi idi: yoxsul təsərrüfatlar:54,4%, ortabablar:34%,qolçomaqlar: 6% təşkil edirdi. Həmçinin həmin ildə əkin sahələrindən 68,7%, dövlətə 29,5% mülkədarlara, 1,8% kəndlilərə məxsus idi.

Hökumət kabineti 1918-ci il iyunun 22-də Seymin 1918-ci il 7 mart tarixli aqrar qanunun şərtlərinin Cümhuriyyət ərazisinə şamil edilməməsi haqqında fərman vermişdi. Həmin dekretin icra hissəsində deyilirdi: 1.Zaqafqaziya Seyminin qəbul etdiyi torpaq islahatı haqqında qanunun icrası Azərbaycanın Müəssislər Məclisi çağrılana qədər dayandırılsın; 2.İndiyədək həm xüsusi, həm də dövlət torpaqlarının tutulması halları aradan qaldırılsın.

Seymin qəbul etdiyi aqrar qanunla yanaşı, Bakı XKS-nin Bakı quberniyasına aid 1918-ci il 21 iyun tarixli torpaq haqqında dekreti

də ləğv edildi. Dekretdə Bakı XKS zəhmətkeş kəndliləri öz tərəfinə çəkmək üçün hakim sinfə məxsus torpaqları ödəncsiz olaraq onlara verilməsini nəzərdə tuturdu. Aqrar məsələ hökumət kabinetinin bəyanatında xüsusi yer tuturdu, orada deyilirdi ki, "kəndli və fəhlələrin təminatına qayğı hökumətin ən başlıca vəzifəsi olmalıdır... Torpaq kəndliyə havayı verilməlidir".

Aqrar məsələnin həlli üçün iki istiqamətdə - parlament komissiyası çərçivəsində və hökumət səviyyəsində fəaliyyətə başlandı. 1919-cu il fevralın 4-də torpaq islahatı haqqında qanun layihəsi hazırlamaq üçün hümmətçi Səməd bəy Ağamalıoğlu başda olmaqla xüsusi parlament komissiyası yaradıldı. Komissiya "Müsavat", "İttihad", Sosialist bloku, "Əhrar", "Daşnaksütyun" və "Rus-Slavyan Cəmiyyəti" təşkilatlarından ibarət idi. Komissiya üzvlərinin siyasi mənsubiyyət cəhətdən müxtəlifliyi qanun layihəsini lap əvvəldən müvəffəqiyyətsizliyə düçar etmişdi, çünki onların təmsil etdiyi partiyaların aqrar məsələyə aid yekdil baxışları yox idi. Ona görə də komissiya Seymin 1918-ci il martın 7-də qəbul etdiyi, müəlliflərindən biri də indiki komissiyanın sədri S.Ağamalıoğlu olan aqrar qanunun əsasları ilə kifayətlənmək məcburiyyətində qaldı.

Bütün bunlar parlamentin işinə təsir göstərir, ölkədə vəziyyəti kəskinləşdirir və tez-tez hökumət böhranlarına səbəb olurdu.

1919-cu il avqust – sentyabr aylarında nəhayət, parlamentin torpaq komissiyası layihə üzərində işini tamamladı. Layihənin əsas tezisləri aşağıdakılardan ibarət idi: 1. Respublika ərazisindəki bütün torpaqlar dövlətin mülkiyyətidir; 2.Torpaq əvəzsiz olaraq dövlətin ixtiyarına keçir; 3.Əvvəlki mülklərinin müəyyən hissəsi aşağıdakı normalar üzrə əsas sahibkarların istifadəsi üçün onların özündə qalır: 1-ci dərəcə torpaqlar - 7 desyatin (bağlar və becərilən sahələr); 2-ci dərəcə torpaqlar - 15 desyatindən 20 desyatinədək (əkin yerləri); 3-cü dərəcə - 40 desyatindən 50 desyatinədək (otlaqlar). Qalan bütün torpaqlar dövlət torpaq fonduna daxil edilir. Torpaq haqqında qanunun son *v*ariantı Azərbaycan Cümhuriyyəti Müəssislər Məclisi tərəfindən təsdiq olunmalı idi.

Lakin qanun layihəsi uğursuz oldu. Belə ki, Azərbaycanda baş vermiş hökumət böhranı onların heç müzakirə olunmasına da imkan vermədi. Hökümətin, yəni Əkinçilik Nazirliyinin aqrar islahatlar komissiyasının layihəsində torpağın əkinçi əhaliyə verilməsi məqbul sayılırdı.

Nəsib bəy Yusifbəylinin 5-ci hökümət kabinetinin hazırladığı layihə (Əkinçilik naziri Ə.Pepinov) kənd yerlərində olan xüsusi sahibkar, o cümlədən monastr, vəqf, məscid və kilsə torpaqları, şəhərdəki bəzi torpaqlar sahiblərindən alınıb əvəzi ödənilmədən dövlət torpaq fonduna verilməli idi. Bəzi partiyalar da torpaq islahatı haqqında öz təkliflərini irəli sürürdülər. Parlamentdə sosialist bloku və hümmətçi bolşeviklər torpaqların müsadirə edilib ödənişsiz kəndlilərə verilməsini təklif edirdilər. "Musavat" partiyasının qanun layihəsində xüsusi sahibkar torpaqlarının əvəzsiz olaraq alınıb dövlət torpaq fonduna verilməsini nəzərdə tuturdu. Sahibkarların mülkiyyətində bağ və həyətlər də daxil olmaqla 25-75 desyatin torpaq saxlanılması, şəhər yerlərində isə 5-7,5 desyatin torpaq saxlanılması nəzərdə tutulurdu.

Maliyyə-vergi siyasəti, ticarət. Cümhuriyyətin iqtisadi tədbirlərindən biri də maliyyə sistemini tənzimləmək və xəzinədə vəsait toplanmasına nail olmaq idi. Hökümətin maliyyə vəziyyəti ağır idi. Siyasi sabitliyin pozulması, işsizliyin artması, pulun dəyərdən düşməsi ölkə əhalisində hökumətə inamsızlıq doğururdu. Hökümət kredit, vergi, bank və gömrük sahələrini tənzimləmək üçün bir sıra tədbirlər gördü.

Milli hökumətin büdcəsi aşağıdakı vergi növləri hesabına formalaşırdı:

1.Müstəqim (birbaşa) vergilər, torpaq, daşınmaz əmlak vergisi, dövlət gəlir vergisi, sənaye vergisi, kapital qoyuluşundan gələn gəlir vergisi, hərbi mükəlləfiyyət vergisi, notarial vergi;

2.Dolayı vergilər - tütün, papiros kağızları, şəkər, çay, ağ neft, benzin, kerosin, sürtkü yağlarından və digər neft məhsullarından tutulan vergi, gömrük rüsumu və gəlirləri. Dolayı vergi –ölkənin özündə satılan məhsulların dəyərinə əlavə edilən məbləğlərdən gizli

şəkildə vergi tutulmasını əks etdirir. Bu vergi növünə əlavə dəyər vergisi, aksizlər, alış-satış vergiləri və s. daxildir.

3.Möhür haqqı-məhkəmə, kargüzarlıq, sənəd yazışmalarından daxil olan gəlirlər;

4.Hökumət inhisarlarına aid vergilər - mədən, poçt, teleqraf, meşələrdən, balıq vətəgələrindən, pambıqçılıq təsərrüfatlarından gələn gəlirlər;

5.Dövlət dəmir yolundan daxil olan gəlirlər.

Cümhuriyyət hökuməti nəzərdə tuturdu ki, verginin ağırlığı varlıların üzərinə düşsün, varılılar daha çox, kasıblar isə daha az vergi versin. Hökumət maliyyə siyasətində mütərəqqi gəlir vergisi siyasətinə üstünlük verirdi. Bütün siyasi partiyalar, o cümlədən hökumət partiyası olan "Müsavat" da dolayı vergilərin ləğvi və mütərəqqi gəlir vergisinin tətbiq edilməsini istəsələr də, hökumət və parlament əlavə vəsait əldə edilməsi məqsədilə tez-tez dolayı vergilərin tətbiqinə məcbur olurdu. 1919-cu ilin əvvəlinədək dövlətin gəliri 600 mln manat idı ki, bunun da 400 mln manatı dolayı vergilərin, xüsusən neft məhsullarının payına düşürdü. Lakin mövcud şəraitdə kənd təsərrüfatının əsas özəyini əkinçilik təşkil etdiyi halda, ona müasir vergi sistemi tətbiq etmək çox çətin məsələ idi.

Vergi siyasətindəki vəziyyəti ağırlaşdıran səbəblərdən biri o idi ki, bütün yerlərdə vergilərin təyin edilməsi və yığılmasını həyata keçirən struktur orqanları yox idi, o zaman vergiləri qəza rəisləri yığırdılar. Maliyyə Nazirliyi nəzdindəki müvafiq vergi şöbəsi vergi növlərini və ölkə ərazisini bütünlüklə əhatə edə bilməmişdi.

1919-cu ilin iyulunda parlament Maliyyə Nazirliyi nəzdində vergi müfəttişi vəzifəsini təsis etdi, ona vergi müvəkkillərinin və vergi məntəqələrinin fəaliyyətini nəzarətində saxlamaq və təftiş etmək səlahiyyəti həvalə olundu. Maliyyə sistemini ciddi böhrandan xilas etmək üçün yüksək səviyyəli mütəxəssis kadrlar tələb olunurdu.

Pulun sürətli emissiyası (dövriyyəyə buraxılması) hökuməti "Bakı bonu" adlanan yeni pullar kəsməyə vadar edirdi. Bakı

Sovetinin hakimiyyəti dövrü (noyabr 1917 - iyul 1918) emissiya sahəsində hər hansı bir qayda-qanunun olmaması ilə səciyyələnirdi.

Bakının bolşeviklərdən azad edilməsi ərəfəsində Azərbaycan hökuməti Gürcüstan və Ermənistan hökumətləri ilə keçmiş Zaqafqaziya Komissarlığının bonlarının birgə buraxılması haqqında razılığa gəldilər. Bakı bolşeviklərdən azad edildikdən sonra hökumət Bakı bonlarını dövriyyədə saxlamaqla, pul kəsilməsini davam etdirmək əzmində olduğunu bildirdi. Cümhuriyyət zamanı ölkədə tədavüldə 4 valyuta var idi: çar hökuməti tərəfindən kəsilmiş (Nikolayevski) rubllar, Müvəqqəti hökumətin kəsdiyi rubllar (Kerenkalar), Tiflisdə buraxılmış Zaqafqaziya bonları və nəhayət, Bakı bonları. Bütün bu valyutalar qanuni ödəniş vasitəsi olaraq dövriyyədə idi.

1918-ci il sentyabrın 22-də hökumət Bakı bonlarının (bon-pul nişanı) dövriyyəyə buraxılması haqqında qərar çıxardı. Qərara uyğun olaraq, 40 manat (Bakı bonu) 1 Türkiyə lirəsinə bərabər idi. Başqa pul vahidlərinin dövriyyədən çıxarılması hələ nəzərdə tutulmurdu.

Vəziyyəti çətinləşdirən bir də o idi ki, qonşu Gürcüstan Azərbaycan hökumətindən Zaqafqaziya bonları buraxmağı tələb edirdi. Bu isə çoxlu xərc tələb edirdi. 1918-ci il oktyabrın 28-də Azərbaycan Cümhuriyyəti Nazirlər Kabinetinin iclasında Gürcüstan hökumətinin xahişi ilə növbəti Zaqafqaziya bonlarının kəsilməsi haqqında məsələ müzakirə olundu. Azərbaycan hökuməti əlavə olaraq daha 80 milyon kağız pul kəsməyə razılıq verdi. Belə şəraitdə milli valyutanın yüksək kursunu qoruyub saxlamaq çox çətin idi. Hər iki qonşu respublika sərt maliyyə siyasəti apararaq çalışırdılar ki, ixrac etdikləri mala görə ödənişi öz milli valyutaları ilə aparsın.Lakin Azərbaycan hökuməti buna nail ola bilmədi, hökumət ixrac olunan maldan gələn gəliri tez-tez müxtəlif valyutalarla almaq məcburiyyətində qalırdı. Əsas vəzifə inflyasiyanı (qiymətlərin ümumi artımı nəticəsində pulun alıcılıq qabiliyyətinin azalması) dayandırmaq idi, lakin iqtisadiyyatın böhranlarla müşayiət olunan o dövrki vəziyyətində bunu etmək mümkün deyildi.

Kağız pulla bağlı əsas məsələlərdən biri də dövriyyədəki valyutaların paralelliyi idi. O, getdikcə daha çox bon kəsməyi tələb edən Gürcüstanın daimi təzyiqi ilə müşayiət olunurdu. 1920-ci il yanvarın 27-də Azərbaycan hökuməti daha 20 milyon Zaqafqaziya bonu kəsməyə razılıq verərək, Gürcüstan qarşısında şərt qoydu ki, bu kəsilmiş bon Zaqafqaziya kağız pulu olacaq, belə ki, hər bir dövlətin dövriyyədə özünün valyutası olmalıdır. Bununla bərabər, xarici işlər naziri M.Y.Cəfərov hökumətdən əlavə olaraq daha 70 milyon Zaqafqaziya bonu kəsməyi xahiş etmiş və əsaslandırmışdı ki, 20 milyon Gürcüstan dövlətinin yalnız birgünlük xərclərini ödəyir. M.Y.Cəfərov bunu həm də siyasi motivlə əsaslandıraraq göstərmişdi ki, əks təqdirdə qonşu Gürcüstan və Ermənistan separat (ayrıca) müqavilə bağlaya bilərlər. Az sonra, belə bir müqavilə bağlandı. 1919-cu il fevralın 12-də Gürcüstan və Ermənistan 320 milyon Zaqafqaziya bonu kəsmək haqqında razılığa gəldilər. Azərbaycan hökuməti bu hadisədən ciddi narahat olduğunu bildirdi. Qonşu respublikalarda Bakı bonunu qəbul etmirdilər, amma Ermənistan və Gürcüstanın pulları Azərbaycanda sərbəst işlədilirdi. Dövlətin ərazisində 4 pul vahidinin qeyri-bərabər bazar qiymətilə işlədilməsi və emissiya hüququndan həddən ziyadə istifadə edilməsi kimi qeyri-nominal vəziyyət ölkədə maliyyə iflasına səbəb ola bilərdi.

1919-cu il aprelin 14-də Baş nazir N.Yusifbəyli göstərdi ki, pul-maliyyə siyasətini düzgün qurmaq üçün pul kəsilməsi məsələsində mütləq Bakı ilə Tiflis arasındakı paralelliyi aradan qaldırmaq lazımdır. O hesab edirdi ki, əgər Azərbaycan pulunun kursunu ixrac olunan malların köməyi ilə tənzimləmək mümkün olarsa, onda əlavə pul kəsməyə ehtiyac qalmayacaq. Pulun dəyərini qaldırmaq məqsədilə o, neftin yalnız Azərbaycan puluna satılmasını təklif edirdi. Maliyyə Nazirliyinin 1920-ci il 22 aprel tarixli qərarına uyğun olaraq, Batuma aparılan neft və neft məhsulları üçün gömrükdən aksiz haqqını ancaq Azərbaycan manatı ilə alırdılar.

1919-cu ilin iyulunda Azərbaycan birjasında Cümhuriyyət valyutasının kursu xarici valyutalara münasibətdə aşağıdakı kimi

idi: 1000 rubl (kerenka) - 1850 manat; 500 rubl (romanovka) -1600 manat; 100 rubl (romanovka) - 350 manat; 1 funt-sterlinq -310-315 manat; 1 dollar- 250 manat; 1 Türkiyə qızıl lirəsi - 390 manat; 1 rus qızıl rublu - 420 manat.

Lakin sonrakı dövrdə inflyasiya daha da gücləndi. Buna görə də hökumətin maliyyə sahəsində başlıca vəzifəsi emissiyanı dayandırmaq, dövriyyədən pulları çıxarmaq üçün başqa üsullar tapmaqdan ibarət idi.

Dövlətin emissiya siyasətinin tənzimlənməsi sahəsindəki cəhdləri milli bank sisteminin yaradılması problemi ilə üzləşdi, aydın olurdu ki, milli bank təsis edilməzsə, hökumət müstəqil maliyyə sistemini yürüdə bilməyəcək. İlk əvvəldən bu məsələdə hökumət ingilis komandanlığından asılı vəziyyətə düşmüşdü. Azərbaycandakı Antanta komandanlığı bütün inzibati hakimiyyəti öz əlində cəmləşdirmiş, bir çox mühüm strateji obyektlərin maliyyələşdirilməsini milli hökumətin üzərinə qoymuşdu, bank sistemi ingilis komandanlığının nəzarəti altında idi. İngilislər ölkədə bütün maliyyə əməliyyatlarında Rusiya Bankı Bakı şöbəsinin yeganə səlahiyyətli orqanı kimi qalmasını təkid edirdilər. Dövlət Bankının yaradılmasına mane olurdular. Buna baxmayaraq parlament qanun layihəsini 1919-cu il avqustun 23-də qəbul etdi.

Qanuna görə, bankın əsas vəzifəsi pul dövriyyəsini emissiyanı yerinə yetirmək, valyuta məsələlərini tənzimləmək,ölkənin düzgün hesab balansını müəyyənləşdirmək və özəl banklara nəzarət etməkdən ibarət idi. Banka Bankirlər Şurası rəhbərlik edirdi. 1919-cu il sentyabrın 18-də Dövlət Bankının nizamnaməsi təsdiqləndi. 1919-cu il sentyabrın 1-dən fəaliyyət göstərən Gəncə bankı isə oktyabrın 25-də verilmiş qanunla Dövlət Bankının şöbəsi statusunu aldı. Azərbaycanda bu dövrdə Dövlət Bankından başqa bir sıra özəl banklar da mövcud idi: H.Z.Tağıyev və başqalarının təsis etdikləri Bakı Ticarət Bankı, Bakı-İran Bankı, Tiflis Ticarət Bankının Bakı filialı, idarə heyəti Moskvada yerləşən Birləşmiş Bankın filialı və başqaları.

Dövlət Bankının, əmanət banklarının, xırda kredit və digər maliyyə strukturlarının təsis edilməsi maliyyə-kredit siyasətini möhkəmləndirdi, pul tədavülü üzərində nəzarəti gücləndirdi.

Lakin milli valyutanın möhkəmləndirilməsi üçün tədbirlər görülməsinə baxmayaraq, onu Azərbaycan ərazisində yeganə ödəniş vasitəsinə çevirmək mümkün olmamışdı. Azərbaycan hökuməti Gömrük qanunvericiliyinin yaradılması sahəsində də bir sıra real addımlar atmışdı. Özünün mövcudluğu ərzində parlament gömrük sahəsində 20-dək qanun qəbul etmişdi. Nəticədə 1920-ci ilin əvvəlində respublikada formalaşmış dövlət gömrük xidməti mövcud idi. Bu qanunlara görə, bir sıra sərhəd məntəqələrində gömrük postları təşkil etmək nəzərdə tutulurdu. Parlamentin qərarı ilə 1919-cu il martın 27-də gömrük idarəsi yenidən quruldu. Maliyyə Nazirliyinin nəzdində gömrük rüsumu şöbəsi təşkil edildi. Bu şöbə gömrük rüsumunu tənzimləməli idi.

Cümhuriyyətin iqtisadi tədbirləri sırasında ən əhəmiyyətlisi qonşu və xarici dövlətlərlə iqtisadi əlaqə yaratmaqdan ibarət idi. Bu sahədə hökumət 1918 iyunun 4-də Türkiyə, 1919-cu il mayın 23-də İran, İngiltərə, Amerika, Fransa, İtaliya, Gürcüstan, Ermənistan, Dağıstan, Orta Asiya dövlətləri ilə iqtisadi əlaqə yaratmağa nail olmuşdu. Bəzi dövlətlərlə ticarət müqaviləsi bağlanmış, bəziləri ilə isə şifahi razılıq əldə edilmişdi.

Sənaye.Cümhuriyyət dövründə ölkədə agır, yüngül və yeyinti sənayesinin bir sıra müəssisələri, nəqliyyat və rabitə sistemi öz fəaliyyətini davam etdirirdi.1919-cu il aprelin 14-də parlamentin növbəti iclasında Baş nazir N.Yusifbəyli göstərmişdi ki, Azərbaycanın müvəffəqiyyətləri, neft sənayesinin inkişafı xarici ticarət əlaqələrindən çox asılıdır. Odur ki, Azərbaycan neftinin ən mühüm istehlakçısı olan Rusiya ilə iqtisadi əlaqələrin bərpası günün vacib məsələsidir. İqtisadiyyatdakı ağır vəziyyətdən əsas çıxış yollarından biri kimi qonşu ölkələrlə, ilk növbədə, sovet Rusiyası ilə xarici ticarət əlaqələrini yaxşılaşdırmaq lazım idi.

H.Z.Tağıyev o dövrdə manatın kursunun aşağı düşməsinin bir sıra səbəblərini dövlətin xarici ticarət üzərində nəzarətsizliyində,

maliyyə siyasətinin düzgün aparılmamasında görürdü. H.Z. Tağıyev yazırdı ki, Azərbaycan mallarının xaricə ixracı qadağan edildiyinə görə, Azərbaycan valyutası xaricdə lazımsız olub. Doğrudan da 1919-cu ildə Azərbaycan parlamenti Maliyyə nazirinin təklifi ilə xaricə mal ixracatı, xüsusilə mazut və xam neftin ixracı üzərinə ikiqat aksiz vergisi qoymaq haqqında qanun qəbul etmişdi.

Rusiyanın Azərbaycanın müstəqilliyini tanımaq istəməməsinə baxmayaraq, sovet Rusiyası ilə Azərbaycan hökuməti arasında ticarət haqqında danışıqlar aparılırdı. Bu danışıqlar nəticəsində 1920-ci il martın 30-da sovet Rusiyası ilə Azərbaycan arasında ticarət müqaviləsi imzalandı. Rusiya ilə Azərbaycan hökuməti arasında hələ ticarət müqaviləsi bağlanmamışdan əvvəl Bakı və Həştərxan bolşevikləri dövlətdən gizli yolla Bakıdan Rusiyaya neft və neft məhsulları axıdırdılar. Bakı və Rusiya arasında dəmir yolu əlaqəsi kəsildiyi üçün yeganə ticarət yolu Xəzər dənizi idi. Bu cür talançılığın qarşısını almaq üçün Azərbaycan hökuməti neft məhsulların istehsalı və daşınması üzərində 1919-cu il 26 may tarixli qərarı ilə ciddi nəzarət yaratdı. Qərara əsasən Həştərxana dəniz yolu bağlandı. Əlbəttə bu, Cümhuriyyətin iqtisadiyyatı üçün heç də əlverişli deyildi. Məlumdur ki, XIX əsrin 90-cı illərindən başlayaraq Rusiya imperiyasında istehsal olunan neftin 80-90% Bakının payına düşmüşdü, bu isə dünya neft istehsalının təxminən yarısını təşkil edirdi. Birinci Dünya müharibəsinin ilk dörd ili ərzində, yəni 1914-cü ildən 1917-ci ilə qədər Bakı ildə 7 milyon ton neft istehsal etmişdi ki, bu da dünyada həmin vaxt istehsal olunan neftin ümumi həcminin 75%-nə bərabər idi. Müharibə edən ölkələrin Bakı regionuna marağı da buradan irəli gəlirdi.

Neft sənayesini böhrandan çıxarmağa çalışan Azərbaycan Cümhuriyyəti bu sahədə konkret addımlar müəyyənləşdirdi. Azərbaycan parlamenti neft istehsalı və satışını öz nəzarətinə aldı, neft sənayesinin rentabelliyinin yüksəlməsinə yardım edən bir sıra qanunverici sənədlər qəbul etdi.

Bu məqsədlə müxtəlif idarələrdə neft məhsulları ilə bağlı sui-istifadə və cinayətləri təhqiq etmək üçün xüsusi təftiş-istintaq

komissiyası təsis olunmuşdu. 1919-cu il iyulunda qəbul olunmuş qanunla həmin komissiyaya geniş səlahiyyətlər verilmişdi.

AXC hökuməti Bakı XKS-nin sənayedə, nəqliyyatda və digər iqtisadi sahələrdə milliləşdirmə tədbirlərini ləğv etdi. 1918-ci il oktyabrın 7-də hökumətin neft mədənləri və zavodlarını, Xəzər ticarət donanması gəmilərini öz sahiblərinə qaytarmağı nəzərdə tutan dekreti nəşr olundu və neft sənayesində xüsusi mülkiyyət prinsipi bərpa edildi. Belə bir tədbir ondan irəli gəlmişdi ki, milliləşdirmə nəticəsində neft sənayesində olan kəskin böhran bütün sənaye sahələrinin işinə mənfi təsir göstərmişdi. Səkkiz saatlıq iş günü, müştərək müqavilə və istehsal üzərində fəhlə nəzarəti ləğv edildi.

Rusiya bazarı respublika üçün məlum səbəblərə görə itirildiyindən bütün diqqəti Azərbaycanın dünya bazarına neft ixracına imkan verən Bakı-Batum neft kəmərindən istifadə etməyə yönəltmək lazım idi. Onun tikintisinə hələ 1897-ci ildə başlanmış, 1907-ci ildə isə başa çatdırılmışdı. Ümumi uzunluğu 830 km olan neft kəməri Cənubi Qafqaz Dəmir yolu boyunca uzanıb gedirdi.

Bakı neft sənayeçiləri onun məhz neft kəməri kimi inşa edilməsinə lap başlanğıcda etiraz etmişdilər. Uzun və gərgin mübarizədən sonra Cənubi Qafqaz Dəmir Yolu İdarəsinə Bakı - Batum magistral boru xəttini yol boyu inşa etməyə icazə verilmişdi. Amma bu dəfə kəmərlə ağ neftin nəqli nəzərdə tutulduğundan onun inşasına neft sənayeçiləri etiraz etmədilər. Çünki bu halda Bakı neft emalı zavodları sahiblərinə Qara dəniz sahillərində rəqiblər meydana gəlməsi təhlükəsi sovuşurdu, Bakının mövqeyi möhkəmlənirdi. Təəssüf ki, sonralar məhz 1917-ci il iyulun 1-də ağ neft kəməri qara neft kəmərinə çevrildi. Azərbaycanın müstəqilliyi elan olunduğu məqamda neft kəməri işləmirdi. Bakı-Batum marşrutu ilə neftin ötürülməsi yalnız 1918-ci il dekabrın 12-də bərpa olundu. Bunun ardınca 1918-ci il dekabrın 26-da Azərbaycan və Gürcüstan respublikaları arasında "Azərbaycan dəmir yolunun Zəyəm stansiyasından Gürcüstan dəmir yolunun Saloğlu

stansiyasınadək neft ötürülməsinin müvəqqəti qaydaları" haqqında tranzit müqaviləsi bağlandı.

Neft əsasən Bakı-Batum kəməri ilə nəql edilirdi. Azərbaycan ilə Türkiyə arasında bağlanmış müqaviləyə görə, Azərbaycan Türkiyəyə neft göndərməyi öz öhdəsinə götürmüşdü. Lakin Türkiyəyə göndəriləcək neft Batumdan keçdiyi üçün Gürcüstan hökumətinin razılığı lazım idi. Azərbaycan və Gürcüstan arasında razılaşmadan sonra Gürcüstan hökuməti Bakıdan Türkiyəyə göndərilən neftin Batum vasitəsilə Aleksandropola ötürülməsinə rəsmi icazə verdi.

Paris Sülh Konfransında Azərbaycan və Almaniya nümayəndələri iki dövlət arasında iqtisadi, ticarət əlaqələri yaratmaq haqqında şifahi razılıq əldə etmişdilər.1918-ci ilin oktyabrında Almaniya bu məqsədlə öz nümayəndələrini Azərbaycana göndərmişdi. Bu konfransda Azərbaycan nümayəndələri Amerika, İtaliya, Fransanın nümayəndələri ilə də iqtisadi əməkdaşlıq etmək imkanını müzakirə etmişdilər.

1920-ci ilin yanvarında Azərbaycan ilə ABŞ arasında bağlanan ticarət müqaviləsinə əsasən, Azərbaycan Batum vasitəsilə oraya neft və neft məhsulları göndərməli, əvəzində isə oradan ərzaq məhsulları almalı idi.

O zamankı mürəkkəb siyasi şəraitdə Azərbaycanı bir çox dövlətlər, o cümlədən İngiltərə özlərindən asılı vəziyyətə salmağa çalışırdı. 1918-ci il noyabrın 17-də "Bakı və onun neft mədənlərini işğal etmək" niyyəti ilə general Tomsonun başçılığı ilə ingilis qoşunları Bakıya daxil olmuşdu. İngilis komandanlığı burada ticarət, sənaye, nəqliyyat və s. üzərində bir sıra məhdudiyyətlər qoysa da, Azərbaycan hökumətinin qəti etirazı ilə bu məhdudiyyətlər ləğv olundu. Neftin müstəqil Azərbaycan dövlətinin əlində olması, ümumiyyətlə, Azərbaycanın Rusiyadan ayrılması ingilislərin xeyrinə idi. Ölkənin neft ticarətində xarici şirkətlərin rolu müəyyən qədər saxlanılmışdı. Məsələn, Azərbaycanın ticarət palatası neftin satışı və qiyməti haqqında müstəqil hərəkət edə bilmirdi. Bakıdan Batuma göndərilən ağ neftin satışı və qiyməti

ingilis kampaniyası Şell, Şibayev,"Oleum neft cəmiyyəti" və s. əlində idi. Bunlar təkcə bir ay ərzində milyonlarla pud ağ neft ixrac etmişdilər. Mazut ixracı da ingilis komandanlığının əlində cəmlənmişdi.

Xammalın, ilk növbədə neft məhsullarının ixracına qoyulan qadağaların götürülməsinə kəskin ehtiyac yaranmışdı.

Parlamentin özündə bu məsələyə ikili münasibət mövcud idi. Azad ticarət tərəfdarları ixraca qoyulmuş bütün qadağaların götürülməsində israrlı idilər. Belə olduqda ölkə daxilində mal qıtlığı yarana bilərdi. Ticarət azadlığı verilməsinin ilk nəticələri doğrudan da acınacaqlı oldu: ixrac olunan malların taxıl, pambıq və s. əvəzində Azərbaycan bazarı heç bir dəyəri olmayan kağız pulla doldurulduldu. Milli hökümət qonşu Gürcüstanla da iqtisadi əlaqə yaratmışdı. Hər iki ölkə arasında 1919-cu ilin iyulunda ticarət və nəqliyyat müqaviləsi bağlanmışdı. Bu müqaviləyə əsasən, Gürcüstan Batum vasitəsilə Bakı neftinin xaricə ixracına imkan yaratmalı idi. Gürcüstan ilə Azərbaycan hökuməti arasında ticarət və nəqliyyat müqaviləsinə əsasən, Azərbaycandan tranzit yolla xarici ölkələrə mal aparılmasına tam sərbəstlik verilirdi. Gürcüstan ilə Azərbaycan arasında bu müqavilə imzalanmamışdan əvvəl 1918-ci ildə neft kəmərinin texniki müqaviləsi imzalanmışdı, həmin müqaviləyə görə, Bakı nefti bu kəmər vasitəsilə bir sıra xarici ölkələrə axıdılırdı. Neft ixracında dəmiryol sistemlərindən də istifadə olunurdu. Azərbaycana birinci növbədə əhalinin ilkin zəruri ərzaq məhsulları və kağız pula tələbatını təmin etmək lazım idi. Buna görə də hökumət nefti ərzağa dəyişdirməyi qərara aldı. Azərbaycan Gürcüstandan neftin əvəzinə puldan başqa, odun kömürü, şəkər, habelə avtomobil şinləri alırdı. Gürcüstan Azərbaycanı kifayət qədər şəkər və taxılla təmin edə bilmədiyi üçün hökumət Ukraynaya müraciət etmiş, amma bu dəfə də Gürcüstanın ərazisindən Qara dənizədək tranzit kimi istifadə olunmuşdu.

İtaliyadan hərbi və iqtisadi yardım almaq, əvəzində isə oraya neft məhsulları göndərilməsi haqqında İtaliya missiyasının rəhbəri ilə N. Yusifbəyli intensiv danışıqlar aparmışdı.

M.Ə.Rəsulzadə yazırdı ki, az keçmədi ki, Avropanın, Amerikanın elçiləri Azərbaycanın paytaxtını ziyarət edərək onu tanıdıqlarını və onunla hər növ mədəni və ticarət əlaqəsinə girmək istədiklərini bildirdilər.

Sosial problemlərin həll olunmaması hökumət böhranlarına gətirib çıxarır, siyasi qüvvələr arasındakı ixtilafların daha da dərinləşməsinə şərait yaradırdı.

Azərbaycan hökumətinin sosial siyasəti əsasən aşağıdakı istiqamətlərdə aparılırdı: 1.Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması; 2.Sahibkarlar və fəhlələr arasındakı münaqişələrin həll edilməsi; 3.Fəhlə qanunvericiliyinin hazırlanması; 4.Sosial təminat sahəsinin inkişafı; 5.Sosial problemlərin həlli istiqamətində müxtəlif siyasi qüvvələrlə əməkdaşlığa nail olunması, xüsusi təşkilatlarla, həmkarlar ittifaqları ilə müvafiq birgə fəaliyyətin əlaqələndirilməsi.

1919-cu il yanvarın 21-dən Əmək Nazirliyi fəaliyyət göstərməyə başladı. Sosialistlərin nümayəndəsi A.Səfikürdski əmək naziri təyin edildi. Əmək Nazirliyi mədən və fabriklərdə əmək mühafizəsinin təmin edilməsi barədə qərar çıxardı. O, sahibkarlardan əməyin düzgün təşkil olunmasına diqqət yetirmələrini tələb etdi. Əmək Nazirliyi tərəfindən kollektiv müqavilə bərpa edildi. Hökumət həmçinin neft sənayesinin böhrandan çıxması üçün maliyyə vəsaitləri ayırır, onların müəyyən hissəsi də fəhlələrin əmək haqlarının ödənilməsinə xərclənirdi. Ölkədə müşahidə olunan siyasi sabitsizlik, xarici təhlükənin mütəmadi mövcudluğu, Birinci Dünya müharibəsinin dağıdıcı nəticələri və Rusiyada cərəyan edən proseslər üzündən Azərbaycanın iqtisadi cəhətdən təcrid olunması, hakimiyyət strukturlarının fəaliyyətində dürüst əlaqələndirmənin olmaması sosial-iqtisadi islahatların keçirilməsini ləngidir, bu da iqtisadi böhranın daha da dərinləşməsinə gətirib çıxarırdı. Ancaq hökümət ölkədə iqtisadi vəziyyətin yaxşılaşması, sosial problemlərin həlli istiqamətində ciddi addımlar atmağa cəhd edirdi. Əsasən obyektiv səbəblərdən - xarici təzyiq və təcavüzün baş verməsi ucbatından onlar bu məqsədə nail ola bilmədilər.

Mədəni quruculuq. Azərbaycan Cümhuriyyəti öz fəaliyyətində milli mədəniyyətin inkişaf etdirilməsinə xüsusi diqqət yetirirdi. Müharibələr və daxili qarışıqlıq nəticəsində dağıdılmış məktəblər şəbəkəsinin bərpa edilməsi, məktəblərin yeni şəraitə uyğunlaşdırılması, təhsil müəssisələrinin milliləşdirilməsi, milli incəsənətə kömək göstərilməsi kimi sahələrdə hökumət tərəfindən mühüm quruculuq tədbirləri görülürdü.

Cümhuriyyətin yaranması ərəfəsində sosial-mədəni sahədə ağır vəziyyət mövcud idi. Əgər 1914-cü ildə Azərbaycanda bütün tiplərdən olan 976 məktəb var idisə və bunlarda 73,1 min şagird təhsil alırdısa, 1919-1920-ci təhsil ilində cəmisi 643 ibtidai və 23 orta məktəb fəaliyyət göstərirdi. İbtidai məktəblərdə 48.078,orta məktəblərdə isə 9.611 şagird oxuyurdu. Məktəb sisteminin dağıdılmasını dayandırmaq Cümhuriyyətin qarŞısında mühüm vəzifə kimi dururdu. Təhsil sistemini təşkil edən və ona başçılıq edən əsas orqan Xalq Maarif Komissarlığı (N.Yusifbəyli) idi. 1918-ci il iyunun 30-da Xalq Maarif Komissarlığının ştatı təsdiq edildi, nazirlikdə xalq təhsili və peşə təhsili, ali və orta ixtisas təhsili üzrə 3 şöbə yaradıldı.Təhsilin hansı dildə aparılması da vacib məsələ idi. Hökümətin 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan dili dövlət dili elan edildi. İlk tədbirlərindən biri təhsil müəssisələrinin milliləşdirilməsi (dövlətin ixtiyarına keçməsi) oldu. Azərbaycan hökuməti tədris işini milliləşdirərkən azlıqda qalan millətləri diqqət mərkəzində saxlayırdı.Hökümətin 1918-ci il 7 sentyabr tarixli qərarı ilə, əgər sinifdə 10 nəfərdən az olmayaraq başqa millətdən olan şagird varsa, onlara öz dillərində ana dili və ilahiyyat dərsləri tədris olunurdu. Xalq təhsilini milli zəmin üzərində qurmaq üçün müəllim kadrlarına və dərs vəsaitinə böyük ehtiyac var idi. Bunun üçün 1918-ci ilin iyunun 22-də Azərbaycan hökuməti Türkiyədən müəllim kadrları dəvət etmək və dərs vəsaitləri hazırlamaq haqqında xüsusi qərar qəbul etdi. Hökümət bu məqsədlə Əhməd bəy Ağayevi İstanbula ezam etməyi Xalq Maarif Nazirliyinə tapşırdı.

Nazirlər Şurasının 1918-ci il 28 avqust tarixli qərarı ilə bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılır,

eyni zamanda dövlət dili icbari qaydada tədris olunurdu. Şagirdlər orta məktəblərin beşinci sinfindən başlayaraq tədris müəssisəsini bitirənə qədər rus dilində oxuyur, Azərbaycan türk dilini isə məcburi fənn kimi öyrənirdilər. Milliləşdirmə tədbirlərinin şagirdlərin bir hissəsini məktəbdən kənarda qoya biləcəyini nəzərə alan hökumət 1918-ci ilin noyabrında öz qərarlarında dəyişikliklər apardı. Müəyyən edildi ki, yaşayış məkanlarında cəmisi bir təhsil müəssisəsi varsa, yuxarı hazırlıq siniflərindən başlayaraq tədrisin rusca aparıldığı paralel siniflər açılmalı, müəyyən yerdə eyni tipli bir neçə tədris müəssisəsi olarsa, onların bir hissəsi milliləşdirilməli, qalanlarında isə dövlət dili məcburi fənn kimi keçilməklə tədris rusca aparılmalıdır.

Pedaqoji kadr və müəllim çatışmazlığı, lazımi dərsliklərin kifayət qədər olmaması, əhalinin tərkibindəki rus və erməni azlıqlarının Azərbaycanın dövlətçiliyini qəbul etməməyə meyllənmiş müqaviməti təhsilin milliləşdirilməsini əngəlləyirdi. Lakin hökumət müstəqil milli təhsil siyasətini davam etdirdi. 1919-cu ilin sonuna Bakı politexnik və kommersiya məktəbləri, iki kişi və üç qız gimnaziyası istisna olunmaqla, bütün orta məktəblər milliləşdirilmişdi. Tədris müəssisələrinə qəbul zamanı azərbaycanlılara bəzi güzəştlər edilirdi. Görülmüş tədbirlər nəticəsində şagirdlərin ümumi sayı içərisində azərbaycanlıların xüsusi çəkisi artdı. Əgər 1914/1915-ci tədris ilində 9643 nəfər orta məktəb şagirdindən (müəllimlər seminariyaları çıxılmaqla) ancaq 1137 nəfəri azərbaycanlı idisə, 1919/1920-ci tədris ilində 9611 şagirddən 3115-i azərbaycanlı idi. Hökumət məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəb binalarının təmiri, bərpası və yeni məktəblərin tikintisi üçün vəsait ayrılması üzrə tədbirlər görürdü.

Qadınların təhsilinə xüsusi diqqət yetirilirdi. Orta təhsil müəssisələrində azərbaycanlı qızların sayı artırdı. Məsələn, əgər 1918/1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmisi 4 azərbaycanlı qız oxuyurdusa, 1919/1920-ci tədris ilində onların sayı 296 nəfərə çatmışdı.

Hökumətin həll etməli olduğu ciddi məsələlərdən biri də maarif işçilərinin maddi təminatı, onların güzəranının yaxşılaşdırılması idi.1919-cu ilin sentyabrında parlament qulluqçuların məvacibinin artırılması haqqında qanun qəbul etdi. Bu qanuna görə, müəllimlərə xeyli imtiyazlar verilməli, əlavə işlər üçün onlara əmək haqqı xüsusi cədvəl üzrə ödənilməli idi.

Hökumətin ən mühüm təşəbbüslərindən biri - əlifba islahatının keçrilməsi idi.1919-cu ilin martında X.Məlikaslanovun sədrliyi ilə əlifba islahatı üzrə xüsusi komissiya yaradıldı. Təqdim olunmuş layihələrdən ancaq müəllim Abdulla bəy Əfəndiyevin layihəsi parlament tərəfindən bəyənildi və yeni əlifba üçün əsas kimi qəbul edildi.

Pedaqoji kadrlara olan ehtiyacın ödənilməsi üçün Maarif Nazirliyi tərəfindən hər il respublikanın müxtəlif məntəqələrində dörd seminariya açılması nəzərdə tutulurdu. Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsi Qazax Şəhərinə köçürüldü və müstəqil seminariyaya çevrildi. 1919-cu ilin sentyabrında Bakıda kişi seminariyası açıldı. Lakin bu seminariyalar pedaqoji kadrların hazırlanması üçün kifayət deyildi. Parlamentin 1919-cu ilin iyulunda qəbul etdiyi qanuna əsasən, Qazax, Nuxa, Şuşa, Quba, Zaqatala, Salyan, Gəncə və Bakıda (sonuncu iki şəhərdə kişilər və qadınlar üçün) bir-birindən ayrı olan iki aylıq pedaqoji kurslar açıldı. Xaricdən, əsasən Türkiyədən müəllimlər dəvət olunurdu. Texniki təhsilin təşkili üçün də tədbirlər görülürdü. Gəncə stansiyasında dəmiryol və teleqraf xidməti işçiləri hazırlayan kurslar açılmışdı. Ən başlıca vəzifələrdən biri ali təhsilli kadrlar hazırlamaq idi. Buna görə də hökümət Bakı Dövlət Universitetinin, Kənd Təsərrüfatı İnstitutunun, Dövlət Konservatoriyasının açılmasını mühüm vəzifə kimi qarşıya qoymuşdu.

Kənd Təsərrüfatı üzrə orta təhsilin təşkili də mühüm məsələ idi. 1919-cu ilin noyabrında Əkinçilik nazirliyinin kənd təsərrüfatı şöbəsində kənd təsərrüfatının müxtəlif sahələri və balıqçılıq üzrə təlimatçılar hazırlayan iki illik kurslar təşkil edildi. İxtisaslı fəhlə kadrlarının hazırlanması üçün texniki kurslardan istifadə olunurdu.

Respublikada ali təhsilin təşkili məsələsi hökumətin qarşısında duran təxirəsalınmaz vəzifə hesab edilirdi. Hələ 1918-ci ilin avqustunda Azərbaycan hökuməti Tiflis Politexnik İnstitutunun maliyyələşdirilməsində iştirak etmək haqqında məsələni nəzərdən keçirmişdi. Maarif naziri N.Yusifbəyli təklif etmişdi ki, hökumət institutun maliyyələşdirilməsini onun Azərbaycan ərazisinə köçürülməsi şərti ilə öz üzərinə götürsün. Bakıda Pedaqoji İnstitutun açılması barəsində Maarif nazirliyi tərəfindən qanun layihəsi işlənib hazırlanmışdı. Bakı musiqi məktəbinin bazasında konservatoriya açılması məsələsi də gündəlikdə idi.

Bakı Şəhərində Universitetin açılmasına tezliklə nail olmaq məqsədilə professor V.İ.Razumovski başda olmaqla Universitet komissiyası təşkil edilmişdi. Komissiya qısa müddətdə universitetin təsis edilməsi haqqında qanun layihəsini, universitetin nizamnaməsini, həmçinin 1919-1920-ci tədris ili üçün müvəqqəti ştat və smeta cədvəllərini hazırlayıb təqdim etmişdi.

1919-cu il avqustun 21-də Universitetin təsis edilməsi haqqında qanun layihəsinin ilkin müzakirəsi göstərdi ki, parlamentin əksəriyyəti onun açılmasına razıdır.Qanun layihəsinin tərəfdarları M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Yusifbəyli, M.Hacınski, A. Əfəndizadə, S.M.Qənizadə, Ə.H. Qarayev, S. Ağamalıoğlu və b. göstərdilər ki, o xalqın maariflənməsinə, Azərbaycanda elmin inkişafına töhfə verəcək. Qanun layihəsinin əleyhdarları - Q.Qarabəyov, M.Əfəndizadə və b. universitetdə tədrisin Azərbaycan dilində deyil, rus dilində aparılması, azərbaycanlı müəllimlərin çatışmaması və maliyyə vəsaiti tapılmayacağını irəli sürürdülər.

M.Ə.Rəsulzadə qeyd etmişdi:"Universitetin açılması məsələsində iki fikir mövcuddur. Məsələyə müxalif münasibət onunla əsaslandırılır ki, bizdə kifayət qədər elmi kadrlar və mütəxəssislər yoxdur. Amma universitetin təsis edilməsi dövlətin əsas vəzifələrindən biri olmalıdır, buna görə də bütün maneələr aradan qaldırılmalıdır.

1919-cu il sentyabrın 1-də parlament Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Noyabrın

15-də ilk dərslər başladı. Qanunda Universitetin dörd fakültədən: tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət olduğu göstərilmişdi. Bakı Universitetinin ilk rektoru professor V.İ.Razumovski, tibb fakültəsinin dekanı professor A.M.Levin, tarix-filologiya fakültəsinin dekanı isə N.A.Dubrovski təyin olundular. Universitetdə dərs demək üçün Moskva universitetindən, Rusiyanın digər şəhərlərindən görkəmli alim və professorlar dəvət edildilər.Universitetin açılmasında böyük zəhməti olan M.Ə.Rəsulzadə tarix-filologiya fakültəsində "Osmanlı ədəbiyyatı" fənnindən mühazirə oxumuşdur.

İlk tədris ilində universitetdə təhsil alan tələbələrin sayı 877 nəfər idi, tarix-filologiya fakültəsinin 509 tələbəsindən yalnız 12 nəfəri azərbaycanlı idi. Tibb fakültəsinə 10 nəfər azərbaycanlı qızın qəbul edilməsi müsəlmanlar arasında əhəmiyyətli bir hadisə idi. AXC dövründə Bakıda, Tiflisdə, Gəncədə və başqa inzibati mərkəzlərdə ideya istiqamətinə görə bir-birindən uzaq 80-dən çox qəzet və jurnal çıxırdı. Milli mətbuat içərisində "Azərbaycan"(1918-1920) qəzetinin müstəsna yeri vardı. 1918-1920-ci illərin ideyalarını özlərində əks etdirən "İqbal", "Dirilik" və "Açıq söz"dən əlavə, "Müsavat" partiyasının rəsmi orqanı "İstiqlal" (1918-1920) qəzeti var idi. "Azərbaycan" qəzeti öz əməkdaşlarının aktual yazıları ilə yanaşı, eyni zamanda respublika hökumətinin rəsmi sənədlərini, qərar və fərmanları, parlament iclaslarından raportlar çap edirdi. Bununla da "Azərbaycan" qəzeti Cümhuriyyətin canlı salnaməsini və sənədli tarixini yazmışdı.

1919-cu il oktyabrın 15-də parlamentdə mətbuat haqqında qanun qəbul edilmişdi. Cümhuriyyət dövründə iqtidaryönlü mətbuatla yanaşı, Azərbaycan və rus dillərində təqribən 40 adda nəşr olunan müxalifət qəzetinin də ("Əxbar", "Al bayraq", "Zəhmət sədası", "Azərbaycan füqərası", "Bednota", "Raboçiy put", "Məşəl" və b.) fəaliyyət göstərməsi məlumdur. Bunların içərisində ən fəal və güclüsü kommunist mətbuatı ("Nabat", "Füqəra sədası", "Hürriyyət") idi. Milli mədəniyyətin təməlini təşkil edən ən mühüm amil dil və ədəbiyyatdır.1920-ci ilin martında Azərbaycan Teleqraf

Agentliyi yaradıldı. 1919-cu ilin noyabrında Parisdə olan Ə.Topçubaşov Eyfel radiostansiyası ilə çıxış etdi. Gəncədə radio stansiya Eyfel stansiyasına qoşuldu. Azərbaycan haqqında həqiqəti dünyaya yaymaq üçün Avropa ölkələrində mətbuat orqanı yaradıldı. 1919-cu ilin payızında Versaldakı Azərbaycan sülh heyəti "Azərbaycan haqqında informasiya bülleteni" buraxdı. ABŞ və Avropa ölkələrində yayılan informasiya bülletenində rəsmi materiallar, diplomatik yazışmalar, notalar, Azərbaycanın siyasi və iqtisadi həyatının xronikası verilirdi. Parlament 1 sentyabr tarixli iclasında 1919-1920-ci il 100 tələbənin xarici ölkələrin ali məktəblərinə təhsil almağa göndərilməsi üçün 7 mln vəsait ayırması haqqında qərar qəbul etdi. Dövlət təqaüdü hesabına təhsil alan tələbələr ali məktəbi bitirdikdən sonra hökümətin müəyyən etdiyi yerdə 4 il xidmət etməli idi. Yüz nəfərin 10-u Britaniyaya, 23-ü İtaliyaya, 45-i Fransaya, 9-u Türkiyəyə göndərildi. Rusiyadakı siyasi hadisələrlə bağlı oraya 13 nəfərin göndərilməsi müvəqqəti dayandırıldı. Yaşlı əhalini təhsilə cəlb etmək üçün dövlət hesabına savad kursları, qeyri-türklər üçün türk dili kursları təşkil edilmişdi. Cümhuriyyət dövründə poeziya daha çox dəbdə idi. M.Hadi, H.Cavid, A.Şaiq kimi məşhur romantiklər və "Cümhuriyyət şairi" Əhməd Cavad kimi böyük şairlər dəstəsi Azərbaycan istiqlalını tərənnüm edirdilər. Milli istiqlal hərəkatının tərənnümçüsü Ə.Cavad 28 mayla bağlı şeirdə istiqlal ideyasının xalqın öz qəlbində yanıb alovlandığını tərənnüm etmişdir. O yazırdı:

Sən qüdrətin aşıb, coşan vaxtında
Mələklərin gülüşündən yarandın!
Qələm əldə ilhamımı dinlərkən,
Sən qəlbimin duruşundan yarandın!

Bu dövrdə poeziyanın ən görkəmli nümunəsi Ə.Cavadın "Dalğa" kitabı idi. Bununla belə bu dövrü romansız düşünmək olmaz. A.Yusifzadənin "Sınıq qanad" əsəri 1918-1920-ci illərdə A.Şaiqin "Əsrimizin qəhrəmanları"ndan sonra meydana çıxan ikinci romandır.

O dövrün ciddi problemlərinə əks-səda verən müəlliflər içərisində ən fəalları C.Məmmədquluzadə, C.Cabbarlı və M.Məmmədzadə idi. M.Məmmədzadənin "Bakı uğrunda müharibə" pyesində xarici və daxili düşmənlərə qarşı mübarizə, Cümhuriyyət hökumətinin Bakıya köçürülməsi mərasimi və s. əks olunurdu. Gənc C.Cabbarlının "Ədirnənin fəthi", "Trablis müharibəsi", yaxud "Ulduz" faciələri, İ.Aşurbəylinin "Azərbaycan" pyesi dövrün dəyərli səhnə əsərləridir. Bunların arasında "Anamın kitabı" (C.Məmmədquluzadə) pyesi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan teatrının inkişafında "Müsəlman aktyorlar cəmiyyəti"nin yaradılması mühüm hadisə oldu.

1918-ci ilin oktyabrında Bakıda "Hacıbəyov qardaşları"nın müdiriyyəti tərəfindən yeni teatr truppası təşkil edildi. Müsəlman səhnə sənətinin bütün xadimləri onun tərkibinə daxil oldular. Şuşada "Hacıbəyov qardaşları"nın teatr müdiriyyətinin filialı təşkil edildi. Azərbaycanın mədəni həyatında teatr çox böyük rol oynayırdı. Hüseyn Ərəblinskinin ölümünün cəmiyyət və hökumət dairələrində doğurduğu əks-səda burada teatra necə əhəmiyyət verildiyinə dəlalət edir. Azərbaycan teatrının qonşu ölkələrin incəsənət xadimləri ilə tarixi əlaqələri genişlənirdi. 1918-ci ilin oktyabrında Tiflisdəki müsəlman artistlərinin truppası Türkiyəyə qastrola yola düşdü. Türkiyə jurnallarından biri yazırdı ki, bu qastrollar bizim üçün Azərbaycanın teatrı və onun həyatının digər tərəfləri barəsində məlumatlar almaq üçün gözəl vasitədir.

Ü.Hacıbəyovun rəhbərliyi ilə artistlər truppası Rəşt, Ənzəli və İranın digər şəhərlərində teatr tamaşaları verdi. 1920-ci ilin yazında Bakıdan Təbrizə teatr xadimləri qrupu göndərildi. Təbrizdə Şeyx Məhəmməd Xiyabani onları qəbul etdi və onlara xeyli kömək göstərdi.

Lakin 1918-1920-ci illərdə Azərbaycan teatrının inkişafını ziddiyyətlərdən xali, hamar bir proses kimi təsəvvür etmək düzgün olmazdı. Teatr və kino işçilərinin maddi vəziyyəti ağır idi. Onlar bəzən tətillər edirdilər.

Bu dövrdə kinematoqrafiya sənəti də inkişaf edirdi. Bakıda 16 kinematoqraf fəaliyyət göstərirdi və onlardan ancaq ikisinin (Muza və Mars) sahibi azərbaycanlı idi. 1918-ci ildə Ü.Hacıbəyovun "O olmasın, bu olsun" operettası ekranlaşdırıldı.

Arxitektura və heykəltaraşlıq sənəti sahəsində də müəyyən iş aparılırdı. 1918-ci ildə Bakının azad edilməsi zamanı şəhid olmuş Azərbaycan və Türkiyə əsgərlərinin şərəfinə ucaldılacaq kompleks abidənin layihəsi işlənib hazırlandı. Gəncədə o dövr üçün müasir olan üslubda Nizami Gəncəviyə abidə ucaldılması nəzərdə tutulurdu. Rəssam Bəhruz Kəngərli öz tablolarında, başlıca olaraq qaçqınların və uşaqların acınacaqlı vəziyyətini əks etdirirdi. O, qaçqınlar mövzusuna dair rəsm qalereyası yaratmışdı. A.K.Şeirşavidze və N.İ.Butkovskaya Azərbaycanda rəssamlıq studiyasının yaradılmasına kömək etdilər. Ədəbiyyatda canlanma milli ruhun güclənməsinə səbəb oldu. "Yaşıl qələm" ədəbi cəmiyyəti özündə görkəmli yazıçıları, şairləri və ictimai xadimləri birləşdirirdi. Əhməd Cavad, Cəfər Cabbarlı, Üzeyir Hacıbəyov, Əliabbas Müznib, Salman Mümtaz, Ümgülsüm və başqaları milli ruhun və müstəqillik ideyasının nümayəndələri idilər. 1918-ci ilin oktyabrında Bakıda yaradılmış "Türk ocağı" cəmiyyətinin fəaliyyətini xüsusi qeyd etmək olar. Cəmiyyətin məqsədi Azərbaycan və Osmanlı türkləri, habelə keçmiş Rusiya imperiyası ərazisində yaşayan türk xalqları arasında mədəni əlaqələri inkişaf etdirməkdən ibarət idi.Cəmiyyətin işində A.Şaiq, A.Kazımzadə,M.Ə.Rəsulzadə fəal iştirak edirdi.

Xaricdə Azərbaycanı təbliğ etmək üçün fransız dilində kitabçalar, sənədlər və materiallar nəşr olunurdu. Bunların içərisində Adilxan Ziyadxanlının "Azərbaycan" kitabını, Əkbərağa Şeyxülislamovun 1919-cu ildə Parisdə fransız dilində nəşr olunmuş "Qafqaz Azərbaycan Cümhuriyyəti" broşurasını, C.Hacıbəyov tərəfindən Versal konfransı üçün hazırlanmış materialları fərqləndirmək olar.

Tarixi yerlərin, şəhərlərin və yaşayış məntəqələrinin adları bərpa olunurdu. Hökumətin 1918-ci il 30 iyun qərarı ilə Yelizavetpol şəhəri yenidən Gəncə adlanmağa başladı, Qaryagin qəzası isə

əvvəlki Cəbrayıl qəzası adını aldı. Şəhərlərə, küçələrə görkəmli şəxsiyyətlərin, yazıçıların və şairlərin adları verilirdi.

Orta təhsil müəssisələrində nəzərdə tutulan islahatla əlaqədar olaraq, şərqşünas A.Zimin tərəfindən türk xalqlarının Şərqin ümumi tarixi ilə əlaqələndirilmiş tarixinin proqramı işlənib hazırlandı. Bu proqramda başlıca diqqət milli ictimai hərəkatlara verilirdi.

Müstəqillik dövründə Azərbaycanın mədəni həyatında "Səfa", "Nicat", "Nəşri-maarif" cəmiyyətləri kimi mədəni-maarif qurumları mühüm rol oynayırdı.

1919-cu ilin əvvəllərində Bakı və onun mədən-zavod rayonlarındakı mədəni-maarif cəmiyyətlərini birləşdirmək üçün müəyyən addımlar atıldı. 1919-cu ildə Balaxanı-Sabunçu, Bibiheybət və Ağşəhər fəhlələri üçün kitabxanalar açıldı. Həmkarlar ittifaqlarının nəzdində də kitabxanalar təşkil olunurdu. Müxtəlif nazirliklər öz əməkdaşları üçün kitabxanalar açırdılar. Parlamentin 1919-cu il sentyabrın 16-da qəbul etdiyi qanuna görə, xalq məktəbləri kitabxanalarına türk (Azərbaycan) dilində Türkiyədən yeni kitablar almaq üçün dövlət xəzinəsindən Xalq Maarifi Nazirliyinin sərəncamına 10.000 manat vəsait ayrıldı. 1919-cu ildə Bakıda ilk böyük kitabxana açıldı. Azərbaycan Cümhuriyyətində 11 kitabxana oxuculara xidmət edirdi.

Muzey işinin inkişaf etdirilməsi üçün parlament Milli İstiqlal Muzeyinin təşkil olunması barəsində qərar qəbul etmişdi.

III FƏSİL
Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Cümhuriyyətin süqutu

Cümhuriyyətin xarici siyasətinin əsas vəzifələri. Xarici siyasət Azərbaycan Cümhuriyyətinin prioritet istiqamətlərindən biri idi. İstiqlaliyyətin qorunub saxlanması daxildən daha çox, xarici amillərlə bağlı idi. Azərbaycanın dövlət müstəqilliyinin qorunması siyasətçilərdən və dövlət xadimlərindən hər an dəyişən vəziyyətə uyğun çevik siyasi manevretmə bacarığı tələb edirdi.

Cümhuriyyətin xarici siyasət idarəsinə 1-ci və 2-ci hökümət kabinetində Məmməd Həsən Hacınski, Hökümət Gəncədən Bakıya köçrüldükdən sonra 1918-ci ilin oktyabrında bu vəzifə Ə.M.Topçubaşova tapşırıldı. 3-cü hökümət kabinetində Fətəli Xan Xoyski Baş nazir vəzifəsi ilə yanaşı Xarici işlər naziri vəzifəsini də icra etmişdir. 4-cü hökümət kabinetində (14 aprel-dekabr1919) Məmməd Yusif Cəfərov, 5-ci hökümət kabinetində (dekabr 1919-aprel 1920) bu vəzifəni Fətəli Xan Xoyski tutmuşdur. Həmçinin Azərbaycan diplomatiyasının hazırlanmasında və həyata keçirilməsində M.Ə.Rəsulzadə, Ə.Ağayev, N.Yusifbəyli, Ə. Şeyxülislamov, C.Hacıbəyli, Y.V.Çəmənzəminli və digərləri yaxından iştirak etmişlər.

Qonşu dövlətlərlə mehriban münasibətlər yaratmaq Azərbaycan diplomatiyasının aparıcı istiqamətini təşkil edirdi. Cümhuriyyətin xarici siyasətini üç dövrə bölmək olar: Türkiyə oriyentasiyası dövrü (1918-ci il may-oktyabr); Qərb oriyentasiyası dövrü (1918-ci il noyabr-1920-ci il yanvar); geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü - (1920-ci il yanvar-aprel).

XX yüzilliyin əvvəllərindən Azərbaycanda genişlənən milli-azadlıq mübarizəsində onun öncülləri Osmanlı dövlətinə böyük ümid bəsləyirdilər. Bu dövrdə baş verən təlatümlü hadisələr Azərbaycanın türk-müsəlman əhalisinin həyatında milliyyətçilik ideyasının yayılmasına ciddi təkan verdi.

Balkan müharibələri dövründə (1912-1913) Rusiyada antitürk əhvali-ruhiyyəsinin qızışdırılması bir tərəfdən Qafqaz müsəlmanlarını ondan narazı saldı, digər tərəfdən isə Azərbaycan xalqında Osmanlı dövlətinə qarşı təbii meyli gücləndirdi.

Dünya müharibəsinin son mərhələsində Azərbaycan millətinin müstəqillik arzusu Türkiyənin Qafqaz siyasəti ilə uzlaşdığından tərəflər arasında bir-birinə olan təbii meyil onların hərbi-iqtisadi əməkdaşlığında yeni mərhələyə daxil oldu. Bu yeni mərhələnin səciyyəvi cəhəti ondan ibarət idi ki, azərbaycanlıların Osmanlı dövlətinə arxalanması milli idealla yanaşı, millətin fiziki varlığının hifz edilməsi zərurətindən irəli gəlirdi.

1918-ci ilin əvvəllərində Trabzon və Batum danışıqları Zaqafqaziya Seyminə daxil olan xalqların Türkiyəyə münasibətində fikir ayrılıqlarını üzə çıxartdı. Trabzon danışıqları dayandırıldıqdan sonra Ənvər Paşa Cənubi Qafqaz hökumətinin dağılacağı təqdirdə Türkiyə ilə geniş sərhədləri olan müstəqil Azərbaycan dövlətinin yaradılmasına tərəfdar olduğunu və bu dövlətin Türkiyə tərəfindən müdafiə ediləcəyini bildirdi.

Türkiyə oriyentasiyası. Azərbaycan Cümhuriyyətinin yaranmasından sonra Azərbaycan-Türkiyə münasibətləri yeni mərhələyə - dövlətlərarası münasibətlər mərhələsinə daxil oldu.Bu mərhələdə Azərbaycan-Türkiyə münasibətlərinin hüquqi əsasını 1918-ci il 4 iyunda imzalanmış Batum müqaviləsi təşkil edirdi. Müqavilədə göstərilirdi: "Bir tərəfdən Osmanlı imperator hökuməti, digər tərəfdən isə müstəqilliyini elan etmiş Azərbaycan Cümhuriyyəti hökuməti öz ölkələri arasında mehriban dostluq münasibətləri bərqərar etməklə qarşılıqlı surətdə razılığa gəlirlər". 4 iyun müqaviləsi və iyunun ortalarında imzalanan çoxtərəfli sazişlər Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrini əhatə edən ilk dövlətlərarası sənədlər idi. Hələ Batumda olan M.Ə.Rəsulzadə və M.H.Hacınski xarici hərbi müdaxiləyə son qoymaq və daxili asayişi qorumaq məqsədilə 4 iyun müqaviləsi əsasında hərbi yardım göstərilməsi barədə Türkiyəyə müraciət etdilər. Həmin müraciəti qəbul edən Osmanlı dövləti elə etmək istəyirdi ki, Azərbaycana ordu

göndərilməsi Cənubi Qafqazda möhkəmlənməyə çalışan Almaniyanın etirazına səbəb olmasın. Ona görə qarşılıqlı razılıq əsasında osmanlı hərbi hissələri və Azərbaycan könüllülərindən ibarət Qafqaz İslam Ordusu yaradıldı.

Batum müqaviləsi Cümhuriyyətin hər hansı bir xarici dövlətlə bağladığı ilk müqavilə idi. Müqavilənin birinci maddəsi Osmanlı imperiyası və Azərbaycan Cümhuriyyəti arasında daimi sülh və möhkəm dostluğun yaradılacağını təsdiq edirdi. İkinci maddə Osmanlı imperiyası və Azərbaycan, Gürcüstan, Ermənistan arasında dövlət sərhəd xəttinin müəyyənləşdirilməsinə aid idi; burada həmçinin Azərbaycan və Türkiyə arasında geniş dövlət sərhədi zolağı olması nəzərdə tutulurdu. Müqavilənin üçüncü maddəsinə əsasən, Azərbaycan, Gürcüstan və Ermənistan dərhal öz aralarında sərhədləri müəyyənləşdirən və həmin müqavilənin bir hissəsini təşkil edən protokollar imzalamalı və bu barədə Osmanlı hökumətinə məlumat verməli idilər.

Azərbaycan üçün həmin vaxt ən çox əhəmiyyəti olan dördüncü maddədə göstərilirdi ki, Osmanlı hökuməti, əgər zəruri olarsa, sülh və əmin-amanlığın möhkəmləndirilməsi, ölkənin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Cümhuriyyətinə hərbi kömək göstərməyi öz üzərinə götürür.

Müqavilənin beşinci maddəsinə əsasən, Azərbaycan hökuməti Cümhuriyyətin sərhədboyu ərazilərindəki mövcud quldur dəstələrinin tərk-silah edilib zərərsizləşdirilməsini öz öhdəsinə götürürdü.

Müqavilənin sonrakı beş maddəsində tərəflərin dəmir yol yüklərinin daşınması üzrə öhdəlikləri, konsulluqlar konvensiyası, ticarət müqaviləsi və digər aktların hazırlanması, ölkələrə sərbəst gəlmə, qarşılıqlı poçt-teleqraf əlaqələri, tərəflərin arasında bağlanan həmin müqaviləyə zidd olmayan Brest sülh müqaviləsinin qüvvədə olması barədə razılaşmalar əksini tapmışdı. Sonuncu - on birinci maddədə göstərilirdi ki, müqavilə bir ay ərzində ratifikasiya olunandan sonra mətnlərin mübadiləsi İstanbulda həyata keçiriləcək.

Osmanlı imperiyası ilə müqavilənin bağlanması Azərbaycan dövlətçiliyinin beynəlxalq aləmdə təsdiq edilməsi və Azərbaycan türk millətinin müstəqilliyinin saxlanılması istiqamətində zəruri addım idi. Azərbaycan-Türkiyə münasibətlərinin genişlənib dərinləşməsində 1918-ci iyulunda keçirilməsi nəzərdə tutulan İstanbul konfransına M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyəti göndərilməsinin böyük əhəmiyyəti oldu. Nümayəndə heyətinə bu beynəlxalq konfransa dəvət edilmiş Osmanlı, Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan, Gürcüstan, Ermənistan və Dağlılar dövlətlərinin nümayəndələri ilə danışıqlar aparmaq və müqavilələr bağlamaq səlahiyyəti verilmişdi. Nəzərdə tutulan beynəlxalq konfrans keçirilməsə də, Azərbaycan nümayəndələrinin İstanbul missiyası çox faydalı oldu.

1918-ci il sentyabrın 6-da isə Azərbaycan nümayəndələri İstanbulda yeni taxta əyləşmiş Sultan VI Mehmet Vahideddin tərəfindən qəbul edildi. Həmin gün Sultan taxta çıxması münasibətilə İstanbulda olan diplomatik nümayəndələr üçün təntənəli rəsmi qəbul (audiensiya) mərasimi düzəltmişdi. Gözləmə zalında bir çox xarici nümayəndəliklər olmasına baxmayaraq, Sultanın şəxsi təşəbbüsü ilə Azərbaycan nümayəndələri birinci qəbul edildilər. Onları Ənvər Paşa qarşılayıb Sultana təqdim etdi. Azərbaycan Cümhuriyyəti adından VI Mehmeti təbrik edən M.Ə.Rəsulzadə yüzillik əsarətdən xilas olmuş Azərbaycan xalqının öz istiqlaliyyətini və hürriyyətini qoruyub saxlamaq yolunda qardaş Türkiyəyə arxalandığını bildirdi. Sultan cavabında qeyd etdi: "Sevimli Azərbaycanımızın nümayəndələri tərəfindən təbrik edildiyimi həyatımda xoşbəxt bir hadisə qəbul edirəm. Əsarətdən xilas olmuş türk və müsəlman hökumətinin istiqlaliyyət və hürriyyətini təmin etmək mənim hökumətimin ən müqəddəs vəzifəsini təşkil edir".

Dünya müharibəsinin sonunda Bakı Türkiyə, Almaniya, İngiltərə, sovet Rusiyası arasında mübarizənin əsas obyektinə çevrilmişdi.1918-ci ilin yayında İstanbulda vəziyyəti müşahidə edən almanlara aydın oldu ki, Türkiyənin müdafiə etdiyi Azərbaycan

hökuməti bolşeviklərin əlində olan Bakı quberniyasını heç kimə güzəştə getmək istəmir. Buna görə, almanlar Bakı ilə bağlı planlarına sovet Rusiyası vasitəsilə çatmaq fikrinə düşdülər və bu məqsədlə onunla gizli danışıqlara başladılar.

Sovet Rusiyasının Almaniya vasitəsilə işə qarışması Azərbaycan hökumətinin Bakını azad etməsini xeyli yubandırdı. Berlin danışıqları davam etdiyi zaman Bakı XKS-nin şəhəri əldə saxlamaq üçün çar polkovniki L.Biçeraxovdan yardım almaq ümidləri boşa çıxdı və iyulun axırlarında Bakı Kommunası (Bakı quberniya XKS) yıxıldı. Sentrokaspiçilər hökuməti quruldu və avqustun əvvəllərində L.Denstervil başda olmaqla Bakıya daxil olan ingilislər Şəhəri Qafqaz İslam Ordusunun hücumundan müdafiə etmək iqtidarında deyildilər. Nəhayət, Berlində üç aya qədər davam edən Almaniya-Rusiya danışıqları avqustun 27-də saziş imzalanması ilə nəticələndi. Sazişin 12-ci maddəsində göstərilirdi:"Almaniya Qafqazda Gürcüstanın hüdudlarından kənarda hərbi əməliyyatlarda hər hansı üçüncü dövlətə heç bir yardım etməyəcək. Rusiya Bakı vilayətində neft çıxarılmasını bütün imkanları daxilində artıracaq, çıxarılan neftin dörddə birini Almaniyaya verəcək".

İstanbulda olan Azərbaycan nümayəndələri bu sazişlə əlaqədar Almaniya səfirliyinə etiraz notası təqdim etdilər.

1918-ci ilin sentyabrında Azərbaycan nümayəndələri Sədr-Əzəm (Baş Nazir) Tələt Paşa tərəfindən qəbul edildi və danışıqlar zamanı Tələt Paşanın Berlinə səfəri ərəfəsində Almaniyanın Bakı məsələsində tutduğu mövqe, Bakının tezliklə azad edilməsinin zəruriliyi məsələləri müzakirə olundu.

Berlinə gedən Tələt Paşa təcili şəkildə 27 avqust sazişinin ləğv edilməsini Almaniyadan tələb etdi. Bu addım Bakının azad edilməsində mühüm əhəmiyyətə malik oldu. Sentyabrın ortalarında Azərbaycan-Türkiyə hərbi qüvvələri Bakıya girdi.

Bakının azad edilməsi istiqlalın elan olunmasından sonra Azərbaycanın taleyində ikinci böyük tarixi hadisə idi. Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında Ə.M. Topçubaşovun İstanbul missiyasının böyük əhəmiyyəti oldu. O, 1918-ci il sentyabrın 28-də

İstanbula gəldi və Azərbaycan hökumətinin fövqəladə səlahiyyətli naziri kimi işə başladı. İstanbulda ikən Ə.Topçubaşovun (1918-ci il) müxtəlif ölkələrin diplomatları ilə çoxsaylı görüşləri olmuş, bunlardan İran rəsmi nümayəndələri, xüsusilə xarici işlər naziri (Müşavirəlməmaliklə) ilə onun görüşləri daha maraqlıdır. Qacarlar (İran) naziri təmsil etdiyi ölkə əhalisinin Arazın şimalında müstəqil dövlət yaranmasına sevindiyini və bunu İran dövlətinin təhlükəsizliyi baxımından mənafeyinə tam uyğun gəldiyini (Rusiya ilə Qacar arasında bufer dövlətin yaranmasını) göstərmişdir. Bununla belə o, başqa həmkarları kimi yeni yaranmış dövlətin "Azərbaycan" adlandırılmasını "böyük səhv" hesab etdiyini deyir, Azərbaycan istiqlalının qonşu gürcü, xüsusilə ermənilərlə bir konfederasiyada birləşməklə təmin etmək ideyasının reallığına şübhə etdiyini bildirirdi. Qacarların naziri onu da bildirmişdir ki, gələcək sülh konfransında Qacarlar özünün tarixi torpaqlarını o, cümlədən Qafqaz Azərbaycanında olan əraziləri tələb edəcəkdir. Bu əsassız tələb Ə.Topçubaşovun kəskin etirazına səbəb olmuş, lakin ittifaq dövləti-konfederasiya yaratmaq təklifinin diqqətəlayiq olduğunu göstərmişdir.

1918-ci ilin oktyabrında Ə.M.Topçubaşov İstanbulda Türkiyənin rəsmi dövlət nümayəndələri ilə bir sıra görüşlər keçirdi. Lakin Türkiyə məğlubiyyət ərəfəsində böhran içərisində olduğu və ay yarım ərzində üç hökumət kabineti dəyişdiyi üçün Azərbaycanla Osmanlı dövləti arasında sabit münasibətləri bərqərar etmək mümkün olmadı.

1918-ci ilin payızında Almaniya, Türkiyə, Avstriya-Macarıstan və Bolqarıstanın daxil olduğu Dördlər İttifaqı məğlub oldu. Oktyabrın 30-da təkcə Türkiyə üçün deyil, Azərbaycan Cümhuriyyəti üçün də ağır olan Mudros barışığı imzalandı. Barışığın 11-ci maddəsinə görə, Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli, 15-ci maddəyə görə, Türkiyə Cənubi Qafqaz dəmir yolu üzərində nəzarət hüququnu Antantaya verməli və müttəfiqlərin Bakını tutmasına heç bir etiraz etməməli idi.

Noyabrın 4-də Ə.M.Topçubaşov Azərbaycan hökuməti adından Mudros barışığının Azərbaycana aid maddələrinə etirazını bildirdi. Noyabrın 10-da Bakıdan, az sonra isə bütün Azərbaycandan çıxdı. Bununla da Azərbaycan Cümhuriyyətinin xarici siyasətində Türkiyə oriyentaliyası dövrü başa çatdı.

Birinci Dünya müharibəsinin sonunda Böyük Britaniyanın Azərbaycana marağı artmışdı. Bu, bir tərəfdən Almaniya-Türkiyə blokunun Qafqaza meylinin güclənməsi, digər tərəfdən isə dünya neft istehsalının böyük bir hissəsinin Bakının payına düşməsi ilə bağlı idi. Müharibə ərəfəsində Rusiyada hasil edilən neftin 83%-i Bakıda çıxarılırdı. Dünya müharibəsində iştirak edən ölkələr isə Bakı neftinə çox vaxt qələbəni müəyyən edən amil kimi baxırdılar. Ona görə də Yaxın və Orta şərqdə möhkəmlənmiş İngiltərə qoşunları 1918-ci ilin mayından başlayaraq Bakı istiqamətində hərəkətə başladı. Lakin bu zaman Cənubi Azərbaycanda möhkəmlənmiş Türkiyə qoşunları onların hərəkətini dayandırdı və ingilislərin Bakıya müdaxiləsi 1918-ci ilin avqustuna qədər mümkün olmadı. Bakıda XKS-nin hakimiyyəti devrildikdən sonra Sentrokaspiçilərin ilk addımı Ənzəlidə dayanmış ingilisləri Bakıya dəvət etmək oldu. Avqustun 4-də polkovnik Stoksun başçılıq etdiyi ilk qoşun dəstəsi Bakıya daxil oldu. Avqustun 17-də general Denstervil başda olmaqla min nəfərlik ikinci hərbi dəstə Azərbaycana gəldi. Mart qırğınlarını törətmiş ermənilər ingilislərin simasında öz xilaskarlarını görürdülər.

1918-ci il sentyabrın ortalarında Britaniya qoşunu general Denstervil başda olmaqla Bakını tərk etmək məcburiyyətində qaldı. Lakin 1918-ci ilin payızında ikiaylıq fasilədən sonra ingilislər yenidən Bakıya qayıtdılar.

Qərb oriyentasiyası.1918-ci il noyabrın 17-də müttəfiqlərin qoşunları Bakıya daxil oldu. Müttəfiqlərin gəlişi Azərbaycanın istiqlaliyyətini ciddi təhlükə qarşısında qoydu. Rus və erməni milli şuralarının Cümhuriyyətin müstəqilliyi əleyhinə cəhdlərinə baxmayaraq, general V.Tomson bildirdi ki, F.X.Xoyskinin hökuməti ölkədə yeganə hökumət olaraq qalır.

Balkanda və Qafqazda olan ingilis qoşunlarının baş komandanı general Corc Miln az sonra Bakıya gələrək V.Tomsonun bəyanatını təsdiqlədi və bildirdi ki, Böyük Britaniya hökuməti Azərbaycan hökumətini bu ölkənin bütün ərazisində yeganə qanuni hakimiyyət kimi tanıyır.

1918-ci ilin dekabrında ingilislər Batum və Tiflisi də tutdular və 1919-cu ilin yayına qədər Qafqazda qaldılar. İngilislərin Azərbaycanın daxili işlərinə müdaxilə etməsi tədricən aradan qaldırıldığına görə, Azərbaycan hökuməti bütün işləri öz əlində toplayır və irəliləyərək müstəqilliyini bərqərar edirdi.

Azərbaycan xarici siyasətinin qarşısında duran ciddi məsələlərdən biri qonşu dövlətlərlə mehriban münasibətlər yaratmaq, Qafqaz həmrəyliyinə nail olmaq idi.

Azərbaycan hökuməti Dağlılar Respııblikası ilə əməkdaşlığı inkişaf etdirmək üçün 1918-ci ilin oktyabr-noyabr aylarında bir sıra müqavilələr bağladı. İki dövlət arasında bağlanmış müqaviləyə əsasən, Azərbaycan hökuməti Dağlılar hökumətinə 10 milyon manat həcmində yardım göstərmiş və o, Denikinin təcavüzünə məruz qaldıqda əlində olan bütün vasitələrlə ona yardım göstərəcəyini bildirmişdi.

Ancaq ingilislər Dağıstan xalqlarının hərəkatının milli deyil, sosial xarakter daşıdığını, onun bolşeviklərin işi olduğunu iddia edərək, Azərbaycan hökumətinin Dağıstanla bağlı təklif etdiyi variantlara etinasız yanaşıb növbəti dəfə Denikini dəstəklədilər.

Müstəqilliyin ilk günlərində Gürcüstan hökumətinin Borçalı, Sığnaq və ümumilikdə Qarayazıda Gürcüstanın sərhədlərini müəyyən etmək adı altında mövcud vəziyyəti dəyişmək cəhdləri Azərbaycan hökumətinin müqaviməti ilə qarşılaşdı. Azərbaycanla Gürcüstan arasında ərazi-sərhəd məsələsi üstündə ziddiyyət yarandı. Gürcüstan hökümәti 1918-ci il iyunun əvvəllərində Borçalı mahalına gürcü və alman hərbi dəstələri göndərdi, eyni zamanda bu dəstələrə Poylu körpüsünə qədər dəmiryol xətti boyu ərazini tutmaq əmrini verdi. Gürcü məmurları Borçalıda azərbaycanlıların taxılını müsadirə edir, onları öz yurdlarını tərk etməyə məcbur edirdilər.

1918-ci il iyunun 14-də AXC-nin Xarici işlər naziri öz notasında Borçalı, Qarayazı və Sığnax mahallarına gürcü-alman hərbi hissələrinin yeridilməsi ilə buranın Gürcüstana qatılmasına qəti etirazını bildirdi. İyulun 20-də gürcü hökuməti Qarayazıda olan Azərbaycan hərbi hissələrini 24 saat müddətində buradan çıxarmaq haqqında ultimatum verdi.

Almaniya və Türkiyənin Qafqazda nümayəndələrinin təzyiqi altında avqustun sonunda gürcü hökuməti mübahisəli ərazi məsələləri üzrə arbitaj komisssiyası yaradılmasına razılığını bildirdi. Qeyd etmək lazımdır ki, Borçalı, Axalkalaki uğrunda 1918-ci ilinm noyabr-dekabr aylarında Ermənistan-Gürcüstan müharibəsi oldu.

Məsələnin müzakirəsi 1919-cu il aprelin 25-də Tiflisdə işə başlayan Qafqaz konfransının gündəliyinə daxil edildi. Lakin 1919-cu ilin iyununda şimaldan yaxınlaşan təhlükə ilə əlaqədar Qafqaz konfransı öz işini dayandırdı.

Denikin ordusunun Dağıstana hücumu və Cənuba doğru irəliləməsi Azərbaycan-Gürcüstan əməkdaşlığını zərurətə çevirdi. 1919-cu il iyunun 16-da iki dövlət arasında üç il müddətinə hərbi-müdafiə paktı imzalandı. Bu pakta görə, Azərbaycan və Gürcüstanın istiqlaliyyəti və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olduğu təqdirdə müqaviləni bağlayan tərəflər öz öhdələrinə bir-birinə hərbi yardım göstərmək borcunu götürmüşdülər. Eyni zamanda müqavilənin 10-cu bəndində göstərilirdi ki, "bu müqavilə barədə rəsmi məlumat verildikdən sonra Ermənistan iki həftə ərzində bu müqaviləyə qoşula bilər". Müqavilə iyunun 27-də hər iki ölkənin parlamentlərində təsdiq edildi.

İngilis komandanlığının Azərbaycan-Gürcüstan müdafiə paktına münasibəti əvvəlcə mənfi idi, lakin sonralar dəyişdi. Müstəqilliyin ilk günlərindən Gürcüstan Respublikası ilə qurulan diplomatik əlaqələr çox çətin bir yol keçsə də, 1920-ci ilin əvvəllərində normal məcraya düşdü. Hər iki respublikanın müstəqilliyi Versal Ali Şurası tərəfindən de-fakto tanındı.

Məğlubiyyətdən sonra çətin vəziyyətə düşmüş Türkiyə ilə də əlaqələr bərpa edilməyə başlamış, yazıçı Yusif Vəzir Çəmənzəminli İstanbula səfir təyin edilmişdi.

Rusiya və Ermənistanla münasibətlər bütün dövr ərzində qeyri-stabil olaraq qaldı. Azərbaycan diplomatiyasının ciddi-cəhdlərinə baxmayaraq, "böyük dövlətçilik" mövqeyindən çıxış edən bu dövlətlərlə normal münasibətlər yaratmaq mümkün olmadı.

Birinci Dünya müharibəsində Türkiyənin məğlubiyyəti 1918-ilin sonlarında ermənilərin yenidən fəallaşmasına şərait yaratdı. Artıq dövlət siyasəti səviyyəsinə qaldırılan "Dənizdən dənizə böyük Ermənistan" iddiaları yerli əhaliyə görünməmiş müsibətlər gətirdi.

Belə bir vəziyyətdə Cümhuriyyətin qarşısında duran əsas vəzifə erməni zorakılığının qarşısını almaq və Ermənistanla normal qonşuluq münasibətlərini bərqərar etmək idi. Lakin Azərbaycan hökuməti dəfələrlə müraciət etsə də, iki dövlət arasında nəinki normal münasibətlər yaratmaq mümkün olmadı, əksinə bir sıra böyük dövlətlər tərəfindən dəstəklənib qızışdırılan Ermənistan Zəngəzuru, Naxçıvanı və Qarabağın dağlıq hissəsi kimi qədim Azərbaycan torpaqlarını işğal etmək yolunu seçdi.

1918-ci ilin yayından başlayaraq türk xalqının qəddar düşməni Andronik Naxçıvan və Zəngəzur bölgələrində Azərbaycan sərhədlərini pozub dinc əhaliyə qarşı qırğınlara başladı. Erməni quldur dəstələri Zəngəzur əhalisindən tələb edirdilər ki, ya Ermənistan hökumətinə tabe olsunlar, ya da Zəngəzuru boşaltsınlar. Lakin əhali Andronikin bu tələbini rədd edərək öz torpaqlarının müdafiəsinə qalxdı, 1918-ci ilin payızından Azərbaycan torpaqlarının müsəlman əhalisindən təmizlənməsi əməliyyatına Ermənistan hökuməti bilavasitə rəhbərlik etməyə başladı. Daşnaklar 1918-ci ilin axırlarında Zəngəzurda 115, Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında 21, İrəvan quberniyasında 60-dan çox Azərbaycan kəndini məhv etdilər və əhalisini soyqırıma məruz qoydular. Həmin ərazilərin 100 mindən artıq türk-müsəlman əhalisi öz dədə-baba yurdundan qovuldu. Etnik təmizləmə həmin torpaqları "böyük Ermənistan"ın tərkibinə daxil etmək üçün aparılırdı.

Bu təhlükənin qarşısını almaq üçün Azərbaycan hökuməti 1919-cu il yanvarın əvvəllərində Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb, mərkəzi Şuşa olmaqla həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğu yaratdı. Fevralın 12-dən Xosrov bəy Sultanov general-qubernator təyin edildi. General-qubernatora tapşırıldı ki, Qarabağda separatist hərəkatı ləğv edib qayda-qanun yaratsın və yerli hakimiyyəti təşkil etsin.

Ermənistan hökuməti Qarabağ general-qubernatorluğunun yaradılmasına və X.Sultanovun general-qubernator təyin olunmasına etiraz etdi və belə iddia irəli sürdü ki, buranın böyük hissəsi Ermənistan ərazisidir, X.Sultanov isə ermənilərin düşmənidir.

Ermənistan hökuməti Qarabağ general-qubernatorluğunun yaradılması ilə əlaqədar öz etirazını Qafqazda Böyük Britaniya qoşunlarının baş komandanı general Tomsona və müttəfiq dövlətlərin Cənubi Qafqazdakı baş komissarı Haskelə də bildirmişdi. Lakin onlar Azərbaycanın Qarabağ qubernatorluğu yaratmaq və ona general-qubernator təyin etmək hüququnu müdafiə etdilər.

1919-cu il iyunun 18-də Azərbaycan Ermənistana nota göndərdi. Bu notada Ermənistanın iddiaları rədd edilərək, Qarabağ məsələsində Azərbaycan Cümhuriyyətinin daxili işlərinə qarışmamaq tələb olunurdu.

1919-cu ilin iyununda Şuşada vəziyyət yenidən gərginləşdi. Bu zaman Qarabağda baş vermiş hadisələr bilavasitə Erməni Milli Şurasının planı əsasında törədilmişdi. Bu Şuranın Qarabağda erməni və müsəlman icmaları arasında sabitliyi pozmağa yönəlmiş fəaliyyətini öyrəndikdən sonra ingilis komandanlığı hələ aprel ayında onun üzvlərinın Qarabağın hüdudlarından uzaqlaşdırılacağını vəd etmişdi. İyunda məlum oldu ki, Erməni Milli Şurası Şuşanın ermənilər yaşayan məhəlləsinə gizli yolla silah gətirir. Onların məqsədi Qarabağ yaylaqlarına qalxaraq azərbaycanlıların qarşısını almaq idi. Belə olduqda, X.Sultanov köç gedən yollarda

təhlükəsizliyi təmin etmək üçün Azərbaycan ordusunun əsgərlərini təhlükəli yerlərə göndərdi və Erməni Milli Şurasının üzvlərinin həbs edilib Qarabağdan çıxarılması haqqında göstəriş verdi.

Buna cavab olaraq ermənilər iyunun 4-də Azərbaycan əsgərlərinə atəş açdılar və üç əsgər öldürüldü. Bu hadisədən sonra X.Sultanov Şuşada və ətraf kəndlərdə qayda-qanun yaratmaq üçün fəaliyyətə başladı və ilk addım kimi Erməni Milli Şurasının üzvlərinin Azərbaycandan çıxarılmasına nail oldu. İyunun 6-da Şuşada sülh əldə edildi.

Lakin Ermənistan hökuməti Azərbaycan Ordusunun Qarabağdan çıxarılmasını tələb edirdi. 1919-cu ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi və siyasəti nəticəsində respublikanın qanuni hakimiyyəti Qarabağda bərpa edildi. Azərbaycanın suveren hüquqlarının bərpa edilməsində Qarabağ general-qubernatoru X.Sultanov böyük xidmət göstərdi.

“Böyük Ermənistan" iddialarına daxil olan ərazilərdən biri də Naxçıvan idi. Naxçıvanda hələ 1918-ci ildə Araz-Türk Respublikası yaranmışdı. Respublikanın ərazisinə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Şərur, Naxçıvan, Ordubad qəzaları daxil olmuşdu. Paytaxt Naxçıvan şəhəri idi.

Daşnak hökuməti hələ 1918-ci ilin noyabrında Naxçıvan, Şərur-Dərələyəz, Üçmiədzin qəzalarını, Qars vilayətini müsəlman əhalisindən təmizləyib, Ermənistan hökumətinin hakimiyyətini bərqərar etmək istəyirdi. Lakin əhalinin güclü müqaviməti buna mane oldu. Hətta ingilis komandanlığı müvəqqəti olaraq Naxçıvanın idarəçiliyini Ermənistana versə də, qəza əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləri olduğu üçün daşnak hökuməti bu qərarı həyata keçirə bilməmişdi. İngilislərin Zəngəzur və Yuxarı Qarabağı Azərbaycan torpaqları kimi tanıyıb, Naxçıvanı Ermənistanın idarəçiliyinə vermək ideyası Azərbaycanla Türkiyənin arasını kəsmək, ümumilikdə Türkiyə ilə qalan müsəlman xalqları arasında xristian erməni dövləti yaratmaq barədə Kerzon planının tərkib hissəsi idi.

Burada Ermənistan hökuməti 1919-cu ilin yayında ABŞ layihəsi üzrə neytral zona yaradılmasına çalışırdı. Çünki ABŞ nümayəndəsinin idarə edəcəyi Naxçıvan, Şərur-Dərələyəz general-qubernatorluğunun gələcəkdə bu ərazilərin Ermənistana keçməsi üçün əlverişli şərait yaradacağı şübhəsiz idi.1919-cu il oktyabrın 24-də Naxçıvanda ABŞ general qubernatorluğu yaratmaq barədə müttəfiqlərin ali komissarı Haskel bəyanat verdi. ABŞ-ın nümayəndəsi Delli buraya Ali komissar təyin olundu.

Naxçıvanlıların dəyanəti və Azərbaycan hökumətinin səyləri nəticəsində Ermənistanın amerikanlar vasitəsilə Naxçıvana yiyələnmək niyyətləri puça çıxdı. Ermənistanla Azərbaycan arasında 1919-cu il noyabrın 23-də imzalanan sazişdən sonra Azərbaycan öz hərbi hissələrini Zəngəzurdan geri çağırdı. Sazişə görə toqquşmalar dayandırılmalı, mübahisəli məsələlər o cümlədən sərhəd məsələləri danışıqlar vasitəsilə həll edilməli idi. Lakin Ermənistan bu sazişi pozub Zəngəzura qoşun hissələri göndərdi. 1919-cu il dekabrın 14-də Azərbaycan hökumətinin təşəbbüsü ilə Bakıda Ermənistan-Azərbaycan konfransı açıldı. Lakin konfrans ermənilərin günahı üzündən tərəflər arasında ziddiyyəti həll edə bilməyərək işi yarımçıq dayandırdı.

Azərbaycanın həyatı mənafeyi sovet Rusiyası ilə normal münasibətlər qurulmasını tələb edirdi. Azərbaycanın neft, pambıq və digər xammallarının Rusiya bazarından məhrum olması Azərbaycan hökumətinin şimal qonşusu ilə münasibətləri normallaşdırmasını zəruri edirdi.

M.Ə.Rəsulzadənin parlamentin açılışında söylədiyi nitq Azərbaycan hökumətinin Rusiyaya münasibətini bildirmək baxımından diqqəti çəkir: "Biz Rusiyanın səadətini istəriz, Rusiya səadətini sevəriz. Fəqət kəndi istiqlalımızı da əziz tutarız".

1919-cu ilin yazında Nazirlər Şurasının yeni seçilmiş sədri N.Yusifbəyli hökumət proqramında sovet Rusiyası ilə iqtisadi-ticarət əlaqələrinin bərpası vəzifəsini də irəli sürmüşdü. Sovet Rusiyası müxtəlif əsassız bəhanələr gətirməklə buna razılıq

verməkdən yayınırdı. Bu diplomatik oyunbazlığın arxasında isə Bakı neftinə sahib olmaq iddiası dururdu.

Göründüyü kimi, bolşevik Rusiyası üzdə millətlərin öz müqəddəratını təyin etmək hüququnu qəbul etdiyini deməsinə baxmayaraq, müstəqil milli dövlətlərin varlığı ilə barışaa bilmirdi.

Beynəlxalq münasibətlər sisteminə daxil olmaq uğrunda mübarizə. Azərbaycan diplomatları Parisdə toplanmış qalib Antanta dövlətlər tərəfindən tanınmaq və kömək əldə etmək üçün ağır mübarizə aparırdılar. Azərbaycan parlamenti Paris sülh konfransında iştirak etmək üçün Ə.M.Topçubaşov (sədr), M.H.Hacınski (sədr müavini), Ə.Şeyxülislamov, Ə.Ağayev (ingilislər onu həbs edib Malta adasına göndərdi), M.Məhərrəmov və C.Hacıbəyov daxil olmaqla nümayəndə heyətini təsdiq etmişdi.

Azərbaycan hökuməti adından Ə.Topçubaşovun Avropanın bir sıra ölkələrində səfirlik və konsul nümayəndəliyi yaratmaq haqqında müzakirələri soyuq qarşılanır, açılması yaxın gələcəkdə planlaşdırılan beynəlxalq konfransda bu məsələnin həllinin mümkünlüyü bildirilirdi. Onların Azərbaycana yad münasibəti barədə hökumətə məlumatında Ə.Topçubaşov göstərirdi ki, Avropa, xüsusən Antanta ölkələri nümayəndələrinin etirafına görə, müsəlman və türk mənşəli olduğumuzdan günaha (əgər bu günahdırsa!) batmışıq...

Ermənistanın təhriki ilə Fransa hökuməti viza verilməsini yubatdığı üçün Azərbaycan diplomatları yalnız 1919-cu il mayın ortalarında Fransaya gələ bildilər və mayın 28-də Azərbaycan nümayəndə heyəti ABŞ prezidenti V.Vilsonla görüşə bildi. Görüşün nəticələri çox da ümidverici deyildi. ABŞ prezidenti bildirmişdi ki, dünyanın kiçik ərazilərə parçalanmasını Sülh konfransı istəmir və Azərbaycan məsələsinə Rusiya məsələsi həll olunduqdan sonra baxıla bilər. Eyni zamanda V.Vilson Azərbaycan nümayəndə heyətini əmin etmişdi ki, "...bundan sonra Azərbaycan xalqı öz azadlıq və müstəqilliyini qoruyub saxlamaq kimi müqəddəs işində böyük Amerikanın kömək və yardımını alacaqdır". O, azərbaycanlılara Cənubi Qafqaz xalqlarının konfederasiyası

ideyasını müzakirə etməyi məsləhət görmüş və demişdi ki, konfederasiya Millətlər Cəmiyyətinin himayəsinə veriləcək ölkə kimi böyük dövlətlərdən birinin himayəçiliyinə ümid edə bilər.

Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov Paris Sülh Konfransına təqdim edilmiş Memorandumun surətini ABŞ prezidenti V.Vilsona təqdim etmişdi. Sənəd xüsusi xəritəli vərəqdə sərhədlər göstərilməklə Qafqaz Azərbaycanının müstəqilliyinə; iqtisadi xəritə ilə birlikdə Azərbaycanın iqtisadiyyatına və maliyyəsinə; etnoqrafik xəritə və diaqramlarla birlikdə Azərbaycan əhalisinin etnik tərkibinə dair 3 maddədən ibarət idi.

Paris konfransının iştirakçılarını respublikadakı siyasi vəziyyətlə tanış etmək üçün Azərbaycan nümayəndə heyəti böyük işlər görmüşlər.

1919-cu il iyunun 13-də V.Vilson, D.L.Corc, J.Klemansonun imzası ilə Rusiya ərazisində çar admiralı Kolçakın ali hakimiyyətinin qismən tanınmasına dair sənəd dərc olundu. Azərbaycan, Gürcüstan, Latviya, Estoniya, Şimali Qafqaz, Belarusiya və Ukrayna nümayəndələri bununla bağlı 1919-cu il iyunun 13-də Paris konfransının sədrinə etiraz notası təqdim etdilər.

1919-cu ilin birinci yarısında İran (Qacarlar) nümayəndələrinin Parisdəki fəaliyyəti təəccüb və istehza doğururdu. Konfransa təqdim etdiyi memorandumda İran tərəfi Bakı, Dərbənd, Şəki, Şamaxı, Gəncə, Qarabağ, Naxçıvan və İrəvanı tələb edir, öz tələbini buranın "Müsəlman əhalisinin əksəriyyətinin İran mənşəli, ya da İran irqindən" olması ilə əsaslandırırdı. Özünün bir dövlət kimi varlığının görünmədiyi müharibədə heç bir rolu olmayan İranın bu fantastik iddialarını konfrans ciddi qarşılamadı və 1919-cu il avqust tarixli İngilis-İran müqaviləsindən sonra onun nümayəndələri konfransın işindən uzaqlaşdırıldılar. Bu müqaviləyə görə Qacarlar ordusunun yenidən qurulması və yolların çəkilişinə sərf ediləcək borc müqabilində İngiltərə öz mütəxəssislərini Qacarların dövlət idarələrində yerləşdirməli idilər.Parisdə Azərbaycan nümayəndə heyəti İranla münasibətlər məsələsi üzrə xeyli iş gördü. Məlum olduğu kimi, Cümhuriyyət yarandıqdan sonra İran Azərbaycana

qarşı ərazi iddiaları irəli sürür və onun İran dövlətinə birləşdirilməsini tələb edirdi.

İngiltərə-İran müqaviləsi bağlandıqdan sonra İran Azərbaycanla bağlı ərazi iddialarından əl çəkdi. 1919-cu il noyabrın 1-də Parisdə Azərbaycanla İran arasında Azərbaycanın müstəqilliyinin tanınması haqqında müqavilə bağlandı və iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasına dair razılıq əldə edildi. İsmayıl xan Ziyadxanov İranda AXC-nin ilk diplomatik missiyasının başçısı təyin edildi.

Beləliklə, Azərbaycanın ərazi bütövlüyünün rəsmən tanınmasının təmin edilməsi etiraf olunurdu. Lakin bununla belə, 1919-cu ilin yazında Paris sülh konfransında Azərbaycan nümayəndə heyəti Ermənistan və Qacarların "öz tarixi torpaqlarını qaytarmaq" cəhdlərinə qarşı ardıcıl siyasi-diplomatik mübarizə aparmaqda idi. Azərbaycan diplomatiyası Versalda (Fransa) həm ermənilərin, həm də İranın Azərbaycan Cümhuriyyətinə qarşı irəli sürdükləri ərazi iddialarını dəf edə bildi.

İranla münasibətlərdə də əvvəlki narazılıqlar 1919-cu ilin ortalarından etibarən öz yerini əməkdaşlıq meyllərinə verməyə başladı.1920-ci il martın 20-də iki dövlət arasında əməkdaşlığın bütün sahələrini əhatə edən müqavilə və sazişlər imzalandı.

Lakin Paris Sülh Konfransında bu dövlətlərin müstəqilliyinin tanınması məsələsinin müzakirəsi konfransın gündəliyindəki "Rusiya məsələsi" ilə əlaqələndirilərək açıq-aşkar ləngidilirdi. Bu da onların beynəlxalq hüquq subyektləri kimi tanınmasını şübhə altına qoyurdu. 1919-cu il oktyabrın 8-də Azərbaycan, Gürcüstan, Latviya, Estoniya müstəqil respublikaları, Şimali Qafqaz dağlıları və Ukraynanın nümayəndələri sülh konfransının sədri Klemansoya məktub göndərdilər.Həmin məktubda bu respublikalara münasibətdə böyük dövlətlərin mövqeyi kəskin şəkildə pislənirdi.

Klemansoya ünvanlanmış məktubda iki məsələ: "birincisi, hər bir respublikanın müstəqil dövlət kimi tanınması; ikincisi, ərazi, maliyyə, iqtisadiyyatla bağlı digər məsələlərin dərhal müzakirə edilməsi" təklif olunurdu.

Bolşevik təhlükəsinin güclənməsi nəticəsində Qafqazda yaranmış vəziyyət Antanta ölkələrini ciddi addımlar atmağa məcbur etdi. Qızıl ordunun Qafqaza yiyələnməsi bolşevik ideyalarının Şərq ölkələrində yayılmasına kömək edəcəyi aydın idi. Buna görə də Avropanın bir çox siyasətçiləri Azərbaycan və Gürcüstanın sovet imperiyasına qarşı çıxmasını təmin etmək məqsədilə onların müdafiə qabiliyyətini gücləndirməyin zəruriliyi ideyasına tərəfdar çıxırdılar. Eyni zamanda bu respublikaların beynəlxalq birlik tərəfindən tanınmasına mane ola biləcək "vahid və bölünməz Rusiya" ideyası artıq öz əhəmiyyətini itirmiş, onun tərəfdarlarının ümidləri özünü doğrultmamışdı. Buna görə bu dövrdə Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması təxirəsalınmaz məsələyə çevrildi.

Bu məqsədlə 1920-ci il yanvarın 10-da Böyük Britaniyanın təşəbbüsü ilə Paris Sülh Konfransı Ali Şurasının sessiyası çağırıldı. Sessiyada İngiltərə, Fransa və İtaliyanın hökumət başçıları, ABŞ və Yaponiya tərəfindən isə onların sülh konfransındakı nümayəndələri, həmçinin Parisdəki səfirləri iştirak edirdilər.

Qafqazda vəziyyət haqqında məlumat verən Britaniya Baş Naziri lloyd Corc bolşeviklərin Cənuba doğru irəlilədiyini, Denikinin darmadağın ediləcəyi və Xəzər dənizinin tutulacağı halda onların türklərin köməyinə ümid edə biləcəklərini qeyd etdi. Buna görə də L.Corc bu dövlətlərin silah və hərbi sursatla təchiz olunmasının ən sərfəli variantını işləyib hazırlamağı təklif etdi. İngiltərənin Xarici İşlər naziri lord Kerzonun təklifi ilə Qafqaz respublikalarına aid müzakirə aparıldı. Kerzon Lloyd Corcun Azərbaycan və Gürcüstanın müstəqil dövlət kimi tanınmaq məsələsini Ali Şuranın gündəliyinə çıxartmaq niyyətində olduğunu bildirdi. "Erməni məsələsi"nə gəldikdə isə onu "Türkiyə məsələsi" ilə bir yerdə həll etmək nəzərdə tutulurdu. Xarici işlər nazirləri Azərbaycan və Gürcüstana qarşı üçtərəfli təhlükə yaranması ilə bağlı eyni fikirdə olduqlarını bildirdilər. Onlar "üçtərəfli təhlükə" dedikdə, əvvələn, bolşevik Rusiyası qoşunlarının cənuba doğru irəliləməsini; ikincisi, geri çəkilən Denikin qoşunlarının bu respublikalara soxula

biləcəyini; üçüncüsü isə kamalçıların (Türkiyənin), Rusiya ilə sazişə əsasən, bu respublikalara daxil ola biləcəyini nəzərdə tuturdular. Vəziyyətin kəskin böhranlı şəkil alması Azərbaycan və Gürcüstan hökumətlərini Antanta ölkələrindən kömək istəməyə məcbur etdi.

Bu xahişlər barədə Ali Şuraya məlumat verən Kerzon Azərbaycan və Gürcüstanın dərhal de-fakto tanınması təklifini irəli sürdü. 1920-ci il yanvarın 11-də müttəfiqlərin Ali Şurası l.Kerzonun təklifi ilə aşağıdakı məzmunda qərar qəbul etdi: "Müttəfiq və birləşmiş dövlətlər Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində birgə tanıyırlar".

Yaponiya da Ali Şuranın 11 yanvar tarixli qərarına qoşuldu. ABŞ qərara qoşulmaqdan rəsmi olaraq imtina etdi. ABŞ-ın bu qərarı müxtəlif səbəblərlə izah edilirdi. Onlardan biri Amerika hökumətinin Qafqazda Böyük Britaniyanın nüfuzunun güclənməsindən ehtiyatlanması idisə, digəri də sülh konfransının yekun mərhələsində ABŞ-la onun Avropa müttəfiqləri arasında ciddi ixtilaflar yaranması idi. Lakin ABŞ-ın Cümhuriyyətin müstəqilliyini tanımaqdan imtina etməsinin təkcə İngiltərə-Amerika ziddiyyətlərindən irəli gəlmədiyi gümanı da istisna deyildi. Yanvarın 13-də ABŞ-ın Parisdəki səfiri Valles İngiltərə və Fransanın Azərbaycan və Gürcüstan dövlətlərinin müstəqilliklərini de-fakto tanımaları və onlara yardım göstərməyə hazırlaşmaları barədə Vaşinqtona məlumat verdi.

ABŞ hökumətinin Fransadakı səfirinə cavab məktubunda deyilirdi ki, Birləşmiş Ştatlar İngiltərə və Fransanın Qafqaz dövlətlərinə kömək etmək ideyası ilə razılaşsa da, onların müstəqilliklərinin tanınmasını Rusiyanın dağılmasının başlanğıcı kimi qiymətləndirir.

Bununla yanaşı, yanvarın 19-da müttəfiqlər tərəfindən Ermənistanın müstəqilliyinin tanınmasını ABŞ heç də Rusiyanın dağılması kimi qiymətləndirmədi və 1920-ci il aprelin 23-də özü də de-fakto olaraq Ermənistanı tanıdı.

1920-ci il yanvarın 19-da Paris Sülh Konfransı Ali Şurasının iclasında Cənubi Qafqaz respublikaları problemi ətraflı müzakirə

edildi. İclasda ingilis nümayəndələri tərəfindən tərtib edilmiş Memorandum elan olundu. Memorandumda aşağıdakı tədbirlər nəzərdə tutulurdu:

1.Azərbaycan və Gürcüstanın tanınması (bu tədbir həyata keçrilmişdi);

2.Əvvəllər Denikinə verilmiş və Potidə olan silah və sursatın Azərbaycan, Gürcüstan və Ermənistana verilməsi;

3.Azərbaycan və Gürcüstana əlavə ərzaq, maliyyə və hərbi (silah və geyim) cəhətdən yardım göstərilməsi;

4.Bakının müdafiəsinin möhkəmləndirilməsi üçün əlavə tədbirlərin görülməsi;

5.Xəzər sahillərinin müdafiəsinin təmin olunması, bolşevik ordusunun Xəzər dənizinə və Xəzər donanmasına buraxılmaması, Denikinin dəniz donanmasının müttəfiqlərin ümumi istifadəsinə qaytarılması, bu mümkün olmadıqda isə onun batırılması.

Azərbaycan və Gürcüstana hərbi yardım göstərməyin zəruriliyini qeyd edən Lloyd Corc eyni zamanda bu respublikalar tərəfindən yardımın səmərəli istifadə edilməsi imkanlarını aydınlaşdırmağa çalışırdı. O, bu yardımın da vaxtilə Denikinə göndərilmiş yardım kimi bolşeviklərin əlinə keçməyəcəyinə əmin olmaq istəyirdi. Azərbaycan və Gürcüstan nümayəndələrinə müraciət edən konfransın sədri J.Klemanso onlardan ölkələri üçün hansı təhlükə olduğu və müttəfiqlərin verdiyi yardımdan səmərəli istifadə edə bilmək imkanları barədə məlumat istədi. İclasda çıxış edən Ə.M.Topçubaşov Cümhuriyyətin bolşeviklərin, həmçinin Denikini Azərbaycanın müstəqilliyi üçün törətdiyi təhlükədən müdafiə olunmaq üçün bütün imkanlardan, o cümlədən müttəfiqlərin yardımından səmərəli istifadə olunmasını məqsədyönlü sayır. Onun fikrincə, müttəfiqlər İngiltərənin Ənzəlidəki donanmasından istifadə edərək, Bakının müdafiə qabiliyyətini xeyli gücləndirə bilərdilər.

Ə.M.Topçubaşov müttəfiqlərə şimaldan hərəkət edən ordu ilə Qafqaz respublikaları arasında bufer rolu oynayan Dağlılar Respublıkasını da de-fakto tanımağı təklif edirdi.

Lloyd Corc Dağlılar Respublikasını de-fakto tanımaq haqqında Ə.M.Topçubaşovun irəli sürdüyü təklifi bəyəndi. Nəticədə Ali Şura Qafqaza aid dörd maddədən ibarət olan qərar qəbul etdi:

Ermənistan və Dağıstanın de-fakto tanınması. Bu qərarda Ermənistanın sərhədlərinin müəyyənləşdirilməsi məsələsinə toxunularaq qeyd edilirdi ki, bu məsələyə "Türkiyə məsələsi" ilə birlikdə baxılacaqdır.

Müttəfiq dövlətlərin Qafqaz respublikalarına qoşun göndərmək imkanları yoxdur.

Müttəfiqlər Qafqaz respublikalarına silah, döyüş sursatı və ərzaq göndərməklə yardım edəcəklər.

Hərbi materialların nədən ibarət olması və onların Qafqaz respublikalarına çatdırılması yollarının dəqiqləşdirilməsilə bağlı məsələlərə baxılsın.

Beləliklə, 1920-ci ilin yanvarında Paris Sülh Konfransında Azərbaycan Cümhuriyyətinin de-fakto tanınması Ə.M. Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan nümayəndələrinin diplomatik fəaliyyətlərinin uğurlu nəticəsi kimi qiymətləndirilməlidir.

1920-ci il yanvarın 12-də Azərbaycan hökumətinin fövqəladə iclası keçrildi. Yanvarın 14-də bütün Azərbaycan ərazisində istirahət günü elan olundu.

Azərbaycanın Müstəqilliyinin elan olunması beynəlxalq aləmdə ona marağın artmasına təkan verdi. Bir çox ölkələr - Belçika, İsveçrə, Hollandiya, Çexiya və Slovakiya Bakıda öz konsulluqlarını açmağa başladılar, İtaliya isə burada öz nümayəndəliyini yaratdı.

Fevralda Denikin ordusunun məğlubiyyəti respublikanın dinc nəfəs alması üçün mühüm hadisə oldu. Qonşu Gürcüstan və Qacarlar dövlətləri ilə hərtərəfli əməkdaşlıq yaradılması prosesi başlandı. 1920-ci il martın 20-də Azərbaycanla Qacarlar arasında sülh və dostluq haqqında müqavilə bağlandı. Müqaviləyə əsasən, Qacarlar hökuməti Azərbaycanın müstəqilliyini de-yure tanıdı. Tərəflər dostluq və iqtisadi əlaqələrin yaradılması və inkişaf etdirilməsi, həmçinin Tehranda Azərbaycan səfirliyinin, Bakıda isə

Qacarların səfirliyinin açılması barədə öhdəliklər götürdülər. Bundan əlavə, həmin gün Azərbaycanla İran arasında gömrük, ticarət, poçt-teleqraf və konsul əlaqələri haqqında saziş imzalandı. Bir qədər sonra Tehranda Azərbaycan səfirliyi açıldı, Təbrizdə isə Azərbaycanın baş konsulluğu fəaliyyət göstərməyə başladı.

1920-ci il aprelin ortalarında Azərbaycan parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada AXC-nin diplomatik nümayəndəlikləri açılması haqqında qanun qəbul etdi. Bu dövrdə Bakıda 20-dən çox ölkənin diplomatik missiyaları fəaliyyət göstərməyə başladı.

Cümhuriyyətin süqutu. 1920-ci ilin yazından müsəlman partiya və qruplaşmaları "Müsavat", "Əhrar", "İttihad", sosialistlər, kommunistlər, bitərəflər arasında mübarizənin güclənməsi respublikada siyasi sabitsizliyi dərinləşdirən mühüm amillərdən biri idi. Hakim "Müsavat" partiyasında üzə çıxan ziddiyyətlər, dövlətin daxili və xarici siyasətinin birmənalı qarşılanmaması fraksiya üzvlərinin sayına görə parlamentdə ikinci yerdə olan "İttihad"ın parlamentin fəaliyyətinə təsirini gücləndirir və parlamentdə öz şərtlərini diktə etməsi üçün şərait yaradırdı.

"Müsavat" partiyası hələ 1919-cu ilin dekabrında beşinci hökumət kabinetini təşkil edərək ittihadçıların müqavimətini neytrallaşdırmaq niyyəti ilə onlara koalisiya təklif etmişdi. Belə ki, "Müsavat"ın konkret məqsədi "İttihad" partiyasının simasında parlamentin sağ hissəsini özünə tərəfkeş etmək idi. Lakin "İttihad" hökumətə daxil olmaq təklifi müqabilində üç şərt irəli sürdü: 1) bütün müsəlman partiyalarının koalisiyasına riayət olunsun; 2) daxili işlər naziri portfeli M.H.Hacınskiyə verilsin; 3) dövlət nəzarəti vəzifəsi bu partiyanın nümayəndəsinə həvalə edilsin.

Dövlət nəzarəti vəzifəsini ələ keçirən "İttihad" bununla da hökumətdə öz gələcək fəaliyyətinin əsas istiqamətini - dövlət strukturlarındakı qanunsuzluqlarla mübarizə aparmaq adı altında "Müsavat"ın əleyhinə təbliğat istiqamətini müəyyənləşdirdi. Onların fikrincə, pozuntular və korrupsiyanın daha çox baş verdiyi struktur

Ticarət və Sənaye Nazirliyi idi. Bu səbəbdən Nazirlik xüsusi hücumlara məruz qaldı. Bu kampaniyanın hökumətdən daha çox "Müsavat"a qarşı yönəldiyini gizlətməyən ittihadçılar hesab edirdilər ki, sui-istifadə məsələlərinə görə müsavatçılar daha çox məsuliyyət daşıyırlar.

Daxili İşlər Nazirliyində M.H.Hacınskinin həyata keçirdiyi tədbirlər nəticəsində çoxlu məmur xidmətdən kənarlaşdırıldı. M.H.Hacınskinin bu hərəkətləri, həmçinin fəhlə liderləri və kommunistlərlə yaxınlaşması parlamentin müsavatçılar və bitərəflər fraksiyasında etirazlara səbəb oldu. Onu bolşevizmə yuvarlanmaqda ittiham etməyə başladılar. Lakin yoxlamalar bir sıra dövlət orqanlarının işində özbaşınalıq və korrupsiya faktları olduğunu aşkarladı. Xarici işlər naziri F.X.Xoyskinin qohumu, hücum hədəfinə çevrilən Qazaxın general-qubernatoru Aslan Xoyski ittihadçıların tələbi ilə M.H.Hacınski tərəfindən vəzifədən kənarlaşdırıldı.

"İttihad" partiyası bir sıra məsələlərə münasibətdə bolşevikpərəst mövqedən çıxış edirdi. Partiyanın qəzeti bolşevizmə rəğbətlə yazırdı:"Bolşevizm bütün bəşəriyyəti, o cümlədən müsəlmanları əsarət və zülmün bütün formalarından, Avropa kapitalizminin əsarətindən azad etmək uğrunda mübarizə apardığına görə partiya tərəfindən müdafiə edilir". "İttihad"ın bu fəaliyyəti Cümhuriyyətin varlığına qəsd idi və yalnız hökumət böhranı deyil, həm də bütün dövlət hakimiyyəti böhranını dərinləşdirirdi.

"İttihad"çılar kommunistlərlə ittifaqa çağırır, sovet ordusunun Türkiyə ilə birləşməsi üçün Azərbaycana buraxılmasını tələb edirdilər. Mustafa Kamal Antanta üzrə müttəfiqlərə qarşı çıxdıqdan sonra Türkiyənin nüfuzu Azərbaycanda yenidən yüksəldi, "Gənc türklər" də sovet Rusiyası ilə əməkdaşlıqda Qərb imperializminə qarşı mübarizə aparmaq üçün mümkün üstünlüklər görürdülər. Buna görə də həm onlar, həm də kamalçılar sovet Rusiyası ilə sıx əlaqə yaratmağa çalışırdılar. Azərbaycan isə bu əlaqələrin yaradılması üçün ən əlverişli yer hesab olunurdu, çünki Rusiya müharibə edən Anadoluya köməyi Azərbaycandan keçərək çatdıra bilərdi. Buna

görə də Mustafa Kamal müttəfiqlər tərəfindən Cənubi Qafqaz respublikalarının tanınmasını çox narahatlıqla qarşıladı.

Sabitliyə ciddi təsir edən amillərdən biri də "Müsavat" partiyasının sıralarındakı qeyri-müəyyənlik idi. Partiyanın sol qanadı ondan ayrılmağa meyillənmişdi. Bu qanad hökumətin daxili və xarici siyasətini kəskin şəkildə tənqid edirdi. Bitərəflər qrupunun lideri Behbud ağa Cavanşir və "Müsavat" partiyasının üzvü M.H.Hacınski də Rusiya ilə dostluq münasibətləri yaradılmasına tərəfdar idilər. Azərbaycanın siyasi xadimlərinin dövlət idarəçiliyi və siyasət-diplomatiya təcrübəsinin olmaması da özünü göstərirdi. Bu amillər kommunistlərin uğurlarına əhəmiyyətli dərəcədə kömək edirdi. Onların sonrakı fəaliyyəti üçün zəruri şərt - bütün kommunist, sosialist qruplarının yalnız bir partiyada birləşmələri çatışmırdı.

"Hümmət" partiyasında parçalanma baş verdi. Parçalanmadan sonra sol hümmətçilər Azərbaycan eserlər partiyası ilə birləşməyə cəhd göstərdilər. Müsəlman eserlərin kommunistlərlə əlaqə yaratmaq cəhdi də baş tutmadı, çünki eserlərin fikrincə, formalaşmaqda olan Azərbaycan Kommunist Partiyasının tərkibinə yalnız azərbaycanlılar daxil olmalı idi.“Ədalət” partiyasının fəaliyyəti kommunistlərin rəhbərliyi altında genişləndi.

Moskvanın göstərişi ilə Azərbaycan kommunist təşkilatlarının, Hümmət, Ədalət, Birlik, RSDFP Bakı Komitəsinin 1920-ci il fevralın 11-12-də Bakıda keçirilən I qurultayında Azərbaycan Kommunist Partiyası yaradıldı. Bu vaxtdan etibarən kommunistlərin Cümhuriyyətə qarşı silahlı üsyana hazırlığı başlandı. Onlar Bakıda silahlı çıxışlarının uğurunu Qızıl ordunun Şimali Qafqazda qələbələri, Xəzər gəmiçiliyinin bərpa edilməsi və Həştərxan-Xəzər Donanmasının göstərə biləcəyi köməklə bağlayırdılar. Həştərxan Xəzər Donanmasının komandanlığı isə Bakıda sonrakı əməliyyat hərəkətlərini genişləndirməyi sovet qoşunları tərəfindən Petrovsk limanı tutulduğu halda planlaşdırırdı.

Respublikada siyasi vəziyyətin sabit olmaması parlamentin və hökumətin işində də öz əksini tapdı. Yeni hökumətdə əmək və

əkinçilik naziri vəzifəsini tutmuş Ə.Pepinov 1919-cu il dekabrın 28-də həmkarlar təşkilatlarının iştirakı ilə fəhlə məsələsinə dair müşavirə keçirdi. Nazir həmkarlar təşkilatlarının işlərinə nazirliyin qarışmayacağını, fəhlə klubuna və fəhlə təşkilatlarına polis basqınları dayandırılacağını, Bakı hərbi general-qubernatorluğunun ləğv ediləcəyini, yığıncaq azadlığı məhdudlaşdırılmayacağını, əmək haqqının artırılacağını vəd etdi. Kommunistlər fəhlə sinfinin mənafeyini müdafiə etmək şüarı ilə milli hökumətə qarşı mübarizə aparırdılar. Azərbaycanın müstəqilliyinə təhlükə olan bu siyasəti əslində Moskva diktə edirdi. Kommunist təbliğatçıları fəhlələrin öz hüquqları uğrunda mübarizəyə qarşı Daxili işlər nazirliyinin mane olması barədə fəhlələr içərisində kampaniya aparırdılar. Daxili işlər naziri bəyanat verərək Nazirliyin fəhlələrin öz iqtisadi və hüquqi vəziyyətini yaxşılaşdırmaq uğrunda mübarizəsinə qarışmayacağını bildirdi, eyni zamanda qeyd etdi ki, dövlətə qarşı yönələn bütün çıxışları yatırmaq üçün hər vasitədən istifadə ediləcəkdir.

Bununla əlaqədar, 1920-ci il martın 15-də polis kommunist təbliğatçıları həbs etdi, Fəhlə Klubunu da yenidən bağladı.

1920-ci ilin yanvarında F.Xoyskinin kabinetində keçrilən toplantıda Baş Nazir N.Yusifbəyli başda olmaqla ölkədə vəziyyətin son dərəcə ciddi olması etiraf olundu və tədbirlər görülməsi tələb edildi. Hökumətə aşağıdakı tədbirlərdən ibarət təkliflər verildi.

1.M.H.Hacınskini Daxili İşlər Naziri vəzifəsindən kənarlaşdırmaq və onun yerinə kommunistlərlə mübarizə aparmağa qabil olan adam təyin etmək;

2.M.H.Hacınski ilə birlikdə digər sosialist nazirlərin gedəcəyi halda onları dərhal başqaları ilə əvəz etmək;

3.Parlamenti buraxmaq və hökumətə xarici siyasət və ölkənin müdafiəsi işində ən geniş səlahiyyətlər vermək;

4. 6 aydan sonra Müəssislər Məclisinə seçkilər keçirmək.

Lakin hadisələrin sonrakı gedişi nəzərdə tutulan bu tədbirləri həyata keçirməyə imkan vermədi. Sovet Rusiyası tərəfindən təhlükə getdikcə artırdı. Buna görə də 1920-ci il yanvarın 2-də RSFSR Xalq Xarici İşlər komissarı Q.V.Çiçerinin ağqvardiyaçı Denikin ordusuna

qarşı hərbi ittifaq bağlamaq təklifi ilə xarici işlər naziri F.X.Xoyskiyə göndərdiyi nota Azərbaycanı Rusiyanın daxili münaqişələrinə cəlb etmək və bununla da Azərbaycanı işğal etmək üçün siyasi manevrdən başqa bir şey deyildi. Çiçerin notasını düzgün başa düşən F.Xoyski onun təklifini rədd etdi. F.Xoyski ona 1920-ci il yanvar tarixli cavab məktubunda vurğuladı ki, Denikin məsələsi Rusiya dövlətinin daxili işidir və Azərbaycan suveren dövlət kimi başqa suveren dövlətin daxili işlərinə müdaxiləyə yol verə bilməz. Bununla da nazir müstəqil Azərbaycanın daxili işlərinə qarışmamağı tələb etdi. Denikin ordusu cənuba doğru hərəkət edirdi. Dağlılar Respublikasının parlamenti və hökuməti özünü buraxmağa məcbur oldu. Azərbaycanla sovet Rusiyası arasında bufer (aralıq) dövlət rolunu oynayan Dağlılar Respublikasının süqutu artıq Azərbaycan üçün birbaşa təhlükə idi, buna görə də Denikinin irəliləməsi ciddi təşviş doğururdu.Xarici İşlər Nazirliyi müttəfiq qoşunların komandanlığından Denikinin Könüllülər Ordusu qoşun hissələrinin Dağıstandan çıxarılması üçün tədbirlər görülməsini tələb etmişdi.

İngilislərin Denikini müdafiə etmələri siyasi gediş idi və onlar heç də Bakını tutmaq, Könüllülər Ordusuna yardım etmək fikrində deyildilər. Hələ 1919-cu ilin yanvarında Tomson Qafqaz dağları boyunca və Dağıstanın şimal hissəsindən keçən demarkasiya (ayırıcı) xəttini müəyyənləşdirmişdi.

Beləliklə, ingilis komandanlığı Denikinin cənub istiqamətində irəliləməsinə münasibətdə öz qətiyyətini büruzə verməyə çalışırdı. Lakin hadisələrin sonrakı gedişi bunun A.Denikinin planlarına təsir göstərmədiyini təsdiqlədi. Bütün bunlar milli hökumətin narahatçılığını daha da artırırdı. Aydın olurdu ki, Bakı nefti ağqvardiyaçıların növbəti məqsədidir. Denikinçilər tərəfindən Dərbəndin tutulması ingilis komandanlığının Azərbaycanla Denikin ordusu arasında qoyduğu demarkasiya xəttinin birbaşa pozulması demək idi.

1919-cu il mayın 26-da parlament öz iclasında Könüllülər Ordusu tərəfindən Petrovsk və Dərbəndin tutulması ilə bağlı

"Müsavat" fraksiyasının sorğusunu müzakirə etdi.Sorğuya cavab olaraq Baş Nazir N.Yusifbəyli dövlət sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün hökumətin atdığı konkret addımlar haqqında danışdı. Aydın oldu ki, Xarici İşlər Nazirliyi Könüllülər Ordusunun Dağıstanın hüdudlarından çıxarılması tələbi ilə ingilis komandanlığına nota göndərmişdi. Parlament hökumətin həyata keçirdiyi bütün tədbirləri bəyəndi.

Denikin ordusunun Azərbaycan sərhədlərinə yaxınlaşması onunla mübarizəni ən başlıca ümummilli vəzifəyə çevirdi. 1919-cu il iyunun 14-də N.Yusifbəylinin sədrliyi ilə yaradılmış Dövlət Müdafiə Komitəsi bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi və onun Denikinlə mübarizəyə yönəlmiş, hamı üçün məcburi olan qərarı Baş nazirin imzası ilə dərc olundu.Ancaq ingilislərin Denikinə güzəştlər edilməsi hesabına mövcud şəraiti yüngülləşdirmək cəhdləri vəziyyəti daha da gərginləşdirirdi.

1919-cu il iyunun 11-də ingilislər Petrovskdan cənubda yeni demarkasiya xətti ilə müəyyənləşdirilən sərhədləri qeydə aldılar. Bu, onların Denikinin bütün Dağıstanı işğal etməsi faktı ilə prinsipcə razı olduqlarını göstərirdi. Nəticədə Könüllülər Ordusu Azərbaycan sərhədlərinə daha da yaxınlaşmış olurdu. Eyni zamanda Xəzər dənizinin Petrovsk, Bakı və Krasnovodsk limanları ingilislərin idarəsi altında qalırdı. Bütün bu faktlar ingilislərin Qafqazda ikili standart siyasəti yeritdiklərini bir daha təsdiq edirdi.

1919-cu il iyunun 8-də Bakı fəhlələrinin böyük mitinqi oldu və onlar hökumətdən Azərbaycan sərhədlərinin müdafiə olunması üzrə təcili tədbirlər görülməsini tələb etdilər.

İkinci demarkasiya xəttinə də Denikinin məhəl qoymaması Azərbaycan-Gürcüstan əməkdaşlığı üçün görülən tədbirləri daha da sürətləndirdi və hər iki respublika öz aralarında hərbi müqavilə bağlamağı qərara aldılar. Bu barədə Ermənistan hökumətinə də müraciət edildi. Lakin öz qonşularına qarşı Denikinlə gizli sazişə girmiş Ermənistan hökuməti müxtəlif bəhanələrlə iyunun 16-da Denikin təhlükəsinə qarşı Azərbaycanla Gürcüstan arasında imzalanan hərbi müdafiə paktına qoşulmadı.

Əvvəlcə ingilis komandanlığının Azərbaycan-Gürcüstan hərbi-müdafiə paktına münasibəti mənfi idi. Lakin sonralar bu münasibət dəyişildi. Paris sülh konfransına göndərilən məlumatda deyilirdi ki. ingilis komandanlığı imzalanmış hərbi sazişi Cənubi Qafqazın birliyi üçün başlıca təminat hesab edirdi.

Paris konfransında iştirak edən Azərbaycan, Gürcüstan və Dağlılar Respublikası nümayəndələri Antanta Ali Şurasının üzvlərini inandırmağa çalışırdılar ki, Cənubi Qafqazda Könüllülər Ordusunun yolunu bağlamaq lazımdır. Bəyanatda göstərilirdi ki, Könüllülər Ordusuna bildirilməlidir ki, o, Qafqaz xalqları ilə mübarizə aparmaq üçün deyil, bolşevizmə qarşı mübarizə aparmaq üçün yaradılmışdır. Ona görə də təklif edilirdi ki, işğal edilmiş ərazilərdən çıxmaları Könüllülər Ordusundan tələb edilməlidir.

Bolşevik təhlükəsinin real olduğunu nəzərə alan F.Xoyski hökumətdən respublikada fövqəladə vəziyyət tətbiq etməyi, parlamentin buraxılmasını, yaxın vaxt ərzində Müəssislər Məclisinə seçkilər keçirilməsini tələb etdi.

Hökumətin siyasətinə qarşı onun bəzi üzvləri də müxalifətçi mövqe tutdular. Əsas mübahisə sovet Rusiyasına loyal münasibətin tərəfdarı olan Daxili işlər naziri M.H.Hacınski ilə Rusiya təzyiqinə qarşı radikal tədbirlər görülməsinin tərəfdarı olan Xarici işlər naziri F.Xoyski arasında baş verdi. Radikallar qalib gəldilər və 1920-ci il fevralın 18-də M.H.Hacınski Daxili işlər naziri vəzifəsindən getdi.

Xarici işlər naziri F.X.Xoyskinin Rusiya ilə hərbi ittifaqdan imtina etməsinə cavab olaraq, 1920-ci il yanvarın 23-də Q.V.Çiçerin ikinci notanı göndərdi. Bu notada Azərbaycan hökumətinin siyasətindən açıq narazılığı ifadə edilmişdi.

Rusiyanın milli hökümətə münasibətdə göstərdiyi bu diplomatik fəallıq həm iqtisadi, həm də siyasi amillərlə izah olunurdu. 1920-ci ilin əvvəllərində Rusiyanın özündə vətəndaş müharibəsi qurtardıqdan sonra sovet hökuməti qarşısında dağılmış xalq təsərrüfatını bərpa etmək kimi çox çətin vəzifənin yerinə yetirilməsində neft amili mühüm əhəmiyyət kəsb edirdi. 1920-ci il martın 17-də V.İ.Leninin göndərdiyi teleqram sovet hökumətinin

Azərbaycana münasibətindəki gizli niyyətlərindən xəbər verir: "Bizim üçün Bakını ələ keçirmək son dərəcə vacibdir".

F.X.Xoyski Q.V.Çiçerinin yeni notasını cavabsız qoymadı və 1920-ci il martın 7-də ona daha qətiyyətli üçüncü notasını göndərdi. Notada vurğulanırdı ki, RSFSR tərəfindən heç bir qeyd-şərt qoyulmadan Azərbaycan Cümhuriyyətinin suverenliyinin tanınması iki dövlət arasında danışıqların başlanmasının şərti ola bilər.

Siyasi dairələrdə Rusiya ilə əlaqələr yaratmağın vacibliyi yaxşı başa düşülürdü. Bu əlaqələrin pozulması nəticəsində Azərbaycan iqtisadiyyatı, xüsusən neft sənayesi ağır böhran keçirirdi. 1920-ci il yanvarın əvvəllərində Bakı anbarlarında neft ehtiyatları (250 milyon pud) şəhərin adi ehtiyac normasından üç dəfə çox idi. Bakıda orta hesabla ayda 18-19 milyon pud neft çıxarılır, amma onun cəmi 5-6 milyon pudu ixrac edilirdi.

Buna görə də sovet Rusiyası ilə iqtisadi əlaqələr yaradılması qaçılmaz zərurətə çevrilmişdi. Lakin belə əmtəə mübadiləsi yalnız xalqların hüquqi bərabərliyi və suverenliyi prinsipləri əsasında mümkün idi. Maraqlıdır ki, hətta Antanta hökumətləri müttəfiqlərin sovet hakimiyyəti və bolşeviklərə münasibətdə siyasətində dəyişiklik etməyərək 1920-ci il yanvarın 16-da Rusiyaya qarşı iqtisadi blokadanı dayandırmaq və onunla ticarətə icazə vermək haqqında qərar qəbul etdilər.

Lakin Rusiya Azərbaycanla münasibətlərə bu mövqedən yanaşmadı. Ölkəmizə hərbi siyasi təzyiqlərlə yanaşı, daxildə pozuculuq işlərini gücləndirdi. Belə bir məqamda beşinci hökümətdə Daxili işlər naziri vəzifəsinə yeni namizəd məsələsində Müsavat heç bir güzəştə getmək istəmədi və bu vəzifəyə yalnız Müsavat partiyasının üzvünü irəli sürəcəyini bildirdi. Bu addım bolşeviklərin və digər qüvvələrin dövlətə zidd fəaliyyətinə qarşı qətiyyətli mübarizə aparmaq zərurətindən irəli gəlirdi. Kompromisə meyli olan M.H.Hacınski bu vəzifənin öhdəsindən gələ bilmirdi, Daxili işlər nazirliyi isə digər dövlət təşkilatları, xüsusən ordudan fərqli olaraq, bolşevik təbliğatına məruz qalmamış yeganə orqan idi. Daxili işlər nazirliyini gücləndirmək üçün Müsavat partiyası

fevralın 23-də bu vəzifəyə hökumətin ən gənc üzvü olan Mustafa bəy Vəkilovu, müavini vəzifəsnə isə Şəfi bəy Rüstəmbəyovu məsləhət gördü. Məhz onların səyi ilə dövlətə zidd ünsürlərə qarşı fəal mübarizə başlandı, bolşeviklər içərisində həbslər keçirildi, fəhlə klubları və ən irticaçı qəzetlər bağlandı. İttihad partiyası bu təyinatlardan razı qalmadı.

Parlamentin sonrakı iclasında Ə.Pepinov öz partiyasının qərarına əsasən istefaya getdiyini bildirdi və martın 23-də nazir səlahiyyətlərindən əl çəkdi. Bu hadisə vəziyyəti mürəkkəbləşdirdi. Onun ardınca aprelin 9-da digər sosialist-nazir Camo Hacınski də istefa verdi. Sosialistlərin və İttihad nümayəndələrinin getməsi hökumət böhranını kəskinləşdirdi. Hökumətdə qalan müsavatçılar artıq Nazirlər Kabinetinin süqutunun qarşısını almaq iqtidarında deyildilər. Sosialist fraksiyası radikal-sosialist hakimiyyəti yaradılmasını təkid edirdi. Əhrarçılar da yeni iqtidarın yaradılması mövqeyində dururdular. 1920-ci il aprelin 15-də Aslan bəy Qardaşov Əhrar fraksiyası adından koalisiyadan çıxdığını və öz nümayəndələrini hökumətdən geri çağırdığını bəyan etdi.

Beləliklə, müstəqillik mövqeyində duran bütün siyasi qüvvələrin səmərəli işbirliyi quracağına bəslənən ümidlər özünü doğrultmadı. Sovet təhlükəsinə qarşı mübarizə üçün ümumi platforma hazırlamaq mümkün olmadı, nəticədə sovet qoşunlarının Azərbaycan sərhədlərinə yaxınlaşması haqqında alınan ilk xəbərlər hökumətin dağılmasına gətirib çıxartdı.

N.Yusifbəyli kabineti üzvlərinin istefası vəziyyəti dəyişdirmədi. Yaranmış vəziyyətdən üç çıxış yolu görünürdü: 1) hökumət yalnız Müsavat partiyası üzvlərindən təşkil olunur; 2) birgə yaradılmış platforma əsasında bütün siyasi fraksiyaların koalisiyası yaradılır; 3)Müsavat hakimiyyətdən gedir və digər partiyalar hökumət təşkil edir. Müsavatı siyasi səhnədən çıxarmağa çalışan İttihad üçüncü varianta nail olmağa çalışır, əks halda hökumətdə iştirakdan imtina edəcəyi ilə hədələyirdi.

Birpartiyalı hökumət mövcud şəraitdə qeyri-mümkün idi. Çünki ən böyük fraksiyada - müsavatçılar və bitərəflər fraksiyasında

parçalanma baş vermişdi. Parçalanmanı aradan qaldırmaq və yaradılan kabinetdə liderliyi saxlamaq üçün hakim partiya yeni hökumətin təşkilini M.H.Hacınskiyə tapşırdı və ona bütün parlament fraksiyaları ilə danışıqlarda hərəkət sərbəstliyi verdi.

Yeni hökumətin təşkili prinsipləri ilə razılaşmayan Müsavat partiyası üzvlərinin bir hissəsi M.H.Hacınskinin yaratdığı hökumətə daxil olmaq təklifindən imtina etdilər. Müsavatçıların mövqelərinin zəifləməsi nəticəsində kommunistlərin nüfuzu güclənirdi.

Cümhuriyyəti devirmək üçün Azərbaycan kommunist təşkilatları əsas gücü fəhlələrin və döyüş dəstələrinin silahlanmasına sərf edir, silahlı üsyanın hazırlanmasını özlərinin ən yaxın məqsədləri hesab edirdilər. Həştərxan vasitəsilə Moskvadan göstərişlər daxil olur, bolşevik fəalları, silah ehtiyatları və pul vəsaiti gətirilirdi.

Yeni hökumət kabineti yaratmaq səlahiyyəti almış M.H.Hacınski Azərbaycan kommunistləri ilə danışıqlara girərək, onlara nazir vəzifələri təklif etdi. Lakin kommunistlər bu təklifə razı olmadı. Çünki yaxın zamanda Cümhuriyyəti sovet rus ordusunun devirəcəyini bilirdilər.

Sovet Rusiyasının hərbi və diplomatik yardımına ehtiyacı olan Türkiyə isə şimal qonşusu ilə sıx əlaqələr yaratmağa çalışırdı. Ankara hökumətinin RSFSR hökumətinə ilk rəsmi müraciətində - Mustafa Kamal Atatürkün V.İ.Leninə 1920-ci il 26 aprel tarixli məktubunda qeyd edilirdi ki, "...Sovet qüvvələri Gürcüstana qarşı hərbi əməliyyata başlamaq və ya öz nüfuzu vasitəsilə Gürcüstanı ittifaqa daxil olmağa məcbur etsə, ingilisləri Cənubi Qafqazdan qovmağa çalışsa, Türkiyə imperialist Ermənistana qarşı hərbi əməliyyatları öz üzərinə götürür və Azərbaycan Cümhuriyyətini sovet dövləti dairəsinə girməyə məcbur etməyi öhdəsinə alır". Bunun müqabilində Türkiyə sovet Rusiyasından ilk yardım kimi qızılla 5 milyon türk lirəsi, silah və sursat, bəzi hərbi-texniki vasitələr və s. xahiş edirdi. Tərkibində keçmiş Türkiyə hərbi əsirlərindən təşkil olunmuş hərbi hissələr olan XI Ordunun Bakıdan yan keçməklə, Antanta qoşunlarına qarşı mübarizə aparmaq üçün Qarabağ və Ermənistandan keçərək Anadoluya gəlməsi nəzərdə

tutulurdu. Buna görə də Azərbaycanın sovetləşməsi xəbəri Ankarada böyük razılıqla qarşılandı. Sovet Rusiyası isə öz növbəsində hər vasitə ilə hərbi-strateji cəhətdən çox mühüm Bakı neft sənaye rayonunu ələ keçirməyə, Yaxın və Orta Şərqin qapısında möhkəmlənməyə çalışırdı. Deməli, Cümhuriyyətin süqutuna görə kamalçı hökuməti də məsuliyyət daşıyırdı.

RK(b)P Qafqaz Diyar Komitəsi və AK(b)P nümayəndələrinin iştirakı ilə aprelin 22-də Bakıda və aprelin 25-də Port-Petrovskda keçirilən müşavirələrdə qarşıdakı birgə əməliyyatlar planını müzakirə etdi. Bu plan aprelin 27-də Bakıda kommunistlərin silahlı çıxışını və həmin gün XI Qırmızı Ordunun Azərbaycan sərhədini keçməsini nəzərdə tuturdu. Əvvəlki hərbi əməliyyat planı Bakı-Yalama əməliyyatı adlanırdı və bu planda yalnız Bakı quberniyasının işğalı nəzərdə tutulurdu.Sonraki plana görə isə bütün Azərbaycan işğal edilməli idi. Aprelin 25-də bütün partiya komitələri hərbi komandanlığın tabeliyinə keçirildi və xəbərdarlıq olundu ki, komandanlığın əmrinə tabe olmayanlara ölüm cəzası veriləcəkdir.

Aprelin 27-də səhər tezdən kommunistlərin silahlı dəstələri həm Bakı daxilində, həm də onun kənarlarında ən mühüm obyektləri ələ keçirməyə başladılar. Təxribatçı qruplar Bakı, Şimal sərhədi və Gəncə arasında telefon və teleqraf əlaqəsini kəsdilər, bu da hökumətə əyalətlərdə yerləşən özünə sadiq hərbi hissələri vaxtında köməyə çağırmağa imkan vermədi. Bakı qarnizonu isə əslində kommunistlərin yaratdığı Azərbaycan İnqilab Komitəsinin tərəfinə keçdi. Eyni zamanda hərbi nazir S.Mehmandarov zabitlərə yeni hökumətə tabe olmağı əmr etdi.

1920-ci ilin aprelində Bakıda hərbi çevrilişin həyata keçirilməsində burada olan Türkiyə hərbiçiləri və kommunistləri fəal rol oynadılar. Məhz onların köməyi nəticəsində Şəhərdə bir çox mühüm obyektlər tutuldu, məhz Türkiyə zabitləri və əsgərləri hökumətin Bakını tərk etmək cəhdinin qarşısını aldılar.

Bakıdakı aprel hadisələrində Xəzər Hərbi Donanması əhəmiyyətli rol oynadı. Donanma gəmilərinin xəyanətkar heyəti

kommunistlərdən və onlara rəğbət bəsləyən matroslardan ibarət idi. Hakimiyyətin iki saat ərzində Azərbaycan İnqilab Komitəsinə təhvil verilməsini tələb edən hərbi gəmilər sahildə düzüldülər və öz toplarını hökumət orqanları binalarına tuşladılar.

Aprelin 27-də günorta Azərbaycan İnqilab Komitəsi qanuni hökuməti devirib hakimiyyəti qəsb etməsinə qanuni don geydirməyə çalışırdı.

Saat 20:45-də Azərbaycan parlamentinin təcili iclası açıldı. Gündəlikdə Azərbaycan İnqilab Komitəsinin hakimiyyəti təhvil vermək barəsində ultimatumu məsələsi dururdu. Hərbi nazir S.Mehmandarov silahlı müqavimətin mümkün olmadığını bildirdi. M.Ə.Rəsulzadənin təkidi ilə, "xalqdan xəbərsiz qərarlar qəbul olunmaması və xalqın bizim hansı vəziyyətdə olduğumuzu bilməsi üçün" parlamentin açıq iclasını keçirmək qərara alındı.

M.H.Hacınski ultimatumun şərtlərini qəbul etməyi təklif etdi və deputatları inandırmağa çalışdı ki, Qızıl ordu Bakıya girmədən Türkiyəyə köməyə getmək niyyətindədir. Müxalif parlament fraksiyalarının nümayəndələri: S.Ağamalıoğlu (Hümmət), Q.Qarabəyov (İttihad), A.Səfikürdski (Sosialist bloku), A.Qardaşov (Əhrar) M.H.Hacınskinin hakimiyyəti təhvil vermək təklifini müdafiə etdilər.

Müsavat fraksiyası adından M.Ə.Rəsulzadə çıxış edərək bildirdi ki, bizə kobud ultimatum verilmişdir. Biz müstəqilliyimizin tapdalanmaması şərtilə Türkiyəyə köməyə gedən qüvvələri müdafiə edirik. Lakin bizim razılığımızı soruşmadan sərhədlərimizi keçən qüvvələr bizə dost deyil, düşməndir! Bu ultimatumun qəbul edilməsi hakimiyyəti dost maskası geymiş düşmənə vermək deməkdir! 1920-ci il 27 aprel axşam saat 11 radələrində parlament hakimiyyətin Azərbaycan İnqilab Komitəsinə verilməsi haqqında qərar qəbul etdi. Parlament sədrinin müavini M.Y.Cəfərov və İşlər İdarəsinin direktoru M.Vəkilov tərəfindən imzalanmış sənəddə hakimiyyətin verilməsi şərtləri göstərilirdi:

1.Sovet hakimiyyəti tərəfindən idarə edilən Azərbaycanın tam müstəqilliyi saxlanılır;

2.Azərbaycan Kommunist Partiyasının yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;

3.Hər cür xarici təzyiqlərdən asılı olmayaraq, Azərbaycanın qəti idarə formasını Azərbaycan Fəhlə, Kəndli və Əsgər Deputatları Soveti simasında Azərbaycanın ali qanunvericilik orqanı müəyyən edəcəkdir;

4.Hökumət idarələrinin bütün qulluqçuları öz yerlərində qalır və yalnız məsul vəzifə tutan şəxslər (nazirlər) dəyişdirilir;

5.Yeni təşkil olunan müvəqqəti kommunist hökuməti buraxılmış parlament üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir;

6.Hökumət Qızıl ordunun döyüşlə Bakıya girməsinin qarşısını almaq üçün tədbirlər görəcəkdir; Qızıl ordu Bakıya girmədən Türkiyənin köməyinə gedəcək.

7.Yeni hökumət kimin tərəfindən təşkil edilməsindən asılı olmayaraq, Azərbaycanın müstəqilliyinə son qoymaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı qəti tədbirlərlə və bütün vasitələrlə mübarizə aparacaqdır".

Qərarın yekun hissəsində göstərilirdi: "Azərbaycan parlamenti özünün fövqəladə iclasında səs çoxluğu ilə bu şərtləri qəbul etmişdir. Lakin XI Ordunun ön dəstələri artıq aprelin 26-dan 27-nə keçən gecə, Bakıda kommunistlərin çıxışlarının başlanmasına qədər, Bakı işğalının həyata keçirilməsinə başladı. Plana görə XI ordunun komandanı M.K.Levandovski aprelin 27-də Azərbaycan sərhədini keçməli və ən qısa müddətdə Bakı quberniyası ərazisini tutmalı idi.Gürcüstandan və ya Şimali İran ərazisində yerləşən ingilis qoşunları tərəfindən Azərbaycan Cümhuriyyətinə göstərilə biləcək köməyin qarşısını almaq üçün əməliyyatı 5 gün müddətində başa çatdırmaq nəzərdə tutulurdu.

Aprelin 27-də "III Beynəlmiləl" zirehli qatar Samur körpüsündən keçdi və yol boyu AXC-nin pərakəndə ordu hissələrinin müqavimətini qırmaqla Bakıya doğru hərəkət etdi. İki saatlıq vuruşmadan sonra zirehli qatar Yalama stansiyasını ələ keçirdi. Sonuncu qısamüddətli döyüş Xırdalan və Biləcəri

stansiyaları arasında baş verdi və bundan sonra Azərbaycan zirehli qatarı Keşlə, sonra isə Bakı stansiyalarından uzaqlaşdı. Səhər saat 4-də "III Beynəlmiləl" zirehli qatarı Bakı stansiyasına gəldi.

Aprelin 30-da XI Ordunun əsas hissələri şəhərə daxil oldu. Başda Xəlil paşa olmaqla yerli əhali içərisində təbliğat aparan və əhalini XI Orduya müqavimət göstərməməyə cağıran Türkiyə zabitləri qrupu sovet qoşunlarına fəal kömək edirdi. Mayın 1-də Azərbaycan hissələrinin müqavimətini aradan qaldıran sovet zirehli qatarları Gəncə stansiyasını ələ keçirdilər. Həmin gün Volqa-Xəzər Hərbi Donanmasının gəmiləri Bakı limanına daxil oldu. Mayın 3-4-də Lənkəran və Astaraya hərbi dəniz desantı çıxarıldı. Mayın ortalarında XI Ordu Cümhuriyyətin demək olar ki, bütün ərazisini nəzarət altına aldı. Beləliklə, Rusiyanın hərbi müdaxiləsi ilə Cümhuriyyət süqut etdi, hakimiyyət azərbaycanlı kommunistlərin əlinə keçdi.

Cümhuriyyətin devrilməsi ciddi daxili və xarici səbəblərin nəticəsi idi. 1920-ci ilin yazında ölkədə dərinləşən siyasi sabitsizlik müsəlman partiyaları "Müsavat", "Əhrar", "İttihad", sosialistlər, bitərəflər qrupu və b. arasında gedən mübarizənin qızışması ilə müşayiət olunurdu. İki ilə yaxın bir müddətdə beş hökumət kabinetinin bir-birini əvəz etməsi həmin mübarizənin nəticəsi idi. Azərbaycanın rus-sovet ordusu tərəfindən istilası ərəfəsində siyasi partiyaların qarşıdurması o qədər kəskinləşmişdi ki, həmin ərəfədə yeni hökumət kabineti təşkil etmək heç cür mümkün olmadı. Parlament fraksiyalarının demokratiya adı ilə pərdələnən qarşılıqlı düşmənçiliyi gənc dövləti zəiflədirdi. Bütün bu çəkişmələrin arxasında bir tərəfdən müsavatçılar, digər tərəfdən isə ittihadçılar dayanırdı. Yerdə qalan digər partiyaların təmsilçiləri isə gah bu, gah da o biri tərəfə qoşulur, məhz bununla da öz aralarında daha böyük qalmaqal törədirdilər. Ölkənin ən böyük partiyası olan Müsavat və Sosialistlər həmin ərəfədə iki qanada haçalanmışdı. Beləliklə, partiyaların bir-biri ilə apardığı mübarizəni Azərbaycanın istila edilməsinə münbit şərait yaratmış daxili səbəblərdən biri saymaq olar.

Digər ciddi amil o idi ki, hökumət dövlətin ərazi bütövlüyünü təmin etmək üçün erməni daşnakları ilə mübarizəyə həddindən artıq iqtisadi və hərbi ehtiyatlar cəlb etmək məcburiyyətində qalmışdı.

Lakin bütün bunlara baxmayaraq o zaman Azərbaycanda "inqilabi şəraitin yetişməsi" deyilən bir vəziyyət yox idi. Bunu Azərbaycan inqilab komitəsinin üzvü Həmid Sultanov edir. O, yazırdı ki, Azərbaycanda sovet hakimiyyəti heç də Bakı fəhlələrinin hər hansı üsyanı nəticəsində qurulmamışdır. Bu hakimiyyəti bizə XI rus ordusu süngüsünün ucunda gətirmişdir.

N.Nərimanov çevrilişdən bir neçə ay öncə Moskvaya Azərbaycandakı vəziyyət barədə məlumat verərkən ərzaq məsələsinin yaxşı vəziyyətdə olduğunu, Azərbaycana gediş-gəlişin sərbəstliyini, hər istiqamətdə qəzet nəşrini, mətbuat azadlığını, çoxpartiyalı parlament fəaliyyətini şərh etmişdi. Moskvadakı kommunist mərkəzi yerli kommunist təşkilatların səylərini vahid Azərbaycan Kommunist Partiyasında birləşdirməyə nail oldu. Beləliklə, Azərbaycanı qəsb etmək üçün daha bir ciddi zəmin yarandı, yerli kommunistlər istilanın iştirakçıları və Mərkəzin arxalandığı əsas qüvvə oldu.

Daxili səbəblər (hökumət böhranı, Qarabağ münaqişəsi, silahlı üsyana hazırlıqda yerli kommunistlərin fəal iştirakı, Türkiyə hərbi qulluqçularının köməyi) Qızıl ordunun ölkəni istila etməsini yalnız asanlaşdırdı.

Cümhuriyyətin uğursuzluğuna baxmayaraq, onun 23 aylıq fəaliyyəti Azərbaycan xalqının taleyində çox mühüm hadisə idi. O, qısa müddətdə öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan demokratik respublikaya çevrildi. Azərbaycan Cümhuriyyəti demokratik respublika kimi bərqərar oldu.Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçrilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il 30 yanvar tarixli sərəncamında deyilir:”1991-ci ildə Dövlət Müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərindən müstəqil Azərbaycan dövlətini yaratmışdır”.

IV FƏSİL
Azərbaycan SSR-nin yaranması. Beynəlxalq və daxili vəziyyət (1920-ci il aprel - 1922-ci il).

Sovet dövlət quruculuğunun başlanması. 1920-ci il aprelin 28-də bütün dövlət hakimiyyəti Müvəqqəti Azərbaycan İnqilab Komitəsinin əlinə keçdi ki, o da Azərbaycanı müstəqil Sovet Sosialist Respublikası elan etdi. Azərbaycan SSR-də qanunverici və icraedici hakimiyyət İnqilab Komitəsinin əlində cəmləndi. Azərbaycan İnqilab Komitəsi yeni hökumətin - Azərbaycan SSR XKS-nin tərkibini təsdiq etdi. Bu hökümətdə N.Nərimanov - XKS-nin sədri və Xalq xarici işlər; Ç.İldırım Xalq Hərbi-dəniz işləri; H.H.Sultanov - Xalq daxili işlər; Ə.H.Qarayev - Xalq əmək və ədliyyə; Q.M.Musabəyov - Xalq əkinçilik, ticarət, sənaye və ərzaq; M.D.Hüseynov - Xalq maliyyə; D.X. Bünyadzadə - Xalq maarif və dövlət nəzarəti; C.Vəzirov - Xalq poçt, teleqraf və yollar; A.Ə.Əlimov - Xalq səhiyyə və himayə komissarları vəzifələrini icra edirdilər. Azərbaycan SSR XKS Müvəqqəti İnqilab Komitəsinin müəyyən etdiyi vəzifələri icra edirdi.

1920-ci ilin avqustunda isə Kiçik Xalq Komissarları Soveti yaradıldı. Onun əsas vəzifəsi Azərbaycan Inqilab Komitəsinin səlahiyyətinə aid olan məsələləri ətraflı müzakirə etmək və hazırlamaq idi. Xalq komissarlarının hamısı, Xalq Təsərrüfatı Şurasının və Fövqəladə Komissiyasının, Hərbi Inqilabi Səhra Tribunalının nümayəndələri Kiçik Xalq Komissarları Sovetinin üzvü idilər.

Aprelin 29-dan etibarən Ə.H.Qarayev başda olmaqla Bakı Inqilab Komitəsi də fəaliyyət göstərirdi. Ilk vaxtlar respublikada ali qanunvericilik və icra hakimiyyətini Azərbaycan Inqilab Komitəsi həyata keçirirdi. Yerlərdə hakimiyyət qəza, məntəqə və kənd inqilab komitələrinin əlində idi. İri dəmiryol stansiyalarında da İnqilab Komitələri təşkil olunmuşdu. Azərbaycan Müvəqqəti İnqilab Komitəsi aprelin 29-da xüsusi müraciətlə çıxış edərək RSFSR ilə qarşılıqlı etimada və tanımağa əsaslanan, sıx ittifaq

bağlamağı təklif etdi.

1920-ci il mayın 5-də RSFSR XKS-nin sədri V.İ.Leninin adından Azərbaycan hökumətinə göndərilən teleqramda deyilirdi: "RSFSR Komissarları Soveti müstəqil Azərbaycan Respublikası zəhmətkeş kütlələrinin azadlığa çıxmasını alqışlayır və inanır ki, müstəqil Azərbaycan Respublikası RSFSR ilə birgə öz azadlıq və istiqlaliyyətini Şərqin məzlum xalqlarının qəddar düşməni olan imperializmdən qoruyub saxlayacaqdır.

Yaşasın müstəqil Azərbaycan Sovet Respublikası! Yaşasın Azərbaycan və Rusiya fəhlələrinin və kəndlilərinin ittifaqı!

Azərbaycanda Leninin teleqramı Azərbaycan SSR-in RSFSR tərəfindən tanınmasını bildirən tarixi sənəd kimi qarşılandı və bu münasibətlə 1920-ci il 9 may istirahət günü elan edildi. "Müstəqil Azərbaycan Respublikası" bəyannaməsini rəğbətlə qarşılayan ictimaiyyət məsələnin əslindən xəbərsiz idi.

Sovet Azərbaycanının elan edilməsi rəsmi sovet Rusiyası tərəfindən ilk növbədə onun əmin-amanlığı və iqtisadi mənafeyi üçün əhəmiyyətli bir hadisə kimi razılıqla qarşılandı.V.İ.Lenin bəyan etmişdi:“Dünən Bakıdan aldığımız xəbər göstərir ki, sovet Rusiyasının vəziyyəti yaxşılaşmaqdadır... İndi bizim elə iqtisadi bazamız vardır ki, bu bizim bütün sənayemizi canlandıra bilər”.

1920-ci il mayın birinci yarısında sovet hakimiyyəti Naxçıvan qəzasından başqa demək olar, bütün Azərbaycanda qurulmuşdu. Əhalinin zəhmətkeş təbəqələri və liberal hissəsi bu hakimiyyəti əsasən qəbul edir və dəstəkləyirdi. 1920-ci ilin aprelində yaradılmış Azərbaycan “Sosial-demokrat” partiyası, "İttihad" partiyası, “Müsavat”ın sol qanadı da sovet hakimiyyətini, kommunistləri dəstəklədiyini bəyan etdi.

Sovet hakimiyyətinin ilk günlərində XI Qızıl ordunun xüsusi şöbəsi, Fövqəladə Komissiya Müsavat partiyasının, digər siyasi cərəyanların və qrupların üzvlərinə qarşı dərhal cəza təqiblərinə başladılar. Hakimiyyətin kommunistlərə təhvili zamanı hökumət və parlament üzvlərinin həyatının və əmlakının qorunmasının təminatı haqqında verilmiş öhdəliklər, partiyalara münasibətə dair

sazişlər pozuldu.

Bakıda Cümhuriyyət liderlərinin görkəmli nümayəndələrinin, digər partiyaların, siyasi qrupların və cərəyanların rəhbərlərinin, Azərbaycan ordusunun, Hərbi Nazirliyi xadimlərinin həbsləri genişlənirdi. Onların bir çoxu Nargin adasında güllələndi, Rusiyanın müxtəlif həbs düşərgələrinə göndərildi. Bütün bunlar Azərbaycan İnqilab Komitəsinin icazəsi olmadan, rus şovinistlərinin və erməni daşnaklarının başçılıq etdikləri XI Qızıl ordunun xüsusi şöbəsinin rəisi Pankratov tərəfindən özbaşınalıqlar edilirdi. Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədri N.İ.Solovyov demişdir ki, erməni və gürcü kommunistləri Azərbaycan burjuaziyası və ziyalılarını məhv etməklə Azərbaycan xalqını başsız qoymaq istəyirdilər.

1920-ci il sentyabrın 20-də Azərbaycanın Moskvadakı təmsilçisi Behbud ağa Şahtaxtinski V.İ.Leninə ünvanlandığı məktubda yazırdı ki, "Qızıl ordu özünü mürtəce aparır...iş qadın və qızların zorlanmasına qədər gedib çıxır... Azərbaycan kəndliləri ancaq bir şeyi xahiş edir və yalvarırlar: nə varsa, hər şeyi dərhal bir dəfəyə götürün və bizi gündəlik evə soxulmalardan xilas edin. Azərbaycan kəndlilərinin hal-hazırda vəziyyəti fövqəladə dərəcədə ağırdır. Onlar hətta ağ neft əldə edə bilmirlər, belə ki, ağ neft daşınan bütün arabaları yolda Qızıl ordu müsadirə edir. Kəndlilər tarlaları əkməkdən imtina edirlər...öz çörəyi ilə yaşayan Azərbaycan indi çörəksiz qalıbdır, ac Gürcüstan və Ermənistanın isə indi çörəyi boldur".

İşğaldan sonrakı günlərdə şəhərdə talan başlamış və bir neçə gün davam etmişdir. Bakılılar davam edən bu talanı "Talan həftəsi" adlandırmışdılar. Soyğunçular evlərə, idarələrə basqın edir, qadınların qulaqlarından, boyunlarından qızıl bər-bəzəyi güclə çıxarır, qiymətli avadanlıq aparırdılar.Yalnız mayın 1-də Bakıdan Rusiyaya "Bünyad" gəmisi ilə 62.528 pud neft, Rus gəmisi ilə isə 76.697 pud mazut göndərilmişdi.

Alman tarixçisi Yorq Baberovski "Düşmən hər yerdədir. Qafqazda Stalinizm" kitabında (2003) qeyd edir ki, bolşeviklər

Azərbaycana işğalçı kimi gəlmişlər. Onlar buranı qətllər və talan meydanına çevirmişlər. Bir neçə ay sürən terrordan sonra qorxunc dağıntı izləri qalmışdır.

Yerli əhalidən müsadirə edilmiş və ya sahibləri öldürülmüş evlərə bolşeviklər köçüb yaşayırdılar. Bakı şəhər soveti İcraiyyə Komitəsinin 1920-ci il dekabrın 23-də keçrilən iclasında qeyd olunmuşdur ki, sovet hərbçilərinin 10-12 min nəfəri camaata məxsus fərdi evlərdə yaşayır.

İşğalçı rus bolşevikləri Bakını xəritə üzərində bir neçə hissəyə bölərək, planlı şəkildə, mərhələ-mərhələ gecələr həmin məhəllələrdə qətl və qarətlər törədirdilər. Onlar elə hesab edirdilər ki, bu əməliyyatlarda iştirak edənlər ürəyiyumşaq ola bilərlər. Ona görə də Mərkəzi Asiyada yaşayan çinli və koreyalı quldur dəstələrini yerli əhaliyə divan tutmaq üçün gətirdilər.

Daşnak terrorçuları 1920-1921-ci illərdə F.Xoyskini və H.Ağayevi Tiflisdə, Behbudağa Cavanşiri isə İstanbulda vəhşicəsinə qətlə yetirdilər. General Süleyman Sulkeviç, hökumət üzvləri X.Rəfibəyov (xalq şairi Nigar Rəfibəylinin atası, yazıçı Anarın babası), İ.Ziyadxanov, tanınmış alim F.Köçərli, professor Zimin və başqaları sovet hökuməti tərəfindən məhv edildilər.

Bir fərziyyəyə görə, N.Yusifbəyli Azərbaycanın Gürcüstanla sərhədini keçərkən (Laqodex-Balakən) qarətçi quldurlar tərəfindən öldürülmüşdü. Xoş təsadüf həbs olunmuş M.Ə.Rəsulzadəni ölümdən xilas etdi. 1920-ci il avqustun 17-də M.Ə.Rəsulzadə Lahıcda həbs edildi, Bakıda həbsxanaya salındı. İ.V.Stalin Bakıda olarkən M.Ə.Rəsulzadənin həbs edildiyini bildikdə, özünün keçmiş inqilabçı tanışı kimi onun buraxılması barədə göstəriş verdi və onu özü ilə Moskvaya apardı. Moskvada onu RSFSR Millətlər Komissarlığında mətbuat müvəkkili vəzifəsinə təyin etdi. Sonra o, gizlicə Türkiyəyə getdi. Türkiyədə onun təşəbbüsü ilə Azərbaycan Milli Mühacirət Mərkəzi yaradıldı. Cümhuriyyət ziyalılarının görkəmli nümayəndələri (Ə.M. Topçubaşov, Ə.Ağayev, A.Şeyxülislamov, C.Hacıbəyli, M.B.Məmmədzadə, M.Vəkilov, M.Əsədullayev, Ə.Əmircanov və b.) mühacirətdə olduqlarına görə,

vətəndə qalmış həmfikirlərinin faciəli taleyi onların başına gəlmədi. V.A.Pankratov başda olmaqla XI Qızıl ordunun xüsusi şöbəsi, digər cəza orqanları Azərbaycandakı partiyaların, müxtəlif siyasi təşkilatların rəhbərlərinin, üzvlərinin təqib və həbs olunmasını getdikcə gücləndirirdilər. Onlar Azərbaycan ziyalılarının nümayəndələrini qırmaqla yanaşı, Ağdənizdəki Solovetsk adalarına, Suzdala, Novqoroda və digər ucqar yerlərdəki həbs düşərgələrinə göndərildi.

N.Nərimanov qanunsuz repressiyaya məruz qalmış vətəndaşları azad etməyə çalışırdı. 1920-ci il iyulun 12-də o, həbs yerlərində olan fəhlə, kəndli və əsgərlərin geniş şəkildə amnistiyası haqqında dekret verdi. Dekret sovet hakimiyyətinə qarşı sui-qəsdlərdə iştirak etməyə görə mühakimə olunanlara aid edilmirdi. N.Nərimanov 1921-ci il mayın 26-da "Azərbaycanın sovetləşməsi dövründə Azərbaycanın hüdudlarından kənara sürgün edilmiş mülki və hərbi idarələrdə çalışan bütün şəxslərin RSFSR-in bütün həbs düşərgələrindən" azad olunması və qaytarılması haqqında məktubla V.İ.Leninə müraciət etmişdi.

Azərbaycan İnqilab Komitəsi bəyan etdi ki, "o, milliyyətindən asılı olmayaraq, bütün vətəndaşların tam toxunulmazlığına və azadlığına... təminat verir". Azərbaycan İnqilab Komitəsi RSFSR ilə dostluq ittifaqı bağlamağı, digər qonşu respublikalarla mehriban münasibətlər yaratmağı özünün başlıca vəzifələrindən biri kimi qarşıya qoymuşdu.

1920-ci ilin ilk aylarında Cənubi Qafqazda mürəkkəb siyasi vəziyyət yaranmışdı. Əslində üç "müstəqil respublika" Türkiyə, Rusiya, Ingiltərə və ABŞ-ın geosiyasətinin düyün nöqtəsinə çevrilmişdi. "Böyük Ermənistan" yaratmaq xülyası ilə Azərbaycan, Gürcüstan və Türkiyədən torpaq qoparmaq iddiasında olan daşnak Ermənistanı faktiki olaraq bu üç ölkə ilə müharibə vəziyyətində idi. Rusiya isə Azərbaycanda sovet hakimiyyəti elan olunandan sonra, Gürcüstan və Ermənistanı Türkiyəyə qarşı müharibəyə təhrik etmək siyasəti yeridirdi. Türkiyə Rusiyanın və Qərb ölkələrinin niyyətlərinə qarşı çıxdı, Sevr müqaviləsini (1920) rədd

edərək, daşnak Ermənistanına qarşı hərbi əməliyyatı genişləndirdi və onu Aleksandropol sazişi (1920) bağlamağa məcbur etdi. Türkiyə-Ermənistan sərhədləri tənzimləndi.

Antanta ölkələri bolşevizmin Azərbaycanda möhkəmlənməsindən, bütün Cənubi Qafqaz regionuna sahib olmasından narahat olaraq, Gürcüstan və Ermənistan burjua hökumətlərinə hər vəchlə kömək göstərirdilər. ABŞ hətta Ermənistan üzərində mandat almaq niyyətində idi, Azərbaycana qarşı diplomatik yolla təzyiq göstərir və ona qarşı olan qüvvələrə yardım edirdilər.

Lakin XI Qızıl ordunun Ermənistan və Gürcüstanda sovet hakimiyyətini bərqərar etməsi nəticəsində Qafqazda ictimai-siyasi vəziyyət dəyişildi. Azərbaycan, Ermənistan, Gürcüstan və Şimali Qafqazın milli hökumətlərinin mühacirətdə olan liderləri toplanaraq Parisdə "demokratik respublikaların" bərpası uğrunda sovetlərə qarşı mübarizə aparacaqları haqqında bəyannamə imzaladılar.

Azərbaycan SSR və Qacarlar dövləti öz aralarında diplomatik münasibətlər qurmaq razılığına gəldilər. Bu dövrdə Qacarlar ərazisindən müxtəlif dəstələr tez-tez sərhədi keçib, Lənkəranda və Muğanda əhalini talan edir, ağır cinayətlər törədirdilər. Azərbaycan Xarici İşlər Komissarlığının 1920-ci ilin avqustunda Qacar hökumətinə verdiyi notada İrandan Azərbaycana edilən daimi hücumların qarşısının alınması tələb edilirdi.

1920-1922-ci illər arasında Cənubi Qafqazda yaranmış yeni ictimai-siyasi şəraitdə Qərb ölkələri dominant rolu oynamırdı. Türkiyə və RSFSR-in Azərbaycan Respublikasına münasibətləri müstəsnalıq təşkil edirdi. Kamalçıların hakimiyyətə gəldikləri dövrdən Türkiyə ilə sovet Rusiyası arasında dostluq münasibətləri yaranmışdı.Türkiyə eyni zamanda qardaş Azərbaycan xalqının tam müstəqil, azad yaşamasını istəyirdi. Lakin Türkiyə rəsmiləri Rusiya tərəfini qıcıqlandırmamaq, RSFSR-lə ixtilaf törədəcək məqamlara yol verməmək siyasətini həyata keçirirdi. Hadisələrin gedişatı isə göstərirdi ki, Moskva heç vaxt Azərbaycanın müstəqil,

tam azad bir dövlət kimi bərqərar olmasına yol verməz, çünki bu Rusiyanın iqtisadi-siyasi marağına uyğun deyildi.

Bununla belə Türkiyə və Azərbaycan respublikaları arasında dostluq və əməkdaşlıq münasibətləri 1921-ci il 13 oktyabrda Cənubi Qafqaz respublikaları və RSFSR-in iştirakı ilə bağlanmış Qars müqaviləsindən sonra daha da genişləndi.

Azərbaycan zəhmətkeşləri yeni cəmiyyət quruculuğuna çətin şəraitdə başladılar. Sovet dövləti yerli hakimiyyət orqanları yaratmaq vəzifələri ilə yanaşı, daşnak-bolşevik qırğınlarının, xarici müdaxiləçilərin vurduğu yaraları sağaltmaq üçün qarşıda çox gərgin iş dururdu. Ölkədə ilk növbədə həqiqi milli sülh yaratmaq lazım idi. Erməni təcavüzü, minlərlə adamın həlak olması, bütöv kəndlərin, təsərrüfatların dağıdılması ilə nəticələnən daşnak qırğını Azərbaycanda ağır millətlərarası düşmənçilik mühiti yaratmışdı.

Azərbaycanın əhalisi çoxmillətli idi. 1920-ci ildə respublika əhalisinin 68,2% azərbaycanlılar və digər müsəlman xalqları, 21,7% ermənilər, 7,5 % ruslar və ukraynalılar, 7,09% gürcülər, yəhudilər və başqa xalqlar təşkil edirdi. Bakı şəhərində müsəlmanlar 43,8 %, ruslar 26%, ermənilər 19%, gürcülər 2,2% , digərləri 4 % idi.

Azərbaycanın kənd əhalisinin tərkibindəki müxtəlif millətlər müəyyən qəzalarda əsasən yığcam halda yaşayırdılar. Ermənilər əsasən Şuşa, Gəncə, Cavanşir, Qaryagin, Şamaxı, Göyçay; gürcülər Zaqatala; kürdlər Cavanşir; ruslar Gəncə, Cavad, Lənkəran və Şamaxı; talışlar Lənkəran; tatlar isə Bakı və Quba qəzalarının bəzi ərazilərində cəmləşmişdilər, şəhər əhalisinin milli tərkibi isə qarışıq idi.

Azərbaycanda milli sülh yaratmaq, çoxmillətli Bakı fəhlə sinfinin çoxsaylı əməkçi kəndlilərlə əlaqələrini və yeni hakimiyyəti möhkəmləndirmək "sosializm" quruculuğu uğrunda mübarizənin əsas vəzifələrindən biri kimi qarşıda dururdu.

Sovet hakimiyyətinin gələcəyi üçün aqrar məsələni həll etməyin əhəmiyyəti böyük idi. Belə ki, 1921-ci il siyahıyaalmasına görə, əhalinin 77,6%-ni kənd əhalisi təşkil edirdi. Kəndliləri sovet

hökümətinin tərəfinə çəkmək üçün Azərbaycan İnqilab Komitəsi 1920-ci il mayın 5-də torpağın əməkçi kəndlilərə verilməsi haqqında dekret verdi. Dekretdə deyilirdi: "Xanların, bəylərin, habelə mülkədarların bütün torpaqları, habelə bütün monastır, kilsə, vəqf torpaqları bütün iş heyvanları və avadanlığı ilə birlikdə ödəncsiz olaraq zəhmətkeş xalqa verilir".

Torpaq haqqında dekreti həyata keçirmək üçün yerlərdə qəza və kənd torpaq komitələri təşkil olunurdu. Bu dekretin həyata keçirilməsi Azərbaycan kəndində, əslində sinfi təbəqələşməni dərinləşdirmək və siyasi vəziyyəti kəskinləşdirməklə kəndli kütlələrinin fəallığını artırırdı.

İnqilab Komitəsinin 1920-ci il 12 may tarixli dekreti ilə bütün meşələr, sular və yeraltı sərvətlər dövlətin mülkiyyəti elan olundu. Bunlar üzərində sərəncam hüququ yerli sovetlərə verilirdi. Kəndlilər pay torpaqlarından istifadəyə görə xəzinəyə ödəncdən və mülkədar torpağından istifadəyə görə isə natural vergidən azad edildilər.

1920-ci il mayın 27-də dərc edilmiş dekret əsasında neft sənayesi milliləşdirildi. İyunun 1-də Xəzər Ticarət Donanması, iyunun 12-də isə zavodlar, fabriklər və digər sənaye müəssisələri dövlət mülkiyyəti elan edildi. Bunun ardınca balıq sənayesi, banklar da milliləşdirildi.

Xalq təsərrüfatını və nəqliyyatı planlı şəkildə tənzimləmək məqsədilə Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 16 may tarixli dekretinə əsasən müəssisələrin istehsal və maliyyə fəaliyyəti üzərində fəhlə nəzarəti tətbiq edildi. Xalq təsərrüfatının əsas sahəsi olan neft sənayesinin milliləşdirilmiş müəssisələrinin idarə olunması Azərbaycan Neft Komitəsi tərəfindən həyata keçirilirdi.

1920-ci il iyunun 3-də N.Nərimanovun imzaladığı ticarət azadlığı haqqında qərarda deyilirdi: "Daxili ticarətin işində hökumət yalnız aşkar möhtəkirliklə, qiymətlərin həddən artıq qaldırılması və malların gizlədilməsi ilə mübarizə aparır. Azərbaycan Sovet Respublikasının hüdudları daxilində xüsusi ticarət məhdudlaşdırılmır".

Azərbaycan SSR-də bütün istehsal və bölgünün idarə olunması və təşkilinə rəhbərlik edən ali təsərrüfat orqanı Azərbaycan Xalq Təsərrüfatı Şurası (AXTŞ) idi.

Sovet hakimiyyəti qadınların hüquq bərabərsizliyini, milli məhdudiyyətləri ləğv etdi və söz, mətbuat və vicdan azadlığı elan etdi, məktəbləri məsciddən və kilsədən ayırdı, ana dilində təhsilin tətbiq olunduğunu bəyan etdi. Sosial təminat və pensiyalar haqqında dekretlər verildi. Qadınlara hüquq bərabərliyini əslində Cümhuriyyət hökuməti daha əvvəl vermişdi.

Silklərin və mülki rütbələrin ləğvi haqqında 1920-ci il 12 may tarixli dekretdə deyilir ki, bundan belə "Azərbaycanın bütün əhalisi üçün ümumi bir ad -Azərbaycan Respublikasının vətəndaşı adı müəyyən olunur".

Xalq məhkəməsi haqqında dekretdə (1920-ci il 12 may) elan olunurdu ki, Azərbaycan SSR-də məhkəmədə işlərə bütün yerli dillərdə baxılmasına yol verilir. Azərbaycan İnqilab Komitəsinin Xalq Daxili İşlər Komissarlığı haqqında 1920-ci il 9 iyun tarixli dekretində göstərilirdi ki, Azərbaycan SSR-nin Konstitusiyası işlənib hazırlanana qədər o, respublikanın ali inzibati orqanıdır və Azərbaycan İnqilab Komitəsi onun vasitəsilə ölkənin inzibati idarəçiliyini həyata keçirir. Respublikanın həm qəzalarında, həm də şəhərlərində bütün yerli icraiyyə komitələri və inqilab komitələri inzibati idarəçilik baxımından Xalq Daxili İşlər Komissarlığına tabe idilər.

Azərbaycan İnqilab Komitəsinin 1920-ci il mayın 7-də Azərbaycan SSR Qızıl ordusunun və Qızıl Donanmasının yaradıldığı elan olunmuşdu. Dekretdə deyilirdi ki, "Azərbaycan SSR-in yaradılmaqda olan Fəhlə-Kəndli Qızıl ordusu və Qızıl Donanması təminat, məvacib və ailələrin təchizatı mənasında sovet Rusiyasının Fəhlə-Kəndli Qızıl ordusunun vəziyyətinə keçrilir".

Əksinqilab sabotaj və möhtəkirliyə qarşı mübarizə üzrə Fövqəladə Komissiya (FK) təşkil edildi və Ali İnqilabi Tribunal yaradıldı. Dövlət və ictimai təşkilatların fəaliyyətinə nəzarət etmək üçün iyunun 9-da Fəhlə-Kəndli Müfəttişliyi (FKM) təsis edildi.

Sənayeni, əkinçiliyi, nəqliyyatı və xalq təsərrüfatının digər sahələrini tezliklə və planlı şəkildə işçi qüvvəsi ilə təmin etmək üçün 1920-ci il avqustun 8-də Azərbaycan Xalq Hərbi-Dəniz Komissarlığı üzrə "Ümumi əmək mükəlləfiyyəti haqqında" əmr verildi. Həmin əmrə əsasən, əhali daimi işindən asılı olmayaraq, əslində məcburi surətdə birdəfəlik və ya vaxtaşırı olaraq bir sıra peşələr üzrə müxtəlf növ əmək mükəlləfiyyətlərini yerinə yetirməyə cəlb edilirdi. Eyni zamanda dövlət müəssisələri və idarələrində Qızıl ordu və Donanma hissələrinin işçi qüvvəsindən də istifadə etmək tapşırılırdı.

Beləliklə, şəhər və kəndlərdə sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində ideologiyalaşdırma başladı. Azərbaycanın ilk sovet başçısı N.Nərimanov Moskvadan Bakıya yalnız 1920-ci il mayın 16-da gəlmişdi. Bu faktın özü Azərbaycanda sovet hakimiyyətinin Rusiyanın müdaxiləsi ilə qurulmasına dəlalət edir. Hələ onun Azərbaycana gəlişindən əvvəl S.M.Kirov və Q.K.Orconikidze V.I.Leninə göndərdikləri teleqramda N.Nərimanova siyasi etimad göstərməməyi xahiş etmişdilər.

Sovet hakimiyyəti Azərbaycanda özünün iqtisadi siyasətini çətin şəraitdə həyata keçirməyə başladı. Iri sənaye mərkəzi olan Bakını çıxmaqla, Azərbaycan iqtisadi baxımdan əsasən geridə qalmış, kəndli ölkəsi idi. Burada kapitalist və yarımfeodal münasibətlər mövcud idi. Azərbaycanın iqtisadiyyatı çoxukladlı xarakter daşıyırdı.

Azərbaycan əhalisinin təqribən ¾-dən çoxunu kəndlilər təşkil edirdi. Ölkə əhalisinin 90% savadsız idi. Xüsusən kənddə mədəni həyat səviyyəsi aşağı idi. Belə şəraitdə sovet hakimiyyəti özünün iqtisadi siyasətini həyata keçirməyə başladı. Bu, zaman etibarilə Rusiyada vətəndaş müharibəsi və dağıntı şəraitində (1918-1920-ci illər) məcburiyyət qarşısında tətbiq edilən "hərbi kommunizm" siyasəti ilə eyni vaxta təsadüf edirdi. Həmin siyasətin əsas hissəsi ərzaq sapalağı idi. Sovet Azərbaycanı ilə sovet Rusiyası arasında siyasi və iqtisadi sahədə əməkdaşlıq münasibətləri əksər hallarda

qeyri-bərabər idi və Azərbaycan Respublikasının müstəqilliyi pozulurdu. Azərbaycanın, ümumiyyətlə digər müttəfiq respublikaların da suverenliyi faktiki olaraq Rusiya Kommunist (bolşeviklər) Partiyasının "ümumi vahid beynəlmiləlçilik" siyasəti ilə, sosializm cəmiyyəti quruculuğunun ümumi qanunauyğunluqları deyilən prinsiplərlə əvəz olunmuşdu. Halbuki gerçəklik, milli respublikaların, o cümlədən də Azərbaycan SSR-in konkret özünəməxsus şəraitinin daim nəzərə alınmasını tələb edirdi. Lakin mal-qara və digər kənd təsərrüfatı məhsullarınm tədarükü ilə əlaqədar qəzalarda müxtəlif sui-istifadə hallarına və qanunsuz hərəkətlərə yol verilirdi.

"Hərbi kommunizm" siyasəti sisteminə aid tədbirlərdən Azərbaycanda bəziləri daha məhdud formada və qısa müddət ərzində həyata keçirilirdi. Əgər "hərbi kommunizm" zamanı Rusiyada xüsusi ticarətə yol verilmirdisə, sovet hakimiyyətinin ilk aylarında Azərbaycanda azad ticarət mövcud idi və yalnız 1920-ci il avqustun 26-da Azərbaycan İnqilab Komitəsi taxıl ticarəti inhisarı haqqında dekret qəbul etmiş, bir sıra qəzalarda taxılın və başqa kənd təsərrüfatı məhsullarının dövlət tədarükü tətbiq olunmuşdu. Qərarda daha sonra deyilirdi ki, kəndlilərə münasibətdə tədbirlərin hamısı onların bütün dövlət tapşırıqlarını yerinə yetirməsi ilə yanaşı görülməlidir; qolçomaq ünsürlər bunları yerinə yetirməkdən boyun qaçırdıqda dövlət tərəfindən məcburiyyət tədbirləri tətbiq edilsin, yoxsulları maddi cəhətdən maraqlandırmaqla, onları proletariat diktaturasının kənddə sosial bazası kimi öz tərəfimizə çəkməyə çalışmaq lazımdır.

Bütün taxıl məhsulları, habelə ən mühüm xammal növlərinin tədarükü üzərində dövlət inhisarı elan edilirdi. Tədarükü yalnız Xalq Ərzaq Komissarlığı aparırdı. Bütün əsas sənaye məhsulları (parça, çay, şəkər, kibrit, dəmir, şüşə, kənd təsərrüfatı maşınları, avadanlığı, ağ neft və s.) dövlət hakimiyyəti orqanları tərəfindən bölüşdürülür, qalan məhsullar isə sərbəst dövriyyədə idi. Yalnız kiçik kustar müəssisələri dövlətin ixtiyarına verilmirdi.

1920-ci ilin sentyabrında Azərbaycanda ərzaq sapalağı və

ümumi əmək mükəlləfiyyəti tətbiq edildi. Bununla sovet təsərrüfat orqanlarının nümayəndələrindən ibarət "Azərbaycan SSR-in ərzaq müşavirəsi" adlı qurumu bütün ərzaq işini birləşdirmək, mərkəzləşdirmək və ona rəhbərlik etmək sahəsində fəaliyyətə başladı.

Azərbaycan SSR əhalisi həmin vaxt öz ərazisində yerləşən Qızıl ordu hissələrinin və fəhlələrin ehtiyaclarını "hərbi kommunizm" siyasəti tədbirləri ilə ödəmək iqtidarında deyildi. Ordunu ərzaq, paltar və ayaqqabı ilə təchiz etmək xalqın çiynində ağır yük olmuşdu. Gürcüstanda sovet hakimiyyəti elan olunduqdan sonra XI Qızıl ordunun oraya köçürülmüş hissələrini bir aydan sonra Azərbaycana qaytarmaq planlaşdırılırdı. N.Nərimanov və bəzi ali vəzifəli şəxslər buna görə Moskvaya həyəcanlı teleqram göndərdilər: "Azərbaycan kəndliləri və fəhlələri on ay ərzində XI Ordunun bütün ağırlığını çəkmişlər. Kəndlilər və fəhlələr pis qidalanır, pis geyinirlər və onların vəziyyəti ümidsizdir, belə ki, kiçik Azərbaycan XI Orduya çox böyük miqdarda ərzaq və paltar vermişdi".

XI Ordunun Azərbaycana qaytarılmasının tamamilə qeyri-mümkünlüyü barədə məlumatı ədalətli sayan V.I.Lenin 1921-ci il martın 29-da RK(b)P MK Siyasi Bürosunun tapşırığı ilə Q.K.Orconikidzeyə göndərdiyi teleqramda deyilirdi ki, bu ordunu Gürcüstanda saxlamaq və xaricdən taxıl gətirilməsini təmin etmək lazımdır.

Əslində Rusiyanı yanacaqla təmin etmək üçün işləyən Bakı fəhlələrinin paltar, şəkər və digər ilkin tələbat malları üzrə RSFSR tərəfindən təchiz edilməsi məsələsi qarşıya çıxdı. Azərbaycan kəndliləri tam müflislik həddində olduqlarına görə RSFSR tərəfindən kömək xüsusilə zəruri idi. Gənc respublikanın vəziyyətini yüngülləşdirmək məqsədilə ona yardım göstərmək üçün bir sıra tədbirlər görüldü. Azərbaycanda ərzaq siyasəti bir qədər yumşaldıldı. Qolçomaqlardan alınan artıq mal-qara, taxıl və digər kənd təsərrüfatı məhsulları ən yoxsul kəndlilər arasında bölüşdürülürdü. Hökumət xəbərdarlıq etmişdi ki, qəzaların bir

çoxunda taxıl ehtiyatının tükənməsi nəzərə alınaraq, Lənkəran və Quba qəzalarından başqa, Azərbaycanın bütün ərazisində hər cür taxıl tədarükü dayandırılmışdı.Sovet Azərbaycanında proletariatla yoxsul kəndlilərin ittifaqını möhkəmləndirmək və inkişaf etdirmək üçün torpaq məsələsinin düzgün qoyulması və tənzimlənməsi birinci dərəcəli əhəmiyyət kəsb edirdi. Ərzaq məsələsinin həlli də əsasən bundan asılı idi.

Azərbaycan kəndlisinə Bakı proletariatı ilə onun ittifaqının yeni zəmində möhkəmləndirilməsinin o vaxt böyük siyasi əhəmiyyəti var idi. RK(b)P MK Siyasi Bürosunun V.İ.Lenin tərəfindən hazırlanmış və 1920-ci il noyabrın 27-də Siyasi Büronun qəbul etdiyi qərara Azərbaycanda ərzaq siyasətini yumşaltmağın zəruriliyi barədə bəndin daxil olunması təsadüfi deyildi.

Qərarda deyilirdi: "Azərbaycanda ərzaq siyasəti yumşaldılsın, yəni Azərbaycanda, Muğandan kənarda kəndlilərdən taxıl heç alınmasın. Muğanda isə son dərəcə ehtiyatla alınsın". Bu qərarla əlaqədar olaraq 1920-ci ilin dekabrında Azərbaycanda ərzaq tədarükünü dayandırmaq qərara alındı.

1921-ci ilin yanvarında M.D.Hüseynov başda olmaqla Azərbaycan SSR-nin Ali İqtisadi Şurası (AİŞ) yaradıldı. AİŞ respublikada mövcud olan bütün təsərrüfat orqanlarının fəaliyyətini birləşdirir və təsərrüfat quruculuğuna rəhbərlik edirdi. Lakin o, RSFSR-in müvafiq komissarlıqlarından asılı idi. Respublikanın bütün iqtisadi komissarlıqları özlərinin təsərrüfat planlarını RSFSR-in müvafiq komissarlıqlarının təsərrüfat planları ilə ciddi surətdə əlaqələndirməklə işləyib hazırlayır və bu planları razılaşdırmaq üçün Azərbaycan AİŞ-ə və RSFSR Xalq Komissarları Sovetinə təqdim edirdilər.

Beləliklə, sovet hakimiyyəti Azərbaycanda özünün iqtisadi siyasətini həyata keçirərkən, ilk növbədə Mərkəzin ümumi maraqlarını əsas götürür, iqtisadiyyatın bütün məsələlərini Rusiyanın siyasətindən asılı olaraq həll edirdi. Çarizm dövründə olduğu kimi, Azərbaycan sovet Rusiyasının xammal bazası və satış bazarı rolunu oynayırdı.

İctimai-siyasi təşkilatlar. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Kommunist (bolşeviklər) Partiyası (30-cu illərədək "AK(b)P" adlanırdı) əslində hökumət partiyası olmuşdu və tədricən nəinki dövlət hakimiyyəti ilə qovuşur, həm də proletariat diktaturası (fəhlə hökuməti) sisteminin özəyinə çevrilirdi. O, müstəqil, sərbəst partiya deyil, RK(b)P-nin tərkib hissəsi idi, onun tapşırıqlarını yerinə yetirirdi.

Sovet hakimiyyəti qurulduqdan sonra ictimai-siyasi təşkilatların, kommunist partiyasının, həmkarlar ittifaqları və komsomol təşkilatlarının fəaliyyəti genişləndi.

Sovet hakimiyyətinin ilk illərində Azərbaycan partiya təşkilatının fəaliyyətində azadfikirlilik, plüralizm və tənqid ünsürləri hələ də özünü göstərirdi. Sovet hakimiyyəti qurulduqdan sonra qəzalarda partiya təşkilatlarının fəaliyyəti xeyli gücləndi, onların sıralarında azərbaycanlıların sayı artdı.

1920-ci il mayın 5-də RK(b)P MK Qafqaz Bürosu üzvlərinin iştirakı ilə keçrilmiş Birinci (leqal) Ümumbakı partiya konfransı faktiki olaraq Kommunist Partiyasının siyasətinin Azərbaycanda əsas istiqamətlərini müəyyənləşdirdi.

AK(b)P-nin tərkibi çoxmillətli idi, o zaman onun üzvlərinin demək olar, yarısını azərbaycanlılar deyil, başqa millətlərin nümayəndələri təşkil edirdi. Rəhbər partiya orqanlarında azərbaycanlılar az idi. Rəhbər partiya orqanlarında da qatı millətçi, əlaltından antiazərbaycan siyasəti yeridən erməni-daşnak kommunistlərinin güclü təsiri var idi. Azərbaycanda Moskvanın partiya xəttini yeritmək üçün buraya "görkəmli bolşeviklər"- Q.K.Orconikidze, S.M.Kirov, Q.N.Kaminski, N.N.Kolesnikova, Y.L.Stasova göndərilmişdilər.

Q.N.Kaminskidən sonra təxminən beş il S.M.Kirov AK(b)P MK-nın birinci katibi (1921-ci il iyul-1926) olmuşdur. 1926-cı ildə MK-nın Birinci katibi vəzifəsinin icrası Ə.H.Qarayev, H.A.Ağaverdiyev və L.Mirzoyandan ibarət katibliyə həvalə edilmişdi. 1929-cu ildən 1934-cü ilədək qısa bir dövrdə, M.C.Bağırov Birinci katib təsdiq edilənə qədər, 3 Birinci katibi -

N.Gikalo, V.Polonski və Rubeni (Rubenovu) Mərkəz kənar şəxslərdən təyin etmişdi.

Moskva tərəfindən Bakıya təsərrüfat işçiləri göndərilirdi. O zaman neft sənayesinin vəziyyətini öyrənmək üçün Əmək və Müdafiə Şurasının səlahiyyətli komissiyası da Bakıya gəlmişdi. Azərbaycana İ.M.Qubkin, D.V.Qolubyatnikov, P.N.Pototski kimi yüksək ixtisaslı mütəxəssislər və alimlər də gəlirdi. A.P.Serebrovski, N.Barinov bir çox illər Bakı neft sənayesinə, N.İ.Solovyov və başqaları xalq təsərrüfatına rəhbərlik etmişlər. Onların silahdaşları əksər hallarda azərbaycanlılar deyil, başqa millətlərin, xüsusən ermənilərin nümayəndələri olurdu. Partiya həyatının bu cür forması həqiqi sosializm cəmiyyəti quruculuğuna mənfi təsir göstərir, tədricən onun deformasiyaya uğramasını şərtləndirirdi.

N.Nərimanov 1921-ci ilin fevralında V.İ.Leninə məktubunda yazırdı:"Bütün ucqar muxtar respublikalarda sovet Rusiyasının müstəmləkə siyasətindən danışırlar...".

Bunlar RK(b)P MK Qafqaz Bürosunun rəhbəri Q.K. Orconikidzenin, Bakı Partiya Təşkilatının, Icraiyyə Komitəsinin, fəaliyyətində özünü xüsusilə göstərirdi. Kommunistlərin bir çoxu Moskvaya göndərdikləri müraciətlərdə, məktublarda Q. Orconikidzeni açıq-aşkar müstəmləkəçi adlandırırdılar.Q. Orconikidze Azərbaycan SSR-nin RSFSR ilə birləşməsi haqqında məsələ qaldırdı. Mərkəzi Komitənin üzvü olan ermənilər, ruslar onu dəstəklədilər, digər partiyalardan kommunist partiyasına keçmiş cavan azərbaycanlı partiya üzvləri də onlara qoşuldular. N.Nərimanov və onun həmfikirləri birləşmənin əleyhinə çıxdılar. Respublikanın müstəqilliyinin qorunub saxlanmasına tərəfdar çıxanları "millətçi təmayülçülükdə" günahlandırırdılar. Beləliklə, partiya təşkilatında fikir ayrılığı, rəhbərlər, məsul partiya işçiləri arasında çəkişmələr başlandı, qütbləşmə dərinləşir, bəzən açıq ixtilaflara çevrilirdi. Partiya təşkilatındakı belə vəziyyət Azərbaycan sovet respublikasının taleyi üçün böyük təhlükə doğururdu. N.Nərimanov deyirdi: Hazırda Cənubi Qafqazda bizim

hakimiyyətimiz yalnız süngü gücünə yaşayır".

Rusiyanın hakim elitasında Bakının Azərbaycanın bütün qalan hissəsindən ayrı olması barədə qəti fikir formalaşdırılmışdı. Bu da Bakını və onun neft rayonunu Rusiya imperiyasının ərazisi elan etmək üçün əsas olmuşdu. Bakı daşnak-bolşevik özəyi də 1918-ci ildə Bakıya, ümumən Azərbaycana münasibətdə eyni siyasəti yeridirdi. Hələ Cümhuriyyətin müvəqqəti Gəncədə yerləşən hökuməti Bakının azad edilməsi uğrunda mübarizəyə başlayanda da Rusiya hökumətinin rəsmi sənədlərində Bakı və onun mədən rayonları "Rusiyanın ərazisi" kimi vurğulanırdı. Həmin siyasət Azərbaycan SSR elan olunandan sonra da, daha incə formada davam etdirilirdi.

1920-ci illərdə Bakıda idarəçilik əsasən Bakı Partiya təşkilatının və Bakı Soveti İcraiyyə Komitəsinin daşnak-bolşevik (rus-erməni) rəhbərlərinin əlində idi. Ölkədəki mürəkkəb şəraitdə ümumi kommunist siyasətinin həyata keçrilməsində mövqelərin ziddiyyətli olması milli tərkibcə müxtəlif partiya və sovet işçiləri arasında çəkişmə və ixtilaflar doğururdu. Bu barədə N.Nərimanov tez-tez məktublarla, məruzələrlə V.İ.Leninə, Mərkəzi orqanlara müraciət edirdi.

Bakı Soveti ilə Azərbaycan SSR XKS arasında qarşılıqlı münasibətlər haqqında məsələlərin həlli ilə əlaqadar partiya və sovet işçiləri arasında ixtilaflar xüsusilə kəskinləşməkdə idi. AK(b)P II qurultayının "Bakı Soveti ali kütləvi nəzarət orqanıdır və bütün Xalq Komissarları öz işləri barədə onun qarşısında vaxtaşırı hesabat verirlər" qərarı antidemokratik, səhv qərar idi.

N.Nərimanov və silahdaşlarının təkidilə 1921-ci il iyunun 3-də RK(b)P MK-nın Qafqaz Bürosu Bakı Soveti ilə Xalq Komissarları Soveti arasında qarşılıqlı münasibətlər haqqında məsələni müzakirə edərək qərara aldı: "Bakı Soveti ilə Azərbaycan XKS arasında qarşılıqlı münasibətlər eynən Moskva Soveti ilə Xalq Komissarları arasında mövcud olan qarşılıqlı münasibətlər kimi müəyyən edilsin".

Sovet sistemi quruculuğunda ictimai təşkilatlar fəal iştirak

edirdilər, bunların arasında komsomol və həmkarlar ittifaqı təşkilatları xüsusilə fərqlənirdi. Lakin bunlar partiya təşkilatlarından asılı idilər, onların qərarlarını yerinə yetirirdilər. 1920-ci ilin mayında Bakıda Rusiya Kommunist Gənclər İttifaqının (RKGİ) Qafqaz Diyar Komitəsi yaradıldı. Azərbaycan komsomol təşkilatı ona tabe idi.

Komsomolçular könüllü surətdə ordu hissələrinə yazılır, iməciliklərdə,"kəndli həftəsi"nin keçirilməsində iştirak edirdilər. Qəzalarda və kəndlərdə komsomol özəkləri yaradılır, bunlar kəndlilər arasında kütləvi-siyasi işi təşkil edir, məhsul yığımında onlara kömək göstərirdilər.

1920-ci il iyulunda Bakıda komsomolun 1-ci Qurultayı keçirildi. Qurultay fəhlə-kəndli gənclərin vəzifələri haqqında, xalq təhsili, torpaq və gənclərin kənddə işi haqqında məsələləri müzakirə etdi. Qurultay Azərbaycan Kommunist Gənclər Ittifaqını (AKGİ) təsis etdi. Lakin partiyanın diktəsi ilə qurultay təsdiq etdi ki, Azərbaycan komsomolu Rusiya komsomolunun ayrılmaz tərkib hissəsidir, onun ali orqanının qərarlarını qəbul edir.

Beləliklə, respublikanın gənclər təşkilatı, əslində əvvəldən müstəqil, sərbəst yaradıcı vətənpərvərlik fəaliyyətindən məhrum olub, tədricən özünün milli məna və ruhunu itirirdi.

Həmkarlar təşkilatları da partiya təşkilatlarının rəhbərliyi altında işləyir və istehsalın bütün sahələrində yalnız partiya direktivlərinə uyğun olaraq zəhmətkeşlərin mənafeyinin müdafiəçisi vəzfələrini yerinə yetirməli idilər.

Bakıda mədənçilərin, metalçıların və elektriklərin, tikinti və ağac emalı fəhlələrinin həmkarlar ittfaqları yaradıldı. Digər şəhərlərdə və qəzalarda da həmkarlar ittifaqlarının şöbələri təşkil edilirdi. 1920-ci ilin iyununda həmkarlar ittifaqlarının Birinci Ümumbakı konfransı respublika həmkarlar ittifaqlarının vəzifələrini müəyyənləşdirdi, habelə Azərbaycanın həmkarlar ittifaqı hərəkatının fəaliyyətinin ümumrusiya həmkarlar ittifaqı hərəkatı ilə sıx birliyini bəyan etdi. Konfrans respublikada vahid mərkəzi həmkarlar ittifaqı orqanı - Azərbaycan Həmkarlar

İttifaqları Şurası (AHİŞ) və ümumrusiya həmkarlar ittifaqlarının müvafıq respublika şöbələrini yaratmaq qərarına gəldi. Qəzalarda isə həmkarlar ittifaqlarının qəza şöbələrini və bunları birləşdirən orqanlar-qəza büroları yaratmaq qərara alındı. Bakı partiya təşkilatının antiazərbaycan özəyi A.İ.Mikoyanın AHİŞ-in sədri seçilməsinə nail oldu.

1920-ci ilin avqust-sentyabrında Bakıda həmkarlar ittifaqlarının I Qurultayı oldu. Qurultay həmkarlar ittifaqlarınm üzvlərini əmək məhsuldarlığını yüksəltməyə, şüurlu intizamı möhkəmləndirməyə, yeni həyat quruculuğunda fəal iştirak etməyə çağırdı. Qurultay müəssisələrdə əməyin mühafızəsinə, texniki-peşə təhsilinə, həmkarlar ittifaqlarının mədəni-maarif işində iştirakına xüsusi diqqət yetirdi.

Qurultayda L. Mirzoyan AHİŞ-in sədri seçildi. A.Mikoyan və L.Mirzoyan respublika həmkarlar ittifaqlarına "liderlik" edərək azərbaycanlıların mənafelərinə zidd, onların əmək fəaliyyətini məhdudlaşdıran tədbirlərin həyata keçirilməsinə məkrli zəmin yaradırdılar.

Antisovet üsyanlar. Sovet hakimiyyəti qurulduqdan sonra Qərb dövlətləri uzaq məqsədlər güdən ekspansiyaçılıq fikirlərindən əl çəkməmişdilər. Cənubi Qafqaz yenə onların diqqət mərkəzində idi. Onlar Böyük Britaniyadan asılı olan "İran-Azərbaycan Federasiyası" yaratmaq ideyası ilə yaşayırdılar.

İmperialistlər fitnə-fəsad və ayrı-ayrı xalqları bir-birinə qarşı qaldırmaq siyasətini Qafqaza tətbiq etməyə çalışırdılar. Bu məqsədlə Qərb dövlətləri özlərinin agentlərini-erməni daşnaklarını silahlandırır və lazım olan hər şeylə təchiz edirdilər. 1920-ci ilin yazında onlar sovet Rusiyasına qarşı yeni yürüş təşkil etməklə ilk növbədə Bakı neftini ələ keçirmək ümidində idilər. O vaxt Antanta imperialistləri İranda təyyarə meydanları yaratmaqla buradan Bakıya hava zərbəsi endirmək barədə düşünürdülər.

Qərb dövlətləri antisovet çıxışlar təşkil etmək üçün Azərbaycana agentlər, böyük miqdarda silah göndərdilər. Antisovet qüvvələr əhali arasında XI Qızıl ordu əleyhinə iş

görür,"müsəlman kommunistlərinin xəyanətkarlığı","ümummilli fəlakət" və s. haqqında fikirlər yayırdılar. Sovet hakimiyyətinin ilk vaxtlarında yerli əhaliyə münasibətdə yol verilən nöqsanlar və kobud rəftar əhalidə ciddi narazılıq yaratdı.

RSFSR Xalq Xarici İşlər Komissarlığı və Ermənistanın nümayəndələri arasında danışıqlar zamanı Azərbaycanın bəzi ərazilərinin mübahisəli elan edilməsi də əhalinin əhvali-ruhiyyəsinin sovet hakimiyyəti əleyhinə dəyişməsində müəyyən rol oynamışdı.

M.Ə.Rəsulzadə yazırdı: "İstiqlaldan bir ay sonra artıq bütün Azərbaycan müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk etmişdi". Sovet hakimiyyətinə qarşı ilk üsyanın təşəbbüsçüləri Gəncədəki milli qüvvələr oldu. Onlar 1920-ci ilin mayın 25-də sovet hakimiyyətinə və Qızıl ordu qarnizonuna qarşı fəal silahlı çıxışlara başladılar. Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun tərxisi, milli zabitlərin xidmətdən çıxarılması silahlı toqquşmaların kəskinləşməsinə təkan verdi. Gəncə qarnizonu mayın 28-dən 29-na keçən gecə üsyan qaldırdı və şəhərin müsəlmanlar yaşayan hissəsini tutdu. Mayın 31-də üsyan yatırıldı. Bir neçə gün ərzində minlərlə üsyançı həlak oldu. Yüksək rütbəli zabitlər, o cümlədən general-mayor Məmməd Mirzə Qacar, general-mayor Cavad bəy Şıxlinski qətlə yetrildilər, bir çoxları isə Nargin adasına aparılıb güllələndi. Həbs edilmiş məşhur generallar Ə.Şıxlinski və S.Mehmandarova erməni bolşevikləri küçə süpürtdürürdülər. N.Nərimanovun təkidi sayəsində onlar azad edildilər və hərbi xidmətdə istifadə olunmaq üçün Moskvaya göndərildilər. Onların üsyanla əlaqəsi yox idi.

Gəncə üsyanının üç başçısından biri olan polkovnik Cahangir Kazımbəyli (1885-1955) peşəkar hərbçi idi. O, AXC dövründə Gəncədə alay komandiri olmuşdur. Üsyandan bir qədər əvvəl həyat yoldaşı Valiyyə Xoyskini, 6 aylıq oğlu Abbası qayınatası Hüseynqulu xanla İrana göndərmişdir. Gəncə üsyanı yatırıldıqdan sonra Türkiyəyə qaçmış, sonra isə Marşal Yuzef Pilsudskinin dəvəti ilə Polşaya gedib, burada diviziya komandiri olmuşdur.

O,“Prometey” cəmiyyətində işğalçı ruslara qarşı siyasi mübarizə aparıb, sovet ordusuna əsir düşüb, əsirlikdən qaçaraq Almaniya və İtaliyada gizlənmişdir. Sonra yenidən Almaniyaya dönərək ömrünün sonunadəki “Azadlıq” radiosunda çalışmışdır. 1953-cü ildə ABŞ-da nəşr edilən “Azərbaycan” jurnalının 12-ci sayında C.Kazımbəyovun “Gəncə üsyanı haqqında xatirələr” adlı sanballı yazısı dərc olunmuşdur. Onun sovet kəşfiyyatçısı tərəfindən zəhərlənərək öldürüldüyü fikri irəli sürülür.

General Nuru paşanın rəhbərliyi ilə Qarabağda başlayan üsyan Şuşa, Ağdam və Bərdəni əhatə etmişdi. Qarabağ üsyanının yatırıldığı vaxt Zaqatala dairəsində üsyan qalxdı və Şəkinin bir hissəsini də bürüdü. 1920-ci ilin iyununda Gürcüstan parlamentinin üzvləri Zaqatalada sovet hakimiyyətinə qarşı təşviqatı gücləndirmişdilər. Onlar əhali arasında şayiə dolu intibahnamələr yayırdılar ki, guya "əgər Zaqatala dairəsini Gürcüstana verməsələr, Gürcüstan zor gücünə tabe olmağa məcbur edəcək".

Sovet hakimiyyətinə qarşı Zaqatala üsyanı 1920-ci il iyunun 6-da belə bir bəhanə ilə başlandı ki, guya Gürcüstan Azərbaycana müharibə elan etmişdir. Könüllü partizan dəstələrinin təşkili də bu bəhanə ilə aparılırdı. Çıxış üçün qığılcım əhalinin silahı təhvil verməsi barədə əmr oldu. Molla Hafiz Əfəndinin başçılıq etdiyi üsyançılar (1000 nəfərdən çox adam) və onlara qoşulmuş Azərbaycan qoşunlarının qarovul batalyonunun bütün zabitləri iyunun 9-da Zaqatala qalasını, teleqrafı tutdular və inqilab komitəsinin sovet üzvlərinin hamısını həbs etməyə başladılar. Zaqataladakı üsyan da Qarabağdakı üsyanda olduğu kimi, eyni amansızlıqla yatırıldı və əhali tərksilah edildi.

1920-ci ilin avqust-sentyabrında Quba qəzasının Dəvəçi və Qusar dairələrində Kuzun kəndində sovet işğalına qarşı xalq üsyanı oldu. Üç həftəyə yaxın davam edən üsyana siyasətçi Həmdullah Əfəndizadə, qaçaq Mayıl və AXC ordusunun zabiti Səttar Əfəndiyev rəhbərlik edirdilər. Üsyanı yatırmaq üçün bölgəyə Əliheydər Qarayev və Levan Qoqoberidze bölgəyə ezam olundular. Bolşeviklər tərəfindən Kuzun kəndi və daha bir neçə

kənd yandırıldı, 400-500 kəndli qətlə yetirildi.

1920-ci ilin yayında Şəmkir qəzasının Müskürlü kəndi ətrafında kəndlilərin silahlı dəstəsi ilə XI Qırmızı Ordu hissələri arasında toqquşma baş verdi.

1920-1924-cü illərdə Lənkəran, Cavanşir, Ordubad və Şəmkir qəzalarında, Qəbələ və Xaçmazda sovet rejiminə qarşı kütləvi çıxışlar həyata keçrildi. Bakının bəzi müəssisələrində də qısa müddətli etiraz tətilləri baş verdi.

Azərbaycan ordusu hissələrinin müəyyən bölümü Sultan bəy Sultanovun sərəncamına göndərilmişdi. Sultan bəy Sultanovun əhatəsindəki adamlar kürdlər arasında güclü dini-şovinist təbliğat aparır, onları sovet hakimiyyətinə qarşı çıxış etməyə hazırlayırdılar. Yaranmış vəziyyət barədə S.Sultanov Azərbaycan İnqilab Komitəsinə dəfələrlə məlumat vermiş, lakin müsbət cavab almayıb Türkiyəyə mühacirət etmişdi.

1920-ci il iyunun 23-25-də atıcı diviziyanın kəşfiyyat rəisi Laçında oldu, yerli nüfuzlu bəylərdən olan Sultan Paşa bəy oğlu Sultanovla (uzun illər ermənilərə qarşı vuruşan xalq qəhrəmanı, Xosrov paşa Sultanovun qardaşı) görüşdü. Sultan bəy Sultanovun əhali arasında böyük hörməti var idi. Kasıblara qarşı xeyirxahlığı, öz xalqına sədaqəti ilə məşhurlaşmışdı. Onun bacarığı sayəsində Andronikin başçılığı ilə erməni dəstələri böyük itkilər vermiş və torpaqlarımızın işğal planı baş tutmamışdır.

Sovet hakimiyyətinin ilk aylarında təkcə Bakının deyil, bütün Azərbaycanın partiya rəhbərliyində erməni-gürcü-rus təbəqəsi hakim rol oynayırdı və sovet hakimiyyəti adı altında əsasən antiazərbaycan siyasəti yeridir, Azərbaycanın milli mənafeyini nəzərə almırdı. Şübhəsiz ki, belə siyasət Gəncədə, Qarabağda, Zaqatalada və başqa rayonlarda antisovet üsyanların səbəblərindən biri idi. Ermənistan və Gürcüstanının sovet Azərbaycanının bəzi ərazilərinə iddia etməsi bu bölgədə düşmənçilik mühitini daha da gərginləşdirirdi.

Ermənistanda müxtəlif silahlı dəstələr Azərbaycan SSR-nin sərhədini keçərək əhalini qarət edir və qırır, bütöv kəndləri

yandırırdılar. 1920-ci il iyunun 19-da Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun və RK(b)P MK Qafqaz Bürosunun bəzi üzvlərinin imzası ilə Q.K.Orconikidzeyə və G.V.Çiçerinə teleqrafla göndərilən məktubda deyilirdi ki, daşnak hökuməti dəmir yolunu ələ keçirmək məqsədilə Qazax rayonunda hücumu davam etdirir,bizim hissələrin yaxınlaşması ilə daşnak hissələri Qarabağdan çıxmış və İran sərhədinə geri çəkilmişlər. Daha sonra məktubda göstərilirdi ki, Dağlıq Qarabağda və Zəngəzurda sovet hakimiyyəti elan olunmuşdur.

Azərbaycan SSR nümayəndələrinin xəbəri və iştirakı olmadan RSFSR ilə Ermənistan hökuməti arasında 1920-ci il avqustun 10-da Azərbaycana birbaşa aid olan 4 mübahisəli ərazi məsələlərinə aid 6 bənddən ibarət müqavilə bağlandı. Müqavilənin ikinci bəndində deyilirdi:"Ermənistan Respublikası qoşunlarının yerləşdirilməsi üçün bu sazişlə müəyyən edilmiş zolaqlar istisna olmaqla mübahisəli vilayətlər Qarabağ, Zəngəzur qəzası və Naxçıvan diyarı RSFSR qoşunları tərəfindən tutulur".

Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sədri N.Solovyov yazırdı ki, ən kədərli təsir bağışlayan Ermənistanla sərhəd rayonlarında azərbaycanlılardan silahların alınması idi və bu, müsəlmanların ermənilər tərəfindən qırılmağa məhkum edilməsi demək idi və ermənilərin Qızıl ordu tərkibinə və dəmir yollarının mühafizəsinə qəbul olunması idi. N.Solovyov xəbər verirdi ki, Ermənistan Respublikası yaranarkən onun hüdudlarında 250 müsəlman kəndi var idi, onlar hamısı məhv edilmişdir, indi orada bir nəfər də müsəlman yoxdur. N.Solovyovun söylədikləri SSRİ-nin ermənipərəst rəhbəri M.S.Qorbaçovun dövründə azərbaycanlılara qarşı eynən təkrarlanmışdı.

Məmur özbaşınalığı baş alıb gedirdi. Belələrindən biri də L.Beriya idi. L.Beriyanın məhkəmə prosesi zamanı arxivdən N.Nərimanovun iki sərəncamı tapılmışdır. Bunlar o vaxt Azərbaycanın Fövqəladə Komissiyası sədrinin müavini işləyən L.Beriyanın yerli əhaliyə qarşı xuliqanlıqlarına görə dərhal cəzalandırılması barədə idi. Bakı Partiya Komitəsi 1922-ci ildə iki

dəfə Beriyanın qanuna zidd hərəkətlərini müzakirə etmişdi. Bakı Komitəsinin qərarlarından birində deyilirdi: "Eşidildi: Beriyanın hərəkətləri haqqında. Qərara alındı: Bakı komitəsinin razılığı olmadan siyasi həbslər keçirmək, xüsusilə fəhlələri həbs etmək yolverilməz sayılsın.İ.V.Stalin N. İ. Solovyovun məruzəsi ilə tanış olduqdan sonra V.İ.Leninə yazmışdı ki, "xarakteristika (zənnimcə) ümumən düzdür".

V.İ.Lenin və digər sovet rəhbərləri Rusiyaya qarşı imperialist dövlətlərin blokadasını yarmaq üçün Qərbi Avropa ölkəllərində təbliğat və digər yollarla sosialist iniqilabı törətmək, sovet quruluşu yaratmaq istəyirdilər. Lakin bu siyasət iflas etdi. Ona görə ki, N.Nərimanovun dediyi kimi, Qərb kapitalistləri ilə fəhlələr "razılaşdılar". N.Nərimanov sovet rəhbərliyinə bildirdi ki, biz inqilabları Qərbdən deyil, Şərqdən gözləməliyik. Çünki Şərq Qərb imperialistlərinin milli əsarəti altındadır. Əgər Şərq ölkələri müstəqillik qazansa, Qərb imperialistləri güclü sərvət qazanıb öz xalqlarını bəsləyə bilməyəcək, əvvəlki tək firavan yaşamayan Qərb xalqları öz kapitalistləri ilə mübarizəyə başlayacaq.

Müdafiə tədbirləri. Yaxın və Orta Şərqin sərhəddində Azərbaycan SSR-in yaranmasını Qərb dövlətləri düşmənçiliklə qarşıladılar.Bu mühüm strateji regionda onlar, sovet hakimiyyətinin möhkəmlənməsinə mane olmağa çalışırdılar. Bu məqsədlə həmişəki kimi Ermənistandan istifadə edir, onu Azərbaycanla müharibəyə təhrik edirdilər.

1920-ci ilin mayında Ermənistanda erməni bolşeviklərinin daşnak hökümətini devirmək üçün təşkil etdikləri üsyan uğursuz oldu. Məğlub olan erməni boşevikləri Azərbaycana qaçdılar, onları təqib edən erməni daşnak hissələri Qazax qəzasına, Qarabağ və Zəngəzura soxuldular. 1920-ci ilin aprelin 28-də Gürcüstanın qoşunları Poylu körpüsünü, Tiflis-Qazax yolundakı körpünü ələ keçirib Ağstafaya doğru irəlilədi. Gürcüstanın zirehli qatarı da Ağstafa stansiyasına yaxınlaşdı. Azərbaycanlılara qarşı Gürcüstanda təqiblər başlandı. Azərbaycanın Tiflisdəki missiyası həbs olundu. Gürcüstan Azərbaycan hökmətindən Zaqataladan

qoşunlarının çıxarılmasını tələb etdi.

Azərbaycan hökuməti Gürcüstan və Ermənistandan öz qoşunlarını tutduqları ərazilərindən çıxarılmasını tələb etdi.

1920-ci il aprelin 29-da Azərbaycan ordusunu fəhlə-kəndli ordusu zəmnində yenidən təşkil etmək qərara alındı. Respublikanın müdafiəsi üçün zəhmətkeşlərin səfərbəyliyə alınması elan edildi.

Azərbaycan SSR hökuməti 1920-ci il aprelin 30-da Gürcüstan və Ermənistan hökümətlərinə nota göndərərək, onlardan qoşunlarını öz sərhədləri hüdudlarına çəkməyi tələb etdi. 1920-ci il mayın 9-da gürcü qoşunları Azərbaycan sərhəddini keçib Zaqatala dairəsinə soxuldu. XI Ordunun süvarilərinə gürcülər ciddi müqavimət göstərdi. 1920-ci ilin mayın 13-də sovet Rusiyası ilə Gürcüstan arasında sülh müqaviləsi bağlandı. Rusiya Gürcüstanın müstəqilliyini tanıdı. Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında münaqişələr dayandırıldı, sülh bağlanması üzrə danışıqlara başlandı.

1920-ci il iyunun 12-də Azərbaycanla Gürcüstan arasında 18 bölmədən ibarət Ağstafada sülh və dostluq haqqında müqavilə imzalandı. VI bölmədə göstərilirdi ki, Zaqatala dairəsi haqqında məsələnin həlli 1920-ci il mayın 12-də ZSFSR ilə Gürcüstan Respublikası arasında bağlanmış əlavə sazişdə nəzərdə tutulan arbitraj komissiyasına verilir. Bu məsələ arbitraj komissiyasında həll edilənə qədər tərəflərdən heç biri Zaqatala dairəsinə yeni qoşun hissələri yeridə bilməzdi.

Sovet hakimiyyətini möhkəmləndirmək və yerlərdə milli siyasəti dəqiq aparmaq məqsədilə 1920-ci ilin oktyabrında RK(b)P MK-nın "Cənub partiya təşkilatlarına məktub"unda deyilirdi:"Çalışmaq lazımdır ki, müsəlman burjuaziyasını müsəlman fəhlələri, erməni burjuaziyasını erməni fəhlələri mülkiyyətdən məhrum etsinlər və s. Başqa sözlə, hər cür səy göstərmək lazımdır ki, bu işin sinfi mənası aydın olsun, milli cəhətlə kölgələnməsin və heç bir halda milli münaqişələrə və toqquşmalara səbəb olmasın". Lakin yol verilmiş antiazərbaycan hərəkətləri Azərbaycanda ilk sosialist dəyişikliklərinin həyata

keçirilməsini xeyli çətinləşdirdi. Antantanın Azərbaycandakı sovet hökümətinə qarşı silahlı müdaxiləyə başlamaq cəhdləri ilə əlaqədar onun beynəlxalq və daxili vəziyyəti olduqca mürəkkəb idi.

RSFSR-in İran və Türkiyədəki fövqəladə və səlahiyyətli nümayəndəsi V.İ.Leninə, G.V.Çiçerinə göndərdiyi teleqramda deyilirdi ki, "İndiki anda İngiltərənin bütün diqqəti Anadoluya və onun İranla, Ermənistanla, sovet Azərbaycanı ilə qovuşuğuna yönəlmişdir. Məqsəd Bakını tutmaq, bizi Qafqazdan ayırmaqdır... Gürcüstan və Vrangel Dağıstan əksinqilabını təchiz edir, qiyamlara təhrik edirlər".

Antanta imperialistlərinin təhrikilə 1920-ci ilin payızında Ermənistanla Türkiyə arasında müharibənin başlanması da Cənubi Qafqazda vəziyyəti mürəkkəbləşdirirdi.

Qafqazda yaranmış beynəlxalq və daxili vəziyyətlə əlaqədar RK(b)P MK-nın 1920-ci ilin sentyabrında keçirilmiş plenumu Qafqazda və Şərqdə partiyanın siyasətini "qaydaya salmaq" barədə tapşırıqla İ.V.Stalini Qafqaza göndərmək haqqında qərar çıxardı. 1920-ci il oktyabrın 16-da İ.V.Stalin Şimali Qafqaza və Azərbaycana yola düşdü. Şimali Qafqaza gəldikdən bir həftə sonra, oktyabrın 26-da İ.V.Stalin Qafqazda vəziyyət barədə V.İ.Leninə teleqram göndərdi. Teleqramda Gürcüstan hökumətinin Batumu Antantaya təslim etməsinin və müdaxiləçilərin Bakıya yürüşə başlamaq cəhdlərinin mümkünlüyü güman olunurdu.

V.İ.Lenin 1920-ci il oktyabrın 29-da İ.V.Stalinin teleqramına cavabında yazırdı: "Hesab edirəm ki, Gürcüstan Batumu yəqin ki gizlicə Antantaya verəcək və Antanta Bakının üzərinə gələcək. Qurudan və dənizdən Bakının ətrafını möhkəmlətmək üçün təcili surətdə tədbirlər düşünüb hazırlayın".

1920-ci il oktyabrın 30-da İ.V.Stalin Bakıya yola düşdü və burada Gürcüstanla danışıqlar və Ermənistanda vəziyyət haqqında məsələləri müzakirə etdi. Ermənistan, Azərbaycan və Türkiyənin qarşılıqlı münasibətləri məsələlərinin həllində İ.Stalin Rusiyanın mənafelərindən çıxış edərək həmişə Ermənistanın mövqeyini müdafiə edirdi. O deyirdi: "Əgər bilmək istəyirlərsə ki, Zəngəzur

və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, Sovet hökuməti olanda vermək olar".

1920-ci il noyabrın 8-də AK(b)P MK-nın, RK(b)P MK Qafqaz bürosu və AK(b)P Bakı Komitəsinin üzvləri ilə birgə, İ. Stalinin iştirakı ilə plenum keçirildi. Plenumdakı müzakirələrdə iri və xırda burjuaziyanın mülkiyyətdən məhrum olunması məsələsində iki xətt nəzərə çarpırdı. "Sol" xəttin tərəfdarları iri və xırda burjuaziyanın mülkiyyətdən dərhal məhrum olunmasını tələb edirdi, "sağ" xətt isə yerli milli xüsusiyyətlər nəzərə alınmaqla xırda burjuaziya barəsində mülayim siyasət yeritməyi təklif edirdi. Plenumda kənddə aparılan "sərt siyasət" tənqid olundu.

Ertəsi gün Büro üzvlərinin birləşmiş iclası keçirildi. "Azərbaycanda yaxın dövrdə partiya və sovet işi haqqında" məruzə söyləyən İ.Stalin qeyd etdi ki, indi bu məsələni qaldırarkən, aşağıdakı ümdə amilləri əsas götürmək lazımdır - birincisi: "Qafqazın başı üstünü qara buludlar almışdır. Antanta hərbi əməliyyatlar meydanını Qafqazın cənubuna keçirməyə çalışır; ikincisi; gözəl ifadələrə uyulması işgüzarlığın olmamasıdır; üçüncüsü isə; proletariatla kəndlilər arasında ittifaqı möhkəmləndirmək üçün real surətdə çox az iş görülmüşdür".

Həmin iclasda Azərbaycanın müstəqilliyi haqqında məsələ barədə Stalin açıq demişdi: "Mən Azərbaycanın müstəqilliyinə tərəfdar deyiləm. O, tezisini belə əsaslandırırdı:"Sovet Rusiyası Bakının yanacağı olmadan keçinə bilməz. Sovet Rusiyasının köməyi, ordusu və s. olmadan Azərbaycan da məhv olar. Burada tam ittifaq labüddür".

Stalin utanmadan, məsləhət görürdü ki, "biz deməliyik ki, Azərbaycan müstəqil ölkədir, xoş məramla Rusiya ilə ittifaqa girmişdir. Bu ittifaq olmadan Rusiya zəifləyər, Azərbaycan Antantanın hakimiyyəti altına düşər. Bu zahiri müstəqillik bizim strateji siyasətimizin məsələsidir".

İ.Stalin Qafqazdan qayıtdıqdan sonra 1920-ci il noyabrın 27-də keçirilən Büronun iclasında xüsusi qərar qəbul etdi. Qərarda İ.Stalinə tapşırılırdı ki, Q.Orconikidzedən istifadə olunmaqla

Qafqazla həmsərhəd dövlətlərlə daha düzgün xarici siyasəti təmin etməyə dair əlavə tədbirlər haqqında Çiçerinlə razılığa gəlsin". Azərbaycanın qorunması və bütün Xəzər dənizinin möhkəm surətdə əldə saxlanılması başlıca vəzifə sayılsın. Bu məqsədlə Siyasi Büro Azərbaycanın müdafiəsini möhkəmləndirmək üçün bir necə diviziyanın oraya göndərilməsini sürətləndirməyi tapşırdı və eyni zamanda Gürcüstan, Ermənistan, Türkiyə barəsində ilk növbədə müharibəyə yol verməməyə yönəldilən siyasət yeritməyin zəruriliyini təsdiq etdi.

"Müstəqil sovet Azərbaycanın" elan edilməsi əslində sözdə idi, bəyannamə xarakteri daşıyırdı. Onun bütün daxili və xarici həyatının "hakimi" RK(b)P-nin rəhbərlik etdiyi Mərkəz neft Bakısını, Avropa və Asiyanın qovuşuğunda - Yaxın və Orta Şərqin qapısında böyük strateji əhəmiyyəti olan Azərbaycanı itirməmək barədə düşünürdü.

Azərbaycanın 1920-ci il 28 aprel - 1922-ci il 30 dekabr dövrü, həm daxili və həm də xarici vəziyyət baxımından ziddiyyətli olması ilə xarakterizə olunurdu - "Müstəqil sovet Azərbaycanı" eyforiyası yavaş-yavaş sönməkdə idi. Azərbaycan Sovet Cümhuriyyətinin bayrağı, gerbi, pulu və poçt markasının milli naxışları, ictimai həyatda görünürdü.

Azərbaycan SSR-nin rəhbərləri, Xalq Komissarları RSFSR-in hökumət başçısı V.İ.Leninlə, başqa dövlət xadimləri ilə (Çiçerin, Dzerjinski və b.) məktubla, teleqramla şəxsən əlaqə saxlayırdılar. N.Nərimanov, Azərbaycan İcraiyyə Komitəsinin sədri S.Ağamalıoğlu, Xarici işlər komissarı M.D.Hüseynov, B.Şahtaxtınski və b. Leninin qəbulunda olmuş, onunla Azərbaycandakı ictimai, siyasi və mədəni məsələlər barəsində söhbətlər aparmışdılar.

Hətta ilk çağlarda Azərbaycan SSR-nin Litva, Latviya, Ermənistan, Türkmənistan, Gürcüstan, Əfqanıstan, Buxara, Dağıstan və b. dövlət qurumları ilə də "diplomatik" əlaqələri var idi. Bir neçə xarici ölkələrin Bakıda, Azərbaycanın isə həmin ölkələrdə nümayəndəlikləri, konsulluqları mövcud idi. Qonşu

ölkələrlə siyasi və iqtisadi sazişlər razılaşdırılır, ticarət haqqında danışıqlar aparılırdı. Hətta Birinci Ümumazərbaycan Sovetlər qurultayında M.D.Hüseynov respublikanın xarici siyasəti haqqında məruzə etmişdi.

Lakin Stalinin 1920-ci ilin noyabrında Bakıda partiya müşavirəsində bəyan etdiyi "Kommunist Partiyasından müstəqil olmaq olmaz" tezisindən sonra, tədricən sovet respublikalarının müstəqilliyi məhdudlaşdırılır, getdikcə dərinləşən inzibati-amirlik səviyyəsində idarə olunurdu.

Azərbaycan Xalq Cümhuriyyətinin vaxtilə açdığı diplomatik qurumların fəaliyyəti dayandırıldı, konsulluqları, səlahiyyətli nümayəndəlikləri bağlandı və RSFSR nümayəndəliklərinə tabe edildi. 1921-ci ilin noyabrında isə Azərbaycanın İrandakı nümayəndəliyinin fəaliyyətinə son qoyuldu. 28 apreldən sonra da Bakıda Türkiyənin diplomatik nümayəndəliyi, İranın Böyük Milli Məclisinin fövqəladə nümayəndəliyi, Rusiyanın Baş konsulluğu, İtaliyanın siyasi agentliyinin nümayəndəsi, Ermənistanın diplomatik nümayəndəliyi, Gürcüstanın səlahiyyətli nümayəndəliyi fəaliyyətlərini davam etdirirdilər.

Azərbaycan hökuməti 1920-ci ilin sentyabrında İtaliya, Gürcüstan, Ermənistan diplomatik nümayəndəliklərini və konsulluqlarını tanıdığını bəyan etmişdi. İngiltərənin Bakıdakı vitse konsulu isə həbs edilmişdi. Bəzi məlumatlara görə, 28 apreldən sonra ingilis dairələrinin müsavatçılarla sovet hakimiyyətinə qarşı mübarizəyə kömək məqsədilə görüşləri olmuşdu. İngilis mətbuatı Azərbaycanın daxili vəziyyətini izləyir, üsyanlar haqqında düzgün olmayan məlumatlar yayırdı.

Fransanın rəsmi dairələrində də Azərbaycana mənfı münasibət bəsləyənlər var idi, onlar Tiflisdəki Fransa nümayəndəliyi vasitəsilə sovet hökumətinə qarşı çıxan üsyançılara kömək göstərirdilər. Fransa hakim dairələri, birinci növbədə Bakı nefti naminə Türkiyə ilə yaxşı münasibətdə olmaq "arzusunda idi".

ABŞ-ın da sovet Azərbaycanına loyal münasibətdə olmasına baxmayaraq Bakıda müəyyən mənada marağı var idi. Türkiyədə də

bir qrup siyasətçilər Azərbaycanda sovet hakimiyyəti qurulmasını belə şərh edirdilər: "Guya M.Kamal Leninlə birləşərək Azərbaycan Cümhuriyyətini Rusiyaya bəxş etmişdi".

RSFSR-in digər sovet respublikaları ilə qarşılıqlı münasibətləri haqqında RK(b)P MK-da 1922-ci ilin fevralında xüsusi qərar qəbul olundu. Bu qərara görə, xarici nümayəndələr sovet respublikalarının ərazisinə yalnız müvafiq dövlətin müqaviləsi olduqda buraxılırdı. Hər hansı bir konkret halda RSFSR Xalq Xarici İşlər Komissarlığının (XİK-in) xarici dövlətlərin konsulluqları RSFSR qaydalarına uyğun təsis edilirdilər. Bu barədə RSFSR XİK-ə məlumat verməli idi. Sovet respublikaları isə bir-birində nümayəndəliklər saxlaya bilərdilər.

1922-ci il iyunun 13-də Cənubi Qafqaz respublikalarının xarici siyasəti birləşdirildi, onların xarici siyasət komissarlıqları ləğv edildi. Bu respublikaların xarici siyasətinə ümumi rəhbərlik İttifaq Şurası Rəyasət Heyəti tərəfindən həyata keçirilməli idi. İttifaq Şurasında Azərbaycanın səlahiyyətli nümayəndəsi Əliheydər Şirvaninin (Mustafabəyovun) rəhbərliyi altında həmin ilin avqustunda Azərbaycanda Xarici Əlaqələr üzrə katiblik yaradıldı.

Beləliklə, Azərbaycan SSR, suveren dövlət subyekti kimi, müstəqil xarici siyasət aparmaq səlahiyyətindən faktiki olaraq məhrum edildi.

Sovet hakimiyyətinin ilk vaxtlarında Azərbaycanın daxili və xarici siyasətində üzləşdiyi problemlərdən biri də əcnəbi vətəndaşların vəziyyəti idi. Britaniya hökumətinin 1920-ci il oktyabrın 9-da RSFSR-ə notasında sovet ərazisində 72 nəfər ingilisin əsir olduğu göstərilmişdi.

Məlumdur ki, bu zaman Maltada ingilislərin 1919-cu ildə sürgün etdiyi 70-ə yaxın kamalçılar (Atatürk tərəfdarları) ilə birlikdə Əhməd bəy Ağayev də saxlanılırdı. Maraqlıdır ki, RSFSR Xarici İşlər Komissarı G.Çiçerin N.Nərimanova 1920-ci il avqustun 20-də göndərdiyi xüsusi teleqramda İstanbulda həbs edilmiş müsəlman millətçilərinin azad edilməsini tələb edə bilmələrini bir daha xatırlatmışdı. M.D.Hüseynov 1920-ci il

avqustun 29-da RSFSR-in Tiflisdəki səlahiyyətli nümayəndəsi S.M.Kirova teleqramda Bakıda həbs edilmiş ingilisləri İstanbulda həbsdə saxlanan kamalçılarla dəyişməyə Azərbaycan hökumətinin razı olduğunu, əsirlərin dəyişdirilməsinə səlahiyyəti olan RSFSR Xarici İşlər Komissarının müavini M. M. Litvinova çatdırmağı xahiş etmişdi.

N.Nərimanovun qərarı ilə ingilis-fransız əsirləri 1920-ci ilin noyabrında azad edilib Tiflisdən Odessaya göndərildikdən sonra sövdələşmə baş tutmuşdu. Sovet hökuməti Bakıda həbs olunmuş 50 nəfər Türkiyə zabiti və əsgərini də tezliklə azad etmişdi.

Azərbaycanda məskunlaşmış üç mindən çox polyak olduğu üçün Azərbaycan KP MK yanında 1921-ci il avqustundan polyak bölməsi ilə yanaşı alman, yunan bölmələri də fəaliyyət göstərirdi.

Azərbaycan yeni tarixi dövrdə də, Baltikyanı respublikaların diqqətini cəlb etmişdi, 1920-ci ilin sentyabrında Tiflisdə Azərbaycan SSR və Litva Demokratik hökumətləri arasında (RSFSR-lə Litva arasında 1920-ci il iyulun 12-də bağlanmış sülh müqaviləsinə uyğun olaraq) bir-birlərinin ərazilərində yaşayan vətəndaşlarının hüquqlarını tənzimləyən saziş imzalandı. Ancaq bu iki ölkənin daimi ticarət əlaqəsi qurmaq təşəbbüsü RSFSR-in əngəl törətməsi nəticəsində baş tutmadı. Latviya Rusiyadakı sovet hökumətini tanımadığından, Bakıda onun konsulluğuna və vətəndaşlarına Fövqəladə Komissiya tərəfindən sərt münasibət və təzyiq göstərilirdi. Latviya konsulluğu bağlandı, Bakıda mövcud olan latış cəmiyyətinin fəaliyyəti isə məhdudlaşdırıldı. Yalnız 1921-ci ilin fevralında latış kommunistlərin mühacir bölməsi fəaliyyət göstərirdi.

Estoniya Azərbaycanla diplomatik, siyasi və ticarət əlaqələri qurmaq niyyətində idi. Lakin Rusiyanın təsiri ilə Azərbaycan tərəfi sazişi imzalamadı və Estoniya konsulu Bakıya buraxılmadı.

Azərbaycanın RSFSR hökuməti adından "Müstəqil Sovet respublikası" elan olunmasına baxmayaraq, bu iki respublika arasında diplomatik əlaqələr sahəsində qeyri-müəyyənlik var idi. Bir müddət, yəni 1920-ci ilin aprelindən 1921-ci

ilin axırına kimi ikitərəfli münasibətlərin tənzimlənməsində səlahiyyətli nümayəndəlik rolunu Solovyov və İbrahim İsmayılzadə oynayırdılar. Bu dövrdə nümayəndəliklər əsasən təsərrüfat, təşkilat, xarici siyasət, vətəndaşlıq və pasport sahəsindəki işlərlə, Moskva-Bakı əlaqələrinin qurulması ilə məşğul olurdular. İlk vaxtlar ayrı-ayrı komissarlıqların -məsələn, səhiyyə və maarifə aid səlahiyyət mandatı olan nümayəndələri müstəqil fəaliyyət göstərirdilər. Azərbaycan SSR-nin komissarları birbaşa RSFSR-in nəinki müvafıq komissarları ilə, hətta Leninlə, Kalininlə birbaşa məktub və telefonla əlaqə saxlayır, onların Moskvada qəbulunda olurdular. Çox çəkmədi ki, komissarların səlahiyyət mandatı ləğv edildi.

N.Nərimanovun 1921-ci il 12 dekabr tarixli sərəncamı ilə Əliheydər Şirvani (Mustafabəyov) Azərbaycan SSR-nin RSFSR hökuməti yanında səlahiyyətli nümayəndəsi təyin olundu. Onun Azərbaycanın bayrağını yalnız öz otağında asmağa ixtiyarı var idi. RSFSR XİK çox vaxt Azərbaycan nümayəndəliyini saymır, hətta onun ləğvini istəyirdi. Nümayəndəliyin tərkibində tez-tez kadr dəyişiklikləri və ixtisarlar baş verirdi, onların içərisində azərbaycanlılar ermənilərdən də az, bəlkə də 5-10 % idi.

Sibirdə minlərlə azərbaycanlı yaşadığından, İrkutskidə Azərbaycan Respublikasının konsulluğu bir müddət fəaliyyət göstərdi. 1921-ci ilin noyabrından RSFSR-in Baş konsulluğu Bakıda işə başladı və təqribən bir ildən sonra bağlandı. 1921-ci il mayın 6-da B.V.Leqran Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarında RSFSR-in səlahiyyətli nümayəndəsi təyin edildi.

Maraqlıdır ki, İrəvanda sovet hakimiyyəti elan olunandan iki gün sonra, 1920-ci il dekabrın 2-də RSFSR ilə Ermənistan arasında 8 maddədən ibarət müqavilə bağlandı. Birinci maddədə Ermənistan müstəqil sovet respublikası elan olunurdu. Üçüncü maddədə isə göstərilirdi ki, Rusiya sovet hökuməti Ermənistanın 1920-ci il oktyabrın 23-nə kimi sahib olduğu aşağıdakı ərazilərini - İrəvan quberniyasının, Qars vilayətinin bir hissəsinin, Zəngəzur qəzasının, Qazax qəzası bir hissəsinin, Tiflis quberniyasının bir hissəsinin

"Sovet Erməni Respublikasının" tərkibinə daxil olduğunu mübahisəsiz təsdiq edir. Müqavilənin xüsusi bir müddəasında isə regionda ağır cinayətlər törətmiş "erməni ordusu"nun komanda heyətinin sovet hakimiyyəti Ermənistanda elan edilənədək göstərdikləri fəaliyyətə görə məsuliyyətdən azad olduqları (heç bir məsuliyyət daşımadıqları) həyasızcasına qeyd edilirdi.

Milli təmayülçülük. Sovet Rusiyası Azərbaycanda yerli xristian rəhbər işçilərə və fəhlələrə arxalanaraq Azərbaycanı Rusiyanın əsil müstəmləkəsinə çevirmək, onun sərvətlərini daha intensiv qarət etmək, geosiyası mövqeyindən bəhrələnmək, milli kadrların, milli fəhlələrin inkişafını açıqca ləngitmək siyasəti aparırdı ki, bu siyasətə qarşı artıq yerli kommunistlər arasında narazılıqlar artırdı. Hətta "beyinləri millətçilikdən dumanlanan kommunistlər" 1922-ci ildə burada çevriliş edib burjua- demokratik respublikası qurmağı planlaşdırmışdılar. Müsavat partiyasının xarici bürosu Azərbaycan Kommunist Partiyasında olan təmayülçülərlə əlaqə saxlamağı, hətta N.Nərimanovu da milli istiqlal uğrunda birgə fəaliyyətə cəlb etməyi yerli təşkilata məsləhət görmüşdü. Təmayülçülər Moskvanın tərtib etdiyi iqtisadi inkişaf planlarının Azərbaycanın iqtisadi müstəqilliyini boğmağa yönəldiyini bildirir, respublikada toplanan vergilərin Azərbaycan xalqının ehtiyaclarına sərf edilməsini, ölkəmizə rusların köçürülməsi siyasətinə son qoyulmasını tələb edirdilər. Əvvəllər N.Nərimanov və onun tərəfdarlarına qarşı mübarizə aparan Ə. Xanbudaqov Q.Orconikidze və L.Mirzoyanın köməyi ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi vəzifəsini tutduqdan sonra 1924-cü ildə gözlənilmədən sovet Rusiyasının Azərbaycandakı müstəmləkəçilik siyasətinə qarşı açıq etiraz etdi, milli təmayül yaratdı.Təmayülçülük partiyanın əsas xəttindən kənara çıxmağa meyil göstərmək mənasını verir. Əyyub Xanbudaqov (1893-1937) 1915-ci ildə çarizmə qarşı mübarizəyə qoşulmuş, 1918-ci ildə "Hümmət" təşkilatının üzvü olmuş, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra iyunda Azərbaycan SSR Fövqaladə Komissiyasının sədri təyin olunmuşdur, sonra Azərbaycan İstehlakçılar Cəmiyyəti İttifaqının Rəyasət

heyətinin sədri, 1922-ci ilin martından AR(b)P MK-ya katib təyin olunmuşdur. Ə.Xanbudaqov 1924-cü ildə Azərbaycanda partiya və sovet işlərinə Moskvanın müdaxiləsinə, respublikanın simasızlaşdırılmasına, buraya rusların köçürülməsinə qarşı açıq çıxış etdi. O, bildirirdi ki, Azərbaycanın iqtisadi və mədəni geriliyini aradan qaldırmaq üçün heç bir iş görülmür, Xanbudaqov milli fəhlə kadrların hazırlanması və başqa millətlərdən olan fəhlələrin tezliklə bu kadrlarla əvəz olunmasını tələb edirdi. O, milli rəhbər kadrları Mərkəzin nümayəndələri olan S.M.Kirova və L.Mirzoyana, ümumiyyətlə başqa millətlərdən olan rəhbər kadrlara qarşı qaldırmaq üçün gizli iş aparırdı. O, N.Nərimanovu da bu işə cəlb etmək istəsə də, real vəziyyəti düzgün qiymətləndirən N.Nərimanov ona qoşulmadı. XIII Ümumbakı Partiya konfransında (1924-cü il) və Azərbaycan Kommunist Partiyasının VI qurultayında (1924-cü il) Xanbudaqov və onun həmfikirləri ciddi tənqid olundular, rəhbər işlərdən uzaqlaşdırıldılar. Komsomolçuların 40% milli təmayülçülüklə təqsirləndirilib təşkilatdan çıxarıldılar. Ə.Xanbudaqov repressiya olundu. Bakı partiya komitəsinin erməni mənşəli katibləri Sərkis və Mirzoyan N.Nərimanovu da milli təmayüllü kommunist kimi böhtanlayrdılar. Əslində isə yazıçı Məmməd Səid Ordubadi ”Nərimançılıq” adlı xatirələrində yazırdı ki, Nəriman sosializmi və kommunizmi sinfi mübarizə yolları ilə deyil, barışdırıcılıq yolları ilə qurmağı tövsiyə edirdi. O, öz nəzəriyyəsində kommunizmi şərqiləşdirməyi təklif edirdi... Onun nəzəriyyəsində kommunizm ilə islamiyyəti barışdırmaq fikri mühüm bir yer tuturdu”. Kommunist ideyaları ilə yaşayanların bir çoxu isə islamiyyəti yaxına buraxmaq istəmirdilər. N.Nərimanov sinifləri ləğv etmək məsələsini kommunizmlə burjuaziyanı barışdırmaqla həll etmək istəyirdi. N.Nərimanov deyirdi ki, mənim hər çıxışım “beynəlmiləlçi” Sərkis və Mirzoyan tərəfindən milli təmayüllü kommunistin çıxışı kimi şərh edilirdi. Özlərini “sollar” adlandıran kommunistlər (Sərkis, Mirzoyan, Lominadze, Q.K.Orconikidze, Stasova, M.D.Hüseynov, Ə.Qarayev və b.) deyirdilər ki, Azərbaycan kəndində inqilab baş verməmişdir, bu

inqilabı etmək zəruridir, yəni bütün bəy malikanələrini yandırmaq və bununla da kəndlilərə bu inqilabın baş verdiyini hiss etdirmək lazımdır. Mən isə buna qarşı idim.

Formal müstəqilliyin ləğvində ilk addım.Gənc respublikanın gərgin daxili və xarici vəziyyəti bütün sovet respublikaları ilə, ilk növbədə RSFSR-lə dostluq münasibətləri və iqtisadi əlaqələr yaradılmasını tələb edirdi. Azərbaycan xalqı da ümid edirdi ki, təzə quruluş şəraitində onların arasında tamamilə yeni münasibətlərin başlanğıcı qoyulacaq, rus xalqı ilə keçmişdə Rusiyanın əsarətində olan xalqlar arasında tam azadlıq və müstəqillik zəminində bərabər hüquqlu münasibətlər yaranacaq. RSFSR hökuməti Xalq Xarici İşlər Komissarı G.V.Çiçerin Azərbaycan SSR hökumətinin başçısı N.Nərimanova xüsusi nota göndərərək,hər iki respublikanın birgə fəaliyyətini asanlaşdıran daimi qarşılıqlı münasibət formaları yaratmaq haqqında danışıqlara başlamağı təklif etdi.

Notada danışıqlar aparmaq üçün Moskvaya respublikadan daimi nümayəndə göndərməyin vacibliyi göstərilirdi.1920-ci il iyulun 15-də Azərbaycan İnqilab Komitəsi Moskvada səlahiyyətli nümayəndəsini təyin etdi və ona "RSFSR hökuməti ilə bütün məsələlər barədə danışıqlar aparmaq və sonradan təsdiq olunmaq şərti ilə, Azərbaycan SSR adından hər cür müqavilə və öhdəliklər imzalamaq üçün" mandat verdi.1920-ci il iyunun axırında Azərbaycan SSR-nin Xarici İşlər komissarı M.D.Hüseynov da Rusiya və Azərbaycanın qarşılıqlı münasibətləri məsələlərini aydınlaşdırmaq, onların arasında sıx ittifaq yaratmaq məqsədilə Moskvaya getdi. M.D.Hüseynov bütün bu məsələlər barəsində V.İ.Lenin və G.V.Çiçerinlə ətraflı söhbət etmişdi.

V.İ.Leninin iştirakı ilə 1920-ci il avqustun 5-də RK(b)P MK plenumu Azərbaycan SSR və RSFSR arasında qarşılıqlı münasibətlər haqqında məsələni müzakirə etdi və G.V.Çiçerin başda olmaqla komissiyaya müvafiq layihə hazırlamağı tapşırdı.

Azərbaycan SSR-nin fövqəladə və səlahiyyətli nümayəndəsi A.Şahtaxtınski müqavilənin hazırlanmasında fəal iştirak edirdi. Müqavilə 1920-ci il sentyabrın 30-da Moskvada imzalandı. RSFSR

ilə Azərbaycan SSR arasında bağlanan müqavilə layihəsinin hazırlanmasına İ.Stalin, Q.K.Orconikidze və A.İ.Mikoyanın müdaxiləsi nəticəsində əsil beynəlxalq müqavilə deyil, yarımçıq bir müqavilə imzalandı. Müqavilədə deyilirdi, Azərbaycan SSR hökuməti və digər tərəfdən isə RSFSR hökuməti "Azərbaycan və Rusiyanın zəhmətkeş kütlələrinin tam mənafe birliyini əsas tutaraq və ancaq hər iki respublikanın bütün qüvvələrini tam birləşdirməklə ümumi düşmənə - imperialist burjuaziyaya qarşı ağır mübarizədə onların müvəffəqiyyət qazanmalarının təmin oluna biləcəyini nəzərə alaraq, bu müqaviləni bağlamağı qərara almışlar".

Müqavilənin birinci maddəsində deyilirdi:Azərbaycan və Rusiya öz aralarında sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırlar.

İkinci maddədə göstərilirdi ki, hər iki respublika hərbi, xalq təsərrüfatı, xarici ticarət, təchizat, dəmiryol və su nəqliyyatı, maliyyə, poçt və teleqraf orqanlarını ən qısa müddətdə birləşdirməlidirlər. RSFSR və Azərbaycan SSR müqaviləyə əlavə olaraq, ərzaq siyasətinin, poçt, teleqrafın birləşdirilməsinə və maliyyə, xarici ticarət, iqtisadi siyasət məsələlərinə dair sazişlər bağladılar. Azərbaycan SSR-nin dəmir yollarının Azərbaycan dəmir yolları adı altında RSFSR-in dəmiryol şəbəkəsinə daxil edilməsi haqqında saziş isə hələ 1920-ci ilin avqustunadək imzalanmışdı.Ərzaq siyasətinin birləşdirilməsinə dair sazişdə göstərilirdi ki, Azərbaycan SSR-in ərzaq siyasətinin əsasını RSFSR-də həyata keçirilən başlıca prinsiplər təşkil edir.

Poçt və teleqrafın idarə olunmasının birləşdirilməsi haqqında sazişə görə Rusiyadan gedən əsas rabitələr, Azərbaycandakı güclü radiostansiyalar, habelə beynəlxalq poçt-teleqraf rabitəsi bilavasitə RSFSR Xalq Poçt və Teleqraf Komissarlığının tabeliyinə keçirilirdi.

Maliyyə məsələləri haqqında sazişə görə RSFSR Xalq Maliyyə Komissarlığı Azərbaycan SSR XKS yanında özünün səlahiyyətli nümayəndəsini təyin edir. Sazişdə birləşmiş və birləşdirilmiş xalq

komissarlıqları üzrə smetaların təsdiqolunma qaydası da müəyyənləşdirilmişdi.

Xarici ticarət məsələlərinə dair sazişə əsasən, Azərbaycan SSR başqa ölkələrlə iqtisadi əlaqələr yaratmağı və onlarla müqavilələr bağlamağı yalnız RSFSR Xalq Xarici İşlər Komissarlığı vasitəsilə həll edə bilərdi.

1920-ci il noyabrın 5-də AK(b)P MK Siyasi Bürosu xarici ticarət haqqında məsələni müzakirə edərək qərara aldı: "Azərxarici ticarəti Rusiyanın Azərbaycanda, İranda və Türkiyədəki xarici ticarət idarələri ilə birləşdirmək prinsip etibarilə zəruri sayılsın".

RSFSR ilə Azərbaycan SSR arasında vahid iqtisadi siyasət yeridilməsi haqqında sazişə əsasən, Azərbaycan Xalq Təsərrüfatı Şurası özünün istehsal planını RSFSR-in ümumi istehsal planı ilə uzlaşdırmaqla təsdiq edirdi. Sazişə əsasən Ümumrusiya XTŞ Azərbaycan sənayesini və ayrı-ayrı müəssisələrini maliyyələşdirmək vəzifəsini öz üzərinə götürürdü.1921-ci ilin noyabrında Azərbaycan SSR-də RSFSR-in baş konsulluğu fəaliyyətə başladı.Beləliklə, 1920-1921-ci illərdə iki respublika - RSFSR və Azərbaycan SSR arasında müqavilə münasibətlərinə əsaslanan federativ əlaqələr yarandı. 1920-ci ildə RSFSR ilə Azərbaycan SSR arasında bağlanmış yarımçıq müqavilə əslində Mərkəzin Azərbaycana münasibətdə imperiya siyasətini pərdələmək
vasitəsi oldu.

Rusiya öz mənafeyi naminə Azərbaycan SSR-ə iqtisadi və mədəni kömək göstərirdi. Bu kömək ilk növbədə RSFSR-in və digər sovet respublikalarının iqtisadiyyatını dirçəltmək üçün böyük əhəmiyyəti olan neft sənayesinə daha çox göstərilirdi.

Azərbaycanın istehsal etdiyi taxıl özünə bəs etmirdi və ona görə də əsasən Şimali Qafqazdan taxıl alırdı. Azərbaycana kənardan gətirilən taxıla illik tələbat təxminən 6-8 milyon pud olurdu.

N.Nərimanov 1920-ci il mayın 25-də V.İ.Leninə məktubla müraciət etmişdi: "Əziz Lenin yoldaş! İşlərimiz yaxşı gedir, lakin

ərzaq məsələsi çox çətinlik törədir. Hazırda biz düzgün ərzaq siyasəti yeridə bilmirik. Olmazmı ki, ərzaq toplamaq üçün Şimali Qafqazda bizdən ötrü müəyyən sahə ayırasınız. O zaman işi möhkəm surətdə yerinə yetirmək olar.

Rusiya sənayesinə, nəqliyyatına yanacaq son dərəcə lazım idi. Ona görə də RSFSR hökuməti yanında aldığı neft əvəzində Azərbaycan SSR-ni bütün zəruri şeylərlə təchiz etməyə dair xüsusi idarə yaradılmışdı. RSFSR-dən müxtəlif mallar almışdı ki, bunların da çoxu kənd təsərrüfatı üçün nəzərdə tutulmuşdu. Ölkəmiz Rusiyadan pulsuz olaraq mədəni quruculuq məqsədləri üçün mallar, habelə paltar, ayaqqabı, məktəblər üçün parta və stollar alırdı. RSFSR-dən taxıl, yağ, şəkər, tütün, parça kimi istehlak malları da gətirilmişdi.

Azərbaycan neftçiləri isə gərgin əmək sayəsində istehsal olunan 3 milyon tonadək nefti 1920-ci ilin sonunadək Rusiyaya göndərmiş, beləliklə, onun iqtisadiyyatının dirçəlməsinə, müdafiəsinin təmin edilməsinə əsaslı zəmin yaratmışdır.

Rusiyanın fəhlə və kəndlilərinə Azərbaycan özünün ənənəvi istehlak məhsullarını göndərirdi. Yalnız 1920-ci il mayın 1-dən sentyabrın 1-dək Rusiyaya 3 milyon puda qədər quru yük göndərilmişdi.

Şərq xalqlarının I Qurultayı. Azərbaycan SSR-nin yaranması bu regiondakı ölkələrin qarşılıqlı münasibətlərinə və ictimai-siyasi vəziyyətə təsir göstərməyə bilməzdi.

İranda, Türkiyədə və digər Şərq ölkələrində ingilislər də daxil Qərb imperialistlərinə qarşı mübarizə gücləndi.

1920-ci ilin iyununda İranda,Cənubi Azərbaycanda milli-demokratik hökümət və Gilanda respublika quruldu.1920-ci ildə Türkiyə xalqı öz vətəninin müstəqilliyi uğrunda, imperialist qəsbkarlara qarşı qəhrəmancasına mübarizə aparırdı. Mustafa Kamal başda olmaqla Türkiyənin inqilabi hökuməti sovet Rusiyası ilə dostluq əlaqələri yaratmışdı. Azərbaycan SSR elan olunduqdan sonra Rusiyanın Türkiyəyə yardımı gücləndi və hətta bəyan edildi ki, Azərbaycana gələn Qızıl ordu Türkiyə xalqının milli azadlıq

hərəkatına yardım üçün gedir. Həmin dövrdə Bakıda öz orqanını - "Yeni dünya" qəzetini nəşr edən Türkiyə kommunistləri bu işdə xüsusi rol oynayırdılar. Onların 1920-ci il sentyabrın 10-da Bakıda keçirilən I qurultayı Türkiyə xalqının imperializmə qarşı milli azadlıq mübarizəsini gücləndirməyə çağırdı.

Atatürk Azərbaycan Respublikasının səfirini qəbul edərkən demişdi: Rum eli və Anadolu xalqı azəri qardaşlarının qəlblərinin öz qəlbləri kimi çırpındığını bilirlər. Azərbaycan türklərinin dərdləri öz dərdlərimiz və sevincləri öz sevinclərimiz olduğu üçün, onların muradlarına nail olmaları, azad və müstəqil olaraq yaşamaları bizi artıq dərəcədə sevindirir.Əslində burada sevinməli bir şey yox idi, çünki sovet Rusiyası Azərbaycanı işğal etmişdi.

V.İ.Lenin Şərqdə sosialist ideyalarınm yayılmasında sovet Azərbaycanının rolunu dəfələrlə vurğulamışdı. Azərbaycan SSR-nin yaranmasından dərhal sonra Əfqanıstan, İran, Türkiyə və digər müsəlman ölkələrinin nümayəndələri Bakıya sovet hakimiyyətinin nailiyyətləri ilə tanlş olmaq üçün gəlməyə baŞlamışdı. Bakıda hind bölməsi təşkil edildi və o, yerli mətbəədə urdu dilində "Azad Hindistan əxbarı" qəzetinin nəşrinə başladı. RK(b)P MK Şərq xalqlarının I qurultayını Bakıda - ilk müsəlman sovet respublikasının paytaxtında çağırmağı qərara aldı. 1920-ci il iyununda RK(b)P MK Siyasi Bürosu III İnternasionalın Bakıda "Şərq xalqlarının qurultayını" keçirməsini prinsip etibarilə bəyəndi və qurultayın təşkili üzrə büro yaratdı.

Kominternin (III İnternasional qısaca olaraq belə adlanırdı) İcraiyyə komitəsi Şərqin fəhlə və kəndlilərinə müraciətində bildirirdi ki, o, Bakıda qurultayı ümumi düşmənlə-imperializmlə mübarizədə Şərq zəhmətkeşləri və Avropa proletariatının səylərinin birləşdirilməsi məsələlərini birlikdə müzakirə etmək üçün çağırır.

Bakıda qurultay çağırılması münasibətilə Şərq İnternasionalı təşkil etmək qərara alındı.

1920-ci il avqustun sonlarında Bakı fəhlə, qızıl əsgər və matros deputatları sovetinin və Azərbaycan həmkarlar ittifaqlarının

qurultay nümayəndələrinin iştirakı ilə təntənəli iclası keçrildi. Həmin iclasda N.N.Nərimanov, habelə Bela Kun (Macarıstan), Con Rid (ABŞ), Q.Zinovyev, K.Radek (RSFSR) və b. Şərq xalqlarına təbriklə müraciət etdilər.

Şərq xalqlarının Bakı qurultayı 1920-ci il sentyabrın 1-7-də keçirildi. Qurultaya 1891 nümayəndə - Qafqaz, Orta Asiya, Əfqanıstan, Misir, Hindistan, Çin, Koreya, Türkiyə, Yaponiya və digər ölkələrdən 37 millətin nümayəndəsi gəlmişdi. Qurultayda bir sıra Avropa və Amerika ölkələrinin Kommunist partiyalarının nümayəndələri - Bela Kun, Tomas Kvelç, Con Rid və başqaları da iştirak edirdilər. Nümayəndələrin 55 nəfəri qadın idi.

Şərq xalqlarının I qurultayı beynəlxalq vəziyyət və Şərqin zəhmətkeş kütlələrinin vəzifələri, milli məsələ, müstəmləkə, Şərq ölkələrində sovet quruculuğu və s. məsələləri müzakirə etdi: Qurultayı Kominternin (Kommunist İnternasionalının) İcraiyyə komitəsi adından N.N.Nərimanov açdı. Qurultayın Rəyasət Heyəti seçildi, habelə katiblik təşkil olundu. İngiltərə, Fransa, ABŞ və b. ölkələrin nümayəndələri Rəyasət Heyətinin üzvü idilər.Qurultayda aqrar milli, müstəmləkə məsələsinə, sovet quruculuğu və təşkilat məsələlərinə dair bölmələr təşkil edildi.Azərbaycan nümayəndəsi D.X.Bünyadzadə qurultayda beynəlxalq vəziyyət və Şərqin zəhmətkeş kütlələrinin vəzifələri haqqında çıxış etdi. O,Azərbaycanı "Şərqdə sovet siyasətinin astanası" adlandırdı. Müzakirələrdə Türkiyə, İran, Türküstan, İngiltərə, Fransa nümayəndələri və başqaları da çıxış etdilər. Bəzi dövlətlərin nümayəndələri öz nitqlərini dərc olunmaq üçün yazılı şəkildə təqdim etdilər. Con Rid (ABŞ) Şərq xalqlarına, xüsusən Amerika imperializminin hakimiyyətini hələ öz üzərində hiss etməyənlərə müraciətlə xəbərdarlıq edirdi ki, qoy düşünməsinlər ki,"Azad Amerika" ingilis, yaxud fransız imperialistlərindən yaxşıdır".

Qurultay nümayəndələri Leninin milli məsələyə və müstəmləkə məsələsinə dair tezislərini müzakirə etdilər. Tezislərdə millətləri zülmkar və məzlum millətlərə bölmək, onları fərqləndirmək, müstəmləkə ölkələrindəki milli azadlıq hərəkatlarını dəstəkləmək

ideyası əsas yer tuturdu.

Aqrar məsələyə dair məruzədə deyilirdi ki, "torpaq alınıb, keçmiş sahiblərinə heç bir haqq verilmədən, zəhmətkeş kəndlilərə paylanmalıdır".

Qurultay "Şərq xalqlarını müstəmləkəçilərə qarşı mübarizəyə çağırış"etdi və Şərq xalqlarının azadlıq hərəkatını dəstəkləmək barədə Avropa, Amerika və Yaponiya zəhmətkeşlərinə müraciətlər qəbul etdi. Qurultayda ilk dəfə belə bir şüar elan edildi: "Bütün ölkələrin proletarları və bütün dünyanın məzlum xalqları, birləşin!" Beləliklə, vurğulandı ki, kommunistlər yalnız bütün ölkələrin proletarlarının nümayəndələri kimi deyil, həm də məzlum xalqların nümayəndələri kimi çıxış edirlər.Qurultayın son iclasında Şərq qadınlarının nümayəndələri öz tələblərini irəli sürdülər.

Qurultay 48 nəfərdən ibarət Şərq xalqlarının "Təbliğat və Fəaliyyət Şurasını" seçdi. Şura daimi fəaliyyət göstərən icra orqanı idi və "Kommunist İnternasionalı icraiyyə komitəsi"nin rəhbərliyi altında işləməli idi. Şura Şərq xalqları arasında inqilabi təbliğat aparmağı, onların azadlıq hərəkatını dəstəkləməyi və birləşdirməyi qarşısına vəzifə qoydu. Şuranın daimi məkanı Bakı şəhəri idi. Şərq xalqlarının I qurultayı Şərq ölkələrində imperializmə və müstəmləkəçiliyə qarşı mübarizə aparan inqilabi qüvvələrin yüksəlişini, onların həmrəyliyinin artmasını nümayiş etdirdi. Təsadüfi deyil ki, Şərq xalqlarının Bakıda keçirilən qurultayı Antanta imperialistlərini karıxdırmışdı. Onlar Şərq ölkələrindən qurultaya nümayəndələr gəlməsinə hər vasitə ilə mane olmağa çalışırdılar.

İngiltərənin "Mançester Qardian" qəzeti Şərq xalqları qurultayının imperialistləri necə narahat etdiyini göstərirdi: "İndi Rusiya Şərqdə həmişəkindən daha güclüdür... Bolşeviklər Azərbaycanda möhkəmlənmişlər, onun paytaxtı Bakı İranda və Xəzər dənizindən şərqə doğru vilayətlərdə siyasi təbliğatın mərkəzi olmuşdur. Nəhayət, lap bu yaxınlarda Bakıda bolşeviklərin rəhbərliyi altında Şərq xalqlarının I qurultayı keçirilmiş və o, Qərbi Avropaya müqəddəs müharibə elan etmişdir".

Qurultaydan sonra onun iştirakçılarının təqibi daha da gücləndi. Şərq xalqları qurultayının İrandan olan nümayəndələri sərhədi keçəndə həbs edilib jandarmlar tərəfindən öldürülmüşdülər.

1920-ci ilin oktyabrında Bakıda Şərq xalqlarının Təbliğat və Fəaliyyət Şurasının rus, türk, fars və ərəb dillərində "Şərq xalqları" jurnalı çıxdı.

V.İ.Lenin Kominternin İkinci konqresinin və Şərq xalqlarının I qurultayının əhəmiyyətini qiymətləndirərək deyirdi: bu, hərbi qələbələrdən daha böyük əhəmiyyəti olan bir nailiyyətdir, çünki bu bizə göstərir ki, bolşeviklərin fəaliyyəti, onların kapitalistlərə və imperialistlərə qarşı inqilabi mübarizəyə çağrılması bütün dünyada rəğbət qazanmışdır və Moskvada, Bakıda görülən işi dünyanın bütün ölkələrində fəhlələr və kəndlilər hələ uzun aylar boyu mənimsəyəcək və dərk edəcəklər". Lakin V.İ.Leninin proqnozu özünü doğrultmadı. Şərq xalqları qurultayının çağırılması dünya inqilabı, kommunizm ideallarının bütün dünyada qələbəsinin labüdlüyü haqqında "bolşevik konsepsiyası" ilə şərrtlənmişdi. Bolşeviklərin məqsədi o zaman Şərq ölkələrini bürümüş milli azadlıq hərəkatını qurultayın köməyilə beynəlxalq imperializmə qarşı proletar inqilabı ilə birləşdirməyə nail olmaq idi. Əslində bu, Şərq ölkələri barəsində Rusiyanın ənənəvi imperiya siyasətinin davamı idi, ancaq inqilabi şüarlarla İnternasional pərdəsi altında ört -basdır edilirdi.

Qurultay nümayəndələrinin tərkibi müxtəlif idi və bütünlükdə Şərq xalqlarının əsl inqilabi qüvvələrini təmsil etmirdi. Buna baxmayaraq, qurultay tarixdə ilk toplantı idi ki, istismar olunan və istismar edən millətlərin nümayəndələri burada görüşərək yeni şüar "Bütün ölkələrin proletarları və məzlum xalqları, birləşin!" şüarı altında beynəlxalq imperializmə qarşı mübarizəni davam etdirməyi qərara almışdır.

Azərbaycan siyasi mühacirəti. Sovet Rusiyasının işğalı nəticəsində Azərbaycan xalqının görkəmli şəxsiyyətləri doğma Vətənlərini tərk edib mühacir həyatına düçar oldular. Onların əksəriyyəti "Qızıl ordu"nun qəddar "Xüsusi siyasi şöbəsi"nin qanlı

təqiblərindən xilas olmaq üçün dərhal qonşu Gürcüstana keçib gizlənmək məcburiyyətində qaldılar. Fətəli Xan Xoyski, Mustafa Vəkilov, Şəfi bəy Rüstəmbəyli, Nağı Şeyxzamanlı aprelin ortalarından Cənubi Qafqaz Respublikalarının konfransına gəlmiş, lakin vətənə qayıtmağa imkanı olmayan nümayəndə heyətinin rəhbəri, AXC Parlamentinin sədr müavini Həsən bəy Ağayev və digər nümayəndələri Azərbaycan xalqının Gürcüstandakı ilk mühacir dəstəsini təmsil etdilər. Onlar Azərbaycan Qurtuluş Komitəsi təşkil edərək, qızıl ordunun işğalına qarşı öz qəti etirazlarını dünyaya bəyan etdilər. H.Ağayevin imzası ilə yayılan "Bəyannamədə" deyilirdi ki, "...Azərbaycan xalqı ona zorakı yolla qəbul etdirilən yeni qayda-qanun ilə barışa bilməz".Dərhal Azərbaycan siyasi mühacirətinin ilk faciəsi başladı. Artıq 1920-ci ilin iyununda Fətəli Xan Xoyski və H.Ağayev Tiflisdə erməni terrorunun qurbanı oldular. N.Yusifbəyli Gürcüstana gedərkən Laqodexdə (Balakən), "Müsavat" partiyasının Bakı komitəsinin üzvü Yusif İbrahimi isə Gürcüstanın Siqnax şəhərində qətlə yetirildilər.Azərbaycan mühacirləri qızıl ordunun gəlməsilə tezliklə Gürcüstanı tərk edib Türkiyədə cəmləşdilər. Çünki Azərbaycandan xaricə, ələlxüsus Avropa ölkələrinə getmək üçün Türkiyə daha əlverişli idi. Həmçinin burada hələ XX əsrin əvvəllərində məskunlaşmış xeyli Azərbaycan mühaciri və azərbaycanlı ailələr yaşayırdı. Odur ki, Azərbaycandan gedən mühacirlərin çoxu Türkiyədə nəinki mənəvi, eləcə də maddi yardım ala bilirdilər. Əli bəy Hüseynzadə ilə ailəsi siyasi mühacirlərin ümid yeri və arxası olmuşdu. Azərbaycan Cümhuriyyətində Daxili işlər nazirinin müavini işləmiş, keçmiş Rusiya generalı, sonralar məşhur şərqşünas olmuş Məmməd Sadıq bəy Ağazadə 1920-1921-ci illərdə qohumları Əli bəy Hüseynzadənin ailəsində yaşamışdı.

Azərbaycan Cümhuriyyətinin sabiq Daxili işlər naziri Behbud bəy Cavanşir 1921-ci ilin yayında N.Nərimanovun məsləhəti ilə Almaniyaya gedərkən, yolüstü İstanbulda zövcəsi ilə Əhməd bəy Ağayevin evində qalmışdı. Ermənilərin qara siyahısında olan

Behbud bəy milliyyətcə rus olan arvadının təkidi ilə "Perepalas" hotelinə köçən gecə - iyulun 19-da erməni daşnakı tərəfindən öldürülmüşdü.

Cümhuriyyətin təhlükəsizlik orqanına rəhbərlik etmiş Nağı bəy Şeyxzamanlı xatirələrində yazırdı: "Azərbaycanımızın işğalı ilə əlaqədar qarabağlı balaları kimi bütün dünyaya səpələndik. Biz ana vətən hesab edərək Türkiyəyə mühacirət etdikdə özümüzü vətənsiz hesab etmədik. Türkiyə vətəndaşı olduq.

Azərbaycanda sovet hakimiyyəti elan olunandan sonra onu qəbul etməyənlərdən, fövqəladə komissiyanın təqiblərindən canını qurtaran milli ziyalılardan, görkəmli xadimlərdən, qaçqınlardan ibarət Türkiyədə Azərbaycan mühacirəti yarandı. Türkiyədə məskunlaşmış Xosrov Sultanov əsasən Samsunda, Trabzonda yerləşmiş azərbaycanlı qaçqınlara yardım göstərən cəmiyyətə başcılıq edirdi. Müsavat, İttihad və digər siyasi partiyaların Cümhuriyyətin sabiq rəsmi xadimləri İstanbulda qaldılar. Azərbaycan mühacir təşkilatlarına ilk vaxtlar Xəlil bəy Xasməmmədov rəhbərlik edirdi. Azərbaycan zabitlərindən çoxu Türkiyə təbəəliyini qəbul edərək, Əhməd bəy Ağayevin köməyi ilə orduda xidmətə götürüldülər. Azərbaycan siyasi mühacirlərinin digər bir qrupunu isə hələ 1919-cu ildə parlament tərəfindən Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Paris sülh konfransına göndərilmiş nümayəndə heyəti(MirYaqub Mehdiyev, Ceyhun Hacıbəyli, Məmməd Məhərrəmov, Əkbərağa Şeyxülislamov, Abbas bəy Ataməliyev) təşkil edirdi.

Bu vətənpərvərlər xaricdə qalıb xalqa xidmətlərini davam etdirmək qərarına gəldilər və Azərbaycan Cümhuriyyətinin sovet Rusiyası silahlı qüvvələri tərəfindən işğalını beynəlxalq aləmə çatdırmaq üçün çoxlu səy göstərdilər. Onların 1920–ci il sentyabrın 8-də Millətlər Cəmiyyətinə müraciətində deyilirdi: Cenevrədə birləşmiş olan millətlərin təmsilçilərinə müraciət edərək, Azərbaycan xalqının məruz qaldığı aləmə nəzər-diqqətinizi cəlb etmək istəyirik.

1920-ci ilin aprelində rus bolşevikləri Azərbaycanı istila etdi və

qeyri-bərabər hərbdən sonra məmləkəti əsgəri işğalı altına aldı.

Parisdə olan siyasi mühacirlər, xüsusilə Ə.Topçubaşov Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün ciddi çalışmışdı. O, 1920-ci ilin noyabrında Cenevrədə Millətlər Cəmiyyətində, 1922-ci ildə London və Genuyada, 1923-cü ildə Lozanna konfranslarında çıxış edərək, Azərbaycanın milli hüquqlarının pozulması və Dövlət müstəqilliyinə olan təcavüzü iştirakçıların diqqətinə çatdırmışdı.

Ə.Topçubaşov,X.Xasməmmodov və Paris Sülh Konfransında iştirak etmiş digər nümayəndələr Gürcüstanın, Ermənistanın, Şimali Qafqaz respublikalarının keçmiş hökumətlərinin nümayəndələri ilə Qafqaz respublikalarının federasiyasını yaratmaq, Qafqaz xalqlarının müstəqilliyi uğrunda bolşevik rejiminə qarşı mübarizə aparmaq məqsədilə öz aralarında danışıqlar aparmış, müqavilə bağlamışdılar. 1922-ci ildə Genuya konfransı ərəfəsində Ə.Topçubaşov, Gürcüstan və Ermənistan nümayəndələri Parisdən Londona getdilər və qarşıdakı beynəlxalq forumda Qafqazın mənafeyinin qorunması barədə ingilislərin nazirlər kabinəsinin üzvləri ilə danışıqlar apardılar.

Ə.Topçubaşov Parisdə və başqa yerlərdə yerləşən bütün mühacirləri bir mərkəzdə birləşdirmək ideyasını, Qafqaz Konfederasiyası mövqeyini dəstəkləyirdi.

M.Ə.Rəsulzadənin İstanbula gəlişindən sonra onun təşəbbüsü və rəhbərliyi ilə Müsavat partiyasının Xarici Bürosu təşkil olundu. O, Türkiyədə olan siyasi mühacirlərin fəaliyyətini məqsədyönlü istiqamətləndirir, eləcə də Azərbaycandakı təşkilatlarla əlaqə yaradırdı. 1923-cü ildən mühacirlər "Yeni Qafqaziya", "Azəri-Türk", "Odlu yurd", "İstiqlal", "Qurtuluş", "Azərbaycan" adlı qəzet, dərgi və jurnallar nəşr etdirmişlər.

1923-cü ildə İstanbulda M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti", 1927-ci ildə Mirzə Bala Məmmədzadənin "Azərbaycan misaqi millisi; 28 mayis istiqlal Bəyannaməsinin təhlili", 1938-ci ildə isə Berlində "Milli Azərbaycan hərəkatı və digər kitabları çapdan çıxmışdı.

M.Ə.Rəsulzadə İstanbulda nəşr olunmuş "Əsrimizin Səyavuşu" əsərində demokratiya və sosial islahatlar ideyasını əsaslandırırdı.O,"Rusiya köləliyi"ni, onun məkirli, yaltaq erməni havadarlarını ifşa edərək qeyd edirdi: "Biz rus xalqına heç bir ədavət bəsləmirik, əksinə biz ona münasibətdə ən yaxşı arzular diləyirik. Lakin həyatımızı qurmağa və mədəniyyətimizi öz istədiyimiz formada inkişaf etdirməyə mane olacaq rus imperializminin də düşməniyik". M.Ə.Rəsulzadə "ağ rus" mühacirlərinə xas olan monarxist şovinizm ideologiyasına qarşı da çıxış edirdi. O, "Odlu yurd" qəzetində "Kerenskilərə cavab" məqaləsində Sovet İttifaqında türk respublikalarına, ələlxüsus Azərbaycana zidd mövqe tutan "kerenski" qrupunu kəskin tənqid atəşinə tutmuşdu. Qafqaz Konfederasiyası ideyasını müdafiə edən M.Ə.Rəsulzadə demişdi: "Müstəqil Qafqaz təkcə onun xalqlarının səadətinin təminatı deyil, həm də xalqlararası sülhün ciddi amilidir. Şübhə yoxdur ki, Ümumqafqaz dövlətçiliyi sahəsində bizim əldə etdiyimiz nailiyyətlər bizim cənub qonşularımızda bizə və bizim işimizə lazımi hörmət və inam yaradar".Xaricdəki Azərbaycan mühacir nümayəndələrinin publisist və təbliğat fəaliyyəti, onların liderlərinin siyasi çıxışları Sovetlər ölkəsinin rəhbərliyini çox narahat edirdi. M.Ə.Rəsulzadənin 1923-cü ildə çapdan çıxan "Azərbaycan Cümhuriyyəti" kitabı barədə Stalin 1923-cü il sentyabrın 16-da "Rəsulzadənin mürtəce kitabçası barədə" başlığı altında "Yol. Musabəyova, Mirzəyana, Axundova, Kirova və Orixelaşviliyə mənim məsləhətim" qeydi ilə məktub göndərmişdi. Q.Musabəyov dərhal inqilab muzeyinin rəhbərliyinə (Rotqauzerə) Yol. Stalinin tezislərinə uyğun broşür (kitabça) tərtib etmək üçün lazımi materialların ona təqdim edilməsi göstərişini vermişdi.

Stalin M.Ə.Rəsulzadəni "reneqatçılıqda" (o, əvvəl bolşevik olub),"Türkiyə xalqının mənafeyinə xəyanətkarlıqda" (o və onun partiyası Türkiyə xalqına köməyə gedən Qızıl ordunun Azərbaycana gəlməsinə müqavimət göstərirdilər...)"Azərbaycan xalqının mənafeyinə... "və başqa sahələrdə cəmi altı tezisinə uyğun

"Rəsulzadəyə hücuma keçməyə, onu ittiham etməyə" çağırırdı. Bundan sonar SSRİ Xalq Xarici İşlər Komissarı G.V. Çiçerinin IV Ümumazərbaycan Sovetlər qurultayındakı (1925-ci il mart) çıxışı da təsadüfi deyildi. O göstərirdi ki, "Son zamanlar müsavatçıların Türkiyədəki fəaliyyəti xüsusilə artmışdır. Müsavatçıların tələbatı xüsusilə bu son günlərdə tüğyan edir. Müsəlmanlara Azərbaycanda təzyiq göstərildiyinə dair köhnə fəryadlar təkrar olunur, müsəlman əhalisi tərəfindən təkrar şikayətlər gəlir, güzəştlər tələb olunur".

Hətta Çiçerin Azərbaycanı müsavatçılara cavab verməklə, nümunə olacaq bir "Sovet Cümhuriyyəti" qurmağa çağırmışdı. Partiya və dövlət rəhbərliyindən M.D.Hüseynov, Ə.H. Qarayev, D.Bünyadzadə, M.Quliyev, S.M.Əfəndiyev və tədqiqatçılardan A.Rayevski, Y.A.Ratqauzer, N.Pçelin, və b. siyasi mühacirlərin fəaliyyətini "ifşa" edən kitabçalar və müxtəlif yazılarla çıxış etməyə başladılar. Azərbaycan Fövqəladə Komissiyasının sədri Mir Cəfər Bağırov "Kommunist" qəzetinin 1925-ci il 3 iyul tarixli sayında yazırdı:"...Düşmənlərimizin başında, şübhəsiz, Müsavat partiyası durur. M.Ə.Rəsulzadə Avropaya qaçdıqdan sonra Azərbaycan inqilabının əleyhdarları onun ətrafına toplanaraq öz irtica fəaliyyətlərinə başladılar. Xaricdə M.Ə.Rəsulzadənin başına toplanan milliyyətçilərin içəridəki tərəfdarlarını əzmək lazımdır".

Azərbaycan siyasi mühacirəti 30-cu illərə kimi əsasən Türkiyədə, İkinci Dünya müharibəsi və ondan sonrakı dövrdə Qərbi Avropanın və Asiyanın başqa ölkələrində qərarlaşıb fəaliyyət göstərmək məcburiyyətində qalmışdı. Azərbaycanlı soydaşlarımız bəzi çətinliklərlə, məhrumiyyətlərlə üzləşsələr də, ictimai-siyasi, elmi və mədəni sahələrdə işlərini davam etdirirdilər.

Azərbaycan mühacirlərinin ilk Assosiasiyası Fransada meydana gəlmişdi. Onun əsas nüvəsi Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan diplomatları: Əkbər Şeyxülislamov, Ceyhun bəy Hacıbəyli, Miryaqub Mehdiyev, Məmməd bəy Məhərrəmov və b. idi. Onlar 1919-cu ilin mayından 1920-ci ilin aprelinə kimi "Azərbaycan" bülleteninin 11 nömrəsini, üç kitab, Azərbaycanın ilk rəngli xəritəsini və onlarla məqalələr

çap etdirmişlər.

Azərbaycan dövlətçiliyi və müstəqilliyinin keşiyində durmuş, 1967-ci ildə Türkiyədə vəfat etmiş Gəncəli Nağı Keykur (Şeyxzamanlı) xatirələrində yazırdı: "Mühacirət həyatının min bir məhrumiyyət və iztirabı içində inlərkən öz maddi imkanlarımız daxilində nəşr etdirdiyimiz qəzetlər, dərgilər, kitabçalar və kitablar sayəsində mübarizəmizi dimdik ayaqda tutduq. Mühacirətdəki bu nəşriyyat Azərbaycanın istilasından iki il sonra başlamış - 1932-ci ilə qədər İstanbulda və 1932-1939-cu illərdə isə Berlin və Parisdə öz fəaliyyətini davam etdirmişdir. Azərbaycan milli mübarizəsinin böyük lideri mərhum Məmmədəmin Rəsulzadənin qurduğu bu nəşr sistemi günümüzə qədər davam etməkdədir. Bu mətbuat mübarizəsinin arasında "Yeni Qafqasiya", "Azəri-Türk", "Odlu yurdu", "Bildiriş", "İstiqlal" və "Azərbaycan" kimi qəzet və dərgilərindən başqa türkcə, farsca, almanca, polyakca, fransızca, ingiliscə və rusca çap olunan çoxlu sayda kitabça və kitablar böyük bir kitabxana təşkil edir". Azərbaycan mühacirləri Qafqazdan və Türküstandan, Rusiyadan, xüsusilə tatar-başqırd mühacirlərlə, Ukraynadan olan mühacirlərlə, onların təşkilatları, mətbuat orqanları ilə sıx əlaqədə olmuşdular. Türkiyədə yaşayan Azərbaycan mühacirləri onun daxilində gedən ictimai-siyasi, mədəni proseslərdə yaxından iştirak etmiş və qardaş Türkiyə xalqının tərəqqisində xüsusi rol oynamışlar.

Türkiyədə mühacirətdə olan azərbaycanlı ailələrinin üzləşdikləri məhrumiyyətləri təsəvvür etmək üçün valideynlərini itirib yetim qalan, pansionata verilən Dilşad adlı bir çocuğun "Türkiyə taleyi" səciyyəvi bir faktdır. Dilşad yaxşı oxuyur, daha çox təbiət elmlərinə maraq göstərirmiş. 30-cu illərin bir günündə ölkənin prezidenti M.K.Atatürk pansionata gəlir və Respublikanın ilk prezidentini təbrik etmək Dilşada nəsib olur. Qızcığazın cəsarətinə heyran qalan prezident onun azərbaycanlı yetim olduğunu biləndə ona öz adından təqaüd təyin edir. Sonralar da daim onunla maraqlanır və onu xaricə oxumağa göndərir. Təhsilini müvəffəqiyyətlə başa vuran Dilşad atom fizikasından

dissertasiya müdafiə edib, alim olur və bir müddət məxfi laboratoriyada tədqiqat aparır. O, yarmarkada SSRİ pavilyonunda İstanbulda təsadüfən tanış olduğu bakılı bir soydaşının köməyi sayəsində qohumları ilə əlaqə yarada bilir. Onun Bakıya gəlmək üçün dəfələrlə göstərdiyi təşəbbüslər baş tutmur. Görünür hakimiyyət atomçu alimi buraxmayıb. Sonralar məlum olur ki, Dilşad həsrətində olduğu Vətənini və qohumlarını görmədən 70-ci illərin əvvəllərində dünyasını dəyişmişdir.

1931-ci ildə azərbaycanlı siyasi mühacirlər Sovet İttifaqının təzyiqi nəticəsində Türkiyəni tərk etdilər. Onların mühacirlik həyatının ağır dövrü başladı. Azərbaycan siyasi mühacirətində bu illərdə daxildə kəskin ziddiyyətlər, "liderlik" uğrunda çəkişmələr, ciddi ixtilaflar da müşahidə olunurdu. Hətta mühacirətin daxilində bir-birinə müxalif mövqedə dayanan açıq qruplar peyda olmuşdu. 1936-cı ilin avqustunda Varşavada "Müsavat" partiyasının qurultay səlahiyyətli konfransı oldu. M.Ə.Rəsulzadə nitqində Müsavatın keçdiyi tarixi yolu xarakterizə etdi, Nizamnaməyə bir sıra düzəlişlər və əlavələr edildi, yeddi nəfərdən ibarət partiya Divanı formalaşdırıldı, Azərbaycandakı vəziyyətlə bağlı firqənin taktikası müəyyənləşdirildi və Müsavatın yeni proqramının əsasları qəbul edildi.

V FƏSİL
Cənubi Azərbaycan Dünya müharibələri arasındakı dövrdə (1917-1940-cı illər)

Cənubi Azərbaycan Birinci Dünya müharibəsinin sonlarında. 1917-ci ildə Rusiyada Fevral burjua-demokratik inqilabı qələbə çaldığı və çarizmin devrildiyi vaxt Cənubi Azərbaycan rus qoşunlarının işğalı altında idi. Buradakı demokratik quvvələrin həm Qacarlar (İran) dövləti irticasının, həm də işgalçıların təzyiqi altında olması acı reallıq idi. Odur ki, Rusiyada çarizmin devrilməsi xəbəri Qacarlar ərazisindəki rus əsgərlərində inqilabi coşqunluq yaratmaqla yanaşı, həmçinin Cənubi Azərbaycanda böyuk ruh yuksəkliyi və umidlər doğurdu. İran irticasının arxası olan çarizmin süqutu burada bütün demokratik quvvələr tərəfindən Tehran hakimiyyətinin yerlərdə, o cumlədən Cənubi Azərbaycanda zəifləməsi kimi qəbul edildi və milli azadlıq hərəkatının canlanması ucun şərait yaratdı.

Cənubi Azərbaycanda əhalinin çıxışlarına–İran Demokrat Partiyasının (İDP) Əyalət Komitəsi istiqamət verirdi. Fevral inqilabı baş verərkən Azərbaycan əyalət komitəsi İDP-nin nəzərə çarpacaq dərəcədə fəaliyyət göstərən yeganə təşkilatı idi. Komitəyə İran Məşrutə inqılabının (1905-1911-ci illər) dalğalarında mətinləşmiş Şeyx Məhəmməd Xiyabani başçılıq edirdi.

M.Xiyabani 1880-ci ildə Təbriz yaxınlığındakı Xamnə qəsəbəsində anadan olmuşdur. Məktəb və mədrəsə təhsili almış M.Xiyabani atasının ticarət işləri ilə əlaqədar bir neçə il Rusiyanın Petrovsk (Mahaçqala) şəhərində yaşamışdı, Təbrizə qayıdandan sonra həm müəllimlik, həm dini fəaliyyətlə məşğul olmuşdu, 1905-1911-ci illər Məşrutə hərəkatının həm yetirməsi, həm də fəal iştirakçısı idi. O, Məşrutə hərəkatı zamanı qəhrəman Səttarxanın başçılığı ilə iritca qüvvələrinə qarşı döyüşlərdə şücaət göstərmiş, Təbrizin Xiyaban məhəlləsində üsyana rəhbərlik edərək müdafiəni bacarıqla təşkil etdiyinə görə ``Xiyabani` təxəllüsünü qazanmışdır. İranda Məşrutə inqilabından sonra formalaşan İkinci Məclisə

keçirilən seçkilərdə isə o, Azərbaycan üzrə namizədliyini irəli sürmüş və seçilmiş digər 11 deputatla bərabər Azərbaycanı Tehranda - İran parlamentində təmsil etməyə nail olmuşdu. M.Xiyabani parlamentdə nitqləri ilə kifayət qədər tanınan və sayılan Məclis üzvlərinən olmuşdu, onun xüsusilə də 1911-ci ildə Rusiyanın İrana ultimatumunu sərt tənqid etməsi yaddaşlarda yaxşı qalmışdır.

Fevral inqılabının qələbəsi xəbərindən sonra ölkədə siyasi təşkilat olan İran Demokrat Partiyasının (İDP) Azərbaycan Əyalət Komitəsi açıq fəaliyyətə keçdi. 1917-ci il aprelin 7-də Konstitusiya elan olinmasının 10 illiyi ilə əlaqədər Təbrizin Topxana meydanında keçirilmiş təntənəli mitinqdə Əyalət Komitəsi ilk dəfə olaraq açıq surətdə kütlələr qarşısında çıxış etdi.

Leqal şəraitdə işə keçdikdən sonra təşkilatların fəaliyyəti xeyli genişləndi. 1917-ci ilin ortalarına doğru İDP-nin bir-birinə zidd qruplara parçalandığı və təşkilatlarının çoxu dağildığı bir vaxtda Azərbaycan əyalətindəki təşkilatlar formalaşırdı.Təbrizin bəzi məhəllələrində partiya özəkləri əyalətin bir sıra vilayət mərkəzlərində - Sərab, Ərdəbil, Zəncan, Urmiyada partiya komitələri fəaliyyət göstərirdi.

Azərbaycan Əyalət Komitəsi təşkilatın mətbuat orqanı kimi "Təcəddud" qəzetini nəşr etməyə başladı. Qəzetin ilk nömrəsi 1917-ci ilin aprelin 9-da çıxdı. Qəzet fars dilində nəşr edilir, nusxələri Tehrana və ölkənin başqa şəhərlərində də göndərilirdi.

Azərbaycan Əyalət Komitəsi öz sosial tərkibi etibarilə də partiyanın digər təşkilatlarından fərqlənirdi. Komitəni əsasən orta və xırda burjuaziyanın, orta mulkədarların, ziyalıların və ruhanilərin asağı zumrələrinin numayəndələri təşkil edirdi. Buraya fəhlə və kəndlilərin də numayəndələri daxil idi. Demokratlar əhalini xarici işğalçıların ölkədən qovulması və Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda mubarizəyə çağırırdılar. Hərəkatın milli-azadlılq xarfakteri özünü bu məsələlərdə büruzə verirdi. Cənubi Azərbaycandakı hərəkatın başlanğıcı ucun "Azad İran", "Butun xalqların qardaşlığı" kimi umumbəşəri arzuların ifadəsi, rus ordusundakı sosial-demokratların bilavasitə təsirilə gələn "Yaşasın

sosializm!Butun xalqların zəhmətkeşləri birləşin!" kimi solçu şuarlar səciyyəvi idi.

Cənubi Aərbaycanda mubarizə əhvali-ruhiyyəsi getdikcə artırdı. Təbrizdə vəziyyət xususilə kəskin şəkil almışdı. Burada 1917-ci ilin iyunun 17-də başlanmış çıxışlar vali Sərdar Rəşidə qarşı çevrilmişdi. Vəliəhd Məhəmməd Həsən Mirzə Sərdar Rəşidin istefaya çıxması haqqında fərmana qol çəkməyə məcbur oldu. Xalqın intiqamından qorxan keçmiş vali Ala-Qapıda gizləndi və iyunun 21-də gecə ikən Təbrizi tərk etdi. Urmiyada da xalq kutlələri mahalın baş hakimi Etimaduddövlənin özbaşınalığına qarşı çıxdı. Etimaduddövlə həbs olunaraq ölum cəzasına məhkum edildi.

1917-ci il avqustun 24-də Təbrizdə İDP-nin Əyalət Komitəsinin konfransı açıldı. 480 nəfər nümayəndənin iştirak etdiyi konfrans Azərbaycan Demokratik Partiyasını mustəqil elan etdi. Şeyx Məhəmməd Xiyabani başda olmaqla onun Mərkəzi Komitəsi seçildi. Konfrans partiyanın vəzifələrini muəyyənləşdirən geniş qətnamələr qəbul etdi və yeni şəraitdə onun hərəkət xəttini muəyyənləşdirdi.

1917-ci ilin yayindan sonra ADP-nin fəaliyyətində və onun başçısı Xiyabaninin siyasi baxışlarında yeni bir mərhələ başlandı. Bu mərhələdə radikal xırda burjua inqilabçısı, siyasi partiya başçısı kimi yetkinləşmiş Xiyabani o dövrdəki İran şəraiti uçun əsasən milli-demokratik inqilabın tələblərinə cavab verən mövqedən çıxış edirdi.

Bu dövrdən etibarən ADP-nin fəaliyyət dairəsi xeyli genişlənmiş, partiya Cənubi Azərbaycanda yetişən xalq hərəkatının rəhbər təşkilatı kimi formalaşmışdı. Bir sıra şəhərlərdə və kəndlərdə partiyanin yeni təşkilatları yaranmış, Təbrizin hər məhəlləsində partiya özəkləri fəaliyyətə başlamış və bunlara nəzarət artırılmışdı. Partiyanin güclü təşkilatlarından biri də Bakı təşkilatı idi.Bakı təşkilatı 1918-ci ilin əvvəllərində "Azərbaycan" adlı siyasi-ictimai ədəbi qəzet nəşr etməyə başlamışdı.

Bununla yanaşı, partiyanın daxilində hələ əvvəlcədən mövcud olan ikitirəlik qalmaqda idi. Muxtəlif təbəqələri təmsil edən ADP

içərisində də muəyyən mənada qütbləşmə gedirdi. Sol cinah partiya uzvlərinin böyuk əksəriyyətini təşkil edirdi. Xiyabani tərəfdarlarından ibarət olan sol cinahın ADP-də rəhbərliyi ələ alması və getdikcə möhkəmlənməsilə barışmaq istəməyən və hələ konfransdan əvvəl demokratiya pərdəsi altında fəaliyyət göstərən sağ qrup partiya konfransından sonra yaranmış yeni mərhələdə partiyanı sağa, daha doğrusu, əslində fəaliyyətsizliyə sövq edirdi. Sağ qrup dil məsələsində də ADP-nin əsas xəttilə razilaşmırdı. Bu dəstə partiyanın danışıq dilinin də yazili işlər kimi farsca olmasını tələb edirdi.

Bu dövrdə Azərbaycanda əsas siyasi partiya olan ADP-dən başqa daha bir neçə partiya fəaliyyət göstərirdi. Onlardan İran sosial-demokrat partiyası olan "İctimaiyyun-Amiyyun. Mucahid"in Təbriz təşkilatının fəaliyyəti diqqəti cəlb edirdi. Onların əksəriyyəti ADP ilə həmkarlıq edirdi. Mücahidlərin bir qismi isə 1917-ci ilin mayında Bakıda iranlı fəhlələr tərəfindən təşkil edilmiş "Ədalət" fəhlə partiyasının İranın özundə, o cümlədən Təbriz və başqa şəhərlərdə şöbələrinin yaranmasında iştirak etmişdi. Bir qayda olaraq, mucahidlər ADP ilə əlaqə saxladığı halda, qalan kiçik partiyalar mərkəzi Tiflisdə yerləşən Mütərəqqi iranlılar partiyasının Cənubi Azərbaycandakı şöbələri, Nusrət, Əhrar və s. ilə vahid blokda birləşərək, özlərini ADP-ə qarşı qoyurdular. Lakin ADP ilə mücahid təşkilatları arasında da ziddiyyət güclü idi. Onlar eyni məqsəd uğrunda vuruşsalar da mübarizə üsulları muxtəlif idi. Demokratlar sulh, saziş və danışıq yolu ilə getməyə üstünlük verdikləri halda, mücahidlər silahlı mübarizə tərəfdarı olmaqla terrorçu yol seçmişdilər. 1917-ci ilin noyabr-dekabr aylarında Təbriz, Ərdəbil, Xoy, Urmiya, Sərab, Zəncan və başqa şəhərlərdə keçrilən izdihamlı mitinqlərdə əhali ingilislərin əlində oyuncağa çevrilmiş Vüsuquddövlə hökumətinin istefa verməsini, demokratik hökumət təşkil olunmasını tələb edirdi. 1917-ci il noyabrın sonu - dekabrın əvvəlində Təbrizdə keçirilmiş mitinqlər xususilə izdihamlı olmuşdu. Keçirilən mitinqlərin çoxunun təşkilatçısı ADP idi, lakin bunlarda başqa partiyaların numayəndələri də iştirak edirdi. Bu

çıxışlarla yanaşı, ADP-nin aparıcı quvvələri daha ciddi addımlar atmağa başladılar. Onlar xalqı üsyana çağırırdılar. Partiyanın Bakı təşkilatının orqanı olan "Azərbaycan" qəzeti də azərbaycanlıları üsyana çağırırdı.

Genişlənən çıxışlar nəticəsində bəzi muvəffəqiyyətlər qazanıldı, o cumlədən Vusuquddövlə və onun əlaltıları 1917- ci ilin sonunda istefa verməyə məcbur oldular.

1918-ci ilin əvvəllərində Rusiya öz qoşunlarını Qacarlardan çıxardı. İngiltərə hərbi komandanlığı isə əksinə, mustəmləkə siyasətini gucləndirməklə Qacarlardan qonşu dövlətlərə qarşı hücum meydanı kimi istifadə etməyi planlaşdırırdı. 1918-ci ilin yanvarında ingilislər general Denstervilin komandanlığı altında İrana xüsusi hərbi dəstə göndərdi.Bu dəstə Ənzəli və Rəşti, sonra isə Bakını işğal etməli idi. Cənubi Azərbaycana ingilis hərbçiləri göndərildi.

1918-ci ilin yazınadək ingilislər Zəncan və Miyanəni işğal etməyə nail oldular. Onlar Turkiyə təhlükəsini bəhanə edərək Cənubi Azərbaycanın digər şəhərlərini, ələ keçirərək, orada ingilis zabitlərinin komandanlığı altında polis və qoşun dəstələri yaratdılar. İngilislər eyni zamanda Vusuquddövlənin yenidən Baş Nazir postuna gəlməsinə nail oldular.

Digər tərəfdən keçmiş çar və fransız zabitlərinin, Amerika missionerlərinin və başqalarının təhrikilə Cənubi Azərbaycanın şimal - qərbində aysorlar, ermənilər və kürdlərin azərbaycanlılara qarşı qırğınları törədilirdi. ADP Cənubi Azərbaycanda işğalçılıq siyasəti yeridən ingilislərə qarşı başlanmış çıxışlara istiqamət verir, taxıl möhtəkirlərilə mübarizə aparır, ən başlıcası isə fitnəkar qırğınların qarşısını almaq ucun ciddi əməli tədbirlər həyata keçirirdi. 1918-ci ilin əvvəllərində türk qoşunlarının Cənubi Azərbaycana daxil olması bu qırğınların qarşısını aldı. Onlar mart ayında Maku xanlığını, mayda Urmiya və Salması, bir qədər sonra Təbrizi tutdular və 1918-ci il noyabrın sonunda Birinci Dunya müharibəsində tam məğlubiyyətə uğrayanadək əyalətdə qaldılar.

İran tarixçisi T.Atabəyi M.Xiyabani hərəkatı ərəfəsində İranda yaranmış ictimai-siyasi şəraiti özünəməxsus şəkildə dəyərləndirərək

yazır ki, Birinci Dünya müharibəsi çərçivəsində osmanlıların Rusiyaya qarşı müharibəsi Azərbaycanda da pan-türkizm ideyalarının canlanmasına zəmin yaratmışdı. Pantürkistlər ruslara sadəcə kafir kimi yox, eyni zamanda İslam Türk məmləkətinin bir hissəsi hesab edilən Qafqazın cənub ərazilərini zəbt edən işğalçı kimi yanaşırdılar. Rusiya imperiyasının süquta uğraması nəticəsində bir çox pantürkistlər ata yurdlarının azad edilməsi və türk millətinin birləşdirilməsi üçün ən uyğun vaxtın gəlib çatdığına inanırdılar. Lakin Azərbaycan əyaləti (Cənubi Azərbaycan) bir neçə il Osmanlı qoşunlarının nəzarəti altında qalsa da, pantürkizm ideyaları burada çox da yayılmadı, üstəlik Osmanlılarla Azərbaycan demokratları arasında etimadsızlıq davam edirdi. Demokratların tanınmış rəhbəri M.Xiyabani və həmkarları Noubəri və Badamçının osmanlılar tərəfindən həbs edilib sürgünə göndərilməsi bu inamsızlığı daha da artırdı. M.Xiyabani və yaxın həmkarlarının osmanlılar tərəfindən həbs edilməsinin səbəbləri barədə M.Badamçı yazır ki, Osmanlılar Təbrizə daxil olandan sonra burada ”İslam ittihadı” cəmiyyəti təşkil etdilər, əslən Badkübədən (Bakı) olan ziyalı, müəllim Yusif Ziya bəyi bu təşkilata sədr müəyyən etdilər və yavaş-yavaş hökumətin işlərinə müdaxilə etməyə başladılar. Türk, fars, İran, Turan söhbətləri salıb İranın ayrılmaz hissəsi olan Azərbaycanı Qafqaza birləşdirib Osmanlı məmləkətinə çevirsinlər. Bu zaman bu iddialara qarşı dura biləcək yeganə qüvvə Demokrat partiyası idi. Buna görə daxildəki şərəfsiz xainlərin xidmətindən də istifadə etməklə osmanlılar 16 avqust 1918-ci ildə Məhəmməd Xiyabani İsmayıl Noubari və Məhəmməd Badamçı ilə birlikdə türk hərbçiləri tərəfindən həbs edildiyi və həmin ilin noyabrında onları özləri ilə əvəlcə Urmiyaya, sonra isə Qarsa apardıqları qeyd edilir. Amma, M.Xiyabani və həmkarlarının həbs edilməsinin bir sıra digər səbəbləri də var idi. Belə bir şəraitdə ölkədə demokratik-milli hərəkatın yeni dalğası - M.Xiyabani hərəkatı yetişirdi.

1918-ci ilin noyabrında Osmanlı dövləti Cənubi Azərbaycanda yerləşdirdiyi 9-cu ordusunu buradan çıxartdıqdan sonra ingilislər İranın şimal-qərbini ələ keçirdilər. İngilis hərbi hissələri - hind

sipahiləri butun Cənubi Azərbaycanı, o cumlədən Təbrizi zəbt etdilər.

Milli-azadlıq hərəkatının yuksəlişi. 1920-ci il Təbriz üsyanı. 1919-cu ilin avqustun 9-da bağlanmış İngilis-Qacarlar sazişi Cənubi Azərbaycanda genişlənən milli-azadlıq hərəkatının yeni pilləyə qalxmasına təkan verdi, əyalətdə Qacarlar hökumətinə və ingilislərə qarşı mubarizə şiddətləndi. Çünki bu sazişə görə Qacar dövləti ordusunun maliyyəsi, yol tikintisi, xarici ticarəti və ölkənin digər ictimai-siyasi sahələrini ingilislərin nəzarətinə verdi. Hərəkata başçılıq edən ADP-nin bu dövrdəki fəalliyyəti üçün səciyyəvi cəhət o idi ki, partiya tədricən passiv mubarizə mövqeyindən uzaqlaşır, hökümətə öz tələblərini qəti şəkildə bildirir, xalqı daha ciddi mübarizəyə çağırırdı. Belə ki, partiyanın proqramında nəzərdə tutulan taktika dəyişdi, dinc çıxışlarla yanaşı, silahlı üsyana hazırlıq planı 1920-ci ilin yazında daha böyuk inamla həyata keçirildi. Xiyabaninin aşağıdakı sözləri bu planı aydınlığı ilə açıqlayır: "Ağıllı bir xalq teleqrafxanaya toplaşıb öz qulluqçu və nökərlərindən ədalət və azadlıq istəməz… Bu dilənçilikdir, bu zillət və əsarətdir. Bu, qəhrəman və diri xalqa yaraşmaz". Xiyabanin bu sözləri partiyada təkamüldən inqilabi çağırışa qəti dönuş yarandığını göstərirdi. Hərəkatın rəhbərləri üsyanın hazırlanmasında zəhmətkeş quvvələrə əsaslanırdı. Zəhmətkeş dedikdə öz iş quvvəsini satan azsaylı fəhlələr və torpaqsız kəndlilərlə yanaşı, sənətkarlar, xırda tacirlər, ziyalılar, xırda dövlət qulluqçuları, eləcə də xırda torpaq sahibi olan kəndlilər nəzərdə tutulurdu.

1920-ci ilin aprelin ilk günlərində ADP-nin üzvlərinin bir neçəsinin həbs edilməsi üsyanin başlanmasına təkan verdi. Aprelin 6-da demokratlar silahlanaraq "Təcəddüd" qəzeti redaksiyanın binasında toplandılar. Yaranmış gərgin vəziyyət Təbrizdə silahlı üsyanın başlanmasını labüd etdi.

Aprelin 7-nə keçən gecəni redaksiya binasında keçirən ADP rəhbərliyi silahlı üsyan planını hazırladı. Həmin gecə keçmiş "İctimaiyyun-Amiyyün, Mücahid" partiyasına mənsub və sonradan

“Ədalət” partiyasının Təbriz təşkilatına uzv olmuş köhnə mücahidlərin bir dəstəsi və başqaları demokratlara qoşuldular.

Üsyanın başlanması ilə Cənubi Azərbaycandakı milli –azadlıq hərəkatı yeni mərhələyə daxil oldu. Hərəkat silahlı üsyan xarakteri aldı.

Üsyanın elə ilk günü Təbriz bazarı bağlandı, butun tacirlər sənətkarlar, məktəb muəllimləri və əhalinin digər numayəndələri demokratların haqlı tələbləri ilə həmrəy olduqlarını bildirdilər. Ümumi sayı iki minə yaxın olan suvari və piyada kazak dəstələrindən başqa, Təbrizdəki bütün silahlı qüvvələrin hamısı üsyançılara qoşuldu. Küçə numayişi zamanı hərəkata qoşulmuş şagirdlər istibdadın qalığı olan dar ağaclarını yıxıb yandırdılar. Üsyana rəhbərlik etmək ucun İctimai İdarə Heyəti təşkil olundu. ADP-nin fəal üzvlərindən ibarət bu heyətə Xiyabani başçılıq edirdi. İİH-nin rəhbərliyi altında iki gun muddətində demək olar ki, üsyançılar bütün dövlət idarələrini ələ keçirdilər. Təbrizə daxil olmuş polis dəstəsi şəhəri tərk etməyə məcbur oldu. Silahlı üsyan qan tökülmədən qələbə çaldı. Üsyanın qələbə çaldığı gün - aprelin 7-də Xiyabaninin Təbriz əhalisi qarşısında söylədikləri hərəkatın mahiyyətini aydınlığı ilə göstərirdi: “Bu gun bütün dünya camaatına rəsmən bildiririk ki, biz Vüsuqquddövlə və ingilis talançı sazişini bağlamış hökümət əleyhinə üsyan etmişik. Xiyabani həmin çıxışında eyni zamanda qeyd etmişdir ki, Azərbaycan adını Azadistana dəyişərək bu gündən bu adı rəsmi ad kimi elan edirik. Bəzi tarixçilər bunu Şimaldakı Azərbaycan Cümhuriyyətinin həmin adı daşıması və onun Cənubi Azıərbaycanla birləşmək niyyətinin olması ilə bağlayır, Xiyabani də bunu istəmirdi.

Bu zaman regionda yaranmış murəkkəb siyasi durum Azərbaycanın bu iki ayrı-ayrı hissələrində ilk baxışda qəribə nəzərə çarpan təzadlı vəziyyət yaratmışdı. Azərbaycanın bir hissəsi boşeviklərin saxta təbliğatına uyaraq ilk dövrdə onlara inanmaqla yanaşı, İngiltərənin Qacarlarda mövqeyini həqiqətən də olduğu kimi işğalçı bir siyasət, bu siyasətin kölgəsində daldalanmaq və bununla hakimiyyətdə qalmaq istəyən Vusuquddövlələri xain

hesab edirdi və bunlara qarşı üsyana qalxmışdı. Azərbaycanın digər hissəsində isə Azərbaycan Xalq Cümhuriyəti rəhbərliyi əksinə, şimaldan Denikin təhlükəsi, daha sonra XI Ordunun yaxınlaşması Cənubi Qafqazın özündə Azərbaycan türklərinin kütləvi qırğını ilə müşayiət olunan daşnak təcavüzü ilə qarşılaşmışdı. Bu vəziyyət son dərəcə çevik hərəkət etməyi tələb edirdi. Şimal və Cənub faktiki olaraq biri-digərinə tam zidd olan iki müxtəlif siyasi mövqedə durmuşdu. Xiyabani və onun tərəfdarlarının AXC-yə rəğbətlə yanaşmasını gözləmək çətindir. Odur ki, Təbriz üsyanı zamanı Şimaldan fərqli bir ad seçilməsi müəyyən mənada təbii sanılmalıdır.

İİH milli azadlıq və demokratik hüquqlar uğrunda mübarizə apardığını Təbrizdəki xarici dövlət konsulluqlarına rəsmən bildirdi. İİH öz fəaliyyətinə ilk növbədə Tehrandan göndərilmiş dövlət məmurlarını və hərbi qulluqçuları idarə işlərindən kənar edərək Təbrizdən qovmağa başladı. Onların yerinə ADP-nin tanınmış üzvləri təyin olundu. Həmin idarələrdə müəyyən islahat işləri aparıldı.Üsyan zamanı partiya orqanı "Təcəddüd" qəzetindən başqa, ADP-nin gənclər təşkilatının orqanı olan aylıq "Azadistan" jurnalının nəşrinə başlandı. Qacarlar höküməti üsyan xəbərini alan kimi kazak dəstələri vasitəsi ilə hərəkatı yatırmaq haqqında göstəriş verdi. Qacarlar hökümətinin başcısı Vüsuqüddövlə bu tələbi hər gün məxfi teleqramlar vasitəsilə təkrar edirdi. Lakin kazak dəstələri komandanlığı hələlik bitərəf mövqe tutduğundan şəhərin digər silahlı qüvvələri isə üsyançılar tərəfinə keçdiyindən bu tələblər yerinə yetirilmədi.

Hərəkat öz hüdudlarını genişləndirməkdə davam edirdi. Təbrizdə başlanmış üsyan tədricən Cənubi Azərbaycanın başqa mahal və şəhərlərini də əhatə edirdi. Bu üsyanların çoxuna bir qayda olaraq ADP-nin yerli təşkilatları başçılıq edirdi. Artıq iyunun əvvəllərinə doğru üsyan Cənubi Azərbaycan çərçivəsində geniş bir dairəni əhatə edirdi.

Təbriz üsyanı dövründə bütün Qacarlar ərazisini ingilislərə və daxili irticaya qarşı etiraz hərəkatı bürümüşdü. Uzaq və yaxınlığından asılı olmayaraq, İranın mühüm məntəqələrində

Təbriz üsyanına açıq hüsn-rəğbət və həmrəylik güclü idi, bəzi hərəkat mərkəzlərindən isə üsyançılara qardaşlıq köməyi təklif edilirdi.

1920-ci ilin mayında Rusiya Denikin qüvvələrini təqib etmək adı ilə Qacarların Ənzəli limanına hərbi qüvvə - sovet donanmasını göndərdi. Bu donanmaya Bakıdakı iranlı kəsbkar fəhlələrdən təşkil olunmuş İran Qırmızı Ordu dəstələri və İran kommunistlərinin böyük bir qrupu daxil idi. Mayın 18-də sovet qoşunları Ənzəli və Rəştə girdilər. Denikin qüvvələrinin qalıqları məhv edildi, ingilislər geri çəkilməyə başladılar. Bakıdan gələn dəstələr yerli inqilabi qüvvələrlə birləşərək Gilanda Sovet Respublikası elan etdilər. İyunun 5-də Mirzə Kiçik xanın başçılığı ilə Müvəqqəti Hökümət və hərbi inqilabi komitə yaradıldı. Burada respublika elan olunduqdan sonra Azərbaycan demokratları ilə əlaqələr yaratmağa səy edildi, ingilislərə və daxili irticaya qarşı mübarizədə birlik haqqında razılıq əldə edildi. Lakin kommunistlərin Gilanda həyata keçirdiyi ifrat solçu tədbirlər hərəkatda iştirak edən müxtəlif sosial-siyasi qüvvələrin parçalanmasına səbəb oldu. İyulun 19-da Müvəqqəti Hökümət dağıldı və Mirzə Kiçik xan öz dəstəsilə meşələrə çəkildi.

İyul ayında Tehran üzərinə yürüşə başlayan Gilan Sovet Respublikası qoşunları Xiyabaniyə əməkdaşlıq təklif etdi. Gilandakı hadisələri diqqətlə izləyən xiyabaniçilər xarici münasibətlərdə ehkam kimi qəbul etdikləri "İranı iranlılar azad etməlidir" prinsipinə uyğun olaraq xarici hərbi qüvvələrə əsaslanan həmin qoşunun yardımından imtina etdilər. Digər tərəfdən bu fakt da məlumdur ki, təqribən eyni vaxtda sovet Azərbaycanından VII Şirvan alayı Astara tərəfdən sərhədi keçərək Ərdəbilə daxil olmuşdu. Həmin hadisələr nəticəsində xiyabaniçilərdə bolşeviklərə əvvəlki inam və rəğbət artıq qalmamışdı. Bu aylar ərzində Bakıda hakimiyyətin əslində rusların əlində olması, Gilandakı sovetlərin dəstəklədiyi solçu kommunistlərin siyasətinin əsl mahiyyəti onun üçün aydınlaşdı. Getdikcə

Xiyabani bu hadisələrə tamamilə başqa prizmadan yanaşırdı. Bununla da Gilan və Cənubi Azərbaycanda eyni vaxtda davam edən hərəkat arasında əlaqələrin işguzar şəklə düşməsi və əsas məqsəd olan ingilislərin İrandan çıxarılması yolunda həmkarlıqda müəyyən razılıq əldə edilsə də, baş tutmadı.

Təbriz üsyançılarına daha bir neçə hərbi yardım təklifi edilmişdi. Məlumdur ki, İrəvan quberniyasında və AXC-nin qonşu kəndlərində əksinqilabi terrorçu daşnak qüvvələrinə qarşı mübarizə aparan Abasqulu bəy Şadlinski 1919-cu ilin yayında ətrafındakı silahlı kəndli dəstələri ilə birlikdə Şahtaxtı -Maku-Xoy–Mərənd istiqamətində hərəkət etməklə, Cənubi Azərbaycana çəkilməyə məcbur olmuş, 1920-ci ilin sentyabrın əvvələrinədək Mərənddə qalmışdı. O, üsyan ərəfəsində Təbrizdə olduğu az muddətdə Xiyabani ilə görüşmüşdü. Onun öz dəstəsinin köməyi haqqında təklifini Xiyabani rədd etmişdi. Xiyabani Mustafa Kamalın kömək təklifini də qəbul etməmişdi. 1920-ci ilin iyunun 23-də ADP İİH əsasında Milli Hökümət yaratmağı qərara aldı. ADP rəhbərliyi ilə yaranmış MH iyunun 24-də mərkəzi dövlət idarələrinin yerləşdiyi və vəliəhdin iqamətgahı olan binaya -Ala Qapıya köçrüldü.

Milli Hökümətin Ala Qapıya köçməsi Təbriz əhalisinin ümümi bayramına çevrildi. Həmin gün idarələr, məktəblər, bazarlar bağlandı.Milli Hökümət kənd təsərrüfatı, maarif, maliyyə, səhiyyə, ədliyyə və digər sahələrdə islahatlar həyata keçirməyə başladı.

Milli müdafiə qüvvələrinin təşkili üçün də layihə hazırlandı.Bu lahiyəyə əsasən şəhər əhalisindən və Təbrizə gəlmiş kəndlilərdən gələcəkdə ümumi sayı 12 minə çatdırılacaq qoşun hissəsi - milli qvardiya yaradılmasına başlanıldı. Bu qüvvələr MH-nin əsas silahlı dayağı idi.

Təbrizdə xalça fabriki, şəkər zavodu, toxuculuq və dəri fabrikləri tikilməsi, Kənd Təsərrüfatı bankı və Milli Bank açılması, pul islahatı, Şəhər Əncüməninə seçkilər keçrilməsi və s. planlaşdırılmışdı. İdarə və müəssisələrdə Azadistan adını göstərən

yeni lövhələr vurulmuş və bunların üzərində İran dövlətinin gerbi eynən saxlanılmaqla Azadistan adını əks etdirən öz blankları var idi.

Almaniya, İngiltərə və ABŞ Xiyabani hökümətinin fəaliyyətindən narahat olaraq onun məhvinə çalışırdı. Almaniyanın Təbriz konsulu mister Vustrov Xiyabaninin düşmənlərini ətrafına toplayıb, onlara konsulxanada sığınacaq vermiş və beləliklə Təbrizdə yaşayıb Xiyabani əleyhinə işləmək üçün imkan yaratmışdı. O, öz vəzifəsindən istifadə edərək konsulxanaya külli miqdarda hərbi ləvazimat, tüfəng, pulemyot, hətta top belə yığaraq gizlətmişdi. Üsyandan iki ay onra Xiyabaninin düşmənləri alman konsulxanasına toplaşıb, burada özləri üçün bir mərkəz təşkil etmiş və demokratlar əleyhinə fəaliyyətə başlamışdılar. Demokratlar bu hadisədən xəbərdar olan kimi, konsulxananı mühasirəyə alıb onunla əlaqədə olan şəxsləri nəzarət altında saxladılar. Nəzmiyyə (polis) məmurları konsulxanaya gedib-gələnləri məsuliyyətə cəlb edirdilər. Konsuldan da bu cür hərəkətlərə son qoyulması tələb olunmuşdu. Alman konsulu həmin şəxslərin alman konsulxanası himayəsinə sığındıqlarını bəhanə edərək, bu fitnəkarları təslim etməkdən boyun qaçırmışdı. Bundan əlavə konsul həyasızlıq edərək xəbər vermişdir ki,əgər konsulxana ətrafına qoyulmuş məmurlar götürülməzsə, onlara atəş açılacaqdır. Burada gizlənmiş adamlar konsulun himayəsindən istifadə edərək, Xiyabani hökümməti əleyhinə Bəyannamə və vərəqələr çap etmək, onları şəhərdə yaymaqla məşğul olurdular. Onlar bu fitnəkar vasitələrlə xarici dövlət nümayəndəsinin qanadı altında azadlıq və Azərbaycanın istiqlaliyyəti əleyhinə işləyir, xalqın şüurunu zəhərləmək istəyidilər. Lakin konsul Vustrov əməllərinin cəzasının qurbanı oldu, konsulxanada naməlum şəxs tərəfindən öldürüldü.

İngilislər özləri üçün təhlükəli hesab etdikləri Cənubi Azərbaycandakı hərəkata qarşı planlar hazırlayırdılar. Mayor Edmond tərəfindən Xiyabaniyə qarşı çıxan şəxslərə funt-sterlinq, mənsəb, fəxri adlar paylanır və yağlı vədlər verilirdi. Öz xüsusi "elmi xidmətlərinə" görə sonralar "Üzvi-Əncüməni-Asiyan

Hümayini-London" və "Üzvi-Əncüməni-Asiyan Humayini London" vəziri Əncüməni Asiyayi-Amerika" ləqəbi ilə təltif edilmiş Seyid Əhməd Kəsrəvi kimi xalq və Vətən xainlərini mayor Edmond öz tərəfinə çəkdi ki, o, Kəsrəviyə, Xiabaniyə qarşı üsyan qaldırmağı təklif edirdi. S.Ə.Kəsrəvinin dediyinə görə guya o, Edmondla razılaşmır. Əhməd şah Qacar hökümətinin ingilislərin əli ilə Xiyabani əleyhinə sui-qəsd hazırlanması haqqında düzgün məlumatı Kəsrəvi "Zindəgani-Mən" əsərində verir. O, bildirir ki, "Təbriz qəzetinin müdiri və baş vəzir Vüsuddövlənin Təbrizdəki xüsusi nümayəndəsi Kərbəlayi Hüseyn Ağa Fişəngçi ilə görüşümdə o mənə dedi ki, Tehrandan, Baş vəzirdən mənə telegram gəlmişdir. O, mənə bildirmişdir ki, əgər siz Xiyabaniyə qarşı çıxış etsəniz və bu işi təşkil etsəniz, hər nə qədər pul istəsəniz dövlət sizə verəcəkdir. O vaxt şəhərin xaricindən də sizə yardım üçün süvari qüvvə (kazak briqadası) göndəriləcəkdir. Fişəngçi S.Ə.Kəsrəvinin Edmondun Xiyabaniyə qarşı müsbət yanaşmamasından da narazı qalır.Təbriz üsyanı dövründə İngiltərənin Tehrandakı nümayəndəsi Persi Koksla Xarici işlər naziri Lord Kerzon arasında yazışmalardan məlum olur ki, Cənubi Azərbaycandakı hərəkatın müvəffəqiyyətləri İranda Vüsuqüddövlə kabinetinin süqutuna, İngiltərə-İran müqaviləsinin kağız parçasına çevrilməsinə, sonra İranda Britaniyanın nüfuzunun zəifləməsinə gətirib çıxaracaqdı. Persi Koksun Lord Kerzonun 1920-ci il 14 may tarixli məktubunda bu narazılıq öz ifadəsini tapmışdır. Vali Eynüddövlə vasitəsilə MH rəhbərliyi ilə aparılan danışıqlar, general Edmondun köməkliyi ilə üsyana qarşi tədbirlər, o cümlədən demokratların sağ qrupunun Təbrizdə qiyamı, bölgələrdə isə feodal qaragüruhçu dəstələrin üsyan tərəfdarları üzərinə hücumları baş tutmadıqda, onlar yeni planlar cızmağa başladılar. Sentyabrın 11-də gecə ikən əksinqilabi qüvvələr sübh çağı üsyançıların mərkəzini qəflətən bombalayaraq hücuma keçdilər.

ADP-nin silahlı üzvlərinin ciddi müqavimətinə baxmayaraq əks-inqilabi qüvvələr sentyabrın 12-də Ala Qapını ələ keçirdilər, sentyabrın 14-də isə "Təcəddüd" qəzeti binasını dağıtdılar.

Əksinqilabi qüvvələrin sayca üsyançılardan çox olmasına baxmayaraq, üsyançılar sentyabrın 14-dək son damla qanlarınadək qəhrəmancasına vuruşdular. İrticaçılar üsyançılara amansız divan tutdular. Onların evləri yandırıldı, yüzlərlə üsyançı həbs, edam və sürgün edildi. Sentyabrın 14-də başqa demokratlar kimi, Xiyabani də qəhrəmancasına həlak oldu. İran irticasının başçısı Müşirüddövlə isə Cənubi Azərbaycanda və İranın müxtəlif yerlərində xalq hərəkatının yatırılmasındakı xidmətlərinə görə şah tərəfindən birinci dərəcəli Taci Kəyan nişanı ilə təltif edildi. Beləliklə, Təbriz üsyanı və bunun ardınca bir neçə yer istisna olmaqla, bütün Cənubi Azərbaycandakı hərəkat ingilislərin bilavasitə köməyi ilə İran irticası tərəfindən yatırıldı.

Bir sıra məhdudiyyətlərinə, nöqsanlarına və məğlub edilməsinə baxmayaraq, Ş.M.Xiyabaninin başçılığı ilə həyata keçrilmiş 1920-ci il Təbriz üsyanı və bütün hərəkat Cənubi Azərbaycanda, ümumiyyətlə, İranda yaşayan xalqların tarixində parlaq bir dövrü təşkil edir. Üsyan məğlub olsa da, bu hərəkat Cənubi Azərbaycan türklərinin İranda əcnəbi ağalığına, irtica özbaşınalığına qarşı mübarizəsində mühüm bir səhifədir. Təbriz üsyanının nəticələrindən biri bu oldu ki, Cənubi Azərbaycandakı milli-azadlıq hərəkatı 1920-ci ilin iyunun 25-də Vüsuqüddövləni istefaya çıxmağa məcbur etdi. İranda Müşirüddövlənin başçılığı ilə yeni dövlət kabineti təşkil edildi. İngilislərə qarşı mübarizənin ən kəskin vaxtında hakimiyyət başına gələn Müşirüddövlə xalqın nifrət və qəzəbindən qorxaraq, 1919- cu il İngiltərə -İran sazişinin həyata keçirilməsinin məclis tərəfindən təsdiq olunanadək təxirə salındığını elan etdi və bu qərar 1921-ci ildə sazişin ləğvilə nəticələndi.

Təbriz üsyanının İran türklərinin-azərbaycanlıların öz milli varlığı uğrunda mübarizə tarixində də yeri son dərəcə böyükdür.Təbrizdəki bu tarix üsyana və bütün hərəkata rəhbərlik etmiş Ş.M.Xiyabaninin şəxsiyyəti isə Cənubi

Azərbaycanda milli şüurun, millətin inkişafı prosesində xüsusi bir səhifə, xüsusi bir mərhələ təşkil edir.

Cənubi Azərbaycan Qacarlar dövlətinin süqutu dövründə (1921-1925). XX əsrin 20-ci illərinin birinci yarısında ictimai-siyasi vəziyyət mütərəqqi, liberal-demokratların deyil, əks-təmayüllərin və qüvvələrin xeyrinə dəyişməyə başlayır. İlk vaxtlar Böyük Britaniya İranda ən sağ, mürtəce feodal ünsürlərə yardım siyasətini davam etdirməyə çalışırdı, çünki məhz feodallar demokratik hərəkata qarşı mübarizədə İngiltərədən kömək almaq üçün ona böyük güzəştlərə getməyə hazır idi. Bu mənada İranın hakim feodal dairələrinə qəbul etdirilən 1919-cu il İngiltərə-İran sazişi xüsusi rol oynamalı idi. Lakin İngiltərə çox tez əmin oldu ki, həmin sazişi İranın əslində bütün siyasi qüvvələri rədd edir, ona qarşı qətiyyətlə mübarizə aparır. Məhz buna görə də İngiltərə az da olsa İrandakı nüfuzunu qoruyub saxlamaq və buradakı köhnə rəqibi olan Rusiyanın nüfuzunun güclənməsinə yol verməmək üçün buradakı siyasətini yeniləşdirməyə, mülkədar-burjua millətçilərinə tərəfdarlıq etməyə başladı. Bu da 1921-ci ilin fevralında ingilislərin Tehranda dövlət çevrilişi təşkil etməsində öz ifadəsini tapırdı.

1921-1925-ci illərdə İngiltərənin İrandakı siyasəti burada hakimiyyət uğrunda mübarizə aparan müxtəlif qüvvələrin ən sağ ünsürlərinə tərəfdarlıq etmək olmuş, məhz onların hakimiyyətini möhkəmləndirməyə yönəlmişdi. Əlbəttə, İngiltərə İrana təzyiq etmək, özü üçün ən əlverişli şərtlərə nail olmaq üçün ayrı-ayrı feodal nümayəndələrindən, qəbilə başçılarının separatist çıxışlarından istifadə etməkdən də çəkinmirdi. Hər halda, İngiltərənin İranda siyasəti geniş xalq kütlələrinin, demokratik qüvvələrin, partiya və təşkilatların inkişafına, demokratik ideyaların yayılmasına deyil, yalnız iri mülkədar-burjua təbəqələrinin mücərrəd dövlətçilik ideyaları və təsisatlarının bərqərar edilməsinə yönəlmişdi. Ümumiyyətlə, Qərb dövlətləri hər zaman dünyaya demokratiya "dərsi verərək", əslində başqa xalqların demokratiya uğrunda mübarizəsinə mane olmuş, mürtəce qüvvələri dəstəkləmişlər.Cənubi Azərbaycanda demokratik ideyaların və

hərəkatın güclənməsi qarşısında ciddi maneə olan digər xarici amil - sovet Rusiyasının siyasəti idi. Cümhuriyyət hökümətini silah gücünə devirdikdən və Şimali Azərbaycanı işğal etdikdən sonra sovet Rusiyası boş bir bəhanə altında İranın şimal sahillərinə qoşun çıxarıb buradakı inqilabçıları öz təsiri altına alaraq hətta Gilan Sovet Respublikasının elan edilməsinə nail oldu və onun vasitəsilə Tehrana yürüş təşkil etməyə başladı. Sovet hökümətinin bu planları boşa çıxdıqdan sonra, o həm Qərbdə, həm də Şərqdə yalançı dinc yanaşı yaşamaq prinsipini irəli sürərək bərabərhüquqlu müqavilələr bağlamaq siyasətini üstün tutdu və bu da 1921-ci ilin fevralında sovet Rusiyası və Qacarlar hökümməti arasında müqavilə imzalanması ilə nəticələndi. Müqaviləyə görə Türkmənçay müqaviləsinin şərtləri ləğv olundu, sovet Rusiyası İrandakı imtiyazlarından imtina etdi. Rusiyaya qarşı İran ərazisindən hər hansı bir təhlükə olsaydı, sovet qoşunları ora daxil ola bilərdi. Bu zaman Moskva Cənubi Azərbaycanda fəal qəsbkarlıq siyasəti aparmırdı, çünki o Şimali Azərbaycanda yaradılmış sovet rejimi vasitəsilə gələcəkdə burada da hər hansı bir şəkildə öz ağalığını qura biləcəyinə ümid edirdi. Başlıcası isə o idi ki, Cənubi Azərbaycanda demokratik ideyalar daha dərin kök salmışdı, bu isə Rusiyada 1917-1918-ci illərdə demokratik quvvələrə düşmən olan və ona divan tutmuş sovet hakimiyyətinin siyasətinə zidd idi. Doğrudur,Cənubi Azərbaycanda demokratik meyillərin inkişafına müsbət təsir göstərə biləcək daha bir xarici amil də var idi. Hər iki xalqın etnik, dil, mədəni ümumiliyi Türkiyə xalqının milli istiqlaliyyət, demokratik quruluş uğrunda mübarizəsi təcrübəsinə yiyələnməyə, yardımına arxalanmağa imkan verirdi. Lakin bu illərdəki konkret şərait belə bir imkanın həyata keçirilməsi yolunu bağlayırdı. Bu, əsrlər boyu davam edən sünni-şiə düşmənçiliyinin hələ də güclü qalıqlarının kütləvi şüurda, psixologiyada hökm sürməsinin nəticəsi idi. Başlıcası isə budur ki, Cənubi Azərbaycanda cəmiyyət hələ öz ideya inkişafı cəhətdən xeyli geri qalmışdı, burada milli demokratik ünsürlər hələ zəif idi. Ziyalılar və ümumiyyətlə,

şəhər təbəqələri hələ də Ümumiran millətçiliyi və dini ideyalar əsarətindən çıxmamış, demokratik yollarda öz spesifik milli mənafeyini irəli çəkmək zərurətini dərk etməmişdi.Feodal və mülkədar burjua cəbhələri arasındakı mübarizə bütün İranı əhatə etmişdi. Həm də əgər bu mübarizə iri şəhərlərdə əsasən siyasi xarakter daşıyırdısa, ucqarlarda, xüsusən dağlıq rayonlarda daha çox hərbi qarşıdurma formasına keçirdi. Mülkədar-burjua cəbhəsinin əsas sosial dayağı təkcə şəhər təbəqələri deyil, eyni zamanda siyasi sabitsizlik, hərc-mərclik nəticəsində, birinci növbədə əzilən oturaq əhali, kəndli kütlələri idi. Feodal cəbhəsinin əsas dayağı isə təkcə Tehran və digər iri şəhərlərin bürokratik zadəganları, saray dairələri deyil, ənənəvi olaraq öz başçılarına, xanlarına riayət edən müəyyən sərbəstliyə malik olan, dövlət aparatına nisbətən az tabe olan və istismar edilən köçərilər kütləsi idi.

Tehranda siyasi mübarizə ilk vaxtlar feodal cəbhəsinin üstünlüyü ilə keçirdi. Bu, birinci növbədə mərkəzi hökümətə kimlərin başçılıq edəcəyində özünü göstərirdi. Hökümətin təşkili rəsmən parlamentin səlahiyyətinə daxil idi və şah tərəfindən yalnız təsdiq edilirdi. Müharibə başladıqdan sonra parlamentə seçkilər keçrilməmişdi. Seçkilər yalnız 1919-1920-ci illərdə keçrildi və 1921-ci ilin iyununda növbəti sessiya işə başladı. Lakin bu zaman yaranmış partiyaların heç biri nə ölkənin real vəziyyətinin yaxşılaşdırılmasına, nə də xalqın mənafeyinə cavab verən inkişafına deyil, yalnız ayrı-ayrı qrupların hakimiyyət uğrunda mübarizəsinə xidmət edirdi və bunların fəaliyyəti əsasən Tehranın çərçivəsilə məhdudlaşırdı. Bunların içərisində "İran demokrat partiyası", "İran sosial-demokrat partiyası", "Müstəqil sosialist partiyası","Birləşmiş sosialist partiyası"nı və başqalarını göstərmək olar.

1923-cü ildə Rza xanın göstərişilə "Təcəddüd" partiyasının yaranması elan edildi. Onun əsas məqsədi feodal qüvvələrə qarşı deyil, əsasən mülkədar - burjua cəbhəsini təşkil edən həmin partiyalara qarşı manea yaratmaq və gələcəkdə yeganə

hökümət partiyasına çevirmək idi. 1921-ci ildə dövlətdə Hərbi nazir, 1923-cü ildə Baş nazir postunu ələ keçirən Rza xan hakimiyyət piramidasında yüksəlməyə başlayırdı. Bütün partiyaların real siyasi həyata təsiri çox cüzi idi. Onların heç birinin arxasında kütləvi qüvvə olmadığı üçün fəaliyyətləri də əsasən parlamentdə fraksiyaları təşkil etməkdən, höküməti tərkibinə öz nümayəndələrini keçirməkdən ibarət idi. Belə partiyalar heç bir nüfuza malik olmadığı üçün onların parlament fraksiyaları da prinsipsiz, şəxsi sövdələşmələr yolu ilə gedən müvəqqəti birləşmələrdən başqa bir şey deyildi.

Hələ 1920-1922-ci illərdə Cənubi Azərbaycanda da demokratik hərəkatın silah gücünə yatırılması gedişində buraya göndərilmiş hökümət qoşunları, əsasən Hərbi nazir Rza xanın komandanlığı altında olan kazak diviziyasının hissələri Təbrizi və digər şəhərləri tutdular və bu yerlərdə real hakimiyyəti ələ keçirdilər. Cənubi Azərbaycan İranda hakimiyyət uğrunda mübarizədə mülkədar-burjua cəbhəsinin əsas istinadgahına çevrilir və Tehranda mərkəzi hakimiyyət orqanlarının səlahiyyətindən çıxırdı. Cənubi Azərbaycanda bütün yüksək vəzifəli şəxslər daha Tehran hökuməti tərəfindən deyil, Rza xan tərəfindən təyin olunur və ya kənar edilirdi. Artıq 1922- ci ilin əvvəllərində onun əmrilə Azərbaycan hökuməti tərəfindən yenicə təyin olunmuş yarımliberal məsləkli şəxs Azərbaycanın hakimi vəzifəsindən kənar edildi və onun yerinə Rza xanın köməkçilərindən biri Abdullaxan Təhmasib təyin edildi.Cənubi Azərbaycanın mülkədar-burjua dairələri ilk vaxtlar Rza xanın dövlət qanun-qaydalarını bərqərar etmək səylərinə yardım göstərirdi, çünki bu onların mənafeyinə uyğun idi. Lakin Rza xan getdikcə daha artiq dərəcədə diktatura qurmağa meyil göstərdikcə, ordu isə ölkədə daxili siyasətin başlıca vasitəsinə çevrildikcə, həmin dairələrin içərisində naraziliq artmağa başlayırdı. Konstitusiyaya müvafiq olaraq Azərbaycan əyalət əncüməni məhdud olsa da, müəyyən muxtariyyətə sahib olmalı idi. Rza xan hərbçiləri nəinki bunu bərqərar etməyə çalışır,

əksinə bu sistemi tamamilə ləğv etməyə doğru gedirdi. Beləliklə, Azərbaycanın burjua dairələrini öz mənafelərini müdafiə etmək, mərkəzi dövlət orqanlarında təmsil olunmaq imkanlarından məhrum edirdi. Bu narazılıq 1922-ci il oktyabrın əvvəllərində Azərbaycan ticarət burjuaziyasının ən varlı və nüfuzlu tacirlərindən biri olan Məhəmməd Mötəməddüdtüccarın Tehranda parlamentdəki çıxışında öz ifadəsini tapdı. O, Rza xanı Konstitusiyanı pozmaqda, mülki işlərə qarışmaqda, siyasi rəqiblərinə qarşı mübarizədə terrorçu üsullara əl atmaqda ittiham edib, hərbi valilər və hərbi vəziyyət sisteminə son qoyulmasını tələb etdi. Eyni zamanda belə ittihamlarla, lakin tamamilə başqa mövqelərdən daha bir neçə deputat, xüsusən sağ dairələrin nümayəndəsi ruhani xadim Müdərris də çıxış etdi. Rza xan parlamentdə tərəfdarlarının azlığını, yeni hərbi çevriliş üçün isə hələ tam şərait olmadığını nəzərə alaraq geri çəkilməyi lazım bildi və o, parlamentdə tövbə xarakterli qısa nitqlə çıxış edib Konstitusiyaya riayət edəcəyini, maliyyə məsələlərində özbaşınalığa yol verməyəcəyini bildirdi. Bundan sonra Rza xan daha ehtiyatla hərəkət etməyə, hakimiyyətin qanuni yolla ələ keçirilməsini təmin etmək üçün siyasi-ideoloji baza yaratmağa başladı.1924-cü ildə Qacarlar əleyhinə kampaniya daha da gücləndi. 1924-cü ilin ikinci yarısı -1925-ci ilin aprel-avqust aylarında Rza xan öz ikinci kabinetindən liberal xadimləri çıxarıb feodal cəbhəsi nümayəndələrilə əvəz edərək, taxta çıxmaq üçün son hazırlığa başladı.1925-ci ilin iyulunda Rza xan Cənubi Azərbaycana səfər edib Təbriz, Ərdəbil və digər şəhərlərdə oldu. Səfərə çıxmamışdan əvvəl Rza xan xüsusi bəyanatında bildirdi ki,1924-cü ilin yazında və yayında Azərbaycanın fövqəladə xidmətlərini nəzərə alaraq bu səfəri edir. Əslində isə bu səfərdə məqsəd, Azərbaycandakı bütün qüvvələri səfərbər edib Qacarları devirməyə hazırlıq idi. 1925-ci il oktyabrın 29-da Təbriz əhalisi adından nəşr olunmuş bəyanatda bildirilirdi ki, Təbriz Tehranla əlaqəsini kəsir. Hətta paytaxta yürüş üçün könüllü dəstələr təşkil olunmasına

başlanması elan olundu. Yenə də çoxlu cəmiyyətlər, o cümlədən "İran millətçiləri cəmiyyəti", "Azərbaycan milli hərəkatının birləşmiş komissiyası" və başqalarının yaradılması elan olunur, bunların adından vərəqələr yayılırdı. Təbrizin bir qrup taciri Rza xana teleqram göndərərək şikayətlənmişdi ki, guya hökümət dairələri onların Qacarları devirmək haqqındakı teleqramlarının dərc olunmasına maneçilik törədir. Şikayət məktubunun üzərində Rza xan belə bir dərkənar qoymuşdu: "Hərbi hakimiyyət dairələrinə... Azərbaycan tacirləri nümayəndələrinin tələbinə uyğun olaraq onlardan alınan teleqramların dərc edilməsinə icazə verilir".

1925-ci il oktyabrın axırlarında məclis bir neçə gün ölkədəki vəziyyət haqqında məsələni müzakirə edərkən Rza xan tərəfdarlarının təklifi ilə gündəliyə yeganə qanun layihəsi qoyuldu. Bu layihədə deyilirdi: "Vahid maddə. Xalqın səadəti naminə məclis Qacarlar sülaləsinin devrildiyini elan edir və Konstitusiya mövcud qanunlar çərçivəsində ölkənin idarə olunmasını cənab Rza xan Pəhləviyə tapşırır. Məclis habelə Müəssislər məclisinin seçilməsi haqqında qərar qəbul etdi. Noyabrın sonlarında Müəssislər məclisinə təcili seçkilər başlandı və 10 gündən sonra başa çatdı. Qacarların devrilməsi münasibətilə hökumətin göstərişilə iri şəhərlərdə xalq nümayişləri keçirilir, küçələr xalçalarla bəzədilir, tacirlər, mülkədarlar, əyanlar, kasıblar üçün qonaqlıq, hökumət nümayəndələri və məmurlara ziyafətlər verilirdi, qəzetlərdə çoxlu təbrik teleqramları dərc olunur və yalnız Rza xanın şah ola biləcəyi fikri beyinlərə aşılanırdı. Dekabrın 12-də Müəssislər məclisi Rza xanın Pəhləvi soyadı ilə şah (1925-1941) olaraq seçilməsini elan etdi. Beləliklə,1921-1925-ci illərdə feodal cəbhəsi ilə mülkədar-burjua cəbhəsi arasında hakimiyyət uğrunda mübarizə birincinin sol, ikincinin isə sağ cinahları arasında sövdələşmə ilə nəticələndi.

Pəhləvilər sülaləsinin hakimiyyəti və paniranizm siyasəti. 20-ci ilərin ikinci yarısı - 30-cu illərdə Cənubi Azərbaycanda müəyyən sosial-iqtisadi, siyasi və mədəni dəyişikliklər baş

verirdi. Bunlar kapitalist münasibətləri, burjua qaydaları yaratmaq idi. Lakin Pəhləvi rejimi bu sahədə dərin dəyişikliklərin həyata keçirilməsini arzulamır və yalnız öz hakimiyyətinin əsaslarını möhkəmlətmək məqsədi güdən səthi islahatlarla kifayətlənirdi.Bu meyil aydın şəkildə aqrar sahədə özunu göstərdi. Cənubi Azərbaycanın iqtisadi özülünu təşkil edən kənd təsərrüfatı Birinci Dünya müharibəsi dövründə və sonrakı illərdə ictimai, siyasi hadisələrin törətdiyi dağıntıdan qısa müddətdə çıxa bildi və 20-ci illərin ortalarında müharibədən əvvəlki səviyyəyə çatdı, hətta bəzi sahələrdə bunu da ötüb keçdi. Kənd təsərüfatının inkişafını nəzərdə tutan Rza şah rejimi bəzi tədbirlər görmək məcburiyyətində qaldı. Bu tədbirlərdən biri torpaq üzərində xüsusi mülkiyyətin, torpağın alınıb -satılmasını rəsmiləşdirmək haqqında 1925-1937-ci illərdə qəbul olunmuş qanunlar oldu. Ən böyük ümid doğuran tədbirlərdən biri də dövlətin, habelə iri feodalların bir hissəsinin müsadirə edilmiş torpaqlarının, dini əmlakının bir hissəsinin kəndlilərə satılması qərarı oldu. Xalisə (dövlət) torpaqlarının satılması aqrar məsələni həll edə bilməzdi, çünki bu zaman həmin torpaqlar becərilməyə yararlı olan torpaqların çox az hissəsini təşkil edirdi. İkincisi isə budur ki, yarımdilənçi kəndlilərin heç bir vəsaiti yox idi ki, torpaq alsın. Doğrudur, dövlətin yaratdığı xüsusi Kənd Təsərrüfatı Bankı və başqaları kredit şəklində pul verirdi, lakin bunun müqabilində tərpənməyən əmlakdan girov tələb olunurdu, kəndlinin isə belə əmlakı yox idi. Buna görə həmin torpaqların xeyli hissəsini tacirlər, məmurlar alır və sonra da köhnə qaydalara uyğun olaraq həmin kəndlilərə icarəyə verirdilər. Bu məsələdə heç bir real nəticə əldə edə bilməyən Rza şah hökuməti kəndlilərin və ümumiyyətlə torpaq sahiblərinin kooperasiyasına kömək etmək qərarına gəldi və bir neçə il ərzində İranda yüzlərlə kooperativ şirkətləri təsis olundu. Lakin bu tədbir də gözlənilən nəticəni vermədi. Bunun səbəblərindən biri də bu idi ki, bu kooperativlərin böyük əksəriyyəti ticarətlə məşğul olur,

kəndlilərdən, xırda torpaq mülkiyyətçilərindən, mülkədarlardan məhsul alır və satırdı.

Cənubi Azərbaycanda kənd təsərrüfatının inkisafına mane olan amillərdən biri də SSRİ-nin İrana qarşı yeritdiyi ticarət siyasəti idi. Əgər sovet hakimiyyətinin ilk illərində Rusiya və Azərbaycanda ərzaq çatışmazlığı ilə əlaqədar olaraq bu siyasət nisbətən liberal, İran istehsalçıları və tacirləri üçün əlverişli idisə, 1927-1928-ci ildən başlayaraq bu sərt himayəçilik tədbirləri ilə əvəz olundu. Cənubi Azərbaycanın kənd təsərrüfatı və qismən sənət məmulatı bir neçə il müvəffəqiyyətlə fəaliyyət göstərmiş Bakı və Nijni-Novqorod yarmarkalarının bağlanması nəticəsində mühüm bazarları itirdi, daxili bazar isə bu itkini ödəmirdi.

Cənubi Azərbaycan şəhərlərinin, iqtisadiyyatının mühüm sahəsi olan sənətkarlıq emalatxanalarının, xırda və orta sənaye müəssisələrinin, ticarət, maliyyə təsisatlarının, pul tədavülünun inkişafı qarşısında keçmişdə olduğu qədər güclü feodal və yarımfeodal qalıqları kimi maneələr yox idi və varlı təbəqələrin mənafeyi daha əsaslı islahatlar keçirilməsini tələb edirdi. Lakin tacirlərin, sahibkarların xeyli hissəsi eyni zamanda torpaq mülkiyyətçisi olduğundan onların islahatçılığı da yarımçıq xarakter daşıyırdı. 1925-ci ildən başlayaraq dövlət ticarətin, sənayenin inkisafı üçün yol açan bəzi tədbirlər görməyə başladı. Cənubi Azərbaycanda xüsusi kapitalın səyləri nəticəsində onlarca xırda, orta və iri sənaye müəssisəsi tikildi. Sənaye müəssisəsinin tikilib istifadəyə verilməsi çoxlu vəsait tələb edirdi. Azərbaycan sahibkarları içərisində belə kapital qoyuluşuna gücü çatan çox az adam var idi. Bu səbəbdən dövlətin himayəçilik etdiyi tacir və sahibkarların şirkətlər yaratmaq siyasəti də lazimi nəticə vermirdi. Ikinci mühüm maneə daxili bazarın məhdudluğu və sənaye məhsullarının xarici bazara çıxarılmasının çətinliyi idi. Daxili bazarın məhdudluğu əsasən əhalinin geniş kütlələrinin alıcılıq qabiliyyətinin çox aşağı səviyyəsindən irəli gəlirdi. Şimali Azərbaycanın yüngül sənaye mallarına yüksək gömrük

haqqı qoyulmuşdu və bu da həmin malların Cənubi Azərbaycana ixracı imkanlarını heçə endirirdi. Nəhayət, Cənubi Azərbaycanın sənayeləşməsinə mane olan daha bir səbəbi də daxili siyasətdə şovinizm prinsiplərini rəhbər tutan Rza şah hökumətinin Azərbaycana münasibətdə qərəzliliyi ilə bağlı idi. Məsələn, 1931-1941 ci illərdə bilavasitə dövlət kapitalı qoyuluşu hesabına İranda 103 müəssisə tikilmişdisə, bunun yalnız biri Cənubi Azərbaycanın payına düşürdü. Beləliklə, Azərbaycanda yaranmaqda olan milli sənaye buradakı iqtisadi potensialdan xeyli geri qalırdı.Təbriz yenə də sənətkarlığın bütün sahələrinin cəmləşdiyi əsas mərkəz idi. XX əsrin 20-ci illərinin sonunda təkcə Təbrizdə 5 minədək xalçaçılıq emalatxanası var idi və bunlarda 12-14 minədək sənətkar, bütövlükdə Azərbaycanda 50 minədək sənətkar çalışırdı.

Rza şah bütün diktatorlar kimi, heç bir müxalif qüvvələrlə hesablaşmayan və siyasətdə əsas vasitəni zorakılıqda görən dövlət başçısı idi. Özünü yeganə düzgün siyasətin təcəssümü, Allah tərəfindən İrana bəxş edilmiş dövlət başçısı, "Millətin atası" hesab edən Rza şah qətiyyətli və eyni zamanda qəddar bir adam idi. Rza şah təkcə sağdan və soldan olan siyasi düşmənlərinə deyi, hətta onu iş başına gətirmiş silahdaşlarına da amansızcasına divan tuturdu. Lakin İranda diktatura xarakterini alan dövlət sistemi yalnız Rza şahın şəxsi keyfiyyətləri ilə müəyyən olunmurdu. Bunun əsasını, eyni zamanda mürtəce mülkədarlar və burjuaziyanın, başlıca olaraq onun ticarət-sələmçi təbəqəsinin diktatura xarakterli dövlət sisteminə can atmaları təşkil edirdi. Onların fikrincə, yalnız belə quruluş xalq kütlələrini itaətdə saxlaya bilər, burjuaziyanın öz sıralarında, ziyalılar və ümumiyyətlə, şəhər təbəqələri içərisində liberal, demokratik meyllərin güclənməsinin qarşısını ala bilərdi. Diktatura sistemi hələ Rza şahın hakimiyyət uğrunda mübarizəsi dövründə, 1921-1925-ci illərdə təşəkkül tapmağa başlamışdı. 1925-ci ildən sonra isə ikihakimiyyətliliyə (valilər və general-qubernatorlar sistemi) son qoyuldu və bütün hakimiyyət

Rza şahın, onun təyin etdiyi nazirlərin, dövlət aparatının əlində cəmləşdi, parlamentin özü məşvərətçi orqana çevrildi. Əslində fars mənşəli Rza xanın hakmiyyətə gətirilməsi İngiltərənin layihəsi idi.Məqsəd türkmənşəli üç dövlət: Türkiyə, Qacarlar və Azərbaycan arasında yaxınlaşmanı pozmaq idi.Pəhləvi monarxiyasının avtoritar diktaturası 1926-1927-ci illərdə bütün siyasi partiyaları bağladı və 1941-ci ildə Rza şah diktaturası dağılanadək İranın siyasi həyatında partiyasızlıq dövrü başlandı. Bu da öz növbəsində bütün ictimai həyatda və ilk növbədə dövlət quruculuğu sahəsində öz əksini tapdı.

Bu mənada yalnız İran Komunist Partiyasının aqibəti bir qədər başqa oldu. 1922-ci ildə komunistlər Gilanda inqilabi hərəkatda öz məğlubiyyət səbəblərini təhlil etmək və gələcək fəaliyyət proqramını müəyyən etmək üçün Bakıda II qurultaya toplandılar. Qurultayda N.Nərimanovun sovet Azərbaycanını Şərqdə inqilabi hərəkatın avan-postuna çevirmək, inqilabi mübarizədə yerli, o cümlədən İran şəraitini nəzərə almaq lüzumu haqqında ideyaları üstünlük qazandı. Lakin nəticə etibarilə bolşeviklər partiyası və onun hökmranlıq etdiyi Komintern qurultayın qərarlarını rədd etdi və nəticə etibarilə İKP-də mövcud olan fikir ayrılıqları aradan qaldırılmadı. Buna baxmayaraq, İran kommunistləri öz fəaliyyətinin ağırlıq mərkəzini Cənubi Azərbaycana keçirmək təşəbbüsü etdilər və ilk vaxtlar bəzi müvəfəqiyyətlərə nail oldular. 1922-1923-cü illərdə onlar bir neçə həmkarlar ittifaqının fəaliyyətində iştirak edərək, fəhlələrin tətil hərəkatına başçılıq edə bilmiş, onların "Həqiqət" qəzetinin nəşrinə nail olmuşdular. Lakin bütövlükdə onlar ciddi müvəffəqiyyət qazana bilmədilər, partiyanın sıraları genişlənmədi, digər sosialist tipli partiyalarla əlaqə yaradılmadı. Buna görə 1922-1925-ci illərdə İrandakı gərgin siyasi mübarizə gedişində İKP mühüm rol oynaya bilmədi. 1925-ci ildən sonra Pəhləvi monarxiyası getdikcə daha açıq şəkildə diktaturaya çevrilməyə başladıqda, İKP yenə də Bakıda öz II qurultayına toplaşdı. Qurultay ən mühüm proqram müddəalarına İran şəraitini

nəzərə alan bir sıra düzəlişlər etdi, partiya sıralarının genişləndirilməsinə və İranda fəaliyyətinin gücləndirilməsinə dair qərarlar çıxardı. Lakin ölkədə ümumi siyasi vəziyyətin gərginləşməsi, həbslər və sürgünlər İKP-nin fəaliyyətini ciddi surətdə pozurdu.1930-cu ilin dekabrında kommunist və fəhlə həmkarlar hərəkatının bir qrup xadimi həbsə alındıqda, o zaman üçün tanınmış siyasi xadim və publisist Seyid Cəfər Pişəvəri də onların içərisində olmuşdu. 1931-ci ildə İranda kommunist təşkilatlarını və kommunist təbliğatını qadağan edən qanun çıxarıldıqdan sonra isə İKP-nin İranda fəaliyyəti üçün heç bir real imkan qalmadı. 1937-ci ildə hökümət yeni həbslər keçirib "53-lər məhkəməsi" adını almış və qəsdən şişirdilmiş açıq məhkəmə prosesi təşkil etdikdən sonra İKP tamamilə darmadağın edilmiş oldu. Eyni zamanda İKP-yə ikinci zərbə SSRİ tərəfindən vuruldu: 30-cu illərdə ÜİK(b)P və Kominterin sıralarında Stalin repressiyaları İKP-nin buradakı üzvlərinə, xadimlərinə də toxundu və həm İranın özündə, həm də xaricdə partiya tamamilə dağıldı. Pəhləvi monarxiyasının diktaturaya çevrilməsi təkcə siyasi partiyaların qadağan edilməsi və Konstitusiyada təsbit edilmiş azadlıqların qadağan edilməsi ilə müşayiət olunmurdu. Bütün cəmiyyətdə, dövlətdə yuxarıdan aşağıya sərt mərkəzləşdirilmiş sistem hökm sürürdü. Yeni inzibati bölgü (1937) də iri əyalətlərin, o cümlədən Cənubi Azərbaycanın ostanlara parçalanması bu mənada yalnız sərt, bürokrativ mərkəzləşdirmə məqsədlərinə xidmət edirdi. Beləliklə, XX əsrin 20-30-cu illərində həm Şimal, həm də Cənubi Azərbaycan diktatura quruluşu şəraitinə düşmüş oldu. Lakin bu diktaturalar arasında ümumi cəhətlərlə yanaşı, fərqli xüsusiyyətlər də var idi. Bu xüsusiyyət İrandakı diktaturanı dövlət siyasəti səviyyəsinə çatdırmış və başlıca olaraq Cənubi Azərbaycan türklərinə qarşı çevrilmiş, onların milli şüurunu, dilini və mədəniyyətini, hətta milli varlığını da inkar etməyə, boğmağa yönəldilmiş milli zülm idi. Məlum olduğu kimi milli zülm, habelə digər milli problemlər, əhalisi polietnik tərkibli

dövlətlərdə, onların tarixi inkişafının müəyyən mərhələsində meydana çıxmağa başlayır. Qacarlar dövləti həmin mərhələyə XIX əsrin sonu – XX əsrin əvvəllərində qədəm qoymağa başlamışdı.İrandakı Azərbaycan türkləri 20-ci illərə özlərinin milli keyfiyyətlərini, ənənələrini, dil birliyi və mədəni ümumiliyini qoruyub saxladığı halda daxil olmuşdular. Bu keyfiyyətlərə malik olduğu üçün Azərbaycan türkləri İranda yaşayan digər qeyri-fars xalqlara nisbətən iqtisadi cəhətdən olduğu kimi, öz milli inkişafında da etnos kimi, yaranmaqda olan millət kimi daha yüksək mövqedə olmuşlar. Xüsusilə 1920-ci il Təbriz üsyanı Azərbaycan türklərinə bu baxımdan əlverişli psixoloji üstünlük vermişdi. Bu psixoloji özül o qədər güclü idi ki, əyalətdəki sonrakı siyasi ab-hava bunu aydın göstərirdi.Azərbaycanı və Azərbaycan türklərini hər cəhətdən, xüsusilə iqtisadi və mənəvi cəhətdən zəiflətmək, əvəzində farsları hakim millət kimi ucaltmaq və digər milli qurumları tədricən hakim farslar içərisində əritmək siyasəti Rza şahın mərkəzləşmiş qüdrətli dövlət yaratmaq məqsədinin ideoloji dayaqlarından birini təşkil edirdi. Rza şah hökümətinin planlı şəkildə həyata keçirdiyi bu siyasət 30-cu illərin ikinci yarısında alman farşizminin irqçilik nəzəriyyəsindən bəhrələnərək ölkədəki qeyri hakim millətlərin assimilyasiya edilməsi məqsədini gücləndirməyə xidmət edirdi. Qeyri-fars xalqların ilk növbədə Azərbaycan türklərinin assimilyasiya edilməsində, onların etnik və milli şüurunun, milli mədəni inkişafının qarşısının alınmasında və nəticə etibarilə bir millət kimi məhv edilməsində istifadə edilən ən təsirli vasitə onları öz doğma türk dilindən məhrumetmə siyasəti idi. Burada ana dilində təhsil, kitab və qəzet nəşri, tamaşalar verilməsi, məktəblərdə, idarələrdə türkcə danışmaq, hətta yas məclislərini ana dilində aparmaq qadağan edilmişdi. Bununla birlikdə, əski türk kitabları Təbriz şairlərinin əsərləri və əlyazmaları toplanılıb yandırılırdı.Türkcə coğrafi adlar, dağlar, çaylar, şəhər və kənd adları, tarixi türk əsərləri və abidələrin adları və s. sistematik

olaraq farslaşdırılırdı. Cənubda olduğu kimi, Şimalda da Azərbaycan türklərinin assimilyasiyası güclənmişdi, şəhər adlarının ruslaşdırılması, coğrafi adların ermənileşdirilməsi, Bakıda rus və erməni mənşəli qəsəbə və küçə adlarının peyda olması prosesi baş verirdi. 30-cu illərin əvvəllərində SSRİ-nin "dəmir pərdə" siyasətinin gücləndiyi dövrdən İranın Azərbaycan SSR ilə əlaqələrinin tam kəsilməsi siyasəti də qismən Azərbaycan ölkəsi və xalqının etnik vahidliyinə qarşı çevrilmiş bir tədbir idi. Bu tədbir Rza şahın göstərişi ilə 20-ci illərin sonlarında bünövrəsi əslən Azərbaycan türkü olan Əhməd Kəsrəvi və başqaları tərəfindən qoyulmuş"nəzəriyyə" ilə əsaslandırılırdı. Azərbaycanın iki qonşu dövlət arasında bölünməsi və öz vahid dövlətçiliyini itirməsindən sui-istifadə edilərək icad edilmiş bu qondarma nəzəriyyəyə görə, həmin diyarın Şimal hissəsi güya heç vaxt Azərbaycan adını daşımamış, Şimal və Cənubunda yaşayan əhali isə tarixən və müasir dövrdə etnik cəhətdən müxtəlif uluslara mənsub olmuşdu. Rza şahın mərkəzləşmiş güclü dövlət yaratmaq məqsədi ilə apardığı inzibati siyasəti də qeyri-fars millətlərin varlığına, onların milli təmərküzləşməsinə qarşı çevrilmişdi. Rza şah hakimiyyətinin azərbaycanlılara qarşı apardığı antitürk siyasəti 30-cu illərin sonlarında apardığı yeni inzibati bölgüdə öz zirvəsinə yetdi. Belə ki, 1937-ci ilin noyabrında təsdiq edilmiş yeni inzibati bölqüyə görə İran 10 ostana (vilayətə) bölündü və Azərbaycan ərazisi üçüncü (Şərqi Azərbaycan, mərkəzi Təbriz şəhəri), dördüncü (Qərbi Azərbaycan, mərkəzi Urmiya şəhəri) və əsasən Azərbaycan torpaqlarından ibarət olan birinci (Gilan, mərkəzi Rəşt şəhəri) ostanlara ayrılmış oldu. Azərbaycanın tarixi ərazisi olan Həmədan vilayəti isə beşinci (Kürdüstan, mərkəzi Senəndəc şəhəri) ostana qatılmışdı.

Beləliklə, Rza şah hakimiyyəti İranda feodal zülmünü müəyyən qədər məhdudlaşdırmış olsa da, keçmişdə görünməmiş amansız milli zülm siyasətinin əsasını qoydu. Azərbaycan türklərinə qarşı daha çox qəddarlıqla həyata keçirilən bu siyasət mahiyyətcə Azərbaycanın və türklərin vahidliyinə qarşı çevrildi.

VI FƏSİL
Azərbaycan SSR yeni iqtisadi siyasət illərində (1921-1925-ci illər).

Yeni iqtisadi siyasətə keçid. Sovet Rusiyasında vətəndaş müharibəsi əsasən 1922-ci ilin payızında başa çatdı. Bundan sonra dinc quruculuq mürəkkəb beynəlxalq vəziyyətdə, sovet ölkəsinin iqtisadi mühasirəyə alınmasını təşkil edən Qərb imperialistlərinin müqaviməti şəraitində başlandı.

Sovet Azərbaycanında dinc quruculuğa keçid Birinci Dünya müharibəsi və xarici müdaxilə, milli qırğın (1918-ci ilin yazı) nəticəsində yaranmış ağır təsərrüfat dağıntısı şəraitində baş verirdi. İqtisadi təcridolunma, Ermənistanla sərhəddə tez-tez baş verən hərbi münaqişələr, Qarabağda daşnakların təxribatları, daxili çəkişmələr respublikanı var-yoxdan çıxarırdı. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra (1920-ci il noyabr) daşnak hökuməti İrana qaçaraq Təbrizdə yerləşdi. 1922-ci il oktyabrın sonlarında RSFSR hökuməti nota ilə İrana müraciət edərək, onu öz ərazisindən çıxarmasını tələb etdi. Maraqlısı budur ki, o hökumətin üzvü, notada adı çəkilən Xondakaryan sonralar mühacirətdə olan Rusiyanın burjua hökumətinin keçmiş başçısı Kerenskinin müavini olmuşdu.

1921-1922-ci illərdə RSFSR və Ermənistan SSR öz notalarında Qacarlar hökumətinin nəzərinə çatdırırdılar ki, İranda Daşnaksutyun təşkilatının olması qonşuluq əlaqələrinin yaradılması və inkişafı üçün təhlükədir. Daşnaksutyun Rusiyadan qaçmış əksinqilabçıları və çar tərəfdarları olan ağqvardiyaçıları pulla ələ alıb öz ətrafında cəmləşdirərək sovet respublikalarına, əsasən Azərbaycana basqınlar təşkil edirdi. Bu zaman Azərbaycanın iqtisadi həyatının bütün sahələri dərin böhran içində idi. 1921-ci ildə respublikanın sənaye istehsalı 1913-cü ilin istehsal səviyyəsinin 43 %-ni təşkil edirdi. Bakı neft sənayesi xüsusilə ağır vəziyyətdə idi. Neft istehsalı üç dəfə azalmışdı, 1913-cü ildə istehsal edilmiş 7,3 milyon tondan 1920/21-ci təsərrüfat ilində 2,4

milyon tona enmişdi. Yeni neft quyularının qazılması demək olar ki, tamamilə dayanmışdı. 1920/21-ci ildə qazılan quyuların sayı 1913-cü ildə qazılmış quyuların cəmisi 2%-ni təşkil edirdi. Qazma işində Bakı neft sənayesi 1878-ci ilin səviyyəsinə enmişdi. 40 neft emalı zavodundan yalnız 18-i fəaliyyətdə idi, onlar da lazımi avadanlıq və xammal çatışmazlığı üzündən fasilə ilə işləyirdi.

Bakıda H.Z.Tağıyevin toxuculuq fabrikində 1921-ci ildə dəzgahların yalnız üçdə biri işləyirdi. Gədəbəyin misəritmə zavodu, Tovuz və Keşlə sement zavodları, kərpic zavodları dayanmışdı.

Balıq sənayesi tam tənəzzülə uğramışdı, Naxçıvan qəzasında duz istehsalı azalmışdı. Azərbaycan dəmir yolu çox zərər çəkmişdi, parovoz və vaqonlar çatışmırdı.

Bakıda əhalini ərzaqla təmin etmək üçün kartoçka sistemi tətbiq olunmuşdu. Çörəklə təchizatın çətinləşməsi bütün neft sənayesinin işi üçün təhlükə doğururdu. Müəssisələrdə əmək intizamı pozulmuşdu. Çətinliklərlə üzləşən fəhlələr tez-tez işə çıxmamaq məcburiyyətində qalırdılar, onların arasında tətil etmək meyli artırdı. 1918-ci ildən 1921-ci ilə qədər Bakıda neftçi fəhlələrin sayı azalaraq 52 mindən 23 minə enmişdi. Neft sənayesi təhlükə qarşısında idi.

Respublikanın kənd təsərrüfatı da ağır böhran keçirirdi. Suvarma sisteminin dağılması nəticəsində Azərbaycanda 200 min desyatinə qədər suvarılan torpaq istifadəsiz qalmışdı. Kənd təsərrüfatı üçün yararlı olan torpaqların sahəsi 1921-ci ildə 42% azalmışdı.

Azərbaycanda pambıq becərilməsi, demək olar ki, tamamilə dayandırılmışdı.1921-ci ildə pambıq əkini sahəsi müharibədən əvvəlki səviyyənin 2,3%-ni təşkil edirdi. Bu, qismən də onunla izah olunurdu ki, aclıq pambıqçı kəndlilərin çoxunu taxıl məhsulları əkməyə məcbur edirdi.

İpəkçilik də tənəzzülə uğramışdı. Azərbaycanda tut bağlarının sahəsi yarıya qədər azalmışdı. Əkinçilik çəyirtkə basqınından da tez-tez zərər çəkirdi. Təkcə 1920-ci ildə respublikada geniş miqyasda kənd təsərrüfatı sahələrinin məhsulları çəyirtkə basqını

nəticəsində məhv olmuşdu.

Maldarlığa da ciddi ziyan dəymişdi. Azərbaycanda 1921-ci ildə mal-qaranın sayı, 1913-cü ilə nisbətən 40% azalmışdı. Kəndli təsərrüfatlarının məhsuldarlığı xeyli aşağı düşmüşdü. Kəndlilərin 26%-i əkin sahəsindən məhrum olmuş, 25 %-i sə əkin sahəsi 1 desyatindən çox olmayan kasıb təsərrüfat sahibinə çevrilmişdi. Kəndlilərin iş heyvanı və kənd təsərrüfatı alətləri çatışmırdı. Onlar öz torpaqlarını primitiv alətlərlə, əsasən ağac xışla becərirdilər. 1921-ci ildə Azərbaycanda hər 100 kəndli təsərrüfatına cəmisi 9 dəmir kotan düşürdü.

Respublikanın iqtisadi vəziyyətini maliyyə böhranı da mürəkkəbləşdirirdi. Xalq təsərrüfatının əsas sahələri üzrə gəlirin azlığı dövlət büdcəsində ciddi çatışmazlığa səbəb olurdu. Manatın çatışmaması və dəyərinin aşağı düşməsi tez-tez yeni pullar buraxmağa məcbur edirdi. Bununla əlaqədar olaraq pulun qiymətdən düşməsi təsərrüfat həyatını mürəkkəbləşdirir, xalqın maddi vəziyyətini pisləşdirirdi.

1921-ci ilin başlanğıcında respublikada davam etməkdə olan hərbi kommunizm siyasəti ilə bağlı tətbiq edilən ərzaq sapalağının ağır təsiri özünü göstərirdi. Əvvəllərdə olduğu kimi, ərzaq sapalağı qaydasına uyğun olaraq, kəndlilər bütün kənd təsərrüfatı məhsullarının qalıqlarını dövlətə verirdilər. Buna görə də onlarda öz təsərrüfatlarını genişləndirmək və yaxşılaşdırmaq həvəsi olmurdu.Kəndlilərin çoxu əkin sahələrini genişləndirmək barəsində fikirləşmir, əksinə onu ailə tələbatına uyğunlaşdıraraq azaltmaq istəyirdilər.

1921-ci ilin əvvəlində Azərbaycanda həyata keçirilən ərzaq siyasətinin öz xüsusiyyətləri var idi. Rusiyadan fərqli olaraq Azərbaycanda 1921-ci ilin başlanğıcında ərzaq sapalağı qismən tətbiq olunurdu. Bu vaxt bütün qəzalarda ət, mal-qara və yem tədarükü həyata keçirilirdi. Taxıl tədarükü yalnız Lənkəran və Cavad qəzalarında aparılırdı.

1920-ci ilin sonu-1921-ci ilin əvvəllərində ərzaq siyasəti kəndlilərin vəziyyətini nisbətən yüngülləşdirdi. Lakin bu siyasətin

yerlərdə pozulması kəndlərdəki ciddi təsərrüfat çətinliklərini aradan qaldırmağa mane olurdu. Kəndlilərin yoxsul, qismən də ortabab təbəqəsi iflas səviyyəsində idi. Bütün bunlar kəndlilərin narazılığına, hətta kəndlərdə sinfi mübarizənin kəskinləşməsinə səbəb olurdu.

Varlılar, mülkündən məhrum olmuş təbəqələr, sovet hakimiyyətinə qarşı olan qüvvələr hələ də sovet üsuli-idarəsini devirmək ümidində idilər. Onlar ağır təsərrüfat pozuntusu, əhalinin maddi vəziyyətinin ağırlaşması və ölkənin daxili vəziyyətində yaranmış siyasi böhrandan istifadə edərək, öz arzu və məqsədlərini həyata keçirməyə cəhd göstərirdilər.

1921-ci ilin yazında Bakıda bir sıra müəssisələrdə tətillər oldu. Buna səbəb Bakıda ərzaq qıtlığı, çörək normasının azaldılması idi. 1921-ci ilin aprelində Balaxanıda fəhlələr tətil etdilər. Tətildə əsasən Cənubi Azərbaycandan gəlmiş, kəndlə bağlı olan Qacarların (İran) təbəələri iştirak edirdilər. "Çörək verin, yoxsa evə qayıdırıq" - bu onların əsas tələbi idi. Həmin ilin payızında isə əmək haqqının gecikdirilməsi ilə əlaqədar Xəzər nəqliyyatçıları tətil etdilər.

1921-ci ilin iyununda sovet hökumətinin vergi siyasətindən narazı olan Bakı dükançıları tətilə çıxdılar. Qəzalardakı kəndli həyəcanları hökümət tərəfindən "əksinqilab" kimi qiymətləndirilir və ya siyasi quldurluq hesab olunurdu.

Belə bir şəraitdə bəzi antibolşevik qüvvələrin və təşkilatların fəaliyyətləri nəzərə çarpırdı. İttihadçı gizli "Azərbaycan milli müdafiə islam partiyası"nın qəzalarda şəbəkələri var idi. 1921-ci ilin iyununda hökumət orqanları tərəfindən aşkara çıxarılan "İttihad" təşkilatı ləğv olundu, onun 234 üzvü isə həbs edildi.

Bakıda gizli fəaliyyət göstərən eserlər 1921-ci ilin başlanğıcında silahlı üsyan vasitəsilə sovet hakimiyyətini devirmək fikrinə düşmüşdülər. Eserlər partiyasının MK-sı yerli təşkilatlara bolşevik diktaturasını qətiyyətlə aradan qaldırmaq tapşırığını vermişdi. Lakin Kronştad qiyamının (1921-ci il Peterburq) darmadağın edilməsi eserlərin sovetlər əleyhinə fəaliyyətini

müəyyən müddətə zəiflətdi. 1921-ci ilin ikinci yarısında onların gizli fəaliyyəti yenidən canlandı. Eserlər proletariatın bolşevik diktaturasına qarşı silahlı mübarizəsini təşkil etməyə cəhd göstərir və xarici hərbi müdaxiləyə ümid bəsləyirdilər.

Bakıda və respublikanın bəzi qəzalarında, eserlər partiyasının filialı olan Azərbaycan eser təşkilatı - "Xalqçı" fəaliyyət göstərirdi. Onun başçıları A.Səfikürdski və C.Hacınski idilər. "Xalqçı" təşkilatının üzvləri Bakı eserləri ilə birlikdə bolşeviklər əleyhinə təbliğat aparırdılar.

Daşnaklar özlərinin azərbaycanlılara qarşı azğın millətçi fəaliyyətlərini dayandırmamışdılar. Qarabağda Azərbaycan xalqına düşmən münasibət bəsləyən qüvvələrə arxalanaraq, daşnakların quldur dəstələri 1921-ci ildə Şuşanı ələ keçirməyə cəhd göstərirdilər, lakin həmin ilin sonunda darmadağın edildilər Azad fikirli insanlar, "proletariat diktaturasının cəzalandıran əli" adlanan FK-nın (Fövqəladə Komissiya) təqiblərinə, repressiyalarına məruz qaldılar. Bu ziddiyyətli dövrün faciəsi onda idi ki, 1921-1926-cı illərdə M.C.Bağırovun (sədr) və L.P.Beriyanın (onun müavini) başçılıq etdiyi Azərbaycan Fövqəladə Komissiyası daha amansız diktatorçu hərəkətləri ilə respublikada ağır vəziyyət yaratmışdı.

Özbaşınalıq, hakimiyyətdən sui-istifadə Bağırovun, Beriyanın və onların əlaltılarının iş üsulunun səciyyəvi cəhəti idi. Onlar elə XX əsrin 20-ci illərində görkəmli Azərbaycan xadimləri – inqilabçıları, ziyalıları böhtan və saxtakarlıq vasitələri ilə ləkələyərək həyatdan yox etməyə çalışırdılar. Onların çoxu 1937-1938-ci illərdə Bağırov cinayətkarlığının qurbanı oldu. 1956-cı ildəki məhkəmə prosesində o, həyasızcasına elan etdi ki, guya onlar onun şəxsi düşmənləri idilər.

"Siyasi düşmənlərə" divan tutmaqda "fövqəladə üçlük" (troyka) adlanan komissiya xüsusilə məkrli rol oynayırdı. Onun tərkibinə FK-nın yerli orqanlarının başçıları, qəza partiya və icra komitələrinin nümayəndələri daxil idilər. Onların cinayətkar təqibləri nəticəsində yüzlərcə təqsirsiz insanlar həbsxanalarda, sürgünlərdə məhv edilirdilər.

Beləliklə, digər müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da inzibati-amirlik sisteminin elementləri bürokratizm, totalitarizm rejimi kök salırdı.

1921-ci il ərəfəsində kəndlilərin, fəhlələrin bir hissəsini əhatə etmiş narazılıq göstərirdi ki, hərbi kormmunizm siyasəti əsasında xalq təsərrüfatını bərpa etmək mümkün deyil. Ərzaq sapalağı siyasəti, sosializm quruculuğunun kommunist üsulu sistemi bütün kəndlilərin mənafeləri ilə toqquşmağa başlamışdı. Belə bir şərait fəhlə sinfi ilə kəndlilərin ittifaqını, sosialist quruculuğunun taleyini təhlükə altına alırdı. Yeni iqtisadi siyasətə keçmək zərurəti meydana çıxdı. Onun əsas məqsədi iqtisadi və sosial böhranın qarşısını almaq, sovet hakimiyyətinin sosial bazası sayılan fəhlə və kəndli ittifaqını möhkəmləndirmək idi.

1921-ci ilin martında RK(b)P X qurultayı ərzaq sapalağını ləğv etmək, natural ərzaq vergisinə keçmək barədə qərar qəbul etdi. Bu hərbi kommunizmdən yeni iqtisadi siyasətə keçmək yolunda ilk addım oldu. Ərzaq vergisinin miqdarı ərzaq sapalağından az idi. Ərzaq vergisi ödənildikdən sonra qalan məhsul kəndlinin ixtiyarında qalırdı və o, bu məhsulu azad surətdə sata da bilərdi. Şəhərlə kəndin, sənaye ilə kənd təsərrüfatının iqtisadi əlaqələrini qoruyub saxlamaq üçün, bir müddət əmtəə istehsalını (alqı-satqı vasitəsi ilə mübadiləni) saxlamaq nəzərdə tutulurdu, müəssisələr öz məhsulunun bir hissəsindən istədiyi kimi istifadə edə bilirdi ki, bu da fəhlələri maddi cəhətdən həvəsləndirirdi. Kiçik və kustar sənaye, xüsusi ticarət şəbəkəsi genişləndi, YİS-in tətbiqi ilə torpağı icarəyə götürməyə, muzdlu əmək tətbiq etməyə icazə verildi, sənaye müəssisələri təsərrüfat hesabına keçirildi, onların bir çoxu kooperativlərə, şirkətlərə, yaxud xüsusi şəxslərə icarəyə verildi. O vaxt V.İ.Lenin etiraf etmişdi: "Biz müəyyən dərəcədə yenidən kapitalizm yaratdıq".

Hökümət yeni iqtisadi siyasətin tətbiqini müvəqqəti olaraq müəyyən br dövr üçün nəzərdə tutmuşdur. YİS dövründə iqtisadiyyatın hakim mövqeləri, xüsusən ağır sənaye dövlətin əlində qalırdı ki, bu, qüvvələri yenidən qruplaşdırmaq, proletariat

diktaturasının iqtisadi hakimiyyətini gücləndirmək məkanı yaradırdı. Beləliklə, V.İ.Lenin və onun həmfikirləri təsərrüfatın sosialist formasının inkişaf etdiriləcəyinə, "kim-kimi" məsələsinin, yəni kapitalizmlə sosializm arasındakı mübarizənin sosializmin xeyrinə həll olunacağına ümid edirdilər.

1921-ci ilin yazından Azərbaycan SSR-də də hərbi kommunizm siyasətindən YİS-ə keçid əməli olaraq həyata keçirilirdi. Bu istiqamətdə atılan ilk addımlardan biri Azərbaycan İnqilab Komitəsinin 192l-ci il mayın 17-də "Ərzaq inhisarlarının bütün formalarının ləğv edilməsi barədə" dekreti oldu. Bu dekretlə ərzaq sapalağının qalıqları ləğv edildi, müəyyən çərçivədə, ticarətdə müstəqilliyə icazə verildi.

YİS həyata keçirilərkən iqtisadi vəziyyəti, tarixi keçmişi, məişət və mədəniyyət xüsusiyyətlərini nəzərə almaq tələb olunurdu. Bu xüsusiyyətlər sırasına ölkəmizdə iqtisadi gerilik, milli proletariatın azsaylılığı, yerli kadrların çatışmaması daxil idi. Bunlardan başqa milli rayonlar üçün eyni olan xüsusiyyətlərlə bərabər, Azərbaycanda çoxmillətli fəhlə sinfinin xeyli hissəsi Azərbaycan kəndi ilə bilavasitə bağlı olmadığından vəziyyət mürəkkəbləşirdi. Bu, Bakı fəhlələri ilə Azərbaycan kəndlilərinin əlaqəsini çətinləşdirirdi.Millətlərarası münasibətlər də mürəkkəb idi.

Azərbaycan əsasən aqrar ölkə olaraq qalırdı. 1921-ci ildə respublika əhalisinin 77,6%-ni kənd əhalisi təşkil edirdi. Fəhlə və qulluqçular əsasən Bakı rayonunda cəmləşmişdi, qəzalarda əhalinin əksəriyyətini kəndlilər, az bir hissəsini fəhlələr təşkil edirdi.

Keçid dövründə (1920-1937) xalq təsərrüfatına çox ukladlılıq (uklad-təsərrüfat bölgüsü) xas idi. Azərbaycanda beş müxtəlif ictimai-iqtisadi uklad: patriarxal təsərrüfat, xırda əmtəə istehsalı, xüsusi kapitalist təsərrüfatı, dövlət kapitalizmi və sosializm ukladları mövcud idi.

Artıq sovet hakimiyyətinin ilk illərində respublikada sosialist mülkiyyəti xalq təsərrüfatında aparıcı rol oynamağa başladı. Qarşıda sosialist ukladını hakim iqtisadi uklad etmək vəzifəsi

dururdu. Burada ukladların xüsusi çəkisi arasında nisbət olduqca fərqli idi. Milliləşdirilmiş iri neft sənayesinin təmsil etdiyi sosialist ukladı əsasən Bakıda hakim mövqe tuturdu. Qəzalardakı milliləşdirilmiş bəzi sənaye müəssisələri də sosialist ukladına aid idi.

Kənddə sosialist ukladının ilk cücərtiləri hakimiyyətin yuxarıdan tələsik yaratdığı sovxozlar (dövlət təsərrüfatları) və ilk kollektiv təsərrüfatlar idi. Lakin qəzalardakı sosialist təsərrüfat formaları olan bu ilk nümunələr çox zəif idilər. 1920-ci ilin sonunda respublikada 100-ə qədər sovxoz var idi. Sonralar gəliri olmayan və əksəriyyəti xırda təsərrüfatlardan ibarət olan bu sovxozların çox hissəsi ləğv edildi, onların ixtiyarında olan torpaqlar isə kəndlilər arasında bölüşdürüldü.

Sosialist sənayesi ilə kəndli iqtisadiyyatı arasında əlaqələri möhkəmləndirmək prosesində kənd əhalisinin kooperativlərdə birləşdirilməsi zərurəti meydana çıxdı. Beləliklə, Azərbaycan SSR-də xırda kəndli təsərrüfatlarını sosialist inkişafı yoluna salmaqda əsas dayaq olan sosialist kənd təsərrüfatı kooperasiyaları yaratmaq üçün işlər görüldü.

Kənd təsərrüfatı kooperasiyasının inkişafının başlanğıc mərhələsi üçün onun aşağıdakı formaları xarakterik idi: kənd təsərrüfatı kommunaları, artellər və şirkətlər. 1921-ci ilin mayında respublikada 137 kənd təsərrüfatı arteli, 37 kommuna və bir şirkət var idi. Bir neçə min adamı özündə birləşdirən bu təsərrüfatların sərəncamında 11 min desyatin torpaq var idi. Lakin 1921-ci illərdə yaradılmış kollektiv təsərrüfatların çoxu o dövrdə respublikada onlar üçün zəruri olan texniki-iqtisadi və siyasi zəmin olmadığından fəaliyyətini dayandırdı.

Qəzalarda da bazarlarla əlaqəli olan xırda əmtəə istehsalı üstünlük təşkil edirdi. O, texniki bitkilər əkilən rayonlarda xüsusilə güclü idi. İstehsal edilən əsas məhsul (pambıq, ipək) tamamilə bazara çıxarılırdı. Əmtəə məhsulu çox az olan patriarxal uklad da var idi. Bu, köçəri maldarlıq təsərrüfatının mövcud olması ilə bağlı idi.

YİS-in başlanğıcında xüsusi kapitalın ticarətdə canlanması müşahidə olunurdu. 1921-ci il ərzində respublikada 602 xüsusi ticarət müəssisəsi yaranmışdı. İlin ortalarına yaxın onlar bütün ticarət müəssisələrinin 90 %-dən çoxunu təşkil edirdi.

YİS-in başladığı dövrdə dövlət ticarəti, kooperativlər geniş ticarət əməliyyatlarına və bazarda kütləvi istehlakçını əhatə etməyə hazır deyildi. Dövlətin kooperativ ticarətinin zəifliyindən istifadə edən xüsusi kapital bazarları xüsusən də kənddə, ələ keçirməyə nail oldu. 1922-ci ilin sonunda Azərbaycanda ümumi mal dövriyyəsinin 70% xüsusi alverçilərin, 11% dövlət ticarət orqanlarının, 19% kooperasiyaların əlində idi.

Kənd təsərrüfatında xüsusi təsərrüfat kapitalını təmsil edən varlı kəndlilərin, qolçomaqların da müəyyən mövqeləri var idi. 1921-ci ildə qolçomaq təsərrüfatları kəndli təsərrüfatlarının 6%-ni təşkil edirdi.

YİS-lə bağlı kəndlərdə yaranmış şəraitlə uyğunlaşan qolçomaqlar öz təsərrüfatlarını genişləndirməyə çalışırdılar. Yoxsul kəndlilərin torpaq paylarını becərmək imkanında olmamasından istifadə edən qolçomaqlar onların pay torpaqlarını, həmçinin fəaliyyətsiz qalmış su nasoslarını icarəyə götürürdülər.

Azərbaycanda dövlət kapitalizmi çox məhdud da olsa, yalnız icarə yolu ilə, əsasən neft sənayesində mövqe tuturdu.

1921-ci ilin əvvəllərində neft sənayesi ağır vəziyyətdə idi, vəsait çatışmazlığı üzündən, hətta RSFSR-in gücü ilə də onun yaxın zamanda bərpası mümkün olmadığından neft mədənlərini xarici kapitalistlərə konsessiyaya vermək məsələsi ortaya çıxdı. Azərbaycan neftinin taleyi əsasən Moskvanın əlində idi.

1921-ci il fevralın 1-də RSFSR XKS qərar çıxardı: Bakının və Qroznının ayrı-ayrı neft rayonlarının, həmçinin başqa mədənlərin konsessiyaya verilməsi əsas etibarilə bəyənilsin. Lakin Bakı fəhlələri arasında belə bir inam var idi ki, onlar öz mədənlərini konsessiyaya vermədən özləri bərpa edə bilərlər. Bu məsələ 1921-ci ilin ortalarında Moskvada keçirilmiş müşavirədə qaldırılmışdı. Bu fikirlə tanış olan V.İ.Lenin onu kifayət qədər inandırıcı hesab

etməmişdi. V.İ.Lenin RK(b)P-nin X qurultayında (1921-ci il 16 mart) demişdi: "Konsessiyalar olmasa, biz yüksək dərəcədə təchiz edilmiş müasir kapitalist texnikasından yardım görəcəyimizə ümid edə bilmərik. Bu texnikadan istifadə etmədən isə biz neft çıxarılması sahəsində öz iri istehsalımızın əsasını düzgün qura bilmərik... Bu, dünya bazarına çıxmağa imkan verər".

Bakı fəhlələri arasında mədənlərin konsessiyaya verilməsinə mənfı münasibət bəsləyənlər də var idi. Buna görə Bakı neftçiləri öz nümayəndələrini V.İ.Leninin görüşünə göndərərək, konsessiyalar haqqında müqavilənin bağlanmasını ləngitməyi xahiş etmiş və mədənləri öz qüvvələri ilə bərpa etməyə söz vermişdilər. Onlar verdikləri sözə əməl etdilər. 1921-1922-ci illərdə Bakı fəhlələrinin istehsalat uğurları göstərdi ki, o zaman xarici kapitalın iştirakı olmadan da neft sənayesini dirçəltmək mümkündür. Bakı fəhlələrinin qəhrəmancasına əməyi nəticəsində 1922-ci ildə neft hasilatı artmağa başladı.

YİS-in başlanğıcında, kiçik sənaye müəssisələrinin icarəyə verilməsinə, onların tezliklə bərpası üçün xüsusi kapitaldan istifadə etməyə icazə var idi. Azərbaycan XKS-nin 1921-ci il dekretinə müvafıq olaraq, respublikanın XTŞ gəlirli olmayan, dayanmış kiçik və kustar müəssisələrdən yaxa qurtarmaq imkanı qazandı. Həmin ildən xüsusi şəxslərin də balıq vətəgələrini icarəyə götürmələrinə icazə verilmişdi.

1922-ci ildə verilmiş dekretlə dövlət dəyirmanlarının, ən kiçik ipək əyirmə və pambıq emalı zavodlarının, həmçinin un üyüdən müəssisələrin də icarəyə verilməsi qanuniləşdirildi. 1922-ci ilin martına qədər Azərbaycan Xalq Təsərrüfatı Şurası 20 müəssisəni, keçmiş sahiblərinə qaytardı, yaxud icarəyə verdi.

Beləliklə, YİS şəraitində Azərbaycanda nepmanların (YİS dövrünün burjuaziyası) formalaşması prosesi başlandı. İnsanlar yaradıcılıq, təşəbbüskarlıq və işgüzarlıq azadlığı aldılar.

YİS-in tətbiqi kəndlilərdə kənd təsərrüfatı məhsulları istehsalını və əmək fəallığını artırmaq üçün maraq oyatdı. 1921-ci ildə Azərbaycan kəndlilərinə öz məhsullarından istədikləri kimi sərbəst

istifadə etmək imkanı yaradıldı. Bununla yanaşı, Azərbaycanın dənli bitkilər ixrac edən yox, əksinə taxıl idxal edən respublika olması da nəzərə alınırdı. 1921-ci ildə kəndlilərin ərzaq vergisindən azad edilməsi Azərbaycan kəndinə böyük yüngüllük gətirsə də, o respublika şəhərlərini taxılla təmin etmək iqtidarında deyildi. Rusiya özünün ərzaq çətinliklərinə baxmayaraq, neftin naminə Bakını çörəklə təmin etməyi öz üzərinə götürmüşdü.

Ərzaq vergisinin tətbiq olunmasının bir il müddətinə təxirə salınması o dövrdə Azərbaycanda YİS-in tətbiqinin RSFSR-dən fərqli xüsusiyyətlərindən biri idi. 1921-ci ilin başlanğıcında yaranmış ümumi iqtisadi böhran və kənd təsərrüfatının olduqca ağır vəziyyəti şəraitində Respublikanın öz daxili ehtiyatları hesabına Bakı fəhlələrini ərzaqla təmin etmək üçün imkanlar axtarmaq, fərdi kəndli təsərrüfatlarına necə yanaşmağı müəyyənləşdirmək zəruri idi. Azərbaycan şəraitində kəndlilərə yeni münasibət N.Nərimanovun təşəbbüsü ilə irəli sürülmüş və həyata keçirilmiş "çanağın" toplanması oldu.

1921-ci ilin mayında I Ümumazərbaycan Sovetlər qurultayı ölkədə ərzaq vergisi əvəzinə "çanaq" adlanan könüllü natural rüsum tətbiq etmək barədə qərar qəbul etdi. Bu rüsum hər təsərrüfatdan kəndlilərin özlərinin müəyyən etdiyi 20 girvənkə taxıldan ibarət idi. Çanağın əsasını bərabərçilik prinsipi ilə evlər arasında bölüşdürülməsi təşkil edirdi.

Zəhmətkeş kəndlilər çanaq toplanması çağırışını rəğbətlə qarşıladılar. Bəzi qəzalarda kəndlilər 20 girvənkə əvəzinə 1 pud, hətta 5 pud taxıl verməyə hazır olduqlarını bəyan edirdilər. Çanaq hesabına kəndlilər xeyli ərzaq topladılar. Lakin respublika üzrə yığılan çanaq bütövlükdə nəzərdə tutulduğundan çox az oldu. Qəzaların çoxundakı məhsul qıtlığı, yığımın təşkilində yol verilən nöqsanlar, nəqliyyat çatışmazlığı çanağın kifayət qədər səmərəli olmamasının əsas səbəbləri idi.

Buna baxmayaraq çanaq kampaniyası mühüm siyasi əhəmiyyət kəsb edirdi. Kampaniya zamanı kəndlərə göndərilən fəhlələr xeyli ictimai-mədəni, maarif və təşkilat işləri görür, kəndlilərə

istehsalatda kömək göstərir, kənd təsərrüfatı alətlərini təmir edirdilər. N.Nərimanov çanaq toplantısında fəhlə sinfi ilə kəndlilərin nail olduqları ittifaqı yüksək qiymətləndirərək demişdi: "Mən təsdiq edirəm ki, indi fəhlələrlə kəndlilər arasında əlaqə yaranmışdır.

Kəndlilərin ərzaq vergisindən azad edilməsi respublikada əkin sahəsinin artmasına, kənd təsərrüfatının bərpası işində onların daha da fəallaşmasına səbəb oldu. Kəndlilər kəndli konfranslarında və qəza sovetləri qurultaylarında kənd təsərrüfatı ilə bağlı məsələlərin müzakirəsində fəal iştirak edirdilər.

Lakin Azərbaycanda ərzaq vergisini 1922-ci ildə yenidən tətbiq etmək zərurəti meydana çıxdı. Bu, respublikanı ərzaqla təmin edən Ukrayna və Rusiyanın taxıl rayonlarında həmin il baş verən quraqlıq nəticəsində 90 milyon əhalisi olan 40 quberniyanın qıtlıq və aclıq çəkməsi ilə şərtlənirdi. 1922-ci ilin aprelin 13-də Azərbaycan SSR XKS "1922-ci ildə kənd təsərrüfatı məhsulları üzərinə ərzaq vergisi qoyulması haqqında" dekret verdi.

Azərbaycanda ərzaq vergisinin özünəməxsus xüsusiyyətləri var idi: pambıq əkinləri və tut bağlarının sahibləri bu vergidən azad olunmuş, üzümçülük və bostançılığa azaldılmış vergi norması müəyyənləşdirilmişdi.

Çanaqdan fərqli olaraq ərzaq vergisinin əsasını hər kəndli təsərrüfatının məhsuldarlığından və həcmindən asılı olan mütərəqqi vergi prinsipi təşkil edirdi.

Beləliklə, 1922-ci ildə Azərbaycan üzrə nəzərdə tutulan 1 milyon pud əvəzinə 2 milyon pud ərzaq vergisi toplandı, ərzaq vergisi planı 200 % yerinə yetirildi.

YİS-in ilk müsbət nəticələrindən biri də 1922 -ci ildə əkin sahələrinin fəlakətli şəkildə azalmasının nəinki dayandırılması, hətta artmasında dönüş yaradılması oldu. Ərzaq vergisinin ərzaq sapalağından həcmcə az olması kəndlilərə xeyli yüngüllük gətirdi. Ərzaq vergiləri ödənildikdən sonra qalan məhsul kəndlinin tam ixtiyarına keçdi, onu bazarda satmaq imkanı yaratdı. Azad ticarətə icazə verilirdi. Ərzaq vergisinə keçid fəhlələr ilə kəndlilərin

iqtisadi əlaqəsinin inkişafı üçün xüsusi əhəmiyyətə malik idi.

Yeni iqtisadi siyasətə keçid kooperasiyanın fəaliyyətində əsaslı dəyişikliklərə səbəb oldu. Kooperasiya (əməkdaşlıq) müəyyən sayda insanların istehsal prosesində birgə iştirak etdiyi ümumilikdə əməyin təşkili formasıdır. 1921-ci il aprelində Azərbaycan kooperativçilərinin I qurultayı oldu. Qurultay YİS-i bəyəndi və bildirdi ki, Azərkooperasiya şəhər sənayesi ilə kəndli təsərrüfatı arasında ittifaqın tam möhkəmlənməsi yolunda körpü olacaq".

1921-ci il iyununda Azərbaycan XKS xüsusi dekretlə istehlak kooperasiyasını özünü idarə edən müstəqil ictimai təşkilat elan etdi. Fəhlə kooperativləri haqqında əsasnamə təsdiq olundu. Onlar bilavasitə sənayedə, nəqliyyatda və başqa müəssisələrdə fəaliyyət göstərir, kooperativ üzvlərinin ümumi yığıncağında seçilən idarə heyətləri tərəfindən idarə olunurdular. Fəhlə kooperativlərinə daxil olmaq və çıxmaq könüllü idi. Fəhlələrin Bakıda üç böyük kooperativ ittifaqı var idi. Onlardan biri Azərneft fəhlələrini və qulluqçularını özündə birləşdirmiş "Qornyak" idi. Xəzər donanmasının hərbi-dəniz kooperativi Türküstanda, Həştərxan vilayətində və İranda özünün geniş alqı-satqı və əmtəə mübadiləsi əməliyyatlarını həyata keçirir, şəhər əhalisinə ərzaq tədarük edirdi.

Azərbaycan Kooperasiya İttifaqı (sonralar Azərittifaq) nəzdində fəhlə kooperasiyasının fəaliyyətinə rəhbərlik etmək üçün Fəhlə Kooperasiyası komitəsi yaradıldı. Fəhlə kooperativləri öz üzvlərinə paylamaq üçün taxıl, tərəvəz, düyü, qənd, arşınmalı və başqa zəruri mallar tədarük edirdi.

Azərittifaq taxılı sərbəst qiymətə satın almaqla tədarük edirdi. Bundan başqa, qəzalarda mütəxəssislər və fəhlə nümayəndələrindən ibarət satınalma komissiyaları yaradılmışdı. Azərittifaq tədarük və mal mübadiləsi əməliyyatlarını özünün yerli şöbələri, satınalma məntəqələri və agentlikləri vasitəsilə həyata keçirirdi.

Kooperativlər vasitəsilə qonşu respublikalarla, xüsusilə Şimali Qafqaz respublikaları və Ukrayna ilə əmtəə mübadiləsi inkişaf edirdi. 1921-1922-ci illərdə Azərittifaq Moskva, Kiyev, Rostov,

Krasnodar və Türküstanda ticarət və əmtəə mübadiləsi əməliyyatları həyata keçirirdi. Xarici ölkələrlə də müəyyən əmtəə mübadiləsi inkişaf edirdi.

1921-ci ildə Ənzəlidə Azərittifaqın kontoru açıldı. Bu kontor qısa müddətdə düyü, səbzə, düyü unu və s. satın alaraq Bakıya göndərdi. Elə həmin ildə Azərittifaq xarici bazarla bilavasitə əlaqə yaratmaq üçün Batumda öz şöbəsini açmışdı. Azərbaycan şəraitində kooperasiyanın ən sabit növü istehlak kooperasiyası olmuşdu.

Yeni iqtisadi siyasətin ilk addımları. YİS-ə uyğun olaraq sənayenin işini yenidən qurmaq tələb edilirdi. Belə ki, sənayenin idarə olunmasında mərkəzi orqanların bəzi vəzifələrini yerli orqanlara vermək zəruri idi. Təsərrüfat hesabına keçmək, məhsulun maya dəyərini aşağı salmaq, istehsalın səmərəliliyini təmin etmək tələb olunurdu.

Sənayenin təsərrüfat hesabına keçirilməsi onun trestləşdirilməsi ilə əlaqədar idi. Təsərrüfat hesabına keçməklə trestlər sənaye istehsalını iri və texniki cəhətdən daha yaxşı təchiz edilmiş müəssisələrdə cəmləşdirmək imkanı əldə etdilər. Trestlərin əsas vəzifəsi geniş təkrar istehsalı təmin edən yığım mənbələrini artırmaq idi.Trestlər yüksək inhisar formasıdır. Trestə daxil olan müəssisələr istehsal və kommersiya müstəqilliklərini tam itirirdi.

YİS şəraitində neft sənayesinin idarə olunmasının yenidən qurulması xüsusi əhəmiyyət kəsb edirdi. 1921-ci ildə köhnə "Azərneftkom" müstəqil "Azərneft" trestinə çevrilərək təsərrüfat hesabına keçrildi. Bu yenidənqurma neft sənayesini təsərrüfatın təşkili cəhətdən möhkəmləndirməyi, onun maddi-texniki təchizatını və neftçi fəhlələrin əməyinin ödənilməsini yaxşılaşdırmağı təmin etdi.

Eyni zamanda Mərkəzi hökumət (Moskva) Azərbaycan xalqının maraqlarını nəzərə almadan bütün neft işini tamamilə öz əlində cəmləşdirmişdi. Azərneftin Azərbaycan XTŞ-nin tərkibindən çıxarılıb, RSFSR Ümumrusiya Xalq Təsərrüfat Şurasına (ÜXTŞ-ə) verilməsi buna xidmət edirdi. RSFSR ÜXTŞ 1921-ci ilin

noyabrında neft sənayesi müəssisələrinə 600 milyon manat həcmində dövriyyə vəsaiti ayırmışdı. Neft sənayesinin ümumittifaq əhəmiyyətli olması amili pərdəsi altında RSFSR-in hökmü ilə "qara qızıl" amansızcasına istismar edilir, əvəzində isə respublikaya öz məqsədləri üçün, xalqın maddi-mədəni tərəqqisi üçün olduqca az pay verirdilər.

Azərbaycan Xalq Təsərrüfatı Şurası aparatının yenidən qurulmasına başlandı. Əvvəllər AXTŞ aparatının işi kollegiallıq əsasında qurulmuşdu. Şəxsi əllərə icarəyə verilən müəssisələrə nəzarət edilirdi. YİS dövründə müəssisələrdəki kollegiyalar ləğv edildi və təkbaşına rəhbərlik prinsipi ilə işləmək metoduna keçrildi.

Azərbaycan XTŞ sənayesinin təsərrüfat hesabına keçməsi nəticəsində onun tabeliyindəki 60 kiçik müəssisə icarəyə verildi. Tağıyevin toxuculuq fabriki, tütün fabrikləri, Ləki yağ zavodu, mexaniki və şüşə və sement zavodları onların sırasında idi.

XTŞ-nin bütün müəssisələri dovlət təminatından çıxarılıb kommersiya relsləri üzərinə qoyulmuşdu. XTŞ-nin mərkəzi aparatı da yenidən quruldu: kollegiyalar, şöbələr ləğv edilmiş, vahid rəhbərlik tətbiq edilmiş, qulluqçular ixtisar olunmuşdu. Eyni zamanda bu müəssisələrin sahələr üzrə trestləşdirilməsinə başlanmış, Azəripək, Azərtoxuculuq, Azərtütün, Azərduz, Azəruntrest və s. kimi böyük təsərrüfat birlikləri - trestləri yaradılmışdı. Trestlərin yaradılması ilə XTŞ-nin iqtisadiyyat orqanı kimi funksiyaları da dəyişdi. XTŞ bütün müəssisələri bilavasitə idarə edən orqandan trestlərin təsərrüfat fəaliyyətini tənzimləyən orqana çevrildi. 1921-ci ilin iyununda XTŞ dövlət müəssisələri idarəsinə çevrildi və yeni yaradılmış Azərbaycan SSR Sənaye və Ticarət Xalq Komissarlığına tabe edildi.

1921-ci ilin payızından sənaye istehsalının əsas sahələri də tədricən dövlət təchizatından çıxarılır və təsərrüfat hesabına keçməklə trestləşdirilirdi. Balıqçılıq, ipək emalı sənayeləri və Gədəbəy misəritmə zavodu trestləşdirilmiş və təsərrüfat hesabına keçrilmişdi.

Azərbaycanın iqtisadi həyatının planlaşdırılması məqsədilə 1921-ci ildə Azərbaycan Ali İqtisadi Şurası (AİŞ) yaradıldı. Ali İqtisadi Şura respublikanın vahid təsərrüfat planını mütləq RSFSR-in planı ilə uzlaşdırmalı idi. AİŞ maddi və təsərrüfat ehtiyatlarının qeydiyyatına, bölüşdürülməsinə və məqsədəuyğun istifadəsinənəzarətedirdi.

Sənaye müəssisələrinin maliyyələşdirilməsini yaxşılaşdırmaq üçün 1921-ci ildə Azərbaycan Dövlət Bankının yaradılması haqqında dekret verildi. Dövlət bankına respublikada pul dövriyyəsini nizamlamaq və qısamüddətli kreditlərin köməyi ilə kooperativlər, artellər və başqa birliklərin təsərrüfat fəaliyyətinin yaxşılaşmasına kömək etmək tapşırılmışdı.

1924-cü ilin aprelində keçirilmiş pul islahatı da xalq təsərrüfatının bərpasına kömək etmək məqsədi daşıyırdı. Qiymətdən düşmüş kağız pullar sabit valyuta - sovet çervonu ilə əvəz edildi. YİS tətbiq edilərkən bütün müttəfiq respublikaların daxili ictimai-siyasi vəziyyəti olduqca mürəkkəb olmuşdu.

V.İ.Leninin xəstəliyi kəskinləşəndə, xüsusilə onun vəfatından sonra silahdaşları İ.V.Stalin, L.Trotski, Q.Zinovyev, L.Kamenev və başqaları arasında partiyada liderlik, hakimiyyət uğrunda mübarizə qızışdı. Hələ 1922-ci ildən partiya MK-nın katibi olan İ.V.Stalin təkbaşına hakimiyyətə yiyələnməyə, kollegial rəhbərlikdən imtina etməyə çalışırdı. Partiya daxilində yaranmış belə gərgin vəziyyət Azərbaycan SSR-nin iqtisadi həyatına təsir göstərirdi.

Azərbaycan partiya təşkilatında hakimiyyət uğrunda, kəskin millətçilik və hakim şovinist dövlətçilik təzahürləri mövcud idi. Rəhbərlikdə, partiya və hökumət işçiləri arasında da belə intriqa, çəkişmə dərinləşirdi, millətçilik və şovinizm meyilləri özünü göstərirdi.

Azərbaycan Kommunist Partiyasında yaranmış belə vəziyyət Mərkəzin amiranə-inzibatçı cəhdləri ilə əsaslı surətdə bağlı idi. Milli siyasət prinsiplərini təhrif edən Stalin direktivlərinin Cənubi Qafqazda həyata keçirilməsində canfəşanlıq edən S.M.Kirov,

Q.K.Orconikidze və onların başqa həmfikirləri burada Mərkəzin direktivlərini Azərbaycanın ictimai-siyasi xüsusiyyətlərini nəzərə almadan icra edirdilər. N.Nərimanov və onun həmfikirləri partiyanın elan olunmuş milli siyasət prinsiplərini təhrif edənlərə qarşı qətiyyətlə çıxış edirdilər.

M.Nərimanovun bu məsələ üzrə etirazları onun 1923-cü ilin dekabrında RK(b)P MK-ya şəxsən İ.V.Stalinə, surəti L.D.Trotskiyə göndərdiyi "Ucqarlarda inqilabımızın tarixinə dair" məktubunda şərh olunmuşdu. N.Nərimanov bu sənəddə müttəfiq respublikaların bərabərhüquqlu olmalarına riayət edilməsini tələb edir, Azərbaycan xalqının mənafelərinin pozulmasını qətiyyətlə pisləyirdi. O, Azərbaycanın Cənubi Qafqaz Federasiyası tərkibində, həmçinin bütün SSRİ daxilində ölkəyə Gürcüstan və Ermənistandan daha çox maddi nemətlər verməsini nəzərə almayaraq büdcə bölgüsündə Azərbaycan Respublikasına ədalətsiz olaraq az vəsait ayrılması hallarını açıqlayırdı. Bu ümumittifaq xəzinəsinə böyük gəlir gətirən Azərbaycan neft sənayesinin timsalında özünü xüsusilə nümayiş etdirirdi. Bəzən iş o yerə çatırdı ki, Azərbaycan kəndlərində ağ neftə qonşu respublikalardakına nisbətən daha yüksək satış qiyməti müəyyənləşdirilirdi.

N.Nərimanov yüksək ixtisaslı milli kadrlar hazırlanmasının, respublika həyatının bütün sahələrində Azərbaycan dövlət dilinin rolunun yüksəldilməsinin, kəndlərdə mədəni-maarif işlərini genişləndirməyin vacibliyini xüsusi nəzərə almağı qeyd edirdi.

N.Nərimanov partiya daxilində dərinləşən dramın dəhşətli təhlükəsini, bolşevizmin məhvə məhkumluğunu qabaqcadan hiss edərək, 1925-ci il yanvarın 28-də oğlu Nəcəfə ünvanladığı tamamlanmamış məktubunda yazmışdı: "Mən sosial-demokrat idim, lakin bu təşkilat getdikcə daha çox idealdan uzaqlaşır. Mən bolşeviklərin proqramını xüsusi inamla qəbul etmişəm, belə ki, mən bunda öz məramımın - dünyada köləliyin məhvinin həyata keçməsini görürdüm. Bəlkə də sən bu sətirləri oxuyan vaxt bolşevizm olmayacaq. Ancaq bu o demək deyil ki, bolşevizm lazım deyil. Bu ona dəlalət edəcək ki, biz onu qoruya

bilməmiş, ona lazımi qiymət verməmiş, işimizə pis yanaşmışıq. Açıq demək lazımdır: biz əldə etdiyimiz hakimiyyətdən o qədər təkəbbürlü olmuşuq ki, boş işlərlə və çəkişmələrlə məşğul olaraq, əsil işi əldən buraxmışıq. Hakimiyyət çoxlarını korlayır". Nəcəf məktub yazılanda 5 yaşında idi və o, 1943-cü ildə İkinci Dünya müharibəsində həlak olmuşdu.

N.Nərimanov fraksiyaçılıq fəaliyyəti ilə məşğul olan "sol qrup" adlananlarla və "gənc kommunistlərlə"(əvvəllər başqa partiyalarda olmuş) R.Ə.Axundov, Ə.H.Qarayev, M.D. Hüseynov və başqaları ilə də ixtilafda idi.

N.Nərimanov və onun silahdaşları eyni zamanda, daşnak xislətli o vaxt Bakı Partiya Komitəsində katib vəzifəsinə soxula bilmiş Sarkis və Mirzoyanın şəxsində daşnakçı "erməni kommunistləri"nə qarşı barışmaz mübarizə aparırdılar. Bu vəzifədə onlar maskalanmış anti Azərbaycan siyasəti yürüdür, "qatı millətçilik" ehtiraslarını, intriqa meyillərini qızışdırırdılar.

N.Nərimanovun siyasi düşmənləri onu milli təmayülçülükdə (partiyanın əsas xəttindən yayınma) günahlandırmağa və onun xalq arasındakı yüksək nüfuzunu ləkələməyə çalışırdılar. Sarkis, Şatunovskaya və onların əlaltıları onun respublika rəhbərliyindən uzaqlaşdırılmasına nail oldular. Bu xainlər N.Nərimanovun 1922-ci ilin axırı - 1923-cü ilin əvvəlində SSRİ MİK sədrlərindən biri seçilməsi şansından hiyləgərcəsinə istifadə etdilər və o, bu vəzifədə ömrünün axırına kimi Moskvada işləməli oldu.

1923-cü ildə ölkədə müəyyən nailiyyətlər qazanılmasına baxmayaraq, iqtisadi-sosial vəziyyət ağır olaraq qalırdı. Sənayedə və kənd təsərrüfatında müharibədən əvvəlki istehsal səviyyəsinə hələ nail olunmamışdı. İşsizlik tam ləğv edilməmişdi, bunun bir səbəbi fəhlələrin şəhərlərə qayıtması prosesinin sənayenin bərpasından daha sürətlə getməsi idi.

Xalq təsərrüfatında müxtəlif sahələrin bərpa prosesi bərabər sürətdə getmirdi. Azad əmtəə mübadiləsi şəraitində kəndli təsərrüfatı ilə dövlət sənayesinin bərpa olunması sürəti arasında uyğunsuzluq 1923-cü ildə müvəqqəti satış böhranı ilə nəticələndi.

Bu böhran isə sənaye məmulatlarının yüksək qiymətləri ilə kənd təsərrüfatı məhsullarının aşağı qiymətləri arasındakı fərqdə özünü göstərirdi. Qiymətlər arasındakı bu uyğunsuzluq "qayçı" adı aldı və o qədər kəskinləşdi ki, sənaye malları almaq kəndli üçün sərfəli olmadı. Sənaye mallarının qiyməti çox yüksək idi. Həm də ticarət mallarını öz əllərində cəmləşdirmiş bəzi orqanlar, təsərrüfatlar, sənaye trestləri özlərinin bazarda inhisarçı vəziyyətlərindən istifadə edərək, qiymət siyasətini pozurdular. Satış böhranının əsas səbəblərindən biri də ondan ibarət idi ki, dövlət sənayesi və ticarəti hələ kütləvi kəndli bazarına yol açа bilməmişdi. Dövlət sənayesi ilə kəndli təsərrüfatı arasına tacirlər və sələmçilər girmişdilər, bu isə sənaye və kəndlilər arasında bilavasitə əlaqə yaranmasına mane olurdu. Xüsusi kapital bütün ölkə üzrə kənddə ticarət dövriyyəsinin 90%-ə qədərini öz əlində cəmləmişdi.

"Qayçı" özünü Azərbaycanda xüsusi kəskinliklə göstərirdi. Məsələn, Azərbaycan kəndlisi bir pud buğda əvəzinə 1923-cü ildə cəmi 3 parça sabun və ya 2,5 arşın çit alırdı, ancaq 1922-ci ildə isə 5,7 girvənkə sabun və ya 5 arşın çit ala bilirdi. Kənd təsərrüfatı məhsulları və sənaye mallarının qiymətləri arasında fərqin güclənməsi barəsində qəzalardan narazılıqlar gəlirdi.

1924-cü ilin yanvarında Azərbaycan SSR XKS zəruri mallar olan ağ neft, parça, qənd, şüşə məmulatı və s. qiymətini ucuzlaşdırmaq barəsində qərar qəbul etdi. Qiymətlərin aşağı salınması əlavə xərclərin yenidən xeyli dərəcədə azaldılması və ticarət sistemində qoyulan əlavələrin məhdudlaşdırılması yolu ilə mümkün olmuşdu. Azərbaycan kəndinin ağ neftlə təmin edilməsi onu müqavilə üzrə satanların əlindən alıb qəza orqanlarına vermək yolu ilə həyata keçirilirdi.

Dövlət bazar qiymətlərini qaydaya salmaq məqsədilə 1924-cü ildə Azərbaycan Ali İqtisadi Şurası nəzdində "Daxili ticarəti tənzimləyən komissiya" (Azdaxtickom) yaradıldı. Qəzalara parça, qənd, duz, ağ neft kimi sənaye malları göndərmək üçün tədbirlər görüldü, onlara sabit qiymətlər qoyuldu. Ət satışı ilə məşğul olan

tacirlərlə Azdaxtickomda keçirilmiş xüsusi müşavirədə ətin qiymətini 10-15% azaltmaq barədə razılıq əldə edildi. Xalq Komissarları Soveti bahalıqla mübarizə üzrə səlahiyyətli şəxslərdən ibarət komissiyalar yaradılması barədə qərar qəbul etdi.

1924-cü ildən xüsusi kapitalı əmtəə mübadiləsindən sıxışdırmaq məqsədilə onun üzərinə hücum başlandı. Bunun üçün dövlət ticarətini və kooperasiyanı gücləndirmək lazım idi. 1924-cü ildə paylara əsaslanan Azərbaycan ticarət şirkəti (Azdövtic) təsis edildi. Təsisçisi respublika hökuməti, əsas iştirakçılar isə səhmlərin çoxunu öz əllərində cəmləşdirmiş AXTŞ, Xalq Torpaq və Ərzaq Komissarlığı, Azərbaycan Xarici Ticarət Şirkəti idi. Ticarət dövriyyəsini tənzimləmək üçün Bakı ticarət birjası yaradılmışdı.

Ölkədə təsərrüfat dövriyyəsinin genişlənməsi və möhkəmlənməsi baş verirdi. Bu, sənaye və kənd təsərrüfatının bərpa edilib möhkəmləndirilməsi nəticəsində ərzağın artması, sənaye mallarının qiymətinin aşağı düşməsi, kənd təsərrüfatı istehsalında əmtəə mallarının çoxalması və kəndlilərin alıcılıq qabiliyyətinin yüksəlməsi ilə bağlı idi.

1924-cü ildə ticarət müəssisələri sayının 4,8 mindən 12 minə çatması Azərbaycan şəraitində bu prosesin göstəricisi idi, lakin onların 11,5 mini xüsusi kapitalist bölməsinə aid idi.

1924-cü ildə xüsusi kapital hələ də əmtəə mübadiləsində güclü mövqelərini qoruyub saxlayırdı. Kənd təsərrüfatını bərpa və inkişaf etdirmək üçün yeni orqanlar yaradılırdı. 1923-cü ildə zəhmətkeş kəndlilərə kredit vermək üçün kənd təsərrüfatı bankı və "Kənd təsərrüfatına və kənd təsərrüfatı sənayesinə Azərbaycan yardım komitəsi" təşkil olundu.

Mərkəzin Azərbaycandan daha çox pambıq almağa xüsusi marağı var idi. SSRİ pambıq komitəsi bu məqsədlə 1923-cü ildə Azərbaycan pambıq komitəsi ilə birlikdə "Rusiya - Azərbaycan pambıq şirkəti"ni yaratdı. Mərkəzin əsas niyyəti Rusiya toxuculuq sənayesini ucuz xammalla təmin etmək üçün Azərbaycanı özünün pambıq bazalarından birinə çevirmək idi. Təsərrüfat çətinliklərini

aradan qaldırmaq tədbirləri vergi sisteminə yenidən baxmağı vacib etdi. 1923-cü ildə ərzaq vergisi müəyyənləşdirildi. RSFSR-ə nisbətən Azərbaycanda vahid kənd təsərrüfatı vergisi 10% aşağı qoyulmuşdu.

1924-cü ildə tətbiq olunmuş pul islahatı xalq təsərrüfatının bərpasında qarşıya çıxan çətinliklərin aradan qaldırılmasına kömək etdi. Qiymətdən düşmüş kağız pulun əvəzinə sabit pul - sovet çervonu tətbiq olundu. Bu islahat ölkənin maliyyə vəziyyətini möhkəmləndirdi. Cənubi Qafqaz pul nişanlarının buraxılışı ləğv olundu. O, Ümumittifaq pulu ilə əvəz edildi.

1923-1924-cü illərdə kənd təsərrüfatı və sənaye mallarının qiymətləri arasındakı fərqi aradan qaldırmaq üçün həyata keçirilən tədbirlər uğurlu oldu və öz nəticələrini verdi. 1924-cü ilin ortalarına yaxın satış böhranı aradan qaldırıldı və iqtisadi vəziyyət yaxşılaşdı.

Azərbaycanda yeni iqtisadi siyasətin həyata keçirilməsi kəndlilərin öz əkinlərini genişləndirmək, kənd təsərrüfatı məhsulları istehsalını artırmaq və onun əmtəə kimi satmaq marağını artırdı.

YİS sənaye və nəqliyyatı dirçəltmək işinin güclənməsini təmin etdi. Ən vacib təsərrüfat vəzifələrindən biri ilk növbədə neft sənayesini bərpa etmək idi.

1921-ci il sentyabrın 30-da RSFSR Əmək və Müdafiə Şurası Azərbaycan neft sənayesini bərpa etmək üzrə xüsusi tədbirləri təsdiq etdi, sonra isə Azərbaycan neft sənayesinin ehtiyacları üçün əlavə 500 min qızıl manat buraxmaq qərara alındı. Müttəfiq respublikalar da Azərbaycan neft sənayesini avadanlıq və texniki materiallarla təmin edirdi.

1921-ci ilin payızından Rusiyadan Bakıya ərzaq gətirilməsi artdı. 1921-ci ilin sentyabrında RSFSR hökuməti Azərbaycana təcili olaraq 600 min pud buğda göndərilməsi barədə sərəncam verdi.

Beləliklə, Bakıya avadanlıq və ərzaq mallarının gətirilməsi

istehsalatı möhkəmləndirmək, fəhlələrin maddi-məişət vəziyyətini yaxşılaşdırmaq üçün şərait yaratdı. Bütün bu tədbirlər Azərbaycanın deyil, RSFSR-in mənafeyi naminə edilirdi.

1921-ci ildə Bakıda kütləvi iməciliklər genişləndi. İməciliyin yeni forması - "Avral həftəsi" (Avral-bütün kollektivin iştirakı ilə təcili keçrilir) adlanan iməciliklər bəzən bir neçə gün davam edirdi. İməciliklərdə əsas məqsəd istehsalı artırmaq idi. Əmək rəşadəti göstərmiş şəxslərə "Əmək qəhrəmanı" fəxri adı verildi.

Azərbaycanın neft sənayesində və başqa regionlarda əmələ gəlmiş canlanma Qərbin neft inhisarçılarının ona yol tapmaq istəklərini qızışdırdı. Xarici kapitalistlər SSRİ-dən çar Rusiyasının borclarını tələb etməklə yanaşı, Azərbaycan neft mədənlərinin keçmiş neft firmalarına qaytarılmasını da istəyirdilər. Bu, 1922-ci ildə Genuyada keçirilmiş beynəlxalq konfransda da özünü göstərdi. N.Nərimanov Azərbaycan SSR-nin nümayəndəsi kimi sovet nümayəndə heyətinin tərkibinə daxil edilmişdi. Bakı Soveti N.Nərimanova imperialist müdaxiləsi dövründə Azərbaycanda yaratdıqları çox böyük dağıntıları beynəlxalq burjuaziyanın yadına salmağı, vurulmuş ziyanın əvəzini tələb etməyi də tapşırdı.

YİS-ə keçiddən sonra aparılmış yenidənqurma işləri nəticəsində neft sənayesində əsaslı dönüş yarandı. 1921-ci ildə Azərbaycanın neft komitəsi (Azneftkom) təsərrüfat hesabına keçirilən müstəqil Azərneft trestinə çevrildi. Bu dəyişiklik neft sənayesinin təşkilat-təsərrüfat cəhətdən möhkəmlənməsinə, onun maddi-texniki təchizatının yaxşılaşınasına kömək edirdi.

1920-ci ildə Bakı rayonunda geoloji-kəşfiyyat bürosu yaradılması sayəsində Abşeronda yeni neft yataqları axtarışları başlandı. 1922-ci ildə Balaxanı-Sabunçu rayonunda zəngin neft yataqları aşkara çıxarıldı. Geoloji-kəşfiyyat işlərinə görkəmli alimlər D. V. Qolubyatnikov və İ.M. Qubkin rəhbərlik edirdilər.

1922-ci ildə Bibiheybət rayonunda yeni mədən yaradılmağa başlandı. Bu işə çox təcrübəli mütəxəssis P.N. Pototski cəlb edilmişdi. Bakı neftçiləri dünyada ilk dəfə buxtanı qurutmaqla dəniz neft yatağını fəth etdilər. Bu yataq V.İ.Leninin atasının

şərəfinə “İliç” buxtası adlandı.

Neft sənayesinin bərpasında müvəffəqiyyətlərə görə 1922-ci ilin dekabrında Cənubi Qafqazın I Sovetlər qurultayı Bakı fəhlələrini Qırmızı Bayraq ordeni ilə təltif etdi. YİS-in ilk ilində neft hasilatının artımı çox da yüksək olmadı, lakin istehsalın tənəzzülü dayandırıldı.

Lenin adına (keçmişdə H.Z.Tağıyevin) toxuculuq fabrikinin vəziyyəti təsərrüfat hesabına keçməklə yaxşılaşdı. YİS-in həyata keçirilməsi prosesində baramaaçma və pambiq təmizləmə müəssisələrinin fəaliyyəti canlandı. Naxçıvan duz mədəni 1921-ci ilin yazından yenidən işə başladı. 1922-ci ilin sonu - 1923-cü ilin əvvəllərində Nuxada dövlət barama açma fabrikləri, Şərurda və Ucar stansiyasında pambıq təmizləmə zavodlarının fəaliyyəti bərpa olundu.

Tikinti materialları sənayesinin, o cümlədən Tovuz sement zavodunun bərpasına başlanıldı. Zəylik zəy zavodu, Ləkidəki yağ zavodu işə başladı. 1922-ci ilin əvvəlində Nuxada üç baramaaçma fabriki işə düşdü.

Balıq sənayesinin dirçəldilməsini sürətləndirmək üçün kiçik balıq vətəgələri icarəyə verildi, dövlətin bilavasitə ixtiyarında isə cəmi 11 ən iri balıq vətəgəsi qalmışdı.Balıqçılıq avadanlığı almaq üçün xaricə nümayəndə göndərildi.1922-ci ildə balıq tutmaq planı artıqlamasilə yerinə yetirildi, balıq sənayesi gəlir gətirməyə başladı.Müharibələr, Ermənistanla sərhəd rayonlarında erməni hərbi qüvvələrilə toqquşmalar nəticəsində Azərbaycanın yüzlərlə kəndi xarabaya çevrilmiş, minlərlə sakini qaçqın olmuş və ağır sınaqlara məruz qalmış, kənd təsərrüfatı tənəzzülə uğramışdı.

Kənd təsərrüfatı istehsalındakı tənəzzülü dayandırmadan şəhər əhalisini çörək və başqa yeyinti məhsulları ilə, sənayeni isə xammalla təmin etmək mümkün olmayacaqdı. Buna görə də kənd təsərrüfatını təcili bərpa etmək lazım idi.Yoxsul və aztavanlı kəndli ailələrinin əksəriyyətinin torpaqla, kənd təsərrüfatı alətləri və iş heyvanı ilə təmin olunması, suvarma sisteminin bərpa edilməsi kənd təsərrüfatının dirçəlməsinin əsas məsələsi idi.

Azərbaycan Kommunist Partiyasının IV qurultayı (1922-ci il) kənd təsərrüfatını müharibədən əvvəlki səviyyəyə çatdırmağı birinci dərəcəli vəzifə kimi irəli sürdü.

Azərbaycan hökuməti 1922-1923-cü illərdə kənd təsərrüfatının inkişafı istiqamətində vacib qərarlar qəbul etdi. Bu tədbirlərin həyata keçirilməsi, torpaq məsələsinin həllində irəliləyiş və dövlətin köməyi tədricən öz bəhrəsini verirdi.

Kənd təsərrüfatının ən mühüm sahələrindən biri pambıqçılıq idi. Pambıqçılığın səviyyəsi xeyli aşağı düşmüş və demək olar ki, tam məhvolma həddinə çatmışdı. Rusiya Azərbaycanı bu qiymətli, ancaq ağır zəhmət tələb edən bitkinin istehsal bazalarından birinə çevirməyə çalışırdı.

1920-ci il noyabrın 2-də RSFSR XKŞurası Türküstan və Azərbaycanda pambıqçılığı bərpa etmək haqqında qərar qəbul etdi. Pambıqçılığın inkişafı üçün əlverişli şərait yaratmaq məqsədilə pambıq inhisarı ləğv olundu. Pambıq ticarəti azad elan edildi, pambıqçılara vergi güzəştləri verildi.

Pambıqçılığa və pambığın emalına rəhbərlik bir təşkilatda Respublika Xalq Torpaq Komissarlığı nəzdində Pambıq Sənayesi İdarəsində cəmləşdirildi.

Pambıqçılara kömək məqsədilə 1921-ci ilin əvvəlində qəzalara 150 çiyid səpən maşın göndərildi. 1921-ci ildə RSFSR hökuməti Azərbaycan pambıqçılarına 20 min pud çiyid göndərdi.

1922-ci ildə pambıqçı kəndlilər ərzaq vergisindən azad olundular və onlar daha bir çox başqa güzəştlər aldılar. Bu tədbirlər nəticəsində pambıqçılıqda irəliləyiş baş verdi - 21 min desyatin sahədə pambıq əkildi.Pambıq mühüm gəlir mənbəyi idi, lakin onu becərməkvə məhsulunu toplamaq ağır, gərgin fiziki zəhmət tələb edirdi. Zəruri aqrotexniki maşınların və suvarma mexanizminin olmadığı bir şəraitdə işləmək kəndlilərini sağlamlığına, millətin genefonduna böyük ziyan gətirdi.Kənd təsərrüfatının mühüm ənənəvi sahələrindən biri də maldarlıq idi. Maldarlıq da xarici müdaxilə, xüsusən millətlərarası toqquşmalardan xeyli ziyan çəkmişdi. 1921-ci ildə 1913-cü ilə

nisbətən iribuynuzlu heyvanların sayı iki dəfə, xırdabuynuzlu heyvanların sayı da xeyli azalmışdı.

İri sahibkar maldarların dövlət tədbirlərinə müqavimət göstərməsi heyvandarlıq təsərrüfatının bərpasına mane olurdu. Onların çoxu sovet hakimiyyətinin qanunlarına tabe olmayaraq, öz mal-qaralarını xarici ölkələrə keçirməyə çalışırdılar, qaçaqmalçıların köməyi ilə sərhəd yaxınlığında yaşayan kəndlilərin mal-qarasını sərhədin İran tərəfinə qovurdular. Həmçinin Azərbaycanda yerləşdirilmiş Qızıl ordu hissələrini ət və ət məhsulları ilə təmin etmək də Azərbaycan heyvandarlığına böyük ziyan vururdu. Bu məqsədlə kəndli mal-qarasının, atlarının tez-tez müsadirə olunması da respublikada maldarlığın vəziyyətinə mənfi təsir göstərirdi.Hökumət Azərbaycan Dövlət Kənd Təsərrüfatı Bankı vasitəsilə kiçik kəndli təsərrüfatlarına maliyyə yardımı edirdi. Bu bankın köməyi ilə qəzalarda kənd təsərrüfatı krediti cəmiyyətləri təşkil edilir və onlara zəhmətkeş kəndlilər cəlb olunurdu. Torpaq Komissarlığı Bakıda, Gəncədə və bir çox qəzalarda maldarlar hazırlamaq üçün qısa müddətli kurslar açırdı. Maldarlıq üçün bəla olan taun xəstəliyinə qarşı tədbirlər görülürdü.

Azərbaycan ipəkçiliyinin bərpası üçün tədbirlər görülürdü. Azərbaycan XTŞ nəzdində təsərrüfat hesabı ilə fəaliyyət göstərən xüsusi İpək Sənayesi İdarəsi yaradıldı, onun köməyi ilə 30 min qutu barama toxumu kəndlilərə paylandı. Zaqatalada ilk barama toxumu tədarükü stansiyası açıldı. 1921-ci ildə taxıl rayonları olan Volqaboyunu, Ukraynanı, Krımı, Qafqazı quraqlıq bürümüşdü. Aclıqla ümumxalq mübarizəsi başladı. Xalq təsərrüfatının bərpası dövründə fəhlələrin istehsalatın idarə olunmasına cəlb edilməsi məqsədilə "sosialist demokratiya"sının təzahürü sayılan istehsalat müşavirələri təşkil olunurdu. Bakıda müəssisələrdə ilk istehsalat müşavirələri 1922-ci ilin fevralında keçirilmişdi.Kütlələrin əmək fəallığının artırılmasına nail olmaq üçün müxtəlif müsabiqələr və baxışlardan da istifadə olunurdu. Azərneftin müəssisələri 1927-ci ilin sonu - 1928-ci ilin əvvəllərində SSRİ AXTŞ-nin keçirdiyi ən yaxşı müəssisələrin Ümumittifaq müsabiqəsində iştirak etmişdi.

SSRİ dağ -mədən və yanacaq sənayesi üzrə Azərneftin müəssisələri mükafatlar almışdı.

Xalq təsərrüfatının bərpasının başa çatdırılması. Neft sənayesinin bərpası prosesində başlıca amil texniki cəhətdən yenidənqurma, ən qabaqcıl texnikanın tətbiqi olmuşdu. Texniki cəhətdən yenidənqurma neft sənayesinin əsas sahələrini, o cümlədən qazıma işini də əhatə etmişdi. Köhnəlmiş zərbə ştanq qazıma üsulu fırlama-qazıma üsulu ilə əvəz olundu. Hələ 1922-ci ildə Bakıda mühəndis M.A.Kapelyuşnikov fırlama-qazıma üçün ilk səmərəli mühərrik yaratdı (Kapelyu.şnikov turboburu). Bu yenilik 1924-cü ildən neft sənayesində tətbiq olundu. O vaxt F.A.Rüstəmbəyovun rəhbərliyi altında Suraxanıda turbobur üsulu ilə dünyada ilk neft quyusu qazıldı. Qazımada turbin üsulu da tətbiq edildi və artıq 1927/28-ci ildə bütün qazıma işlərinin 90%-i fırlama və turbin üsulları ilə görülürdü. Neft quyularının yeni üsulla istismarına Bibiheybət, Suraxanı və Sabunçu neft mədənlərində başlandı. Neft emalı istehsalı sahəsində yenidənqurma işinə 1927-ci ildə başlandı. Sənayenin bu sahəsi həm yeni müəssisələrin tikilməsi, həm də köhnə zavodların yeni avadanlıqla tamamilə təchiz edilməsi ilə inkişaf etdirilirdi. SSRİ-də ilk böyük borulu ağ neft-benzin zavodları 1927-1928-ci illərdə Bakıda tikildi. Mədənlərdə yeni elektrik motorları quruldu, mədənlərdə işlənən buxar enerjisi ucuz elektrik enerjisi ilə əvəz edildi. Artıq 1925-ci ildə Azərbaycanda hasil edilmiş bütün neftin çox hissəsi elektrik enerjisi ilə çıxarılmışdı. Azərbaycan neft sənayesinin bərpası bütövlükdə Cənubi Qafqaz və SSRİ-nin xalq təsərrüfatı üçün çox əhəmiyyətli idi. 1925-ci ildə neft sənayesinin məhsulu ZSFSR sənayesinin bütün ümumi məhsulunun yarısını təşkil edirdi. SSRİ-nin başlıca yanacaq bazası olan Bakı bütün Sovet İttifaqında istehsal olunan neftin 67%-ni verirdi.1924-cü ildə Qaradağ dövlət sement zavodu bərpa olunmuş, hər ay neft sənayesi üçün zəruri olan sement verməyə başlamışdı. İpəkəyirmə istehsalı da artdı. 1925/26-cı ildə Şəkidə və Dağlıq Qarabağda beş barama açma zavodu işləyirdi.

Eyni zamanda xırda kustar istehsalı da bərpa olunurdu. 1924-cü ildə hökumətin dekreti ilə xirda kustar istehsalçılara birlik, şirkət və artellərdə birləşmək hüququ verildi. 1925-ci ildə AXTŞ yanında kustar kooperasiya birliyi yarandı. Kooperasiyanın məqsədi kustar istehsalını inkişaf etdirmək və sosialist bölməsinə qoşmaq idi.

Beləliklə, 1925/26-cı ildə 4 min kustar kooperativləşdirildi. Kustar istehsalın mühüm sahələrindən biri olan xalçaçılıq xeyli zəifləmişdi. Çünki Azəıbaycanın bütün qəzalarında kütləvi xarakter daşıyan bu xalq sənətinin tam bərpasına şərait yaradılmırdı.Bəzi sənaye sahələri müharibədən əvvəlki səviyyəni ötüb-keçmişdi. Məsələn, daşduz çıxarılması, kükürd kolçedanı, tütün məhsulları, pambıq ipliyi, bez parça və s. Lakin bəzi sənaye sahələri isə müharibədən əvvəlki səviyyədən xeyli geri qalırdı. Barama toxumu tədarükü, ipəkəyirmə və s. buna misal ola bilər.Kənd təsərrüfatının bərpasında irəliləyiş əldə olundu. 1921-1925-ci illərdə əkin sahəsi 500 min desyatindən 966 min desyatinə çatdırıldı.Lakin əkinçiliyin bütün sahələri eyni səviyyədə bərpa olunmurdu. Baramaçılıq geri qalırdı. Heyvandarlıq da çox çətinliklə dirçəlirdi. İribuynuzlu mal-qaranın sayının artması müharibədən əvvəlki səviyyədən hələ də çox geri qalırdı.

Kənd təsərrüfatının inkişafı üçün geniş suvarma sisteminə böyük ehtiyac var idi. 1925-ci ildə suvarma arxlarınm bərpası və bir çoxunun tikintisi başa çatdırıldı. 1922-1925-ci illərdə Mil və Muğan düzlərində Govur arxının, Əzizbəyov (keçmiş Yuxarı Vorontsevski) adına kanalın, keçmiş Qolitsin arxı Naxçıvanda Fərhad və Xanulyar arxları təmir edildi. Respublikada 34 meliorasiya şirkəti təşkil olundu. Meliorasiyanın inkişafı yeni torpaq sahələrinin mənimsənilməsi üçün imkan yaradırdı.

Kənd təsərrüfatının bərpası və inkişafı üçün hökumət tərəfindən buraxılan borc mühüm rol oynayırdı. Azərbaycan kənd təsərrüfatı bankı kəndli təsərrüfatlarına və kənd təsərrüfatı kooperativlərinə müntəzəm borc verir, toxuma olan ehtiyacı ödəmək üçün böyük məbləğdə vəsait ayırırdı.

Kənd təsərrüfatının vəziyyətini yaxşılaşdırmaq üçün kəndlilərin

torpaqla təmin olunması, yer quruculuğu işlərinin həyata keçirilməsi, torpaq qanununun yaradılması da mühüm şərt idi. 1923-cü ildən başlayaraq Azərbaycan SSR-in torpaq kodeksi tətbiq olundu. Yerli xüsusiyyətləri nəzərə almaqla yaradılmış bu kodeks (məcəllə) respublikada yer quruluşu işlərinin plana uyğun aparılması, torpaqdan istifadəni nizamlamaq üçün böyük əhəmiyyət kəsb edirdi, kodeksdə deyilirdi: "Azərbaycan SSR hüdudlarında olan bütün torpaqlar, kimin ixtiyarında olmasından asılı olmayaraq, Fəhlə-Kəndli Dövlətinin mülkiyyəti hesab olunur".Yoxsulların və ortababların mənafelərini müdafiə edən torpaq kodeksi torpaqdan istifadədə sabitlik ideyasını ardıcıl həyata keçirirdi. Hökumət torpaq quruluşu üzrə bütün xərcləri öz üzərinə götürdü, kənddaxili torpaq bölgüsü işlərini məcburi qaydada həyata keçirməyi qərara aldı.

YİS şəraitində dövlət tərəfindən kasıb kəndlilərə göstərilən kömək kəndli təsərrüfatlarının əsas kütləsinin ortabablaşmasına səbəb oldu, 1925-ci ildə ortabablar respublika kəndlilərinin 54%-ni, varlı kəndlilər və ya qolçomaqlar 3%-ni, qalan 43%-ni muzdurlar, atsız və aztavanlılar təşkil edirdi. YİS-in təsərrüfat sistemi ölkənin iqtisadiyyatını bərpa etmək üçün şərait yaratmasına baxmayaraq, əsasən iri dövlət sənayesi və xırda əmtəə kəndli təsərrüfatına əsaslanırdı. Belə şəraitdə böhran labüd idi və onlardan biri 1925-ci ilin sonunda oldu. "Əmtəə aclığının" - kəndlilər üçün zəruri olan sənaye malları qıtlığının meydana çıxması kənd təsərrüfatına mənfi təsir göstərdi və taxıl tədarükü çətinliklərə düçar oldu. 1927-ci ilin ikinci yarısında Stalinin təkbaşına hakimiyyəti YİS-i, demokratik prosesləri güclü inzibati-amirlik təzyiqləri ilə əvəz etdi. Kəndlilərə qarşı fövqəladə antidemokratik tədbirlər başlandı və bununla da hələ imkanları qalan YİS-i həyata keçirməkdən əslində tam imtina edildi.

Xalq təsərrüfatının bərpası prosesində, YİS-in həyata keçrildiyi şəraitdə Azərbaycanda ictimai-iqtisadi ukladların nisbəti də dəyişdi. Bir çox sənaye sahələrinin tam bərpası əslində 1927-ci ilə qədər uzanır və onlarla yanaşı, yeni sənaye müəssisələri, ilk

növbədə neft sənayesi müəssisələri yaradılması prosesi gedirdi.

Qəzaların sənayeləşdirilməsi ləng gedirdi. Sənayenin inkişafında respublikanın mərkəzi ilə rayonları arasında ənənəvi uyğunsuzluq hələ də qalmaqda idi. 1926-cı ilin aprelində UIK(b)P MK və MİK bütün partiya təşkilatlarına, nəzarət komissiyalarına, partiyanın bütün üzvlərinə "Qənaət üsulu uğrunda mübarizə haqqında" müraciət qəbul etdi. Azərbaycanda da qənaət üsulu uğrunda mübarizə başlandı. Dövlət sənayesi də müasir texnika əsasında yenidənqurma mərhələsinə daxil oldu. Bakıda yeni yüngül və yeyinti sənayesi müəssisələri fəaliyyətə başladı. 1927-ci ildə çörək zavodu (1927), Əli Bayramov adına tikiş fabriki, (1928) kiçik tikiş emalatxanalarının birləşdirilməsi əsasında Volodarski adına fabrik yaradıldı ki, bununla da Azərbaycanda iri tikiş sənayesinin əsası qoyuldu. 1924-cü ildə Bakı"Qırmızı Oktyabr" və "III İnternasional" tütün fabrikləri bir böyük müəssisədə birləşdirildi. Böyüdülmüş "Qırmızı Oktyabr" fabriki yenidən təchiz olundu və elektrikləşdirildi.

İstehsalın səmərələşdirilməsi məhsulun artmasını təmin edirdi. Azərbaycanda keçmişdən irs qalmış iqtisadi geriliyi ləğv etrnək üçün qəzalarda sənaye ocaqlarının yaradılmasının mühüm rolu var idi. 1924-1925-ci illərdə Azərbaycanda yun sənayesinin özülünü təşkil edən mahud fabriki Gəncədə 350 fəhləsi və aylıq istehsal gücü 30 min arşın mahud olan ilk iri sənaye müəssisəsi idi. Gəncədə yağ-piy zavodu (1926) və əyirici toxucu fabrikinin tikintisinə başlandı. Nuxada barama açan fabriklər yenidən quruldu. 1926/27-ci ildə Ucarda və Yevlaxda pambıqtəmizləmə, 1927-1928-ci illərdə Lənkəranda və Ordubadda konserv zavodları fəaliyyətə başladı. Elektrikləşdirmə sahəsində də yeni işlər görülürdü. Gəncədə, Qubada, Zaqatalada yeni elektrik stansiyaları işə salınmışdı. O vaxt qəzalarda artıq 11 elektrik stansiyası var idi. 1924-cü ildə hətta Zaqatala qəzasının Qax kəndində də xüsusi elektrik stansiyası işə düşdü və o, Azərbaycanda elektrikləşdirilmiş ilk kənd oldu. Qəzalarda ilk elektrik işığı 1922-ci ildə Qazaxda, sonra isə Ağdaşda yandı.

VII FƏSİL
Azərbaycan SSR sovet dövlət quruculuğunda yeni mərhələ (1921-1925-ci illər). Formal müstəqilliyin ləğvi.

Yoxsul komitələrinə keçilməsi. Azərbaycanda sovet milli dövlət quruculuğu özünəməxsus şəraitdə gedirdi. Bu, sosial-iqtisadi və ictimai-siyasi inkişafın tarixi xüsusiyyətlərindən irəli gəlirdi. Lakin Kommunist Partiyasının rəhbərliyi Azərbaycanda sosialist dəyişikliklərinin həyata keçirilməsi sahəsindəki fəaliyyətində bu xüsusiyyəti əslində həmişə ardıcıl nəzərə almırdı.

Azərbaycanlı kadrların çatışmaması milli dövlət quruculuğunu çətinləşdirirdi. Yeni milli partiya və sovet kadrları hazırlamaq məqsədi ilə məktəblər, kurslar şəbəkəsi yaradılmışdı. Kadr hazırlamaq üçün Moskvaya, Sverdlov Universiteti nəzdindəki Şərq şöbəsinə 50 nəfər göndərilmişdi, onlardan çoxu qəzaların nümayəndələri idi.

Azərbaycanlılardan təcrübəli partiya işçiləri hazırlamaq üçün AKP-nin II qurultayı (1920-ci il oktyabr) ali tipli partiya məktəbi yaratmağı qərara aldı və digər millətlərdən olan məsul işçilərə Azərbaycan dilini öyrənməyi tövsiyyə etdi. Kəndlilər arasında iş aparmaq üçün Bakı partiya təşkilatı öz sıralarından təşkilatçılar ayırırdı. Azərbaycanlı fəhlələrdən partiya və sovet işçiləri hazırlamaq üçün Bakının rayonlarında sahə siyasi savad məktəbləri fəaliyyət gostərirdi.Yerli milli kadrlar yaradılmasının böyük əhəmiyyəti var idi. Burada məqsəd partiya və sovet aparatının yerli millətin zəhmətkeş əhalisi ilə yaxınlaşmasına imkan yaratmaq idi.

Azərbaycanda sovet dövlət quruculuğunun başlanğıc mərhələsi sovetlərin deyil, İnqilab Komitələrinin yaradılması oldu. Sovetlər yalnız Bakıda və onun qəzalarında var idi.Çünki Bakı fəhlələrinin siyasi şüuru buna imkan verirdi.Onlar seçkilər zamanı varlılara deyil, fəhlə namizədlərinə üstünlük verirdilər. Qəza əhalisinin əksəriyyəti hələ varlıların təsiri altında idi. Ona görə də orada dərhal sovetlər yaradılsaydı, həmin sovetlərə varlılar seçilə bilərdilər.

1920-ci ilin iyununda Bakıda keçirilən bir sıra qəzaların İnqilab komitələrinin qurultayları Azərbaycanda dövlət quruculuğunun ilk nəticələrinə yekun vurdu. Yeni dövlət quruculuğu çoxmillətli fəhlə sinfinin zəhmətkeş kəndlilərlə itifaqını genişləndirmək yolu ilə həyata keçirilməli idi.Xalq kütlələrinin dövlət idarəçiliyinə cəlb olunması milli siyasəti həyata keçirməyin mühüm şərtlərindən idi. Ona görə də hakimiyyət orqanları bu məsələyə xüsusi diqqət yetirirdilər. Onlar qəza kəndli qurultayları, bitərəf kəndli konfransları, "kəndli həftəsi", geniş fəhlə konfransları keçirməklə fəhlə sinfinin kəndlilərə hərtərəfli köməyini təşkil edirdilər.

Azərbaycanda sovet dövlət quruculuğunun ikinci mərhələsi yoxsul komitələrinin (1920-ci il sentyabr-1921-ci il may) yaradılması oldu. Yoxsul komitələrinin yaradılmasını şərtləndirən əsas səbəblər Rusiyada olanlarla eyni idi, lakin bəzi fərqli xüsusiyyətləri vardı. Əgər Rusiyada yoxsul komitələri volost və kənd sovetlərinin mövcud olduğu bir vaxtda yerli hakimiyyət orqanları kimi təşkil olunmuşdusa, Azərbaycanda isə sovetlərdən əvvəl kənddə sovet hakimiyyətinin orqanları kimi yaradılırdı. Yoxsul komitələri həmin dövrdə öz rolunu yerinə yetirmiş kənd və məntəqə inqilab komitələrini əvəz edirdi.

Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 23 sentyabr tarixli dekretində göstərilirdi ki, Kənd Deputatları Sovetləri seçilənə qədər siyasi, ərzaq və torpaq proqramını həyata keçirməyə qadir olan orqanlar yaratmaq məqsədilə kəndlərdə sədrdən və 4 nəfər üzvdən ibarət kənd yoxsul komitələri seçilməlidir.

Yoxsul Komitələrinə seçib-seçilmək hüququ yaşı 18-dən yuxarı yoxsul və ortabab kəndli qadın və kişilərə verilirdi. Qolçomaqlar, varlılar, sələmçilər, ticarət və sənaye müəssisələrinin sahibləri, məhkəmə tərəfindən mühakimə olunmuşlar seçkilərə buraxılmırdılar. Aralarında çoxlu savadlı adamların olduğu imkanlı əhali təbəqələri nümayəndələrinin siyasi fəaliyyətdən bu cür

ucdantutma təcrid olunması real gerçəkliyə zidd idi, kənddə sinfi düşmənçiliyi dərinləşdirirdi.

Dekretə görə yoxsul komitələri öz səlahiyyətləri daxilində və xidmət etdikləri ərazinin sərhədləri çərçivəsində ali hakimiyyət orqanlarıdır. Kənd Yoxsul Komitələri bilavasitə qəza İnqilab Komitələrinə və Xalq Daxili İşlər Komissarlığına tabe idilər. Müxtəlif vəzifələri yerinə yetirdikdə isə idarəçilik aidiyyəti ilə müvafiq Xalq Komissarlıqlarına, nahiyyə və qəza inqilab komitələrinin şöbələrinə tabe idilər, halbuki dekretdə deyilirdi ki, yoxsul komitəsi kollegial şəkildə fəaliyyət göstərir.

Yoxsul Komitələri haqqında Əsasnamədə onların təşkilinin formaları, vəzifələri müəyyənləşdirilmişdi. Əsasnamə yoxsul komitələrinin seçilməsi qaydasını izah edir, üzvlərin məsuliyyəti və digər idarələrlə qarşılıqlı münasibətləri müəyyən edirdi.

Yoxsul komitələrinin təşkilinə kəndli kütlələrinin cəlb olunmasında "kəndli həftəsi" mühüm rol oynamışdı. Onun məqsədi kəndli kütlələrini hökumətin siyasəti ilə tanış etmək və kəndə parça, ağ neft, duz və sair lazımi şeylər göndərmək yolu ilə kənd əhalisinin maddi vəziyyətini yaxşılaşdırmaq idi. 1920-ci ilin sentyabrında qəbul olunmuş "Kəndli həftəsi və ərzaq kampaniyası haqqında" təlimat əsasında xüsusi komissiya "kəndli həftəsi" keçirilməsinin planını işləyib hazırladı. Ərzaq kampaniyası keçirməkdə məqsəd artıq taxılı qolçomaqların əlindən alaraq kənd yoxsulları arasında bölüşdürmək idi. Bu kampaniya əslində Azərbaycan kəndində qarşıdurmanı gücləndirdi, siyasi vəziyyətin kəskinləşməsinə zəmin yaratdı.

Bakı fəhlələri bu kampaniyaların təşkilində və keçirilməsində bilavasitə iştirak edirdilər. Bakıdan kəndə partiya, sovet və həmkarlar ittifaqı işçiləri, qabaqcıllar göndərilmişdi və onlardan bəziləri uzun müddət qəzalarda qalıb işləyirdi.

Qəzalardakı yerli fəhlələr də Bakıdan gələn fəhlələrin dəstələrinə qoşulurdular. Fəhlələr minlərlə kənd təsərrüfatı aləti, onlarla dəyirman, körpü, yüzlərlə nəqliyyat vasitəsi, kiçik kustar və ev əşyası təmir etmiş, tikmiş və hazırlamışdılar. Fəhlələr özləri ilə ağ

neft, duz, parça, müxtəlif əkinçilik alətləri, ilkin tələbat malları gətirir və kəndlilərə paylayırdılar. Onlar klubların, məktəblərin, hamamların, xalq evlərinin, yeməkxanaların tikintisinə kömək göstərirdilər. Bakı fəhlələri iməciliklər keçirir, tamaşalar, konsertlər təşkil edirdilər."Kommunist" qəzeti yazırdı: "Yoxsul komitələrinin təşkili, qolçomaqların inqilab komitələrindən kənar edilməsi və hakimiyyətin əməkçilərin özlərinə verilməsi kənddə bizim işimizin ümumi xətti olmuşdur".

Beləliklə, həmin kampaniyalar kəndddə sinfi mübarizəni süni surətdə gücləndirir, bu isə kənd təsərrüfatı istehsalının və kəndlilərin maddi vəziyyətinin daha da pisləşməsinə səbəb olurdu.

AKP-nin II qurultayı da (1920-ci il oktyabr) qolçomaqların iqtisadi qüdrətinə qarşı mübarizəni gücləndirməyi, Bakı fəhlələrinin köməyi ilə kənd yoxsullarının hərəkatını formalaşdırmağı, onun rolunu və təsirini gücləndirməyi partiya təşkilatının ən başlıca siyasi vəzifəsi kimi irəli sürmüşdü. Qurultay belə hesab edirdi ki, yalnız bu vəzifəni yerinə yetirməklə "Azərbaycanda sovet tipli dövləti həqiqətən tətbiq etmək mümkündür".

Kənddə xanların, bəylərin, mülkədarların və qolçomaqların iqtisadi və siyasi gücünü qəti şəkildə məhv etmək və inqilabi yoxsul komitələrinin həqiqi hakimiyyətini qurmaq məqsədilə 1920-ci il noyabrın 20-də "Yoxsul komitələri haqqında" AKP-nin yeni dekreti qəbul olundu, dekretdə yoxsul komitələrinin konkret vəzifələri göstərildi.

Azərbaycan kəndinin sinfi, siyasi baxımdan birdən-birə kəndli sovetlərinin təşkilinə keçməyə hələ hazır olmadığını nəzərə alaraq, AKP-n in II qurultayı kənddə yoxsul komitələrinin təşkili vasitəsilə kəndliləri dərindən təbəqələşdirmək məqsədilə inqilab komitələri və sovetlər arasında aralıq keçid dövrünün olmasının zəruriliyini göstərdi.

Yoxsul komitələrinin seçilməsi ilə kənd və nahiyyə inqilab komitələri ləğv edilirdi. Bəzi qəzalarda Bakı fəhlələrinin nümayəndələri yoxsul komitələrinin sədri təyin olunurdular.1921-ci

ilin əvvəlində nahiyə yoxsul komitələrinin təşkili yerlərdə başa çatdı.

Bakıda yoxsul komitələrinin Birinci Ümumazərbaycan qurultayına hazırlıqla əlaqədar görülmüş işlərin ilkin nəticələrinə yekun vurulur, hər nahiyyədən 10 nəfər olmaqla nümayəndələr seçilirdi.Azərbaycan Yoxsul Komitələri qurultayı kənd əhalisinin qəzalarda sovetlərə seçkilər sisteminə keçmək üçün hazırlanmasında mühüm addım olmalı idi.

1921-ci il fevralında Bakıda Yoxsul Komitələrinin Birinci Ümumazərbaycan qurultayı oldu. Qurultay yoxsulların və ortababların simasında kəndlilərin ümumi kütləsindən ictimai qüvvənin ayrılmasına, onların bütün respublikada sovetlərin təşkili kampaniyasına keçilməsinə fəal cəlb olunması üçün obyektiv şərait yaradılmasına müəyyən dərəcədə kömək etdi. N.Nərimanov demişdi: "Yoxsul komitələri öz işlərini gördü, əhali arasında müəyyən təbəqələşmə apardı. İndi sovet quruculuğu asan gedəcək, çünki artıq kəndlilərin şüurunda şəksiz inqilab baş verib, indi yoxsul kəndlinin beyni işləyir.

Bu qurultay qarşıdakı Ümumazərbaycan Sovetlər qurultayı üçün bir növ məşq oldu.

Azərbaycan SSR-nin I Sovetlər qurultayı, ilk Konstitusiyanın qəbulu. 1921-ci ilin yanvarından etibarən sovetlərə seçkilər keçirilməsinə və I Ümumazərbaycan Sovetlər qurultayının çağrılmasına hazırlıq başlandı. Bu məqsədlə xüsusi komissiya yaradıldı.

Yerlərdə seçkilərin keçrilməsinə rəhbərlik etmək üçün bütün qəza təşkilatlarına qanun göndərilmişdi. Qanuna əsasən seçki kampaniyası başa çatandan sonra hər bir qəza şəhərində qəza kəndli, fəhlə və əsgər deputatları soveti fəaliyyət göstərməli idi. Dinindən, milliyyətindən asılı olmayaraq, 18 yaşından yuxarı, məhsuldar və ümumi faydalı əməklə özünə dolanacaq qazanan şəxslərin, kəndlilərin sovetlərə seçmək və seçilmək hüququ var idi. Zəhmətsiz gəlirlə yaşayanlar, tacirlər, dəllallar, mollalar, din xadimləri, polisin və onun keçmiş agentlərinin seçmək və seçilmək hüququ yox idi.

Beləliklə,respublika əhalisinin nüfuzlu, inkişaf etmiş hissəsini demokratik hüquqlardan məhrum edir və əslində dövlət quruculuğunda iştirakdan kənarlaşdırırdılar. Bununla da demokratiya prinsipləri pozulur, cəmiyyət üzərində totalitar rejimin-diktator təkhakimiyyətliliyinin meydana çıxmasına zəmin yaradılırdı.

Azərbaycanda marqinal təbəqə-daldanacağı, sığınacağı, kifayət qədər mədəniyyəti olmayan, yoxsullaşmış dünənki kəndlilər, fəhlələr inzibati-amirlik rejimini təmin etdiyi üçün yeni hakimiyyət onlara arxalanırdı. Çünki marqinallar rahat yaşayış iddiasında olmur, dövlətin verdiyi sədəqədən məmnun qalırlar. İnsanlarda kütləvi bərabərçilik psixologiyası, dövlətdən asılılıq, onun iradəsinə tabelik psixologiyası əmələ gəlirdi.

1921-ci il aprelin ortalarında qəzaların əksəriyyətində sovetlərə seçkilər qurtardı. Seçkilərin keçirilməsini çətinləşdirən başqa səbəblər də var idi: əvvəla, sovetlərə seçki yeni iqtisadi siyasətə keçilməsi ilə eyni vaxta təsadüf edirdi; ikincisi, qəzaların heç də hamısında yoxsul komitələri öz rolunu hələ axıradək oynamamışdı; ən nəhayət isə, Azərbaycan Kommunist Partiyasında müxtəlif fraksiyalar arasında barışmaz mübarizə gedirdi.

Buna baxmayaraq, qəza partiya təşkilatları Bakıdan gələn məsul işçilərin köməyi ilə bütövlükdə sovetlərə seçkiləri çox sürətli şəkildə başa çatdıra bildilər. Əvvəlcə kənd və nahiyyə sovetləri, sonra isə, qəza sovetləri seçildi. Kənd və nahiyyə sovetləri deputatlarının yarıdan çoxu yoxsulların və ortababların nümayəndələri idi. Sovetlərin bir çoxunda deputatların əksəriyyətini kommunistlər təşkil edirdi. Əlamətdar hal o idi ki, azərbaycanlı qadınlar nəinki seçkilərdə fəal iştirak etmişdi, həm də qəzaların bir çoxunda sovetlərə deputat seçilmişdilər. Ümumiyyətlə, 1921-ci il aprelin sonu və mayın əvvəlinədək Azərbaycanda 30 minə qədər deputatı olan təxminən 1400 Kənd Soveti seçilmişdi.

1921-ci il mayın 6-19-da Bakıda I Ümumazərbaycan Sovetlər qurultayı keçirildi. Seçilmiş 601 nümayəndədən 590 nəfəri qurultaya gəlmişdi. Nümayəndələrin sosial və milli tərkibi belə idi:

fəhlələr-140, kəndlilər-189, qulluqçu və ziyalıların nümayəndələri – 116 nəfər idi, azərbaycanlılar - 325, ruslar - 75, ermənilər isə 21 nəfər deputatla təmsil olunmuşdu.

Qurultay əslində kommunist nümayəndələrdən ibarət idi. Qurultayda başqa partiyalar və ya siyasi müxalifət təmsil olunmamışdı.

Qurultayın gündəliyinə N.Nərimanovun hökumətin fəaliyyəti və beynəlxalq vəziyyəti haqqında, M.D.Hüseynovun respublikanın xarici siyasəti, D.X. Bünyadzadənin xalq maarifi, Ə.H.Qarayevin Azərbaycan Qızıl ordusunun təşkili, H.Sultanovun yeni iqtisadi siyasət şəraitində sovet quruculuğunun vəzifələri haqqında məruzələri daxil idi.

N.Nərimanov öz məruzəsində respublikanın daxili və beynəlxalq vəziyyətini səciyyələndirdi. O, ərzaq, iqtisadi məsələlər, xarici ticarət problemləri barədə də danışdı. Qurultay "bütün fəhlə-kəndli hökumətinin siyasətini və uğurlarını" bəyəndi.

M.D.Hüseynov Azərbaycan sovet hökumətinin xarici siyasətinin əsas mahiyyətini ifadə edərək, demişdi: "Biz inqilab uğrunda, sovet Rusiyası uğrunda Antantaya və hər cür imperialistlərə amansız mübarizə elan edirik".

D.X.Bünyadzadənin məruzəsi üzrə qurultay xalq maarifinin inkişafı üçün vacib olan qərar qəbul etdi, orada məktəblərin maddi-texniki bazasının yaradılması vəzifəsi xüsusi vurğulandı.

Azərbaycan SSR-nin ilk Konstitusiyasının qəbul edilməsi qurultayın işində əhəmiyyətli yer tutmuşdu.Qurultay 1921-ci il mayın 19-da Azərbaycan SSR-in ilk Konstitusiyasını (Əsas qanununu) təsdiq etdi. Konstitusiya 5 bölmə,15 fəsil,104 maddədən iobarət idi. Lakin Azərbaycan SSR-in ilk Konstitusiyası müstəqil dövlətin Əsas qanunu deyildi. Onun başlıca prinsipial müddəaları RSFSR-in birinci Konstitusiyasının əslində təkrarı idi. Konstitusiya bəyan edirdi ki, Azərbaycanda ali hakimiyyət fəhlələrə və kəndlilərə, öz əməyi ilə yaşayanların hamısına məxsusdur. Məscidlər, kilsələr dövlətdən, məktəblər isə onlardan ayrılırdı.

Məktəblərin dünyəvi, təhsilin isə pulsuz, ümumi və icbari olduğu elan edildi.

Konstitusiya fəhlə və kəndli təşkilatlarına mətbuat və söz azadlığı verirdi. Ümumi hərbi mükəlləfiyyət müəyyən edilir, respublikanın müdafiəsi bütün əməkçilərin borcu sayılırdı.

Konstitusiyanın 13-cü maddəsində irqindən, milli mənsubiyyətindən asılı olmayaraq bərabərlik təsbit edilmiş, milli azlıqların mənafelərinin qorunmasına təminat verilmişdi.

Konstitusiya təsdiq edildikdən sonra onun tələbinə uyğun olaraq, Azərbaycan İnqilab Komitəsi ləğv edildi. Konstitusiyada göstərilirdi ki, Ali Qanunverici orqan Ümumazərbaycan Sovetlər Qurultayı, qurultaylar arasındakı dövrdə isə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsidir (MİK). Azərbaycan SSR MİK-in tərkibini seçdi. Azərbaycan MİK 73 üzvdən və 26 nəfər üzvlüyə namizəddən ibarət idi. Bunlardan 51 nəfəri azərbaycanlı, 14-ü rus, 3-ü erməni, 2- si gürcü, 1 nəfəri yəhudi idi .

Azərbaycan MİK-in mayın 21-də açılan I sessiyasında 9 üzvdən və 3 nəfər namizəddən ibarət Rəyasət Heyəti seçildi. Azərbaycan kəndlilərinin nümayəndəsi M.H.Hacıyev Azərbaycan MİK-in sədri seçildi.

Azərbaycan MİK-in I sessiyasında Azərbaycan SSR XKS-nin tərkibi təsdiq edildi və N.Nərimanov XKS-nin sədri seçildi.

Beləliklə, Azərbaycanda sovet milli dövlət quruculuğunun üçüncü mərhələsinə (1921-1991-ci illər) keçilməsi başa çatdı.Şəhər, qəza, nahiyyə, kənd sovetləri hakimiyyət orqanına çevrildi.

Xalqın əksəriyyəti ürəkdən inanırdı ki, Azərbaycanın fəhlələri, bütün əməkçiləri öz milli dövlətçiliyini əldə etmişdir. Lakin idarəetmənin totalitar üslubu, velikorus şovinizminin milli müstəqilliyə, azadlığa və hüquq bərabərliyinə təzyiqinin güclənməsi tədricən onun simasını dəyişdirdi.

Milli azlıqlar arasında iş. Azərbaycanın əhalisi çoxmillətli idi. Azərbaycanlılardan əlavə, burada ermənilər, ruslar, gürcülər, ukraynalılar, ləzgilər, kürdlər, yəhudilər, talışlar və başqaları da yaşayırdılar. Milli münasibətlərin mürəkkəb olduğu bir şəraitdə,

xalqlar arasında milli sülh yaradılmasına dair fəaliyyətə başlamaq lazım idi.

Şəhər əhalisinin milli tərkibi qarışıq idi: Bakıda, Gəncədə, Nuxada (Şəkidə), Lənkəranda, Qubada, Şuşada və başqa şəhərlərdə ermənilər, yəhudilər müəyyən faiz təşkil edirdilər. Başqa millətlərdən olan kənd əhalisi əsasən yığcam halda yaşayırdılar. Belə milli rəngarənglik şəraitində sosial-iqtisadi dəyişiklikləri uğurla həyata keçirmək üçün milli sülh yaradılmasının mühüm əhəmiyyəti var idi. Ona görə də Bakı fəhlələri ilə kəndlilər arasında əlaqələrin möhkəmləndirilməsinə, bütün millətlərin nümayəndələrinin yeni respublika quruculuğuna cəlb edilməsinə xüsusi diqqət yetirilirdi.

1920-ci ilin iyulunda AKP Mərkəzi Komitəsi yanında milli azlıqlar şöbəsi yaradılmışdı. O, AKP üzvlərinin çoxmillətli tərkibi arasında iş aparırdı.

Azərbaycan SSR Xalq Maarif Komissarlığında milli azlıqların xalq maarifi məsələləri, mədəni-maarif işi aparılması ilə məşğul olan ayrıca şöbə təşkil edilmişdi. Milli azlıqlar şöbəsinin kollegiyası respublikanın milli azlıqları arasında mədəni-maarif sahəsində görülən bütün işə rəhbərlik edirdi. Milli azlıqların hər biri arasında iş görmək üçün xüsusi milli bölmələr təşkil olunmuşdu. Xalq Təhsili Şöbələri yanında təşkil edilmiş yardımçı şöbələr milli azlıqlar şöbəsinin yerli orqanları rolunu oynayırdı.

1920-ci ilin oktyabrında Azərbaycan SSR-də RSFSR Xalq Milli İşlər Komissarlığının nümayəndəliyi təsis olundu.

Milli azlıqlar şöbələri məktəblər, kitabxanalar və digər mədəni-maarif idarələri açır, yeni dərsliklər və ədəbiyyat nəşr etdirirdi. Pedaqoji kadrlar hazırlamaq məqsədilə tədrisin ana dilində aparıldığı xüsusi kurslar açılmışdı.

Hökumətin milli siyasətinə gəldikdə isə, bu siyasət milli azlıqların hüquq və mənafelərinin hər vasitə ilə qorunmasına və onların əksəriyyətini təşkil edən yerli əhali ilə birgə dinc yaşayışının təmin olunmasına yönəldilmişdi. Sovet hakimiyyətinin taleyi xeyli dərəcədə bu münasibətlərin normal olmasından asılı idi.

Torpağın əməkçi xalqa verilməsi haqqında dekret qəzalarda normal milli münasibətlər yaradılmasında mühüm rol oynadı. Torpaq haqqında dekretin həyata keçirilməsi kəndli kütlələrinin sosial fəallığını artırır, milli qırğının, kənddə tayfa düşmənçiliyinin aradan qaldırılması prosesini sürətləndirir, müxtəlif millətlərdən olan əməkçi kəndlilər arasında mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə imkan yaradırdı.

Sovet hökuməti bütün milli məhdudiyyətlərin ləğvinə, məktəblərdə tədrisin ana dilində aparılmasına dair zəruri tədbirlər görürdü.

Naxçıvan MSSR-in yaradılması. Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra daşnak silahlı qüvvələrinin təcavüzkar hərəkətləri nəticəsində Naxçıvan diyarında gərginlik davam edirdi. RSFSR hökumətinin daşnak hökuməti ilə danışıqlar vasitəsilə münaqişəni həll etmək cəhdi baş tutmadı. 1920-ci ilin iyulunda Naxçıvan, Culfa və Ordubad əhalisi N.N.Nərimanova və Q.K.Orconikidzeyə məktubla müraciət etdi: "Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur, Qızıl ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqə edirik".

XI Qızıl ordu hissələrinə Naxçıvan ərazisini erməni-daşnak işğalçılarından təmizləmək əmri verildi. 1920 -ci il iyulun 28-də XI Qızıl Ordunun Qafqaz polku Naxçıvan şəhərinə daxil oldu. Naxçıvan diyarında da sovet hakimiyyəti quruldu. Naxçıvan Sovet Sosialist Respublikası elan edildi və respublikanın ali hakimiyyət orqanı - Naxçıvan İnqilab Komitəsi yaradıldı. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsi Azərbaycan SSR XKS-nin sədri N.Nərimanova məktub göndərdi. Məktubda deyilirdi: "Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan SSR-nin ayrılmaz tərkib hissəsi hesab etmişdir". Naxçıvan İnqilab Komitəsi sənaye müəssisələri mədənləri, bəy - xan torpaqlarını milliləşdirdi. Yerlərdə İnqilab Komitələri təşkil edilir, kənd yoxsul komitələri yaradılırdı.

Naxçıvan diyarı o zaman böyük çətinliklər içində idi. Daşnak hissələrinin və İranın şimal əyalətində fəaliyyət göstərən əksinqilabi qüvvələrin əhatəsində qalmışdı. Bu qüvvələr Naxçıvanda dəfələrlə sovet hakimiyyətini devirməyə cəhd göstərdilər. Lakin 1921-ci il martın 16-da RSFSR ilə Türkiyə arasında imzalanmış dostluq müqaviləsi sayəsində, imperialistlər tərəfindən dəstəklənən erməni daşnaklarının fitnələrinə son qoyuldu. Bu müqavilə 16 maddə və 3 əlavədən ibarət idi. 3-cü maddədə Naxçıvanın ərazisi və sərhədləri göstərilmişdir. Bu müqavilənin üçüncü bəndinə əsasən Naxçıvan vilayəti "Azərbaycanın qəyyumluğu (protektoratı) altında muxtar ərazi olurdu, bir şərtlə ki, Azərbaycan bu qəyyumluğu üçüncü dövlətə güzəştə getməyəcəkdir". Müqaviləni Türkiyə tərəfindən Yusif Kamal, Riza Nur, Əli Fuad, Rusiya tərəfindən G.Çiçerin və C.Qorxmazov imzaladı.

Naxçıvan diyarının əhalisi əsasən azərbaycanlılardan ibarət idi. 1917-ci il "Qafqaz təqvimi"nin məlumatına görə, "Naxçıvan quberniyasının əhalisi 212.459 nəfər idi, bunun 61%-i azərbaycanlılar, 38 %-i ermənilər idi.

1921-ci ilin sonunda Naxçıvanda sovetlərə seçkilər keçirildi. 1922-ci ilin yanvarında Naxçıvan SSR-nin I Sovetlər qurultayı oldu. Qurultay diyarda sovet və təsərrüfat quruculuğuna, mədəni quruculuğa dair mühüm qərarlar qəbul etdi. Naxçıvan İnqilab Komitəsi ləğv olundu, Naxçıvan İcraiyyə Komitəsi və Naxçıvan SSR XKS yaradıldı.

1922-ci il mayında AK(b)P MK-nın Rəyasət Heyəti Naxçıvan diyarı haqqında Əsasnamənin və Naxçıvan SSR Konstitusiyasının layihələrini müzakirə etdi. Əsasnamədə deyilirdi: "Naxçıvan diyarı ASSR-nin qəyyumluğu altında muxtar respublika elan edilərək Naxçıvan Sovet Sosialist Respublikası adlandırılsın". Əsasnamədə göstərilirdi ki, Naxçıvan diyarının dövlət hakimiyyəti Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq təşkil edilir.

AK(b)P MK-nın Rəyasət Heyəti bu layihələri müzakirə edib onların son variantını RK(b)P MK-nın müzakirəsinə verdi. 1922-ci

ilin noyabrında V.İ.Leninin sədrliyi ilə RK(b)P MK Siyasi Bürosu Naxçıvan Muxtar Respublikası yaradılmasının zəruriliyi haqqında qərar qəbul etdi.

1924-cü il fevralın 9-da Azərbaycan SSR MİK-in Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında dekret verdi. Naxçıvan SSR haqqında yeni Əsasnamənin layihəsini hazırlamaq üçün komissiya yaradıldı.

Azərbaycan SSR MİK SSRİ-nin Konstitusiyasının prinsipləri əsasında hazırlanmış Naxçıvan MSSR haqqında yeni Əsasnaməni təsdiq etdi.Əsasnamənin birinci maddəsində deyilirdi ki, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Naxçıvan MSSR hüdudlarında bütün hakimiyyət ölkənin sovetlərdə birləşmiş bütün əməkçi əhalisinə məxsusdur.

Əsasnamənin ikinci maddəsində göstərilirdi ki, Naxçıvan MSSR Azərbaycan SSR-nin tərkib hissəsidir və Muxtar Respublika kimi onun tərkibinə daxil olur.

1925-ci ilin martında keçirilən Azərbaycan SSR-nin IV Sovetlər qurultayı Azərbaycan SSR Konstitusiyasına əlavə etdi. Əlavədə deyilirdi ki, Naxçıvan MSSR Azərbaycan SSR-nin tərkibinə daxildir. 1926-cı il aprelin 18-də 5-ci Ümumazərbaycan Sovetlər Qurultayı Naxçıvan MSSR-in I Konstitusiyasını qəbul etdi.

Beləliklə, Azərbaycan SSR-nin tərkibində Naxçıvan MSSR yaradıldı. Naxçıvan muxtariyyətinin yaradılması diyarın özünəməxsus coğrafı mövqeyi ilə də bağlı idi: o, Şimal və Şərqdən Ermənistanla, cənub və cənub-qərbdən İran və Türkiyə ilə həmsərhəddir. Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar ərazi statusu RSFSR-in iştirakı ilə, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin 13 oktyabrında Qarsda bağlanmış 20 maddədən ibarət dostluq müqaviləsində təsbit edildi.

Ümummilli Lider Heydər Əliyev demişdir ki, Zəngəzur Azərbaycandan qoparılmasaydı, Naxçıvanın Muxtar statusuna ehtiyac qalmazdı.

Beləliklə, Naxçıvanın 1920-1990-cı illərdə siyasi quruluşu aşağıdakı kimi olmuşdur:

1920-1923-cü illər – Naxçıvan Sovet Sosialist Respublikası

1923-1924-cü illər – Naxçıvan Muxtar Diyarı

1924-1990-cı illər - Naxçıvan Muxtar Sovet Sosialist Respublikası

1990 - bu günədək Naxçıvan Muxtar Respublikası

Hal-hazırda ərazisi: 5502.75 kv.km; əhalisi:461,530 nəfər təşkil edir.

1924-cü ildə Naxçıvan MSSR-də 3 qəza və 12 dairə təşkil olunmuşdu.

Ermənistan Naxçıvanı özünə birləşdirmək siyasətindən əl çəkmirdi. Moskvadakı bəzi himayədarlarının köməyilə Naxçıvanın bəzi ərazilərini qoparıb özünə birləşdirməyə nail oldu. 1929-cu ildə Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvanın 657 kv.km-lik ərazisi – Şərur, Şahbuz, Ordubad dairəsinin bir sıra torpaqları Ermənistana verildi.1930-cu ildə Naxçıvanın Aldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələri hesabına Mehri rayonu yaradıldı.

DQMV-nin təşkili. Sovet hakimiyyəti Azərbaycanın ərazisində yaşayan bütün xalqların sosial və milli azadlığını elan etdi. Azərbaycan ərazisinə, əsasən müxtəlif vaxtlarda köçürülmüş ermənilər ölkədəki milli azlıqlar arasında faiz etibarilə çoxluq təşkil edirdi. Onların böyük əksəriyyəti əzəli Azərbaycan ərazisi olan Qarabağın dağlıq hissəsində yığcam şəkildə, azərbaycanlılarla qonşuluqda yaşayırdı. Azərbaycanın bu guşəsinin iqtisadiyyatı, sosial-siyasi və mədəni həyatı ilə tarixən sıx və dərindən bağlı idi.

Azərbaycan hökuməti Qarabağda, xüsusilə onun dağlıq hissəsində sosial-siyasi vəziyyətə xüsusi diqqət yetirirdi. 1920-ci il aprelin 30-da Azərbaycan hökuməti Ermənistanın daşnak hökumətinə nota göndərərək tələb etdi:

1.Qarabağ və Zəngəzur ərazilərindən qoşunlarınızı çıxarın.

2. Öz sərhədlərinizə çəkilin.

3.Millətlərarası ədavətə son qoyun,əks halda Azərbaycan SSR-nın İnqilab Komitəsi özünü Ermənistan Respublikası hökuməti ilə müharibə vəziyyətində hesab edəcək.

Qarabağda və Zəngəzurda yerləşən Azərbaycan qoşun hissələrinə hücumu dayandırmaq, əlverişli mövqe tutaraq müdafiə vəziyyətinə keçmək əmri verildi. Əmrdə bildirilirdi ki, Ermənistan ultimatumda göstərilən şərtləri yerinə yetirməsə, Qızıl ordu Azərbaycan hissələrinə köməyə göndəriləcəkdir.

Q.K.Orconikidze Ermənistanla müqavilə imzalanana qədər Azərbaycanın nümayəndəsini Moskvaya dəvət edərək Azərbaycana və Ermənistana aid bütün məsələləri həmin nümayəndə ilə birlikdə həll etməyi təklif edirdi.

Belə mürəkkəb şəraitdə yenə də erməni hərbi hissələrinin təcavüzkar əməlləri davam edirdi. Artıq XI Qızıl ordu hissələrinin yerləşdiyi Qarabağ, Zəngəzur ərazilərində ermənilər xüsusilə azğınlaşmışdılar.Ermənistanın daşnak təcavüzkarlığının azğınlığını həm Qərb imperialistlərinin, həm də Moskva siyasətçilərinin ikili siyasəti ilə izah etmək olar. Məlum olduğu kimi, hələ Ermənistanda sovet hakimiyyəti qurulana qədər orada RSFSR-in səlahiyyətli nümayəndəsi (B.V.Leqran) var idi. Mayda Qızıl ordu hissələri Qarabağa daxil olanda Moskvada daşnak hökumətinin və Rusiyanın nümayəndələri arasında danışıqlar başlanmışdı. Maraqlıdır ki,elə həmin vaxt Fransa Xarici İşlər Nazirliyinin Gürcüstan hökumətinə göndərdiyi məktubda bildirilirdi ki, Gürcüstan hökumətinin öz ölkəsinin müstəqilliyini qoruyub saxlamaq üçün göstərdiyi səyləri qraf Kerzon qiymətləndirir və "silah və sursat çatdırılması barədə Ermənistan respublikası ilə dostluq sazişinə gəlməsini bildikdə məmnun qalmışdır". Məktubda daha sonra deyilirdi ki, "silah təchizatı haqqında Ermənistanın hakimiyyət orqanları ilə saziş əldə olunmuşdur".

1920-ci il iyulun 15-də AK(b)P Ermənistanla sülh haqqında məsələni müzakirə edərək qərara aldı ki, Qarabağ və Zəngəzur Azərbaycana birləşdirilməlidir. 1920-ci il avqustun 10-da İrəvanda RSFSR ilə daşnak hökuməti arasında bağlanmış müqaviləyə əsasən

Rusiya Ermənistanın müstəqilliyini tanıdı. Müqavilədə Qarabağ, Zəngəzur və Naxçıvan "mübahisəli vilayətlər" elan olunur və göstərilirdi ki,sovet qoşunlarının mübahisəli əraziləri tutması ilə Ermənistan Respublikasının və ya Azərbaycan SSR-nin həmin ərazilərə hüquqları haqqında məsələ bəri başdan həll edilmir.

Qarabağ və Zəngəzuru ta qədimdən, heç bir təsərrüfat əlaqələri olmayan İrəvanla deyil, Bakı ilə rahat yollar birləşdirirdi, Qarabağ və Zəngəzur kəndlilərinin böyük hissəsi Bakının neft mədənlərində özlərinə dolanışıq tapırdı. Azərbaycan ərazisinin daşnak quldurlarından və İrəvan emissarlarından təmizlənməsi ilə Qarabağın ermənilər və azərbaycanlılar yaşayan hissələrinin siyasi və iqtisadi vahidliyə çevrilməsi prosesi baş verirdi. Cənubi Qafqazda sovet hakimiyyəti qurulduqdan sonra üç sovet respublikasının ərazi məsələləri ilə yaxından məşğul olmaq mümkün oldu.

1921-ci ilin iyununda daşnaklar Ermənistan və Azərbaycanın bir sıra sərhədyanı rayonlarında, xüsusən Zəngəzurda, Qarabağın dağlıq hissəsində qiyam təşkil edərək "Qərbi Ermənistan" qaçqınlarını da ona cəlb etdilər. Erməni qoşunları "Yaşasın Ermənistanın ayrılmaz hissəsi olan sovet Zəngəzuru!" şüarı ilə pərdələnərək guya sovet hakimiyyətini möhkəmləndirmək uğrunda mübarizə adı altında Zəngəzurun içərilərinə soxularaq çoxlu kəndi ələ keçirdilər. Bundan əvvəl, hələ 1921-ci ilin fevralında daşnaklar Zəngəzur, Naxçıvan, Böyük Vedi rayonlarında qırğın törətmiş, Qazax rayonunun dərələrində günahsız azərbaycanlı, erməni və gürcü sakinlərinin qanı tökülmüşdü. Daşnaklar Zəngəzuru Njde, Ruben paşa kimi avantürist cəlladların və digər quldurların yuvasına çevirmişdilər. Bu təcavüzkar əməllər nəticəsində Qarabağın dağlıq hissəsində çox ağır vəziyyət yaranmışdı.

Azərbaycan hökumətinin təkidi ilə 1921-ci il iyunun 3-də RK(b)P MK Qafqaz bürosunun plenumu daşnakların Zəngəzurdakı qruplaşmasının tezliklə ləğv olunması haqqında qərar qəbul etdi və erməni hökumətinə bir vəzifə olaraq tapşırdı ki, öz bəyannaməsində Dağlıq Qarabağın Ermənistana guya məxsus olduğunu göstərsin.

1921-ci il iyunun 19-da Ermənistan SSR hökuməti Dağlıq Qarabağı "Ermənistanın ayrılmaz hissəsi" elan etdilər.

1921-ci il iyunun 25-27-də Tiflisdə komissiyanın iclası keçirildi. Elə ilk iclasda Ermənistanın nümayəndəsi Bekzadyan "Cənubi Qafqazın inzibati bölgüsünün ədalətsiz olduğunu" vurğulayaraq, dostcasına qarşılıqlı münasibətlər yaratmaq naminə, müəyyən ərazi güzəştləri etməyi, özü də erməni əhalisinin yığcam yaşadığı rayonlarda güzəştlər etməyi təklif etdi. O, eyni zamanda bildirdi ki, Stalin Moskvada onunla və Myasnikovla söhbət zamanı bu fikrə tamamilə şərik çıxmışdır.

Azərbaycan və Gürcüstan nümayəndələri hər hansı ərazi güzəştlərinin yolverilməz olması barədə əks təkliflə çıxış etdilər. S.M.Kirov onları dəstəklədi. Bununla belə mübahisə həll olunmadı və RK(b)P MK Qafqaz Bürosunun müzakirəsinə verildi. Bu arada Ermənistan SSR hökuməti A.Mravyanı Dağlıq Qarabağda özünün fövqəladə müvəkkili təyin etdi və 1921-ci il iyunun 25-də o, Qarabağa gəlmək üçün Tiflisdən yola düşdü. Ancaq N.Nərimanov Mravyandan tələb etdi ki, məsələni aydınlaşdırmaq üçün Bakıya gəlsin. Mravyan Bakıya gəlməyə razı olmadı və elə həmin gün Orconikidzeyə məktub göndərərək, Dağlıq Qarabağ məsələsinin həllini sürətləndirməyi xahiş etdi.İyunun 26-da Q.Orconikidze və S.M.Kirov Tiflisdən N.Nərimanova təcili teleqram göndərərək Qarabağ haqqında məsələnin həlli üçün dərhal AK(b)P Siyasi Bürosunu və XKS-ni toplamağı xahiş etdilər. Eyni zamanda onlar özlərinin rəyini də bildirdilər: məsələni həll edərkən belə bir prinsipi rəhbər tutun,-"Heç bir erməni kəndi Azərbaycana birləşdirilməməlidir, heç bir müsəlman kəndini də eyni şəkildə, Ermənistana birləşdirmək olmaz" .

1921-ci il iyunun 27-də N.Nərimanov Q.K.Orconikidzeyə və A.Myasnikova bu məzmunda teleqram göndərdi: "Azərbaycan XKS belə hesab edir ki, Mravyanın Dağlıq Qarabağda Ermənistanın fövqəladə müvəkkili kimi peyda olması çox böyük siyasi və taktiki səhvdir. Bunu nəzərə alaraq, Azərbaycan XKS Mravyanın tezliklə geri çağrılmasını xahiş edir".

İyunun 27-də Mravyan Qarabağdan geri çağırıldı. 1921-ci il iyulun 4-də RK(b)P MK Qafqaz bürosu plenumunun iclasında Qarabağ məsələsi müzakirə olunarkən iki fikir ortaya çıxdı. Bunların hər ikisi səsə qoyuldu (yalnız Qafqaz bürosunun üzvləri səs verirdilər). Qarabağın Azərbaycanın tərkibində saxlanmasının lehinə Nərimanov,Maxaradze, Nazaretyan, əleyhinə Orconikidze, Myasnikov, Kirov, Fiqatner səs verdilər. Beləliklə, plenum qərara aldı: "Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə daxil edilsin, rəy sorğusu yalnız Dağlıq Qarabağda keçirilsin". Belə olan halda N.Nərimanov bəyanatla çıxış etdi: "Qarabağ məsələsi Azərbaycan üçün mühüm məsələ olduğuna görə, onun qəti həllinin RKP MK-ya çıxarılmasını zəruri sayıram".

Nəhayət, 1923-cü il iyulun 1-də AK(b)P MK-nın Rəyasət Heyəti S.M.Kirovun sədrliyi ilə Qarabağ haqqında məsələni müzakirə edərək qərara aldı: "Azərbaycan MİK-ə (Rəyasət Heyətinin adından) Dağlıq Qarabağın muxtariyyəti barədə dekret verib mərkəzi Xankəndi olmaqla Qarabağ Muxtar Vilayəti yaradılsın". İcraiyyə Komitəsi təşkil edilənə qədər Qarabağı idarə etmək üçün beş nəfərdən ibarət İnqilab Komitəsi və yenə beş nəfərdən ibarət vilayət partiya komitəsi yaratmaq təklif olunurdu. İnqilab komitəsı iki ay ərzində Sovetlər qurultayı çağırmalı idi.

1923-cü il iyulun 7-də Azərbaycan SSR MİK "Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili haqqında" dekret verdi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi qərara aldı:

1.Dağlıq Qarabağın ermənilər yaşayan hissəsində Xankəndi mərkəz olmaqla, Azərbaycan SSR-in tərkib hissəsi kimi muxtar vilayət təşkil edilsin.

2.Muxtar vilayətin idarəetmə orqanları Vilayət İcraiyyə Komitəsi və yerli sovetlərdir.

Vilayət İcraiyyə Komitəsi təşkil edilənədək, dekretə əsasən, Müvəqqəti İnqilab Komitəsi yaradılmalıdır.

Beləliklə, 1923-cü il iyulun 7-də Azərbaycan MİK-in dekreti və Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradıldığı elan edildi.

Azərbaycan SSR MİK və XKS-nin 1923-cü il 24 iyul tarixli qərarına əsasən I DQMV Sovetlər qurultayı çağırılana qədər Dağlıq Qarabağ Muxtar Vilayətini idarə etmək üçün əksəriyyəti erməni olmaqla beş nəfərdən ibarət Müvəqqəti İnqilab Komitəsi təşkil olundu.

1923-cü il iyulun 16-da AK(b)P MK-nın Rəyasət Heyəti D.X.Bünyadzadənin sədr olduğu komissiyanın Qarabağ məsələsinə dair məruzəsini müzakirə edərək, "kürdlərin yaşadıqları ərazidən "Kürdüstan qəzası" yaratmağı qərara aldı. İyulun 21-də Azərbaycan MİK və Azərbaycan SSR XKS komissiyanın bu təklifini təsdiq etdi.

Azərbaycanın rəngarəng etnoqrafik mənzərəsi bütün etnik qruplara tam muxtariyyət verilməsini, onları ərazilərin tarixi mənsubluğu prinsipi üzrə ayırmağı qeyri-mümkün edirdi. Çünki bu etnik qrupların hər biri sayca az idi və digər xalqların içərisində güclü şəkildə qaynayıb qarışmışdı.

Çoxları Qarabağın tarixinə müraciət edərək, Qarabağın iki inzibati orqana - "Dağlıq" və "Düzən" Qarabağa bölünməsinin süni olduğunu isbat edirdilər. Məlum olduğu kimi, Qarabağ xanlığının ərazisi Rusiyanın istilasından sonra inzibati ərazi vahidləri olan qəzalara bölünmüşdü.

1918-ci ildə Zaqafqaziyada üç müstəqil respublika yarandıqdan sonra Qarabağ, Azərbaycan Xalq Cümhuriyyətinin bütöv tərkib hissəsi kimi, Şuşa, Qaryagin, Cavanşir, bir müddət həm də Qubadlı qəzalarını əhatə edirdi və burada Qarabağ general-qubernatorluğu təşkil olunmuşdu. Məhz o zaman Ermənistan Azərbaycanın ərazilərinə münasibətdə ilhaqçılıq siyasətini gücləndirdikcə, daşnak emissarları inzibati vahid kimi "Dağlıq Qarabağ" adını uydurmuşdular və bu ərazinin hər vəchlə Ermənistana birləşdirilməsinə çalışırdılar. Qarabağın süni şəkildə bu cür parçalanması Azərbaycanın Ermənistanla həmsərhəd olan qərb rayonlarının, azərbaycanlı, qismən kürd əhalisinin yaşadığı Zəngəzur, Qubadlı qəzalarının və digər ərazilərin vəziyyətini son dərəcə mürəkkəbləşdirirdi. Burada ağır vəziyyət yaranmışdı - bir hissədə (Minkənd rayonu) sovet hakimiyyəti, digərində isə

(Hacısamlı rayonu) iri mülkədar Sultan bəyin hakimiyyəti mövcud idi. Onların arasında saziş yaratmaq siyasəti heç bir nəticə vermədi.

1920-ci il sentyabrın 18-də AK(b)P MK-nın Siyasi və Təşkilat bürosu Qarabağ-Kürdüstan məsələsini müzakirə etdi və Sultan bəyi öz dəstəsi ilə birlikdə təcrid etməyi, müsəlman rayonunda partiya işini qaydaya salmaq üçün məsul işçi M.B.Qasımovu oraya göndərməyi qərara aldı. Zəngəzur qəzasının əhalisi müsəlmanlardan (azərbaycanlılar, kürdlər) və gəlmə ermənilərdən ibarət idi. Daşnak quldur dəstələrinin təcavüzü nəticəsində müsəlman kəndləri dağıdılmış, yandırılmış, müsəlman əhalisinin qalan hissəsi isə Zəngəzurun müsəlmanlar yaşayan hissəsində, əsasən Qubadlı qəzasında sığınacaq tapmışdı. Nəticədə Zəngəzur qəzası əslində iki hissəyə - daşnakların ağalıq etdiyi erməni hissəsinə və sovet hakimiyyətinin təsirinin hələ zəif olduğu müsəlman hissəsinə parçalanmışdı. Daşnaklar daim müsəlman kəndlərinə basqın edib onları viran qoyurdular. Qubadlının nümayəndəsi Ç.İldırım Azərbaycanın I Sovetlər qurultayındakı çıxışında Qubadlı qəzasının mənzərəsini belə səciyyələndirmişdi: "Bu,canlı əhalisi olan qəbiristanlıqdır, insanlar büsbütün çılpaq, ayaqyalın, ac-yalavac, gündən qapqara yanmış vəziyyətdə gəzirlər, onların, xüsusən qadınların görünüşü deyilməz dərəcədə dəhşətlidir. Hamı bir tikə çörək və çılpaq bədənlərini örtmək üçün parça tapmaq həsrətindədir".

Kürd məsələsi yüksək partiya və sovet orqanlarında dəfələrlə müzakirə mövzusu oldu. DQMV Əsasnaməsinin işlənib hazırlanması, Dağlıq və Düzən Qarabağ arasında, habelə Dağlıq Qarabağ ilə Kürdüstan arasında inzibati ərazi sərhədi, düzən Qarabağın və Kürdüstanın inzibati idarə formalarının müəyyənləşdirilməsi üzrə komissiya 1923-cü ilin iyulunda bu məsələyə dair iki təklif müzakirə etdi: 1.Kürdüstanı bilavasitə Mərkəzə tabe olan Cavanşir, Şuşa və Qubadlı rayonlarından ibarət xüsusi inzibati vahidə ayırmaq. 2. Kürdüstan düzən Qarabağa tabe olan rayon şəklində qalsın. Müzakirə zamanı bunlardan heç biri qəbul edilmədi, məsələ açıq qaldı.

Qarabağın Dağlıq hissəsində muxtar vilayət yaradılması ilə əlaqədar 1923-cü il avqustun 6-da Azərbaycan MİK qərara aldı: Qarabağın qalan hissəsində Ağdam, Cəbrayıl və Kürdüstan qəzaları yaradılsın. Eyni zamanda hər bir qəzanın mərkəzi və ərazi tərkibi müəyyənləşdirildi.

1923-cü il oktyabrın 8-də AK(b)P MK-nın Rəyasət Heyəti Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili haqqında məsələni müzakirə etdi. Muxtar vilayətin yaradılmasına mərkəzin Şuşadan köçürülməsinə müsəlman əhalisinin bir hissəsinin mənfı münasibət bəslədiyini nəzərə alaraq, Rəyasət Heyəti DQMV-nin təşkilini xüsusilə türk əhalisinin gözündə qaldırmaq üçün Ə.H.Qarayevə tapşırdı ki, Dağlıq Qarabağ Muxtariyyətinin mahiyyətini başa salmaq üçün geniş təbliğat kampaniyasına başlanmasını təmin etsin. Kürdüstan qəzasında və düzən Qarabağ qəzalarında sovet quruculuğuna kömək göstərilməsinə dair konkret tədbirlər nəzərdə tutuldu. Rəyasət heyəti Kürdüstan qəzasında vahid kənd təsərrüfatı vergisinin ləğvi haqqında, onun əhalisinin taxıl, ağac materialları ilə təmin olunması, məktəblər tikilməsi şosse yolu və telefon şəbəkəsi barədə məsələ qaldırdı. Müvafiq binaların əsla olmamasına görə, Kürdüstanın qəza orqanlarını DQMV-nin tərkibində saxlanmış Şuşa şəhərinə keçirmək qərara alındı.

XKS-ə Ağdam, Qaryagin qəzaları və Dağlıq Qarabağ pulsuz olaraq ağac materialları vermək, sudaları artırmaq və DQMV-nin mərkəzi Xankəndində (1923-cü ilin sentyabrında Stepanakert adlandırıldı) elektrik stansiyasının tikintisi üçün vəsait ayırmaq, orada xəstəxana açmaq, aqroməntəqə təşkil etmək, Qaryagin və Ağdamdakı idarələri, məktəbləri tikinti materialları ilə təmin etmək, Qaryagin və Kürdüstan qəzalarını dövlət təchizatına keçirmək barədə göstəriş verildi.

1923-cü il noyabrın 6-7-də Dağlıq Qarabağ Muxtar Vilayətinin I Sovetlər qurultayı oldu. Qurultayda iştirak edən 132 nümayəndədən 116-sı erməni, 16-sı azərbaycanlı, 12-si qadın idi. Qurultay nümayəndələrinin 80%-ni kommunistlər təşkil edirdi. Qurultayı

Cənubi Qafqaz MİK adından H.H.Sultanov, Azərbaycan SSR XKS adından Ç.İ.İldırım və İ.İ.Dovlatov salamladılar.

A.N.Karakozov Qarabağ İnqilab Komitəsinin fəaliyyəti haqqında məruzə etdi. Qurultay 25 nəfərdən ibarət ilk DQMV MİK-i seçdi.

1924-cü ildə dərc olunmuş "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə"də deyilirdi ki, DQMV Azərbaycan SSR-nin tərkib hissəsidir, bütün kargüzarlıq, məhkəmə işləri və DQMV-nin məktəblərində tədris ana dilində aparılır. Əsasnamədə DQMV-yə daxil olan ərazi göstərilmiş, respublika və yerli hakimiyyət orqanlarının təşkilinin formaları, hüquq və vəzifələri müəyyənləşdirilmişdi.

"Əsasnamə"yə görə, Şuşa qəzasından Şuşa şəhəri, Xankəndi və 115 kənd, Cavanşir qəzasından 52 kənd, Qaryagin qəzasından 30 kənd, Qubadlı qəzasından isə Qaladərəsi kəndi DQMV-yə verildi.

1923-cü ildə DQMV yaradıldıqdan sonra onun tərkibinə daxil olmuş yaşayış məskənləri: rayon, volost, kənd pillələri əsasında inzibati baxımdan aşağıdakı kimi bölünmüşdü. 1.Ceraberd rayonu - tərkibində 4 volost (Marquşevan, Orataq, Dovşanlı, Aterk) və 53 kənd var idi; 2.Vərəndə rayonu - tərkibində 5 volost (Tavaverd , Sus, Çartaz, Noraşen) və 46 kənd var idi; 3.Xaçın rayonu - tərkibində 4 volost (Daşbulaq, Əsgəran, Krasnoselsk, Oala dərəsi) və 53 kənd var idi; 4.Dizaq rayonu - tərkibində 5 volost (Hadrut, Tuğ, Xozabyurd, Arakül, Edilli) və 48 kənd var idi; 5.Şuşa rayonu - Şuşa şəhəri və Malıbəyli volostundan (12 kənd) ibarət idi. Yeni inzibati ərazi bölgüsü həyata keçirilərkən DQMV-də dəyişiklik baş verir. 1930-cu ilin avqustunda DQMV ərazisi yenə də 5 rayona bölünür:Ceraberd, Martuni, Xankəndi, Dizaq, Şuşa. Deməli, Vərəndə Martuni adlandırılır, Xocalının ərazisi Xankəndiyə aid edilir. 1939-cu ilin avqustunda Ceraberd Mardakert, Dizaq isə Hadrut adlandırılır. Başqa sözlə, Azərbaycan mənşəli Dizaq, Vərəndə, Xaçın, Ceraberd kimi tarixi-coğrafi adlar unutdurulur və xüsusi məqsədlə Rusiya işğalları dövründə bura köçürülüb gətirilmiş ermənilərə məxsus adlarla əvəz olunur.

1960-cı illərin əvvəllərində rayonların iriləşdirilməsi siyasəti həyata keçirilərkən əsas zərbə Şuşaya dəyir. 1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv edilir, lakin N.S.Xuruşşovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra inzibati ərazi bölgüsündə yeni dəyişiklik baş verir. 1965-ci il yanvarın 6-da Şuşa rayonu yenidən təşkil olunur. 1978-ci ildə Stepanakert rayonu əsasında Əsgəran rayonu təşkil edilir. SSRİ-nin dağılması ərəfəsində Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati bölgüsü belə idi Dağlıq Qarabağ Muxtar Vilayətinin (Xankəndi şəhəri, Şuşa rayonu, Əsgəran rayonu, Ağdərə rayonu, Xocavənd rayonu, Hadrut yaronu) ərazisi: 4,160,5 kv.km-dir. Əhalisi təxminən 187.769 nəfər idi.

Bu xəyanətkar səxavətlilik Azərbaycan millətinin mənafeyinə, gələcəyinə ağır ziyan vuran bağışlanmaz cinayət idi. Azərbaycan ərazisinin parçalanması və qonşu respublikalara hədiyyə edilməsi SSRİ hökümətinin və rus çarizminin "parçala və hökm sür" siyasətinin təzahürü idi.

Cənubi Qafqaz respublikalarının təsərrüfat fəaliyyətinin birləşdirilməsi. Sovet ideologiyasına görə yeni cəmiyyət quruculuğu buradakı bütün millətlərin və xalqların zəhmətkeşlərinin sıx iqtisadi əməkdaşlığını tələb edirdi. Cənubi Qafqaz respublikaları arasında təsərrüfat əməkdaşlığı olmadan həmin dövrdə bu respublikalardan hər birinin ayrılıqda özünün xalq təsərrüfatını bərpa və inkişaf etdirməsi çox çətin idi. Ona görə də sovet hakimiyyəti qurulduqdan sonra yeni respublikaların iqtisadi ittifaqı məsələsi qarşıda dururdu.

O zaman Cənubi Qafqaz respublikaları ərzaq sarıdan ciddi korluq çəkirdilər, xüsusən Bakı fəhlələri ağır vəziyyətdə idilər. Bu da bütün ölkənin kəskin ehtiyacı olan neft istehsalının pozulması təhlükəsini doğururdu. V.İ.Lenin 1921-ci il aprelin 9-da Cənubi Qafqaz respublikalarının rəhbərlərinə müraciət edərək "bütün Cənubi Qafqaz üçün vilayət təsərrüfat orqanı yaratmağı" təkidlə tələb edirdi.

İlk növbədə Cənubi Qafqaz respublikaları ilə RSFSR arasında təsərrüfat sahəsində qarşılıqlı münasibətlər, xalq

komissarlıqlarının, respublikaların planlarının və ali iqtisadi Şuraların fəaliyyətinin əlaqələndirilməsi məsələləri dururdu.

Bütün Cənubi Qafqaz üçün vahid dəmir yolu və xarici ticarət orqanları yaradılması birinci dərəcəli vəzifə kimi irəli sürüldü. Cənubi Qafqaz respublikalarının ərzaq və sənaye mallarına ehtiyacı var idi.

1921-ci il aprelində Azərbaycan Neft Komitəsinə xaricdə neft məhsullarını avadanlığa, paltar və ərzağa dəyişdirmək hüququ verilməsi barədə V.İ.Lenin göstəriş verdi. Ali İqtisadi Şuranın sədri Mirzə Davud Hüseynov demişdi ki, bu qərar olmasaydı, bizim neft sənayemiz süquta uğrayardı.

Xariclə müvəffəqiyyətlə ticarət aparılması bütün Cənubi Qafqaz üçün vahid xarici ticarət orqanı yaradılmasını tələb edirdi.

Ayrı-ayrılıqda fəaliyyət göstərən üç dəmir yolunun mövcudluğu Cənubi Qafqaznın xalq təsərrüfatının bərpa və inkişafına güclü əngəl törədirdi. Hər üç respublikanın xalq təsərrüfatının inkişafı naminə dəmir yolunun normal işləməsi üçün onları birləşdirmək və vahid orqana tabe etmək lazım idi.

Dəmir yollarınınm birləşdirilməsi ilə əlaqədar Cənubi Qafqaz respublikaları arasında gömrük maneələrinin ləğvi məsələsi də həll olundu. 1921-ci il mayın 2-də RKP MK Qafqaz bürosu Cənubi Qafqaz respublikaları arasında gömrükxanaları və sərhəd postlarını ləğv etməyi qərara aldı. 1921-ci ilin iyununda Azərbaycan XKS qonşu sovet respublikaları ilə sərhəddə gömrükxanaların ləğv olunması haqqında dekret verdi. Cənubi Qafqaz respublikalarının xarici ticarət komissarlıqlarını birləşdirmək qərarına uyğun olaraq Gürcüstan, Azərbaycan və Ermənistan arasında saziş imzalandı.

1921-ci ilin martında keçirilən I Cənubi Qafqaz Həmkarlar İttifaqları qurultayı 3 respublikanın həmkarlar İttifaqlarının birləşdirilməsini qəti olaraq təsbit etdi. 1921-ci il sentyabrın 1-də Bakıda Qafqaz respublikaları kommunist gənclər təşkilatlarının I qurultayında 3 respublikanın komsomol təşkilatları birləşdirildi.

Beləliklə, partiya təşkilatları kimi həmkarlar İttifaqları və komsomol təşkilatları da Cənubi Qafqaz miqyasında birləşməklə özlərinin müstəqilliyini itirir,əslində Rusiya həmkarlar irtifaqlarının və Rusiya Komsomolunun vilayət hüququnda yerli orqanlarına çevrilirdilər.

Xarici ticarət və respublikaların ərazi sərhədləri, gömrükxanaların və nəzarət məntəqələrinin ləğvi haqqında məsələlərin həlli zamanı respublikaların nümayəndələri arasında kəskin fikir ayrılığı və mübahisələr olurdu. Nümayəndələrin bir çoxu bu kampaniyaların əleyhinə çıxır, mərkəzin həmin sahələrin idarə olunmasını öz əlinə almağa və gələcəkdə bunları tam ələ keçirməyə cəhd göstərməsindən şübhələnirdilər.

1921-ci il iyulunda Tiflisdə RKP MK Qafqaz bürosunun plenumu keçirildi. RKP MK-dan İ.V.Stalinin iştirak etdiyi plenum yuxarıda göstərilən fikir ayrılıqlarını "millətçiliyə doğru meyil etmək faktları" kimi qiymətləndirdi və Azərbaycan, Gürcüstan və Ermənistan kommunist partiyaları MK-larına təklif etdi ki, belə məsələlərin həlli zamanı yalnız bu respublikaların əməkçi kütlələrinin qardaşlıq əlaqələrinin mənafeyini əsas tutsunlar".

1921-ci ilin avqustunda Tiflisdə açılan müşavirə Cənubi Qafqaz respublikalarının iqtisadi siyasətinin əsas cəhətlərini müəyyənləşdirdi. Maliyyə siyasətini birləşdirməyin və Cənubi Qafqaznın bütün respublikaları üçün vahid pul nişanı müəyyən etməyin vacib olduğunu bildirdi. Respublikaların məsələləri ilə məşğul olan xalq komissarlıqlarının fəaliyyətini əlaqələndirmək üçün mərkəzi orqan-İqtisadi büro yaradıldı. Cənubi Qafqaz respublikalarının iqtisadi cəhətdən birləşdirilməsi bu cür başlandı. AKP MK-nın plenumu (1921-ci il, avqust) dərhal, partiyanın göstərişi ilə iqtisadi müşavirə və partiya müşavirəsi haqqında qərar qəbul etdi. Ancaq Gürcüstanda və müəyyən dərəcədə də Azərbaycanda bəzi partiya və sovet işçiləri bu qərarla razılaşmadılar. Erməni nümayəndələri isə özlərinin iqtisadi zəifliyini anlayaraq və iqtisadi cəhətdən birləşməyin Ermənistan üçün sərfəli

olduğunu nəzərə alaraq, bunun tezliklə praktiki surətdə həll edilməsinə çalışırdılar.

RKP MK partiya təşkilatlarına təklif etdi ki, iqtisadi cəhətdən birləşməyin əhəmiyyətli olmasını bütün partiya üzvlərinə və bitərəf əməkçi kütlələrə izah etsinlər.

İqtisadi büronun yaradılması, dəmir yollarının, xarici ticarətin,həmkarlar İttifaqları və komsomol təşkilatlarının birləşdirilməsi Cənubi Qafqaz Federasiyasının yaradılması yolunda ilk addımlar idi.

ZSSR Fİ və ZSFSR-in yaradılması. Cənubi Qafqaz respublikalarının təsərrüfat səylərinin ilkin qaydada birləşdirilməsindən sonra onların yaxınlaşması yolunda yeni mərhələ başladı. Əslində respublikaların dövlət-siyasi birləşməsi adı altında onların müstəqilliyinin məhdudlaşdırılmasına doğru sonrakı addım üçün zəmin yaradılırdı.

RKP MK Qafqaz bürosunun 1921-ci il noyabrın 3-də Bakıda keçirilən plenumu "respublikalar arasında ilk növbədə hərbi, təsərrüfat, maliyyə işi və xarici ticarət sahəsində federativ İttifaq" bağlanması barədə qərar qəbul etdi.Cənubi Qafqaz respublikalarının inzibati-iqtisadi mərkəzini - İttifaq Sovetini yaratmaq və İttifaq müqaviləsinin layihəsini işləyib hazırlamaq üçün komissiya təşkil etmək qərara alındı.

Cənubi Qafqaz Federasiyasının təşkili ətrafında təbliğat-təşviqat kampaniyası genişləndirildi.

1921-ci il noyabrın 21-də RKP MK Siyasi Bürosu V.İ.Leninin təklifi ilə “Cənubi Qafqaz respublikalarının federasiyası prinsipcə tamamilə düzgün və hökmən yaradılmalı hesab edilsin”qətnaməsini qəbul etdi.

Bu birbaşa amiranə göstəriş dönmədən yerinə yetirilməli idi. N.Nərimanov V.İ.Leninə məktubunda yazırdı: Bundan (birləşmədən) nə çıxacağını qabaqcadan bilmək çətindir. Hər halda birləşmə haqqında məsələ Q.Orconikidzenin məruzəsi əsasında artıq mərkəz qarşısında həll edilmişsə, onda yenə də təkid etmək lazımdır ki, İttifaq Sovetinin mərkəzi Tiflis yox, Bakı olsun ".

Federasiya ideyasına qarşı təkcə rəhbərlikdə deyil, yerlərdə də etirazlar, fikir ayrılıqları var idi və Azərbaycanın mənafeyinin tapdalandığı bildirilirdi. Təsadüfi deyil ki AKP-nin IV qurultayı (1922-ci il, 2 fevral) Cənubi Qafqaz respublikaları federasiyasını əməli surətdə həyata keçirməyin zəruri olması haqqında xüsusi qətnamə qəbul etmiş və MK-ya tapşırmışdı ki, "hər cür millətçilik təmayülləri və partiya orqanlarının qərarlarına etinasızlıq göstərmək meyilləri əleyhinə bütün vasitələrlə mübarizə aparılsın".

Azərbaycan zəhmətkeşləri, partiya və ictimai təşkilatlar Mərkəzi Komitənin ciddi nəzarəti altında Cənubi Qafqaz Federasiyasının əməli surətdə yaradılması haqqında qərar çıxartdılar.

1921-ci ilin sonu - 1922-ci ilin əvvəlində Cənubi Qafqaz respublikalarının hamısında sovetlərə seçkilər başa çatmışdı. Sovetlər Federasiya yaradılmasına tərəfdar çıxmışdılar. Cənubi Qafqaz kommunistlərinin 1922 -ci il fevralın 18-22-də Tiflisdə keçirilən I qurultayında Cənubi Qafqaz kommunist təşkilatlarının vahid partiya rəhbərliyində birləşdirilməsi bütün Cənubi Qafqaznın idarə olunmasının Mərkəzin əlində cəmləşdirilməsi məqsədini güdürdü.

1922-ci il martın 11-də Tiflisdə Azərbaycan, Gürcüstan və Ermənistan MİK-ləri nümayəndələrinin səlahiyyətli konfransı açıldı. Konfrans birillik səlahiyyət müddəti olan ali orqan idi və ildə üç dəfədən az olmayaraq çağırılmalı idi. Konfrans özünün icraçı orqanını - İttifaq Sovetini, onun üç nəfərdən ibarət (hər respublikadan bir nəfər) Rəyasət Heyəti və Ali İqtisadi Şura (AİŞ) yaratdı. Habelə AİŞ sədrinin və Cənubi Qafqaz dəmir yolu rəisinin namizədlərini təsdiqlədi. 1922-ci il martın 12-də səlahiyyətli konfrans İttifaq müqaviləsini qəbul etdi və Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqını (ZSSRFİ) yaratdı.İttifaq müqaviləsində deyilirdi ki, Səlahiyyətli konfrans razılığa gələn tərəflərdən hər birinin müstəqilliyini və suverenliyini tanıyaraq, müdafiə məqsədilə və təsərrüfat quruculuğu mənafeyi naminə öz qüvvələrini birləşdirməyin zəruriliyini dərk edərək, "Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist

respublikaları indən belə öz aralarında sıx hərbi, siyasi və iqtisadi İttifaqa daxil olduqlarını" təsdiqlədi.

Müqavilədə göstərilirdi ki, ZSFSR RSFSR ilə ittitaq müqaviləsi əsasında qarşılıqlı münasibətlər qurur. Hərbi və maliyyə işləri, xarici siyasət, xarici ticarət, yollar və rabitə, iqtisadiyyata rəhbərlik və əksinqilabla mübarizə məsələləri İttifaq Sovetinin ixtiyarına verildi. İttifaq Fövqəladə Komissiyası və İttifaq Fəhlə-Kəndli Müfəttişliyi təşkil olundu. Müqavilədə İttifaq Sovetinin və AİŞ-nın hüquq və vəzifələri də müəyyən edilmişdi.

1922-ci il aprelin 28-də II Ümumazərbaycan Sovetlər qurultayı İttifaq müqaviləsini ratifikasiya etdi.ZSSR Fİ İttifaq Soveti mövcud olduğu müddətdə (mart-dekabr 1922-ci il) Cənubi Qafqaz respublikalarının təsərrüfat-siyasi birliyi iqtisadi və mədəni inkişafı sahəsində xeyli iş gördü. Lakin sovet respublikaları arasında mövcud olan müqavilə münasibətləri mərkəz tərəfdən xalq təsərrüfatının idarə olunması üçün kifayət etmirdi.Diyarı bütünlüklə Mərkəzin iradəsinə tabe etmək məqsədi ilə Moskvadan bütün sovet respublikalarını vahid İttifaq dövlətində birləşdirmək ideyası irəli sürüldü. Cənubi Qafqaz şəraitində bu məsələnin həlli ZSSR Fİ-ni vahid Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasına çevirməyin zəruriliyi ilə sıx əlaqələndirilirdi.

1922-ci ilin yayından etibarən Cənubi Qafqazda ZSSR Fİ-nin vahid Zaqafqaziya Federativ Respublikasına çevrilməsi və bunun Sovet Sosialist Respublikaları İttifaqına daxil edilməsi uğrunda kampaniya başladı. Deməli, ZSFSR-in yaradılması prosesi ilə yanaşı bütün sovet respublikalarının, o cümlədən Zaqafqaziya respublikalarının RSFSR-ə birləşdirilməsi prosesi gedirdi.

İ.V.Stalinin hazırladığı tezislərdə göstərilirdi ki, Sovet Sosialist Respublikaları "muxtariyyətləşdirmə" yolu ilə birləşdiriləcəkdir. Bu o demək idi ki, Ukrayna, Belarusiya və Zaqafqaziya respublikalarını muxtar respublikalar hüququnda RSFSR-in tərkibinə daxil etmək nəzərdə tutulurdu.

Həm də bu zaman RSFSR-in ali dövlət hakimiyyət orqanları bütün sovet respublikaları üçün mərkəzi hakimiyyət orqanı olmalı idi. Bəziləri də təklif edirdilər ki, sovet respublikalarının bir növ konfederasiyasını yaratmaq lazımdır. Belə olan halda sovet respublikaları müstəqil varlığını (suverenliyini) saxlayacaq, böyük səlahiyyətlərə malik vahid ümumdövlət orqanları yaradılmayacaqdı. Yalnız bir və ya bir neçə dövlət orqanı birləşdiriləcəkdir.

1922-ci il sentyabrın əvvəllərində İ.V.Stalinin tezisləri müttəfiq respublikaların kommunist partiyalarının mərkəzi komitələrinə göndərildi. SSRİ-nin təşkili uğrunda birləşmə hərəkatı Azərbaycan SSR-də bir qədər əvvəl başlandı. Sentyabr ayından etibarən respublika zəhmətkeşlərinin, partiya və sovet təşkilatlarının yığıncaqlarında SSRİ yaradılmasının zəruriliyi haqqında qətnamələr qəbul edilirdi. Bu yığıncaqda, mitinq və konfranslarda qəbul edilən qətnamələrin əksəriyyətində də səhv ideya - sovet respublikalarının birləşdirilməsi üçün əsas sayılan "muxtariyyətləşdirmə" prinsipi dəstəklənirdi.

1922-ci il sentyabrın 16-da RK(b)P Cənubi Qafqazın RSFSR ilə birləşməsi haqqında tezislərə bu respublikaların kommunist partiyalarının münasibətini müzakirə etdi. Rəyasət Heyəti Cənubi Qafqaz respublikalarının siyasi, hərbi və təsərrüfat cəhətdən RSFSR ilə birləşməsi tezislərini bəyəndi, Azərbaycan və Ermənistan kommunist partiyaları mərkəzi komitələrinin bu tezislərə qoşulmaları barədə məlumatlarını nəzərə aldı. Gürcüstan KP MK tezislərin əleyhinə çıxmışdı.

RK(b)P MK Təşkilat bürosunun komissiyası 1922-ci ilin sentyabrında keçirilən iclasında "RSFSR ilə müstəqil respublikalar arasında qarşılıqlı münasibətlər haqqında" qətnaməni bir nəfər (Gürcüstan nümayəndəsi) bitərəf qalmaqla qəbul etdi.

Komissiyanın materialları, habelə Azərbaycan, Gürcüstan və Ermənistan kommunist partiyaları mərkəzi komitələrinin qətnamələri xəstəlikdə olan V.İ.Leninə göndərildi. V.İ.Lenin komissiyanın materialları ilə yaxından tanış olaraq,

"muxtariyyətləşdirmə" ideyasının əleyhinə çıxdı. Müstəqil respublikaların muxtariyyətləşdirilməsini onların hüquqlarını azaltdığını və sovet xalqlarının dostluğunu daha da möhkəmləndirmək vəzifələrinə uyğun olmadığını qeyd etdi. V.İ.Lenin bu məsələnin həllinin başqa yolunu göstərdi. O, bərabərhüquqlu müstəqil sovet respublikalarının könüllü surətdə birləşməsi əsasında Sovet Sosialist Respublikaları İttifaqı yaratmaq ideyasını irəli sürdü.

1922-ci il sentyabrın 26-da V.İ.Lenin RK(b)P MK Siyasi Bürosunun üzvlərinə məktub yazaraq komissiyanın "muxtariyyətləşdirilmə" haqqında qətnaməsini kəskin tənqid etdi və SSRİ-nin təşkilinə dair öz layihəsini əsaslandırdı. V.İ.Lenin qətnamənin birinci bəndini elə yazmağı təklif edirdi ki, buradan aydın görünsün ki, müstəqil sovet milli respublikaları Rusiya Federasiyasına daxil olmurlar, RSFSR ilə birlikdə yeni dövlət qurumunda bərabərhüquqlu respublikalar federasiyasında birləşirlər.

Leninin layihəsi əsasında komissiya sovet respublikalarının birləşməsi haqqında yeni qətnamə hazırladı. 1922-ci il oktyabrın 6-da RK(b)P MK plenumu yeni qətnaməni direktiv kimi qəbul etdi. Qətnamədə deyilirdi: "Ukrayna, Belarusiya, Zaqafqaziya respublikaları federasiyası və RSFSR-in "Sovet Sosialist Respublikaları İttifaqı" halında birləşməsi haqqında onların arasında müqavilə bağlanması zəruri hesab edilsin, bu şərtlə ki, onlardan hər birinə İttifaqın tərkibindən sərbəst surətdə çıxmaq hüququ verilsin. İttifaqın ali orqanı RSFSR, ZSFSR, Ukrayna və Belarusiya MİK-lərinin onların təmsil etdikləri əhaliyə mütənasib sayda nümayəndələrdən ibarət təşkil olunan Mərkəzi İcraiyyə Komitəsidir. İttifaq MİK-in icra orqanı İttifaq Xalq Komissarlan Soveti olmalı idi.

RK(b)P MK plenumu Zaqafqaziya respublikalarından hər birinin SSR İttifaqına bilavasitə girməsi təklifini pisləyərək bu respublikaların Zaqafqaziya federasiyası vasitəsilə SSR İttifaqına daxil olmasını bəyəndi.

1922-ci il oktyabrın 26-da RK(b)P Zaqafqaziya Ölkə Komitəsinin Sovet Sosialist Respublikaları İttifaqının yaradılması tezisləri dərc olundu. SSR İttifaqının yaradılması partiya, sovet, həmkarlar təşkilatları və digər birləşmiş təşkilatlar tərəfindən dəstəkləndi.

AK(b)P-nin İkinci konfransı (1922-ci il noyabr) ZSFSR-in saxlanması və möhkəmləndirilməsini və Zaqafqaziya respublikalarının vahid bir tam kimi, Zaqafqaziya Federasiyası tərkibində respublikalar İttifaqına daxil olmasının həyati zərurət olduğunu təsdiq etdi.

Cənubi Qafqaz respublikalarının vahid ZSFSR tərkibində İttifaqa daxil olması aşağıdakı amillərlə şərtləndirilirdi: birincisi, diyarın iqtisadi, təsərrüfat birliyi; ikincisi, Cənubi Qafqaz xalqları arasında dostluğu möhkəmləndirməyin və onlar arasındakı milli etimadsızlığa birdəfəlik son qoymağın zəruriliyi.

Azərbaycan, Gürcüstan və Ermənistan kommunist və ictimai təşkilatlarının SSRİ-nin yaradılması və Cənubi Qafqaz respublikalarının vahid ZSFSR halında ona daxil olması qərarını dəstəkləməsinə baxmayaraq, P.Q.Mdivaninin qrupu ZSFSR-in ləğv edilməsi və Cənubi Qafqaz respublikalarından hər birinin müstəqil şəkildə SSR İttifaqına daxil olması mövqeyində qalırdı. Gürcüstan partiya təşkilatında qayda yaratmaq üçün Moskvadan Tiflisə xüsusi komissiyalar gəlirdi. Mərkəzi partiya hakimiyyətinin müdaxiləsi nəticəsində partiya qərarlarının qatı əleyhdarları vəzifələrdən azad edilərək, Moskvaya geri çağırıldılar. Gürcüstan KP MK-nın yeni tərkibi təsdiq edildi.

1922-ci il noyabrın 11-12-də Tiflisdə keçirilən Zaqafqaziya partiya konfransı Sovet Sosialist Respublikaları İttifaqı haqqında məsələni müzakirə etdi.Zaqafqaziya partiya konfransı SSRİ-nin yaradılmasını bəyəndi və bildirdi ki, Gürcüstan, Azərbaycan və Ermənistan İttifaqa bir ümumi ailə kimi, Cənubi Qafqaz federasiyası vasitəsilə daxil olmalıdırlar. Konfrans vahid ZSFSR-in SSR İttifaqına daxil olmasının əleyhinə çıxan kommunistlərin xəttini millətçilik təmayülü kimi pislədi.

Üç respublikanın MİK-lərinin razılığı ilə partiya konfransı Zaqafqaziya Sovetlər qurultayının çağırılmasını qərara aldı. Zaqafqaziya Sovetlərinin I qurultayı 1922 -ci il dekabrın 10-da Bakıda işə başladı. Qurultayın tərkibi çoxmillətli idi. Onun iştirakçıları arasında azərbaycanlılar 175 nəfər, gürcülər 160 nəfər, ermənilər 131 nəfər, ruslar 63 nəfər, yəhudilər 12 nəfər idi.

N.Nərimanov Cənubi Qafqaz respublikaları İttifaq Sovetinin fəaliyyəti haqqında məruzə etdi. Qurultay Cənubi Qafqaz Federasiyasına daxil olan respublikaların siyasi, hərbi və təsrrüfat birliyinin əsaslarının möhkəmləndirilməsinə yönəldilən həm xarici, həm də daxili siyasətini bəyəndi.

Qurultay Sovet Sosialist Respublikaları haqqında Q. Orconikidzenin məruzəsini dinlədi və qətnamə qəbul etdi. Qətnamədə deyilirdi: Qurultay aşağıdakı əsaslarla belə bir İttifaqın yaradılmasını vaxtı çatmış və zəruri sayır.

Sosialist Respublikaları İttifaqını aşağıdakı respublikalar yaratmalıdır: RSFSR, Ukrayna, Belarusiya və Gürcüstan, Azərbaycan və Ermənistanın daxil olduqları Zaqafqaziya Federasiyası. RSFSR, Ukrayna, Belarusiya respublikaları və Zaqafqaziya Federasiyası "Sovet Sosialist Respublikaları İttifaqı" adı altında bir əsas dövlətdə birləşirlər, bu respublikaların hər birinin İttifaqdan sərbəst şəkildə çıxmaq hüququ saxlanılır.

Zaqafqaziya Sovetlər qurultayı bir çox cəhətdən RSFSR Konstitusiyası ilə eyni olan ZSFSR Konstitusiyasını qəbul etdi, 150 üzvdən və namizəddən ibarət Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsini (Zaqafqaziya MİK) seçdi. O, on bir komissarlıqdan ibarət Zaqafqaziya Xalq Komissarları Soveti seçməli idi. Zaqafqaziya MİK 13 nəfərdən, o cümlədən hər respublikadan bir nəfər olmaqla üç sədri seçdi (Azərbaycan SSR-dən S.Ağamalıoğlu). Onlar MİK-in iclaslarında növbə ilə sədrlik edirdilər. Ali İqtisadi Şura (AİŞ) da yaradıldı.

Beləliklə, ZSSR Fİ ZSFSR-ə çevrildi. ZSFSR MİK-nin 1923-cü ilin yanvarında keçrilən ilk qurultayında ZSFSR XKS-ni təşkil etdi. M.D.Oraxelaşvili ZSFSR-in sədri, M.D.Hüseynov və

A.F.Myasnikov isə onun müavini təyin olundu.

1923-cü il yanvarın 10-da İttifaq Soveti vahid Cənubi Qafqaz pul nişanının dövriyyəyə buraxılması haqqında dekret verdi. Vahid pul nişanı ZSFSR iqtisadiyyatını inkişaf etdirməyin mühüm vasitəsi olmalı idi.

RSFSR-dən fərqli olaraq, ZSFSR muxtariyyət əsasında deyil, bərabərhüquqlu üç müttəfiq sovet respublikasının müqaviləsi əsasında qurulmuşdu. Bununla belə, ZSSR Fİ-nin federativ respublikaya - ZSFSR-ə çevrilməsi Cənubi Qafqaz respublikalarının suveren mənafelərini məhdudlaşdırır, partiya təkhakimiyyətliliyinin saxlanmasına və genişlənməsinə imkan yaradırdı, sosialist unitarizminin bərqərar olması yolunda atılan addımlardan biri idi. Əslində ZSFSR-in yaradılması formal müstəqilliyin ləğvinin başa çatması demək idi.

SSRİ-nin yaradılması. ZSFSR, Ukrayna SSR və Belarusiya SSR nümayəndələrinin iştirakı ilə dekabrın 23-27-də X Ümumrusiya Sovetlər qurultayı keçirildi. V.İ.Lenin xəstə olduğuna görə qurultayda iştirak edə bilmədi. SSRİ-nin təşkili haqqında məruzə ilə qurultayda İ.V.Stalin çıxış etdi. X Ümumrusiya Sovetlər qurultayı SSRİ-nin yaradılması haqqında qərar qəbul etdi.

1922-ci il dekabrın 30-da səhər Kremldə sovet respublikalarının səlahiyyətli nümayəndə heyətləri SSRİ-nin yaradılması haqqında Bəyannamə və müqavilə imzaladılar, axşam isə Böyük teatrda açılan I Ümumİttifaq Sovetlər qurultayı yeni, çoxmillətli sovet dövləti SSRİ-ni təsis etdi.

Qurultayda 2214 nümayəndə iştirak edirdi. Nümayəndələrdən 1721 RSFSR-dən, 364 Ukraynadan, 91 ZSFSR-dən və 33 BSSR-dən idi. Qurultay nümayəndələri arasında fəhlələr 44,4%, kəndlilər 26,8 %, ziyalılar 28,8 % təşkil edirdi. Nümayəndələrin 77 nəfəri (3,8%) qadınlar idi. Beləliklə, böyük çoxmillətli ölkənin nümayəndəli ali qanunverici ilk orqanı əslində birpartiyalı sistemin icra orqanı idi.

V.İ.Lenin qurultayın fəxri sədri, M.İ.Kalinin sədri və onun

iclaslarının aparıcısı seçilmişdilər. İ.Stalin SSRİ-nin təşkili haqqında məruzə etdi, Bəyannaməni və İttifaq müqaviləsini bəyan etdi və nümayəndələri bunları qəbul etməyə çağırdı.

Qurultayın sənədlərində SSRİ-nin təşkilinin zəruriliyini tələb edən amillər şərh olunmuş, SSRİ-nin ali orqanlarının səlahiyyəti, onların strukturu və seçilməsi qaydası müəyyənləşdirilmiş və vahid sovet vətəndaşlığının müəyyən olunması vurğulanmışdı.

SSRİ-nin I Sovetlər qurultayı Bəyannaməni və İttifaq müqaviləsini əsasən bəyəndi və respublika MİK-lərinin sessiyalarında bəyənildikdən sonra, SSRİ MİK-in növbəti sessiyasında onları təsdiq etməyi qərara aldı. Qurultay SSRİ Mərkəzi İcraiyyə Komitəsini, yəni SSRİ-nin ali icraedici orqanını seçdi. Onun tərkibinə Azərbaycan SSR-dən S.A.Ağamalıoğlu, R.Ə.Axundov, S.M.Kirov, Q.M.Musabəyov, N.N.Nərimanov və başqaları seçilmişdilər.

İttifaqda birləşmiş respublikaların sayına görə, V.İ.Leninin təklifinə uyğun olaraq,SSRİ MİK-in ilk sessiyasında SSR İttifaqı ali icra orqanının dörd sədri seçildi. Onlardan biri də N.Nərimanov idi.

SSRİ-nin təşkilinə dair İttifaq müqaviləsini müzakirə etmək üçün martın 16-da S.A.Ağamalıoğlunun sədrliyi ilə Azərbaycan MİK-in fövqəladə sessiyası çağırıldı. Sessiya müqavilənin mətnini müzakirə edərək yekdilliklə qətnamə qəbul etdi:İttifaqın təşkili haqqında Bəyannamə, habelə müttəfiq respublikaların Müqaviləsi dəyişiklik olmadan təsdiq edilsin. İlk vaxtlar SSRİ-yə RSFSR, USSR, ZSFSR və BSSR daxil idi.

1923-cü il aprelin 27- də SSRİ MİK Rəyasət Heyəti bütün müttəfiq respublikaların nümayəndələrindən ibarət yeni "geniş" Konstitusiya komissiyası yaratmağı qərara aldı. 1923-cü il iyunun 8-də komissiyanın ilk iclası oldu, MİK komissiyasının təklif etdiyi Konstitusiya mətni qəbul edildi. Konstitusiyanın layihəsi bütün respublikalara göndərildi. Həmin layihəni müzakirə üçün Azərbaycan MİK-ə N.Nərimanov təqdim etmişdi.

1923-cü il iyulun 6-da birinci çağırış SSRİ MİK-nın II sessiyası SSRİ-nin Əsas Qanununun (Konstitusiyasının) hazırlanmasını başa çatdırdı. Sessiya qərara aldı ki, Konstitusiyanın sessiya tərəfindən qəbul olunmuş mətni qəti şəkildə təsdiq edilmək üçün SSRİ-nin II Sovetlər qurultayına təqdim olunsun.

1924-cü il yanvarın 26-da SSRİ-nin II Sovetlər qurultayı açıldı.1924-cü il yanvarın 31-də qurultay hökumətin fəaliyyəti haqqında məruzəni dinlədi. Elə həmin gün II Sovetlər qurultayı SSRİ Konstitusiyasını təsdiq etdi. Bununla da Sovet Sosialist Respublikaları İttifaqının "qanunvericiliklə" formalaşdırılması başa çatdı. N.Nərimanov yenidən ZSFSR-dən SSRİ MİK-in sədri seçildi. Yeni Konstitusiyaya əsasən, MİK iki hissədən (palatadan) - İttifaq Sovetindən və Millətlər Sovetindən ibarət təşkil edildi. İttifaq Soveti (414 üzv və 220 namizəd) müttəfiq respublikaların əhalisinin sayına uyğun olaraq qurultaylar tərəfindən seçilirdi. Qurultay respublikalardan nümayəndəlik norması üzrə (hər müttəfiq və muxtar respublikadan 5 nümayəndə və hər muxtar vilayətdən 1 nümayəndə) seçilmiş Millətlər Sovetinin tərkibini təsdiq etdi.

1925-ci il aprelin 10-da açılan II Zaqafqaziya Sovetlər qurultayında ZSFSR-nin Yeni Konstitusiyası təsdiq olundu. SSRİ-nin yaradılması zəhmətkeşlərin mənafeyinə, keçmiş çar imperiyasının xalqları arasında milli sülh və etimad yaratmaq, onların ənənəvi iqtisadi və mədəni əlaqələrini inkişaf etdirmək səylərinə cavab verməli idi. SSRİ Ümumdünya tarixinin müəyyən dövründə fövqəldövlətlərdən birinə çevrilərək, dünya birliyinin inkişafı gedişinə bir-birinə qarşı qüvvələrin müvazinətinə xeyli dərəcədə təsir göstərirdi.

SSRİ əsil mənada, nə federasiya idi, nə də dövlət. Çünki hər hansı bir dövlət, öz milli kökündən bəhrələnir, təşəkkül edir, ona söykənir. Sovet dövləti isə "beynəlmiləl birləşmə" prinsipinə əsaslanan, bürokratik-amiranə idarə rejiminə istinad edən unitar səpkili qurum idi. Hər respublikanın federasiyadan könüllü çıxması

hüququ da formal xarakter daşıyırdı.

SSRİ Konstitusiyasının III maddəsində elan olunurdu ki, hər ayrıca müttəfiq respublika öz dövlət hakimiyyətini müstəqil həyata keçirir. SSR İttifaqı müttəfiq respublikaların suveren hüquqlarını müdafiə edir. 19-cu maddədə isə elan olunurdu ki, MİK-in bütün dekret, qərar və sərəncamları SSR İttifaqının bütün ərazisində mütləq və bilavasitə icra olunmalıdır. Demək, əslində SSR İttifaqı unitar dövlət idi. Zahiri federativ quruluş pərdəsi altında Kommunist partiyasının tamamilə sərəncamında olan Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsinin tam hakim diktaturası gizlənmişdir.

Stalin və onun həmfikirləri muxtariyyətləşdirmə ideyasını 1922-ci ildə həyata keçirə bilməsələr də, o incə şəkildə SSRİ adı altında əslində tədricən həyata keçirildi. Bu baxımdan V.İ.Leninin 1922-ci il dekabrın 30-da dediyi sözlər diqqətəlayiqdir: "Mən, Sovet Sosialist Respublikaları İttifaqının məsələsi deyilən məlum muxtariyyətləşdirmə məsələsinə kifayət qədər ciddi və kifayət qədər kəskin qarışmadığıma görə, Rusiya fəhlələri qarşısında olduqca müqəssirəm... Çox təbiidir ki, özümüzə bəraət qazandırdığımız İttifaqdan çıxmaq azadlığı boş bir kağız olaraq qalır ki". Stalinsayağı totalitar dövlət sistemi millətlərin hüquq bərabərliyini, onların suverenliyini heçə endirdi. Əslində SSR İttifaqı sovet milli respublikalarının azad inkişafını təmin etməli olan bərabərhüquqlu dövlət vahidlərinin İttifaqına çevrilmədi. Stalinin sovet milli dövlətçilik sxemi addımbaaddım müttəfiq respublikaların müstəqilliyinin ləğvinə, mərkəzləşdirilmiş unitar bürokratik amirlik dövlətinin bərqərar olmasına doğru aparır, Mərkəz ilə respublikalar arasında təhlükəli siyasi meyillər yaranırdı ki, bu da son nəticədə İttifaqın dağılmasına səbəb oldu.

VIII FƏSİL
Sovet mədəni quruculuğunun başlanması (1920-1925-ci illər).

Xalq təhsili. Kadr hazırlığı. Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi həyatında olduğu kimi, yeni tip mədəniyyət quruculuğu da Kommunist Partiyasının direktivləri, onun qərar və göstərişləri ilə istiqamətləndirilirdi. Sovet hakimiyyətinin ilk illərində bütün mədəni-maarif işlərinə rəhbərlik etmək səlahiyyəti respublika Xalq Maarif Komissarlığının əlində cəmləşdirilmişdi. Yeni cəmiyyətin mənəvi həyatının əsas sahələri:təhsil, elm, ədəbiyyat və incəsənət faktiki olaraq partiya, dövlət rəhbərliyinin nəzarəti altına alınırdı, mədəni inqilabın bütün gedişində kommunist ideologiyası həyata keçrilməli idi.

Sosialist mədəniyyət quruculuğu keçmiş milli ucqarlarda özünəməxsus çətinliklərlə üzləşirdi. Yeni xalq təhsili sistemi yaratmaq, mədəni-maarif müəssisələrinin geniş şəbəkəsini inkişaf etdirmək, elmi biliklərin əsaslarını qoymaq, qadınları patriarxal köləlikdən azad etmək, zərərli adət və mərasimləri aradan qaldırmaq, şəxsiyyətin mədəni, mənəvi inkişafına yeni yol açmaq lazım idi. İlk növbədə xalq təhsilini köhnə, müstəmləkəçi idarə üsulundan azad etmək, təhsil sistemini müasir prinsiplər zəminində köklü dəyişmək vəzifəsi qarşıda dururdu. V.İ.Lenin göstərirdi ki, savadsız ölkədə kommunizm qurmaq olmaz. Sosializm cəmiyyəti qurmaq savadlı kadrlar hazırlanmasını tələb edirdi. Bunun üçün ilk növbədə milli müəllim kadrları hazırlamaq, yeni tədris vəsaiti və proqramları, mütərəqqi dərs metodikası tətbiq etmək tələb olunurdu. Buna görə 1920-ci ildə Azərbaycan sovet hökuməti xalq təhsilinin yeni inkişafını istiqamətləndirən bir sıra dekret və sərəncamlar verdi.Maarif Nazirliyinin köhnə aparatı ləğv olundu, yeni tərkibdə Xalq Maarif Komissarlığı orqanları fəaliyyətə başladı, həmçinin qəza İnqilab Komitələri nəzdində maarif şöbələri təsis edildi. İlk Xalq Maarif Komissarı Dadaş Bünyadzadənin imzası ilə 1920-ci il mayın 10-da pulsuz icbari politexnik məktəblərin təşkili haqqında dekret nəşr olundu.

"Azərbaycan SSR-in vahid əmək məktəbi haqqında əsasnamə" (1920-ci il 26 may) əsasında məktəb iki pilləyə bölünmüşdü:I pillə beşillik, II pillə dördillik təhsil kursu idi. Ancaq yerli şəraitin xüsusiyyətləri nəzərə alınmış, azərbaycanlı şagirdlərin oxuduğu tədris müəssisələri və qruplarda oğlan və qızların ayrıca dərs keçməsi müvəqqəti saxlanılmışdı.

1920-ci ilin mayında Xalq Maarif Komissarlığının tabeliyində olan bütün dövlət məktəblərində dini təlimlərin öyrənilməsi və hər hansı dini mərasim keçirilməsi qadağan olundu. Dini etiqadlar nazirliyi ləğv edildi. Tədris müəssisələri və məktəb şuralarının sədri vəzifəsini tutan və ya icra edən dini dərəcəli şəxslər vəzifələrindən azad edildilər. Dövlət və məktəb kilsə və məsciddən tamamilə ayrıldı.

1920-ci il sentyabrın 19-da Bakıda Azərbaycan mədəniyyət və maarif işçilərinin I qurultayı açıldı. N.Nərimanov qurultayda elan etdi: "Köhnə quruluşun ləğvi ilə məktəb də yeniləşməlidir. Tədris və tərbiyə üsulları yeni olmalıdır" .

1920-ci ilin dekabrında Azərbaycan İnqilab Komitəsinin dekreti ilə ana dilinin I və II pillə məktəblərdə tədris dili olduğu təsdiq edildi. Orta təhsil verən II pillə məktəblərdə ali təhsilli azərbaycanlı müəllimlərin çatışmaması ilə əlaqədar milli məktəb quruculuğu ciddi çətinliklər keçirirdi.1920-ci ildə bütün müəllimlərin yalnız 3%-i ali təhsil, qalanları isə orta, aşağı və evdə təhsil almışlar idi. Respublikada sovet hakimiyyətinin qurulması ərəfəsində cəmi 2000 pedaqoq var idi, ancaq mövcud məktəblərin normal fəaliyyət göstərməsi üçün təqribən 40 min nəfərədək müəllim tələb olunurdu .

Buna görə də 1920-ci ildən Azərbaycanın müxtəlif məntəqələrində müəllimlər hazırlamaq üçün üç aylıq kursların təşkil edilməsinə başlandı. Bundan başqa 1920-1922- ci illər ərzində Bakı, Nuxa, Şuşa, Gəncə, Qazax və Naxçıvanda Müəllim Seminariyaları açıldı. Kütləvi şəkildə məktəb müəllimlərinin hazırlanmasında pedaqoji texnikumlar da mühüm rol oynadılar.

Hökumət kənd müəllimlərinin maddi vəziyyətini

yaxşılaşdırmaq, məktəbləri yanacaq və digər vəsaitlərlə təchiz etmək sahəsində tədbirlər görürdü. Azərbaycanda, xüsusilə qəzalarda kifayət sayda məktəb binaları, kəndlərdə isə məktəb binası üçün yararlı olan tikili yox idi. Respublikanın ağır maliyyə çətinliklərinə baxmayaraq, xalq təhsili işçilərinin inadlı və fədakar fəaliyyəti sayəsində, hökumətin köməyi ilə maarif təşkilatları şəhər və qəzalarda yeni məktəblərin tikintisini genişləndirirdi. Yerli əhalidən olan qızların məktəblərə cəlb edilməsi qadın müəllim və kadrların az olması ilə çətinləşirdi.

1923-cü ilin dekabrından Xalq Maarif Komissarlığında bütün vahid əmək məktəblərinin metodik işinə Ümumi rəhbərlik edən Elmi-Metodik Şura fəaliyyət göstərirdi. Faktiki olaraq Azərbaycanda dövlət və partiya nəzarəti altında vahid təhsil sistemi yaradıldı. Bu sistemdə tədris plan və proqramlarının əsasını əmək, cəmiyyət və təbiət mövzuları təşkil edirdi.

Pedaqoji kadrların hazırlanması və onların maddi vəziyyətinin yaxşılaşdırılması sahəsində görülən böyük iş sayəsində respublikada müəllimlərin sayı 1920/21-ci tədris ilindəki 2611 nəfərdən 1925/26-cı tədris ilində 5232 nəfərə çatmışdı. Məktəblərin və orada oxuyan uşaqların sayı getdikcə artırdı. 1920/21-ci tədris ilində olan 937 I pillə məktəblərin sayı 1926/27-ci tədris ilində 1420-yə, onlardakı şagirdlərin sayı isə 74.922-dən 150.625 nəfərədək artdı. Respublikanın bütün məktəblərində 1926/27-ci tədris ilində 1918/19-cu tədris ilindəki 48.076 nəfərə qarşı 166.528 şagird təhsil alırdı.1917-ci ildə Azərbaycanda bütün əhalinin cəmi 9,3%-i, kənd sakinləri və qadınlarınsa daha az hissəsi savadlı idi. Lakin hələ 1926-cı ilin əvvələrində məktəblər respublika əhalisi tələbatının yalnız 35%-ni ödəyirdi.

Azərbaycanda sovet məktəbi, hər şeydən əvvəl, yeni cəmiyyət quruculuğunun müdafiəçiləri olan kadrların kommunist ideologiyası ruhunda hazırlanması vəzifələrinə xidmət etməli idi. Bu prinsip yeni dərsliklər, tədris planı və proqramların tərtib edilməsinin əsasını təşkil edirdi. Bu məqsədlə 1920-ci ildə Xalq Maarif Komissarlığında dərsliklərin hazırlanması üzrə xüsusi

komissiya yaradıldı ki, o da sonradan dərsliklərin tərtibi və nəşri üzrə şöbəyə çevrildi. Ana dilində yeni dərsliklərin yaradılmasına təcrübəli pedaqoji kadrlar - Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Fərhad Ağayev və başqaları cəlb edilmişdilər.

Azərbaycan SSR XKS nəzdində xüsusi komissiya respublika məktəbləri üçün ən zəruri tədris vəsaiti və avadanlıqlarının istehsalına rəhbərlik edirdi. 1921-ci ilin iyunundan başlayaraq XKS yanında fəaliyyət göstərən kustar emalatxanaları əyani tədris vəsaitləri hazırlayırdı.

Azərbaycandakı milli azlıqlar içərisində maarifin təşkili məqsədi ilə Xalq Maarif Komissarlığı nəzdində tərkibində fars, erməni, gürcü, yəhudi, kürd, ləzgi və tatar bölmələri olan xüsusi şöbə işləyirdi. 1925/26-cı tədris ilində respublikada 1057 1 dərəcəli Azərbaycan, 190 erməni, 132 rus, 5 gürcü, 7 alman, 2 yəhudi, 2 yunan, 1aysor (assur), 4 tatar məktəbi və 40 qarışıq məktəb var idi. Onlar üçün ana dilində əlifba nəşrinə cəhdlər edilmiş, pedaqoji kurslar açılmışdı.

Azərbaycan müəllimləri 1925-ci ilin yanvarında Moskvada açılan Ümumittifaq müəllimlər qurultayının işində iştirak etdilər. Azərbaycan nümayəndə heyətini Məryəm xanım Bayraməlibəyova (Məlik-Yeqanova), Əli Hüseynov, Qıztamam Şahmalıyeva, Cəmilə Sultanova, Zülfüqar Ağakişibəyov, Mirzə Məmmədov və başqaları təmsil edirdilər. Bunun ardınca 1925-ci ilin mayında Bakıda Azərbaycan müəllimlərinin I qurultayı keçirildi. Qurultayda respublikada yeni məktəb quruculuğu sahəsində qazanılmış ilk nailiyyətlərə yekun vuruldu. Yeni məktəb quruculuğunda Azərbaycan pedaqoqları F.Ağayev, A. Əmirov,O.Cəlilbəyova, Ə.Hüseynov, F.Rzabəyli, C.Cuvarlinski fəal iştirak edirdilər. Yerlərdə xalq təhsilinin genişləndirilməsi sahəsində işlər aparılərdı.

Azərbaycan sənayesinin bərpası və inkişafı ixtisaslı işçi qüvvəsinin hazırlanmasını tələb edirdi. Sovet hakimiyyətinin qurulması ərəfəsində Bakıda yalnız 2 texniki-peşə və dənizçilik məktəbi, Gəncə və Zaqatalada isə sənət məktəbləri var idi. Onlarda

dərslər yalnız rus dilində aparılırdı, praktiki olaraq bu məktəblər yerli əhalidən ayrı düşmüşdü.

Neft işinə xidmət edən, texniki sahədə çalışan ixtisaslı azərbaycanlı fəhlələrin sayı çox az idi. Bu cəhətdən kənd təsərrüfatında, habelə iqtisadiyyatın digər sahələrində vəziyyət daha ağır idi.

1920-ci il avqustun 5-də Azərbaycan İnqilab Komitəsi respublika xalq təsərrüfatının bərpası üçün ixtisaslı işçi kadrları hazırlamaq məqsədilə texniki-peşə təhsili Komitəsi təsis etdi.

Respublikada gənclər texniki-peşə təhsilini 4 tip tədris müəssisələrində: fabrik-zavod sagirdliyi (FZŞ) məktəbləri, peşə məktəbləri, peşə kursları və texnikumlarda alırdılar. Onlar müvafiq olaraq texniki-peşə təhsilinin aşağı, orta və ali pillələrini təşkil edirdi. Azərbaycan gəncləri ibtidai peşə təhsilini peşə məktəbləri və fabrik-zavod şagirdliyi məktəblərində alırdılar. Onların sayı həddindən artıq az idi. Bakıda peşə məktəbləri, Lənkəran, Salyan və Altıağacda tədris emalatxanaları,Şuşada isə qadınlar üçün xalçaçılıq emalatxanası var idi.

Fabrik-zavod sagirdliyi məktəbləri daha geniş yayılmışdı. Onlar 1921-ci ildən təhsil və istehsalat əməyini birləşdirərək gənc nəsli texnikum və ali texniki məktəblərə hazırlamaq məqsədilə yaradılırdı. Bu məktəblər əsasən Bakıda və onun mədən-zavod rayonlarında fəaliyyət göstərirdi və təhsil 3-4 il davam edirdi.

Keçmiş Levenson zavodunda çilingərlik, xarratlıq və dəmirçilik şöbələri olan "Qızıl gənclik" fabrik-zavod şagirdliyi məktəbi açıldı. Suraxanıda, Zabratda Azərbaycan dilində fabrik-zavod şagirdliyi məktəbləri fəaliyyətə başladı.

Fabrik-zavod məktəblərində azərbaycanlı şagirdlərin sayını artırmaq məqsədilə belə məktəblərin qəzalarda təşkilinə xüsusi diqqət yetirilirdi.Yerlərdə mütəxəssis müəllimlərin çatışmadığı (o zaman respublikada cəmi iki azərbaycanlı aqronom var idi) 1923-1924-cü illərdə Gəncə, Zaqatala, Nuxa və Qubada fabrik-zavod şagirdliyi məktəbləri açıldı. Artıq 1925-ci ildə 14 belə məktəb var idi ki, onlardan da 6-sı Bakı və onun mədən-zavod rayonlarında

yerləşirdi. FZŞ məktəbləri şagirdlərinin 92,8%-i fəhlə və kəndli uşaqları idi.

FZŞ məktəbləri ilə eyni vaxtda texniki-sənaye, dəmir yol, su nəqliyyatı və s. müxtəlif peşə kursları geniş yayılmışdı. 1924/25-ci tədris ilində respublikada 35 peşə kursu var idi. Peşə kurslarında oxuyanların 48,3%-i fəhlə, 29,2%-i qulluqçu, 8%-ni isə kəndli ailələrdən olanlar təşkil edirdi. Onların içərisində azərbaycanlılar 20,4%, ruslar isə 54% idi.

Orta ixtisas təhsili sistemində texnikumlar mühüm yer tuturdu. Onların təşkilində hər şeydən əvvəl, fəhlə və kəndli uşaqların qəbulu, habelə azərbaycanlı şagirdlərin cəlb edilməsi yolu ilə sosial tərkibin yaxşılaşdırılması nəzərdə tutulurdu. Texnikumun sərəncamına torpaq, bağ və meşə sahələri ayırmaq, onların yerli aqronom məktəblərinin tədris vasitələrindən,xalq torpaq komissarlığının meteoroloji, ipəkçilik stansiyaları və digər elmi idarələrindən istifadə etmələrinə icazə vermək vəzifəsi bütün qəza təşkilatlarına həvalə edilmişdi.

Beləliklə, bir neçə ildə texnikumlar şəbəkəsi xeyli genişləndi, onlarda azərbaycanlıların sayı üstünlük təşkil etməyə başladı. 1926/27-ci tədris ilində 39 texnikumda təhsil alan 7137 nəfərdən 67,7%-i azərbaycanlı, 60%-i fəhlə-kəndli uşaqları idi. Azərbaycandakı texnikumlar pedaqoji, sənaye-iqtisadi, nəqliyyat sənaye-texniki, kustar sənətkarlıq, kənd təsərrüfatı, tibb, vokal musiqi və teatr ixtisasları üzrə qruplaşdırıldı.

Beləliklə, 20-ci illərdə yeni Azərbaycan məktəblərinin bünövrəsi qoyuldu, zəhmətkeşlərin təhsilə kütləvi cəlb edilməsi üçün şərait yaradıldı. Azərbaycanda yeni cəmiyyət qurulmasında ən mühüm vəzifələrdən biri sovet mütəxəssisləri, ələlxüsus fəhlə və kəndlilərdən ziyalı kadrlar hazırlamaq idi.

Azərbaycanda yalnız 1919-cu ilin noyabrında açılmış yeganə ali təhsil müəssisəsi olan Bakı Universiteti fəaliyyət göstərirdi. Sovet hökuməti respublikada ali təhsilin inkişafında Bakı Universitetinin rolunu artırmaq üçün ciddi səy göstərirdi. Bakı şəhər soveti, Xalq Təsərrüfatı Şurası, Azərbaycan Həmkarlar İttifaqları Şurası,

Azərneft və digər sovet-təsərrüfat idarələri Universitetin maddi bazasının möhkəmlənməsinə yardım göstərməyə səfərbər edilmişdi.

Fəaliyyətə başladığı vaxt Universitetin tərkibində yalnız iki fakültə (tibb və tarix-filologiya) var idi. 1921-1922-ci ildə isə tarix-filologiya fakültəsi ictimai elmlər fakültəsinə çevrildi, ictimai elmlər və fizika-riyaziyyat fakültələri əsasında pedaqoji fakültə yaradıldı.

Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov respublika üçün birinci növbədə texniki ali məktəb yaradılmasının vacibliyini nəzərə alaraq, 1920-ci ilin dekabrında keçmiş Bakı Texniki Məktəbinin ali məktəbə çevrilməsi haqqında dekret verdi. 1921-ci ilin yanvarında isə bu məktəbin, habelə RSFSR Xalq Maarif Komissarlığının qərarı ilə Petroqraddan Bakıya köçürülmüş politexnik texnikumun bazasında Azərbaycan Politexnik İnstitutu açıldı. 1921-ci ilin yanvarında İnstitutda dərslər başlandı. N.Nərimanov professor-müəllim və tələbə heyətini Azərbaycan SSR XKS və MİK adından salamlayaraq, İnstitutun milli kadrların hazırlanması işində böyük əhəmiyyətini qeyd etdi. Politexnik institutunun formalaşması və inkişafında Azərneftin rəhbərləri, uzun müddət İnstitutun direktoru olmuş A.A.Nikitin, habelə müəllimlər M.V.Abramoviç, İ.Q.Yesman, Y.U.Dunin, H.B.Şahtaxtinski, A.N.Amosov və b. fəal iştirak etdilər. Respublikada müəllim kadrların hazırlanması mərkəzi olan Azərbaycan Pedaqoji İnstitutu N.Nərimanovun böyük səyi sayəsində 1921-ci ilin payızında Bakıda fəaliyyətə başladı. İnstitutun təsisi barədə dekretdə deyilirdi:Yüksək ixtisaslı maarif işçiləri ilə respublikanı təmin etmək məqsədilə Xalq Komissarları Soveti qərara alır: Bakı şəhərində bu ilin (1921-ci il) 1 sentyabrından xüsusi olaraq ikipilləli məktəblər üçün dövlət türk dilində müəllimlər hazırlayan birinci Azərbaycan Dövlət Kişi İnstitutu təsis edilsin. İnstitutun tərkibində fizika-riyaziyyat, təbiət-kimya və ədəbiyyat şöbələri var idi. Burada tədris Azərbaycan dilində aparılırdı. R.B.Rzabəyli, M.O.Əfəndiyev, K.D.Cəfərov, M.Q.Əliyev, T.A.Şahbazı, A.Məmmədov, B.T.Talıblı, Ə.Haqverdiyev, V. Xuluflu İnstitutun ilk fədakar təşkilatçıları,

müəllimləri idilər

1921-ci ildə Qadın Məktəbəqədər Tərbiyə İnstitutu yaradıldı. Sonra o, Ali Qadın Pedaqoji İnstitutuna çevrildi. 1921-ci ildə Respublikada Ali Bədii Məktəb və Konservatoriya yaradıldı. Eyni zamanda çoxlu azərbaycanlı tələbə Moskva və Leninqradın (Sankt-Peterburq) ali tədris müəssisələrinə göndərilirdi.1925-ci ildə RSFSR və başqa sovet respublikalarının ali məktəblərinə 120 azərbaycanlı tələbə göndərilmişdi.

Mədəni-maarif işi. Kütlələrin ictimai şüuru bir partiyalı sovet rejiminin qurulması mənafeyinə uyğun formalaşdırılmalı, onun kommunist siyasəti və ideologiyasına xidmət etməyə tabe edilməli idi. Bu məqsədlərə nail olmağın kütləvi mexanizmlərindən biri mədəni-maarif müəssisələrinin geniş şəbəkəsinin təşkil və inkişaf etdirilməsindən ibarətdir. Bu şəbəkə siyasi təbliğatda, kütlələrin siyasi cəhətdən lazımi istiqamətdə maarifləndirilməsində xüsusi rol oynamalı idi.

AK(b)P-nin II qurultayı (1920-ci il oktyabr) mədəni-maarif ocaqlarının xüsusi əhəmiyyətini qeyd edərək, Azərbaycanda klub, kitabxana və qiraət komalarının geniş şəbəkəsinin yaradılmasını qərarlaşdırdı. Fəhlə klubları xüsusilə Bakı şəhəri və onun mədən-zavod rayonlarında - Sabunçu, Suraxanı, Qaraşəhər, Bayıl, Zabrat və Binəqədidə geniş fəaliyyətə başladılar. Artıq 1924-cü ilin ortalarında 54 fəhlə klubu mühüm siyasi və təsərrüfat kampaniyalarında bilavasitə iştirak edirdi. Qəzalarda da vəsait və avadanlıqların, təcrübə və kadrların olmadığı çətin şəraitdə mədəni-maarif ocaqlarının təşkilinə başlanmışdı.

Kənddə insanların siyasi-maarif fəaliyyətinin mərkəzləri 1923-cü ildən yaradılmasına başlanan qiraət komaları idi. Dövlət hesabına maliyyələşdirilən bütün maarif işi onlarda cəmləşdirilmişdi. Qiraət komalarında kəndliləri ibtidai siyasi maarif savadsızlığını ləğvetmə kursları və azsavadlılar üçün məktəblər yaradılırdı.

Kənd əhalisi içərisində təbliğat-təşviqat işinin genişləndirilməsində rayonlara fəhlə təşviqatçıların səfərləri də

mühüm rol oynayırdı. 1920-ci ilin yayı və payızında Bakı-Ağstafa-Poylu marşrutu üzrə partiya sovet işçiləri, mədəniyyət və incəsənət xadimlərindən ibarət təşviqat qatarı təşkil olunmuşdu.

Kənd mədəniyyət ocaqlarının inkişafı, onların işinin yaxşılaşdırılmasında fəhlələrin kənd üzərində hamiliyi böyük əhəmiyyət kəsb edirdi. Bu məqsədlə şəhərin kəndlə mədəni rabitəsi - Cəmiyyəti də səmərəli fəaliyyət göstərirdi.

Təkcə 1923-cü ilin iyulundan 1924-cü ilin aprelinədək Bakıdakı hami təşkilatların köməyi ilə kəndlərdə 30 qiraət koması açılmışdı.1927-ci ilin sonunda kənd klublarının sayı 171-ə çatmışdı. Onlar yerli əhali içərisində böyük təşkilatı iş apararaq kənddə maarif idarələrinin təməlini qoydular. Bu sahədə Bakı zəhmətkeşlərinin mədəni hamilik işi şəhərlə kənd arasında rabitə yaradılması, kəndli kütlələrinin siyasi və mədəni səviyyəsinin yüksəlməsi üçün mühüm əhəmiyyətə malik idi.

Mədəni kütləvi və siyasi-maarif işində kitabxanalar da mühüm rol oynayırdı. Bunun üçün Baş siyasi maarif idarəsi nəzdində kitabxana şəbəkəsi yaradılmışdı. 1920-ci ilin əvvəlində Azərbaycanda cəmi 5 kitabxana var idi.1923-cü ildə Azərbaycan Dövlət kitabxanasının, 1925-ci ildə isə Kitab palatasının təşkili respublikanın mədəni həyatında mühüm hadisə oldu. Kəndlərdə kitabxanaların şəbəkəsini genişləndirmək məqsədilə ÜİK(b)P MK 1925-ci ilin sentyabrında "Kənd kitabxanaları və kitabxanaların təchizi üçün populyar ədəbiyyat haqqında" qərar qəbul etdi. Savadsızlıqla mübarizə şəraitində bu qərar geniş kəndli kütlələrini populyar ədəbiyyatla tanış etmək, onların savad dərnəklərində əldə etdikləri bilikləri möhkəmləndirmək məqsədi güdürdü.

Mədəni quruculuqda sosialist ideyalarının təbliğ və təşviqinə üstünlük verən partiya və dövlət orqanları Azərbaycan dilində çap və nəşriyyat işini qaydaya salmaq üçün ciddi səy göstərirdilər. 1920-ci ilin avqustunda Azərbaycan İnqilab Komitəsi çap işinin təşkili və mərkəzləşdirilməsi haqqında dekret verdi.

1921-ci ildə bütün mətbəə müəssisələri milliləşdirildi. Xalq Maarif Komissarlığı nəzdində, sonradan dövlət nəşriyyatına çevrilən

nəşriyyat şöbəsi yaradıldı. Siyasi ədəbiyyatla yanaşı, sovet mətbuatı da kütlələrdə avtoritar şüurun formalaşdırılmasına və onların sosializm uğrunda mübarizəyə səfərbər edilməsinə xidmət edirdi.

1920-1927-ci illərdə "AK(b)P MK və BK-nın Xəbərləri" (Azərbaycan və rus dillərində),"İqtisadi xəbər", "Azərbaycan Ali İqtisad Şurasının əxbarı", "Azərbaycan neft təsərrüfatı", "Maarif və mədəniyyət" jurnalları nəşr olunurdu.

1922-ci ildə "Molla Nəsrəddin"in nəşri Bakıda bərpa olundu, müsəlman şərqində ilk qadın jurnalı - "Şərq qadını" 1923-cü ildə nəşrə başladı, hökumət "Əkinçi" qəzetinin 50 illiyini keçirmək barədə 1928-ci ildə qərar qəbul etdi. 1924-cü ildə Bakıda fəhlə və kəndli müxbirlərinin I qurultayı keçrildi.

Azərbaycanda radio verilişi şəbəkəsinin yaradılması xalqın ictimai-siyasi və mədəni həyatında mühüm hadisə oldu. Birinci radio qurğusu 1924-cü ildə Bakıda, digərləri isə az sonra yerlərdə fəaliyyətə başladı. 1926-cı ilin 6 noyabrında ilk dəfə efirdə "Danışır Bakı" sözləri səsləndi. Artıq 1927-ci ildə Azərbaycanın qəzalarında 111 radio qurğusu və 36 səyyar radiostansiya fəaliyyət göstərirdi.

Sovet hakimiyyətinin dinə münasibətinin başlıca prinsipi kilsə və məscidin dövlətdən ayrılması idi. Sovet hökumətinin din əleyhinə başladığı ateist fəaliyyəti geniş kütlələrin mədəni yüksəlişi və maariflənməsi uğrunda mübarizənin tərkib hissəsi hesab edirdi.

Sovet hakimiyyətinin ilk illərində respublika hökuməti dindarlara qayğı göstərir, dini bayramlarda -Qurban bayramı, Orucluq bayramı, katolik və yəhudi pasxa günlərində, Blaqoveşşeniye günlərində müxtəlif dinə mənsub adamları işdən azad edirdi. Novruz bayramı günlərində məktəblərdə tətillər başlanır, küçələrdə şagirdlərin bayram nümayişləri, teatr və klublarda tamaşa və konsertlər təşkil edilirdi. Məscidlər, kilsələr, sinaqoqlar, pirlər fəaliyyət göstərirdi.

Azərbaycanda sovet hökümətinin ilk tədbirlərindən biri cəmiyyəin bütün həyat sferalarında qadınların kişilərlə bərabər hüquqlu elan edilməsi oldu. Qadınlar, qızlar respublika əhalisinin yarısnı təşkil etdiyi üçün onların yeni cəmiyyət quruculuğuna cəlb

edilməsinin mühüm əhəmiyyəti var idi. Qadının ailədə, məişətdə maddi cəhətdən asılı olması barədə anlayışları, feodal-patriarxal qalıqları, müxtəlif xürafatları aradan qaldırmaq sahəsində ardıcıl fəaliyyət başlandı. Çoxarvadlılıq, erkən evlənmə, qızların təhsilə buraxılmaması kimi zərərli adətlər aradan qaldırılmamışdı. Hökümət bu istiqamətdə ciddi tədbirlər görürdü.

AK(b)P-nin II qurultayının (1920-ci ilin oktyabr) qətnaməsində göstərilirdi:... qadınlar arasında iş üçün bir sıra tədbirlər (kustar artelləri, savad məktəbləri, klubların təşkili, kişilər içərisində təşviqat və s.) qəbul etmək lazımdır.

1920-ci ilin noyabrında yaradılmış qadın şöbələri qadın hərəkatında mühüm rol oynadı. 1921-ci ildə Bakıda qadın şöbə müdirlərinin birinci müşavirəsi və birtərəf qadınların birinci qurultayı keçrildi. Qurultayın keçrilməsində məqsəd zəhmətkeş qadınları fəallaşdırmaq və qəza qadın şöbələrinin işini təmin etmək idi.

Qurultayda sovet hakimiyyəti, qadınlar arasında iş, ərzaq siyasəti və qadınların ərzaq işində iştirakı, ana və uşaqların mühafizəsi, qadınların vəziyyəti, maarif haqqında məruzələr dinlənildi. Qurultayda qadınlar arasında iş aparmaq üçün təşkilatçı təlimatçılar hazırlayan 3 aylıq kurslar açmaq qərara alındı. İlk mərhələdə qadınlar arasında işi əsasən qadın klubları və kəndli qadın guşələri aparırdı. Klub və guşələr qadınlar üçün istehsalat və sənət emalatxanaları yaradır, onlara peşə, savad öyrədir, ali və orta məktəblərə daxil olmaq üçün hazırlayır, ekskursiyalar, mühazirələr, məsləhətlər və s. təşkil edirdi.

Şərqdə birinci qadın klubu 1920-ci ilin mayında Bakıda yaradılmış Əli Bayramov adına qadın klubu idi. Onun işində Ayna Sultanova, Ceyran Bayramova, Arifə Musabəyova, Xavər Qarayeva-Şabanova, Gülarə Qayıbova və başqaları fəal iştirak edirdilər.Onların bir çoxu sovet dövləti qulluqçularının ailə üzvləri idi. Klubun nəzdində qadınlara sənət öyrədən nümunəvi emalatxanalar, kitabxana, oxu zalı, dram dərnəyi, xor və balet qrupları var idi.

Elm. Azərbaycanda ilk dəfə olaraq dövlət səviyyəsində elmi-tədqiqat özəkləri və institutları şəbəkəsinin yaradılmasına başlandı. 1921-ci ilin fevralında Xalq Maarif Komissarlığı nəzdində elm və təhsil sahəsində bütün işə "Ümumi ideya rəhbərliyi üçün" akademik şöbə yaradıldı. Onun tərkibinə Azərbaycan Dövlət Universiteti, Azərbaycan Politexnik İnstitutu, Dövlət Muzeyi, Dövlət Arxivi, Dövlət Kitabxanası və bütün digər elmi xarakterə malik məktəblər, idarələr daxil edildi.

1920-ci ilədək respublikada formalaşmış təbii-texniki profilli elmi-tədqiqat müəssisəsi yox idi. Elmi fəaliyyətlə məşğul olan kadrların sayı çox az idi. Azərbaycanda təbiət və texnika elmlərinin inkişafına RSFSR və digər sovet respublikalarının elmi idarələri kömək göstərirdilər. 1920-ci ildə Bakıda Azərneftin geoloji kəşfiyyat bürosu, 1923-cü ildə isə Geoloji kəşfiyyat komitəsi yaradıldı. Kimyaçı alim A.Q.Qurviçin rəhbərliyi altında Bakıda Azərneftin nəzdində Mərkəzi kimya laboratoriyası təşkil edildi. Akademik İ.M.Qubkin, professor D.V.Qolubyatnikov və M.V.Abramoviç Bakı neft rayonunun geoloji xəritəsini tərtib etdilər. Onlar Azərbaycan SSR neft sənayesinin bərpası və texniki cəhətdən yenidən qurulmasının planını hazırladılar. Neft mədənlərinin təkmilləşdirilməsi və bərpa işlərini həyata keçirmək üçün F.Rüstəmbəyovun başçılığı ilə Azneftin texniki bürosu yaradıldı. Azərbaycan Politexnik İnstitutunun laboratoriyasında sovet atom elminin əsasını qoyanlardan biri olan N.V.Kurçatovun çalışması üçün şərait təmin olundu.

İctimai elmlər sahəsində ilk addımlar Azərbaycan Dövlət Universitetində atılmışdı. Onun tarix-filologiya və Şərq fakültələrində Azərbaycanın və Yaxın Şərq ölkələri tarixinin işlənməsinə başlanmışdı. İctimai və humanitar elmlərin inkişafına akademik V.V.Bartold və N.Y.Marr, professorlar İ.İ.Meşşaninov, A.N.Samoyloviç, A.O.Makovelski, Y.A.Bertels, N.K.Dmitriyev, O.Qubaydulin, Y.A.Baybakov, P.K. Juze, V.M. Sısoyev, B.Çobanzadə və b. kömək göstərdilər.

1921-ci ilin yanvarında Cənubi Qafqazda ilk dövlət arxiv

idarəsi olan Azərbaycan Dövlət Arxivi fəaliyyətə başladı. Həmin ilin sonunda Azərbaycan Komunist partiyasının, Bakı fəhlə hərəkatının və Yaxın Şərqdə azadlıq hərəkatının tarixinə aid olan bütün materialları toplamaq və işləməyi öz məqsədi kimi qəbul edən xüsusi Azərbaycan Partiya Tarixi İnstitutu yaradıldı.

Azərbaycanda elmin inkişafı vahid elmi mərkəzin yaradılmasını tələb edirdi. Hələ 1923-cü ilin əvvəlində belə bir elmi mərkəzin yaradılması üçün bir qrup bakılı professor "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"ni yaratmaq xahişi ilə Xalq Maarif Komissarlığı kollegiyasına müraciət etdilər. 1923-cü il noyabrın 2-də 40 nəfərə qədər görkəmli alim və mütəxəssisin iştirakı ilə Cəmiyyətin ilk təsis iclası keçrildi.Cəmiyyətin sədri yazıçı Ə.Haqverdiyev, fəxri sədrləri N.Nərimanov və S.Ağamalıoğlu, fəxri üzvləri V.Bartold, N.Marr və S.Oldenburq seçildi. Cəmiyyət ictimai və təbiət elmləri sahəsində çalışan alimləri birləşdirirdi və respublikanın şəhərlərində onun şöbələri var idi. Cəmiyyət Azərbaycan xalqının ədəbi irsi və folklorunun öyrənilməsi sahəsində böyük iş aparırdı. C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, S.Mümtaz,Y.V.Çəmənzəminli və başqaları burada xüsusi fəallıq göstərirdilər. Cəmiyyət Moskva, Leninqrad və başqa şəhərlərdən görkəmli alimləri mühazirələr oxumaq üçün Bakıya dəvət edirdi.Cəmiyyətin "Xəbərlər" adlı jurnalı çap olunurdu.

1924-cü ilin sentyabrında Cəmiyyət Ümumittifaq əhəmiyyətli Ümumazərbaycan diyarşünaslıq qurultayı keçirdi. Qurultayda SSRİ MİK-in sədri N.Nərimanov, SSRİ EA-nın elmi katibi S.F.Oldenburq çıxış etmişdilər. Qurultayda birinci dəfə Ümumittifaq Türkoloji qurultayın çağrılması haqqında fikir söylənmişdi.

1925-ci ildə Cəmiyyətin iki illiyinin təntənəli qeyd edilməsi mərasimində hökumət adından çıxış edən Xalq Maarif Komissarı Mustafa Quliyev qeyd etmişdi ki, o, bu Cəmiyyətdə gələcək Azərbaycan Elmlər Akademiyasını görür.

Ədəbiyyat və incəsənət. M.Ə.Rəsulzadə yazırdı ki, sovet hakimiyyətinin bərqərar edilməsi ilə Azərbaycan ədəbiyyatı yenidən

tarixin ona ayırdığı faciəli və həzin qismətinə qatlanmaq zərurətinə düşdü. Sovet istilası ədəbiyyatın irəliləməsi üçün əngəllər törətdi. Milli ruha yabancı olan kommunist hökuməti formaca milli olan ədəbiyyata əvvəlcə səbrlə yanaşdısa da, ona beynəlmiləl proletar məzmunu verməyə çalışdı.

Sovet hökuməti kütlələrin bədii sərvətlərə yiyələnməsini özlərinin ideoloji fəaliyyətlərində məqsədyönlü başlıca vəzifə kimi elan etmişdilər. Azərbaycanda yeni bədii mədəniyyət quruculuğu yollarının axtarışı zamanı ciddi problemlər kəskin mübahisə və müzakirələr törədirdi. Ancaq müzakirələr azad, demokratik şəraitdə getmirdi, partiya təzyiqi altında hakim ideologiyaya tabe ruhunda həll edilirdi. Bununla belə, Azərbaycan ədəbiyyat və incəsənətinin mütərəqqi cəhətləri özünə yol açır, xalq da onlara yiyələnməyə cəhd göstərirdi. S.S.Axundov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, A.Şaiq, Y.V.Çəmənzəminli, N.Vəzirov, C.Cabbarlı, M.S.Ordubadi, Ə.Nəzmi, T.Şahbazi, B.A.Talıblı və başqaları maarifçilik ideyalarını təbliğ edərək, gerilik və mövhumatçılığa qarşı mübarizə aparır, qəzet və jurnallarda, maarif və mədəniyyət orqanlarında çalışırdılar. Bu illərdə S.S.Axundovun fəaliyyəti xüsusilə fərqlənirdi. 1920-ci ildə Qarabağda vilayət Xalq Təhsili Şöbəsinə başçılıq edən ədib 1921-ci ildə "Tənqid-təbliğ teatrı"nın səhnəsi üçün müsabiqəyə təqdim olunmuş 32 əsər içərisində birinci yeri tutmuş "Laçın yuvası" pyesini yazmışdı. Pyesdə yeni həyat uğrunda mübarizə təqdir edilirdi. Əsərdəki hadisələr Qarabağda cərəyan edir. Azərbaycanlı gənc bir kommunist Qarabağın keçilməz meşələrindən birində yerləşən bəy qəsrini tutur. İnqilabçının nişanlısı olan qız bu hərəkətinə görə ondan üz döndərir. İnqilabçı qıza yalnız bu yolla müsəlman məmləkətlər dünya imperializminin əlindən qurtulacaqlar deyir.

1921-ci ildə C.Məmmədquluzadə Təbrizdən Bakıya qayıtdı. 1922-ci ildə "Molla Nəsrəddin" jurnalının nəşri bərpa edildi. C.Məmmədquluzadə "Danabaş kəndinin məktəbi"(1921) pyesini, "Dəli yığıncağı" (1927) komediyasını yazdı.

XX əsrin 20-ci illərində Hüseyn Cavid, Əhməd Cavadın əsərləri çap olunmuş, Azərbaycan dramaturgiyası C. Cabbarlının "Aydın", "Oqtay Eloğlu" pyesləri ilə zənginləşmişdi.

Azərbaycanda sovet hakimiyyyəti qurulduqdan sonra poeziyamızda xeyli müddət bədbin əhvali-ruhiyyəli, ah-fəğanla dolu şeirlər dərc olunmağa başlandı.H.Cavidin "Sağalmaz", B.Seyidzadənin "Süzgün nur", Ə.Cavadın "Sən ağlama" şeirləri buna misaldır. Ə.Cavad 1923-cü ildə ildə "Yeni yol"qəzetində dərc etdiyi "Yoxsa" şeirində yazırdı:

Qarşıda açılmış dərin bir boşluq
Uzanmış qalacaq qollarım bəlkə...
Daha seyr etmədən qarşı dağları
Çapuk qapanacaq yollarım bəlkə...

Xalqın mənəvi həyatının aynası olan ədəbiyyat üzərində bolşevik ideologiyasının təzyiqi nə qədər güclü olsa da, M.Ə.Rəsulzadənin qeyd etdiyi kimi, 1937-ci ilədək ədəbiyyatda əsl hakimiyyət inqilabdan əvvəlki qələm sahiblərinin əlində idi. Poeziyada Cavad-Cavid stili hakimiyyətini hələ saxlayırdı.

Mirzə Bala Məmmədzadə yazır ki, fərdiyyətçilik və liberalizm (azadlıq) C.Cabbarlının bütün əsərlərinə xasdır. "Oqtay Eloğlu"da (1922) Oqtay həyatın hər sahəsində, xüsusilə mədəniyyətdə, sənətdə milliləşdirmə üçün vuruşur. Pyesdə səhnə içində səhnə göstərilir. Burada türk qadını rolunu ifa etməli olan türk olmayan bir aktirisa səhnəyə çıxmaqdan imtina edir. Bu zaman əsərin baş qəhrəmanı Oqtay səhnədə tamaşıçılara müraciətlə bağırır:"Bir aktirisa da verə bilməyəcəksənsə ,öl!"..."

Hüseyn Cavid "Peyğəmbər"şeirində (1923) yeni quruluşa sətiraltı məna ilə etiraz edirdi:

Öylə bir əsr içindəyim ki, cihan
Zülmü vəhşətlə qavrulub yanıyor.
Yüz çevirmiş də tanrıdan insan,
Küfrü haq, cəhli mərifət sanıyor.

Şairin "Topal Teymur" (1925) pyesinin dövlət teatrında oynanılmasına icazə verilir. Pyes bir neçə dəfə oynanılır,

tamaşaçıları həyəcana gətirir. Əhali türkçülüyün ümumi qəhrəman tipi Teymur Ləngdən məmnun olur. Məsələni başa düşən bolşeviklər pyesin göstərilməsini qadağan edirlər. Sovetin çörəyini yediyi halda tarixin panturanist tiplərini idealizə edən şairə qarşı sovet tənqidçiləri atəş püskürürlər.

Əhməd Cavadın bəxti bolşeviklərin dövründə gətirmir.Müsavatçı olduğuna görə onu həbs edirlər, əsərlərini çap etmirlər. Lakin bununla belə onun yazdığı şeirləri gənc kommunistlər həvəslə oxuyurdular.

Partiya orqanları və sovet hökuməti ilk günlərdən yaradıcı təşkilatların, ədəbiyyat nümayəndələrinin fəaliyyətini ciddi nəzarətində saxlayırdı. AK(b)P MK-nın orqanı "Maarif və mədəniyyət" jurnalı gənclərin bədii və ictimai tərbiyəsini xüsusi nəzarətə götürdü. Partiya orqanları sosialist ideyalarını təbliğ məqsədilə cəmiyyət və təşkilatlar yaradır, onların vasitəsi ilə yeni ideya və baxışları amiranəliklə qəbul etdirirdilər. Yaradıcılıq azadlığı partiyanın ciddi nəzarəti altında idi.

Hələ 1921-ci ildə Bakı Partiya Komitəsinin təbliğat şöbəsi nəzdində təşkil olunan ədəbiyyat mərkəzi 1922-ci ildə S.S.Axundovun sədrliyi altında ədəbi dərnək kimi fəaliyyət göstərirdi. Ona H.Cavid, H.Cəbiyev, S.Mümtaz, H.Zeynallı (müavin), M.S.Səfərov (katib) daxil idilər. 1925-ci ildə fəal yazıçıların təşəbbüsü ilə S.Ağamalıoğlunun sədrliyi ilə keçrilən müşavirədə "Azərbaycan ədəbiyyatı" cəmiyyətinin əsası qoyuldu. Onun tərkibinə S.Ağamalıoğlu ilə yanaşı, başqa partiya və dövlət xadimləri - R.Axundov, Ə.H.Qarayev, M.Quliyev, B.Talıblı, T.Şahbazi-Simurq, H.Cəbiyev, M.S. Ordubadi, H.Cavid, C.Cabbarlı, F.Ağayev daxil idilər.

1925-ci ildə "Kommunist" qəzeti yanında gənc yazıçıların ədəbiyyat qrupu bazasında "Gənc Qızıl Qələmlər İttifaqı" yaradıldı. Ona S.Rüstəm, M.Rahim, M.Müşfiq, S.Vurğun, M.Hüseyn, Mir Cəlal daxil idilər. Gəncə, Naxçıvan, Xankəndi, Nuxa, Lənkəran və digər şəhərlərdə onun şöbələri açıldı. İttifaq müasir vəzifələrdən guya uzaqlaşan və köhnə ədəbi

formalara üstünlük verən yazıçılara qarşı çıxırdı.

1925-ci ilin yanvarında "Bakinski raboçi", "Trud" qəzetləri və rusdilli yazıçı və şairləri birləşdirən Bakı Proletar Yazıçılarının Assosiasiyası (BPYA) təşkil olundu. 1925-c i ildə "Kommunist" qəzeti nəşriyyatı sosialist inqilabını, fəhlə və kəndlilərin əməyini tərənnüm edən "Gənc qızıl qələmlər" başlığı altında şeirlər toplusu buraxdı, 1927-ci ildə isə S. Rüstəmin "Ələmdən nəşəyə" adlı birinci şeirlər kitabı nəşr olundu.

Ədəbiyyata inzibati-amirlik münasibəti gündən-günə güclənirdi.1926-cı il dekabrda AK(b)P MK-nın təbliğat kollegiyasında, "Gənc Qızıl Qələmlər İttifaqı" ədəbi dərnəyi və "Azərbaycan ədəbiyyatı" cəmiyyətinin birləşdirilməsi əsasında vahid Azərbaycan ədəbiyyatı cəmiyyəti - "Qızıl qələmlər" yarandı.

1927-ci il fevralın 5-də AK(b)P MK ayrı-ayrı yazıçı təşkilatlarının üç bölməsi (Azərbaycan, rus və erməni) və birləşmiş idarə heyəti olan vahid Azərbaycan Proletar Yazıçıları Assosiasiyasında (APYA) birləşdirməyi qərara aldı. "Qızıl qələmlər" cəmiyyəti APYA-nın Azərbaycan bölməsinə, BPYA isə rus bölməsinə çevrildi.

"Maarif və mədəniyyət" jurnalı Azərbaycan KP MK-nın üzvü R.Axundovun rəhbərliyi altında onun orqanı təsdiq oldu.

Bununla belə həmin dövrdə ölkənin ədəbi həyatı başqa xalqların görkəmli yazıçı, şair və ictimai xadimlərinin respublikaya səfərləri, görüş və çıxışları, o cümlədən S.Yesenin, V.Mayakovski, N.Hikmətin Azərbaycana gəlişi ilə əlamətdardır.

Görülmüş işlər 1928-ci ilin yanvarında I Ümumazərbaycan Proletar Yazıçıları qurultayını hazırlamağa və keçirməyə imkan vermişdi.

192I-ci ilin yanvarında Xalq Maarif Komissarlığı nəzdində teatr, musiqi, təsviri sənət və foto-kino yarımşöbələri olan xüsusi incəsənət şöbəsi və incəsənətlə bağlı bütün işlərə rəsmi rəhbərlik etmək üçün İncəsənət Şurası təsis edildi.

Bədii, musiqi və teatr idarələrinin formalaşması və inkişafında

Ü.Hacıbəyov, M.Maqomayev, Ə.Əzimzadə, Ə.Haqverdiyev kimi böyük sənətkarlar fəal iştirak edirdilər. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 18 may tarixli dekreti əsasında bütün xüsusi incəsənət idarə və təşkilatları milliləşdirildi. Mayilov teatrının bazasında Dövlət teatrı yaradıldı, o vaxt bütün dram və opera kollektivləri orada cəmləşmişdi. 1918-ci il qanlı mart hadisələri zamanı erməni daşnakları tərəfindən yandırılmış H.Z.Tağıyev teatrı binasının bərpasına başlandı.

1920-ci ilin iyulunda Bakıda Azərbaycan Dövlət Dram Teatrının özəyi olan ilk teatr truppası formalaşdı. Bu teatrın inkişafında görkəmli dramaturq və ictimai xadim Ə. Haqverdiyevin böyük rolu var idi. Respublikanın teatr həyatında "Tənqid-təbliğ" teatrının açılışı da mühüm hadisə oldu. Bu teatrın rus truppası da yaradıldı. "Tənqid və təbliğ" teatrında Azərbaycan səhnəsinin qocaman ustadları Mirzə Ağa Əliyev, Sidqi Ruhulla unudulmaz rollar oynadılar.

1922-ci ilin yanvarında Tağıyev teatrının bərpa olunmuş binasında Azərbaycan Dövlət Dram Teatrının M.F.Axundovun "Hacı Qara" komediyasının tamaşası ilə təntənəli açılışı oldu. Teatrın baş rejissoru A.A.Tuqanov idi. 1924-cü ildə teatr Sovet Akademik Dram Teatrı adlandı.

1923-cü ildə Bakıda rus fəhlə teatrı yaradıldı, bu zaman erməni teatrı da fəaliyyət göstərirdi. 1926-cı ildə Azərbaycan səhnəsində U.Şekspirin "Hamlet" faciəsi ilk dəfə tamaşaya qoyuldu.1923-cü ildə Bakıda müsəlman Şərqində birinci teatr texnikumu açıldı. 20-ci illərdən milli musiqi incəsənətinin yeni əsaslı inkişaf bazası yaradılırdı. Musiqi fəaliyyətinin təşkilinə Xalq Maarif Komissarlığı rəhbərlik edirdi. Bütün ictimai və xüsusi musiqi məktəbləri, studiyalar, musiqi qrupları onun incəsənət şöbəsinin tabeçiliyinə və nəzarətinə verilmişdi.

Respublikada musiqi təhsili sisteminin yaradılmasında dahi Üzeyir Hacıbəyovun misilsiz xidməti olmuşdu. Hələ 1920 -ci ilin sentyabrında Maarif Komissarlığında musiqi bölməsinin müdiri olarkən o, musiqi akademiyasının və xalq konservatoriyasının

açılması, musiqi məktəbinin binasının onlara verilməsi barədə hökümət rəhbərlərinə yazılı müraciət etmişdi.

Lakin ixtisaslı musiqiçi kadrlar kifayət qədər olmadığından Xalq Maarif Komissarlığı ilk mərhələdə zəhmətkeş kütlənin musiqi savadı alması məqsədilə 1920-ci il iyulun 26-da vahid musiqi təhsili müəssisəsi-Xalq Konservatoriyası açdı. Xalq konservatoriyası, xüsusilə onun şərq şöbəsi Üzeyir Hacıbəyovun səyi sayəsində geniş xalq kütləsinin musiqi mədəniyyətinə qovuşmasında mühüm rol oynamışdı. 1921-ci il avqustun 26-da Azərbaycan SSR XKS-nin dekreti ilə müsəlman Şərqində ilk Musiqi Konservatoriyası təsis olundu.

Konservatoriyaya azərbaycanlı şagirdləri cəlb etmək məqsədilə Ü.Hacıbəyov 1922-ci ildə ilk professional Azərbaycan musiqi məktəbini yaratdı. Tezliklə texnikuma çevrilən bu məktəb 1926-cı il Konservatoriyaya birləşdirilərək milli musiqiçi kadrların tərbiyəsi probleminin həllini sürətləndirdi.

Konservatoriyaya 1923/24-cü tədris ilindən M.Presman rəhbərlik etmiş, Ü.Hacıbəyov rektor müavini olmuş, burada müxtəlif vaxtlarda M.Çenyaxovski, D.Slavinski, S.Bretanitski, B.Semyonov, L.Rastropoviç, L.Yablonk və bir sıra görkəmli musiqişünaslar çalışmışlar. Həmin dövrdə azərbaycanlıların Konservatoriyaya cəlb olunmasında ciddi dönüş yarandı. 1920-ci ildə Bakıda ilk dəfə təşkil olunan müstəqil simfonik orkestrə uzun illər Konservatoriyada işləmiş dirijor M.Çernyaxovski rəhbərlik etmiş və simfonik musiqinin təbliğində xidmətlərinə görə ona Azərbaycan Xalq Artisti fəxri adı verilmişdi.

Dram teatrda fəaliyyət göstərən opera truppası 1925-ci ildə Azərbaycan və rus bölmələri olan müstəqil Azərbaycan Dövlət Opera və Balet Teatrına çevrildi. Bu teatrda Ü.Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", "O olmasın, bu olsun", "Arşın mal alan", M. Maqomayevin "Şah İsmayıl" və digər milli bəstəkarların opera və musiqili komediyaları tamaşaya qoyulmuşdu.

1926-cı ildə filmlərin kirayəsi və nümayişi ilə məşğul olan Azərbaycan Dövlət Kino İdarəsi yaradıldı. Onuın səyi ilə 1927-ci ildə Gilanda milli-azadlıq hərəkatına həsr olunmuş "Gilan qızı" fılmi çəkildi.İncəsənətin bütün digər növləri kimi, memarlıq da sovet cəmiyyətinin maddi və estetik tələbatını ödəməyə istiqamətləndirilirdi. Sovet hakimiyyəti fəhlə qəsəbələri salmaq yolu ilə zəhmətkeşlər, birinci növbədə neftçi fəhlələr üçün yaşayış evlərinin geniş tikintisinə başladı. Razin qəsəbəsində (indiki A.Bakıxanov) intensiv tikinti başlandı, qısa müddətdə on min ailəni mənzillə təmin edəcək binalar inşa edildi.

Abşeronda ilk fəhlə qəsəbələri salınması Azərbaycan memarlığının öz dövrü üçün böyük nailiyyəti idi. Bu işlər sovet memarı A.P.İvanitskinin ümumi rəhbərliyi altında həyata keçirilirdi. 1924-cü ildə ona Bakı şəhərinin gələcək baş inkişaf planının tərtibi işinə başlamaq həvalə olunmuşdu. Baş planın hazırlanması 1927-ci ildə başa çatdırıldı.

"Kukuşka"nın əvəzinə 1926-cı ildə SSRİ miqyasında birinci olaraq Bakıda sənaye və fəhlə rayonlarını birləşdirən elektrik dəmir yol xətti işləməyə başladı. Dəmir yoluna xidmət etmək üçün Bakıda monumental və milli memarlıq ənənələrini təcəssüm etdirən "Sabunçu" dəmir yol vağzalının binası tikildi.

Beləliklə, 1920-1927-ci illər Azərbaycanda əsasən mədəni həyatın bütün sahələrində sovet ideologiyasına əsaslanan dövrün başlanğıc mərhələsi idi. Ancaq bunlar hamısı ümdə bir məqsədə - marksizm-leninizm məsləkli sovet rejimi qurucularını tərbiyə etmək məqsədinə xidmət edirdi.

IX FƏSİL
Azərbaycan SSR sosialistcəsinə yenidənqurma dövründə (1926-1937-ci illər).

Sənayeləşdirmə xətti. XX əsrin 20-ci illərinin ikinci yarısından başlayaraq SSRİ-də sosialistcəsinə yenidənqurma prosesi başlandı.Onun başlıca istiqamətlərini sənayeləşdirmə, kənd təsərrüfatının kollektivləşdirilməsi, bu əsasda olkədə istismarçı sinifləri tam sıradan çıxartmaq, bolşevik ideologiyasına xidmət edən mədəni quruculuq, Kommunist Partiyasının təkbaşına hakimiyyətinin bərqərar edilməsi, planlaşdırma və idarəçilikdə sərt mərkəzləşmə təşkil edirdi. Ümimiyyətlə məqsəd ölkədə sosializm cəmiyyəti qurmaq idi. Sovet tarixşünaslığında bu dövr kapitalizmdən sosializmə keçid dövrü(1926-1937) və ya sosializmin tam qələbəsi dövrü adlandırılırdı. Sovet dövləti göstərilən sosial-iqtisadi və mədəni vəzifələri həyata keçirmək üçün planlar tərtib etdi. Sovet sisteminin kapitalist sistemindən mühüm fərqlərindən biri onun planlı xarakter daşıması idi. Bu, sovet rəhbərliyinin fikrincə Sovet İttifaqını kapitalizmə xas olan böhranlardan yan keçməsini, sabit və dinamik inkişafını təmin etməli idi. Ona görə də həm İttifaq, həm də müttəfiq respublikalar üzrə sosial-iqtisadi və mədəni inkişafa dair rəqəm göstəricilərində ifadəsini tapmış planlar tərtib olunmağa başlandı. İlk belə bir planı 1920-ci ilin dekabrında Rusiya XKS tərəfindən qəbul edilmiş QOELRO (Rusiyanın elektrikləşdirilməsi) planı oldu.Bu plana görə Rusiyada və Cənubi Qafqaz respublikalarında bir neçə elektrik stansiyası tikilməli idi.

Sosializmin iqtisadi əsaslarını qurmaq üçün sənayeləşdirmə və kollektivləşdirmə xətti həyata keçirilməyə başlandı. Sənyeyeləşdirmədə əsas məqsəd ölkədə yeni sənaye müəssisələri, ilk növbədə əvvəllər olmayan zavod və fabriklər inşa etmək idi. İ.V.Stalin və onun həmfikri olan partiya və sovet rəhbərliyi belə hesab edirdi ki, sənayeləşdirmə SSRİ-nin iqtisadi müstəqilliyini təmin edəcək, xaricdən iqtisadi asılılığına son qoyacaq, sovet

sisteminin əsas sosial bazası olan fəhlə sifinin sıralarını artıracaq, kənd təsərrüfatının inkişafını, kollektivləşmənin uğurla reallaşmasını təmin edəcək.

Azərbaycanda sənayeləşdirməni həyata keçirmək üçün Qəzənfər Musabəyovun başçılığı ilə respublika sənayeləşdirmə komissiyası yaradıldı.

Sovetlər İttifaqında sənayeləşdirmənin ilk illərində əldə edilən nailiyyətlər bütün ölkə miqyasında, eləcə də respublikalarda xalq təsərrüfatının uzunmüddətli inkişaf planlarının tərtibinə imkan yaratdı. ÜİK(b)P-nin XV qurultayı (1927-ci il dekabr) SSRİ xalq təsərrüfatı inkişafının birinci beşillik planının tərtib edilməsinə dair direktivlər qəbul etdi. Partiya hər şeydən əvvəl, neft üzrə özünün ümumittifaq öhdəliklərinin həllinə I dərəcəli diqqət yetirirdi. Respublikanı təsərrüfat müstəqilliyi xətti üzrə inkişaf etdirmək cəhdi millətçilik təzahürü kimi qiymətləndirilirdi.

1928/1929 - 1932/1933-cü illərdə SSRİ xalq təsərrüfatı inkişafının ÜİK(b)P-nin XV qurultayı direktivlərinə uyğun birinci beşillik plan hazırlandı. Birinci beşilliyin əsas vəzifəsi SSRİ-ni aqrar sənaye ölkəsindən sənaye ölkəsinə çevirmək idi. Plan V Ümumittifaq Sovetlər qurultayında (1929-cu ilin may) təsdiq oundu.

Partiyanın ağır sənayenin üstün və sürətli inkişafını istiqamətləndirən baş xəttinə uyğun olaraq, beşillik planda bütün sənayeyə ayrılmış 16,4 milyard manatın 78%-i onun inkişafına yönəldilmişdi. 1913-cü illə müqayisədə kənd təsərrüfatı məhsullarını 1,5 dəfə artırmaq, dağınıq xırda kəndli təsərrüfatlarını sosialist kooperativləşdirilməsi yoluna keçirmək üçün konkret tapşırıqlar müəyyən edilmişdi.

Beşillik planda milli respublikalarda iqtisadiyyat və mədəniyyətin əsas inkişaf istiqamətləri müəyyənləşdirilirdi. UİK(b)P XV qurultayının beşillik xalq təsərrüfatı planına dair direktivlərində göstərilirdi:beşillik plan geridə qalmış milli ucqarların və geridə qalmış rayonların iqtisadiyyatını və

mədəniyyətini yüksəltmək məsələlərinə xüsusi diqqət verməlidir. Direktivlər respublikaların iqtisadiyyatını planlaşdırarkən İttifaqın ehtiyac və tələbatını nəzərdə tutmağın vacibliyini vurğulamaqla yerli, milli mənafeləri arxa plana keçirir, Mərkəzin diktəsinə zəmin yaradırdı.

Sənayeləşdirmə məsələsində Rusiya ilə Azərbaycan arasında da fərq var idi. Əgər Ruiyada sənayeləşdirmədə üstünlük daha çox ağır sənayeyə - maşınqayırma və hərbi sənayeyə verilirdisə, müstəmləkə vəziyyətində olan Azərbaycanda əsas üstünlük neft sənayesinin inkişafına və onu təmin edən elektrik enerjisi istehsalına yönəlmişdi.Ona görə ki, neft Rusiyaya lazım idi. Ölkəmizdə yüngül sənayenin inkişafına diqqət yetirilsə də, o əhəmiyyətinə görə ağır sənayeni əvəz edə bilməzdi.

Beləliklə, Azərbaycanda sosialist sənayeləşdirmənin əsas istiqamətinin ancaq ümumittifaq əhəmiyyətli sahənin-neft sənayesinin inkişafına yönələn xətti özünü tam aşkarlığı ilə nümayiş etdirirdi.Bu isə respublikanın bütün regionlarında iqtisadi-mədəni problemlərin bərabər və yüksək səviyyədə həllinə imkan verməyən əsas səbəblərdən idi.

Güclü sənaye yaratmaq böyük kapital qoyuluşu tələb edirdi. Sənayeləşdirməyə yönəldilən lazımi vəsaitin yığılması üçün ölkədə çox ciddi qənaət rejimi qurmaq, möhkəm istehsalat nizam-intizamı yaratmaq, səmərələşdirməni yaymaq, məhsulun maya dəyərini azaltmaq, səmərəli olmayan xərcləri ləğv etmək lazım idi. Bunların əvəzində isə bütün istehsal vasitələrinin Mərkəzin əlində cəmləşməsinə əsaslanan inzibati-amirlik sistemi güclənirdi.

Partiyanın XV qurultayı direktivlərinə uyğun tərtib edilmiş ZSFSR-in beşillik planını V Cənubi Qafqaz Sovetlər qurultayı (may 1929-cu il) təsdiq etdi. Planda Azərbaycan neft sənayesinin yüksək inkişaf templəri nəzərdə tutulmuşdu. Neft sənayesinə kapital qoyuluşunun həcmi əvvəlki beş il ərzindəki 432,5 mln manata qarşı 750 mln manat məbləğində nəzərdə tutulmuşdu. Yəni SSRİ-də bütün neft sənayesinin inkişafına qoyulan 1.400 mln. manatdan Azərbaycanın payına düşən məbləğ onun yarısından

artıq idi. Azərbaycan AXTŞ tabeliyində olan sənayeyə isə cəmi 66,9 milyon manat ayrılmışdı. Birinci beşillikdə Azərbaycanda 50 milyon ton neft çıxarılması nəzərdə tutulmuşdu.

Beşillik planda kimya sənayesinin inkişafına mühüm yer verilmiş, elektrikləşdirmə sahəsində Gəncə istilik-elektrik stansiyasının II növbəsinin, Zurnabad və Nuxa su-elektrik stansiyaları tikintisinin başa çatdırılması, 26 kənd elektrik stansiyasının inşası, toxuculuq sənayesində isə Gəncə toxuculuq fabriklərinin tikintisi və yenidən qurulması nəzərdə tutulmuşdu. Beşillik planda kənd təsərrüfatı sahələrinə aid mühüm vəzifələr qoyulmuşdu. Belə ki, kəndli təsərrüfatları 20%-dən az olmayaraq, pambıqçılıq rayonlarında isə 50%-dək kollektivləşdirilməli idi, əkin sahələri artırılmalı idi.

Beşillik ərzində sosial-mədəni sahədə bir sıra tədbirlərin, o cümlədən ümumi ibtidai təhsilin tətbiq edilməsi, mədəni-maarif müəssisələri şəbəkəsinin genişləndirilməsi, habelə zəhmətkeşlərin maddi rifah halının yüksəldilməsi planlaşdırılmışdı.

Birinci beşillik illərində yeni neft yataqları-Neftçala, Qala (Əzizbəyovneft tresti), Lökbatan,Qaraçuxur istismara verildi. Neft hasilatının artması neftayırma sənayesində irəliləyişə səbəb oldu. Beşillik ərzində Stalin adına neftayırma zavodunda texnikanın son nailiyyətləri əsasında yeni neftayırma qurğuları istifadəyə verildi.

1930-cu ilin əvvəlində böyük əhəmiyyət kəsb edən 822 km. uzunluğunda Bakı-Batum magistral neft kəməri istifadəyə verildi. Birinci beşillikdə Neftçalada yod-brom, Bakıda isə yod zavodları işə düşdü.

Yeni sənaye müəssisələrinin tikintisi gedən rayonlarda su-elektrik stansiya şəbəkəsi yaradılırdı. Sənayeləşdirmənin həyata keçirilməsi fəhlə sinfinin coğrafiyasının genişlənməsi ilə müşahidə olunurdu. Bu dəyişiklik Gəncə, Nuxa, Xankəndi və digər şəhərlərdə yeni sənaye mərkəzlərinin yaradılması ilə əlaqədar idi.

Lakin Stalin beşillik plana müdaxilə edirdi. O, ağır sənayenin templərini beşillik planda təsdiq olunmuş göstəriciylə müqayisədə 32% artırmağa məcbur etmişdi. Beşillik plan tədricən pozulur və

zorakı inzibatçılığın təsiri altında dəyişdirilirdi.

Beşilliyin ilk çağında qazanılmış uğurlar kütlələrin siyasi və istehsalat fəallığını artırmışdı. Partiya bundan istifadə edərək, sosializm yarışını genişləndirmək şuarını verdi. 1929-cu ilin ikinci yarısında kapitalist ölkələrini əhatə edən dünya iqtisadi böhranının başlanması sovet fəhlələrini daha da həvəsləndirdi, onlarda qəbul edilən kursun düzgünlüyünə inam yaratdı. Partiya orqanları, həmkarlar və digər ictimai təşkilatlar fəhlələrin səylərini socialist quruculuğunun inkişaf templərini sürətləndirməyə istiqamətləndirdilər. Azərbaycan neftçiləri 1928/29-cu təsərrüfat ilinin və 1929/30-cu ilin birinci rübünün istehsal proqramını artıqlaması ilə yerinə yetirirdilər, bu isə neft sənayesinin 1930/31-ci il iş planına çox mühüm dəyişikliklər etməyə əsas oldu. Azərbaycan neftçiləri qarşısında 1930/31-ci ildə ölkəyə planda nəzərdə tutulmuş 10-20 min ton əvəzinə 14 mln ton neft vermək vəzifəsi qoyuldu.1930-cu ilin yanvarında Bakı neftçiləri beşilliyi iki il yarımda yerinə yetirməli şüarı ilə çıxış etdilər.

Azərbaycan partiya təşkilatı Bakı neftçilərinin əmək fəallığına arxalanaraq, onların beşillik planı iki il yarımda vaxtından əvvəl yerinə yetirmək uğrunda təşəbbüsünü bəyəndi. Azərbaycan neft sənayesi bütün ölkə üzrə beşillik planın yerinə yetirilməsində mühüm yer tuturdu, eyni zamanda sənayenin çox sahələrinin inkişafı da neftdən asılı idi. Buna görə də Mərkəzi hökumət onun inkişafına beynəlmiləl maraq mövqeyindən daim nəzarət edir, neft üzrə beşillik planın vaxtından əvvəl yerinə yetirilməsi naminə müxtəlif tədbirlər həyata keçirirdi.

ÜİK(b)P MK 1930-cu il noyabrında "Neft sənayesinin vəziyyəti haqqında" qərar qəbul etdi. Qərarda yeni neft yataqlarının aşkar edilməsi, neftayırma zavodlarının yenidən qurulması və neft maşınqayırmasının yaradılmasının zəruriliyi xüsusi qeyd olunurdu. SSRİ Əmək və Müdafiə Şurasının "Neft avadanlığı istehsalının genişləndirilməsi haqqında" (16 mart 1931-ci il) və "SSRİ-nin neft rayonlarının elektrik enerjisi ilə təmin edilməsi haqqında" (18 mart 1931-ci il) qərarları da neft

sənayesinin yüksəlişinə böyük təkan verdi.

Azərbaycan neft sənayesi qarşısında duran vəzifələrin yerinə yetirilməsində də bu qərarlar mühüm rol oynadı. Azərbaycan neftçilərinin yarış və zərbəçilik hərəkatı geniş fəhlə kütlələrini əhatə etdi, təsərrüfat planlarını artıqlaması ilə yerinə yetirmək uğrunda mübarizəyə ruhlandırdı.

Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində SSRİ neft çıxarılması üzrə dünyada ikinci yeri tuturdu. Lakin təkcə rəsmi inzibati-amirlik tələbləri və zəhmətkeşlərin fəal əməyi ilə daim uğur əldə etmək mümkün deyildi, belə ki, sənayeləşdirməni yüksək templə aparmaq üçün kapital qoyuluşu çatışmazlığı meydana çıxdı. İstiqraz buraxmaqla vəsaiti aqrar sektordan sənayeyə "köçürmək" (perekaçka) isə xilasedici vasitə deyildi. Belə vəziyyət bütün respublikalarda yaranırdı.

Neftçilərin bütün səylərinə baxmayaraq, Azərneft bütövlükdə 1931-ci ildə nəzərdə tutulmuş istehsal planını cəmi 88,3% yerinə yetirə bildi. Düzdür, bu 1930-cu ildəkindən 24,8% çox idi, bu hal qazımada və neftayırmada da müşahidə edilirdi. Neft üzrə planın yerinə yetirilməməsinin rəsmi fərziyyəsi qazıma üçün sahələrin hazırlanmasının gecikməsi, neftçıxarmada mexanikləşdirməyə kifayət qədər diqqət verilməməsi, mədənlərin texniki cəhətdən yenidən silahlandırılması uğrunda mübarizənin zəifləməsi, təşkilati çatışmazlıqlar idi.Ancaq planın yerinə yetirilməməsinin başlıca səbəbi partiyanın qəbul etdiyi sürətləndirmə xətti ilə əlaqədar Mərkəzin neft planına onun artırılması istiqamətində daimi düzəlişlər verməsi oldu.

Beşillik plan Azərbaycan SSR xalq təsərrüfatının inkişafında mühüm addım oldu. Neft sənayesi xüsusilə inkişaf etmişdi. Neftçala, Qala (Əzizbəyovneft tresti), Lökbatan, Qaraçuxur və s. istismara verildi. Abşeronun hüdudlarından kənarda yeni neftli sahələrin mənimsənilməsinə başlandı. Qazıma sahəsində müvəffəqiyyətlər əldə edildi. Neftin çıxarılmasında kompressor üsulu və dərinlik nasoslarının tətbiqi neft sənayesində mühüm nailiyyət idi. Bu cür texniki yeniliklər sayəsində neft çıxarılması

1932-ci ildə 1928-ci ildəki 8,7 mln tondan 12,2 mln tona çatdı.Neft hasilatının artması respublika neftayırma sənayesinin də güclü inkişafına zəmin yaratdı. Birinci beşillikdə texnikanın son nailiyyətləri əsasında qurulmuş 23 neftayırma qurğusu tikilib istifadəyə verilmişdi. 1932-ci ildə çıxarılan neftin 95% Azərbaycanın neftayırma zavodlarında emal edilirdi.

1928-1932-ci illərdə Bakıda yod zavodu, soyuducular zavodu, Orconikidze adına tikiş kombinatı, Xankəndində ipəkəyirmə zavodu, Nuxa, Zaqatala və Lənkəranda kərpic zavodları istismara verilmişdi.

Bir sıra yeni sənaye sahələrinin - yod-brom istehsalını mənimsəyən kimya, tikinti materialları istehsalı və yüngül sənayenin yaradılması təbii ehtiyatlardan və kənd təsərrüfatı xammalından kompleks şəkildə istifadə etməyə imkan verdi.

Yeni sənaye müəssisələrinin tikintisi ilə yanaşı, Azərbaycan SSR-də köhnə müəssisələrin genişləndirilməsi və yenidən qurulması həyata keçirilirdi. 1928-1932-ci illərdə Bakıda Şmidt adına (indiki Səttarxan) neft avadanlığı zavodunun, sement zavoduıun, Lenin adına (indiki H.Z.Tağıyev) əyirici- toxucu fabriki, gön-dəri zavodu, Çiraqidzorda (dzor-dərə deməkdir) kükürd-kolçedan mədəninin yenidən qurulması sahəsində böyük işlər görüldü. Respublikanın maşınqayırma sənayesinin inkişafında mühüm uğurlar qazanıldı. Azərneftin yataqlarının, habelə hava (kanat) yolunu elektrik enerjisi ilə təchiz edən Zurnabad SES-in tikintisi başa çatdırıldı. Gəncə, Xankəndi, Laçın, Zaqatala və başqa yerlərdə 16 yeni elektrik stansiyası istifadəyə verildi. İlk sənaye müəssisələri yaradıldı. Bakıda makaron fabriki, kərpic zavodu, Gəncədə əyirici-toxucu fabriki, kərpic zavodu, Xankəndində ipəkəyirmə zavodu, Lənkəran və Ordubadda konserv zavodları, ümumiyyətlə 25 iri dövlət sənaye müəssisəsi tikilib istismara verildi.

Sənayenin inkişafi fəhlə sinfinin tərkibində kəmiyyət və keyfiyyət dəyişikliklərinə şərait yaratdı. Xalq təsərrüfatında (kənd təsərrüfatı istisna olmaqla) çalışan fəhlə və qulluqçuların sayı

1932-ci ildə 1928-ci ildəki 175 min nəfərdən 325 min nəfərədək artdı.

Azərbaycan fəhlə sinfinin əsasını neftçilər təşkil edirdi. Fəhlə və qulluqçuların sayca artımı yalnız xalq təsərrüfatının sosialist bölməsində baş verirdi. Azərbaycanda fəhlə sinfinin əsas artım mənbəyi İttifaqın başqa rayonlarından gəlmiş şəhər əhalisi - fəhlə kontingenti idi. Bakıya Azərbaycandan kənar regionlardan 100 mindən artıq fəhlə gəlmiş və burada məskən salmışdı. Digər artım mənbəyi kənd əhalisi idi. Kənd təsərrüfatında yeni sosial dəyişikliklər prosesində kəndin özünəməxsus aqrar əhali artıqlığı baş verirdi. Kənd əməyinin mexanikləşdirilməsi, kollektiv təsərrüfatların meydana gəlməsi sənayedə yeni azad işçi qüvvəsi yaradırdı.

Sənaye fəhlələrinin tərkibində azərbaycanlıların nisbi azlığı müəyyən dərəcədə Azərbaycan kəndlisinin mentaliteti, onun torpağa bağlılığı, məskunlaşdıqları yerləri tərk etmək istəməməsi ilə izah edilsə də, Mərkəzin gizli münasibətlərini də nəzərdən qaçırmaq olmaz. Bu illərdə sənaye fəhlələrinin milli tərkibinə içərisində azərbaycanlıların azlıq təşkil etdiyi fəhlə sinfinin öz işçi qüvvəsinin təkrar istehsalı da təsir göstərirdi.

Səbəblərdən biri də respublika rəhbərliyində bu millətin problemlərinə laqeyd münasibət, mövcud milli əmək ehtiyatlarından səriştəsiz və səmərəsiz istifadə edilməsi idi. Fəhlə sinfinin Azərbaycanlı özəyinin güclənməsində şovinist ünsürlərin maneçiliyi, hakim dövlət orqanlarında sənayeyə yerli əhalinin cəlb edilməsinə qəsdən maraq göstərilməməsi halları da mövcud idi. Hətta 1930-cu ilin sonunda AK(b)P MK- nın Azərbaycan kəndindən 500 nəfər muzduru neft sənayesinə cəlb etmək haqqında qərarı Azərneft rəhbərliyi tərəfindən yerinə yetirilməmişdi. Neft sənayesinin yerli əhalidən olan kadrlarla təmin edilməsi Azərneftin əsas göstəricilərində də nəzərdə tutulmamışdı.

1928-1932-ci illərdə müəyyən müvəffəqiyyətlər qazanılmışdı.Ancaq iqtisadiyyatda inzibati-amirlik metodlarının

kök salma gücü, beşilliyin ilk illərində qabaran əmək təşəbbüskarlığı dalğasında bu uğurlara nail olunmuşdu.

Birinci beşilliyin nəticələrinin saxtalaşdırılması Stalinə təmayülçülərlə, "xalq düşmənləri" ilə mübarizədə özünün haqlı olduğunu sübut etmək, onun və həmfikirlərinin buraxdıqları kobud nöqsan və səhvləri gizlətmək üçün lazım idi.

İnzibati-amirlik metodlarının təşəkkül tapması və yeni iqtisadi siyasət (YİS) mexanizmlərinin məhdudlaşdırılması bazar münasibətlərini heçə endirərək ölkənin bütün iqtisadiyyatının milliləşdirilməsi ilə nəticələndi.

İqtisadiyyatda partiya ideologiyasının hökmlü üstünlüyü öz əksini Mərkəzdə hazırlanan beşillik planlarda tapırdı. ÜİK(b)P XVII qurultayı (yanvar-fevral 1934-cü il) tərəfindən qəbul olunan II beşillik plan (1933-1937-ci illər) bütün ölkənin təsərrüfat həyatını dövlətin sərt müdaxilələrlə idarə etməsindən, eləcə də hər bir müttəfiq respublikada inkişafı "dəmir" reqlamentə salmasında növbəti bir mərhələ oldu. Partiya II beşilliyin əsas siyasi vəzifəsinin kapitalist ünsürlərini tamamilə məhv etməkdən, sinfi fərqləri tam aradan qaldırmaqla sinifsiz sosializm cəmiyyəti yaratmaqdan ibarət olduğunu açıq bəyan etdi.

Başlıca təsərrüfat vəzifəsi isə iqtisadiyyatı bütünlüklə yenidən qurmağı başa çatdırmaq oldu. İnzibati-amirlik sisteminin güclənməsi, beşillik planda hər respublikanın vəzifəsinin ilk növbədə Mərkəzin mənafelərinə uyğun müəyyənləşdirilməsi bu beşilliyin mühüm xüsusiyyəti idi. Federasiya pərdəsi altında, bütün İttifaqın marağını nəzərə almaqla, sənayeni xammal və enerji mənbələrinə yaxınlaşdırmaq yolu ilə respublikaların iqtisadiyyatını sürətlə inkişaf etdirmək II beşilliyin əsas istiqamətlərindən biri kimi müəyyən edildi.

İkinci beşillik plan ZSFSR üçün ölkənin bütün xalq təsərrüfatını geniş surətdə elektrikləşdirmə əsasında kökündən yenidən qurmağı ən mühüm vəzifə kimi irəli sürdü. Azərbaycana aid planda Bakı elektrik stansiyalarının gücünü artırmaq, əlavə Salyan- Muğan istilik stansiyası, Tərtər SES, Mingəçevir SES və

Şamxor (Şəmkir)SES tikmək nəzərdə tutulurdu. Lakin respublika üçün çox vacib olan bu obyektlər həmin beşillik dövründə kağız üzərində qaldı. Mingəçevir və Şamxor su-elektrik stansiyalarının tikintisi isə yalnız müharibədən sonra başlandı.

Azərbaycanda neft sənayesinin və onun tələbatına uyğun maşınqayırmanın inkişafı respublikada metallurgiya sahəsinin də yaradılmasını zəruri edirdi. Odur ki, 1931-1936-cı illərdə Gəncədə Daşkəsən dəmir filizi ilə işləyən Zaqafqaziya metallurgiya kombinatının tikilməsi üçün layihə hazırlandı. Kombinatın tikilməsi beşillik planın əsas obyektləri siyahısına salındı. Lakin kombinat Azərbaycanda deyil, müharibədən sonra Gürcüstanda - Rustavelidə tikildi. Beləliklə, kombinatın məhsuluna ən çox böyük ehtiyacı olan Azərbaycana bu zavoda saflaşdırılmış filiz vermək və ondan yarımfabrikat-boru istehsalı üçün metal prokatı almaq qaldı.

1933-1937-ci illərdə neft sənayesinin texniki cəhətdən yenidən qurulmasının davamı - dərin qazımanın və neft hasilatının daha mükəmməl üsullarının öyrənilməsi, yeni emal sistemlərinin yaradılması dururdu. Azərbaycanın vəzifəsi, onun "beynəlmiləlçi borclarını"-ölkəyə daha çox neft və pambıq vermək öhdəliklərini yerinə yetirməsini əlbəttə ki, Mərkəz müəyyən edirdi.

Ölkənin əlvan metallurgiyaya olan ehtiyacı nəzərə alınaraq, Zəylik alunit yataqları əsasında alüminium sənayesini genişləndirmək vəzifəsi qarşıya qoyulurdu. Hələ 1932-ci ildə Zəylik yatağı bazasında Gəncədə təcrübə zavodu tikilmişdi. Neft sənayesi tullantıları əsasında kimya sənayesini genişləndirməyə xüsusi yer verilirdi. Bakıda kükürd turşusu istehsal edən iki zavodun tikintisi planlaşdırılmışdı.

1933-1937-ci illər planında yüngül sənaye sahələrinin - pambıq-parça, ipək, yun, trikotaj sahələrinin genişləndirilməsi və yenidən qurulması nəzərdə tutulurdu.Yeyinti sənayesində Lənkəran, Ordubad, Xaçmazda konserv zavodlarının, Bakıda biskvit və karamel fabriklərinin tikilməsi gözlənilirdi.Ələt-Culfa,Yevlax-Xankəndi dəmir yollarının çəkilməsi planlaşdırılırdı.Bu plana daxil

edilən 10 iri yeni magistral hava yollarından biri Bakı - Krasnovodsk - Aşqabad - Daşkənd - Alma-Ata xətti idi.

Kolxoz təsərrüfatlarının təşkilati cəhətdən möhkəmləndirilməsi, respublikanın SSRİ-nin güclü pambıq bazasına çevrilməsi, heyvandarlığın inkişaf etdirilməsi kimi vəzifələr qarşıya qoyulmuşdu. Həmçinin zəhmətkeşlərin maddi və mədəni səviyyəsinin yüksəldilməsi proqramı da müəyyənləşdirilmişdi.

Beşilliyin əvvəlləri sənayedə, nəqliyyatda yenilikçilər, zərbəçilər hərəkatının başlanması ilə xarakterizə olunurdu. Sosializm yarışının yeni formaları - "ən yaxşı briqada" və "ən yaxşı peşə ustası" adları uğrunda mübarizə formaları meydana gəlir, "ən yaxşı qazmaçı" adı uğrunda müsabiqələr elan olunurdu. Müsabiqənin məğzi ondan ibarət idi ki, qazma işləri keyfiyyətli və nəzərdə tutulduğu vaxtdan əvvəl yerinə yetrilsin. Adlı-sanlı neftçi Ağa Nemətulla briqadası bu müsabiqənin ilk iştirakçılarından idi. Respublika neftçiləri 1933-cü il üçün nəzərdə tutulan 14,4 mln ton neft hasilatına qarşı ölkəyə 15,3 mln ton neft vermiş, həmin ilin neft emalı planını 105,7 % yerinə yetirmişlər.

Bununla belə, kifayət qədər yüksək ixtisaslı fəhlələr çatışmırdı. Dərin qazıma texnikasını yaxşı bilən ustaların, qazımaçıların, eyni zamanda müasir texniki avadanlıqların çatışmadığı kəskin hiss olunurdu.

İkinci beşilliyin birinci ilindən müəyyən gerilik müşahidə olunmağa başladı. Neft sənayesində yaranmış qeyri-qənaətbəxş vəziyyət ÜİK(b)P MK-nı çox narahat etdi və o, 1934-cü il mayın 14-də "Azərneftin işi haqqında" xüsusi qərar qəbul etdi. Qərarda çatışmazlıqların aradan qaldırılması, bütün səylərin neft sənayesi planının yerinə yetirilməsinə yönəldilməsi tələb olunurdu.

Partiya rəhbərliyi maddi-mənəvi baza yaradılmadan, texniki vasitələri qüvvətləndirmədən yenə də "yarışlar" vasitəsilə fəhlə əməyini gərginləşdirmək xəttini götürdü. Artıq 1934-cü ilin birinci yarısında, demək olar ki, təsərrüfatın bütün sahələrində fəhlələrin əksəriyyəti sosializm yarışı ilə əhatə olunmuşdu. 1934-cü ildə neftin bütün hasilat artımı neft sənayesində kompressor istismarının

texniki cəhətdən yenidən qurulması və həmçinin zərbə qazıma üsulunun dərin qazımaya imkan verən yeni rotor üsulu ilə əvəz edilməsi nəticəsində mümkün olmuşdu.

1935-ci il Azərbaycanda sovet hakimiyyəti qurulmasının 15 illiyinin təntənəsilə başlandı. Planın kəsirlə başa çatmasının qarşısını almaq mümkün olmamışdı. Bunun səbəblərindən biri əməyin maddi stimullaşdırılması mexanizmlərinin inzibati-amirlik təzyiqi ilə sıxışdırılması idi. Rəhbər kadrlar arasında böyük axıcılıq var idi, texnikanın öyrənilməsi problemini tələm-tələsik qaydada həll etmək mümkün deyildi. Ona görə də əmək "qəhrəmanları"nı irəli çəkmək zərurəti meydana gəldi. Beləliklə, ölkədə Aleksey Staxanovun Donbasda əmək rekordları ilə meydana gələn kütləvi istehsalat yenilikçiləri hərəkatı başlandı. Staxanov hərəkatı yeni texnikanı öyrənmək, yüksək əmək məhsuldarlığı uğrunda ümumxalq hərəkatını genişləndirmək məqsədilə əhəmiyyətli idi.

Mərkəz Staxanov hərəkatının xalq təsərrüfatının bütün sahələrində yayılmasına xüsusi səy göstərdi. Pravda qəzeti neft sənayesindəki geriliyin aradan qaldırılmasında yenilikçilər hərəkatının həlledici əhəmiyyətinə diqqəti cəlb edərək yazırdı: "Staxanovçular hərəkatının Bakı və Qroznı neft sahələrini əhatə etməsi mütləq lazımdır. Məhz bu hərəkat elə bir başlanğıc olar ki, bunun yardımı ilə bakılılar və qroznılılar neft sənayesini yenidən xalq təsərrüfatının qabaqcıl sahəsinə çıxara bilərlər".

Staxanov ili adlanan 1936-cı ildə Azərbaycanda Staxanov hərəkatı partiya,həmkarlar ittifaqı və komsomol təşkilatlarının fəaliyyəti nəticəsində kütləvi hərəkata çevrilirdi. Məhz bu ildən neft sənayesində,eləcə də sənayenin digər sahələrində Staxanov növbələri, günləri, beşgünlükləri, ongünlükləri, iyirmigünlükləri, aylıqları kimi yüksək məhsuldar formalardan istifadə olunurdu.

Azərbaycan neft sənayesində ilk dəfə Staxanov növbəsi Qaraçuxur mədəninin 2-ci qazıma qrupunda tətbiq olunmuşdu. Staxanov beşgünlüyü keçirilməsinin isə ilk təşəbbüsçüsü İliç buxtası mədəninin kollektivi idi.

1936-cı il iyununda Moskvada SSRİ Ağır Sənaye Xalq

Komissarlığı yanında Şura fəaliyyətə başladı. Şuranın işində daş kömür, neft, metallurgiya və maşınqayırma sənayesinin adlı-sanlı adamları, professorlar, mühəndislər iştirak edirdilər.Şura neft sənayesində Staxanov hərəkatının nailiyyətlərini qeyd etməklə bərabər,onu daha da genişləndirməyin zəruriliyini göstərdi. Fəhlələrin mədəni-texniki səviyyəsi yüksək olan sahələrdə Staxanov hərəkatı daha geniş yayılırdı.

Respublika rəhbərləri əslində o vaxtlar Staxanov hərəkatını əsil kütləvi fəhlə hərəkatına çevirə bilmədilər. Bunun da səbələrindən biri partiya və həmkarlar ittifaqları orqanlarının süni şəkildə ancaq sözdə "əmək coşqunluğu" cəhdləri, hay-küy salmaqla fəhlələrin əmək fəaliyyətini maddi maraqlandırma prinsipi əsasında qurmaları idi. Zəhmətkeş xalq şüurlu surətdə müəyyən çatışmazlıqlara dözür, üzücü zəhmət və məişət çətinliklərinə tab gətirir, ümid edirdi ki, bu çətinliklər müvəqqətidir və indi onlar "özlərinin parlaq gələcəklərini" sosializm cəmiyyətini qururlar.

Birinci beşillik təzə tikintilərlə səciyyələnirdisə, İkinci beşillik əsas etibarilə yeni müəssisələrin və yeni texnikanın mənimsənilməsi beşilliyi oldu. Lakin bu, o demək deyildi ki, ikinci beşillikdə tikintinin miqyası məhdudlaşırdı. Birinci beşillik illərində Azərbaycanda 25 iri dövlət sənaye müəssisəsi tikilmiş və işə salınmışdı.İkinci beşillikdə isə yeni texnikaya əsaslanan 27 müəssisə istismara verilmişdi.

İkinci beşillik xalq təsərrüfatına yüksək kapital qoyuluşu ilə səciyyələnirdi. Bu beşillikdə neft sənayesinin inkişaf etdirilməsi partiya və dövlətin ən mühüm vəzifəsi idi. 1932-ci ilə qədər respublikada neft ancaq Abşeron regionunda çıxarılırdısa, ikinci beşillikdə ölkədə neftə olan tələbatın sürətlə artması ilə əlaqədar onun coğrafiyasının genişləndirilməsi ön plana çəkildi. Abşeronda Lökbatan, Ələt, Puta, Qaraçuxur, Qala və s. yeni neft sahələrində neft çıxarılması ilə yanaşı, Neftçala və Siyəzəndə də yeni neft sənaye rayonları yaradıldı.

Texniki yenidənqurma neft hasilatı üzrə istismarı da təkmilləşdirdi. Qazıma işləri burma qazıması və turbin üsulu ilə

aparılırdı.

Neft emalı sənayesində də mühüm dəyişiklik baş vermişdi. Qabaqcıl texnika ilə təchiz olunmuş yeni zavodlar tikilmiş, köhnələrində tam yenidənqurma işləri aparılmışdı. Beləliklə, Azərbaycanda neft çıxarılması 1932-ci ildəki 12,2 mln tondan artaraq 1937-ci ildə 21,4 mln ton olmuşdu. İkinci beşillikdə Azərbaycan neft sənayesi SSRİ-yə 96 mln ton neft vermişdi.

Beləliklə, Azərbaycan neft sənayesi -Sovet İttifaqının başlıca neft bazası, ağır sənayenin əsas sahələrindən biri idi. 1937-ci ildə SSRİ-nin neft və qaz hasilatının 76%-ni Azərbaycan SSR verirdi.

Azərbaycanda neft hasilatının güclü artımı SSRİ-nin sürətlə sənayeləşdirilməsinə sərf olunurdu. Bakı nefti nəinki ölkədaxili tələbatın ödənilməsində, eləcə də xaricə satılan neftin əsas hissəsini təşkil edirdi. İxrac edilən neft və neft məhsullarının gətirdiyi külli miqdarda vəsaitlə İttifaq sənayesi üçün hər növ maşın və avadanlıqlar alınırdı.

SSRİ-dən ixrac edilən neft və neft məhsullarının 1932-ci ildə 71,1%-i, 1935-ci ildə 84%-i Azərbaycanın payına düşürdü. Azərbaycan neftçiləri Uralda, Permdə, Komidə, Türkmənistanda, Qazaxıstanda, Gürcüstanda, Başqırdıstanda, Volqa və Ural arasındakı rayonda yeni neft bazası olan "İkinci Bakı"da kəşfiyyat-axtarış işlərində bilavasitə iştirak etmişlər.

Bakı neftçilərinin iştirakı ilə Ukraynada, Özbəkistanda, Qazaxıstanda, Gürcüstanda və Türkmənistanda 36 yeni neft yatağı aşkar edilmişdi. Neft sənayesi ilə yanaşı, digər sahələrdə də irəliləyişlər var idi. Bu illərdə qaz istehsalı, elektrik enerjisi istehsalı, qara metal prokatı, sement, maşınqayırma və metal emalı məhsulu, pambıq-parça istehsalı artmışdı.

1937-ci ildə Azərbaycanın xalq təsərrüfatında sənaye məhsullarının xüsusi çəkisi 91,7% təşkil edirdi. Azərbaycan sənaye respublikası kimi müttəfiq respublikalar arasında qabaqcıl yerlərdən birini tuturdu. O dövrdə SSRİ-də ərazi üzrə 9-cu yeri, əhalinin sayına görə 7-ci yeri tutan Azərbaycan SSR neft istehsalında 1-ci, sənayenin ümumi məhsul buraxılışı və elektrik enerjisi

istehsalında İttifaqda 3-cü (RSFSR və Ukrayna SSR-dən sonra), metal emalı və maşınqayırmada 4-cü yerdə idi.

Nəqliyyatda da əsaslı irəliləyişlər baş vermişdi. 1936-cı ildə Bakı-Culfa dəmir yol xəttinin 300 km uzunluğunda olan Ələt-Mincivan sahəsi işə salındı. Dəniz nəqliyyatından geniş istifadə etmək imkanları daha da artmışdı. 1936-cı ildə Xəzər gəmiçiliyinə "Azərbaycan", "Osetiya", "Kuybışev" adlı quru yük daşıyan üç yeni teploxod, "Türkmənistan" və "Dağıstan" adlı sərnişin gəmiləri verildi. XX əsrin 30-cu illərində Abşeron körpüsü, 1937-ci ildə Bakı limanında ikitonluq kranı olan ilk mexanikləşdirilmiş körpü isüfadəyə verildi. 1937-ci ildə müasir Bakı limanının birinci hissəsi işə düşdü. Bu dövrdə Bakı limanının İran, Orta Asiya və Rusiya ilə əlaqələrinin genişlənməsində əhəmiyyəti artmışdı.

Hava nəqliyyatının inkişaf etdirilməsi dövrün tələbi idi. Hava yollarının genişləndirilməsinə xüsusi diqqət yetirilmişdi. 1933-cü ilin yanvarında Bakı-Aşqabad-Daşkənd arasında hava xətti açıldı. Həmin ildə təntənəli şəkildə Bakı təyyarə limanının açılışı oldu. Respublika əhəmiyyətli iki yeni hava xətti: Hacıqabul - Mil sovxozu, Ağcabədi - Ağdam və Yevlax - Nuxa - Zaqatala istifadəyə verildi. 1935-ci ildə Bakı-Ənzəli hava xəttinin açılması ilə liman SSRİ ilə İran arasında bilavasitə əlaqə yaradan beynəlxalq əhəmiyyət kəsb etdi.

Kənd təsərrüfatının kollektivləşdirilməsi. Sənayeləşdirmədə baş verən yeniliklər kəndin ictimai iqtisadi həyatında dəyişikliklər keçrilməsini şərtləndirdi. Sovet rəhbərliyinin fikrincə, kollektivləşmə (kolxozlar) sənayeni xammalla, ölkəni ərzaqla təmin etməli, kənddə sinfi təbəqələşməni, kapitalist ünsürləri olan qolçomaqları bir sinif kimi ləğv etməli idi. SSRİ-də, o cümlədən Azərbaycan SSR-də kollektiv təsərrüfatlar üç formada yaradılırdı:1)TOZ-lar(Tovarişestvo obrabotki zemli-torpağı birgə becərmə birliyi)-burada torpaq və əmək ümumi olur, heyvanlar və istehsal vasitələri şəxsi istifadədə qalirdı; 2)Kommunalar (icmalar) - belə kollektiv təssərrüfatlarda torpaq, əmək, mal-qara, yəni bütün istehsal vasitələri, hətta məişət ən yüksək səviyyədə

ümumiləşdirilirdi ki, bu da kəndlilərin iqtisadi marağını öldürdüyü üçün onların ömrü az oldu;3) Kənd təsərrüfatı artelləri (kolxoz da deyilir) kollektivləşmənin əsas forması idi. Burada əsas istehsal vasitələri: torpaq, avadanlıq, iş heyvanları, əmək alətləri və s. ümumiləşdirilsə də, kəndlilərə kiçik şəxsi təsərrüfat saxlamağa icazə verilirdi. Kolxoz sisteminə Rusiyada mövcud olmuş təhkimçilik sisteminin davamı kimi baxılır.

Azərbaycan SSR-də kənd təsərrüfatı pərakəndə vəziyyətdə idi, xırda fərdi təsərrüfatlar üstünlük təşkil edirdi. Yaranmış böhrandan çıxış yolunu Stalin kənd təsərrüfatını hər vasitə ilə kollektivləşdirməkdə, yəni ümumi kəndli təsərrüfatının yaradılmasında görürdü. ÜİK(b)P-nin XV qurultayı (dekabr 1927-cı il) xırda fərdi kəndli təsərrüfatlarını birləşdirməyi və onları iri kollektivlərə çevirməyi kənddə əsas vəzifə kimi qarşıya qoydu.

Qurultayda kooperasiyanın (birləşmənin) bütün formalarının inkişaf etdirilməsi, yeni texnika əsasında torpağın elliklə becərilməsinə keçilməsi nəzərdə tutulurdu. Kənd təsərrüfatının kooperativləşməsi haqqında qərarda müddət, xüsusilə forma və üsulları barədə konkret vəzifələr müəyyənləşdirilməmişdi. Qurultayın qolçomaqlar haqqında qərarında iqtisadi metodlarla onların istismar imkanlarını azaltmaq tədbirləri nəzərdə tutulurdu, qeyd olunurdu ki, kollektivləşmə ancaq zəhmətkeş kəndlilər tərəfindən razılıq olması şərti ilə mümkün ola bilər.

Azərbaycanda kooperativləşdirmənin dinamikası illər üzrə aşağıdakı kimi nəzərdə tutulurdu: 1926-cı il - 20,2%; 1927-ci il-26,9%; 1928-ci il - 46,9% və 1929-cu il - 68,2%.

1927-1928-ci illərdə ölkədə taxıl tədarükündə baş vermiş çətinliklər vaxtı Stalin kollektivləşdirməni sürətləndirmək qərarını verdi. Taxıl hazırlığındakı böhranı aradan qaldırmaq tələbi ilə 1928-ci ilin fevralında yerli təşkilatlara Stalinin təlimatı göndərildi. Bu təlimatın mahiyyəti kəndli təsərrüfatlarının kollektivləşdirilməsi sahəsində təzyiq metodunun tətbiqindən ibarət idi.

Azərbaycanda kollektiv təsərrüfatlar yaradılmasına hələ sovet

hakimiyyətinin ilk illərində başlanmışdı. 1921-ci ilin may ayında respublikada 9,5 min adamı birləşdirən 137 kənd təsərrüfatı arteli, 37 kommuna var idi. Həmin kollektiv təsərrüfatlarının çoxu qısa bir müddətdə kəndli kütlələrinin şüurunun və mədəniyyətinin geriliyi, fərdiyyətçi münasibəti və iqtisadi-texniki amillərin olmaması nəticəsində dağıldı.

1926-1928-ci illərdə kollektiv təsərrüfatlar yenidən təşkil olunmağa başlandı. Respublikada 1928-ci ilin sonunda kolxozların sayı 289-a çatdı, bu da kənddəki təsərrüfatların 1,3%-ni təşkil edirdi. Bundan əlavə kolxozların 88%-i kənd təsərrüfatı maliyyə kooperasiyası ilə əhatə olunmuşdu. Bu da yeni yaranan kolxozların kənd təsərrüfatı maşınları, avadanlıq, nəqliyyat vasitələri əldə etməsinə imkan verirdi.

1928-ci ilin ortalarına qədər kollektiv təsərrüfatların qurulması prosesi nisbətən mülayim, kəskin sinfi mübarizəsiz keçir və öz müsbət nəticələrini verirdi. Vergidən azad olunmuş yoxsul, zəif kəndli təsərrüfatları hesabına məhsul istehsalı çoxalırdı. Kolxozlara maliyyə ayrılmasına, maşın, avadanlıq və s. alınmasına getdikcə qayğı da artırdı. Belə ki, Azərbaycanda kolxozlaşma faizi başqa Cənubi Qafqaz respublikalarından yüksək idi.

Lakin 1928-ci ilin ortalarından başlayaraq Azərbaycanda kolxoz təşkili süni sürətləndirilir, hətta açıq zorakılıq tətbiq etmək hallarına yol verilirdi.

ÜİK(b)P MK-nın noyabr(1929-cu il)plenumu təsərrüfatları elliklə kollektivləşdirilməsi vəzifəsini artıq ayrı-ayrı vilayətlərin qarşısına qoydu. Azərbaycanda kollektivləşdirmənin başa çatdırılması 1930-cu ilin yaz əkin kampaniyası dövrünə keçirilməsi qərarlaşdırıldı.

ÜİK(b)P-nin qərarına uyğun olaraq, Azərbaycan K(b)P MK (1929-cu il dekabr) respublikada kolxoz və sovxoz quruculuğu planında dəyişiklik etmək barədə qərar qəbul etdi

Kəndliləri kollektivləşmə prosesinə inandırmaq və təmkinlə təşkilati iş aparmaq əvəzinə, onlara qarşı inzibatçılıq, kobud təzyiq, hətta fiziki zorakılıq tətbiq edilirdi. 1929-1930-cu illərdə

Azərbaycanda fərdi təsərrüfatların kollektivləşməsi çox ləng gedirdi. Çünki kolxozlara əsasən yoxsul kəndlilər daxil olur, ortabablar isə hələ tərəddüd edirdilər.

1930-cu ilin payızında Azərbaycan SSR-də kütləvi kolxoz quruculuğu başlandı. 1931-ci ildə 154.457 kəndli təsərrüfatını birləşdirən 3300 kolxoz var idi. Bir ildə respublikada 1491 yeni kolxoz təşkil edilmiş, 99153 nəfər yoxsul və ortabab kəndli kolxozlara daxil olmuşdu ki, bu da 1930-cu ilə nisbətən təqribən 3dəfə çox idi. Elliklə kolxozlaşdırma prosesinin genişlənməsində, kənddə yeni ictimai quruluşun yaradılmasında dövlətin öz marağından doğan köməyinin mühüm rolu olmuşdu. I beşillik ərzində respublikanın kənd təsərrüfatına dövlət tərəfindən 13.408 milyon manat kapital qoyulmuşdu.

Kollektivləşdirmədə inzibati-amirlik siyasəti getdikcə güclənirdi, milli xüsusiyyətlər,kəndlilərin əhvali-ruhiyyəsi,onların çoxunun şəxsi təsərrüfatını saxlamaq istəyi nəzərə alınmır,bu işdə tələskənlik və zorakılığın yolverilməzliyi prinsipləri pozulurdu. 1930-cu il yanvarın 5-də ÜİK(b)P MK "Kollektivləşdirmənin sürəti və kolxoz quruculuğuna dövlət tərəfindən yardım edilməsi tədbirləri haqqında" qərar qəbul etdi. Mərkəzi Komitə ayrı-ayrı rayonlarda şəraitin müxtəlifliyini və kollektivləşməyə eyni dərəcədə hazırlıq olmadığını nəzərə alaraq, ölkədə kollektivləşdirməni sona yetirmək üçün təqribi möhlətlər müəyyən etdi. Qafqazda və Orta Asiyada kollektivləşdirmə 1930-cu ilin payızında, yaxud 1931-ci ilin yazında; qalan taxılçılıq rayonlarında 1931-ci ilin payızında, yaxud 1932-ci ilin yazında başa çatdırılmalı idi.

Mərkəzdən regionlarla məsləhətləşmədən qısaldılmış müddətlər müəyyənləşdirilməsi vəziyyəti gərginləşdirərək çoxlu əyinti və səhvlərə səbəb oldu. Kənddə inzibati-amirlik təzyiqi altında kollektivləşməni nəinki qabaqcıl taxılçılıq rayonlarında, hətta mərkəzi Qaratorpaq zonasında, Moskva vilayətində, Şərq respublikalarında da 1930-cu ilin yaz əkin kompaniyası dövründə başa çatdırmaq qərara alınmışdı. Yalnız qolçomaqları deyil, hələ

kolxoza daxil olmaq istəməyən ortababları da sıxışdırır, bir çox rayonlarda kəndli təsərrüfatlarının 10-15%-ni qolçomaq sayıb təqib edirdilər, seçki hüquqlarından məhrum edilənlərin sayı da 15-20%-ə çatırdı. İstehsal vasitələrini ictimailəşdirməkdə də kobud səhvlərə yol verilir, onu artellərdə xırda heyvan və quşlar da daxil olmaqla maksimuma çatdırmağa çalışırdılar.

1930-cu il fevralın 1-də SSRİ MİK və XKS "Kütləvi kollektivləşmə rayonlarında kənd təsərrüfatının yenidən qurulması və qolçomaqlarla mübarizə tədbirləri haqqında" qərar qəbul etdi. Bu qərar torpaq icarəsinə və muzdlu əməkdən istifadəyə icazə verən bütün köhnə qanunları ləğv etdi. Torpaq icarəsi və muzdur saxlamaq hüququ qolçomaqların əlindən alındı. Lakin çox keçmədi ki, sinfi mübarizənin sərt qanunlarının yaratdığı iqtisadi və siyasi böhran sovet hakimiyyətini ciddi çətinliklərlə üzləşdirdi. Moskva buraxdığı səhvləri aşağı təşkilatların boynuna qoyur, bunu ÜİK(b)P-nin xəttini əymək kimi təqdim edirdi. Azərbaycan və digər respublikaların partiya təşkilatları da qorxusundan onu öz səhvləri kimi etiraf etməli oldular. Həmin ilin fevralında MK-da qəbul olunmuş "İqtisadi cəhətdən geridə qalan milli rayonlarda kollektivləşmə və qolçomaqlara qarşı mübarizə haqqında" qərarda kollektivləşdirmədə rayonların milli və iqtisadi xüsusiyyətlərinin nəzərə alınması təklif edildi.

Bu dövrdə kolxoz quruluşu sahəsində ciddi əyintilərə də yol verilmişdi. Kolxoz quruculuğu prosesində könüllülük prinsipi pozulmuş, kolxoz hərəkatında ayrı-ayrı rayonların yerli xüsusiyyətləri nəzərə alınmamışdı.

ÜİK(b)P MK 1930-cu il 14 martda "Kolxoz hərəkatında partiya xəttinin əyilməsi hallarına qarşı mübarizə" haqqında qərar qəbul etdi. Bu qərar Azərbaycan SSR-də kolxoz quruculuğunda buraxılmış səhvlərin düzəldilməsində mühüm rol oynadı. Kollektivləşdirilmədə yaranan çətinliklərdən biri də yerli kadrların az olması idi. Çünki kənddə milli adət və ənənələr möhkəm, xüsusən dinin nüfuzu və təsiri güclü idi.

Azərbaycanda qolçomaqlara qarşı mübarizə güclənirdi.

Qolçomaq ailə başçısı antisovet, antikommunist, əksinqilabi aktiv adı ilə həbs olunub güllələnir, ailə üzvləri isə Sibirə, yaxud Orta Asiyaya və Qazaxıstana sürgün edilirdi. Kolxoz hərəkatına qarşı çıxış edən varlı kəndliləri də ailəsi ilə birlikdə ölkənin ən ucqar yerlərinə sürgünlə cəzalandırırdılar. Onları yük vaqonlarına doldurur, Sibirə və Qazaxıstana gedən dəmir yollarında həftələrlə saxlayıb, min bir əzaba düçar edirdilər.

Kollektivəşmə düşmənlərinin kəndlilərin gözü qarşısında əksinqilabçı kimi cəzalandırılması və güllələnməsi adi hal idi. Azərbaycanda ümumi kəndli təsərrüfatlarının 1929-1930-cu ildə 2,3%, 1930-1931-ci ildə isə 1,1% qolçomaq təsərrüfatı olmuşdu. Qolçomaqların sayca azalması 1929-1935-ci illərdə qolçomaqları bir sinif kimi ləğv etməyin parlaq nəticəsi idi.

Azərbaycan K(b)P MK-nın I Katibi N.F.Gikalo 1930-cu ilin fevralında 1.500 qolçomağın ləğv edilməsi faktını nəzərdə tutaraq deyib: "Hələ çox az ləğv edilmişdir".

Bəzən kənddə xalq düşməni kimi ifşa edilənin əmlakı hərraca qoyulurdu. Respublikada yüzlərlə belə sahibsiz təsərrüfat dağılmışdı. Kolxoz quruculuğunda əyintilər və səhvlər haqqında qəbul edilmiş qərar kollektivləşdirmədəki pozuntuların, qanun əyintilərinin qarşısını yalnız nisbətən ala bildi. AK(b)P MK-nın qərarında kollektivləşdirmədə əyintilərə qarşı nəzərdə tutulan qəti mübarizə tədbirləri yerlərdə tam və ardıcıl həyata keçrilmirdi. 30-cu illərdə kənddə mövcud iqtisadi siyasətə etirazların qarşısı amansızlıqla alınırdı. 1934-cü ildə Ağdaş rayonunda 540 kommunistdən 266-sı partiyadan çıxarılmış, 340 kolxozçu isə qolçomaq-antisovet ünsürü kimi güllələnmişdi.

Öz əmlakını, varlığını qoruyub saxlamaq uğrunda müqavimət göstərən qolçomaqlarla qəti döyüş başlandı. Azərbaycanda qolçomaqlar sovet hakimiyyətinə qarşı mübarizənin bütün formalarından istifadə edirdilər. Gəncədə, Şirvanda, Şamxorun (Şəmkir) Bitdili kəndində kütləvi çıxışlar olmuşdu. 1930-cu ilin yazında Naxçıvan MSSR-də (Keçili kəndində), Nuxa-Zaqatala dairəsində sovet hakimiyyətinə qarşı qiyamlar baş verirdi.

Nuxanın Baş Göynük kəndində başlanmış üsyana Molla Mustafa Şeyxzadə başçılıq edirdi. Üsyan Qax, Zaqatala, Balakən və Oğuzu da əhatə etdi. İştirakçılara divan tutuldu və üsyan yatırıldı. 1926-1929-cu illərdə Qazax rayonunda antisovet "Həqiqət ordusu" adlı gizli təşkilat yaradılmışdı. O,"Əzrayıl firqəsi" adlı terrorçu qrup yaratmışdı. Bu hərəkata varlıdan yoxsuladək bütün kəndlilər, müəllimlər, din xadimləri, bəzi sovet işçiləri də qoşulmuşdu.

Ümumiyyətlə, elliklə kollektivləşdirmə illərində baş verən çıxışlar, kəndlilərin istər fəal, istərsə də passiv müqaviməti qolçomaqların sinfi mübarizəsi kimi qələmə verilmiş, sosializmdə sinfi mübarizənin güclənməsi pərdəsi altında kənd rayonlarında ağır cinayətlər törədilmişdi.

Mərkəzin planına uyğun olaraq kənd təsərrüfatının kollektivləşdirilməsi başa çatdırıldı, kənarda qalmış fərdi kəndli təsərrüfatları da kolxozlara cəlb olundu. Kolxozlar kənd təsərrüfatı mallarının istehsalçısı oldu. Qolçomaqlar bir sinif kimi ləğv olundu, fərdi kəndli təsərrüfatı sıxışdırıldı, onun sərəncamında olan təsərrüfat imkanları isə əmtəə məhsulları istehsal etmək üçün çatışmırdı.

Beləliklə, kollektivləşmənin yuxarıdan inzibati yolla həyata keçirilməsi ümumiyyətlə, respublikanın kənd təsərrüfatına ciddi çətinliklər yaradan zərbə oldu.

1929-1933-cü illərdə ümumi mal-qaranın sayı azalmağa başladı. Bunun başlıca səbəblərindən biri kolxozların kollektiv heyvandarlıq sisteminə hazır olmaması, yerli şəraiti, kəndlinin psixologiya və təsərrüfat ənənəsini nəzərə almadan bu mürəkkəb sosial prosesə inzibatçılıq metodları ilə rəhbərlik edilməsi idi. Kollektivləşdirmədə baş verən əyintilər - kəndli təsərrüfatlarının zorla kolxozlara daxil edilməsi, qolçomaqlara qarşı qanunsuz cəza tədbirləri, bir çox hallarda isə ortababların, bəzən yoxsul təsərrüfatların belə qolçomaq kimi qələmə verilməsi kənddə iqtisadi, ictimai-siyasi vəziyyəti gərginləşdirdi, əhalinin narazılığını artırdı.

Qolçomaqların kolxoz quruluşuna, sovet hakimiyyətinə qarşı apardıqları mübarizə təbii idi. Xüsusilə elliklə kollektivləşdirmə

illərində sosializmdə sinfi mübarizənin kəskinləşməsi şüarı altında respublikanın kəndlərində ağır cinayətlər törədilirdi. İsmayıllı, Əli-Bayramlı (Şirvan), Şamaxı, Ağdam, Nuxa-Zaqatala, Balakən və başqa rayonlarda baş verən faciəli hadisələr buna sübutdur. Yalnız İsmayıllı rayonunda 300 nəfər həbs edilmiş, 63 nəfər güllələnmişdi. 30-cu illərdə Qazaxıstana, Orta Asiyaya, Sibirə on minlərlə azərbaycanlı ailəsi sürgün olunmuşdu.

Başqa milli respublikalarda da sovet hökuməti kəndlilərə qarşı ağır cinayətlər törədirdi.1932-1933-ü illərdə törədilən süni taxıl qıtlığı nəticəsində Ukrayna və Rusiyanın Kuban əyalətində təxminən 10 milyona yaxın ukraynalı acından ölmüşdür (qolodomor-qolod aclıq,mor və ya umer ölmək).

Hökumətin təzyiqləri altında kəndlilərin çox hissəsi kolxoza yazıldı. 1938-ci il üçün kolxozların əkin sahələri ümumi əkin sahələrinin 93,2%-ni təşkil edirdi.

Azərbaycanda kənd təsərrüfatının mütəxəssis kadrlarla təmin edilməsi sahəsində başlıca rolu Azərbaycan Kənd Təsərrüfatı İnstitutu (AKTİ) və orta ixtisas kadrları hazırlayan texnikumlar oynamışdı. Onlar respublikanın kənd təsərrüfatına çoxlu aqronom, kənd təsərrüfatı mexanizatoru, bitkiçi, baytar və başqa ixtisaslardan olan mütəxəssis vermişdi. Kolxozlarda artmaqda olan ictimai fondlar kəndin quruculuq işlərində maddi qüvvəyə çevrilirdi. Bu fondlar hesabına ictimai təsərrüfat tikililəri - klublar, kitabxanalar tikilir, körpülər salınırdı. 1935-ci ildə Azərbaycanda ilk dəfə olaraq milyonçu kolxozlar meydana çıxdı. Mərkəzin Azərbaycan SSR kənd təsərrüfatı qarşısında qoyduğu ən ümdə vəzifə onu ölkənin ikinci pambıq bazasına çevirmək idi. Kənd təsərrüfatının başqa sahələrinə zərər gətirsə də, kəndli əməyinin ağır-fiziki istismarı (pambıq əməyini klassiklər kölə əməyi hesab edirdilər), necə olursa olsun pambıq planını artıqlaması ilə yerinə yetirmək şüarı altında pambıq tədarükü ildən-ilə artırılırdı. Respublikada pambıq uğrunda mübarizədə müxtəlif tədbirlər - yüksək aqrotexnikanın tətbiqi, yüksək pambıq məhsulu ustalarının respublika və rayon toplanışları, müşavirələri, pambığın orta satış qiymətinin artması, əlavə mükafat

sisteminin tətbiqi kimi vasitələr həyata keçirilirdi. Bu amillər Azərbaycanda kolxozçu kəndlilər içərisində əmək coşqunluğu əhvali-ruhiyyəsi yaradırdı, əsil yenilikçilər və pambıq ustaları meydana çıxırdı. O vaxt Bəsti Bağırovanın, Qüdrət Səmədovun iş üsulları kolxozçular arasında yüksək məhsuldarlıq əldə etmək nümunəsi kimi təbliğ edilirdi.

1933-1937-ci illərdə kolxoz və sovxozlarda pambıq tədarükü əsas yer tuturdu.1933-1937-ci illərdə nəzərdə tutulmuş 794 min ton əvəzinə Azərbaycan pambıqçılarının gərgin əməyi sayəsində 838 min ton pambıq istehsal edilərək dövlətə təhvil verilmişdi. Beləliklə, bu illərdə Azərbaycan SSR-də SSRİ- nin ikinci pambıq bazasının yaradılması vəzifəsi əsasən yerinə yetirildi.

İnzibati amirlik sisteminin formalaşması. Repressiyalar. XX əsrin 20-30-cu illərində bütün SSRİ-də olduğu kimi, Azərbaycanda da inzibati-amiranə rəhbərlik metodları təşəkkül tapır, sosialist sənayeləşdirilməsi və xüsusən kollektivləşdirmə prosesi sovet inzibati-amirlik sisteminə çevrilirdi. Bu sistem cəmiyyətin bütün sahələrinə güclü təsir göstərirdi. Sovetlərin xalq hakimiyyəti orqanları kimi funksiyaları tədricən məhdudlaşdırılır, onların, dövlət və təsərrüfat idarəçiliyinin bürokratikləşdirilməsi (bürokrat dövlət orqanında təyinatla işləyən ali məqamlı məmur; bürokratizm-süründürməçilik,rəsmiyyətçilik,dövlət hakimiyyətinin xalq ilə heç bir əlaqəsi olmayan və hakim sinfin mənafeyini müdafiə edən məmurlar tərəfindən həyata keçrilən idarə üsuludur) baş verirdi.

1925-ci ilin əvvəllərində sovetlərin aşağı orqanlarına yeni seçilmiş üzvlərin 75% savadsız idi. Məktəb və kurslar vasitəsilə əməkçilərin ümumtəhsil səviyyəsini yüksəltmək üçün çox iş görmək lazım idi. 1925-ci ilin əvvəllərində bütün dairə icraiyyə komitələrində beş günlük, sonra biraylıq, ikiaylıq və üçaylıq kurslar təşkil edilmişdi. Kənd sovetlərinin bütün sədrləri və katibləri bu kursları keçirdilər. 1930-cu ilin oktyabrında Bakıda sovet quruculuğu evi açıldı. Həmin il Xalq Təsərrüfatı İnstitutunun sovet quruculuğu fakültəsinin bazasında Sovet Hüququ və Quruculuğu İnstitutu, 1931-ci ildə Azərbaycan MİK yanında sonralar

Kommunist Universiteti adlanan Ali Partiya və Sovet Məktəbi yaradıldı.

1928-1929-cu illərdə Sovetlərə növbəti seçkilər keçirildi. Yeni sovetlərin hesabat iclaslarında mövcud nöqsanlar tənqid edilir, ilk növbədə sosial-mədəni quruculuq və abadlıq məsələləri ilə bağlı səmərəli təkliflər irəli sürülürdü. Əvvəlki seçkilərdən fərqli olaraq, bu iclaslarda yuxarıdan təqdim edilmiş namizədlərin siyahısı yox, hər bir namizəd şəxsən müzakirə olunurdu. Müzakirələrin gedişində seçicilər bir sıra namizədləri rədd etmişlər.

Imtiyazlı, zadəgan təbəqələrin nümayəndələri qanunsuz seçkı hüququndan məhrum edilir, onlara qarşı antisinfi siyasi tədbirlər tətbiq edilirdi. Hətta bu qayda Azərbaycan SSR Konstitusiyasında da əks olunmuşdu. Seçkilər kəskin sinfi ziddiyyətlər şəraitində keçirilirdi. Seçki hüququndan məhrum edilmişlər ciddi müqavimət göstərirdilər.Onlar seçki hüququ əldə etməyə cəhd edərək seçki iclaslarını pozur, bəzən terrora əl atır, hakimiyyət orqanları da onlara qarşı cəza tədbirləri görürdülər. Dini mərasimlərə əməl edən kəndli, ortabab və kasıbların seçki hüququndan qeyri-qanuni məhrum edilməsi faktlarına da rast gəlinirdi.

Azərbaycanda inzibati bölgüdə nöqsanlar olduğunu və onun yeni inzibati-iqtisadi rayonlaşdırma prinsiplərinə uyğun olmadığını nəzərə alaraq, respublikada yeni rayonlaşdırma həyata keçirilirdi. İlk dövrdə sovetlər kənd icmalarının ərazisində yaradılırdı.

1928-ci ilin oktyabrında Azərbaycan SSR XKS tərəfindən çağırılmış rayonlaşdırma üzrə müşavirə qəzaların ləğv edilməsinə və yeni inzibati-ərazi vahidi olan dairələrin təşkilinə tərəfdar olduğunu bildirdi. Qəbul edilmiş layihəyə görə, ərazi rayonlaşdırılmasının əsasında üçdərəcəli bölgü qoyuldu: dairə, rayon, kənd soveti.Azərbaycan SSR-in yeni inzibati-ərazi bölgüsü haqqında məsələ VI Ümumazərbaycan Sovetlər qurultayında (aprel 1929-cu il)xüsusi olaraq müzakirə edildi. Qurultay Naxçıvan MSSR və DQMV-nin sərhəd və hüquqlarını pozmadan, respublikanın dairə, rayon və kənd sovetləri üzrə inzibati-ərazi bölgüsünün həyata keçirilməsini qərara aldı. Qərarda dairələrin sayının azaldılması

və onların ərazisinin genişləndirilməsinin məqsədəuyğunluğu qeyd olunurdu.

Yeni rayonlaşdırmaya qədər respublikada 15 qəza - eyni zamanda DQMV və Naxçıvan MSSR mövcud idi. 1929-cu ilin sonunda yeni rayonlaşdırma nəticəsində 15 qəza əvəzinə 8 mahal (Naxçıvan MSSR və DQMV-dən başqa) təşkil olundu: Qarabağ, Gəncə, Şirvan, Zaqatala, Nuxa, Lənkəran, Salyan, Bakı. Dairələrin sayı 128-dən 62-yə endi, kənd sovetlərinin sayı isə 1090 oldu.

Yeni rayonlaşdırma dövlət aparatını kütlələrə yaxınlaşdırdı, onların dövlət quruculuğuna daha fəal cəlb edilməsini, yerli hakimiyyət orqanlarının işinin yaxşılaşdırılmasını təmin etdi. O dövrdə partiya orqanları tədricən sovetlərin funksiya, hüquq və vəzifələrini mənimsəyərək, onları əvəz etməyə cəhd edirdi.

Kollektivləşdirilmə dövründə rayonlarda sovetlərin ləğv edilməsi haqqında çıxışlar edilirdi. Bu çıxışlar belə əsaslandırılırdı ki, guya kolxozlar özləri kənd sovetlərinin vəzifələrini icra edə bilərlər. Bu, faktiki olaraq yerlərdə dövlət orqanlarının ləğv edilməsinə gətirib çıxarırdı. SSRİ MİK-in Rəyasət Heyəti 1930-cu il yanvarın 25-də bununla əlaqədar qəbul etdiyi qərarda qeyd etdi ki, kolxozlar istehsal birlikləri olduğu üçün dövlət hakimiyyət orqanları olan kənd sovetlərinə qarşı qoyulmamalıdır.

1930-cu il fevralında Cənubi Qafqaz MİK yanında keçirilmiş ZSFSR sovet orqanlarının, o cümlədən kənd sovetlərinin işinin əməli proqramını müəyyən etdi. Sovet aparatının zəhmətkeş kütlələrə daha da yaxınlaşdırılması mənafeyi ölkənin mövcud olan inzibati bölgüsünün yenidən qurulmasını tələb edirdi. 1929-cu ildə qəzaları əvəz etmiş dairələr, Zaqatala dairəsindən başqa, 1930-cu ilin avqustunda Azərbaycan SSR XKS və MİK-in qərarı ilə ləğv edildi. İnzibati-ərazi bölgüsünün əsas həlqələri olan rayonların sayı 63 oldu. Sonralar (1932-ci il) rayonları möhkəmləndirmək məqsədilə Azərbaycanın yeni rayonlaşdırılması həyata keçrildi, nəticədə respublika ərazisində (Naxçıvan MSSR və DQMV-dən başqa) 47 rayon saxlanıldı. İri şəhərlərdə, əvvəllərdə olduğu kimi, müvafıq rayon sovetləri olan rayonlar qaldı.

Dairələrin ləğv edilməsi ilə əlaqədar hakimiyyət orqanları da dəyişikliyə məruz qaldı. Rayon sovetləri yaradıldı, İcraiyyə Komitələrinin təşkilati strukturu təkmilləşdirildi. İdarə və ictimai-mədəni müəssisələrin bütün maddi ehtiyatları rayon İcraiyyə Komitələri və Şəhər Sovetlərinə verildi.

Yeni inzibati bölgü dövlət aparatını kütlələrə yaxınlaşdırdı, həmçinin respublikada sosialist quruculuğu vəzifələrinin həllini asanlaşdırdı. Dairələrin ləğvi rayon və kəndlərin sovet orqanlarını kadrlarla möhkəmləndirməyə imkan verdi.

1930-1931-ci illərin seçkiləri Azərbaycanda sovetlərin sosial tərkibində həlledici dəyişiklikləri nümayiş etdirdi. Muzdurlar, yoxsul kəndlilər və fəhlələr sovetlərin bütün üzvlərinin 75%-ni təşkil edirdi. 1929-cu ildə isə onlar 53,1% idi. Fəhlə briqadalarının tərkibində kəndə göndərilənlərin çoxu kənd soveti sədri seçildilər. Həmin ildə kənd soveti sədrlərinin 27%-i fəhlə və muzdur idi. Respublikada sosialist əvəzçiliyi adlanan metod da geniş yayılmışdı. Qabaqcıl fəhlələr istehsalatdakı işdən sonra ayrı-ayrı sovet idarələrinin rəhbər işçilərini əvəz edirdilər.

Beləliklə, 20-30-cu illərdə sovetlərin möhkəmləndirilməsi sahəsində maliyyə və idarəetmə işlərində onların hüquqları genişləndi, sovet aparatında işləmək üçün kadrlar hazırlandı. Ancaq həmin dövrdə idarəetmədə formalaşan inzibati - amirlik metodları, sovetlərin işinə partiya müdaxiləsinin güclənməsi onların əsil dövlət hakimiyyət orqanları kimi xalqın hüquq və mənafelərini müdafiə etmələrinə mane olur və hüquqlarını məhdudlaşdırırdı.

30-cu illərdə yeni cəmiyyət quruculuğu prosesində ölkənin ictimai-siyasi həyatı əsaslı surətdə dəyişildi. Bu illərdə Azərbaycan Kommunist Partiyasının sıraları fəhlə, kolxozçu, muzdur və yoxsul kəndlilər hesabına artırdı. Partiya üzvləri içərisində qulluqçuların sayı azalmış, kəndlilərin sayı isə xeyli artmışdı. Partiya üzvlərinin milli tərkibində azərbaycanlı fəhlələrin faizi başqa millətlərin nümayəndələri ilə müqayisədə azlıq təşkil edirdi. Kəndlərdə də partiya özəkləri yenidən quruldu. Ərazi kənd özəkləri ilə yanaşı,

istehsalat prinsipi üzrə yaradılan kolxoz partiya təşkilatları təşkil edildi.

20-30-cu illərdə siyasi böhran, partiyadaxili mübarizə bütün ölkə və partiyanın taleyinə güclü təsir göstərirdi. Sənayeləşdirmə, kənd təsərrüfatının kollektivləşdirilməsi və mədəni inqilabın həyata keçirilməsi dövründə ÜİK(b)P daxilində alternativ proqramla çıxış edən sağ təmayül meydana gəldi. Sağ təmayülün liderləri sənayeləşdirmənin yüksək sürətinə qarşı çıxır, qolçomaqlara qarşı tətbiq edilən fövqəladə tədbirləri qəti rədd edirdilər. Onlar ölkədə sinfi mübarizənin zəifləməsi və qolçomaqların dinc surətdə sosializmə qovuşması nəzəriyyəsini təbliğ edir, kollektivləşməni köməkçi tədbir kimi inkar etməyərək, aqrar bölmədə fərdi kəndli təsərrüfatını onun əsası sayırdılar.

Bu dövrdə formalaşmış inzibati-amirlik sistemi partiya təşkilatlarının işində də, özünü büruzə verirdi. 1929-1930-cu illərdə XVI Ümumittifaq Partiya Konfransının (1929-cu il aprel) qərarı ilə bütün respublika təşkilatlarında partiya üzvlüyünə namizədlərin və üzvlərin yoxlanması və ümumi təmizlənməsi keçrildi. Bəzən "təmizləmə" pərdəsi altında prinsipial, vicdanlı, ancaq partiya rejiminə uyğun olmayan adamları partiyadan uzaqlaşdırırdılar.Bu respublikada ümumi şəraiti xeyli mürəkkəbləşdirmişdi.

Partiya rəhbərliyində qarışıqlığın səbəblərindən biri düzgün olmayan kadr siyasəti idi. Azərbaycanda 1934-cü ilədək Moskva Birinci katibləri qeyri-milli kadrlardan təyin edirdi. Bu isə respublikada ictimai-siyasi şəraitə mənfı təsir göstərir və mühüm problemlərin həllini mürəkkəbləşdirirdi. AK(b)P MK-nın ilk azərbaycanlı birinci katıbi 1933-cü ilin dekabrında seçilmiş M.C. Bağırov oldu. Həmkarlar İttifaqları əməkçilərin mədəni-məişət şəraitinə, onların maddi maraqlarının müdafiəsinə, həmçinin istehsalatda əmək şəraitinin yaxşılaşmasına böyük qayğı göstərirdilər. Ancaq bütün ictimai təşkilatlar kimi həmkarlar ittıfaqları da partiya orqanlarının nəzarəti altında idi və onların başlıca vəzifələri hər şeydən əvvəl partiya qərarlarını yerinə yetirməyə yönəldilmişdi.

Gənc nəslin tərbiyəsi sahəsində Komsomol təşkilatları mühüm iş aparırdı. Onlar ilk növbədə istehsalata təzə gəlmiş fəhlə gənclərin, həmçinin tələbə və şagirdlərin İttifaqa cəlb edilməsinə diqqət yetirirdilər.

Komsomol təşkilatı dövlət aparatında süründürməçiliyə qarşı çıxış edirdi. Bakı komsomolunun təşəbbüsü ilə yaradılan "yüngül kavaler" briqadaları idarələrə təhkim edilərək onların işindəki nöqsanları aşkara çıxarırdılar.

1928-ci ilin sonundan 1929-cu il noyabrın 1-dək Bakı komsomol təşkilatında 687 komsomolçunun iştirakı ilə 86 "yüngül kavaler" briqadası yaradılmışdı. Komsomolçular mədəni inkişaf, gənclərin tərbiyəsi, onların savadsızlığı və az savadılığının ləğvi işində fəal iştirak edirdilər.

Beləliklə, 20-30-cu illərdə Azərbaycanda ictimai-siyasi təşkilatlar təşkilati cəhətdən formalaşma mərhələsi keçərək öz fəaliyyətlərini genişləndirdi. Ancaq onlar inzibati-amirlik rejimi şəraitində öz funksiyalarını müstəqil şəkildə həyata keçirə bilmirdilər, çünki partiya orqanlarının nəzarəti altında hakimiyyət aparatından asılı idilər və partiyanın köməkçisi (əslində muzduru) kimi onun əsas kursunun həyata keçirilməsinə xidmət edirdilər.

Stalin hakimiyyətin əldən çıxacağından ehtiyat edərək mühüm vəzifələrdə öz adamlarını möhkəmləndirirdi. 1934-ci ildə XVII partiya qurultayında nümayəndələrin 292 nəfəri onun əleyhinə səs vermişdi. Sonradan sənədlər saxtalaşdırıldı, lakin qorxu qalırdı.Stalin qurultayın nümayəndələrinin çoxuna müxtəlif bəhanələrlə divan tutdurmuş, seçki komissiyasının 63 üzvündən 60 nəfəri güllələnmişdi. Ona görə də bu qurultay tarixə "güllələnmişlər"qurultayı kimi daxil olmuşdur.Cəmiyyətdə qorxu, şübhə, vahimə əhvali-ruhiyyəsi yayılmışdı. Qəzetlər hər gün müəssisə və idarələdə, elm və təhsil ocaqlarında, şəhərlərdə və kəndlərdə gizli əksinqilabçı, trotskiçi, pantürkist, panislamist təşkiltların aşkar edilməsindən yazırdılar. Adamları təqib etmək dövlət siyasəti dərəcəsinə qaldırılmışdır, hər yanda fiziki təzyiq metodu tətbiq edilirdi. Azərbaycan K(b)P-nın XIII qurultayında

(1937-ci il) MK-nın Birinci katibi M.C.Bağırov demişdir:"...kimisə əfv etmək partiyamızın Mərkəzi Komitəsini, Stalin yoldaşı aldatmaq deməkdir. Heç kimi əfv etmək olmaz...biz hələ düşmənlərin hamısını aşkara çıxarıb ifşa etməmişik ...buna görə bizi döyürlər, həm də haqlı olaraq döyürlər".

Milli müstəqillik uğrunda mübarizə. Bolşevik rejiminin bütün cəhdlərinə baxmayaraq, xalq kütlələri içərisində milli özünüdərk, milli-azadlıq meyilləri məktəblərdə, elm və mədəniyyət müəssisələrində, dövlət idarələrində kök salırdı. Təkcə 1928-1930-cu illərdə sovetlərdə keçirilən təmizləmə kampaniyalarında 6,3 min nəfər həmin bu səbəbə görə qovulmuşdu. Müsavat partiyası əhali içərisində siyasi iş aparırdı. 1930-cu ildə Xəlil İbrahimov Müsavatın xaricdəki bürosu ilə gizli əlaqə yaratmış, onun direktivləri əsasında qeyri-leqal mərkəz təşkil etmişdi. Gizli müxalif qruplar arasında əlaqələr yaranmaqda idi. 1932-ci ildə Azərbaycan KP-nin keçirilmiş qurultayı Müsavata qarşı təkcə daxildə deyil, həm də xaricdə mübarizə aparmağın vacibliyini qeyd etmişdi. Lakin partiya gizli fəaliyyətini davam etdirirdi. 1936-cı ilin avqustunda Varşavada M.Ə.Rəsulzadənin rəhbərliyi ilə konqres keçrilmişdi. Burada müsavatçılıq, milli birlik, milli ittifaq, milləti siniflərə bölməmək, hər cür zümrə hakimiyyətini inkar etmək ideyalarını əks etdirən yeni Proqram qəbul olunmuşdu. 1925-ci ildən SSRİ-də türk xalqlarının birləşib sovet imperiyasından azad olmaq uğrunda mübarizə aparan gizli təşkilatı fəaliyyət göstərirdi. Onun Azərbaycandakı gizli təşkilatında müxtəlif müxalif qüvvələr, müsavatçılar, millətçi kommunistlər birləşmişdilər. Bu təşkilatın üzvləri içərisində Kommunist Partiyası və hökumətdə yüksək vəzifə tutan S.M.Əfəndiyev, D.Bünyadzadə, R.Axundov, M.Quliyev, o zaman Azərbaycanda işləyən türkoloq alimlərdən B.Çobanzadə, Q.Qubaydulin, Z.Zakirov və başqaları da vardı. Onun üzvləri Ə.Haqverdiyev, Ə.Cavad, M.Baharlı, T.Şahbazi və başqaları ilə əlaqə yaradaraq elmi, ədəbi əsərlər, mühazirələr və başqa vasitələrlə türk xalqlarının birliyi və azadlığı uğrunda birgə mübarizə ideyalarını təbliğ edirdilər. 1926-cı ildə

Bakıda keçirilmiş türkoloji qurultayın hökümətin təşəbbüsü ilə keçirilməsinə baxmayaraq, türkçülük ideyasının yayılmasında az təsiri olmadı.

Ruhanilər müsəlman ruhanilərinin Ümumrusiya qurultayında (1926-cı il Ufa şəhəri) ağıllı taktiki addımlar ataraq üzdə sovet hökümətinə sədaqət və kömək vəd etdilər, hökümətə loyal münasibətlə bəzi güzəştlər qazandılar. 1926-cı ildə Şeyx Hüseyn Hacı Mirzənin fitvası ilə bütün şiə məscidlərinin qapısı qadınların üzünə açıldı. Məqsəd dini qoruyub saxlamaq, ailədə. gənc nəsildə Allaha, dinə məhəbbət tərbiyə etmək üçün qadınlara ibtidai dini biliklər vermək idi. 1927-ci ildə Bakıda "Təzə pir" məscidində keçirilən yığıncaqda dini həyatı fəallaşdırmaq üçün qərara alındı ki, şəhərdə hər gün məscidlərdən biri açıq olsun, məhərrəmlik mərasimlərində rövzə və mərsiyə oxunması təşkil edilsin. Bununla belə, ruhanilər gizli məscidlər açır, uşaqlara Qurani Kərimi oxumağı öyrədirdilər. 1933-cü ildə belə mədrəsələrdən bir neçəsi Balakəndə, Zaqatalada fəaliyyət göstərirdi.

1931-ci ildən Azərbaycan partiya təşkilatı daxilində ölkədə və partiyada demokratiyanın boğulmasına, Stalin qrupunun diktaturasına, mənəvi əsarətə, ictimai elmlərin buxovlanmasına qarşı mübarizə aparan gizli trotskiçi mərkəz fəaliyyətə başlamışdı. Bu mərkəz Moskva və Leninqraddakı trotskiçi-zinovyevçi təşkilatlarla əlaqədar idi. Professolar X.Qarber, E.Nikolayev, B.Tixomirovun başçılığı ilə mərkəzin üç qrupu fəaliyyət göstərirdi. Müxtəlif qruplarda birləşmiş və Azərbaycanda işləyən rus professorları da yerli millətçi təşkilatlarla əlaqə saxlayırdılar.

Orduda da millətçi təşkilatlar fəaliyyət göstərirdi. Azərbaycan diviziyasının komandiri Qambay Vəzirov, qərargah rəisi İbrahimov, bir çox rayon hərbi komissarları milli təşkilatların üzvləri idilər. Hərbi komissarlıqlarda yerli üsyançı təşkilatlar yaradılmışdı. 1934-cü ildə gizli "Azərbaycan milli təşkilatı" fəaliyyətə başladı. Onun başında yeni millətçilərin lideri Ruhulla Axundov dururdu. Təşkilatın məqsədi sovet rejiminə qarşı olan bütün qüvvələrlə əlaqə yaratmaq, əlbir olub silahlı üsyanla SSRİ-ni

dağıtmaq, Azərbaycanı Rusiya və İran əsarətindən qutarıb vahid burjua-demokratik respublika qurmaq idi. Azərbaycan milli təşkilatı partiya daxilində trotskiçi mərkəzlə blok yarada bildi. Sonra bu gizli bloka digər müxalif qüvvələr-milli təmayülçülər, müsavatçılar, ittihadçılar, türkçülər, habelə Azərbaycanın yaradıcı ziyalılarının ən yaxşıları birləşdilər. Birlikdə silahlı üsyan planı hazırlandı. Üsyan bütün ölkədə birdən qalxmalı, müharibə və ya hər hansı bir ciddi beynəlxalq konfliktin başlanması dövrünə düşməli idi. Müxtəlif idarəçilik orqanlarında mühüm vəzifələr tutmaq məqsədə çatmaq uğrunda mübarizə vasitələrindən biri kimi baxılırdı. Qarşıdakı 1927-ci il SSRİ və 1938-ci il Azərbaycan SSR Ali Sovetlərinə seçkilərə müəyyən ümid bəslənilirdi.

20-ci illərdə sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində müstəqilliyini itirmiş milli respublikalardan Parisə gəlmiş nümayəndələr arasında ciddi iş aparılırdı. Mühacirlərə dəstək planının genişlənməsi üçün 1926-ci ildə keçmiş çar Rusiyası xalqlarının liderləri beynəlxalq təşkilat kimi fəaliyyət göstərən "Prometey" (əfsanəvi yunan qəhrəmanı Prometeyin adından alınmışdır) klubunu yaratdılar. Bu hərəkatın genişlənməsi üçün 1926-cıı ildə fransız dilində "Prometey" jurnalı nəşr edilməyə başlandı. Jurnalın redaksiya heyəti və daimi müəllifləri tərkibinə Qafqazın, Türküstanın və Ukraynanın görkəmli ictimai xadimləri: Məhəmməd Əmin Rəsulzadə, Noy Jordanya, Aleksandr Şulqin, Ayaz İshaqi, Mustafa Çokayoğlu, Mir Yaqub Mehdiyev və digərləri daxil idi. Bu jurnalda M.Ə. Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" (1926), "Bolşeviklərin Şərq siyasəti"(1928), "Qafqaz birliyi"(1929), "Milli Azərbaycan hərəkatının xarakteri"(1930), "Siyasətçi tarixçiyə qarşı"(1931) məqalələri çap olunmuşdur. Prometeizm (polyakca) ikinci Polşa respublikasının əsas yaradıcılrından olanYuzef Pilsudskinin layihəsi idi. Layihədə SSRİ-nin sərhədləri daxilində yaşayan qeyri-rus xalqların millətçilik hərəkatını dəstəkləmək nəzərdə tutulurdu.1928-ci ildə Varşava (Polşa) şəhərində Pilsudskinin dəstəyi ilə Prometey cəmiyyəti yaradıldıqdn sonra öz ölkələrinin sovet əsarətindən

xilası üçün çalışan digər mühacirlərlə yanaşı, azərbaycanlılar da burada təmsil olunurdular.1930-cu ildə M.Ə.Rəsulzadə cəmiyyətin işində iştirak etmək üçün Varşavaya gəlir. 1931-ci ildə Türkiyədə mühacirlərin fəaliyyəti qadağan olunduğu üçün azərbaycanlı mühacirlər Varşavaya köçür, cəmiyyətin işində Rəsulzadə ilə birgə fəaliyyət göstərirlər. Rəsulzadənin rəhbərliyi ilə "İstqlqlal "qəzeti(1932-1934) və "Qurtuluş" jurnalı(1934-1939), polyak dilində "Azərbaycan müstəqillik uğrunda mübarizədə"(1938) kitabı və s. çap olunur. Prometey çəmiyyəti 1939-cu ildə öz fəaliyyətini dayandırmışdır.

Maddi və sosial vəziyyət. Xalq təsərrüfatının texniki cəhətdən yenidən qurulması zəhmətkeşlərin maddi-rifah halına müsbət təsir etdi. Fəhlələrin maddi və mədəni yaşayış şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülürdü. 1928-1937-ci illərdə 7 saatlıq iş gününə və fasiləsiz istehsalat həftəsinə keçilməsi prosesi başa çatdırıldı. Müəssisələrin çoxu altıgünlük iş həftəsinə keçdi, fasiləsiz işləyən müəssisələrə isə beşgünlük iş həftəsi tətbiq olundu. Bunun nəticəsində fəhlə və qulluqçuların asudə vaxtları xeyli çoxaldı, onların öz ixtisasını artırmaları və ya yeni peşəyə yiyələnmələri üçün imkanlar yarandı.

Lakin bir çox müəssisə rəhbərləri fəhlələri əlavə vaxtda işlətməyə, bu və ya digər tədbirlərə cəlb etməyə meyil göstərirdilər. İstehsalatda iş şəraitinin yaxşılaşdırılması və fəhlələrin hüquqlarının qorunmasında fabrik-zavod yerli komitələrinin əmək mühafizə komissiyaları mühüm rol oynadı.Ümumittifaq Həmkarlar İttifaqı Mərkəzi Şuranın sentyabr (1937-ci il) plenumunda komissiyalar üçün qəbul etdiyi "Əsasnamə" onlara geniş səlahiyyətlər verdi. Belə ki, komissiyalar müəssisədə texniki təhlükəsizlik və əməyin mühafizəsi tədbirlərində iştirak edir, bu istiqamətdə ayrılan vəsaitin xərclənməsini yoxlayır, müəssisələrdə əmək qanunlarına əməl olunmasına nəzarət edir, fəhlələrin xüsusi iş paltarları, qoruyucu vasitələrlə təmin olunması və iş yerində sanitariya-gigiyena tələblərinə əməl edilməsinə nail olur, istehsalat

xəsarəti və peşə xəstəliklərinin səbəblərini öyrənir, onların qarşısını almaq üçün tədbirlər görür.

Təhlükəsizlik texnikasına nail olmağın ən vacib şərti yeni texnikaya yiyələnmək idi. Odur ki, Bakı neftçiləri bu dövrdə yeni texnologiyaya yiyələnmək üçün ciddi səy göstərirdilər.

1936-1937-ci illərdə neft sənayesi fəhlələrinin əksəriyyəti müəssisələrdə təşkil olunan texniki təhsil dərnəklərində kurs keçib mədəni-texniki səviyyələrini artırmaq imkanı əldə etmişdilər. Bu isə son nəticədə əmək məhsuldarlığını artırmağa zəmin yaratdı.

Zəhmətkeşlərin maddi rifahını səciyyələndirən mühüm göstəricilərdən biri məşğuliyyət dairəsinin genişlənməsi idi. Bu, xalq təsərrüfatının bütün sahələrində yeni iş yerlərinin açılması sayəsində həyata keçirilmiş, fəhlə və qulluqçuların sayı 1937-ci ildə 1933-cü ildəki 352,1 mindən 407,7 minədək artmış, yəni 50 mindən çox adam dövlət idarə və müəssisələrində işlə təmin olunmuşdu. O dövrdə ölkənin xalq təsərrüfatında fəhlə və qulluqçuların say artımı əsasən qeyri-azərbaycanlıların və gəlmələrin hesabına idi.

Xalq təsərrüfatının bir çox sahələrində çalışan fəhlə və qulluqçuların xeyli hissəsinin əmək haqqı olduqca aşağı idi və dolanışıq tələbatı minimumu ödəmirdi. Odur ki, SSRİ XKS və ÜİK(b)P MK 1934-cü il mayında azmaaşlı işçilərin əmək haqqının yüksəldilməsi haqqında qərar qəbul etdi. Respublika fəhlə və qulluqçularının orta illik əmək haqqı 1937-ci ildə 1933-cü ildəki 1777 manatdan 3453 manatadək və ya 94,3% artdı. Kəndli təsərrüfatının kollektivləşdirilməsinin başa çatdırılması ilə onların pul gəlirləri artsa da, kolxozçuların gəlirinin səviyyəsi sənaye fəhlələrinin əmək haqqından xeyli aşağı idi. 1937-ci ildə Azərbaycan kəndində bütün təsərrüfatın 87,3%-i və əkin sahələrinin 91,8%-i kollektivləşdirildiyi zaman bir əmək gününə 3 manat 03 qəpik və ya taxılla 3,1 kq məhsul düşürdü.Mənzil problemi Bakıda daha kəskin hiss olunurdu və burada vəziyyəti çətinləşdirən amillərdən ən əsası da o idi ki, Bakıda xeyli sayda gəlmə insanlar məskunlaşdırılmışdı.

Bakıda yaşayış binaları tikilib istifadəyə verilsə də, bunlar nəzərdə tutulduğundan az idi. Belə ki, Bakı tikinti tresti 1937-ci ilə planlaşdırılmış ümumi işi ancaq 89,2% yerinə yetirmişdi. Bununla belə Bakı şəhərinin özündə aparılan tikintilər, xüsusilə onun ətrafında yaradılan yeni fəhlə qəsəbələri öz əzəmətilə müasirlərini heyran qoyurdu. Bu qəbildən köhnə Suraxanı kəndinin yanında salınan Yeni Suraxanı qəsəbəsi xüsusən fərqlənirdi. 1934-cü ildə Bakıda olan SSRİ Xalq Komissarı Q.K. Orconikidze Suraxanı neft-mədən rayonunun çox böyük inkişafı haqqında demişdi: "1907-ci ildə mən burada Əsədullayevin yanında işləyərkən bu yerdə Benkendorfa məxsus cəmi bir neçə buruq və bir o qədər də yararsız daxma var idi. Amma indi Suraxanı abad bir qəsəbəyə çevrilib. Əgər mən buraya təklikdə düşsəydim, onda bu yerləri tanımayacaqdım".

ÜİK(b)P MK noyabr (1934-cü il) plenumu çörək və bir sıra digər ərzaq məhsulları üzərində kartoçka sisteminin 1935-ci il yanvarın 1-dən ləğv edilməsi, onların dövlət və kooperativ mağazalarında geniş satışına keçilməsi haqqında qətnamə qəbul etdi. Kartoçka sisteminin ləğvi dövlət ticarəti ilə yanaşı, kooperativ və kəndli-kolxoz ticarətinin inkişafına, ictimai iaşə müəssisələrinin genişlənməsinə əhəmiyyətli təsir göstərdi.

Beləliklə,istehlak mallarının artması, ticarətin genişlənməsi sayəsində Azərbaycanda əmtəə dövriyyəsi 1937-ci ildə 1932-ci ildəki 741,8 milyon manatdan 2,2 milyard manata çatdı və əhalinin bir nəfərinə düşən əmtəə satışı üç dəfəyə qədər artmış oldu. Yaşayış evlərinin qazlaşdırılmasına, mənzillərin, küçələrin elektrikləşdirilməsinə, su kəmərləri və kanalizasiya tikintisinə, tramvay xətləri və elektrik dəmir yolları şəbəkələrinin genişləndirilməsinə diqqət yetirilirdi. Əmək haqqının qismən tənzimlənməsi,əhalinin maddi rifahının müəyyən qədər yüksəldilməsinə səbəb olmuşdu.

X FƏSİL
Mədəni quruculuq (1926-1937-ci illər).

Xalq təhsili və mədəni-maarif işi. Kommunist Partiyası, Sovet hökuməti mədəni quruculuğu sosializm sisteminin üç tərkib hissəsindən (sənayeləşdirmə, kollektivləşdirmə, mədəni inqilab) biri həm də, kütlələrə güclü ideoloji təsir vasitəsi hesab etdiyi üçün onu öz monopoliyasında saxlamağa çalışırdı. Lakin gizlin fəaliyyətə keçmiş Müsavat partiyası ona bu sahədə ciddi müqavimət göstərirdi. M.Ə.Rəsulzadə "Çağdaş Azərbaycan tarixi" əsərində yazırdı: "Daxili İşlər Komissarı M.C.Bağırov(o zamanlar Azərbaycan SSR siyasi idarəsinin rəisi idi) çıxışında demişdir: "Müsavat partiyası Mərkəzi Komitəsinin bir təlimatnaməsi əlimizə keçib:burada müəllimlərə məktəblərdə milli şüur təbliğatı aparmaq və şagirdlər arasında rus-bolşevik rejiminə qarşı nifrət oyandırmaq tövsiyyə edilir.

M.Ə.Rəsulzadə bildirirdi ki, rus-bolşevik hakimiyyətinin ruslaşdırma siyasəti iki şəkildə təzahür edir:iqtisadiyyatda mərkəzləşdirmə, mədəniyyət sahəsində ruslaşdırma. Mədəniyyətin ruslaşdırılması, bu Azərbaycanın həqiqətən bir faciəsidir. Sovetləşdirmənin ilk dövrlərində bu siaysət mədəniyyətin "formaca milli, məzmunca kommunist" olmasından bəhs edən bolşevik formulu ilə maskalanırdı. Sovet hökuməti əvvəlcə ərəb hərfləri ilə yazmağa icazə verirdi. Lakin sonra sovet mədəniyyət xadimləri Azərbaycan ədəbiyyatını öz tarixi köklərindən qoparıb, mədəniyyətin bütün sistemini yeni sovet yoluna salmaq istədilər. Başqa sözlə, onu öz zəmnindən götürüb ruslaşdırdılar... Azərbaycan milli ənənələrinə sadiq qalan qüvvələr bu siyasətə qarşı çıxdılar. Bu qarşıdurma nəticəsində Azərbaycanda iki düşmən cərəyan arasında kəskin mübarizə başladı. Bir tərəfdən sovetləşdirmə, ruslaşdırma siyasəti, digər tərəfdən mədəniyyətin milli və türk xüsusiyyətlərinin davam etdirilməsi tərəfdarları qarşı-qarşıya gəldilər.

Sovet hakimiyyətinin ilk beş ilində (1920-1925) savadsızlığın ləğvi sahəsində qismən müvəffəqiyyətlər əldə edilsə də, təhsil səviyyəsi bütövlükdə aşağı idi. Müasir həyat quruculuğu, xalq təsərrüfatının yenidən qurulması vəzifələri savadsızlığın tezliklə ləğv edilməsinin başa çatdırılmasını sürətləndirməyi, ümumi təhsilin tətbiqini tələb edirdi. "Savadsızlığı ləğv etmək işi haqqında" 1929-cu ilin mayında qəbul edilmiş ÜİK(b)P MK-nın qərarında milli respublikalarda savadsızlığın ləğv edilməsi mədəni işin ən mühüm vəzifəsi kimi qeyd olunmuşdu. Azərbaycan SSR XKS yanında savadsızlığı ləğv etmək işinə rəhbərlik etmək üçün hökümət başçısı Q.Musabəyovun sədrliyi ilə 1928-ci ildə xüsusi komissiya təşkil edilmişdi.

Xüsusilə kəndlilər savad dərnək və kurslarına geniş cəlb edilirdi. RSFSR-də nəşr edilmiş "Muzdur əlifbası" yerli xüsusiyyətlər nəzərə alınmaqla təcili Azərbaycan dilinə tərcümə edildi.

Savadsızlığı ləğv etmək üçün komsomol təşkilatı mədəni yürüşlərin təşkilinin təşəbbüsçüsü kimi çıxış edirdi. Birinci belə yürüş 1928-ci ilin mayında keçrildi. Yürüş zamanı savad məktəb və kursları 22 min nəfərədək adamı əhatə etmişdi. "Hər bir savadlı komsomolçu bir savadsızı öyrətməlidir" - komsomolun əsas şüarı idi.

Bu tədbirlər sayəsində 1928-1930-cu illərdə 212.836 nəfər savad alıb yazmaq, oxumaq öyrəndi. Bu isə 1920-ci ildən sonrakı yeddi ildəkindən iki dəfə çox idi. Savadlanma hərəkatı sonrakı illərdə də davam etdi. Qəzalarda, kənd əhalisi içərisində mövhumatı, patriarxal ünsürlərin müqavimətini aradan qaldırmaq lazım idi. Bu qüvvələrin təzyiqi altında, xüsusilə azərbaycanlı qadınların təhsildən uzaqlaşması müşahidə edilirdi. 1930-cu ilin oktyabrında savadsızlığın ləğv edilməsinin təşkilini yaxşılaşdırmaq və nöqsanları aradan qaldırmaq məqsədilə respublika Xalq Maarif Komissarlığı nəzdində xüsusi mədəni quruculuq şurası yaradıldı. Onun birinci iclasında 30 təşkilat müqavilə imzaladı. Bu müqavilədə hər bir

təşkilatın, ilk növbədə, fəhlə və kolxozçular içərisində savadsızlıqla mübarizədə iştirakı və görəcəyi işin həcmi müəyyən edildi.

Azərbaycan Həmkarlar İttifaqı (AHİ) və Kolxoz Birliyi savadsızlığı ləğvetmə məktəbləri şəbəkəsinin təşkilinə maddi yardım göstərmək, savad məktəblərini dərslik, dərs ləvazimatı və kadrlarla təmin etmək sahəsində konkret tədbirlər görürdülər. Xalq Maarif Komissarlığı Nuxa, Ağdaş, Quba, Qazax, Şuşa, Zaqatala, Lənkəran, Göyçay və Naxçıvanda savadsızlığın ləğv edilməsi işlərində çalışan müəllimlər üçün kurslar təşkil etdi. Ali təhsil müəssisələrinin tələbələri kənd təşkilatlarına kömək məqsədilə kəndə göndərilir, mətbuat ictimaiyyətin savadsızlığı ləğv etmək vəzifələrinin həllinə səfərbər edilməsində mühüm rol oynayırdı. Qəzetlər əlifbanı öyrənənlər üçün xüsusi səhifələr ayırır, metodiki məqalələr çap edir, qabaqcıl mədəni əsgərlərin iş təcrübəsini yayırdılar.

1930-cu ildən başlayaraq bir çox savad məktəb və qruplarında əlifbanı öyrətməklə yanaşı, siyasi dərslər keçrilir, ölkədəki vəziyyət, partiyanın siyasəti izah edilirdi. Savadsızlığın ləğv edilməsi işi partiya və hökumətin maraqlarına tam cavab verməli idi. Çünki bu yolla sovet hökümətinin siyasəti və marksist-leninçi ideologiya kütlələrin şüuruna yeridilməli, onlar sosializmin tərəfdarları kimi tərbiyələndirilməli idilər.

Xalq təsərrüfatının yenidən qurulması, yeni texnikanın mənimsənilməsi zərurəti də savadsızlıq və azsavadlılığını ləğv edilməsinin tezliklə başa çatdırılmasını tələb edirdi. 1933-cü ilin iyununda Azərbaycan Xalq Maarif Komissarlığı bu işə daha geniş kütləni cəlb etmək məqsədilə elliklə savadlanma istiqrazı buraxdılar. İstiqrazın yayılmasında tələbələr xüsusi fəallıq göstərirdilər. O zaman tələbələr rayon, kolxoz və sovxozlarda savadsızlığı ləğv etməyi öhdələrinə götürdülər. Azərbaycanda nəinki kənd əhalisinin əksər hissəsi, hətta kənd kommunistləri və komsomolçularının bir qismi hələ də savadsız idi. Kənddə baş verən yeni proseslər kənd zəhmətkeşlərinin bilik və təhsilə yiyələnməyə can atmalarına şərait yaradırdı. 1933-cü ildə bütün rayonlarda kənd

sovetləri nəzdində savadsızlığı ləğvetmə qərargahları bu işə xeyli kömək göstərdi.

Fəhlələrin də texniki savadının yüksəldilməsi zərurəti onların əlifbanı tezliklə öyrənmələrini daha da ciddiləşdirirdi. 1933-cü ildə neftçi fəhlələrin 25%-i əlifbanı bilmirdi. Buna görə də "mədəni əsgər"lər, respublika fəhlə sinfinin əsas dəstəsinin - neftçi fəhlələrin savadsızlığının ləğv edilməsinə kömək üçün səfərbərliyə alındılar.

Kənddə mədəniyyət uğrunda mübarizə müxtəlif formalarda həyata keçirilirdi. Kənd sovetləri kəndin abadlaşdırılması, kəndlilər içərisində savadsızlığın ləğv edilməsi, mədəni-maarif müəssisələri, məktəb, sağlamlıq ocaqları tikintisini öhdələrinə götürürdü.

1936-cı ilin yanvarında ÜİK(b)P MK və SSRİ XKS-nin "Savadsız və azsavadlıların təhsili işi haqqında" qərarı 16 yaşından 50-dək olan əməkçilərin savadsızlığını iki ildə tamamilə ləğv etmək vəzifəsini qarşıya qoydu. Bu direktiv əsasında Azərbaycan SSR XKS 1936-cı ilin fevralında "Azərbaycan SSR-də savadsız və azsavadlıların təhsili işi haqqında" qərar qəbul etdi. Qərarda 1936-cı ildə respublikanın yaşlı əhalisi içərisində 216 min savadsız və 94 min azsavadlının təhsilə cəlb edilməsi vəzifəsi müəyyənləşdirildi. Yaşlıların təlimini təkmilləşdirmək məqsədilə onaylıq təhsil kursunu əhatə edən savad məktəblərinin yaradılmasına başlandı. Bu məktəblər müdavimlərə müəyyən istehsalat vərdişləri də verməli idi. Bu məktəblərin bazasında xüsusi və ixtisas fənləri daxil olmaqla ibtidai məktəbin tam kursu həcmində, təlim keçilən məktəblər yaradıldı. Bu məktəblərdə hər il minlərlə fəhlə təhsil alırdı.

Rayon və kəndlər savadsızlığın ləğv edilməsini tezliklə başa çatdırmaq üzrə sosializm yarışına qoşuldular. Müəllimlər, savadlı kommunist və komsomolçular, kənd sovetləri və həmkarlar ittifaqlarının üzvləri mədəni əsgərlər sırasına qoşuldular. Bir nəfər savadlının 20-30 savadsıza təhsil verməsi uğrunda yarış geniş vüsət aldı. Həmkarlar təşkilatları mədən və zavodlar arasında bütün fəhlələrin tezliklə savadlandırılması üzrə sosializm yarışı təşkil edirdilər.Məktəb müəllimləri savadsızlar üçün dərnəklər yaradır, yaylaqlarda heyvandarlar içərisində savadsızlığın ləğv edilməsi

işini təşkil etmək məqsədilə bütün yay mövsümündə dağlara gedirdilər.

Beləliklə, 1938-ci ildən 1940-cı ilin iyununadək 530 min nəfər savadsız və azsavadlı təhsil almışdı. Savadlılar əhalinin 1926-cı ildə 25%-ni, 1933-cü ildə 51%-ni, 1939-cu ildə isə 73,8 % təşkil edirdi. Şəhər əhalisi içərisində savadlılıq 83,2%, kənd əhalisi içərisində isə 66,8% idi. Sovet hakimiyyətinin ilk illərində azərbaycanlılar içərisində savadlılıq 9,3% təşkil edirdi. Təhsilə savad dərnəklərindən başlayan bir çox azərbaycanlı qadınların taleyi maraqlıdır. Belə ki, SSRİ Ali Sovetinin deputatı, pambıq tarlalarında Staxanov hərəkatının təşəbbüsçüsü Bəsti Bağırova təhsil yolunu savad dərnəyindən başlamışdı. 15 yaşlı Xədicə Əliyeva adlı bir qız atasından gizli savad məktəbinə gedirdi.O,sürətlə savad əldə edərək digər azərbaycanlı qadınlara savad öyrətməyə başladı. Məktəb ona Tibb İnstitutunun tələbəsi olmaq arzusunu həyata keçirməyə yol açdı.

1941-ci ilin fevralında yaşlı əhali içərisində savadsızlığın hələ tamamilə ləğv edilmədiyini nəzərə alaraq "Savadsızlıq və azsavadlılığın ləğvinə dair tədbirlər haqqında" xüsusi qərar qəbul edildi. Qərarda göstərilirdi ki, Azərbaycanda savadsızlığın ləğvi 1942-ci ildə tam şəkildə başa çatdırılmalıdır. Lakin müharibə nəzərdə tutulan planların həyata keçirilməsinə bir müddət mane oldu. Savadsızlığın ləğvi prosesi, sözsüz, sovetlər dövründə Azərbaycan xalqının təhsil, mədəniyyət sahəsində qazandığı inkaredilməz uğurlarından biri idi.

Xalq Maarif Komissarı Ruhulla Axundov 1927-ci ilin noyabrında AK(b)P-nin VIII qurultayında bəyan etdi: "Hesab edirik ki, partiyamızın ümumi icbari pulsuz təhsil məsələsini qoymaq vaxtı gəlib çatmışdır". Xalq Maarif Komissarlığının hazırladığı ümumi təhsilə keçilməsi planı Azərbaycan MİK-in III sessiyasında (1928-ci il) təsdiq edildi. Planda 1927/ 28-ci tədris ilindən başlayaraq, 10 il müddətində ümumi icbari ibtidai təhsilin həyata keçrilməsi nəzərdə tutulmuşdu. Bakıda və onun mədən-zavod

rayonunda, Salyan dairəsində ibtidai təhsilin həyata keçrilməsinə 1928-ci ilin payızında başlandı.

1930-cu ilin avqustunda Azərbaycan XKŞurası ümumi ibtidai təhsilin tətbiq edilməsi haqqında qərar qəbul etmişdi. 1930/31-ci ildən bütün respublika üzrə hər yerdə beşillik ibtidai məktəb kursu həcmində 8-9-10 yaşlı uşaqlar üçün ümumi məcburi ibtidai təhsilə keçilməsi nəzərdə tutulurdu. Həmin tədris ilində ümumi ibtidai təhsil Gəncə, Salyan, Zaqatala, Nuxa və İrəvan, 1932/ 33-cü tədris ilində isə bütün qalan rayonlarda tətbiq edildi.

1935-ci ildə ümumtəhsil məktəblərinin strukturu yenidən dəyişdirildi, bir və iki dərəcəli məktəblər ləğv edildi və əvəzində ibtidai (1-4-cü siniflər), natamam orta (1-7-ci siniflər) və orta (1-10-cu siniflər) məktəblər açıldı. Beləliklə, ümumi ibtidai təhsil qanuni oldu və Q.Musabəyovun başçılığı altında respublika komitəsi yarandı. Ümumi təhsilin tətbiqini əhali rəğbətlə qarşıladı. Kifayət qədər pedaqoji kadrların, xüsusilə qadın pedaqoqların çatışmazlığı, azərbaycanlı qızların tədris ocaqlarına zəif gəlməsi kimi çətinliklər qalmaqda idi. Azərbaycanda qızların oğlanlarla birlikdə təhsil alması nəzərdə tutulduğuna baxmayaraq, ilk vaxtlar bir sıra rayonlarda qızlarla dərsləri ancaq qadın pedaqoqlar aparmalı olurdular.

Ümumən, 20-ci illərin ortaları 30-cu illərdə məktəb quruculuğu sahəsində görülən işlər maarif və ümumən mədəniyyətin inkişaf perspektivləri üçün bir təməl oldu. Məktəb təhsili sahəsində inzibati-amirlik metodunun güclənməsinə baxmayaraq pedaqoqlar öz borclarını ləyaqətlə yerinə yetirdilər. Bir sıra nailiyyətlər qazanıldı. İbtidai məktəblərin sayı 1930-cu ildəki 1.779-dan 1933/34-cü tədris ilində 2.383-ə çatdı. Məktəblərdə təhsil alan 383.470 nəfərdən 249.251 nəfəri azərbaycanlı idi. Azərbaycanlı qızların sayı 42.182 nəfərə qarşı 99.242 nəfər təşkil edirdi.

1940/41-ci tədris ilində bütün ümumtəhsil məktəbində 653.071 şagird oxuyurdu. Bu məktəblərdə 22 mindən çox müəllim çalışırdı. Ümumtəhsil məktəblərini yeni pedaqoji kadrlarla təmin etmək məqsədilə bir sıra tədbirlər görüldü. Məsələn, II dərəcəli

məktəblərin bazasında pedaqoji texnikumlar açıldı. Şuşa, Gəncə və Nuxada müəllim hazırlayan yay kursları təşkil edildi.

Azərbaycanda ümumi təhsilin tətbiqi hər yerdə asan getmirdi, bir sıra ucqar rayonlarda, xüsusilə kənd yerlərində bu tədbirə düşmən münasibət qalmaqda idi. Yeni quruluşdan narazı olan bəzi qüvvələr geridə qalmış ünsürlərdən istifadə edərək məktəblərdə dərsləri pozur, kəndliləri uşaqlarını məktəbə buraxmamağa təhrik edir, kənd müəllimlərinə mane olur, bəzi hallarda isə onlara divan tuturdular, Zaqatala, Zəyəm, Nuxa və Balakəndə hətta müəllimlərin öldürülməsi halları da baş vermişdi. Kənd müəllimini təqiblərdən müdafiə etmək və ona normal iş şəraiti yaratmaq məqsədilə respublika hökuməti 1931-ci il yanvarında Azərbaycan SSR kənd müəllimlərinin hüquqlarının qorunmasını təmin edən xüsusi qərar da qəbul etmişdi. Xalqın böyük əksəriyyəti ümumi təhsilin gedişinə baxış ongünlükləri və aylıqları, onun hər yerdə tezliklə başa çatdırılması üçün sosializm yarışı və hamilik tədbirləri keçirirdilər. Kənd əhalisinə Bakı fəhlələri hərtərəfli kömək göstərirdilər, məktəblərin tikintisi üçün vəsait toplayır, tikinti materialları hazırlayır, uşaqlara maddi yardım edirdilər.

Sonrakı dövrdə Azərbaycanda ümumi ibtidai təhsil daha da genişləndi. Maarifə yeni pul vəsaiti ayrıldı. Belə ki, 1937-ci ildə maarifin ehtiyaclarına 320.377 min manat, 1940-cı ildə isə bu sahəyə 484.900 min manat vəsait ayrılmışdı. II beşillikdə Azərbaycanda 408.090 şagird yeri olan 336 yeni məktəb binası tikildi və onlardan 260-ı kənd yerlərində idi. Pedaqoji İnstitut (APİ), Dövlət Universiteti (ADU) və pedaqoji məktəblərdə müəllim kadrlarının hazırlanması genişləndirildi. Artıq 1936/37-ci tədris ilində respublikada 15.137 müəllim var idi.

SSRİ MİK və XKS-nin qərarı (1936-ci il) əsasında əməkdar ibtidai və orta məktəb müəllimi fəxri adları təsis edildi.

Məktəb proqramları və dərsliklərindən ənənəvi milli ideyaları təbliğ edən materiallar, milli mənəvi dəyərlərə dair müddəalar çıxarılırdı. Proqram və dərsliklər ancaq sosialist ideallarına sadiq olan gənc nəsil tərbiyə etmək məqsədinə uyğun

olmalı idi. SSRİ XKS-nin1934-cü il may tarixli qərarı da bu məqsədə yönəlmişdi. Qərarda məktəblərdə tarix və coğrafiyanın öyrədilməsinə xüsusi diqqət verilirdi. Bu fənlər güclü partiya nəzarəti altında idi və yeni insan sosializm cəmiyyəti qurucusunun, hər şeydən əvvəl SSRİ vətəndaşı formalaşdırılması üçün ondan ideoloji silah kimi istifadə edilirdi. Milli tarix isə faktiki olaraq proqramlardan çıxarılır və ya qısaldılmış xarakter daşıyır, SSRİ tarixi fənninə yamaq edilirdi. Qərara uyğun yeni ümumtəhsil təlim sistemi - ibtidai, natamam orta və orta məktəb yaradılırdı. Ən sədaqətli, sadiq müəllim kadrlarını seçmək məqsədilə1936-cı ildən başlayaraq onların attestasiyası keçirilirdi. Bu tədbir, məktəbləri zəif hazırlıqlı müəllimlərdən azad etməyə, tədrisin keyfiyyətini yüksəltməyə kömək edirdi. Ancaq bu tədbir həmçinin keçmişdə müxalifət partiyalarının üzvü olmuş və ya xalq düşmənləri elan edilmişlərin yaxın qohumları olan müəllimləri məktəbdən uzaqlaşdırmaq məqsədi də güdürdü. 1937-ci il repressiyaların zirvə mərhələsi olan il idi.

Ümumtəhsil məktəblərində azərbaycanlı qızların sayının artımı (onların sayı iki dəfədən çox artmışdı) keçmiş geriliyin bu illərdə aradan qaldırılması, məişət şəraitinin dəyişməsi, bütövlükdə Azərbaycan qadınının köləlik və mövhumatçılıq buxovlarından azad edilib yeni qadın nümunəsinə çevrilməsi üçün görülən işlərin nəticəsi idi. Ümumi ibtidai təhsilin həyata keçrilməsində əldə edilən nailiyyətlər ümumi icbari yeddiillik təhsilə keçmək üçün əsas oldu.

Azərbaycan SSR XKS 1928-ci il iyulun 21-də "Azərbaycanda yeni türk əlifbasının icbari və qəti olaraq tətbiq olunması" haqqında qərar qəbul etdi və onu həyata keçirmək üçün xüsusi komissiya yaratdı. Komissiyanın tərkibinə S.Ağamalıoğlu (sədr), Q.Musabəyov, Ə. H. Qarayev və başqaları daxil idilər.

1929-cu il yanvarın 1-dən Azərbaycan SSR-nin yeni əlifbaya - latın qrafikasına keçməsi rəsmən elan olundu. Hökumətin "Azərbaycanın bütün fəhlələri və kəndlilərinə" müraciətində qeyd edilirdi ki, yeni əlifbanın tətbiqi savadsızlığın ləğv edilməsi işini

xeyli asanlaşdıracaq, kütlələrin maariflənməsinin yüksəlişinə böyük maraq yaradacaq.

Yeni əlifbaya münasibət birmənalı deyildi. Bir sıra "Müsavat", "İttihad" partiya nümayəndələri və başqa dini xadimlər, ziyalılar yeni əlifbaya qarşı çıxırdılar. Bəziləri şayiə yayırdılar ki, guya xalqa yad olan latın dilini Azərbaycana sırımaq istəyirlər. Türkiyədə məskən salmış müsavatçılar İstanbulda nəşr etdirdikləri "Yeni Kavkasiya" qəzeti vasitəsilə Azərbaycanda ərəb əlifbasının tərəfdarlarını fəal müdafiə edirdilər.

Azərbaycanda sovet hakimiyyətini devirmək və onu Türkiyəyə birləşdirmək məqsədini qarşıya qoymuş "Gənc Azəri" gənclər təşkilatı yeni əlifbanın tətbiqini boykot edirdi. 1930-cu ildə Nuxa-Zaqatala rayonunda yeni əlifba və kollektivləşməyə qarşı birgə açıq çıxışlara cəhdlər olmuş, hətta yeni əlifbanın fəal tərəfdarlarının, bir sıra müəllimlərin öldürülməsi halları da baş vermişdi.

Ərəb əlifbasından imtina etməmək də olardı. Lakin nəzərə almaq vacibdir ki, geniş kütlələr bu əlifbanı da bilmirdi, zaman isə xalqın tezliklə savadlanmasını tələb edirdi. Demək, latın əlifbasına keçilməsi heç də müsəlman aləmində böyük bir yazılı ədəbiyyat xəzinəsi olan ərəb əlifbasına qarşı durmaq və ya onu rədd etmək deyildi, ancaq savadsız kütlələrin maarifə yiyələnməsini, əhalinin böyük əksəriyyətinin savadsızlığın ləğv edilməsini, Azərbaycan dilində tez bir vaxtda nəşriyyat işinin qaydaya salınmasını sürətləndirmək üçün zəruri bir vasitə idi.

Yeni əlifbanın Azərbaycanda ilkin tətbiq olunması xəbəri onun sərhədlərindən kənara çıxdı. Yeni əlifbaya keçilməsi hərəkatı Türkiyədə də başlandı. Həmin ilin iyununda məclisin sessiyası yeni əlifbaya keçilməsini hazırlamaq üçün xüsusi komissiya ayırdı, payızda isə Türkiyə latın əlifbasına keçdi. Hətta o zaman İranda çıxan "Aftabi-Şərq" (Şərqin günəşi) qəzeti Azərbaycanda latın əlifbasının uğurlarına istinadən İranda da əlifba islahatının zəruriliyini qeyd etmişdi.

Latın əlifbası Azərbaycanda 1932-ci ilin iyununda qəbul edildi. Ancaq latın əlifbası təəssüf ki, uzun müddət davam etmədi. Artıq

30-cu illərin ortalarında Mərkəzin təkidli diktəsi əsasında, İttifaqın latın əlifbasını qəbul etmiş digər respublika və vilayətlərində olduğu kimi, Azərbaycanda da rus-kiril yazı qrafikasına keçilməsi uğrunda hərəkat başlandı.

Müxtəlif millətlər arasında əməkdaşlığın möhkəmlənməsi və inkişafında hakim rus dili və əlifbasının mühüm ünsiyyət vasitəsi olması kimi obyektiv fakt tam inkar edilməzdir. Artıq o zaman Sovet İttifaqı xalqları içərisində rus dilini öyrənməyə, rus mədəniyyətinə yiyələnməyə güclənən meylin nəzərə çarpması təəccüblü deyildi. Ancaq təəssüf ki, bu obyektiv prosesdən böyük şovinist millətçilik tərəfdarları ruslaşdırma siyasəti vasitəsi kimi istifadə edirdilər. Hətta 1938-ci ilin martında SSRİ XKS qeyri-rus məktəblərində rus dilini icbari qaydada öyrənmək haqqında xüsusi qərar qəbul etmişdi.

Moskvanın diktəsilə Azərbaycan SSR Ali Sovetinin növbəti sessiyası 1939-cu ilin iyulunda latın əlifbasının kirillə əvəz edilməsi haqqında qanun qəbul etdikdən sonra (bu qanun 1940-cı il yanvarın 1-dən qüvvəyə mindi) rus dilinin fəaliyyət dairəsi daha da genişləndi.

Beləliklə, tarixən qısa bir zamanda Azərbaycanda iki dəfə əlifba dəyişildi. Bu da mədəniyyətimizin inkişafına, xalqımızın sonrakı nəsillərinin mədəni sərvətlərdən bəhrələnməsinə mane oldu.

Sonrakı illərdə Azərbaycan yazısı rus qrafikası məcrasında inkişaf etdi. Yeni əlifba vasitəsilə rus dilinə, rus mədəniyyətinə, onun elmi potensialına, elmi- texniki fikirlərinə yol açmışdı.

Respublika mədəni həyatının yeniləşməsi prosesində mədəni-maarif müəssisələri, ələlxüsus klublar mühüm rol oynadılar. 30-cu illərdə Bakıda və digər sənaye mərkəzlərində yeni klub müəssisələri – mədəniyyət saraylarının yaradılmasına başlandı. Təkcə 1932-ci ildə Bakı və onun rayonlarında mədəniyyət sarayları fəaliyyət göstərir, kütlələrin yaradıcılıq özfəaliyyətinin inkişafında mühüm rol oynayırdı. Kənddə yoxsul və ortabab kütlələrin mədəni və siyasi fəallıq mərkəzi o zaman qiraət komaları idi.

Mədəni-kütləvi və siyasi maarif işində kitabxanalar mühüm rol oynayırdılar. 1932-1933-cü illərdə respublikada 135 kitabxana fəaliyyət göstərirdi. Azərbaycanda 20 rayonu əhatə edən radiolaşdırma xalqın həyatında yeni hadisə oldu. 1939-cu ildə Azərbaycan dilində 80-dən artıq qəzet çıxırdı.

Azərbaycan qadınlarının ictimai-siyasi və iqtisadi həyata qovuşması ildən-ilə güclənirdi. Onların faktiki hüquq bərabərliyinə nail olmasında mühüm addımlar atılırdı.

Bu şəraitdə C.Cabbarlının "Sevil" əsəri də az iş görmür, teatrların repertuarından düşmürdü, hətta həmin pyes əsasında film çəkildi. 1928-ci ilin oktyabrında Bakıda çadra məsələsinə həsr edilən yığıncaqda Azərbaycan SSR MİK-dən xahiş edilirdi ki, qadınların çadra örtməsini qadağan edən dekret versin. Azərbaycanın ucqar kəndlərində çadranı atmaq hərəkatı ciddi maneələr, hətta cəza və ölümlə qarşılanırdı.

Qadınların ictimai-siyasi həyata cəlb olunmasında "Şərq qadını" jurnalının böyük rolu olmuşdu. Bu mətbuat orqanı öz ətrafına bütün savadlı, oxumuş, mübariz qadınları toplamış, qadın publisistlərin, şair və yazıçıların yetişməsi üçün bir məktəb rolunu oynamışdı. Elmə, mədəniyyətə, incəsənətə marağı olan qadınların, qızların ilk məqalələri bu jurnalın səhifələrində dərc edilmişdi."Şərq qadını" 1938-ci il fevral ayından başlayaraq "Azərbaycan qadını" adı ilə nəşr olunmağa başladı.1926-cı ildə Azərbaycan radiosu işə düşdü, ilk dəfə efirdə “Danışır Bakı” səsi eşidildi.

XX əsrin 20-ci illərin sonları 30-cu illərin əvvəllərində bütün sovet ölkəsinin hər yerində olduğu kimi, Azərbaycanda da din üzərinə açıq hücum başlanmışdı. Azərbaycanda məscid, kilsə və sinaqoqların kütləvi bağlanmasına, din xadimlərinin təqib olunmasına başlandı. Quran zərərli bir kitab kimi qadağan edildi. Azərbaycan qəzalarında elə bir məscid qalmadı ki, ya dağıdılmasın, ya da anbara, kluba, kitabxanaya çevrilməsin.

Partiya öz ateist mövqeyinə sadiq qalaraq, hər vəchlə dinin rolunu və əhəmiyyətini ictimaiyyətin gözündən salmaq üçün müxtəlif vasitələrdən istifadə edirdi. Bakıda din tarixi və ateizm

muzeyi yaratmaqda məqsəd dinin tarixini öyrənmək əsasında onun əleyhinə təbliğat kampaniyası aparmaq, mürtəce rolunu göstərən materiallarla onu geniş xalq kütləsi qarşısında ifşa etmək idi. Belə bir muzeyin Gəncədə də açılması planlaşdırılmışdı. Din pərdəsi altında bu illərdə xalqın yaddaşında kök salmış Novruz bayramı da yasaq edildi. Amma buna baxmayaraq, xalq bu bayramı qoruyub saxlaya bildi.

Bakıda Bibiheybət məscidi və Əmircanda Şəmsi Əsədullayev məscidi, müsəlmanların etiqad etdiyi onlarla sitayiş yerləri və pirlər, Ağ şəhərdə Şibayev kilsəsi və Serkovnı küçədə (indiki Vidadi küçəsi) Donanma kilsəsi, Müqəddəs Məryəm katolik kostyolu, bir çox başqa məbədlər bağlanmış, Suraxanı atəşgah məbədi baxımsız qalmışdı.

Şərqdə məşhur olan Bibiheybət məscidinin taleyi də acınacaqlı idi. Bu əzəmətli dini tikili hələ XIX əsrin ortalarında inşa edilmişdi və 8-ci Şiə İmamı Həzrəti Rzanın bacısı Hökümə xanımın qəbri burada olduğundan dindarlar ona xüsusi ehtiram bəsləyirdilər. Bu İslam ocağı və Şərq memarlığının incilərindən biri 1936-cı ildə M.Bağırovun göstərişi ilə partladılmışdı.

Məscid və kilsələrin bağlanması,sökülməsi ilə eyni zamanda ruhanilər də ağır təqiblərə məruz qalırdılar. Lakin xalqı öz mənəvi köklərindən ayırmaq cəhdi baş tutmadı.

Ali və orta ixtisas təhsili. Elm. Azərbaycanın yeni iqtisadi və mədəni inkişafı müxtəlif sahələrdə yüksək ixtisaslı mütəxəssislər hazırlanmasını şərtləndirirdi. Ali və orta ixtisas təhsilli mütəxəssislər arasında milli kadrlar olduqca az idi. 1929-cu ildən başlayaraq Azərbaycanda xüsusən fəhlə və kəndli təbəqələrindən yeni mütəxəssis kadrlar hazırlanmasına diqqət gücləndi.

Azərbaycanda ali təhsil müəssisələrinin yenidən təşkilinə başlandı. Respublikada neftçi kadrlara kəskin ehtiyac duyulurdu. Yeganə ali texniki təhsil müəssisəsi olan Azərbaycan Politexnik İnstitutu (indiki Azərbaycan Texniki Universiteti) 1921-1929-cu illərdə cəmi 71 mühəndis hazırlamışdı. Neft sənayesinin yüksək inkişaf sürəti ilə müqayisədə bu heç də kifayət deyildi. Politexnik

İnstitutunun texnologiya fakültəsindən iki müstəqil fakültə neft-mədən və geologiya-kəşfiyyat fakültələri ayrıldı. Mühəndis-inşaat fakültəsi müstəqil İnşaat İnstitutuna çevrildi. Politexnik İnstitutu Neft İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) çevrildi. 1929-cu ildə isə Politexnik İnstitutunun kənd təsərrüfatı fakültəsi bazasında Gəncədə Kənd Təsərrüfatı İnstitutu (indiki Azərbaycan Kənd Təsərrüfatı Akademiyası) təşkil olundu. İrriqasiya və su nəqliyyatı şöbələri bazasında Zaqafqaziya Pambıqçılıq İnstitutu yaradıldı.

Azərbaycan Dövlət Universiteti də əsaslı yenidənqurmaya məruz qaldı. ADU-nun tərkibindən bir neçə müstəqil institut ayrıldı. Tibb fakültəsi 1930-cu il Azərbaycan Tibb İnstitutuna (indiki Azərbaycan Dövlət Tibb Universiteti), Pedaqoji fakültə isə Azərbaycan Pedaqoji İnstitutuna (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) çevrildi, hüquq fakültəsi əsasında Sovet Quruculuğu və Hüquq İnstitutu, İqtisad fakültəsi bazasında isə Kooperativ-Ticarət İnstitutu təşkil olundu. 1930-cu ildə Azərbaycan Dövlət Universiteti öz fəaliyyətini müvəqqəti olaraq dayandırdı.

1930/31-ci tədris ilinin əvvəllərində yuxarıda qeyd olunan müstəqil institutlarla yanaşı, Bakıda Sənaye Akademiyası, Qırmızı Professorlar İnstitutu və Cənubi Qafqaz Bədən Tərbiyəsi İnstitutunun filialları fəaliyyət göstərirdi.

Beləliklə, 1932/33-cü tədris ilində respublikada on min nəfərlik tələbənin təhsil aldığı 15 ali tədris müəssisəsi var idi. XKS-nin qərarı ilə ali məktəb və texnikumlar idarə və təsərrüfat orqanlarına təhkim edilir, həmin idarə və müəssisələrə onların tədris-təcrübə işinin maddi bazasının təşkilində bilavasitə iştirak etmək öhdəliyi həvalə edilirdi. Belə ki, Azərbaycan Neft İnstitutu İttifaqneft və Azərneftin, Tibb İnstitutu Xalq Səhiyyə Komissarlığının, Kənd Təsərrüfatı İnstitutu isə Azərbaycan Xalq Torpaq Komissarlığının sərəncamına verilmişdi. Ali məktəblərin və texnikumların ayrı-ayrı idarələrə və təsərrüfat orqanlarına təhkim edilməsi tədris müəssisələrinin maddi bazasının möhkəmlənməsinə,

respublika üçün lazım olan müxtəlif ixtisaslı kadrların məqsədyönlü hazırlanmasına imkan verdi.

Ali və orta məktəblərə tələbələrin cəlb edilməsində fəhlə fakültələri mühüm rol oynayırdılar ki, bu da təhsil alan tələbələrin sosial bazasını möhkəmləndirmək imkanı idi. 1920/21-ci tədris ilində Bakı fəhlə fakültəsində oxuyanlar içərisində fəhlələr 41%, qulluqçular 56,5% təşkil edirdisə, 1929/30-cu ildə fəhlə və muzdurlar 80%, 1931/32-ci ildə isə 90%-ə bərabər idi.Artıq 1932-ci ildə Azərbaycanın ali və ali texniki məktəblərində tələbələrin ümumi sayının 70%-ni fəhlələr təşkil edirdi.

1930-cu ildə bütün ali və ali texniki məktəblərdə elmi kadrların hazırlanmasına imkan verən aspirantura təşkil edilməsinin başlanğıcı qoyuldu.

Azərbaycanda ixtisaslı kadrların hazırlanmasında, elm və mədəniyyətin inkişafında qabaqcıl rus alim və ziyalılarının böyük rolu olmuşdu.Bu alimlərin Azərbaycanda səmərəli fəaliyyəti ali və ali texniki məktəblər şəbəkəsinin genişlənməsini, azərbaycanlı və digər millətlərin nümayəndələrindən ibarət kadrların hazırlanmasını təmin etdi. Artıq 1932-ci ilin sonunda xalq təsərrüfatının müxtəlif sahələrində 50 min nəfərədək ali təhsilli mütəxəssis çalışırdı. Onların içərisində respublikadan kənarda təhsil almış mütəxəssislər aparıcı rol oynayırdılar.

Ali məktəblərin fəaliyyəti mərkəzin daim sayıq partiya nəzarəti altında saxlanırdı.1933-cü ilin dekabrında AK(b)P Ali Pedaqoji İnstitutun vəziyyəti haqqında məsələyə baxaraq, onun rəhbər işçilərinin tərkibini möhkəmlətməyi qərara aldı. Azərbaycanda ali tədris müəssisələrinin bütün tədris-tərbiyə və təşkilati-metodik fəaliyyətinin yenidən qurulmasına başlandı. Kənd təsərrüfatı sahələrini əhatə edən ali məktəblərdə ciddi yenidənqurma aparıldı. 1933-cü ildə Gəncədə vahid Azərbaycan Kənd Təsərrüfatı İnstitutu təşkil edildi. O, siyasi cəhətdən savadlı sosialist kənd təsərrüfatı komandirləri - Azərbaycanı SSRİ-nin ikinci pambıqçılıq bazasına çevirmək uğrunda mübarizləri yetişdirməli idi.1934-cü ildə Azərbaycan Dövlət Universiteti bərpa edildi. 1935-ci ildən isə

Universitetdə coğrafiya, filologiya və digər fakültələr fəaliyyətə başladı.

Ali və orta təhsilin ən ciddi problemlərindən biri mühüm fənlər üzrə Azərbaycan dilində dərslik və dərs vəsaitlərinin olmaması idi ki, bu da kadr hazırlığının keyfiyyətinə mənfi təsir göstərirdi.

Burjua sinfinin və təbəqələrinin tam məhvi ilə bağlı olaraq ali məktəblərə qəbulda dəyişiklik edildi. Azsaylı xalqların öz ana dilində təhsil almasına qayğı göstərilməsi sayəsində həmin xalqlarda savadlıların faizi artdı. Lakin 30-cu illərin sonlarında millətçiliyə qarşı mübarizə bəhanəsi ilə milli azlıqların dillərində məktəblərin sayı xeyli azaldıldı. 1940/41-ci tədris ilində ölkədə 15 minə qədər tələbənin təhsil aldığı 16 ali məktəb fəaliyyət göstərirdi. Həyatın müxtəlif sahələrində 48 min, o cümlədən 20 min ali təhsilli mütəxəssis çalışırdı.

1936-cı ildə qəbul edilmiş yeni Konstitusiyaya uyğun olaraq vəziyyət dəyişilməyə başladı. Konstitusiyada SSRİ XKS və MİK-nin 1935-ci ildə qəbul etdiyi "Ali tədris müəssisələrinə qəbul haqqında" qərarında tələbələrin sosial mənşəyi ilə bağlı əvvəllər qoyulmuş məhdudiyyətlər ləğv edildi. Təbiidir ki, ali və orta ixtisas tədris müəssisələrinin komplektləşdirilməsinin sosial bazası genişləndi, respublika əhalisinin bütün təbəqələrindən olan azərbaycanlı abituriyentlərin ali məktəblərə qəbulu artdı.

Respublikanın təbii sərvətlərindən sosializm cəmiyyəti mənafeyi naminə istifadə etmək üçün yeni elmi mərkəzlər yaradılırdı.1929-cu ildə Azərbaycanda Ümumittifaq Elmi-Tədqiqat Geoloji-Kəşfiyyat İnstitutu yaradıldı, Cənubi Qafqaz geoloji tresti fəaliyyətə başladı. 1930-cu ildə Gəncədə Cənubi Qafqaz geoloji trestinin şöbəsi açıldı. Azərbaycanın yeraltı mədənlərinin öyrənilməsi genişləndi, Daşkəsənin geoloji xəritəsi tərtib edildi, Zəylik alunit mədənlərinin kəşfiyyatına başlandı.

İttifaqın bütün neft sənayesi üçün Azərbaycan Elmi-Tədqiqat Neft Maşınqayırma İnstitutunun fəaliyyəti mühüm əhəmiyyət kəsb edirdi. Respublikanın enerji ehtiyatlarını öyrənmək məqsədilə Ümumittifaq Elmi-Tədqiqat Energetika və Elektrikləşdirmə

İnstitutunun Azərbaycan bürosu yaradıldı. Azərbaycan kənd təsərrüfatı istehsalının əsas sahəsi olan pambıqçılıqda bir sıra ciddi elmi problemlərin tədqiqatına başlandı. 1927-ci ildə Gəncədə yaradılan Azərbaycan Elmi-Tədqiqat Pambıqçıhq İnstitutu azməhsuldar sortların əvəzinə yenilərinin yaradılmasında ilk nailiyyət əldə etdi.

İctimai elmlər sahəsində elmi tədqiqatların mərkəzi yenə də "Azərbaycanı Öyrənmə və Tətəbbö Cəmiyyəti" idi. O öz işini Azərbaycan Dövlət Universitetinin müvafıq fakültələri, respublika Arxeologiya Komitəsi və Azərbaycan Dövlət muzeyi ilə sıx əlaqədə aparırdı. SSRİ Elmlər Akademiyası Azərbaycanda elmin inkişafına əməli kömək göstərirdi. Görkəmli rus alimləri V.V.Bartold, N.Y.Marr, İ.İ.Meşşaninov, A.N.Samoyloviç və başqalarının bilavasitə iştirakı ilə elmi ekspedisiyalar təşkil edilirdi. 1926-1927-ci illərdə İ.Meşşaninovun rəhbərliyi altında Naxçıvan MSSR və Dağlıq Qarabağa təşkil edilən ekspedisiyalarda tunc və ilk dəmir dövrünə aid arxeoloji mədəniyyət aşkar edildi. Azərbaycan arxeoloqları İ.M.Cəfərzadə, Ə.K.Ələkbərov və digərləri bu ekspedisiyalarda formalaşdılar. Arxeoloqlar S.M.Qaziyev və D.Şərifov qədim Qəbələ şəhərinin xarabalıqları ərazisində Nic kəndi yaxınlığında Yaloylutəpədə, Gəncə yaxınlığında Çovdar kəndində arxeoloji axtarışlar aparırdılar. Həmin illərdə siklop tikililərini öyrənmək məqsədilə Mil düzünə və Kiçik Qafqazın Dəstəfur rayonuna ekspedisiya təşkil edildi.

1929-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqai İnstitutu yaradıldı ki, bu da respublikada, mövcud olan bütün elmi idarə və təşkilatların fəaliyyətini birləşdirdi. 1932-ci ilin noyabrında ZSFSR XKS SSRİ EA Qafqazşünaslıq Elmi Tədqiqat İnstitutunun bazasında təbiət və ictimai elmlər şöbələri olan Ümumittifaq Akademiyasının Zaqafqaziya filialının təsis edilməsi haqqında qərar qəbul etdi. Eyni zamanda həmin ildə Azərbaycan MİK-in qərarı ilə Azərbaycan DETİ-nin bazasında SSRİ EA Zaqafqaziya filialının Azərbaycan Şöbəsi (EAZFAŞ) təşkil edildi, elmi tədqiqatların miqyası genişləndi. Şöbəyə R.Axundov rəhbərlik edirdi.

1935-ci ilin oktyabrında EA ZFAŞ-ın bazasında SSRİ EA-nın Azərbaycan filialı (EA AF) təşkil edildi. Onun tərkibində geologiya, fizika, energetika, torpaqşünaslıq bölmələri, kimya, botanika, zoologiya, tarix, etnoqrafiya və arxeologiya, dil və ədəbiyyat institutları var idi. SSRİ EA Azərbaycan filialının Elmi Şurası 66 nəfər tərkibdə təsdiq edilmişdi. EA AF-nın sədri akademik İ.M.Qubkin idi.

1937-ci ilin aprelində EA AF-nın Coğrafiya Bölməsi yaradıldı. Bu bölmə fiziki və iqtisadi coğrafiyaya dair tədqiqatlar aparmış, xəritələr tərtib etmiş, Azərbaycan SSR-nin coğrafiya atlasını və coğrafiya lüğətini hazırlamışdı.

İctimai və humanitar elmlərin ənənəvi sahələrində elmi işlər davam etdirilirdi. 1935-ci ildə EA ZFAŞ-ın nəzdində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu (sonradan EAAF-ın müstəqil Tarix İnstitutuna çevrildi) yaradıldı. Onun fəaliyyəti nəticəsində qədim zamanlardan yeni dövrədək Azərbaycan tarixinə dair yeni əsərlər meydana gəldi, məcmuələr nəşr edildi.

1935-ci ildə EA ZFAŞ-nın dil və ədəbiyyat bölməsi Ədəbiyyat və Dil İnstitutuna - çevrildi.Nizami Gəncəvinin anadan olmasının 800 illiyi ilə əlaqədar ictimaiyyətçilər və ədəbiyyatçılar dahi mütəfəkkirin həyat və yaradıcılığına dair tədqiqatlar və "Xəmsə"nin nəşri ilə bağlı böyük iş aparırdılar. Azərbaycan ədəbiyyatının digər klassikləri -M.F.Axundov M.Füzuli və M.P.Vaqifin əsərləri nəşr edilirdi.

1941-ci ildə Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun kollektivi Azərbaycan xalqının tarixinə dair ilk ümumiləşdirici əsər olan "Azərbaycan tarixinin qısa oçerki"ni nəşr etdi.

Beləliklə, təqribən 20 ildə respublikada elmin inkişafının mühüm nəticəsi Azərbaycanda elmi ziyalıların bütöv ordusunun formalaşdırılması oldu. Onların gücü və səyləri hesabına 1945-ci ilin yazında Azərbaycan SSR Elmlər Akademiyasını yaratmaq mümkün oldu.

Ədəbiyyat və incəsənət. Bolşeviklərin qarşılaşdığı ən böyük çətinlik ədəbiyyat sahəsində idi. Onlar Azərbaycanda proletar

mədəniyyətni bərqərar etmək istəyirdilər. Qısaca "proletkult" adlandırılan bu formulun mənası fomaca milli, məzmunca kommunist olan bir ədəbiyyatdır. Lakin bolşeviklər bu arzularına heç cür çata bilmirdilər. Çünki bu iş üçün hazırlanmış kadrlar yox idi. Məktəb kimi, ədəbiyyat da uzun zaman kommunizmə yabancı olan ideoloqların təsiri altında qalırdı.

1921-ci ilin 5 oktyabr tarixli "Kommunist" qəzetində çap olunmuş Maarif nazirinin çıxışında deyilir ki, Azərbaycan işçiləri arasından çıxan şair və yazıçıların gənc nəslin "Müsavat" dövründən xəbəri yoxsa da, yenə Əhməd Cavadın milli məktəbi təsirinə düşür və milli Azərbaycan ruhunda ədəbiyyat yaradırlar. Nəticədə Azərbaycanın gənc yazıçıları uydurulmuş rus təhlükəsinə qarşı çıxır, "Baxımsız Azərbaycan" şüarını idealizə etməyə başlayırlar. Almas, Əbdül, Müşfiq, Hüseynzadə kimi proletar şairləri bir-bir millətçi olaraq proletar yazıçılar ittifaqından və Kommunist Partiyasından çıxarırlar; indi isə Əhməd Cavadla birlikdə üçrəngli Azərbaycan bayrağını tərənnüm edirlər. Tağı Şahbazi, Böyük Ağa Talıblı, Əli Rza və Əhməd Cavad kimi şairlər sovet ədəbiyyatında millətçiliyi təbliğ etdikləri üçün Yazıçılar ittifaqından xaric edilmişlər.

1937-ci ilin iyununda keçirilən Azərbaycan K(b)P-nin XIII qurultayında çıxış edən M.C.Bağırov demişdir: "Bir baxın,Yazıçılar İttifaqında kimlər əyləşmişdir. Hazırda ifşa edilmiş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşviq, Əli Nazim, Böyükağa Talıblı, Tağı Şahbazi, Əhməd Triniç və başqa əclaflar!...."

Azərbaycanda yeni yaradıcı ziyalıların - yazıçı, rəssam, musiqiçilərin formalaşması sahəsində ilk addımlar atılırdı. 1928-ci il yanvarında Bakıda respublika yazıçılarının I Qurultayı, 1929-cu ildə isə II Qurultayı keçirildi. Bu qurultaydan sonra Azərbaycan Proletar Yazıçıları Assosiasiyası rəsmi fəaliyyətə başladı. Azərbaycan sovet poeziyasında bir canlanma hökm sürürdü.

1930-cu ildə mətbuatda S.Rüstəmin şeirləri, S.Vurğunun "Şairin andı" şeirlər toplusu çap olundu. Bu şeirlərdə əməkçilərin, yeni cəmiyyət qurucularının əhvali-ruhiyyə və hissləri əks olunmuşdu.

S.Vurğun “Raport” şeirində Azərbaycan kəndində baş verən dəyişiklikləri tərənnüm edirdi.

Gənc şair Mikayıl Müşfiqin şeirləri məzmun zənginliyi və forma aydınlığı ilə seçilirdi. Rəsul Rza, Məmməd Rahim öz şeirlərində xalq təsərrüfatının inkişafı uğrunda mübarizədə əməkçilərin fədakarlıqlarını əks etdirirdilər.

Bəzi gənc şairlər yeni quruluşu qəbul etmirdi, təqiblərə məruz qalırdı. Onlardan biri də Almas İldırım (1907-1952) idi. O, varlı tacir ailəsindən olduğu üçün ADU-nun şərq ədəbiyyatı fakültəsindən xaric edilir. 1928-ci ildə şeirlərindəki millətçi çağırışlara görə Dağıstana, bir qədər sonra Türkmənistana sürgün olunur. Oradan gizlincə İrana qaçır, sonra isə Türkiyəyə köçür. O, “Qürbətdə” şeirində yazırdı:

Yox, mən ölmək istəməm, görmədən doğma yurdu
Mən orda ağlamışam, mən orda güləcəyəm.
Söylə, qoy sevinməsin Kremlin vəhşi qurdu,
Mən tufanla doğuldum, tufanla öləcəyəm!..

XX əsrin 20-30-cu illərində Azərbaycan sovet dramaturgiyasının yaranması və formalaşmasında C.Cabbarlının böyük rolu olmuşdur.1928-1932-ci illərdə o, bir sıra pyeslər yaratmış, Azərbaycan xalqının tarixi keçmişini, onun azadlıq və müstəqillik uğrunda mübarizəsini dərindən dərk etməyə cəhd etmişdi. Onun “Od gəlini”, “Sevil”, “Almaz”,“1905-ci ildə” və “Yaşar” pyesləri Azərbaycan dramaturgiyasının gələcək inkişaf istiqamətini müəyyən etdi.

C.Cabbarlının milli dramaturgiyanın qızıl fonduna daxil olan “Aydın”, “Sevil”, “Oqtay Eloğlu” pyesləri müasir həyat qurucularını məfkurə və mənəvi cəhətdən zənginləşdirirdi. “Sevil” pyesi daha çox müvəfəqiyyət qazanmışdı. Dövrün tələbindən doğan bu səhnə əsəri Azərbaycan qadınlığını tam ictimai-sosial azadlığa səsləyən bir çağırış idi. Sevil rolunda Azərbaycan səhnəsində ilk dəfə gənc aktrisa Mərziyyə Davudova çıxış etmişdi.

1934-cü ilin iyununda Bakıda Azərbaycan sovet yazıçılarının I Qurultayı oldu. Azərbaycan Yazıçılar İttifaqı yaradıldı. C.Cabbarlı

ənənələri ilə yetkinləşmiş Azərbaycan sovet dramaturgiyası S.Vurğun yaradıcılığı ilə yeni pilləyə qalxdı və onun "Vaqif", "Xanlar", "Fərhad və Şirin" pyesləri ilə zənginləşdi.

Hüseyn Cavid mürəkkəb və ziddiyyətli yol keçərək ədəbiyyata gəlmişdi. Rəsmi tənqid şairi günahlandırırdı ki, o, öz əsərlərində sovet yeniliklərini partiya və rəhbərliyin tələb etdiyi kimi əks etdirmir, öz oxucularını uzaq keçmişə aparır, keçmişin işğalçılarını ideallaşdırır. "Azər" poeması və "Knyaz" pyesində H.Cavid istismar əleyhinə çıxır, sovet hakimiyyəti uğrunda mübarizəni əks etdirir.

H.Cavid orijinaıl, dərin ictimai, fəlsəfi mənalı əsərlərlə çıxış edirdi. Onun "Səyavuş" və "İblisin intiqamı" pyesləri səciyyəvidir. H.Cavid "Xəyyam" dramına görə mükafata layiq görülmüşdü.

Nəsr sahəsində Ə.Əbülhəsənin "Yoxuşlar", S.Rəhimovun "Şamo" romanı çap olundu.

S.Rüstəm özünün XIX əsrdə Azərbaycanda qaçaq hərəkatının qəhrəmanına həsr olunmuş "Qaçaq Nəbi" dramı ilə söhrət qazanmışdı. Sabit Rəhmanın "Toy", "Xoşbəxtlər" komediyaları teatr səhnələrində müvəfəqiyyətlə nümayiş etdirilirdi.

"Azərbaycan poeziyası antologiyası" 1939-cu ildə Moskvada çapdan çıxdı. O, rus və Azərbaycan şair və yazıçılarının yaradıcı əməkdaşlıq nümunələrindən biri idi.

1937-ci ildə A.S.Puşkinin ölümünün 100 illiyinin qeyd edilməsi ilə əlaqədar "Yevgeni Onegin" və gürcü klassiki Şota Rustavellinin 750 illiyi ilə əlaqədar "Pələng dərisi geymiş pəhləvan" əsərləri Azərbaycan dilində S.Vurğunun tərcüməsində nəşr olundu.N.V. Qoqol, A.P.Çexov, L.N.Tolstoy və N.Ostrovskinin əsərləri Azərbaycan dilinə tərcümə edilirdi.

Azərbaycan teatr sənətinin xalqın ictimai-mənəvi həyatında rolu artırdı. Teatr tamaşalarının bədii və siyasi fəaliyyətinin ideyaca istiqamətləndirilməsində 1928-ci ilin avqustunda qəbul olunan "Bakı teatrlarının mədəni təbliğat işi haqqında" partiya qərarı xüsusi rol oynadı. Xalq Maarif Komissarlığı nəzdində bütün teatrlar üzərində ideya rəhbərliyini həyata keçirən vahid orqan Tamaşa Müəssisləri İdarəsi (TMİ) yaradıldı.

"Bakı Fəhlə teatrı" da dövrün mühüm hadisələri ilə səsləşən pyeslərlə öz repertuarını müasirləşdirməyə çalışırdı.

Musiqi incəsənəti çətinliklə də olsa, tərəqqi edirdi. Milli musiqi sənəti irsinə hücuma keçənlərə qarşı Ü.Hacıbəyov, M. Maqomayev və onların həmfikirləri çıxış edirdilər. Hücum edənlərin ön cərgəsində şair S.Rüstəm də var idi. O yazırdı:

Oxuma, tar,oxuma tar!
İstəmir proletar
Sus tar.
Səsində matəm var.

Milli musiqini müdafiə edənlərin cərgəsində olan M.Müşfiq (1908-1938) "Oxu, tar, oxu" şeirində yazırdı:

Səsindən ən lətif şeirlər dinləyim.
Oxu, tar, bir qadar!
Nəğməni su kimi alışan ruhuma çiləyim.
Oxu, tar!
Səni kim unutar?
Ey geniş kütlənin acısı, şərbəti-
Alovlu sənəti!
Oxu, tar, fikrimdə oyansın
Baharın, Seyidin qəzəli
Oxu, tar, ruhlansın
Şirvanın, Gəncənin mehriban gözəli!
Ey tarçı, çal, oxu!
Könlümü al, oxu!

Ü.Hacıbəyovun 1931-ci ildə Azərbaycan Radio Verilişləri Komitəsi nəzdində yaratdığı notlu xalq instrumental ansamblı milli musiqi ilə Avropa musiqisinin uzlaşdırılmasının mümkün və səmərəli olduğunu sübut edən ən tutarlı dəlillərdən biri idi.

Eyni zamanda milli bəstəkar yaradıcılığı da inkişaf edirdi. Ü.Hacıbəyov və M.Maqomayev Azərbaycan mahnılarının geniş yayılmasının bünövrəsini qoydular.

Azərbaycanın birinci tam ali musiqi təhsili almış bəstəkarı, qısa ömür yaşamış Asəf Zeynallı (1909-1932-ci il) ilk Azərbaycan

romanslarını yaratdı, öz əsərlərində milli və Avropa incəsənətinin qarşılıqlı əlaqələrini dərinləşdirdi.

Xalq musiqi yaradıcılığı və ifaçılığı sahəsində xalqın böyük məhəbbətini qazanmış xanəndələr Cabbar Qaryağdı, Seyid Şuşinski, tarzənlər Qurban Pirimov, Bəhram Mansurov öz fəaliyyətləri ilə xüsusən fərqlənirdilər.

Musiqi sənətinin inkişafında 1932-ci ildə müasir Azərbaycan professional vokal sənətinin banisi Bülbülün təşəbbüsü ilə yaradılmış elmi - tədqiqat musiqi kabineti mühüm rol oynadı. O, respublikada Azərbaycan xalq musiqisinin demək olar ki, bütün janrları üzrə zəngin material toplayan elmi-tədqiqat qurumu idi.

1934-cü ildə musiqi mədəniyyətinin görkəmli nümayəndələrini - bəstəkarlarını, musiqi xadimlərini birləşdirən Azərbaycan Bəstəkarlar İttifaqı yaradıldı. Həmin ildə R.M.Quliyerin,C.Cabbarlının librettosu əsasında "Şah Sənəm" operasının yeni redaksiyada səslənməsi musiqi aləmində mühüm hadisə oldu.

Ü.Hacıbəyovun "Koroğlu" operası Azərbaycan opera musiqisinin ən uca zirvəsi oldu.1936-cı ildə Azərbaycan Dövlət Filarmoniyası yaradıldı.

Azərbaycan kinematoqrafiyasında hələ də milli rejissor və operatorlara ehtiyac çox idi. ÜİK(b)P MK 1928-ci ilin martında kino üzrə Ümumittifaq partiya müşavirəsi keçirdi və 1929-cu ilin yanvarında "Kinematoqrafiyanın rəhbər işçi kadrları haqqında" qərar qəbul etdi. Qərarda partiyanın kino qarşısında qoyduğu vəzifələr müəyyən edildi.

Azərbaycan kinematoqrafiyası yüksək bədii əhəmiyyətli filmlərin yaradılması sahəsində ilk addımlar atdı.1928-ci ildə Bakı proletariatının inqilabi mübarizəsinə həsr olunmuş "Vulkan üzərində ev" bədii filmi Ümumittifaq ekranına çıxdı.

1929-cu ildə isə A.M.Şərifzadə Azərbaycanda dram əsərlərinin ekranlaşdırılmasının başlanğıcını qoyan "Hacı Qara" kino-filmini çəkdi.

C.Cabbarlının ssenarisi üzrə çəkilmiş "Sevil" filmi (1929) ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı.Sevil rolunda ixtisasca kimyaçı, sonralar isə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuş İzzət Orucova məharətlə çıxış etmişdi.

Kino respublikanın uzaq rayon və kəndlərinə da daxil olurdu. Səyyar kino şəbəkələri genişlənir, kənd rayonlarının kinolaşdırılması güclənirdi. 1938-ci ildə Azərbaycan SSR XKS yanında Kinematoqrafiya Komitəsi yaradıldı. Onun rəhbərliyi altında müharibədən əvvəlki illərdə Azərbaycan xalqının qəhrəman keçmişinə, vətənin azadlığı uğrunda mübarizəsinə həsr olunmuş filmlər yaradıldı. "Bakılılar" filmi tarixi-inqilabi mövzuya həsr olunmuşdu.

1928-ci ildə Azərbaycanın gənc rəssamlar təşkilatı meydana gəldi. Monumental heykəltəraşlıq da inkişaf edirdi.Onun formalaşması və təkmilləşdirilməsində 1926-cı ildə Bakıya gəlmiş heykəltəraş P.V.Sabsay fəal iştirak etmişdi. O, 1930-cu ilin mayında Bakının mərkəzində ilk iri monumental əsərini - M.F.Axundovun heykəlini və 1932-ci ildə isə Bakıda idman sarayı üçün "Bədən tərbiyəsindən əmək və müdafiəyə" barelyefini yapmışdı.

1932-ci ildə respublikanın xalq rəssamı Ə.Əzimzadə başda olmaqla Azərbaycan Sovet Rəssamları İttifaqı yarandı. Dekorativ-tətbiqi sənətin müxtəlif növləri, habelə kütləvi bədii öz fəaliyyət inkişaf edirdi. Ancaq yeni müasir mövzu və naxışlarla bəzədilmiş portret xalça, vaza və digər əşyalar yaradılmasına baxmayaraq, ənənəvi xalq sənəti növləri zəif dirçəldilirdi.

1936-cı ildə Azərbaycan Dövlət Muzeyi nəzdində müstəqil İncəsənət Muzeyi yaradıldı. Muzey kütlələr içərisində İncəsənətin populyarlaşması, onların zövqlərinin formalaşdırılması sahəsində geniş iş aparırdı. 1937-ci ilin oktyabrında Dövlət muzeyində azərbaycanlı rəssamların sərgisi açıldı. Orada mindən çox eksponat vardı.

Bakı rəssamlıq məktəbinin istedadlı yetirmələri öz təhsillərini Moskva, Sankt-Peterburq, Tbilisinin ali rəssamlıq məktəblərində

müvəffəqiyyətlə davam etdirir, onların bir çoxu təkcə Sovet İttifaqında deyil, xaricdə də məşhurlaşırdılar.

Xalq yaradıcılığında qədimdən xalçaçılıq aparıcı yer tuturdu. Xalçaçılıq məhsulları istehsalı Azərxalçabirliyi (Azərbaycan xalçaçılıq ittifaqı) sistemində cəmləşmişdi. Nadir xalçaların yaradılmasında peşəkar rəssamlar iştirak edirdilər. Belə əməkdaşlıq sayəsində yeni orijinal portret və süjetli xalçalar meydana gəldi.

Respublikada xalq təsərrüfatının inkişafı yeni qəsəbələrin yaradılmasını, mənzil tikintisinin genişləndirilməsini tələb edirdi. Tezliklə Yeni Suraxanı, Artyom (indiki Pirallahı) qəsəbələri meydana gəldi. 1928-ci ildə Bakıda olmuş M.Qorki neftçilər üçün mənzil tikintisindən danışaraq yazırdı:"Sovetlər İttifaqında fəhlələr üçün mənzil tikintisi təcrübələrindən ən uğurlusu, mənə belə gəlir ki,Azərneftin təcrübəsidir.Bakı fəhlə qəsəbələri gözəl tikilmişdir".

Bu illərdə indiki 28 May küçəsi (keçmiş 28 aprel) və Bülbül prospektinin (keçmiş Kirov) kəsişməsinin yenidən qurulması mühüm mərkəzi şəhərsalma tədbiri idi. Bu kəsişmə nöqtəsi "Nizami" kinoteatrı və Yeyinti Sənayesi Nazirliyi binalarının (memarlar S.Dadaşov və M.Useynov) memarlıq həllinə uyğun quruluşu prospektin başlanğıcına gözəllik verirdi. Bülbül prospektindəki incəsənət işçilərinin yaşayış evinin memarları S.Dadaşov və M.Useynov olmuşlar. Köhnə bulvarın təbii davamı hesab olunan yeni bulvarın yaradılması tədbiri həyata keçirildi.

1936-cı il martın əvvəllərində Azərbaycan memarlarının I Qurultayı çağırıldı. Bu dövrdə Bakı, Gəncə, Şəki, Xankəndi, Yevlax şəhərlərinin baş planlarının tərtib edilməsinə başlanmışdı.

30-cu illərin ortalarında Stalinin şəxsiyyətinə pərəstişin təşəkkül tapdığı bir şəraitdə mədəniyyətin inkişafına böyük zərər vurulmuş, bir çox mədəniyyət xadimlərinin taleyi dramatik, bəzən də faciəli olmuşdu. Yaradıcı işçilərin əsassız kütləvi repressiyası məhz bu illərə təsadüf edir/

XI FƏSİL

Azərbaycan SSR keçid dövrünün sonları və İkinci Dünya müharibəsi ərəfəsində.

Sosial strukturda dəyişikliklər. Sosializm cəmiyyətinin qurulması prosesində Azərbaycan əhalisinin kəmiyyət və milli tərkibində, eləcə də sosial strukturunda köklü dəyişikliklər baş verdi. 1926-1939-cu illər arasında respublikanın əhalisi 2.319,7 min nəfərdən 3.205,1 min nəfərədək artmışdı. Həmin illərə müvafiq olaraq azərbaycanlıların sayı 1.468,8 mindən 1.870,5 minədək artdı.Müttəfiq respublikalar arasında əhalisinin sıxlığı və təbii artımı nisbətən yüksək, buna görə də əmək ehtiyatı kifayət qədər olan Azərbaycanda əhalinin artım mənbəyi əsasən kənardan gələnlərin, xüsusilə rusların burada məskunlaşması idi. Lakin kəmiyyət artımına baxmayaraq, respublika əhalisi tərkibində azərbaycanlıların xüsusi çəkisi 63,5%-dən 58,4-ə, başqa millətlərinki 27%-dən 25,1%-ə endiyi halda, rusların xüsusi çəkisi 9,5%-dən 16,5%-ə qalxmışdı.

Azərbaycanda əhalinin artımı və onun tərkibində baş verən dəyişikliklər şəhər yerlərində özünü daha qabarıq göstərirdi. Bütövlükdə xalq təsərrüfatında, əsasən sənayeləşdirmədə yenidənqurma siyasətinin həyata keçirilməsi nəticəsində şəhər əhalisi daha intensiv artmışdı. Şəhərlərdə əhalinin sayı 1939-cu ildə 1926-cı ildəki 649,5 min nəfərdən 1156,8 min nəfərə çatmışdı.Azərbaycan şəhərlərində əhalinin ümumi sayı 894.575 nəfər idi və onun 79,2 %-i üç şəhərin - Bakı, Gəncə (Kirovabad) və Şəkinin (Nuxa), qalan 20,8% isə 22 şəhərin payına düşürdü. Əksəriyyəti inzibati rayon mərkəzi olan bu şəhərlərin 14-də əhalinin sayı hətta on min nəfərdən də az idi. Təkcə Gəncə istisnalıq təşkil edirdi. Burada 1930-cu illə müqayisədə yeni sənaye müəssisələrinin çoxalması hesabına 1940-cı ildə sənaye işçilərinin sayı 53% artaraq 5,2 min nəfər olmuşdu.

Azərbaycanın siyasi, iqtisadi və mədəni mərkəzi kimi güclü inkişaf mərhələsi keçən Bakıda əhali sürətlə artırdı. Bakı şəhəri əhalisinin digər regionlardan, xüsusən RSFSR-dən gələnlər sayəsində artımı onun milli tərkibində ciddi dəyişiklik törədirdi.

1926-1939-cu illərdə Bakı və onun mədən rayonlarında rusların sayı 35%-dən 44%-ə qalxmışdı. Bakı şəhəri əhalisinin tərkibində baş verən çox ziddiyyətli və müəmmalı dəyişikliklər - sovet hakimiyyətinin ilk illərində Azərbaycanda və xüsusilə onun paytaxtında rusların məskunlaşdırılması, yerli əhalinin isə bu və ya digər tədbirlərlə ictimai-siyasi fəaliyyət sahələrində sıxışdırılması məqsədyönlü istiqamətdə aparılan milli siyasətə bağlı idi.Bakının əhalisi 1939-cu ildə 1926-cı ildəki 453,3 min nəfərdən 774,8 min nəfərədək artmışdı.

Xalq təsərrüfatının bütün sahələrində sosialist sisteminin təşəkkül tapması, əhalinin sosial strukturunun yenidən formalaşmasına səbəb olmuşdu. Azərbaycan SSR əhalisinin sosial strukturunun dəyişilməsinin ümumi mənzərəsi aşağıdakı kimi idi: fəhlə və qulluqçular 1926-cı ildə 26,7%, 1937-ci ildə 32,3%, 1939-cu ildə 41,7% idi; kolxozçu kəndlilər və kooperativləşmiş kustarlar, uyğun olaraq 0,6%, 40% və 54%; tək təsərrüfatçı kəndlilər (qolçomaqsız) və kooperativləşməmiş zəhmətkeşlər - kustarlar və sənətkarlar müvafiq olaraq belə idi - 64%, 14%, 4% idi.

Respublika əhalisinin tərkibində fəhlələrin xüsusi çəkisi 1939-cu ildə 1926-cı ildəki 19,6%-ə qarşı 25,1 % olmuşdu. Bu zaman iri sənayedə fəhlələrin sayca artmasının əhəmiyyəti mühüm idi. Azərbaycanda fəhlə sinfi formalaşmağa başladığı ilk çağlardan etnik cəhətdən yekcins olmamışdı.Sovet hakimiyyəti illərində o daha da beynəlmiləlləşdi. Lakin istər Azərbaycan, istərsə də digər müttəfiq respublikalar üçün yerli millətdən olan fəhlə kadrların inkişaf etdirilməsi məsələsinin birinci dərəcəli əhəmiyyəti var idi. Sənayeləşdirmə Azərbaycanda fəhlə sinfinin içərisində milli kadrların çoxalmasına səbəb olmuş, lakin bu proses müharibəyə qədərki illərdə özünəməxsus səciyyə daşımışdı.

Fəhlə və qulluqçuların tərkibində azərbaycanlıların ləng artması onunla izah olunurdu ki, respublikada fəhlə sinfinin əsas artım mənbəyi İttifaqın digər regionlarından gələnlər və əsasən azərbaycanlı olmayan şəhər əhalisi idi. Azərbaycan kəndlərindən işçi qüvvəsinin cəlb edilməsi zəif idi. Respublika rəhbərliyi milli

əmək ehtiyatları bazasında sənaye fəhlələri yetişməsinin mühüm sosial mahiyyətini lazımi qədər qiymətləndirmir, bəlkə də onun xalq üçün mühüm əhəmiyyət kəsb etdiyini dərk etmirdi. Azərneftə, sənaye və digər idarə aparatlarına səpələnmiş şovinist əhvali-ruhiyyəli ayrı-ayrı partiya və sovet beynəlmiləlçi məmurları əslində bu prosesin qarşısını süni vasitələrlə alırdılar. Belə vəziyyət obyektiv səbəblərlə də izah olunurdu. Əvvəla, kənd zəhmətkeşləri əsasən partiyanın Azərbaycanı ikinci pambıq bazasına çevirmək tapşırığını yerinə yetirmək üçün səfərbər edilmişdilər; müasir texnikanın olmadığı bir şəraitdə pambıq kimi ağır zəhmət tələb edən bitkinin becərilməsi kəndin işçi qüvvəsinin böyük hissəsini özünə cəlb edirdi. İkincisi, Azərbaycan xalqının kənd əhalisində miqrasiya fəallığının olmaması, düşüncə tərzi, tarixən formalaşmış erkən kəbinlilik, çoxuşaqlılıq amilləri,məişət xüsusiyyətləri, ümumi təhsil səviyyəsinin aşağı olması və s. də öz rolunu oynayırdı. Azərbaycanlı qadınlar ictimai əməyə zəif cəlb edilirdi. Respublikanın xalq təsərrüfatında çalışan fəhlə və qulluqçuların tərkibində azərbaycanlı qadınların fəhlə və qulluqçular arasında xüsusi çəkisi 5% idi. Bununla belə sonrakı illərdə xalq təsərrüfatında azərbaycanlıların xüsusi çəkisi getdikcə artmışdı.

Azərbaycan kəndlilərinin də simasında nəzərə çarpacaq dəyişiklik müşahidə olunurdu ki, bu da kiçik kəndli təsərrüfatlarının iri kollektiv təsərrüfatlarda (kolxozlarda) birləşdirilməsinin nəticəsi idi. Təkcə kənddə şərait və istehsal üsulları deyil, kəndlinin özünün sosial-iqtisadi təbiəti də, onun bütün həyat tərzi, şüuru, psixologiyası, davranışı da dəyişmişdi. Kollektivləşdirmə 1940-cı ildə kəndli təsərrüfatlarının 99%-ni əhatə etmişdi.

Sosialist cəmiyyəti fəhlə və zəhmətkeş kəndli siniflərindən, həmçinin onların mühitindən çıxan sovet ziyalıları təbəqəsindən formalaşırdı. Azərbaycanda müasir ziyalıların meydana gəlməsi və inkişafı yolları çox çətin olmuşdu. Sovet dövründə Azərbaycan xalqı öz mədəni inkişafında sıçrayış etmişdi. SSRİ Konstitusiyasında (1936) təsbit edildiyi kimi - fəhlə sinfi, kolxozçu kəndlilər və

onların içərisindən çıxmış ziyalılar təbəqəsi sovet cəmiyyətinin sosial strukturunun əsası olaraq təşəkkül tapdı.

İctimai-siyasi vəziyyət. Bütün İttifaqda olduğu kimi, Azərbaycanda da ictimai-siyasi vəziyyət mürəkkəb idi. Bir tərəfdən xalq təsərrüfatının yenidən qurulmasının həlledici mərhələsi davam edir, sosializmə keçid dövrünün prinsipial məsələləri həll olunur, onun maddi-texniki bazasının yaradılması sahəsində işlər görülürdü. Əldə edilən nailiyyətlərin ilhamçısı və təşkilatçısı olan Kommunist Partiyası zəhmətkeşlərin xeyli hissəsinin rəğbətini qazanaraq, onların bu partiyanın sıralarına daxil olmaq arzularını artırdı. Bununla belə bərqərar olan inzibati-amirlik idarəetmə sisteminin törətdiyi narazılıqlar da artmaqda idi.

Odur ki, ölkənin idarəçiliyini öz üzərinə götürmüş partiyanın gücləndirilməsi, onun daha asan idarə olunan idarəedici bir təşkilata çevrilməsi məqsədini həyata keçirmək tələb olunurdu. ÜİK(b)P MK və MİK-in birləşmiş Yanvar (1933-cü il) plenumunun "Partiyanı təmizləmək haqqında" qəbul etdiyi qərar məhz partiyada polad proletar intizamının yaradılmasına və partiya sıralarının bütün etibarsız, səbatsız və kənardan gəlmə ünsürlərdən təmizlənməsinə yönəldilmişdi. Şübhəsiz, Azərbaycan Kommunist Partiyası ali orqanın tapşırığını yerinə yetirməkdə öncüllük nümayiş etdirdi. Təmizləmə prosesində ən çox (6649 nəfər) azərbaycanlı kommunistlər partiyadan xaric olmuşdular.

Azərbaycanlıların AK(b)P-də və xüsusilə paytaxtda - Bakı Partiya təşkilatında aşağı səviyyədə, qeyri-mütənasib təmsil olunması onların respublikanın ictimai-siyasi həyatında mövqeyini və rolunu qəsdən azaltmaq məqsədi daşıyırdı. Təsadüfi deyildi ki, 1934-cü ildə Bakının 9 rayon partiya komitəsi Birinci katiblərinin yalnız üçü Azərneftin, 9 mədən müdirlərindən isə cəmi iki nəfəri azərbaycanlı idi. Partiyada aparılan təmizləmə dövründə onun sıralarında "polad intizama" tabe olan kommunistlər böyük canfəşanlıqla təsərrüfat sahələrində geniş "təmizləmə" tədbirləri keçirmişlər. 1933-cü il ərzində kolxoz partiya özəkləri MTS siyasi şöbələrinin və AK(b)P rayon komitələrinin köməyi ilə 3700-dən

artıq qolçomaq və kolxoz quruluşunun başqa düşmənlərini kolxozdan qovmuşdu. Təbii ki, onların əksəriyyəti həbs olunmuş və ya ailəlikcə respublikadan sürgün edilmişdi.

"Təmizləmə" prosesi ÜIK(b)P MK-nın 1935-ci il 13 may tarixli qərarına əsasən, partiya sənədlərinin yoxlanması ilə davam etdirilirdi.Azərbaycanda bu tədbir 1932-ci ildən XKS-nin sədri, 1933-cü ildən AK(b)P MK-nın Birinci katibi seçilmiş M.C. Bağırovun bilavasitə rəhbərliyi altında keçirilirdi. Bu dövr artıq ölkədə inzibati-amirlik idarəetmə sisteminin möhkəmləndirilməsi, totalitar Stalin rejiminin bərqərar olması, şəxsiyyətə pərəstişin geniş yayılması ilə əlamətdar idi. Sərt, amansız xarakteri və ciddi işgüzarlığı ilə fərqlənən M.C.Bağırov ÜİK(b)P Zaqafqaziya Diyar Komitəsinin birinci katibi L.Beriyanın yardımı və dəstəyi sayəsində tezliklə Azərbaycan partiya aparatında işləyənləri özünə sadiq kadrlarla əvəz edir, partiya təşkilatlarında hər cür qarşdurmaya son qoyur, respublikada vahid rəhbərliyə nail olurdu. M.C.Bağırovun vaxtında bütün sahələrdə rəhbərliyə kadrların seçilməsi məhz onun rəy və göstərişi ilə aparılırdı. "Kişi", "xozeyin"ləqəbini qazanan M.C.Bağırov xüsusilə güc orqanlarının fəaliyyətini diqqət mərkəzində saxlayaraq, onların hər hansı əməliyyatlarından xəbər tutur və onları istiqamətləndirirdi.

1934-1938-ci illərdə Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsini aparan, Azərbaycan xalqının qəddar düşməni və cəlladı Y.D.Sumbatov (Topuridze) (1889-1960) M.C.Bağırovun etimadını qazanıb, ona müti xidmət göstərən məmurlardan idi. Sumbatov öz ətrafında topladığı cinayətkar erməni yoldaşlarının köməyi ilə Azərbaycan xalqının minlərlə vətənpərvər övladına "xalq düşməni" damğası vurmuş, görkəmli elm, sənət, mədəniyyət xadimlərini, ziyalıları fiziki və mənəvi repressiyalara məruz qoymuşdu. M.C.Bağırovun partiya rəhbərliyinə keçməsi ilə kommunistlərin hüquqları nəinki pozulur, onlar hər cür təzyiqlərə məruz qalırdılar. Partiya sənədlərinin yoxlanması zamanı ciddi əyinti və pozuntulara yol verilirdi. Çox hallarda prinsipial, mütərəqqi ideyalara və sosializm işinə sədaqətli adamlar

"passivlikdə" ittiham olunur, bir çoxları elə bir əsas olmadan məhz "passivliyə görə" damğası ilə partiyadan xaric edilirdilər.

Azərbaycanlıların geniş miqyasda partiyadan xaric edilməsi, o dövrün sözü ilə deyilsə, qovulması, onların respublikanın ictimai-siyasi həyatından kənarlaşdırılması siyasi akt kimi qiymətləndirilə bilər. 30-cu illərin ikinci yarısından partiya və güc orqanlarında azərbaycanlılara qarşı qəddar düşmənçilik xisləti olan ermənilərin cəmləşməsi burada inzibati tədbirlərin, xüsusilə repressiyaların daha geniş və qəddarcasına aparılmasına şərait yaratdı. Bu qüvvələrin səyi fəal azərbaycanlıları respublikanın ictimai-siyasi həyatından təcrid etməyə, fürsət düşdükdə isə onları fiziki cəhətdən məhv etməyə yönəldilmişdi.

Azərbaycanın ictimai-siyasi həyatında Həmkarlar İttifaqı təşkilatının fəaliyyəti mühüm əhəmiyyət kəsb edirdi. Həmkarlar İttifaqlarının əsas funksiyası zəhmətkeşlərin əmək, məişət və istirahət şəraitinin yaxşılaşmasına, hər vasitə ilə kömək göstərməkdən, onların hüquq və mənafelərini müdafiə etməkdən, onları istehsalat və ictimai işlərin idarə olunmasına cəlb etməkdən ibarət idi. Ən kütləvi ictimai təşkilat olan Həmkarlar İttifaqları respublikada bütün sahələrin işçilərini əhatə edirdi.

Azərbaycanda totalitar rejimin bərqərar olması, inzibati-amirlik sisteminin bütün sahələri çulğaması bu çoxsaylı təşkilatın fəaliyyətini kəskin şəkildə məhdudlaşdırırdı. Həmkarlar İttifaqları öz vəzifələrini faktiki olaraq müstəqil yerinə yetirmək səlahiyyətindən məhrum edilmiş, tamamilə partiyadan asılı vəziyyətə düşüb onun tapşırıqlarının icraçısına çevrilmişdi. Onların fəaliyyətində əsas yeri partiyanın irəli sürdüyü mühüm təsərrüfat və siyasi vəzifələrin həyata keçirilməsinə kömək etmək tuturdu.

Gənclərin yaradıcılıq fəallığını artırmaq və onları ictimai-siyasi həyata geniş cəlb etmək sahəsində çalışan Azərbaycan Komsomol təşkilatının fəaliyyətinin əsas hissəsi də Kommunist Partiyasının irəli sürdüyü iqtisadi və ictimai-siyasi vəzifələrin yerinə yetirilməsindən ibarət idi. 1936-cı ilin yanvar-may aylarında "Staxanov hərəkatına maneçilik törədən hərşeyi silib atmaq" şüarı

altında "Ümumittifaq yüngül süvari" reydi keçirildi. Azərbaycandakı komsomol təşkilatları kənddə də çox səmərəli işlər görürdülər. Özbəkistan və Azərbaycan komsomolçuları arasında ənənəvi sosializm yarışı əsas beynəlmiləl vəzifənin - Azərbaycanın SSRİ-nin ikinci pambıq bazasına çevrilməsi uğrunda mübarizədə kəndli gənclərin geniş iştirakını təşkil etməkdə mühüm rol oynadı.

Zəhmətkeşlərin ictimai-siyasi fəaliyyətinin genişlənməsində yerli sovetlərin də mühüm rolu olmuşdu. Fəhlə deputatlar sosializm yarışının ilk təşəbbüsçüsü olur, istehsal qabaqcıllarının önündə gedirdilər. Sovetlərin xüsusi bölmə və deputat qrupları istehsalat problemlərinin, yerli sosializm quruculuğu məsələlərinin həlli ilə bilavasitə məşğul olurdular.

Azərbaycanın ictimai-siyasi həyatında ciddi təbəddülat doğuran hadisələrdən biri də SSRİ-nin yeni Konstitusiyasının qəbul edilməsi idi. 1936-cı ilin dekabrın 5-də "Stalin Konstitusiyası" adlanan SSRİ Konstitusiyası Sovet İttifaqında sosializmin qələbəsini qanunvericilik yolu ilə təsbit etdi. Ölkədə sosializmin sosial-siyasi, iqtisadi və mədəni sahədə tam bərqərar olduğu elan edildi. Lakin Stalinin sosializmin qələbəsi ilə sinfi mübarizənin güclənməsi nəzəriyyəsi əsasında apardığı siyasət ictimai-siyasi vəziyyəti gərginləşdirir, zəhmətkeş xalqın böyük ümid bəslədiyi cəmiyyətə ağır zərbə vururdu.

Milli siyasətdə əyintilər. İnzibati amirlik sisteminin güclənməsi. Sosialist dövlətinin taleyi üçün milli məsələ öz əhəmiyyətini itirməmişdi. Xalqların dövlətçilik, iqtisadi və mədəni inkişafındakı qeyri-bərabərliyin ləğv edilməsi tələbini yerinə yetirmək milli məsələ sahəsində başlıca vəzifə sayılır, milli ayrı-seçkilik, velikorus şovinizmi və millətçilik pislənirdi. Çoxmillətli ölkədə dinc yanaşı yaşamaq şəraiti bərqərar olmuşdu, iqtisadi və mədəni sahədə geridə qalmış xalqlara hərtərəfli kömək edilirdi.

Ancaq 1939-cu illərdən başlayaraq "stalinçi rəhbərlik" millətlərin sürətlə yaxınlaşması və hətta qovuşması nəzəriyyəsini irəli sürdü. Bu bütün çoxmillətli ölkənin idarə olunmasını "millətlərin və xalqların inkişaf səviyyəsini bərabərləşdirmək" adı

altında Moskvada cəmləşdirilməsi şüarı altında mədəniyyət və məişətin standartlaşdırılması idi. Milli amilin təhrif olunması əhalisi müsəlman olan respublikalarda, o cümlədən Azərbaycanda xüsusilə aydın şəkildə təzahür edir, onlara münasibətdə suveren hüquqların tapdanmasına, dil-mədəniyyət siyasətinin təhrif edilməsinə, kadrların hazırlanması və yerləşdirilməsində beynəlmiləlçi prinsiplərin pozulmasına daha çox yol verilirdi. Vəzifəyə təyin olunan zaman kadrların uçotu anketində "milliyyət" haqqında bənd həlledici rol oynayırdı. O, milli qrupların sıxışdırılıb uzaqlaşdırılması üçün əlverişli vasitə, əslində vətəndaşların Konstitusiya hüquqlarının pozulması demək idi. Çoxmillətli Azərbaycanda bu qayda bir sıra məsul partiya, dövlət və təsərrüfat orqanlarında azərbaycanlı kadrları sıxışdırmaq üçün əlverişli vasitə idi.

Beləliklə, əksər hallarda, xüsusilə də cəza orqanlarında, nəinki ruslar və ermənilər, hətta digər gəlmə millətlərin nümayəndələri də çoxluq təşkil edirdilər. Rus dili Sovet İttifaqında məskunlaşmış xalqlar arasında ünsiyyət vasitəsi, dövlət dili kimi nüfuz qazandı, qeyri-rus xalqların da rus dilini öyrənməyə meylini gücləndirən amil oldu. Lakin rus dilinin birinciliyi ictimai-siyasi və mədəni həyatın bütün sahələrində milli dilləri sıxışdırır, xalqlar arasına ayrıseçkilik salınmasına, onların öz dil köklərindən uzaqlaşdırılmasına, öz ədəbiyyatı və tarixi keçmişinə biganə qalmasına səbəb olurdu. Milli siyasət və sosialist beynəlmiləlçiliyi milli hüquqları heçə endirir və tədricən SSRİ bayrağı altında "vahid bölünməz Rusiyanın" yenidən dirçəlməsinə aparırdı.

Kommunist Partiyasının avtoritar idarəçiliyə,inzibati-amirlik sisteminin təşəkkülünə doğru yuvarlanması, Zaqafqaziya partiya təşkilatının başçısı L.P.Beriyanın və Azərbaycan Kommunist Partiyasının lideri M.C.Bağırovun da fəaliyyətləri ilə Stalinin şəxsiyyətinə pərəstişin formalaşdırılması özbaşınalığa, aşkar qanunsuzluqla, repressiyaların güclənməsi ilə nəticələnmişdi.

Heç bir əsas olmadan partiyadan xaric etmək başlandı, kollektivlərdə inamsızlıq və qorxu hissləri yaradılırdı. 1937-ci ilin

iyununda çağırılmış XIII qurultaydan sonra Azərbaycan Kommunist (bolşeviklər) partiyasının - AK(b)P adı dəyişdirilib, Azərbaycanın Kommunist (bolşeviklər) Partiyası edildi.

AK(b)P MK Rəyasət Heyəti MK Bürosu ilə əvəz olundu. Elə bu dəhşətli 1937-1939-cu illərdə 1920-ci ilin fevralında qeyri-leqal şəraitdə keçirdilmiş, azərbaycanlı kommunistlərin təşəbbüsü ilə çağırılmış I təsis qurultayında təsdiq olunmuş AK(b)P MK-nın demək olar ki, bütün tərkibi repressiya qurbanı oldu və o vaxtlardan partiya, sovet orqanları sənədlərində, tədricən də mətbuat nəşrləri səhifələrində "Aprel inqilabı" anlayışı yoxa çıxdı. AK(b)P MK plenumunun hələ 1935-ci ilin mayında qəbul olunmuş qətnaməsi də "Azərbaycanda Aprel inqilabının 15 illiyinin bayram edilməsinə hazırlıq haqqında" adlanırdı.

Respublikanın görkəmli partiya və dövlət xadimlərindən R.Axundov,D.Bünyadzadə,M.Hacıyev,M.D.Hüseynov, Ç. İldırım, M.İsrafilbəyov(Qədirli),Ə.H.Qarayev,M.Quliyev,Q.Musabəyov, M.Nərimanov,H.Rəhmanov,H.Sultanov,S.M.Əfəndiyev,N.Rzayev görkəmli mədəniyyət və elm nümayəndələrindən H.Cavid, M.Müşfiq, B.Talıblı, V.Xuluflu, Y.V.Çəmənzəminli, Ə.Cavad, T. Şahbazi, M.Cuvarlinski, B.Çobanzadə və başqaları məhv edilmişdilər. Təkcə 1937-ci ildə Azərbaycanda "xalq düşməni" kimi 29 min nəfər güllələnmiş və ya Sibirə sürgün edilmişdi. Əslində bu, sovet mundiri və poqon geymiş daşnak xislətli ermənilərin Azərbaycan millətinin etnik düşmənçilik məqsədilə məhv edilməsi idi və belə bir kədərli faktla sübut olunur ki, Azərbaycandakı 51 rayondan 31-də Xalq Daxili İşlər Komissarlığı rayon bölməsinin başında ermənilər dururdular. Stalin - Bağırov terrorunun dəhşətləri yeni həyat qurucularının yaradıcı fəaliyyətinə kölgə salmış, Azərbaycan xalqının səbir və iradəsini ciddi sınağa çəkmişdi.

Stalin türk xalqlarının birliyi və azadlığı ideyasından elə qorxmuşdu ki, onları bir-birinə bağlayan bütün telləri qırmağa çalışırdı.Moskvanın təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin 1939-cu il 11 iyul tarixli qərarı ilə Azərbaycan əlifbası latın qrafikasından kiril qrafikasına keçrildi. Xalqa türk olduğunu unutdurmaq üçün

ölkəmizdə əsrlər boyu özünü "türk"adlandıran əhali "azərbaycanlı"adlandırılmağa başlandı. Məhz 1939-cu ildə keçirilən Ümumittifaq siyahıya alınmasında türklər "azərbaycanlı" kimi qeydə alındı. Azərbaycanda yaşayan azsaylı xalqların rəsmi sənədlərdə də bu cür adlandırılması onları türklərə qarşı qoyaraq narazılıq yaradılması məqsədini daşıyırdı. 30-cu illərin əvvəllərində Şimali və Cənubi Azərbaycan arasında əlaqələr demək olar ki, tam kəsildi. Sovet hökuməti Cənubdən Şimala işləməyə gəlmiş 10 min Azərbaycan türkünü 1937-1939-cu illərdə İrana sürgün etdi.

Xalq təsərrüfatı. 30-cu illərin ikinci yarısında dünyanın 1/6 hissəsində sosialist cəmiyyətinin əsasən yaradılması rəsmi bəyan olundu. Yüzdən artıq millət və xalqı birləşdirən, mədəni inkişafına görə müxtəlif səviyyədə olan çoxmillətli sovetlər ölkəsində təxminən 20 ilə, tarixdə ilk dəfə yeni cəmiyyət - sosialist cəmiyyəti yaradıldı.

Qarşıda bu cəmiyyəti təkmilləşdirmək, planlı sosializmin "Stalin modeli"ni həyata keçirmək dururdu. Bu vəzifə ÜİK(b)P XVIII qurultayının (mart 1939-cu il) təsdiq etdiyi SSRİ xalq təsərrüfatının inkişafına dair üçüncü beşillik planda (1938-1942-ci illər) nəzərdə tutulmuşdu. Bu dövrdə Azərbaycanın qarşısında duran ən əsas vəzifə yenə də neft və qaz istehsalını artırmaq idi. Yaxınlaşan müharibə təhlükəsi baxımından bu vəzifə daha ciddi idi. SSRİ xalq təsərrüfatının inkişafına dair planda ölkədə 1942-ci ildə 54 milyon ton neft və qaz çıxarılması nəzərdə tutulduğu halda, Azərbaycanda neft hasilatını 28,2 % artırmaq, 27,4 milyon ton və yaxud 1937-ci ildəkindən 6 milyon ton çox neft istehsal etmək planlaşdırılırdı. Azərbaycanda hasil ediləcək neftin həcminin olduqca çox olmasına baxmayaraq, bu, İttifaqda çıxarılacaq neftin 50%-dən bir qədər artıq idi. Halbuki 1937-ci ildə Azərbaycan ölkədə hasil edilən bütün neftin 75,1%-ni vermişdi. ÜİK(b)P qurultayının qətnaməsində göstərilirdi: " Volqa ilə Ural arasında rayonda yeni neft bazası - "İkinci Bakı" yaradılsın.

SSRİ-nin digər neft rayonlarında istehsalın sürətləndirilməsi nəzərdə tutulsa da, Bakı yenə də ölkənin əsas neft bazası olaraq qalır

və neft hasilatını ilbəil artırırdı. Bakı neftçiləri 1938-ci ilin birinci yarısında neft istehsalı planını 212,2 min ton kəsirlə ödəyə bilmişdilər. Respublika neft sənayesində yaranan bu gerilik yenə də ixtisaslı kadrların, texniki təchizatın çatışmaması, əmək intizamının və təsərrüfat-texniki rəhbərliyin zəifliyi, guya "xalq düşmənlərinin" törətdikləri təxribatla izah olunurdu. 1937-1938-ci illərdə neft sənayesində rəhbər işçilərin əsassız təqiblərə və repressiyalara məruz qalaraq tez-tez dəyişdirilməsindən neft sənayesinə vurulan dağıdıcı ziyan kimi göstərilmirdi. Ölkənin sənaye və hərbi texnikası isə daha çox neft məhsulları tələb edirdi. Buna görə də, SSRİ XKS və ÜİK(b)P MK 1938-ci il yanvarın 28-də "Azərbaycan SSR-də neft çıxarılması və neft emalını artırmaq üçün əsaslı tədbirlər haqqında" xüsusi qərar qəbul etdi və burada neftçilərin konkret vəzifələrini müəyyənləşdirdi. Lakin neft trestlərinin çoxu istehsal planlarını yerinə yetirmirdi, neft quyuları qazılmasında olan gerilik hələ də aradan qaldırılmamışdı.

İqtisadiyyatın inkişafı dəniz nəqliyyatının maddi-texniki bazasını da möhkəmləndirdi. “Paris Kommunası”, “Zaqafqaziya”, “Vano Struna” adına gəmi təmiri zavodlarında gəmilər vaxtında təmir edildi. Neft məhsullarının daşınmasında Xəzər dəniz nəqliyyatının rolu əhəmiyyətli idi. Respublikada rayonlararası əlaqələrin genişləndirilməsində avtomobil nəqliyyatının müstəsna əhəmiyyətli var idi.Yeni avtomobil yollarının çəkilişi artdı.1938-ci ildə Azərbaycanın 170 km. şosse yolu Ermənistanın idarəsinə verildi.

Dəmir yol nəqliyyatının texniki təminatı sahəsində ciddi iş aparılırdı. 1939-cu ildə Maştağa-Buzovna (9,4 km) elektrik dəmir yolu çəkildi. 1941-ci ildə hələ 20-ci illərin əvvəllərindən tikintisinə başlanmış Ələt-Culfa (445 km) dəmir yolu xəttinin çəkilişi başa çatdırıldı. Onun xüsusi əhəmiyyəti var idi. Hər şeydən əvvəl, Naxçıvanla Bakı arasında dəmir yol məsafəsi iki dəfəyədək qısaldı, həm Naxçıvanla, həm də Culfa vasitəsilə İranla əlaqələrin artmasına geniş imkan yarandı. Həmin ildə işə düşən Salyan - Astara dəmir

yol xətti Salyan-Neftçala, Lənkəran-Astara zonalarının Bakı şəhəri ilə əlaqəsini xeyli asanlaşdırdı.

Kənd təsərrüfatının yenidən qurulması əsasən başa çatdırıldı. 1940-cı ildə respublikada kəndli təsərrüfatlarının 99%-ni özündə birləşdirən 3.429 kolxoz və 50 sovxoz var idi. 1939-cu ilin oktyabrında respublikanın şimal-şərq hissəsində Samur-Dəvəçi kanalının çəkilişinə başlanması böyük hadisə oldu. Böyük hidrotexniki tikinti olan Samur-Dəvəçi kanalının çəkilməsinin təşəbbüskarları Quba rayonu kolxozçuları olmuş, onlara Qusar, Xaçmaz, Xızı, Dəvəçi və respublikanın digər rayonlarının kolxozçuları, həmçinin fəhlə sinfi kömək etmişdi. Kanalın 100 km uzunluğunda olan birinci növbəsinin çəkilişi 1940-cı ilin aprelində başa çatdırıldı və 67 min hektar sahəni suvarmaq imkanı yarandı. Respublikanın digər rayonlarında da kolxozçular suvarma arxları çəkməyə başladılar. Naxçıvan Muxtar Respublikası və Qazax rayonunda yerli zəhmətkeşlərin səyi ilə arxlar qazıldı.

Kənd təsərrüfatını yeni əsaslar üzərində qurmaq işində MTS-lər dayaq nöqtəsi olaraq qalmaqda idi. 1937-1940-cı illərdə MTS-lərin sayı 67-yə, sovxozlarda traktorların sayı isə 6,1 minə çatmışdı. Ən ağır və zəhmət tələb edən pambıq əkini bu illərdə xeyli mexanikləşdirildi. Respublikada əsasən Lənkəran, Masallı, Zaqatala, Balakən və Qazax rayonlarında çayçılıq və digər sitrus bitki təsərrüfatları təşkil edilirdi.

Azərbaycan K(b)P MK-nın 1938-ci ilin avqustunda verilmiş qərarına əsasən Azərbaycan ölkənin neft və pambıqdan sonra tədricən yeni bir bazasına - sitrus bitkiləri bazasına çevrildi. Lakin həmin illərdə kənd təsərrüfatı istehsalında çətinliklər qalmaqda idi, kolxozlarda məhsuldar qüvvələrin inkişaf səviyyəsi kolxozçuların tələbini ödəmirdi, onların maddi maraq prinsiplərini pozurdu, kəndlilər həyətyanı sahələrin köməyi ilə ağır vəziyyətdən çıxa bilirdilər.

Dövlət quruculuğu. SSRİ-nin yeni Konstitusiyasının qəbul olunması (1936) ilə Zaqafqaziya Federasiyası ləğv olundu və Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR hər biri

ayrılıqda müttəfiq respublika kimi SSRİ-nin tərkibinə daxil oldular. SSRİ-nin yeni Konstitusiyası əsasında Azərbaycan SSR-nin Konstitusiyası hazırlandı və IX Respublika Sovetlər qurultayında (1937-ci il martın 14-də) təsdiq olundu. Yeni Konstitusiya vətəndaşlara əmək, istirahət, təhsil, mənzil, təqaüd, tibbi xidmət təminatları verildiyini bəyan etdi. Konstitusiyada yenə sovetlər sosialist cəmiyyətinin siyasi əsası elan edilir və göstərilirdi ki, sosializm şəraitində bütün hakimiyyət şəhər və kənd zəhmətkeş deputatlar sovetlərinin əlində cəmləşdirilir.

Yeni Konstitusiyanın qəbul olunması ilə Sovetlər bəzi dəyişikliklərə məruz qaldı. Onlar əsil sinfi təşkilatdan ümumxalq təşkilatına çevrildi və "zəhmətkeş deputatları soveti" adlanmağa başladı, əvvəllər isə "fəhlə, kəndli, qızıl əsgər və matros deputatları soveti" adlanırdı. Yeni Konstitusiya seçki hüququnda olan məhdudiyyətləri, o cümlədən səs hüququ məsələləri ilə məşğul olan yerli komissiyaları ləğv edərək, ümumi, bərabər və gizli səsvermə hüququnu təsbit etdi. Sovetlərin təşkilati quruluşu sadələşdirildi. Rayon qurultayları əvəzinə rayon sovetinin sessiyaları çağırılırdı. Sovetlərin bölmələri daimi komissiyalar adlandırıldı və onlar bütün kənd sovetlərində təşkil olundu. Sovetlər bölmələrə münasibətdə inzibati hüquqa malik idilər, lakin bu, komissiyalara aid edilmədi. Yeni Konstitusiya qəbul edildikdən sonra Sovetlərin deputat qrupları ləğv olundu. Bu səhv addım idi. Onlar Sovetlərdə mütəşəkkil strukturlardan biri idi və sovetlərlə kütlələr arasında əlaqələrin yaxşılaşması və inkişafında böyük rol oynayırdı. Deputat qruplarının saxlanması Sovetlərin fəaliyyəti üçün əhəmiyyətli olardı.

1937-ci il sentyabrın 17-də Naxçıvan MSSR X Fövqəladə Sovetlər qurultayı respublikanın yeni Konstitusiyasını təsdiq etdi. 1938-ci ilin fevralında Azərbaycan SSR MİK-in sessiyası "Azərbaycan SSR Ali Sovetinə seçkilər haqqında Əsasnamə"ni eyni zamanda Naxçıvan MSSR MİK-in XI sessiyası "Naxçıvan MSSR-in Ali Sovetində seçkilər haqqında Əsasnamə"ni təsdiq etdilər.Ali qanunverici orqan(parlament) daha Mərkəzi İcraiyyə Komitəsi deyil, Ali Sovet adlandırıldı. Seçkilər haqqında Əsasnaməyə uyğun

olaraq,Azərbaycan SSR-nin Ali Sovetinə seçkilər üçün 310 seçki dairəsi, Naxçıvan MSSR Ali Sovetinə seçkilər üzrə 66 seçki dairəsi təşkil olundu.1938-ci il iyunun 24-də keçirilən seçkilərdə Azərbaycan SSR Ali Sovetinə 310, Naxçıvan MSSR Ali Sovetinə 66 deputat seçildi.310 deputatdan 107 nəfəri sosial mənşəcə fəhlə, 88 nəfəri koxozçu kəndli, 115 nəfəri qulluqçu və ziyalı idi. Deputatların 82 nəfəri Kommunist Partiyasının üzvü, 72 nəfəri isə qadın idi. Deputatların 206 nəfəri azərbaycanlı, 38 nəfəri erməni, 36 nəfəri rus və digər xalqların nümayəndələrindən ibarət idi. 1938-ci ilin iyulunda I Çağırış Ali Sovetin I sessiyasında Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti, Mir Bəşir Qasımov Rəyasət Heyətinin sədri, Hüseyn Rəhmanov Xalq Komissarları Sovetinin sədri seçildi. İyulda həmçinin Birinci çağırış Naxçıvan MSSR Ali Sovetinin I sessiyası keçrildi, orada 9 nəfərdən ibarət Ali Sovetin Rəyasət Heyəti və R.Rəhimov isə Rəyasət Heyyətinin sədri seçildi.

Əslində seçicilərin hüquqları tam ödənilmirdi. Seçicilər öz namizədlərini irəli sürməkdən məhrum idilər.Namizədləri Kommunist Partiyası irəli sürür,seçicilər onlara formal səs verirdi.

Beynəlxalq vəziyyət və Azərbaycan SSR. XX əsrin 30-cu illərində beynəlxalq vəziyyət xeyli gərginləşmişdi. Dünya müharibəsi təhlükəsi yaranmışdı. Xammal mənbələri, bazarlar, müstəmləkələr, dünya ağalığı uğrunda mübarizə artıq dinc siyasi vasitələrlə davam etdirilə bilmirdi. Ingiltərə və Fransa öz müstəmləkələrini qoruyub saxlamağa, yeni torpaqlar, nüfuz dairələri ələ keçirməyə, Almaniyanı və SSRİ-ni qarşı-qarşıya qoymağa, onların hər ikisini zəif salmağa, həm faşizmə, həm də dünya inqilabına can atan kommunizmə öldürücü zərbələr vurmağa çalışırdılar. Almaniya, İtaliya və Yaponiya xammal, satış bazarları, təsir dairələri əldə etmək, bunun üçün dünyanı yenidən bölüşdürmək istəyirdilər. Avropada yaranmış siyasi nisbətləri saxlamağa hələlik tərəfdar olan ABŞ Şərqi və Cənub-Şərqi Asiyada öz mövqelərini möhkəmləndirmək niyyətində idi. Böyük Britaniya, Fransa və ABŞ-ı ən çox narahat edən SSRİ-nin maddi sərvətlərinin onun sosializm yoluna çəkməyə çalışdığı Almaniyanın texnoloji imkanları ilə

birləşdirilməsi təhlükəsi idi. Buna görə də onlar Almaniyada faşistlərin hakimiyyətə gəlməsinə və möhkəmlənməsinə, demək olar ki, kömək etdilər. Bu ölkələr Almaniyanın Mərkəzi Avropadakı maraqlarının qismən təmin olunmasına, Avstriyanın, Çexoslavakiyanın ona birləşdirilməsinə razılıq verən Münhen sövdələşməsinə (1938-ci il 29 sentyabr) faşizmi kommunizmə qarşı qoymaq vasitəsi kimi baxırdılar. Onlar Yaxın Şərqdəki mövqelərini möhkəmləndirmək üçün Cənub-Şərqi Avropaya, Qara Dəniz boğazlarına, Cənubi Qafqaza, xüsusən Azərbaycana, Bakı neftinə sahib olmağa can atırdılar.

SSRİ şimalda Finlandiya, cənubda İran körfəzinə qədər ərazini, Bolqarıstanı öz nüfuz dairəsinə almaq, Şimali Saxalində Yaponiyanın neft və kömür çıxarmaq hüququnu ləğv etmək, Kerzon xəttində (Versal sülhünə görə Polşanın şərq sərhədi) şərqdə Polşa, Pribaltika, Qərbi Ukrayna, Qərbi Belarusiya, Bessarabiya və Şimali Bukovinanı ələ keçirmək, Bosfor və Dardaneldə hərbi bazalar yaratmaq istəyirdi. O, qərb dövlətləri arasında ziddiyyətlərin kəskinləşməsinə, hərbi toqquşmalar nəticəsində onların zəifləməsinə çalışırdı.

Getdikcə imperialist dövlətləri arasında münasibətlər kəskinləşir, dünyada bir-birinə qarşı duran ittifaqlar yaranır və onların hər biri yeni xammal mənbəyi və satış bazarı ələ keçirməyə, öz təsir dairələrini genişləndirməyə, əraziləri öz hakimiyyəti altına almağa çalışırdı. Onların hamısını Sovet İttifaqına - Kommunist sisteminin dayağına qarşı düşmən mövqe birləşdirirdi.

Böyük dövlətlərin heç biri SSRİ-yə ciddi hərbi-iqtisadi qüvvə, müttəfiq kimi yanaşmırdılar. Xarici dövlətlər SSRİ-yə zorla birləşdirilmiş, mərkəzdən və bir-birindən asılı vəziyyətə salınmış, münaqişədə olan xalqların süni ittifaqı kimi baxır, onun davamlılığına inanmırdılar. «Kazarma sosializmi»nin ölkəni ekstremal hallarda vahid düşərgəyə çevirmək, səfərbər etmək imkanları düzgün qiymətləndirilmirdi. Bununla belə, bu dövlətlərin heç biri SSRİ-nin digər dövlətlərlə yaxınlaşmasını istəmirdilər. Beynəlxalq təhlükəsizlik sistemi yaratmaq sahəsində qeyri-ciddi

cəhdlər göstərməklə, bir tərəfdən bu işin təşəbbüsçüsü olan SSRİ, digər tərəfdən Böyük Britaniya və Fransa, əslində bir-birini Almaniya ilə müqavilə bağlamaqdan çəkindirməyə çalışırdılar. Buna görə də 1939-cu ilin martında beş ay davam etmiş danışıqların nəticəsi olmadı.

Öncə ABŞ, Böyük Britaniya və Fransa ilə yaxınlaşan və onlarla birlikdə Yaponiyanı SSRİ-yə qarşı qoyan faşist Almaniyası Qırmızı Ordunun Uzaq Şərqdəki qələbələrindən nəticə çıxarıb (Sovet Ordusu 1938-ci ilin iyul-avqust aylarında Xasan gölü rayonunda SSRİ, 1939-cu ilin may-avqust aylarında isə Xalxin-qol tərəfdə onun müttəfiqi olan Monqolustan ərazilərinə hücum etmiş, yapon silahlı qüvvələrini ağır məğlubiyyətə uğratmışdı) mövcud qüvvələri ilə şərqdə müvəfəqiyyət qazana bilməyəcəyinə əmin olaraq Qərbi Avropanı özünə tabe etmək üçün Moskva ilə yaxınlaşmağa başladı və müqavilə bağlamağı ona təklif etdi. İki ölkə arasında 1939-cu il avqustun 23-də 10 il müddətinə hücum etməmək haqqında müqavilə bağlandı. Bu vasitə ilə SSRİ iki cəbhədə qərbdə və şərqdə müharibə aparmaq təhlükəsindən qurtardı, ölkənin müdafiə qabiliyyətini artırmaq üçün vaxt qazandı (baxmayaraq ki, bu imkandan mümkün qədər səmərəli istifadə olunmadı). Kapitalın zəifləməsi, dünya kommunist inqilabının qələbəsi üçün münasib şərait yaranmasına – imperialist qruplaşmaları arasında müharibə başlanmasına səbəb oldu. SSRİ XKS-nin sədri V.M.Molotov o vaxt yazırdı ki, indi hitlerizmi məhv etmək üçün müharibə aparmaq cinayətdir.

1 sentyabr 1939-cu ildə Faşist Almaniyası "Vays" ("Ağ plan") planı ilə Polşaya hücum etdi və İkinci Dünya müharibəsi başlandı. Müharibə ərəfəsindəki mürəkkəb beynəlxalq şəraitdə Azərbaycan xalqı xarici ölkə xalqları ilə əlaqələrini saxlamağı davam etdirirdi. SSRİ-nin "dəmir hasar" siyasətinin həyata keçirilməsi, həmçinin Türkiyə, İran və digər Şərq ölkələrinin hakim dairələrinin siyasəti nəticəsində Azərbaycanın həmin ölkələrlə əlaqələri zəifləmiş oldu. Bütün bunlarla yanaşı Azərbaycan zəhmətkeşləri həmişə başqa xarici ölkələrin xalqları ilə ənənəvi əlaqələr saxlamağa çalışmış, bu

ölkələrin xalqlarının mütərəqqi qüvvələri ilə həmrəyliyini bildirmişdir.

SSRİ-nin tərkibində olan Azərbaycan SSR müstəqil xarici siyasət aparmaq imkanından məhrum idi. Buna baxmayaraq imkan daxilində SSRİ-nin sülhü dəstəkləyən müəyyən tədbirlərində iştirak edirdi,faşizm qurbanlarının müdafəsinə öz köməyini əsirgəmirdi. Məlumdur ki, faşist Almaniyasının və İtaliyanın dəstəklədiyi general Frankonun İspaniya Respublikasına qarşı qiyamı oldu (1936-1939). Həmin vaxt SSRİ İspaniya Respublikasını dəstəklədi.

1936-cı ildə SSRİ hökuməti ilə İspaniya arasında bağlanmış müqaviləyə əsasən Bakı və Gəncə şəhərində təyyarəçilər hazırlayan məktəb təşkil olunmuşdur. 1937-ci ilin fevralında 193 nəfər ispaniyalı gənc məktəbdə təlimə başlamışdır. 2 il ərzində ildə 100 nəfər pilot olmaqla 5 dəfə buraxılış olmuşdur. Nəticədə İspaniyada döyüşən 413 nəfər sovet təyyarəçisini ispaniyalı pilotlar əvəz etdilər. 1939-cu ildə 185 nəfər Gəncə təyyarəçilik məktəbini bitirmişdir. Təyyarəçilər İspaniyada Frankonun qiyamçı ordusuna, SSRİ-də alman faşizminə qarşı vuruşmuşdular. Təyyarəçilərdən Maşel Srausa 1942-ci ilin oktyabrında Bakı səmasında keşik çəkərkən həlak oldu. Xose Mario Bravo İspaniyada döyüşmüş, Bakının hava hücumundan müdafiəsində iştirak etmişdi(1942). O, Tehran konfransına(1943)gedən İ.V.Stalini müşayiət edən təyyarəçilərdən biri olmuşdur.

Təyyarəçilər məktəbi Gəncə şəhəri 30 nömrəli məktəbin binasında fəaliyyət göstərirdi. 2016-cı il noyabrın 28-də həmin məktəbdə İspan hərbi təyyarəçi müdavimlərinə həsr olunmuş muzey açılmışdır. Muzeyin açılmasında İspaniya krallığından olan qonaqlar iştirak edirdi. Gəncədə təlim-məşq uçuşları zamanı 19 nəfər İspan pilot həlak olmuşdur.İspaniyadan gələn qonaqlar həmin təyyarəçilərin qəbrini ziyarət etmişlər. Tədbirin sonunda Gəncədə İspan hərbi təyyarəçilər hazırlığına həsr olunmuş "Azərbaycan səmasında" sənədli film nümayiş etdirilmişdir.

Yaponiyanın, Almaniyanın və İtaliyanın yaratdıqları müharibə ocaqları bəşəriyyəti İkinci Dünya müharibəsinə doğru aparırdı. Yaxınlaşan müharibənin bir neçə səbəbi var idi:

1.Böyük böhranın (1929-1932) iri dövlətlər arasında yeni nüfuz dairələri, xammal mənbələri və satış bazarlarını bölüşdürmək uğrunda mübarizəni gücləndirməsi;

2.Versal - Vaşinqton sistemindən narazı qalan Almaniya və Yaponiyada millətçiliyin, irqçiliyin, İtaliyada isə qisasçılığın – revanşizmin güclənməsi;

3.Böyük Britaniya, Fransa və ABŞ-ın xammal və satış bazarlarını, nüfuz dairələrini qoruyub saxlamaq istəyi;

4.SSRİ-nin Şərqi Avropanı ələ keçirməyə, isti dənizlərə, əlverişli strateji mövqelərə, zəngin təbii sərvətləri olan rayonlara çıxmağa, Qara dəniz boğazlarına (Bosfor, Dardanel), Ön və Cənubi Asiyada, Uzaq Şərqdə nüfuz dairəsini genişləndirməyə çalışması;

5.Faşist Almaniyasının və SSRİ-nin dünyaya yiyələnmək cəhdi;

6.Liberal-demokratik dövlətlərin (İngiltərə və Fransanın) totalitar rejimləri – faşizmi (Almaniyanı) və bolşevizmi (SSRİ-ni) bir-birinə qarşı qoyub zəiflətmək cəhdi;

7.Liberal- demokratik dövlətlər və SSRİ tərəfindən faşizm və nasizm təhlükəsizliyinin lazımınca qiymətləndirilməməsi.

Təhlükə SSRİ-nin qərb sərhədlərinə yaxınlaşırdı. Hökumət faşist Almaniyası ilə toqquşmanın labüdlüyünü nəzərə alaraq sərhədləri möhkəmləndirmək tədbirlərini həyata keçirməyə başladı. 1939-cu il avqustun 23-də SSRİ ilə Almaniya arasında 10 il müddətinə hücum etməmək barədə müqavilə bağlanmış və bu, beynəlxalq vəziyyəti xeyli mürəkkəbləşdirmişdi. Dünya ağalığına çalışan hər iki tərəf bu müqaviləyə öz qəsbkarlıq planının həyata keçrilməsi yolunda müvəqqəti bir mərhələ kimi baxırdı. 1939-cu il sentyabrın 28-də SSRİ ilə Almaniya arasında dostluq və sərhədlər haqqında müqavilə bağlandı. Müqavilədə Almaniya və SSRİ Şərqi Avropanı öz təsir dairələrinə böldülər.

1939-cu ilin sentyabrında sovet qoşunları o zaman Polşanın bir hissəsi olan Qərbi Ukrayna və Qərbi Belarusiya torpaqlarına

girdilər. Sovet hökuməti Leninqradın təhlükəsizliyini təmin etmək üçün Finlandiyadan tələb etdi ki, Vıborq rayonunu Sovet İttifaqına versin. Bu, 1939-cu ilin əvvəlində Fin-Sovet hərbi toqquşmasına səbəb oldu. 1939-cu il noyabrın 30-da Leninqrad hərbi dairəsinin hərbi qüvvələri Finlandiyanın sərhədlərini keçdi. Sovet-Fin müharibəsi başlandı və 1940-cı ilin martında finlərin məğlubiyyəti ilə bitdi. Nəticədə SSRİ-nin sərhədləri Murmansk dəmir yolu xəttindən şimala doğru genişləndi. Finlər 1940-cı ildə geri çəkildilər. 1939-cu il avqustun 23-də Almaniya ilə imzalanmış müqaviləyə əlavə olan gizli protokola görə, Baltikyanı ölkələrə 1939-cu ilin payızında sovet ordu qüvvələri yeridildi. Litva, Latviya və Estoniya SSRİ tərəfindən istila edildi. 1940-cı ilin yayında SSRİ Rumıniyanı, Bessarabiyanı və Bukovinanın şimal hissəsini güzəştə getməyə məcbur etdi. 1937-1941-ci illərdə SSRİ-nin cənub sərhədlərində təhlükəli vəziyyət yarandı. İngiltərə və Fransanın hakim dairələrinin təşəbbüsü, ABŞ-ın müdafiəsi ilə Yaxın Şərqdə Sovet İttifaqına qarşı "Yaxın Şərq Antantası" adlanan birlik yaratdılar.Yəni Tehranda Səadabad sarayında (Ağ saray) 1937-ci il iyulun 8-də Türkiyə, İran, İraq, Əfqanıstan arasında 10 maddəlik pakt imzalandı(Səadabad paktı). Bağlanmış pakta görə tərəflər bir-birlərinə qarşı hücum etməyəcəklərinə, sərhədlərinin qorunmasına hörmət göstərəcəklərinə vəd etmişlər. Pakta daxil olan dövlətlər öz ərazilərində digər qonşu dövlətlərdə nizam və təhlükəsizliyi sarsıtmaq və siyasi reyimi devirmək məqsədi ilə silahlı dəstələr, təşkilatlar yaratmamaq öhdəliyini öz üzərlərinə götürdülər. Lakin sonradan İran və Türkiyənin Almaniya ilə yaxınlaşması paktın siyasi xarakterində antisovet meylin güclənməsinə səbəb oldu. Paktın 8-ci maddəsində "kommunizmə qarşı birgə mübarizə aparmaq" haqda əlavənin qəbul edilməsi bunun işarəsi idi.

Qərb dövlətləri 1939-cu ildə həmin İttifaqa daxil olmuş dövlətlərə çoxlu silah verdilər. Yaxın Şərq Antantası SSRİ-yə hücum edib, Qafqazın ilk növbədə Azərbaycanın neft sənayesini məhv etməli idilər. Azərbaycan nefti bütün antisovet qüvvələrin cazibə mərkəzi olmuşdu. Özlərinin SSRİ-yə qarşı davakar

siyasətlərində Türkiyədən istifadə etməyə çalışan İngiltərə və Fransa Türkiyə ilə 1939-cu ildə "Qarşılıqlı yardım İttifaqı" müqaviləsini imzaladılar. Onlar SSRİ-yə qarşı Türkiyənin hərbi yürüş planını hazırlayır, onunla birlikdə SSRİ-yə qarşı çıxmaq istəyirdilər.Türkiyədəki Fransa səfiri R.Massiqli Türkiyə nümayəndələri ilə birlikdə bu ölkənin ərazisindən Batum və Bakını havadan basqın planını hazırladı. Səfir Fransanın başçısı Daladyeyə məlumat verirdi ki,Türkiyə həvəslə İran ərazisi vasitəsilə Bakıya hücumda iştirak etmək təklifini qəbul etməyə hazırdır. 1940-cı ildə Fransa generalı Qamelon SSRİ-yə qarşı İngiltərə-Fransa hərbi hücum planını hazırladı. Burada Batum və Bakı şəhərlərini bombalamaq da nəzərdə tutulmuşdu.Suriyadakı Fransa generalı Beycan deyirdi ki,bəzi əlavə köməklə o,iki yüz təyyarə ilə "Qafqazı ələ keçirə və bıçaq yağa girdiyi kimi, Rusiyaya daxil ola bilər". Faşist Almaniyası da Yaxın Şərqdə öz fəallığını artırırdı. 1941-ci il iyunun 18-də, yəni SSRİ-yə hücumdan üç gün əvvəl o, Türkiyə ilə dostluq və hücum etməmək barəsində müqavilə bağladı. Hitlerçilər Rza şah Pəhləvinin köməyi ilə özlərinin sovetlər əleyhinə fitnələrini gücləndirir, Bakıya təxribatçı qruplar göndərmək yolu ilə İran tərəfdən Sovet İttifaqına hücum etməyə hazırlaşırdılar.

Yaranmış beynəlxalq vəziyyət SSRİ-ni sülhü qorumaq və möhkəmləndirmək uğrunda mübarizə aparmaqla bərabər, özünün müdafiəsi üçün ciddi tədbirlər həyata keçirmək məcburiyyəti qarşısında qoyurdu. Bakıda və respublikanın rayonlarında son texnika ilə təchiz olunmuş sənaye müəssisələri tikildi. Yeni neft yataqları aşkar edilərək istifadəyə verildi: İliç buxtası, Puta, Qaraçuxur, Neftçala Xıllı, Lökbatan, Qala, Sulutəpə, Siyəzən neft mədənləri ölkəni zəruri olan yanacaqla təmin etmək imkanı yaratdı. Müharibə ərəfəsində Azərbaycan bütün ölkədə çıxarılan neftin 70%-ni verirdi. O dövrün ən vacib tədbirlərindən biri yerli milli hissələrin yenidən təşkili oldu.

SSRİ XKS-nin 1938-ci il martında qəbul etdiyi qərarla Qızıl orduda hərbi hissələrin komplektləşdirilməsi üçün vahid sistem yaradıldı. Bu, respublikalarda milli hərbi hissələrin ləğv olunması

demək idi. Lakin sonralar bu səhv hesab edildi və müharibənin gedişində milli hərbi hissələr yaradıldı. Keçmiş Azərbaycan diviziyası 77-ci piyada diviziyası adlandı. Həmin vaxtdan orduya çağırılmış azərbaycanlılar qulluq keçmək üçün təkcə 77-ci diviziyaya deyil, Qızıl ordunun başqa diviziyalarına da göndərilirdilər. Komandir kadrların, həmçinin azərbaycanlı komandirlərin hazırlanmasına ciddi fikir verilirdi.

Müharibə ərəfəsindəki mürəkkəb beynəlxalq şəraitdə Azərbaycan zəhmətkeşləri özlərinin xarici ölkə xalqları ilə əlaqələrini saxlamağı davam etdirirdilər. SSRİ-nin "Dəmir hasar" siyasətinin həyata keçirilməsilə bağlı bir çox səbəblər, həmçinin qonşu Türkiyə, İran və digər Şərq ölkələrinin hakim dairələrinin siyasəti nəticəsində Azərbaycanın həmin ölkələrlə əlaqələri zəifləmişdi. Bununla bərabər Azərbaycan zəhmətkeşləri həmişə başqa xarici ölkələrin xalqları ilə ənənəvi əlaqələr saxlamağa çalışmış, bu ölkələrin xalqlarının qabaqcıl qüvvələri ilə həmrəyliyini bildirmişdi. Azərbaycan zəhmətkeşləri İspaniyada general Frankonun qiyamçılarına qarşı vuruşan (1936-1939) respublika tərəfdarlarını, zəhmətkeşləri dəstəkləyirdilər. 1938-ci ildə Azərbaycanda BİKT (Beynəlxalq İnqilabçılara Kömək Təşkilatı) günü ispan fəhlələrinə köməyi gücləndirmək əlaməti ilə qeyd olunmuşdu. 1938-ci ilin mayında Bakıya gəlmiş ispan fəhlələrinin nümayəndələri, İspaniya xalqına faşist irticasına qarşı mübarizədə köməyə görə bakılılara öz təşəkkürlərini bildirmişdilər. Azərbaycan BİKT-nin antifaşist mübarizədə və beynəlxalq həmrəyliyin inkişafında xeyli iş görmüşdü. Faşizm qurbanları ilə həmrəylik formalarından biri onların adına zərbə briqadalarının yaradılması idi. 1938-1940-cı illərdə respublikanın sənaye müəssisələri və kolxozlarında E.Telmanın, K.Setkinin və R.Lüksemburqun şərəfinə zərbə briqadaları yaradılmışdı. Azərbaycan BİKT xarici ölkələrin siyasi dustaqlarına kömək etmişdi. Çox yerdə yaradılmış "BİKT guşələri" beynəlxalq vəziyyətin mühüm məsələlərini işıqlandırmağa kömək edirdi.

Azərbaycan oğulları 1938-1939-cu illərdə Sovet-Monqol qoşunları sıralarında Almaniyanın müttəfiqiYaponiya hərbi hissələrinə qarşı döyüşlərdə iştirak etmişdilər. 1938-ci ilin iyulunda yapon hərbçiləri Xasan gölü ətrafında SSRİ ərazisinə silahlı basqın etdilər. Baş vermiş döyüşdə yaponlar böyük itki vermək hesabına müvəqqəti də olsa bəzi təpələri tutdular. 1939-cu ilin avqustunda sovet qoşunları düşməni həlledici zərbələrlə darmadağın edib,sərhədin əvvəlki vəziyyətini bərpa etdi. Xasan gölü rayonunda Sovet İttifaqı sərhədlərini yapon samuraylarından təmizləmək üçün Qızıl ordunun keçirdiyi əməliyyatda 77-ci piyada diviziyanın bəzi döyüşçüləri igidlik göstərdiklərinə görə "İgidliyə görə" medalı ilə təltif olundular. 1939-cu ildə yaponlar Monqolustan Xalq Respublikasının Şərq sərhədində olan Xalxin-Qol çayı rayonunda yeni hücuma başladılar. Buradakı döyüşlər dörd aya qədər davam etdi. Döyüşlərdə Qızıl ordu və monqol qoşunları düşməni ağır məğlubiyyətə uğratdılar. Xalxin-Qol çayı rayonunda 1939-cu ilin avqustunda baş vermiş doyüşlərdə Azərbaycandan 26 döyüşçü və komandir iştirak etmişdi. Beləliklə, sonralar müharibənin bütün cəbhələrində vuruşmuş azərbaycanlılar ilk dəfə döyüş bacarıqlarını burada göstərərək mətinləşmiş və müharibədə döyüş təcrübəsi qazanmışlar.

XII FƏSİL
Azərbaycan SSR İkinci Dünya müharibəsi illərində (1939-1945-ci illər).

Müharibənin başlanması və Azərbaycan vuruşan tərəflərin planlarında. Faşist Almaniyası qısa bir zamanda Qərbi və Mərkəzi Avropanın, demək olar ki, bütün ölkələrini işğal etdi və ya özündən asılı vəziyyətə saldı. İndi ona dünya ağalığına nail olmaq yolunda əsas maneə olan SSRİ idi. Adolf Hitler 1940-cı ilin iyulunda SSRİ-yə qarşı müharibənin qaçılmaz olması və müddəti barədə demişdi: "Rusiya gərək məhv edilsin! Müddəti-1941-ci ilin yazı". Hitler artıq 1940-cı ilin yayından alman ordusunun Baş Qərargahına SSRİ-yə qarşı müharibə planı hazırlamağı əmr etmişdi. "Barbarossa "adlanan bu plan həmin il dekabrın 18-də təsdiq olunmuşdu. Uzun müddət sovet tarixşünaslığında faşist Almaniyasının SSR-yə "qəflətən" hücumu əsaslandırılmış müddəa kimi qəbul edilmişdi. Lakin bu düzgün müddəa deyil. Ona görə ki, faşist Almaniyasının SSRİ-yə hücumunun dəqiq vaxtı və günü barədə dövlət başçısı İ.V. Stalinin əlində səhih məlumatlar var idi. Hətta Hitler 1940-cı il dekabrın 18-də "Barbarossa planı" haqqında 21 nömrəli direktivi imzalayarkən cəmi 2 gün sonra bu, Moskvaya məlum oldu.

Bakıda doğulan, Yaponiyada çalışan sovet kəşfiyyatçısı Rixard Zorge (1981-ci ildə Bakı şəhərində bu cəsur kəşfiyyatçıya abidə qoyulmuşdur) SSRİ rəhbərliyinə Almaniyanın bu dövlətə hücum edəcəyi vaxtını bildirsə də, İ.V.Stalin buna inanmadı.

Hitlerin "Barbarossa" planı "İldırımsürətli müharibə" strategiyasına əsaslanır və bir neçə gözlənilməz güclü zərbə ilə sovet ordusunu darmadağın etməyi, qışa qədər Arxangelsk-Həştərxan xəttinə çıxmağı nəzərdə tuturdu. Həm də bu xəttə qədərki ərazilər tutulandan sonra məsafə uzaq olduğu üçün sovet hərbi təyyarələri Sibirdən, Mərkəzi Asiyadan uçub Almaniyanı bombardman edə bilməyəcəkdi.

Mühüm strateji, geosiyasi əhəmiyyətə malik olan Azərbaycan, neft Bakısı faşist Almaniyasının istilaçılıq planlarında xüsusi yer

tuturdu. «Müsəlman monqoloidləri dağıdıcı qüvvə» kimi qiymətləndirən Hitler "Mənim mübarizəm" kitabında yazırdı ki, onlar ali irqin qullarına çevrilməlidir. Almaniya hökuməti Bakı neftini ələ keçirməyi şərqdə istilaçılıq siyasətini reallaşdırmağın mühüm amili kimi qiymətləndirirdi. Almaniyanın Şərq naziri Rozenberqin «Qafqazın idarə olunması planı»na görə Qafqaz beş işğal zonasına bölünməli idi. İlk zamanlar Azərbaycanda idarəedici orqan – komissarlıq yaradılmalı və o, iqamətgahı Tiflisdə yerləşəcək Qafqaz reyxkomissarlığına tabe edilməli idi.

Belə bir deyim vardır, neft krallıqdırsa, Bakı onun tacıdır. Görünür ki, A.Hitler başa düşürdü ki, dünya ağalığının tacına sahib olmaq üçün ilk növbədə neft krallığının tacına sahib olmaq lazımdır(Merkis "Qara qan" əsəri).

İkinci Dünya müharibəsi ərəfəsində Almaniya demək olar ki, canlı qüvvə, hərbi-texniki və iqtisadi parametrlər üzrə SSRİ-ni üstələyirdi. O, yalnız neft məhsullarına malik olmaq cəhətdən SSRİ-dən geridə qalırdı. Bu isə qələbənin təmin olunmasında mühüm amil idi.

1941-ci il iyunun 22-də gecə saat 4 radələrində faşist Almaniyası hücum etməmək haqqında 1939-cu il müqaviləsini kobudcasına pozaraq tərkibində 5,5 milyon canlı qüvvə olan 190 diviziya, 4300 tank, 4980 döyüş təyyarəsi, 190 döyüş gəmisi və müxtəlif silahlarla SSRİ-yə hücum etdi. Güclü döyüş texnikasına və müasir hərbi təcrübəyə malik olan alman-faşist orduları ildırım sürətilə SSRİ-yə 3 istiqamətdə: Şimal - Leninqrad, Mərkəz – Moskva və Cənub-Kiyev hücuma keçdi, qısa zamanda Pribaltika, Ukrayna və Belarusiya SSR-nin xeyli hissəsini, Krımı ələ keçirdi, Moskva istiqamətində irəliləməyə başladı. Almaniya Barents dənizindən Qara dənizədək 5 min kilometrlik cəbhə boyu hərəkət etdi.

Tarixçilər İkinci Dünya müharibəsinin tarixini 5 dövrə ayırırlar. Birinci dövr:1939-cu il sentyabrın 1-dən 1941-ci il iyunun 21-dək; İkinci dövr:1941-ci il iyunun 22-dən 1942-ci il noyabrın18-dək; Üçüncu dövr:1942-ci il noyabrın 19-dan 1943-cü il dekabrın 31-

dək; Dördüncü dövr:1944-cü il yanvarın 1-dən 1945-ci il mayın 9-dək; Beşinci dövr;1945-ci il mayın 9-dan sentyabrın 2-dək

İkinci Dünya müharibəsində vuruşan tərəflərin hərbi planları aşağıdakı kimi idi:

1.“Vays” (Ağ) (Almaniya) – Faşist Almaniyasının Polşaya hücum planı;

2.“Barbarossa” (Almaniya) – Sovet ordusunu ildırım sürəti ilə darmadağın edib, SSRİ-nin Avropa hissəsini tutmaq, Arxangelsk-Həştərxan xəttinə çıxmaq;

3.“Edelveys” (Dağçiçəyi) (Almaniya) –feldmarşal Listin “A” opdu qrupu Qafqazı tutmalı idi.

4.“Ost” (Şərq) (Almaniya) – Baş plan idi.1942-ci ilin sentyabrın 25-də Bakı almanlar tərəfindən işğal edilməli, neft istehsalı alman şirkətinə verilməli idi. Rozenberqin Qafqazın idarə olunması planına görə Qafqaz 5 işğal zonasına bölünməli idi.Azərbaycan Komissarlığı Tiflisdəki alman reyx- komissarına tabe olmalı idi.

5.“Böyük Türküstan” (Almaniya) - Orta Aziya, Qazaxıstan, Başqırdıstan, Tatarıstan, Krım, Şimali Qafqaz, Qərbi Çin, Əfqanıstanın işğalı nəticəsində “Böyük Türküstan” dövləti yaratmalı, Azərbaycan onun daxilində vilayət olmalı idi.

6.“Vilvet” (mənfəət) planı (Böyük Britaniya) – Sovet Ordusunun Qafqazdan çıxarılıb Stalinqrada aparılması, burada ABŞ və Böyük Britaniya hərbi qüvvələrinin yerləşdirilməsi.

7.Stalinin məxfi planı (1942-ci il)– Plana görə Azərbaycan əhalisinə etibar edilmədiyi üçün onlar Mərkəzi Asiya və Qazaxıstana sürgün edilməli idi.Bakının neft mədənlərinin minalanması nəzərdə tutulmuşdu, almanlar şəhərə yaxınlaşdığı təqdirdə neft mədənləri partladılmalı idi. Bu planın hazırlanmasında Stalinə A.Mikoyanın da təsiri olmuşdu. Lakin Stalingrad və Şimali Qafqazda sovet ordusunun qələbələri və M.C.Bağırovun dəlil-sübutları Stalini bu planı həyata keçirməkdən çəkindirdi:”Azərbaycanlılar sürgün olsa, cəbhəyə lazım olan nefti kim çıxaracaq, pambığı kim becərəcək”,-ona söylədi.

SSRİ-nin sərhədlərinə güclü alman texnikasının cəmləşdirilməsi, hücum ərəfəsində Qara dənizdə sovet donanmasının almanlar tərəfindən top atəşinə tutulması, sovet kəşfiyyatının xaricdən əldə etdiyi və mərkəzə ötürdüyü dəqiq məlumatlar bir daha onu göstərirdi ki, artıq müharibə qaçılmazdır. Lakin Stalin faktlara ciddi fikir vermədi. Müharibənin ilk günlərində Stalinin çaşqınlığı, qətiyyətsizliyi və ləng tərpənməsindən istifadə edən alman ordusu böyük sürətlə ölkənin içərilərinə doğru irəliləyə bildi və Moskvanın lap yaxınlığında qərar tutdu.

İ.V.Stalin yalnız 1941-ci il 3 iyulda radio ilə çıxış edərək sovet xalqının müharibəsini Böyük Vətən müharibəsi adlandırdı.

Müharibənin əvvəllərində azərbaycanlı döyüşçülərin pis vuruşması haqqında Moskadan Azərbaycan K(b)P MK-ya narazılıq gəlirdi. Bu məsələni araşdırmaq üçün M.C.Bağırov özü cəbhəyə gedir. Bu narazılığı aradan qaldırmaq üçün o, milli diviziyalar yaradılmasını təklif etdi. Azərbaycanda 1941-1942-ci illərdə 402, 223-cü, 1942-ci ildə 416-cı, 271-ci diviziyalar təşkil olunmuşdu. Azərbaycanın ilk atıcı milli diviziyası olan 77-ci diviziya 1920-ci ilin oktyabrın 30-da yaradılmışdır. 1924-1930-cu illərdə diviziyanın komandiri Cəmşid Naxçıvanski (1895-1938) olmuşdur. 1930-cu ildə diviziyaya dağ-atıcı adı verilmişdir. 1938-ci ildə ləğv edilən diviziya sonra yenidən bərpa edilərək 1941-ci ilin sentyabrında sovet ordusunun tərkibində İranda (Cənubi Azərbaycanda) yerləşdirildi.

1941-ci ilin dekabr ayında Krımın müdafiəsində iştirak etmiş, Ağ Manay rayonundakı döyüşlərdə şəxsi heyətinin bir hissəsini itirmiş 77-ci diviziya da, 1942-ci ilin mayında yenidən respublikada komplektləşdirildi. Diviziyanın şəxsi heyətinin 66%-ni azərbaycanlılar təşkil edirdi. Diviziya Qafqazın müdafiəsində iştirak etdi.

1941-ci ilin avqustunda Naxçıvanda və Ordubadda yaradılmış 402-ci atıcı diviziya Cənubi Azərbaycanda

yerləşdirilmişdir. Diviziyanın tərkibinin 90%-ni azərbaycanlılar təşkil edirdi.

1941-ci ilin oktyabrında Quba-Qusar-Dəvəçi zonasında 223-cü diviziya təşkil edilmişdir. 1942-ci ilin iyulunda Qafqaz uğrunda döyüşlərə başlamışdı.

416-cı diviziya 1942-ci ilin mart-sentyabr aylarında Ucar, Göyçay, Ağdam, Şəmkir, Ələt məntəqələrində təşkil edilmişdir, şəxsi heyətinin 92%-i azərbaycanlılar idi. Diviziya döyüş yolunu Şimali Qafqazdan başlamışdır.

Şəxsi heyətinin əksəriyyəti azərbaycanlılar olan 396-ci atıcı diviziya böyük itki verərək, 223-cü diviziyaya birləşdirildi. 1942-ci ildə (avqust-sentyabr) 271-ci diviziya təşkil edilmişdir. Bu diviziyalar əsasən azərbaycanlı döyüşçülərdən təşkil olunsa da, komandirləri demək olar ki, ruslardan və digər xalqların nümayəndələrindən təyin olunurdu. 227, 271-ci diviziyaların şəxsi heyətinin 30%-dən-70%-ə qədərini azərbaycanlı döyüşçülər təşkil edirdi.

Bunlardan başqa həmin illərdə Azərbaycanda milli tərkibi qarışıq olan bir neçə diviziyalar (217-ci, 227-ci, 151-ci diviziyalar) da təşkil olundu.

Respublikada hərbi səfərbərlik. SSRİ XKS və ÜİK(b)P MK-nın 1941-ci il iyunun 29-da qəbul etdikləri direktivlə ölkədə xalq təsərrüfatını hərbi tələblər əsasında qurmaq vəzifələri müəyyənləşdirildi. İyunun 30-da isə İ.V.Stalinin başçılığı ilə Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı. DMK əsas diqqəti Silahlı Qüvvələrin möhkəmləndirilməsinə, iqtisadiyyatı hərbinin tələbləri əsasında yenidən qurulmasına yönəltdi. Geniş miqyasda hərbi səfərbərlik keçrildi, yeni qoşun birləşmələri yaradıldı, cəbhəyə yaxın rayonlardan sənaye müəssisələri və milyonlarla adam uzaq yerlərə - ölkənin Şərqinə köçrüldü.

1941-ci il iyunun 22-də Böyük Britaniyanın Baş Naziri U. Çörçill, bir gündən sonra isə ABŞ Prezidenti F.Ruzvelt SSRİ-nin Almaniyaya qarşı müharibədə onu müdafiə etmək təklifini qəbul etdikləri barədə bəyanat verdilər. İyulun 12-də Moskvada SSRİ ilə

Böyük Britaniya arasında müharibədə birgə fəaliyyətə dair müqavilə imzalandı. Azərbaycan xalqı da bu müharibədə öz üzərlərinə yüksək öhdəliklər götürür, könüllü surətdə ordu sıralarına, "Xalq qoşunu" dəstələrinə, Qırıcı batalyonlara daxil olurdular. 1941-ci il iyunun 22-də Bakıda izdihamlı mitinq keçirildi. Azərbaycanda müharibənin ilk günlərində 40 min nəfər, o cümlədən 1000 nəfərə qədər qız könüllü olaraq cəbhəyə getmək üçün respublika Hərbi Komissarlığına müraciət etdi.

Ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbaycandan orduya 700 minə qədər adam səfərbər olunmuşdu.

Dövlət Müdafiə Komitəsinin qərarı ilə hələ 1941-ci ilin iyulundan etibarən bütün ölkədə 16 yaşdan 50 yaşadək olan kişilərə ümumi icbari hərbi təlim keçilməyə başlanmışdı. 1941-ci ildə Azərbaycan rayonlarında təxribatçılara, casuslara və sərhədi pozanlara qarşı mübarizə aparmaq məqsədilə Qırıcı batalyonlar yaradıldı. Bu batalyonların fəaliyyəti sayəsində müharibə illərində düşmən paraşütçüləri, casus, quldur, təxribatçı, fərari, dövlət sərhədini pozanlar tutulmuşdu.

Müdafiə işlərinin təşkilində ictimai təşkilatlar da fəal iştirak edirdi.”Yardım cəmiyyəti” kimyəvi silahlardan müdafiə norması üzrə əhaliyə təlim keçirdi. Azərbaycan Qızıl Aypara Cəmiyyəti də 1941-1945-ci illərdə 6500-dən çox tibb bacısı hazırlamış, 20 mindən çox respublika vətəndaşı döyüşçülər üçün könüllü qan vermişdi. Hava hücumundan müdafiə üçün könüllü dəstələr yaradılırdı. Müdafiə məqsədilə sığınacaqların tikilməsi işləri aparılırdı.Rus dilini bilməmək müharibənin ilk aylarında azərbaycanlı döyüşçülər üçün ciddi çətinliklər törədirdi. Bundan istifadə edən bəzi şovinist zabitlər onlarla təhqiramiz, kobudcasına rəftar edirdilər. Azərbaycanlı döyüşçülər bununla bağlı respublika rəhbərliyinə dəfələrlə müraciət edərək rus dilinin öyrənilməsi üçün şərait yaratmağı xahiş edirdilər. Azərbaycan K(b)P MK hərbi şöbəsinin 23 oktyabr 1941-ci il tarixli məktubu ilə Cənubi Qafqaz cəbhəsinin Siyasi İdarəsinə bu barədə müraciət etməsi nəticəsində vəziyyət nizama salınmışdı. Döyüşçülərin rus dilini bilməyinin

vacibliyi nəzərə alınaraq 90 saatlıq proqram işlənib hazırlanmışdı. Dərslər hərbi hazırlıq xətti ilə keçirilirdi.

Azərbaycan K(b)P MK-nın 14 iyul 1942-ci il qərarına əsasən Bakı şəhərində və Azərbaycanın rayonlarında rus dilinin tədrisinə başlandı. Hərbi mükəlləfiyyətlilərə məktəblərdə rus dilini öyrənmək üçün xüsusi saat ayrılmışdı.

Cəbhənin respublika sərhədlərinə yaxınlaşması ilə əlaqədar olaraq Zaqafqaziya cəbhəsi Hərbi Şurası Bakı ətrafında müdafiə mövqelərinin yaradılması haqqında qərar çıxardı. Tankların keçə bilməməsi üçün metal kirpilər quruldu, dərin xəndəklər qazıldı.

Azərbaycan döyüşçüləri ön cəbhədə. Brest qalası (Belarusiya) döyüşlərində onlarca azərbaycanlı döyüşçü – hərbi həkim M.Qədirov, İ.Səfərov, İ.Dadaşov, A.İmanov və başqaları fövqəladə mərdlik göstərmişlər. Prut çayı yaxınlığında gedən döyüşdə siyasi işçi Kamal Qasımov 6 döyüşçü ilə birlikdə üç körpünü partladaraq düşmənin çaydan keçməsinin qarşısını almış, dördüncü gün əlbəyaxa döyüşdə igidliklə həlak olmuşdu.

Leninqrad səmasında hərbi təyyarəçi Hüseynbala Əliyev böyük igidlik göstərdi. 1941-ci il iyulun 17-də üç düşmən təyyarəsindən ikisini vurdu. Lakin ölümcül yara alan Heydər Əliyev təyyarəsini yerə endirə bildi, özü isə həlak oldu. Göstərdiyi igidliyə görə o, Lenin ordeni ilə təltif edilmişdi.

İyunun 25-də təyyarəçi Məzahir Abasov döyüş tapşırığını yerinə yetirərkən iki düşmən təyyarəsinin hücumuna məruz qalmışdı. O,düşmən təyyarələrindən birini vurmuş, digər təyyarəçini isə qaçmağa məcbur etmişdi. M.Abasov igidliyinə görə Qırmızı Bayraq ordeni ilə təltif edilmişdi.

1941-ci ilin yayında Poltava yaxınlığındakı R.Rəfiyevin tankçılar bölməsi düşmənin iki tankı, topu və çoxlu əsgərini məhv etmişdi.

1941-ci ilin payızında alman-faşist ordusu Baltikyanı ölkələri, Ukrayna və Belarusiyanı zəbt edib, Leninqradı mühasirəyə aldı, böyük qüvvələrlə Moskvaya doğru hücuma keçdi.

1941-ci il sentyabrın 30-da alman-faşist qoşunları Moskva

istiqamətində hücuma keçdilər (Tayfun planı). Tank hissə komandiri, kapitan Həzi Aslanov əsgərlər və döyüş sursatı yüklənmiş 5 avtomobili mühasirədən çıxarmış, daha sonra yaralanmış tankçını əvəz edərək düşməni məhv etmişdi. H.Aslanov qəhrəmanlığına görə Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdu.

1941-ci ilin noyabrında Müseyib Allahverdiyevin əsgərləri Moskva ətrafında taktiki cəhətdən çox vacib təpədə düşmənin üç hücumu dəf etmiş, yüzdən artıq düşməni, tankı və topu məhv etmişdir. Bu şücaətə görə M.Allahverdiyev Qırmızı Ulduz ordeninə layiq görülmüşdü. Leytenant M.Paşayevin zenitçiləri Moskva ətrafında 10 düşmən təyyarəsini vurmuş, həmçinin Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdu.

Pulemyotçu İdris Vəliyev məşhur Borodino çölündə 75-dən artıq faşisti məhv etmişdi. Moskva uğrunda döyüşlərdə Azərbaycan qızları Z.Seyidməmmədova, S.Quliyeva, O. Şahbazova və başqaları igidliklə vuruşmuşdular. Cərrah Aliyə Rüstəmbəyova onlarca yaralının həyatını xilas etmişdi.

1941-ci ilin dekabrında sovet ordusunun Moskva və digər vilayətlərin azad edilməsi uğrunda başlanan əks-hücum döyüşlərində Azərbaycan oğul və qızları da vuruşmuşlar. Moskva uğrunda döyüşlər zamanı baş serjant İsrafil Məmmədovun igidliyi bütün ölkəyə yayıldı. İ.Məmmədov Novqorod vilayətinin Pustınka kəndi yaxınlığında mövqe tutub 10 saat ərzində hitlerçilərin hücumunun qarşısını almış, təkbaşına 70 faşist öldürmüşdü. 1941-ci ilin dekabrın 11-də İ.Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verildi. O, Sovet İttifaqı Qəhrəmanı adını almış ilk azərbaycanlıdır.

Moskva döyüşü almanların İkinci Dünya müharibəsində ilk böyük məğlubiyyəti idi. Bu döyüş onların "məğlubedilməzliyi" əfsanəsini puç etdi, ildırımsürətli müharibə planını pozdu.

Moskvanın müdafiəsi dövründə alman-faşist ordusu Krım üzərinə geniş hücuma keçdi.1941-ci il oktyabrın 20-də Sevastopolun 250 gün davam edən müdafiəsi başlandı. Sevastopolun müdafiəçiləri sırasında yüzlərlə azərbaycanlı

o,cümlədən A.Həsənova, Ş.Məmmədova, E.Rzayeva kimi qızlar igidlik nümayiş etdirmişlər.1941-1942-ci illərin qışında sovet ordusunun Kerç yarımadasından Krıma desant çıxarma əməliyyatında 77-ci Azərbaycan atıcı diviziyası da iştirak edirdi. 1941-ci il dekabr-1942-ci il yanvarında diviziya Taman yarımadasından Ağ-Manay rayonuna çatdı, bir sıra kəndləri azad etdi. Bu divizya Novorossiysk şəhəri uğrunda ağır döyüşlərdə də fərqlənmişdi.

1942-ci il iyulun 17-də Stalinqrad döyüşü başlandı.Hitler burada sovet qoşunlarını mühasirəyə almaq istəyirdi(Fall Blau planı) 1942-ci ilin oktyabrında leytenant Mikayıl Qədirov 11 döyüşçü ilə strateji əhəmiyyətə malik təpəni 12 gün müdafiə etdi.Volqoqrad Vilayət İcraiyyə Komitəsinin qərarı ilə leytenant M.Qədirovun döyüşçüləri tərəfindən müdafiə olunan bu təpəyə "On bir qəhrəman təpəsi" adı verildi.

İgid təyyarəçi Hüseyn Əliyev Stalinqrad səmasını müdafiə edərkən düşmənə ağır zərbələr endirmişdi.

Stalinqrad uğrunda azərbaycanlı qadınlar da mərdliklə vuruşurdular. Azərbaycanlı ilk qadın, hərbi təyyarəçi-kapitan Züleyxa Seyidməmmədova 40-dan artıq səma döyüşündə iştirak etmişdi. Təyyarəçi Adil Quliyevə qəhrəmanlığına görə Sovet İttifaqı Qəhrəmanı adı verildi. Stalinqrad yaxınlığında pulemyotçu Ə.Rəcəbov düşmənin 200-dən artıq əsgər və zabitini öldürmüşdü. Ə.Rəcəbov döyüş xidmətlərinə görə Lenin ordeni ilə təltif edilmişdi.

1942-ci il noyabrın 19-da Qızıl ordu Stalinqrad cəbhəsində hücuma keçdi.Noyabrın 23-də düşmənin 22 diviziyası(330 minlik canlı qüvvəsi) mühasirəyə alındı (Uran əməliyyatı). Hitlerçilərin mühasirəni yarmaq üçün etdikləri bütün cəhdlər puça çıxdı. 1943-cü il fevralın 2-də düşmən təslim oldu.

Stalinqrad ətrafında əks-hücumlar zamanı alay komandiri podpolkovnik Həzi Aslanov mahir sərkərdə istedadı nümayiş etdirdi.Mühasirədəki alman qoşununun köməyinə gələn feldmarşal Manşteynin qarşısını kəsdi.Qəhrəmanlığına görə 1942-ci il

dekabrın 31-də Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Kəşfiyyatçı Əli Kərimov Stalinqraddakı alman ordusunun komandiri feldmarşal Paulüsün əsir alınmasında şəxsən iştirak etdi.Döyüşlərdəki göstərdiyi igidliklərə görə Ə.Kərimov Qırmızı Ulduz ordeni ilə təltif olundu.

Baş leytenant Həmzə Sadıxov Volqa sahilindəki döyüşlərdə fəal iştirakına və alman general-leytenantı Paulüsün əsir alınmasında iştirakına görə Qırmızı Ulduz ordeninə layiq görüldü. "Stalinqradın müdafiəsi uğrunda" medalı ilə 1600-dən artıq azərbaycanlı təltif olunmuşdu. Volqa sahilində qələbənin hərbi-strateji, beynəlxalq əhəmiyyəti oldu.Stalinqradda faşistlər ən böyük məğlubiyyətə uğradılar və bu döyüş müharibədə əsaslı dönüşün başlangıcını qoydu.

Qafqaz uğrunda döyüşlər 1942-ci ilin iyulunda başlandı. 1942-ci il avqustun 23-də Tbilisidə Zaqafqaziya xalqlarının antifaşist mitinqi kecrildi. Şair Səməd Vurğun da orada çıxış etmişdi. Mitinqdə Vətənin azadlığı və müstəqilliyi naminə sonadək mübarizə aparmaq haqqında qətnamə qəbul olundu. Sovet Ali Baş Komandanlığı Zaqafqaziya respublikalarında 1942-ci il sentyabrın 9-da hərbi vəziyyət elan etdi. Bakı müdafiə rayonu yaradıldı.

Qafqaz hitlerçilərin qəsbkarlıq planında iqtisadi, hərbi və siyasi cəhətdən əsas məntəqələrdən biri idi. Hitler ordusu yanacağa olan böyük ehtiyacını aradan qaldırmaq üçün, ilk növbədə, Qızıl ordunu Qroznı və Bakı neftindən məhrum etmək istəyirdi. 1942-ci ilin yayında Hitler elan etmişdi ki, Almaniya Maykop və Qroznı neftini ələ keçirməsə, müharibəni davam etdirə bilməyəcəkdir.

"Edelveys" planına görə almanlar üç istiqamətdə:qərbdə Qara dəniz sahilinə çıxmaq və oradan Cənubi Qafqaza hücum etmək, şərqdə Qroznı, Mahaçqala və Bakını zəbt etmək, mərkəzdə Böyük Qafqaz aşırımını keçərək Tbilisi və Kutaisini ələ keçirmək istəyirdi. Qafqaz uğrunda döyüş 5 ay çəkdi (1942-ci il iyul-dekabr). Düşmənə qarşı Zaqafqaziya cəbhəsi təşkil olundu. 15.10.1942–19.11.1942-tarixlərində 416-cı diviziyanın komandiri polkovnik Tərlan bəy Əliyarbəyov olmuşdur.

Qafqazın müdafiəsində əsasən Cənubi Qafqaz xalqlarından təşkil olunmuş 18 milli və 15 qarışıq diviziya iştirak etmişdi. 77, 223, 402 və 416-cı milli diviziyalar burada döyüşürdü.

Leytenant İdris Süleymanov Mozdok rayonunun mühüm yaşayış məntəqəsinin müdafiəsində yaralansa da, döyüş meydanını tərk etmədi.O,SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.Mayor Akim Abbasovun başçılıq etdiyi polk böyük igidlik göstərdi.1942-ci idə Tuapse şəhərinin müdafəsi zamanı o çoxlu düşməni məhv etmiş, düşmən snayperindən komandirini xilas edərkən həlak olmuşdur,1943-cü ildə ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Mozdok rayonunda gedən döyüşlərdə Ziya Bünyadov (gələcəkdə tarixçi akademik) dörd əsgərlə birlikdə düşmənin benzin anbarını partlatmış və iki tankını yandırmışdı.Z.Bünyadov bu əməliyyata görə "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdu.

Şimali Qafqazın azad olunması uğrunda gedən döyüşlərdə milli diviziyalar fəal iştirakı edirdi. 1943-cü ilin yanvar və fevral aylarında 416-cı diviziyanın əsgərləri onlarca yaşayış məntəqəsini düşməndən təmizlədi, diviziyanın 300 döyüşçüsü yüksək dövlət təltiflərinə layiq görüldü.

223-cü diviziya Mineralnıye Vodının azad olunmasında bilavasitə iştirak etmiş, üç ay ərzində 50 yaşayış məntəqəsini və bir neçə şəhəri alman faşist işğalçılarından təmizləmişdi. Almanların Staliqraddakı məğlubiyyəti Qafqazı işğaldan xilas etdi.Onlar Qafqazda mühasirəyə düşəcəklərindən qorxub geri çəkildilər.

Sovet ordusunun cəbhələrdəki uğurları DMK-nın Azərbaycan əhalisinin Orta Asiyaya köçürülməsi və Bakının, ilk növbədə neft mədənlərinin minalanaraq dağıdılmasını nəzərdə tutan "xüsusi əməliyyat" planının gündəlikdən çıxmasına səbəb oldu.

Stalinqrad cəbhəsində tarixi qələbədən sonra Leninqraddan Qara dənizə kimi ərazidə Qızıl ordunun düşmənə qarşı əks-hücumu başlandı.Azərbaycanlı döyüşçülər əks-hücumda da fəallıq edirdilər.

1943-cü ilin yayında Hitler Almaniyası Qərbdə ikinci cəbhənin

olmamasından istifadə edərək Şərq cəbhəsində qəti hücuma başlamaq qərarına gəlmişdi."Sitadel"(Qala) adlanan bu əməliyyatda düşmənin məqsədi cəbhənin dar hissəsi - Kursk çıxıntısına cənubdan və şimaldan hücum edərək, Mərkəz və Voronej cəbhələrinin qoşunlarını mühasirəyə alıb dağıtmaq, sonra isə Cənub-qərb cəbhəsinə arxadan zərbə endirmək idi.

1943-cü il iyulun 5-də diviziyalarla Oryol, Belqorod və Kursk ətrafında hücum başlandı. İkinci Dünya müharibəsinin ən irimiqyaslı döyüşlərindən olan Kursk qövsü müharibənin gedişində əsaslı dönüşü başa çatdırdı. Təşəbbüsü öz əlinə alan Qızıl ordu faşistlərin tam məğlubiyyətinə qədər onu əldən vermədi.

Kapitan İvan İlyasov rota ilə birlikdə Kursk vilayətinin Krutoy Luq ətrafında düşmənin tank hücumunun qarşısını almışdı. 23 saat davam edən bu döyüşdə 40 düşmən tankı yandırılmış, 800 faşist məhv edilmişdi.İ.İlyasova ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.Hüseyn Əjdərov Oryol şəhərinə qələbə bayrağını sancmışdı.Davud Quliyev 4 əsgərlə birlikdə çoxlu düşməni məhv etmişdi. Ukrayna ərazisinin azad olunmasında Azərbaycan diviziyaları da fəal iştirak etmişlər.

1943-cü il avqustun 27-də 416-cı diviziya düşmən müdafiəsini yararaq 20 km irəliləmiş və Cənub cəbhəsinin əsas qüvvələrinin hücumuna şərait yaratmışdı. Bir gündə diviziya bir neçə yaşayış məntəqələrini azad etmişdi. Taqanroq şəhərinin azad olunması uğrundakı döyüşlərdə leytenant Bahəddin Mirzənin komandası düşmənə böyük zərbə vurmuşdu.

Taqanroq şəhərinin azad olunmasında göstərdiyi qəhrəmanlığa görə 416-cı diviziyaya fəxri "Taqanroq" adı verilmişdi. Paytaxt Moskva Azərbaycan diviziyasını artilleriya yaylım atəşləri ilə salamlamışdı.1943-cü ilin martında 416-cı Taqanroq diviziyası Nikolayev şəhərini də düşməndən azad etdi.

223-cü diviziya 1943-cü ilin sentyabrında Ukraynanın 16 yaşayış məntəqəsini azad etmişdi.

Taman yarımadasının alman-faşist işğalçılarından azad edilməsində fərqləndiyinə görə 227-ci atıcı diviziya fəxri

"Temyurq" diviziyası adını almışdı və bu döyüşlərə görə 600 azərbaycanlı orden və medallarla təltif edilmişdi.

1943-cü ilin sentyabrında Donetsk əməliyyatında göstərdiyi rəşadətə görə 271-ci diviziyaya fəxri "Qorlovka" adı verilmişdi. Bu döyüşlərdə komandir Aslan Qaraşov qəhrəmanlıq nümunəsi göstərmişdi.

Azərbaycan oğulları başqa cəbhələrdə də rəşadət göstərmişdilər.1943-cü ilin oktyabrında Kerç boğazına çıxmaq əməliyyatında pulemyotçu Mehdi Quliyev misilsiz şücaət göstərərək, 300-ə yaxın hitlerçini məhv etmişdi. İgidliyinə görə, M.Quliyev Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Kerç boğazını keçib Krımı azad etmək əməliyyatlarının iştirakçısı Bəkir Mustafayev göstərdiyi igidliyə görə Sovet İttifaqı Qəhrəmanı adı almışdı.

Mikayıl Ələkbərov Dnepri keçmək əməliyyatında igidlik göstərmişdi. 1943-cü il oktyabrında M.Ələkbərov Qorodovka kəndində qırmızı bayraq qaldırmış və 30-dan artıq düşmən əsgərini sıradan çıxarmışdı. Ölümündən sonra o, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Ukraynanın azad edilməsi salnaməsinə leytenant Məlik Məhərrəmovun komandanlıq etdiyi qvardiya rotasının igidliyi əbədi daxil olmuşdur. 1943-cü il sentyabrında rota Dneprin sağ sahilinə keçib həmlə ilə hitlerçiləri tutduğu mövqelərdən çıxarmışdı. Bununla da sovet ordusu hissələrinin çayı maneəsiz keçməsi təmin olunmuşdu.Məlik Məhərrəmova və onun 17 silahdaşına Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi. Qvardiyaçı qəhrəmanlara Lenin ordenini və "Qızıl Ulduz" medalını şəxsən təqdim edən cəbhə komandanı K.K.Rokossovski qeyd etmişdi ki, bir rotanın tərkibində 17 Sovet İttifaqı Qəhrəmanı olması fərəhli və müstəsna haldır.

1943-cü il noyabrında Kiyevin faşistlərdən azad edilməsi uğrunda döyüşlərdə tankçı, batalyon komandiri Xıdır Mustafayev yüksək məharət nümayiş etdirmişdi.Onun batalyonu Kiyevin 70 kilometrliyində olan Fastov şəhərini azad etdi. Xıdır Mustafayev

isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Leninqradın Mərkəzi Hərbi-Dəniz Muzeyində eksponat kimi 86 düyün vurulmuş bir qaytan qoyulmuşdur. Bu, Şimal donanması snayperi Məmmədəli Abbasovun üç ay ərzində qırdığı faşistlərin sayını bildirir. M.Abbasov hər faşisti vuran kimi dərhal cibində gəzdirdiyi bu qaytana bir düyün vurardı. Məmmədəli Abbasov 35 gündə 63 hitlerçi qırmışdır. O,"Qırmızı Bayraq" ordeni ilə təltif etmişdi.

1944-cü ilin əvvəlində Qızıl ordunun bütün cəbhə boyu hücumu başlandı. Yanvarda Leninqrad ətrafında düşmənə ağır zərbə endirərək Leninqradın 900 günlük blokadasına son qoyuldu.

416-cı Taqanroq diviziya 1944-cü il fevralında Dnepr çayını keçərək Nikolayev, aprelində isə Qızıl ordunun digər birləşmələri ilə birgə Odessa şəhərini azad etdi.

Sağ sahil Ukraynasının alman-faşist işğalçılarından azad olunmasında 223-cü diviziya da fəal iştirak etmişdi. 223-cü diviziya sovet qoşunlarının məşhur Yassı-Kişinyov əməliyyatında (1944) bilavasitə iştirak etmişdi.

Ümumiyyətlə, Ukraynanın azad olunması uğrunda döyüşlərdə 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, yüzlərlə döyüşçü orden və medallarla təltif olunmuşdu.

223-cü və 416-cı diviziyalar avqustda Qızıl ordunun digər birləşmələri tərkibində Moldovanın paytaxtı Kişinyovu azad etmişdi. Faşistlərin Sağsahil Ukraynasında məğlubiyyəti Krımın azad edilməsini yaxınlaşdırırdı.Krımın azad olunmasında 77-ci və 227-ci diviziyalar əsil qəhrəmanlıq nümayiş etdirdilər. Ağ məscidə 1944-cü il aprelində 77-ci diviziya 19-cu tank korpusu ilə birlikdə düşməni Simferopoldan çıxarmış, minlərlə faşisti əsir almışdı, 77-ci diviziyaya fəxri "Simferopol" adı verilmişdi. 1944-cü ilin mayında diviziya Sapun-dağı ələ keçirdi.Döyüş şücaətinə görə Ə.Piriyevə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi. Sapun-dağ uğrunda döyüşlərində qəhrəmanlığına görə Məmməd Dadaşov "Qırmızı Ulduz" ordeni ilə təltif etdi.

77-ci diviziya Sevostopola (Bağçasaray) birinci daxil oldu.

1944-cü il mayın 7-8-də faşistlərin şiddətli müqavimətini qıraraq Malaxov Kurqanını ələ keçirdi. Sevostopolu düşməndən azad edərkən Sapun-dağ ətrafında döyüşdə nailiyyətlərinə görə diviziya mükafatlandırıldı.

Belarusiyanın azad olunmasında general-mayor Həzi Aslanovun tank briqadasının döyüşçüləri böyük uğurlar qazandılar.1944-cü ilin iyununda onlar partizanlarla birlikdə Pleşinitsı şəhərini azad etdilər. H.Aslanovun tankçıları qısa zaman ərzində Belarusiyanın 508 yaşayış məntəqəsini azad edərək, birinci olaraq Vilnüsə daxil oldular. Tank yürüşlərini məharətlə təşkil etdiyinə və 1944-cü ilin yayında döyüşlərdə göstərdiyi şəxsi igidliyinə görə H.Aslanov II dərəcəli Suvorov ordeni ilə təltif olundu. 1944-cü ilin iyulunda Şaulyay şəhərinin azad edilməsi uğrunda döyüşlərdə fəal iştirakına görə H.Aslanovun 35-ci qvardiya tank briqadasına fəxri "Şaulyay" adı verildi. Belarusiyanın və Pribaltikanın azad olunması uğrundakı döyüşlərində H.Aslanovun briqadası 8 dəfə Ali Baş Komandanın təşəkkürünə layiq görüldü.Cəbhənin komandanlığı H.Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif olunmasına təqdimat vermişdi.Lakin ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ona ölümündən sonra 1991-ci ildə verildi.

1945-ci il yanvarın 24-də H.Aslanov döyüş əməliyyatı getməyən ərazidə atəşlə yaralandı və həlak oldu. Tarixçilərin bəziləri onu Pribaltika cəbhəsinin komandiri Marşal İ.X. Baqramyanın (I Pribaltika cəbhəsinin komandiri) öldürtdüyünü qeyd edir.

1944-cü ildə sovet qoşunları SSRİ ərazisini alman-faşist işğalçılarından azad etdi, Barents dənizindən Qara dənizə qədər sovet sərhədi bərpa olundu.Bu tarixi qələbədə Azərbaycan xalqının oğul və qızları rəşadət və mərdlik göstərdilər.

Azərbaycanlılar partizan və antifaşist hərəkatında. SSRİ XKS və ÜİK(b)MK-nın 1941-ci il 29 iyun və 19 iyul tarixli "Alman ordularının arxasında mübarizənin təşkili haqqında" qərarlarında müvəqqəti işğal edilmiş rayonlarda süvari və piyada

partizan dəstələri təşkil etmək, işğalçılara qarşı bütün mübarizə formalarına rəhbərlik etmək üçün gizli partiya təşkilatları şəbəkəsi yaratmaq vəzifələri müəyyən olunmuşdu.

Müharibənin ilk aylarında sovet ordusunun bir sıra uğursuzluğu nəticəsində xeyli sovet döyüşçüsü düşmən tərəfindən əsir alınmışdı. Bu döyüşçülər əsir düşərgələrindən qaçaraq partizan dəstələrinə qoşulurdular. Partizanlar nisbətən kiçik qruplar halında dağlarda, meşələrdə, mağaralarda gizlənərək düşmənə qəfil zərbələr vururdular.

Dmitrov adına partizan dəstəsinin tərkibində vuruşan Qurban Abbasov Belarusiya partizanları ilə birlikdə faşistlərin cəbhəyə canlı qüvvə, texnika və hərbi sursat aparan 5 qatarının qəzaya uğradılmasında və digər əməliyyatlarda fərqlənmişdi.

Brest vilayətində rota komandiri, kommunist M.A.Əliyev öz döyüşçüləri ilə hitlerçilərin yaşadığı bir neçə binanı dağıtmış, avtomobilləri yandırmış, 1000 nəfərdən çox əsgər və zabiti məhv etmiş və əsir tutmuşdur.Baranoviçi vilayətində "Pobeda" partizan dəstəsinin bölmə komandiri Z.Qədimovun döyüşçüləri faşistlərin 5 qatarını qəzaya uğratmışdı.

1943-cü ilin iyununda Belarusiya K(b)P MK-sı işğal olunmuş ərazilərdə, eyni vaxtda düşmənin dəmir yol relslərini məhv etmək planını irəli sürdü. Mərkəzi Partizan Qərargahı tərəfindən genişləndirilən bu planın həyata keçirilməsinə Leninqrad, Kalinin, Smolensk, Oryol və qismən Ukrayna partizanları da cəlb olundular. "Rels müharibəsi"nin həyata keçirilməsində Azərbaycandan olan bir çox döyüşçülər Belarus partizanları ilə birlikdə fəaliyyət göstərmişlər. Həmin döyüşçülərdən Q.A.Abbasov, R.P.Babayev, İ.N.Qocayev, M.M. İsayev, E.Q.İsmayılov, M.B.Hənifəyev, Q.Q.Məmmədov, N.M. Monaxov Belarusiya Mərkəzi Partizan Qərargahının rəisi P.K. Ponomarenkodan şəxsən təşəkkür almış, SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edilmişlər.

Minsk vilayətində 1942-ci ildə "Dyadya Kolya" partizan birləşməsindəki Suvorov adına dəstənin komandiri, mayor Ələkbər

Əliyevin rəhbərlik etdiyi partizan dəstəsi düşmənin 11 qatarını, avtomobillərini, üç təyyarəsini, rabitə xəttini sıradan çıxarmış, Almaniyaya aparılan 400 sovet vətəndaşını azad etmişdir.

Ukraynanın Xarkov vilayətində faşist işğalçılarına qarşı partizan hərəkatının təşkilində Azərbaycan SSR Ali Sovetinin deputatı V.H.Axundovun böyük xidmətləri olmuşdur. Ukraynada S.Kovpakın partizan birləşməsində 20 nəfərdən çox azərbaycanlı döyüşçü o cümlədən Aslan Əliyev, Müslüm Bağırov, Babaş Dadaşov düşmənə qarşı fədakarlıqla vuruşmuşlar.

Düşmən arxasında fəaliyyət göstərən sovet partizanları faşistlərə qarşı mübarizədə müxtəlif üsullardan istifadə edirdilər. Bu üsullardan biri də alman əsgəri forması geyib, leqal şəkildə faşistlər arasında kəşfiyyat-təxribat işləri aparmaqdan ibarət idi. X.S.Babanlının rəhbərliyi altında Dnepropetrovsk vilayətində fəaliyyət göstərən azərbaycanlılardan ibarət partizan qrupu da bu mübarizə üsulundan məharətlə istifadə etmiş, nəticədə düşmən xeyli itki vermişdi.

M.Naumovun dəstəsində, Ternopol və Çerniqov vilayətlərindəki partizan birləşməsində azərbaycanlı döyüşçü alman işğalçılarına qarşı cəsarətlə vuruşmuşdu. Aslan İbadov hərbi əsir düşərgəsindən 15 nəfərin qaçmasını təşkil etmişdi. Ukraynadakı Şors partizan dəstəsi Azərbaycan döyüşçülərindən ibarət ən böyük partizan dəstəsi idi.

1943-1944-cü illərdə Krımda 33 partizan dəstəsi vuruşurdu. Bunlardan biri də döyüşçülərinin 90%-i azərbaycanlılardan ibarət olan 8-ci Azərbaycan partizan dəstəsi idi.

Leninqrad vilayətində 1941-1942-ci illərdə N.C. Allahverdiyev, H.C.Axundzadə, H.Ə.Əliyev, R.Z.Əliyev və başqaları partizan dəstələrinə rəhbərlik etmişdilər.

1942-ci ilin sentyabrında Krasnodon şəhərinin gəncləri almanlara qarşı "Gənc qvardiya" adlı gizli komsomol təşkilatı yaratmışdılar. Gənc qvardiyanın fəal üzvlərindən biri azərbaycanlı Əli Dadaşov (Leonid Dadışev) idi. 1943-cü ildə Ə.Dadaşov digər gənc qvardiyaçılarla birlikdə güllələnmişdir.

Rusiyanın Kalinin vilayətindəki Liza Çaykina adına partizan briqadasının qərargah rəisi İsmayıl Əliyevin rəhbərliyi altında 1942-ci ilin dekabrında partizanlar düşmən qarnizonunu darmadağın etmiş xeyli hərbi sursat ələ keçirmişdi. 1943-cü ilin aprelində İ.Əliyev düşmən mühasirəsini yarıb çıxarkən qəhrəmanlıqla həlak olmuşdu.

Azərbaycan partizanları Baltika respublikaları ərazisində də fəaliyyətdə olublar. Litvanın Trakay rayonundakı "Azad Litva" partizan dəstəsinin döyüşçüsü İ.Alxasov silah yoldaşı ilə birlikdə faşistlərlə qeyri-bərabər döyüşə girərək öz canları bahasına xalq intiqamçılarının həyatını xilas etmişdilər.

Estoniyada A.Kozlovun partizan dəstəsinin döyüşçüsü İ.Dadaşov 1941-ci il noyabrın 6-da beş nəfər partizanla birlikdə təyyarə meydanında faşistlərin 16 təyyarəsini yandırmışdı.

Azərbaycandan olan hərbi əsirlər Almaniya, İtaliya, Fransa, Polşa və digər ölkələrin ərazilərində yerləşən hərbi düşərgələrdə düşmənə qarşı müxtəlif mübarizə formalarından istifadə etmişdilər.

Polşada fəaliyyət göstərən "Avanqard" partizan dəstəsinin tərkibində 12 azərbaycanlı partizan 1944-cü il noyabrında A.Bubnovun rəhbərliyi ilə alman generalı Ernest Rostu əsir almışdılar.

Çexoslovakiyada "Fakel", "Qrom", "Yan Qus" və başqa partizan dəstələrinin tərkibində 500-ə qədər azərbaycanlı döyüşçü vuruşurdu. Azərbaycanlılar hərbi əsir düşərgələrində və bir çox hallarda öz iradəsi əksinə cəlb olunduqları hərbi hissələrdə gizli antifaşist təşkilatları yaradır, mübarizəni davam etdirirdilər.

Hələ Almaniyanın "Ştrans" düşərgəsində saxlanılarkən Mehdi Hüseynzadə, Rza Ağazadə, Cavad Həkimli, Mirdamət Seyidov, Mikayıl Qulubəyov, Firudin Hüseynov, Cəmil İsmayılov və başqalarının rəhbərliyi altında antifaşist təşkilatı yaradılmışdı.

1943-cü ildən başlayaraq faşist komandanlığı sovet hərbi əsirlərindən və onlardan təşkil olunmuş hərbi hissələrdən Avropanın müxtəlif ölkələrində partizanlara qarşı mübarizədə istifadə etməyə çalışdı. Bu məqsədlə 1943-cü ilin ortalarında

onların bir hissəsi Şimal-şərqi İtaliya ilə Triyestin sərhədinə gətirildi. Hərbi əsirlər qaçaraq Yuqoslaviya partizanlarına qoşulurdu.

Azərbaycanlı partizanlar əvvəl Yuqoslaviya Xalq Azadlıq Ordusunun tərkibində olan İvan Qradnik adına zərbə briqadasında döyüşürdülər. Sonralar isə xüsusi sovet partizan bölüyü yaradılmış, Cavad Həkimli onun komandiri, Miryaqub Ağalarov isə komissarı təyin olunmuşdu. 1944-cü ilin yazında sovet partizanları İtaliya və Sloven partizanları ilə birlikdə bir sıra kəndlərin faşistlərdən təmizlənməsində fəal iştirak etmişdilər. Qərargahda xüsusi kəşfiyyatçılar qrupu yaradıldı. Onun tərkibinə slovak partizanları ilə yanaşı, azərbaycanlılardan Mirdamət Seyidov, Tağı Əliyev, Ənvər Məmmədov da daxil edildilər. Kəşfiyyat qrupuna Mehdi Hüseynzadə başçılıq edirdi. M.Hüseynzadə (Mixaylo) özünün əfsanəvi qəhrəmanlıqları ilə Yuqoslaviyanın Adriatik dənizi sahillərində yaşayan bütün əhalinin dərin rəğbətini qazanmışdı. 1944-cü ilin yazında partizanlar, xüsusilə də yaralılar tibbi ləvazimat, silah və ərzaq çatışmazlığı üzündən çətin vəziyyətə düşdükləri bir zamanda Mehdi bir neçə partizanla alman hərbi formasını geyərək Triyest şəhərinin ticarət bankına daxil olur və gözətçinin telefon xəttini kəsərək, 5 milyon italyan lirəsinin bankdan çıxarırlar.

M.Hüseynzadə tez-tez alman zabiti hərbi formasında hərəkət edirdi. Bəzən də onu kəndli, rəssam və mətbəə işçisi paltarında görürdülər.Alman faşistləri Hitlerin ad gününü qeyd edən zaman Mixaylo hərbi təyyarə meydanına daxil olaraq üç təyyarəni, benzin anbarını minaladı və baş verən partlayış nəticəsində təyyarə meydanı alovlandı, 20-ə yaxın faşist məhv oldu.

1944-cü ilin martında M.Hüseynzadənin döyüş dostları ilə birlikdə Triyestdə partlatdığı zabit yeməkxanasında 150 faşist məhv olmuş, 354 nəfər yaralanmışdı. Həmin il aprelin 2-də onun qrupunun Optçina şəhəri kinoteatrında törətdiyi partlayış nəticəsində 80 alman əsgəri və zabiti ölmüşdü.

1944-cü ilin yayında M.Hüseynzadə alman əsgəri formasında

faşistlərin kazarmasına daxil olmuş, yanğın əleyhinə avadanlığa mina qoyaraq üçmərtəbəli binanı yerlə yeksan etmişdi.Onun fəaliyyəti nəticəsində 1000 nəfər faşist öldürülmüşdü.

1944-cü il noyabrında Qoritsa şəhəri yaxınlığında almanların hərbi sursat anbarının partladılmasında iştirak edən Mehdi Hüseynzadə dəstəyə qayıdan zaman casuslarla qarşılaşmış, yayınmaq üçün Vitovle kəndinə gəlmişdi. O, burada faşistlərlə döyüşdə həlak olmuşdur. M.Hüseynzadəyə ölümündən sonra 1957-ci ildə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.

M.Hüseynzadə ilə bərabər onun döyüş dostları - M.Seyidov, T.Əliyev, Ə.Məmmədov, K.Məmmədov, Ə.Babayev və başqaları faşizmə qarşı amansız mübarizə aparmış, xalqımızın tarixinə şanlı səhifələr yazmışlar. 50 nəfərdən çox azərbaycanlı partizan yüksək döyüş xidmətlərinə görə Yuqoslaviyanın müxtəlif orden və medalları ilə təltif edilmişdi.

1944-cü ildə sovet döyüşçüləri İtaliya hərbi düşərgələrindən kütləvi surətdə qaçaraq partizan dəstələrinə qoşulmuşlar . İtaliiyanın faşist diktatoru B.Mussolinini həbs edən partizanlar arasında Vilayət Hüseynov da vardı. Şimali İtaliyada 300-dən çox azərbaycanlı döyüşçünün müqavimət hərəkatında vuruşduğu müəyyən edilmişdir.

1944-cü ilin əvvəllərində Fransa ərazisində partizan dəstələrinin tərkibində vuruşan azərbaycanlılar fransız xalqının rəğbətini qazanmışlar.

1943-cü ilin axırlarında Rodez əsir düşərgəsində toplanmış azərbaycanlılar fransız kommunistləri ilə əlaqə yaratdılar və 1944-cü ildə bu əlaqələr daha da genişləndi. B.Məmmədov Averyon vilayəti müqavimət hərəkatının rəhbəri, kommunist polkovnik Rişardla görüşmüş və azərbaycanlı əsirlərin qaçıb partizanlara qoşulması üçün "Azrodez" - Rodezdəki azərbaycanlılar parolunu müəyyənləşdirmişdi. Bundan sonra gizli təşkilat azərbaycanlı əsirlərin dəstə-dəstə düşərgədən qaçıb, fransız partizanları ilə birləşməsi işinə başladı. Düşərgədən qaçan hərbi əsirlər fransız vətənpərvərlərinin köməyi ilə Aveyron dağlarında yerləşən "Sovet

vətənpərvərlərinin hərbi komitəsi" adlanan təşkilatla birləşirdilər. Antifaşist təşkilat əsirlərin kütləvi surətdə qaçmasını təmin etmək üçün 1944-cü il avqustun 15-nə keçən gecə üsyan qaldırmağı qərara aldı. Lakin casus üsyanın başlamasına iki saat qalmış düşərgənin komandanlığına xəbər çatdırmış, üsyanın rəhbərləri dərhal həbs edilmiş, əsir düşərgəsi isə mühasirəyə alınmışdı. Yalnız gizli təşkilatın bir qrup üzvü meşəyə qaçıb fransız partizanlarına qoşula bilmişdi. Faşistlər həbsə alınanları ölüm cəzasına məhkum etmiş, 50 nəfərdən çoxunu diri-diri yandırmışlar. Lakin bu hadisədən iki gün sonra fransız və azərbaycanlı partizanlar tərəfindən Rodez şəhəri faşistlərdən azad edilmişdi.

Larzak şəhəri yaxınlığında faşist əsarətindən azad olunmuş azərbaycanlı hərbi əsirlərdən ibarət Azərbaycan partizan alayı təşkil edildi. Alayın komandiri H.Məmmədov idi. Alay Larzak, Rodez və digər rayonların faşistlərdən azad edilməsində qəhrəmancasına vuruşmuşdu.

Bir sözlə, 1943-1945-ci illərdə Fransa antifaşist müqavimət hərəkatında 2000 nəfərə yaxın azərbaycanlı iştirak etmişdi. Bunlardan bir şoxları cəsur partizan kimi tanınmış, bir neçə ali fransız hərbi orden və medalları ilə təltif edilmişdilər. Əhmədiyyə Cəbrayılov "Armed Mişel" adı ilə bu ölkənin azadlıq hərəkatında fəal iştirak etmiş, şəxsi igidliyə görə paradda əsgərə generaldan irəlidə getmək kimi şərəfli hüquq verən yüksək mükafatla - Hərbi medalla təltif olunmuşdu.

Azərbaycan döyüşçülərindən M.Seyidov, Ə.Əlimərdanov faşistlərin Buhenvald, Mauthauzen, Daxau, Zaksenhauzen ölüm düşərgələrində Avropa ölkələrindən olan antifaşistlərlə birgə fəal iş aparırdılar. Əkbər Ağayev Buhenvald ölüm düşərgəsində antifaşist təşkilatın fəal üzvlərindən biri olmuşdur.

Milli legion. Hələ müharibənin əvvəllərindən faşist komandanlığı hərbi əsirlərdən öz məqsədləri üçün istifadə etməyə çalışırdı. Moskva ətrafında məğlubiyyətdən sonra alman-faşist hökuməti əsirlərdən köməkçi hərbi hissələr təşkil etməyə başlamışdı. 1941-ci il dekabrın 22-də Hitler əsirlərdən xüsusi hərbi

hissələr yaradılması haqqında əmr verdi.

Türk legionlarının yaradılması ideyasını Hitlerə Türkiyə Ordusunun generalı Hüsni Ərkilət vermişdir. Başqa milli hissələrlə yanaşı, azərbaycanlılar da daxil olmaqla, Qafqaz müsəlmanlarından ibarət legion yaradıldı. Onlar almanca "xivi" (köməyə hazır olanlar) adlanırdı. Əvvəlcə arxa və ön cəbhədə köməkçi işlərdə çalışırdılar.

Bu məqsədlə vətənlərindən xaricdə, mühacirətdə yaşamağa məcbur olan Azərbaycanın nüfuzlu şəxsləri, o cümlədən Məmməd Əmin Rəsulzadə 1941-ci ildə Berlinə dəvət edilmişdi. Azərbaycan tərəfinin mövqeyi Almaniya hökumətinə təqdim olunmuş 12 maddədə öz ifadəsini tapmışdır: Azərbaycanlı siyasi mühacirlərin əsas məqsədi Almaniya qalib gələrsə, onun Azərbaycanı müstəqil dövlət kimi tanımasına, habelə hərbi əsirlər arasından azərbaycanlıların tapılıb ölümdən xilas edilməsinə (faşistlər onları bəzən yəhudi hesab edərək öldürürdülər), milli Azərbaycan ordusunun yaradılmasına nail olmaq idi. Alman rəhbərliyi ilə danışıqlarda siyasi mühacirlər əsas məqsədlərinə nail ola bilmədilər. Doğrudur, 1942-ci ilin sonlarında Berlində başqa xalqlarla bərabər, azərbaycanlıların xaricdəki nümayəndələrinin də yığıncağı keçirildi və Berlində Milli Azərbaycan Komitəsi təşkil edildi. Lakin Hitler hökuməti əməkdaşlıq üçün gələcəkdə Azərbaycanın müstəqilliyinin tanınmasını əsas şərt kimi irəli sürən bu komitəni tanımadı. M.Ə.Rəsulzadə ölkəni tərk etməyə məcbur oldu. Lakin azərbaycanlı əsirlərin bir hissəsi ölümdən xilas olundu və əsirlərdən ibarət hərbi hissədə birləşdirildi. Qafqaz müsəlmanlarının hərbi hissəsində azərbaycanlılardan ibarət "Boz qurd", "Aslan", "Vətən", "Dönməz" və s. bölmələr vardı. Onlarla alman hərbi qərargahı arasında "Əlaqə heyəti"nə Fətəlibəyli-Düdənginski (əvvəllər sovet ordusunun mayoru olub), Fuad Əmircan, Abbas bəy Ataməlibəyov daxil idilər. Başqa milli hissələr kimi, bu hissələr də pis silahlandırılır, onlara kifayət qədər hərbi təlim keçirilmirdi. Alman hərbçiləri bu hissələrin döyüşçülərini həqarətlə "ikinci növ" əsgər adlandırırdı. Legionlar

Türküstan, Volqa və Krım tatarları və Qafqaz legionuna bölünürdü. 1942-ci ilin avqustunda yaranmış Azərbaycan legionunun ümumi sayı 36-70 min nəfər idi. Qafqaz xalqlarından təşkil edilmiş milli legionlardan Qafqaz döyüşlərində istifadə olunmuşdu.

Azərbaycan milli legionunun inzibati heyətinə Fuad bəy Əmircan, Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginski, Abbas bəy Atamalıbəyov daxil idi. Azərbaycan legionlarının təşkil olunma və yerləşmə məkanları: Almaniya-Bavariya, Polşa- Rodom və Yedlina şəhərləri, Fransa-Rodez şəhəri, Ukrayna- Zaporojye şəhəri idi.

Azərbaycan legionu 1943-cü ildə Azad türk diviziyası tərkibinə daxil edildi. Azərbaycan milli legionu Mozdok, Kazbek, Elbursda, Krımda, Fransada döyüşmüş, sonra İtaliyaya çəkilmişdir.Almaniyanın məğlubiyyətindən sonra milli legionun döyüşçüləri müxtəlif ölkələrə səpələndiər. Bir hissəsiTürkiyəyə sığınmış, bir qrup azərbaycanlı legionçunu isə Stalin keçid körpüsündə güllələtdirdi ki, ayaqları sovet torpağına dəyməsin.

1943-cü il noyabrın 6-da azərbaycanlilarin milli qurultayı keçrildi. Mühacir Azərbaycan parlamenti və hökuməti yaradıldı. Hökumətin başında Ə.Fətəlibəyli-Düdənginski dururdu. Almaniya bu hökuməti tanıdı. Ancaq gec idi.

Müharibənin son həlledici dövrü və onun yekunları. 1944-cü ilin iyununda Avropada ikinci cəbhənin açılmasına baxmayaraq, almanların əsas qüvvələri alman-sovet cəbhəsində yerləşmişdi.

1944-cü il oktyabrın 20-də sovet və yuqoslav qoşunları tərəfindən Yuqoslaviyanın paytaxtı Belqrad azad olundu. 223-cü diviziyaya "Belqrad" fəxri adı verildi. 223-cü diviziyanın alay komandiri mayor Baxış Mehdiyev və bir çox azərbaycanlı bu döyüşlərdə fərqləndi.

1945-ci il yanvarın 12-də sovet ordusunun Visla-Oder əməliyyatı başlandı. Bu əməliyyatın aparılmasında məqsəd alman-faşist qruplaşmalarını dağıtmaq, Polşanın azad edilməsini başa çatdırmaq, Berlinə həlledici zərbə endirilməsi üçün münasib şərait

yaradılmasını təmin etmək idi. Bu əməliyyatda 416-cı Taqanroq və 223-cü Belqrad diviziyaları fəal iştirak etdilər.

Visla sahillərində gedən döyüşlərdə leytenant Bahəddin Mirzəyev şöhrət qazandı. Yanvarın 14-dən 15-ə keçən gecə onun rotası Vislanı keçib sağ sahildə möhkəmləndi. Əməliyyat qələbə ilə başa çatdı. Bahəddin Mirzəyev igidliyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Düşmənin Visladakı müdafiə istehkamlarının keçilməsində 416-cı diviziyanın batalyonlarından biri yüksək döyüş məharəti nümayiş etdirmişdi. Batalyon düşməni birinci və ikinci müdafiə xətlərindən çıxararaq, diviziyanın hərəkətinə imkan yaratdı. Budapeşt rayonu istiqamətində hərəkət edən 223-cü diviziya Yuqoslaviya-Macarıstan sərhədini keçərək Budapeşt şəhəri uğrunda döyüşlərə başladı. 223-cü diviziya apreldə Avstriyanın paytaxtı Vyananı azad etdi. Vyana istiqamətində hazırlanan hücum əməliyyatlarından bir ay əvvəl 223-cü diviziya Avstriyanın 44 yaşayış məntəqəsi və 4 şəhərini alman işğalçılarından azad etmişdi. Vyana yaxınlığında uğurlu əməliyyatlara görə 223-cü diviziya Qırmızı Bayraq ordeni ilə təltif olunmuş, həmçinin bu diviziya Mərkəzi və Cənubi Avropanın bir sıra ölkələrinin - Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Avstriya, Çexoslovakiyanın azad olunmasında fəal iştirak etmişdi. Ümumiyyətlə, müharibə illərində diviziya 10 min kv.km ərazini, 400 yaşayış məntəqəsini, o cümlədən 19 şəhəri düşməndən təmizləmişdi.

Alman faşistləri ilə döyüşlərdə 223-cü diviziyanın döyüşçüləri 45 mindən çox alman faşistini məhv etmiş və 20 nəfər azərbaycanlı döyüşçüyə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.

1945-ci ilin yanvarında sovet ordusunun Polşaya hücumu zamanı Ziya Bünyadovun başçılıq etdiyi bölüyün bütün döyüşçüləri Plitsa çayı üstündəki körpü uğrunda qeyri-bərabər döyüşdə göstərdiyi igidliyə görə təltif edildilər. Ziya Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Sovet qoşunları 1945-ci ilin aprelində Berlinin alınması və faşistlərin son iqamətgahının darmadağın edilməsi əməliyyatına

başladı. Aprelin 17-də 416-cı diviziya Berlinə yaxınlaşdı, aprelin 26-da Reyxstaq istiqamətində hücuma keçdi, mayın 1-də Kayzer sarayını tutdu və üzərinə Qırmızı bayraq sancdı. Mayın 2-də 416-cı diviziyanın bir qrup döyüşçüsü leytenant A.Məcidovun başçılığı altında Brandenburq qapıları üzərində qələbə bayrağı qaldırdı.

Azərbaycan xalqının fəxri olan Qırmızı Bayraqlı, II dərəcəli Suvorov ordenli Taqanroq diviziyası müharibə dövründə Qafqazdan Berlinə qədər şanlı döyüş yolu keçmiş, 23 minə qədər hitlerçini məhv etmiş, 5.474 nəfəri əsir almışdı. Diviziyanın 8 döyüşçüsü Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 11 döyüşçü Lenin ordeni ilə təltif edilmişdi. Berlin uğrunda döyüşdə azərbaycanlılar Qızıl ordunun birləşmələrində fəal iştirak edirdilər. Sovet İttifaqı Qəhrəmanı Əvəz Verdiyevin komandanlıq etdiyi rota Potsdam vağzalı yaxınlığında faşistləri müdafiə istehkamlarından vurub çıxarmışdı.

Topçu Yusif Sadıxov aprelin 26-da Berlin uğrunda iki saatlıq döyüşdə 8 tank və 204 hitlerçi məhv edərək, düşmən hücumunu pozmuşdu. O, Berlin uğrundakı döyüşlərdə fərqləndiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Hitlerçiləri Berlində sıx halqaya alan I Belorus və I Ukrayna cəbhələrinin qoşunları alman faşizminin darmadağın edilməsini başa çatdırdı. Aprelin 30-da sovet qoşunları hitlerçilərin son müqavimətini qırıb Reyxstaqı ələ keçirdi və üzərinə Qələbə bayrağı sancdı.1945-ci il mayın 8-də faşist Almaniyası Berlində qeyd-şərtsiz təslim aktına qol çəkdi. Mayın 9-u tarixə sovet xalqının Qələbə bayramı kimi daxil oldu.

1945-ci il iyunun 24-də Moskvada, Qızıl meydanda Azərbaycan döyüşçüləri nümayəndələrinin də iştirak etdiyi sovet ordusunun Qələbə paradı keçirildi.

1945-ci il avqustun 6-sı və 9-da ABŞ Yaponiyaya iki atom bombası atdı, avqustun 9-da SSRİ Yaponiyaya müharibə elan etdi. Avqustun 10-da sovet hərbi qüvvələri Mancuriya və Koreyada yerləşən yapon qoşunlarına qarşı döyüşlərə başladı. 24 gün davam edən döyüşlərdə Azərbaycan xalqının nümayəndələri də vuruşurdu.

223-cü Azərbaycan diviziyası Uzaq Şərqə göndərilmişdi. Ayrı-ayrı hərbi hissələrin tərkibində də azərbaycanlılar döyüşürdülər. Göstərdikləri əsgəri rəşadətə görə bir çox azərbaycanlılar "Yaponiya üzərində qələbəyə görə" medalı ilə təltif olunmuşdular.

1945-ci il sentyabrın 2-də Yaponiya hökuməti ABŞ-ın "Missuri" xətt gəmisində təslim aktına qol çəkdi. Bununla da İkinci Dünya müharibəsi başa çatdı.Müharibədə Sovet İttifaqı xalqları 27 milyon nəfərdən artıq şəhid vermişdi. Azərbaycan SSR-dən cəbhəyə getmiş 700.000 nəfərə qədər döyüşçüdən 300.000 nəfəri həlak olmuşdu.

Hərbi rəşadətə görə 120 nəfərdən çox azərbaycanlı döyüşçü Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. 30 nəfər azərbaycanlı döyüşçü "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə, 170 mindən artıq əsgər və zabit müxtəlif orden və medallarla təltif olunmuşdu.

SSRİ müharibədən qalib çıxdı. Bunun başlıca səbəbi ölkənin, xalqın gücünün qələbəyə uğurla səfərbər olunması idi. Ölkənin rəhbərliyi inzibati idarəçilik metodlarını daha da möhkəmləndirib, iqtisadiyyatı qısa bir zamanda hərbin tələbləri əsasında yenidən qura bildi. Xalqların iqtisadi, hərbi və mənəvi qüvvələri birləşdirildi. Azərbaycan xalqı İkinci Dünya müharibəsində SSRİ-nin qalib çıxmasına öz layiqli töhfəsini verdi.

İqtisadiyyat müharibə illərində. Orduya ümumxalq köməyi. Ölkədə tezliklə sənayeni hərbi tələblərə uyğun yenidən qurmaq, birinci növbədə, ordunu yüksək keyfiyyətli yanacaqla, hərbi ləvazimatla və ərzaqla təmin etmək tələb olunurdu. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində, vilayət, şəhər və rayon komitələrində neft hasilatı, neft emalı, neft maşınqayırması və elektrik stansiyaları, tikinti, yeyinti, kənd təsərrüfatı, nəqliyyat, şəhər təsərrüfatı və s. kimi sahələrə rəhbərlik edən yeni şöbələr yaradıldı.1941-ci il iyunun 28-də bütün işlər cəbhənin tələblərinə uyğun qurulmağa başlandı.İş günü 11 saata qaldırıldı.Məzuniyyətlər ləğv olundu.İşi özbaşına tərk edənlərə 5-8 il həbs cəzası verilirdi.Sənaye malları və ərzaq üçün kartoçka

sistemi tətbiq edildi. Respublika xalq təsərrüfatının minlərlə işçisi Qızıl ordu sıralarına səfərbər olunmuşdu. Təkcə 1941-ci ildə Azərbaycanın neft hasilatı və neft emalı sənayesi müəssisələri fəhlələrinin 1/3 cəbhəyə getmişdi. Maşınqayırmada, dəmir yol, su nəqliyyatında, kolxoz və sovxozlarda da vəziyyət belə idi. Mərkəzi sənaye rayonlarından respublikaya material və avadanlıq gətirilməsi zəiflədi. Sonralar isə tamamilə dayandırıldı. Dövlət Müdafiə Komitəsinin qərarı ilə 1941-ci ilin yayından etibarən, Azərbaycanın bəzi zavodlarının Şərqə köçürülməsinə başlandı.

Xalq təsərrüfatının hərbi istiqamətdə uğurla fəaliyyət göstərməsi üçün ehtiyatda olan iş qüvvəsinin istehsalata cəlb olunmasına başlandı, hökumət növbəti məzuniyyətləri əvəzinə pul ödəməklə ləğv etdi, iş günü uzadıldı, qadınlar və yeniyetmələr istehsalata gəldilər. Respublikada 20 minə qədər əmək veteranı və əlil istehsalata qayıtdı. Xalq təsərrüfatının işçi qüvvəsi ilə təmin edilməsində qadınlar və yeniyetmələr mühüm rol oynadılar.

Müharibə illərində minlərlə oğlan və qız istehsalata gələrək, cəbhəyə getmiş ata və qardaşlarını əvəz etdi. Fəhlə kadrları hazırlamaq üçün respublikada 28 fabrik-zavod məktəbi, 12 peşə məktəbi, 2 dəmir yol məktəbi fəaliyyət göstərirdi. 1941-ci ilin yayında və payızında peşə və fabrik-zavod məktəblərində təhsil almaq üçün respublikanın şəhər və kəndlərindən çoxlu yeniyetmə cəlb olunmuşdu. Müəssisələrdə ixtisas kursları, texniki kurslar və dərnəklər, qabaqcıl təcrübə məktəbləri fəaliyyət göstərirdi.

Neft sənayesinin maddi-texniki əsasını möhkəmləndirmək məqsədilə DMK və Köçürmə Sovetinin qərarı ilə Bakıya ölkənin cənub və qərb rayonlarından köçürülən 20 iri müəssisənin qurğuları gətirilmişdi.

Azərbaycan xalqı "hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarına qoşuldu.Cəbhə sifarişlərini yerinə yetirmək üçün zavodun əməkçiləri hər gün 18-20 saat işləyirdilər.Silah və döyüş sursatını hər zavodda ayrılıqda istehsal etmək imkanı olmadığından, maşınqayırma zavodları müdafiə məhsullarının istehsalı üzrə kooperativlər yaradırdılar. L.Şmidt adına zavodun kollektivi

əlaqədar müəssisələrlə birgə işləyərək, 40 gün üçün nəzərdə tutulmuş işi 16 gün ərzində yerinə yetirirdi. Aviabombaların istehsalına başlayan gəmi təmiri zavodu planı vaxtından əvvəl ödəyirdi. Avtomobil təmiri zavodunun kollektivi "M-13" minomyotu hissələrini, "PPŞ" avtomatlarını, tank hissələrini istehsal edirdi. 1942-ci ilin sonlarında Bakıda 130 növ silah, sursat və başqa hərbi ləvazimat istehsal olunurdu.

Gəncə şəhərində 12 sənaye müəssisəsi müharibənin tələbləri əsasında yenidən qurulmuşdu və 26 adda hərbi məhsul istehsal edirdi.

Cəbhəni vaxtında və yüksək keyfiyyətli yanacaqla təmin etmək vəzifəsini Azərbaycan neftçiləri böyük şərəflə yerinə yetirirdilər. Ölkənin qərb neft rayonları işğal olunmuşdu. Şimali Qafqaz neft rayonları böyük təhlükə qarşısında qalmışdı. Bakı nefti Qızıl ordunun ən etibarlı dayağı idi. Ümumdövlət səviyyəsində daim diqqət mərkəzində olan ölkədə hasil edilən neftin 70-75%-ni, aviasiya benzini istehsalının 85-90%-ni Bakı verirdi. Bakı hərbi-dəniz qüvvələrini də yüksək keyfiyyətli mazutla təmin edirdi. Azərbaycan,paytaxt Bakı sovet ordusunun mühüm cəbbəxanalarından birinə çevrilmişdi. 1941-ci ilin ağır çətinliklərinə baxmayaraq, Azərbaycan neftçiləri 23.481 min ton neft və 25.864 min kub.m qaz istehsal etmişdilər. Bu, respublika neft sənayesi tarixində ən yüksək göstərici idi.Neftçi mütəxəssislərin 40%-nin cəbhəyə səfərbər edilməsi, qazma işlərinin dayandırılması, neft maşınqayırma zavodlarının çoxunun hərbi müdafiə məhsulları buraxmağa başlaması və neft sənayesinə vəsait qoyuluşunun kəskin surətdə azaldılması nəticəsində 1942-ci ildən neft hasilatı aşağı düşməyə başladı. Bununla belə neftçilər çətinliklərdən çıxmaq üçün əzmlə çalışırdılar.Qısa müddət ərzində dörd qazma kontoru yaradıldı. Dövlət Müdafiə Komitəsinin qərarı ilə minlərlə gənc ordu sıralarına çağırışdan azad edilərək, neft sənayesinə göndərildi. Sonralar onların sırasından Sosialist Əməyi Qəhrəmanları Qurban Abbasov, Musa Bayramov, Yusif Fərzəliyev, Məmməd Qənbərov, Qaraş Əmirov və digər məşhur

qazma, tikinti-təmir ustaları yetişmişdi. DMK həmçinin yüksək ixtisaslı neft mütəxəssislərinin ordu sıralarından vaxtından əvvəl tərxis olunması barədə də qərar qəbul etmişdi.Mədən qazma ustaları Baba Qafar Muradov, Rüstəm Rüstəmov, Gülbala Əliyev və başqaları 1943-cü il yanvarın ilk günlərindən qazma normasını bir yarım-iki dəfə artıqlaması ilə yerinə yetirdilər.

1941-1945-ci illərdə SSRİ-nin neft sənayesi 110 milyon ton neft hasil etmişdi ki, onun 75 milyon tonu Azərbaycanın payına düşürdü.

Müharibə illərində Bakı neftçiləri ölkənin şərqində yaradılmağa başlanan və "İkinci Bakı" adını almış neft rayonlarının inkişafına da öz töhfələrini vermişdilər. DMK Bakı neftçilərinə müraciət edərək xam neft yataqlarının işlənilməsi, neft hasilatının hər vasitə ilə sürətləndirilməsi üçün onları perspektivli neft rayonlarına köçməyə çağırdı. 1942-ci ilin iki-üç ayı ərzində Bakının doqquz qazma kontoru, neft-kəşfiyyat, neft-tikinti trestləri, boru bazaları və bəzi başqa neft müəssisələri bütün şəxsi heyəti, mexanizmləri və avadanlığı ilə şərqə köçürüldü. Bakının on mindən çox neft istehsalı komandiri, yüksək ixtisaslı mühəndis-texniki işçilər, mahir neft ustaları şərq rayonlarına göndərildi.Bakı neftayıranları aviasiya benzininin və müxtəlif müdafiə məhsullarının istehsalını artırmaqda davam edirdilər. Mühəndis-texniki işçilərin və alimlərin səyi sayəsində cəbhə üçün yüksək oktanlı benzin istehsalı uğurla həyata keçrildi. Azərbaycanın neft emalçıları 1941-ci ildə neft emalı planını 102,4%, yeni növ benzin istehsalını 118% yerinə yetirmişdilər.

1941-1945-ci illərdə neft emalçıları 22 milyon ton neft məhsulları istehsal etmişdilər. Həmin illərdə Bakının neft emalı zavodları cəbhəyə bir milyon ton B-78 aviabenzini göndərmişdi.

Müharibədə ordunun döyüş texnikasının 75-80%-i Azərbaycan neftçilərinin qəhrəman əməyi nəticəsində hərəkətə gətirilmişdi. Bakının müharibədə rolunu sovet ordusunun sərkərdələri: Sovet İttifaqı marşalları G.K.Jukov, R.Y. Malinovski və başqaları dəfələrlə qeyd etmişlər. Marşal G.K.Jukov yazırdı: "Bakı neftçiləri

cəbhəyə və ölkəyə vətənimizin müdafiəsi üçün, düşmən üzərində tezliklə qələbə üçün nə qədər lazım idi, o qədər də yanacaq vermişdilər". Bakı neftçilərinin qəhrəman əməyi Qızıl orduda yüksək qiymətləndirildi.

Azərbaycanın yüngül, yeyinti sənayesi də öz işlərini hərbi tələblər əsasında qurmuşdu. Yüngül sənaye müəssisələri hərbi geyimlər hazırlayırdılar. 1941-ci ildə Rostovdan köçürülmüş ayaqqabı fabriki əsasında Bakıda əsgərlər üçün ayaqqabı fabriki işə salındı. Respublikada Qızıl orduya döyüş ləvazimatı, keçə ayaqqabı, paltar, kimyəvi silahlar əleyhinə geyim, hərbi hospitallar üçün mebel, yanğın əleyhinə alətlər və s. ləvazimat istehsal edilirdi. Respublikada tibb preparatları və onlar üçün xammal, kalsium-xlorid, natrium-xlorid, yodlu kalium, tənzif, pambıq, şpris istehsal olunurdu.Müharibə illərində Azərbaycan toxuculuq kombinatı iki dəfə birinci yeri və DMK-nın bayrağını qazanmışdı. Volodarski adına tikiş fabriki dörd dəfə birinci yerə layiq görülmüşdü. 1941-ci ildə Rostovdan gətirilən avadanlıq əsasında Bakıda rezin məmulatları fabriki işə düşdü. Yeyinti sənayesi müəssisələri də verilən planları artıqlaması ilə yerinə yetirirdilər.İlk növbədə ordunu çörəklə və başqa ərzaq məhsulları ilə təmin etmək, bunun üçün əkin sahələrini genişləndirmək, taxıl istehsalını artırmaq lazım idi. MTS-nın siyasi şöbələri kənd təsərrüfatı planlarının vaxtında yerinə yetirilməsinə, əmək intizamının yüksəldilməsinə nəzarət edirdilər. İşçi qüvvəsinin böyük əksəriyyəti, kəndin ixtisaslı qüvvələri - mexanik və sürücülər, kombaynçı və traktorçular cəbhəyə getmişdilər. Kənd təsərrüfatı məhsulları istehsalının bütün ağırlığı qadınların və yeniyetmələrin üzərinə düşürdü. Kolxoz və sovxozların maddi-texniki əsası xeyli zəif idi. Müharibənin birinci ilində avtomaşınlar, traktorlar, atlar ordunun ehtiyacları üçün verilmişdi.1941-ci ilin yay və payızında kolxoz sahələrinə 5 mindən artıq mexanizator qadın cəlb olunmuşdu. Kənd təsərrüfatına ixtisaslı kadrlar hazırlamaq üçün 17 məktəb fəaliyyət göstərirdi. Respublikada 1941-1942-ci illərdə hazırlanmış 10 min

mexanizatorun yarıdan çoxunu qadınlar təşkil edirdi. 1943-cü ildən respublikanın əkin sahələrində azərbaycanlılarla birgə Ukrayna və Şimali Qafqazdan köçürülmüş əkinçilər də çalışırdılar.

Kənd təsərrüfatı üzrə çöl işlərinə qulluqçular, məktəblilər, texnikumların və ali məktəblərin tələbələri cəlb olunurdular. Bir çox rayonlarda kolxozlar daxili torpaq və toxum ehtiyatları hesabına əkin sahələrini 10-15% genişləndirdi. Kolxoz və sovxozlarda "Cəbhəyə və ölkəyə daha çox çörək, ət və sənaye üçün xammal verək!" şüarı altında staxanovçular və kənd təsərrüfatı qabaqcılları hərəkatı geniş vüsət aldı.

1943-cü ildə Azərbaycanın sənaye müəssisələri kənd təsərrüfatı üçün texnika və avadanlıq istehsalını artırdı. DMK-nın qərarı ilə Ukraynadan və Şimali Qafqazdan kənd təsərrüfatı maşınları zavodlarının köçürülməsi hesabına hələ 1942-ci ildə Gəncədə kənd təsərrüfatı maşınları üçün ehtiyat hissələri istehsal edən zavod yaradılmışdı. Bakının maşınqayırma zavodları MTS-lər üzərində hamiliyi genişləndirdilər. Təkcə 1943-cü ilin birinci yarısında Bakıdan kəndlərdə işləməyə 200-dən artıq ixtisaslı fəhlə göndərildi.Kənd təsərrüfatı maşınlarını təmir etməkdə böyük uğurlar qazanmış Kalinin adına zavodun kollektivi 1943-cü ildə Ümumittifaq sosializm yarışında birinci yeri tutdu. Azərbaycan kolxozçularının qəhrəman əməyi hökumət tərəfindən yüksək qiymətləndirildi, onlar SSRİ-nin orden və medalları ilə təltif olundu. Müharibənin çətinliklərinə baxmayaraq, maldarlığın inkişafı dayanmadı, heyvandarlıq məhsulları istehsalı artdı. Hərbi şəraitin tələbi əsasında nəqliyyatın işi yenidən quruldu. Hərbi hissələrin hərəkəti, onlara silah, sursat, ərzaq daşınması, habelə əhalinin, müəssisələrin köçürülməsi, sənayenin xammala tələbatının ödənilməsi nəqliyyatın ahəngdar işləməsi sayəsində vaxtında təmin olunurdu. Bakı dəmir yolu əsasən yanacaq daşınması ilə məşğul idi. 1941-ci ilin iyul ayında 1560 sistern daşınmışdısa, avqustda bunun sayı 2325-ə çatmışdı.1941-ci ilin avqustundan Bakı dəmir yolu şəbəkəsinə Rostov, Xarkov, Odessa, Taqanroq, Novorossiysk və digər şəhərlərin 450-dən çox

müəssisəsindən köçürülmə yüklər daxil olmuşdu.

Böyük Britaniya və ABŞ İran körfəzi, habelə İran ərazisindəki dəmir yolları vasitəsilə müxtəlif təyinatlı yüklər göndərməyə başlamışdılar. Müharibə illərində ABŞ və İngiltərədən, sonralar isə Kanadadan SSRİ-yə 400 min avtomobil, 2,6 mln ton neft və neft məhsulları, 9,6 min top, 10,8 min tank və 18,7 min təyyarə göndərmişdilər ki, bunlar da Azərbaycan dəmir yolu nəqliyyatı vasitəsilə təyinat yerlərinə çatdırılmışdı. Hərbi yüklərin daşınması üzrə işlərə rəhbərlik edənlərdən biri də azərbaycanlı general-mayor Ə.M.Əzizbəyov idi.

1941-ci ilin noyabrında DMK-nın göstərişi əsasında Qroznı neft sənayesi zavodları da Bakı limanı vasitəsilə ölkənin şərq rayonlarına göndərilirdi. Azərbaycan dəmir yolu cəbhəni yanacaq və döyüş ləvazimatı ilə təchiz edən xətlərdən idi. Culfa-Mincivan dəmir yolu yenidən qurulmuş, Salyan-Neftçala, Papanin-Hacıqabul yolu çəkilmiş, Yevlax-Xankəndi darxətli dəmiryol hissəsi inşa olunmuşdu. Xəzər Gəmiçiliyi İdarəsi (Kaspflot) və neftdaşıyan Xəzər Neft Gəmiçiliyi İdarəsini (Kasptanker) təmsil edən Xəzər dəniz nəqliyyatı Azərbaycanın nəqliyyat sistemində əhəmiyyətli yer tuturdu. 1941-ci il iyunun 1-nə olan məlumata görə, "Kasptanker"in 69 tankeri, "Kaspflot"un isə 76 gəmisi var idi. 1941-ci ilin avqustunda SSRİ Dəniz Donanması Xalq Komissarlığının göstərişi ilə bu idarələrdən Xəzər Hərbi Donanmasına sərnişin daşımaq məqsədilə 11 tanker ayrılmışdı. "Dağıstan", "Türkmənistan", "Qırğızıstan" sərnişin teploxodları yaralıları daşımaq üçün üzən hospitala çevrilmişdi.1941-ci ilin avqustunda "Kaspflot" və "Kasptanker"in 30 gəmisi, o cümlədən bir neçə tanker Xəzər sahilində döyüş əməliyyatlarında fəal iştirak etmişlər. 1942-ci ilin ortalarında Xəzərdə vəziyyət xeyli mürəkkəbləşmişdi. Stalinqrad yaxınlığında döyüşlərlə yanaşı, alman-faşist təyyarələri dəmir yolları və gəmiləri də ardıcıl bombalayırdılar.Xəzər dənizçiləri düşmən təyyarələrinin gəmilərə basqınlarını dəf etməli olurdular. Neftdaşıyan donanmanı hava basqınlarından müdafiə etmək üçün tankerlərə müdafiə topları,

zenit pulemyotları qoyulmuşdu.

Xəzər dənizçiləri dünya təcrübəsində ilk dəfə olaraq Bakı nefti doldurulmuş sisternləri və çənləri gəmilərin yedəyinə alıb Bakıdan və Mahaçqaladan Krasnovodska aparırdılar. 1941-ci ilin oktyabrından müttəfiqlər İran vasitəsilə SSRİ-yə kauçuk, mis, qalay, kimyəvi məhsullar göndərməyə başladılar. SSRİ-yə gətirilən döyüş texnikası, silah, sursat və ərzağın bir hissəsi 1942-1945-ci illərdə İran körfəzindən keçməklə, İranın Xürrəmşəhr və Bəndər-Şahpur limanlarından göndərilirdi. Bu sahədə Azərbaycan dəniz nəqliyyatı işçiləri xüsusilə fərqlənirdilər.

1941-1945-ci illərdə Azərbaycan xalq təsərrüfatından orduya 5457 yük, 371 minik maşını və 301 digər avtomobil səfərbər edilmişdi.1942-ci ildə Bakıda 2 saylı avtomobil təmiri zavodu və avtomobil ehtiyatı hissələri hazırlayan Avtodetal zavodu yaradıldı. 1941-1945-ci illərdə 919 km. yol istismara verilmişdi ki, bunlar da Bakı-Astara, Bakı-Gürcüstan sərhədinədək hərbi, təsərrüfat əhəmiyyətli yollar idi. Salyanda Kür çayı üzərində salınan iri körpü ilə yanaşı, digər yerlərdə iri metal və dəmir-beton körpülər tikilmişdi.Rayonlararası hava xətlərindən geniş istifadə edilmiş, mövcud Bakı-Moskva, Bakı-Minvod-Stavropol, Bakı-Həştərxan magistral hava nəqliyyatı xətlərinin fəaliyyəti yaxşılaşdırılmışdı. Müharibə şəraitində respublika rayonlarının hamısının Bakı şəhəri ilə telefon rabitəsi fəaliyyət göstərirdi. 1945-ci ildə artıq çoxlu sovxoz, kolxoz və MTS telefonlaşdırılmışdı.

Cəbhəyə xalqımız da öz şəxsi fondundan köməyini əsirgəmirdi. 1941-ci ilin sentyabrında partiyanın "Əhali arasında Qızıl ordu üçün isti şeylər və paltar toplamaq barəsində" xüsusi qərarı ilə bu hərəkat daha da genişləndi.Vətəndaşların şəxsi qənaətləri hesabına tank dəstələri və hava eskadronları yaratmaq hərəkatı geniş vüsət aldı.Azərbaycanda bir çox alimlər, ədəbiyyat və incəsənət xadimləri, təsərrüfat rəhbərləri, istehsalat qabaqcılları tank kolonnaları və hava eskadronları fonduna şəxsi qənaətləri hesabına vəsait verirdilər. SSRİ xalq artisti Üzeyir Hacıbəyov DMK-nə ünvanlanmış məktubunda yazırdı: "Mən Azərbaycan

incəsənəti" tank kolonunun yaranması üçün 25 min manat verdim, qoy bizim vəsaitimizlə yaradılmış tank kolonu minlərlə sovet zirehli maşını ilə birlikdə düşmənin bel sütununu sındırsın, ona ölümcül zərbə endirsin". Müharibə illərində Azərbaycan fəhlə və kəndliləri, ziyalıları müdafiə fonduna şəxsi əmlaklarından 15,5 kq. qızıl, 952,5 kq. gümüş, 295 milyon manat pul, 15 milyon manatlıq qızıl istiqraz vermişdilər. Müharibənin ilk günlərindən Azərbaycanda hərbi hospitalların təşkilinə başlanmışdı.1941-ci ildə respublikada 76 hərbi hospital yaradıldı. Sanatoriyalar və istirahət evləri hərbi hospitallara çevrilmişdi.

Mədəniyyət cəbhənin xidmətində. Azərbaycan ziyalıları müharibənin ilk günlərindən bütün səy və yaradıcılıq fəaliyyətlərini faşist Almaniyasına qarşı mübarizəyə yönəltdilər. SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı, respublikanın elmi-tədqiqat müəssisələri, yaradıcı cəmiyyətlər, ali məktəblərin kafedraları öz işlərini müharibənin tələblərinə uyğun qurmağa başladılar. Azərbaycan alimləri zirehli texnikaya qarşı top gülləsi, özü idarəolunan bombalar, tanka qarşı elektrik minaları, çoxpilləli minalar, silahı və hərbi sursatı pas atmaqdan qoruyan vasitələr hazırlamışlar. Azərbaycan alimlərinin qabaqcıl üsulları Cənubi Qafqazın poladəritmə zavodlarında da tətbiq edilirdi. Respublikanın kimyaçı alimləri Bakı sulfat turşusu zavodunda yerli xammal və materiallardan akkumulyator turşusu, həmçinin xlorlu sulfat, azot turşusu almışdılar.Yerli material və xammaldan istifadə edərək hidrogen, perozin, reaktiv toluol, bərk partlayıcı material, odadavamlı rəng və başqa məhsullar istehsalı texnologiyası istehsalata tətbiq olunmuşdu.

1941-ci ilin yayında Bakıda ilk hidrogen birləşmələri qrupu yarandı. Akademik Yusif Məmmədəliyevin başçılığı altında bir qrup alim 28 gün laboratoriyadan çıxmayaraq, neft-kimya elmində böyük hadisə olan yüksək oktanlı aviasiya yanacağı əldə etdi. Onun sədrliyi ilə EA-nın Azərbaycan filialında Azərbaycan alimlərindən ibarət SSRİ Mərkəzi Elmi-Texniki Şurasının kimya problemləri üzrə bölməsi yaradıldı.Neft emalı müəssisələrində yeni

texnoloji proseslər hazırlayan 75 laboratoriya fəaliyyət göstərirdi.Alimlərin və istehsalçıların birgə işi nəticəsində Bakıda yeni neft-kimya və kimya müəssisələri, Y.H.Məmmədəliyevin ideyası əsasında yüksək oktanlı alkilbenzol və onun tərkib hissəsini istehsal edən yeni zavod fəaliyyətə başladı.

Azərbaycan alimləri xlorlu metal, azoktanlı benzindən hərbi əməliyyat üçün vacib olan toluol almaq texnologiyasını hazırladılar.Əli Quliyev hazırladığı tank əleyhinə yandırıcı butulkanı sınaqdan keçirərkən baş vermiş partlayış nəticəsində bir qolunu itirmişdi. İ.Orucovanın başçılığı altında Azərbaycan kimyaçıları təyyarə, tank və müxtəlif hərbi maşınlar üçün sürtkü yağları istehsalı texnologiyasını hazırlayıb istehsalata tətbiq etmişdilər. Azərbaycan alim və mühəndisləri yeni metalkəsən dəzgahlar hazırlamışdılar.Azərbaycanın geoloq alimləri Mirəli Qaşqay və Şamil Əzizbəyovun rəhbərliyi ilə strateji xammal - odadavamlı gil, fosforit yataqları aşkar edilmişdi. "Azneft" geoloqları tərəfindən aparılmış kəşfiyyat işləri sayəsində daha 850 yüksək debitli neft mənbəyi müəyyənləşdirilmiş, 6 neft yatağı:"Qala","Bulla-dəniz", "Buzovna", "Maştağa", "Naftalan", "Əmirxanlı" neft yataqları kəşf olunmuş, onlardan dördünün işlənməsinə başlanmışdı. Qobustan neft rayonunda "Duvannı" qaz yatağı aşkar edilmişdi.Stratiqrafik yataqların aşkar olunması Azərbaycan geologiya elminin böyük uğuru idi. Qala stansiyası sahəsində "Suraxanı" və "Qaraçuxur" yataqlarında yeni zəngin neft yataqları kəşf edilmişdi.Respublikanın fizika alimləri hərbi təşkilatların bir sıra vacib sifarişlərini müvəffəqiyyətlə yerinə yetirmişdilər: neft koksundan elektrik avadanlığı üçün material və fosforlu rənglər alınmış, neft, neft məhsulları üçün xüsusi analiz, neft kəşfiyyatında termik üsul təklif və tətbiq edilmişdi. Fiziklərin iştirakı ilə respublikada şüşə izolyatorlar təşkil olunmuş, fosforlu rəngləri neft sənayesinə tətbiq etməyin texnologiyası hazırlanmışdı.

Soyuducu qurğularda istifadə edilən ammiaklı qaz respublikada istehsal olunan propanla əvəzlənmişdi. Bioloq

alimlər Azərbaycan ərazisində bitən dərman bitkilərinin, vitaminlə zəngin təbii çöl meyvələrinin aşkar olunmasında fəal iştirak edirdilər. Onların köməyi ilə Göyçayın yağ zavodunda ardıc kolundan efir yağı alınırdı. Professor Mustafa Topçubaşov və onun tələbələri hərbi cərrahiyyədə yeni, səmərəli metodlar işləyib hazırlamış, minlərlə yaralı döyüşçünü həyata qaytarmışdılar.

İctimai və humanitar elmlər sahəsində çalışan alimlər xalqın qəhrəmanlıq tarixindən, döyüş ənənələrindən bəhs edən əsərlər yaratdılar.1943-cü ildə H.Hüseynov və M.Dadaşzadənin redaktəsi ilə "Azərbaycan ədəbiyyatının qısa tarixi" nəşr edildi.1945-ci il martın 23-də SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı əsasında Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı. Onun ilk prezidenti akademik M.Mirqasımov oldu. Akademiya respublikada elmi-tədqiqat işlərinin mərkəzinə çevrildi.Müəllimlərin 50%-i orduya səfərbər olunmuşdu.Məktəb binalarının əksəriyyəti, xüsusən Bakıda hospitallara və müdafiə müəssisələrinə verilmişdi. Məktəblər iki-üç növbəli iş rejiminə keçirilmişdi. Ali məktəb və texnikum tələbələrinin yarıdan çoxu ordu sıralarına çağırılmışdı. 1941-ci ildə məktəbləri pedaqoji kadrlarla təmin etmək məqsədilə Qazaxda, Qubada, Xankəndində, Ağdamda ikiillik Müəllimlər İnstitutları, Cəlilabad və Laçında pedaqoji məktəblər açılmışdı. Ölkənin işğal edilmiş rayonlarından Azərbaycana köçürülmüş müəllimlər pedaqoji işə cəlb olunurdular.Azərbaycanın səhiyyə orqanları müharibənin ilk günlərindən öz işlərini hərbinin tələbləri əsasında qurmağa, səfərbərlik planı üzrə işləməyə başladılar. Hospitallar və hərbi hissələr üçün yeni tibb kadrları hazırlandı.Yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar öz əsərləri ilə insanlarda faşist işğalçıları üzərində qələbəyə inam yaradırdılar.

Yazıçı və şairlər - Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Səid Ordubadi, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rəhimov, Osman Sarıvəlli, Məmməd Rahim, Zeynal Xəlil, Əhməd Cəmil, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Cəfər Xəndan, Tələt Əyyubov və başqaları çağırış məntəqələrində, ordu hissələrində, müəssisə və idarələrdə insanları vətənpərvərliyə, qələbəyə səsləyən

müxtəlif tədbirlərdə, mərasimlərdə fəal iştirak edirdilər. Yazarların vətənpərvərlik mövzusunda bədii əsərlər məcmuəsi çap olundu. S.Rəhimov, M.S.Ordubadi, M.Paşayev, H.Mehdi, Ə.Məmmədxanlı və digərlərinin bu mövzuda əsərlərindən ibarət "Döyüşkən qələm" toplusu tərtib edildi. Yeniyetmələr və uşaqlar üçün "Vətən mahnıları" adı altında kitab nəşr olundu.1942-ci ilin iyununda S.Vurğun, O.Sarıvəlli, M.Rahim, R.Rza, Ə.Vəliyev, Z.Xəlil və İ.Əfəndiyev Azərbaycan diviziyaları ilə görüşə getmişdilər.M.İbrahimov və M.C.Paşayev 1942-ci ilin sentyabrında Uzaq Şərqdəki Qızıl ordu hissələrinə yollanan nümayəndəliyin tərkibinə daxil edilmişdilər. Ü.Hacıbəyov, Q.Qarayev, F.Əmirov, Niyazi, C.Hacıbəyov kimi bəstəkarlar, Ə.Əzimzadə, S.Salamzadə, T.Tağıyev, M. Rəhmanzadə kimi fırça ustaları xalqı mübarizəyə ruhlandırırdı. Kinemotoqraflar “Sovet pəhləvanı”, ”Sovqat”, ”416”, ”General Həzi Aslanov”,”Sualtı qayıq T-9”, ”Bəxtiyar” və s. sənədli və bədii filmlər çəkmişlər. Azərbaycan ruhaniləri də xalqın düşmənə qarşı mübarizəyə səfərbər olunmasında fəal iştirak edirdilər. 1944-cü il aprelin 14-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Cənubi Qafqaz Müsəlmanlarının Ruhani İdarəsi təşkil olundu. İdarənin ilk sədri şeyxülislam Ağa Əlizadə Təzəpir məscidindəki birinci moizəsində dindarları hökumətin qanunlarına itaət göstərməyə, bu yolla "dini hifz etməyə" çağırdı.

XIII FƏSİL
Cənubi Azərbaycan 1941-1946-cı illər, 1978-1979-cu illər İran inqilabı və ondan sonrakı dövrdə.

Müttəfiq orduların İrana daxil olması. Milli demokratik hərəkatın başlanması. İkinci Dünya müharibəsinin gedişində Cənubi Azərbaycanın ictimai-siyasi və mədəni inkişafında yeni mərhələ başlandı. Müharibə illərində İran, eləcə də Cənubi Azərbaycanı hərbi əməliyyat meydanına çevrilmədi. Müharibənin özü ilə gətirdiyi dağıntılara, tənəzzülə məruz qalmasa da, müharibə ilə bağlı hadisələr Cənubi Azərbaycanın tarixinin gedişinə təsir göstərdi.

Hələ XX əsrin 30-cu illərin ortalarında İran hökuməti daxili siyasətini azğınlaşdırmaqla bərabər, xarici siyasətini də getdikcə faşist Almaniyasına tərəf yönəldirdi ki, bu da hər iki ölkə arasında həm iqtisadi, hərbi-strateji, həm də ideoloji-təbliğat əlaqələrinin artmasında öz ifadəsini tapırdı. Almaniya İrandan Yaxın və Orta Şərq regionlarına çıxmaq üçün bir vasitə kimi istifadə etmək planlarını hazırlayırdı. İranın hakim dairələrinə gəldikdə isə, onlar faşist Almaniyasına, hər şeydən əvvəl, SSRİ tərəfindən kommunizm təhlükəsinə qarşı bir sədd, Rza şah diktaturasının istinadgahı kimi baxırdılar. Lakin 1939-cu ilin avqust-sentyabr hadisələri (Almaniya ilə SSRİ arasında hücum etməmək və dostluq haqqında müqavilənin imzalanması və eyni zamanda Polşaya hücumla İkinci Dünya müharibəsinin başlanması) ilk vaxtlar hakim dairələr içərisində çaşqınlıq doğurdu.1939-cu il sentyabrın 4-də İran özünün bitərəfliyini elan etsə də, onlar bir müddət Almaniya ilə SSRİ-nin İran hesabına razılığa gələcəyi təhlükəsi qarşısında (Polşa, Finlandiya, Pribaltika ölkələrində olduğu kimi) qorxu hissinə qapılmışdılar.Lakin tezliklə müharibənin gedişi və Almaniyanın İrandakı siyasəti belə bir təhlükənin olmadığını göstərdi. Almaniya yenə də İrana öz iqtisadi və hərbi planlarında böyük əhəmiyyət verirdi:1939-1941-ci illərdə Almaniyanın SSRİ-dən tranzit yolu ilə İranla ticarəti xeyli artdı. Almaniya İrandan pambıq, yun, gön-dəri,

düyü, taxıl, quru meyvə alırdı ki, bunların da çox hissəsi Cənubi Azərbaycandan gətirilirdi.

1941-ci ilin iyununda faşist Almaniyası SSRİ-yə qarşı müharibəyə başladıqdan və müharibədəki ilk müvəffəqiyyətlərindən sonra Rza şah başda olmaqla hakim dairələr açıq faşistpərəst mövqe tutmuş, ölkəni Almaniya kəşfiyyatçılarının fəaliyyət meydanı etmişdi. Buna görə 1941-ci il avqustun 25-də SSRİ və Böyük Britaniya hökumətləri öz qoşunlarını İrana yeritdilər. İngilis qoşunları İranın cənub, sovet qoşunları isə şimal regionlarını, o cümlədən Cənubi Azərbaycan əyalətini tutdu. Bir qədər sonra (1942-ci ilin sonlarında) ABŞ-ın da hərbi hissələri İrana gətirildi. Bütövlükdə İran, xüsusilə də Cənubi Azərbaycan, müttəfiqlərin Sovet İttifaqını hərbi sursat və texnika, ərzaqla təmin edən ən mühüm nəqliyyat arteriyasına (İran körfəzindən Xəzər dənizi sahillərinə qədər) çevrildi.

Müharibə illərində İranın daxili işləri və xarici siyasəti, habelə müttəfiqlərin İran qarşısında təəhhüdləri bir sıra sazişlərlə (xüsusən 1943-cü ildə SSRİ, ABŞ və İngiltərə dövlət başçılarının Tehran konfransında qəbul etdiyi bəyanatla) müəyyən edildi.Sazişlərdə nəzərdə tutulurdu ki, müttəfiqlər İranın daxili işlərinə qarışmayacaq, bütün vacib məsələləri birgə həll edəcək və müharibə qurtarandan sonra ən geci 6 ay ərzində qoşunlarını İrandan çıxaracaqlar.

1941-ci ilin sentyabrında Rza şahın müttəfiq qoşunlarına müqavimət göstərmək niyyəti puça çıxdıqda oğlu Məhəmməd Rza Pəhləvinin (1941-1979) xeyrinə taxtdan əl çəkdi və ingilislər tərəfindən İrandan sürgün edildi. Ölkədə real hakimiyyətin parlamentə və onun təşkil etdiyi hökumətə keçməsi, konstitusiyada nəzərdə tutulmuş bəzi təsisatların, siyasi azadlıqların qismən bərpası, siyasi məhbusların azad edilməsi (bütün bunlar İran tarixində "Şəhrivar"- (İran təqvimində avqustun 22-dən sentyabrın 22-dək davam edən ayın adıdır) hadisələri adını almışdı) İranda ictimai-siyasi həyatın canlanması üçün əlverişli şərait yaratdı. İlk vaxtlar kortəbii çıxışlar, mitinq və nümayişlər şəklində başlamış bu hərəkat getdikcə mütəşəkkil ictimai-siyasi mübarizə formasını aldı.

Əsas tələblər: dövlət quruluşunu demokratikləşdirmək, zəhmətkeşlərin vəziyyətini yaxşılaşdırmaq və hüquqlarını qorumaq, ölkənin suverenliyini təmin etmək idi. Yenidən meydana çıxmış siyasi partiyalar və təşkilatlar (1941-1943-cü illərdə bunların sayı 30-a çatmışdı) ölkə qarşısında duran daxili və xarici problemləri sərbəst müzakirə edir, öz proqram və tələblərini irəli sürür, parlament vasitəsilə bunları qanunlara çevirməyə çalışırdı. Lakin müharibə nəticəsində faşizmin iflasa uğrayacağı yaxınlaşdıqca İrandakı siyasi vəziyyət mürəkkəbləşir və mübarizə kəskinləşirdi. Ölkənin iqtisadi vəziyyəti pisləşirdi və bunun da əsas ağırlığı, birinci növbədə zəhmətkeş təbəqələrin – fəhlələrin, xırda burjua ünsürlərinin üzərinə düşürdü ki, bu da onların müxtəlif formalarda çıxışlarına səbəb olurdu. Bu təbəqələrin mənafeyini 1942-ci ilin əvvəllərində yaradılmış İran Xalq Partiyası (Hizbi Tudə) və ona yaxın olan mətbuat orqanları, ictimai təşkilatlar müdafiə edirdi. Öz kütləviliyinə, irəli sürdüyü əsas şüarlarına görə bu orqanlar, demokratik cəbhəni təşkil edirdi.

İkinci liberal cəbhəyə "milliyyətçi" tipli partiya və təşkilatlar daxil idi, buraya yalançı həmkarlar ittifaqları, əsasən xırda və orta burjuaziya, ziyalıların xeyli hissəsi, zabitlərin orta təbəqələri qoşulurdu. Üçüncü cəbhəni əsasən iri mülkədarlar və komprador (vasitəçi) burjuaziya, iri dövlət məmurları və yüksək rütbəli zabitlər, generallar təşkil edirdi və buna görə bu cəbhə ən mühafizəkar, mürtəce qüvvələri birləşdirirdi.Qeyd etmək lazımdır ki, həmin cəbhələrdən heç biri, xüsusən hakimiyyət başında duran üçüncü cəbhə tam qanunçuluq çərçivəsində hərəkət etmirdi.

Müttəfiq qoşunlarının İrana daxil olması ilə demokratik hərəkatın I mərhələsində (1941-ci il yay -1945-ci il yay) Cənubi Azərbaycan Ümumiran demokratik hərəkatların əsas mərkəzlərindən biri oldu. 1941-ci ilin sentyabr-oktyabr aylarından burada xalq kütlələrinin mitinq və yığıncaqları genişləndi. Onların əsas tələbləri dövlət aparatını keşmiş mənfur rejimin nümayəndələrindən təmizləmək, İranda faşizm agenturasına qarşı mübarizəni gücləndirmək, faşist Almaniyasına qarşı müharibə

aparan müttəfiqlərə, xüsusilə çətin vəziyyətdə olan SSRİ-yə, o cümlədən Şimali Azərbaycana mümkün olan yardımı göstərmək idi. Eyni zamanda həbsxanalardan buraxılmış və sürgündən vətənə qayıtmış siyasi xadimlərin, demokratik ruhlu ziyalıların fəallığı nəticəsində 1941-ci ilin noyabr – 1942-ci ilin əvvəllərindən müxtəlif ictimai-siyasi, mədəni-maarif klubları, birlik və cəmiyyətlər, eləcə də yeni yaradılmış həmkarlar təşkilatları demokratik hərəkatın əsas qüvvələrinə çevrilirdilər. Onların içərisində "Azərbaycan" cəmiyyəti, "Azərbaycan zəhmətkeşlər təşkilatı", "Demokratiya tərəfdarları mərkəzi" xüsusi nüfuz qazanmışdı.

Cənubi Azərbaycanda milli mədəniyyəti inkişaf etdirmək istiqamətindəki ilk addımların atılmasında Şimali Azərbaycanın təsiri həlledici əhəmiyyətə malik idi. Bu təsir, birinci növbədə hər iki Azərbaycan ziyalılarının, mədəniyyət xadimlərinin canlı yaradıcılıq əlaqələri və əməkdaşlığı formasını alırdı. 1941-1946-cı illərdə buraya və İranın başqa rayonlarına Bakıdan çoxlu mədəniyyət xadimləri (Opera və Dram teatrlarının aktyorları, musiqi və rəqs kollektivləri, ədəbiyyat və incəsənət, maarif və elm xadimləri) gələrək konsert və tamaşalar verir, mühazirələr oxuyur, yerli əhaliyə mədəni quruculuq sahəsində konkret yardım göstərir, qarşılıqlı əlaqələri genişləşdirirdi. 1945-ci ilin yayında Cənubi Azərbaycanda demokratik hərəkatın yeni, ikinci mərhələsi başlandı. Bu, əsasən beynəlxalq vəziyyətlə bağlı idi. Müharibə qurtardıqdan sonra keçmiş müttəfiqlər, birinci növbədə dünya ağalığına can atan ABŞ və İngiltərə ilə SSRİ arasında dünyanın əsas problemləri üzrə getdikcə dərinləşən ziddiyyətlər, bunların tezliklə "soyuq müharibə" şəklini alması onların İrandakı siyasətində də əksini tapmalı idi. Əgər müharibə illərində müttəfiqlər burada açıq ictimai-siyasi qarşıdurmanı qızışdırmaqdan, İranın daxili işlərinə kobudcasına qarışmaqdan çəkinirdilərsə, indi əksinə, onlar öz xarici siyasətlərində və hərbi-strateji planlarında əsaslı dəyişikliklər etmiş, iqtisadi mənafelərinə uyğun olan qüvvələri bilavasitə himayə edir və onları hakimiyyətə gətirməyə çalışırdılar.

Cənubi Azərbaycanın iri torpaq sahibləri, ticarət burjuaziyası və bürokratiyanın bir çox nümayəndələri demokratik hərəkatın qarşısını almaq üçün vəziyyəti hər vasitə ilə gərginləşdirməyə, etnik toqquşmaları qızışdırmağa çalışır, hətta vətəndaş müharibəsi törətməkdən belə çəkinmirdilər. Hadisələrin belə gedişi xalq kütlələrini müdafiə tədbirləri görməyə məcbur etdi. 1945-ci ilin iyul-sentyabr aylarında Azərbaycanın bir sıra yerlərində silahlı fədai dəstələri yaranmağa başladı. Fədailər mülkədarların quldur dəstələrinin basqınlarını dəf edir, şəhər və qəsəbələrin, kəndlərin təhlükəsizliyini təmin edirdilər. Bu mübarizənin gedişində bəzi yerlərdə müvəqqəti hakimiyyət orqanları da yaradır, təxirəsalınmaz təsərrüfat, sosial-mədəni maarif məsələlərini həll etməyə çalışırdılar. Lakin milli-demokratik hərəkatı mərkəzi hökumətin başçılıq etdiyi birləşmiş qüvvələrin hücumundan qorumaq üçün demokratların daha sıx birləşməsi tələb edilirdi. Buna görə 1945-ci il sentyabrın 3-də Azərbaycanın tanınmış demokratlarından bir qrupu, başda Seyid Cəfər Pişəvəri (1892-1947) və Mirzə Əli Şəbüstəri (1898-?) olmaqla Azərbaycan Demokrat Partiyasının (ADP) yaradılması haqqında bəyanatla xalqa müraciət etdi. On iki maddədən ibarət olan bu bəyanatda partiyanın yaradılması zərurəti, onun proqram prinsipləri, İran dövləti tərkibində Azərbaycana inzibati-təsərrüfat, mədəni muxtariyyət verilməsi, ictimai-iqtisadi islahatların keçirilməsi və başqa məsələlər şərh olunurdu. Sentyabrın 5-dən ADP-nin orqanı olan "Azərbaycan" qəzeti ana dilində çıxmağa başladı. ADP-nin yaranması, onun proqramı əhalinin ən müxtəlif təbəqələri içərisində rəğbətlə qarşılandı.Tudə partiyasının Azərbaycan bölməsinin üzvlərinin avtomatik surətdə ADP partiyasına keçməsi elan olundu. Bir neçə həftə ərzində partiya sıralarına minlərlə yeni üzv – fəhlə və kəndlilər, ziyalılar, xırda və orta sahibkarlar, hətta bəzi mülkədarlar da daxil oldu.

1945-ci il oktyabrın 2-də ADP-nin birinci qurultayı keçirildi. Qurultay 3 sentyabr tarixli bəyanatın əsas müddəalarını partiyanın proqram və nizamnaməsi kimi qəbul etdi və onun rəhbər orqanlarını (başda S.C.Pişəvəri olmaqla Mərkəzi Komitəni) seçdi. ADP ən

əvvəl siyasi mübarizəni davam etdirməyə yönəlmiş konkret fəaliyyətə, o cümlədən yerlərdə təşkilatların işini əlaqələndirməyə və genişləndirməyə başladı.

Mərkəzi hökumətin demokratik hərəkata qarşı silahlı hücuma keçdiyini görən ADP artıq açıq şəkildə fədai dəstələri yaratmağa, onların fəaliyyətini əlaqələndirməyə başladı. ADP hərbi tədbirlərlə yanaşı, əhali içərisində izahat işini genişləndirir, xalqın bütün təbəqələrinə demokratiyanı, Azərbaycanın milli varlığını qorumaq çağırışı ilə müraciət edirdi. Noyabrın 17-dən dekabrın əvvəllərinədək Marağa, Maku, Mərənd, Sərab, Ərdəbil Astara, Zəncan şəhərləri, sonra isə Azərbaycanın digər yerlərində demokratik hakimiyyət orqanları yaradıldı. Təbrizdə isə hakimiyyət hələ oktyabrın əvvəllərindən demokratların əlinə keçmişdi.Bütün bu hadisələr gedişində demokratların tədbirləri, taktikası nəticəsində, demək olar ki, qan tökülmədi, hökumət qoşunlarının bir sıra zabitləri yeni hakimiyyət tərəfinə keçdi, əks mövqedə duran silahlı hissələrin Azərbaycanı tərk etməsi tələb olundu. Bununla bərabər, bəzi yerlərdə hələ köhnə hakimiyyət strukturları qalmaqda idi. Lakin əhali bir qayda olaraq daha onlara deyil, yeni hakimiyyətə müraciət edir, mitinq və yığıncaqlarda qətiyyətlə demokratik hakimiyyət orqanlarının yaradılmasını tələb edirdi. Bu tələblərin təsiri nəticəsində noyabrın 21-də xalqın tanınmış xadimlərindən ibarət Azərbaycan xalq konqresi çağrıldı və o, özünü Müəssisələr məclisi elan edərək, ümumi seçkilər yolu ilə Azərbaycan Milli Məclisinin çağırılması və Milli hökumət yaradılması tələbini irəli sürdü. Bunun əsasında noyabrın 27-dən dekabrın 1-dək Azərbaycanın hər yerində Milli Məclisə seçkilər keçirildi. Əhali bir qayda olaraq, ADP-nin irəli sürdüyü və ya onunla həmrəy olduğunu bildirən namizədlərə səs verirdi.

Milli hökümətin təşkili, fəaliyyəti və süqutu. 1945-ci il dekabrın 12-də (İran təqvimində 21 Azərdə) Təbrizdə toplanmış Milli Məclis Seyid Cəfər Pişəvərinin başçılığı ilə Milli Hökumət yaratdı. Hökumət 10 nazirlik, ali məhkəmə və baş prokurorluqdan ibarət idi. Bu hadisə tarixə 21 Azər hərəkatı kimi daxil olmuşdur.

Milli-azadlıq uğrunda mübarizə ümumxalq xarakteri daşıyırdı. Belə bir şəraitdə İranın hakim dairələri, mərkəzi hökumət kütləvi terrora, cəza tədbirlərinə, əslində vətəndaş müharibəsinə başlamadan hərəkatı boğa bilməzdi. Bu işin həyata keçrilməsi isə1945-ci ilin payızında bir sıra daxili və xarici amillər üzündən mümkün deyildi. Əvvəla bu zaman sovet qoşunları hələ İrandan çıxarılmamışdı. Bu səbəbə görə mərkəzi hökumət demokratlara qarşı geniş hərbi əməliyyata başlaya bilməzdi, çünki müttəfiqlər mütləq buna qarışmalı olardılar. İkincisi, milli-demokratik hərəkat İran Kürdüstanını da bürümüşdü və 1946-cı ilin yanvarında burada da Milli Hökumət yaradıldı. İran hökuməti isə eyni vaxtda hər iki xalq hərəkatını boğmağa qadir deyildi. Hadisələrin sonrakı gedişi göstərdi ki, hökumət danışıqlar taktikasına əl ataraq vaxt qazanmağa çalışırdı.

Milli Hökumətin yaranması ilə Cənubi Azərbaycanda demokratik hərəkatın üçüncü – milli quruculuq mərhələsi başlandı (1945-ci il dekabr-1946-cı il dekabr). Milli Hökumət İran dövlətçiliyi çərçivəsində Azərbaycanın muxtariyyəti prinsipini təsbit edərək bildirirdi ki, İran dövlətinin bütövlüyü, toxunulmazlığı və suverenliyini rəhbər tutur. Eyni zamanda burada qeyd olunurdu ki, mərkəzi hökumət sosial, iqtisadi, siyasi, mədəni sahələrdə demokratik islahatlar keçirməlidir. Milli Hökumət bildirirdi ki, həm Azərbaycanın muxtariyyəti məsələsi, həm də digər mühüm məsələlər üzrə mərkəzi hökumətlə danışıqlara və əldə edilən razılıqlara tam riayət etməyə hazırdır. Bu məqsədlə Pişəvərinin başçılığı altında xüsusi nümayəndə heyəti təşkil olundu. Milli Hökumətin qarşısında duran əsas vəzifə - yerlərdə yeni inzibati-ərazi orqanlarının yaradılması idi. Bu məqsədlə Milli Məclis vilayət, mahal, şəhər və qəsəbə, kənd əncümənlərinə (şuralarına) - hakimiyyət orqanlarına seçkilər haqqında qanun qəbul etdi. Seçkilər 1946-cı ilin yanvar-fevral aylarında keçrildi və müvafiq strukturların yaradılmasına başlandı.

Demokratik hərəkatın ən mühüm tədbirlərindən biri də sosial-iqtisadi islahatların keçirilməsi idi. Buna görə Milli Hökumət 1946-

cı il fevralın 16-da aqrar qanun verdi. Qanuna görə xalisə – dövlət mülkiyyətində olan torpaqlar, habelə Azərbaycandan qaçmış, milli hökümətə qarşı mübarizəni davam etdirən mülkədarların və digər sahibkarların torpaqları kəndlilər arasında bölüşdürülməli idi. İslahat haqqındakı qanunu həyata keçirmək məqsədilə yerlərdə xüsusi komitələr yaradıldı. İslahat nəticəsində yarım milyon hektardan çox torpaq sahəsi kəndlilərin istifadəsinə keçdi. Lakin onlar bu torpaqların mülkiyyətçisi deyildilər, yəni onu satmaq, icarəyə vermək hüququndan məhrum idilər. Bir qədər sonra mayın 12-də qəbul olunmuş "Əmək haqqında qanun" sosial sahədə digər mühüm addım oldu. Bu qanuna görə fəhlə və qulluqçuların iş şəraiti xeyli yaxşılaşdırılır, sahibkarlar tərəfindən onların istismarı məhdudlaşdırılırdı. Bununla bərabər, Milli Məclisin bir sıra başqa qanunları və Milli Hökumətin fərmanları Azərbaycanda ticarət və sənayenin inkişafını təmin etməyə, bu sahədə fəaliyyət göstərən sahibkarlara maliyyə cəhətdən kömək etməyə, vergi sistemini təkmilləşdirməyə yönəlmişdi.

Milli hakimiyyətin ən böyük nailiyyəti milli mədəniyyətin inkişafı yolundakı addımlar oldu. Bu istiqamətdə birinci dərəcəli tədbir 1946-cı il yanvarın 6-da Milli Məclisin qəbul etdiyi "Dil haqqında" qanun idi. Bu qanunla Azərbaycan-türk dili bütün Azərbaycan ərazisində rəsmi dövlət dili elan olundu. Bütün idarə və təşkilatlarda, məktəblərdə işlər ana dilində görülürdü. Azərbaycanda yaşayan milli azlıqların öz dillərində təhsil almaq hüququ saxlanılmışdı. Qısa zamanda ana dilində dərsliklərin, müxtəlif ədəbiyyat, qəzet və jurnalların nəşr edilməsinə, radio verilişlərinin təşkilinə başlandı. Az bir vaxtda onlarla kitabxana və qiraətxana açılması, 1946-cı ilin iyununda Təbriz Universitetinin təsis edilməsi, müxtəlif yaradıcı birlik və təşkilatların, muzeylərin düzəldilməsinə başlanması milli-mədəni inqilab üçün əsas yaradır, demokratik hərəkatın milli məzmununu möhkəmləndirirdi.

Milli hökümətin müvəffəqiyyətlərinə qəzəblənən şah hakimiyyəti bu hökümәti məhv etmək üçün tədbirlər gördü. Açıq irticaçı Baş nazirlər - Sədr və Hakimi hökumətlərinin (1945-ci ilin

iyunu – 1946-cı ilin yanvarı) bütün İranda demokratik qüvvələrin qanuni tələblərini rədd etmək, təqiblərə əl atmaq və əslində yeni diktatura üçün yol açmaq siyasəti boşa çıxdı. Bundan sonra bütün şahpərəstlər qüvvələri toplayıb qəti hücuma keçmək taktikasına əl atdılar və bu məqsədlə yanvarın sonunda mahir siyasətbaz, hiyləgər Qəvam us-Səltənəni Baş nazir vəzifəsinə irəli sürdülər. Qəvam birinci dərəcəli vəzifə kimi "Azərbaycan məsələsini" dinc danışıqlar yolu ilə həll etməyə çalışdığını bildirib, aprelin 28-də Pişəvərinin başçılığı altındakı nümayəndə heyətini Tehrana dəvət etdi və hər iki tərəf arasında danışıqlar başlandı. Lakin bu danışıqlar çox çətin gedirdi və tezliklə təxirə salındı. ABŞ və İngiltərədən hərbi-texniki yardım almaq üçün İran hökuməti onların təkidi ilə BMT-nin Təhlükəsizlik Şurasında İran məsələsinin qaldırılmasına əl atdı (rəsmən bunun üçün əsas var idi, çünki sovet hökuməti öz qoşunlarının İrandan çıxarılmasını ləngidirdi). Eyni zamanda Qəvam Moskva ilə əlaqələri də öz xeyrinə dəyişdirmək məqsədilə Pişəvərinin arxasında duran Moskvaya yollanıb Stalinlə görüşdü və 1946-cı il aprelin 4-də sovet dövlətinin Şimali İranda çoxdan arzuladığı neft axtarışı və çıxarılması üçün müştərək cəmiyyətin yaradılması haqqında bəyanat qəbul olundu. İctimaiyyəti aldatmaq məqsədilə Qəvam Azərbaycan Milli Hökumətilə danışıqları başa çatdırmaq göstərişi verdi və iyunun 13-də Təbrizdə hər iki tərəfin imzaladığı müqavilə bağlandı. Razılıq əldə edilməsi naminə milli hökumət ciddi güzəştlərə getməli oldu, bunlardan başlıcası o idi ki, Azərbaycan milli hakimiyyəti əyalət əncüməni statusunu qəbul edərək bu vaxtdan belə də adlanmağa başlayır. Müqaviləyə görə Azərbaycanı idarə edəcək xüsusi Şura yaradılmalı idi. Ən ağır güzəşt – Zəncan vilayətinin Azərbaycanın tərkibindən çıxarılaraq qonşu əyalətlərə qatılmasına və ümumiyyətlə, İranda demokratik inkişafın gələcəyinə xidmət edə biləcək sənəd qəbul edilmiş oldu.

1946-cı ilin yayı və payızında Tehran qəzetlərində Azərbaycana qarşı yeni kampaniya başlandı. Bütün hazırlıq işləri başa çatdırıldıqdan sonra İran hökuməti ultimatium şəklində Milli hökuməti əvəz etmiş Şuraya bildirdi ki, yeni parlament seçkiləri

gedişində qayda-qanunu təmin etmək üçün Azərbaycana qoşun hissələri daxil ediləcəkdir və Azərbaycanın hərbi qüvvələri qoşuna müqavimət göstərməməlidir. Noyabrın 30-da hökumət qoşunları ilə fədailər arasında döyüşlər başlandı. Hökumət qoşunlarının hərbi-texniki cəhətdən üstünlüyünə baxmayaraq, bir neçə cəbhədə, xüsusən Zəncan-Miyanə - Marağa istiqamətində fədailər əks-hücuma keçərək düşmənə zərbələr endirmişdilər. Lakin sovet rəhbərləri (şəxsən Stalin) müqavimət göstərilməsinin əleyhinə idi. Sovet dövlətinin bu mövqeyi ilə barışmaq istəməyən hərəkat rəhbərləri isə mübarizəni davam etdirmək əzmində idilər.

Sovet dövləti Cənubi Azərbaycanda İran qoşununa müqavimətin qarşısını almaq məqsədilə ölkədəki nümayəndələrin vasitəsilə dekabrın 11-də gecə ikən hərəkat rəhbərlərini, ilk növbədə Pişəvərini Sovet İttifaqına mühacirətə getməyə məcbur etdi. Hərəkatın yeni rəhbərliyi bütün silahlı qüvvələrə döyüş meydanlarını tərk etmək haqqında göstəriş verdi. Buna baxmayaraq, bütün Azərbaycan üzrə dekabrın 20-dək İran qoşunlarına müqavimət göstərildi. Dekabrın 12-də Təbrizə daxil olan şah qoşunları minlərlə adamı güllələdi və həbsə aldı. Kütləvi təqiblər başlandı. Milli hökümət dövründə az-çox siyasi fəallıq göstərən kəndlilər, fəhlələr, ziyalılar, sahibkarlar təqiblərə məruz qaldılar. ADP və Milli hökumətin rəhbər xadimləri isə birinci növbədə güllələnir, dar ağacından asılırdı. Cəza tədbirlərindən qurtarmaq üçün on minlərlə vətənpərvər qaçmağa, mühacirət etməyə məcbur oldu. Onların bir çoxu Şimali Azərbaycana keçdi.Beləliklə, 1941-1946-cı illər milli-azadlıq hərəkatı məğlubiyyətə uğradı. Bu məğlubiyyət, obyektiv daxili səbəblərlə yanaşı, həm də xarici amillərlə, bir tərəfdən ABŞ və İngiltərənin, digər tərəfdən Sovet dövlətinin İrandakı siyasəti ilə bağlı olmuşdur. Əks mövqelərdə duran bu dövlətlər nəticə etibarilə Cənubi Azərbaycanın milli-demokratik quruluşu uğrunda mübarizəsinin düşməni kimi çıxış etdilər. ABŞ və İngiltərə o zaman bütövlükdə İranda demokratik hərəkatın, xüsusən də Azərbaycandakı milli-azadlıq hərəkatın əleyhinə idi, çünki bu hərəkatın müvəffəqiyyəti onların İrandakı

mövqelərinə mənfi təsir edər, İranın onlardan asılılığını zəiflədə bilərdi. Digər tərəfdən SSRİ hökümətinin bu hərəkatdan bəhrələnmək cəhdi beynəlxalq aləmdə bu hərəkatın milli-azadlıq xarakterinə zərbə vurdu.

Cənubi Azərbaycana qayıtmaqda israrlı olan S.C. Pişəvəri 1947-ci il iyulun 12-də Yevlax rayonunda avtomobil qəzasında müəmmalı şəkildə həlak oldu.

Cənubi Azərbaycandakı milli-demokratik hərəkat məğlubiyyətə uğrasa da, ölkənin sonrakı tarixinə böyük təsir göstərdi, xalqda öz milli varlığı, tarixi və mədəniyyəti ideyasını möhkəmlətdi, bu məqsədlər uğrunda gələcək mübarizəsi üçün təməl daşı qoydu.

1941-1946-cı illərdə İranda (Cənubi Azərbaycanda və Kürdüstanda) milli-azadlıq hərəkatları yatırıldıqdan az sonra ölkədə ingilislərin inhisarında olan neft sənayesinin milliləşdirilməsi uğrunda İran xalqlarının mübarizəsi başlandı. Doktor Müsəddiqin rəhbərliyi ilə milli burjuaziyanın başçılıq etdiyi 1949-1953-cü illər hərəkatı, eyni zamanda ölkənin ictimai-siyasi həyatının demokratikləşdirilməsi, İranda hökm sürən siyasi qadağaların ləğv edilməsi uğrunda gedən mübarizə idi. Bu mübarizədə Cənubi Azərbaycan da fəal iştirak etmişdir.XX əsrin 50-ci illərinin sonu 60-cı illərin əvvəllərində Cənubi Azərbaycanı kəndli çıxışları bürüdü. Sosial partlayışın baş verə biləcəyi artıq hakimiyyətdə olanlara aydın idi. Odur ki, güclənən sosial partlayışın qarşısını almaq məqsədilə dövlət bütün ölkədə islahatlar keçirmək qərarına gəldi. 1962-cı ildən başlayaraq 70-ci illərin ortalarınadək şah tərəfindən "ağ inqilab" adı ilə geniş miqyasda həyata keçirilən islahatlar ölkənin kapitalistcəsinə ikişafını sürətləndirməyi, İranı inkişaf etmiş sənaye və aqrar-sənaye ölkəsinə çevirməyi planlaşdırırdı.Lakin böyük hay-küylə həyata keçirilən islahatlar Cənubi Azərbaycanda mövcud sosial gərginliyi ləğv edə bilmədi, əksinə bir çox sahələrdə əvvəlki ziddiyyətlər daha da dərinləşdi. "Ağ inqilab"ın tərkib hissəsi olan aqrar islahat (14.01.1962) kəndlilərin dövlətdən, başlıca olaraq iri torpaq sahiblərindən torpaq sahələri satın almasına yardım etməklə, ölkədə kapitalist kəndi yaratmaq məqsədi daşıyırdı. İlkin

təcrübələrini Azərbaycanın Marağa vilayətindən başlamış bu islahat nəticəsində Cənubi Azərbaycanda kəndlilərin təqribən 80%-i 1962-1978-ci illər ərzində torpaq sahiblərinə çevrildi. Lakin kənd təsərrüfatı borc banklarının verdiyi vəsait hesabına Cənubi Azərbaycanda torpaq satın ala bilmiş kəndlilər fermer təsərrüfatı yaratmaq işində bir sıra mühüm çətinliklərlə üzləşdilər və bu çətinliklər (su, kənd təsərrüfatı maşınları, gübrə və.s təchizatın yarıtmazlığı) torpaq islahatının əhəmiyyətini əslində heçə endirdi. Keçmiş yarımfeodal torpaq sahibləri isə Cənubi Azərbaycan kəndində kapitalist təsərrüfatı yaratmaq imkanından lazımınca istifadə etmədilər. Onların əksəriyyəti müəyyən olunmuş normadan artıq torpaq sahələrinin satılmasından əldə etdikləri vəsaiti təsərrüfatlarını kapitalistcəsinə qurmağa, sənaye obyektləri yaratmağa sərf etməyə deyil, həmin vəsaiti İranın mərkəz bölgələrinə köçürüb orada müəssisələr açdılar. Bütün bunlar Cənubi Azərbaycan kəndlilərinin sosial vəziyyətində gözlənilən köklü dəyişikliklər yaranmasına imkan vermədi. Nəticədə Cənubi Azərbaycan kəndlərindən iş ardınca İranın mərkəzi hissəsinə və başqa yerlərə gedənlərin sayı daha da artdı.

Cənubi Azərbaycan İran inqilabı (1978-1979) və ondan sonrakı dövrdə. 1977-ci ilin sonlarından etibarən İranın müxtəlif yerlərində baş verən siyasi hadisələr vəziyyətin sosial partlayışa doğru getdiyini göstərdi və şah hakimiyyətinin cəza tədbirlərini artırması belə bu prosesin qarşısını ala bilmədi. Payızdan etibarən Cənubi Azərbaycanda da bir sıra çıxışlar olmuşdur. Təbrizdə tələbə və şagirdlər arasında həyəcanların davam etməsi, tətil və nümayişlər keçrilməsi, nümayişçilərin polislə toqquşmaları gərgin vəziyyət yaratmışdı. 1977-ci il noyabrın sonunda Təbriz bazarında hökumətin milli siyasətini pisləyən nümayiş olmuş, dekabrın 3-də isə şəhərin ali və orta məktəb müəllimlərinin yürüşü təşkil edilmişdi. Bütövlükdə dekabr ayı Təbriz universitetinin tələbələrinin hökumətə, onun antidemokratik siyasətinə qarşı çevrilmiş çıxışları ilə fərqlənmişdir. Lakin 1977-ci ilin ən iri tələbə çıxışı 21 Azər günü, yəni 1945-ci il dekabrın 12-də Cənubi Azərbaycanda Milli

Hökumətin yaranması ildönümü günü olmuşdur. Həmin gün göndərilən hərbi dəstələrlə tələbələr arasında ciddi toqquşma baş vermiş, tələbələr arasında ölən və yaralananlar olmuşdu.

1978-ci ilin ilk günlərində ölkənin ən böyük dini mərkəzlərindən olan Qum şəhərində baş vermiş hadisələr Cənubi Azərbaycanda əks-səda doğurmaqla iniqlabi situasiyanın yetişməsinə təsir etdi, hadisələrin inqilaba doğru getməsində mühüm rol oynadı.Yanvarın 9-da Qumdakı dini məktəblərin minlərlə tələbəsinin (Qumdakı dini tələbələrin azı 17%-ni azərbaycanlılar təşkil edirdi), ruhanilərin və orta təbəqə nümayəndələrinin iştirak etdiyi növbəti nümayiş zamanı nümayişçilərə polis tərəfindən atəş açılmışdı. Nəticədə nümayişçilərdən onlarla ölən, yüzlərlə yaralanan olmuşdu.Hakim dairələrin Qumda nümayiş iştirakçılarına qarşı silah işlətməsi bütün İranı təlatümə gətirdi və bu hadisə ölkədə inqilabi şəraitin yetişməsinin son həddə çatmasına səbəb oldu.Qumdakı azərbaycanlı din xadimlərindən baş ayətulla (ayatulla-əl-üzma) Seyid Kazım Şəriətmədari başda olmaqla, beş nəfər yüksək rütbəli azərbaycanlı din xadiminin imzaladığı müraciət Qumdakı yanvar şəhidlərinin 40-cı günündə, yəni fevralın 18-də təbrizliləri etiraz nümayişi keçirməyə çağırdı. 1978-ci il fevralın 18-19-da Təbrizdə 53 il hökmranlıq etmiş Pəhləvi xanədanını, o dövrdəki türkdilli İran mətbuatının qiymətləndirdiyi kimi, "mənfur qara səltənətin qanlı dayaqlarını lərzəyə gətirən" 100 min nəfərin iştirak etdiyi üsyan baş verdi.

Hicri tarixlə 1356-cı il bəhmən ayının 29-da (18.02.1978) başlamış və buna görə də "29 bəhmən üsyanı" kimi tarixə düşmüş üsyanın birinci günü eyni bir vaxtda – səhər saat 9-da on minlərlə təbrizli şəhərin müxtəlif rayonlarında küçələrə çıxdılar. Bütün mərkəzi küçələrdə, meydanlarda mitinqlər keçrildi. Qızıllı məscidin önündə on minlik xalq kütləsi toplaşmışdı. Nümayişçilər mitinqləri dağıtmaq istəyən polis nəfərlərini qaçmağa məcbur etdilər. Bundan sonra hökumət küçələrə çıxmış kütlə üzərinə təcili olaraq ordu hissələri göndərdi.Ordu hissələrinin şəhərə yeridilməsi əhalinin qəzəbini coşdurdu və onlar hökumət idarələrini, bankları,

mehmanxanaları dağıdaraq, şahın paniranist siyasətinin carçısı olan hakim "Rəstaxize millate İran" (İran xalqının dirçəlişi) partiyasının yerli şöbəsinin binasına od vurdular.

Şah fevralın 19-da başqa şəhərlərdən Təbrizə nizami hərbi dəstələr gətirtdi. Şəhərdə kütləvi həbslər və axtarışlar başlandı. İki gün davam edən bu üsyan zamanı böyük tələfat – yüzlərlə ölən, minlərlə yaralanan və həbs edilən oldu. Üsyanın əsas iştirakçılarından olan gənclər içərisində tələfat xüsusilə çox idi. Üsyanın ön cərgəsində ilk növbədə tələbələr gedirdi.Üsyan yatırıldıqdan sonra Təbrizin yüksək məqamlı ruhanilərinin şəhərdən uzaqlaşdırılması ruhanilərin də bu çıxışda müəyyən rolu olduğunu, daha dəqiq desək, üsyanın havadarı kimi çıxış etməsini göstərirdi. İranın başqa yerlərində inqilab dövründə şaha qarşı açıq şüarlar verilməsi və onun xalqın bütün bədbəxtliyinin baisi elan edilməsi yalnız 1978-ci ilin avqustunda Ayətulla Xomeyninin Pəhləvi sülaləsini yıxmaq haqqında İran xalqına müraciətindən sonra və xüsusilə şəhrivar ayındakı "qanlı cümə günü"ndən (sentyabrın 8-dən) etibarən irəli sürülməyə başlandığı halda, Cənubi Azərbaycanda şaha və ümumiyyətlə, şahlığa qarşı açıq çıxışın əsası fevral üsyanında qoyulmuşdur. "Şaha ölüm" şüarı ilk dəfə məhz Təbriz üsyanı zamanı irəli sürülmüşdü.

1978-1979-cu illər İran inqilabının sosial-siyasi səciyyəsini əslində elə inqilabın başlanğıcında 29 bəhmən üsyanı müəyyən etmişdir. Bu mənada Təbriz üsyanını İran inqilabının modeli hesab etmək olar.

29 bəhmən Təbriz üsyanından sonra İranda baş vermiş inqilabi çıxışlar tədricən bütün ölkəni bürüdü. Bu üsyanadək istər Tehranda, istər Qumda, istərsə də Təbrizin özündə baş vermiş çıxışlar əsasən gənclərin, o cümlədən tələbələrin hərəkatı idi. 100 mindən çox kütləni əhatə etmiş Təbrizdəki 18-19 fevral üsyanı Pəhləvi monarxiyasına həlledici zərbə vuran ilk xalq çıxışı idi.

Beləliklə, 29 bəhmən Təbriz üsyanı 1978-1979-cu illərdə bütün İranı bürümüş və qələbə ilə nəticələnmiş inqilabın müjdəsi idi.Təbriz üsyanından sonra ilk mühüm çıxışlar martın 29-30-da,

yəni həmin üsyanın qırxıncı günü Tehran, İsfahan, Məşhəd, Qum, Təbriz, Zəncan və başqa şəhərlərdə baş verdi. Şahlıq quruluşuna, eləcə də bu quruluşun arxasında duran və ölkəni öz nüfuz dairəsinə almış ABŞ-a qarşı qanlı toqquşmalar baş vermişdi.

Təbrizdə növbəti aylarda baş vermiş siyasi hadisələr içərisində avqustun 24-də imam Əlinin ölüm günündə təşkil edilmiş nümayiş bütün İranda keçrilmiş nümayişlər içərisində ən möhtəşəmi olmuşdur. Bu nümayişlərdə yüz minlərlə adam iştirak etmişdir. Bütün bu aylar ərzində Təbriz Azərabadəgan Universiteti tələbələrinin hökumət əleyhinə, onun anti demokratik siyasətinə qarşı çıxışları səngimək bilməmişdir. Bütün bu çıxışlar dövründə Cənubi Azərbaycan şəhərləri, xüsusilə Təbriz mühüm mövqe tutmuşdu. Sentyabrdan inqilabın ikinci, həlledici mərhələsi başlandı. İranın demək olar ki, bütün sosial təbəqələri, o cümlədən fəhlələr hərəkata qoşuldular. Sənaye fəhlələrinin ən çox təmərküzləşdiyi Tehran, İsfahan şəhərlərində hərəkat geniş miqyas aldı. Təbrizdə də inqilab genişlənirdi. İnqilabın ikinci mərhələsində hərəkata rəhbərlik şah hakimiyyətinə müxalif olan ruhanilərin əlinə keçdiyi aydın görünürdü. Bu dövrdə, hələ XX əsrin 60-cı illərindən şahlığın və Amerika imperializminin əleyhdarı kimi tanınmış ayəttula-əl-üzma (böyük ayətulla-dini başçı) Ruhulla Musəvi Xomeyninin geniş kütlə içərisində şöhrəti son dərəcə artmışdı. Buna görə də bütün əsas siyasi sol təşkilatlar da onu artıq inqilabın lideri kimi tanımalı oldular.

Təbrizdə 1978-ci il sentyabrın 8-dən başlayaraq hərbi vəziyyət elan olundu. Lakin buna baxmayaraq, İranın bir çox şəhərlərində olduğu kimi, Təbrizdə də həmin gün hakimiyyətə qarşı nümayiş və ümumi tətil keçirildi. "Qanlı cümə günü" adını almış həmin gün əhalinin şaha qarşı qəzəb və nifrətini daha da artırdı.

1978-ci il sentyabrın sonu - oktyabrın əvvəllərindən bütün İranda başlanan və getdikcə artan tətil hərəkatı, xüsusilə neft sənayesi fəhlələrinin hərəkata qoşulması inqilabın genişlənməsində böyük rol oynadı. Neftçi fəhlələrin noyabr ayında iki həftəlik, daha sonra isə 1978-ci ilin dekabrından 1979-cu ilin fevralın

əvvəllərinədək davam etmiş aramsız ümumi tətili şah hakimiyyətinə ağır zərbə vurdu və inqilabın taleyini həll etdi. Bütün ölkəni bürümüş tətil hərəkatı zamanı başlıca olaraq SAVAK-ın (gizli polis qurumu) ləğv edilməsi, İran cəmiyyətinin demokratikləşdirilməsi və başqa tələblər irəli sürülürdü. 1978-ci ilin noyabrında Fransada mühacirətdə olan ayətulla Xomeyni ilə Milli Cəbhənin başçısı Kərim Səncabinin görüşündən sonra onların birgə bəyanatında Pəhləvi sülaləsi hakimiyyətinin ləğv edilməsi zərurəti qeyd olundu. Bundan sonra 29 bəhmən Təbriz üsyanı gedişində irəli sürülmüş "şaha ölüm" şüarı bütün hərəkata hakim kəsildi. 1978-ci ilə dekabrın sonlarında Sərab, Urmiya, Marağa, Ərdəbil şəhərlərində nümayişçilərlə ordu hissələri arasında toqquşmalar baş verdi. İnqilabçıların təzyiqi nəticəsində şah Məhəmməd Rza Pəhləvi 1979-cu il yanvarın 16-da böyük sərvətlə şəxsi təyyarəsi ilə İrandan Misirə qaçdı. İran əhalisi bu qələbəni böyük təntənə ilə qarşıladı. Cənubi Azərbaycanın bütün şəhərlərində şahın heykəllərini vurub yıxdılar.Mübarizənin liderləri arasında azərbaycanlı Ayətullah Şəriətmədarı, Musa Xiyabani və b. var idi. 1 fevral 1979-cu ildə Ayətullah Xomeyni Fransadan İrana qayıtdı. Onu fransız xüsusi xidmət orqanlarının əməkdaşları mühafizə edirdi. Əslində Xomeyninin hakimiyyətə gətirilməsi Fransanın simasında Qərbin layihəsi idi. Tehranda hava limanında onu milyonlarla adam qarşıladı.Qum şəhərinin yaxınlığında Xomeyn qəsəbəsində doğulmuş Ruhulla Musəvi Xomeyni Məhəmməd Rza şahın daxili və xarici siyasətinə qarşı çıxışlarına görə dəfələrlə həbs edilmiş, sonra 1964-cü ildə Türkiyəyə sürgün edilmiş, daha sonra İraqa köçmüşdü. 1978-ci ilin oktyabrında Məhəmməd Rza şahın xahişi ilə İraq hökuməti onu ölkədən çıxartdı və o, Parisə getməli oldu. Burada onun şahlığının devrilməsi çağırışı ilə İran xalqına müraciətləri yazılmış lent yazıları İrana gətirilərək hərbi vəziyyət şəraitində yeganə leqal yığıncaq yeri olan məscidlərdə əhaliyə səsləndirilmişdi. Şahlığın devrilməsi və 1979-cu il fevralın 11-də paytaxtda şah tərəfdarları üzərində qələbə çalınmasına baxmayaraq, bir çox yerlərdə, eləcə də Cənubi Azərbaycanda əksinqilabi

qüvvələr hələ bir neçə gün müqavimət göstərdilər. Beləliklə, 1979-cu il fevralın 11-də Tehranda qələbə çalan inqilab Cənubi Azərbaycanda fevralın 16-da başa çatdırıldı. İnqilabda fəal iştirak etmiş Azərbaycan türkləri arasında inqilabın qələbə qazandığı ilk günlərdə İranda federasiyalı bir dövlət qurumunun yaradılması ideyası çox populyar idi.

Cənubi Azərbaycan əhalisi şahlığın devrilməsi ilə inqilabın mərhələsini bitmiş hesab edərək, inqilabın milli-demokratik istiqamətdə inkişafını gözləyirdilər. Lakin bu baş vermədi.İranda şahlıq hakimiyyətini əvəz etmiş respublika üsuli-idarəsi mahiyyət etibarı ilə dini rejim (teokratiya), siyasətçilərin adlandırdığı kimi mollakratiya (mollaların hakimiyyəti) idi. İnsanların hüquq və azadlıqları şah rejimindən də betər məhdudlaşdırıldı. Qeyri-farslara münasibətdə şah rejimi ilə eyni mövqedən yanaşırdı. Şah rejimi ifrat şəkildə ölkədə Qərb həyat tərzinin yayılmasına meydan verirdisə, molla hakimiyyəti daha çox mühafizəkar orta əsrlər şərq həyat tərzini təbliğ edirdi və onun islam dini ehkamları ilə bağlayırdı. Doğrudur, insanları əxlaq, ədəb-ərkan normalarına əməl etməyə təbliğ etməsi müsbət hal sayılsa da, bunun kobud və ifrat formada edilməsi məqbul hesab edilə bilməzdi.İnqilabın qələbəsindən sonrakı ilk illərdə iqtisadi durğunluq keçirən İran yavaş-yavaş bu vəziyyətdən çıxdı və minlərlə müsəlmanın həlak və şikəst olduğu mənasız İran-İraq müharibəsinin (1980-1988) vurduğu iqtisadi yaraları sağaltmağa başladı. Bununla da, Cənubi Azərbaycanda sənaye və kənd təsərrüfatının inkişafında müəyyən irəliləyişə nail olundu. Burada neftayırma, traktor, maşınqayırma zavodları, toxuculuq-trikotaj fabrikləri, xalça və s. kimi yüzlərlə yüngül sənaye müəssisələri fəaliyyət göstərirdi.

Cənubi Azərbaycanda taxılçılıq, bostançılıq və heyvandarlıq məhsulları daxildə istehlak olunur, müəyyən qismi də İranın digər rayonlarına ixrac olunurdu. Ağır vəziyyət kəndlərin boşalmasına gətirib çıxarmışdır. Nəticədə, ümumən ölkənin kənd təsərrüfat balansında Cənubun yeri və rolu azalırdı.

İnqilab dövründə İranda heç bir xalq milli tələblər irəli sürmədi. Bu məsələ yalnız inqilabın qələbəsi ərəfəsində və ondan sonra gündəmə gəldi. İnqilab zamanı Homeyni başda olmaqla bəzi siyasi xadimlər məzlum xalqlara öz müqəddaratını təyin etmək hüququnu verəcəyini bildirmişdilər. Ölkənin ən güclü dini-siyasi partiyası olan İslam Respublikası Partiyası da öz bəyanatında hər xalqın dilini və digər mədəni sərvətlərini qorumaq hüququ olduğunu bidirdi, etnik və milli ayrı-seçkiliyi haram saydı. Müvəqqəti hökümət başçısı əslən azərbaycanlı Mehdi Bazarqan İranın ərazi bütövlüyü çərçivəsində əyalətlərə, etnik azlıqlara mədəni hüquqlar verilməsinin tərəfdarı idi. İranın sosial-siyasi həyatında ciddi hadisələr baş verirdi. 1980-ci ilin yanvarında İranda prezident, martda parlament seçildi. Yeni daimi hökümət işə başladı. İran İslam Məclisi torpaq islahatı haqqında qanun qəbul etsə də (1981), dövlət bu qanunu həyata keçirməkdə aciz oldu. Çünki islahat şamil olunan torpaq sahələrinin çoxu varlı ruhanilərin, Məclis vəkillərinin, yüksək vəzifə sahiblərinin mülkiyyətində idi. Elə bu səbəbdən işsizlik problemini həll etmək mümkün olmadı.

Bütün İran əhalisi kimi, Azərbaycan türklərinin böyük əksəriyyəti bərabərlik və demokratik azadlıqlar verilməsini, milli hüquqların yüksək səviyyədə təmin edilməsini gözləyirdilər.Bu tələblər yeni Konstitusiyada az-çox öz əksini tapsa da, çoxusu kağız üzərində qaldı.Azərbaycan türkləri üçün ən ağrılı məsələ milli dil haqqında Konstitusiyanın 15-ci maddəsi idi. Yerli və etnik dillərin fars dili ilə yanaşı kütləvi informasiya vasitələri və məktəblərdə milli ədəbiyyatın tədrisində işlənməsi azad elan edilsə də, bu həllini tapmadı.Şahlıq dövründə "vahid İran milləti" adı altında aparılan anti-Azərbaycan siyasəti mollaların hakimiyyəti dövründə "vahid islam ümməti" (ümmət-ərəb sözüdür: xalq, camaat deməkdir) ifadəsi altında aparmaqla milli mənsubiyyət inkar edilməyə başladı.

İran daxilində Cənubi Azərbaycana muxtariyyət verilməsi məktəblərdə təhsilin Azərbaycan (türk) dilində aparılması ana dilində dərsliklərin, mətbuat məsələlərini gündəmə gətirən bir sıra təşkilatlar yaradıldı. Belə təşkilatlardan biri də Tehranda yaranan

Azərbaycan yazıçıları və şairləri cəmiyyəti idi. 1979-cu ilin aprelində cəmiyyət ana dili ilə bağlı qəbul etdiyi proqramda Azərbaycan türk dilini bu xalqın rəsmi dili kimi tanınmasını Cənubda tədrisin bu dildə aparılmasını, universitetlərdə Azərbaycan dili və ədəbiyyatı kafedralarının yaradılması, milyonlarla azərbaycanlının yaşadığı Tehranda ikidilli məktəblərin açılmasını, məktəblər üçün ana dili və ədəbiyyatı müəllimlərinin hazırlanması, dərsliklərin çapı və s. nəzərdə tutulurdu. Əsasən ziyalılardan ibarət bu qrup 1980-cı ildən fəaliyyət göstərdi. Cənubi azərbaycanlılarının haqları uğrunda mübarizə aparan siyasi təşkilatalar Müsəlman Xalq Respublikası Partiyası (MXRP) var idi. Bu təşkilatlar İran daxilində Cənubi Azərbaycan xalqının muxtar hüquqları uğrunda mübarizəni öz başlıca vəzifəsi kimi göstərirdi, eyni zamanda islam prinsiplərinə dayanaraq sosialist cəmiyyətinin əsaslarını qurmaq əzmini bildirirdi. 1979-cu ilin dekabrında qüvvəyə minmiş Konstitusiya ölkədə ruhanilərin mütləq hakimiyyətini təsbit etmiş oldu.

Konstitusiya layihəsininin yeni mətnindən milli əyalətlərin bəzi hüquqları ilə bağlı qeydlərin çıxarılması, həmçinin ibtidai məktəblərdə ana dilində təhsil hüququ əvəzinə fars dilinə icazə verilməsi kəskin etiraz doğurdu.

1979-cu il dekabrın 5-də İran MXRP-nin Cənubi Azərbaycan bölməsi Təbrizliləri Konstitusiyaya etiraz etməyə, fiziki və mənəvi hücumlara məruz qalmış Şəriətmədariyə dəstək olmaq üçün etiraz çıxışlarına çağırdı. Bu, Təbriz üsyanın başlanması üçün təkan oldu. Konstitusiyanın 110-cu maddəsinə (bu maddə Xomeyniyə mütləq ali hakimiyyət hüquqları verirdi) etirazla başlanmış bu üsyan zamanı Təbrizdə dövlət idarələri, kütləvi informasiya vasitələri, hava limanı ələ keçirildi. Cənubi Azərbaycan İslam Respublikası elan edildi. Lakin bir neçə gün davam edən nümayişlər uğur qazanmadı. Buna səbəb Şəriətmədarinin qətiyyətsizliyi oldu. O, tələblərin yerinə yetirilməsi üçün şəxsi nüfuzundan və milli hərəkatın gücündən istifadə etmədi və geri çəkildi. Müxtəlif sosial-siyasi qüvvələr tərəfindən dəstəklənən liderlər Xomeyni və Şəriətmədari arasındaki ziddiyyətlər ikincinin tərəfdarlarının məğlubiyyəti ilə bitdi. Hakim

İslam Respublika Partiyasının yerli təşkilatlarının fəaliyyət çərçivəsi daha da genişləndi.1980-ci ilin əvvəllərindən etibarən mövcud quruluşa zidd olan ictimai-siyasi dairələrə qarşı təqiblər başlandı. Fəallar həbs edildi və ya məhv edildi, bir hissəsi mühacirətə getdi. Bəzi təşkilatlar 1983-cü ilədək gizli fəaliyyətlərini davam etdirdi. Onlara da "mədəni inqilab" pərdəsi altında siyasi möhür vuruldu, təqiblər şiddətləndi. Dövlət yerli dillərə yalnız farscanın yanında işlədilməsi şərti ilə məhdud hüquqlar versə də, reallıqda qeyri-fars xalqlar məktəblərdə milli ədəbiyyatın belə ana dilində tədrisini həyata keçirmədilər. Əvəzində islamın şiəlik məzhəbi adı altında fars sovinist ideologiya təbliğ olunmağa başladı.1984-cü ildə Ayətullah Xomeyninin rəhbərliyi ilə təhsilin islamlaşdırılması haqqında konsepsiya qəbul olundu. Bütün dərsliklərin məzmunu formaca dəyişdirilsə də, məzmununa görə fars millətçiliyinə xidmət göstərirdi. Prezident Haşemi Rəfsəncaninin dövründə (1997-2005) fars olmayan xalqların milli ədəbiyyatlarının məktəblərdə ana dilində tədrisi məsələsi gündəmə gətirilsə də, nəticəsiz qaldı.

Azərbaycan Respublikası müstəqiliyini bərpa etdikdən sonra İran İslam Respublikası ilə 1991-ci il dekabrın 25-də diplomatik münasibətlər yaradıldı.

Ermənistanın hərbi müdaxiləsi nəticəsində ölkəmizdə 1 milyona qədər soydaşımız qaçqın və məcburi köçkünə çevrildiyi şəraitdə İran İslam Respublikası onlara humanitar yardım göstərdi. Qaçqınlar üçün çadır şəhərcikləri yaradılması, müntəzəm ərzaq yardımları göndərilməsi təşkil edildi. Lakin İran bunu gözdən pərdə asmaq üçün edirdi. Bütün mümkün vasitələrlə Ermənistanı dəstəkləyirdi. 2000-ci ildə ABŞ və Avropa Birliyinin nüvə proqramlarına görə İrana tətbiq etdiyi sanksiyalar ucbatından beynəlxalq miqyasda təcrid olunduqda Azərbaycan təzyiqlərə baxmayaraq bu sanksiyalara qoşulmamış, bütün səviyyələrdə əməkdaşlığı davam etdirmişdi. Lakin İran hökuməti Azərbaycanın bu mərdanə hərəkətini qiymətləndirmədi. Vətən müharibəsi günlərində erməni işğalçılarına əlindən gələn köməyi etdi. İşğalçıları silah-sursat, yanacaq, kəşfiyyat məlumatları ilə təmin etdi. Öz

ərazimizdə qoşunlarımızın hücumuna əngəl törətdi. Rusiyadan, Hindistandan və digər ölkələrdən İran üzərindən hərbi texnika, ləvazimat və s. daşınmasına icazə verdi.Azərbaycanın qələbəsindən özünü narahat hiss edən İranın ermənipərəst mövqeyi ucbatından müharibədən sonra da İran-Azərbaycan münasibətləri qeyri-stabil olmuşdur. Bu gün də İranda yaşayan xalqlar, o cümlədən Azərbaycan türkləri sosial haqları uğrunda mübarizəni davam etdirirlər. Bu mübarizənin önündə qadınlar gedirlər. 16 sentyabr 2022-ci ildə Məhsa Əmininin polis tərəfindən işgəncə verilərək ölürülməsindən sonra Cənubi Azərbaycanda qadınlar hərəkatı kütləvi xarakter aldı.2024-cü ildə Cənubi Azərbaycan türkü olan Məsud Pezeşkian İran prezidenti seçildikdən sonra Azərbaycan Respublikası ilə münasibətlər mülayimləşməyə başladı. 28 aprel 2025-ci ildə M.Pezeşkianın 120 nəfər heyəti ilə Bakıya səfəri bu münasibətlərə yeni səhifə açdı.

XIV FƏSİL
Azərbaycan SSR-nin iqtisadı və sosial-siyasi həyatı (1945-1960-cı illər).

Müharibədən sonra xalq təsərrüfatının bərpası və inkişafı. Əhalinin sosial strukturu, rifahı və məişəti. Müharibə sovet ölkəsinin bütün təsərrüfatına ağır zərbə vurdu. 1941-1945-ci illərdə ölkə öz milli sərvətinin 1/3 hissəsini itirdi. Milyonlarla insan doğmalarını, yaxınlarını itirmiş, sahibsiz uşaqların sayı kəskin surətdə artmışdı.

Azərbaycan bilavasitə alman-faşist qəsbkarlarının hücumuna məruz qalmamışdı, bununla belə, respublika zəhmətkeşləri müharibənin bütün ağırlığını çəkmişdilər. Müharibədə sənaye istehsalının əsas göstəriciləri kəskin surətdə aşağı enmişdi. Sənayenin ümumi məhsulu 1940-cı illə müqayisədə 22% aşağı düşmüşdü. Neft hasilatı 1945-ci ildə 1940-cı ildəkinə nisbətən təqribən yarıbayarı azalmışdı.

Müharibə dövründə texniki bitkilər məhsulunun xeyli azalması nəticəsində istehlak malları istehsalı kəskin surətdə aşağı düşmüşdü. 1945-ci ildə 1940-cı ilə nisbətən pambıq istehsalı, barama istehsalı azalmışdı. Kənd təsərrüfatının maddi-texniki bazası xeyli zəifləmişdi.

Azərbaycan əhalisi 1940-cı ildə 3.304 min nəfər idi, 1945-ci ildə onun sayı 17,6 % azalmışdı.

Müharibə ölkənin əmək ehtiyatlarının istifadəsinə də mənfi təsir göstərmişdi. Fəhlə və qulluqçuların 1940-cı ilin oktyabrında 456 min olduğu halda, 1945-ci ilin sentyabrında 396 min nəfərə qədər azalmışdı.

Respublikada xalq təsərrüfatının bərpası hələ işğal olunmuş ərazilər azad edildikcə başlanmışdı.1945-ci il mayın 26-da SSRİ Dövlət Müdafiə Komitəsi "Silah istehsalının azaldılması ilə əlaqədar olaraq sənayeni yenidən qurmaq sahəsində tədbirlər haqqında" qərar qəbul etdi. Azərbaycan SSR-də xalq təsərrüfatının, xüsusilə neft sənayesinin bərpası və inkişafı üçün mühüm tədbirlər

görüldü. 1945-ci il mayın 28-də SSRİ DMK "Bakıda neft hasilatını artırmaq tədbirləri haqqında" xüsusi qərar qəbul etdi. Qərarda neft sənayesini inkişaf etdirməyin böyük proqramı nəzərdə tutulmuşdu. Müharibə qurtarandan sonra müəssisələrdə iş vaxtından artıq işləmək hallarına son qoyuldu. 8 saatlıq iş günü və illik məzuniyyətlər bərpa edildi. 1945-ci il dekabrın 1-dən müharibə illərində istifadə edilməmiş məzuniyyətlərə görə pul kompensasiyasının ödənilməsinə başlandı.

1946-cı ildə respublikada neft hasilatı 1945-ci ildəkinə nisbətən 4% artdı. 1946-cı ildə Azərbaycanda iqtisadiyyatın yenidən qurulması başa çatdırıldı, respublika sənayesi ümumi məhsulunun həcmi 1940-cı il səviyyəsinin 80%-nə çatdı.

SSRİ xalq təsərrüfatının bərpası və inkişaf etdirilməsinə dair dördüncü beşillik (1946-1950-ci illər) plan 1946-cı il martın 18-də SSRİ Ali Sovetinin birinci sessiyasında təsdiq edildi. 1946-1950-ci illərdə Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik planda sənayenin və kənd təsərrüfatının inkişafını müharibədən əvvəlki səviyyəyə yüksəltmək və bu səviyyəni ötüb keçmək əsas vəzifə kimi irəli sürüldü. Həm də mülki müəssisələrin hərbi məhsul istehsalından əhali üçün mallar istehsalına keçirilməsi bir vəzifə kimi qarşıya qoyulurdu.

Neft hasilatını yüksəltməyin həlledici şərtlərindən biri neft quyuları qazılması üzrə işləri genişləndirmək idi. Geoloji-kəşfiyyat işlərini genişləndirmək, yeni neft yataqlarının kəşfi və istifadəyə verilməsi məqsədi ilə SSRİ hökumətinin qərarı ilə 1947-ci ilin sonunda "Azneftkəşfiyyat" Birliyi yaradıldı.

1946-cı ildən başlayaraq Azərbaycanın neft mədənlərində turbin qazması getdikcə daha çox tətbiq edilirdi. Bu, neftçilərə turbin üsulu ilə maili istiqamətdə quyular qazmağa imkan verdi. Həmin təşəbbüs bütün sovet neft sənayesinin inkişafına Azərbaycan neftçilərinin böyük töhfəsi idi. Bakılıların bir özül üzərindən iki və daha çox neft quyusunun qazılması üsulu mühüm əhəmiyyət kəsb edirdi. 1948-1950-ci illərdə 2800-ə qədər dayanmış quyu bərpa edilmişdi. 50-ci illərin ortalarına qədər

Azərbaycan müharibədən sonra bütün ölkənin yanacağa olan ehtiyacını tam ödəyə bilmirdi. Quruda neft istehsalı azalırdı. Buna görə də Xəzər dənizində neft yataqlarının aşkar edilməsi və istifadəyə verilməsi problemi meydana çıxdı.

Dəniz neft yataqlarını mənimsəmək üçün "Azneft" Birliyi nəzdində "Dəniz qazma" Tresti yaradıldı. 1949-cu il mayında SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-də dəniz neft yataqlarının kəşfini və işlənməsini üzən vasitələrlə təmin etmək haqqında" xüsusi qərar qəbul etdi.

Dəniz mədənlərinin yaradılması və inkişafında "Azərbaycan SSR-də dəniz neft yataqlarının kəşfi və işlənilməsi üzrə işlərin təşkilini yaxşılaşdırmaq tədbirləri haqqında" SSRİ Nazirlər Sovetinin qərarının böyük əhəmiyyəti oldu. Dəniz neft yataqlarının işlənilməsini gücləndirmək və bu işə rəhbərliyi yaxşılaşdırmaq məqsədilə 1950-ci ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə yeni neft Birliyi - "Azdənizneft" yaradıldı.

1946-1950-ci illərdə neft emalı sənayesində zavodlar yenidən quruldu, yeni texnika ilə təmin edildi. 1946-1947-ci illərdə Bakıda traktorları va neft mədənlərindəki mexanizmləri təmir edən Bakı elektrik təmiri zavodu, 1949-cu ildə isə Binəqədi boru təmiri zavodu istifadəyə verildi.

Maşınqayırma sənayesinin yeni sahələrinin yaradılmasına başlandı. 1947-ci ilin martında elektrotexnika sənayesinin ilki olan Bakı elektrik maşınqayırma zavodu, Bakı diyircəkli yastıq zavodu, yeni cihazqayırma və elektromexanika məmulatı zavodu işə düşdü.

Müharibədən sonrakı ilk illər enerji obyektlərinin və elektrik enerjisi istehsalının daha da artması ilə səciyyələnir. Sumqayıt İstilik Elektrik Stansiyasının gücü üç dəfə artırıldı. Lakin istehsal olunan elektrik enerjisi Azərbaycanın xalq təsərrüfatının enerjiyə artan tələbatını ödəmək üçün kifayət qədər deyildi. Bu işdə tikintisinə hələ müharibədən əvvəl başlanmış Mingəçevir SES həlledici rol oynamalı idi. SSRİ XKS-nin 1945-ci il mayın 6-da qəbul etdiyi qərara uyğun olaraq Mingəçevir SES-in tikintisi bərpa edildi. Həmin ildə isə "Mingəçevirsestikinti" İdarəsi yaradıldı.

1948-ci ilin əvvəlindən su qovşağının əsas obyektlərinin tikintisi sürətlənməyə başladı.Yüngül, toxuculuq, yeyinti sənaye bərpa olunur və inkişaf etdirilirdi. Yüngül və toxuculuq sənayesi müəssisələrinin yenidən qurulması və genişləndirilməsi nəticəsində əsas istehlak məmulatlarının istehsalı 1950-ci ildə müharibədən əvvəlki səviyyəni ötüb keçmişdi.

Kənd təsərrüfatının bərpa və inkişafına diqqət artırılmışdı. ÜİK(b)P MK-nın Fevral (1947-ci il) Plenumu "Müharibədən sonrakı dövrdə kənd təsərrüfatını yüksəltmək tədbirləri haqqında" qərar qəbul etdi. Əkin sahələrinin genişləndirilməsi, dənli və texniki bitkilərin məhsuldarlığının yüksəldilməsi, heyvandarlıq məhsuldarlığının artırılması, MTS və sovxozların işinin yaxşılaşdırılması nəticəsində kənd təsərrüfatının istehsalat-texniki bazası xeyli möhkəmləndirildi.

İrriqasiya tikintisi genişləndi. Kür-Araz ovalığının, Samur-Dəvəçi kanalı zonasının suvarılmasının həyata keçirilməsi üçün mühüm tədbirlər görüldü. Salyan düzənliyində və Şimali Muğanda suvarma sistemlərinin yenidən qurulması və tikintisi əsasən başa çatdırıldı. Bunun nəticəsində əkinə yararlı torpaqların sahəsi genişləndi.

Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün 1950-ci il iyununda SSRİ Nazirlər Soveti "Xırda kolxozların iriləşdirilməsi haqqında" qərar qəbul etdi. 1951-ci ilin fevralında respublikanın kənd təsərrüfatında 3136 artel 1044 təsərrüfatda birləşdirildi. Kolxozların sayı 1950-ci ildəki 1615-dən 1951-ci ildə 1359-a qədər azaldı. Kənd təsərrüfatında kolxozlarla yanaşı, sovxozlar da mühüm yer tuturdu. 1950-ci ildə Azərbaycanda 46 sovxoz var idi.

Lakin kənd təsərrüfatına rəhbərlikdəki nöqsanlar kolxoz və sovxozların üstünlüklərindən, onların daxili ehtiyat və imkanlarından istifadə etməyə mane olurdu. Geridə qalan təsərrüfatların sayı çox idi. Kolxozlardan dövlət anbarlarına tədarükü artırmağı tələb edirdilər. Kənd təsərrüfatı məhsullarının təhvili planlaşdırılarkən kəndin imkanları yox, dövlətin tələbləri əsas götürülürdü. Kənd təsərrüfatının texniki təchizatı aşağı

səviyyədə qalırdı. Kənd təsərrüfatının idarə olunması sistemi dəyişmişdi. Yerli rəhbərlər kolxoz əmlakına göstəriş verməklə təsərrüfatlara hökm etməkdə öz mülahizələrinə görə istədikləri kimi fəaliyyət göstərməkdə davam edirdilər.

1947-ci ildə dövlətin kolxozlara münasibəti olduqca sərtləşdi. MTS-lərdə siyasi şöbələr bərpa olundu. Tikinti və zavodlara kənd əhalisinin mütəşəkkil toplanması kəndlilərin şəhərə axınını gücləndirdi.

Müharibədən sonrakı illərdə əsaslı tikintinin miqyası getdikcə artırdı. Tikinti işlərini yerinə yetirmək üçün tikinti təşkilatları yaradıldı, çoxlu iri sənaye müəssisəsi istismara verildi, ağır sənayenin yeni sahələrinin yaradılmasına başlandı.

Hələ 1944-cü ildə Sumqayıtda boru-prokat zavodunun tikintisi bərpa olundu. Burada alüminium zavodunun tikintisi üçün hazırlıq işləri genişləndi. 1947-ci ilin yayında Sumqayıtda respublikanın böyük kimyasının ilki olan sintetik kauçuk zavodunun tikintisinə başlandı.

Cənubi Qafqazda ən böyük Daşkəsən dəmir filizi yatağı əsasında filiz-mədən sənayesinin yaradılmağa başlanması böyük hadisə oldu. Burada iri filiz-mədən müəssisəsi olan Daşkəsən dəmir mədəninin əsası qoyulurdu. Rustavidəki Cənubi Qafqaz metallurgiya zavodu bu mədənin bazasında yaradılmışdı. Müharibə nəticəsində - Daşkəsən mədəninin tikintisi dayandırılmış və 1945-ci ilin üçüncü rübündə bərpa olunmuşdu. Daşkəsən Azərbaycanın "Uralı" adlanırdı. Daşkəsən filizinin xammal kimi Rustaviyə göndərilməsi Azərbaycan üçün faydalı deyildi.

Azərbaycanda nəqliyyat da inkişaf etməkdə idi. 1945-ci ildə SSRİ XKS-nin qərarı ilə müstəqil Azərbaycan Dəmir Yolu İdarəsi yaradıldı. Elektrik dəmir yolu şəbəkəsi genişləndirildi. 1948-ci ildə Suraxanı-Qala, 1949-cu ildə Qala-Buzovna sahələri istismara verildi.

Rabitə müəssisələrinin şəbəkəsi, poçt mübadiləsi genişlənirdi. Teleqraf-telefon rabitəsi yenidən qurulurdu. 1946-cı ildə Bakı-Tbilisi arasında yüksək tezlikli teleqraf magistral kanalı açıldı,

sonrakı illərdə isə Bakı-Yevlax sahəsində yeni teleqraf aparatları tətbiq olundu. 1949-cu ildə Bakıda ilk dəfə olaraq əl sistemli abonent teleqraf stansiyası quruldu.

Beləliklə, 1946-1950-ci illər Azərbaycanın xalq təsərrüfatının müvəffəqiyyətlə bərpa edilməsi, dördüncü beşilliyin əsas istehsal tapşırıqlarının yerinə yetirilməsi, sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və rabitənin texniki səviyyəsinin daha da yüksəlməsi ilə əlamətdar oldu. 1945-1950-ci illərdə respublika sənayesinin ümumi məhsulu 78% artdı.

Azərbaycan neft sənayesi xeyli inkişaf etdi. Neft emalı zavodlarının istehsal gücü artırıldı, məhsulların çeşidləri genişləndi və keyfiyyəti yaxşılaşdı. Sənayenin digər sahələri qısa müddətdə bərpa olundu və inkişaf etdi.

1946-1950-ci illərdə Azərbaycanda 34 iri yeni dövlət sənaye müəssisəsi istifadəyə verilmişdi. Yaşayış evlərinin, məktəblərin və digər təhsil ocaqlarının, tibb, mədəni-maarif idarələrinin, həmçinin şəhərlərin və yaşayış məntəqələrinin tikintisi və abadlaşdırılması geniş miqyasda həyata keçirilirdi.

Bununla belə, Azərbaycan iqtisadiyyatında uzun müddət davam edən birtərəfli inkişaf meyli bu dövrdə də qalırdı. Sovet İttifaqının tələbatı ilə neft sənayesinə əvvəlki illərdə olduğu kimi, böyük həcmdə sərmayə qoyulsa da, respublikada həmin dövrdə neft və qaz hasilatı artmaq əvəzinə xeyli azaldı. Nəticədə Azərbaycana ayrılan vəsaitin çox hissəsini istifadə edən yanacaq sənayesində artıma nail olunmadı. Başqa sahələrin inkişafında da əsaslı dönüş yaranmadı, bir sıra sahələrdə məhsul istehsalı cüzi miqdarda artdı. 1950-ci ildə kənd təsərrüfatının bir sıra göstəriciləri də 1940-cı ilin səviyyəsindən geri qalırdı. Xüsusən də respublikanın yüksək fayda verən əkinçilik bitkilərinin (pambıq, taxıl) əkin sahələri və məhsul istehsalının həcmi aşağı düşmüş, bir sıra başqa sahələrdə isə artım çox az olmuşdu.

Ümumiyyətlə, beşillik plan SSRİ-nin o cümlədən Azərbaycan iqtisadiyyatının bərpa və inkişaf vəzifəsini nəzərdə tutsa da, respublikada onların gerçəkləşdirilməsi tam həyata keçirilmədi.

Azərbaycan sənayesinin əsas sahəsini neft-qaz hasilatı və onunla əlaqədar çoxlu başqa sahə təşkil etdiyindən və onlar Bakı-Sumqayıt bölgəsində cəmləşdiyindən respublikanın ümumi sənaye məhsulu istehsalının əsas hissəsi də bu regionun payına düşürdü. Kənd təsərrüfatının lazımi dərəcədə inkişaf etməməsi, əksər regionların sosial-iqtisadi yüksəlişini məhdudlaşdırırdı. Nəticədə əhalinin yüksək təbii artımı baş verən ərazilərdən Bakı-Sumqayıt bölgəsinə kütləvi və daimi axın prosesi baş verirdi ki, bu da bütövlükdə respublikada ciddi sosial-iqtisadi problemlərin yaranmasına səbəb olurdu.

XX əsrin 50-ci illəri Azərbaycan üçün sənaye istehsalının artması, ağır sənayenin yeni sahələrinin yaranması və inkişafı dövrü oldu. 1953-ci ilin sonunda neftçıxarma sənayesinə rəhbərlik edən üç birlik -"Azdənizneft", "Azneftkəşfiyyat", "Azneft" birlikləri "Azneft" Birliyində birləşdirildi. 1954-cü ilin avqustunda Azərbaycan SSR Neft Sənayesi Nazirliyi yaradıldı. Nazirlik müəssisələrin strukturunda dəyişikliklər apardı. Belə ki neftçıxarma trestləri neft-mədən idarələrinə (NMİ) çevrildi.

1954-cü ilin iyulunda SSRİ Nazirlər Soveti "SSRİ neft sənayesinin daha da inkişaf etdirilməsinə dair tədbirlər haqqında" qərar qəbul etdi. Əsas diqqət SSRİ-nin yeni neft rayonlarının (Volqaboyu, Ural, Qərbi Sibir) inkişafına yönəldildi. Lakin 1955-ci il üçün Azərbaycan SSR-in neft sənayesinə ayrılan əsaslı vəsait əvvəlki ilə nisbətən 2 dəfədən çox azaldıldı. Azərbaycan neft hasilatı üzrə SSRİ-nin ən perspektivsiz rayonları sırasına daxil edildi. Respublika üçün neft hasilatı planı isə əvvəlki kimi 15 milyon ton həcmində saxlanıldı.

1955-1957-ci illərdə Əli Bayramlı (Şirvan) şəhəri yaxınlığında, Kür çayı ətrafı düzənlikdə iri neft yataqları Gürovdağ və Mişovdağ kəşf edildi və mənimsənildi. Zəyli-Zeyvə yatağının istismarına başlandı. 1959-cu ildə Kənizdağ yatağı sənaye miqyasında işlənməyə verildi.

Xəzər dənizində neftli sahələrin işlənməsi geniş vüsət aldı. Darvin bankası 50-ci illərin I yarısında, Çilov adası, Neft

daşlarının şimal-şərq hissəsi (1954-cü il), Qum adası (1956-cı il) yataqlarının mənimsənilməsi nəticəsində dənizdə neft hasilatı sürətlə artdı. 1958-ci ildə dəniz neft yataqlarından 1950-ci ilə nisbətən 2,5 dəfə çox neft çıxarılmışdı.

Neft yataqlarının mənimsənilməsində yeni mütərəqqi üsullar tətbiq edilməyə başlandı. 1951-ci ildən neft laylarına süni təsir göstərmək üsulları tətbiq olundu. Təkrar neft hasilatı, layların su ilə parçalanması və quyuların turşu ilə yuyulması metodlarının sənaye miqyasında tətbiqinin böyük səmərəsi olmuşdu.

Qaz sənayesi də tərəqqi edirdi:1954-1955-ci illərdə Qaradağ qaz-kondensat yatağının, 1958-1959-cu illərdə isə qazlı-neftli Zirə yatağının kəşfi və sənaye miqyasında işlənməsi ilə qaz sənayesi daha çox inkişaf etdi. Nəticədə qazın hasilatı artdı. 1960-cı ilin əvvəlində Bakı-Tbilisi-Yerevan magistral qaz kəmərinin tikintisi başa çatdı. Bunun nəticəsində erməni və gürcü yaşayış məntəqələri qazla təmin olsa da, azərbaycanlıların yaşayış məntəqələrinin böyük hissəsi qazlaşdırılmadı.

1952-ci ildə Sumqayıt sintetik kauçuk zavodunun istismara verilməsi kimya sənayesinin inkişafında yeni mərhələ oldu. Sovet İttifaqında ilk dəfə olaraq bu zavod neft qazlarından etil spirti istehsal etməyə başladı. 1959-cu ilin noyabrında Bakı şin zavodunun birinci növbəsi istifadəyə verildi.

1951-1960-cı illər filiz-mədən sənayesinin inkişafı ilə əlamətdar olmuşdur. 1954-cü ilin aprelində Daşkəsən dəmir mədəninin tikintisi başa çatdırıldığı vaxtdan respublikanın iqtisadiyyatında filiz-mədən sənayesi mühüm rol oynamağa başladı. Daşkəsəndəki Azərbaycan filizsaflaşdırma kombinatında 1960-cı ildə dəmir filizi çıxarmaq üçün əlavə qurğular işə salındı.

Daşkəsən dəmir mədəninin işə salınması, elektrik dəmir yolunun çəkilməsi Zəylik alunit yatağının alüminium filizindən istifadə etməyə imkan yaratdı. 1955-ci ildə respublikanın əlvan metallurgiyasının ən iri müəssisələrindən birinin – Gəncə gil-torpaq zavodunun tikintisinə başlanıldı. Elmi-texniki mərkəzlərlə əlaqələrin zəifliyi sənaye müəssisələrinin işinə mənfi təsir

göstərirdi.

Azərbaycan SSR Ali Soveti (sentyabr, 1965-ci il) Azərbaycan Xalq Təsərrüfatı Şurasının ləğvi haqqında qərar qəbul etdi. İttifaq-respublika nazirlikləri bərpa edildi.

60-cı illərdə elmi-texniki tərəqqi sayəsində geoloji-kəşfiyyat işləri yaxşılaşmışdı. 1965-ci ildə Dəniz Neft və Qaz Yataqları Kəşfiyyatı İdarəsi yaradıldı. Quruda Qarabağlı, Kürsəngi, dənizdə Cənubi Bankə, Səngəçal və Duvannı yataqları istismara verildi.

"Abşeron", "Azərbaycan" və "Bakı" üzən qazma qurğuları vasitəsilə 15-60 metrlik su qatının altında 1600-1800 metr dərinlikdə kəşfiyyat quyularının istismara verilməsi nəticəsində neft hasilatı artdı. 1960-cı ildə 17,8 mln, 1970-ci ildə isə 20,2 mln ton neft çıxarılmışdı. Qaz hasilatı ildə təxminən 5,5 milyard kub metr həcmindən yuxarı qalxmırdı. Əsas səbəblərdən biri qazma qurğularının yeni avadanlıqla kifayət qədər təmin olunmaması idi. Mədənlərdə geoloji və mühəndis işi aşağı səviyyədə idi, istehsalat və əmək intizamı zəifləmişdi. Neftçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına da lazımi qayğı göstərilmirdi.

Yüngül və yeyinti sənayesində də irəliləyişlər baş verdi. Gəncə xalça kombinatı işə düşdü. Ümumiyyətlə, 60-cı illərdə respublikada sənaye məhsulu istehsalı 94% artdı. Yeni sənaye müəssisələrinin 1/3-dən çoxunun Bakı şəhərindən kənarda - Sumqayıtda, Şirvanda, Qubada, Naxçıvanda yaradılması, regionlarda sənayenin ayrı-ayrı sahələrinin təşkili ölkənin sosial-iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Sənayedə nominal göstəricilər artsa da, inkişaf sürəti ləngiməyə başlamışdı. Belə ki, əgər 1951-1960-cı illərdə məhsul istehsalı 104% artmışdısa, 1961-1970-ci illərdə bu göstərici cəmi 94% olmuşdu. 60-cı illərin sonlarında sənayenin yüksəlişi, həmçinin əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan SSR müttəfiq respublikalar arasında axırıncı yerlərdən birini tuturdu. Xalq təsərrüfatında dinamikliyin aşağı düşməsinin başlıca səbəblərindən biri dövlət intizamının pozulması, köhnə sahələrin yenidən qurulması və modernləşdirilməsi proseslərinin həyata

keçrilməməsi idi. İnzibati-amirlik hökmünün təzyiqi altında bir çox müəssisələrin rəhbərləri məhsulların keyfiyyətinə əhəmiyyət vermirdi, bu isə iqtisadiyyata böyük ziyan vurur və istehlakçıların narazılığına səbəb olurdu.

SSRİ Nazirlər Sovetinin və Sov. İKP MK-nın 1954-cü il iyulun 31-də "1955-1960-cı illərdə Azərbaycan SSR-in kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında", 1957-ci ilin iyulunda "Azərbaycan SSR-in dağlıq, dağətəyi və sərhəd rayonları kolxozlarına kömək göstərmək haqqında" qərarları qəbul edilmişdi. Lakin nə bu tədbirlər, nə də nisbətən artan əsaslı vəsait qoyuluşu, maddi-texniki bazanın möhkəmlənməsi vəziyyəti kökündən yaxşılaşdıra bilmədi.

1958-ci ilin martında SSRİ Ali Soveti "Kolxoz quruluşunu daha da inkişaf etdirmək və Maşın Traktor Stansiyalarını yenidən təşkil etmək haqqında" qanun qəbul etdi. MTS-ın yenidən təşkil edilməsi 1958-ci ildə başa çatdırıldı. Azərbaycanda 78 təmir-texniki stansiyası yaradıldı, kolxozlarda kənd təsərrüfatı üzrə ixtisaslı mütəxəssislərin sayı artdı.

Kənd təsərrüfatını yüksəltməyin mühüm şərtlərindən biri kolxoz və sovxozların elektrikləşdirilməsi idi. 50-60-cı illərdə su təsərrüfatı tikintisində vacib obyektlər inşa edildi. Samur-Dəvəçi kanalının ikinci növbəsi, Yuxarı Qarabağ, Yuxarı Şirvan, Baş Muğan, Abşeron kanalları kimi iri irriqasiya sistemləri istifadəyə verilmişdi. Suvarılan torpaqların sahəsi genişlənmişdi. Bununla belə, respublikanın kənd təsərrüfatında vəziyyət qeyri-qənaətbəxş olaraq qalırdı. Rentabelliliyin aşağı olması, aqrotexniki qaydaların ciddi pozulması, kompleks mexanikləşdirmənin, elmin nailiyyətlərinin və qabaqcıl təcrübənin istehsalata ləng tətbiqi bu vəziyyəti daha da ağırlaşdırırdı.

50-60-cı illərdə respublikanın nəqliyyatında dəmir yolu nəqliyyatı yüklərin daşınmasının başlıca vasitəsi olaraq qalmaqda idi. 1955-ci ilin noyabrında müstəqil Azərbaycan Dəmiryol İdarəsi yaradıldı. Azərbaycandan dəniz nəqliyyatı ilə yük göndərilməsi və su yolu ilə respublikaya yük gətirilməsi də artmışdı.

1962-ci ildən işə düşmüş dəmiryol su rabitəsi Bakı-Krasnovodsk xətti ilə daşımada mühüm yer tuturdu. Bərə ilə daşınma Qafqazın Orta Asiya, Qazaxıstan və Sibir ilə nəqliyyat əlaqələrini yaxşılaşdırdı.

60-cı illərin əvvəllərində bütün rabitə agentlikləri rabitə şöbələrinə çevrildi. Bakıda rabitə kontoru əvəzinə poçtamt, şəhər və rayonlarda isə rabitə qovşaqları yaradıldı.

Şəhər telefon stansiyalarının sayı o cümlədən ATS-lərin sayı çoxalmışdı. 1960-cı ilə qədər bütün kənd sovetləri və kolxozlar telefonlaşdırılmışdı. Bakıda Azərbaycan televiziya mərkəzi öz fəaliyyətini 1956-cı il fevralın 14-də ilk yoxlama verilişi ilə başladı. Beləliklə, 40-cı illərin ikinci yarısı - 60-cı illərdə Azərbaycan iqtisadiyyatı çətin, ziddiyyətli, eyni zamanda uğurlu inkişaf yolu keçdi. Lakin iqtisadi idarəetmə və planlaşdırmada ciddi qüsurlarla əlaqədar mövcud inkişaf sürəti, əmək məhsuldarlığı, istehsal ölkənin potensial imkanlarından xeyli aşağı idi.

Totalitar siyasi rejimin sərtləşməsi. İkinci Dünya müharibəsi başa çatdıqdan sonra bəşəriyyətin ictimai-siyasi həyatında köklü dəyişikliklər baş verdi. Sovetlər ölkəsində 1945-ci ilin sentyabrında Dövlət Müdafiə Komitəsi fəaliyyətini dayandırdı. 1946-cı ilin fevralında SSRİ Ali Sovetinə yeni seçkilər keçrildi. Həmin ilin martında SSRİ Ali Soveti XKS-ni Nazirlər Sovetinə çevirmək haqqında qanun qəbul etdi. İ.V.Stalin SSRİ Nazirlər Sovetinin sədri təsdiq olundu. Əslində siyasi hakimiyyət yenə də ÜİK(b)P MK Siyasi Bürosunun əlində idi. Az sonra bu siyasi qurum da praktiki olaraq fəaliyyətdən qaldı. Stalin dövləti və partiyanı MK Siyasi Bürosunun, 1952-ci il oktyabrından (partiyanın XIX qurultayından sonra) isə MK Rəyasət Heyətinin daxilində şəxsi seçimi ilə yaradılan "üçlük", "beşlik", "altılıq" və s. vasitəsilə təkbaşına idarə etməyə çalışırdı. Partiya nizamnaməsi pozulur, ali orqanlar vaxtlı-vaxtında çağırılmır (XVIII qurultayla XIX qurultay arasından 13 il yarım keçmişdi), kollegiallıq prinsipinə əməl olunmurdu.

Stalinin şəxsiyyətinə pərəstiş, onun əlaltılarının partiyaya, dövlətə zidd hərəkətləri və siyasi avantürist Beriyanın cinayətkar fəaliyyəti totalitar rejimin güclənməsinin əsas səbəblərindən idi. 1949-cu ildə şəhər və rayon milis orqanlarında siyasi idarələr yaradıldı, paytaxtlarda, o cümlədən Bakıda milisə xüsusi hüquqlar verildi, milis SSRİ Dövlət Təhlükəsizlik Nazirliyinin tabeçiliyinə keçrildi. Əsassız repressiyalar başlandı. Repressiyanın əsas hədəfləri, ilk növbədə, əsirlikdən qayıtmış müharibə iştirakçıları oldular. Vətənə qaytarılan keçmiş əsirlərin üzərində və "tələbələrin əhvali-ruhiyyəsinə nəzarət" gücləndirildi. Partiya dövlət mətbuatında və başqa ideoloji təbliğat vasitələrində 1952-ci ilin sonu - 1955-ci ilin əvvəllərində dərc olunan materiallarda 1937-ci ilin qanlı havası sezilirdi. Totalitar rejimin sərtləşməsinin təzahürlərindən biri elm, ədəbiyyat və incəsənət üzərində hakim ideologiyanın inhisarının daha da güclənməsi idi. Şəxsiyyətə pərəstişin ağır nəticələri ictimai, humanitar, ələlxüsus, tarix elmində özünü daha çox göstərirdi. XX əsrin tarixinə aid tədqiqatlar "ÜİK(b)P tarixinin qısa kursu"nun təsiri altında qalmışdı. Faktlar saxtalaşdırılırdı. Sovet üsuli-idarəsinin, təkpartiyalı siyasi sistemin, partiya amirliyinin, ictimai mülkiyyətin, sosialist istehsal münasibətlərinin ziddiyyətləri ört-basdır olunurdu.

Həqiqəti yazmaq cəhdlərinin qabağı tezliklə təqib, habelə müxtəlif cəzalarla alınırdı. M.C.Bağırovun əlaltıları olan satqınlar dəstəsi - Markaryan, Qriqoryan, Yemelyanov-Borşov və Sumbatov-Topuridze, Atakişiyev Azərbaycan xalqının ən qabaqcıl şəxsiyyətlərinə, ələlxüsus ziyalılara qarşı səlib yürüşünə başlamışdılar. İstedadlı filosof, görkəmli alim və ictimai xadim, akademik Heydər Hüseynovun 1949-cu ildə çap olunmuş "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsəri Stalin mükafatı almışdı. Elmi-ictimaiyyət tərəfindən ehtiramla qəbul olunmuş kitab "Şamilin başçılığı ilə hərəkat, müridizm, guya Rusiya xalqına qarşı mübarizə kimi qiymətləndirilmiş", məhz buna görə Stalin mükafatı hökumətin qərarı ilə ləğv edilmişdi, müəllif ağır təqiblərə məruz qalmış, özünə qarşı haqsızlığa görə intihar etmişdi.

Ədəbiyyat və incəsənətdə milliliyə "formalizm" damğası vurulurdu. Azərbaycan xalqının dastanları feodal münasibətlərini təbliğ etməkdə ittiham olunurdu. Türk dünyasının möhtəşəm orta əsr abidəsi "Kitabi-Dədə Qorqud" "irticaçı feodal-xan eposu" adı ilə damğalanmış, onun tədqiqatçıları təqiblərə məruz qalmışdılar. A.A.Bakıxanov xan və bəyləri müdafiə etməkdə, M.M.Kazım bəy "çarizmin sadiq qulu" olmaqda günahlandırılırdı. Akademik M.A.Dadaşzadə "Türkiyə casusu" kimi damğalanmışdı. Akademik, yazıçı M.İbrahimov, professor, SSRİ Elmlər Akademiyasının müxbir üzvü A.O.Makovelski elmi-siyasi sayıqlığı itirməkdə tənqid edilmişdi. M.Rəfili "kosmopolit" damğası ilə işdən uzaqlaşdırılmış, Süleyman Vəliyev sürgün olunmuşdu. M.C.Bağırov AK(b)P XIX qurultayında (1952, sentyabr) Səməd Vurğunu hədələyərək "Sən ləngimədən kommunizmin əlifbasından başlamalısan, yoxsa məhv olacaqsan", - demişdi. Mərkəz azərbaycanlılara etibar etmirdi, mühüm vəzifələrin çoxuna, xüsusən güc orqanlarına başqa millətlərin, əsasən rus və ermənilərin nümayəndələrini cəlb edirdi. Bu şovinist münasibətdən erməni millətçiləri azərbaycanlı kadrlara qarşı hiyləgərcəsinə istifadə edirdilər. Hətta M.C.Bağırov belə vəziyyətin güc orqanlarında kök saldığını hiss edərək, 1945-1953-cü illərdə Azərbaycan xalqının qatı düşməni olan bir sıra erməni daşnak fitnəkarlarını ifşa edərək respublikadan qovmuşdu. Qarabağın, Naxçıvanın və başqa tarixi Azərbaycan torpaqlarının erməni ərazisi olduğunu yaradıcılığında əsaslandırmağa çalışan yazıçı Marietta Şaginyanın Bakıya gəlməsini rədd etmişdi. O, eyni münasibəti marşal İ.Baqramyanın qardaşı Baqramova və 1918-ci ilin martında Bakıda azərbaycanlıların qırğınını təşkil edən S.Şaumyanın oğlu, "Böyük Sovet Ensiklopediyası"nın baş redaktorunun müavini Levon Şaumyana qarşı da tətbiq etmişdi. İnzibati-amirlik üsuli-idarəsinin güclənməsi, sözdə verilmiş "demokratik" hüquqların çoxunun təmin olunmaması insanların ictimai-siyasi həyatda fəal iştirakına ciddi maneələr törədirdi. Xalq hakimiyyəti orqanlarına seçkilər formal, inzibati nəzarət, hətta təzyiq altında keçrilirdi.

Gizli fəaliyyət göstərən "İldırım" təşkilatının üzvü olan bir qrup vətənpərvər gənc - İsmixan Rəhimov, Gülhüseyn Abdullayev, Hacı Zeynalov, Kamal Əliyev, Aydın Vahidov və b. Azərbaycanın azadlığa çıxması üçün xalqa onun qüvvələrini birləşdirə biləcək güclü, tanınmış bir liderin rəhbərlik etməsini vacib bilərək, S.Vurğuna gizli məktubla müraciət etmişdilər ki, bu missiyanı öz üzərinə götürsün. İstibdada qarşı açıq mübarizə üçün hələ real vəziyyət yaranmamışdı. Təşkilat 1947-ci ilin əvvəllərində fəaliyyətini dayandırdı. Onun 8 fəal üzvü həbs edilib sürgün olundu.

Xaricdə fəaliyyət göstərən siyasi mühacirlərin də Azərbaycanda sovet rejiminə qarşı fəaliyyəti genişlənirdi. Müharibədən sonrakı illərdə Azərbaycan mühacirləri "əski" və "yeni" mühacirlər adlanan qruplara bölünmüşdü, onların arasında əsas məsələlərdə birlik yox idi. M.Ə.Rəsulzadə 1949-cu ildə Ankarada "Azərbaycan kültür dərnəyi" təşkil etmişdi. Onun rəhbərliyi ilə 1952-ci ildən Ankarada "Azərbaycan" jurnalı nəşr olunmağa başlanmışdı. Bolşevizmə qarşı mübarizədə Mirzə Bala Məmmədzadə (1954-cü ildən Münhendə (Almaniya) SSRİ-ni öyrənən institutun Azərbaycan dilində nəşr etdiyi siyasi jurnalın redaktoru idi), Əbdürrəhman Fətəlibəyli-Düdənginski (1945-1954-cü illərdə Münhendə ABŞ-ın təsis etdiyi Azadlıq radiosunun Azərbaycan şöbəsinin rəhbəri idi) və başqaları da fəal iştirak edirdilər.

Qərbi Azərbaycandan - tarixi ərazilərindən azərbaycanlıların deportasiyası. Müharibədən sonrakı illərdə bütün ölkədə şovinist və yerli millətçilik siyasətinin güclənməsi xalqlar arasında tez-tez toqquşmalar, konfliktlər yaradılmasında açıq təzahür edirdi. Buna Mərkəzin yüksək rütbəli məmurları da bilərəkdən şərait yaradırdılar. Bir sıra faktlar da bunu sübut edir. M.C.Bağırovun vaxtında Azərbaycan Kommunist Partiyasının İkinci katibi (1946-1950) iləmiş Həsən Seyidov öz xatirələrində yazır ki, Cənubi Azərbaycanda S.C.Pişəvərinin başçılığı ilə milli hərəkatın getdiyi günlərin birində Moskvada Sov.İKP MK-nın Birinci katibi V.Stalinin qəbul otağında görüşürlər. Əvvəlcə SSRİ NKVD-nin (XDİK-nin) başçısı L.Beriya söhbətə başlayır və

M.C.Bağırova deyir:”Bu gün - sabah Azərbaycanın hər iki hissəsi birləşəcək. Azərbaycan daha da böyük olacaq”. Əlini qəbul otağında divardan asılmış xəritədə Zaqatalanın üstünə qoyub:”buranı Gürcüstana versəniz yaxşı olar”,- deyir. Sonra A.Mikoyan xəritənin önünə gəlir və əlini Dağlıq Qarabağın üstünə qoyub: “Buranı da Ermənistana versəniz yaxşıdır, çünki Ermənistanın ərazisi azdır”, - deyir. M.C.Bağırov eşitdiklərindən şok olaraq: “Canı çıxmamış ayının dərisini soymağa tələsməyin”,- deyir.

Moskva Qafqazda Azərbaycan erməni, gürcü və başqa xalqları bir-birinə qarşı qoymaq və onlar üzərində hakim mövqeyini saxlamaq naminə milli münaqişə ocaqları yaratmaq siyasəti yürüdürdü. Bu məkrli siyasət, əsasən, qondarma "Dağlıq Qarabağ" konfliktinin süni surətdə kəskinləşdirilməsi məqsədi güdürdü. Moskvanın havadarlığı ilə erməni millətçiləri, kommunist - daşnaklar azərbaycanlıların Ermənistan SSR-dəki tarixi-etnik ərazilərindən sıxışdırılıb çıxarılması, birinci növbədə, Qarabağın qoparılıb Ermənistana verilməsi tələbi ilə çıxış edirdilər. 40-cı illərdə Moskvanın, bilavasitə A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda gizli "Qarabağ hərəkatı", "Qarabağ komitəsi" yaradılmışdı. 1945-ci ilin payızında Ermənistan rəhbərliyi növbəti dəfə ÜİK(b)P MK qarşısında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Ermənistana verilməsi məsələsini qaldırdı. Ermənistan K(b)P MK və XKS-nin Stalinə müraciətində heç bir elmi, tarixi əsası olmadan Dağlıq Qarabağ ərazisinin guya iqtisadi cəhətdən daha çox Azərbaycan SSR-lə deyil, Ermənistan SSR-lə bağlı olduğunu sübut etməyə cəhd olunur. Məsələyə dərhal reaksiya verən Mərkəzi hökumətin nümayəndəsi ÜİK(b)P MK katibi G.M.Malenkov 1945-ci ilin noyabrında M.C.Bağırova yazdığı məktubunda bu məsələ ilə bağlı məlumat verir və onun rəyini soruşur.M.C.Bağırov 1945-ci il 10 dekabr tarixdə (tam məxfidir qrifi ilə) cavab məktubu göndərir. Məktubda Ermənistanın Dağlıq Qarabağla bağlı irəli sürdüyü bütün iddiaların heç bir elmi, tarixi əsası olmadığı və Dağlıq Qarabağın tarixən Azərbaycan ərazisi olduğu tutarlı faktlarla sübut edilirdi. M.C.Bağırov cavab

məktubunda İ.V.Stalini qəzəbləndirməmək üçün bildirir ki, əhalisinin böyük hissəsi azərbaycanlılar yaşayan Şuşa rayonundan başqa Dağlıq Qarabağın Ermənistana keçməsinə müsbət yanaşırıq. Lakin o bildirir ki, DQMV-nin Ermənistan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, Ermənistanın Azərbaycana bitişik olan və əsasən azərbaycanlıların məskunlaşdığı 1931-ci ildən Paşalı rayonu, 1936-cı ildən Əzizbəyov rayonu, 1991-ci ildən Vayk rayonu adlandırılmışdır. Dərələyəz bölgəsində yerləşir. Vedi (Ararat) (1930-1955) və Qarabağlar (1937-1951) rayonlarının Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə baxılmalıdır. Gürcüstanlı yoldaşlar Azərbaycan SSR-nin Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-nin tərkibinə daxil edilməsi məsələsini qoyurlar. Göstərilən rayonlarda əhalinin ümumi sayı 79 min nəfərdir ki, bunlardan cəmi 9 min nəfəri gürcü-ingiloylardan ibarətdir. Gürcüstan SSR-nin demək olar ki, yanlız azərbaycanlıların yaşadığı və Azərbaycan SSR-ə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR-yə daxil edilməsi məsələsinə baxılmalıdır. Nəhayət,biz Dağıstanın keçmişdə Azərbaycanın bir hissəsi olan, Bakı quberniyasının tərkibində olan və hazırda Azərbyacan SSR-ə bitişik Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə baxmağınızı xahiş edirik". Cavab məktubunda sovet hakimiyyəti illərində ilk dəfə Azərbaycan rəhbəri tarixi Azərbaycan torpaqları problemini qaldırır və burada Dağlıq Qarabağın Ermənistana güzəştə gediləcəyi təqdirdə müxtəlif vaxtlarda Ermənistana, Gürcüstana və sovet Rusiyasına verilmiş bir çox tarixi ərazilərin Azərbaycan SSR-ə qaytarılmasını vacib hesab edir. Azərbaycan rəhbərliyinin məsələnin bu səpkidə müzakirə olunmasına razılıq verməsi ermənilərin planlarının pozulması ilə yanaşı, Moskvaya problemin bütün ölkə üçün sonsuz fəlakətlər yaradacağını anlatdı. Belə bir təhlükənin real olduğunu görən mərkəzi hökumət ermənilərin iddialarını rədd etdi. Eyni zamanda Moskva Türkiyə ilə sərhəddə ermənilərin mövqeyini möhkəmləndirmək tədbirləri gördü. Hələ SSRİ, ABŞ və İngiltərənin

iştirakı ilə keçirilən Tehran konfransında (28 noyabr - 1 dekabr 1943-cü il) Sovet-İran münasibətləri müzakirə edilərkən, gələcəkdə "Böyük Ermənistan" dövləti yaratmaq xülyasında olan ermənilər əlverişli şəraitdən istifadə edərək, SSRİ Xarici İşlər Naziri V.Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə istəmişdilər. V.Molotov məsələ ilə bağlı İ.Stalinlə danışdıqdan sonra onların Ermənistan SSR ərazisinə köçürülməsinə razılıq vermişdi.

1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsilə bağlı Fərman verdi. Ermənilərin Ermənistan SSR-ə deportasiyası "Daşnaksutyun" partiyasının 1947-ci ilin iyununda keçirilmiş XIV konqresinin qəbul etdiyi qərarlarla bilavasitə bağlı idi. Bu qərarlarda isə deportasiyanın azərbaycanlıların yaşadıqları torpaqların boşaldılması və Ermənistan sərhədlərinin genişləndirilməsi şəraitində baş verdiyi iddia edilirdi. Bu işə Qriqoryan kilsəsi də xeyir-duasını vermişdi. Azərbaycanlıların Ermənistan SSR ərazisindəki dədə-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar verdi. SSRI Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" daha bir qərarı ilə bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu. Bu qərara görə, 100 min azərbaycanlı 1948-1950-ci illərdə; 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. Qərarın axırıncı, II maddəsində ayrıca göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdən, yaşayış evlərindən xaricdən gələn ermənilər yerləşdirmək üçün istifadə etsinlər. O zaman Ermənistan SSR-də 400 mindən artıq azərbaycanlı

yaşayırdı. Ermənistan SSR-dən 1948-ci ilin payızınadək deportasiyaya məruz qalanların sayı 10.584 nəfər idi.

Azərbaycan və Ermənistan rəhbərləri arasında əldə olunmuş razılaşmaya görə, 1949-cu ildə 15.713 nəfər və 3.818 təsərrüfat köçürülməli idi. Lakin SSRİ Nazirlər Soveti Azərbaycan SSR və Ermənistan SSR hökumətləri arasında əldə edilmiş razılaşmanı təsdiq etmədi və SSRİ hökumətinin rəsmi nümayəndəsi S. Çeremuşin Azərbaycan SSR Nazirlər Sovetinin sədri T. Quliyevdən Ermənistan SSR-dən Azərbaycana əvvəlcədən müəyyənləşdirilmiş 40.000 nəfər azərbaycanlının köçürülməsini tələb etdi. Azərbaycan SSR Nazirlər Soveti çıxılmaz vəziyyətə düşdüyündən məsələnin həlli üçün SSRİ Nazirlər Soveti sədrinin müavini G.M.Malenkova müraciət edib bildirdi ki, bu qədər adamın köçürülməsi və yerləşdirilməsi üçün Azərbaycanın imkanı yoxdur. Müraciətdə 1949-1950-ci illər üçün əvvəllər müəyyən edilmiş köçürmə planlarına yenidən baxılması və "Ermənistan SSR-dən olan azərbaycanlı əhalinin 10 min nəfərinin 1949-cu ildə, 15 min nəfərinin isə 1950-ci ildə köçürülməsinə icazə verilməsi" xahiş edildi. Deportasiya tədbirləri Ermənistanın 22 rayonunu, əsasən Basarkeçər,Zəngibasar,Noyemberyan,Mikoyan,Dilican, Aştarxan, Kirovakan rayonlarını əhatə edirdi. Bu rayonlar azərbaycanlıların yığcam şəkildə, yaxud ermənilərlə qarışıq halda yaşadıqları dağlıq və dağətəyi rayonlar idi. Erməni millətçiləri, ilk növbədə, azərbaycanlıları bu rayonlardan qovub çıxarmağa çalışırdılar.

Ermənistandan deportasiya olunmuş azərbaycanlılar Azərbaycan SSR-nin Kür-Araz ovalığı və digər rayonlarında yerləşdirilərkən burada yaşayan ermənilər tərəfindən də təqib olunur və onlar barədə rəhbərliyə böhtan dolu məktub və teleqramlar göndərilirdi. 1949-cu ildə Ermənistandan Azərbaycanın Saatlı, Göyçay, Tərtər, İmişli, Şirvan (keçmiş Əli Bayramlı), Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Beyləqan, Yevlax, Ucar, Gədəbəy və Bərdə rayonlarına 15.276 adam köçürülmüşdü.

Lakin köçürülmə, daha doğrusu, mütəşəkkil deportasiya planı erməni millətçilərin istədikləri sürətlə həyata keçrilmirdi. Bu, qeyri-

insani tədbirin planlaşdırılmış şəkildə həyata keçirilməsinə bir sıra obyektiv və subyektiv səbəblər mane olurdu. Deportasiya olunanların sosial və məişət problemləri lazımınca həll edilmirdi (respublikanın qısa müddətdə bu yerlərdə kifayət qədər mənzil tikmək imkanı yox idi). Bunun nəticəsi olaraq, 1950-ci ildə Azərbaycandan Ermənistana - öz keçmiş yaşayış yerlərinə qayıtma prosesi başlanmışdı. Köçkünlər içərisindən çıxılmaz vəziyyətə düşənlərin bəziləri əlacsız qalaraq Mərkəzi hökumətə şikayət və etiraz məktubları göndərirdilər. Lakin bu şikayət və etirazlar heç bir nəticə vermirdi. Eyni zamanda görülən sərt inzibati tədbirlər də öz lazımi nəticəsini vermədi. Əksinə, hətta 1951-ci ildə erməni millətçilərinin istəyinin əksinə olaraq, köçürülənlərin geriyə qaytarılması halları çoxaldı. Geri qayıdanların sayı da artdı. 1954-cü ildə Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyindən Ermənistana ezam edilmiş xüsusi komissiya müəyyən etdi ki, köçürülənlərin geriyə qayıtmalarının başlıca səbəbi Azərbaycanın Kür-Araz ovalığında minimum yaşayış şəraitinin olmamasıdır. Bu səbəbdən də Azərbaycandan Ermənistana 1.115 ailə geri qayıtmışdı. Geri qayıdanlar Ermənistanda qeydə alınmır və adi vətəndaş hüquqlarından məhrum edilirdilər. Deportasiya prosesi 1956-cı ilə qədər davam etdirildi. Ümumiyyətlə, Ermənistan SSR-də etnik təmizləmənin bu mərhələsində 100 min nəfərdən çox azərbaycanlı zorla köçürülmüş və ya köçməyə məcbur edilmişdir.Onların hər üç nəfərindən biri yeni şəraitə, isti, quru iqlimə, məişət təminatsızlığına uyğunlaşa bilməyib, aclıq və xəstəlikdən həlak oldu.

1948-1956-cı illərdə Ermənistan SSR-dən - öz tarixi etnik torpaqlarından deportasiya edilən azərbaycanlıların bu faciəsi hüquqi cəhətdən 1948-ci ildə BMT-nin İnsan Hüquqları Komissiyasının qəbul etdiyi qərarın II maddəsinə uyğun olaraq soyqırım və etnik təmizləmə kimi qiymətləndirilməlidir.

Cənubi Qafqazda hökumətin yeritdiyi antiazərbaycan siyasətinin bir təzahürü də Ermənistan və Gürcüstandakı qədim Azərbaycan torpaqlarında toponimlərin özgələşdirilməsinə,

azərbaycanlılara məxsus abidələrin məhv edilməsinə geniş rəvac verilməsi idi.

Siyasi həyatda mülayimləşmə. İctimai-siyasi həyatda deformasiya və dəyişikliklər. 1953-cü il martın 5-də totalitar sovet sistemini törədən İ.V.Stalin öldü. Stalinin şəxsiyyətinə pərəstişin zərərli, ağır nəticələri aşkarlandı. Amansız diktatorun ölümü nə qədər qəribə də olsa, sovet cəmiyyətini dərindən kədərləndirdi. Sovet adamları İ.Stalinsiz ölkənin necə yaşayacağını təsəvvür edə bilmirdilər. Lakin zaman keçdikcə hər şey öz axarına düşdü. Hakimiyyət uğrunda rəhbərlikdə mübarizə başlandı və həmin ilin sentyabr ayında ölkənin siyasi hakimiyyətində köklü dəyişikliklər baş verdi. Hakimiyyətə gələn N.S.Xruşşov, Sov.İKP MK-nın katibi kimi ali hərbi rəhbərlərin yaxından köməyi ilə hakimiyyəti əlinə keçirməyə cəhd edən siyasi avantürist L.P.Beriyanı və onun əlaltılarını aradan götürdü və stalinizm tərəfdarları hakimiyyətdən uzaqlaşdırıldı.N.Xruşşov 1953-cü ilin sentyabrında Sov.İKP MK-nın Birinci katibi seçildi. M.C.Bağırov Azərbaycan KP MK və Bakı Komitəsinin birgə plenumunda (1953, 13 iyul) qüsurlu rəhbərlik metodlarında və başqa əməllərdə təqsirkar bilinib vəzifəsindən kənar edildi. O, bir müddət Kuybışev Neft Birliyinin rəis müavini vəzifəsində işlədi. Lakin tezliklə həbsə alındı. Bakıda SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən mühakimə edilib (1956 aprel), xalq düşməni kimi ölüm cəzasına - güllələnməyə məhkum olundu. Məhkəmədə M.C.Bağırov ittihamnamənin qərəzli olduğunu bildirsə də, öz günahlarını etiraf edərək demişdi: "Mənim əsas səhvim odur ki, Sumbatov, Borşov, Qriqoryan, Markaryan və başqalarına göz yummuşam, onların iç üzünü tanımamışam. Mən XDİN orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqım qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq azdır, məni şaqqalamaq, parça-parça etmək lazımdır".

M.C.Bağırovun ölümü ilə bağlı maraqlı faktlardan biri budur ki, o, məhkəmənin hökmü ilə güllələnməyə məhkum edilsə də, hökm yerinə yetirilməmişdir. O, Uzaq Şərqdəki həbs düşərgələrinin birində saxlanılmış, bir müddət aşpaz işləmiş, həbsxana rəisinin

məlumatına görə, 1976-ci il mayın 18-də ölmüş, 1684 №li qəbirdə dəfn olunmuşdur. Xaç şəkilli taxta üzərinə X nömrə yazılmış, ad və soyadı göstərilməmişdir. O, zaman hərbi xidmətdə olmuş jurnalist Mahal İsmayıloğlu Sakit Okean Hərbi Donamması Prokurorluğunun prokuroru, polkovnik Ziya Ağamirovla 1976-cı il mayın 19-da qəbrini ziyarət etdiyi barədə xatirələrində bəhs etmişdir.

Hərbi kollegiyanın qərarına əsasən M.C.Bağırov Bayıl həbsxanasında güllələnmişdir. 1954-cü il fevralın 14-16-da Azərbaycan KP-nin XX qurultayı keçirildi və akademik İ.D.Mustafayev Azərbaycan MK-nın Birinci katibi seçildi. İmam Daşdəmir oğlu Mustafayev Zaqatala qəzasının Qax kəndində anadan olub, görkəmli bioloq-alim, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, Azərbaycan SSR Kənd Təsərrüfatı Naziri işləmişdi. Sadıx Rəhimov Azərbaycan SSR Nazirlər Sovetinin sədri, yazıçı Mirzə İbrahimov Ali Sovet Rəyasət Heyətinin sədri təyin olundular.

İ.D.Mustafayev, M.İbrahimov, S.Rəhimov və həmkarları yeni şəraitdə xalqın vəziyyətini yaxşılaşdırmağa, milli, mənəvi dəyərlərin, elmin, təhsilin inkişaf etdirilməsinə, xalq təsərrüfatının tərəqqisinə nail olmağa cəhdlər göstərdilər. Sənayenin sürətlə inkişafı, yeni iş yerlərinin açılması, kəndli gənclərin Bakıya axını nəticəsində paytaxtın iqtisadi-ictimai həyatında azərbaycanlı kadrların rolu artdı, sosial-siyasi sahədə vəziyyət yeniliyə doğru dəyişməyə başladı. İ.Mustafayev Azərbaycanın ərzaq təminat cəhətdən iqtisadi müstəqilliyinə çalışırdı. Ona nail olmaq istəyirdi ki, Azərbaycan taxıl və digər ərzaq məhsulları ilə özü-özünü təmin etsin, bu məhsulları Rusiya və digər sovet respublikalarından gətirməsin. SSRİ hökuməti isə Azərbaycanı texniki bitkilər (tütün, pambıq və s.) və barama istehsalına yönəldirdi. Çalışırdı ki, Azərbaycan taxıl və digər məhsulları Rusiya, Ukrayna və digər sovet respublikarından alsın. Respublikada kənd təsərrüfatına göstərilən diqqət nəticəsində ərzaq məhsulları istehsalı artmağa başladı.N.S.Xuruşov Bakının rusların, ermənilərin və digər xalqların da yaşadığı beynəlmiləl şəhər olmasından istifadə edib,

onu Azərbaycandan qoparıb Rusiya Federasiyasına birləşdirmək istəyirdi. Lakin İ.Mustafayev buna imkan vermədi. Bakıda sənayenin inkişafı ilə bağlı işçi qüvvəsinə ehtiyac olduğunu əsas gətirib qısa müddətdə rayonlardan çoxlu kolxozçu kəndlilərin Bakıya axınını təmin etdi. Bununla da şəhər əhalisinin milli tərkibində azərbaycanlıların sayını artırdı və N.Xruşşovun planını pozdu. Xuruşov da buna görə qəzəbləndi. Lakin artıq gec idi. Beynəlmiləl şəhər kimi məşhurlaşmış Bakı azərbaycanlılaşma yoluna düşdü. Azərbaycan rəhbərliiyi mərkəzi hökümət qarşısında respublikada istehasal olunan pambığın emalı üçün yerlərdə müvafiq zavodlar və fabriklərin tikilməsi məsələsini qaldırdı. İ.D.Mustafayev xatirələrində yazır ".. biz respublikada istehsal olunan pambığın və eləcə də neftin bir tonuna büdcədən əlavə 10 rubl pul alırdıq və həmin məhsulların 9-10%-i Azərbaycanda qalırdı. Mən məsələni həll etmək üçün o zaman N.Xruşşova müraciət etdim və o mənim təklifimi rədd edərək; "Nədir, yoldaş Mustafayev, Rusiya kəndlisi ac-yoxsul vəziyyətdə yaşadığı halda, siz istəyirsiniz Azərbaycanda yağ-bal içində üzsünlər?"- deyə cavab verdi. N.Xruşşov hətta Azərbaycanda neft hasilatına ayrılan maliyyə vəsaitini azaltmaq barədə göstəriş verdi. İ.Mustafayev bunun neftçi fəhlələrin işsiz qalacağına gətirəcəyini bildirsə də, Xuruşov buna məhəl qoymadı. Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasına təşəbbüs edildi. 1956-cı ildə Azərbaycan SSR Ali Soveti 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə etdi. Rəsmi sənədlərin, kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması üçün konkret tədbirlər görüldü. Elmi işçilərin, aspirantların sayı çoxaldı. 1957-1959-cu illərdə "İncəsənət" almanaxı, 1958-ci ildən Azərbaycan və rus dillərində "Bakı" axşam qəzeti, uşaqlar üçün "Göyərçin" jurnalı çap olunmağa başladı. 1956-cı ildə Bakı telestudiyası işə düşdü.

İctimai hadisələri tənqidi təhlilə çağıran cəsarətli mövzular meydana çıxırdı. Bəxtiyar Vahabzadənin "Gülüstan", Rəsul Rzanın "Qızılgül olmayaydı" poemaları bu illərin məhsulu idi.

Stalinin şəxsiyyətinə pərəstişin aradan götürülməsi ilə həqiqətən sovet ölkəsinin ictimai-siyasi həyatında mülayimləşmə başlanmışdı. Ölkədə islahatlar, partiya və cəmiyyətdə nüfuz qazanmaq məqsədi daşıyan dəyişikliklər başladı. Mövcud siyasi sistemin qüsurları, əsasən Stalinin şəxsiyyətinə pərəstişin nəticəsi partiya həyatında "Lenin prinsipləri"nin pozulması kimi qələmə verildi. Mərkəzi Komitə "Şəxsiyyətə pərəstiş və onun nəticələrini aradan qaldırmaq haqqında" (1956,30 iyun) qərar qəbul etdi. Stalinizm, şəxsiyyətə pərəstiş tənqid olundu, onun təzahürləri göstərildi, lakin bu hadisəni törədən səbəblər, mövcud rejim üçün əlverişli olmadığından, tam açıqlanmadı. Repressiya illərində cəzaya məruz qalanların işlərinə yenidən baxılması üçün komissiyalar təşkil olundu. Bəraətvermə prosesi başlandı. Minlərlə azərbaycanlının üzərindən "xalq düşməni" damğası götürüldü. Onların ailələrinin, övladlarının məruz qaldığı təqiblərə son qoyuldu, hüquqları bərpa edildi. 1956-cı ilin ortalarından yüzlərlə dövlət, ədəbiyyat və incəsənət xadiminə, o cümlədən S.M.Əfəndiyev, Q.Musabəyov, D.Bünyadzadə, R.Axundov, H.Cavid, Ə.Cavad, M.Müşfiq, Y.V.Çəmənzəminliyə və başqalarına bəraət verildi. Kitabi-Dədə Qorqud və həbs olunmuş yazılı abidələr, əsərlər azad edildi, bəraət almış şair və yazıçıların əsərləri yenidən çap olundu.Bununla belə, 20-30-cu illərdə apardığı istiqlal mübarizəsinə görə təqib olunaraq xaricə getməyə məcbur olmuş mühacirlərə bəraət verilmədi. Tarixi keçmişimizdən, türk xalqları birliyindən bəhs edən bir çox əsərlər üzərindən qadağalar götürülmədi. Hüseyn Cavidin "Topal Teymur", "Peyğəmbər" pyesləri yenə də qəsdən unuduldu. Azərbaycan tarixinin obyektiv şəkildə öyrənilməsinə cəhdlər mərkəz tərəfindən qısqanclıqla qarşılanırdı. Respublikanın ictimai-siyasi həyatında mövcud siyasi sistemin əsas prinsiplərinə - təkpartiyalılığa, Kommunist Partiyasının bütün siyasi təşkilatlar, dövlət üzərində amirliyinə toxunmadan ictimai təşkilatların fəaliyyətini nisbətən canlandırmaq üçün şərait yaradıldı. Bəzi məsələlərdə idarəçilik mərkəzdən yerlərə keçirildi. Yerli sovetlər iriləşdirildi. Kənd sovetlərinin sayı azaldıldı. Azərbaycan SSR Ali Sovetinin səlahiyyət

dairəsi nisbətən genişləndi. 1956-cı ildə Ali Sovetin sənaye, kənd təsərrüfatı, mədəni-maarif, səhiyyə və ictimai təminat, tikinti və abadlıq komissiyaları yaradıldı. Məhkəmə quruculuğu məsələləri respublikaların öz ixtiyarına verildi. Rayon, şəhər, kənd və qəsəbə zəhmətkeş deputatları Sovetlərinin hüquqları artdı.50-ci illərin ortalarında partiya sıralarında 110 minədək üzv birləşmişdi. Həmkarlar ittifaqı, komsomol təşkilatları, onların seçkili orqanları yenə partiyanın ciddi nəzarəti altında fəaliyyət göstərirdi. Həmkarlar ittifaqlarına bəzi yeni hüquqlar verildi. 1957-ci ilin martında Azərbaycan qadınlarının II qurultayı ictimai-siyasi və təsərrüfat həyatında qadınların rolunu daha da canlandırmaq üçün tədbirlər müəyyən etdi. 50-ci illərin ortalarında siyasi ab-havanın nisbətən yumşalması ilə əlaqədar Azərbaycan SSR-də milli dirçəliş meyilləri mərkəzdə kök salmış şovinizmi çox narahat etmişdi. 1956-cı ilin oktyabr-noyabr aylarında Macarıstanda baş vermiş antisovet qiyamı da buna təsir göstərmişdi. N.Xruşşov hakimiyyətdə möhkəmləndikdən, xüsusən Sov.İKP MK-nın 1957-ci il iyun plenumunda siyasi rəqiblərini məğlub edib partiyadan və rəhbər vəzifələrdən uzaqlaşdırdıqdan, orduda və Dövlət Təhlükəsizlik Komitəsində rəhbərliyi təzələdikdən sonra partiya və cəmiyyət üzərində şəxsi amirliyini gücləndirdi. "Xruşşov volyuntarizmi" dövrü başlandı. Azərbaycanın rəhbərliyinə qarşı təqiblər başlandı. Mərkəz xalqı qorxutmaq, özünə tabe saxlamaq üçün növbəti dəfə Dağlıq Qarabağ məsələsini ortaya atdı. Ermənistanda antitürk əhvali-ruhiyyəsi yenidən qızışdırıldı. İrəvan Pedaqoji İnstitutunun Azərbaycan bölmələri bağlandı. Ermənistanda "Qarabağ hərəkatı" xeyli leqallaşdırıldı. 1958-ci ildə erməni katolikosu II Vazgen Bakıya səfəri zamanı respublika Nazirlər Sovetinin sədrinə Dağlıq Qarabağın Ermənistana verilməsi, Bakıda erməni ruhani seminariyasının açılması, hər səhər şəhərin mərkəzində yerləşən erməni kilsəsinin zəng vurmasına icazə verilməsini təklif etmiş, lakin rədd cavabı almışdı. Sov.İKP MK-nın 1959-cu il iyun plenumu heç bir əsas olmadan, qondarma ittihamlarla Azərbaycan SSR rəhbərliyini ciddi tənqid etdi və İ.D.Mustafayev vəzifəsindən

azad edildi. V.Y.Axundov Azərbaycan KP MK-nın Birinci katibi seçildi. Uğursuz islahatlar, yaxın gələcəkdə SSRİ-də kommunizm qurulacağı haqqında utopik ideyalar N.Xruşşovu cəmiyyətdə və partiyada hörmətdən salmışdı. Partiya elitasında ona qarşı müxalifət formalaşırdı. Hakimiyyəti əldə saxlamaq üçün Xruşşov partiyanı parçalamaq, siyasi məsələlərin həllində təşkilatların birgə fəaliyyətini məhdudlaşdırmaq, onların diqqətini təsərrüfat məsələlərinə yönəltmək istədi. Xruşşov partiya və dövlət nəzarətini birləşdirməkdə partiyanın nəzarət funksiyasını da xeyli zəiflətdi. Sov.İKP MK-nın 1964-cü il 14 Oktyabr plenumunda N.Xruşşov vəzifəsindən kənar edildi. L.İ.Brejnev Sov. İKP MK-nın Birinci (1966-cı ildən Baş) katibi seçildi.60-cı illərin ortalarında partiya, sovet, həmkarlar ittifaqları və komsomol orqanları təşkilatca yenidən ərazi prinsipi üzrə quruldu. İqtisadiyyata partiya rəhbərliyi gücləndirildi. Milli dəyərlərə diqqət artdı. Bu işdə 1966-1967-ci illərdə AKP MK Katibi vəzifəsində işləmiş Şıxəli Qurbanovun və onun həmfikirlərinin önəmli xidməti olmuşdu. 1966-cı ildə İranda yaşayan böyük Azərbaycan şairi Seyid Məhəmməd Şəhriyarın "Heydərbabaya salam" poeması Bakıda çap olundu. Mütərəqqi fikirli gənclər üçün 1967-ci ildə "Ulduz" jurnalının nəşrinə başlandı. Novruz bayramı "Bahar bayramı" adı ilə rəsmi şəkildə qeyd edildi. Ədəbiyyatda yeni milli motivlər, tənqidi ruh qüvvətləndi.Milli-azadlıq uğrunda mübariz nəsil yetişməkdə idi. 60-cı illərin əvvəllərində Azərbaycan Dövlət Universitetinin azad fikirli tələbələrindən bir qrupu Əbülfəz Əliyevin rəhbərliyi ilə gizli siyasi mübarizəyə başlamışlar. Onlar gizli özək təşkil edərək, üçlük qruplar yaradır və tələbə gəncləri azadlıq uğrunda mübariz ruhda tərbiyələndirməyə çalışırdılar. Sovet hakimiyyətinə qarşı 60-cı illərdə genişlənən mübarizə mərkəzlərindən biri Sumqayıt şəhəri idi. 1963-cü ilin noyabrın 7-də şəhərin əsas meydanında Böyük Oktyabr Sosialist inqilabının 56 illiyinə həsr olunmuş bayram nümayişi zamanı hökümətin siyasətindən narazı olan əhali ilə milis arasında ciddi toqquşma baş vermiş və bu hadisə iqtisadi vəziyyəti dözülməz olan əhalinin kortəbii qiyamının başlanması üçün qığılcım

olmuşdur. Əhali şəhərdəki Səməd Vurğun adına mədəniyyət sarayının qarşısında asılmış SSRİ-nin rəhbəri N.Xruşşovun portretini daş-kəsəklə dağıtdıqdan sonra, mağazaların (marketlərin) vitrinlərini sındıraraq milis idarəsinə basqın etmiş, milisin atəş açması nəticəsində bir neçə nəfər yaralanmışdır. Əhali bu davranışa qəzəblənərək iki milis motoskletini yandırmış və şəhər hərbi komissarını döyərək ölümcül hala salmışdır.1964-cü ilin yazında Azərbaycanın Rusiyanın tərkibinə "daxil olması"nın 150 illiyi bayram edildi ki, bu da geniş ictimai-siyasi kampaniyaya çevrildi. Azərbaycan tarixçilərindən bu "bayramın" keçirilməsinə zidd çıxanlar da oldu. 1969-cu ilin martında Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin Elmi Şurasında çıxış edən tarixçi alimlər Z.M.Bünyadov, M.Ə.İsmayılov və S.Əliyarov qeyd etdilər ki Azərbaycan XIX əsrin əvvəllərində Rusiyaya birləşməmişdir, onu çar Rusiyası zəbt etmişdir. Bu çıxışa görə onlar müəyyən müddət təqibə məruz qaldılar. O vaxt Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində rəhbər vəzifələrdə çalışan, 1964-cü ildən bu Komitənin sədr müavini, 1967-ci ildən isə sədri olmuş Heydər Əliyevin Azərbaycanın milli düşüncəli vətənpərvər ziyalılarının müdafiəsində mühüm xidmətləri olmuşdur. 60-cı illərin ortalarında Ermənistan SSR-də növbəti dəfə antiazərbaycan hərəkatı qızışdı. 1965-ci il aprelin 23-də uydurma "erməni genosidi"nin 50 illiyi, cəllad Andronikin isə 100 illiyi Ermənistanda geniş qeyd edildi ki, bu da burada ata-baba torpaqlarında yaşayan azərbaycanlıların sıxışdırılmasına güclü təkan verdi. DQMV-də erməni millətçiliyi açıq surətdə dərin kök salırdı. Mərkəzin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli qərarı ilə sərhəd rayonlarında 2 min hektardan çox Azərbaycan torpağının Ermənistana verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul olunmuş qərarı təsdiq etdi. Lakin az sonra Azərbaycan rəhbərliyinə gəlmiş Heydər Əliyev bu qərarın icrasına yol vermədi.

XV FƏSİL
Mədəni quruculuq (1945-1960-cı illər).

Təhsil. Sovet dövləti siyasi və iqtisadi dayaqlarını möhkəmləndirmək üçün ideoloji təsir vasitəsi kimi mədəniyyətə xüsusi önəm verirdi. Mədəniyyətin qarşısında bir sıra vəzifələr qoyulurdu: insanlar dünyada ədalətli cəmiyyət olan sosializm quruculuğuna, Kommunist partiyasına və onun liderinə inansın, sovet həyat tərzini səadət kimi qəbul etsin. İstehsalat üçün lazım olan zəruri əmək vərdişlərinə, politexnik təhsilə yiyələnsin və daha məhsuldar çalışa bilsin. Kommunist (bolşevik) ideologiyasının ictimai şüurun elm, əxlaq, din, hüquq, ədəbiyyat, incəsənət və s. üzərində rəsmi inhisarı mövcud idi.

Sovet hökümətinə sadiq,icraçı işçilər, kadrlar hazırlanmasında məktəb vasitə idi. İstehsal prosesləri (mexanikləşdirmə, avtomatlaşdırma) mürəkkəbləşdikcə işçilərin texniki təhsil səviyyəsinə tələbləri artırdı.

İkinci Dünya müharibəsi illərində yaranmış axşam məktəbləri şəbəkəsi daha da genişləndi. Bu məktəblərdə istehsalatda çalışan gənclər və yaşlı adamlar təhsil alırdı.

1945-ci ildə məktəblərdə buraxılış, attestat imtahanları müəyyən olundu. Müharibədən sonra xalq maarifi şəbəkəsinin tədris-maddi bazasını möhkəmləndirmək, məktəbləri pedaqoji kadrlarla təmin etmək, tədrisin səviyyəsini yüksəltmək üçün əməli tədbirlər həyata keçrildi.

1946-cı ilin avqustunda Azərbaycan müəllimlərinin III qurultayı yeni dövrün tələblərinə uyğun xalq maarifinin vəzifələrini konkretləşdirdi. 1954-cü ildə şagirdlərin sayı müharibədən əvvəlki səviyyəni ötüb keçdi. 1950-1951-ci dərs ilində respublikada 4.233, 1970-1971-ci dərs ilində isə artıq 5.115 ümumtəhsil məktəbi vardı. Bu məktəblərdə 40-cı illərin sonlarında 660 min, 60-cı illərin sonlarında isə 1.444 minə qədər şagird təhsil alırdı.Gənclərin və yaşlıların istehsalatdan ayrılmadan təhsil alması üçün 1970-1971-ci dərs ilində 772 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi.

Respublikada məktəbəqədər və məktəbdənkənar uşaq müəssisələri şəbəkəsi genişlənmişdi. Təlimin məzmununa dəyişikliklər edildi. 1948-ci ildən başlayaraq VIII-X siniflərdə ana dilinin tədrisinə həftədə bir saat əlavə vaxt ayrıldı. Xarici dillər üzrə saatların miqdarı artırıldı. Ədəbiyyat üzrə proqramda dəyişikliklər aparıldı. rus klassik və sovet ədəbiyyatına, SSRİ xalqları ədəbiyyatına, habelə Qərbi Avropa ölkələri ədəbiyyatının böyük şəxsiyyətlərinə müəyyən yer verildi. Proqram və dərsliklər əsaslı surətdə yenidən tərtib olundu. 1958-1959-cu dərs ilindən orta məktəblərdə "Azərbaycan tarixi" (40 saat) "SSRİ tarixi" içərisində tədris olunmağa başlandı. 1960-cı ildən orta məktəblərin tədris planına "İctimaiyyət" fənni əlavə olundu.

Respublikanın milli məktəblərində rus dili və ədəbiyyatının tədrisinə ciddi fikir verilir, rus dili müəllimlərinin hazırlanması genişləndirildi, II-X siniflərdə rus dili və ədəbiyyatının tədrisinə tədris planlarında həftədə 5-6 saat ayrıldı. 1947-ci ildən "Rus dili qeyri-rus məktəbində" adlı aylıq metodiki külliyyat nəşr olunmağa başlandı.

1959-cu ilin sentyabrından Azərbaycanda 7 illik məktəblər 8 illik məktəblərə, 10 illiklər isə istehsaalt təlimli 11 illik orta məktəblərə çevirildi. Maddi-texniki baza zəif olduğundan çox vaxt istehsalat təlimi dərsləri boş keçirdi, özümü doğrultmurdu. Bununla bağlı texniki-peşə məktəblərinin sayı artırıldı. 1951-ci ildə Azərbaycanda 30 texniki peşə məktəbi var idisə, 1966-cı ildə onların sayı 46-ya, 1970-ci ildə isə 78-ə çatmışdı. Peşə məktəblərində 1940-cı ildə 40 min şagird müxtəlif peşələrə yiyələnmişdi. İxtisaslı fəhlə hazırlığı baxımından peşə məktəbləri daha səmərəli idi. 1966-cı ildən orta təhsil -10 illik ümumtəhsil elan olundu. Ümumtəhsil məktəblərinin yeni forması olan İnternat məktəbin meydana çıxması məktəb sisteminin həyatında mühüm hadisə oldu.

Məktəblərin nəzdində tədris emalatxanaları yaratmağa başladılar. Ümumtəhsil məktəblərində politexnik təlimin inkişafı məqsədilə tədbirlər həyata keçirildi. Kənd məktəblərində kolxoz və

sovxozların yanında Stavropol diyarının təcrübəsi üzrə şagird istehsalat briqadaları yaradılırdı. VIII-X sinif şagirdləri kənd təsərrüfatı istehsalının əsasları və mexanikləşdirilməsi, müxtəlif kənd təsərrüfatı bitkilərinin yetişdirilməsi üsulları ilə tanış olur, əmək vərdişlərinə yiyələnirdilər. Şagirdlər arasında müxtəlif tərbiyəvi tədbirlərin həyata keçirilməsində komsomol təşkilatları müəyyən kömək göstərirdilər. Pioner yaşlı bütün məktəblilər pioner dəstələrinə cəlb olunmuşdular.

Ali təhsil inkişaf etdi. 1945-ci ildə Teatr İnstitutu (1968-ci ildən İncəsənət İnstitutu), 1947-ci ildə V.İ.Lenin adına APİ-nin xarici dillər fakültəsi bazasında Xarici Dillər İnstitutu, 1950-ci ildə Politexnik İnstitutu yaradıldı.Fəaliyyətini 1941-ci ildə dayandırmış Xalq Təsərrüfatı İnstitutu 1951-ci ildə bərpa olundu. 1952-ci ildə Rus dili və Ədəbiyyatı İnstitutu təşkil edildi. İnstitut 1959-cu ildə Xarici Dillər İnstitutuna birləşdirildi. 1945-46-cı tədris ilində respublikada 17 ali təhsil müəssisəsi olduğu halda, 1950-51-ci dərs ilində onların sayı 20-yə çatdı.

Respublikanın ali təhil müəssisələrində təhsil alan tələbələrin sayı 1945-1946-cı dərs ilindəki 19,6 min nəfərdən 1950-1951-ci dərs ilində 28,6 min nəfərə çatmışdı. Tələbələrin 68,1%-ni azərbaycanlılar təşkil edirdi. Bundan başqa, yüzlərlə azərbaycanlı tələbə SSRİ-nin başqa sahələrində təhsil alırdı. 1970-71-ci tədris ilində ali məktəblərdə istehsalatdan ayrılmaqla 53min tələbə təhsil alırdı. Professor-müəllim heyətinin sayı 1950-ci ildəki 2 min nəfərdən 1970-ci ildə 5 min nəfərə çatmışdır. 1945-46-cı dərs ilində S.M.Kirov adına ADU-nun (keçmiş BDU-nun) filologiya fakültəsində jurnalistika, tarix fakültəsində isə fəlsəfə şöbəsi təşkil edildi. Sonra şərqşünaslıq fakültəsi yarandı. Universitet respublikanın ən iri təhsil mərkəzinə çevrildi.

1948-ci il sentyabrın 1-də V.İ.Lenin adına APİ-nin dil və ədəbiyyat fakültəsinin rus bölməsi bazasında rus dili və ədəbiyyatı fakültəsi yaradıldı.

Ali məktəblərin müharibə illərində hospital və başqa idarələr üçün verilmiş binaları, tələbə yataqxanaları azad edilirdi. 1969-cu

ildən ali məktəblərin yanında fəhlə, kolxozçu və ordudan tərxis edilənlər üçün hazırlıq şöbələri təşkil olunmuşdu. Bu şöbədə oxuyanlar təqaüdlə təmin olunur, imtahan verərək ali məktəblərə qəbul olunurdular.

Mədəni maarif. Müharibədən sonrakı illərdə mədəni-maarif müəssisələrinin şəbəkəsi genişləndi. Kütləvi kitabxanaların sayı 1946-cı ildəki 815-dən 1970-ci ildə 2922-yə, klub müəssisələrinin sayı isə müvafiq olaraq 1711-dən 2146-ya çatmışdı. Həmin illərdə kitabxanaların kitab fondu 2,6 mln nüsxədən 22,9 mln nüsxəyə qədər çoxalmışdı. Kitabxana oxucularının sayı ildən-ilə artırdı.

Mədəni-maarif işinin ən kütləvi vasitələrindən biri kino idi. Respublikada kino qurğularının sayı 1946-cı ildəki 252-dən 1970-ci ildə 2004-ə qədər artmışdı. Mədəni-maarifin inkişafında 1947-ci ildə yaradılmış Azərbaycan Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyət iki ilə öz sıralarında 2,2 min ziyalını və istehsalat qabaqcılını birləşdirirdi. Cəmiyyətin üzvləri əmək kollektivlərində siyasi və elmi biliklər mövzusunda mühazirələr oxuyurdular.

1970-ci ildə əhali arasında mədəni-maarif işi aparan 27 muzey var idi. 1946-cı ildə Nizami adına Ədəbiyyat Tarixi Muzeyi açıldı. 1958-ci ildə Şəkidə yeni Tarix-Diyarşünaslıq Muzeyi, 1959-cu ildə Xızıda C.Cabbarlının, Şuşada Ü.Hacıbəyovun ev-muzeyləri, 1964-cü ildə Bakıda Qız qalası muzeyi açıldı. Muzeylərdə keçirilən elmi-kütləvi iş, habelə muzeylərin təşkil etdikləri ekskursiyalar, səyyar sərgilər, müharibə veteranları və əmək qəhrəmanları ilə görüşlər əhali arasında rəğbətlə qarşılanırdı. Mədəni-maarif idarələrinin fəaliyyəti formalizm və siyasi rəsmiyyətçilikdən zərər çəkirdi. Mədəni-maarif müəssisələri Mədəniyyət nazirliyi tabeçiliyində fəaliyyət göstərirdi.

Mətbuat. Əhalinin maariflənməsində, mədəni səviyyəsinin yüksəlməsində, ictimai-siyasi fəallığının artmasında mətbuat əhəmiyyətli rol oynayırdı.1946-cı ildə Azərbaycanda 87 qəzet çıxırdı, 1970-ci ildə isə onların sayı 118-ə (o cümlədən 93-ü Azərbaycan dilində) çatmışdı. 1946-cı ildən "Azərbaycan gəncləri" və "Molodyoj Azerbaydjana", 1958-ci ildən "Bakı", 1963-cü ildən

"Baku" (rus dilində) qəzetləri nəşr olunur. "Müəllim", "Ədəbiyyat" qəzetləri, "Azərbaycan müəllimi", "Ədəbiyyat və İncəsənət", "Azərbaycan kənd təsərrüfatı", "Sovet kəndi" adı altında qəzetlər çıxırdı. Respublikada nəşr olunan jurnalların və başqa dövri nəşrlərin sayı 1946-cı ildə 21 idisə, 70-ci ildə 116-ya çatdı. Azərbaycan dilində 74 jurnal nəşr olunurdu. "Pioner", "Kirpi", "Göyərçin", "Elm və Həyat", "Ulduz" jurnalları, "Qobustan" incəsənət almanaxı nəşr olunmağa başlandı. 1951-ci ildən "Azərbaycan qadını", 1954-cü ildən "Literaturnı Azerbaydjan" jurnalları fəaliyyətini yenidən davam etdirdilər. "Vətən uğrunda" jurnalı 1946-cı ildən "İnqilab və mədəniyyət", 1953-cü ildən "Təşviqatçının dəftərçəsi" jurnalı isə 1966-cı ildən "Təşviqatçı" adı ilə çıxırdı.

Respublikada Azərbaycan Dövlət Nəşriyyatı (Azərnəşr), Uşaq-Gənclər Nəşriyyatı, Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı və Azərneft nəşriyyatı fəaliyyət göstərirdi.

Rus ədəbiyyatı klassiklərinin, müasir yazıçıların və başqa xalqların yazıçılarının əsərləri Azərbaycan dilinə tərcümə edilmiş və kütləvi tirajla nəşr olunurdu. Xarici ölkələrin ən tanınmış yazıçılarının əsərlərinin Azərbaycan dilində buraxılışı artmışdı. Mədəni-maarif işi eyni zamanda SSRİ xalqlarına bir-birinin ədəbiyyat və incəsənəti ilə yaxından tanış olmağa imkanlar açırdı. 1950,1959-cu illərdə Moskvada Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlükləri böyük müvəffəqiyyətlə keçrildi. Azərbaycan mədəniyyətinin beynəlxalq əlaqələri də inkişaf edirdi. 1946-cı ildə "Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələri" cəmiyyəti təsis edildi. Bu cəmiyyətin "Azərbaycan" adlı jurnalı çap olunaraq dünya ölkələrində yayılırdı.

Elm. Müharibədən sonrakı illərdə Azərbaycanda elm uğurla inkişaf edirdi. Elmi idarələrin sayı 1945-1970-ci illərdə 66-dan 142-yə çatmışdı. Elmlər Akademiyası özünün elmi fəaliyyətini inkişaf etdirir, elmi kadrlar hazırlanmasını genişləndirirdi.

Respublikanın ali təhsil müəssisələrində elmi-tədqiqat işləri inkişaf edirdi. Bununla elmi kadrların sayı artırdı. Elmi kadrların

sayı 1947-ci ildəki 3.282 nəfərdən, 1970-ci ildə 17.082 nəfərə çatmışdı. Əsas elmi mərkəz olan Azərbaycan SSR EA-da 1945-ci ildə 977, 1955-ci ildə 1.650 nəfər, 1970-ci ildə 3.318 nəfər elmi içi çalışırdı. 1950-ci ildən respublikada fizika elminin inkişafında yeni mərhələ başlandı. Yarımkeçiricilərin kompleks tədqiqatları, nəzəri fizikanın, metallar fizikası məsələlərinin tədqiqi genişləndi.

Neftin, neft məhsullarının və neft yataqları sularının fiziki xassələrini tədqiq etmək sahəsində səmərəli tədqiqatlar aparılırdı. 1946-cı ildə Fizika İnstitutunda rentgenostruktur təhlili laboratoriyası yaradıldı ki, bu laboratoriyanın elmi tədqiqatlarının nəticələrindən selen cihazları hazırlayan zavodlarda istifadə olunurdu.

Akademik Z.İ.Xəlilovun rəhbərliyi ilə neft qatlarında quyuların ən əlverişli şəkildə yerləşdirilməsinin riyazi öyrənilməsinin böyük əhəmiyyəti var idi. Mingəçevir su qovşağı inşaatçılarının müraciətinə cavab olaraq Azərbaycan Dövlət Universitetinin riyaziyyatçıları Mingəçevir Su-Elektrik Stansiyasının su altındakı borularının təzyiqini müəyyənləşdirmək üçün tədqiqatlar aparırdılar. Şamaxıda ən böyük astrofizika rəsədxanalarından birinin bünövrəsi qoyuldu. Fizik və riyaziyyatçılar kvant fizikası və kosmoqoniya sahəsində tədqiqatlar aparırdılar. Riyaziyyat üzrə tədqiqat işləri Azərbaycan SSR Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda və Hesablama Mərkəzində, habelə ali məktəblərin 20-dən artıq riyaziyyat kafedrasında aparılırdı. Respublika riyaziyyatçıları öz tədqiqatlarını funksional təhlil problemi, inteqral tənliklər nəzəriyyəsi sahəsində aparırdılar. 1954-cü ildə qazın və qazlı neftin süzülməsinin riyazi məsələləri tədqiq olunurdu. A.X.Mirzəcanzadə tərəfindən tətbiqi əhəmiyyəti olan sahələrdə zəif və isti plastik mayelərin hərəkəti haqqında mürəkkəb riyazi məsələlər həll edilmişdi.

1945-ci ildə Elmlər Akademiyasının Coğrafiya İnstitutu yaradıldı. Azərbaycan geoloqları diqqəti neft geologiyasının, mədən və qeyri-mədən faydalı qazıntılarının, tektonikanın daha çox aktual məsələləri üzərində cəmləşdirdilər. Geoloqların səmərəli işlərinin

nəticələri öz əksini yeddicildlik "Azərbaycan geologiyası" toplusunda tapdı (1954-1960-cı illər). Azərbaycan SSR-nin atlası hazırlandı.

1950-ci ildə Azərbaycan Elmlər Akademiyasının Neft Ekspedisiyası təşkil edildi. Azərbaycan neftçilərinin neft çıxarmaq texnologiyasını təkmilləşdirməsi nəinki Azərbaycanda, digər müttəfiq respublikalarda da neft sənayesinin inkişafına təsir göstərdi. Dəniz sahələrində neft yataqlarının istismarı məsələlərinə mühüm diqqət yetrilirdi.

Respublikada kimya elminin inkişafında Y.H. Məmmədəliyevin böyük rolu olmuşdur. Azərbaycan kimyaçı alimlərin tədqiqat obyektlərindən biri Zəylik yataqlarının aluniti idi. Lakin təbiət və texniki elmlərin inkişafında ciddi nöqsan və çatışmazlıqlar da vardı. Geofizika rüşeym halında idi. Müasir fizika və texnikanın daha çox perspektivli problemləri heç işlənilmirdi. Qeyri-üzvi, xüsusən də üzvi kimyanın bir sıra istiqamətləri ləng tədqiq olunurdu və başqalarının rəhbərliyi ilə tədqiqatlar aparılırdı. Azərbaycanda ilk dəfə olaraq reaktiv mühərriklər üçün yanacaq istehsalı və yüksək keyfiyyətli dizel yanacaqlarının alınması texnologiyası mənimsənildi. Nəbatatçılar ölkənin florasını öyrənməyə və xalq təsərrüfatında ondan istifadə etməyin tədqiqinə yönəlmişlər. Torpaqların erroziyasını tədqiq etmək üçün 1950-ci ildə Torpaq-Erroziya stansiyası yaradıldı.

Respublikanın zooloqları Azərbaycanın faunasını öyrənmək, onun yenidən bərpası üçün tədqiqatlar aparırdılar.

Torpaq örtüyünün öyrənilməsinə, gübrələrin səmərəli tətbiqi məsələsinə, şoran torpaqların meliorasiyasına diqqət yetirilirdi. Kür-Araz düzənliyi və Lənkəran zonasının şoran və bataqlıq torpaqlarının istifadəyə verilməsi sahəsində tədqiqatlar böyük elmi dəyərə malik idi. Türyançay (1958), Göygöl(1965), Pirqulu(1968) Hirkan və Şirvan qoruqları (1969) yarandı.

İctimai və humanitar elmlər sahəsində müharibədən sonrakı illərdə irəliyə doğru ciddi addımlar atılmışdı. Azərbaycan ərazisinin arxeoloji cəhətdən öyrənilməsi genişlənirdi. Qədim və erkən orta

əsrlər tarixinə dair bir çox arxeoloji materiallar əldə edilmişdi.1946-cı ildə S.M.Qazıyevin başçılığı altında Azərbaycan SSR EA-nın Mingəçevir arxeoloji ekspedisiyası tərəfindən aparılan tədqiqatlar mühüm əhəmiyyətə malik idi. Ekspedisiya tərəfindən 14 mədəni qat tədqiq edilmişdi.

Qobustan rayonunda böyük elmi qiymətə malik çoxlu qayaüstü təsvir aşkar olunmuşdu. 1947-ci ildən İsak Cəfərzadənin rəhbərlik etdiyi arxeoloji ekspedisiya dünya əhəmiyyətli bu abidənin tədqiqinə başlamışdı. Qayaların və daşların bir çoxunun səthində insan və heyvanların kontur şəklində təsvirləri saxlanmışdır. Bu təsvirlər Daş dövrünün sonundan orta əsrlərə qədərki tarixi əhatə edir. Örənqala, Qəbələ, Köhnə Gəncə, habelə Bakıdakı Şirvanşahlar sarayında, Qarabağda, Şirvanda aparılan qazıntılar nəticəsində dəyərli materiallar əldə olunmuşdu.

Azərbaycanın qədim tarixinin, xüsusən Midiya və Qafqaz Albaniyası tarixinin öyrənilməsi məqsədilə vacib tədqiqatlar aparırdılar. Azərbaycan tarixinin öyrənilməsində 1949-cu ildə "Azərbaycan tarixinin oçerkləri"nin nəşri irəliyə doğru mühüm addım idi. Lakin bu kitabda Azərbaycanın qədim, orta əsrlər və yeni tarixinin bir sıra probleminin işlənilməsinin elmi səviyyəsi hələ yüksək deyildi. Ən qədim, ilk orta və XIX-XX əsrlər və s. problemlər özünün əsaslı tədqiqini gözləyirdi.

1958-1963-cü illərdə üçcildlik "Azərbaycan tarixi" nəşr olundu."Azərbaycanda Sovet hakimiyyəti uğrunda fəal mübarizlər" (1958) ,"Azərbaycan Kommunist Partiyasının tarixi" (I hissə), "Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri" (1964) kitabları çap edildi. Lakin ideoloji təzyiqlə əlaqədar bəzi problemlər hakim konsepsiya mövqeyindən şərh olunurdu.

Fəlsəfə fikir tarixini öyrənmək sahəsində də müəyyən işlər görülmüşdü. Heydər Hüseynovun "XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" (1949) monoqrafiyası maraq doğurmuşdu. Respublika filosofları Azərbaycan mütəfəkkirlərindən N.Gəncəvinin, X.Şirvaninin, M.F.Axundovun, H.Zərdabinin və başqalarının ictimai-siyasi və fəlsəfi görüşlərinin elmi tədqiqi ilə

məşğul olurdular. 1966-cı ildə "Azərbaycanda fəlsəfi fikir tarixinin oçerkləri" nəşr olundu.

Ədəbiyyatşünaslar tərəfindən müasir sovet ədəbiyyatı və Azərbaycan klassiklərinin ədəbi irsi geniş tədqiq olunurdu. Xalq şairi, akademik S.Vurğun 1954-cü ilin dekabrında Moskvada sovet yazıçılarının II Ümumittifaq qurultayında sovet poeziyasının yaradıcılıq problemlərini elmi əsaslarla yüksək səviyyədə işıqlandıra bilmişdi. Bu çox böyük elmi hadisə idi. H.Araslının "XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi", M.Quluzadənin "Nizami Gəncəvi", Ə.Mirəhmədovun "M.F.Axundov", K. Məmmədovun "Əbdürrəhim bəy Haqverdiyev", K.Talıbzadənin "Abbas Səhhət", M.Arifin "Cəfər Cabbarlının yaradıcılıq yolu", Q.Qasımzadənin "Azərbaycan ədəbiyyatında xalqlar dostluğu", Ş.Qurbanovun "Puşkin və Azərbaycan poeziyası", M.Əlioğlunun "Cəlil Məmmədquluzadənin dramaturgiyası" kimi monoqrafiyaları nəşr olundu. 1957-1960-cı illərdə üç cildlik "Azərbaycan ədəbiyyatı tarixi", 1963-cü ildə "Azərbaycan sovet ədəbiyyatı tarixi oçerkləri", 1967-ci ildə "Azərbaycan sovet ədəbiyyatı tarixi" kimi fundamental əsərlər çap edildi. "Kitabi-Dədə Qorqud" (1950), "Koroğlu" dastanları (1949), beş cildlik "Azərbaycan nağılları" (1960-1964), beş cildlik "Azərbaycan dastanları" (1965-1977) nəşr olundu. Böyük Azərbaycan şair və nasirlərinin əsərləri oxuculara çatdırıldı. Nizaminin və digər klassiklərin yaradıcılığı haqqında monoqrafik əsərlər yazıldı.

Respublika Əlyazmaları Fondunun yaradılmasının xüsusi əhəmiyyəti var idi.

Ədəbiyyat və incəsənət. Azərbaycan ədəbiyyatı müharibədən sonrakı dövrdə də ictimai-siyasi həyatla sıx əlaqədə inkişaf edirdi. Azərbaycan Yazıçılar İttifaqının bilavasitə ədəbi prosesə fəal müdaxiləsi gücləndi. Təşkilatın qurultay və plenumlarında nəsr, poeziya və dramaturgiyanın yaradıcılıq problemlərinə həsr olunmuş müzakirələr keçrilirdi.

Poeziya, xüsusilə siyasi lirika fəal mövqe qazanmışdı. S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim, O.Sarıvəlli, M.Dilbazi,

Ə.Cəmil, N.Rəfibəyli və başqaları müasirlərinin daxili aləmini əks etdirən lirik və epik əsərlər yazdılar. S.Vurğunun "Muğan" və "Zəncinin arzuları", R.Rzanın "Lenin", M.Rahimin "Leninqrad göylərində", S.Rüstəmin "Qafurun qəlbi" kimi poemaları yazıldı. Müharibə zamanı Sevastopol şəhəri müdafiəsinin iştirakçısı olan Ə.Əbülhəsən qələbədən sonra "Müharibə" romanının birinci hissəsini çap etdirdi. S.Rəhimov müharibə ərəfəsində başladığı "Saçlı" romanını bitirdi. M.Hüseynin "Abşeron", M.Süleymanovun "Yerin sirri", Mir Cəlalın "Yaşıdlarım", Ə.Vəliyevin "Gülşən" əsərləri nəşr edildi.

Xalq tarixinin mühüm səhifələrinə, azadlıq uğrunda mübarizə mövzusuna maraq gücləndi. M.S.Ordubadinin "Dumanlı Təbriz" epopeyasının son hissəsi çap olundu, "Qılınc və qələm" oxuculara təqdim edildi. Dramaturgiya sahəsində müasirliyə maraq gücləndi. İ.Əfəndiyevin "Bahar suları", Ə.Məmmədxanlının "Şərqin səhəri" əsərləri oxucularda böyük maraq oyatdı. Müharibədən sonra dəbdə olan "konfliktsizlik nəzəriyyəsi" sənətin inkişafına, onun həyatla əlaqəsinin möhkəmlənməsinə ciddi əngəl törətmiş, bir sıra istedadlı sənətkarları ziddiyyətlərin mahiyyətinə nüfuz etməkdən, nöqsanları üzə çıxarmaq təşəbbüslərindən uzaqlaşdırmışdı. 1947-ci ildə böyük Azərbaycan şairi N.Gəncəvinin anadan olmasının 800 illiyi İttifaqın mədəni mərkəzlərində təntənə ilə qeyd olundu. Yubiley münasibətilə 1946-cı ildə Gəncədə böyük şairin məqbərə-abidəsi açıldı. SSRİ Yazıçılar İttifaqı ilə Azərbaycan Yazıçılar İttifaqının dahi şairin yubileyinə həsr edilmiş təntənəli plenumu keçrildi.

1956-cı ildə S.Vurğunun anadan olmasının 50 illiyi qeyd olundu. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə birinci olaraq S.Vurğuna "Xalq şairi" adı verildi.

Mədəni həyatda mühüm hadisələrdən biri böyük Azərbaycan şairi M.Füzulinin vəfatının 400 illiyinin (1958-ci il) qeyd edilməsi oldu. Bakıda şairin yubiley tədbirlərində bütün respublikaların nümayəndələri, həmçinin İran, Türkiyə, Əfqanıstan, İraq və başqa ölkələrdən gəlmiş xarici qonaqlar iştirak etdilər.

1968-ci ildə M.P.Vaqifin 250 illik yubileyi geniş qeyd olundu. 1962-ci ildən başlayaraq hər ilin may ayında M.Ə.Sabir poeziyası günləri keçrilməsi ənənəsi yarandı. 50-ci illərdə yazıçılar yeni ədəbi nailiyyətlər qazandılar. S.Vurğunun "Aygün" poemasında əməyin qüdrəti və şəxsiyyətin fərdi duyğuları bədii təhlil predmetinə çevrilir. Stalinin ölümündən sonra cəmiyyətdə baş vermiş ictimai prosesləri dərindən öyrənən bir çox yazıçılar yeni, aktual əsərlərlə çıxış etdilər. M.İbrahimovun "Böyük dayaq", İ.Şıxlının "Ayrılan yollar", İ.Hüseynovun "Yanar ürək", B.Bayramovun "Yarpaqlar", İ.Əfəndiyevin "Söyüdlü arx", Ə.Əbülhəsənin "Tamaşa qarının nəvələri", H.Seyidbəylinin "Telefonçu qız" əsərlərində, habelə Ə.Məmmədxanlının "Şirvan gözəli" komediyasında yadda qalan bədii obrazlar yaradıldı. Bu əsərlərin əksəriyyətində nöqsanlara, cəmiyyətin inkişafına maneə olan əngəllərə, meşşanlığa qarşı kəskin tənqidi münasibət vardı.

Azərbaycan dramaturgiyası müasirliyə dönüşü daha da gücləndirməklə, bədii kamillik kəsb etdi. İ.Əfəndiyevin "Atayevlər ailəsi", İ.Qasımov və H.Seyidbəylinin "Dəniz cəsurları sevir", İ.Səfərlinin "Göz həkimi" əsərlərində bir sıra bitkin ədəbi surətlər yaradıldı. Lakin dramaturgiya yaradıcılığı pyeslərin məzmununa, həm də bədii formasına görə açıq-aydın geri qalırdı. Müharibədən sonra SSRİ və dünya xalqları ədəbiyyatlarının ən gözəl nümunələrinin Azərbaycan dilinə tərcüməsi dövlət əhəmiyyəti kəsb edən mədəni tədbirlərdən idi. Klassik və müasir Azərbaycan sənətkarlarının ədəbi irsinin rus dilinə tərcüməsi də genişləndi. Xalqın zəngin qaynaqları olan mənəvi aləmi öz poetik əksini Rəsul Rzanın, Osman Sarıvəllinin, Bəxtiyar Vahabzadənin, Əhməd Cəmilin, Nəbi Xəzrinin və başqalarının əsərlərində ustalıqla tapmışdı. Vahidin qəzəlləri geniş yayılmışdı.

Milli şüurun oyanmasında Cənub mövzusunda əsərlərin xüsusi əhəmiyyəti vardı. Süleyman Rüstəmin Cənub mövzusunda yazdığı silsilə şeirlər böyük siyasi təsir gücünə malik idi.

M.İbrahimovun "Gələcək gün", "Pərvanə", P.Makulunun "Səttarxan" romanları maraqla qarşılanmışdı. Balaş Azəroğlunun,

Əli Tudənin, Söhrab Tahirin, Mədinə Gülgünün, Hökümə Büllurinin əsərlərində parçalanmış vətən, ayrılıq, həsrət mövzuları əsas yer tuturdu.

Xaricdə yaşayan azərbaycanlı yazıçıların yaradıcılığı da Azərbaycan ədəbiyyatının zənginləşməsinə töhfə idi. Ümbülbanu Mirzə (Banin) 1945-ci ildə Parisdə çap olunmuş "Qafqaz günləri" romanı ilə istedadlı yazıçı kimi tanınmışdı. Onun sonrakı illərdə nəşr olunmuş "Paris günləri", "Sonra", "Yad Fransa", "Son ümidin harayı" və s. əsərləri də maraqla qarşılanmışdı. Azərbaycan incəsənəti də inkişafda idi. Bəstəkarların yaradıcılığında simfonik musiqi əsas yer tuturdu. "Leyli və Məcnun" poemasının motivləri əsasında Q.Qarayev eyni adlı simfonik poema yazdı. Respublikanın musiqi həyatında F.Əmirovun yaratdığı yeni simfonik muğam mühüm hadisə oldu. Bəstəkar "Şur" və "Kürd-ovşarı" əsərlərində ilk mənbə kimi Azərbaycan muğamlarının orijinal melodiyalarından istifadə etdi. Bir qədər sonra Niyazi "Rast" simfonik muğamını, S.Ələsgərov isə "Bayatı-Şiraz" simfonik muğamını yaratdı. Azərbaycan musiqisi üçün yeni olan kantata-oratoriya janrında C.Cahangirovun "Füzuli" kantatası (1959-cu il) yarandı. Bu dövr həm də Azərbaycan bəstəkarlarının yeni, üçüncü nəslinin həyata qədəm qoyması ilə əlamətdar idi. Onların ilk böyük əsərləri - A.Məlikovun "Nağıl" simfonik poeması (1957-ci il) meydana çıxmışdı. Ə.Bədəlbəyli "Nizami" operasını tamamladı. C.Cabbarlının eyni adlı dramının süjetinə F.Əmirovun yazdığı "Sevil" operası (1953) opera sənətində parlaq səhifə oldu. Opera xalq arasında tezliklə çox məşhurlaşdı. C.Cahangirovun "Azad" operası (1957) Arazın o tayında yaşayan azərbaycanlıların öz azadlığı uğrunda apardığı mübarizəni əks etdirdi.

S.Hacıbəyov müasir mövzuda "Gülşən" (1957) baletini bəstələdi. Q.Qarayevin "Yeddi gözəl" baleti (1952) Azərbaycan balet sənətini yeni inkişaf pilləsinə yüksəltdi. Bu əsər bir çox sovet və xarici ölkə teatrlarının repertuarını zənginləşdirdi.

Q.Qarayevin 1958-ci ildə yaratdığı "İldırımlı yollarla" əsəri balet musiqisinin yeni nailiyyəti oldu. Musiqili komediya janrı

inkişaf edirdi. Müasir mövzuya həsr edilmiş ən gözəl Azərbaycan operettaları - S.Rüstəmovun "Durna", F.Əmirovun "Yaxşı yol", S.Ələsgərovun "Ulduz" operettaları idi. Respublikanın musiqi həyatı zəngin idi. R. Behbudovun Azərbaycanı tərənnüm edən mahnıları sovet və xarici ölkə dinləyicilərinin hüsn-rəğbətini qazanmışdı. Azərbaycan musiqisinin təbliğində Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestri xüsusi rol oynamışdı.

M.F. Axundov adına Opera və Balet Teatrının fəaliyyəti xeyli canlandı. Tamaşalara Niyazi və Ə. Bədəlbəyli kimi görkəmli sənətkarlar drijorluq edirdi. Ü. Hacıbəyov adına simfonik orkestrə Niyazi, xalq çalğı alətləri orkestrinə isə Səid Rüstəmov rəhbərlik edirdi. Əminə Dilbazi, Ə. Abdullayev xalq rəqslərinin tanınmış ifaçıları idi. Xalq musiqiçiləri Qurban Primov, Əhməd Bakıxanov, Bəhram Mansurov, Seyid Şuşinski, Xan Şuşinski, Sara Qədimova, Şövkət Ələkbərova, Əbülfət Əliyevin ifaçılıq sənəti xalq tərəfindən sevilirdi. Bəstəkarlar Tofiq Quliyev, Süleyman Rüstəmov, Qəmbər Hüseynli, Ağabacı Rzayeva, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Rauf Hacıyev və başqaları gözəl mahnılar bəstələyirdilər. Azərbaycan musiqisinin inkişafına istedadlı özfəaliyyət kollektivlərinin yaradıcılığı kömək edirdi. Müharibədən sonrakı illərdə teatrların təşkilat və yaradıcılıq həyatında müəyyən dönüş yarandı. Insanların mənəvi simasını və qəhrəmanlığını əks etdirən yüksək bədii keyfiyyətli tamaşalar meydana gəldi. Dram teatrları müasir mövzularda tamaşaların səhnəyə qoyulması sahəsində böyük işlər görürdülər. 1947-1948-ci illərdə rejissor A.İsgəndərov yazıçı İ.Əfəndiyevin "İşıqlı yollar" pyesini və "Bahar suları" əsərini tamaşaya qoydu ki, bu tamaşalar da Azərbaycan Dövlət Akademik Dram Teatrının həyatında mühüm hadisə idi.

1948-ci ildə Moskva qastrolu Azərbaycan Dram Teatrının həyatında mühüm hadisə oldu. Teatr paytaxt tamaşaçılarına C. Cabbarlının "1905-ci ildə", S. Vurğunun "Vaqif", V. Şekspirin "12-ci gecə", A.N. Ostrovskinin "Tufan" pyeslərini və digər əsərlərin tamaşalarını göstərdi. Rejissor M. Məmmədovun Gəncə Dövlət Dram Teatrında hazırladığı "Otello" bu dövrün ən yaxşı

tamaşalarından idi. S. Rəhmanın "Aydınlıq", C. Məcnunbəyovun "Böyük məhəbbət" pyeslərinin tamaşaları da maraqla qarşılandı. 1949-cu ildə Azərbaycan teatrının 75 illik yubileyi təntənə ilə qeyd edildi. Lakin bu dövrdə Azərbaycan dövlət teatrlarının sayı xeyli azaldı. 1937-ci ildə Azərbaycanın ayrı-ayrı rayonlarında yaradılmış dövlət teatrlarını "səmərəsiz" hesab edib ucdantutma bağladılar. Yalnız Naxçıvanda, Gəncədə, Xankəndi və Qubada olan teatrlar öz fəaliyyətini davam etdirirdilər.

Bu dövrdə müasir mövzulu tamaşalar içərisində S.Rəhmanın "Nişanlı qız", İ.Əfəndiyevin "Atayevlər ailəsi", İ.Səfərlinin "Göz həkimi", Ə.Məmmədxanlının "Şirvan gözəli" pyesləri mövzu və janr etibarilə müxtəlif olsa da, bu tamaşalarda xalqın müxtəlif təbəqələrinin surətləri yaradılmışdı. Beləliklə, 1951-1960-cı illərdə Azərbaycan teatrında müasir mövzu və qəhrəmanın səhnəyə gəlməsi prosesi güclənmişdi. Bu yeniləşmə tarixi mövzulara həsr olunmuş ayrı-ayrı tamaşalara da təsir edirdi. Həmin keyfiyyətlər V. Şekspirin "Qış nağılı", H. Cavidin "Şeyx Sənan" və H. Mehdinin "Cavanşir" pyeslərinin tamaşalarında aydın nəzərə çarpırdı. Lakin həmin illərdə baş alıb gedən bədnam "konfliktsizlik nəzəriyyəsi" actual mövzulara və onların tamaşalarına öz mənfi təsirini göstərirdi. Müharibədən sonrakı illərdə Azərbaycan kinosunun inkişafında müəyyən irəliləyişlər də baş verirdi. Respublikada müntəzəm olaraq bədii və sənədli filmlər buraxılırdı. Azərbaycan kinematoqrafçıları tanınmış yazıçılar, ssenaristlər, bəstəkarlar və artistlərlə sıx yaradıcılıq əməkdaşlığında bir sıra yeni filmlər yaratdılar.

Azərbaycan kinematoqrafçılarının 1945-ci ildə istehsal etdiyi "Arşın mal alan" filmi nəinki SSRİ-də, hətta bütün dünyada çox böyük müvəffəqiyyətlə nümayiş etdirildi. Bu filmin yaradıcıları və ifaçıları Dövlət mükafatına layiq görüldülər. 1949-1950-ci illərdə yaradılmış "Bakının işıqları" filmi Bakı neftçilərinin müharibə illərindəki əmək qəhrəmanlığından bəhs edirdi/ 50-ci illərdə "Xəzər neftçiləri haqqında povest" (1953) və "Dəniz fatehləri" (1959) sənədli filmlərin ekrana buraxılması kino sənətinin böyük nailiyyəti

idi. "Görüş" filmi (1957) Azərbaycan pambıqçılarının Özbəkistanın pambıq ustaları ilə dostluğuna həsr olunmuşdur.

1954-1958-ci illərdə respublikanın kino sənəti tamaşaçılar tərəfindən hərarətlə qarşılanan yeni ən yaxşı filmlərin - "Qara daşlar", "Qızmar günəş altında", "Bir məhəlləli iki oğlan", "Uzaq sahillərdə", "O olmasın, bu olsun", "Ögey ana" və digər filmlərin yaradılması ilə əlamətdar olmuşdu. Rəssamların yaradıcılığında insanların məişəti və əmək fəaliyyətindən bəhs edən mövzular əsas yer tuturdu. Heykəltəraşların fəaliyyəti uğurlu nailiyyətlərlə nəzəri cəlb edirdi. 1947-1949-cu illərdə heykəltəraş F. Əbdürrəhmanov Nizaminin Bakıda və Gəncədə ucaldılmış heykəllərini yaratmışdı. Nizaminin Gəncədəki abidəsi Dövlət mükafatına layiq görülmüşdü. F. Əbdürrəhmanovun "Çoban" heykəli də Dövlət mükafatı aldı və Dövlət Tretyakov Qalereyasının daimi ekspozisiyasına daxil edildi.

Bakının mərkəzinin yenidən qurulması həmin illərdə Azərbaycan memarlarının fəaliyyətinin mühüm sahəsi idi. Hökumət evinin və V.İ. Lenin (indiki T. Bəhramov) adına Respublika stadionunun inşası başa çatdı. Mingəçevir şəhərinin layihələndirilməsinə başlandı. Daşkəsənin layihələndirilməsi və inşası böyük şəhər tikintisi tədbirinə çevrildi.

XVI FƏSİL

Azərbaycan SSR-nin inkişafında dönüş mərhələsi (1970-1985-ci illər).

Respublikanın ictimai-siyasi həyatı. Azərbaycan KP MK-nın 1969-cu il iyulun 14-də keçrilən Plenumu Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən taleyüklü hadisə idi. Plenumda Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın Birinci katibi seçildi. Heydər Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində, fəhlə ailəsində anadan olmuşdu. Naxçıvanda orta təhsil almış, Pedaqoji Texnikumu bitirmişdi. O,Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsinə qəbul olundu. Lakin İkinci Dünya müharibəsinin başlanması və SSRİ-nin bu müharibəyə qoşulması ona təhsilini davam etdirməyə imkan vermədi. təhsili yarımçıq qaldı. Heydər Əliyev 1941-ci ildən Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarlığı Sovetində şöbə müdiri, 1944-cü ildən Dövlət Təhlükəsizlik orqanlarında işləmişdi. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdi. General-mayor rütbəsinədək yüksəlmişdi. 1956-1965-ci illərdə Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsi Əks-Kəşfiyyat İdarəsinin rəisi, 1965-ci ildən bu Komitənin sədr müavini, 1967-ci ildən isə sədri olmuşdu. Azərbaycan KP MK 1969-cu il 14 iyul plenumunun qərarı ilə Azərbaycan KP MK-nın Birinci katibi seçildi.

Heydər Əliyev sovet Azərbaycanına rəhbərliyi dövründə respublikada idarəçilik sistemini xeyli möhkəmləndirdi. Rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başladı. Sovet hakimiyyəti tarixində ilk dəfə sosialist cəmiyyətində vəzifədən sui-istifadə, korrupsiya kimi mənfi hallar olduğunu və onlara qarşı mübarizənin vacibliyini cəsarətlə elan etdi və bu hallara qarşı qəti mübarizəyə başladı.H. Əliyevin SSRİ rəhbərliyində böyük nüfuzu vardı. O, 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçildi və bu vəzifənin verdiyi imkanlardan Azərbaycanın inkişafı naminə istifadə etdi.

Heydər Əliyev partiya lideri olmaqla bərabər, həm də SSRİ Ali Sovetinin deputatı, onun yuxarı palatası olan İttifaq Sovetinin sədr müavini, habelə Azərbaycan SSR Ali Sovetinin deputatı və Rəyasət Heyətinin üzvü kimi geniş dövlətçilik fəaliyyəti göstərirdi. Onun təşəbbüsü ilə SSRİ rəhbərliyi ölkənin iqtisadi inkişafı üçün böyük əhəmiyyətə malik mühüm qərarı- İttifaq fondundan Azərbaycanın xalq təsərrüfatının inkişafına külli miqdarda vəsait ayrılmasına nail oldu. Heydər Əliyevin həyata keçirdiyi siyasət nəticəsində qanunverici orqanların işi xeyli fəallaşdı, yeni komissiyalar yaradıldı, onların səmərəli işləməsi üçün qayğı göstərildi. Heydər Əliyev respublikada qanunçuluğun hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlərin təşəbbüsçüsü oldu. XX əsrin 70-80-ci illərinin əvvəllərində Azərbaycanın mülki, mülki-prosessual, cinayət-prosessual məcəllələrinə əlavələr və dəyişikliklər edildi. Azərbaycan SSR-in məhkəmə quruluşu, Nazirlər Soveti, Xalq deputatları sovetləri haqqında qanunlar, torpaq, əmək haqqında qanun məcəllələri və s. qəbul edildi.

Heydər Əliyev 1978-ci il Azərbaycan SSR Konstitusiyasını hazırlayan Konstitusiya Komissiyasının sədri kimi geniş dövlətçilik fəaliyyəti göstərdi.O,Azərbaycanın suveren hüquqlarının pozulmasına qarşı yönələn bütün cəhdlərin qarşısını vaxtında, qətiyyətlə alırdı. SSRİ-nin 1977-ci ilin oktyabrında qəbul olunmuş Konstitusiyası hazırlanarkən ermənilərin belə cəhdləri xüsusən artmışdı və yalnız Heydər Əliyevin SSRİ rəhbərliyi qarşısında qoyduğu qəti tələblər nəticəsində o vaxt Dağlıq Qarabağın statusu məsələsinə baxılmadı. Heydər Əliyev bu məsələ haqqında bildirir: "Ermənilər Dağlıq Qarabağı Azərbaycan SSR-dən ayırmaq istəyirdilər.Mən Sov İKP MK katibi B.Ponomaryovla görüşüb etiraz etdim. Lakin o, məsələyə ciddi yanaşmadı. Onda mən L.Brejnevlə söhbət etdim. L.Brejnev mənim yanımda Ponomaryova zəng edib dedi ki, bu məsələni gündəlikdən çıxartsın". Belə də oldu. Heydər Əliyevin rəhbərliyi altında fəaliyyət göstərən Konstitusiya komissiyasının hazırladığı yeni "Azərbaycan SSR Konstitusiyası" 1978-ci ilin aprelində qəbul edildi. Bu Konstitusiya mövcud olan

dar imkanlar daxilində xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirdi. Ölkə rəhbərliyinin etirazına baxmayaraq, H. Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan dili respublikada dövlət dili statusunu saxladı."Qoy ədalət zəfər çalsın!" - o zaman Heydər Əliyevin söylədiyi bu sözlər xalqın dilində şüara çevrilmişdi.

Seçkili hakimiyyət orqanları respublikanın siyasi, iqtisadi və mədəni həyatında əhəmiyyətli rol oynayırdı. Azərbaycan SSR Ali Sovetinə Süleyman Rüstəm (Azərbaycan SSR Ali Sovetinin sədri), Mustafa Topçubaşov, Fikrət Əmirov, Mikayıl Abdullayev və digər görkəmli şəxsiyyətlər deputat seçildi. SSRİ Ali Sovetində Azərbaycanı Mirzə İbrahimov, Rəşid Behbudov, Qara Qarayev, Həsən Abdullayev, Şamama Həsənova, Sərdar İmrəliyev və digər qabaqcıl elm və mədəniyyət xadimləri, əmək qabaqcılları təmsil edirdilər.

Heydər Əliyevin həyata keçirdiyi siyasi-dövlətçilik fəaliyyəti sayəsində partiya, sovet, həmkarlar ittifaqları, komsomol və digər ictimai təşkilatların diqqəti respublikanın iqtisadi, kadr, mənəvi potensialının sürətlə artmasına yönəldildi. Bunun nəticəsi idi ki, 70-ci illərdə Sovet İttifaqında əsas orta iqtisadi göstəricilərin artım sürətinin aşağı düşdüyü bir vaxtda Azərbaycanda bütün başlıca iqtisadi göstəricilər durmadan artırdı. 14 ildə respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı 2 dəfə, xalq istehlakı malları istehsalı 3 dəfə, kənd təsərrüfatında məcmu məhsul 2,7 dəfə artmış, 250-dən çox fabrik, zavod, istehsal sexləri tikilmiş,2 milyondan çox adamın mənzil şəraiti yaxşılaşdırılmışdı. 1970-1982-ci illərdə respublika 12 dəfə müxtəlif Ümumittifaq yarışlarının qalibi oldu, keçici Qırmızı Bayraqlara layiq görüldü. Oktyabr İnqilabı, Xalqlar Dostluğu, Lenin ordenləri ilə təltif edildi, Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə xalqın mənəvi dəyərlərinin öyrənilməsinə və təbliğinə diqqət artırıldı. Azərbaycan tarixinə və Azərbaycan dilinə aid qiymətli araşdırmalara yüksək Dövlət mükafatları verilməsi ziyalıları bu sahələrdə fəaliyyətlərini genişləndirməyə ruhlandırırdı. 1977-ci ildə Nizami irsinin yenidən

öyrənilməsi haqqında qərar qəbul olundu, bu sahədə səmərəli işlər görüldü. Bir zamanlar "pantürkist" kimi damğalanmış Hüseyn Cavidin cəsədinin qalıqları 1982-ci ildə İrkutsk vilayətindən gətirilib Naxçıvanda torpağa tapşırıldı. Cənubi Azərbaycanla birlik, həsrət hisslərinin ədəbi ifadəsinə geniş imkanlar açıldı.

Heydər Əliyev faşizmə qarşı mübarizədə Azərbaycan xalqının oynadığı rolun düzgün qiymətləndirilməsinə çalışırdı. O, Mehdi Hüseynzadənin Avropanın böyük antifaşist hərəkatında qəhrəmanlığının təbliğinin, haqqında əsərlər, kinofilm çəkilməsinin, ona heykəllər qoyulmasının təşəbbüsçüsü olmuşdu. 70-ci illərdə onun təşəbbüsü ilə Taqanroqda 416-cı diviziyanın böyük qələbəsinə möhtəşəm xatirə ansamblı, Sevastopolda Sapun-dağda 77-ci Azərbaycan diviziyasının şərəfinə böyük abidə ucaldılmışdı.Heydər ƏliyevBakı neftinin İkinci Dünya müharibəsindəki qələbədə oynadığı ümumdünya tarixi əhəmiyyətli rolunun SSRİ rəhbərləri tərəfindən etiraf edilməsinə nail oldu.

Milli kadr potensialının möhkəmlənməsinə diqqət artdı. Minlərlə azərbaycanlı gənc SSRİ-nin aparıcı təhsil və elm ocaqlarına göndərildi. Milli hərbi kadrlar hazırlanmasına böyük qayğı göstərildi. 1971-ci ildə respublika orta hərbi internat məktəbi təşkil edildi. 70-80-ci illərdə SSRİ-nin hərbi məktəblərində müxtəlif hərbi ixtisaslar üzrə 2000-dən çox azərbaycanlı zabit hazırlandı. Heydər Əliyevin siyasi fəaliyyəti dövründə "Gəncə" sözü yasaq edildiyi vaxt "Yeni Gəncə" rayonu yaradılmışdı. Bakı rayonlarına "Nizami" və "Nəsimi" adları verildi. Rayonlara Naxçıvanda "Babək", Yuxarı Qarabağda "Əsgəran" adlarının verilməsi, Naxçıvan MSSR-də Sədərək qəsəbəsinin salınması bu yerlərin əzəli Azərbaycan torpaqları olduğunu bir daha təsdiqləyirdi. Heydər Əliyev ilk dəfə "İran Azərbaycanı" kimi məqsədli təhrifi Cənubi Azərbaycan kimi obyektiv terminlə əvəz etdi.

Naxçıvan MSSR və DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət artırılmışdı. Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul edildi. Şəhərin tarixi abidələrinin bərpa olunmasına, yeni

binaların tikilməsinə başlanıldı. 1980-1981-ci illərdə M.P.Vaqifin qəbri üzərində böyük məqbərə ucaldıldı.

Ü.Hacıbəyovun, Bülbülün ev - muzeyləri açıldı. Natəvanın heykəli qoyuldu. Şəhərdə böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikildi. Şuşa Ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. 1973-cü ildə Stepanakertdə Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında Pedaqoji İnstitut açıldı. 1979-cu ildə Ağdamdan buraya dəmir yolu çəkildi. Heydər Əliyevin siyasəti sayəsində partiya, sovet orqanları, ictimai təşkilatlar öz işini elə qurmuşdu ki, erməni separatçıları açıq çıxışlardan çəkinirdilər. 1977-ci ildə Dağlıq Qarabağ məsələsi növbəti dəfə qaldırılsa da, qarşısı qətiyyətlə alınmışdı.

Heydər Əliyev erməni millətçilərinin niyyətini yaxşı dərk edir, sərhəd rayonlarının iqtisadi və sosial-mədəni inkişafına xüsusi əhəmiyyət verir, qayğı göstərirdi. 70-ci illərdə mərkəz ermənilərin təhriki ilə Kəlbəcər rayonunun perspektivsizliyi, buradan əhalinin köçürülməsi, torpaqlarının isə yaylaq kimi respublikalar arasında bölüşdürülməsi haqqında məsələ qaldırdı. Buna qarşı Heydər Əliyev 1977-ci ildən bu rayonun potensial imkanlarını genişləndirmək tədbirləri hazırlanmasına və həyata keçirilməsinə nail oldu. Mərkəzin, erməni millətçilərinin niyyətləri alt-üst oldu. Respublikanın ictimai-siyasi həyatında dövlət bayramlarının, tarixi günlərin, rayonlarda məhsul bayramlarının qeyd edilməsi, habelə SSRİ dövlət başçısı L.İ.Brejnevin Bakıya gəlməsi (1970,1978 və 1982-ci illərdə), xüsusən onunn1982-ci il səfəri böyük maraq doğurdu. 1982-ci il sentyabrın 24-də Sov.İKP MK Baş katibi L.İ.Brejnev Bakıya gəlir, sentyabrın 26-da Lenin sarayında (indiki Heydər Əliyev sarayı) Azərbaycan SSR-ə Lenin ordeni təqdim edərək məruzə ilə çıxış etdi. Sentyabrın 27-də Moskvaya qayıdan L.İ.Brejnev çox keçmədi ki, vəfat etdi. Əslində onu Bakıya ölməyə göndərmişdilər. Yaşlı olan SSRİ rəhbəri Bakıda ölsün ki, günahı Azərbaycanın üzərinə yıxsınlar.

Azərbaycanda müttəfiq respublikaların mədəniyyət, ədəbiyyat və incəsənət günləri, festivallar böyük maraqla həyata keçirilirdi.

Azərbaycanda siyasi həyatın sürətlə inkişafı Heydər Əliyevin şəxsiyyəti, onun idarəçilik istedadı, dövlətçilik fəaliyyəti ilə sıx bağlı idi. Bununla əlaqədar o, 1982-ci ilin dekabrında Moskvaya yüksək dövlət və partiya vəzifələrinə dəvət olundu. Sov.İKP MK Siyasi Bürosuna üzv seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi.

İqtisadi vəziyyət. 1970-1985-ci illər Azərbaycan iqtisadiyyatının keçdiyi əvvəlki inkişaf illəri ilə müqayisədə böyük yüksəliş dövrü kimi tarixə daxil olub. Həmin dövrdə Azərbaycan SSR-ə rəhbərlik etmiş H.Ə.Əliyevin yaradıcı fəaliyyəti respublika həyatının bütün sahələrində əsl dönüş mərhələsi yaratdı. Heydər Əliyev həmin dövrdə iqtisadiyyatın inkişaf məqsədlərini müəyyən etdi. Boşluqların müəyyən dərəcədə doldurulması üçün zəruri olan əlavə vəsaitin İttifaq hökumətindən alınması çox vacib idi. Heydər Əliyevin təşəbbüsü ilə İttitaq hökuməti Azərbaycanda sənayenin və kənd təsərrüfatının intensiv ınkişafı üçün beş xüsusi qərar qəbul etdi, xeyli vəsait və maddi-texniki resurslar ayrıldı. Azərbaycanda iqtisadi quruculuq fəaliyyəti 70-ci illərin ilk ilindən sürətlə başlandı. Sərmayə qoyuluşunun həcmi 1971-1985-ci illərdə 32 milyard rubl təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində cəmi istifadə edilən vəsaitdən 2,1 dəfə çox idi. Sənayenin quruluşunda ciddi dəyişikliklər baş verdi. Belə ki, sənayedə maşınqayırma kompleksinin xüsusi çəkisi 1960-cı ildəki 5,1%-dən 1985-ci ildə 16,4%-ə, kimya, neft-kimya və meşə sənaye kompleksi müvafiq qaydada 4,1-dən 8,7%-ə qalxdı. Maşınqayırmanın önəmli istiqamətləri əsasında yeni müəssisələr yaradılırdı. 60-cı illərdən başlayaraq, əsasən Sovet İttifaqının başqa ərazilərində, xüsusilə Qərbi Sibirdə yeni neft yataqlarından böyük həcmdə ucuz xammal çıxarılırdı. Yanacaq sənayesinin inkişafına lazımi qədər vəsait ayrılmaması nəticəsində respublikada 60-cı illərin ikinci yarısından neft hasilatı ildən-ilə aşağı düşməyə başladı. Lakin 80-ci illərin ikinci yarısından onun hasilat səviyyəsi sabitləşdirildi və uzun müddət 13 milyon ton həcmində saxlanıldı. Bu illərdə Azərbaycanda təbii qazın çıxarılması sahəsində uğurlar qazanıldı.

70-80-ci illərdə Azərbaycanın qazlaşdırılması demək olaar ki,başa çatdırıldı.

Azərbaycanda, onun Xəzər sektorunda karbohidrogen xammalın zəngin ehtiyatlara malik olmasına əsaslanaraq, geoloji-kəşfiyyat işlərinin həyata keçirilməsinə başlanıldı. Məhz həmin illərdə neft sənayesinin Xəzər dənizi hesabına böyük gələcəyini nəzərə alaraq, Sovet İttifaqının ümumi vəsaitindən alınan 400 milyon dollar hesabına Bakıda Dərin Dəniz Özülləri kimi çox nəhəng bir zavodun tikilməsinə başlandı. Az vaxt içərisində yerli alüminium xammalı əsasında soyuducular üçün buxarlayıcılar və başqa hazır məhsulların istehsalı təşkil edildi. Salyan plastik kütlə emalı zavodu inşa edildi. Yerli xammal əsasında respublikada bütün növ parça məhsullarının istehsal həcmi artdı. Sumqayıtda yeni qurğunun yaradılması kimya sənayesində müxtəlif məhsullar istehsalının əsasını qoydu. 70-80-ci illərdə yeni sənaye müəssisələri istifadəyə verildi. Cənubi Qafqazda ən iri elektrik stansiyası olan Mingəçevir SES, Şəmkir SES, Bakı məişət kondisionerləri zavodu, Sumqayıt kompressorlar zavodu, Salyan plastik kütlə emalı zavodu, Mingəçevir yol maşınları zavodu və rezin-texnika məmulatları zavodu, Əli Bayramlı məişət cihazları, habelə sənaye, avtomatika və telemexanika zavodları, Ağdam dəzgahqayırma və metiz-furnitur zavodları, Neftçala yeni yod-brom zavodu, Bakı və Xankəndində iri ayaqqabı fabrikləri, Gəncə xalça, qənnadı və çini-saxsı qablar fabriki, Bakı şampan zavodu, Naxçıvan trikotaj fabriki, Yevlax yun fabriki, Göyçay pambıqəyirici fabriki, onlarla yüngül yeyinti və başqa sənaye müəssisələri istifadəyə verilmişdi.

Bu müəssisələrin respublikanın müxtəlif bölgələrində yaradılması sənayenin regionlarda qeyri-bərabər yerləşdirilməsinin həllində mühüm rol oynadı. Tarixən Azərbaycanda sənayenin birtərəfli inkişafı ilə əlaqədar onun müəssisələri əsasən Abşeron (Bakı-Sumqayıt) regionunda yerləşdirildiyindən, respublikanın digər ərazilərində iqtisadiyyatın bu aparıcı sahəsinin ümumi inkişaf səviyyəsi həmişə xeyli aşağı olmuşdur. 1970-1985-ci illərdə yaradılan yeni sənaye müəssisələrinin 72%-i Bakı-Sumqayıt iqtisadi

rayonunun hüdudlarından kənarda, respublikanın başqa ərazi sahələrində istifadəyə verildi. Nəticədə Bakı-Sumqayıt iqtisadi rayonunun respublika sənaye məhsulu istehsalında xüsusi çəkisi 1970-ci ildəki 70%-dən 1985-ci ildə 50%-ə endi, qalan rayonların payı isə 41%-ə qalxdı.

Sov.İKP MK-nın 1976-cı ildə qəbul etdiyi "1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişafı üzrə Azərbaycan KP MK təkliflərinin müzakirəsinin nəticələri haqqında" qərarı, H.Ə.Əliyevin qeyd etdiyi kimi, respublikanın sosial-iqtisadi inkişafının yeni mərhələsinin başlanğıcı oldu: 15 iri kompleks işə düşdü.

Azərbaycan ölkənin ən iri elektrotexnika sənayesi mərkəzlərindən biri oldu. Respublika elektrotexnika sənayesinin flaqmanı Bakı məişət kondisionerləri zavodu idi.

Neft sənayesinin inkişafında da yeni dəyişikliklər baş verdi,yeni perspektivli sahələr açıldı. Daha dərin quyuların istismar imkanları yarandı, neftçilər ilk növbədə dənizin 84 m. dərinliyindən neft çıxaran buruqları yaratdılar. Saatlı rayonunda yer səthindən 15 km. dərinlikdə nadir quyu qazdılar. Geoloji kəşfiyyatın effektivliyi yüksəldi, 22 neft və qaz yatağı kəşf olundu. Neft mədənlərinin yarıdan çoxu avtomatlaşdırıldı. 70-ci illərdə Dərin Dəniz Özülləri hazırlayan iri zavodun tikintisinə başlanıldı. Zavod 1986-cı ildə fəaliyyətə başladı. Bu istiqamətdə yeniliyin tətbiqi nəticəsində yüksək keyfiyyətli Azərbaycan nefti əldə edildi. Lakin bir çox müəssisələrdə yeni texnologiya zəif tətbiq edilir, neft məhsullarının itkisi baş verirdi. Qazıntıda, xüsusən kəşfiyyatda hələ çatışmazlıqlar var idi. Bunun nəticəsində neft hasilatını artırmaq kimi əsas vəzifə həyata keçirilmirdi.Neft çıxarılmasının azalması prosesi bütün yanacaq kompleksinin inkişafına mənfi təsir göstərirdi. Neft emalı sahəsində 1971-ci ildən geniş miqyaslı yenidənqurma işi həyata keçrildi.

Respublikada energetika sənayesi inkişaf edirdi. Araz çayı üzərində İran İslam Respublikası ilə müştərək su-elektrik stansiyası,

Sumqayıt elektrik stansiyasının ikinci növbəsi, "Qırmızı ulduz" elektrik stansiyasında iki iri boru generatoru işə düşmüşdü.

Metallurgiya sənayesinin inkişafında müəyyən irəliləyişlər baş vermişdi. Polad istehsalı 1970-ci ildə 441min tondan 1980-ci ildə 575 min tona çatmışdı. Azərbaycan boru-prokat zavodunda II mexanikləşdirilmiş və avtomatlaşdırılmış xətlər istismara verilmiş, boru istehsalı 2,1dəfə artmışdı. Zavodun məhsullarından SSRİ-dən başqa 17 xarici ölkənin neft rayonlarında geniş istifadə olunurdu. Əlvan metallurgiya sənayesinin coğrafi sərhədləri genişləndi. 80-ci ildə bu istehsal sahəsi üzrə Bakı, Naxçıvan və Gəncədə müəssisələr yaradıldı.

Yüngül sənaye məhsulları əvvəlki illərə nisbətən artdı. Azərbaycanın yeyinti sənayesi ən sürətlə inkişaf edən sahələr sırasında idi. Yeyinti sənayesi istehsal olunan məhsulun ümumi həcminə görə Azərbaycan sənaye sahələri üzrə birinci yerdə dururdu. Lakin iqtisadiyyatın mövcud idarəetmə üsulları onun inkişafını ləngidirdi. Artıq köhnə üsullarla iqtisadiyyatı inkişaf etdirməyin mümkün olmaması əlamətləri getdikcə özünü daha çox büruzə verirdi. XX əsrin 80-ci illəində Azərbaycan sənayesini inkişaf etdirmək üçün kapital qoyuluşu 24,535 milyon manat təşkil edirdi. Lakin əsas fondların artımı yalnız 22,223 milyon manat oldu, yəni kapital qoyuluşu planı yerinə yetirilmədi. Xalq təsərrüfatının çox mühüm sahələrindən biri olan nəqliyyatın yeni tələblərə uyğun səviyyədə inkişafı zəruri idi. Azərbaycan ərazisinin şimal-qərb hissəsini Bakı-Tbilisi dəmir yolu xətti ilə birləşdirən Yevlax-Balakən (uzunluğu-162 km) dəmir yolu tikilib istifadəyə verildi. Bu yolun inşası yüklərin səmərəli daşınmasına əlverişli şərait yaratdı. Ağdam-Xankəndi, Ağstafa-İcevan və s. dəmir yol xətləri istifadəyə verildi. 70-80-ci illərin birinci yarısında dəmir yol xətlərinin uzunluğu 257 km artdı.

Nəqliyyatın digər sahələrində də dəyişikliklər baş vermişdi. 1970-ci ildə Bakı metrosunun "Ulduz" stansiyası istifadəyə verildi. 1976-cı ildə "Nizami", 1979-cu ildə "Bakmil" (Depo) stansiyaları açıldı.1985-ci il dekabrın 31-də Bakı metropolitenının ikinci

növbəsi - "Elmlər Akademiyası", "İnşaatçılar", "XI Qızıl ordu" (indiki-20 Yanvar) və "Memar Əcəmi" stansiyaları istifadəyə verildi. Bakı metro stansiyalarının sayı 16-ya, yeraltı magistralın uzunluğu 25 km-ə çatdı. 1989-cu ildə "Xalqlar dostluğu" və "Əhmədli" stansiyaları işə salındı.

Dəniz nəqliyyatı sahəsində Bakı-Krasnovodsk bərəsi ilə daşınma Qafqazın Orta Asiya, Qazaxıstan və Sibir ilə nəqliyyat əlaqələrini yaxşılaşdırdı. Qara dənizdə olan Xəzər dəniz gəmiçiliyi gəmiləri bir çox ölkələrin limanlarına ardıcıl reyslər edirdilər. 1985-ci ildə Xəzərdə yeni bərə keçidi açıldı. Bu bərə Azərbaycanı Qazaxıstanla birləşdirdi. 80-ci illərin birinci yarısında Xəzər dəniz gəmiçiliyində donanmanın 1/3 hissəsi təzələndi.

Respublika iqtisadiyyatında mülki aviasiya mühüm rol oynayırdı. 70-ci illərdə Naxçıvan, Xankəndi, Balakən və Zaqatalada uçuş-enmə zolaqları yaradıldı. 1974-cü ildə Naxçıvanda hava limanı tikildi. 70-ci illərin birinci yarısında Bakı təyyarə limanı yenidən quruldu, təyyarə parkı təzələndi. Poçt rabitəsi sürətlə inkişaf edirdi. Müəssisələrin teleqraf və telefonlarının sayı artdı. Kənd təsərrüfatının intensivləşdirilmə əsasında inkişaf xətti müəyyənləşdirildi. Respublikada çoxlu su təsərrüfatı qurğusu yaradıldı və kanallar çəkildi. 70-80-ci illərdə bir çox hidrotexniki komplekslər və dəryaçalar, o cümlədən Tərtərçay və Yuxarı Xanbulançay su təsərrüfatı kompleksləri, Araz, Şamxor, Arpaçay, Aşağı Köndələnçay dəryaçaları, Baş Mil, Lənkəran kanalları, Yuxarı Şirvan kanalının Ağsu qolu və başqa obyektlər istifadəyə verildi. Kənd təsərrüfatı bitkilərinin becərilməsində ixtisaslaşmaya diqqət yetirildi. Lakin ixtisaslaşmadakı qüsurlara, yerli şəraitin düzgün qiymətləndirilməməsinə laqeyd münasibət mövcud idi. Kənd təsərrüfatının idarə edilməsinin daha mütərəqqi forma və metodları axtarılırdı. 1982-ci ildən rayon aqrar-sənaye birlikləri yaradılmağa başlandı. Aqrosənaye kompleksi tədricən təşkilatca formalaşdı, 1985-ci ilin sonlarında isə başa çatdırıldı.

1970-ci ildən etibarən Azərbaycanda pambıqçılığın mühüm yüksəliş dövrü, böyük kapital qoyuluşu hesabına sahə üzrə güclü

və müasir istehsal-emal potensialı yaradılmağa başlandı. Nəticədə 1985-ci ildə pambıq istehsalının həcmi 787,8 min tona, məhsuldarlıq isə 26,7 sentnerə çatdırıldı. Ümumi illik istehsal gücü 1.200 min ton olan müasir emal sənayesi kompleksi yaradıldı.

Üzümçülüyün iqtisadi zonalar üzrə ixtisaslaşdırılması, üzümçülük sahələrinin genişləndirilməsi prosesi getdikcə güclənmiş və nəticədə bu sahənin xüsusi çəkisi artmışdı. Cəlilabad, Şamxor (Şəmkir), Xanlar, Naxçıvan MSSR kimi iri üzümçülük rayonları meydana gəlmişdi.Respublikada hazırlanan şərablar, konyaklar İtaliya, Fransa, Yuqoslaviya sərgilərində qızıl və gümüş medallara layiq görülmüşdü.

M.Qorbaçovun təbliğat maşını L.Brejnevin dövrünü zastoy (durğunluq) adlandırırdı. Əslində bu həqiqətə o qədər də uyğun deyildi. Çünki onun dövründə SSRİ-nin inkişafı bir qədər zəifləsə də, bu ifadə Azərbaycana ümumiyyətlə uyğun deyil. Çünki həmin dövr Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda sosial-iqtisadi inkişaf dövrü idi. Əsil durğunluq isə M.Qorbaçovun hakimiyyəti dövründə baş verdi.

Əhalinin rifahı və məişəti. Mədəniyyət. Respublikanın iqtisadi yüksəlişi xalqın rifahının yaxşılaşmasına şərait yaratdı. Fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 70-ci illərdə 1,4 dəfə, 80-ci illərdə 1,3 dəfə, kolxozçuların orta aylıq əmək haqqı isə müvafiq surətdə 2 və 1,5 dəfə artmışdı. Qocalara, əlillərə, əmək qabiliyyətini müvəqqəti itirənlərə, əmək və müharibə veteranlarına maddi yardım artırıldı. SSRİ Nazirlər Sovetinin "Hamiləlik, doğum və xəstə uşağa xidmət üçün müavinət təminatının yaxşılaşdırılması haqqında" (1973-cü il 26 iyun) qərarına əsasən qadınlara hamiləliyə və doğuma görə iş stajından asılı olmayaraq əmək haqqının 100% ödənilməsinə, "Aztəminatlı uşaqlı ailələrə maddi köməyin daha da yaxşılaşdırılması haqqında" 1974-cü il 12 sentyabr tarixli qərarına əsasən 1974-cü il noyabrın 1-dək ümumi gəliri ailənin hər üzvü hesabından ayda 50 manatdan az olan ailələrə 8 yaşa qədər uşaqların hər birinə 12 manat müavinət verilməsinə başlandı. Bununla belə əhalinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatı tam

ödənilmirdi. Ət, balıq, kürü, süd, meyvə, hətta üzüm, tərəvəz üzrə istehlak səviyyəsi müəyyən edilmiş normalara qalxmırdı. 80-ci illərin əvvəllərində respublikanın şəhərlərində ət, yağ, sonlarında isə şəkər talonlarla verilməyə başlanmışdı. Bazar durmadan bahalaşır, inflyasiya, qıtlıq artırdı. 70-80-ci illərdə qeyri-ərzaq mallarının qiymətləri dəfələrlə qaldırılmışdı.

Bakıda yeni mikrorayonlar: Əhmədli, Günəşli, Yeni Serebrovski(Qaraçuxur), Badamdar yaşayış massivləri salınmışdı. Paytaxtın abadlaşdırılmasında və tikintisində Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Ə.C.Ləmbəranskinin böyük xidməti olmuşdu. Dənizkənarı park yenidən qurulmuş, ərazisində "Bakı Venetsiyası" adlanan uşaq şəhərciyi, şəhərin mərkəzi hissəsində Fəvvarələr meydanı yaradılmışdı. 70-ci illərdə Bakı Dəniz vağzalı, Respublika Sarayı, Moskva, İnturist, Abşeron mehmanxanaları,Respublika velotreki tikildi. Azadlıq meydanının memarlıq ansamblı yaradıldı. 80-ci illərdə Gülüstan sarayı tikildi. Dövlət Filarmoniyasının binası əsaslı təmir olundu. Bakı, Gəncə və Sumqayıtda yaşıllıqların sahəsi artdı. 70-ci illər Azərbaycanın mədəni və mənəvi həyatında mühüm irəliləmələr dövrü olmuşdur. 70-ci illər illərdə Azərbaycanda ali təhsil inkişaf etdi. Yeni ali təhsil ocaqları fəaliyyətə başladı. 1971-ci ildə Pedaqoji Dillər İnstitutu bazasında Rus dili və Ədəbiyyatı (Bakı Slavyan Universiteti) və Pedaqoji Xarici Dillər İnstitutları (Azərbaycan Dillər Universiteti) meydana gəldi. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialları əsasında 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Xankəndi Pedaqoji İnstitutları, 1976-cı ildə İnşaat Mühəndisləri İnstitutu, 1981-ci ildə Gəncə Texnologiya İnstitutu yarandı. SSRİ-nin mərkəzi ali məktəblərində Azərbaycan üçün kadrlar hazırlanırdı. Əvvəllər hər il cəmi 40-50 nəfər gənc SSRİ-nin qabaqcıl ali məktəblərinə müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilirdi. 70-80-ci illərdə bu iş daha da genişləndi. SSRİ-nin 50-dən çox şəhərində 17 mindən çox mütəxəssis kadr hazırlanmışdı.

Məktəblərdə tədrisin məzmununda müəyyən dəyişikliklər baş verdi. Orta məktəblərdə 1975/76-cı tədris ilindən dövlət və hüququn əsasları tədris olunmağa başlandı. 1974-cü ildə "Azərbaycan tarixi"nin tədrisi 60 saata qaldırıldı. Ali məktəblərdə kommunizm məsələləri, partiya tarixi, marksist fəlsəfə və siyasi iqtisadın tədrisinə diqqət artırıldı. Əvvəllər olduğu kimi, yenə də "SSRİ tarixi" adı altında əsasən Rusiyanın tarixi təqdim edilirdi. 70-80-ci illərdə Respublikada 87 yeni muzey - Azərbaycan xalçası və tətbiqi sənət muzeyi, Sergey Yeseninin xatirə muzeyi, Bakıda Ü.Hacıbəyovun və S.Vurğunun, Naxçıvanda H.Cavidin, Bakıda C.Cabbarlının, Bülbülün ev muzeyləri, onlarla yeni tarix-diyarşünaslıq muzeyləri təşkil olunmuşdu. Azərbaycan tarixi muzeyinin fondları getdikcə zənginləşir, ekspozisiyası təzələnirdi. 1976-1988-ci illərdə Azərbaycan xalqının tarixində ilk 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası" çapdan çıxdı. Bu, respublikanın ictimai-siyasi və mədəni həyatında əlamətdar bir hadisə idi, çünki sovet dövründə 4 dəfə (1934, 1938, 1959 və 1965-ci ildə) Azərbaycan ensiklopediyası nəşr etmək təşəbbüsü olmuş, əfsuslar olsun ki, heç biri baş tutmamışdı. 5-ci cəhd Heydər Əliyevin rəhbərliyi sayəsində uğurla nəticələndi. Heydər Əliyevin təşəbbüsü ilə 1975-ci il oktyabrında Azərbaycan KP MK "Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyasının işində ciddi nöqsanlar haqqında" qərar qəbul etdi. Azərbaycan KP MK "ASE-nin Baş redaksiyasının və elmi-redaksiya şurasının yeni tərkibi" haqqında yeni qərar verildi. Akademik Cəmil Quliyev Baş redaktor təyin olundu. ASE-nin tirajı 50 min nəzərdə tutulmuşdu. Lakin Heydər Əliyevin təşəbbüsü ilə 80 min tirajla çap olundu.

Din açıqca sıxışdırıldığından əhalinin çoxu ona gizlincə riayət edirdi. İdeoloji aparatın ateist təbliğatı səmərə vermirdi, xalq milli ənənələrini qoruyub saxlamağa çalışırdı. Dini bayram və mərasimlər yarımleqal şəkildə qeyd olunurdu. Respublikadakı 100-dən çox müqəddəs pir və ocaqdan 25-i, o cümlədən "Mir Möhsün ağa", "Əliayağı" (Bakı), "İmamzadə" (Babək), "Soltan xalac" (Quba) və başqaları əsasən yaşlı və xəstə adamlar tərəfindən fəal

ziyarət olunurdu. Azərbaycanda 40-dan çox qeydə alınmamış müsəlman, habelə digər dini birliklər vardı. 30-dan çox müsəlman dini birliyi isə ancaq məhərrəmlik vaxtı 50 gün ərzində fəaliyyət göstərirdi. Dini birlikləri nəzarət altında saxlamaq üçün Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1976-cı il 13 sentyabrda "Azərbaycan SSR-də dini birliklər haqqında Əsasnamə" qəbul etdi. Dini birliklərin bir neçəsi rəsmi məscidə çevrilə bildi, qalanları isə fəaliyyətini dayandırmalı oldu.

70-80-ci illər Azərbaycan elminin inkişafında mühüm dövr kimi səciyyələndi.1972-ci ildən Azərbaycan Elmlər Akademiyasının Naxçıvanda Elmi Mərkəzi fəaliyyətə başladı. 1975-ci ildən "Xəzər" Elmi Mərkəzində respublikanın təbii ehtiyatlarının kosmik tədqiqi aparılırdı. 1978-ci ildə Bakıda Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyi fəaliyyətə başladı. Elmin inkişafı sahəsində ali təhsil müəssisələri mühüm rol oynayırdı. Geologiya-mineralogiya elmləri doktoru Fərman Salmanovun rəhbərliyi altında Qərbi Sibirin neft və qaz yataqları kəşf olunmuşdu. Təkcə Tümen vilayətində F.Salmanov 20-dən çox neft yatağı kəşf etmişdi. Azərbaycan geofizikləri Xəzər dənizinin İrana məxsus şelfində qonşu dövlətin xahişinə əsasən 44perspektivli neftli-qazlı struktur aşkar etmişdilər. Azərbaycan neft kimyaçıları ölkədə ilk dəfə qaynar layda baş verən prosesləri öyrənmiş, onlara əsaslanan texnologiyalar üzrə işləyən qurğular hazırlamışlar. Azərbaycan astronomlarının elmi işləri bütün dünyada tanınırdı. Beynəlxalq Astronomiya İttifaqının qərarı ilə görkəmli astronom Nadir İbrahimovun şərəfinə Mars planeti kraterlərindən birinə "İbrahimov krateri", üç asteroidə "Azərbaycan", "Nizami Gəncəvi" va "ŞAR" (Şamaxı Astrofizika Rəsədxanası) adı verilmişdi. Humanitar-ictimai elmlər sahəsində də mühüm nailiyyətlər əldə edilmişdi. Ziya Bünyadov, Cəmil Quliyev, İqrar Əliyev, Sara Aşurbəyli, Teymur Bünyadov, Tofiq Köçərli, Qaraş Mədətov, Mahmud İsmayılov və digərlərinin tədqiqat işləri xalqın mənəvi sərvətinə çevrilmişdi. Azərbaycanda pedaqogika elminin inkişafında və xalq maarifinin təşkilində

görkəmli alim, SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü Mehdi Mehdizadə böyük rol oynamışdı. O, Yunesko xətti ilə inkişaf etməkdə olan ölkələrdə təhsilin inkişafı planının hazırlanmasında fəal iştirak etmişdi. 70-ci illərdə respublika ərazisindəki maddi-mədəniyyət abidələri yenidən qeydə alındı, onların tədqiqinə, mühafizəsinə və səmərəli istifadə olunmasına diqqət artırıldı. Lakin ictimai elmlərin inkişafına hakim ideologiyanın təzyiqi ciddi təsir göstərirdi. Xüsusən Azərbaycan tarixi, ədəbiyyatı, incəsənətinin sovet dövrü birtərəfli öyrənilir, mövcud ziddiyyətlər və onların kökü, ictimai quruluşun qüsurları ilə bağlı səbəblər açıqlanmırdı.70-80-ci illərdə Azərbaycan ədəbiyyatının inkişafında Mirvarid Dilbazi, Nigar Rəfibəyli, İslam Səfərli, Nəbi Xəzri, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Qabil və başqalarının yaradıcılığı o dövrdə ən yaxşı nümunələrdəndi. Xəlil Rza, Məmməd Araz, Fikrət Qoca və digərlərinin yaratdığı əsərlər ədəbiyyatımızı daha da zənginləşdirirdi. Süleyman Rəhimovun "Ana abidəsi", "Qafqaz qartalı", "Qoşqar qızı", İlyas Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı", Əzizə Cəfərzadənin "Aləmdə səsim var mənim", "Bakı-1501", İsa Hüseynovun "Nəsimi" romanları, Ələviyyə Babayevanın "Adamlar və talelər" əsəri oxucular tərəfindən böyük maraqla qarşılanmışdır. Anarın "Ağ liman", "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərlərində mühüm mənəvi-əxlaqi problemlər qaldırılmışdı. Xalqda milli şüurun oyanmasında Cənubi Azərbaycan mövzusunda yazılmış əsərlərin xüsusi əhəmiyyəti vardı. M.İbrahimovun "Pərvanə" romanı, "Cənub hekayələri" silsiləsi maraqla qarşılanmışdı. Respublikada musiqi, ifaçılıq, teatr və kino sənəti sahəsində də mühüm irəliləmələr baş vermişdi.Fikrət Əmirovun "1001 gecə", Aqşin Əlizadənin "Babək" baletləri musiqi sənətinin ən mühüm nailiyyətləri idi. Arif Məlikov, Xəyyam Mirzəzadə və b. simfonik musiqinin inkişafında mühüm rol oynadı. Şəfiqə Axundovanın "Gəlin qayası" operası (1972), Emin Sabitoğlunun "Hicran" musiqili komediyası tamaşaçılar tərəfindən maraqla qarşılandı. Tofiq Quliyev, Süleyman Ələsgərov, Vasif Adıgözəlov, Emin Sabitoğlu, Polad

Bülbüloğlu, Elza İbrahimova, Cavanşir Quliyev, Ələkbər Tağıyev, Oqtay Rəcəbov və başqalarının mahnıları xalqın rəğbətini qazandı.

Rəşid Behbudov, Müslüm Maqomayev (nəvə), Zeynəb Xanlarova, Firəngiz Əhmədova, Lütfiyar İmanov, Fidan və Xuraman Qasımovalar, Rauf Atakişiyev, Rübabə Muradova, Fərhad Bədəlbəyli, Vaqif Mustafazadə, Habil Əliyev, Həbib Bayramov, Hacı Məmmədov, Ramiz Quliyevin ifaçılıq sənəti özünəməxsus zəngin koloriti və təkrarsızlığı ilə seçilirdi.

Azərbaycan səhnəsinə Həsən Turabov, Amaliya Pənahova, Səməndər Rzayev, Fuad Poladov, Səyavuş Aslan, Yaşar Nuri, Hacıbaba Bağırov, Arif Quliyev, Hamlet Xanızadə, Əliabbas Qədirov, Mikayıl Mirzə və başqalarının təmsil etdiyi yeni, istedadlı bir nəsil gəlmişdi. Azərbaycan memarlığı daha çox tərəqqi etmişdi. Bakıda "Bakı", "Moskva", "Azərbaycan", "Qarabağ", "Abşeron" mehmanxanaları, "Respublika" (Heydər Əliyev adına saray) sarayı, "Gülüstan" sarayı, Gəncədə "Kəpəz", Şəkidə "Şəki", Şuşada "Şuşa" mehmanxanaları tikilmişdi. Bakı metropoliteninin "Nizami", "Əcəmi" stansiyaları uğurlu layihələr əsasında inşa olunmuşdu. Beləliklə, XX əsrin 70-80-ci illəri Azərbaycan mədəniyyətinin inkişafında mühüm dövr oldu. Heydər Əliyevin milli oyanış siyasəti sayəsində təhsil, elm, mətbuat, ədəbiyyatın tərəqqisi üçün münasib imkanlar açıldı. Xalqın mədəni irsinin, tarixinin, dilinin öyrənilməsi və təbliği genişləndi

XVII FƏSİL
Respublikanın sosial-siyasi həyatı (XX əsrin 80-ci illərinin ortaları -90-cı illərin əvvəli).

Yenidənqurma və Azərbaycan-Ermənistan münasibətlərinin kəskinləşməsi. 80-ci illərin ortalarında sovet ölkəsinin ictimai-siyasi, iqtisadi və mənəvi həyatında böhran yaranmışdı. Böhranlı vəziyyətin simptomları hələ 70-ci illərin ortalarından görünürdü, elmi-texniki tərəqqi ləngiyirdi, sənayedə avadanlığın mənəvi aşınması, infrastrukturun zəifliyi, təbii ehtiyatlar hasilatının çətinləşməsi və bahalaşması, maddi ehtiyatlar qıtlığının meydana gəlməsi təzahür edirdi. Əmək məhsuldarlığının orta illik artımı 1965-1970-ci illərdəki 5,2%-ə qarşı 1981-1985-ci illərdə cəmi 3% təşkil edirdi.

Böhrana əsas səbəb sosialist cəmiyyətini idarə edə biləcək keyfiyyətlərə sahib liderə malik olmaması idi. 1985-ci ildən sovet imperiyasına rəhbərlik edən Sov.İKP MK-nın Baş katibi M.S.Qorbaçov isə qurmağa yox, dağıtmağa çalışırdı. 60-cı illərdə ölkədə keçrilən islahatlar iflasa uğradı. Çünki faktiki olaraq köhnə ictimai-siyasi rejim toxunulmaz qalmışdı.

Partiya amirliyi gücləndikcə, bu təşkilatda mənəvi çürümə prosesi sürətlənirdi. Partiya özünə sosial dayaq yaratmaq üçün xalqları, cəmiyyəti, kollektivləri, təşkilatları parçalayırdı.

Sovet İttifaqının iflası xarici səbəblərlə də şərtlənirdi. Qərbdə "Bəla imperiyası" kimi damğalanan bu "super" dövlət iki sistem - kapitalist və sosialist sistemləri arasında çox böyük çətinliklə hərbi paritet yaratmağa nail olmuşdu. Lakin dünyanın demokratik dövlətləri ona qarşı qüvvələrini birləşdirirdilər. Ümumdünya antikommunizm liqasının fəaliyyəti genişlənmişdi. Beynəlxalq müsəlman dini mərkəzləri də bu liqaya qoşulmuşdu. Ümumdünya "İslam Liqası" 1976-cı ildə kommunizmə qarşı müqəddəs müharibə elan etmişdi. 70-ci illərin sonlarında təşkil olunmuş İslam İnternasionalı da SSRİ-də müsəlman antikommunist və antisovet qüvvələri birləşdirmək uğrunda mübarizə aparırdı.

70-ci illərin ortalarında SSRİ Şərqi Avropada orta mənzilli raketlər yerləşdirdi ki, bu da mövcud strateji tarazlığı pozurdu. 1979-cu ilin dekabrında sovet ordusu Əfqanıstana soxuldu. Nəticədə sovet təhlükəsinə qarşı demokratik ölkələr tərəfindən yeni hərbi proqramlar hazırlandı. İqtisadi sanksiyalar tətbiq edildi. ABŞ SSRİ-yə taxıl ixracını dayandırdı. SSRİ-nin isə bu tədbirlərə, xüsusən külli miqdarda vəsait tələb edən yeni proqramlara cavab verməyə imkanı yox idi.

Dünya dövlətlərinin mövcud satış və xammal bazarlarını, tranzit imkanlarını yeni real qüvvələrə müvafiq yenidən bölüşdürmək cəhdləri də SSRİ-nin iflasını sürətləndirirdi. Onu növbəti böhranlı vəziyyətdən qurtarmaq üçün 80-ci illərin ikinci yarısında cəhdlər göstərildi. M.Qorbaçov MK-nın 1985-ci il Aprel plenumunda iqtisadi və sosial-mədəni tərəqqinin "sürətləndirmə konsepsiyası"nı irəli atdı. Elmi-texniki tərəqqini, istehsal münasibətlərini təkmilləşdirmək, insan amilinin rolunu yüksəltmək üçün sözdə təşəbbüslər edildi. Əməyin təşkili, kooperasiyanı inkişaf etdirmək, müxtəlif mülkiyyət formalarına əsaslanan təsərrüfatlara bərabər imkanlar yaratmaq haqqında qanun və qərarlar qəbul olundu. Lakin onların işləməsi üçün münasib şərait yaranmadı. Əvvəlki direktiv aktlar kimi, bu qanun və qərarlar da gözlənilən nəticəni vermədi. Təkpartiyalı siyasi sistem, partiya amirliyi ləğv olunmadan, respublikaların suveren hüquqlarını özlərinə qaytarmadan iqtisadiyyatı dirçəltmək mümkün deyildi.Sov.İKP MK-nın 1987-ci il Yanvar plenumunda yeni siyasi xətt - "aşkarlıq və demokratiya xətti"inin qəbul edilməsinə nail oldular. Stalinizm, 20-30-cu illərin partiya liderlərinə qarşı terror, sosializm quruculuğunun "Lenin prinsipləri"ndən sapınmalar ciddi tənqid olundu. Partiyanın totalitar idarəçilik metodları, insanları mütiləşdirmək, robotlaşdırmaq siyasəti ifşa olundu. 1988-ci ildə M.Qorbaçov SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsini ələ keçirdikdən sonra partiya amirliyinə qarşı daha ciddi addımlar atmağa başladı. Lakin partokratların müqavimətini qırmaq mümkün olmadı, yenə də rəhbər kadrlar partiya nomenklaturasında saxlanıldı. 1989-cu ildə ilk

dəfə çoxmandatlı sistem əsasında SSRİ xalq deputatları seçkiləri təşkil olundu və təbii ki, deputat mandatlarının çoxunu partokratlar aldı. İqtisadi sahədə "yenidənqurma" mühafizəkarların ciddi müqaviməti nəticəsində baş tutmurdu. Mühafizəkarlar təsərrüfata rəhbərlikdə köhnə, qeyri-iqtisadi metodlardan əl çəkməyə imkan vermirdilər.

"Yenidənqurma" iqtisadiyyata ciddi zərbə vurdu, cəmiyyəti siyasiləşdirdi, Kommunist Partiyasının nüfuzunu sarsıtdı və imperiyanı dərin böhrana saldı. Respublikalar arasında konfliktlər, münaqişələr sərtləşdi. Türkdilli xalqların Türkiyə Respublikasına təbii meyli şovinistlər tərəfindən təhlükə kimi qiymətləndirilirdi.

Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini kimi ciddi çətinliklər qarşısında qalmış ölkəni ən yaxşı idarə edə biləcək şəxs hesab edilirdi. Sov.İKP MK-nın Baş katibi Çernenkodan sonra ikinci şəxsin kim olacağı barədə Siyasi Büroda müzakirələr gedərkən (bu vaxt Heydər Əliyev Suriyada uzun sürən ezamiyyətdə idi) büro üzvlərinin bəziləri istəyirdi ki, bu şəxs Heydər Əliyev olsun. Lakin şovinist rus millətçiliyi buna yol verə bilməzdi. SSRİ-nin görkəmli dövlət xadimi A.Qromıkonun qeyd etdiyi kimi, yalnız milliyyətinə görə gözəl təşkilatçı, təmiz və abırlı adam olan Heydər Əliyevin Sov.İKP MK Baş katibi vəzifəsinə namizədliyi istisna edilmişdi. Heydər Əliyev qeyd edirdi ki, azərbaycanlılara, müsəlmanlara ölkədə dördüncü, beşinci təbəqə kimi baxırdılar. O bildirirdi ki, Qorbaçovun ən qabarıq xüsusiyyəti müsəlman, türk dünyasına qarşı olan düşmənçiliyi idi.

Qorbaçovun rəhbərliyi dövründə mərkəzi və yerli mətbuat qəsdən Azərbaycan SSR-də 70-ci illərdə iqtisadi və mədəni sahələrdə əldə edilmiş mühüm nailiyyətləri qərəzli, məqsədyönlü şəkildə riyakarcasına danır, xalqa qara yaxırdı.Moskvada işləyən Heydər Əliyev yenidənqurmanın metodlarına: milli münaqişələrə səbəb ola biləcək düşünülməmiş dövlət siyasətinə, xüsusən türk respublikalarına qarşı qərəzli siyasətə kəskin etirazını bildirirdi. Belə bir şəxsiyyətin yüksək vəzifələrdə olması, xalqa dayaq

durması imperiyanın planlarını poza bilərdi. Buna görə də M.Qorbaçovun sonralar etiraf etdiyi kimi, Heydər Əliyevin yenidənqurma,demokratikləşmə prosesini ürəkdən bəyənməsinə, Siyasi Büronun fəal üzvü olmasına baxmayaraq, 1987-ci ilin oktyabrında o, idarəçilikdən uzaqlaşdırıldı, hətta xalqın gözündən düşməsi üçün böhtançı təbliğat obyektinə çevrildi. Sov.İKP MK katibi V.Liqaçov Bakıya göndərildi. O, Baş katibin adından Azərbaycan KP MK-nın İkinci katibi V.Konovalova tapşırdı ki, Heydər Əliyevin Birinci katib işlədiyi bütün dövr ərzində onun fəaliyyətinin yoxlanılması üçün komissiya yaratsın. Moskva ənənəvi "parçala, hökm et" siyasətindən daha geniş istifadə etdi, milli münaqişələri qızışdırdı, xalqlar arasında qanlı nifaq saldı. İmperiyanın müxtəlif bölgələrində milli münaqişə ocaqları alovlandırıldı. Xalq arasında demokratik ideyalar yayılırdı. Bundan narahat olan mərkəz mühüm geosiyasi dəyəri olan Azərbaycanı və bütün Cənubi Qafqazı əldə saxlamaq üçün yenidən uydurma "Dağlıq Qarabağ problemi"ni qızışdırdı. 1975-ci ildə Beyrutda özünü Akopyan kimi təqdim edən marksist dünyagörüşlü bir Suriya ermənisinin başçılığı ilə "Ermənistanı azad etmək üçün gizli ordu" - ASALA təşkil edilmişdi. O, sovet dövlətinin nəzarəti altında olan Fələstin Azadlıq Təşkilatının bazasında təlim keçən terrorçu bir təşkilat idi. Onunla yanaşı, "Erməni inqilabı ordusu" və digər təşkilatlar da bu istiqamətdə fəaliyyət göstərirdilər. Erməni terrorçuları 1975-cı ildən başlayaraq dünyanın diqqətini yenidən "erməni məsələsi"nə cəlb etmək üçün 50 nəfərdən çox Türkiyə vətəndaşını, əsasən diplomatları qətlə yetirdilər. Özünü əsas zərbə qrupu hesab edən Amerika erməni təşkilatı müxtəlif beynəlxalq forumlarda terrorçuların siyasi tələblərini elan etməyə başladı. Erməni təşkilatları açıq bildirdilər ki, məqsəd Türkiyəyə "erməni genosidi" faktını etiraf etdirmək, onun ərazisində erməni dövləti yaratmaq, bu dövlətlə Ermənistan SSR-ni birləşdirmək, ona Naxçıvan, Axalkalak və Dağlıq Qarabağı daxil etməkdir.

80-ci illərin ikinci yarısında erməni amilindən "Bəla imperiyası"nı dağıtmaq istəyən dövlətlər də geniş bəhrələnməyə

çalışdı. "Erməni genosidi" faktı 1987-ci il iyulun 18-də Avropa parlamenti tərəfindən tanındı. “Erməni genosidi" qurbanlarına xatirə günü təsis edildi Həm Rusiya, həm də Avropa tərəfindən himayə olunduqlarını görən erməni millətçiləri "Böyük Ermənistan" dövləti yaratmaq kimi sərsəm xülyanı reallaşdırmaq cəhdlərini yenidən fəallaşdırdılar. Ermənilərin tələbi ilə 1984-cü ilin oktyabrında Azərbaycanın Qazax və Gədəbəy rayonlarından 1000 hektarlarla ərazi Ermənistana verildi (bu barədə protokolu Moskvanın təzyiqi ilə Azərbaycan Ali Soveti hələ 1938-ci il mayın 2-də təsdiq etmişdi). Azərbaycanın qanunverici orqanı bu bədnam qərarı 1969-cu il mayın 7-də təsdiq etmişdi. Lakin az sonra hakimiyyətə gəlmiş Heydər Əliyev onun icrasına yol verməmişdi. Torpaqların Ermənistana verilməsi xalqda narazılıq yaratmışdı. Hətta Kəmərli, Abasbəyli, Qaymaqlı, Şıxlı, Yuxarı Salahlı, Əskipara, Sofulu, Barxudarlı, Tatlı, Musagöy kəndlərindən 5 min hektar torpaq sahəsinin Ermənistana verilməsi ilə əlaqədar Qazax rayonunun camaatı onu sakitləşdirməyə gəlmiş Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavinini qovmuşdu. Xalqın etiraz çıxışları hərbçilərin köməyi ilə yatırıldı. Erməni təxribatçıları Bakıda yeni təmir olunmuş Opera və Balet Teatrı binasını yandırdılar, şəhər nəqliyyatında partlayışlar törətdilər. Günahkarlar tapılıb cəzalandırıldı, erməni terrorçularının Bakı və Sumqayıtın iri zavodlarında partlayış törətmək planları aşkar olunub zərərsizləşdirildi. Milli münaqişə getdikcə alovlanırdı.

1985-ci ildə Daşnak partiyasının Afinada keçirilmiş XXIII qurultayı ermənilər "Böyük Ermənistan" uğrunda mübarizəni yenidən genişləndirmək üçün yaranmış əlverişli şəraitdən səmərəli istifadə etməyə çağırdı. Antitürk təbliğatı və terrora səfərbərlik daha da güclənmişdi. 1986-cı ildən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni milli separatçılıq təbliğatı açıq və geniş xarakter almışdı. Moskva rəsmilərində antitürk əhvali-ruhiyyənin formalaşmasına Qorbaçovun yaxın əhatəsində olan şahnazaryanlar, aqanbekyanlar mühüm təsir göstərirdi.

Kütləvi informasiya vasitələrində açıq-aşkar eyhamlar

vurulurdu ki, Qorbaçovun xanımı Parisdə əntiq əşyalar satan imkanlı ermənilərlə əlaqə saxlayır və onların diqqətindən məmnun qalmışdır. Lakin verilən vədi yerinə yetirmək müşkül iş idi. Az sonra Yerevanda bəxşişlərin geri qaytarılması tələbi ilə mitinqlər keçrilməyə başlanmışdı. Zori Balayan, Ulubabyan, S.Kaputikyan və başqalarının tarixi saxtalaşdıran, azərbaycanlıları təhqir edən qızışdırıcı əsərləri milli münaqişənin alovlanmasında mühüm oynayırdı. Balayanın "İki od arasında", "Qəza", "Ocaq" kitabları "əzabkeş xalqa" daha emosional təsir göstərmişdi. "Qarabağ" komitəsinin fəaliyyəti genişlənmişdi. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi vacibliyini sübut etmək niyyəti ilə Ermənistandan dünyanın 30-dan çox dövlətinə və beynəlxalq təşkilatlara müraciətnamələr göndərildi.

1987-ci ilin oktyabr ayında Heydər Əliyevin SSRİ rəhbərliyində tutduğu yüksək vəzifədən uzaqlaşdırılması ermənilərin öz niyyətlərini reallaşdırmaq ümidini artırdı. 1987-ci ilin oktyabrında Yerevanın Puşkin meydanında "Qarabağ" komitəsinin ilk açıq mitinqi keçirildi. Rəsmi Moskva 1987-ci ilin noyabrında akademik Abel Aqanbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini, qeyri-rəsmi olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. A.Aqanbekyan "Humanite" qəzetinin 1987-ci il 18 noyabr tarixli müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğun olmasını və bu barədə dövlət başçısına təklif verdiyini bildirdi.

Moskvada ermənilərin "Milli müqəddəratı müstəqil təyin edilməsi birliyi" və "Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi" də bu istiqamətdə fəal iş aparırdı. "Qarabağ" komitəsinin Azərbaycanda, xüsusən Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı "Krunk" adı altında açıq mübarizəyə başlamışdı. "Miatsum" (birləşmə) hərəkatı genişlənirdi. 1988-ci il martın 2-də "DQMV-nin Ermənistanla yenidən birləşdirilməsi uğrunda mübarizə komitəsi" - iri müəssisə rəhbərlərini birləşdirən 55-lər komitəsi yaradılmışdı. Dünyada baş verən dəyişiklikləri vaxtında və düzgün qiymətləndirmək əvəzinə

Azərbaycan rəhbərliyi bağışlanılmaz bir passivlik, laqeydlik nümayiş etdirdi. Başsız qalmış xalqın kortəbii etiraz hərəkatları səmərəli nəticə vermirdi.

1988-ci ildə Ermənistan SSR ərazisindən, öz dədə-baba yurdundan - 185 kənddən və başqa yaşayış məntəqələrindən 230 min azərbaycanlı qovuldu, onlara məxsus ev, şəxsi təsərrüfat, kolxoz və sovxozun əmlakı talandı, 214 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi. Ermənistanın Qafan və Mehri rayonlarından bu cinayətkarların vəhşi əməllərindən yaxa qurtaran ilk qaçqınlar 1988-ci il yanvarın 25-də Azərbaycana pənah gətirdilər.

1988-ci il fevralın 12-də Yerevanda böyük antitürk mitinqi keçirildi. "Ermənistanı türklərdən təmizləməli", "Ermənistanda ermənilər yaşamalıdır!" və başqa millətçi şüarlar səslənirdi. Fevralın 21-də erməni vandalları Yerevanda qalmış son məscidə hücum edib onu dağıtdılar. Azərbaycan aşıq sənətinin dahisi Ələsgərin qəbri təhqir edildi. Böyük şair Səməd Vurğunun abidəsi uçuruldu. Azərbaycanlılara qarşı terror 1988-ci ilin əvvəllərində Vedibasarda xüsusən genişləndi.

Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətindəki ermənilər bundan ruhlanaraq fəal siyasi aksiyalar keçirməyə başladılar.

1988-ci ilin əvvəllərindən Xankəndində (1923-cü ilin avqustundan 1991-ci ilin noyabrınadək Stepanakert adlanıb) erməni əhalisi ardı-arası kəsilməyən kütləvi mitinqlər, nümayişlər keçirirdi. Mitinqçilərin tələbi ilə fevralın 20-də Vilayət Sovetinin sessiyası DQMV-nin Azərbaycan SSR tərkibindən çıxarılıb Ermənistan SSR tərkibinə verilməsi haqqında qərar qəbul etdi. SSRİ Ali Sovetindən xahiş edildi ki, bu məsələni müsbət həll etsin. Moskva münaqişəni daha da qızışdırdı. Sov.İKP MK Siyasi Bürosunun Bakıya gəlmiş üzvü sərhədləri dəyişdirməyin yolverilməzliyindən danışır, Yerevana gedən üzvü isə DQMV-dəki separatçılığa haqq qazandırırdı.

Azərbaycan Respublikasının suveren hüquqlarının tapdalanmasına Moskvanın, Azərbaycan rəhbərliyinin qəti

tədbirlərlə cavab vermədiyini görən Azərbaycan xalqı kortəbii mitinqlər, etiraz nümayişləri keçirirdi.

Dünya ictimaiyyəti gözündə öz əməllərinə haqq qazandırmaq üçün ermənilər 1988-ci il fevralın 28-də Sumqayıtda Edik Qriqoryanın fəal iştirakı ilə fitnəkarlıq törətdilər.

Varlı ermənilər bir neçə gün əvvəl əmlakını və əmanət bankındakı pullarını götürüb şəhəri tərk etmişdilər. Törədiləcək fitnəkarlığı lentə almaq, elə səhəri gün hay-küylə bütün dünyaya çatdırmaq üçün əvvəlcədən cinayətlər baş verəcəyi planlaşdırılmış yerlərdə tele-fotooperatorlar yerləşdirilmişdi. Fitnəkarlığın icraçılarından biri olan Edik Qriqoryan şəxsən doqquz erməni öldürmüşdü. Ermənilərin törətdiyi bu faciə nəticəsində şəhərdə 32 nəfər, o cümlədən 26 erməni, 6 azərbaycanlı qətlə yetirildi.

Bütün Azərbaycan xalqı bu fitnəkarlığı lənətlədi. Ermənilər istəklərinə nail oldular. Onlar bu faciəni ağlasığmaz uydurmalarla bəzəyib, beynəlxalq ictimaiyyətdə azərbaycanlılara qarşı mənfi münasibət yaratmağa çalışdılar.

Sumqayıt fitnəkarlığından sonra qanlı antitürk hərəkatı daha da genişləndi. Bu işdə yaxşı silahlandırılmış erməni qeyri-formal hərbi birləşmələri fəal iştirak etdilər. 1988-ci il martın 2-də Ermənistanda yaşayan azərbaycanlıların yeni böyük bir dəstəsi təqibdən yaxa qurtarıb Zəngilan rayonuna gəldi. Martın 10-da Yerevandan cənubda Mehmandar kəndinin dörd sakini qətlə yetirildi. Martın 25-də Ararat rayonunun Vedi, Şirazlı, Xalisə və Şidli kimi azərbaycanlı kəndlərində 100-dən çox ev talan edilib yandırıldı,əhalisi qovuldu. Mayın ortalarında Yerevan yaxınlığındakı azərbaycanlı kəndlərinə yenidən basqın edildi. Şirazlı kəndinin 880 nəfər sakini SSRİ-Türkiyə sərhədinə qaçıb orada sığınacaq tapdı. Erməni faşistləri Quqark rayonunda daha dəhşətli faciələr törətdilər. 1988-ci il noyabrın sonu - dekabrın əvvəllərində bu rayonda 70 nəfər azərbaycanlı qətlə yetirildi.

Ermənistanda azərbaycanlıların soyqırımı hətta burada 7 dekabrda baş verən dəhşətli zəlzələdən sonra belə dayanmaq bilmədi.Erməni millətçilərinin qanlı əməlləri nəticəsində

Ermənistanda bir nəfər də azərbaycanlı qalmadı. Onların son nümayəndələri - Nüvədi kəndinin əhalisi 1991-ci il avqustun 8-də bir gün içərisində sovet əsgərlərinin köməyi ilə Ermənistandan qovuldu.

Ermənistanda azərbaycanlılara qarşı törədilən cinayətlərin Moskvada, habelə müvəffəqiyyətlə aldadılmış dünya ictimaiyyəti tərəfindən soyuqqanlılıqla qarşılanması Dağlıq Qarabağda separatçıların əl-qolunu daha da açdı.

M.Qorbaçovun 1988-ci il fevralın 23-də hər iki xalqa müraciəti, mövcud ixtilafları hər iki xalqın mənafeyinə uyğun şəkildə həll etmək haqqında qərarları yaranmış vəziyyətdən real çıxış yolları göstərə bilmədi, əksinə vilayətin Azərbaycanın tərkibindən çıxarılmasının təməl daşını qoydu. Bu qərarlara əsasən Dağlıq Qarabağa müstəsna hüquqlar verildi, vilayətin bir çox məsələlərinin həlli birbaşa İttifaq nazirlik və qurumlarına tapşırıldı. Azərbaycan rəhbərliyi isə respublikanın hüquqlarının pozulmasına qarşı qəti etiraz etmək əvəzinə bu qərarların münaqişəni aradan qaldırmaq işində mühüm əhəmiyyət kəsb edəcəyini bildirdi. 1988-ci il 11 oktyabrda Xankəndində Ə.Vəzirov və S.Harutyunyan (Ermənistan KP MK-nın Birinci katibi) görüşüb bu qərarların həyata keçirilməsində "koordinasiya məsələlərini müzakirə" etdilər.Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1988-ci il 24 mart qərarı ilə "Krunk" cəmiyyəti xalqlar arasında nifaq salmaq kimi fəaliyyətində günahlandırılıb rəsmən qadağan edilsə də, yenə fəal iş aparırdı.Azərbaycanlıları ermənilərlə "dialoqa çağıran" Qorbaçov özü erməni separatizminin ideoloqlarını birtərəfli qaydada Kremldə söhbətə dəvət etdi. Ermənistan SSR Ali Soveti 1988-ci il 15 iyun tarixli qərarı ilə DQMV-ni Ermənistanın tərkibinə qəbul etməyə razılıq verdi. Azərbaycan SSR Ali Soveti 1988-ci il 17 iyun tarixli qərarı ilə DQMV Xalq Deputatları Soveti sessiyasının 20 fevral tarixli qərarını qeyri-qanuni akt kimi qiymətləndirdi. İyulun 12-də Vilayət Sovetinin sessiyasında DQMV-nin Azərbaycan SSR tərkibindən çıxması barədə qeyri-qanuni qərar qəbul olundu.

Moskvanın səlahiyyətli nümayəndəsi A.Volskinin iki xalq arasında kompromis yaratmaq adı altında ermənipərəst missiyası vəziyyəti daha da gərginləşdirdi. Xankəndində tətil və nümayişlər ara vermirdi. 1988-ci il sentyabrın 18-də ermənilər Xocalıya hücum etdilər. Qanlı toqquşma baş verdi. Noyabrın 24-də Ermənistan ərazisindən silahlı quldurlar Qubadlı rayonunun kəndlərinə soxulub qırğın törətdilər. Eyvazlı kəndi tamamilə yandırıldı. SSRİ Ali Soveti Rəyasət Heyəti vəziyyəti nizama salmaq üçün Azərbaycanın hüquqlarını yenidən kobud surətdə pozaraq 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-nin DQMV-nin xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. A.Volskinin başçılığı ilə birbaşa Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarə Komitəsi (XİK) təşkil edildi, bütün dövlət və ictimai orqanların səlahiyyəti dayandırıldı. XİK vilayətdə qayda-qanunu bərpa etmək əvəzinə onu Azərbaycana bağlayan iqtisadi əlaqələrinin tam qırılmasına, azərbaycanlıların buradan qovulmasına və ermənilərin silahlanmasına şərait yaratdı. Azərbaycan demokratik qüvvələrinin təkidli tələbi ilə SSRİ Ali Soveti 1989-cu il noyabrın 28-də Dağlıq Qarabağda Xüsusi İdarə Komitəsini ləğv etdi. Vilayətin idarəsi SSRİ Ali Soveti xüsusi komissiyasının nəzarəti altında Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Lakin yenə mərkəz tərəfindən qəti tədbirlər görülməməsi ermənilər yeni təhrikçi hərəkətlərə şirnikləndirdi. Ermənistan SSR Ali Soveti isə 1989-cu il dekabrın 1-də "Ermənistan SSR-ə Dağlıq Qarabağı birləşdirmək haqqında" qeyri-qanuni qərar qəbul etdi. Xankəndində Ermənistanın dövlət bayrağı qaldırıldı. İdarəçilik işləri, müəssisələr bu respublikanın nazirlik və baş idarələrinə tabe edildi. 1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti DQMV və qonşu rayonlarda fövqəladə vəziyyət elan etdi. Respublika Təşkilat Komitəsi, Xüsusi Təyinatlı Milis Dəstələri (OMON), hərbi komendantlıq vilayətdəki azərbaycanlılar yaşayan kəndlərin blokadasını açmağa, qanunsuz silahlı dəstələri ləğv etməyə başladı. Ermənistandan buraya silah daşınmasının qarşısını almaq üçün tədbirlər görüldü.

Bu vaxt Ermənistan ərazisindən Azərbaycanın sərhəd bölgələrinə hücumlar genişlənməyə başladı. Ermənistanda dövlətin himayəsi ilə 6 böyük qeyri-qanuni silahlı qruplaşma təşkil olunmuşdu. Quldurlar hərbi hissələrə hücum edir, silah və sursatı ələ keçirirdilər. 1990-cı ildə burada iri miqyaslı hərbi əməliyyatlar keçirməyə qabil olan hərbi hissələrdə "David Sasuni", "Vretaruner" (qisasçılar), "Haydat" (erməni məhkəməsi) və b. silahlı dəstələrdə 10 minə qədər döyüşçü toplanmışdı.

Naxçıvan MSSR Ermənistan tərəfindən blokadaya alınmışdı. Ermənilər Azərbaycan dəmir yolunun Ermənistanın Mehri rayonu ərazisindən keçən hissəsində qatarların hərəkətinə mane olur, onları atəşə tuturdular. 1990-cı il yanvarın 12-də düşmən bir neçə hərbi vertolyotla Xanlar rayonunun Quşçu kəndinə desant ataraq dinc əhaliyə vəhşicəsinə divan tutdu, onlarla adam məhv edildi. Erməni faşistləri Naxçıvanın Kərki kəndinə basqın edib yanvarın 18-də onu tutdu. Bu əməliyyatlarda sovet qoşun hissələri də iştirak edirdi. Martın 24-də gecə üç erməni hərbi hissəsi rusların köməyi ilə Qazax rayonunun Bağanis-Ayrım kəndinə hücum etdi, kəndin 7 sakini, o cümlədən iki qadın və ikiaylıq körpə işgəncə ilə öldürülüb yandırıldı, 11 ev talan edildi.

Azərbaycan SSR Ali Soveti 1990-cı il iyunun 11-də Ermənistanla sərhəd boyu (975 km) ərazidə fövqəladə vəziyyət elan etdi. Sərhədlər mühəndis qurğuları ilə möhkəmləndirildi, onu müdafiə etmək üçün Xüsusi Təyinatlı Milis Dəstələri yaradıldı. 1991-ci ilin əvvəllərindən DQMV təyyarə meydanına nəzarət Azərbaycan milisinə verildi.

Lakin erməni quldurları yenə rusların köməyi ilə sərhəd zonalarındakı Azərbaycan kəndlərinə basqınları davam etdirirdilər. Avqustun 18-20-də erməni hərbi hissələri rusların, vertolyot və ağır texnikanın köməyi ilə Qazax rayonuna hücum etdi. Bağanis-Ayrım kəndi yenə dağıdıldı, əhaliyə işgəncələr verildi.

Vəziyyəti gərginləşdirmək üçün erməni terrorçuları hər vasitədən istifadə edirdilər. 1989-cu il sentyabrın 16-da onlar Tiflis-Bakı şəhərlərarası sərnişin avtobusunu Yevlax şəhəri

yaxınlığında partlatdılar. 1990-cı il avqustun 10-da Xanlar rayonunda Tiflis-Ağdam sərnişin avtobusunda yeni terror aktı törətdilər. Partlayış nəticəsində 17 nəfər həlak oldu, 15 nəfər yaralandı. 1991-ci il iyulun 31-də erməni terrorçuları Moskva-Bakı sərnişin qatarında Mahaçqala yaxınlığında böyük partlayış törətdilər. Nəticədə 15 sərnişin həlak oldu, 16 nəfər ağır yaralandı. Buna oxşar cinayət 1991-ci il mayın 30-da Kolonyurd stansiyası yaxınlığında baş verdi. Sərnişin qatarının partladılması nəticəsində 12 nəfər həlak oldu. Bir qədər əvvəl Rostov şəhəri yaxınlığında Simferopol-Bakı qatarını da partlatmağa cəhd edilmişdi.

İmperiya milli münaqişəni daha da dərinləşdirirdi. Lakin bu yolla imperiyanın xalqlar üzərində ağalığını saxlaması artıq mümkün deyildi. Onun süqutu gündən-günə yaxınlaşırdı. Xalqın tələbi ilə 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında respublikanın dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat və xüsusən oktyabrın 18-də bu barədə Konstitusiya aktının qəbulu ilə əlaqədar Dağlıq Qarabağ münaqişəsi daha da kəskinləşdi. Bu münaqişə Rusiyanın Ermənistanın əli ilə Azərbaycana qarşı apardığı təcavüzkar müharibəyə çevrildi.

Milli-azadlıq hərəkatının başlanması, siyasi vəziyyətin dəyişməsi. Köhnə idarəçilik mexanizminin dağılması, yeni mexanizmin isə hələ yaradılmaması ilə əlaqədar İttifaqın düşdüyü böhranlı vəziyyət gündən-günə dərinləşirdi. Xalqın güzəranı pisləşirdi. Belə bir şəraitdə SSRİ-nin dağılma prosesinin qarşısını almaq üçün hakim dairələr milli münaqişələri, antitürk, antiislam siyasəti qüvvətləndirirdilər. Mühüm geosiyasi məkanda imperiyanın türk xalqları ilə Türkiyə arasında körpü olduğundan Azərbaycan əsas zərbə hədəfi idi. Ermənistanda və Azərbaycanın Dağlıq Qarabağ bölgəsində azərbaycanlıların soyqırımını törətmək, Azərbaycanı parçalamaq, bu yolla bütün regionda ağalığı saxlamaq siyasəti həyata keçirilirdi. Erməni millətçiləri yaranmış vəziyyətdən məharətlə istifadə edib, bu dəfə də Azərbaycanın hesabına öz torpaqlarını genişləndirmək məqsədi ilə fəaliyyətə başladılar. Lakin

Azərbaycan Respublikasının Moskvaya sədaqətlə xidmət edən rəhbərliyi yaranmış yeni beynəlxalq şəraitdə qüvvələri düzgün qiymətləndirib, vahid ümummilli platforma ətrafında xalqı mübarizəyə qaldıra bilmədi.

Hadisələrin belə gedişi Azərbaycanda milli hərəkatın qalxmasına güclü təkan verdi. 1988-ci ilin əvvəllərindən ilk kütləvi etiraz çıxışları başlanmışdı. Hərəkat həmin ilin sonunadək, demək olar ki, kortəbii xarakter daşıyırdı. Cəmiyyətdə "demokratiya və aşkarlıq" şüarı altında ədalət, humanizm, hüquqi dövlət, xüsusən milli suveren hüquqların qorunması haqqında fikir plüralizmi yaranmışdı. Yeni ictimai-siyasi təşkilatlar meydana gəlirdi. 1987-ci ilin axırlarında Azərbaycan Dövlət Universitetində (Bakı Dövlət Universiteti) yaradılmış "Yurd" təşkilatı, 1988-cı ilin baharından fəaliyyətə başlayan "Çənlibel", "Müstəqillər" kimi təşkilatları birləşdirib vahid istiqamətə, ümummilli məsələlərin həllinə yönəldən mütəşəkkil qüvvə yox idi. Xalq Azərbaycanı parçalamaq, ermənilərin Dağlıq Qarabağın Ermənistana verilməsi tələblərinə qarşı münasibətini Mərkəzi Komitəyə, ölkə və respublika rəhbərlərinə etiraz teleqramları və məktubları göndərməklə, imza toplamaqla bildirirdi.İlk etiraz mitinqi 1988-ci il fevralın 19-da Bakıda keçirildi. Martın 16-da Azərbaycan Milli Elmlər Akademiyasında etiraz mitinqi təşkil olundu. Ermənistanda azərbaycanlıların soyqırımının kütləvi hal almasına qarşı mayın 16-da Dövlət Universiteti qarşısında "Yurd" təşkilatının fəal iştirakı ilə böyük mitinq keçirildi. Mitinqçilər şəhərin Lenin adına baş meydanına (indiki Azadlıq meydanı) istiqamət aldılar. Burada davam edən mitinqdə respublikanın görkəmli ziyalıları ölkə rəhbərliyini respublikanın hüquqlarını müdafiə etməyə çağırdılar. Mitinqçilər Moskvadan və Azərbaycan rəhbərliyindən erməni millətçilərinin azğın hərəkətlərinə qəti cavab verilməsini tələb edirdilər. Respublikanın başqa şəhərlərində də mitinqlər keçrilirdi. Ermənipərəst siyasət yeridən, Moskvada sözü keçməyən respublika rəhbərləri xalqın ciddi narazılığını nümayiş etdirib ölkə başçılarına təsir göstərmək ümidində idilər. Buna görə də mitinqlərin

keçirilməsinə inzibati orqanlar demək olar ki, mane olmurdu. Eyni zamanda tanınmış ziyalıları mitinq tribunalarına cəlb etməklə kortəbii etiraz hərəkatının böyüyüb mövcud rejimə, onun respublikadakı canişininə qarşı ümumxalq hərəkatına çevrilməsinə yol verməməyə çalışırdılar. Moskva 1988-ci il mayında Əbdürrəhman Vəzirovu AKP MK-nın Birinci katibi vəzifəsinə gətirdi. Ə.Vəzirov xalqa, onun milli mənafelərinə zidd siyasəti ilə Dağlıq Qarabağ məsələsində ermənilərı öz xəbis niyyətlərini həyata keçirməyə daha da həvəsləndirdi. Moskvanın Dağlıq Qarabağdakı səlahiyyətli nümayəndəsi A.Volskinin ermənipərəst siyasəti, xüsusən nadir Topxana meşəsində (Şuşa yaxınlığında) sənaye obyekti tikintisinə başlanması xəbəri bütün xalqı hiddətləndirdi. Noyabrın 15-də Azərbaaycan Dövlət Universiteti qarşısında, səhəri gün Elmlər Akademiyasının dəyirmi salonunda "Varlıq" cəmiyyəti və M.Ə.Sabir adına bağda "Yurd" təşkilatının təşəbbüsü ilə mitinqlər keçrildi.Xalq hərəkatının kortəbii mərhələsinin ən qızğın dövrü noyabrın 17-dən başlandı. Həmin gün səhər Universitet, Akademiya, Politexnik və İqtisad institutları qarşısından nümayişçi dəstələr milisin maneələrini aşaraq, M.Ə.Sabir adına bağa, oradan isə şəhərin Baş meydanına gəldilər. Meydanda mitinqçilərin tələbləri oxundu. Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda antiazərbaycan siyasəti yeridən qurumun ləğv edilməsi, əks təqdirdə Ermənistana qarşı iqtisadi sanksiyalar tətbiq edilməsi, Azərbaycandan olan deputatların SSRİ Ali Soveti sessiyasında Ermənistanın təcavüzü ilə əlaqədar məsələ qaldırması başlıca tələblərdən idi. Bu tələblər Azərbaycan rəhbərliyini qane edirdi, lakin hökumət nümayəndələri mitinqi dayandırmağı tələb etdikdə mitinqçilər tələbləri yerinə yetirilməyincə meydanı tərk etməyəcəklərini bildirdilər.

Dekabrın 3-də hərbi hakimiyyət mitinqçilərdən meydanı tərk etməyi tələb etdi. Dekabrın 4-də isə gecə hərbçilər hücum edib zorla meydanı boşaltdılar, burada gecələyən mitinqçiləri həbs etdilər.Xalq hərəkatının birinci - kortəbii mərhələsinin zirvəsi olan Meydan göstərdi ki, mitinq və nümayişlərlə mövcud problemi həll etmək

olmaz, demokratikləşmə yolu ilə getmək, demokratik yolla xalqın nümayəndələrini seçmək, xalq birliyini təmin etmək, respublikanın suveren hüquqlarının qorunmasına nail olmaq lazımdır.

Kommunist elitası içərisində xalqın etimadını qazanmaq və hakimiyyətə gəlmək istəyənlər də vardı. Xalq isə Azərbaycanın üzləşdiyi taleyüklü problemləri həll etməyə qadir siyasətçinin Heydər Əliyev olduğunu dərk edərək, onun yenidən respublikaya rəhbər təyin olunmasını arzulayırdı. Minlərlə adam mitinq və nümayişlərə, xüsusən münaqişə bölgələrində, Heydər Əliyevin portreti ilə çıxırdı. Xalqı birləşdirib mübarizəni vahid istiqamətə yönəltmək məqsədi ilə bir qrup nüfuzlu ziyalının təşəbbüsü də Xudu Məmmədovun qəfil ölümü ilə (14 oktyabr 1988-ci il) boğuldu.

Xalq Azərbaycan Xalq Cəbhəsi ətrafında birləşməyə başladı. 1989-cu il iyulun 16-da Bakıda AXC-nin təsis konfransı keçirildi. Cəbhənin Proqram və Nizamnaməsi qəbul olundu. İdarə heyəti formalaşdı. Əbülfəz Elçibəy Azərbaycan Xalq Cəbhəsinin sədri seçildi.Radikal tədbirlərə üstünlük verən xalq cəbhəsi liderləri iyunun 29-da Bakıda ümumşəhər mitinqi təşkil etdilər. Əvvəl belə mitinqlərin əleyhinə olan AXC İdarə Heyəti mitinq və tətil hərəkatının genişləndiyini görüb onu idarə etməyi vacib bildi. Sonrakı mitinqlər AXC-nin rəhbərliyi ilə təşkil olunur, üçrəngli, ay-ulduzlu bayraq altında keçrilirdi.

Azərbaycan SSR Nazirlər Soveti 1989-cu il oktyabrın 5-də AXC-ni rəsmi qeydə aldı. AXC-nin bu vaxta qədər buraxılan bülleteni əvəzinə dekabrın 4-dən "Azadlıq" qəzetinin kütləvi tirajla nəşrinə başlandı.

Qanlı Yanvar. AXC liderlərinin 1989-cu ilin payızından başlayaraq düşünülməmiş addımlar atması, türkçülüyə meyllərini açıq ifadə etməsi də imperiya rəhbərlərini ciddi narahat edirdi. Mərkəz belə bir təşkilatın hakimiyyətə gəlməsinə heç vəchlə razılaşa bilmirdi. SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakov Əbülfəz Elçibəyə verdiyi "Sizin məqsədiniz nədir?" sualına "Demokratik seçkilər keçirmək!" cavabı aldıqda demişdi: "Bundan sonra Sovet İttifaqından ayrılmağa bir pillə qalır".

Mərkəz tərəfindən xalq hərəkatına dini məzmun vermək, onun meylini Türkiyədən, demokratik Qərbdən ayırıb İrana, islam fundamentalizminə bağlamaq cəhdləri də olmuşdu.

Siyasi liderləri "radikallar"a və "liberallar"a bölüb xalq hərəkatını daxildən parçalamaq, seçkiləri fövqəladə vəziyyət, komendant saatı şəraitində keçirməklə yenə "kommunistlərin" qalib gəlməsinə nail olmaq üçün məkrli siyasət aparılırdı.

Xalqı radikallaşdırmaq, bəzi güzəştlərlə onu zorakı hərəkətlərə şirnikləndirmək əsas vasitə idi. AXC İdarə Heyətində hakimiyyət uğrunda mübarizə aparan radikallar bu tələyə düşdülər. 1989-cu il oktyabrın 28-29-da keçirilmiş AXC Məclisinin birinci sessiyasında cəbhə daxilində radikallar və liberallar arasında ixtilaf bütün barışmazlığı ilə üzə çıxdı. Radikallar AXC İdarə Heyətinin liberal üzvlərini təslimçilikdə, xalqa xəyanətdə, qətiyyətsizlikdə təqsirləndirirdilər. Onlar AXC-nin yeni rəhbər orqanları seçiləcək fövqəladə konfransının keçirilməsini tələb edirdilər. Xalq cəbhəsinin bütövlüyünü qoruyub saxlamaq üçün liberallar müəyyən güzəştlərə getməyə məcbur oldular. 1989-cu il dekabrın 9-da AXC müşavirəsində İdarə Heyəti buraxıldı. Onun səlahiyyətlərini yerinə yetirən, əslində radikallardan ibarət Müvəqqəti Təşkilat Qrupu seçildi, radikallar daha da fəallaşdı. Onlar narazılığı artan xalq kütləsini öz ardınca apardı. Bir çox bölgələrdə əsl ikihakimiyyətlilik - kommunistlərin və cəbhəçilərin hakimiyyəti yaranmışdı. AXC təşkilatlarında dövlət funksiyalarını yerinə yetirən strukturlar meydana gəlmişdi.Cəlilabadda 1989-cu il dekabrın 8-dən fasiləsiz mitinqlər, tətillər başlandı. İnzibati orqan işçiləri xalqın tərəfinə keçdi. Yeni katib paytaxtdan göndərildi. Rayonda hakimiyyətə gəlmək istəyənlər yenidən adamları qızışdırdılar. Vəziyyəti nizama salmaq üçün dekabrın 27-də rayona gətirilən milis dəstələri həbslər keçirdi. Qəzəblənmiş əhali hücum edib raykomun, milisin binalarını dağıtdı, rəhbərləri döyüb qovdu. Toqquşmalarda 150-dən çox adam yaralandı. Dekabrın 29-da burada "Xalq hökuməti" adlandırılan hökumət fəaliyyətə başladı. Müvəqqəti Təşkilat Komitəsi və Milli Müdafiə Şurası yaradıldı.İnsanlar Cənubi Azərbaycanda yaşayan

qan qardaşları, qohumları ilə gediş-gəlişi bərpa etmək tələbi ilə dəfələrlə rəhbər orqanlara müraciət etmişdi.Naxçıvan MSSR kimi aztorpaqlı respublikada 17 min kv.m münbit torpaq sahəsi sərhədlə tikanlı məftillər arasında qalmışdı. Bu zonadakı qədim qəbiristanlığa və ziyarətgaha getmək mümkün deyildi. Lakin vəziyyəti düzgün qiymətləndirməyən rəhbər dairələr tədbir görməyə tələsmirdilər. "Sərhəd hərəkatı" isə genişlənirdi.Dekabrın 31-də saat 12-də Araz çayı boyu 137 km. Sovet-İran sərhədində həyəcanlar başlandı. Sərhəd qurğuları dağıdıldı. Hər iki tərəfdən sahildə toplanmış adamlar Arazı keçib görüşdülər. 1990-cı il yanvarın 7-də isə SSRİ-Türkiyə Respublikası sərhəddində həyəcanlar baş verdi. Yanvarın 18-də Biləsuvar və Cəlilabad rayonlarında sərhəd qurğuları dağıdıldı.1990-cı il yanvarın 11-də AXC Lənkəran şöbəsinin qərarı ilə gecə dövlət müəssisələri mühasirəyə alındı, partiya komitəsinin, hökumət orqanlarının fəaliyyəti dayandırıldı. Müvəqqəti Müdafiə Komitəsi təsis olundu. Bütün bunlar hakimiyyət böhranının, Moskva canişininin respublikadakı hadisələrə nəzarəti tam itirməsinin təzahürü idi. Bununla barışa bilməyən mərkəz 1990-cı il yanvarın əvvəllərindən Azərbaycanda müxtəlif qoşun hissələri, cəza dəstələri yerləşdirdi. SSRİ müdafiə naziri D.Yazov gizlicə Gəncəyə gəlmiş, vəziyyətlə tanış olmuş və respublika rəhbərliyinin də təklifləri nəzərə alınmaqla "Tayfun" adlı qanlı əməliyyat planı hazırlamışdı.

Erməni millətçilərinin Azərbaycanın sərhəd kəndlərinə, DQMV-də azərbaycanlılar yaşayan kəndlərə silahlı basqınlar isə getdikcə artırdı.Siyasiləşmiş insanların çoxu AXC-nin 1990-cı il yanvarın 6-7-də keçrilmiş konfransında yeni seçilmiş İdarə Heyətində üstünlük təşkil edən liberalların deyil, radikalların ardınca gedirdi.

AXC-ni dağıtmaq, "demokratik hərəkatı" boğmaq üçün müvafiq vaxt yetişmişdi. Təhrikçilər fəallaşırdılar. Yanvarın 13-də Bakıda bir ermənin iki azərbaycanlını öldürməsinə cavab olaraq erməni talanları başlandı. 56 nəfər öldürüldü, 112 nəfər xəsarət aldı. Talançı dəstələrin azğın əməllərinə nə yerli hüquq mühafizə orqanları, nə də o zaman Bakıda olan SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı qüvvəsi mane olurdu. Onlar milli münaqişəyə qarışmamaq əmri

almışdılar.1990-cı il yanvarın 13,15,16, 17 və 18-də Azərbaycan KP MK-nın büro iclaslarında respublikadakı vəziyyət müzakirə edilmiş, çıxış edənlər - Ə.Vəzirov, A.Mütəllibov, V.Polyaniçko, E.Qafarova, M.Məmmədov, V.Hüseynov və başqaları, habelə Bakıda olan Y.Primakov və yüksək rütbəli Moskva hərbçiləri güc tətbiq olunması vacibliyini bildirmişdilər. Xalqa, demokratik qüvvələrə tutulacaq divana hüquqi don geyindirmək üçün fövqəladə vəziyyət elan olunması vacib idi. Ə.Vəzirov yanvarın 14-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti iclasında "Azərbaycan SSR-in DQMV-də vəziyyətin normallaşdırılması sahəsində təxirəsalınmaz vəzifələr haqqında" qərar qəbul edilməsinə nail oldu. Qərarda DQMV və zəruri olarsa, ona bitişik rayonlarda və sərhəd boyunca fövqəladə vəziyyət elan olunması və mərkəzdən lazımi köməklik göstərilməsi üçün SSRİ Ali Soveti Rəyasət Heyətinə müraciət olunması nəzərdə tutulurdu. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin müraciətinə əsasən SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 15-də "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi. Azərbaycan SSR Ali Sovetinə təklif edildi ki, Bakı və Gəncə şəhərlərində, eləcə də başqa yaşayış məntəqələrində qadağan saatları tətbiq edilməsi də daxil olmaqla hər cür lazımi tədbirlər görsün.Respublika hökuməti iflic vəziyyətində idi. Respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri Moskvaya göndərdiyi teleqramlarda bildirirdi ki, respublika xaos vəziyyətindədir, qiyam ərəfəsindədir, qətiyyətli tədbirlər görülməsə, Azərbaycan əldən gedə bilər. Rəsmi Moskvanın Bakıya göndərdiyi emissarları - SSRİ Ali Soveti İttifaqlar Sovetinin sədri Y.Primakov və Sov.İKP MK Katibi A.Girenkonun AXC-nin liberal və radikal qanadları nümayəndələri ilə ayrı-ayrılıqda görüşləri müsbət nəticə vermədi.

Yanvarın 17-dən AKP MK binası qarşısında izdihamlı mitinq başlandı, ümumi tətil elan olundu. Tələb edildi ki, Moskva Ermənistanın Azərbaycana ərazi iddialarına qəti son qoysun, imperiyanın Bakıya və ətrafına yığdığı qoşunlar Dağlıq Qarabağa və daim erməni basqınlarına məruz qalan sərhəd bölgələrinə göndərilsin.Mərkəz Naxçıvanda da xalqa divan tutmaq məqsədi ilə

fövqəladə vəziyyət elan edilməsi üçün təzyiqlər göstərirdi. Yanvarın 18-də Şərur rayonu Kərki kəndinin işğalı vəziyyəti daha da gərginləşdirdi. Xalqın tələbi ilə yanvarın 19-da Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi. Məqsəd Azərbaycanda baş verən hadisələrə, sovet ordusunun qanlı əməllərinə dünya ictimaiyyətinin diqqətini cəlb etmək idi və bu, müəyyən rol oynaya bildi.1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Xalqı qəfildən yaxalamaq, ona divan tutmaq, qırğın törətmək üçün qoşunlardan istifadə ediləcəyi, aman verilməyəcəyi, habelə ən başlıcası fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı. Fövqəladə vəziyyət və komendant saatı vaxtının elan edilməsi qanlı planları poza bilərdi. Buna görə də AXC İdarə Heyəti komendant saatı tətbiq olunduğu təqdirdə orduya müqavimət göstərmədən piketləri götürmək haqqında qərar qəbul etmişdi. Lakin radikallar adamlara "silah, kömək gələcək" - deyə yalan vədlər verir, barrikadaları axıradək tərk etməməyə çağırırdılar. Piketçilər imperiyanın və respublikanın səlahiyyətli nümayəndələrinin ordunun şəhərə girməyəcəyi haqqında dəfələrlə təkrar etdikləri vədlərə inanmışdılar.Xalqa məlumat verilməsin deyə yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı. Fövqəladə vəziyyətin yanvarın 20-də, saat 00-dan başlanmasına göstəriş verildiyinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21:00-dən ilk olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na SSRİ müdafiə naziri D.Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonu qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən desant, xüsusi cəza dəstələri hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı, əliyalın adamlara avtomat silahlardan güclü atəş açıldı. Hərbçilər təsadüfən yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını, şəhər nəqliyyatını atəşə tutur, yaralıları öldürür, şəhərin küçələri öldürülmüş, yaralanmış adamların qanına qərq olmuşdu.

Rəsmi məlumatlara görə, Bakıya və başqa yaşayış məntəqələrinə sovet ordusunun hücumu vaxtı 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər itkin düşmüşdür. Evlərə, ictimai və şəxsi nəqliyyat vasitələrinə, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. Fövqəladə vəziyyət haqqında fərman artıq iş işdən keçəndən sonra, yanvarın 20-də saat 7-də elan olunmuşdu. Azərbaycan xalqı fövqəladə vəziyyət şəraitində partizan müharibəsi aparmaq kimi avantürist çağırışları rədd etdi, mübarizəni dinc siyasi vasitələrlə davam etdirməyə başladı. Gərginliyi bir qədər yatırmaq üçün hərbi hökumət həmin gün radio ilə Azərbaycan SSR Ali Soveti sədrinin Bakıda fövqəladə vəziyyət elan olunmasına və şəhərə qoşun yeridilməsinə qarşı etiraz bəyanatının yayılmasına icazə verdi.Xalq deputatları şair Bəxtiyar Vahabzadə, yazıçılar Anar və Elçin Ali Sovet Sədrindən fövqəladə sessiya çağırılmasını, hadisəyə qiymət verilməsini tələb etdilər. B.Vahabzadə radio ilə xalq deputatlarına müraciət etdi.Yanvarın 21-də deputatların 1/3-nin təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası keçrildi. Moskvanın kimi Birinci katib təyin edəcəyini gözləyən yüksək vəzifə sahibləri bu sessiyanın işində, demək olar ki, iştirak etmədilər, hətta onu "qeyri-qanuni yığıncaq" adlandırdılar. Sessiya baş vermiş faciəyə siyasi qiymət verməyə çalışdı. Onu törədən ölkə və respublika rəhbərlərinə qəti etiraz bildirildi. Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında fərmanın fəaliyyətini dayandırmaq, ordu hissələrini şəhərdən çıxarmaq barədə qərarlar qəbul olundu. Lakin Moskva bu qərarlara əhəmiyyət verrmədi. Xalq başsız qalmışdı. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək burada 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etdi, bu ağır günlərdə doğma xalqı ilə birgə olduğunu bildirdi. O, çıxışında və verdiyi müsahibələrdə 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Heydər

Əliyev çıxışında qeyd etdi ki, "Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki hala çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı". Heydər Əliyev qorxmadan imperiya rəhbərlərini qatillər adlandırırdı. Heydər Əliyevin Moskvadakı çıxışının mətni, bütün maneələrə baxmayaraq, respublikada və dünyada geniş yayıldı. Heydər Əliyev Azərbaycan xalqına verdiyi başsağlığında onu bu ağır gündə "ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə" çağırdı. Xalq Heydər Əliyev kimi nüfuzlu bir şəxsiyyətin onunla olduğunu, onu cəsarətlə müdafiə etdiyini gördü, ürəkləndi. Bakıda fövqəladə vəziyyət olmasına baxmayaraq, Azərbaycan yanvarın 22-də şəhidləri ilə vidalaşdı. Respublikada üç gün matəm elan olundu. Azadlıq meydanında izdihamlı matəm mitinqi keçirildi. Mitinqdə və dəfn mərasimində milyona qədər insan iştirak edirdi.Şəhidlər şəhərin ən uca yerində - Dağüstü parkda dəfn edildi.Sovet ordusunun qanlı cinayətləri isə hələ bitmək bilmirdi. Sovet ordusunun qoşun hissələrinin Ermənistandan Naxçıvana yeridilməsinə cəhd göstərildi, lakin xalq bunun qarşısını aldı. Gizlicə respublikadan qaçmış Ə.Vəzirovun yerinə Moskva yanvarın 24-də Ayaz Mütəllibovu Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsinə gətirdi. Bakıda fövqəladə vəziyyət, komendant saatı tətbiq edildi. AXC MMŞ dağıdıldı, bir çox fəal cəbhəçilər həbs olundu, ölkədən qaçdı, qeyri-leqal işə keçdi. AXC-nin hakimiyyətə gəlmək cəhdi baş tutmadı.

1990-cı ilin Qanlı Yanvarı Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir, xalqın tarixində şərəfli bir səhifədir. Bu hadisə sübut etdi ki, suverenliyin yeganə yolu imperiyanın dağılmasında, müstəqilliyin bərqərarlaşmasındadır. Heydər Əliyevin "Bizim İttifaqdan nicatımız yoxdur!" sözləri xalqın ümumi rəyinin ifadəsi oldu. Bu şüar altında xalq hərəkatı keyfiyyətcə yeni mərhələyə qədəm qoydu.

XVIII FƏSİL
Azərbaycanın beynəlxalq əlaqələri (1946-1990-cı illər).

Beynəlxalq əlaqələri şərtləndirən amillər. İkinci Dünya müharibəsindən sonra dünyada gedən inteqrasiya prosesləri bir tərəfdən hərbi blokların yaranması ilə səciyyələnirdisə, digər tərəfdən, bu dövrdə beynəlxalq və regional iqtisadi əməkdaşlıq təşkilatlarının təşəkkülündə (Avropa İqtisadi birliyi, Qarşılıqlı İqtisadi Yardım şurası və s.) müşahidə olunurdu.

Baxmayaraq ki, son proseslər "Soyuq müharibə"nin tələblərinə uyğunlaşdırılmışdı, lakin iqtisadi inteqrasiya artıq müasir beynəlxalq münasibətlərin bir reallığına çevrilməkdə idi.Bəhs olunan dövrdə SSRİ-nin beynəlxalq münasibətləri ilk baxışdan çox siyasi xarakterli görünmürdü. Əslində isə bu siyasi əlaqənin və ya problemin əsasını çox hallarda iqtisadi maraq təşkil edirdi. SSRİ-nin mövcudluğu ərzində bütün xarici iqtisadi əlaqələri siyasi məqsədlərlə yanaşı geosiyasi strateji və geoiqtisadi məqsədlər daşımışdır. Mədəni əlaqələr isə istər siyasi, istər iqtisadi münasibətləri müşaiyət edən, bəzi hallarda hətta birinciləri stimullaşdıran amildir. İkitərəfli əlaqələr bu tərəflərin iqtisadi və ideoloji maraqlarını nəzərə almadan genişlənmir. Nəzərə almaq lazımdır ki, dövlətlərarası iqtisadi və mədəni əməkdaşlıq həm də beynəlxalq iqtisadiyyatın və qloballaşan dünyanın ayrılmaz hissəsidir. Dövlətin iqtisadi imkanları, digər dövlətlərlə iqtisadi əlaqələrindən asılı olaraq mədəniyyətin inkişafı və beynəlxalq arenaya çıxması mümkün olur. Siyasi məqsədlərdən asılı olmayaraq iqtisadi əməkdaşlıq ümumilikdə pozitiv bir hadisə kimi qəbul edilməlidir. İqtisadi və mədəni əməkdaşlıq, xalqlar arasındakı maneələrin aradan qaldırılması, bir-birinə inam ruhunun formalaşması, qarşılıqlı olaraq iqtisadi vəziyyətin, xalqın intellektual səviyyəsinin artması onun mədəni inkişafı üçün də zəruridir. İkinci Dünya müharibəsindən sonrakı ilk dövrlərdə beynəlxalq münasibətlərin bir sıra özünəməxsus əlamətləri mövcud idi. SSRİ başda olmaqla sosialist ölkələri ilə ABŞ başda olmaqla

kapitalist ölkələri arasında dünyada soyuq müharibə gedirdi. Bu müharibədə həmin ölkələr məqsədlərinə çatmaq üçün bütün vasitələrdən istifadə edirdilər. O, cümlədən düşmən düşərgələrdəki dövlətlər iqtisadi əməkdaşlıqdan eyni zamanda bir-birinə təsir etmək üçün də istifadə edirdilər. Müharibə nəticəsində ölkənin dağıdılmış iqtisadiyyatını bərpa və inkişaf etdirmək zərurəti SSRİ hökümətini dünya dövlətləri ilə iqtisadi əlaqələri canlandırmağı zəruri edirdi. SSRİ hökümətinin imkan verdiyi çərçivədə Azərbaycan SSR də bu əlaqələrdə iştirak edirdi.

Siyasi əlaqələr. 1920-ci ilin aprelində boşevik Rusiyasının təcavüzü nəticəsində Dövlət müstəqilliyimiz itirildikdən sonra diplomatik münasibətləri həyata keçirən Xarici İşlər Nazirliyi ləğv edildi. Onun yerində Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığı (XXİK) yaradıldı ki, 1920-1922-ci illərdə bu orqan xarici ölkələrlə müəyyən ikitərəfli əlaqələri həyata keçirirdi. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın Xalq Xarici İşlər Kommissarları Nəriman Nərimanov (28 aprel-2 may 1920) və Mirzə Davud Hüseynov (2 may 1920-dekabr 1921) olmuşdur. Lakin tezliklə XXİK ləğv edildi. SSRİ yaradıldıqdan sonra Azərbaycanın müstəqil xarici siyasəti tamamilə dayandırıldı. Yanlız İkinci Dünya müharibəsinin sonlarına yaxın (1944-cü ildə) yaranmış beynəlxalq şəraitdə SSRİ hökümməti öz maraqlarına uğun olaraq müttəfiq respublikaların, o cümlədən Azərbaycan SSR-də XXİK-nı bərpa etdi, 1946-cı ildən XXİK Xarici İşlər Nazirliyinə (XİN) çevrildi. Lakin XİN yenə də ciddi səlahiyyəti olmayan qurum idi. Bu dövrdən başlayaraq Azərbaycanın xarici siyasət idarəsinə Mahmud Əliyev, Tahirə Tahirova, Elmira Qafarova, Hüseynağa Sadıqov (1988-may 1992) başçılıq etmişlər. Bütün mürəkkəb və ziddiyyətli cəhətlərinə baxmayaraq, tariximizin sovet dövründə də Azərbaycan mərkəzi hakimiyyət (SSRİ) vasitəsilə ölkənin beynəlxalq əlaqələrində bu və başqa dərəcədə iştirak etmişdir. 50-ci illərin ortalarından etibarən canlanmağa başlayan beynəlxalq əlaqələr əvvəlki illərlə müqayisədə 70-80-ci illərdə, yəni Heydər Əliyevin ilk rəhbərliyi dövründə (1969-1982) xeyli geniş olmuşdur. SSRİ

hökuməti həm öz maraqlarını, həm də Azərbaycan SSR-nin İran və İraqla mənəvi yaxınlığını nəzərə almaqla Bakıda 1968-ci ildən İranın, 1974-cü ildən isə İraqın Konsulluğunun fəaliyyətinə icazə vermişdi. 1987-ci ildə Bakıda Xalq yazıçısı Elçinin sədrliyi ilə "Vətən" cəmiyyəti yaradıldı. Məqsəd Vətənimizin tarixi, mədəniyyətinə dair uğurları və problemləri ilə bağlı həqiqətləri dünyaya çatdırmaq, həm də dünyaya səpələnmiş soydaşlarımızı Ana Vətən ideyası ətrafında birləşdirmək idi. Cəmiyyətin proqramı "Odlar yurdu" qəzetində çap olunurdu.

İqtisadi əlaqələr. İkinci Dünya müharibəsi başa çatdıqdan sonra SSRİ-nin beynəlxalq aləmdə siyasi və iqtisadi nüfuzu xeyli yüksəldi. İlk olaraq Şərqi Avropa və Asiyada onun hərbi və iqtisadi yardımı ilə bir sıra yeni dövlətlər yarandı. Bu dövlətlər siyasi və iqtisadi inkişaf yollarını SSRİ-nin birbaşa müdaxiləsi və köməyi ilə müəyyən edirdilər. 1945-1961-ci illər ərzində Asiya, Afrika, Avropa və Amerika qitələrində "sosialist" inkişaf yolunu seçmiş bir sıra dövlətlər yarandı ki, onların da hamısı ilk siyasi, hərbi və iqtisadi yardımı SSRİ-dən almışdılar. Həmin ölkələrə SSRİ tərəfindən göstərilən yardımda bütün "müttəfiq" respublikalar, o cümlədən Azərbaycan SSR də fəal iştirak edirdi. Bu yardım iqtisadi, ideoloji, kadr hazırlığı və digər sahələri əhatə edirdi. SSRİ dövlətinin apardığı bu siyasət XX əsrin ikinci yarısında dünyanın hərbi-siyasi və iqtisadi cəhətdən iki sistemə bölünməsi ilə nəticələnmişdi. Müharibədən sonrakı illərdə Azərbaycanın beynəlxalq aləmdə diqqətəlayiq fəaliyyəti olmuşdur. Respublikanın beynəlxalq aləmdə həyata keçirdiyi əməkdaşlığının və əlaqələrinin əsas sahələrindən biri də onun dünyada gedən iqtisadi proseslərdə öz milli potensialının imkanları daxilində iştirakı və bu istiqamətdə geniş iqtisadi əlaqələr yaratmasıdır. Azərbaycanın malik olduğu təbii resursları və istehsal potensialı onun xarici iqtisadi əlaqələrdə fəal iştirakını təmin edirdi. 1960-1990-cı illərdə dünya pambıq istehsalının 3,57%-i, dünyada çıxarılan qazın 0,66%-i, neftin 0,43%-i Azərbaycanın payına düşmüşdür. Elektrik enerjisi, polad, dəmir filizi, mineral gübrələr, kükürd turşusu, sintetik kauçuk və

plastik kütlə kimi gərəkli məhsul növləri istehsalına görə isə Azərbaycan SSR SSRİ-də öndə gedən respublikalardan biri olmuşdur. Kənd təsərrüfatının əsasını təşkil edən pambıqçılıq, üzümçülük, tütünçülük, ipəkçilik, meyvəçilik və s. iqtisadi əlaqələrə imkan yaradırdı.

Azərbaycan SSR-nin ərazisi yer kürəsi ərazisinin 0,136%-ni, SSRİ ərazisinin 0,4%-ni, əhalisi isə 1960-1990-cı illərdə dünya əhalisinin təxminən 0,06%-ni, SSRİ əhalisinin 2,4%-ni təşkil etmişdir. Bu dövrdə Azərbaycanın malik olduğu neft, təbii qaz, müxtəlif minerallar, müalicə əhəmiyyatli mineral sular həm respublikanın iqtisadi inkişafında, həm də onun xarici iqtisadi əlaqələrinin genişləndirilməsində mühüm rol oynamışdır.

1960-1990-cı illərdə Azərbaycanın xarici iqtisadi və mədəni əlaqələrinin həyata keçirilməsinə Azərbaycan SSR-nin Nazirlər Kabineti, Dövlət Plan Komitəsi, Respublika Ticarət-Sənaye Palatası, Respublika Baş Xarici Turizm İdarəsi, Azərbaycan SSR Nazirlər Kabineti yanında keçmiş SSRİ Xarici İqtisadi Əlaqələr Nazirinin Müvəkkilinin İdarəsi, Vostokintorq (Şərqlə Xarici ticarət) İstehsalat Birliyinin Bakı şöbəsi, Azərintorq Birliyi, Respublika Aqrar Sənaye Komitəsi, müvaifiq nazirlik və baş idarələr məşğul olmuşdur.Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri öz məzmununa, əhatə dairəsinə və istiqamətlərinə görə ikitərəfli və çoxtərəfli olmuşdur. Bu əlaqələrin özü də müxtəlif dövrlərdə müxtəlif forma və həcmdə həyata keçrilmişdir. XX əsrin 50-60-cı illərində Azərbaycandan dünyanın müxtəlif ölkələrinə çoxçeşidli sənaye məhsulu göndərilirdi. Əgər 1956-cı ildə Azərbaycanın sənaye məhsulu 14 ölkəyə ixrac olunurdusa, 1957-ci ildə respublikadan artıq 20 ölkəyə məhsul ixrac edilirdi. İxrac olunan sənaye məhsullarının növləri də, həcmi də artmışdı. Azərbaycandan dünya ölkələrinə 1947-ci ildə 35, XX əsrin 60-cı illərində isə 280 adda sənaye məhsulu ixrac edilirdi. İxraca işləyən sənaye müəssisələrinin sayı 1947-1950-ci illərdə 5-dən 17-yə, 1960-1970-ci illərdə isə 60-a çatmışdı. Maşınqayırma sənayesi məhsulları əsas yer tuturdu. Azərbaycandan xarici ölkələrə ixrac olunan məhsulların

ümumi çəkisində neft sənayesi üçün avadanlıqlar əsas yer tuturdu. Azərbaycan 1945-1970-ci illərdə bu sahədə dünyanın 15-dən çox ölkəsi ilə əlaqə saxlayırdı. 1970-1990-cı illərdə bu əlaqələr daha geniş miqyasda olmuşdur. Azərbaycanın xarici iqtisadi əlaqələrinin daha effektli işləməsi üçün dövlət orqanları yaradılmışdı. 1970-1990-cı illərdə Azərbaycan 100-dən yuxarı xarici ölkəyə 400 adda məhsul ixrac edirdi. Xarici iqtisadi əlaqələrdə, ələlxüsus məhsul ixracında, respublikanın əsas sənaye mərkəzi kimi Bakı əsas rol oynayırdı. Onun 53-dən artıq müəssisəsi dünyanın 65 ölkəsinə öz məhsullarını ixrac edirdi. Həmin əlaqələrdə Bakı şəhərindən başqa Gəncə, Mingəçevir, Sumqayıt, Salyan, Zaqatala və başqa şəhərlərin sənaye müəssisələri də fəal iştirak edirdilər. Azərbaycan öz növbəsində dünyanın bir çox ölkələrindən respublikada yeni sənaye obyektlərinin tikilməsi üçün kompleks avadanlıqlar, maşın və aqreqatlar, avtomat sistemləri alırdı. Bu isə respublikada bir sıra yeni sənaye sahələrinin yaranmasında və inkişafında böyük rol oynadı. 1976-1980-ci illərdə xarici ölkələrdən idxal olunmuş məhsulların köməyi ilə Azərbaycanda 20-dən yuxarı aqrar-sənaye obyektləri tikilmiş, yenidən qurulmuş, Sumqayıtda kauçuk və superfosfat zavodlarında yeni texniki sahələr, Orqsintez, Kimyasənaye və Azərsu, Bakı kondisionerlər zavodu, Ələt ağac emalı kombinatı, Dərin dəniz özülləri zavodu tikilmiş, bəzi müəssisələr bərpa edilmiş və yenidən inşa edilmişdi. Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsində onun beynəlxalq sərgilərdə, yarmarkalarda iştirakı mühüm rol oynayırdı. Respublikada istehsal olunan sənaye məhsulları 1950-ci ildə Milanda keçrilmiş yarmarkada, 1958-ci ildə Belçikanın Brüssel şəhərində keçrilən yarmarka-konfransda təmsil olunmuşdu.1965-ci ildə ilk dəfə SSRİ respublikalarından yalnız Azərbaycan İranın paytaxtı Tehranda keçrilən ticarət-sənaye sərgisində iştirak etmişdi. 1966-cı ildə isə respublikamız Dəməşqdə 13-cü Beynəlxalq yarmarkada (bu sərgidə respublikanın 40 sənaye müəssisəsinin 300-dən çox məhsulu nümayiş etdirilmişdi), 1967-ci ildə Kanadanın Monreal şəhərində keçrilən "Ekspo-67" ümumdünya sərgisində,

həmin ildə Buxarestdə keçrilən xalq ticarət-sənaye sərgisində, 1968-ci ildə Əlcəzairdə 5-ci Beynəlxalq yarmarkada özünün 51 sənaye müəssisəsinin istehsal etdiyi 360 məhsul növü ilə iştirak etmişdi. 1970-1990-cı illərdə də Azərbaycan SSR-nin ilk növbədə beynəlxalq sərgilərdə iştirakı daha da geniş miqyas almışdır. Azərbaycan Respublikasının dünyanın müxtəlif dövlətləri ilə beynəlxalq iqtisadi əlaqələri yaradılmışdı. Azərbaycanla sosialist dövlətləri arasında iqtisadi əlaqələr daha geniş idi. Əgər 1966-cı ildə Azərbaycan həmin ölkələrə 180 adda məhsul göndərmişdisə, 70-80-ci illərdə onların sayı artıq 250-yə çatmışdı. Həmin illərdə respublikanın 100-dən yuxarı sənaye müəssisəsi sosialist ölkələrinə məhsul ixrac edirdi. Azərbaycandan bu ölkələrə göndərilən məhsulların arasında kənd təsərrüfatı məhsulları mühüm yer tuturdu. Azərbaycanın sosialist ölkələrindən aldığı məhsullar içərisində kənd təsərrüfatı texnikası idxalı əsas yerlərdən birini tuturdu. 1971-1979-cu illərdə Azərbaycan Bolqarıstandan, Çexoslovakiyadan, Rumıniyadan, ADR-dən, Macarıstandan kənd təsərrüfatının müxtəlif sahələrində istifadə olunan traktor, kombayn və başqa maşınlar almışdı. SSRİ ilə Asiya və Afrika dövlətləri arasında yaranan iqtisadi əlaqələrin inkişafında Azərbaycanın da özünəməxsus yeri olmuşdur. Məsələn, XX əsrin 70-ci illərdə Azərbaycan Suriyaya, İrana, Əfqanıstana, MƏR-ə, Pakistana, Şrilankaya sənaye müəssisəsinin məhsullarını göndərmişdi. Ölkəmizdən Afrika ölkələri:Əlcəzair, MƏR, Liviya, Mali, Mərakeş, Sudan, Tanzaniya, Efiopiya, Anqola və başqa ölkələrə 50 sənaye müəssisəsinin 35 adda məhsulları göndərilirdi. İran ilə SSRİ-nin iqtisadi və mədəni münasibətlərində Azərbaycan SSR mühüm yer tuturdu. 1953-cü il iyulun 27-də bağlanmış "İqtisadi və texniki əməkdaşlığa dair" müqaviləyə əsasən Araz çayı üzərində su anbarından, SES və baarjdan ibarət hidrotexniki kompleksin tikilməsi nəzərdə tutulmuşdu. Kompleks 1971-ci ildə istifadəyə verildi. Onun tikintisi, Naxçıvan MSSR-in və Cənubi Azərbaycanın həmsərhəd vilayətlərinin elektrik enerjisi və su tələbatının ödənilməsində mühüm rol oynadı. Araz su anbarı və elektrik

stansiyasının layihələndirilməsi və tikintisi Azərbaycan SSR təşkilatları tərəfindən müvəffəqiyyətlə icra olunmuşdu. 1970-ci illərdə SSRİ ilə İran arasında bağlanmış əməkdaşlıq sazişlərinin bir sıra müddəaları bilavasitə Azərbaycan SSR ilə bağlı idi. Buraya Xudafərin körpüsü yaxınlığında ikinci hidrotexniki kompleksin tikintisi, İrandan Azərbaycan ərazisi vasitəsilə SSRİ və Qərbi Avropaya qaz kəmərinin çəkilməsi, Qəzvin-Təbriz dəmiryolunun elektrikləşdirilməsi kimi iri layihələr daxil idi. Lakin, sonrakı siyasi və geosiyasi proseslər, İranda İslam inqilabının qələbəsi, SSRİ-nin süqutu bu layihələrin həyata keçməsinə imkan vermədi. Yanlız Azərbaycan Dövlət Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan hökümətinin iradəsi və təşəbbüsü ilə bu layihələrin bəzilərini yenidən gündəmə gətirmək mümkün oldu. Azərbaycanın qonşu İranla ticarət əlaqələrinə ölkələrin maşınqayırma, cihazqayırma, metallurgiya, neft-kimya, tikinti, yüngül və yeyinti sənaye müəssisələri cəlb olunmuşdu. Bakı ilə yanaşı, Naxçıvan, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Lənkəran və başqa sənaye şəhərlərinin müəssisələri qonşu ölkə üçün qiymətli avadanlıqlar və məmulatların hazırlanmasında iştirak edirdi. 1960-1970-ci illərdə Azərbaycanın sənaye müəssisələrinin 30-u İrana 70 adda məhsul ixrac edirdi. 1970-ci illərdə Sovet-İran əlaqələrində Azərbaycan daha fəal iştirak etməyə başladı ki, bu əlaqələrdə respublikamızın rolu və çəkisi daha da artdı. Azərbaycan SSR 1960-1990-cı illərdə İranda keçrilən sərgi və yarmarkalarda öz malları ilə təmsil olunurdu. İlk dəfə 1965-ci ildə Tehranda keçrilən ticarət-sənaye sərgisində Azərbaycan SSR neft avadanlığı və geofizika cihazları, neft və kimya sənaye məhsulları və s. nümayiş etdirmişdir. İran əhalisinin böyük marağına səbəb olmuş bu sərgini yerli kütləvi informasiya vasitələri iki qonşu xalq arasında dostluğun möhkəmləndirilməsində mühüm vasitə kimi qiymətləndirmişdir. Qərbi Avropa ölkələrindən Belçika, Avstriya, Finlandiya, AFR, Böyük Britaniya, Fransa, İtaliya, İspaniya, ABŞ və digər dövlətlərin həmin dövrdə Azərbaycan SSR-lə əlaqələri olmuşdur. Bu ölkələrə respublikadan 200-ə yaxın məhsul növü ixrac edilmişdir. Öz növbəsində isə Azərbaycana

həmin ölkələrdən 350 adda müxtəlif məhsullar - avadanlıq, maşın, texniki vasitələr alınmışdı. Təkcə 1981-ci ildə Fransadan Azneft üçün soyuducu, Dərin özüllər zavodunda platformaların tikintisi üçün, Sumqayıt Kimya Birliyi üçün avadanlıq idxal edilmişdi. XX əsrin 80-ci illərində isə Azərbaycanda bir sıra Qərb ölkələri ilə birgə istehsal sahələri işə başlamışdı. Məsələn, 1989-cu ildə istismara verilmiş Bakı-Milan bu cür ilk müəssisələrdəndir. Bu müəssisə Bakı kondisioner Birliyi ilə İtaliyanın Merlopi-Pricetti firması arasında 1987-ci ildə bağlanmış müqavilə əsasında Bakıda fəaliyyətə başladı. 1988-ci ildən isə "Delta" Azərbaycan-Türkiyə birgə müəssisəsi işə başlamış, "Bakı kondisioner" Birliyi ilə ABŞ-ın "Ceneral elektrik" şirkəti arasında birbaşa əlaqələr yaranmışdı. Ümumiyyətlə, 1945-1990-cı illərdə Azərbaycan dünyanın müxtəlif dövlətləri ilə beynəlxalq iqtisadi əlaqələr yaratmış və həmin əlaqələrin ən müxtəlif formalarından istifadə etmişdir.

Mədəni əlaqələr. Azərbaycanın beynəlxalq mədəni əməkdaşlığının əsas forma və istiqamətlərinin biri onun elmi potensialının bu istiqamətdə dünyada gedən proseslərdə iştirakı olmuşdur. Azərbaycanın elmi fikri beynəlxalq aləmdə, xüsusən XX əsrin 50-ci illərindən yaxından tanınmağa başlanmışdır. Bu işdə 1953-cü il mayın 6-da Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyəti nəzdində beynəlxalq elmi əlaqələr üzrə yaradılmış xüsusi komissiyanın böyük rolu olmuşdur. Həmin dövrdən Azərbaycan elminin sədası, demək olar ki, dünyanın bir çox qitələrindən gəlməyə başlamışdı. Azərbaycan alimləri elmin bir çox sahələrində xarici ölkələrin alimləri ilə birgə yeni-yeni elmi problemlərin həllində fəaliyyət göstərmişlər. 1959-1965-ci illərdə təkcə sosialist ölkələri alimləri ilə 150dəfə belə tədbirlər keçrilmişdir. Azərbaycan alimləri ilə Çexoslovakiya alimlərinin elmi problemlərin birgə həllinə həsr olunmuş yaradıcılıq və elmi görüşləri olmuşdur. Bunlardan başqa, 1961-ci il yanvarında kimya sahəsində reaktiv və izotoplar elmi nəticələrinə həsr olunmuş sərgi, noyabrda isə Azərbaycan alimlərinin iştirakı ilə Berlində fizika və kimyaçıların beynəlxalq müşavirəsi keçrilmişdir. 1962-ci ilin sentyabrında

Bakıda QİYŞ-in (Qarşılıqlı İqtisadi Yardım Şurası) iştirakçısı olan ölkələrin mütəxəssislərinin Bakı görüşü baş tutmuşdur. 1963-cü ildə Çexoslovakiyada tibb sərgisi keçrilmiş, bu sərgidə çex sənayesinin 122 adda tibb texnikası nümayiş etdirilmişdi. 1963-cü ildə Praqada texniki problemlər üzrə alimlərin müşavirəsi, 1964-cü ildə Azərbaycan-Çexoslovakiya Elmi koordinasiya şurasının, həmçinin Elmi-texniki şuralarının birgə iclası təşkil edilmişdir.Bolqarıstan alimləri ilə torpaqşünaslıq və aqrokimya sahəsində, Macarıstan alimləri ilə riyaziyyat, kibernetika, fiziologiya və bitkilərin qidalanması sahəsində, ADR alimləri ilə astrofizika, neft-kimya, aqrokimya və kibernetika sahəsində, Rumıniya alimləri ilə neft-kimya, qeyri-üzvi və fiziki kimya, təbiətin mühafizəsi sahələrində, Çexoslovakiya alimləri ilə neft-kimya, bitkilərin bioloji mühafizə üsulu, zoologiya və digər elmi sahələrdə Azərbaycan alimlərinin sıx əməkdaşlığı olmuşdur. Həmin dövrdə eyni zamanda qeyd olunan ölkələrlə geniş elmi mübadilə də aparılmış, alimlərin ezamiyyəti təşkil edilmişdir. Təkcə 1963-1965-ci illərdə göstərilən ölkələrdə 64 Azərbaycan alimi elmi ezamiyyədə olmuş, dünyanın müxtəlif ölkələrində, o cümlədən ABŞ, Fransa, İngiltərə, İtaliya, Asiya, Afrika və Latın Amerikası ölkələrində keçrilən 100-dən artıq beynəlxalq elmi forumlarda iştirak etmişdilər. Öz növbəsində xarici ölkələrin müxtəlif elm sahəsinin nümayəndələri tez-tez Bakıda elmi ezamiyyədə olmuş, birgə elmi-tədqiqat işləri aparmışlar. 1959-1970-ci illərdə Azərbaycanda 300-dən çox xarici ölkənin elmi nümayəndələri səfərdə olmuşlar. Onlardan 180 nəfəri sosialist ölkələrindən, 120 nəfəri isə kapitalist və inkişaf etməkdə olan ölkələrdən olmuşdur. 1970-1990-cı illərdə Azərbaycan elmi beynəlxalq elmi əməkdaşlığın müxtəlif formalarında təmsil olunmuşdur. 5000-ə qədər Azərbaycan alimi xarici ölkələrdə yaradıcılıq səfərində olmuş, 3000-ə yaxın öz xarici həmkarını respublikamızda qəbul etmişlər. Azərbaycan EA-nın alimləri hər il 51 ölkənin elmi təşkilatı və mərkəzi ilə əlaqə saxlamış və müxtəlif elm sahələrini əhatə edən 40 problem üzərində birgə tədqiqat aparmışlar. 1970-1990-cı illərdə Azərbaycan Elmlər

Akademiyasının elmin müxtəlif sahələrində çalışan 4000-ə qədər nümayəndəsi xarici ölkələrdə elmi-tədqiqat işi aparmaq, beynəlxalq tədbirlərdə, konqreslərdə, simpoziumlarda, konfranslarda və müşavirələrdə iştirak etmək, elmi-texniki kömək göstərmək və digər elmi məqsədlər üçün xarici ölkələrdə olmuşlar. Azərbaycan EA həmin dövrdə xarici ölkələrin 2500-ə qədər alimini qəbul etmişlər. Azərbaycanın beynəlxalq elmi əlaqələri həmçinin beynəlxalq konfransların, simpoziumların və digər elmi forumların keçrilməsi yolu ilə də inkişaf etdirilmişdir. Azərbaycan EA-nın Fundamental Elmi Kitabxanası həmin illərdə 53-ə qədər xarici ölkənin elmi mərkəzlərilə əməkdaşlıq etmişdir, beynəlxalq kitab mübadiləsi yolu ilə xarici ölkələrdən müxtəlif elmi ədəbiyyat almış, öz növbəsində isə, elmi ədəbiyyat göndərmişdir. M.F.Axundov adına Dövlət Kitabxanası xarici həmkarlar ilə elmi ədəbiyyat mübadiləsi etmişdir. 1981-1985-ci illərdə isə respublika elminin müxtəlif istiqamətlərinin nümayəndələri 60-dan yuxarı beynəlxalq konqreslərin, konfransların, simpozium və müşavirələrin iştirakçısı olmuşdur. Respublika alimlərinin əsərləri 30 dildə 60-dan artıq ölkədə çapdan çıxmışdır. 20 nəfər Azərbaycan alimi müxtəlif beynəlxalq elmi təşkilatların üzvü seçilmişlər.38-i Bakıda olmaqla, 90-dan çox beynəlxalq elmi konfrans, simpozium, konqres və digər elmi xarakterli faydalı tədbirlər keçrilmişdir. Mədəni əlaqələrin genişlənməsində Azərbaycan öz milli-mədəni potensialının digər imkanlarından da fəal istifadə etmişdir. Bu əlaqələrin inkişafında milli incəsənət önəmli rol oynamışdır. Respublikadan xarici ölkələrə not və valların göndərilməsi, musiqi kollektivlərinin qarşılıqlı səfərləri, beynəlxalq musiqi festivalları və incəsənət xadimlərinin şəxsi əlaqələri bu sahədə olan əlaqələrin əsas istiqamətlərindən olmuşdur. Xarici ölkələrə Azərbaycan bəstəkarlarının notları göndərilirdi, Britaniya və Cənubi Azərbaycana Koroğlu operasının partiturası və musiqi notları, digər ölkələrə isə bir sıra əsərlər bəstəkarların adından hədiyyə kimi verilmişdir.1953-cü ildə respublikada qonaq olan Çexoslovakiya nümayəndə heyətinə Azərbaycan bəstəkarlarının əsərlərinin notları

və valları təqdim edilmişdi. Belə hədiyyələr 1954-cü ildə Bakıda çinli qonaqlara da verilmişdi. Azərbaycan incəsənət ustaları 1958-ci ildə Brüsseldə keçrilən Ümumdünya sərgisində SSRİ Milli mədəniyyət günlərində öz konsert proqramları ilə uğurla çıxış etmişlər. Azərbaycan Dövlət rəqs ansamblı Çində qastrol səfərində olmuş, SƏR-in paytaxtı Dəməşqdə keçrilən Beynəlxalq yarmarkada isə Azərbaycanın altı müğənnisi iştirak etmişdir. 1959-cu ildə artistlərimiz Bolqarıstanda, Tunis və Mərakeşdə, Əfqanıstan artistləri isə Bakıda konsertlər vermişlər. Həmin il Bakıda 11 xarici ölkənin incəsənət ustaları konsertlə çıxış etmiş, dünyanın 16 ölkəsinə isə bəstəkarlarımızın 130 əsərinin notu, 130 val göndərilmişdir. Bakıda ingilis estrada müğənnisi Cerri Skot, ABŞ-ın Miçiqan nəfəsli orkestri, skripkaçı Rudcier Riçç, bəzi artistlər, Kuba, Meksika, Yuqoslaviya, Fransa, Türkiyə, Kanada sənətçiləri konsertlər vermişlər. ADR-də keçirilən festivalda respublikamızın artistləri, rəqqasları və müğənniləri iştirak etmişlər, Bayatı-Şiraz muğamı və klassik opera musiqisi Şeyx Sənan səsləndirilmişdir (1961). Hind rəqqası Zəhra Sahalyi Bakıda konsertlər vermişdir. Artistlərimiz ADR-də, Afrika ölkələri və İraqda konsert proqramı ilə çıxış etmişlər, Bolqarıstanda keçirilən Azərbaycan mədəniyyəti günləri ilə əlaqədar bu ölkəyə bəstəkarlarımızın bir sıra əsərləri göndərilmişdir. Dünya şöhrətli sənətçilər Rəşid Behbudov İranda, Niyazi isə Türkiyədə çıxış etmişlər. 1964-cü ildə Braziliya dirijoru Xose Sikeyro və müğənnisi Alis Ribeyro, İspaniya pianoçusu Xose Torlesilhas, Avstriya, İran, Meksika artistləri, ABŞ-ın "Pro-Muzik" kamera orkestri Bakıda konsertlərilə çıxış etmişlər. 1965-ci ildə respublikanın incəsənət ustaları Ərəb ölkələrində və İranda konsertlər vermişlər. Rəşid Behbudovun rəhbərliyi altında Azərbaycan incəsənət ustaları 1966-cı ildə Hindistanda keçrilən sovet mədəniyyəti festivalında iştirak etmiş və 10 min nəfərdən çox dinləyicisi olan salonda bir neçə konsert vermişlər. Artistlərimiz həmin ildə Dəməşqdə keçirilən XIII Beynəlxalq sərginin və İran, Hindistan, Türkiyə, ADR-də konsertlər vermişlər. Bəstəkarlarımız ABŞ, Kanada, İngiltərə, Fransa, İtaliya, Türkiyə və başqa ölkələrə

səfər etmişlər. Hindistan, Yuqoslaviya, Monqolustan, Çexoslovakiya, Türkiyə, Fransa, İraq bəstəkarları isə respublikamızda səfərdə olmuşlar, Bakıda Bolqarıstan, Kuba, Çexoslovakiya və Monqolustan musiqi həftələri keçrilmişdir. Azərbaycanın beynəlxalq əlaqələrində incəsənətin başqa sahələrinin - rəssamlıq, memarlıq və heykəltəraşlığın da rolu az olmamışdır. Bu sahələrin nümayəndələri xarici ölkələrdə yaradıcılıq ezamiyyətində olmuş, görüşlər keçirmiş, sərgilərini təşkil etmişlər. Dəməşqdə Azərbaycanın 55 rəssamının rəsm əsərlərinin sərgisi keçrilmiş, Varşavada, Osloda əsərlərimiz nümayiş etdirilmişdi. 1969-cu ildə Bakıda Norveç, Hindistan, Bolqarıstan, ADR rəssam və heykəltəraşlarının sərgisi keçirilmişdir. 1970-ci ildə "Dost Hindistanla" seriyasından əsərlərinə görə görkəmli rəssam M. Abdullayev Cəvahirləl Nehru adına mükafata layiq görülmüşdü. Rəssamlarımızın əsərlərindən ibarət sərgilər dünyanın bir neçə ölkəsində təşkil edilmiş, 11 görkəmli rəssam dünyanın beş ölkəsində səfərdə olmuşdur. ADR və Bolqarıstan rəssamlarının nümayəndə heyətləri Bakıya gəlmişlər.1945-1990-cı illərdə Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin ən mühüm formalarından biri də onun mədəniyyət günlərində, ongünlüklərdə və başqa mərasimlərdə iştirakı olmuşdur. 1957-ci il sentyabrında Bakıda Albaniya - Sovet dostluğu aylığı keçirilmişdi. 1963-1969-cu illərdə Bolqarıstanda Azərbaycan mədəniyyəti ongünlüyü, Azərbaycanda Bolqar mədəniyyəti günləri olmuşdur. Bolqarıstanda həmin dövrdə Plovdiv, Ruse, Silistr, Razqrad və başqa şəhərlərdə təntənəli gecələr, Azərbaycanda isə Gəncə, Bakı, Sumqayıt, Şəki, Zaqatala və Mingəçevir şəhərlərində görüşlər (1963-cü il), Bakıda Çexoslovakiya (1964-cü il), Macarıstan mədəniyyət ongünlüyü (1965-ci il), Kubada (1967-cı il) Azərbaycan mədəniyyəti ongünlüyü keçrilmişdir. Mədəniyyət, elm, incəsənət xadimləri çoxlu görüşdə iştirak etmişlər. 1968-cı ildə Azərbaycan mədəniyyəti günləri Hindistanda və Suriyada olmuşdur. Bakıda Kuba və Suriya mədəniyyəti günləri, 1969-cu ildə isə Polşa və Hindistanda Azərbaycan mədəniyyəti günləri keçrilmişdir. Bu ölkələrdə

Azərbaycan musiqiçilərinin konsertləri təşkil edilmişdir. Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin inkişaf edib genişlənməsində, xalqın milli mədəni irsinin dünyaya yayılmasında respublikanın yazıçı və şairlərinin də fəal rolu olmuşdur. Bu istiqamətdə aparılan işlər XX əsrin 50-ci illərindən başlayaraq genişlənməyə başlamışdır. Bu əlaqələr müxtəlif formalarda – şəxsi və yaradıcılıq əlaqələri yaratmaq, müşavirə və konqreslərdə iştirak etmək və digər yollarla həyata keçrilirdi. 1958-ci ilin oktyabrında Bakıda Asiya və Afrika yazıçılarının yüksək səviyyədə konfransı keçrilmişdi. Bakıda dünyanın 30-a yaxın ölkəsinin nümayəndəsinin iştirakı ilə Asiya və Afrika ölkələri yazıçılarının müşavirəsi keçrilmişdi. 1967-1968-ci illərdə bir neçə xarici ölkənin yazıçıları respublikada səfərdə olmuşlar. 1968-ci ildə M.P.Vaqifin yubileyi münasibətilə İran, Türkiyə, ADR, Bolqarıstan, Macarıstan, Rumıniya və Sudandan çoxlu şair, yazıçı və ədəbiyyat xadimi Bakıya gəlmişlər. Respublikanın beynəlxalq mədəni əlaqələri 70-90-cı illərdə daha geniş vüsət almışdır. O dövrdə Azərbaycan dünyanın 120 ölkəsində mövcud olan 860-dan çox təşkilatla mədəni əlaqə saxlamışdır. Hər il Azərbaycan mədəniyyətinin yüzlərlə nümayəndəsi, onlarca bədii yaradıcı kollektivi, aktyor qrupu xarici ölkələrə getmiş və o qədər də xarici dövlətlərin bu və ya digər janr sahələrində çalışan mədəniyyət xadimləri Azərbaycana gəlmişlər. Respublika mədəniyyətinin beynəlxalq həyatın bu istiqamətlərindəki əlaqələri əsasən incəsənətin teatr, heykəltəraşlıq, televiziya və radio kimi sahələrini də əhatə etmişdir. Mədəniyyət xadimləri nümayəndələrinin və yaradıcı kollektivlərinin mübadiləsi, şairlərin, yazıçıların əsərlərinin qarşılıqlı nailiyyətlərinin təbliğinə xidmət edən birgə tədbirlərin keçrilməsi, mədəniyyət günləri, festival və sərgilər, dram və musiqi kollektivlərinin yaradıcı əlaqələri, jurnalistlərin qarşılıqlı gediş-gəlişi, kinofilmlərin, radio və televiziya verilişlərinin mübadiləsi formasında həyata keçrilmişdir. Həmin illərdə Azərbaycanın çoxlu mədəniyyət xadimi, yaradıcı birliklərinin nümayəndəsi, 80-dən çox kollektivi, ifaçı qruplar, minlərlə musiqiçisi, xanəndə və aktyorları xarici ölkələrdə olmuşdur.

Ümumiyyətlə, ölkəmizin incəsənətinin nümayəndələri 1970-1990-cı illərdə 120-dən çox xarici ölkələrə yaradıcılıq səfərinə çıxmış,160-dan çox xarici ölkənin incəsənət nümayəndələri isə Azərbaycanda yaradıcılıq səfərində olmuşdur. Respublikanın incəsənət xadimləri xarici ölkələrdə çoxlu konsert vermiş və görüşlər keçirmişlər. 1978-1981-ci illərdə sosialist ölkələrindən Yuqoslaviya, Bolqarıstan, Çexoslovakiya, Macarıstan, Polşanın incəsənət ustaları ölkəmizdə konsertlər vermişlər. 1970-1990-cı illərdə Respublikamızın beynəlxalq mədəni əlaqələrinin formalarından biri də onun xarici ölkələrlə keçirdiyi nəşr olunmuş ədəbiyyat mübadiləsi, kitab sərgi və yarmarkalarında iştirakı olmuşdur. Həmin illərdə həyata keçirilən beynəlxalq ədəbi və mədəni əlaqələrin bu istiqamətdə əməkdaşlığının coğrafiyası və əhatə dairəsi xeyli genişlənmişdir. Azərbaycan oxucuları dünyanın görkəmli şair və yazıçılarının əsərləri ilə tanış olmaq imkanları əldə etmiş və öz növbəsində Azərbaycan müəlliflərinin əsərləri isə xarici ölkə əhalisinin diqqət mərkəzinə yol açmışdır.Azərbaycan nəşriyyatlarında onlarla xarici ölkə yazıçı, şair və dramaturqunun əsərləri tərcümə edilib çap olunmuşdur. Həmin illərdə respublikamızda çex və slovak müəlliflərinin əsərləri böyük tirajla nəşr edilmişdir. 80-ci illərdə Azərbaycan əhalisi məşhur yapon lirik poeziya janrı xokku ilə tanış olmuşlar. Gənclik nəşriyyatı Yaponiyanın orta əsrlərdən tutmuş ta bizim günlərimizədək olan 52 görkəmli şair və yazıçısının birgə külliyyatını nəşr etmişdir. Yazıçı və Gənclik nəşriyyatları tərəfindən ABŞ və Kanada, eləcə də Böyük Britaniya xalq nağılları çap edilmişdir. Həmçinin bu nəşriyyatlar Əfqanıstanın sifarişlərini yerinə yetirərək Nizaminin, Xaqaninin və müasir Azərbaycan ədiblərinin əsərlərini fars dilində çap edərək, həmin ölkəyə göndərmişdi. Təkcə 1985-ci ildə xarici ölkələrə 1500-dən artıq Azərbaycan müəllifinin əsərləri göndərilmişdir. M.İbrahimbəyovun "Ondan yaxşı qardaş yox idi" kitabı Budapeştdə macar dilində çap edilmişdir. Dəməşqdə S.Vəliyevin əsərləri nəşr edilmişdir. Madriddə "Azərbaycan xalq nağılları" böyük həcmdə və gözəl illüstrasiya ilə buraxılmışdır. Səməd Vurğunun əsərləri Yaxın və

Orta Şərq ölkələrində çap olunmuşdur. 1987-ci ildə Londonda SSRİ xalqlarının klassik ədəbiyyatından toplanan və çap olunan külliyyatına M.Ə.Sabirin, S.Vurğunun, R.Rzanın əsərləri də daxil edilmişdir. Suriya nəşriyyatının çap etdiyi "Sovet poeziyası antologiyası"nda Azərbaycan ədəbiyyatını Məmməd İsmayıl təmsil etmişdir. Həmin il Türkiyədə "Müasir Azərbaycan poeziyası və nəsri antologiyası" adlı iki kitab çapdan çıxmışdır. Antologiyaya Azərbaycan müəlliflərinin hekayələri daxil edilmişdir. Azərbaycanın kitab sahəsində beynəlxalq mədəni əlaqələri kitab yarmarka və sərgiləri vasitəsilə həyata keçirilmişdir. 1981, 1982-1983-cü illərdə ədəbiyyat nümunələri respublikanın Leypsiq beynəlxalq kitab yarmarkasında, ikinci Moskva beynəlxalq kitab sərgisində, üçüncü-dördüncü Moskva Beynəlxalq sərgi-yarmarkasında, 1986-cı ildə Bakıda ADR yarmarkasında, həmin ildə Frankfurtda 38-ci Beynəlxalq kitab yarmarkasında, 1987-ci ildə Bakıda keçirilən Sloveniya kitab çapçıları, poliqrafiya və kağız sənayesi nailiyyətləri sərgisində, Moskva kitab-sərgi yarmarkasında və digər beynəlxalq sərgi və yarmarkalara çəxarılmışdır. Beləliklə, bəhs olunan dövrdə Respublikanın mədəniyyət sahəsində potensialı öz milli bazası və çərçivəsində dünya mədəni əlaqələr sistemində özünəməxsus yeri olmuşdur. Azərbaycan mədəniyyətinin müxtəlif sahələrinin inkişafı haqqında beynəlxalq aləmdə düzgün fikir formalaşdırılması istiqamətində mühüm nəticələr əldə edilmişdir.

XIX FƏSİL
Azərbaycan dövlətçiliyinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (1991-ci il fevral-2003).

Dövlət Müstəqilliyinin bərpası ərəfəsində Azərbaycanda siyasi vəziyyət. SSRİ-də davam edən inzibati-amirlik rejimi Kommunist Partiyasının rəhbər və istiqamətverici rolunu dəyişdirdi, o, sosial-iqtisadi, ictimai-mədəni, idarəçilik siyasəti problemlərini həll etmək iqtidarını itirməyə başladı. Yenidənqurma və digər tələsik tədbirlərlə çoxmillətli sovet dövlətini labüd iflasdan xilas etmək mümkün deyildi.

Tarixin bu dövründə Azərbaycan Xalq Cəbhəsi artıq xalqa rəhbərlik edə bilmədi. Onun başçıları hakimiyyəti bölüşdürmək barədə Azərbaycan iqtidarı ilə sövdələşməyə başladılar və xalq içərisində nüfuzlarını itirdilər. İqtidar və AXC liderləri 1990-cı il mayın 17-də görüşüb Məşvərət Şurası yaratdılar.

1990-cı il martın 15-də SSRİ prezidenti vəzifəsi təsis olundu. Buna müvafiq olaraq Azərbaycan SSR-də də prezident idarəçilik sistemi yaradıldı. Azərbaycan SSR Ali Sovetinin sessiyası 1990-cı ilin mayın 18-də müxalifətin maneəsinə rast gəlmədən prezident vəzifəsini təsis etdi və mayın 19-da sessiya Ayaz Mütəllibovu (1938-2022) respublikanın ilk prezidenti seçdi.

İqtidar bir sıra güzəştlərə getdi. Demokratlara qarşıdakı seçkilərdə deputat yerləri vəd olundu. 21 may tarixli prezident Fərmanı ilə 28 May "Azərbaycan dövlət quruluşunun dirçəliş günü" elan edildi. Həmin gün demokratik qüvvələr Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağını keçmiş Azərbaycan parlamenti binası üzərində yenidən qaldırdılar. Fövqəladə vəziyyət olmasına baxmayaraq, Bakıda, Gəncədə və respublikanın başqa şəhərlərində 28 May münasibətilə mitinqlər, nümayişlər keçrildi.

Bütün bu tədbirlərə baxmayaraq, əhalinin bir hissəsi Xalq Cəbhəsi liderlərinin qeyri-ardıcıl movqeyini görüb bu təşkilatdan uzaqlaşmağa başladı. Heydər Əliyevin qeyd etdiyi kimi, "AXC qısa bir müddətdə özünü Azərbaycan ziyalılarının əsas kütləsindən

təcrid etdi, düzgün elmi təhlil, siyasi proqnozlar əsasında ümummilli platforma yaratmaq əvəzinə populist çıxışlara üstünlük verdi. Xalq tez başa düşdü ki, onun ən pak hissləri siyasi alverə, kiminsə ucuz siyasi ambisiyalarının gerçəkləşməsinə xidmət edir".

Xalq bütün ümidini Heydər Əliyevə bağlamışdı. Qanlı Yanvardan sonra Azərbaycan xalqının öz qüdrətli rəhbəri ilə birləşəcəyindən qorxuya düşən imperiya və respublika başçıları Heydər Əliyevin Azərbaycana qayıtmasına əngəl olmağa çalışdılar. Ayaz Mütəllibov Moskvaya - Heydər Əliyevə xəbər göndərib bildirmişdi ki, onun qayıdışı ilə "Azərbaycanda böyük qarışıqlıqlar baş verə bilər". Bakı hava limanında Heydər Əliyevi qarşılayacaq şəxslərdən biri, görkəmli naşir Əjdər Xanbabayev 1990-cı il mayın 30-da qətlə yetrildi.

Xəbərdarlıqlara baxmayaraq, tarixin bu məsuliyyətli və çətin dövründə xalqı ilə bir olmağı, ona kömək etməyi vacib bilən Heydər Əliyev 1990-cı il iyulun 20-də təyyarə ilə Moskvadan Bakıya qayıtdı. Lakin iqtidar o qədər təşvişə düşmüşdü ki, bir qrup əlaltısının, habelə ondan hakimiyyət bölgüsü gözləyən bəzi sol müxalif qüvvələrin iştirakı ilə təyyarə meydanında ona qarşı piket təşkil etdirmişdi. Heydər Əliyev şəhərdə gəzərkən ətrafına xeyli adam toplaşırdı. İyulun 22-də o, Naxçıvana getdi. Həmin gün o, Naxçıvanda, Azadlıq meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən izdihamlı mitinqə dəvət olundu və orada çıxış etdi.Respublikanın müxtəlif bölgələrindən gəlmiş nümayəndələrlə görüşlər keçirdi, onları müstəqillik uğrunda axıradək mübariz olmağa çağırdı.

Azərbaycan SSR və Naxçıvan MSSR Xalq Deputatları sovetlərinə seçkilər kampaniyası başlaması ilə əlaqədar 1990-cı il iyulun 28-də respublika demokratik qüvvələrinin forumunda 20-dən artıq ictimai təşkilatın iştirak etdiyi "Demokratik Blok" (Demblok) yaradıldı. Seçki komissiyalarına cəbhənin və digər ictimai təşkilatların nümayəndələri də salındı. Seçkilər alternativ əsasda sentyabrın 30-da keçrildi. Bəzi dairələrdə oktyabrın 14-də və dekabrın 16-da təkrar seçkilər oldu. Kommunistlərin qüvvələri

səfərbər etməsi, habelə fövqəladə vəziyyət, repressiyalar seçkilərin nəticəsinə təsir göstərdi. Azad və ədalətli rəqabət təşkil etmək mümkün olmadı. Qeyri-demokratik seçki qanununun özünü də rəhbər dairələr biabırçı şəkildə pozurdular. Bu yolla onlar parlamentdə yerlərin çoxunu kommunistlərə verdilər.

Demblokun cəmi 30 nümayəndəsi Azərbaycan SSR Ali Sovetinə Deputat seçildi. Heydər Əliyev Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçildi.

Süqutu labüd olan SSRİ-ni xilas etmək üçün Moskva yeni cəhd kimi SSRİ-nin taleyi məsələsini ortaya atmışdı. Yeni İttifaq müqaviləsi hazırlanmış və mətbuatda dərc edilmişdi. Azərbaycan rəhbərliyi bu layihənin hazırlanmasının iştirakçısı olmuş və SSRİ Ali Sovetinin sessiyasında onu müdafiə etmişdi. Heydər Əliyev respublika başçılarının bu mövqeyini Naxçıvan MR Ali Məclisinin 1991-ci il 14 yanvar tarixli sessiyasında kəskin tənqid etdi, göstərdi ki, Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy bildirmək xalqımızın qarşısında cinayətdir. Respublika Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında Heydər Əliyev SSRİ-nin saxlanmasına münasibət bildirilməsi üçün təşkili nəzərdə tutulan Ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxdı. Heydər Əliyev respublika rəhbərliyinin əməldə müstəqillik əleyhinə olduğunu, bunu iqtisadi çətinliklər, uydurma vətəndaş müharibəsi təhlükəsi kimi amillərlə əsaslandırmağa çalışdığını, Bakıda fövqəladə vəziyyəti ləğv etmək istəmədiyini və bütün bunların hakimiyyəti əldə saxlamaq niyyətindən doğduğunu göstərdi.

SSRİ-nin saxlanılmasına münasibət bildirmək üçün kommunistlər birləşib referendumda Azərbaycanın iştirakı haqqında qərar qəbul etdilər. Ayaz Mütəllibov hökuməti elə başa düşürdü ki, Ermənistanın boykot etdiyi referendumda Azərbaycanın iştirakı Moskvanın ölkəmizə xeyirxah münasibət bəsləməsinə səbəb olacaq. Lakin bu xülya idi.

Respublikanı nümayişlər və tətillər dalğası bürüdü. Xalqın İttifaq Müqaviləsinə, SSRİ-yə münasibət üzrə referenduma qarşı

çıxması müstəqillik hərəkatının parlaq təzahürü idi.

Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə Naxçıvan MR Ali Məclisi 1991-ci il martın 14-də referendumda iştirak etməmək haqqında qərar qəbul etdi. İqtidarın bunu separatçılıq kimi qiymətləndirməsi, əhalini yolundan döndərə bilmədi. Azərbaycanın demokratik qüvvələri referendumu boykot etdilər.

On gün (qanunla iki ay olmalı idi) tələm-tələsik hazırlıqdan sonra 1991-ci il martın 17-də keçrilmiş referendumun nəticələri saxtalaşdırıldı, guya səsvermədə iştirak edənlərin 93,3%-i SSRİ-nin saxlanılması lehinə oldu.

Saxta referendumda iştirak etməmiş Naxçıvana qarşı hücum başlandı. 1991-ci il aprelin 5-də Muxtar Respublika Ali Məclisinin sədri Afiyəddin Cəlilov vəzifədən azad edildi. Moskva ermənilərin əli ilə Naxçıvan əhalisini cəzalandırmağa çalışdı. Aprelin 10-da Şərur, mayın 20-də Sədərək yenidən güclü atəşə tutuldu.

Heydər Əliyev respublikada milli dövlət quruluşunun dirçəlişi hərəkatını dəstəkləməyə çağırırdı. Onun rəhbərliyi altında milli dövlətçilik ənənələrinin bərpasına başlanmışdı. 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR parlamentinin Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyası Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Cümhuriyyətinin Dövlət Bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul etdi. Muxtar Respublikanın Ali qanunverici orqanı olan Ali Sovet Ali Məclis adlandırıldı. Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi 1990-cı il noyabrın 21-də 20 Yanvar faciəsinə siyasi qiymət verdi, bu qanlı hadisədə SSRİ rəhbərliyi ilə yanaşı, respublika başçıları Ə.Vəzirov, A.Mütəllibov və onların əlaltılarının günahkar olduqlarını qeyd etdi.

Naxçıvan MR Ali Məclisində DQMV-də, Şaumyan (kənd) rayonunda və Xanlar (indiki Göygöl) rayonunun Çaykənd kəndində yaranmış vəziyyət müzakirə olundu, imperiya və respublika rəhbərliyinin bu sahədə yol verdiyi bağışlanılmaz

səhvlər göstərildi, rəhbərlikdən bu bölgələrdə Azərbaycanın hüquqlarının bərpa olunması istiqamətində təxirəsalınmaz tədbirlər görülməsi tələb edildi. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 1991-ci il 5 fevral sessiyasında çıxış edərək göstərdi ki, biz torpaqlarımızı özümüzə qaytarmalıyıq, orada hakimiyyətimizi bərpa etməliyik, respublikamızın suverenliyini təmin etməliyik. Heydər Əliyevin bu çıxışı qüvvələri səfərbər edib, müdafiədən hücuma keçməyə çağırış idi və onun irəli sürdüyü təkliflərin xalqda böyük hərəkat doğuracağından qorxuya düşən iqtidar yanlıları (Hacı Əbdül, Bayram Bayramov və b.) sessiyada Heydər Əliyevə hücum etdilər. Bu cəhdləri millət vəkili, xalq şairi Bəxtiyar Vahabzadə sessiyadakı çıxışında ifşa etdi: "Biz bu gün böyük həyat təcrübəsinə və siyasi diplomatik biliyə malik olan, bütün ömrü boyu siyasət qazanında qaynayıb-bərkiyən bu vətən oğlunun ağlından, təcrübəsindən istifadə etmək əvəzinə, vətənin taleyinə tüpürüb şəxsi ambissiyamızı qabağa çəkdik".

Demokratik qüvvələrin tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilib Azərbaycan Respublikası adlandırıldı, Cümhuriyyətin bayrağı Dövlət Bayrağı kimi təsdiq olundu.

Kommunist rejimi son günlərini yaşayırdı. 1990-cı ilin əvvəllərindən SSRİ Konstitusiyasının (1977-ci il) bütün İttifaqda Kommunist Partiyasının rəhbər və istiqamətverici rolunu qanuniləşdirən 6-cı maddəsini ləğv etmək çağırışı ilə partiya daxilində müxtəlif cərəyanlar meydana gəlmişdi. Sov.İKP-də demokratik platforma kommunizm qurmaq kimi xəyalı son məqsədi inkar edir, idarəçilikdə mövcud inzibati-amirliyin tədricən demokratik metodlarla əvəz olunmasını vacib bilirdi.

Sov.İKP-nin 1990-cı ilin iyulunda keçən XXVIII qurultayı "Humanist, demokratik sosializm" şüarı altında "demokratik platforma"nı müdafiə etdi, qurultayın yekun sənədlərinə partiyanın sosial-demokratikləşdirilməsinə dair ideyalar salındı. Mərkəzi Komitənin Siyasi Bürosu respublikaların partiya rəhbərlərindən -

Birinci katiblərdən formalaşdırıldı. Bu orqan tədricən ali hakimiyyət funksiyasından məhrum edildi.

1991-ci ilin aprelin 23-də SSRİ prezidenti M.Qorbaçovla 9 respublikanın yüksək vəzifəli şəxsi o, cümlədən Azərbaycan prezidenti A.Mütəllibov Moskva yaxınlığındakı Novo Oqaryovadakı prezident iqamətgahında yeni ittifaq müqaviləsi – "Suveren Dövlətlər İttifaqı" müqaviləsinin bağlanacağı haqqında niyyət protokolu imzaladılar. Müqavilə bağlandıqdan sonra altı aydan gec olmayaraq ittifaq orqanlarına yeni seçkilər keçrilməsi və bu yolla rəqiblərini siyasi hakimiyyətdən uzaqlaşdırmaq nəzərdə tutulurdu. Respublika Ali Sovetinin 1991-ci il 26 iyun tarixli sessiyası, Demblokun etirazına baxmayaraq, bu layihəni ümumən bəyəndi və başda prezident olmaqla Azərbaycan adından onu imzalayacaq nümayəndə heyətini təsdiq etdi.

Heydər Əliyev imperiyanı qoruyub saxlamağa çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına və Sovet hökumətinə açıq etirazını bildirdi. O, 1991-ci il iyulun 19-da Sov. İKP sıralarından çıxdı. Heydər Əliyev SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına bəyanatında partiyanı 1990-cı ilin yanvarında Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzə siyasi rəhbərlikdə və bu cinayətin üstünü açmamaqda, gunahkarları üzə çıxarmamaqda təqsirli saydı. Erməni separatçılarına havadarlığı sayəsində Dağlıq Qarabağda yaranmış münaqişəli vəziyyətə görə mərkəzi təqsirləndirərək qeyd etdi ki: "Yeniləşən partiya və respublikaların yeniləşən ittifaqı haqqında saysız-hesabsız bəyanatlar yenə xalqı aldatmaqdır. Xalqa açıq demək lazımdır ki, bizim ölkəmizdə sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaranan və saxlanılan respublikaların ittifaqı süquta uğramaqdadır".

Bu vaxt AXC-də parçalanma daha da dərinləşmişdi, idarə heyətində fikir birliyi yox idi. İki platforma - birinci, müstəqilliyə doğru insan hüquqlarının aliliyinə zidd olmayan yollarla getməyi vacib hesab edən "liberal-demokratlar" (İsa Qəmbərov, Ə.Elçibəy), ikinci isə müstəqilliyə hər bir mümkün, hətta lazım gələrsə, insan

hüquqlarına zidd olan yollarla getməyi lazım bilən "millətçi-vətənpərvərlər" (Etibar Məmmədov) platforması formalaşmışdı. Cəbhə daxilində partiyalaşma prosesi başlamışdı. Buna görə də AXC-nin 1991-ci il iyulun 13-16-da keçirilən I qurultayında idarə heyəti buraxıldı. Xalq Azadlıq Partiyası, Dirçəliş Partiyası, Azərbaycan Sosial-Demokrat Partiyası, Azərbaycan Milli Demokrat (Yeni Müsavat) Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası və s. müstəqil siyasi təşkilatlar meydana gəldi. Lakin onların sosial bazası geniş deyildi.

SSRİ-nin süqutu sovet rejiminin dağılması mühafizəkar kommunistləri narahat edirdi. Eyni zamanda M.Qorbaçov və B.Yeltsin tərəfdarı arasında ziddiyət kəskinləşdi. 1991-ci ilin iyununda SSRİ Ali Sovetinin qapalı iclasında mühafizəkar kommunistlərin liderləri SSRİ Nazirlər Kabinetinə fövqəladə səlahiyyətlər verilməsini tələb etsə də, bu baş tutmadı. İrticanın növbəti hücumu 1991-ci il 18-19 avqust dövlət çevrilişi cəhdində təzahür etdi. Onun başçıları (SSRİ Ali Sovetinin sədri A. Lukyanov, vitse-prezident G.Yanayev, SSRİ Müdafiə naziri D. Yazov, SSRİ Daxili işlər naziri B.Puqo və b.) Forosda (Krımda) istirahət edən M.Qorbaçovu neytrallaşdırıb, Dövlət Fövqəladə Vəziyyət Komitəsi (DFVK-QKÇP) təşkil etdilər və demokratikləşdirmənin, yenidənqurmanın çıxılmaz vəziyyətə saldığı imperiyanı iflasdan qurtarmaq üçün bütün hakimiyyəti öz əllərinə aldılar. Sovet İttifaqı Kommunist Partiyası bu çevrilişi müdafiə etdi.

Qiyamçılar səhv etmişdilər, onlar iri şəhərlərdə demokratik qüvvələrin güclü olduğunu nəzərə almamışdılar. Avqustun 19-da Moskvada Rusiya prezidenti B.Yeltsinin başçılığı ilə bütün demokratik qüvvələr birləşib qiyama qarşı ayağa qalxdılar.

Azərbaycanda da demokratik qüvvələr hərbi xuntanın - Dövlət Fövqəladə Vəziyyət Komitəsinin qanunazidd fəaliyyətinə qarşı çıxdılar. Lakin prezident A.Mütəllibov İran səfərini yarımçıq qoyub Bakıya qayıdaraq, avqustun 21-də Azərbaycan televiziyası ilə bəyanat verib bildirdi ki, respublikanın qarşısında duran

mürəkkəb məsələlərin həllində ümidini bu komitəyə bağlayır. Azərbaycan KP MK-nın İkinci katibi V.Polyaniçko da çevrilişi razılıqla qarşıladığını elan etmişdi. Onların qiyamı dəstəkləməsi səhv addım idi.

Demokratik qüvvələrin birgə fəaliyyəti nəticəsində SSRİ-də dövlət çevrilişinin qarşısı alındı. Qiyamçılar məğlub oldu. DFVK buraxıldı. Onun üzvləri həbs olundu. Azərbaycanda da irticaya tərəfdar olan qüvvələrə qarşı mübarizə başlandı. 1991-ci il avqustun 25-27-də Bakının Azadlıq meydanında bir milyona yaxın adamın iştirak etdiyi ümumşəhər mitinqləri keçirildi.

Naxçıvanda da mitinqlər səngimək bilmirdi. Üç gün davam edən nümayişlər nəticəsində xalq avqustun 26-da Muxtar Respublika Ali Məclisinin fövqəladə sessiyasının açılmasına nail oldu. Sessiya Naxçıvan MR-da kommunistlərin hakimiyyətini ləğv etdi. Muxtar Respublika ərazisində AKP və komsomolun fəaliyyəti dayandırıldı, onların bütün strukturları ləğv olundu. Mitinqlərdə respublikada prezident seçkilərinin dayandırılması, parlamentin buraxılması, yeni parlament seçkiləri keçrilməsi, Kommunist Partiyası hakimiyyətinin, fövqəladə vəziyyətin ləğv edilməsi, DQMV-də Azərbaycanın suveren hüquqlarının təmin olunması üçün qəti tədbirlər görülməsi tələb edilirdi.

Moskvadakı avqust (1991-ci il) siyasi böhranı Azərbaycan dövlətinin müstəqilləşməsinə şərait yaratdı. Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Dövlət müstəqilliyinin bərpa edilməsi haqqında Azadlıq Bəyannaməsini qəbul etdi. Azadlıq Bəyannaməsində qeyd olunurdu: "Azərbaycan Respublikasının Ali Soveti xalqın ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək;

1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək;

Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikasının suverenliyi haqqında və Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında Konstitusiya

Qanunlarına əsaslanaraq;

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu elan edir".

Heydər Əliyev sessiyadakı çıxışında dedi: "Biz artıq sovet imperiyasının, Kommunist Partiyasının dağılmasının şahidiyik. Bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha çətin, daha ağırdır. Bunun əsas səbəbi respublikada hökm sürən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti və buraxdığı kobud, bağışlanılmaz səhvlərdir". O bildirdi ki, Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir.

1991-ci il sentyabrın 3-də H.Ə.Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçildi. Ali Məclisin 4 sentyabr tarixli qərarı ilə Naxçıvan ərazisində prezident seçkiləri dayandırıldı. A.Mütəllibov Heydər Əliyevin prezidenliyə namizəd olmasına mane olmaq üçün yaş məsələsinə dair qərar qəbul etdi.

1991-ci il sentyabrın 8-də Azərbaycanda alternativsiz prezident seçkisi keçrildi. Demokratik qüvvələr bu seçkiləri boykot etdilər. Prezident seçkiləri Naxçıvan MR ərazisində keçrilmədi. 8 sentyabr seçkilərinin nəticələrinə görə A.Mütəllibov yenidən prezident elan olundu. Prezident idarəsi yaradıldı. Dövlət katibi və Dövlət müşavirləri vəzifələri təsis edildi. İlk dövlət katibi akademik Tofiq İsmayılov təyin edildi. Lakin nə bu tədbirlər, nə də əhalinin sosial vəziyyətini yaxşılaşdırmağa yönəldilən bəzi sosial güzəştlər A. Mütəllibovun mövqeyini möhkəmləndirə bilmədi.

İmperiyanın güc toplayıb təşəbbüsü ələ alacağını gözləyən respublika rəhbərliyi Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Qanunun qəbul olunmasını xeyli yubatdı.

Nəhayət,1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Konstitusiya Aktında qeyd olunurdu ki, Azərbaycan dövləti müstəqil, unitar və dünyəvi dövlətdir.

Respublikanın müstəqilliyinə yönəlmiş hər hansı hərəkət suveren dövlətin daxili işinə qarışmaq kimi qiymətləndirilir. SSRİ-nin Azərbaycan ərazisindəki bütün daşınar və daşınmaz mülkiyyəti Azərbaycan Respublikasının mülkiyyəti hesab olunur. Siyasi, iqtisadi, mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək Azərbaycan xalqının inkaredilməz və bölünməz hüququdur. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə, onun qanunlarına tabe olan bütün Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir. İdarəetmə orqanları olan kənd, qəsəbə, rayon, şəhər sovetləri ləğv olundu, əvəzində prezidentin təyin etdiyi icra hakimiyyəti orqanları yaradıldı.

Lakin Azərbaycan iqtidarı hələ də imperiyanın iflasdan xilas olacağına və öz hakimiyyətini qoruyub saxlaya biləcəyinə ümidini itirmirdi. Başqa sözlə rəhbərlik Dövlət müstəqilliyini istəmirdi. Ona görə də Dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya aktının referendumla təsdiq edilməsi uzadılırdı.

Digər tərəfdən Qərb Rusiyanı öz qoşunlarını Mərkəzi və Şərqi Avropadan çıxartmağa məcbur etdi. Əvəzində 40 milyard dollar pul verdi və keçmiş müttəfiq sovet respublikalarını Rusiyanın nüfuz dairəsi kimi tanıdı. Bu da həmin respublikalara münasibətdə Rusiyanın əl-qolunu açdı. 1991-ci il noyabrın 14-də Moskva yaxınlığında Novo-Oqaryovada yeddi respublika - Rusiya, Belarus, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistan rəhbərləri yeni dövlətlərarası birlik - "Suveren Dövlətlər İttifaqı"nı yaratmaq haqqında niyyətlərini bildirdilər. Respublikalarda, o cümlədən Azərbaycanda demokratik qüvvələr buna qarşı qəti mübarizəyə qalxdılar.

1991-ci il noyabrın 20-də Yuxarı Qarabağda Xocavənd kəndinin düşmən tərəfindən ələ keçirilib vandalizmə məruz qalması ilə əlaqədar vəziyyətlə yerində tanış olan respublikanın bir neçə yüksək vəzifəli şəxsini, o cümlədən Dövlət katibi (Tofiq İsmayılov), Daxili işlər naziri (Məhəmməd Əsədovu), Baş

prokurorun (İsmət Qayıbov) erməni terrorçuları tərəfindən Qarakənd səmasında vurulub salınması respublikada siyasi vəziyyəti daha da gərginləşdirdi.Vəziyyətdən çıxış yolu kimi 25 nəfər Demblok nümayəndəsindən və 25 nəfər başqa deputatdan ibarət Milli Şura yaradıldı.

1991-ci il dekabrın 8-də Brest şəhəri yaxınlığındakı "Viskuli" iqamətgahında Rusiya Federasiyası (B.Yeltsin), Ukrayna (Ş.Kravçuk) və Belarus (S.Şuşkeviç) respublikaları rəhbərləri Müstəqil Dövlətlər Birliyi (MDB) yaradılması haqqında müqavilə bağladılar. "Belovejsk sazişi" adlanan bu müqavilədə SSRİ-nin hüquqi subyekt kimi mövcudiyyətinə son qoyulduğu elan olundu. “Brest üçlüyü" keçmiş SSRİ-yə daxil olan respublikaları da bu birliyə qoşulmağa dəvət etdi.

Moskvanın təzyiqi altında Orta Asiya respublikaları və Qazaxıstan rəhbərləri Türkmənistanın Aşqabad şəhərində görüşüb MDB-yə daxil olmaq niyyətlərini bildirdilər. 1991-ci il dekabrın 21-də Qazaxıstanın Almata şəhərində “Brest üçlüyü", “Aşqabad beşliyi", Ermənistan, Moldova və Azərbaycan rəhbərlərinin görüşü oldu. Rusiya prezidenti B.Yeltsin Alma-Ata görüşündə Azərbaycanın iştirakının əleyhinə idi. O, Ermənistanın iştirakına razı idi. Yanlız Ukrayna prezidenti L.Kuçmanın israrından sonra Azərbaycan bu görüşə dəvət olundu. Burada SSRİ-nin mövcudluğunun de-faklto dayandırılması və bununla əlaqədar problemlərin nizama salınması haqqında Bəyannamə qəbul edildi. Almata görüşündə Azərbaycan prezidenti MDB ilə münasibətləri müəyyən edən müqavilələr imzaladı. Lakin Azərbaycan parlamenti 1992-ci il oktyabrın 7-də onları təsdiq etmədi.

Azərbaycan Respublikasında 1991-ci il dekabrın 29-da ümumxalq səsverməsi keçrildi. Səsvermə hüququ olanların 95%-dən çoxu referendumda iştirak etdi. Azərbaycan xalqı yekdilliklə respublikanın Dövlət müstəqilliyinə tərəfdar çıxdı.

Müstəqil Dövlətlər Birliyi (MDB) ümumi siyasi və iqtisadi məkan olması, üzv respublikaların bir-birlərinin ərazi bütövlüklərinə hörmətlə yanaşacaqları, Respublikaların mövcud

dövlət sərhədlərinin dəyişdirilməyəcəyi, respublikaların suverenliyi pirinsipinin mühafizə edib saxlanılması və s. qeyd olunurdu. Bəyannamədə MDB-nin beynəlxalq hüquqi subyektinin olmaması, üzv dövlətlər arasındakı koordinasiyanı təmin etmək məqsədi ilə təşkilatın ali siyasi orqanı kimi MDB-yə üzv respublikaların başçıları Şurası yaradıldı.

1992-ci il mayın 27-də Milli Məclis Azərbaycan Respublikasının Dövlət Himnini (musiqisi Üzeyir Hacıbəyovun, sözləri Əhməd Cavadın), 1993-cü il fevralın 23-də isə üçrəngli dairəvi qalxan üzərində, içində allah olan səkkizguşəli ulduz təsvirli Dövlət Gerbini təsdiq etdi. Gerbin rəssamı Eldar Mikayılzadə deyir ki, Gerb Cümhuriyyət dövründən qalmadır. İçində alov çəkilmişdi, mən bərpa zamanı alovun yerinə Allah yazdım.

SSRİ-nin dağılması sayəsində sovet respublikaları dövlət müstəqilliyi əldə etdilər. XX əsrin sonlarında Azərbaycan xalqı Dövlət müstəqilliyini bərpa etmək imkanı əldə etdi. Azərbaycan Dövlət müstəqilliyini mürəkkəb beynəlxalq şəraitdə əldə etmişdi. SSRİ-nin süqutu ilə soyuq müharibə sona çatmış, qloballaşma prosesləri sürət götürməyə başlamışdı. Yeni xammal mənbələri və satış bazarları əldə etmək istəyən super dövlətlərlə keçmiş SSRİ-nin varisi kimi Rusiya Federasiyası arasında ciddi mübarizə gedirdi. Bu geosiyasi dəyəri, böyük maddi sərvətləri olan Azərbaycanla bağlı münasibətlərdə daha aydın hiss edilirdi.

Azərbaycan Respublikasının Dövlət Müstəqilliyini qısa bir müddətdə dünya dövlətlərinin böyük əksəriyyəti tanımışdı. Onu ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə, sonra Rumıniya (11 dekabr 1991-ci il), Pakistan (13 dekabr 1991-ci il), İsveçrə (23 dekabr 1991-ci il), İran İslam Respublikası (25 dekabr 1991-ci il), ABŞ (23 yanvar 1992-ci il), Rusiya Federasiyası (10 aprel 1992-ci il) və başqa dövlətlər tanıdı. 1993-cü ildə Azərbaycanın Dövlət müstəqilliyini artıq 116 dövlət tanımış, 70 xarici dövlətlə diplomatik əlaqələr yaradılmışdı. Azərbaycan Respublikası 14 beynəlxalq təşkilata üzv qəbul edilmişdi. O, 1991-ci il dekabrın 8-də ilk olaraq

İslam Konfransı Təşkilatına, 1992-ci ilin fevralında Türkiyə, İran və Pakistanın daxil olduğu İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) ,1992-ci ilin yanvarında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (ATƏM-ə) qoşuldu. 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına (BMT-yə) üzv qəbul olundu, bu təşkilatın qəbul və təsdiq etdiyi bir çox mühüm beynəlxalq konvensiya və paktlara imza atdı. 1992-cı ilin iyununda Azərbaycan Qara dəniz hövzəsində iqtisadi əməkdaşlıq haqqında Bəyannamə imzalayan 11 dövlətdən biri oldu. 1992-ci il iyulun 8-də Ümumavropa təhlükəsizlik və əməkdaşlıq proseslərini tənzimləyən Helsinki müşavirəsinin 1976-cı il Yekun aktına, 1992-ci il iyulun 10-da Helsinki Yekun sənədinə tərəfdar çıxdı. Azərbaycanın bir çox ölkələrdə, o cümlədən Türkiyə, ABŞ, İran, Almaniya, Fransa, Böyük Britaniya və İrlandiya Krallığında səfirlikləri açıldı.

Azərbaycan Respublikası başqa dövlətlərlə öz münasibətlərini dövlətlərin suveren bərabərliyi əsasında qurdu. Bununla belə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün dünya dövlətlərinin təsirli dəstəyini qazanmaq, müharibəni dayandırmaq mümkün olmadı.Belə bir şəraitdə Ermənistan və Dağlıq Qarabağdakı erməni silahlı quldurları əvvəl sovet, sonra MDB, daha sonra isə Rusiya Federasiyası hərbi qüvvələrinin köməyi ilə Dağlıq Qarabağda iri miqyaslı hərbi əməliyyatlar keçirdi, bir sıra əlverişli strateji mövqelər tutdu, azərbaycanlıları buradan qovub çıxarmağa başladı. 1991-ci ilin sentyabrında burada qeyri-qanuni bir qurum - oyuncaq "Dağlıq Qarabağ Respublikası" yaradılmışdı. Keçirilmiş referendumda erməni icması buna tərəfdar olduğunu bildirmişdi. 1991-ci ilin noyabrın 26-da Azərbaycan Respublikasının Ali Soveti DQMV-nin statusunu ləğv etdi.

Erməni silahlı dəstələri 1991-ci il sentyabrın ortalarında Yuxarı Qarabağda yerləşən sovet ordusu hissələri şəxsi heyətinin və döyüş texnikasının köməyi ilə azərbaycanlıları öz torpaqlarından qovub çıxarmağa, kəndləri yandırıb viran qoymağa başladılar. Ermənistan və Rusiya arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə"imzalandı. Beynəlxalq ictimaiyyət tərəfindən,

demək olar ki, heç bir müqavimətə rast gəlməyən, Rusiyanın himayəsini açıq-aşkar hiss edən erməni millətçiləri və separatçıları daha da azğınlaşdılar.

Düşmənin müvəffəqiyyət qazanmasının bir səbəbi də Azərbaycanda ordu quruculuğunun, demək olar ki, formal xarakter daşıması idi. Azərbaycan iqtidarı əvvəl sovet ordusuna, sonra MDB, daha sonra isə Rusiya silahlı qüvvələrinə arxalanmağa üstünlük verirdi.

Ayaz Mütəllibov dövlət müstəqilliyinin bərpası ərəfəsində deyirdi ki, biz SSRİ-nin tərkibindəyik, zəhmət çəkib bizi qorusun. Fəqət o özü də görürdü ki, bu ordu ölkəmizi qorumaq əvəzinə Ermənistan rəhbərliyi ilə əlbir olub torpaqlarımızın işğalı və etnik təmizləmə ilə məşğuldur. Müxalifət ona xəbərdarlıq edirdi, SSRİ dağılır, vaxtında müdafiə tədbiri görməsək ölkəmiz onun uçan divarları altında qalacaq. Belə də oldu. 2025-ci il mayın 20-21-də İrəvana səfəri zamanı Rusiyanın Xarici İşlər Naziri S.Lavrov (Kələntəryan) mətbuat konfransında etiraf etmişdir ki, ermənilər məhz rus silahları vasitəsi ilə Dağlıq Qarabağı və onun ətrafındakı 7 rayonu işğal etmişdir.

Demokratik qüvvələrin tələbi ilə 1991-ci il sentyabrın 5-də Azərbaycan Respublikası Müdafiə Nazirliyi təşkil edildi. General-leytenant Valeh Bərşadlı nazir təyin edildi. Respublika Ali Soveti 1991-ci il oktyabrın 9-da silahlı qüvvələr haqqında Qanun qəbul etdi. Lakin ordu quruculuğuna lazımi diqqət göstərilmədi. Noyabrın 19-da 22 rayon və şəhər könüllülük əsasında muzdlu özünümüdafiə taburu yaradılması haqqında əmr verildi. Rayon və şəhərlərdə yerli əhalidən ibarət ərazi özünümüdafiə taburları yaradıldı. Silah, sursat, təcrübəli hərbçilər çatışmırdı.Tabur komandirləri rayon icra hakimiyyəti başçısının müdafiə məsələləri üzrə müavinləri idi. Bu hissələrə rəhbərlikdə iki başlanğıc (Müdafiə Nazirliyinə və rayon icra hakimiyyəti başçısına tabeçilik) kimi yolverilməz vəziyyət yaranmışdı. Prezident İcra Hakimiyyəti vasitəsilə hərbi hissələri öz əlində saxlamaq istəyirdi.

Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinin çoxunda 1992-ci ilin fevralında yerli əhalidən ibarət müstəqil hərbi hissələr təşkil olunmuşdu.Bundan başqa bəzi partiya və digər siyasi təşkilatlar qeyri-qanuni silahlı dəstələr təşkil edirdi. Hərbi hissələrdə nizam-intizam yox idi. Hərbi hissələrə pozuculuqla məşğul olan, xarici ölkələrin xüsusi idarələrinə işləyən satqınlar soxula bilmişdilər.

1992-ci il fevralın 14-də MDB ölkələri başçılarının Minsk görüşündə Ukrayna, Belarus, Azərbaycan və Moldova qəti şəkildə milli ordu yaratmaq istədiklərini bildirdilər və keçmiş sovet ordusu mirasından paylarını tələb etdilər.Belə bir şəraitdə erməni hərbi hissələri MDB qoşununun köməyi ilə Dağlıq Qarabağın azərbaycanlılar yaşayan məntəqələrinə hücumu genişləndirdilər. 1991-ci il dekabrın axırlarında Xankəndi yaxınlığında Kərkicahan qəsəbəsinə növbəti dəfə güclü hücum başlandı. Erməni faşistləri burada ilk dəfə odatan silahdan istifadə etdilər. 1992-ci il yanvarın 19-da Kərkicahan düşmən əlinə keçdi və tamamilə yandırıldı. Yanvarın 21-də Qeybalı, fevralda Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular işğal edildi.

Xocalı və Şuşanın mühasirəsi getdikcə daralırdı. Azərbaycan ordu hissələri, xüsusi təyinatlı milis dəstələri və yerli özünümüdafiə batalyonlarının müqavimət göstərmək tədbirləri nizamsızlıq üzündən baş tutmurdu.

Qarabağın belə ağır günündə teleaparıcı Çingiz Mustafayev televiziyada çıxış edərək qeyrəti olan hər bir azərbaycanlını Bakı şəhərindəki telestudiyanın yanına toplaşaraq onunla birlikdə Şuşaya getməyə çağırış etdi. Bir neçə yüz adam könüllü olaraq bu çağırışa qoşuldu, avtobuslarla Şuşaya yollandı.

Ermənilərin yaşadığı Daşaltı tərəfindən Şuşanın mühasirəsini yarmaq üçün hərbi hissələrimizin Müdafiə naziri general-mayor Tacəddin Mehdiyevin birbaşa rəhbərlik etdiyi hərbi əməliyyat uğursuzluğa düçar oldu. Əslində Daşaltı kəndinə hücum olacağını düşmən əvvəlcədən bilirdi. Müdafiə Nazirliyi bunu gizli saxlaya bilməmişdi.Düşmən də müdafiəyə yaxşı hazırlaşaraq

döyüşçülərimizə tələ qurmuşdu. Ona görə əməliyyat dayandırılmalıydı. Lakin belə olmadı, əməliyyat başlandı. Əməliyyatda könüllülərdən ibarət 3 bölük və Şuşa müdafiəçiləri iştirak edirdi. Satqın bələdçilər bir taqım əsgər və zirehli maşınları minalanmış əraziyə saldılar, 33 əsgərimiz həlak oldu, 34 nəfər itkin düşdü, 36 nəfər yaralandı. Döyüşdə düşmən də 150 nəfər itki verdi. Bir neçə gün sonra Şuşanın mühasirəsini Ağdam istiqamətində yarmaq məqsədi ilə keçirilən Xromot-Xanabad əməliyyatı da istənilən nəticəni vermədi. Daşaltı şəhidlərindən Riad Əhmədə Milli Qəhrəman adı verildi.

1992-ci il fevralın ortalarında düşmən növbəti dəfə Qaradağlı kəndinə güclü hücuma başladı. Dörd gün davam edən qeyri-bərabər döyüşdən sonra ermənilər Qaradağlını ələ keçirib onun 92 müdafiəçisini va 54 sakinini vəhşicəsinə öldürüb silos quyularına atdılar. Qalan əhali əsir alındı. Təcavüzkar Ermənistan hökuməti Azərbaycana qarşı qanlı terror aksiyalarını daha da genişləndirdi. 1992-ci il yanvarın 8-də Krasnovodsk-Bakı dəniz sərnişin bərəsində belə bir terror aktı nəticəsində 25 nəfər həlak oldu, 88 nəfər ağır yaralandı.

Xocalı genosidi. Erməni separatizminin şiddətlənməsi Azərbaycan hökümətini Dağlıq Qarabağın inzibati quruluşunda dəyişikliklər etməyə məcbur etdi. Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğvi haqqında 1991-ci il 26 noyabr tarixli Qanununa əsasən Əsgəran rayonu yeni yaradılmış Xocalı rayonuna, Hadrut rayonu Xocavənd rayonu ərazisinə daxil edildi.

1991-ci ildə Xocalı rayonunda 24.417 nəfər, Xocalı şəhərində isə təxminən 7 min nəfər yaşayırdı. 1990-cı il hadisələri ilə bağlı Fərqanədən (Özbəkistan) köçürülmüş 54 məhsəti türkü, Xankəndi və Qərbi Azərbaycandan qaçqın düşmüş azərbaycanlılar da Xocalıda yerləşmişdi.

Rayonun ərazisi 970 kv.km idi. Xocalı şəhəri Qarabağ bölgəsinin, Şuşa və Ağdam şəhərləri arasında, dağətəyi bir ərazidə, Ağdam şəhərindən 14, Xankəndi şəhərindən 18 km məsafədə

yerləşirdi.Xocalı, əsasən azərbaycanlıların yaşadığı Qarabağ bölgəsinin mühüm strateji əhəmiyyətə malik qəsəbəsi idi. Burada Qarabağın yeganə aeroportu yerləşirdi, şəhər həm coğrafi, həm də iqtisadi baxımdan regionun əsas həlqəsi hesab olunurdu. Xocalı sürətlə artan strateji əhəmiyyətinə görə 1990-cı ilin aprelində Azərbaycan hökümətinin qərarı ilə şəhər statusu qazandı.

Rus-erməni hərbi birliklərinin Qarabağda azərbaycanlılara qarşı törətdikləri qətliamlar arasında öz miqyasına, vəhşiliyin dərəcəsinə görə ən dəhşətlisi Xocalı qətliamıdır. Xocalı qətliamının törəməsinin müxtəlif səbəbləri vardır.

Xocalıda həyata keçrilən soyqırım , bütövlükdə isə Dağlıq Qarabağ problemi SSRİ rəhbərliyinin, ümumilikdə Azərbaycan siyasətinin tərkib hissəsi idi. B.Yeltsinin başçılıq etdiyi Rusiya hökuməti(1991-1999) bu faciəni planlaşdırıb həyata keçirməklə xalqımızın müstəqillik əzmini qırmaq niyyətində idi. Ermənilər Moskvanın hazırladığı ssenarini bir alət olaraq soyqırım səviyyəsində həyata keçirdilər.

Xocalı qatillərindən Serj Sarkisyan bildirirdi ki, Xocalı hadisəsinə qədər azərbaycanlılar elə bilirdilər ki, biz onları öldürə bilmərik. Erməni faşistləri Xocalı əhalisinə ən qəddar üsullarla divan tutmaqla azərbaycanlılar içərisində vahimə yaradaraq Qarabağı azərbaycanlılardan tamamilə təmizləmək istəyirdi.

Xocalının Stepanakertin (Xankəndi) yaxınlığında yerləşməsi erməni millətçilərinin fikrincə, bütün mənalarda onlar üçün təhlükə mənbəyi idi.

Xocalıda Xankəndindən, Ermənistandan qovulmuş 130 azərbaycanlı ailəsi və Fərqanədən didərgin salınmış 40 məhsəti türk ailəsi də buraya pənah gətirmişdir. Xocalıda evlər, sosial obyektlər inşa olunurdu.

Azərbaycan yaşayış məntəqələrinin əhatəsində qalan Dağlıq Qarabağ separatçılarının quru yolla artıq Ermənistandan silah-sursat daşlıyıb gətirməsi çətinləşmişdi. Əsas ümid yeri kimi baxdıqları Xocalı aeroportuna da Azərbaycan Xüsusi Təyinatlı Polis Dəstəsi (OMON) nəzarət edirdi. OMON Qarabağa yalnız Azərbaycan

vətəndaşları olan ermənilər buraxır, onların yüklərini ciddi yoxlayırdı ki, silah-sursat gətirə bilməsinlər. Bu da separatçıları çox qəzəbləndirirdi.

MDB Silahlı Qüvvələrinə məxsus olan 4-cu ordunun Xankəndindəki (Stepanertdəki) 366-cı alayında xidmətdə olan zabit və gizirlərin 50-dən çoxunun erməni olması və eyni zamanda digər millətdən olan zabitlərin də onların tərəfində olması vəziyyəti çətinləşdirirdi. 1991-ci ilin yayında polkovnik Y.Zariqorov polkun komandiri təyin olundu, o, da erməni terrorçuları ilə əlbir oldu. Hərbi hissənin rəhbərliyi silahları, texnikanın bir hissəsini pulla erməni yaraqlılarına (saqqallılar) verir və əsgərləri azərbaycanlılara atəş açmağa məcbur edirdilər. Ermənilər xristian inanclı əsgərlərə müsəlmanlara qarşı vuruşmağa borclu olduğunu xatırladırlar.1992-ci il fevralın 24-də Y.Zariqorov zabitlər önündə deyir ki, bu müharibə torpaq müharibəsi yox, islamın xristianlığa qarşı müharibəsidir.

Xocalı soyqırımı ərəfəsində erməni hərbçiləri dünyanın müxtəlif ölkələrində yaşayan erməni lobbisindən xeyli miqdarda vəsait və hərbi sursat almışdır. Hətta Roma Papası II İohan 1992-ci il fevralın 4-də Dağlıq Qarabağ erməni özünümüdafiə dəstələrinə və rus qoşun birləşmələrinin generallarına məxfi məktub göndərmişdir. Roma Papası erməni quldurlarına dua edərək bu vuruşmada onlara Allahdan aldığı gücü göndərdiyini bildirirdi. Ruslara isə bu vuruşmanın dini vuruşma olduğunu xatırladırdı. Məktubda bildirilirdi ki, imkan olarsa Dağlıq Qarabağa gələcək və Xocalıda həlak olan erməni qardaşlarının qarşısında baş əyəcək. Göründüyü kimi, dünyanın bir çox təbliğat və təşviqat maşını erməni hərbçilərinin xeyrinə işləyirdi. Martın 1-də 366-cı alayın Xocalıdan çıxarılıb başqa bir respublikaya aparılması nəzərdə tutulmuşdu.

Hərbi texnika cəhətdən azərbaycanlılardan üstün olan ermənilər 1992-ci ilin yanvarınadək Xocalı rayonunun Cəmilli, Meşəli kəndləri, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsi, Ağdam rayonunun İmarət, Qərvənd kəndi, Xocavənd rayonunun Xocavənd, Tuğ kəndləri, keçmiş Hadrut rayonunun Axullu, Salakətin kəndləri,

Goranboy rayonunun Ballıqaya kəndləri ermənilər tərəfindən işğal edilərək yandırılmış, məhv edilmişdir.

Helikopterlərin uçması da çətinləşmişdi. Düşmən Xocalı və Şuşaya uçan helikopterləri atəşə tuturdu. Xüsusilə, 1992-ci il yanvarın 28-də Şuşa şəhəri səmasında içərisində 44 nəfər dinc sakin olan helikopterin vurulması səbəbindən uçuşlar az keçməmiş dayandırıldı. Xocalıya sonuncu dəfə avtomobil 1991-ci ilin oktyabrın 30-da gedib və noyabrın 1-dən şəhər artıq mühasirə vəziyyətinə düşmüşdü. 1992-ci il yanvarın 2-dən oraya işıq verilməsi dayandırılmışdır.

Ermənilərin Xocalıya ilk irimiqyaslı hücumu hələ 1988-ci ilin sentyabrında olmuş və uğursuzluqla nəticələnmişdi. Lakin ermənilər dayanmaq bilmirdilər. Rus ordusundan götürdükləri silahlarla tez-tez Xocalını atəşə tutur, evləri yandırır, dinc əhalini, qoca, qadın və uşaqları qətlə yetirirdilər.

Xocalı ətrafında mühasirə həlqəsi daralırdı. 1992-ci il fevralın 13-də Xocalıya sonuncu helikopterlər gəldi, 300 nəfər qoca, qadın, uşaq mühasirədən çıxarıldı. Bundan sonra Xocalı ilə hava əlaqəsi tam kəsildi. Şəhərin blokadası başa çatdırıldı.

1992-ci ilin fevralın 10-da Azərbaycan rəhbərliyi Xocalı və Dağlıq Qarabağda yaranan vəziyyəti vahid mərkəzdən idarə etmək üçün ümumi komandanlıq yaratdı və Tahir Əliyev onun başçısı təyin olundu. Lakin o, vəzifəsinin öhdəsindən gələ bilmədi. O zaman iqtidarda olanların müstəqil dövləti qurub idarə etmək bacarığının olmaması və bir çox məsələlərdə milli maraqlardan deyil, Rusiya marağından çıxış etməsi vəziyyəti ağırlaşdırırdı.

Həmin vaxt Xocalının müdafiə qüvvələrinin sərəncamında 250-ə qədər avtomat, bir ədəd top, iki ədəd Alazan raket qurğusu və 1ədəd PDM var idi. Həmin dövrdə Xocalını əhatə edən erməni kəndlərində onların 515 nəfər canlı qüvvəsi, 3 Alazan raketi, 10 ədəd zirehli maşını, 3 ədəd PDM və bir neçə tankı olmuşdur. Düşmənin əsas qüvvələri Xankəndində və Əsgəranda hücuma hazır dayanmışdılar. Bütövlükdə o zaman Dağlıq Qarabağın erməni ordusunun sayı

buradakı Ermənistan Silahlı Qüvvələri nəzərə alınmadan 7 min nəfər ifi.

Erməni quldurları Rusiyanın Xankəndindəki 366-cı mexanikləşdirilmiş atıcı alayı ilə əlbir olaraq XX əsrin Xatın (Belarusiya) faciəsini geridə qoyan Xocalı soyqırımını törətdilər. Respublika rəhbərliyinin cinayətkar laqeydliyi üzündən şəhərin müdafiə işləri təşkil olunmamışdı. 80 nəfərdən ibarət Xocalı özünümüdafiə taburu heç bir zirehli texnika ilə silahlandırılmamışdı. Onlara Şıx briqadasının ikinci taburu və cəmi 20 nəfərdən ibarət minaatanlar batareyası kömək edirdi. 60 nəfərlik milis dəstəsi təyyarə meydanını qoruyurdu.

1992-ci il fevralın 25-də saat 21-də erməni hərbi birləşmələri, 366-cı alay (üç batalyondan ikisi tam tərkibdə, biri isə qismən), habelə xarici ölkələrdən gətrilmiş muzdlu quldurlar Xocalıya hücum etdilər. İlk zərbə hava limanına vuruldu. Şəhərin müdafiəçiləri azsaylı və pis silahlanmış olsalar da, mərdliklə vuruşurdular. Xüsusi təyinatlı milis dəstəsinin komandiri, milis mayoru Əlif Hacıyev döyüşdə xüsusilə fərqləndi. Onun rəhbərlik etdiyi kiçik dəstə düşmənin hücumlarını üç dəfə uğurla dəf etdi. Lakin qüvvələr bərabər deyildi. Ə.Hacıyev vəziyyətin çıxılmaz olduğunu görəndə hava limanının dispetçer məntəqəsini partladaraq düşmən əlinə keçməsinə imkan vermədi. Döyüşlərdə igid komandir ağır yaralandı və qəhrəmancasına həlak oldu. Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Düşmən tankları, zirehli maşınları güclü artilleriya hazırlığından sonra şəhərə soxuldu, küçə döyüşləri başlandı.

Tofiq Hüseynovun rəhbərlik etdiyi ərazi özünümüdafiə taburunun döyüşçüləri qat-qat güclü olan yırtıcı düşmənlə qəhrəmancasına vuruşurdu. Tofiq son nəfəsinədək döyüşdü, yağıları azdırıb onlarla adamın mühasirədən çıxmasına imkan yaratdı. Axırda özü mühasirəyə düşdü. O, düşmənin təslim olmaq çağırışına məhəl qoymayıb son gülləni özünə vurdu, ana torpağı qucaqlayıb gözlərini əbədi yumdu. Ölümündən sonra T.Hüseynova Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Ağdam-Əsgəran istiqamətində toplanmış milli hissələr arasında əlaqə və ümumi rəhbərlik olmaması üzündən onlar düşmənə qarşı hücum təşkil edə bilmədilər.

Xocalıda soyqırım törədildi. Şəhər yandırıldı. Sağ qalanların bir hissəsi, əsasən qadınlar, qocalar və uşaqlar şəhərin şimal-şərq istiqamətində iki yolla Ağdama tərəf qaçmağa başladılar. Qarlı, şaxtalı gecəni ayaqyalın meşədə keçirən qaçqınların çoxunu don vurdu, yaralıların bir hissəsi tab gətirməyib öldü. Sağ qalanlar səhəri gün Xocalıdan 6-7 km aralı, Qaraqaya adlı yerdə meşədən çıxarkən pusquda durmuş erməni faşistləri tərəfindən güllələbaran edildilər. Yüzlərlə köməksiz qadın, qoca, uşaq həlak oldu. Abdal-Gülablı kəndinə getməyə çalışan qaçqınları da düşmən mühasirəyə alıb atəşə tutdu. Erməni quldurları yaralılara işgəncə verib meyitləri eybəcər hala salır, qadın və qızları təhqir edirdilər. 613 nəfər, o cümlədən 106 qadın, 83 azsaylı uşaq, 70 qoca öldürüldü. 1000 nəfərdən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst oldu. 1275 nəfər əsir alındı, 8 ailə bütövlüklə məhv edildi. 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırıldı.

Bu faciədə təkcə erməni faşistləri və rus şovinistləri deyil, hakimiyyət uğrunda mübarizədə Qarabağ problemindən istifadə edib siyasi kapital toplamağa, respublikada siyasi vəziyyətin gərginləşməsinə çalışan siyasətbazlar da günahkar idilər. Xocalıda ermənilər yırtıcı heyvanların, vəhşi qəbilələrin törətmədiklərini etdilər.Yaşından asılı olmayaraq erməni qəbirləri üstündə insanların başlarını qurban kimi kəsdilər, vintaçanla gözlərini çıxartdılar. Erməni yazıçısı Zore Balayanın "Ruhumuzun dirçəlişi" kitabındakı bu yazı parçası manyak təfəkkürün məhsuludur: "Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı ikinci bir uşağın dərisini soydum. Saata baxdım türk uşağı 7 dəqiqə sonra dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi

daha üç türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bildirirəm ki, hər bir erməni hərəkətimizlə fəxr duyacaqdır".

Ümummilli lider Heydər Əliyev Xocalı soyqırımının 10-cu ildönümü münasibətilə 2002-ci il 26 fevral tarixli müraicətində bildirmişdir:"Xocalı faciəsi təsadüfi hadisə deyildi. Dəhşətli Xocalı faciəsini törətməklə ermənilər xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq, onu tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin hiyləgər düşmən məqsədinə çata bilmədi. Xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətinləşdi, qəhrəmanlıq və dəyanət nümayiş etdirdi."

Hal-hazırda Xocalıda və digər yaşayış məntəqələrimizdə xalqımıza qarşı vəhşiliklər törətmiş erməni millətindən olan 15 nəfər caninin məhkəməsi gedir (2025), təəssüf ki, Xocalı qatilləri R. Köçəryan, S.Sarkisyan, zabit S.Ohanyan kimilər hələ də cəzasızdırlar. 1997-ci il fevralın 25-də Prezident Heydər Əliyev tərəfindən hər il fevralın 26-sı saat 17^{00}-da Xocalıların soyqırımı qurbanlarının xatirsəinə sükut dəqiqəsi elan edilməsi haqqında Fərman verdi. 1998-ci il 26 martda prezident Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" fərman verdi. Burada ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi təcavüzkarlıq aktları əksini tapmaqla, Xocalı hadisələri də bu təcavüzün bir mərhələsi kimi göstərilmişdir.

Xocalı faciəsindən sonra beynəlxalq təşkilatlara, dünya dövlətlərinin parlamentlərinə Azərbaycan Respublikasından müraciətlər göndərilsə də, Ermənistan təcavüzkar kimi tanınmırdı. Beynəlxalq təşkilatlar müəmmalı susur, mövqeyini bildirmirdi. BMT-nin rəsmi nümayəndələrindən biri deyirdi ki, "indiki mərhələdə əsas regional təşkilatlar, başlıca olaraq ATƏM rol oynamalıdır. Əgər onların cəhdi müvəffəqiyyətlə nəticələnməsə, onda yəqin ki, Yuqoslaviya məsələsndə olduğu kimi BMT-nin də növbəsi çatacaqdır" mülahizəsi ilə kifayətləndi. Beləliklə, Azərbaycanda yaradılmış problemin Yuqoslaviya variantına uyğun

tərzdə həll ehtimalının olması Azərbayan dövlətçiliyi üçün təhlükənin reallığını artırdı.

2021-ci il martın 5-də Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Etibar Məmmədov Xocalı soyqırımı ərəfəsində baş vermiş bir hadisəni xatırlatmışdır: 1992-ci ilin fevralında Xocalı hadisəsi ərəfəsində Fələstin Azadlıq Təşkilatının bir neçə nümayəndəsini Bakı aeroportunda qarşıladım. Onlar mənə bu yaxınlarda Qarabağa böyük hücum hazırlandığını söylədilər. Mən dövlət müşaviri Vəfa Quluzadəyə telefon açıb, xəbər verdim. Lakin nəticəsi olmadı.

Xocalı faciəsi respublikada siyasi gərginliyi daha da artırdı. Martın 3-dən Prezident sarayı qarşısında "istefa" tələbi ilə piket keçrildi. İqtidar Ali Sovetin sessiyasını çağırmağa məcbur oldu. Martın 5-də Fövqəladə sessiya keçirən Ali Sovetin binası qarşısında izdihamlı mitinq başlandı. Sessiyada Ali Sovetin sədri Elmira Qafarova istefa verdi. Onun yerinə Azərbaycan Tibb İnstitutunun rektoru, deputat Yaqub Məmmədov (5 mart 1992-18 may 1992) seçildi. Martın 6-da parlament qarşısındakı mitinq daha izdihamlı idi. Mitinqçilər tərəfindən prezidentin saat 14-dək istefa verməsi tələbi ultimatum şəklində tərtib olunub parlamentə göndərildi. A.Mütəllibov istefa verməyə məcbur oldu. Y.Məmmədova həm də respublikanın prezidenti səlahiyyətləri (6 mart 1992-18 may1992) həvalə olundu. Nazirlər Kabineti buraxıldı, onun sədri Həsən Həsənova yeni kabinet təşkil etmək tapşırıldı.

Dövlət Müdafiə Komitəsi təşkil olundu. Yaqub Məmmədov ölkədə siyasi sabitlik yaratmaq üçün martın ikinci yarısında bütün siyasi qüvvələrə müraciət edib onları birliyə, əməkdaşlığa çağırdı. Müxalifət və iqtidar arasında danışıqlar başlandı. Lakin nəzərdə tutulduğu kimi, koalision hökumət yaratmaq mümkün olmadı. Ölkədə əsil hərc-mərclik dövrü başlandı. Bu vəziyyət hakimiyyəti ələ keçirməyə səy edən qüvvələrin fəallaşmasına, gərginliyin artmasına səbəb oldu. Ali Sovet 1992-ci il iyunun 7-ə yeni prezident seçkiləri təyin etdi.

Azərbaycanda nüfuzunu gücləndirməyə çalışan qüvvələrin mübarizəsi kəskinləşmişdi. Azərbaycanın Türkiyə ilə yaxınlaşması Rusiyanı narahat edirdi. Y.Məmmədov 1992-ci il martın 17-də Rəhim Qazıyevi Müdafiə naziri təyin etməklə ordunu öz tərəfinə çəkməyə çalışdı. Rusiya hərbi dairələrinə arxalanan yeni Hərbi nazir ağalarının köməyi ilə hərbi diktatura qurmaq və hakimiyyəti öz əlinə almağa cəhd edirdi. Rusiyanın müdafiə naziri P.Qraçov Yaqub Məmmədova təkidlə R.Qazıyevin Azərbaycana rəhbər olması vacibliyini bildirmişdi.

Cəbhədə mövcud silahlı qüvvələr arasında münaqişə yarandı. Siyasətbazların oyunlarından təngə gəlmiş xalq belə mürəkkəb vəziyyətdən çıxış yolunu Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. Heydər Əliyevin Naxçıvan MR-na uğurla rəhbərlik etməsi, xalqı birləşdirib düşmənə sinə gərməsi, diplomatik vasitələrdən məharətlə istifadə etməsi insanlara böyük ümidlər verirdi.

Heydər Əliyevin respublikada hakimiyyətə qayıtması tələbi ilə çoxsaylı mitinqlər keçrilirdi. Bakıda və digər yerlərdə keçirilən mitinqlərdə Konstitusiyanın 121-ci maddəsinin prezident seçilmək üçün yuxarı yaş senzini (68 yaş) müəyyənləşdirən bəndini ləğv etmək tələb olunurdu.

Hakimiyyətə gəlməyə çalışan AXC mühüm strateji mövqelərdə olan hərbi hissələrinə və Türkiyənin siyasi dəstəyinə arxalanırdı. Seçkilər yaxınlaşdıqca Ayaz Mütəllibovun da tərəfdarları fəallaşır, revanş almağa çalışırdılar. Aprelin 25-də eks-prezident Şamaxıda öz tərəfdarları qarşısında çıxış edərək bildirmişdi ki, onu qeyri-qanuni yolla, zorla istefa verməyə məcbur etmişlər. O qeyd etmişdi ki, R.Qazıyev onu istefaya çıxmasa, Şuşanı ermənilərə verəcəyi ilə hədələmişdi. Mayın 2-də A.Mütəllibovun silahlı tərəfdarları Azərbaycan Teleradio Şirkətinə gələrək birbaşa efirə çıxmağı tələb etsələr də, niyyətləri baş tutmamışdı.Çəkişmələrin növbəti qurbanları Şuşa və Laçın oldu.

Şuşanın müdafiəsinin olduqca böyük hərbi strateji və mənəvi-siyasi əhəmiyyəti vardı. Şəhəri qorumalı olan silahlı qüvvələr

arasında ziddiyyət daha da dərinləşmiş, parçalanma baş vermişdi. 1992-ci il martın 12-də Dövlət Müdafiə Komitəsində Şuşadakı vəziyyət müzakirə edildi. Aprelin 26-da buradakı bütün hərbi qüvvələr ümumi komandanlığa tabe edildi. Lakin vəziyyət dəyişmədi.

1992-ci il mayın 7-dən 8-nə keçən gecə erməni-rus hərbi birləşmələri "Dağlarda toy"əməliyyatına başlayaraq şəhəri güclü artilleriya atəşinə tutdu. Hücumda 80 T-72 tankı, 6000-ə yaxın döyüşçü, o cümlədən 366-cı alay, xarici muzdlular da iştirak edirdi. Səhərə yaxın şəhər ətrafındakı postların əksəriyyəti tutulmuşdu, yalnız bəzi mövqelərdə milli qüvvələr düşmənə qarşı qəhrəmancasına vuruşurdu. Döyüşlərdə şəhərin 155 müdafiəçisi şəhid oldu, 167 nəfər yaralandı, 20 nəfər itkin düşdü. Şuşanın süqutu ilə erməni faşistləri tərəfindən Dağlıq Qarabağ bölgəsinin işğalı başa çatdırıldı. Şuşanın süqutunda xəyanətin də mühüm rolu oldu, şəhərə düşmənin hücümü gozlənildiyi bir vaxtda, orada olan döyüşçülərin xeyli hissəsi evə buraxıldı. Müdafiə naziri R.Qaziyev "Şuşa düşmənin əlinə keçsə başıma güllə çaxaram", desə də bunu nəinki etmədi, məsuliyyəti öz boynundan atdı.

Şuşanın süqutu, milli hərbi hissələrin Laçını tərk etməyə başlaması respublikada siyasi vəziyyəti daha da gərginləşdirdi. Bunun əsas səbəbi faktiki olaraq hakimiyyət uğrunda mübarizə aparan tərəflərin satqın hərəkətləri idi.

Hakimiyyət çəkişmələrində iştirak edən bütün tərəflər öz silahlı qüvvələrini Bakıya gətirmişdilər. Mütəllibovçu qüvvələr ilk təşəbbüsü ələ aldılar. Mayın 14-də Ali Sovetin sessiyası azlıqda qalan Demblokun etirazına baxmayaraq, Ayaz Mütəllibovu vəzifəsinə qaytardı. A.Mütəllibov respublikada fövqəladə vəziyyət tətbiq etmək, siyasi azadlıqları məhdudlaşdırmaq haqqında Fərman verdi. Milli Şura buraxıldı. Prezident seçkiləri ləğv edildi.

AXC rəhbərliyi Mütəllibovun Konstitusiyaya zidd rejimini tanımamağa çağırdı. Bütün müxalif qüvvələr bu çağırışa qoşuldu. Naxçıvan, Gəncə, Şəki və başqa şəhərlərdə də Mütəllibov rejiminə

itaətsizlik göstərildi. İnzibati orqanların fövqəladə rejim yaratmaq cəhdləri dəf olunurdu.

Mayın 15-də AXC qərargahı qarşısında mitinq keçrildi. A.Mütəllibov AXC rəhbərliyini danışığa dəvət etdi. Lakin cavab olaraq ondan saat 16-dək dövlət hakimiyyəti iddiasından rəsmi əl çəkmək və prezident iqamətgahını tərk etmək tələb olundu. Vaxt tamam olanda AXC fəalları silahlı qüvvələrin, zirehli texnikanın müşayiəti ilə parlament binasına hücum etdilər. Atışmada bir nəfər öldü, üç nəfər yaralandı. Parlamentin, Dövlət Teleradio Şirkətinin binaları, az sonra Prezident sarayı və başqa strateji obyektlər zəbt olundu. A.Mütəllibov gizlicə yenidən Rusiyaya qaçdı. O, zaman Bakıda, parlament binası yaxınlığında yerləşdirilmiş rus hərbi qüvvələrinin A.Mütəllibovu müdafiə etməsinin səbəbini R.Qazıyev belə izah edir:"Mən Rusiya Müdafiə naziri P.Qraçev vasitəsilə B.Yeltsinlə görüşdüm. 1991-ci il 19-21 avqust hadisələri zamanı A.Mütəllibovun qiyamçıların tərəfində olduğunu söylədim. O, da Qaraçeva A.Mütəllibova kömək etməyin tapşırığını verdi". R. Qaziyevin özü də prezident olmaq iddiasında idi.

AXC hakimiyyətə gəlişini legitimləşdirmək istəyirdi. Yaranmış böhrandan çıxmaq üçün mayın 16-17-də tərəflər arasında sövdələşmə oldu. Koalision hökumət yaradılması və İsa Qəmbərovun Ali Sovet sədrliyinə namizəd göstərilməsi qərara alındı. Ali Sovetin mayın 18-də keçrilmiş sessiyasında qeyd olundu ki, mayın 14-də parlamentin qəbul etdiyi qərarlar qanuni deyildir. Ali Sovetin sədri Yaqub Məmmədovun istefası qəbul edildi. O, etiraf etdi ki, biz böyük siyasətdə "piyadayıq". Bu vəzifəyə, İsa Qəmbərovla yanaşı, bir qrup deputatın təkidli tələbi ilə Heydər Əliyevin də namizədliyi irəli sürüldü. Lakin razılıq almaq üçün guya onunla telefon əlaqəsi yaratmaq mümkün olmadı. İsa Qəmbərov Respublika Ali Sovetinin sədri seçildi. Yeni seçkilərə qədər prezident səlahiyyətlərini yerinə yetirmək ona həvalə olundu. 1992-ci il mayın 18-də Ali Sovetin Milli Şurası Milli Məclis adlandırıldı və parlament səlahiyyətləri ona verildi. Koalision hökumətə, əsasən AXC və keçmiş kommunistlər daxil idi.

Bakıda hakimiyyət davası getdiyi vaxt düşmən mayın 18-də Laçını işğal etdi. Dağlıq Qarabağ separatçıları ilə Ermənistan arasında birbaşa əlaqə - dəhliz yarandı.

1992-ci il iyunun 7-də keçirilən prezident seçkilərində AXC sədri Əbülfəz Elçibəyin qalib gəldiyi elan olundu. Lakin bu, hakimiyyətə gəlmiş, dövlətçilik təcrübəsi olmayan iddialı adamlar üçün əslində qələbə deyil, böyük məğlubiyyətin, iflasın başlanğıcı idi.Hakimiyyəti ələ almış qüvvələr onu möhkəmləndirə və ondan xalqın xeyrinə səmərəli istifadə edə bilmədilər. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri vardı. Başlıca səbəb bu idi ki, AXC-Müsavat tandemini hakimiyyətə gətirən qüvvələr onun möhkəmlənməsini istəmirdilər. Onlara Azərbaycanda güclü dövlət lazım deyildi. Zəif dövlətə təzyiq göstərmək daha asan idi. Cəmiyyət xeyli dəyişmiş, çoxlu siyasi partiya və hərəkat meydana çıxmışdı.

1993-cü ilin ortalarında respublikada 30-a qədər siyasi partiya, cəmiyyət və hərəkat fəaliyyət göstərirdi. Onlar arasında da qarşılıqlı konstruktiv münasibət yox idi. AXC-Müsavat hökuməti ziyalıları özündən uzaqlaşdırdı. Daxildəki xainlərə və satqınlara qarşı qətiyyətli mübarizə apara bilmədi. Heydər Əliyevin siyasi təcrübəsindən istifadə etmədi. Əksinə, AXC-Müsavat tandemi xalq arasında nüfuzu artan Heydər Əliyevə qarşı mübarizəyə başlamışdı. 1991-ci ilin dekabr ayından Naxçıvana qaz, 1992-ci ilin iyul ayından elektrik enerjisi verilmirdi. 1992-ci ilin aprel ayından buraya qatarların hərəkəti tam dayandırılmışdı. Muxtar Respublika blokadaya düşmüşdü. Heydər Əliyev çox ağır bir şəraitdə Naxçıvan MR-nı müvəffəqiyyətlə idarə edirdi.

1992-ci il martın 22-25-də Heydər Əliyev Türkiyə hökumətinin dəvəti ilə bu ölkəyə səfər edib, danışıqlar apardı. Türkiyə Naxçıvana 100 min dollar kredit verdi və bunun hesabına ərzaq, əkin üçün toxum, avadanlıq göndərdi. Az bir vaxtda İqdır-Naxçıvan elektrik xətti çəkildi, Muxtar Respublika Türkiyənin elektrik şəbəkəsinə qoşuldu. Sədərək-Türkiyə yolu tikildi. "Türksat" rabitə şirkəti Naxçıvanın Bakı ilə telefon əlaqəsini bərpa etdi. 1992-ci il mayın

28-də Naxçıvan ilə Türkiyə arasında Sədərək-Dilucu "Ümid körpüsü" açıldı. 1992-ci ilin martında Naxçıvan yeni hava limanının birinci növbəsi istifadəyə verildi.

Heydər Əliyev 1992-ci ilin avqustunda İran İslam Respublikasının dəvəti ilə Tehrana səfər etdi və danışıqlar aparıldı. İran Naxçıvana elektrik enerjisi verməyə başladı. Heydər Əliyevin gərgin əməyi, diplomatik fəaliyyəti sayəsində Naxçıvan MR-nın nəqliyyat, enerji blokadası yarıldı, əhali aclıqdan və ölümdən xilas oldu.

Muxtar Respublikada Heydər Əliyevin rəhbərliyi altında dövlət quruculuğu, hakimiyyət və idarəetmə işlərinin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. İqtisadi islahatlar keçrildi, mal-qara, torpaqlar camaata paylandı. Sahibkarlığın inkişafı üçün müəyyən şərait yaradıldı.AXC-Müsavat iqtidarı Azərbaycanda hakimiyyətə qayıtmaq iddiasının olmadığını dəfələrlə bəyan etmiş Heydər Əliyevin məsləhətlərinə əməl etmək əvəzinə, onun muxtar bölgənin təhlükəsizliyi naminə Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşünü separatçılıq kimi qiymətləndirir, Naxçıvan MR-də çevriliş etməyə, burada xalq cəbhəsi hakimiyyəti qurmağa çalışırdı. Heydər Əliyevi Muxtar Respublikada hakimiyyətdən uzaqlaşdırmaq üçün iqtidar hətta Naxçıvanın mövcud statusunu ləğv etməyə və ya Muxtar Respublika Ali Məclisinin hüquqlarını məhdudlaşdırmağa cəhd göstərirdi. Daxili İşlər Naziri İsgəndər Həmidovun bir dəstə silahlı ilə Heydər Əliyevi devirmək üçün Naxçıvana uçmaq istəyi alınmadı. Heydər Əliyev Naxçıvanın statusunu qoruyub saxladı. O, Türkiyə rəhbərliyi ilə görüşərkən Moskva və Qars müqavilələrinin qüvvədə olduğunu bütün dünyaya bəyan etdi.

Hakimiyyət davası AXC-ni daxildən parçalamışdı. AXC ilə Müsavat arasındakı münasibətlər 1992-ci ilin payızından soyuqlaşmağa başladı. Elçibəyin qətiyyətsizliyindən və acizliyindən narazılıq artırdı. Müxalifətdə olan 9 partiya 1993-cü ilin fevralında AXC-yə qarşı Ümummilli cəbhə yaratmağa çalışırdı. Fevralın 18-də 21 siyasi partiyanın təmsil olunduğu forumda bəzi partiya liderləri

mövcud siyasi böhranın qarşısını almaq üçün Milli Şuranı, Nazirlər Kabinetini buraxmağı təklif etdilər. Kəlbəcərin işğalından sonra ölkədə siyasi durum daha da ağırlaşdı.

1992-ci il 16 may sövdələşməsinə görə "Moskvanın adamı" hesab etdiyi R.Qazıyevi Hərbi nazir vəzifəsində saxlayan iqtidar onu neytrallaşdırmaq məqsədilə Surət Hüseynovun hərbi-siyasi qüvvəsini himayə edib gücləndirdi. Surət Hüseynov 1992-ci il avqustun 8-dən korpus komandiri, oktyabrın 8-dən Azərbaycanın Milli Qəhrəmanı, prezidentin Dağlıq Qarabağ və cəbhə bölgəsində səlahiyyətli nümayəndəsi oldu. Elçibəy sonralar etiraf edirdi ki, Rəhim Qazıyev, Surət Hüseynov və Əlikram Hümbətovun xarici dövlətlərə işlədiyini bilirdik, sadəcə olaraq, onlarla bacarmırdıq. İqtidarın acizliyi üzündən hərbi qüvvəyə arxalanan "sərkərdələr" hakimiyyət uğrunda mübarizə aparırdılar.

Cəbhədəki uğursuzluqlar ölkədə siyasi vəziyyəti daha da dərinləşdirdi. İmperiyapərəst qüvvələr fəallaşdı. Dövlət çevrilişi etməyə hazırlıq məqsədilə korpus komandiri Surət Hüseynov 1992-ci ilin dekabrında qüvvələrini Kəlbəcərin strateji yüksəkliklərindən geri çəkdi.1993-cü il fevralın 15-16-na keçən gecə Ağdərə-Kəlbəcər yolu düşmən tərəfindən tutuldu.

Müdafiə naziri R.Qazıyev və korpus komandiri S.Hüseynov vəzifələrindən kənar edildilər. Düşmən yaranmış vəziyyətdən məharətlə istifadə edib, 1993-cü il martın 10-dək Ağdərə bölgəsinin bir çox yaşayış məntəqələrini ələ keçirdi. Aprelin 3-də Kəlbəcər düşmən tərəfindən işğal olundu. Ermənilər Kəlbəcərdə Ağdaban (1992-ci il 8 aprel) və Başlıbel (1993-cü il aprel-avqust) qətliamlarını törətmişdilər. Ağdabanda 130 ev yandırıldı, 799 nəfər yaralandı, 67 nəfər qətlə yetrildi. Başlıbeldə 27 nəfər öldürüldü, 19 nəfər girov götürüldü.

AXC-Müsavat hökuməti xarici siyasətdə də ciddi qüsurlara yol verdi, böyük dövlətlərin iqtisadi və siyasi maraqlarına əsaslanan dünya siyasətini düzgün qiymətləndirmədi. Dövlətçilik təcrübəsi olmayan bu hökumətin Türkiyəyə meylini açıq nümayiş etdirməsi nəinki Rusiya və İranı, həm də Azərbaycanın gələcəkdə Türkiyədən

asılı olacağından ehtiyatlanan Qərb dövlətlərini narahat edirdi. Elçibəy daxildə Dağlıq Qarabağ problemini həll edə bilmədiyi halda, gah İrana, gah da Çinə türklərin hüquqlarının müdafiəsi ilə bağlı bəyanatlar verirdi.

Belə bir şəraitdə Minsk qrupunun işi demək olar ki, hiss edilmirdi. 1992-ci il oktyabrın 24-də Azərbaycanı guya Ermənistanı blokadaya salmaqda günahlandırıb, ABŞ konqresi "Azadlığa Dəstək Aktı"na Azərbaycana dövlət səviyyəsində hər cür, o cümlədən humanitar yardım göstərilməsinə sərt məhdudiyyətlər qoyan 907-ci əlavəni qəbul etdi.

Cənub rayonlarında talışlar arasında İrandan gəlmiş dini missionerlərin separatçılıq təbliğatı güclənmişdi. AXC-Müsavat hökuməti yalnız 1992-ci ilin axırlarında Rusiya ilə münasibətləri yaxşılaşdırmağın vacibliyini dərk etdi. Oktyabrın 12-də Elçibəy Moskvaya səfər edib B.Yeltsinlə görüşdü. İki ölkə arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalandı, sərhədlərin şəffaf olması haqqında razılıq əldə edildi. Lakin Rusiya Azərbaycanı nüfuz dairəsində saxlamaq niyyətindən əl çəkmirdi.

Surət Hüseynovun başçılığı ilə 1993-cü il iyunun əvvəllərində hərbi qiyam başlandı. Hökumətə tabe olmaqdan imtina edən bir qrup zabit S.Hüseynovun başçılığı ilə hələ aprelin 3-də Gəncədə "hərbi birlik" adlı hərbi-siyasi təşkilat yaratmışdı. İqtidar hərbi müxalifətin öhdəsindən gələ bilmirdi. Hökumət qüvvələri iyunun 4-də qiyamçılara qarşı hücuma keçdi. Hökumət qüvvələri məğlub oldu. Qiyamçılar isə hökumətə və prezidentə qarşı istefa tələbi ilə paytaxta doğru yeriməyə başladılar. Yerlərdə icra hakimiyyəti başçıları, digər vəzifəli şəxslər özbaşına dəyişdirilir, idarəçilik S.Hüseynova yaxın adamlara tapşırılırdı. İyunun 14-də artıq qiyamçılar və hökumət qüvvələri Bakının lap yaxınlığında (Lökbatan yaxınlığında, Şamaxı yolunun 75 km-də) üz-üzə dayanmışdılar, atışma başlanmışdı. Hökumət danışıqlara getməyə məcbur oldu. Ali Sovetin sədri, Baş nazir, üç güc nazirliyi rəhbərləri istefa verdilər. Ölkədə hakimiyyət boşluğu yarandı.

Vətəndaş qarşıdurması. Qurtuluş hərəkatı, dövlət çevrilişi cəhdləri. Azərbaycanın müstəqilliyinə düşmən olan imperiyapərəst qüvvələr və onların əlaltıları iqtidarın səriştəsizliyindən məharətlə istifadə edərək ölkəni parçalamağa, vətəndaş müharibəsi törətməyə cəhd etdilər. Xalqın qabaqcıl qüvvələrinin başçılığı ilə ölkədə Qurtuluş hərəkatı başlandı. Hərəkatın fəalları Heydər Əliyevin ətrafında sıx birləşərək bu prosesi ümumxalq mübarizəsi səviyyəsinə qaldırdılar. Ölkənin mütərəqqi şəxsiyyətləri, ziyalıları, qabaqcıl, sadə əmək adamları dəfələrlə Naxçıvana, Heydər Əliyevin yanına gedib Vətənin xilası naminə ondan yenidən böyük siyasətə qayıtmasını xahiş etdilər. Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının yaranması ideyası xalqın çox hissəsinin respublikamızı düşdüyü vəziyyətdən çıxarmaq üçün artıq mövcud olan partiyalara və təşkilatlara inamlarının olmaması zərurətindən doğmuşdur.

Əlincə cəmiyyətinin nəşr etdirdiyi "Səs" qəzetində çap olunmuş "Heydər bəyi biz çağırmalıyıq!" adlı müraciət ölkədə böyük əks-səda doğurdu. Adamlar Heydər Əliyevə müraciət edirdilər ki, Bakıya, böyük siyasətə qayıtsın. Lakin Heydər Əliyev bu fikirdə deyildi. O, bütün müraciətlərə ehtiramla yanaşır, lakin təklifdən imtina edirdi. Eyni zamanda belə bir gərgin şəraitdə yeni müxalif qüvvə yaratmaq istəmirdi.

Azərbaycanın 91 nəfər tanınmış ziyalısı 1992-ci il oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir", - deyə müraciət etdi. Bu sənəddə ölkədə yaranmış ağır siyasi, iqtisadi, mənəvi durumun mövcud iqtidarın səriştəsiz siyasəti nəticəsində gündən-günə dərinləşməsi, belə vəziyyətdən xilas olmaq üçün xalqın bu işə rəhbərlik etməyə qadir yeganə şəxsin – Heydər Əliyevin başçılığı altında Yeni Azərbaycan Partiyasında təşkilatlanmaq arzusu ifadə olunuşdur. Heydər Əliyev Azərbaycan ziyalılarının müraciətinə 24 oktyabr 1992-ci il tarixli cavabında mövcud ictimai-siyasi durumu dərindən təhlil etdi, cəmiyyətin bütün qüvvələrini birləşdirməklə yaranmış ağır vəziyyətdən çıxış yollarını göstərdi. Azərbaycanın müharibə

vəziyyətindən çıxması, Qarabağ probleminin tezliklə həll olunması, sosial-iqtisadi böhranın aradan qaldırılması, düzgün kadr siyasəti aparılması, səriştəli kadrlardan səmərəli istifadə olunması, ölkənin parçalanmasına yönəldilmiş meyllərin qarşısının qətiyyətlə, demokratik yollarla alınması, dövlətin bütövlüyünün demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi vacibliyini qeyd etdi. O bildirdi ki, Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur.

Yeni Azərbaycan Partiyasının təsis konfransını Bakıda keçirməyə imkan vermədilər. Konfrans 1992-ci il noyabrın 21-də Naxçıvanda keçrildi. Müxtəlif bölgələrdən təşəbbüs qruplarının 550-dən çox nümayəndəsinin iştirak etdiyi konfrans YAP-ın təsis olunması haqqında qərar qəbul etdi. Partiyanın Heydər Əliyev tərəfindən hazırlanmış Proqram və Nizamnaməsi müzakirə olunub qəbul edildi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Təşkilatın rəhbər orqanları formalaşdırıldı.

Partiyanın 1992-ci il 21 noyabr tarixli bəyanatında qeyd olunurdu ki, bu partiyanın başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaqdan ibarətdir.

Rusiya onun diktəsi ilə hərəkət etmək istəməyən Elçibəy hökümətini devirmək üçün dəhşətli plan hazırladı. Qərbdə Ermənistan hərbi hissələrinin hücumu gücləndi. Şimalda millətçi ləzgi təşkilatı, "Sadval" fəallaşdı. Gəncədə polkovnik Sürət Hüseynovun başçılıq etdiyi 709 №li hərbi hissə qiyam etdi. Onun hərəkəti cənub bölgəsində polkovnik Əlikram Hümbətov tərəfindən təkrarlandı.

Heydər Əliyev öz məsləhətləri ilə xalqı yaxınlaşmaqda olan daha böyük fəlakətlərdən qurtarmaq üçün iqtidara yol göstərməyə çalışırdı. İqtidar başlanmış təhlükəli proseslərin qarşısını almaqda gücsüzlüyünü görüb son anda kömək üçün Heydər Əliyevə müraciət etdi. Prezident Elçibəyin dəfələrlə təkidli dəvətlərindən sonra 1993-cü il iyunun 9-da Heydər Əliyev hökumətin onun ardınca göndərdiyi təyyarə ilə Bakıya gəldi. O,dərhal genişlənmək təhlükəsi olan

vətəndaş müharibəsini dayandırmaq üçün düşünülmüş siyasi tədbirlər həyata keçirdi. Heydər Əliyev iyunun 13-14-də Gəncədə S.Hüseynovun başçılıq etdiyi hərbi müxalifətlə danışıqlar apardı, mövcud siyasi böhrandan çıxış yollarını müəyyənləşdirdi. Vəziyyətin çıxılmaz olduğunu görən Baş nazir Pənah Hüseynov və respublika Ali Sovetinin sədri İsa Qəmbərov istefa verdilər.

İyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyası Heydər Əliyevi Ali Sovetin sədri seçdi. Həmin gün Azərbaycanın müasir tarixinə "Qurtuluş Günü" kimi daxil oldu. 1997-ci ilin iyununda Milli Məclis bu günü "Milli Qurtuluş Günü" kimi bayram elan etdi.

Belə məlumat vardı ki, Elçibəy yaranmış vəziyyətlə bağlı Türkiyə prezidenti Süleyman Dəmirəllə məsləhətləşərkən, Dəmirəl ona o, hakimiyyətdən getməsə Rusiya Azərbaycanı ayrı-ayrı etnik hissələrə parçalayacağını demişdi.

AXC - Müsavat komandası özü hakimiyyətə dəvət etdiyi Heydər Əliyevə bu mürəkkəb problemləri aradan qaldırmaqda köməkçi olmaqdansa, müxalifətə keçdi: bir çoxu qaçıb gizləndi, bəziləri fəaliyyətlərini "dondurdu". Siyasi gərginliyə tab gətirə bilməyən, şəxsi təhlükəsizliyindən qorxan, guya paytaxtda qardaş qırğınının qarşısını almağa çalışan prezident Elçibəy iyunun 17-dən 18-nə keçən gecə Bakını gizlicə tərk edib Naxçıvan MR-nın Ordubad rayonuna-doğulduğu Kələki kəndinə getdi. Ölkəni bu ucqar dağ kəndindən idarə etmək iddiasında olduğunu bildirdi. Milli Məclis ona geri qayıdıb ölkəyə belə bir mürəkkəb şəraitdə lazımi səviyyədə rəhbərlik etməyi dönə-dönə təklif etsə də, hər dəfə faktiki olaraq rədd cavabı aldı. İyunun 24-də Milli Məclis respublika prezidentinin səlahiyyətlərini Ali Sovetin sədri Heydər Əliyevə həvalə etdi.

Vətəndaş müharibəsini dayandırmaq məqsədilə Heydər Əliyev heç bir siyasi idarəçilik bacarığı olmayan, xarici dövlətin xüsusi orqanlarının əlində oyuncağa çevrilmiş, lakin real silahlı gücə malik S.Hüseynovu öz sayıq nəzarəti altında Baş nazir vəzifəsinə təyin etdi. Güc nazirliklərinə rəhbərlik ona tapşırıldı.

Yüksək vəzifə tutsa da, öz məqsədinə nail ola bilməyəcəyini dərk edən S.Hüseynov qərargahı Gəncədə yerləşən Səhra Cəbhə İdarəsi yaratdı. R.Qazıyev və iyunun 15-də Lənkəranda yerli hakimiyyəti hərbi hissələrin köməyi ilə devirmiş, cənub bölgəsinə faktiki rəhbərlik edən Ə.Hümbətovla birgə dövlət başçısını hakimiyyətdən əl çəkməyə məcbur etmək planlarını həyata keçirməyə cəhd etdi.

1993-cü ilin yayı və payızında hərbi müxalifətin cinayətkar satqınlığı nəticəsində Azərbaycanın ərazi bütövlüyünə yeni zərbələr endirildi. Ermənistanın hərbi qüvvələri Azərbaycandakı siyasi böhrandan istifadə edib iyunun əvvəllərindən başlayaraq güclü hücuma keçdi. Hərbi qiyam vaxtı Ağdam cəbhəsindən həm AXC-Müsavat iqtidarına, həm də S.Hüseynova tabe xeyli canlı qüvvə və hərbi texnika çıxarılmışdı. Daxili qoşun hissələri Bakının "Surətçi"lərdən müdafiəsinə çağrılmışdı. Düşmən bundan istifadə edib Ağdamın Qarqar çayı və Saybalı kəndinə qədər ərazisini ələ keçirdi. İyunun 25-dən 26-na keçən gecə milli silahlı qüvvələr Ağdam cəbhəsindən çıxarıldı. Cəbhə yerli özünümüdafiə taburlarının ümidinə qaldı. İyulun əvvəllərində S.Hüseynova sadiq 709 saylı hərbi hissə Ağdama daxil oldu. S.Hüseynov Ağdamı düşmənə, özünün dediyi kimi, "əlborcu verməklə" ölkədə siyasi vəziyyəti daha da gərginləşdirmək, Heydər Əliyevi hakimiyyətdən kənarlaşdırmaq istəyirdi. Döyüşlərin bütün ağırlıqlarını çəkmiş özünümüdafiə taburları döyüş mövqelərindən çıxarıldı. Ağdam şəhəri düşmən tərəfindən intensiv atəşə tutularkən "Surətçilər" heç bir cavab tədbiri görmədilər. Düşmən sürətlə irəlilədi. Malıbəylidə ağır döyüşlər getdi. Asif Məhərrəmovun başçılıq etdiyi özünümüdafiə taburu iyulun 22-23-də bütün günü və gecəni düşmənlə əlbəyaxa vuruşdu, lakin heç bir kömək almadığından geri çəkilməyə məcbur oldu. İyulun 23-də səhər əsasən özünümüdafiə taburlarının gücü ilə 43 gün düşmənlə qanlı döyüşlər aparmış Ağdam şəhəri işğal olundu.

S.Hüseynov Gəncədə bəyanat verib bildirdi ki, o, "xalq və dövlət taleyinin həll edilməsi məsələsini" öz üzərinə götürür. Ə.Hümbətov bu bəyanatı alqışladı.

Cənub bölgələrində separatçılıq edən qüvvələrlə münasibəti sivil qaydada nizama salmaq istəyən Heydər Əliyev Ə.Hümbətovla görüşməyi qərara aldı. Bu görüşdə "səlahiyyətim avtomatımdır", - deyən Hümbətov davakar-ultimativ iddialar irəli sürdü. S.Hüseynova geniş səlahiyyətlər verilməsini, Ali Sovetin sessiyasını çağırıb A.Mütəllibovu öz vəzifəsinə qaytarmağı tələb etdi və qəti rədd cavabı aldı.

1993-cü il avqustun 7-də respublikanın cənub bölgələrində üzdəniraq "Talış Muğan Respublikası" (TMR) yaradıldığı elan olundu. "Hökumət" təşkil edildi. Rusiya, İran və Belarus dövlətlərinə, BMT-yə müraciət edib bu qondarma qurumu tanımağı xahiş etdilər.

Yerlərdə baş verən kortəbii mitinqlərdə əhali Ə.Hümbətovun silahlı quldur dəstəsinin ləğv olunmasını, qondarma "TMR"-nı tanımadığını bəyan edirdi. Heydər Əliyev məsələni dinc vasitələrlə həll etməyə üstünlük verdi. Avqustun 13-də o, bu bölgədən olan xalq deputatları, tanınmış ziyalılar və ağsaqqallarla görüşdü. Onlar "Hümbətovçulara" qarşı qəti tədbirlər görülməsini tələb etdilər. Avqustun 17-də Milli Məclis Lənkəran hadisələrinə siyasi qiymət verdi, onu Azərbaycanın müstəqilliyinə qarşı xarici qüvvələrin siyasi oyunu kimi ifşa etdi. S.Hüseynov avqustun 18-19-da Gəncədə Ə.Hümbətovu dost kimi qəbul edib möhkəm dayanmağı məsləhət gördüyü vaxt cənub rayonları əhalisinin etiraz hərəkatı genişlənirdi. Xalqın və dövlət qüvvələrinin birliyi sayəsində avqustun 23-də separatçılar dövlətin gücü ilə məğlub edildilər. Ə. Hümbətov qaçdı, sonra həbs olundu, "TMR" ləğv olundu. Prezident onu əfv etdi, Niderlanda sığındı və orada da öldü.

Satqınların və köhnə iqtidara sadiq hərbi hissələrin təxribatı nəticəsində avqustun 18-də Cəbrayıl, 23-də Füzuli, 31-də Qubadlı rayonları işğal olundu. Mühasirəyə düşmüş Zəngilan rayonu oktyabrın 29-30-da düşmən əlinə keçdi, əhali İran ərazisinə sığındı.

Faktlar sübut edir ki, 1992-1993-cü illərdə Azərbaycan torpaqlarının işğal edilib Ermənistana verilməsində rus ordusu fəal iştirak etmişdir.

Ümummilli lider Heydər Əliyev,Dövlət müşaviri Vəfa Quluzadə öz çıxış və müsahibələrində buna eyham vurmuşlar. V. Quluzadə etiraf edir ki, əslində Ermənistan adı altında torpaqlarımızı Rusiya işğal etmişdir. Ermənistan Azərbaycanla bacara bilməzdi.Torpaqlarımızın işğalında Rusiyanın Ermənistandakı 7-ci ordusunun diviziyaları, Kəlbəcər və Ağdərənin işğalında Pskov paraşüt desant diviziyası iştirak etmişdir.

Ölkənin müstəqilliyinə qənim kəsilmiş, xaricdən idarə olunan qüvvələrin hakimiyyəti ələ almaq üçün heç nədən çəkinmədiyini görən xalq Heydər Əliyevin ətrafında daha sıx birləşməyə başladı. Milli Məclisin qərarı ilə 1993-cü il avqustun 29-da prezident Ə.Elçibəyə etimad haqqında referendum keçrildi. Referendumda iştirak edənlərin 97,5%-i prezidentə etimadsızlıq göstərdi.

1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əliyevi alternativ əsasla, səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçdi.

Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti düşmənləri ciddi narahat edirdi. Onlar paytaxtda və respublikanın digər iri yaşayış məntəqələrində siyasi sabitliyi pozmaq üçün hər vasitəyə əl atırdılar. Bakı metropolitenində yanğın və partlayışlar törədilir, dövlət çevrilişinə cəhdlər göstərilirdi.

1993-cü il sentyabrın ortalarında Baş nazir S.Hüseynov, Ə.Hümbətov və R.Qazıyev qüvvələrini birləşdirib Bakıya hücum etmək, Heydər Əliyevi hakimiyyətdən salmaq planı hazırlamışdılar. Respublikanın qərb rayonlarında qeyri-rəsmi hərbi qruplar yaradılmışdı. Murovdağ, Goranboy və Gədəbəy bölgələrindən 50-yə qədər, Lənkərandan gətirilmiş 8 zirehli texnika və canlı qüvvə Gəncə ətrafındakı meşələrdə yerləşdirilmiş və fürsət gözləməkdə idi. S.Hüseynov Gəncədə və Yevlaxda öz əlaltılarının müşavirəsini keçirmiş, çevrilişə hazırlıq tədbirlərini müzakirə etmişdi. Baş nazir və onun tərəfdarları ölkədə narazılıq salmaq üçün ərzaq təchizatında

süni gərginlik yaradır, inflyasiyanı dərinləşdirən tədbirlər görürdülər.

Cəmiyyətdə vahimə yaratmaq üçün 1994-cü il sentyabrın 21-22-nə keçən gecə Təhlükəsizlik Nazirliyi istintaq təcridxanasından dövlətə qarşı cinayətlərdə ittiham olunan bir neçə cinayətkar qaçırıldı. Sentyabrın 29-da daha bir neçə cinayət aktı törədildi. Ali Sovet sədrinin müavini Afiyəddin Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov qətlə yetrildilər.

Rövşən Cavadovun başçılıq etdiyi Xüsusi Təyinatlı polis dəstəsinin əvvəllər düşmənə qarşı mübarizədə müəyyən hərbi xidmətləri olsa da, pozucu qüvvələrin təsiri altında qiyam yolunu tutdu. Dəstənin 30-a qədər döyüşçüsü oktyabrın 2-də cinayət edərək R.Cavadovun qardaşı Mahir Cavadovun (Xətai rayon prokuroru) başçılığı ilə respublika prokurorluğu binasına soxuldu. Daxili işlər nazirinin müavini Rövşən Cavadov 40 nəfərlik silahlı dəstə ilə nazirliyin binasına hücum edib dəf olunduqdan sonra prokurorluğun binasına, qardaşının rəhbərlik etdiyi dəstəyə köməyə gəldi. R.Cavadov Prezidentin OMON-nun buraxılması haqqında Sərəncamından, Bişkek protokolunun imzalanmasından narazı idi.

Heydər Əliyevin apardığı danışıqlar nəticəsində Cavadov qardaşları öz tərəfdarları ilə prokurorluğun binasını tərk etdilər. Bu, hərbi qiyam cəhdinin başlanğıcı idi. 1994-cü il oktyabrın 4-də Gəncədə S.Hüseynovun tərəfdarlarından ibarət 300-ə yaxın silahlı adam şəhər İcra hakimiyyəti binasını və başqa strateji obyektləri ələ keçirdi. Bu zaman paytaxtda iki hərbi hissənin əsgərləri artilleriya qurğularını Prezident sarayı, Ali Sovet və Müdafiə nazirliyi binalarına tuşlayıb əmrə müntəzir dayanmışdılar. Heydər Əliyev bu ağır vaxtda Türkiyə prezidenti Süleman Dəmirələ müracət etdi. O:"Xalqını başına topla",- dedi. Oktyabrın 4-dən 5-ə keçən gecə Prezident Heydər Əliyev Azərbaycan dövlətçiliyini müdafiə etmək üçün radio və televiziya ilə xalqa müraciət etdi. Onun çağırışı ilə, gecə yarısı olmasına baxmayaraq, on minlərlə adam Prezident sarayı qarşısına toplaşdı. Qiyamçılar Prezident sarayına hücuma cəsarət etmədilər. Prezidentin həyata keçirdiyi tədbirlər qiyamçılara

qüvvələrini birləşdirməyə imkan vermədi. Gəncədə qiyam yatırıldı. S.Hüseynov təcili Bakiya, mitinq keçrilən meydana gəldi.İzdiham onu etirazla qarşıladı. Vəziyyətin dəyişdiyini görən Cavadov qardaşları Prezidenti müdafiə etdiklərini bildirdilər.

Oktyabrın 5-də Bakının Azadlıq meydanında xalq izdihamlı ümumxalq mitinqində qanuni Prezidenti dəstəklədiyini bir daha nümayiş etdirdi.Qiyam və dövlət çevrilişi qəsdində günahkar olan S.Hüseynov hakimiyyətdən kənarlaşdırıldı, Azərbaycandan Rusiyaya qaçdı. 1996-cı ildə isə Rusiyada həbs olunub respublikaya gətirildi və ömürlük həbsə məhkum edildi. Sonralar, 2004-cü ilin martın 17-də prezident İlham Əliyev onu əfv etdi.

1994-cü il dekabrın 4-də "Azərbaycana xidmət" vəqfi tərkibində Azərbaycan Strateji Araşdırmalar Mərkəzi adlı təşkilat yaradılmışdı. Bu təşkilat ölkədə siyasi müxalifətlə hərbi müxalifəti birləşdirib dövlət çevrilişi etməyi, qanuni prezidenti fiziki cəhətdən məhv edib A.Mütəllibov, Ə.Elçibəy və başqalarının təmsil olunduğu Dövlət Şurası yaratmağı planlaşdırmışdı. Mərkəzin işində "Müsavat" və "Doğru yol" partiyalarının nümayəndələri də fəallıq göstərirdilər. Bu vaxt AXC və ona yaxın qüvvələr də xeyli fəallaşdı.

1995-ci iln yazında ölkə yeni dövlət çevrilişi təhkükəsi ilə üz-üzə qaldı. Cavadov qardaşları prezident Heydər Əliyevin, Milli Məclisin spikerinin istefasını və s.tələb edirdilər. İddiaları da bu idi ki, Heydər Əliyev Qarabağ məsələsinini ötən qısa müddətdə həll etməli imiş. Bu əslində siyasi uzaqgörənliyin olmamasından, mövcud beynəlxalq vəziyyəti düzgün qiymətləndirməməkdən irəli gəlirdi.

1995-ci il martın 12-13-nə keçən gecə Aqstafa və Qazaxda Cavadovların tərəfdarları olan Xüsusi Təyinatlı polis dəstəsi əməkdaşları (omonçular) qiyam qaldırıb dövlət idarələrini zəbt etdilər. Martın 15-də omonçular Bakıda Nizami rayon polis idarəsinə silahlı basqın etdilər və dəf olundular. Prezidentin 16 mart tarixli fərmanı ilə Xüsusi Təyinatlı polis dəstəsi ləğv edildi və onun Bakıdakı əməkdaşlarından silahı könüllü təhvil verib, 8-ci km qəsəbəsindəki bazalarını tərk etmək tələb olundu. Cavadov

qardaşları prezidentin münaqişəni dinc yolla həll etmək istəyinə məhəl qoymadılar. Onlar bazada toplanmış silahlıları 4 hücum qrupuna bölüb, martın 16-17-nə keçən gecə Prezident sarayı, Dövlət Teleradio şirkəti və Daxili İşlər Nazirliyi binalarını tutmaq üçün həmlə ilə mühasirəni yarıb şəhərə çıxmağa çalışdılar. Lakin hökumət qüvvələrinin hərbi əməliyyatları nəticəsində dövlət çevrilişi bu dəfə də baş tutmadı. Qiyamçilar təslim oldu, yaralanmış R.Cavadov xəstəxanaya aparılarkən yolda öldü, qardaşı M.Cavadov xaricə qaçdı. Bununla da prezident Heydər Əliyev ölkəmizdə hakimiyyətin zorla dəyişdirilməsi ənənəsinə son qoydu, dövlət aparatının ahəngdar işini təmin etdi. Sabitlik bərqərar olundu.

Ordu quruculuğu. I Qarabağ müharibəsinin qəhrəmanları (1991-1994). Atəşkəs. Azərbaycan dövlətçiliyinin inkişaf etdirilməsi, ölkədə sosial-siyasi sabitliyin və əhalinin təhlükəsizliyinin qorunması, ölkənin ərazi bütövlüyünün təmin olunması ordunun möhkəmləndirilməsini tələb edirdi. Lakin Azərbaycan rəhbərliyi (prezident A.Mütəllibov) ictimaiyyətin mütərəqqi kəsiminin və demokratik müxalifətin Milli Ordu yaratmaq tələbini inadla rədd edirdi. Azərbaycanı "vahid sovet federasiyasının ayrilmaz hissəsi" hesab edən respublika rəhbərliyi Sovet İttifaqının saxlanmasına üstünlük verir, ona görə də respublikanın müstəqil ordusunun yaradılmasını deyil, İttifaqın vahid ordusunun saxlanmasını vacib sayırdı. Bildirirdi ki, SSRİ-nin tərkibindəyik zəhmət çəkib o, bizi qorusun. Fəqət özü də görürdü ki,sovet hökuməti nəinki azərbacanlıları qorumur, əksinə azğınlaşmış erməni quldurlarını himayə edir, onlara kömək edir. 1991-ci il 19-21 avqustunda Moskvadakı dövlət çevrilişi göstərdi ki,SSRİ-nin süqutu qaçılmazdır. Demokratik qüvvələr A.Mütəllibov hökumətinə açıq xəbərdarlıq edirdi ki, erməni təcavüzü genişlənəcək, biz təcili olaraq öz milli ordumuzu yaratmalıyıq. Bunu Ermənistanın genişlənən təcavüzü də zəruri edirdi. Lakin bu proses çox ləng gedirdi. Ümumən Azərbaycanda Milli Ordu quruculuğu üç mərhələdən keçmişdir: Birinci mərhələ,1991-ci ilin avqustun 30-dan, yəni Ali Sovetin "Azərbaycan Respublikasının

milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərarını qəbul etdiyi gündən 1992-ci ilin mayınadək olan zamanı əhatə edir. Bu mərhələ Silahlı Qüvvələrin təşkilatlanma dövrü kimi xarakterizə olunur.Həmin mərhələ ərzində ordunun hüquqi bazası yaradıldı. Ali Sovetin adı çəkilən qərarından sonra 1991-ci il oktyabrın 9-da "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul olundu.

Prezidentin fərmanına əsasən 1991-ci il sentyabrın 5-də Müdafiə nazirliyi yaradıldı. Nazirliyin aparatı ilə bərabər əlahiddə desant-hücum briqadalarının formalaşdırılmasına başlandı. 1991-ci iln noyabrın 4-də ilk hərbi hissənin yaradılması haqqında qərar qəbul olundu. 14 noyabrda Hərbi Dəniz Qüvvələrinin bazasında Şıxovda formalaşan ilk tabor dekabrın 14-də hərbi and içərək Qarabağa yollandı.

Ermənistanla və Dağlıq Qarabağla sərhəd rayonlarının mühafizəsini gücləndirmək üçün Müdafiə naziri bır sıra rayonlarda, Gəncə və Xocalı şəhərlərində özünümüdafiə taborlarının təşkil edilməsi barədə 1991-ci il 19 noyabrda əmr verdi. Hərbi Dəniz Qüvvələrinin bazasını təşkil edəcək mülkiyyətin qəbuluna başlandı.

Bu mərhələdə sovet dönəmindən qalmış Bakı Ali Ümumqoşun (1991-ci il dekabr), Ali Hərbi Dənizçilik (1992-ci il iyun) məktəbləri Azərbaycan Müdafiə nazirliyinin sərəncamına verildi. 1992-ci ilin fevral-iyun aylarında Azərbaycan ilk aviasiya hissələri təşkil edildi. Apreldə Xəzər Donanması mülkiyyətinin 25%-i Azərbaycana verildi. İyunun 26-da "Bakılı" keşikçi gəmisində Azərbaycan bayrağı qaldırdı. 1992-ci il 15 may SSRİ hərbi əmlakının bölüşdürülməsi haqqında Daşkənd müqaviləsinə əsasən MDB-nin 4-cü ordusunun silahlarının əvvəllər nəzərdə tutulduğundan çox az hissəsi Azərbaycana verilşə də, ordumuzun təchizatını bir qədər yaxşılaşdırdı.

1992-ci il martın 25-də müstəqilliyin qorunması və ərazi bütövlüyünün təmin olunmasında qəhrəmanlıq göstərən şəxsləri mükafatlandırmaq üçün ən yüksək fəxri fərqləndirmə dərəcəsi olan Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı təsis edildi. Bu

ada ilk dəfə Sədərək döyüşlərində şəhid olmuş polis Məhərrəm Seyidov (5 iyun 1992-ci il) layiq görüldü. Bəzi mənbələrə görə həmin tarixli fərmanla Əlif Hacıyev, Mikayıl Cəbrayılov, Valeh Müslümov, İlham Əliyev, ümumən 11 nəfərə Milli Qəhrəman adı verilmişdir.

Ermənistanın təcavüzkarlığının gündən-günə genişləndiyi bir şəraitdə silahlı qüvvələr quruculuğunun gedişini qənaətbəxş saymaq olmazdı. Bu, mövcud ictimai-siyasi və tarixi şəraitlə bağlı idi. Moskvanın mühafizəkar dairələri Azərbaycan ordusunun yaradılmasının qarşısını almağa çalışırdı. Belə ki, sovet ordusunda xidmət edən azərbaycanlı zabitlərin Milli orduya gəlməsinə mane olur, respublikadakı hərbi mülkiyyətin milliləşdirməsinə imkan vermirdi. Ordunun formalaşdırılacağı təqdirdə ona nəzarətin müxalifət qüvvələrinin əlinə keçəcəyindən narahat olan Azərbaycan hakimiyyəti də bu məsələyə ciddi qiqqət yetirmirdi. Silahlı qüvvələrin təşkili ilə bağlı qərar və qanunların qəbul edilməsində böyük rolu olan müxalifətin yaradılacaq ordunu siyasətə cəlb etmək, hakimiyyətə qarşı istifadə etmək niyyəti də aydın sezilirdi. Müxalifət liderlərindən olan Etibar Məmmədovun və Rəhim Qaziyevin başçılıq etdiyi mitinqçilərin təzyiqi ilə respublikanın ilk Müdafiə Naziri general-leytenant Valeh Bərşadlı istefa verdi. O, bildirdi ki, mən çox qısa müddətdir bu vəzifədəyəm, mənə yalnız hələ stol-stul, bir də telefon verilib, ciddi kömək göstərilməyib. Bəyəm bir neçə aya ordu qurmaq olar? Vaxtı ilə Almaniya Demokratik Respublikasında sovet qoşun birləşmələrinən birinin rəis müavini işləmiş təcrübəli və peşəkar zabitin istefası ordu quruculuğu üçün zərbə idi. Sonralar Müdafiə naziri vəzifəsini general Tacəddin Mehdiyev, polkovnik Şahin Musayev, polkovnik Tahir Əliyev, nəhayət Rəhim Qazıyev icra etdilər.

1992-ci ilin may-iyununda AXC-Müsavat cütlüyünün hakimiyətə gəlməsi ilə ordu quruculuğunda iknci mərhələ başlandı və bu mərhələ 1993-cü illin yayınadək davam etdi. Bu mərhələdə Silahlı Qüvvələrin Baş qərargahı möhkəmləndirildi. MDB qoşunlarının hərbi mülkiyyətinin Azərbaycanın səlahiyyətinə

verilməsinə başlanması yeni yaradılmış hərbi hissələrin maddi-texniki bazasının möhkələndirilməsinə, onların döyüşkənliyinin artmasına səbəb oldu. Taktiki hazırlığa, çağırış-səfərbərlik işinin yenidən qurulmasına, MDB ordusundakı azərbaycanlı zabitlərin geri çağırılmasına diqqət artırıldı.

Müdafiə Nazirinin 15 iyun 1992-ci il tarixli əmri ilə Birinci və İkinci ordu korpusları yaradıldı. Cəbhə bölgəsində yerləşən hissələr bu korpuslara tabe etdirilirdi. 1992-ci iiln iyununda prezidentin əmri ilə Müdafiə Nazirliyində vahid komandalıq yaradıldı,bütün hərbi hissələr ona tabe edildi.Lakin bu müsbət addımlar kadr siyasətinin düzgün qurulmaması üzündən səmərə vermədi.Nəticədə respublika ərazisinin 20%-i düşmən əlinə keçdi. Ermənilər torpağı viran qoymaq taktikasından istifadə edirdilər. İşğal olunmuş ərazilərdə evlər, müəssisələr, kommunikasiya vasitələri, təbii sərvətlər talan edilir, dağıdılır, yandırılırdı. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 5 min nəfər əlil olmuşdur. Qaçqın və köçkünlərin sayı milyonu ötmüşdü.

Erməni işğalçıları tərəfindən 4861 nəfər azərbaycanlı, o cümlədən 314 qadın, 58 uşaq, 255 qoca əsir və girov götürülmüşdü. Erməni faşistləri əsir və girovların həqiqi sayını beynəlxalq humanitar təşkilatlardan gizlədir, onlarla qeyri-insani rəftar edir, qul kimi işlədir, təhqir edir, alçaldırdılar. Yalnız bir fakt: öldürülmüş əsir Fərhad Atakişiyevin meyiti üzərində ekspertlər 72 işgəncə əlaməti aşkar etmişdilər. Onun əlləri, ayaqları sındırılmış, qulaqları kəsilmiş, gözləri çıxarılmış, dırnaqları kökündən qoparılmışdı. Azərbaycanın milli bayramları günü əsirlərə daha ağır işgəncələr verilirdi, erməni qəbri üstə əsir başı kəsmək ənənəyə çevrilmişdi.

Ermənistan tərəfindən işğal edilmiş və separatçı "Dağlıq Qarabağ Respublikası"nın nəzarətində olan Azərbaycan əraziləri beynəlxalq terrorizmin təlim düşərgələrinə, nüvə tullantılarının basdırıldığı zonaya çevrilmişdi. Laçın rayonunun Zabux kəndində "Kürd konqresi", Xocavəndin Qırmızı Bazar ərazisində suriyalıların "Xalq Azadlıq Cəbhəsi", Zəngilan rayonunun Mincivan qəsəbəsində "Hizbullah" və Livanlıların "Həmas" kimi terrorçu qrupları

yerləşdirilmişdi. "Asala" erməni terrorçu təşkilatının radikal qanadı üçün Şuşanın Xəlfəli, Xocavəndin Kiş, Əsgəranın Xankəndi yaşayış məntəqəsində təlim düşərgələri təşkil edilmişdi. 1996-cı il mayın 26-da işğal olunmuş ərazilərimizə əfqan ərəbləri - Əl-Qaidəçilər gətirilmişdi. Burada nüvə, bioloji və kimyəvi terrorizm üzrə qruplar fəaliyyət göstərirdi. Dağlıq Qarabağ ərazisində yerləşdirilmiş S-300 və Tayfun raketlərini Rusiya, Çin və Ermənistan alimləri modernləşdirmişdilər. Ermənistan nüvə silahı hazırlamağa çalışırdı. Dağlıq Qarabağda təşkil edilmiş nüvə tədqiqatı laboratoriya və mərkəzlərində Suriya, Səudiyyə Ərəbistanı, Pakistan, İran, Ermənistan alimləri və Əfqanıstandan olan ərəb mütəxəssisləri elmi axtarışlarını davam etdirirdilər. Erməni və rus alimlərinin birgə sınaq təcrübələri keçrilmişdi.

İşğal olunmuş Azərbaycan ərazilərindən işğalçı ordunun dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələbi BMT Təhlükəsizlik Şurasının 1993-cü il 30 aprel 822 (Kəlbəcər), 29 iyul 853 (Ağdam), 14 oktyabr 874 (Fizuli, Cəbrayıl, Qubadlı) və 11 noyabr 884 (Zəngilan) saylı qətnamələrində öz əksini tapsa da, Ermənistan müxtəlif bəhanələrlə onları yerinə yetirməkdən imtina edirdi. Əslində münaqişə tərəflərindən birinə, Ermənistana doğma, o birinə - Azərbaycana yad münasibət bəsləndiyindən bu qətnamələrin heç birində Ermənistan təcavüzkar elan olunmurdu. Bunlardan yalnız birində Ermənistanın adı çəkilir və ondan tələb edilirdi ki, Dağlıq Qarabağa təsir göstərsin. ABŞ, Rusiya və başqa dövlətlərin parlamentlərində özünə doğma münasibət görən Ermənistan təcavüzkar əməllərini azğınlıqla davam etdirirdi.

Təchizatla bağlı çətinliklərə baxmayaraq 1992-ci ilin iyunun 4-də Ağdaban və Çərəkdar yaxınlığında ilk dəfə erməni işğalçıları əsgərlərimizin ciddi müqaviməti ilə üzləşdilər. İki saat yarıma Əsgəran rayonun bir sıra kəndləri düşməndən təmizləndi. 1992-ci ilin iyunun 12-də ordu hissələrimiz podpolkovnik H.Sadıqovun rəhbərliyi altında Ağdərədə hücum əməliyyatına başladı, 3-4 gün ərzində 30-a qədər kəndi azad etdi. Ermənistan korpusu çoxlu canlı qüvvə, hərbi texnika itirərək qaçdı. Azərbaycan hərbi hissələri

Xankəndinin 10-15 km-ə çatdı. Xankəndində çox az erməni qalmışdı. Onların çoxu Ermənistana getmişdi. Şəhərin ordumuzun nəzarətinə keçməsi vəziyyəti yaranmışdı. Lakin R.Qazıyev və S.Hüseynov Xankəndini alacaq hərbi hissələrimizi çəkib Gəncəyə apardı, bununla da Xankəndi düşmənə qaldı. I Qarabağ müharibəsində Ağdərə əməliyyatı ordumuzun ən uğurlu əməliyyatı idi, təəssüf ki, o xəyanət ucbatından genişləndirilmədi. Baş nazir Pənah Hüseynov müsahibələrindən birində bildirdi ki, əməliyyat barədə rus hərbçiləri ilə də əvvəlcədən razılıq əldə edilmişdir ki, əməliyyata mane olmasınlar.

1992-ci ilin yay döyüşlərində Vəzir Orucov, Şaiq Mustafayev, Yavər Cəbrayılov və yüzlərlə əsgərlərimiz rəşadətləri ilə fərqlənmişdir. Milli Qəhrəman Vəzir Orucov Tərtər rayonunda doğulmuşdur. Ailələri Qərbi Azərbaycanın Dərələyəz mahalından buraya deportasiya olunmuşdur. O, Rusiyanın Arxangelsk vilayətinə köçmüşdü. 1992-ci ildə Xocalı soyqırımını eşidib Azərbaycana qayıtmış, Tərtər özünümüdafiə batalyonuna daxil olmuşdu. 2013-cü il 28 dekabrda Rusiyanın tanınmış jurnalisti və naşiri Aleksandr Nevzorov Qarabağ münaqişəsi barədə xatirələrini bölüşərkən Vəzir Orucov haqqında demişdir: "Heç kim inciməsin ancaq mənim indiyədək tanıdığımız ən cəsur insan azərbaycanlı olub. Adı Vəzir idi". O, çoxsaylı igidliklər göstərmişdir. 1993-cü ilin martında Ağdərənin Qlobus yüksəkliyi uğrunda döyüşlərdə həlak olmuşdur.Gültəkin Əsgərova, Nurcahan Hüseynova, Məleykə Əhmədova və başqa qadın döyüşçülərimiz onların arxasında dayanmışdı.Uğurlu hücumlar 1992-ci ilin payızınadək davam etdi. Qarabağın şimalında Tərtər və Kəlbəcər rayonları bütünlüklə, Laçın və Ağdərə rayonlarının isə böyük bir hissəsi azad edildi. Ağdərə isriqamətində qoşunlar strateji cəhətdən böyük əhəmiyyət kəsb edən Sırxəvənd kəndinədək irəliləyə bilmişdir. Hərbi uğurların bu istiqamətdə genişləndirilməsinə müəyyən imkanlar olsa da, Müdafiə nazirliyinin qərarı ilə hissələrimiz Laçın dəhlizi istiqamətinə göndərildi. Buradakı döyüşlər uğursuzluqla nəticələndi və Azərbaycan ordusu böyük itkilər verdi.

Qoşunlara rəhbərliyin səriştəsiz şəxslərə tapşırılması, ehtiyat qüvvələrin yaradılmasına lazımi qədər fikir verilməməsi, siyasi təxribatların davam etməsi, maddi-texniki bazanın aşağı olması və s. bütün bunlar qoşun hissələrinin döyüş fəaliyyətinə mənfi təsir göstərirdi. Yaranmış vəziyyətdən məharətlə istifadə edən erməni qoşun hissəsləri 1992-ci ilin sonundan yenidən fəaliyyətə başladılar. 1993-cü ilin yanvarın 26-28-də Fərrux yüksəkliyi ətrafında Azərbaycan qoşun hissələrinin güclü itkilərə məruz qalması, 1993-cü ilin yanvarında bir sıra hissələrin Gəncə və Lənkəran ətrafındakı hadisələrə cəlb edilməsi respublika ordusunun müdafiə imkanlarını xeyli zəiflətdi. Bundan da erməni təcavüzkarları istifadə edib, Ağdam, Kəlbəcər, Qubadlı, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarını işğal etdilər.

Ordunun qurulması istiqamətində başlanan işin ardıcıl şəkildə davam etdirilməməsi tezliklə onun daxilində ciddi böhran yaratdı. Müdafə nazirinin (R.Qazıyev) şəxsi iddilarını ümumxalq mənafelərindən üstün tutması, onun özünün hakimiyyət uğrunda siyasi mübarizəyə girişməsi ordunun getdikcə zəifləməsinə zəmin yaratdı. R.Qazıyev özü ixtisasca müəllim olduğu halda, onun silahlar üzrə müavini F.Məmmədov və döyüş hazırlığı idarəsinin rəisi Əlikram Hümbətov avtomobil mühəndisləri idilər. Nazirliyə belə şəxslərin gətirilməsi, məsuliyyətin və tələbkarlığın aşağı düşməsi ordunun idarəsində nizamsızlığa səbəb oldu.Silahlı qüvvələr dövlətin nəzarəti altından çıxdı və ordu quruculuğuna nəzarətin əldən verilməsini respublika prezidenti özü də hökümətin səhvi kimi qiymətləndirirdi.

1993-cü ilin fevralında R.Qazıyev Müdafiə naziri, S.Hüseynov isə Birinci korpusun komandiri vəzifəsindən azad edilsələr də, onların fəaliyyətinə prinsipial qiymət verilməməsi bu şəxslərin öz tərəfdarları ilə birlikdə siyasi hakimiyyət uğrunda mübarizələrini ifrat üsullarla davam etdirməyə imkan verdi. S.Hüseynovun nəzarət altına aldığı hərbi qüvvələrin tərksilah edilməsinə edilən cəhdin uğursuzluğu isə respublikada vətəndaş müharibəsi təhlükəsi yaratdı. Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışı ölkəni vətəndaş

müharibəsindən xilas etdi. Ordu quruculuğu sahəsində sistemli və ciddi işə başlandı. Lakin bu sahədə bir sıra maneələr mövcud idi. Onlardan biri də S.Hüseynov amili idi. 1993-cü ilin iyunun 30-da S.Hüseynov Baş nazir vəzifəsinə təyin edildikdən sonra ordunu tamamilə öz nəzarətinə keçirməyə çalışdı, ordu korpuslarını ləğv etdirərək onların yerinə 1993-cü ilin iyulun 17-də qərargah Gəncədə yerləşən Səhra Cəbhəsi İdarəsi yaratdı.

Azərbaycan ordusu bərbad vəziyyətdə idi, parçalanmışdı, hərbi hissələr ayrı-ayrı siyasi qrupların təsiri altına düşmüşdü. Silah, sursat, geyim və ərzaqla təminat yarıtmaz halda idi,fərarilik artırdı. 1991-1992-ci illərdə 30 min döyüşçü ordunu özbaşına tərk etmişdi. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ordu qurculuğunda dönüş yarandı.

Prezidentin fərmanı ilə 1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı. Onun həmin gün keçrilən ilk iclasında ordu quruculuğu, müdafiə məsələləri geniş müzakirə olundu, müvafiq qərarlar qəbul edildi. Səfərbərliyin təşkili, döyüş hazırlığının, qoşun hissələri şəxsi heyətinin təlim-tərbiyəsinin təkmilləşdirilməsinə istiqamətləndirilmiş tədbirlər müəyyən edildi. Prezident Heydər Əliyev 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciət etdi, xalqı ölkənin qeyrət və azadlığı uğrunda birləşib düşmənə qarşı mübarizəyə qalxmağa çağırdı. Onun bu çıxışı ordu quruculuğu sahəsində üçüncü mərhələnin başlanğıcını qoydu.

Prezidentin çağırışı xalqı hərəkətə gətirdi, orduya könüllü yazılanların sayı minlərlə artdı. Könüllülərdən ibarət taburlar yaradılıb cəbhəyə göndərildi. Əfqanıstanda xidmət etmiş keçmiş döyüşçülər Prezidentə müraciət edib, alay yaratmaq təşəbbüsünü irəli sürdülər. Təcrübəli döyüşçülərdən ibarət hərbi hissə yaradıldı.

1993-cü il noyabrın 23-də Milli Şura "Müdafiə haqqında" qanun qəbul etdi. Qanunda ordu quruculuğunda orqanların fəaliyyəti sistemləşdirildi, məsuliyyət sahələri dəqiqləşdirildi. Silahlı Qüvvələrin strukturuna yenidən baxıldı. Səhra Cəbhə İdarəsi ilə bərabər özünü doğrultmayan bir sıra hərbi hissələr, o cümlədən AXC-nin təşkil etdiyi taburlar ləğv edildi. Güclü ehtiyat qüvvələri

yaradıldı. Təlim-tərbiyənin səmərəliliyinin artırılması üçün xüsusi proqramlar hazırlandı, döyüş hazırlığının artırılması dövlət rəhbərliyinin ciddi nəzarətinə götürüldü. Prezident Heydər Əliyev Azərbaycan Ordusu üçün hərbi kadr hazırlığında üstünlüyü Türkiyəyə verirdi. Hətta İran tərəfi təklif etmişdi ki, biz sizin üçün ordu quraq, bu ordu Qarabağı azad etsin. Lakin Heydər Əliyev nə İrana, nə də Rusiyaya güvənmədi. Heydər Əliyev Türkiyəyə səfərlərindən birində Hərb okulunda təhsil alan azərbaycanlı müdavimlərlə görüşərkən demişdir ki,biz edə bilərdik ki, siz Bakıda da qalıb təhsil alardınız. Lakin sizi buraya ona görə göndərdik ki, Vətəni sevməyi, onun üçün döyüşüb ölməyi öyrənəsiniz.

Müdafiə Naziri kimi mühüm postda etimadı doğrultmayanlar işdən azad edildi. R.Qazıyevdən sonra bu posta Dadaş Rzayev, Səfər Əbiyev, Vahid Musayev, Məmmədrəfi Məmmədov, Səfər Əbiyev, Zakir Həsənov təyin edildi. Ordumuzun Qərargah rəsləri vəzifəsini isə Şahin Musayev, Rüfət Əmirov, Valeh Bərşadlı, Nurəddin Sadıqov,Səfər Əbiyev, Nəcməddin Sadıqov icra etmişlər. Hazırda bu vəzifəni general-leytenant Kərim Vəliyev icra edir.

Ordunun möhkəmlənməsi istiqamətində görülən işlər qoşun hissələrinin döyüş müvəffəqiyyətlərinin xeyli artmasına kömək etdi. Nəticədə, erməni silahlı qüvvələri 1993-cü il dekabrın 11-də Beyləqən istiqamətində Azərbaycan qoşun hissələrinin güclü müqaviməti ilə rastlaşdılar.

1993-cü il noyabrın ortalarından cəbhədə intensiv hücuma başlamış ermənilər Azərbaycan ordusunun güclü müqavimətinə rast gəldilər. Heydər Əliyevin cəbhə xəttinə gəlməsi döyüşçülərimizi ruhlandırdı. Dekabrın ortalarında Beyləqan istiqamətində milli ordunun əsgərləri böyük rəşadət göstərdilər. Birinci tabura hücum edən 15 düşmən tankının 7-si məhv edildi. Azərbaycan döyüşçüləri hücuma keçib 30 km irəlilədilər. Minomyotçular komandiri Akif Xanəliyev döyüşdə 50-yə qədər düşmən əsgərini məhv etdi. Xankəndi tərəfə kəşfiyyata getmiş hərbi hissə qəfildən düşmənlə üzləşsə də mərdliklə vuruşmuş, ermənilər xeyli itki vermişdilər.

1994-cü il yanvarın 5-də ordumuzun müvəffəqiyyətli əməliyyatları nəticəsində Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi, 22 kənd düşməndən geri alındı. Hücumu genişləndirib Cəbrayıl rayonu ərazisinin bir hissəsini, Kəlbəcər rayonunda bir sıra yaşayış məntəqələrini azad etdi. Çiçəkli dağı və başqa strateji yüksəklikləri ordumuz ələ keçirdi, Kəlbəcər-Ağdərə yolunun tunelə qədərki hissəsini nəzarət altına aldı. Nəyin bahasına olursa-olsun bunun qarşısını almaq istəyən nüfuzlu Rusiya qüvvələri ermənilərə köməyi daha da artırdılar. Bu səbəbdən 1994-cü ilin fevralında Kəlbəcərdə uğurla həyata keçrilməyə başlanan "Murovdağ" əməliyyatı məğlubiyyətlə nəticələndi. Hərbçilərimizin bir hissəsi döyüşdə həlak oldu, 100 nəfərdən artığı itkin düşdü, 1337 nəfərini don vurdu. Belə məlumatlar var ki, hələ 1993-cü ilin dekabrın 15-də 701-saylı motoatıcı briqadanın 3 mindən çox əsgəri Kəlbəcər rayonunu azad etmək üçün yüksək hündürlüklərə və sərt qış şəraitində cığırlarla, düşmənin gözləmədiyi istiqamətlərdə hücuma başladı. 1994-cü ilin yanvarın ortalarında Murovdağ silsiləsini keçərək Kəlbəcər rayonuna daxil oldu. Lakin arxadan köməyin vaxtında gəlməməsi, düşmən mühasirəsinə düşmək təhlükəsi hərbi hissələrimizi geri çəkilməyə məcbur etdi. Bu zaman onların bəziləri don vurmadan öldü. Görünür bu işdə xəyanət də olmuşdur.

Azərbaycanda vahimə yaratmaq üçün Ermənistan dövləti terror əməllərini də fəallaşdırmışdı. 1994-cü il fevralın 1-də Bakı dəmiryol vağzalında Kislovodsk-Bakı sərnişin qatarında törədilmiş terror aktı nəticəsində 3 nəfər həlak olmuş, 20 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdı. 8 gün sonra Xudat stansiyasında yük vaqonu partladılmış, dövlətə böyük ziyan dəymişdi. 1994-cü il aprelin 13-də "Daqestanskiye oqni" stansiyası yaxınlığında Moskva-Bakı sərnişin qatarı partladılmış, nəticədə 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdı.

1994-cü ilin aprelində Rusiya regionda mövqelərini qoruyub saxlamaq, qoşunlarını atəş xəttində yerləşdirmək, siyasi və iqtisadi güzəştlər əldə etmək məqsədilə Azərbaycana münasibətdə alçaldıcı

bir saziş layihəsi təklif etdi. Azərbaycanı bu layihə ilə razılaşmağa məcbur etmək üçün aprelin 10-dan ermənilər bütün cəbhələrdə güclü hücuma başladılar. Azərbaycan ordusu düşmənin hücumunu müvəffəqiyyətlə dəf etdi. Bu, Ermənistan və Dağlıq Qarabağ separatçılarını atəşkəsə məcbur etdi.

Azərbaycan Rusiyanın atəşkəsə nail olmaq istiqamətində səylərindən imtina etmədi. Sülh müqaviləsi 1994-cü il mayın 8-də münaqişədə iştirak edən tərəflər, o cümlədən Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları və Ermənistan tərəfindən Bişkekdə (Qırğızıstan) imzalandı. Azərbaycan tərəfindən sənədi parlamentin sədri Rəsul Quliyev və Dağlıq Qarabağın Azərbaycanlı icmasının rəhbəri şəxsində Şuşa rayonunun İcra hakimiyyəti başçısı Nizami Bəhmənov imzaladı. 1994-cü il mayın 19-da atəşkəs müqaviləsinin həyata keçrilməsinə nəzarət məqsədi ilə ATƏT-in Qarabağ üzrə Daimi Komitəsi yaradıldı. Bu sənədə əsasən tərəflər "Böyük sülh sazişi" imzalamalı idilər.

Prezident Heydər Əliyevin uğurlu diplomatiyası, milli ordunun yaradılması və güclənməsi nəticəsində düşmən və onun havadarları artıq münaqişəni zorakı vasitələrlə həll etmək cəhdlərinin perspektivsizliyini dərk edirdilər. 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəsə nail olunması ölkəmizdə müasir səviyyəli ordu qurmağa şərait yaratdı. "Bişkek" protokolu hüquqi xarakter daşımayan sənəd idi.

1994-cü ildə Azərbaycan ordusunda artıq 54 min əsgər və zabit xidmət edirdi. Prezidentin 1998-ci il 22 may tarixli Sərəncamı ilə hər il 26 iyun Silahlı Qüvvələr günü kimi qeyd olunur. Ordu struktur etibarı ilə quru, hərbi dəniz, hərbi hava qüvvələrindən ibarətdir.

Prezidentin 1999-cu il 30 aprel tarixli əmri ilə Respublika ordusunun əsas strukturlarından biri olan Xüsusi Təyinatlı Qüvvələr (XTQ) yaradıldı. XTQ-nin yaradılması I Qarabağ müharibəsindəki acı təcrübədən irəli gəlirdi. Vəziyyət göstərdi ki, klassik ordu birlikləri ilə yanaşı müstəqil əməliyyat aparmaq bacarığı olan elit birliklərin yaradılması da zəruridir.

Prezident Heydər Əliyevin böyük zəhməti və dövlət qayğısı sayəsində Azərbaycan ordusu getdikcə inkişaf etdi, müasir hərbi texnika ilə təchiz edildi və bacarıqlı kadrlarla təmin olundu, hərbi hissələrdə nizam-intizam möhkəmləndi. Bu işdə Azərbaycanın 4 may 1994-cü ildə qoşulduğu NATO ilə Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində həyata keçirilən tədbirlərin, qardaş Türkiyə Respublikası hərbçilərinin köməyi böyük idi.1999-cu ildən etibarən ordumuz NATO-nun Sülhməramlı kontingentinin tərkibində münaqişə zonalarında sülh yaratma əməliyyatlarında iştirak edir. Respublika Müdafiə Nazirliyinin təlim-tədris mərkəzində "Sülh Naminə Tərəfdaşlıq"məktəbi açıldı. Azərbaycan xalqının orduya yardımını tənzimləmək məqsədilə 2002-ci il avqustun 17-də Prezident Heydər Əliyevin Fərmanı ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fondu" təsis edilmişdi.

I Qarabağ müharibəsində Vətənin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü, xalqımızın şərəfi, namusu uğrunda döyüşən qərəmanlar qürurumuz olmaqla tariximizi şərəfləndirmişlər. Bəzi epizodlara diqqət edək:

25-26 fevral 1990-ci ildə Xocalı şəhəri rus-erməni işğalçıları tərəfindən yer üzündən silinsə də, geridə bu şəhərdən 5 Milli Qəhrəman qaldı: Əlif Hacıyev, Tofiq Hüseynov, Araz Səlimov, Natiq Həmidov, Ələsgər Novruzov.

Salatın Əsgərova (1961-1991) Bakıda doğulmuşdur. İxtisasca geofizik olsa da "Molodyoj Azerbaydjana" (Azərbaycan gəncləri) qəzetının müxbiri kimi çalışırdı. Bu cəsur qadın tez-tez Qarabağda və sərhəd bölgələrində olur, erməni quldur dəstələrinin, separatçılarının yaşayış məntəqələrimizə və əhaliyə qarşı basqınları haqqında qəzetə materiallar hazırlayırdı.1991-ci il yanvarın 9-da mindiyi hərbi maşın erməni quldurlarının pusqusuna düşdü, maşındakı hərbçilərlə birlikdə Salatın Əsgərova da həlak oldu. Prezidentin 1992-ci il 6 noyabr tarixli fərmanı ilə S.Əsgərovaya Milli Qəhrəman adı verildi.

Əslən Gədəbəy rayonundan olan Natiq Qasımov (1971-1992) Xocalı soyqırımından sonra könüllü olaraq Qarabağdaki döyüşlərə

qatılmışdır. Xocalı rayonu Pirlər (Xramort) kəndində 6 əsgər yoldaşı həlak olduqdan sonra alban kilsəsində 5 gün ermənilərlə təkbətək döyüşmüşdür. Kilsənin damına Azərbaycan bayrağını sancmışdır. Ermənilər elə başa düşüblər ki, kilsədə çoxlu Azərbaycan əsgəri onlarla döyüşür. Onu təslim etmək üçün əsir götürdükləri Xocalı sakinini onun yanına göndəriblər ki, ona çatdırsın ki, təslim olmasa əsir götürülmüş xocalılardan 22 nəfərini güllələyəcəklər. Əgər təslim olsa, onları buraxacaqlar. O, da həmin şəxslərin güllələnməməsi üçün Azərbaycan bayrağını əlinə alaraq düşmənə təslim olmuşdur. O, Dağlıq Qarabağ separatçılarının başçısı Vitali Balasanyan tərəfindən işgəncə ilə öldürülmüşdür. Prezidentin 2024-cü il 25 iyun tarixli Sərəncamı ilə Natiq Qasımov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Milliyyətcə rus olan Yuri Kovalyov (1965-1991) Xüsusi Təyinatlı polis dəstəsinin (XTPD) kəşfiyyatçısı idi. 1991-ci ilin oktyabrın 3-də Xocavənddə həlak olmuşdur. 1992-ci ilin iyununda Milli Qəhrəman adına layiq görülmüşdür.

Etnik mənşəcə dağ yəhudisi olan cəsur tankçı Albert Aqarunov bir çox döyüşlərdə iştirak etmiş, 1992-ci il mayın 8-də Şuşanın müdafiəsində həlak olmuşdur. Müstəsna igidliyinə görə o, Milli Qəhrəmn adına layiq görülmüşdür.

Ümumiyyətlə, I Qarabağ müharibəsində ölkəmizdə yaşayan Azərbaycan türkləri ilə yanaşı ləzgi, talış, kürd, avar, saxur, yəhudi, rus, ukraynalı, gürcü və başqa xalqların nümayəndələri də qəhrəmanlıqla döyüşmüşlər.

Yerli telekanalların birində I Qarabağ savaşında iştirak etmiş xanım tibb işçisi tamaşaçılara belə bir epizod nəql etdi: "Biz, hospitalda minaya düşüb ağır yaralanmış Rafiq adlı bir döyüşçünün ayaqlarını amputasiya etdik. Ayılandan sonra nə qədər acı olsa da, biz bu əməiyyatı ona bildirdik. O, ah çəkərək dedi: "Canım Azərbaycanım, mən canımı sənə qurban demişdim, hayıf ki, ancaq ayaqlarımı qurban verdim".

Demokratik cəmiyyət quruculuğu. Heydər Əliyevin rəhbərliyi və qətiyyəti sayəsində 1995-ci ilin ortalarında Azərbaycanda bütün

qeyri-qanuni silahlı qüvvələr tərksilah edilmiş, dövlət quruculuğu keyfiyyətcə yeni bir mərhələyə daxil olmuş, sabitlik və qanunçuluq bərqərar olmuşdu.

1995-ci il iyunun 2-də Milli Məclisin qərarına əsasən Azərbaycan Respublikasının Konstitusiyasını hazırlamaq üçün Prezidentin sədrliyi ilə Konstitusiya Komissiyası təşkil edildi. Komissiya Azərbaycan xalqının milli xüsusiyyətlərini nəzərə almaqla, qabaqcıl demokratik ölkələrin təcrübəsi əsasında "Azərbaycan Respublikasının Konstitusiyası" layihəsini hazırladı. Layihə 1995-ci il oktyabrın 15-də ümumxalq müzakirəsi üçün mətbuatda dərc edildi və cəmiyyətdə geniş müzakirə olundu. Cəmiyyətin rəyi nəzərə alınmaqla layihəyə düzəliş və əlavələr edildi. Yeni variantda 158 maddədən ibarət idi. "Azərbaycan Respublikasının Konstitusiyası" -müstəqil Azərbaycan dövlətinin ilk Əsas Qanunu 1995-ci il noyabrın 12-də referendumla qəbul olundu. Bununla da Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi, qanuni əsasları qoyuldu. Konstitusiya bəyan etdi: Azərbaycan xalqının və dövlətinin ən mühüm məqsədləri dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaqdır. Demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaqdır. Ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməkdir. Konstitusiya maddələrinin üçdə bir hissəsi (158 maddədən 48-i) insan hüquqlarına və onların təminatına həsr edilmişdi.

Konstitusiya təsbit etdi ki, icra hakimiyyəti Azərbaycan Respublikası Prezidentinə, qanunverici hakimiyyət Milli Məclis, məhkəmə hakimiyyəti isə müstəqil məhkəmələrə məxsusdur. Azərbaycan Respublikası Prezidenti təsisatının ikili hüquqi təbiəti vardır, Ali icra hakimiyyətinin ona mənsub olması ilə yanaşı, birinci növbədə o, Azərbaycan dövlətinin başçısıdır, Azərbaycan xalqını bütövlükdə təmsil edir və xalqın vahidliyinin rəmzidir.

Azərbaycan Respublikası Konstitusiyası Naxçıvan MR-ə Azərbaycanın tərkibində Muxtar Dövlət statusu verdi. Naxçıvanın coğrafi xüsusiyyətləri, Azərbaycan Respublikasının əsas hissəsi ilə onun ümumi sərhədinin olmaması bu bölgə üçün muxtar idarəetmə sisteminin təsis olunmasını tələb edirdi. Naxçıvan Muxtar Respublikasında dövlət idarəetməsi parlament hakimiyyəti üsulu ilə həyata keçirilir. Ali Məclisin - parlamentin sədri Muxtar Respublikanın ali vəzifəli şəxsidir. İcra Hakimiyyəti-Nazirlər Kabinetidir, o, Ali Məclis tərəfindən formalaşdırılır və onun qarşısında məsuliyyət daşıyır. Naxçıvan MR-in Ali Məclisi, məhkəmələri qanunla və Prezident fərmanları ilə onların səlahiyyətinə aid edilmiş məsələlərin həllində müstəqildirlər. Azərbaycan Respublikasının Konstitusiyası əsasında 1998-ci il aprelin 28-də Naxçıvan MR-nın yeni Konstitusiyası Muxtar Respublikanın Ali Məclisində qəbul edildi və həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olundu.

Respublika Konstitusiyası ölkədə vətəndaş cəmiyyəti quruculuğuna hüquqi əsas yaratdı. Konstitusiyanı daha da demokratikləşdirmək üçün Prezidentin təşəbbüsü ilə 2002-ci il avqust ayının 24-də referendum vasitəsilə ona 39 mühüm dəyişiklik edildi.

1995-ci il noyabrın 12-də Azərbaycan Respublikası parlamentinə 125 deputat yerinə mojaritar (100 deputat) və proporsional (25 deputat) sistemlə ilk seçkilər keçrildi. Noyabrın 12-də Naxçıvan MR parlamentinə də demokratik seçkilər keçrildi. Azərbaycan parlamenti geniş qanunvericilik fəaliyyətinə başladı. Parlamentdə insan hüquqları, elm, təhsil, mədəniyyət, iqtisadiyyat, ekologiya və b. sahələr üzrə daimi komissiyalar təşkil olundu.

Azərbaycan parlamenti dünyanın qabaqcıl ölkələri qanunverici orqanlarının təcrübəsini öyrənməyə başladı. Parlamentin nümayəndələri Avropa Şurası sessiyalarında dəfələrlə iştirak etdilər. Bütün bunlar respublikada demokratik qanunvericiliyin formalaşmasına və inkişaf etməsinə münasib imkanlar açırdı.

Parlamentin qəbul etdiyi qanunlar əsasında Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçrildi.

Xalqın fəal iştirakı ilə 2000-ci il noyabrın 5-də ikinci dəfə keçrilən parlament seçkiləri nəticəsində Azərbaycan Respublikasının yeni parlamenti yarandı və qanunvericilik fəaliyyətinə başladı.

2002-ci il avqustun 24-də referendumla Konstitusiyaya edilmiş dəyişikliyə görə Milli Məclisə seçkilər daha da demokratikləşdirildi, mojaritar (fərdi, adi səsvermə ilə ən çox səs toplayan namizəd) və proporsional (partiyalarara verilən səs) seçki sistemi ləğv edildi, ümumi mojaritar seçki sistemi müəyyən olundu.

1998-ci ilin fevralında Azərbaycan Prezidenti "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman verdi Azərbaycan Respublikası Şərqdə ölüm cəzasını ləğv etmiş ilk ölkə oldu. 1998-ci il avqustun 6-da ölkəmizdə senzura ləğv olundu.

İnsan hüquqlarının təmin olunmasının hüquqi mexanizmi yaradılmağa başlandı. "Kütləvi informasiya vasitələri haqqında", "Dini etiqad azadlığı haqqında", "Ölkədən getmək və ölkəyə gəlmək haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında" və digər qanunlar qəbul edildi. 1998-ci ilin oktyabrında "Vətəndaşlıq haqqında" yeni Qanun qəbul olundu.

1998-ci il iyunun 18-də "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edildi, bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq üçün Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu yaradıldı, beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, mütəxəssis hazırlanması üçün əməli addımlar atıldı.

Azərbaycan Respublikası insan hüquqları ilə bağlı 29 beynəlxalq konvensiyaya qoşuldu. BMT bu sahədə Azərbaycana fəal köməklik göstərməyə başladı.

2001-ci ilin dekabrında Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının

Konstitusiya Qanununu qəbul etdi. 2002-ci ildə respublikada Ombudsman İnstitutu yaradıldı. İyulun 2-də Milli Məclis Elmira Süleymanovanı bu vəzifəyə seçdi.Hal-hazırda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyevadır.

2001-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi. 2002-ci il oktyabrın 5-də Azərbaycan Prezidentinin fərmanı ilə "Milli Televiziya və Radio Şurası" yaradıldı.

Dövlətçiliyin təmin olunmasının mühüm vasitələrindən biri də hüquq-mühafizə orqanlarının möhkəmləndirilməsi idi.1997-ci ilin oktyabrında "Konstitusiya Məhkəməsi" haqqında Qanun qəbul edildi. 1998-ci ildə Konstitusiya Məhkəməsi təşkil olundu.

Bu illərdə dünya narkomafiyasının Azərbaycanı tranzit yola çevirmək cəhdlərinə qarşı ciddi mübarizə aparıldı. 1996-cı ilin avqust ayında Azərbaycan Prezidenti "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Fərman verdi.

Yeni Konstitusiyanın tələbinə görə, ölkədə demokratik cəmiyyətin mühüm elementi kimi yerli özünüidarə - seçkili bələdiyyələr sistemi qurulmağa başlanmışdı. "Bələdiyyələrə seçkilər haqqında", "Bələdiyyələrin statusu haqqında" qanun qəbul edilmişdi. 1999-cu il dekabr 12-də ölkəmizdə ilk bələdiyyə seçkiləri keçrildi. Bələdiyyələr vətəndaşların yerli özünüidarə təşkilatları kimi dövlətdən ayrı, müstəqil fəaliyyət göstərir.

1997-ci ildə Azərbaycanla BMT-nin İnkişaf Proqramı arasında razılaşmaya əsasən respublikada Qeyri-Hökumət Resurs və Təlim Mərkəzi təsis olunmuşdu.Yeni Azərbaycan Partiyası ümummilli partiyaya çevrildi. Onun rəhbərliyi ilə iqtidaryönümlü partiyalar 1998-ci ilin sonralarında "Azərbaycan Dövlətçiliyi və Vətəndaş Birliyi uğrunda Demokratik Alyans" yaratmışdılar. Alyans iqtidarın daxili və xarici kursunu dəstəkləyir, islahatların həyata keçrilməsində ona ideoloji kömək göstərirdi.

XX FƏSİL
Azərbaycan Respublikasında iqtisadi islahatlar. Sosial siyasət (1991-2003-cü illər).

İqtisadi islahatlar. XX əsrin 80-ci illərin ikinci yarısında SSRİ-də başlanan siyasi proseslər müttəfiq respublikaların, o cümlədən Azərbaycanın da iqtisadiyyatına və sosial-mədəni həyatına ağır zərbələr vurdu. İstehsal azalır, iqtisadi tənəzzül dərinləşirdi. Respublikaların iqtisadi əlaqələri pozulmuşdu, müqavilə öhdəliklərinə əməl olunmurdu. Azərbaycan iqtisadiyyatının xammal və materiallara tələbatı cəmi 40% ödənilirdi. Müəssisələrin istehsal gücündən yalnız 25-30% istifadə olunurdu. Bir sıra müəssisələrdə, o cümlədən Sumqayıt boru-prokat zavodunda 6 sobanın işi dayandırılmışdı. Demək olar ki, bütün sahələrdə əsas istehsal vasitələri mənəvi və fiziki cəhətdən köhnəlmişdi. Respublikada sənayenin aparıcı sahəsi olan neft sənayesində vəziyyət ağır idi. 4000-dən çox neft quyusunda hasilat dayanmışdı. Qazma dəzgahlarının 80 %-i işləmirdi. 1992-ci ildə 11, 1996-cı ildə isə cəmi 9 milyon ton neft çıxarılmışdı. Mövcud perspektivli dəniz yataqlarının istismarına başlanması üçün xeyli investisiya tələb olunurdu.

Kolxoz və sovxozların maşın-traktor parkı, meliorasiya qurğuları köhnəlmiş, çoxu sıradan çıxmış, suvarma kanalları bərbad hala düşmüşdü. Torpaqların böyük bir hissəsi şoranlaşmışdı.

İqtisadiyyata Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibəsi ciddi ziyan vurmuşdu. Respublika gəlirinin 1/3 hissəsi müharibəyə sərf olunurdu, ərazisinin 1/4 hissəsində döyüş əməliyyatları gedirdi. Bir milyon ha kənd təsərrüfatı sahəsi, 34 min ha üzümlük, 65 min baş qaramal, 240 min baş davar, 173 sənaye obyekti, 122 tikinti təşkilatı, 200-dən çox faydalı qazıntı yataqları, 4 qızıl, 3 civə, 2 qranit, 2 mərmər, 10 mineral su mədəni, 4 daş karxanası, 5 müxtəlif inşaat materialları yatağı, 250.000 ha meşə sahəsi, o cümlədən Zəngilan çinar meşəsi düşmən əlinə keçmişdi.

60.000-dən çox şəxsi təsərrüfat, yüzlərlə sənaye müəssisəsi, kolxoz və sovxoz dağıdılmışdı.

1991-1993-cü illərdə respublikanın mövcud iqtisadi və mədəni potensialından, zavod və fabriklərdən, kommunikasiya vasitələrindən, yüksək ixtisaslı mütəxəssislərdən də səmərəli istifadə olunmurdu.

Sosialist istehsal üsulunun dağıdılması, yeni iqtisadi münasibətlərin yaradılmasında, əsaslı iqtisadi islahatların tətbiq edilməsində cəsarətsizlik də iqtisadi böhranın başlıca səbəblərindən idi. Demokratik iqtisadiyyatın yaranması üçün vacib olan özəlləşdirmə, müxtəlif təsərrüfatçılığa keçid prosesləri ləng gedirdi.

Siyasi sabitliyin olmaması xarici investorların ölkəyə sərmayə qoymasına mane olurdu. Bu sahədə ilk addımlar atılmışdı: Bakmil (Azərbaycan-İtaliya), Pet-Azəri (Azərbaycan-Türkiyə) kimi bir neçə birgə müəssisə yaradıldı. Azərbaycan Neft Şirkəti dəniz neft yataqlarının işlədilməsinin mümkün texniki-iqtisadi səmərəliliyini öyrənmək məqsədilə ABŞ və Böyük Britaniyanın neft şirkətləri ilə müqavilələrin bağlanmasına başlamışdı. Neftçala rayonunda neft kəşfiyyatı və hasilatı üzrə Azərbaycan-Türkiyə birgə müəssisəsi yaradılmışdı.

Yeni iqtisadi institutlar meydana gəlirdi. Milli beynəlxalq əmanət bankları, özəl banklar təşkil olunurdu. Dövlət torpaq, əmlak komitələri yaradılmışdı. Milli valyuta - manat dövriyyəyə buraxılmışdı. Yüksək sosial-sığorta ayırmaları, əlavə dəyər vergisi azaldılmışdı. Nə bu tədbirlər, nə də yeni iqtisadi münasibətlərin hüquqi bazasını yaratmaq üçün qəbul edilmiş 30-dan artıq qanun, o cümlədən Özəlləşdirmə haqqında qanun, Torpaq kodeksi normativ aktlar olmadığından səmərəli işləyə bilmirdi.

İqtisadiyyat ciddi sarsıntılara məruz qalmışdı.1992-ci ilin əvvəllərində qiymətlərin sərbəstləşdirilməsi müəssisələrdə dövriyyə vəsaitlərinin qiymətdən düşməsinə, əhalinin alıcılıq qabiliyyətinin kəskin azalmasına səbəb oldu. Mərkəzləşdirilmiş kredit resurslarına faiz dərəcələrinin 200-250-yə qalxması istehsala

investisiya qoyuluşunu dayandırdı, istehsalın maliyyə vəziyyəti pisləşdi, dövriyyə vəsaiti çatışmadı və müəssisələrin xeyli hissəsi fəaliyyətini tamam və ya qismən dayandırdı.

İqtisadiyyatda hərc-mərclik baş alıb gedirdi. İşgüzar fəaliyyətlə, əsasən, əyri yollarla çoxlu vəsait ələ keçirmiş şəxslər, yeni "bəylər", imkanlı dövlət məmurları, təsərrüfat rəhbərləri, onların himayə etdiyi adamlar məşğul olurdular. "Nomenklatura (sovet dövründə dövlət və partiya aparatında yüksək vəzifəli şəxslər) sahibkarlığı" yaranmışdı. 1992-ci ilin sonlarında 600-ə qədər mövcud kiçik müəssisənin 70%-dən çoxu dövlət müəssisələri nəzdində fəaliyyət göstərir və əsasən onların istehsal etdiyi malları satır, gəliri isə öz xeyirlərinə bölürdülər. Dövləti qarət etmək vasitəsi kimi kağız üzərində onlarca kiçik müəssisə yaradılmışdı. Müştərək və kiçik müəssisələrin çoxu xaricə satdığı malın əvəzinə alınan valyutanı respublikaya qaytarmır, xarici banklardakı şəxsi hesablarında saxlayırdılar. Respublikanın beynəlxalq valyutaya böyük ehtiyacı olmasına baxmayaraq, 1991-ci ildə onlar 2 milyard 300 milyon dollar vəsaiti xarici banklarda saxlamışdılar. 1993-cü ilin ortalarında respublikanın yalnız 8 müəssisəsi xarici banklara 100 milyon dollar qoymuşdu.

Müəssisələrin avadanlığı sökülüb xaricə daşınırdı. Bakıda əlvan metal sexlərində aluminum və mis əridilib külçə halına salınıb İrana satılırdı. Hətta Bakı metrosunun ehtiyat kabelləri də oğurlanıb satılmışdı. Meşələr, xüsusən qoz ağacları icazəsiz kəsilib xaricə satılırdı. Nəzarətsizlik iqtisadiyyata böyük ziyan vururdu.

1992-ci ildə pambıq sahələrində 100 min tondan çox məhsul yığılmamış qalmışdı. Üzümlüklərdə və başqa sahələrdə də vəziyyət belə idi. İstehsal olunan məhsul bazar olmadığından anbarlarda yığılıb qalırdı.

Müəssisələr bağlanır, işsizlik artır, əhalinin güzəranı sürətlə pisləşirdi. İri şəhərlərdə ucuz iş qüvvəsi satılan qeyri-rəsmi bazarlar meydana gəlmişdi. Respublikanı milyona qədər gənc tərk etmişdi. Təminatsızlıq üzündən alim və mütəxəssislər dolanacaq dalınca xaricə getməyə məcbur olmuş, "beyin axını" başlamışdı.

Aztəminatlı adamlara kömək məqsədilə dövlətin verdiyi güzəştlər, o cümlədən 1991-ci ilin iyulundan pensiyaçılara şəhər nəqliyyatından pulsuz istifadə etmək hüququ, 1992-ci ildə müəllimlərə imtiyazlar verilməsi, tənha vətəndaşların sosial müdafiəsini gücləndirmək sahəsində tədbirlər həyata keçrilməyə başlanması inflyasiya şəraitində az səmərəli olmuşdu. Cəmiyyətdə orta təbəqə qalmamışdı. Minimum əmək haqqı rəsmi istehlak minimumu həcmindən 20 dəfə az idi. Dövlət əmək haqqını vaxtında verə bilmirdi. Manatın illik inflyasiya (mal və xidmətlərin qiymətinin artması ilə müşaiyət olunan pulun dəyərsizləşməsi prosesi) səviyyəsi min faizlə ölçülürdü. Şəhərlər xırda alverçilər və dilənçilərlə dolu idi. 1991-ci ilin fevralında Sumqayıt və Ağdam, 1992-ci ilin iyununda Bakı, Sumqayıt və Ağdam bazarlarında alıcı qiyamları baş vermişdi.

Heydər Əliyev yenidən rəhbərliyə qayıtdıqdan sonrakı ilk illərdə də xarici düşmənlər və daxili müxalif qüvvələrin qeyri-sabitlik yaratmaq, dövlət çevrilişləri, terror cəhdlərinə, Ermənistanın təcavüzünə qarşı mübarizə daha çox səy tələb etdiyinə, habelə idarəçilik sistemində hələ iqtisadi nizamsızlıqdan mənfəət götürən məmurlar köklü islahatların həyata keçrilməsinə müxtəlif vasitələrlə müqavimət göstərdiklərinə, korrupsiya geniş yayıldığına görə iqtisadi böhranı aradan qaldırmaq mümkün olmamışdı. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanın inkişaf strategiyası müəyyən olundu. O, çoxmülkiyyətli bazar iqtisadiyyatının başlıca tələblərinin təmin olunmasına uyğun əsaslı islahatlara start verdi. İqtisadiyyatda struktur dəyişikliyi getdikcə dərinləşirdi. Onun başlıca istiqamətləri - sahibkarlığın inkişafı,dövlət mülkiyyətinin özəlləşdirilməsi, aqrar islahatın həyata keçrilməsi idi. Azərbaycanın Dövlət müstəqilliyinin ardıcıl şəkildə həyata keçrilməsindən narazı olan dövlətlərin iqtisadi təzyiqi də inkişafa ciddi maneə idi. Rusiya 1994-cü ilin dekabr ayından quru və su yollarını bağlamış, İran isə 1995-ci ilin ortalarından bir sıra mühüm məhsulların Azərbaycana ixracına qadağa qoyaraq respublikanı, demək olar ki, blokadaya salmışdılar.

Hələ siyasi və hərbi sabitlik, azad iqtisadi münasibətlər üçün hüquqi baza zəif olduğundan xarici investisiyalar da az idi.

Xarici investisiyalara mane olmaq üçün Rusiyanın təşəbbüsü ilə Xəzər dənizinin statusu məsələsi ortaya atılmışdı. Halbuki hələ SSRİ zamanında bu dənizin müttəfiq respublikalara aid hissələri müəyyən olunmuşdu.

Ölkənin maliyyə sistemi də bərbad vəziyyətdə idi. Milli Bank krediti təminatsız və olduqca aşağı faizlə verirdi. Kommersiya bankları Milli Bankdan vəsait alıb kredit alverinə başlamışdılar. Mafioz qüvvələr manatı qiymətdən salmaq, əhalinin güzəranını daha da pisləşdirərək iqtidara qarşı narazılıq yaratmaq üçün 1993-cü ilin oktyabr-noyabr aylarında milli pulun çox hissəsini yığıb gizlətdilər. Onu yenidən dövriyyəyə qaytarmaq üçün Baş nazir S.Hüseynovun təşəbbüsü ilə 1 dollar 400 manata bərabər tutuldu. Manat sürətlə qiymətdən düşdü. 1994-cü ilin sonlarında 4.000 manata cəmi 1 dollar düşürdü. Həmin il inflyasiya 1600 faizə qalxmışdı, yəni istehlak qiymətləri 16 dəfə artmışdı.

Ümumi daxili məhsul (ÜDM) hər il orta hesabla 18-20%, sənaye məhsulu 20-25%, kənd təsərrüfatı məhsulu isə 7-10% azalırdı. Dövlət büdcəsi böyük kəsirlə icra olunurdu.İstehsal zəif olduğundan daxili bazar əsasən (70-80%) idxal hesabına formalaşırdı. 1993-cü ildə Azərbaycan dünyanın 30, 1996-cı ildə isə 70 ölkənin 2500 şirkət və müəssisəsi ilə ticarət-iqtisadi əlaqələr saxlayırdı. İxracın 70%-ni strateji xammallar, idxalın böyük əksəriyyətini istehlak malları təşkil edirdi. Xarici ticarətdə barter(natural mübadilə) əməliyyatlarına geniş yer verilir, bundan ayrı-ayrı dairələr külli miqdarda mənfəət götürürdü. Vəzifədən sui-istifadə edilməsi halları, korrupsiya cəmiyyətin ən böyük bəlası idi. Xarici Əlaqələr Nazirliyində, Gömrük Komitəsi və onun idarələrində, hüquq mühafizə orqanlarında qeyri-sağlam münasibət, rüşvətxorluq, oğurluq geniş yayılmışdı. Müəssisələrin, xüsusən özəl sektorda, çoxu gəlirinin bir hissəsini gizlədir, vergi ödəməkdən yayınırdı. Malların bir hissəsi ölkənin sərhədlərində mövcud olan qeyri-rəsmi keçidlərdən ötürülür, qeydə alınmırdı.

Prezident Heydər Əliyev tez bir zamanda dövlət intizamını gücləndirib, siyasi sabitliyin yaranmasına nail oldu və iqtisadi tənəzzülün qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladı. Bazar iqtisadiyyatının formalaşmasına münasib şərait yaratmaq məqsədilə qərarlar qəbul edildi. Prezident 1994-cü il aprelin 5-də xarici ticarəti sərbəstləşdirmək haqqında fərman verdi. Xarici iqtisadi əlaqələr liberallaşdırıldı (dövlət tənzimləmələri məhdudlaşdırıldı), həm fiziki, həm də hüquqi şəxslərə azad xarici ticarət hüququ verildi. 1997-ci ilin yanvarında respublikada ixrac vergisi ləğv olundu. 1994-cü ilin mayında respublikanın maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün qəti addımlar atıldı. 1992-ci ilin avqustun 15-də dövriyyəyə buraxılmış milli valyuta (manat) 1994-cü ilin əvvəllərindən respublika ərazisində yeganə ödəniş vasitəsi elan olundu. Prezidentin 14 may 1994-cü il fərmanı ilə kredit siyasəti ciddiləşdirildi. Banklararası valyuta birjasının işi nizama salındı. 1995-ci ilin fevralında prezident ilk radikal addım atıb valyuta bazarının təşkili haqqında fərman verdi, bundan sonra valyuta ehtiyatları bazar vasitəsilə tənzimlənməyə başlandı. Beynəlxalq Valyuta Fondu və Ümumdünya Bankı ilə müqavilələr bağlandı. Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankına qoşuldu. Büdcə kəsirinin artmasına yol verilmədi. Nəticədə 1995-ci ildə inflyasiya 85%-ə endi. 1996-cı ildə inflyasiya cəmi 6,7% oldu. Onun səviyyəsi 2000-ci ildə cəmi 2%, 2001-ci ildə isə 1,5% idi. Manatın dollara nisbətən dəyəri möhkəmləndi, istehlak mallarının qiymətləri artmadı, əksinə, azalması müşahidə olundu.İnflyasiyanın cilovlanması mühüm makroiqtisadi (ölkədə istehsal olunan məhsul və xidmətlərin ümumi həcmi)göstərici kimi iqtisadi tərəqqiyə, investorların cəlb olunmasına münasib imkanlar açırdı.

1995-ci il 29 oktyabr tarixli qanunla təsdiq olunmuş proqrama uyğun olaraq 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin I mərhələsi həyata keçrilməyə başladı. Bu məsələni reallaşdırmaq üçün 1996-cı il 25 mart tarixli fərmanla özəlləşdirmə payları (çekləri) haqqında Əsasnamə təsdiq olundu.

1996-cı ilin ortalarında prezident daha bir yeni iqtisadi addım atdı, vergi sistemi təkmilləşdirildi. Burada ağırlıq mərkəzi istehsal üzərindən götürülüb istehlak üzərinə qoyuldu. 1996-cı ilin sentyabr ayından əlavə vergi 50% azaldıldı, 1997-ci ilin əvvəllərindən isə tamamilə ləğv edildi. Xarici iqtisadi əlaqələri fəallaşdırmaq üçün gömrük rüsumları 30-40%-dən 15%-ə endirildi. Nəticədə vergi və rüsumlardan büdcəyə gəlir 2 dəfəyə qədər artdı.

2001-ci il yanvarın 1-dən ölkədə vahid vergi qanunvericiliyi tətbiq olundu. Vergi Məcəlləsində mülkiyyət formasından və təşkilat-hüquqi statusundan asılı olmayaraq, bütün vergi ödəyiciləri üçün eyni vergiqoyma siyasəti həyata keçrildi. Yerli və xarici iş adamları eyni vergiləri ödəyərək eyni imtiyazlara, güzəştlərə malik oldular. Vergi Məcəlləsinə görə Yol Fonduna vergilər ləğv edildi. Əsas fondların (iş maşınları, avadanlıqlar, alətlər və s.) fəal hissəsi əmlak vergisindən azad olundu. 2002-ci ilin noyabrında 62 yerli vergi idarəsi ləğv olunub, əvəzinə 12 ərazi vergi idarəsi təşkil edildi. Vergi Nazirliyində işçilərin 40%-i ixtisar olundu. 1997-ci ildən dövlət büdcəsi xərclərinin səmərəli təşkili üçün maliyyə işləri xəzinədarlıq sistemi üzrə qurulmağa başlandı. Baş və yerli xəzinədarlıq orqanları təşkil edildi. İstehsalı inkişaf etdirmək üçün respublikanın kifayət qədər investisiya imkanları yox idi. Xarici kapitalı cəlb etmək məqsədilə "açıq qapı" siyasəti yeridilməyə başlandı. Xarici investorlara və kreditorlara təminat verən, onları müdafiə edən qanunlar qəbul olundu. Gömrük vergiləri sərbəstləşdirildi və aşağı salındı. Xarici sərmayələrə immunitet haqqında (xüsusi imtiyaz) qanun qəbul edildi. Fiziki və ya hüquqi şəxslər, respublikada 10 il müddətində investisiyanı qoyduğu şərtlərlə işlətmək hüququ aldı. Xarici səhmdarların gəlirlərinin repartasiya (vətənə, mənsub olduğu yerə qayıtması) olunması haqqında da qanun qəbul olundu. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı ilə əməkdaşlıq yaradıldı. Bu, Azərbaycan Respublikasının maliyyə-bank sistemini dünya standartlarına uyğunlaşdırdı.

Beynəlxalq maliyyə təşkilatlarının ayırdığı kreditlər ölkədə iqtisadi struktur dəyişikliklərinə, mühüm iqtisadi tədbirlərin həyata keçrilməsinə kömək etdi. 1995-ci ildə Dünya Bankı Azərbaycana kredit ayırdı. Bu bank 1997-ci ildə ölkədə 195 milyon dollar dəyəri olan 6 layihəni, o cümlədən Bakı su kəmərinin bərpası, neft-qaz sənayesində yenidənqurma, kənd təsərrüfatında özəlləşdirmə ilə əlaqədar fermer təsərrüfatı yaradılması layihələrini maliyyələşdirdi. Avropa Yenidənqurma və İnkişaf Bankı 1997-ci ildə Mingəçevir Su-Elektrik Stansiyasının yenidən qurulması, Ağdam-İmişli 330 kilovatlıq elektrik xəttinin bərpası üçün kredit ayırdı.

Dünya Bankı respublikanın işğaldan azad olunmuş ərazilərində bərpa işlərinə kömək məqsədilə "Bərpa" proqramı hazırlanmasında, onun həyata keçrilməsi üçün donor ölkələrin maliyyə vəsaitinin cəlb olunmasında fəal iştirak edirdi. Təkcə Dünya Bankı və Beynəlxalq Valyuta Fondu Azərbaycana 1 milyard 300 milyon dollardan çox kredit vermişdi.

Ümumiyyətlə, görülən tədbirlər nəticəsində ölkəmizdə 1996-cı ildə iqtisadi geriləmə dayandırıldı, 1997-ci ildən inkişaf başlandı.

İqtisadi inkişaf strategiyası və onun gerçəkləşdirilməsi. Respublika iqtisadiyyatının böhrandan çıxarılması və inkişaf etdirilməsində neft sənayesinin dirçəldilməsi, müasir texnologiyalar əsasında yenidən qurulması mühüm əhəmiyyət kəsb edirdi. Heydər Əliyevin rəhbərliyi ilə yeni neft strategiyası hazırlandı ki, bu da Azərbaycan neft sənayesində yeni eranın başlanğıcı idi. Bu strategiya xarici kapitalın və təcrübənin cəlb edilməsi, çoxvariantlı nəqliyyat sisteminin yaradılması, gəlirlərin toplanması və səmərəli istifadə edilməsi kimi 3 hissədən ibarət idi.

Neft sənayesinə investisiya və yeni texnologiyalar cəlb etmək, sərfəli şərtlərlə xarici neft şirkətləri ilə müqavilələr bağlamaq üçün danışıqlar aparılması Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə (ARDNŞ) tapşırıldı. Danışıqlar qrupuna neft və beynəlxalq əlaqələr üzrə görkəmli mütəxəssislər daxil edildi. Azərbaycanın maraqlarına tam cavab verən müqavilə şərtləri

razılaşdırıldı. Müqavilənin bağlanmasına xarici qüvvələr ciddi mane olurdular. Rusiya Federasiyasının təşəbbüsü ilə belə bir tezis irəli sürüldü ki, Xəzər dənizi bütün Xəzəryanı ölkələr üçün ümumidir və onu milli sektorlara bölmək olmaz. Buna görə də Azərbaycan birtərəfli qaydada xarici şirkətlərlə neft müqavilələri bağlaya bilməz. Rusiya tərəfindən diplomatik notalar, bəyanatlar verilirdi. Rusiyadan çəkinən xarici şirkətlər də belə fikirdə idilər ki, müqavilə Xəzər dənizinin statusu həll ediləndən sonra qüvvəyə minməlidir. Lakin Azərbaycan hökuməti tərəfindən Vaşinqtona ezam edilmiş ARDNŞ-in Birinci vitse-prezidenti İlham Əliyev ABŞ-da Energetika Nazirliyi rəhbərləri ilə səmərəli danışıqlar apardıqdan sonra ABŞ hökumətinin dəstəyi sayəsində xarici şirkətlər bu fikirdən əl çəkdilər.

1994-cü il sentyabrın 20-də Bakının Gülüstan sarayında ARDNŞ ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, Yunanıstanın iri neft şirkətləri (BP, Statoyl və s.) daxil olan konsersum (sonralar bu konsersuma Yaponiya şirkəti də qoşuldu) arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 illik saziş imzalandı. Bu müqavilə dünyada "Əsrin müqaviləsi" adı ilə məhşurlaşdı (həmin gün respublikada "Neftçi günü" kimi bayram edilir). Razılığa görə, investisiyanın 80%-ni konsersium qoyur, Azərbaycanın ümumi gəliri çıxarılacaq neftin qiymətinin 80% miqdarında müəyyən olunurdu.

Müqavilə öz tarixi, siyasi və beynəlxalq dəyərinə görə "Əsrin müqaviləsi" adlanmışdır. Əsrin müqaviləsinin həyata keçrilməsi olduqca ağır və çətin problemlərlə müşayiət olunurdu. Bu layihəyə mane olmaq üçün xarici qüvvələrin dəstəyi ilə ölkədə dövlət çevrilişi, prezidentə qarşı terror cəhdləri törədildi. Hətta xarici şirkətlərə yalan informasiyalar və müxtəlif yollarla təzyiq göstərməyə çalışırdılar. Lakin Heydər Əliyevin qətiyyəti sayəsində bu maneələr müvəffəqiyyətlə aradan qaldırıldı. Ölkədə xarici

sərmayələr qoyuluşu üçün ən vacib şərt olan siyasi sabitlik yaradıldı.

1995-ci il noyabrın 10-da Xəzərin yeni aşkar olunmuş "Qarabağ" strukturunda və ona bitişik ərazilərdə kəşfiyyat aparılması, yataqların işlənməsi və çıxarılan neftin bölüşdürülməsi haqqında Rusiya, İtaliya, ABŞ şirkətləri ilə yeni saziş imzalandı. Müqavilədən əldə olunan daxili gəlirin 65-80%-nin Azərbaycana çatacağı razılaşdırıldı.

1996-cı il iyunun 4-də Xəzərin "Şahdəniz" yatağının birgə işlənməsi haqqında ARDNŞ ilə Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya, Fransa və İranın neft şirkətləri müqavilə imzaladılar. Bu müqaviləyə görə də ümumi gəlirin 80%-i Azərbaycana çatacaqdı. Burada dərinliyi 6,5 min m. olan quyular qazıldı və nadir qaz kondensat yatağı kəşf edildi. Böyük qaz ehtiyatı olan bu yatağın kəşf edilməsi ilə Azərbaycan təkcə neft deyil, həm də qaz kralına çevrildi. Dövlət tərəfindən qaz sənayesinin inkişaf strategiyasının hazırlanması və onun dünya bazarına çıxarılması yolları müəyyənləşdirilməyə başlandı. 1996-cı il dekabrın 14-də Xəzərdə "Dan ulduzu" və "Əşrəfi" yataqlarının birgə istismarı üzrə ABŞ, Səudiyyə Ərəbistanı və Yaponiya, 1997-ci il yanvarın 13-də "Lənkəran-dəniz" və "Talış-dəniz" yataqlarının birgə istismarı üzrə Fransa neft şirkətləri ilə ARDNŞ arasında sazişlər bağlandı. 1997-ci il avqustun 1-də Vaşinqtonda - Ağ Evdə ABŞ-ın qabaqcıl neft şirkətləri ilə ARDNŞ arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Abşeron", "Naxçıvan", "Oğuz" və "İnam" neft yataqlarında birgə iş barədə 3 yeni müqavilə imzalandı.

1998-ci ilin iyun ayında İtaliya, Yaponiya, Türkiyə, ABŞ, Britaniya-Kanada neft şirkətləri konsorsiumu ilə, həmin ilin iyulunda isə Böyük Britaniya, ABŞ və Rusiya neft şirkətləri ilə ARDNŞ arasında yeni neft müqavilələri imzalandı. 1999-2000-ci illərdə daha bir neçə neft müqaviləsi bağlandı. 2001-ci ilin yanvarında Zığ və Hövsan quru yataqları üzrə Rusiyanın Lukoyl şirkəti ilə müqavilə imzalandı.

Ümumiyyətlə, 1994-2001-ci illərdə ARDNŞ 14 ölkənin 32 neft

şirkəti ilə 21 müqavilə imzaladı. 2001-ci ildə bu şirkətlərə servis xidməti göstərən 400-ə qədər xarici şirkət fəaliyyətdə idi. Bu müqavilələr çərçivəsində Azərbaycana 60 milyard dollar həcmində investisiya qoyulması nəzərdə tutulurdu. Bu müddətdə xarici neft şirkətləri müqavilələr üzrə işlərin həyata keçrilməsi üçün 6 milyard dollara qədər investisiya qoymuşdu.

1995-ci ilin aprelində "Əsrin müqaviləsi"ni reallaşdırmaq üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ), 1996-cı ilin aprelində isə Qarabağ strukturu üzrə müqaviləni həyata keçirmək üçün "Xəzər" Beynəlxalq Neft Şirkəti, habelə başqa müqavilələr üzrə əməliyyat şirkətləri təşkil edildi. Bu şirkətlər qazma qurğularından və infrastrukturdan birgə istifadə etmək üçün xüsusi klub yaratdılar.

ABŞ-ın "Ekson", "Amoko", "Yunokal", "Mobil" və "Penzoyl", Böyük Britaniyanın "Britiş Petrolium", Yaponiyanın "İtoçi", "Mitsui", Norveçin "Statoyl", Səudiyyə Ərəbistanının "Delta", Rusiyanın "Lukoyl", Fransanın "Elf Aqiten", "Total", İtaliyanın "Acip" kimi dünyanın ən qabaqcıl neft şirkətləri Azərbaycanın neft, neft-maşınqayırma sənayesinə müasir texnologiyalar, idarəetmə təcrübəsi gətirdilər. Respublikanın neft donanması, neft sənayesi infrastrukturu yenidən quruldu.Xəzərdə yeni karbohidrogen yataqlarını müəyyən etmək və həmin yataqları istismar etmək üçün elmi-texniki tədbirlər görüldü.

"Bakı"elmi-tədqiqat gəmisi modernləşdirilib dünyada ən mükəmməl geofiziki tədqiqat gəmilərindən birinə çevrildi. "Xəzərdənizneft" yarımdalma qazma qurğusu yenidən quruldu, "Dədə Qorqud" adı ilə ikinci həyatına başladı. "Şelf-5" qazma qurğusu əsaslı şəkildə yenidən quruldu, müasir avadanlıqla təchiz olunaraq, dünyada ən böyük üzən qazma qurğularından birinə çevrildi və 1998-ci ilin sentyabrında "İstiqlal" adı ilə istifadəyə verildi. Xəzər Gəmiqayırma müştərək müəssisəsində 1998-ci ilin iyulundan 2000-ci ilin avqust ayınadək dənizin 7620 m-dək dərin yerlərində neft quyuları qazmağa imkan verən "Qurtuluş" adlı ən müasir qazma qurğusu yaradıldı. 2002-ci ilin yayında "Azəri",

"Çıraq" və "Günəşli" yatağında ən yeni texnologiya üzrə Xəzərdə ilk dəfə qazma qurğularının altı üçün sualtı qazma dayaq tavası quraşdırıldı.Dənizdə "Çıraq-1" platforması beynəlxalq standartlara uyğun, Qərb texnologiyası əsasında yenidən quruldu. Bu platformadan sahilədək 176 km neft, Neft daşlarına 48 km qaz kəmərləri çəkildi. Səngəçal terminalı tikildi. Zığ zavodu sualtı boruların üzlənməsi üzrə ixtisaslaşdırıldı.

1994-cü ildən başlayaraq hər ilin iyun ayında Bakıda xarici firma və şirkətlərin iştirak etdiyi ənənəvi Beynəlxalq neft-qaz sərgisi təşkil olunurdu. 4.000 nəfərdən çox azərbaycanlı mütəxəssis dünyanın ən qabaqcıl neft şirkətləri bazasında yeni texnologiya və iş metodlarına yiyələndi. 2001-ci ildə hasilat və servis şirkətlərində 10 mindən çox Azərbaycan vətəndaşı işləyirdi. Bakı neftçilərinin böyük təcrübəsi yüksək qiymətləndirilir və ondan səmərəli istifadə olunurdu. Neft şirkətlərinin bağladığı müqavilələrin 20%-dən çoxu Azərbaycan müəssisələrinin və onların xarici tərəf müqabilləri ilə birgə yaratdıqları müəssisələrin payına düşürdü. "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından hasil olunacaq ilkin neftin Qara dəniz limanlarına Rusiyadan keçən "Şimal" (1400 km) və Gürcüstandan keçən"Qərb" (920 km) neft kəmərləri ilə nəql ediləcəyi barədə müqavilələr bağlandı. Bakı-Novorossiysk "Şimal" kəmərinin Azərbaycan hissəsi 1996-cı ilin sonuna qədər hazır oldu, mövcud kəmərə 26 km yeni kəmər əlavə edildi. Kəmər neftlə dolduruldu. 1997-ci ilin oktyabrında "Şimal" kəməri istifadəyə verildi. Bakı-Supsa "Qərb" kəmərinin tikintisi 1998-ci ilin axırlarında başa çatdırıldı. 1999-cu il aprelində bu kəmər və Supsa terminalı (Gürcüstan) istifadəyə verildi.

1996-cı ildə dənizdə ABƏŞ-in qazdığı ilk neft quyusu güclü fontan vurdu və yataqların böyük ehtiyatları bir daha təsdiq olundu. 1997-ci il noyabrın 12-də "Əsrin müqaviləsi" üzrə neftin hasilatına başlanıldı. Bu hadisə Bakıda böyük təntənə ilə qeyd edildi.Bu müqavilə üzrə əsas işlərin birinci fazasının başlanması üçün Xəzər dənizindən Aralıq dənizinə qədər uzanan, ildə 50 milyon ton neft nəql edə biləcək, uzunluğu 1760 km olacaq

iridiametrli Bakı-Tibilisi-Ceyhan (BTC)əsas neft ixrac kəmərinin tikintisi haqqında saziş əldə olunması vacib idi. 1998-ci ilin mayında müqavilə hazırlanması üçün işçi qrup yaradıldı. Həmin ilin oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentlərinin və ABŞ energetika nazirinin imzaladıqları bəyanat bu kəmər üzrə danışıqlara təkan verdi.

ATƏT-in 1999-cu il noyabrın 18-də İstanbul sammitində Heydər Əliyev, E.Şevarnadze, S.Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas boru kəməri vasitəsilə nəql edilməsinə dair" saziş imzaladı. Bu zaman Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və ABŞ-ın dövlət başçıları tərəfindən verilən "İstanbul Bəyannaməsi" layihənin yüksək səviyyədə dəstəkləndiyinə sübut oldu. 2002-ci il avqustun 1-də bu kəmərin tikilməsi və idarə edilməsi üçün BTCKO (Bakı-Tbilisi-Ceyhan) şirkəti təsis edildi. 2002-ci il sentyabrın 18-də kəmərin təməli qoyuldu. 3 milyard dollara qədər dəyəri olan bu kəmərin sahibi Azərbaycan Dövlət Neft Şirkəti (25%), Böyük Britaniyanın BP (30,1%), ABŞ-ın Yunokal (8,9%), Konoko-Filips (2,5%), Norveçin Statoyl (8,72%), Türkiyənin Türkiyə Petrolları (6,53%), Yaponiyanın İtoçi (3,4%) və İnpeks (2,5%), Səudiyyə Ərəbistanının Delta Hess (2,36%), İtaliyanın Epi (5%) və Fransanın Total Elna Elf (5%) şirkətləri idi.

2001-ci il avqustun 30-da "Əsrin müqaviləsi" üzrə əsas işlərin birinci, mühüm fazasına başlanıldı. Həyata keçirilən tədbirlər sayəsində neft sənayesi dirçəldi və sürətlə inkişaf etməyə başladı. 2002-ci ildə ölkədə 15,3 milyon ton neft hasil edildi. Neft müqaviləsi gəlir gətirməyə başladı.

Prezidentin Fərmanı ilə 1999-cu ilin dekabrında "Azərbaycan Dövlət Neft Fondu" təsis olundu. Neft satışından əldə olunanan maliyyə vəsaiti burada saxlanmalı idi. Prezidentin 2001-ci il 27 dekabr Sərəncamı ilə bu fondun Müşahidə Şurası təşkil edildi. Dövlət Neft Fondunu yaratmaqda başlıca məqsəd mineral-xammal ehtiyatlarını təkrar istehsala yönələn maliyyə ehtiyatlarına

çevirməkdir və bu fond nəsildən-nəslə keçməlidir. Dövlət Neft Fondunda yığılan vəsaitlər investisiya şəklində Azərbaycan iqtisadiyyatının başqa sektorlarına qoyulmalı, neftlə bağlı olmayan digər sahələrin inkişafı, yeni iş yerləri yaradılması üçün, habelə gələcək nəsillərin neft hasilatı səviyyəsindən və dünya bazarında neftin qiymətinin dəyişməsindən asılılığını istisna edən proqramlar həyata keçrilməlidir. 2003-cü ilin əvvəllərində fondda 730 milyon ABŞ dolları həcmində vəsait var idi. Ondan respublikanın iqtisadi və sosial rifahı naminə səmərəli istifadə etmək üçün xüsusi proqram hazırlandı.

İqtisadiyyatın başqa sahələrinə də xarici sərmayə qoyuluşu sürətlə artırdı. Əgər 1996-cı ildə respublikaya gələn xarici investisiyanın 33%-i qeyri-neft sahələrinə yönəldilmişdisə, 2000-ci ildə bu, 50%-dən çox idi. Ümumiyyətlə, respublika iqtisadiyyatına 1993-cü ildə 15 milyon, 1995-ci ildə 375 milyon, 1996-2002-ci illərdə 9 milyard (qeyri-neft sektoruna 3 milyard) dollar xarici investisiya qoyulmuşdu. Xarici sərmayənin 90%-i istehsal sahələrinin inkişafına yönəldilmişdi. Azərbaycan Respublikası iqtisadiyyatının dirçəldilməsinə və inkişafına Avropa Birliyi Traseca proqramı üzrə Avropa-Qafqaz-Asiya nəqliyyat kommunikasiyasının - Yeni İpək Yolunun işə düşməsi də əhəmiyyətli təsir göstərirdi. 1993-cü ilin mayında Avropa Birliyinin təşəbbüsü ilə bu istiqamətdə nəqliyyat dəhlizinin açılması barədə 8 ölkənin, o cümlədən Azərbaycanın iştirakı ilə "Brüssel Bəyannaməsi" qəbul olunmuşdu. 1996-cı il mayın 13-də Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan respublikaları arasında tranzit yük daşınmasının tənzimlənməsi sahəsində əməkdaşlıq və dəmiryol nəqliyyatı fəaliyyətinin əlaqələndirilməsi haqqında Sarahs (Türkmənistan) sazişləri imzalandı. 1996-cı ilin dekabrında Odessada Azərbaycan, Gürcüstan və Ukrayna dövlət başçılarının Avrasiya nəqliyyat dəhlizi yaradılması haqqında saziş imzalaması da bu işə güclü təkan oldu.

Prezidentin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakıda

"Böyük İpək Yolu" Beynəlxalq konfransı keçrildi. Dünyanın 32 ölkəsinin və beynəlxalq təşkilatının təmsil olunduğu bu konfransda "Bakı Bəyannaməsi" qəbul edildi, Yeni İpək Yolunun tranzit ölkələr üçün son dərəcə faydalı olacağı bildirildi, Böyük İpək Yolunun mənzil qərargahı yaradıldı və onun Bakıda yerləşməsi qərara alındı.

Yeni nəqliyyat yolu ilə Azərbaycandan 1996-cı ildə 345 min, 2002-ci ildə isə artıq 33 milyon tondan çox yük daşınmışdı. Qazaxıstanın Tengiz yatağından çıxarılan neft tankerlərlə Bakıya gətirilir, Azərbaycan və Gürcüstan dəmir yolları vasitəsilə Avropaya ixrac olunurdu. 1998-ci ilin yanvarında Bakı yaxınlığında Orta Asiya neftinin Xəzər dənizi, Azərbaycan və Gürcüstan əraziləri vasitəsilə Qara dənizin Batumi limanına çatdırılması üçün nefti tankerlərdən dəmiryol sisternlərinə yükləməyə imkan verən Dübəndi terminalı istifadəyə verildi. 2002-ci ilin dekabrında Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan kəməri ilə ixrac edilməsi barədə razılıq əldə olundu. Aktau-Bakı-Tbilisi-Ceyhan enerji nəqliyyat dəhlizinin təməli qoyuldu. Bakı Beynəlxalq Dəniz Limanı Yeni İpək Yolunda baş körpüyə çevrildi. Bərə keçidi dünya standartlarına uyğun şəkildə yenidən quruldu. Xəzər Nəqliyyat Donanmasında 69 gəmi, o cümlədən 34 tanker və 27 quru yük, 8 sərnişin gəmisi və bir bərə-gəmi vardı.

Ölkəmizdə keçrilən iqtisadi islahatlarda iqtisadiyyatın liberallaşdırılması, xüsusi mülkiyyətçilər təbəqəsinin və azad sahibkarlığın inkişaf etdirilməsi, rəqabət mühitinin formalaşdırılması, müəssisələrə sərmayələrin, cəlb edilməsi, iş yerlərinin açılması, əhalinin həyat səviyyəsinin və sosial rifahının yaxşılaşdırılması kimi nəqsədlər qoyulmuşdu.

Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi 1997-ci ilin martında artıq başa çatmışdı. 10.174 kiçik müəssisə özəl mülkiyyətə, əsasən əmək kollektivi üzvlərinə satılmışdı. İri və orta müəssisələrin özəlləşdirilməsi səhmdar cəmiyyətləri yaradılması yolu ilə həyata keçrilirdi. Belə sənaye müəssisələrinin səhmləri 1997-ci il martın 1-dən əhaliyə paylanan ümumi mülkiyyət

bölgüsündən hər kəsə düşən hissənin ifadəsi olan 7 milyon 500 mindən çox hər biri 4 çekdən (vətəndaşa sovet dövlətinə aid mülkiyyətdən pay almaq hüququ verən qiymətli kağız) ibarət paya dəyişdirildi. 1998-ci ilin sonlarında prezidentin Fərmanına əsasən müharibə və Çernobıl əlillərinə, onların ailələrinə əlavə özəlləşdirmə çekləri verildi. Özəlləşən müəssisələrin göstəriciləri hərracdan azı iki həftə qabaq mətbuatda dərc olunurdu. Səhmlərin 15%-i əmək kollektivi üzvlərinə güzəştlə nağd pula satılır, 50%-i isə çeklərə dəyişdirilirdi. Dövlət Əmlak Komitəsi çeklərin hərracı üçün Respublika Hərrac Mərkəzi təşkil etmişdi. Çekləri toplayıb səmərəli yerləşdirmək, əldə ediləcək mənfəətləri bölüşdürmək üçün çek investisiya fondları yaradılmışdı. 2002-ci ilin oktyabr ayınadək 36,2 minə qədər kiçik dövlət müəssisəsi, müəssisə obyekti və avadanlığı, 331,3 min mənzil (özəlləşdirilməsi nəzərdə tutulan mənzillərin 52,8%-ə qədəri) xüsusi mülkiyyətə verilmişdi.2002-ci ilin əvvəllərinə qədər çeklərin cəmi təqribən 10%-i dövriyyədən çıxmışdı. Qalan çeklər qara bazarda əvvəllər 100 dollara, sonralar isə 4 dollardan da ucuz qiymətə satılmış, bir hissəsi xarici qrupların əlində toplanmışdı. Bunu nəzərə alaraq strateji özəlləşməyə başlamazdan əvvəl ölkənin və vətəndaşların maraqlarını qorumaq üçün 2000-ci ilin martında çek dövriyyəsinin tənzimlənməsinə istiqamətləndirilmiş qaydalar müəyyən edildi. Mövcud vəziyyətin öyrənilməsi və nəzərə alınması üçün 400-dən çox çekə sahib olanların çekləri Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində qeydə alındı.

2000-ci il avqustun 10-da özəlləşdirmənin İkinci Dövlət Proqramı qəbul edildi. Özəlləşdirmənin daha səmərəli formaları tətbiq olunmağa başlandı. Bakelektroqaynaq Səhmdar cəmiyyəti, Siyəzən broyler fabriki və s. üzrə investisiya müsabiqələri təşkil olundu.

Aqrar islahatlar. Kənddə sahibkarlığın yaranması. İqtisadi sahədə mühüm struktur dəyişikliklərindən biri torpaq islahatının keçrilməsi idi. Məlumdur ki, sovet dövründə kənddə torpaqlar, kənd təsərrüfatı texnikası, mal-qara və s. mülkiyyət, əsasən

kolxozlara və sovxozlara məxsus idi. Kəndlilərin kiçik şəxsi həyətyanı təsərrüfatı var idi. Kolxozçu kəndlilərin və sovxoz fəhlələrinin əsas iş və qazanc yeri kolxozlar və sovxozlar idi. Sovet sisteminin dağılması ilə kənddə də bazar iqtisadiyyatına xas olan xüsusiyyətlər yaranırdı. Kolxoz və soxoz mülkiyyətinin özəlləşdirməsi hesabına kənddə sahibkarlıq ləng də olsa bərqərar olurdu. Kənddə yeni təsərrüfat münasibətlərinə uyğun olaraq sosial siniflər, təbəqələr (sahibkarlar, muzdlu fəhlələr, fərdi mülkiyyətçilər, fermerlər) təşəkkül tapırdı.

Aqrar islahatların hüquqi bazası yaradılırdı. Dövlət Aqrar İslahat Komissiyası təsis edildi.

1995-ci ildən başlayaraq1300-dən çox kolxoz və sovxoz ləgv edildi, onların əsasında kənd təsərrüfatı istehsalı ilə məşğul olan kəndli-fermer, o cümlədən kooperativ, kiçik təsərrüfat və birgə təsərrüfat yaradıldı.

Aqrar islahatların mahiyyətini mülkiyyət münasibətlərinin yenidən müəyyənləşdirməsi təşkil edirdi. 1996-cı il iyulun 16-da prezident Heydər Əliyev "Torpaq islahatı haqqında" qanunu imzaladı. Qanuna görə, bütün keçmiş sovet respublikalarından fərqli olaraq, torpaq sosial ədalət prinsipinə əsasən kənddə yaşayan vətəndaşların xüsusi mülkiyyətinə pulsuz verildi. Nəticədə ölkəmizdə torpaq mülkiyyətinin: dövlət (45%), bələdiyyə (33%), xüsusi mülkiyyət (22%) formaları təşəkkül tapdı. Özəl qurumların maliyyə tələbatını ödəmək üçün 1996-cı ildə Aqrar kredit kassaları yaradıldı. Prezidentin 1999-cu il 22 mart tarixli Fərmanı ilə kənd təsərrüfatı məhsulları istehsalçılarını beş il müddətinə torpaq vergisindən başqa bütün (8 növ) vergilərdən azad etdi və bu vergilər üzrə borcların hamısı silindi.

1996-cı ildə qəbul edilmiş "Sudan pullu istifadə haqqında Əsasnamə" meliorasiya qurğularının bərpası və genişlədirilməsinə şərait yaratdı. 1999-cu ilin noyabrında prezident 1999-2000-ci illərdə aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramını təsdiq etdi. 2001-ci ilin əvvəllərində 1 milyon ha

torpaq özəlləşdirilmiş, kənddə yaşayan 830 min ailədən 818 mini torpaq payı almışdı.

1996-cı ilin yazından başlayaraq təsərrüfatların ictimai mal-qarası özəl mülkiyyətə verildi. Kənd təsərrüfatında texnikadan istifadə sahəsndə lizinq (icarə) xidməti formalaşdı.

Aqrar islahatların həyata keçrilməsi sahəsində bəzi nöqsanlara yol verilirdi. Çətinliklərə baxmayaraq, özəlləşdirmə nəzərdə tutulduğu səviyyədə həyata keçrilirdi. Artıq 2002-ci ildə ÜDM-də özəl sektorun payı 71%, sənaye məhsulunun payı 50%, kənd təsərrüfatı istehsalı və ticarətin payı 99% təşkil edirdi.

Sosial siyasət. Sovet sisteminin sürətli süqutu insanların həyat səviyyəsini çox pisləşdirdi. XX əsrin 90-cı illərin əvvəllərində iqtisadi böhran, tənəzzül, işsizlik əhalinin maddi məişət şəraitini ağırlaşdırmışdı. Ərzaq məhsullarının, enerjinin, sərnişin nəqliyyatının və əhaliyə bütün xidmət növlərinin qiyməti 100 dəfələrlə artdı. Əhainin sosial müdafiəsini nəzərə almadan birdən-birə bazar iqtisadiyyatı ünsürlərinin tətbiqinin acı nəticələri oldu.

Ərzaq qıtlığı yaranmışdı. Əhaliyə ət, yağ, şəkər talonla verilirdi. Bakı və digər şəhərlərdə çörək çatmırdı. Əhali saatlarla, bəzən isə gecədən səhərədək çörək növbəsində dayanırdı. Heydər Əliyev hakimiyyətə gələndən sonra əhalinin sosial müdafiəsi sahəsində sistemli tədbirlər görüldü. Həyata keçrilən iqtisadi siyasətdə sosial istiqamət əsas yer tuturdu.

Ölkənin ən ciddi sosial problemi qaçqın və köçkün məsələsi idi. Respublikada bir milyondan çox qaçqın var idi. Onların 230 min nəfəri Ermənistandan öz doğma yurdlarından qovulmuş azərbaycanlılar və Özbəkistandan çıxarılmış məhsəti türkləri idi. Ermənistanın işğalı nəticəsində Azərbaycan ərazilərindən məcburi köçkün düşənlər isə 778 min nəfər idi.

Qaçqın və məcburi köçkünlərə dünyanın ayrı-ayrı ölkələrinin və beynəlxalq birliklərin 50-dən çox humanitar təşkilatı yardım göstərirdi. ABŞ-ın "Keyə" (Qayğı) Humanitar Təşkilatı birtipli layihələr üzrə 1800 köçkün ailəsi üçün evlər inşa etmiş, 6,5 min ton ərzaq paylamışdı. ABŞ-ın qeyri-dövlət təşkilatları 1992-1997-

ci illərdə Azərbaycana 125 milyon dollarlıq humanitar yardım etmişdir. 1996-1997-ci illərdə ABŞ Dövlət Departamentinin sponsorluğu ilə Azərbaycana dava-dərman və tibb preparatlarından ibarət böyük humanitar yardım göndərilmişdi. İranın Hilal-i Əhmər, Türkiyənin və Səudiyyə Ərəbistanının Qızıl Aypara cəmiyyətləri köçkünlər üçün 10 çadır şəhərciyi qurmuş, burada yaşayanlara ərzaq yardımı göstərmişdi. ABŞ, Almaniya, Norveç, Yaponiya, Hindistan, Qızıl Xaç cəmiyyətləri də Azərbaycanda imkansız adamlara humanitar yardım göstərmişdilər. 1996-cı ilin payızında Böyük Britaniya hökuməti Azərbaycanın şimal-qərb bölgəsində məskunlaşmış 8 min köçkün ailəsinə 156 min dollar məbləğində yardım göndərmişdi. Humanitar yardımın paylanmasına nəzarəti gücləndirmək üçün 1995-ci ilin yanvar ayında Beynəlxalq Humanitar və Texniki Yardım üzrə Respublika Komissiyası təşkil edildi. Prezidentin Sərəncamı ilə 1998-ci ilin sentyabrında "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı" təsdiq edildi. Bu proqramda nəzərdə tutulmuş tədbirlərin həyata keçrilməsini təmin etmək, məcburi köçkünlərin məişət şəraitini yaxşılaşdırmaq, müvafiq sosial infrastruktur yaratmaq, iş yerləri açmaq məqsədilə 1999-cu ilin dekabr ayında "Məcburi köçkünlərin sosial inkişaf fondu" yaradıldı.

Yeni iqtisadi münasibətlərin formalaşması cəmiyyətdə ictimai təbəqələşməni dərinləşdirirdi. Varlı-karlı insanlar, sahibkarlar yaranmışdı. Orta təbəqə meydana gəlirdi. 2002-ci ildə yoxsulluq həddində yaşayan insanlar əhalinin 49%-ni təşkil edirdi. Prezident Heydər Əliyevin qeyd etdiyi kimi, "Bir qütbdə həddindən artıq zənginləşmiş, bəzi hallarda qanunsuz zənginləşmiş, öz vəzifəsindən sui-istifadə edərək zənginləşmiş, harınlamış insanlar və onların övladları eyş-işrət içindədirlər, o biri tərəfdən çadırlarda yaşayan insanlar inildəyirlər, nə qədər əziyyət çəkirlər". Prezident imkanlı insanları ölkənin iqtisadi inkişafı üçün investisiyalar qoymağa, yeni iş yerləri açmağa, bununla yoxsulların həyatının, güzəranının yaxşılaşmasına kömək etməyə, xeyriyyəçilik işləri ilə

məşğul olmağa çağırırdı.

İnsanları kasıbçılıqdan qurtarmaq, onların rifah halını yaxşılaşdırmaq üçün Prezidentin təşəbbüsü ilə "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" hazırlandı. 2003-2005-ci illəri əhatə edəcək bu proqramın təqdimatına həsr olunmuş beynəlxalq konfrans keçrildi. Proqramda makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, investisiyaların inkişaf etdirilməsi, özəlləşdirmənin sürətləndirilməsi, sahibkarlığın inkişaf etdirilməsi, yeni iş yerlərinin açılması tədbirləri müəyyən edildi. Beynəlxalq təşkilatlar da yoxsulluqla mübarizəyə, iş yerləri yaradılmasına, özəl müəssisələr açılmasına kömək edirdilər. BMT İnkişaf Proqramı, Beynəlxalq Əmək Təşkilatı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi ilə birlikdə iş yerləri açmaq üçün Naxçıvan MR, Ağdam və Salyan rayonlarında "Təhsil və Özünüməşğulluğun İnkişaf Proqramı"nı hazırlamışdılar. Salyan rayonunda kiçik sahibkarlığın inkişafı üzrə belə bir proqram həyata keçrilmişdi. Şahbuz rayonunun Badamlı kəndində "Mineral suların fərdi qaydada qablaşdırılması" ixtisası üzrə kurs təşkil olunmuş, sex açılmışdı. İslam İnkişaf Bankının vəsaiti ilə 10 rayonda insanları işlə təmin etmək üçün müəssisələr yaradılmışdı. Qatar Əmirliyi Xeyriyyə Cəmiyyəti Qax rayonunda tikiş sexi təşkil etmişdi. Avropa Birliyi Fermer təsərrüfatlarına kömək etmək üçün 1996-cı ilin əvvəllərində Avropa İttifaqı Partnyorluq Fondu yaratmışdı. BMT İnkişaf Proqramı yoxsulluq səviyyəsi daha yüksək olan Naxçıvan MR-na kömək etmək, iş yerləri açmaq üçün xüsusi proqram hazırlamış, bu məqsədlə 1.200 min dollar vəsait ayırmışdı.

Dövlət işsiz insanların, qaçqın və köçkünlərin xırda, səyyar ticarətlə məşğul olmaları üçün münasib imkanlar yaradır, yeni ticarət mərkəzləri, yarmarkalar açır, satış yerləri təşkil edirdi. Pensiyaların artırılması sahəsində də tədbirlər görüldü. 2001-ci ildə “Pensiya islahatı haqqında” Fərman əhalinin pensiya təminatı işini təkmilləşdirməyə imkan verdi. 2002-ci ildə Prezident sosial güzəştlərin çoxunu ləğv etdi,bunun əvəzində büdcədən sosial

müavinətlər verildi.

İqtisadi tənəzzülün qarşısının alınması, istehsalın genişlənməsi, yeni müəssisələr və iş yerlərinin açılması yoxsulluğun aradan qaldırılması üçün imkanlar yaratdı.

Azərbaycan Musiqili Komediya Teatrının yararsız hala düşmüş köhnə binası yerində yeni teatr binası tikildi. Milli Akademik Dram Teatrının binası yenidən quruldu. İçərişəhərdə qədim binalar, Dövlət Filarmoniyası, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti binaları və digər memarlıq abidələrinin təmir edilməsi planlaşdırıldı. Bakı Dənizkənarı parkı yenidən quruldu. 1998-ci il dekabrın 29-da prezidentin fərmanı ilə ona Milli Park statusu verildi. Abşeron yarımadasının, xüsusən Bakı və Sumqayıtın su ilə təchizatını yaxşılaşdırmaq üçün Dünya və Avropa banklarından 94 milyon dollar vəsait alınmış, İngiltərənin "Braun və Rut" şirkəti və başqa şirkətlərin iştirakı ilə əməli işə başlanmışdı. Rabitə sahəsində mühüm işlər görüldü. 2000-ci ildə 20 dövlətin ərazisindən keçərək Frankfurtdan Şanxaya uzanan 24 min km Trans Asiya-Avropa (TEA) fiber-optik kabel xəttinin Azərbaycandan keçən hissəsinin çəkilişi başa çatdı. TEA-nın tam istifadəyə verilməsi telefon rabitəsi keyfiyyətini yüksək səviyyəyə qaldırdı. Bu magistral üstündə yerləşən 24 şəhər 8 rayon mərkəzi bu xəttə qoşuldu.

Nəqliyyat vasitələrinin işi də xeyli yaxşılaşmışdı. 1995-ci ildə Naxçıvan hava limanında ağıryüklü təyyarələrin enməsi üçün müasir uçuş-enmə zolağı istifadəyə verildi. 1996-cı ildə Gəncə hava limanı bərpa edildi və beynəlxalq hava limanı statusu aldı.

Bakı Binə Beynəlxalq hava limanı istifadəyə verildi. Burada yeni, müasir uçuş-enmə zolağı salındı. 2002-ci ildə Naxçıvan hava limanı beynəlxalq stansiyalar səviyyəsində yenidən qurulmağa başlandı. Bakı, Naxçıvan və Gəncə şəhərlərindən dünyanın müxtəlif ölkələrinə hava yolları açıldı.

Naxçıvanda (1992-ci il), Sabirabadda (1996-cı il), Şəkidə (1996-cı il), Göyçayda (2002-ci il) böyük körpülər tikilib istifadəyə verildi.1996-cı ilin axırlarında Bakı-Horadiz və Bakı-

Aqstafa sürət qatarları işə düşdü.

Sərnişindaşıma sahəsində xarici şirkətlərlə birgə müəssisələr yaradılması səmərəli idi. 2000-ci ildə sərnişin daşımalarının 83,5%, yük daşımalarının isə 54,6%-i özəl bölmənin nəqliyyat vasitələri ilə həyata keçrilirdi. Respublikanın yaşayış məntəqələrində yeni "Mersedes", "Hunday", "Otoyol" və digər xarici markalı avtobuslar, mikroavtobuslar işləyirdi. 1998-ci ildə Bakıda sutkada 22 min sərnişinə xidmət edə bilən yeni, müasir avtovağzalın birinci hissəsi istifadəyə verildi. 2002-ci ilin dekabrında Bakı metrosunun "Həzi Aslanov" stansiyası işə düşdü. 1996-cı ildə respublikanın "İşğal olunmuş və ziyan çəkmiş ərazilərinin bərpası və yenidən qurulması üzrə" Dövlət Komissiyası yaradıldı. BMT-nin İnkişaf Proqramının təşəbbüsü ilə işğaldan azad olunmuş torpaqlarda bərpa işlərinə yardım göstərilməyə başlandı. Bu məqsədlə Beynəlxalq Şura, Bərpa Agentliyi təsis olundu. Füzuli rayonunun Horadiz qəsəbəsi və işğaldan azad olunmuş 22 kəndin bərpasına başlandı. Horadizdə 150-dən çox ev bərpa edildi, 640 yerlik məktəb binası tikildi. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Federasiyası Füzuli rayonunda "Bərpa və Vətənə qayıdış proqramı" çərçivəsində 1999-2001-ci illərdə rayonun Şükürbəyli və Alxanlı kəndlərində dağılmış evləri bərpa etmiş və köçkün ailələrin geri qayıtması üçün şərait yaratmışdı. Ağdamın 5 kənd xəstəxanasında əsaslı təmir və bərpa işləri aparılırdı, məktəb binaları, artezian quyuları bərpa olundu.

Prezident Heydər Əliyevin 2001-ci il 22 avqust tarixli Fərmanında Ermənistan ərazisindəki tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli ilə bağlı konkret tədbirlər həyata keçrilməyə başlandı. Digər Fərmanla prezident Ağdam və Füzuli rayonlarından olan məcburi köçkünlərin məskunlaşdırılması üçün Ağdam rayonu ərazisində 500, Füzuli rayonu ərazisində isə 800 ailəlik evlər inşa ediləcək qəsəbələr salınması haqqında göstəriş verdi. Dövlət Neft Fondu hesabına Goranboy, Abşeron, Şəmkir rayonlarında, Naxçıvanda

qaçqınlar üçün yeni qəsəbələr salındı. Goranboy rayonunun Aşağı Ağcakənd kəndi yanında qaçqınlar üçün salınan qəsəbə müasirliyi ilə diqqəti cəlb edirdi.

2000-ci ildə respublikada 735 xəstəxana, 1614 ambulatoriya, poliklinika, 913 qadın məsləhətxanası, uşaq ambulatoriya və poliklinikası vardı. Tibbi xidmət müəssisələrində 29 min həkim, 60 minə qədər orta tibb işçisi çalışırdı. 1992-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsi təşkil olundu. Bu komitə 1993-cü ilin sentyabrında Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanındı. 1997-ci il iyulun 31-də İlham Əliyev Milli Olimpiya Komitəsinə prezident seçildikdən sonra bu təşkilatın işi yenidən quruldu və daha da canlandı. İdmanla fəal məşğul olanların sayı artdı. Respublika stadionu təmir edilmiş və yenidən qurulmağa başlanmışdı. Suraxanıda "Neftçi" İdman-Sağlamlıq Mərkəzinin Olimpiya bazası açılmışdı. 2001-ci ilin oktyabrında Maştağada müasir yüksək standartlar əsasında inşa olunmuş "Olimpiya İdman Kompleksi" istifadəyə verildi. 2002-ci ildə Naxçıvan, Gəncə, Şəki və Bərdə Olimpiya İdman Kompleksləri tikildi.

Beləliklə,həyata keçrilən düşünülmüş daxili siyasət nəticəsində Respublikamız dərin sosial-iqtisadi böhrandan, tənəzzüldən çıxaraq, sabit, dayanıqlı inkişaf yoluna düşdü.

XXI FƏSİL
Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003-cü illər).

Xarici siyasətin vəzifələri, əsas istiqamətləri. Müstəqilliyin ilk illərində ölkə daxilində qeyri-sabitlik hökm sürürdü, bu da r xarici siyasətdə üç qrupun formalaşmasına təsir etmişdi. Bu qruplardan birincisi, Rusiya ilə tam inteqrasiyanı dəstəkləyən Ayaz Mütəllibov və onun sosial bazası olan Azərbaycan Kommunist Partiyası idi. İkincisi, Rusiyadan asılı olmayaraq tam müstəqil siyasət yürüdən , Türkiyə və Qərb ilə yaxın münasibəti dəstəkləyən aydın strategiyası olmayan Əbülfəz Elçibəy və onun dayağı Azərbaycan Xalq Cəbhəsi(AXC) idi.Sonuncu isə, Rusiya və Qərb arasında balanslaşdırılmış siyasət yürüdən, MDB-yə üzvlüklə yanaşı Qərb dövlətlərlə də əlaqələrin inkişafını dəstəkləyən Heydər Əliyev idi.Onun siyasətinə isə xalqın böyük hissəsi tərəfdar idi. Onun rəhbərliyi altında xarici siyasətin strategiyası, vəzifələri, prioritetləri işlənib hazırlandı.

Heydər Əliyevin yürütdüyü çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyası ilk növbədə xalqımızın üzləşdiyi problemlərin, xüsusilə Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla tənzimlənməsinə, dövlətlərarası, regional və beynəlxalq əlaqələrin möhkəmlənməsinə, dünya birliyinin sıx inteqrasiyasına yönəlmişdir. Respublikanın xarici siyasətinin əsas vəzifələri: Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün müdafiəsinə siyasi təminat verilməsi və bu amillərin beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirməsindən, dünya birliyində mövqeyinin möhkəmləndirilməsindən, Dağlıq Qarabağ münaqişəsinin həllindən və s. ibarət idi.

Sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət, qarşılıqlı faydalı əməkdaşlıq və s. Azərbaycan xarici siyasətinin əsas prinsiplərini təşkil edir.

Azərbaycana qarşı informasiya blokadasının yarılması, Dağlıq Qarabağ probleminə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, respublikamızın dünya dövlətləri arasında özünə layiq yer tutması istiqamətində səmərəli iş aparıldı. Heydər Əliyev diplomatiyası dövlətlərin Cənubi Qafqaz regionundakı siyasi və iqtisadi maraqlarının Azərbaycanın maraqları ilə mümkün qədər uzlaşdırılması kimi praqmatik əsaslar üzərində quruldu. Azərbaycan Prezidenti 68 ölkənin prezidenti, hökumət başçısı ilə görüşlər keçirdi. Rusiyanın təcavüzkarlıq siyasətini neytrallaşdırmaq üçün 1993-cü il sentyabrın 24-də Azərbaycan Respublikası MDB-yə daxil oldu. Doğrudur, bu təşkilat daxilində üzv dövlətlərin bərabərhüquqlu əməkdaşlığı lazımınca təmin edilməmiş, subyektlər arasında münaqişələrin aradan qaldırılması üçün təsirli tədbirlər həyata keçirmək mümkün olmamışdı. Üzv dövlətlərə Rusiya Federasiyasının ikili münasibəti bu birliyin səmərəsini xeyli azaldır, narazılığa səbəb olurdu. Heydər Əliyev MDB dövlət başçılarının, demək olar ki, bütün görüşlərində birlik daxilində belə qeyri-sağlam münasibətlər olmasının yolverilməzliyini, separatizmlə mübarizənin vacibliyini diqqətə çatdırırdı.

MDB-yə daxil olan dövlətlərlə ikitərəfli əlaqələrin möhkəmlənməsinə diqqət artırılmışdı. 1993-cü ilin sonlarına qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Mərkəzi Asiya respublikaları ilə əlaqələr köklü surətdə yenidən qurulurdu.

Birlik üzvlərinə RF tərəfindən ikili münasibət MDB daxilində dövlətlərin ayrılıqda birliklər təşkil etməsinə səbəb olurdu. 1996-1997-ci illərdə Azərbaycan-Gürcüstan və Azərbaycan-Ukrayna arasında strateji əməkdaşlıq haqqında sazişlər bağlandı. 1997-ci ilin oktyabrında Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova respublikaları öz aralarında əməkdaşlıq haqqında kommünike, noyabrın 25-də isə Bakıda "GUAM" blokunun təşkilini bəyan edən rəsmi protokol imzalandı. Bu ölkələrin NATO və ATƏT çərçivəsində, habelə öz aralarında siyasi, hərbi və iqtisadi sahələrdə mövqelərini əlaqələndirməyə imkan verən strateji partnyorluğa hüquqi əsas yarandı. 1999-cu il aprelin 4-də Vaşinqtonda GUAM

təşkilatına üzv olan dövlətlərin prezidentlərinin görüşündə Özbəkistan da bu təşkilata qəbul edildi. GUAM bundan sonra GUÖAM adlandırılmağa başlandı. Heydər Əliyev təşkilatın sədri seçildi.

Bu birliyin təşkili Rusiyanı olduqca narahat edirdi. 1999-cu ilin martında MDB dövlətləri başçılarının zirvə toplantısında Azərbaycan, Gürcüstan, Moldova və Özbəkistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi müddətinin uzadılmasına razılıq verməməsi vəziyyəti daha da gərginləşdirdi. Rusiya bu dövlətlərə münasibətini xeyli yumşaltmağa istiqamətlənən addımlar atdı. Bununla əlaqədar sonralar - 2001-ci il iyunun 6-7-də Yaltada GUÖAM təşkilatı başçılarının görüşündə qəbul olunmuş "Yalta Xartiyası"nda yaradılan bu təşkilatın iqtisadi sahələrdə əməkdaşlığa üstünlük verəcəyi elan edildi.

2001-ci ilin əvvəllərində RF prezidenti Rusiyanın da iştirak etdiyi "Qafqaz dördlüyü" yaradılması təklifini irəli sürdü. Mayın sonlarında Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan prezidentlərinin Minskdə görüşü keçrildi, belə bir birliyin yaranması məsələləri müzakirə edildi.

Azərbaycan Respublikası 1992-ci ildə NATO-nun Şimali Atlantika Əməkdaşlıq Şurasına (1997-ci ildən bu şura Avropa-Atlantika Tərəfdaşlıq Şurası - AATŞ adlanır) qoşuldu. 1994-cü ilin yanvar ayında Azərbaycan NATO-nun Avropa və dünyada sülhün, əmin-amanlığın bərqərar olmasına xidmət edən "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qəbul edildi. Həmin il mayın 4-də Prezident Heydər Əliyev bu proqramın Çərçivə sənədini imzaladı. NATO-nun və Avropa-Atlantika Tərəfdaşlıq Şurası üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1997-ci ilin iyulunda keçrilən Madrid zirvə toplantısının qəbul etdiyi sənədlərdə NATO-nun tərəfdaş dövlətlərin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığına təminat verdiyi, onun strukturunda olan dövlətlərin bir-birinə qarşı güc işlətmək, hədə-qorxu gəlmək hüququna malik olmadığı bildirildi. Bunlar

Azərbaycanın haqq işinin müdafiəsi sahəsində böyük əhəmiyyətə malik idi.

Ölkənin xarici siyasət kursunda 1993-cü ilin yayından Türkiyə Respublikası ilə münasibətlərdə keyfiyyətcə ciddi dəyişikliklər edildi. Münasibətlər, "bir millət iki dövlət" (Heydər Əliyev) səviyyəsinə yüksəldi. Bu qardaş ölkə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabər hüquqlu iqtisadi tərəf müqabili oldu. Türkiyə Ermənistanı təcavüzkar bir dövlət kimi tanımış, Dağlıq Qarabağ məsələsi ədalətlə həll olunmayınca onunla heç bir əlaqə saxlamayacağını elan etmişdi. Azərbaycan-Türkiyə münasibətləri həm də dünyada və bölgədə sülhün, əmin-amanlığın bərqərar olması işinə xidmət edirdi. Azərbaycan və Türkiyə respublikaları 1997-ci ilin may ayında strateji əməkdaşlığı daha da dərinləşdirmək haqqında müqavilə imzaladılar.

2001-ci il iyulun 23-də Xəzər dənizinin mübahisəli sularında Azərbaycan gəmilərinə İran təyyarələrinin hücum cəhdini Türkiyə qəti etirazla qarşıladı. Ankara bütün dünyaya bildirdi ki, "Azərbaycana əl qaldıran qarşısında Türkiyəni görəcək!"

Azərbaycan İran İslam Respublikası ilə də hər iki tərəf üçün faydalı normal siyasi-iqtisadi və mədəni münasibətlər qurdu. İran dövləti Ermənistanın Azərbaycana təcavüz etdiyini bildirsə də, onunla hərtərəfli münasibətlər yaratmışdı. Bu qonşu müsəlman dövləti Azərbaycana qarşı münasibətlərində tam səmimi olmadığını göstərirdi. İran Azərbaycanı özünün təhlükəsizlik zonası elan etmişdi. 2001-ci il iyulun 23-də İran mübahisəli hesab etdiyi sulardan Azərbaycan gəmilərinin çıxarılması haqqında nota verdikdən sonra hərbi təyyarələrini havaya qaldırmışdı. Azərbaycan buna cavab tədbiri gördü. Münaqişə dinc yolla nizama salındı. Prezident Heydər Əliyevin İran Respublikasına səfəri zamanı – 20 may 2002-ci ildə imzalanmış "Azərbaycan Respublikası ilə İran Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilə iki dövlət arasında münasibətlərin nizamlanmasına istiqamətləndirilmişdi.

Qonşu Gürcüstan Respublikası ilə əlaqələr çox önəmli idi. 1996-cı ilin mart ayında prezident Heydər Əliyev Gürcüstana rəsmi səfər etdi. İki ölkə arasında dostluq və əməkdaşlıq haqqında sənəd imzalandı. Bu, qonşu ölkədə yaşayan azərbaycanlılara qarşı münasibətin xeyli yaxşılaşmasına səbəb oldu. İki ölkənin bütün sahələrdə strateji əməkdaşlığı başlandı.

Azərbaycanın xarici siyasətində ABŞ, Böyük Britaniya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlər mühüm yer tuturdu. Bu ölkələrlə tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələr yaradılmışdı.

Prezident Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycan diplomatiyasında Avropa istiqaməti mühüm yerlərdən birini tutur. İngiltərə və Avropanın digər nüfuzlu dövlətləri ilə sabit bərabərhüquqlu əməkdaşlıq münasibətləri qurulmuşdu. Bu ölkələrlə imzalanmış 90-dan artıq sənəd qarşılıqlı münasibətlər üçün ən möhkəm hüquqi əsas yaratmışdı.

Azərbaycan Qərblə Şərqin qovşağında bərpa olunan qədim İpək Yolunun mərkəzində mühüm yer tutur. Çin Xalq Respublikası və Yaponiya kimi Şərq dövlətləri ilə siyasi və iqtisadi əməkdaşlıq respublikanın xarici siyasətində uğurlu addımlar olmuşdu. Çin Azərbaycanla əlaqələrə çox maraq göstərən ölkədir. Sürətlə inkişaf edən Çin üçün əsas təhlükə xammal və ilk növbədə enerji çatışmazlığı hesab olunur. Bu baxımdan Azərbaycan Çin üçün cəlbedici ölkədir. Azərbaycan-Çin əlaqələri daim yüksək xətt üzrə gedib. Bu baxımdan prezident Heydər Əliyevin Çinə rəsmi səfərinin (1994-cü il mart) rolu çox böyükdür. O, Çinin ali rəsmiləri ilə faydalı danışıqlar aparmışdır. Pakistan dövləti ilə dostluq və əməkdaşlıq münasibətləri inkişaf etdirilirdi. İsrail dövləti ilə də əməkdaşlıq genişlənməkdə idi.

XXI əsrin əvvəllərində Azərbaycan Respublikası artıq 177 ölkə ilə diplomatik əlaqələr yaratmışdı. Azərbaycanda 80-dən çox (24-ü bilavasitə Bakıda) ölkənin səfirliyi fəaliyyət göstərir. Azərbaycanın 21 ölkədə səfirliyi, baş konsulluğu və daimi nümayəndəliyi açılmışdır. Görülən tədbirlər nəticəsində Azərbaycanın siyasi və

iqtisadi potensialı artdı, siyasət səhnəsində nüfuzu və mövqeyi möhkəmləndi. Bu prezident Heydər Əliyevin müəyyənləşdirdiyi və hazırda dövlət başçısı İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kursun məntiqi nəticəsidir.

Beynəlxalq təşkilatlarla əməkdaşlıq. Azərbaycan Respublikası qısa müddətdə müxtəlif beynəlxalq səviyyəli təşkilatlarla əlaqə yaratdı.Xüsusilə islam və türk dövlətləri təşkilatlarına ayrıca önəm verirdi.

Türk dövlət başçılarının Zirvə toplantıları həmin dövlətlərin müstəqilliyinin möhkəmləndirilməsi, demokratik-hüquqi dövlətlərə çevrilməsində mühüm rol oynayır. Zirvə toplantılarının keçrilməsi təşəbbüsü Türkiyə Cunhuriyyətinin sabiq prezidenti Süleyman Dəmirələ məxsusdur. O, 1992-ci ilin mayında Türkiyənin Baş naziri vəzifəsində çalışarkən Azərbaycana və Mərkəzi Asiyaya rəsmi səfəri zamanı belə bir təşəbbüslə çıxış etmişdir. Azərbaycan rəhbərliyi bu təklifi dəstəkləmişdir. Hazırda ölkəmiz Zirvə toplantılarının fəal iştirakçısıdır.

Türk dövlət başçılarının ilk Zirvə toplantısı 1992-ci il oktyabrın 30-31-də Ankarada keçrilmişdir. Bu toplantıda türk dövlətlərinin inteqrasiyasına xidmət edən qərarlar qəbul edilmişdi. Əsasən iqtisadi əlaqələrə həsr edilən bu toplantının başlıca məqsədi həm də siyasi-mənəvi birliyin yaradılmasına nail olmaqdan ibarət idi. Yekun Ankara Bəyannaməsinin qəbulu dövlətlərarası əlaqələrin inkişafı yolunda mühüm irəliləyiş oldu. Bununla gələcək inteqrasiyaya və növbəti Zirvə toplantılarına təkan verildi. Türk dövlət başçılarının 2-ci Zirvə toplantısı İstanbulda (1994-cü il), 3-cü Bişkekdə (1995-ci il), 4-cü Özbəkistanda (1996-cı il), 5-ci Qazaxıstanda (1998-ci il), 6-cı Bakıda (2000-ci il), 7-ci İstanbulda (2001-ci il) keçrilmişdir. İştirakçılar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişlər.

Azərbaycan Respublikası dünyanın əsas beynəlxalq təşkilatı olan BMT ilə sıx əlaqə saxlayır və onun trubunasından öz məqsədləri üçün istifadə edirdi və etməkdədir. Prezident Heydər Əliyev 1994-cü ilin sentyabrında, 1995-ci ilin oktyabrında, 2000-ci

ilin sentyabrında BMT Baş Məclisinin sessiyaları tribunalarından Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırdı, sülhsevər, humanist dəyərləri üstün tutduğunu göstərdi.

1994-cü ilin oktyabrında BMT Baş katibi Butros Butros-Qali Azərbaycana səfər etdi. O, Azərbaycanın ictimai-siyasi və iqtisadi vəziyyəti ilə tanış oldu, Ermənistanın təcavüzünün ağır nəticələrini yerində gördü. O, Azərbaycanın problemlərinin həllində BMT-nin dəstəyinə söz verdi. Onun səfəri ilə Azərbaycana qarşı informasiya blokadası yarıldı.

Azərbaycanın xarici siyasətində Avropa Şurası xüsusi yer tuturdu. Şura öz fəaliyyətində insan hüquqlarının müdafiəsi və demokratiyanın möhkəmləndirilməsini, sosial və hüquqi problemlərin birgə həlli yollarının araşdırılmasını öz məqsədi hesab edir və eyni zamanda bu məsələlərə ikili standatlardan yanaşırdı.

Prezident Heydər Əliyevin 1996-cı il iyulun 8-də "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında", 1998-ci il yanvarın 20-də "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", 1999-cu il mayın 14-də "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" imzaladığı Sərəncamlar ölkəmizin Avropa Şurasına qəbul edilməsi üçün səylərin artırılmasına və məqsədyönlü fəaliyyətə zəmin yaratmış oldu.

1996-cı ilin aprelində Azərbaycan ilə Avropa Şurası (AŞ) və onun üzvü olan dövlətlər arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalandı. Həmin ilin iyununda Azərbaycan Respublikası AŞ Parlament Assambleyasında "xüsusi dəvət olunmuş qonaq" statusu aldı. Respublikada həyata keçirilən demokratik ruhlu siyasi və iqtisadi islahatların səmərəli nəticələri Azərbaycanı AŞ-yə daha da yaxınlaşdırdı.

2001-ci il yanvarın 25-də Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv qəbul olundu. 2000-ci ilin sentyabrında

BMT Baş məclisində olduğu kimi, Avpopa Şurasının Parlament Assambleyasında (2021-ci il 25 yanvar) çıxışında da Heydər Əliyev mövcud şəraitdə müstəqillik əldə etmiş dövlətlərə münasibətdə aydın hiss olunan ikili standartlarla yanaşmanın yolverilməzliyini, qloballaşmaya töhfələrini verən ölkələrə texnoloji yardım göstərilməsi, demokratiya və bazar iqtisadiyyatının inkişafında ayrı-ayrı xalqların mentalitetinin nəzərə alınması vacibliyini qeyd etmişdi.

Milli Məclisin deputatı İlham Əliyev 2003-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və büro üzvü seçildi. Belə bir diqqətə səbəb həm də, Azərbaycanda aparılan islahatların Avropada razılıqla qarşılanması olmuşdu. Bu təşkilatda Azərbaycan nümayəndə heyətinin əsas məqsədi Ermənistanın təcavüzkar kimi tanınmasına nail olmaq və onu işğal etdiyi əraziləri qaytarmağa məcbur etmək idi. 2001-ci il aprelin 24-də Azərbaycan nümayəndə heyəti AŞ tribunasından Ermənistanın azərbaycanlılara qarşı soyqırım siyasəti yeritdiyini, işğal olunmuş Azərbaycan ərazilərində, o cümlədən Dağlıq Qarabağda narkotik maddələr istehsal və ixrac etdiyini, bu vasitə ilə əldə olunan vəsaitlə ordu saxladığını, terrorçu dəstələr yaradıb onlara təlim verdiyini əsaslandırılmış şəkildə bütün dünyaya bəyan etdi. May ayında AŞ Nazirlər Komitəsinin 108-ci sessiyası Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən xüsusi kommünike qəbul etdi.

AŞ Parlament Assambleyasının 2001-ci il 25 sentyabr tarixli iclasında İlham Əliyev erməni terrorizmini, Ermənistanın Azərbaycana qarşı keçirdiyi terror və soyqırım siyasətində terrorçu Asala təşkilatının fəal iştirak etdiyini, törədilmiş 32 terror aktı nəticəsində 2000 adamın öldürüldüyünü, on minlərlə adamın yaralandığını bildirdi. Terroru dəstəkləyən Ermənistan dövlətini ifşa etdi.

İqtisadi məsələləri prioritet seçən Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı daha da genişlənirdi. 2002-ci ildə Avropa İttifaqı ilə "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin (1992-ci il) yerinə yetirilməsinə dair milli proqram hazırlanmışdı. Bu

əlaqələrin respublikanın inkişafına böyük təsiri vardı. Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin Brüsseldə 25-26 fevral 2002-ci ildə keçirilmiş iclasında qeyd edildiyi kimi, siyasi, iqtisadi, hüquqi islahatların aparılması Azərbaycanın Avropaya inteqrasiyası üçün yeni perspektivlər açır.

2002-ci il oktyabrın 2-də Azərbaycan Respublikası BMT-nin "İqtisadi və Sosial Şurasına" üzv seçildi.

Beynəlxalq təşkilatlarda və ikitərəfli münasibətlərdə Rusiya Azərbaycana qarşı aqressiv mövqe tutturdu. Belə məlumat vardır ki, B.Yeltsin Yevlax və Gəncə daxil ərazilərimizin işğalına "yaşıl işıq" yandırmışdı. Rusiya 1994-cü ilin sonlarından Azərbaycana dəmir, şosse və dəniz yollarını bağlamaq kimi ciddi iqtisadi sanksiyalar tətbiq etməsinə, Ermənistana 1994-1996-cı illərdə atəşkəs şəraitində ümumi dəyəri 1 milyard dollardan çox olan silah və sursat verməsinə, Ermənistanda öz hərbi bazalarını yerləşdirməsinə və onları daim modernləşdirməsinə, Rusiya-İran-Ermənistan strateji əməkdaşlıq xətti yaratmasına baxmayaraq, Azərbaycanı tutduğu müstəqillik yolundan döndərə bilmədi. Sabiq dövlət müşaviri Vəfa Quluzadə müsahibələrinin birində demişdir ki, Rusiya Müdafiə naziri Pavel Qraçov Bakıya gəldi, Heydər Əliyevlə görüşdü və ondan xahiş etdi ki, bir dəstə rus hərbçisi sülh yaratmaq üçün Dağlıq Qarabağda yerləşdirilsin. Ermənistan kimi Azərbaycanın da hava məkanını Rusiyanın qoruması təklifini verdi. Heydər Əliyev bunu da rədd etdi.

Azərbaycanın qəti mövqeyi dövlətlərin ona münasibətinin getdikcə dəyişməsinə, sağlamlaşmasına səbəb oldu. 1997-ci il iyulun 3-də Moskvada Rusiya Federasiyası və Azərbaycan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalandı.1997-ci il avqustun 29-da Rusiya ilə Ermənistan arasında da "Dostluq, əməkdaşlıq, qarşılıqlı yardım haqqında" yeni müqavilə bağlandı. Bu sənəddə hərbi vəziyyət yaranarkən Rusiyanın rəsmi surətdə Ermənistan tərəfində çıxış edəcəyi bəyan olunurdu. Azərbaycanda narazılıq yaratdığını görən Rusiyanın yüksək vəzifəli şəxsləri, habelə Xarici İşlər Nazirliyi xüsusi nota ilə bu sənədin

Azərbaycana qarşı çevrilmədiyini bildirdilər.Heydər Əliyev MDB dövlət başçılarının 1997-ci il oktyabr, 1999-cu il mart və sonrakı zirvə görüşlərində bu müqavilənin Azərbaycana qarşı təhlükə yaradan bəndlərinin ləğv olunmasını tələb etdi. 2001-ci ilin mayında Bakıda səfərdə olan RF Hərbi naziri rəsmi surətdə elan etdi ki, Ermənistan və Azərbaycan arasında silahlı münaqişə olarsa, Rusiya neytral qalacaqdır.

Rusiya Federasiyasının prezidenti V.Putin Azərbaycan prezidentinin dəvəti ilə 2001-ci ilin yanvarında Bakıya rəsmi səfərə gəldi. Ölkələr arasında münasibətlərin inkişaf etdirilməsinə istiqamətləndirilmiş tədbirlər görülməsi barədə razılıqlar əldə olundu. V.Putin Azərbaycan və Gürcüstanın bölgədə Rusiyanın iştirak etmədiyi siyasi birliklərə qoşulmasının qarşısını almaq üçün "Qafqaz dördlüyü" (Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan) yaradılması təşəbbüsünü irəli sürdü. Bakı Bəyannaməsi imzalandı. Prezident V.Putin RF-nin Azərbaycanın ərazi bütövlüyünü müdafiə etdiyini bir daha bəyan etdi.

2002-ci ilin yanvarında Rusiya ilə Türkiyə arasında hərbi əməkdaşlıq haqqında müqavilə imzalandı. Bəşəriyyət üçün böyük bəlaya çevrilmiş terrorizmlə mübarizədə aparıcı rol oynayan ABŞ-ın müttəfiqi olan Türkiyənin Qafqazda nüfuzu xeyli artdı. 2002-ci il yanvarın 24-də Azərbaycanın dövlət başçısı Rusiya Federasiyasına rəsmi səfər etdi. Bağlanmış müqavilələr iki dövlət arasında qarşılıqlı faydalı münasibətlərin inkişafına istiqamətlənmişdi. Azərbaycan Qəbələ Strateji İnformasiya Mərkəzini 10 il müddətinə Rusiyaya icarəyə verdi.Respublikalar arasında iqtisadi əməkdaşlığın genişlənməsinə daha münasib şərait yaradıldı, 12 illik müqavilə imzalandı.

2002-ci il sentyabrında Azərbaycan və Rusiya prezidentləri Moskvada "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında Xəzər dənizi dibinin həmhüdud sahələrinin bölgüsü haqqında saziş" imzaladılar. İki ölkənin Təhsil nazirləri təhsil haqqında sənədlərin, namizədlik və doktorluq diplomlarının tanınması haqqında saziş imzaladılar. İqtisadi xarakterli başqa

müqavilələr bağlandı. Azərbaycan Rusiya əlaqələrini inkişaf etdirmək üçün imkanlar genişləndi.

ABŞ-Azərbaycan münasibətləri strateji partnyorluq mərhələsinə yüksəlmişdi. Buna Xəzər dənizi enerji ehtiyatlarının mənimsənilməsi, neft, qaz hasilatı və nəqlində ABŞ şirkətlərinin iştirakı əhəmiyyətli təkan verirdi. 1997-ci il iyulunda Prezident Heydər Əliyev ABŞ prezidenti Bill Klintonun dəvəti ilə ABŞ-da ilk rəsmi səfərdə oldu, iki ölkə arasındakı münasibətlərin əsas istiqamətlərini müəyyən edən "Amerika-Azərbaycan münasibətləri haqqında" prezidentlərin birgə bəyanatı imzalandı.

2001-ci il sentyabrın 11-də "Əl-Qaidə" (bin Laden) tərəfindən Nyu-York və Vaşinqton şəhərlərində dəhşətli terror hadisələri törədilməsinə cavab olaraq ABŞ beynəlxalq terrorizmə qarşı mübarizə elan edərkən Azərbaycan Respublikası onunla bir mövqedə olduğunu birincilər sırasında bəyan etdi, öz ərazisindən ABŞ silahlı qüvvələrinin istifadəsi üçün imkanlar yaratdı. Oktyabrın sonlarında ABŞ senatı 907-ci əlavəni müvəqqəti olaraq dayandırmaq üçün prezidentə səlahiyyət verdi. ABŞ prezidenti 2002-ci il yanvarın 28-də, növbəti dəfə 2003-cü il yanvarın 17-də bu səlahiyyəti reallaşdırdı. Az sonra ABŞ Azərbaycana silah satışına qoyulmuş qadağanı aradan qaldırdı. Təhlükəsizlik tədbirlərində Azərbaycana kömək etməyə başladı.

Dağlıq Qarabağ məsələsi beynəlxalq müstəvidə. Ermənistan tərəfindən Dağlıq Qarabağ və ətrafındakı işğal olunmuş rayonlarımızın azad olunması məqsədilə BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 4 qətnamə qəbul etdi. Lakin bu qətnamələrdə Ermənistan işğalçı dövlət kimi tanınmadı. Əksinə, BMT tərəfindən qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüz "Dağlıq Qarabağ və onun ətrafında baş verən münaqişə" kimi, Azərbaycanla Ermənistan arasındakı müharibə isə "Azərbaycanla Dağlıq Qarabağ arasında olan münaqişə" kimi qələmə verildi.

SSRİ-nin süqutu Dağlıq Qarabağ probleminin beynəlxalq müstəviyə çıxmasına şərait yaratdı. Dağlıq Qarabağ münaqişəsinin

beynəlxalq miqyaslı bir problemə çevrilməsi Azərbaycanın 1992-ci ilin yanvarının 30-də, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (ATƏM) üzv qəbul olunması ilə başlayır. BMT Dağlıq Qarabağ münaqişəsinin həllini ATƏM-ə həvalə etdi.

1992-ci il martının 24-də, ATƏM-in Xarici İşlər Nazirləri Şurasının keçirdiyi görüşdə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması üçün sülh konfransının təşkil edilməsi qərara alındı. Bu konfrans ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya, İtaliya, Slovakiya, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə Minskdə (Belarusiya) keçrilməli idi. Lakin may ayında Dağlıq Qarabağ ətrafında münaqişənin intensivləşməsi, Azərbaycanda hakimiyyət mübarizəsi Minsk konfransının təxirə salınmasına səbəb oldu.

1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyev Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli prosesini tənzimləmək üçün bir sıra təşəbbüslər göstərdi və bu problem xarici siyasətin ən vacib prioritetlərindən birinə çevrildi. Heydər Əliyevin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq üçün böyük dövlətlərin liderləri ilə apardığı müzakirələr, bu məsələnin ATƏT gündəliyinə yenidən qaytarılmasına səbəb oldu. O, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə ciddi müzakirələr aparmış, münaqişənin sülh yolu ilə nizamlanmaması halında Qafqaz regionunda böyük geosiyasi fəlakətlərin qarşısını almağın mümkün olmayacağını bildirmişdi. Bu məsələni dünya liderlərinə və beynəlxalq ictimaiyyətə çatdıraraq, münaqişənin yol açа biləcəyi potensial nəticələri vurğulamışdır.

Prezident Heydər Əliyev Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk qrupunun fəaliyyətinin canlanmasına və regionda sabitlik yaradılmasına nail oldu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Heydər Əliyevin bütün ölkələrin dövlət başçıları ilə görüşlərində əsas mövzulardan biri olmuşdu. Azərbaycan Prezidenti bu məsələni ABŞ, Fransa, Rusya və Türkiyə rəhbərliyi ilə dəfələrlə müzakrə etmiş,

BMT-dəki çıxışlarında, NATO-nun, İKT-nin, Türkdilli dövlət və MDB dövlət başçılarının sammitlərində bu məsələyə toxunmuşdur. 1994-cü ilin dekabrında Budapeşt sammitində Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsinə dair bölmə yaradıldı. Münaqişənin həlli səlahiyyəti Rusiyanın istəyinin əleyhinə olaraq tamamilə ATƏT-ə verildi. Sammit Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan və Ermənistan arasında gələcəkdə imzalanacaq sülh sazişindən sonra regiona daxil olub, silahlı münaqişələri aradan qaldıracaq çoxmilli beynəlxalq qüvvələr yaradıcılağı haqqına qərar qəbul etdi.

Prezident Heydər Əliyev bu illərdə ATƏT rəhbərliyi və onun Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirdi. ATƏT-in 1994-cü ilin dekabrında Budapeşt, habelə 1996-cı ilin dekabrında Lissabon sammitləri Dağlıq Qarabağ münaqişəsinin Minsk qrupu vasitəsilə ədalətli, beynəlxalq prinsiplərə əsaslanaraq həllinin vacibliyini təsdiq etdi. Təəssüf ki, Minsk qrupu bu ümidləri doğrultmadı.

Budapeşt sammitində Minsk prosesinə həmsədrlik institutu təsis olunarkən ona əvvəlcə Finlandiya və Rusiya, sonra isə İsveç və Rusiya, Lissabon sammitindən sonra 1997-ci il yanvarın 1-dən Rusiya, Fransa və ABŞ həmsədrlik etmişdir. Azərbaycan 3-cü həmsədrin Tükiyə olmasını təklif etsə də, Rusiya bununla razılaşmadı. Ona görə də Azərbaycan 3-cü həmsədrin ABŞ olmasına razılq verdi. Minsk qrupunun həmsədləri ədalətli, obyektiv mövqe tutmadılar, Ermənistanın işğal siyasətini himayə etdilər. Onlar münaqişənin dinc yolla həll edilməməsinin, torpaqlarımızın 30 ilə yaxın işğal altında qalmasının, məcburi köçkünlərin və qaçqınların müsibətlərə düçar olmasının əsas səbəbkarları oldular. Onların əlində problemin sülh yolu ilə həlli üçün güclü təsir rıçaqları var idi. Lakin qəsdən bundan istifadə etmədilər.Uzun-uzadı mənasız müzakirələr apardılar.

ATƏT-in Lissabon sammitinin (1996-cı il dekabr) Yekun sənədi təşkilatın 54 üzvünün imzası ilə qəbul edilməli idi. Lakin Ermənistan prezidenti Levon Ter Petrosyan Azərbaycanın ərazi

bütövlüyü də əks olunmuş Yekun sənədi qəbul etmədi. Belə olanda Heydər Əliev də Yekun Aktını imzalamadı. ABŞ-ın o zamankı Dövlət Katibi Al Qorun Heydər Əliyevi dilə tutması da fayda verməsi. Görüşün iştirakçısı olan dövlət müşaviri V.Quluzadə danışır ki, ABŞ diplomatları gülərək dedilər ki, Heydər Əliyev Al Qoru məğlub etdi. Heydər Əliyevin qətiyyəti, inadı nəticəsində ATƏT-in 54 üzvündən 53-ü (Ermənistandan başqa) Azərbaycanın ərazi bütölüyü haqqında ayrıca rəsmi bəyanat qəbul etdilər. Bu sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün - birinci; Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması, ikinci; Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtar respublika statusunun verilməsi, ücüncü; Dağlıq Qarabağın bütün əhalisinə - ermənilərə və azərbaycanlılara təhlükəsizlik təminatı verilməsi kimi 3 prinsip irəli sürülmüşdü. 2-ci prinsip Azərbaycana sərf etməsə də, münaqişəni aradan qaldırmaq üçün Azərbaycan tərəfi bununla razılaşdı.

Lissabon sammitindən sonra Minsk qrupunun fəaliyyəti nisbətən fəallaşdı. Həmsədrlər tərəfindən 1997-ci il iyunun 11-də "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş" adlı layihə təklif edildi. Burada bir paketdə birləşdirilmiş 2 qrup məsələnin həlli nəzərdə tutulurdu: Birinci, silahlı münaqişənin dayandırılması, ikinci; Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi (paket həlli). Bu sənəddə Azərbaycanı təmin etməyən bir sıra ciddi məsələlər vardı. Sənəd BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlum qətnamələrinə əsaslanmır və hüquqi baxımdan icbari xarakter daşımırdı. İşğal olunmuş ərazilərin boşaldılması ilə status məsələsinin əlaqəli baxılmasında dəqiq mexanizmin və konkret zaman çərçivəsinin göstərilməməsi, bir çox problemlərin "daimi qarışıq komissiya"ların öhdəsinə buraxılması əslində münaqişənin həllinin illərlə uzadılmasına gətirib çıxaracaqdı. Bununla belə Azərbaycan tərəfi "paket təklifi" qəbul etdi. Lakin Ermənistan tərəfi Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmədiyinə görə, habelə Minsk konfransı çağırılmamış

ilkin mərhələdə Dağlıq Qarabağın statusunu müəyyənləşdirməyin yolverilməzliyini bəhanə gətirib bu sənədi qəbul etmədi.

1997-ci il sentyabrın 19-da həmsədrlər "Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş" adlı ikinci layihə təklif etdilər (mərhələli həll). Bu sənəd münaqişəni mərhələlərlə aradan qaldırmağı nəzərdə tuturdu. Birinci mərhələdə Laçın rayonu istisna olunmaqla Dağlıq Qarabağın inzibati hüdudlarından kənardakı 6 işğal edilmiş rayonun azad olunması, ATƏT-in sülhü qorumağa yönəldilmiş əməliyyatının həyata keçrilməsi, qaçqınların azad edilmiş ərazilərə qaytarılması, habelə Ermənistanın və Dağlıq Qarabağın həyat fəaliyyəti üçün zəruri olan kommunikasiya vasitələrinin bərpa edilməsi nəzərdə tutulurdu. İkinci mərhələdə tərəflər Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Dağlıq Qarabağın statusunu müəyyənləşdirməklə və onun təhlükəsizliyi üçün tədbirlər görməklə, habelə Laçın, Şuşa və keçmiş Şaumyan (kənd) rayonları ilə bağlı məsələləri nizama salmaqla məşğul olmalı idilər. Bu sənəddə Dağlıq Qarabağın azərbaycanlı əhalisi, "Laçın dəhlizi" və s. ilə bağlı Azərbaycanı qane etməyən çoxlu maddə vardı. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan 1997-ci il oktyabrın 1-də "mərhələli həll" təklifinin danışıqlara başlamaq üçün əsas kimi qəbul olunmasına razılığını bildirdi. Ermənistan prezidenti L.Ter-Petrosyan da buna müsbət münasibətini açıqladı. Buna səbəb Ermənistanın və Dağlıq Qarabağın son dərəcə ağır iqtisadi durumu, dəyişən beynəlxalq iqtisadi və siyasi maraqların Ermənistan rəhbərliyi tərəfindən dərk edilməsi idi. Lakin Ermənistan prezidentinin danışıqları davam etdirmək fikri qondarma "DQR" liderləri tərəfindən kəskin etirazla qarşılandı. Oktyabrın 26-da "DQR" adlanan qondarma qurumun prezidenti Qukasyan "mərhələli həll" təklifinin qəbuledilməz olduğunu bəyan etdi. 1998-ci il yanvarın 7-8-də Ermənistan Respublikası Təhlükəsizlik Şurasının iclasında L.Ter-Petrosyanın mövqeyi kəskin tənqid edildi. Fevralın 3-də o, istefa verməyə məcbur oldu. Ermənistanın yeni rəhbərliyinin (Robert Koçaryan) radikal mövqeyi danışıqların bu təməl üzərində davam etdirilməsi imkanlarını puça çıxardı.

Uzun sürən fasilədən sonra ATƏT-in Minsk qrupunnun həmsədrləri 1998-ci il noyabrın 9-da əsasən rusiyalı həmsədrin fəal iştirakı ilə hazırlanmış yeni, sayca üçüncü "ümumi dövlət" adlanan təklifi təqdim etdilər. Bu təklif də birinci təklif kimi paket xarakteri daşıyırdı, ATƏT-in Budapeşt və Lissabon sammitlərinin münaqişənin mərhələli həllini əsas götürən qərarlarına zidd idi. Dağlıq Qarabağın statusunun qəbul edilməsi silahlı qarşıdurmanın dayandırılmasından daha əvvəl nəzərdə tutulurdu. Bundan başqa, ortaya atılmış "ümumi dövlət" modelinin heç bir beynəlxalq hüquqi bazası yox idi. Əslində Dağlıq Qarabağ müvafiq atributları olan respublika şəklində dövlət, ərazi qurumuna çevrilir, "ümumi dövlət" çərçivəsində ona Azərbaycanla bərabər-subyektivlik verilirdi. Azərbaycan öz sərhədləri daxilində suveren hüquqlarını gerçəkləşdirmək imkanından faktiki olaraq məhrum olurdu. Azərbaycan özünə qarşı bu alçaldıcı təklifdən qəti imtina etdi. Bundan sonra Ermənistan münaqişənin həllində Azərbaycanı qeyri-konstruktiv mövqe tutmaqda təqsirləndirməyə başladı. Danışıqlarda pauza yarandı. Nəhayət, Heydər Əliyev həmsədrlərə danışıqları canlandırmaq təklifi ilə müracət etdi. Azərbaycanın mövqeyinin dəyişməzliyinə səbəb Heydər Əliyevin rəhbərliyi altında uğurla həyata keçrilən daxili və xarici siyasət, ölkənin iqtisadiyyatının sürətli inkişaf yoluna düşməsi, milli ordu quruculuğu sahəsində irəliləmələr, regionla bağlı məsələlərin həllində iri dövlətlərin onunla hesablaşmağa məcbur olması idi. 1999-cu ilin aprelində ABŞ-ın təklifi ilə danışıqlarda yeni format Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqu yarandı.

ATƏT-in İstambul sammitində (1999-cu il noyabr) Dağlıq Qarabağ münaqişəsinə dair hər hansı ciddi bir sənədin qəbul edilməsinə Ermənistan mane oldu. Noyabrın 18-də Sammitdə Heydər Əliyev çıxış edərək bildirdi ki, Minsk qrupu çərçivəsində danışıqların bərpası zəruridir. O,"Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı"nın təsis edilməsi təşəbbüsü ilə çıxış etdi. Bu pakta əsasən regiondan xarici hərbi qüvvələr çıxarılmalı, Cənubi Qafqazı bölən ayırıcı xətlər aradan qaldırılmalı, təcavüzə, etnik

təmizləmələrə, separatizmə son qoyulmalı, ikili standartlara yol verilməməli idi. Lakin Rusiya Ermənistan vasitəsilə bu planın həyata keçrilməsinə mane oldu. Noyabrın 19-da qəbul edilmiş Sammitin Bəyannaməsində Minsk qpupu çərçivəsində danışıqların bərpasına ümid ifadə olundu, ATƏT-in Yerevanda və Bakıda ofisinin açılması alqışlandı. Avropada Təhlükəsizlik Xartiyası imzalandı. 1990-cı ildə qəbul olunan Avropada adi silahlı qüvvələr haqqında müqaviləyə düzəlişlər haqqında saziş imzalandı. Heydər Əliyevin, E.Şevardnadzenin və S.Dəmirəlin iştirakı ilə noyabrın 18-də Xəzərdə hasil edilən xam neftin Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçməklə, Bakı-Tbilisi-Ceyhan (Aralıq dənizi) əsas boru kəməri vasitəsilə nəql edilməsinə dair saziş imzalandı. Bu zaman Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan (Nursultan Nazarbayev), ABŞ (Bill Klinton) dövlət başçıları "İstanbul bəyannaməsi"ni qəbul edərək bu layihəni ən yüksək səviyyədə dəstəklədilər. Transxəzər qaz kəməri haqqında da saziş imzalandı.

2001-ci ilin yanvarında Ki-Uestdə (ABŞ,Florida ştatı) Heydər Əliyev Ermənistanın rəhbəri R.Koçaryanla görüşdü. Həmsədr ölkələr ikili standartlardan çıxış edərək Azərbaycanı "yazıq", "kasıb", "iqtisadiyyatı ağır vəziyyətdə olan" Ermənistana güzəştə getməyə təhrik etdilər. Görüşdə ABŞ-ın Dövlət katibi Koulin Pomel Heydər Əliyevə ATƏT-in Minsk qrupunun hazırladığı "ümumi dövlət" layihəsini qəbul etdirmək üçün təzyiq etdi. Lakin Azərbaycan rəhbərliyi güzəştə getmədi. Bildirdi ki, bu layihə Dağlıq Qarabağın Azərbaycandan ayrılması deməkdir.

Heydər Əliyev Qərb dövlətlərinin münaqişənin həllində sağlam mövqe tutmadığını ictimaiyyətin nəzərinə çatdırdı. 2001-ci il fevralın 21-də rəsmi qəzetlərdə münaqişənin həlli ilə bağlı hər üç layihə çap edilib ictimaiyyətə çatdırıldı. Fevralın 23-də Milli Məclis Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsini müzakirə etdi. Ölkə ictimaiyyəti də müzakirələrdə fəal iştirak etdi. 2001-ci il mayın 30-da ziyalıların yaydığı bəyanatda deyilirdi: "Şuşasız Qarabağı, Qarabağsız Azərbaycanı təsəvvür etmək olmaz...

Əgər məsələ sülh yolu ilə həll edilməsə biz müharibə yolu ilə bunu edəcəyik".

Bu zaman Azərbaycan siyasətçilərindən E.Namazov, S. Bağırov və N.İmanovun hazırladıqları "Ümumi xartiya" adlanan müqavilə layihəsində 3 prinsip irəli sürüldü:İşğal olunmuş ərazilərdən ermənilərin çıxması, Azərbaycanın ərazi bütövlüyünün bərpası; Məcburi köçkünlərin öz yurdlarına qayıtması; Azərbaycanın suverenliyinə zidd olmayaraq Qarabağ ermənilərinə özünüidarə statusu verilməsi.

Azərbaycan və Ermənistan prezidentlərinin yeni formatda – Minsk qrupu həmsədlərinin iştirakı ilə 2001-ci il 4-6 mart Paris (Fransa), 3 aprel Ki-Uest (ABŞ) görüşlərində, bütün təzyiqlərə baxmayaraq, Dağlıq Qarabağ məsələsində Azərbaycan mövqelərinin dəyişməzliyini nümayiş etdirdi. ABŞ hökuməti Ki-Uest görüşündə Heydər Əliyevə təzyiq edib Dağliq Qarabağ məsələsində müəyyən güzəştlərə məcbur etmək istəyidilər. Lakin o, bunu etmədi. R.Koçaryan bildirir ki bunun səbəbini bir dəfə İlham Əliyevdən soruşduqda, o dedi ki, ailəmiz daxilndə bu məsələni müzakirə etdik. Ailəmizin tarixdə torpaq verən kimi qalmasını istəmədik.

Atalar misalında deyildiyi kimi torpaqdan pay olmaz. Dağlıq Qarabağ münaqişəsi Müstəqil Dövlətlər Birliyi (MDB) çərçivəsində də müzakirə olunurdu. 1994-cü ilin fevralında MDB liderlərinin görüşündə müzakirə olunan razılaşma çərçivəsində, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün tərtib olunan sənədləri təşkilatın katibi üzv dövlətlərin başçılarına göndərdi. 9 mart 1994-cü ildə MDB-nin təsdiqlədiyi qərarla, Rusiya Federasiyası atəşkəs təmin etmək məqsədi ilə Azərbaycan və Ermənistan Respublikaları arasında vasitəçilik missiyasını yerinə yetirməyə sadiq olduğunu ifadə etmişdir. Bundan əlavə bu məsələdə ATƏT və BMT-dən yardım almaq üçün müraciət edilmişdir.

1994-cü il mayın 4-5-də MDB Parlamentlərarası Assambleyanın Bişkekdə toplanması, Ermənistan və Azərbaycan parlament nümayəndələrinin görüşünü təşkil etməklə, hər iki tərəfin atəşkəs əldə etməsi istiqamətində mühüm bir addım atmasını

saxlamışdır. İkigünlük intensiv müzakirələrdən sonra, Ermənistan və Dağlıq Qarabağdan gələn nümayəndə heyəti, atəşkəsin bağlanması barədə hazırlanmış Bişkek protokolunu mayın 8-də imzaladılar. Qarabağda atəşkəsin təmin olunması ilə əlaqədar olan sənədlər mayın 9-də Bakıda, mayın 10-də İrəvanda və mayın 11-də Xankəndində (Stepanakert) imzalanmışdır. Beləliklə, 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində qəbul olunmuş atəşkəs qüvvəyə mindi. Münaqişənin həllində vasitəçilik missiyasına İran da qoşuldu. Lakin Rusiya bununla razılşmadı, ona görə də bu təşəbbüs uğursuz oldu. 1992-ci ilin mayın 6-8-də Azərbaycan prezidentinin səlahiyyətlərini icra edən Ali Sovetin sədri Yaqub Məmmədov, Ermənistan prezidenti L.Ter-Petrosyan və İran prezidenti Əli Əkbər Haşimi Rəfsəncani Bəyannanə imzaladılar. Lakin bəyannamənin mürəkkəbi qurumamış mayın 8-də Rusiya və Ermənistan silahlı qüvvələri Şuşanı, sonra isə Laçını (18 may) işğal etdilər. Dağlıq Qarabağ Ermənistana birləşdirildi. Bununla da ərazi bütövlüyü pozuldu.

İlham Əliyevin prezidentliyi dövründə ATƏT-in Minsk qrupu tərəfindən münaqişənin həlli üçün bir sıra layihələr irəli sürüldü. Madrid prinsiplərinə əsasən (2006-2007) Ermənistan tərəfindən işğal edilmiş və DQMV-ə daxil olmayan 7 rayon Azərbaycana qaytarılmalı, daha sonra DQMV-nın statusu müəyyən edilməli idi. Yenilənmiş Madrid prinsipləri 2007-ci ilin noyabrında irəli sürülmüş, 2009-cu ildə Minsk qrupunun həmsədr ölkələrinin prezidentləri B.Obama (ABŞ), D.Medvedyev (RF), N.Sarkozi (Fransa) Dağlıq Qarabağ haqqında birğə bəyanat verdilər, orada Ermənistan və Azərbaycan rəhbərlərini yenilənmiş Madrid prinsipləri ilə razılığa gəlməyi xahiş etdilər. Bu prinsiplərə daxildir: Dağlıq Qarabağ ətrafındakı ərazilərin Azərbaycana qaytarılması; Dağlıq Qarabağa təhlükəsizlik və özünüidarə hüququnu verən statusun verilməsi; Dağlıq Qarabağla Ermənistanı birləşdirən dəhlizin açılması; Dağlıq Qarabağın yekun statusunun gələcəkdə müəyyən edilməsi,bütün məcburi köçkün və qaçqınların öz əvvəlki yaşayış yerlərinə qayıtması, beynəlxalq təhlükəsizlik zəmanəti.

Kazan prinsipləri (Lavrov planı) 2011-ci ilin iyununda Rusiya prezidenti D.Medvedyevin təşkil etdiyi prezidentlər – İlham Əliyev və Serj Sarkisyanın görüşündə müəyyənləşmişdi.Bu prinsiplərə görə işğalçı Ermənistan qoşunları Dağlıq Qarabağ ətrafındakı rayonlardan çıxarılmalı idi. Həmin ərazilərdə təhlükəsizliyin qorunması beynəlxalq sülhməramlı qüvvələrə həvalə olunmalı idi. Laçın rayonunda Ermənistanla Qarabağı birləşdirən dəhliz ysradılır. Köçkünlər öz yurdlarına qayıdır və referendum yolu ilə Dağlıq Qarabağın statusu müəyyən edilir.

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi. Xəzər dənizi onun ətrafında yaşayan xalqların təbii sərvətidir. 1920-1991-ci illərdə bu dənizə çıxış hüququ yalnız iki dövlətə -Rusiya (SSRİ) və İrana məxsus idi. Dənizin hüquqi statusu bu iki dövlət arasında imzalamış müqavilələrlə müəyyənləşdirilmişdi. SSRİ-nin süqutundan sonra Xəzər regionunda vəziyyət radikal şəkildə dəyişdi. Yeni müstəqil sahilyanı dövlətlərin meydana çıxması bir sıra hüquqi çətinlikləri və sərhəd problemini ortaya çıxardı.

1992-cı ildən sahilyanı dövlətlər arasında (Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan, İran) dənizin hüququ statusu ilə bağlı çoxtərəfli görüşlərdə müzakirələr başlandı. Bu məsələyə hər bir dövlət fərqli yanaşır, daha çox beynəxalq hüquq normalarına deyil, milli maraqlara söykənirdi. İran Xəzərin bölünməsini göl prinsipi üzrə - yəni hər bir ölkəyə bərabər pay verilməsi qaydasını irəli sürürdü. Digər 4 dövlət isə dəniz prinsipi üzrə müəyyən məsafədə hər bir ölkənin milli sektorlarının dəqiqləşdirilməsi, dənizin ortasının isə ümumi istifadəyə verilməsini təklif edirdi. 22 il ərzində Xəzərin statusu ilə bağlı 5 Sammit keçrildi. Status məsələsində Azərbaycan, Rusiya və Qazaxıstanın mövqeləri eyni idi, Türkmənistanın isə İranla mövqeləri üst-üstə düşürdü. Sonra Türkmənistan da birinci tərəfə qoşuldu. Nəhayət ki, tərəflər Xəzərin dibinin dəniz, suyunun isə göl prinsipi ilə bölünməsinə razılaşdılar. Bu, Xəzəryanı ölkələr arasında əməkdaşlıq, eyni zamanda daşımalar üzrə geniş imkanlar yaratdı.

1998-ci ilin iyulunda Rusiya ilə Qazaxıstan arasında "Xəzərin Şimal hissəsinin dibinin bölünməsinə dair" birgə saziş imzalandı. 8-9 yanvar 2001-ci ildə Azərbaycan və Rusiya arasında imzalanan sazişdə "Xəzər dənizində birgə fəaliyyət" haqqında Bəyanatda, Xəzərin orta xətt üzrə milli sektorlara bölünməsi prinsipi cüzi dəyişiklikərlə öz əksini tapdı. 2003-cü il mayın 14-də Azərbaycan, Rusiya və Qazaxistan arasında "Xəzərin dibinin orta xətt üzrə milli sektorlara bölünməsi, su səthinin ümumi istifadəsi" haqqında üçtərəfli saziş imzalandı. Üçtərəfli sazişə görə, orta xətt üzrə Xəzərin dibinin 18,7%-i Rusiyanın, 19,5%-i Azərbaycanın, 29,6%-i Qazaxıstanın nəzarətində qaldı. İran Xəzər dənizinin tərəflər arasında 20% üzrə bölüşdürülməsini tələb edirdi. İran Xəzər dənizinin quru sərhədlərindən başlayaraq dövlətlər arasında orta xətt boyunca bölüşdürülməsinin qəti əleyhinə oldu. Lakin digər 4 Xəzəryanı dövlət onun bu mövqeyini dəstəkləmədi. 12 avqust 2018-ci ildə Aktau limanında Azərbaycan, Rusiya, İran, Qazaxıstan, Türkmənistan dövlət başçıları "Xəzər dənizinin hüququ statusu haqqında" 24 maddəlik Konvensiya imzaladılar. İran istisna olmaqla, 4 Xəzəyanı dövlətin parlamenti bu Konvensiyanı ratifikasiya etdi. 12 fevral 2019-cu ildə Prezident İlham Əliyev "Xəzər dənizinin hüququ statusu haqqında konvensiyanı" təsdiq etdi. İran yenə əvvəlki mövqeyində qalır, Xəzəri dəniz deyil, göl statusunda görür. Buna görə dənizin 5 dövlət arasında bərabər hissəyə bölünməsini istəyir. Halbuki İranın Xəzər sahindəki payı 14%, Türkmənistanın payı isə 20%-dir.

XXII FƏSİL
Azərbaycan Respublikasının mədəniyyəti (1991-2025).

Maarif. Mədəni-maarif. Xalqımızın mədəni inkişafını həmişə diqqətdə saxlayan Heydər Əliyev yaxşı bilirdi ki, milli dövlətçilik ənənələrinin və dəyərlərinin əsasını sağlam dayaqlara söykənən mədəniyyət təşkil edir. Onun fikrincə, xalqı tanıdan, saydıran və başqa xalqlardan fərqləndirən xüsusiyyətlərin ən yüksəyi, ən böyüyü mədəniyyətdir. 2000-ci ildə Respublka Mədəniyyət nazirliyində yaradılmış "Mədəniyyət siyasəti" şöbəsi milli mədəniyyətin nəzəri əsaslarını işləyib hazırladı. Müstəqillik illərində Azərbaycan mədəniyyətinin çoxaspektli inkişafı və dünya mədəniyyətinə inteqrasiya prosesi gücləndi.

Millətin gələcəyini təhsildə görən prezident Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman verdi. Təlim-tərbiyə proseslərinin keyfiyyətcə yeniləşdirilməsini gücləndirmək üçün bütün təhsil müəssisələrinə tədris-metodik rəhbərlik, ayrı-ayrı dövlət qurumlarına məxsus təhsil müəssisələrinin (Müdafiə və Milli Təhlükəsizlik nazirlikləri müəssisələrindən başqa) tabeçiliyi Təhsil Nazirliyinə verildi. Pedaqoji kadrların ixtisasının artırılması və yenidən hazırlanması Baş institutunun bazasında Azərbaycan Müəllimlər İnstitutu və onun regionlarda filialları yaradıldı. Təhsil Problemləri üzrə Respublika Elmi-Metodik Mərkəzi ilə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji İnstitutu bazasında Təhsil Problemləri İnstitutu, təsərrüfat hesablı Təhsil Texnologiyaları Mərkəzi təşkil olundu. Prezidentin 2014-cü il 12 iyul tarixli Sərəncamı ilə Təhsil Nazirliyinin strukturunda da dəyişiklik edildi. Regional idarəçiliyə keçildi. Elm və təhsilin qarşılıqlı əlaqələrini möhkəmləndirmək üçün Təhsil Nazirliyinin adı dəyişdirilib Elm və Təhsil Nazirliyi adlandırıldı.

Azərbaycan Respublikasının müasir təhsil sisteminin strukturuna məktəbəqədər, ümumi təhsil, peşə ixtisas təhsili (texniki-peşə,orta ixtisas), ali təhsil, ali təhsildən sonrakı təhsil daxildir.

Məktəbəqədər təhsilin əsas istiqamətləri erkən yaş dövründə uşaqların inkişaf proqramı (2006-2011-ci illər), məktəbəqədər təhsilin təkmilləşdirməsinə dair Dövlət Proqramı (2006-2010-cı illər) və digər sənədlərlə müəyyən olunmuşdur. 2000-ci ildə respublikada 111 min uşağı əhatə edən 1790 məktəbəqədər müəssisə fəaliyyət göstərirdi. 2024-cü ildə ölkədə 1844 məktəbəqədər (körpələr evi, uşaq bağçası və s.) təhsil müəssisəsi, o cümlədən 1696 dövlət, 148 özəl müəssisə olmuşdur.

2000-ci ilin noyabr ayında Bakının Əhmədli qəsəbəsində Beynəlxalq "Sos Kinderdof İnternational" təşkilatı tərəfindən yaradılmış 12 evdən ibarət uşaq kəndi istifadəyə verildi. Respublikada 367 məktəbdənkənar müəssisə vardı. Onlarda 310 mindən çox şagird müxtəlif maraq sahələri üzrə qruplara cəlb olunmuşdu.

Məktəb sovet təhsil sisteminin müsbət ənənələrini qoruyub saxlamaqla bərabər, onu müasir Avropa texnologiyası ilə zənginləşdirməyə başladı. 40-dan çox xarici ölkənin, o cümlədən ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya, Türkiyə və İsrailin təhsil sistemi, təlim texnologiyaları, idarəetmə modelləri öyrənildi. Bir çox xarici ölkələrlə birbaşa təhsil əlaqələri, şagird və tələbə mübadiləsi yaradıldı.

2001-ci ildə Azərbaycanda əhalinin 2 milyon 901 min nəfəri ümumi orta, 694 min nəfəri orta ixtisas, 612 min nəfəri tam ali təhsilli idi. Yaşı 15-dən yuxarı olan hər min nəfərə 908 təhsilli, o cümlədən 108 ali, 122 orta ixtisas, 511 ümumi orta və 158 natamam orta təhsilli şəxs düşürdü.

2000-2001-ci dərs ilində respublikada 4548 gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 1 milyon 654 min şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 165 min müəllim məşğul olurdu. 2005-2006-cı illərdə ümumtəhsil məktəblərinin cayı 4538, orada təhsil alan şagirdərin sayı 1 milyon 581 min nəfər idi. Təhsil Naziri Emin Əmrullayev çıxışında bildirmişdir (2022-ci il 4may) ki, ölkəmizdə 4400 ümumtəhsil muəssisəsi vardır, XX əsrin 70-ci illərin sonunda onların sayı 2117

idi. 2024/25-ci tədris ilində dövlət təhsil müəssisələrinin (orta məktəblər) sayı 4324 olmuşdur. 2023/24-cü tədris ilində bu göstərici 4388 idi. Deməli, müəyyən səbəblərdən məktəblərin sayı 64 ədəd azalmışdır. Əgər 2023/24-cü illərdə ölkəmizdə təhsil alan şagirdlərin sayı 1.680.733 idisə, onların sayı 9.617 nəfər azalaraq 167.116 nəfərə düşmüşdür. 2023/24-cü tədris ilində ölkədə 34 özəl orta məktəbdə 23.484 nəfər şagird təhsil almışdır.

Ümumtəhsil məktəbləri sistemində də dəyişikliklər baş vermişdi. Liseylər, gimnaziyalar yaradılmışdı. Xüsusi istedada malik uşaqlar üçün təmayülləşdirilmiş 225 məktəb (onlardan 7 gimnaziya və 33 lisey) fəaliyyət göstərirdi. Bu məktəblərdə 84 min şagird təhsil alırdı. Bakıda özəl Türkiyə liseyləri, o cümlədən "Atatürk" liseyi, "Bakı Türk liseyi", T.Özal adına Bakı və Sumqayıt Türk liseyləri və bir neçə rayonda onların filialları təşkil olunmuşdu. 2001-ci ilin sentyabrında Azərbaycanda ilk Bakı özəl ümumtəhsil kompleksi fəaliyyətə başladı.

Prezidentin 17 aprel 2006-cı il tarixli fərmanı ilə "Xüsusi istedadı olan uşaqların (gənclərin)yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər) həyata keçrilməyə başladı.

Respublikada 38 ümumtipli internat məktəbi fəaliyyət göstərirdi. 1998-ci ildə C.Naxçıvanski adına Respublika Orta Hərbi İnternat Məktəbinin Naxçıvan filialı təsis edildi. 2002-ci il oktyabrın 4-də prezident Heydər Əliyev "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Fərman verdi. 2003-2007-ci illərdə məktəb tikintisi, təmiri, məktəblərin müasir tədris avadanlığı ilə təchizatı üçün konkret tədbirlər görülməyə başlandı.

Orta məktəblər üçün dərsliklər, yeni dərs vəsaitləri, fənn proqramları hazırlandı. Alim və pedaqoqların səyi sayəsində qısa müddətdə ümumtəhsil məktəbləri üçün yeni "Azərbaycan tarixi", "Ədəbiyyat", "Azərbaycan dili", "Coğrafiya" və digər dərsliklər çap olundu. Ali məktəblər üçün ilk dəfə "Azərbaycan tarixi" dərslikləri hazırlandı. Təbiət elmləri üzrə bir sıra yeni dərsliklər

nəşr edildi. Dərsliklərin və dərs vəsaitlərinin formaca Avropa standartlarına uyğunlaşdırılmasına diqqət yetirildi.

XX əsrin 90-cı illərin birinci yarısında orta ixtisas məktəblərində tələbələrin sayı iki dəfə azalıb 30 min nəfərə, texniki peşə məktəblərində şagirdlərin sayı iki dəfə azalıb 43 min nəfərə enmişdi. 2000-2001-ci illərdə respublikanın 68 (4-ü özəl) orta ixtisas məktəbində 41,2 minə qədər tələbə təhsil alırdı. Onların təlim-tərbiyəsi ilə 8,3 min nəfərə qədər müəllim məşğul olurdu. 109 peşə təhsili müəssisəsində (47 peşə liseyi və 62 peşə məktəbi) 25 min şagird 115 növ peşəyə yiyələnirdi. 2024-cü ildə 113 peşə təhsil müəssisəsində 25 mindən çox şagird təhsil alırdı.

Texnikumlar şəbəkəsi yenidən qurulur, kolleclər yaradılırdı. Bakı Dövlət İqtisadiyyat və Humanitar (Bakı Plan-Uçot Texnikumu bazasında), Bakı Dövlət Sosial-İqtisad (Bakı Plan-İqtisad Texnikumu bazasında), Bakı Dövlət Rabitə və Nəqliyyat (Bakı Rabitə Kolleci və Dəmir Yolu Nəqliyyatı texnikumları bazasında) kollecləri təşkil edildi. Yerlərdə ləğv edilmiş texnikumların bazasında Sumqayıt Dövlət Texniki, Sabirabad, Ağdam, Quba, Şamaxı, Tovuz və Qazax Dövlət Sosial-İqtisad, Lənkəran, Ağdaş Dövlət Humanitar, Göyçay, Bərdə və Zaqatala Dövlət İdarəetmə və Texnologiya, Naxçıvan və Şəki Dövlət Texniki kollecləri yaradıldı. 2024-cü ildə 54 dövlət,17 özəl orta ixtisas məktəbində 72 min nəfər tələbə təhsil alırdı.

Maarifin təşkilində yenilik 1992-ci ildən ali və orta ixtisas məktəblərinə qəbulun test üsulu ilə aparılmasının tətbiqi olmuşdu. Ən ümdə məqsəd qəbul zamanı qeyri-obyektivliyin, mənfi halların qarşısını almaq idi.

1993-cü ildən respublikanın ali məktəblərində (incəsənət, mədəniyyət, tibb və idman ixtisasları üzrə məktəblərdən başqa) çoxpilləli ali təhsil - dördillik bakalavr və ikiillik magistratura sistemi tətbiq olunmağa başlandı. 1997-ci ildə magistraturalara ilk qəbul keçrildi. Ali məktəb sistemində ciddi dəyişikliklər baş verdi.

Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutu, Lənkəran Dövlət Universiteti fəaliyyətə başladı. Azərbaycan Dövlət Neft-

Kimya İnstitutu, Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, Azərbaycan Dövlət Konservatoriyası təhsil akademiyalarına çevrildi. 1996-cı ildə Bakı Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyası yaradılmış, Polis Məktəbi Polis Akademiyası adlandırılmışdı. Bakıdakı Azərbaycan Dövlət Pedaqoji İnstitutu - Pedaqoji Universitet, Politexnik İnstitutu - Texniki Universitet, Tibb İnstitutu - Tibb Universiteti, Bakı Ali Partiya Məktəbi - Sosial İdarəetmə və Politologiya İnstitutu kimi yenidən quruldu. 1999-cu ildə Sosial İdarəetmə və Politologiya İnstitutu bazasında Respublika Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası təşkil olundu. 1998-ci ildə Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası təsis edildi. Mülki Təyyarəçilik Akademiyası fəaliyyət göstərirdi. 2001-ci ildə Azərbaycan Milli Konservatoriyası fəaliyyətə başladı. Turizm Universiteti (2006) yaradıldı, 2014-cü ildən Turizm və Menecment Universiteti adlandırıldı. 2016-cı ildə ləğv edilmiş Qafqaz Universitetinin bazasında 2017-ci ildə Bakı Mühəndislik Universiteti (BMU) təsis edildi. 2006-cı ildə Azərbaycan Diplomatik Akademiyasının (ADA) yaranması təhsil sistemində mühüm hadisə oldu.

Prezidentin 2000-ci il 13 iyun tarixli Fərmanı ilə Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına özünüidarəetmə və maliyyə müstəqilliyi statusu verildi.

Azərbaycan Respublikası ali təhsil sahəsində təhsil sənədlərinin və elmi dərəcələrin tanınması ilə bağlı habelə Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında 1997-ci il Lissabon Konvensiyasına qoşuldu. Azərbaycan təhsil sistemi YUNESKO, YUNİSEF, YUNEVOK, İSESKO, Avropa Təhsil Fondu, Avropa Şurası, Avropa İttifaqı kimi nüfuzlu beynəlxalq təşkilatların təhsil proqramları ilə məşğul olan qurumlarla Açıq Cəmiyyət İnstitutu (SOROS Fondu) və başqa qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edirdi. Hər il 100-ə yaxın təhsil işçisi Soros Fondunun dəstəyi ilə müasir tədris texnologiyaları ilə tanış olmaq üçün xarici ölkələrə ezam olunurdu.

1998-ci ildən respublikada fondun "Addım-addım", "İngilis dili", "Debat", "Vətəndaş təhsili" (1999-cu ildən) proqramları fəaliyyət göstərirdi. Azərbaycanın ali məktəbləri Avropa İttifaqının maliyyələşdirdiyi Tempus/Tasis proqramına cəlb olunmuşdu. 2003-cü ilədək bu proqram çərçivəsində respublikanın ali məktəblərinə göstərilən maliyyə-texniki yardım 3.370.000 avro təşkil edirdi.

Hərbi məktəblərdə prezidentin Sərəncamı ilə Sərhəd Qoşunları Akademiyası (2007), Fövqəladə Hallar Akademiyası (2008), Dövlət Gömrük Akademiyası (2012), Heydər Əliyev adına Hərbi İnstitut (2022) yaradıldı. Ali Hərbi Məktəb, Ali Hərbi Təyyarəçilik Məktəbi və Ali Hərbi Dənizçilik Məktəbində onlarca ixtisas üzrə hərbi mütəxəssislər hazırlanırdı. 2001-ci ilin sentyabrında əlaçı ali məktəb tələbələrinə Prezident təqaüdü təsis edildi.

Respublikada özəl ali məktəblərin geniş şəbəkəsi meydana gəlmişdi. "Qərb", "Biznes", "Asiya", "Xəzər", "Təfəkkür", "Azərbaycan", "Qafqaz" və başqa özəl ali təhsil müəssisələri fəaliyyət göstərirdi. Ümumiyyətlə, respublikanın şəhərlərində, hətta qəsəbələrdə 121 özəl ali məktəb təşkil edilmişdi. Lakin bu ali məktəblərdən cəmi 18-i dövlət lisenziyası ala bilmişdi. Onların da bir çoxu maddi bazasının zəif, təhsilin səviyyəsi aşağı olduğundan sonralar lisenziyadan məhrum edilmişdi.

1993-1994-cü dərs ilindən başlayaraq, respublikanın dövlət ali təhsil müəssisələrində bir neçə qrupda ödənişli təhsil forması tətbiq olundu.

2000-2001-ci dərs ilində respublikada 43 ali məktəb fəaliyyət göstərir, onlarda 119,7 mindən çox tələbə təhsil alırdı. 25 dövlət ali təhsil müəssisəsində 91 mindən çox (38,1 mini öz hesabına ödənişli əsasda), 18 özəl ali təhsil müəssisəsində 28,7 mindən çox tələbə oxuyurdu. Dövlət ali məktəblərində 22.135 nəfər professor-müəllim heyəti çalışırdı. Özəl məktəblərdə 5 mindən çox müəllim, dosent və professor işləyirdi. 2002-2003-cü dərs ilində 10-dan artıq xarici ölkənin ali məktəblərində 882 nəfərdən çox azərbaycanlı tələbə təhsil alırdı. Respublikanın ali məktəblərində 2100 xarici

tələbə oxuyurdu.

2024/25-ci tədris ilində ölkədə 35 dövlət ali məktəbi, 6 xüsusi təyinatlı və 9 özəl ali məktəb mövcud idi. 2024-cü ildə ölkənin ali təhsil müəssisələrinə qəbul olan tələbələrin sayı əvvəlki illərə nisbətən artaraq 57.391 nəfərə çatmışdır.

Hələ 1972-ci ildə Heydər Əliyevin səyi ilə V.L.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun Xankəndində filialı açılmışdı. Erməni separatçılarının fəaliyyəti nəticəsndə insititut fəliyyətini dayandırmışdı. Prezident İlham Əliyev 2023-cü il noyabrın 28-də "Qarabağ" universitetinin yaradılması haqqında" mühüm əhəmiyyəti olan Sərəncam imzaladı. 2024/25-ci tədris ilində universitetə qəbul planı üzrə ayrılmış 1120 bakalavr yerinə 1104 nəfər qəbul olmaqla qəbul planı 98,5% yerinə yetirildi. 2024-cü ilin sentyabrın 20-də Qarabağ universiteti və yataqxanası təmirdən sonra istifadəyə verildi. Universitetin rektoru Şahin Bayramov təyin edilmişdir.

Ali təhsil ocaqlarında dünyanın qabaqcıl ali məktəblərinin təcrübəsi diqqətlə öyrənilir və tətbiq olunur. Azərbaycan universitetləri Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Şəbəkəsinə qoşulmuşdu

Təlimdə yeni metodlardan, texniki vasitələrdən istifadə genişləndi. Hazırda dünyada bütün sahələrdə süni intellektin tətbiqinə diqqət artmışdır. Süni intellekt mütərəqqi öyrənmə üsuludur. Müasir dövrdə süni intellektin həyatda vacib rolunu nəzərə alıb Prezidentin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" təsdiq edilmişdir. Təhsil müəssisələrində yeni təsərrüfat sistemi, bazar iqtisadiyyatı ilə bağlı tətbiqi elmlərin, xarici dillərin, informatikanın tədrisinə, kompüter savadının geniş yayılmasına diqqət artırılmış, beynəlxalq münasibətlər, beynəlxalq hüquq, politologiya, menecment, marketinq kimi ixtisaslar üzrə kadr hazırlığına başlanmışdı.

Gənc nəslin ümumi mədəni, siyasi səviyyəsinin yüksəldilməsinə diqqət artırılmışdı. Bu məqsədlə 1997-ci ildən

başlayaraq ali və orta ixtisas məktəblərində təşkil olunan "Heydər Əliyev məktəbləri" xüsusi əhəmiyyət kəsb edir.

Respublikada qaçqın və məcburi köçkünlərin təhsil alması üçün münasib imkanlar yaradılmışdı. 2000-2001-ci dərs ilində onlar üçün müxtəlif regionlarda 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 12 texniki peşə məktəbi, 5 orta ixtisas məktəbi və 3 orta ixtisas məktəbinin filialı, 1 ali məktəb, 234 məktəbəqədər tərbiyə müəssisəsi fəaliyyət göstərirdi. BMT-nin Qaçqınlarla İş üzrə Ali Komissarlığı xətti ilə çadır şəhərciklərində yüzlərlə yığma sinif otağı quraşdırılmış, minlərlə məktəbli dərs ləvazimatı ilə təmin olunmuşdu. YUNİSEF-in köməyi ilə qaçqın və köçkün uşaqları üçün 14 rayonda 35 Uşaq İnkişaf Mərkəzi yaradılmışdı. ARDNŞ və başqa müəssisələr qaçqın və köçkün məktəblərinin təminatında fəal iştirak edirdi. Məktəblərdə, xüsusən ali təhsil ocaqlarında qeyri-obyektivlik hallarına qarşı mübarizə gücləndirildi, özəl məktəblərdə dərslərin keyfiyyətinə layiqincə diqqət yetirilməyə başlandı.

2000-ci ildə respublikanın şəhər, qəsəbə və kəndlərində 3354 klub müəssisəsi, fondlarında 39 milyon nüsxədən çox kitab və jurnal olan 4374 kütləvi kitabxana, 607-yə qədər kino qurğusu, 26 peşəkar kinoteatr, 155 muzey və 27 professional teatr vardı.

Torpaqların işğalı zamanı erməni vandalları 982 kitabxana, 862 klub, 1831 kino qurğusu, 6 teatr, 10 park, 100 mindən çox qiymətli nadir eksponatı olan 22 muzey və rəsm qalereyasını ələ keçirib qarət etmişdilər. Yüzlərlə tarixi abidə, o cümlədən 13 qala bürcü, 22 kurqan-təpə, 31 məscid, 44 məbəd, 2 mağara-ibadətgah təhqir edilmiş, dağıdılmışdı. Füzulidə Məhəmməd Füzulinin tunc heykəli sökülüb aparılmışdı. Şuşada Natəvanın, Üzeyir Hacıbəyovun, Bülbülün heykəlləri güllələbaran edilmişdi.

XX əsrin 90-cı illərin əvvəllərində nəzarətsizlik üzündən respublikanın muzeylərindən çox qiymətli sənət əsərləri, əntiq əşyalar oğurlanıb xaricə aparılmışdı. R.Mustafayev adına Dövlət İncəsənət Muzeyindən 1993-cü ilin əvvəllərində dəyəri yüz milyon dollarlarla qiymətləndirilən 275 nadir rəsm əsəri oğurlanmışdı.

Onlar arasında klassik Avropa rəssamlarının qiymətli sənət inciləri də vardı.

Kitabxana fondları, oxucuların sayı xeyli azalmışdı. Kinoteatrlar televiziya və video ilə rəqabətə dözə bilmir, demək olar ki, boş qalırdı. 90-cı illərin birinci yarısında kinoqurğuların sayı iki dəfədən çox azalmışdı.

Prezident Heydər Əliyev yenidən siyasi rəhbərliyə gəldikdən sonra bu sahədə mühüm tədbirlər həyata keçrildi. 1997-ci il noyabrın 18-də "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edildi. Beynəlxalq Muzeylər Şurasının (İKOM), Beynəlxalq Kitabxanalar Şurasının (İFLA) Azərbaycan Milli komitələri yaradıldı. 2002-ci ilin yayında Azərbaycan muğamının YUNESKO tərəfindən tərtib olunmuş dünya sənət inciləri sırasına daxil edilməsi üçün layihə hazırlandı və bu barədə təşkilatın qeyri-maddi mədəni irsin öyrənilməsi şöbəsi ilə razılıq əldə olundu. Hökumət kitabxana fondlarının genişləndirilməsinə vəsaiti artırdı, "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul edildi.

M.F.Axundov adına Respublika Kitabxanası (1998-ci ilin aprel ayından Milli Kitabxana statusu aldı) dünyanın 45 ölkəsindən 60-dan çox kitabxana ilə əlaqə saxlayır, kitab mübadiləsi aparırdı. Prezident Heydər Əliyev, respublikanın görkəmli ziyalıları bu kitabxanaya çoxlu kitab hədiyyə etmişdilər.

1994-cü ildə Bakıda C.Məmmədquluzadənin, Niyazinin ev-muzeyləri, 1996-cı ilin payızında Naxçıvanda H.Cavidin, C.Məmmədquluzadənin ev muzeyləri açıldı. 1998-ci ildə Ordubadda M.S.Ordubadinin ev-muzeyi bərpa edildi. 2001-ci ildə Şəkidə S.Rəhmanın ev-muzeyi təşkil olundu. 2002-ci il Naxçıvanda rəssam Bəhruz Kəngərlinin, Bakıda Hüseyn Cavidin ev-muzeyləri açıldı. Həmin ilin avqustunda M.P.Vaqifin Qazaxdakı Xatirə Muzeyi "M.P.Vaqif və M.V.Vidadinin Xatirə Muzeyi" kimi yenidən quruldu, Xalça muzeyi yeni binaya (ləğv olunmuş Lenin muzeyinin binası) köçrüldü. Azərbaycan Tarixi muzeyində təmir və yenidənqurma işlərinə başlandı. İncəsənət

muzeyindən oğurlanmış qiymətli rəsm əsərlərindən 192-si ABŞ-da müvafiq qurumların köməyi ilə tapılıb, 2001-ci ilin iyulunda geri qaytarıldı.

XX əsrin 90-cı illərin ortalarında 600-ə qədər informasiya orqanı qeydə alınmışdı. 2001-ci ilin əvvəllərində 8 dildə 300-dən çox qəzet, 72 jurnal nəşr olunurdu. Qəzetlərin yanlız 4-ü dövlətə məxsus idi. Həmin dövrdən ölkəmiz beynəlxalq internet informasiya şəbəkəsindən istifadə etməyə başladı. Radio və televiziya inkişaf edirdi.

Mətbuatda mövcud qüsur və çatışmazlıqlar kəskin tənqid olunurdu. Lakin verilmiş söz azadlığından bəzi müxalif qüvvələr və media işbazları şəxsi, qrup mənafeləri və məqsədləri üçün sui-istifadə edir, məsuliyyətsiz, populist, böhtançı çıxışlara yol verirdi.

2001-ci ildə "Kütləvi informasiya vasitələri" haqqında Qanuna edilən əlavə və dəyişikliklər nəticəsində kütləvi informasiya vasitələrinin hüquqi bazası yeniləndi, demokratik prinsiplərə tam cavab verən qanun yarandı.

Kütləvi informasiya vasitələrindən tutulan vergilərin 3 il müddətində dövlətin hesabına ödənilməsi haqqında qərar qəbul edildi. Qəzet kağızına idxal gömrük rüsumları aradan qaldırıldı, kütləvi informasiya vasitələrinə uzunmüddətli və qısamüddətli kreditlər verilməsinə imkan yaradıldı. 2002-ci ilin sentyabrında Kütləvi informasiya vasitələrinin inkişafı üzrə layihələrin maliyyələşdirilməsi üçün Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondundan 3 milyard manat vəsait ayırdı. Dövlət qeydiyyatı, lisenziya və radiotezliklərin (özəl televiziya və radiolar üçün) verilməsi işinin təkmilləşdirilməsi, onların yayım dairəsinin genişləndirilməsi, yayım tariflərinin azaldılması, özəl mətbəələrin inkişafının stimullaşdırılması, layiqli jurnalistlərin, aparıcı qəzet redaksiyalarının mükafatlandırılması, istedadlı jurnalistlərə Prezident təqaüdləri verilməsi və başqa tədbirlər görülməsi qərara alındı. 2002-ci il oktyabrın 5-də Azərbaycan Prezidentinin Fərmanı ilə "Milli Televiziya və Radio Şurası" yaradıldı.

Prezidentin 2025-ci il 25 aprel tarixli Sərəncamı ilə

Azərbaycan milli mətbuatının (“Əkinçi” qəzeti) 150 illik yubileyi qeyd edildi.

Müasir şəraitdə medianın rolunu müzakirə etmək üçün 2025-ci il 19-21 iyul tarixində Xankəndi və Şuşada III Şuşa Media Qlobal Forumu keçirildi. Tədbirdə 52 ölkədən 140 qonaq, 30-a yaxın informasiya agentliyi və 80 media qurumunun nümayəndələri iştirak edirdi.

Milli ideologiyanın formalaşması. Dövlət müstəqilliyinin bərqərar olması, ölkədə siyasi və iqtisadi sabitlik, beynəlxalq əlaqələrin genişlənməsi, milli və bəşəri dəyərlərə əsaslanan dövlətçilik, mədəni və iqtisadi yüksəliş ideologiyasının formalaşması, inkişaf etməsi üçün zəmin yaratdı. Vətənpərvərlik, milli qürur, humanizm kimi Azərbaycan xalqının ən səciyyəvi milli-mənəvi dəyərlərini inkişaf etdirmək, gənc nəsli bu dəyərlər ruhunda tərbiyə etmək ideoloji fəaliyyətin əsas meyarıdır.

Milli özünəməxsusluğun ən mühüm təzahürü olan Azərbaycan dilinin inkişafı və təmizliyinin qorunması, dövlət dili statusunun tətbiqi sahəsində mühüm addımlar atıldı. Prezident Heydər Əliyev 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında" Fərman vermişdi. Dövlət başçısı yanında "Dövlət Dil Komissiyası" yaradıldı. 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun qəbul edildi. Bu Qanun prezidentin 2003-cü il 2 yanvar tarixli Fərmanı ilə qüvvəyə mindi.

Xalqın ümumtürk mədəniyyətinə qovuşmasında önəmli olduğunu nəzərə alaraq, hələ 1991-ci il dekabrın 24-də latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması haqqında Qanun qəbul edilmişdi. 1992-ci ilin sentyabr ayından orta məktəblərin birinci sinfində dərslər latın qrafikası üzrə keçirilməyə başlanmışdı, lakin texniki çətinliklərə görə qəzet və jurnallar hələlik kiril qrafikası ilə çap olunur, kargüzarlıq işləri əsasən bu qrafika ilə aparılırdı. Prezident Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli Fərmanına əsasən həmin il avqust ayının 1-dən latın qrafikalı əlifba qəti tətbiq edildi. Həmin gün "Azərbaycan əlifbası

və Azərbaycan dili günü" elan olundu.

Ölkədə aparılan demokratik islahatlar milli ideologiyanın humanist, demokratik xarakterini daha da dərinləşdirdi.

Prezident Heydər Əliyev islam dininin insan mənəviyyatını saflaşdırıcı xüsusiyyətlərindən milli birlik və barışıq vasitəsi kimi səmərəli istifadə edilməsini Azərbaycançılıq məfkurəsinin fundamental prinsiplərindən biri kimi qiymətləndirdi. İslam dini icmaları, müqəddəs ocaqlar bərpa olunur, yeniləri yaradıldı. 1992-ci il iyulun 21-də "Dini etiqad azadlığı haqqında" Qanun qəbul edildi. 1991-2001-ci illərdə respublikada məscidlərin sayı 19-dan 1236-ya çatmışdı. Şəhər və kəndlərdə 160-a qədər, o cümlədən Bakının Şəhidlər Xiyabanında, Yeni Yasamal, Qaraçuxur qəsəbələrində, Novxanı, Hökməli, Nardaran kəndlərində, "Mir Möhsün ağa", "Əliayağı" pirləri üzərində məscidlər tikilmişdi. 1999-cu ilin noyabrında Naxçıvanda yeni tikilmiş "Həzrəti Zəhra (s.) məscidi" açılmışdı. "İmamzadə" məscidi və türbələr, "Əshabü-kəf" ziyarətgahı təmir edilib abadlaşdırılmışdı. Şərur rayonunun Aralıq, Babək rayonunun Çeşməbazar kəndlərində "Heydər məscidləri" tikilmişdi.

Sovet hakimiyyəti illərində dağılmış müqəddəs ocaqlar, pirlər, məscidlər bərpa olunmağa başlanmışdı. Bayıl qəsəbəsində "Bibiheybət piri" bərpa edilmiş, İmam Rzanın bacısı Hökümə xanımın müqəddəs qəbri üzərindəki 1935-ci ildə yerlə - yeksan edilmiş "Bibiheybət məscidi" yerində ikiminarəli, irikünbəzli əzəmətli məscid binası tikilmişdi.

Prezident İlham Əliyevin tapşırığı ilə Bakı şəhərində Ümummilli Lider Heydər Əliyevin xatirəsinə əzəmətli məscidin 26 dekabr 2014-cü ildə açılışı olmuşdur. Prezident İlham Əliyevin tapşırığına əsasən Bakının Yeni Günəşli qəsəbəsində tikilmiş yeni məscid kompleksi 2022-ci ilin yanvarında istifadə verildi. Kompleksin inşası zamanı Abşeron məscidlərinin memarlıq üslubuna uyğun elementlərdən istifadə edilmişdir.

Hər il Həcc mərasimi günlərində yüzlərlə dindarın müqəddəs Kəbəni, habelə islamın başqa müqəddəs ocaqlarını ziyarət etməsi

üçün lazımi tədbirlər görülür.

Qurani-Kərimin yeni tərcümə-təfsirləri hazırlanmış (biri Ziya Bünyadov və Vasim Məmmədəliyev, digəri isə N. Qasımoğlu tərəfindən) və çap olunmuşdu.

1989-1990-cı illərdə fəaliyyət göstərmiş "Bakı Mədrəsəsi" 1991-ci ildə "Bakı İslam İnstitutu"na, 1994-cü ildə bu institut "Qafqaz İslam Universiteti"nə, 1997-ci ildə isə "Bakı İslam Universiteti"nə çevrilmişdi. Bir çox şəhərlərdə mədrəsələr fəaliyyət göstərirdi.

İqtidar qanuni dini icmalara qayğı ilə yanaşır, islam dininin müstəqillik və dövlətçiliyin dayağı olan vətəndaş həmrəyliyi yaradılmasında böyük imkanlarını düzgün qiymətləndirirdi. Dövlət müstəqilliyi şəraitində xalqın ənənəvi mədəniyyətinə ehtiram və qayğı ilə yanaşılmağa başlanmışdı. Milli Məclisin 1992-ci il oktyabrın 27-də qəbul etdiyi "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən "Novruz", "Mövlud", "Qurban" və "Ramazan" (Orucluq) bayramları hər il rəsmi qeyd olunurdu. Prezident Heydər Əliyev islam dini mərkəzlərini, müqəddəs Kəbəni ziyarətə getmişdi. Tez-tez dindarlarla görüşürdü. 1997-ci ilin payızında Prezident Bibiheybət pirini ziyarət edərkən burada başlanmış məscid tikintisini öz himayəsinə götürmüş, bu məqsədlə 3 milyard manat vəsait ayırmışdı. Heydər Əliyev milli-əxlaqi mentalitetdə islam əxlaqı normalarının əhəmiyyətini yüksək qiymətləndirirdi. Qeyd edirdi ki, fundamentalizmə və fanatizmə yol verilməməlidir.

İslam dini Azərbaycan xalqını birləşdirici amil olduğundan əhalinin mənəvi birliyini parçalamağa çalışan qüvvələr sünni və şiələr arasında nifaq salmağa cəhd göstərirdilər. Xüsusi xidmət zabitləri Şərq və Qərb dini missionerləri libasında geniş pozucu təbliğat işləri aparır, informasiya mərkəzləri açır, pulsuz dini kitablar, qəzet və jurnallar yayırdılar.Bu sahədə xüsusən İrandan gələn "missionerlər" daha fəal idilər.

Respublikada pravoslav, yəhudi dini konfessiyalarının azad inkişafı üçün şərait vardı. 1999-cu ilin əvvəllərində Rus kilsəsinin

Bakı-Xəzəryanı Yeparxiyası təşkil olundu (bu yeparxiya əvvəllər 1934-cü ilədək də mövcud olmuşdu). Buraya Azərbaycan, Dağıstan və Çeçenistandakı pravoslav kilsələri daxil idi.

2001-ci ilin mayında Bakıda olmuş Moskva və bütün Rusiya Patriarxı II Aleksi Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Allahşükür Paşazadəyə məktubunda qeyd edirdi ki, Azərbaycanda qeyri millətlərə mənsub insanlar özlərini "ikinci növ adam" kimi hiss etmirlər, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Burada dinlərarası əlaqə səviyyəsi müsəlmanlarla xristianlar arasında qarşılıqlı əməkdaşlığın etalonu ola bilər. 2001-ci ildə Azərbaycanda olmuş Avropa Şurası Parlament Assambleyasının sədri Lord Rassel Conston bildirmişdi ki, burada "bütün dini konfessiyaların qarşılıqlı dözüm şəraitində fəaliyyət göstərməsi dünyada nadir hadisələrdəndir". 2002-ci il mayın 22-də Bakıya rəsmi səfərə gəlmiş Vatikan dövlətinin başçısı, dünya katoliklərinin dini rəhbəri olan Roma Papası II İohan Pavel Azərbaycanı "dini dözümlülüyü hər bir həqiqi sivilizasiyanın ilkin dəyəri kimi dərk və qəbul edən... ölkə" adlandırmışdı, O, qeyd etmişdi ki, "... digər dinlərə etiqad bəsləyənləri öz qardaşlarınız kimi qəbul etdiyinizə görə Azərbaycandakı islam övladlarına eşq olsun".

Çox konfessiyalı ölkə olan Azərbaycan dünyada dinlərarası, mədəniyyətlərarası əlaqələrin genişlənməsi və möhkəmlənməsi işinə öz layiqli töhfəsini verir. 1998-ci ildə Bakıda keçirilmiş "İslam sivilizasiyası Qafqazda" mövzusunda geniş tərkibli beynəlxalq simpozium, 2002-ci ilin oktyabrında "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda ATƏT-in Bakı konfransı bu baxımdan mühüm hadisələr idi.

2016-cı il sentyabrında Bakıda Heydər Əliyev Mərkəzində V Bakı Beynəlxalq Humanitar Forumu keçirilmişdir. Forumda 80-ə yaxın ölkədən 400-dən çox nümayəndə iştirak etmişdir. Onların arasında məşhur siyasətçilər, ictimai xadimlər, Nobel mükafatı laureatları, bir sıra dövlətlərin yaradıcı ziyalıları vardır. Beynəlxalq

tədbirlərin, eyni zamanda Humanitar Forumun ölkəmizdə keçirilməsinin bir çox məqsədləri var. Azərbaycan çox konfessiyalı, çoxmillətli ölkədir. Azərbaycanda tarixən bütün dinlərin, xalqların nümayəndələri birgə yanaşı yaşamışdır. Beynəlxalq siyasi və humanitar tədbirlər dünyaya bir siqnal olaraq göstərir ki, dünyanın mütərəqqi nümayəndələri öz səylərini birləşdirməlidirlər. Qanlı toqquşmalar, müxtəlif bölgələrdə müharibələr gedir, beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi müəyyən dərəcədə bu mənfi meyllərin qarşısını ala bilir.

Vicdan azadlığının hakim olduğu respublikada 37 xristian təşkilatı qeydə alınmışdı. Lakin çoxları da qeydiyyatsız, xeyriyyə cəmiyyətləri adı altında fəaliyyət göstərirdi. Xristian missionerlərinin "Bakı Bibliya İnstitutu", "Löninq sentə" və digər tədris müəssisələri, "Həyat sözü", "Həyatverici lütf", "Yeni Apostol", "Yevangelçi xristian baptistləri", "Yeddinci günün şahidləri" və başqa icmalar təşkil edilmişdi. Bakıda "Krişna şüuru"nu yayan icma fəaliyyət göstərirdi. Yüz minlərlə nüsxə, o cümlədən Azərbaycan dilində pulsuz dini ədəbiyyat yayılırdı.

Missionerlər çox vaxt Azərbaycan Konstitusiyasını pozur, zorakı tədbirlərə əl atır, fırıldaqçılıq edir, orduda, qaçqın və köçkünlərin məskunlaşdığı yerlərdə, xüsusən çadır şəhərciklərində, azsaylı xalqlar arasında təbliğat işi aparır, islam ənənələrini təhqir edirdi.

Qeyri-islam dini icmaların zorakı, təhqiredici əməlləri islam təəssübkeşləri arasında əks reaksiya doğururdu. 1990-cı illərin ortalarında "Ceyşüllah" (Allah Ordusu təşkilatı) aşkar edilib zərərsizləşdirilmişdi. Prezident Heydər Əliyevin 1997-ci il 8 yanvar tarixli xüsusi Sərəncamı ilə Azərbaycanda xarici dini missionerlərin pozuculuq fəaliyyəti qadağan edildi.

Humanist islam dəyərlərinə sadiq olan dini icmalar, Qafqaz Müsəlmanları Ruhani İdarəsi müxtəlif dünyagörüşlərinə, dinlərə mənsub insanlar arasında qarşılıqlı tolerant yaranması işində, dindarlar tərəfindən dövlətçiliyin və müstəqilliyin müdafiə olunmasında fəal mövqe tuturdular. 1995-ci ildə "Avrasiya İslam Şurası" təşkil edilmişdi. 1997-ci ildə təbliğat vasitələri ilə islam

dəyərlərini qoruyub saxlamaq, missionerlərin pozucu fəaliyyətinə qarşı mübarizə aparmaq məqsədilə Qafqaz Müsəlmanları Ruhani İdarəsində tanınmış din və elm xadimlərinin "Elmi-Dini Məsləhət Şurası" yaradılmışdı. 2001-ci il iyunun 21-də "Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi" təsis edilmişdi.

Azərbaycan əhalinin həyat tərzinə bəşər mədəniyyətinin ən yüksək dəyərləri ilə yanaşı, xalqın mənəviyyatına, dininə yad olan cəhətlər də təsir göstərirdi. Çoxlu kazino, gecə barı, oyun totalizatoru peyda olmuşdu. Bəzi gecə klublarında əyləncələr ifrat dərəcəyə çataraq, xalqın mənəviyyatına zidd forma alır, gənclərin əxlaqını pozurdu. "Sarı mətbuat", "bulvar ədəbiyyatı" insanlar arasında mənəvi pozuculuq işləri aparırdı. Prezident Heydər Əliyev 1998-ci ilin yanvarında xalqın mentalitetinə zidd müəssisələrin ləğv edilməsi haqqında Sərəncam verdi. Prezident 2001-ci il avqustun 13-də verdiyi bəyanatda "əxlaqsızlıq biznesi"nə, "harınlamış zənginlər"in alçaq hərəkətlərinə qarşı qanun çərçivəsində mübarizəni gücləndirmək üçün xalqın bütün sağlam mənəvi qüvvələrini səfərbər olmağa çağırdı.

Xalqda öz tarixi və mədəniyyəti üçün qürur hissinin inkişaf etdirilməsi milli ideologiyanın mühüm qaynaqlarından idi. Xalqı özünə və başqalarına daha yaxşı tanıtmaq üçün görkəmli tarixi hadisələrin, siyasət, elm və mədəniyyət xadimlərinin yubileyləri geniş qeyd edilirdi.

1996-cı ildə Füzulinin 500 illik yubileyi təntənə ilə qeyd olundu. Bakıya xarici ölkələrdən ədəbiyyatşünas, dilşünas alimlər, yazıçılar gəlmişdi. 1998-ci ildə teatrın, 2000-ci ildə mətbuatın 125 illiyi, 2001-ci ildə dünya şöhrətli alim və mütəfəkkir Nəsirəddin Tusinin yubileyi, 2002-ci ildə Bakı Bələdiyyə Teatrının 10 illiyi geniş qeyd olundu. Görkəmli dövlət xadimlərinin, alim və yazıçıların yubileylərinin qeyd olunması ənənəyə çevrilmişdi. Bəxtiyar Vahabzadə, Xəlil Rza (Ulutürk), Məmməd Araz, Mirvarid Dilbazi, rəssam Mikayıl Abdullayev, heykəltəraş Ömər Eldarov, alim Azad Mirzəcanzadə, xalq artistləri Lütfiyar İmanov, Əminə Dilbazi, bəstəkar Tofiq Quliyev ölkənin ən yüksək

mükafatı – "İstiqlal" ordeni ilə təltif edildilər. Onlarla görkəmli alim, yazıçı, artist Şöhrət ordeni ilə təltif olundu. ABŞ-da yaşayan dünya şöhrətli alim Lütfizadə, Rusiyada yaşayan, uzun illər SSRİ-də pilotlu kosmik uçuşlara rəhbərlik edən Dövlət Komissiyasının sədri olmuş general, AMEA-nın fəxri akademiki Kərim Kərimov kimi görkəmli azərbaycanlıların xalqa tanıdılması üçün təbliğat işləri aparılırdı. 2002-ci ilin oktyabrında İran rəssamı, azərbaycanlı Vədud Müəzzinin Bakıda düzənlənmiş fərdi sərgisi ictimaiyyətin böyük marağına səbəb olmuşdu.

Azərbaycan xalqı dünya şöhrətli alim Landaunun, musiqiçi Rostropoviçin, təyyarəçi-kosmonavt Musa Manarovun bakılı olması ilə fəxr edirdilər.

Paytaxtda 600-dən çox küçəyə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adı verilmişdi.

1995-ci ilin mayında İkinci dünya müharibəsində faşizm üzərində Azərbaycanın, xüsusən onun neftinin həlledici rol oynadığı qələbənin 50 illik yubileyi geniş qeyd edildi.

1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi, 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illiyi yüksək səviyyədə keçirildi.

Hər il 28 May - Respublika Günü (1992-ci ildən), 15 İyun - Qurtuluş Günü (1997-ci ildən), 26 İyun - Silahlı Qüvvələr Günü (1997-ci ildən), 18 Oktyabr - Dövlət Müstəqilliyi Günü (1992-ci ildən), 12 Noyabr - Konstitusiya Günü (1996-cı ildən), 17 Noyabr-Milli Dirçəliş Günü (1992-ci ildən), 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü (1990-cı ildən) bayram kimi qeyd olunur. 20 Yanvar - Matəm Günü Bakıdakı və başqa şəhərlərdəki Şəhidlər xiyabanlarını yüz minlərlə insan ziyarət edir. 1997-ci ildən Xocalıda azərbaycanlıların soyqırımı qurbanları xatirəsinə ehtiram əlaməti olaraq fevralın 26-da saat 17-də Sükut dəqiqəsi elan olunmuşdu.

Xalqın mənəvi gücünün artmasına erməni-azərbaycanlı münaqişəsi haqqında həqiqətlərin öyrənilməsi mühüm təsir göstərirdi. Ermənilərin Azərbaycan torpaqlarını ələ keçirmək üçün

azərbaycanlılara qarşı apardıqları siyasətin mahiyyətinin açılmasına xüsusi diqqət yetirilirdi. Prezident Heydər Əliyev qeyd edirdi: "Xalqımız... daim bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur. Hansılar, nə vaxt əlimizdən gedibdir, niyə görə əlimizdən gedibdir". Onun "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən, tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 17 dekabr, "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanlarında son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı siyasəti ifşa olunmuşdu.

Azərbaycan Respublikasının Milli Məclisi 1994-cü il martın 29-da 20 Yanvar hadisəsinə obyektiv hüquqi-siyasi qiymət verdi.

Prezident 1998-ci il aprelin 13-də "Azərbaycan Respublikası dövlət atributlarının təbliği işini gücləndirmək haqqında" Fərman verdi.

Milli ideologiyanın formalaşması dünyada yaşayan azərbaycanlıların birliyinin daha da inkişaf etməsinə imkanlar açırdı. Dünyada 50 milyona yaxın azərbaycanlı yaşayır. Onların 35 milyonu Azərbaycan Respublikasında və İranda, 3 milyonu Türkiyədə, 1 milyondan çoxu Rusiyada, 0,5 milyonu Almaniyada, 1,5 milyonu İraqda, 600 mini ABŞ-da, 32 mini Böyük Britaniyada, 200 mini Səudiyyə Ərəbistanında, 600 mini İndoneziyada, 700 mini Gürcüstanda, 400 mini Qazaxıstanda, 250 mini Özbəkistanda, 170 mini Fransada, 15 mini Yaponiyada məskunlaşmışdı.

Dünya azərbaycanlılarının təşkilatlanma prosesi Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ildən başlanmışdı. Onların 1990 və 1997-ci illərdə İstanbulda, 1997-ci ildə Los-Ancelesdə və 1998-ci ildə Vaşinqtonda konqresləri keçirilmişdi. Dünyanın 30-dan çox ölkəsində azərbaycanlıların birləşdiyi 100-dən çox ictimai, milli-mədəni cəmiyyət, təşkilat-mərkəz, dərnək, ocaq, əncüman vardı. Azərbaycanlıların Rusiyada 40-dan çox təşkilatı mövcud idi. Yer üzərində yaşayan azərbaycanlıların koordinasiya mərkəzi Azərbaycan Prezidenti İcra Aparatı İctimai-Siyasi Şöbəsinin

"Xaricdə Yaşayan Azərbaycanlılarla İş" strukturu idi. Azərbaycanlıların xaricdəki cəmiyyətləri Azərbaycandakı "Vətən" cəmiyyəti, "Azərbaycan Dünyası" beynəlxalq mərkəzi, "Soydaş Assosiasiyası", "Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi" və başqa ictimai-siyasi təşkilatlarla əlaqə saxlayırdılar. Onlar Azərbaycan mədəniyyətinin xarici ölkələrdə tanınmasında mühüm rol oynayırdılar. Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkil etdikləri onlarla təşkilat, o cümlədən Madriddə "Azərbaycan Dostları", Stokholmda "Azərbaycan Mədəniyyət Mərkəzi", Malmödə "Azərbaycan Mədəniyyət Əncümanı", Kölndə "Azərbaycan Mədəniyyət Mərkəzi", Torontoda "Azərbaycan Mərkəzi", habelə İngiltərədə "Aydınlıq", Belçikada "Azərbaycan", "Qürbət", İsveçdə "Azərbaycan", Almaniyada "Ana dili", "Savalan", "Qaynarca", Türkiyədə "Xəzər", "Azərbaycan türkləri", İspaniyada "Dədə Qorqud", İraqda "Yurd", ABŞ-da "Azərbaycan" qəzetləri, İsveçdə "Araz" jurnalı, "Azərbaycanın səsi" kimi müxtəlif teleradio proqramları bu sahədə xüsusilə fərqlənirdilər. Lakin xaricdə yaşayan azərbaycanlılar vətəndaşı olduqları ölkələrdə Azərbaycanın maraqlarını daha təsirli müdafiə etmək üçün birləşib diaspor, lobbi təşkil edə bilmirdilər.

Prezident Heydər Əliyevin 2001-ci il mayın 23-də Dünya Azərbaycanlılarının I qurultayının keçrilməsi haqqında Sərəncamı ilə əlaqədar ciddi təşkilatçılıq işlərinə başlanıldı. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçrildi. Qurultayda 37 ölkədən nümayəndələr iştirak edirdi. Xarici ölkələrdən 560-dan çox nümayəndə və qonaq gəlmişdi. Nümayəndələrin təşkil etdikləri komissiyalar tərəfindən hazırlanmış sənədlər əsasında qurultayda qətnamə, Bütün Dünya Azərbaycanlılarına Müraciət, Ermənistan- Azərbaycan Dağlıq Qarabağ problemi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət rəhbərlərinə və parlamentlərinə, Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevə, habelə 2001-ci il sentyabrın 11-də ABŞ-da törədilmiş qanlı terror hadisəsi ilə bağlı Amerika xalqına

müraciətlər qəbul edildi. Qurultayda "Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası" və onun idarə heyəti (sədri AMEA-nın prezidenti, akademik Mahmud Kərimov) seçildi. Dünya Azərbaycanlılarının I qurultayının böyük tarixi əhəmiyyəti oldu. O, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların Vətənin mənafeyi naminə qüvvələri səfərbər etmək vasitələrini müəyyənləşdirdi, əlaqələrin möhkəmlənməsi və səmərəli olması üçün imkanlar yaratdı.

Əlaqələndirmə Şurasının köməyi ilə 150 ölkədə nümayəndəlik yaradıldı. 2002-ci ildə "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi" təşkil edildi. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmışdır.

Türkdilli xalqların mənəvi birliyini möhkəmləndirmək, mədəniyyətini qarşılıqlı şəkildə inkişaf etdirmək, zənginləşdirmək və təbliğ etmək məqsədilə 1993-cü ilin əvvəllərində TÜRKSOY (Türk Kültür və Sanatları Ortak Yönetimi) fəaliyyətə başladı. 1996-cı ildə aralarında bağlanan müqaviləyə əsasən YUNESKO TÜRKSOY-u tanıdı və dəstəkləməyə başladı. Xalqa aşılanırdı ki, o, böyük türk mədəniyyətinin varisidir. Türk dövlət və toplumlarının dostluq və iş birliyinə, xüsusən mədəni əlaqələrin inkişafına həsr olunmuş toplantılar keçirilirdi.

1996-cı ilin oktyabrında "Türkiyə-Azərbaycan Dostluq Vəqfi" təsis edildi. 2001-ci ilin mart ayında Prezident Heydər Əliyevin Fərmanı ilə "Azərbaycan Atatürk Mərkəzi" yaradıldı.

Türkiyə-Azərbaycan dostluğu, türk əsgərlərinin 1918-1919-cu illərdə Azərbaycan xalqına, onun silahlı qüvvələrinə yadelli işğalçılara qarşı mübarizədə misilsiz köməyi, siyasi, iqtisadi və mədəni əməkdaşlıq faktları geniş təbliğ olunurdu. Türk mədəniyyəti sahəsində birgə araşdırmalar aparılırdı.

Türk əsgərlərinin məzarları abadlaşdırılmış, ziyarətgaha çevrilmişdi. 2000-ci ilin aprel ayında Bakıda türk əsgəri şərəfinə

ucaldılmış möhtəşəm abidə açılmışdı.

2001-ci il avqustun 24-də bir milyona qədər insan Bakının Azadlıq meydanında Türkiyə Hərbi Hava Qüvvələrinin "Türk Ulduzları" eskadrilyasının (dünyada 10 belə eskadrilya vardır) nümunələrini böyük sevinclə qarşıladı.

1996-cı ilin noyabr ayında Bakıda Türk dünyası yazıçılarının III qurultayı keçirildi.

Türkdilli xalqlar birlikdə "Manas dastanı"nın 1000 illiyini, böyük qazax şairi və filosofu Abayın 150 illiyini, Özbəkistanın böyük dövlət xadimi Əmir Teymurun 660 illiyini, Füzulinin 500 illiyini, Şeyx Şamilin 200 illiyini geniş qeyd etdilər. 1997-ci ilin aprel ayında prezident Heydər Əliyev Azərbaycan xalqının milli tarix və mədəniyyət qaynaqlarından biri olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin geniş qeyd edilməsi haqqında Fərman verdi. Yubiley Türk dünyasında böyük təntənə ilə qeyd edildi.

Müstəqillik dövründə respublikada yaşayan azsaylı xalqların mədəni tərəqqisinə diqqət daha da artırıldı. 1992-ci il sentyabrın 16-da "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" Fərman verildi. Milli Azlıqlarla İş üzrə Şura təşkil olundu. Azərbaycan Mədəniyyət Fondu yanında azsaylı xalqların mədəniyyətinin qorunması və inkişafı üzrə Elmi Şura yaradıldı. Ləzgi, talış, kürd, udin, saxur, slavyan, yəhudi və başqa xalqların mədəniyyət mərkəzləri, cəmiyyətləri fəaliyyətini xeyli genişləndirdi. Ümumtəhsil məktəblərin aşağı siniflərində bu xalqların dili tədris olunmağa başladı. 1993-cü ildə Qusarda Dövlət Ləzgi Teatrı təşkil olundu. "Azərnəşr"də azsaylı xalqlar redaksiyası yaradıldı. "Udin dili", "Ləzgi dili" və başqa dərsliklər, əlifbalar çap olundu. "Talışı-sado" (Talışın səsi), "Samur", "Vestnik" və başqa qəzetlər çap olunmağa başlandı.

1989-cu ildə Azərbaycan Yazıçılar Birliyi yanında təşkil edilmiş Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi dünya

ədəbiyyatı xəzinəsindən ən gözəl nümunələrin Azərbaycan dilinə tərcümə edilməsində mühüm rol oynayırdı. O.Süleymenov, Ç.Aytmatov, M.Svetayeva, F.Kafka, V.Şukşin, Q.Markes, U.Folkner, B.Yıldız və digər dünya şöhrətli ədiblərin əsərləri Azərbaycan dilində nəşr olunmuşdu. Azərbaycan ədəbiyyatından ingilis, alman, rus, fransız, ərəb, fars dillərinə çoxlu tərcümə edilmişdi. 1996-cı ildən "Dünya Ədəbiyyatı Korifeyləri" seriyası çap olunmağa başlanmışdı.

Azərbaycanda Dünya Kinosunun 100 illiyi Fondu və Respublika Kinematoqrafçılar İttifaqı MDB və Baltikyanı ölkələrin kinematoqrafçıları konfederasiyalarının dəstəyi ilə ənənəvi Bakı "Şərq-Qərb" kinofestivalını təşkil edirdilər.

1991-ci ilin oktyabrında Moskvada Nizami Gəncəvinin abidəsi açıldı. Moskva və Sankt-Peterburqda Nizaminin 850 illiyi təntənə ilə qeyd edilmişdi. 1994-cü ildə Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Füzulinin 500 illiyinə həsr olunmuş təntənəli gecə, Polad Bülbüloğlunun 50 illik yubileyi münasibətilə böyük konsert təşkil olunmuşdu.

1996, 1999-cu illərin aprel, 2000-ci ilin mart və 2001, 2002-ci illərin aprel aylarında Rusiya Federasiyasında Azərbaycan mədəniyyəti günləri keçrildi. 1999-cu ilin may ayında Moskvada Azərbaycan kinosu günləri təşkil olundu.

1997-ci il martın 31-dən aprelin 7-dək Azərbaycanda Rusiya Federasiyası mədəniyyəti günləri keçrildi. 2000-ci ilin iyun ayında Azərbaycanda Rusiya Federasiyası və Moskva şəhəri mədəniyyəti günləri, 2002-ci ilin aprel ayında Rusiya Federasiyası mədəniyyəti günləri təşkil olundu. 2002-ci ilin aprelində İncəsənət Muzeyində açılmış vernisajda "XVIII-XX əsr Rusiya incəsənəti" mövzusunda Rusiya muzey və qalereyalarının 3000-dək nadir eksponatı nümayiş etdirilmişdi.

2001-ci ilin oktyabrında Bakının ən gözəl guşələrindən birində rus şairi A.S. Puşkinin möhtəşəm abidəsi (heykəltəraş Yuri Orexov) açıldı. Həmin il Bakı Slavyan Universitetində "Ukrayna Mədəniyyət Mərkəzi" təşkil edildi, "Rusiya Mədəniyyət Mərkəzi"

yaradılmağa başlandı.

Azərbaycanın başqa ölkələrlə də mədəni əlaqələri inkişaf edirdi. 1992-ci ilin yayında "Azərbaycan-Almaniya Cəmiyyəti" təsis edilmiş, 1995-ci ilin baharında Almaniyada Azərbaycan, Azərbaycanda isə Almaniya fırça ustalarının əsərlərindən ibarət sərgilər təşkil olunmuşdu. 1996-cı ilin sonlarında Azərbaycan-İran mədəni əməkdaşlığı haqqında müqavilə imzalandı. Həmin il Azərbaycan-İsveç Dostluq Cəmiyyəti yaradıldı. 1998-ci ilin fevral ayında Azərbaycan-Dağıstan Dostluq Cəmiyyəti təsis edildi. 2001-ci ilin may ayında Belçika-Azərbaycan Dostluq Cəmiyyəti yaradıldı. 2002-ci ilin aprel ayında Azərbaycan-Avstriya Mədəniyyət Mərkəzi tərəfindən Avstriyada təşkil edilmiş Azərbaycan mədəniyyəti günləri yüksək səviyyədə keçrilmişdi. Avstriya və Azərbaycan kitabxanaları arasında əməkdaşlıq haqqında müqavilə imzalanmışdı. 2002-ci ilin yayında Avstriya və Azərbaycanın mədəniyyət xadimləri birgə layihə əsasında ("Uşaq səsləri" Beynəlxalq festivalı çərçivəsində) Avstriya bəstəkarı Ulf-Diter Soykanın Azərbaycan nağılının motivləri əsasında yazdığı "Leylanın arzusu və ya narazı şahzadə xanım" uşaq operası Vyanada Azərbaycan və alman dillərində tamaşaya qoyuldu. 2002-ci ilin sentyabr ayında Bakıda Avstriya mədəniyyəti günləri keçrildi. Noyabrda Tehranda Birinci Beynəlxalq Azərbaycan Musiqisi seminarı keçirildi.

2002-ci il oktyabrın 1-5-də Bakıda Azərbaycan, Skandinaviya və Cənubi Amerika ölkələri musiqiçilərinin iştirak etdiyi I Beynəlxalq Milli Musiqi Festivalı keçrildi. "Kitabi-Dədə Qorqud" rumın dilinə tərcümə edilib Buxarestdə çap olundu (professor Y. Nezvət tərcümə edib).

2002-ci ilin aprelində "Azərbaycanda Yaponiya baharı" mövzusunda sərgi düzənlənmişdir.

Bakı Təbriz və Paris şəhərləri ilə qardaşlaşmışdı. Sumqayıt şəhəri ilə Almaniyanın Lüdviqshafen şəhəri arasında hələ 70-ci illərin ortalarından başlanmış dostluq və əməkdaşlıq əlaqələri bərpa olunmuşdu. 1997-ci ildə Lüdviqshafenin mərkəzi

küçələrindən birinə "Sumqayıt" adı verilmişdi. Sumqayıtda qardaş şəhərin şərəfinə park açılmışdı.

ABŞ-Azərbaycan partnyorluq münasibətlərinin yaranması hələ 1972-ci ildə qardaşlaşmış Bakı və Hyuston şəhərləri arasında əlaqələrin genişlənməsinə səbəb olmuşdu. Beləliklə, Azərbaycanda Dövlət müstəqilliyinin bərpa olunması və möhkəmləndirilməsi nəticəsində insanların mənəvi aləmi, mədəni tərəqqisi inkişaf etmişdi.

Elm. Elmlər Akademiyasının Azərbaycan elm və mədəniyyətinin inkişafında rolu yüksəlməyə başladı. 90-cı illərin ortalarında təkcə Akademiya sistemində 35 elmi-tədqiqat institutu fəaliyyət göstərirdi. Yeni institutlar, o cümlədən Arxeologiya və Etnoqrafiya İnstitutu, Milli Münasibətlər İnstitutu, Əlyazmalar İnstitutu, İnsan Hüquqları İnstitutu təşkil olundu. Azərbaycan Elmlər Akademiyası MDB Elmlər Akademiyaları Beynəlxalq Assosiasiyası yaradılmasının təşəbbüsçüsü olmuş və bu təşkilata üzv qəbul edilmişdi. Təşkilat postsovet respublikaları alimlərinin keçmiş əlaqələrinin bərpa olunmasına, yeni elmi əlaqələrin yaranmasına imkanlar açmışdı. Türkdilli dövlətlərin Elmlər Akademiyaları arasında əlaqələr yaranıb inkişaf etməyə başladı. Bu işdə Türkiyə Elmlər Akademiyasının təklifi və Avropa Birliyi nümayəndəsinin iştirakı ilə 2000-ci ildə Ankarada keçrilmiş Türkdilli dövlətlərin Elmlər Akademiyalarının ilk konfransı mühüm addım oldu. Konfransda Azərbaycan Elmlər Akademiyasını akademik C. Quliyev təmsil edirdi. O, Azərbaycan Elmlər Akademiyasının inkişaf yolları, perspektivləri və problemlərinə dair məruzələrlə çıxış etmişdi.

2000-ci ilin sonlarında Azərbaycan Elmlər Akademiyasında 8226 işçi, o cümlədən 3446 elmi işçi çalışırdı. Akademiyanın 31 həqiqi və 48 müxbir üzvü vardı. Elmin müxtəlif sahələri üzrə 466 elmlər doktoru və 1965 elmlər namizədi elmi-tədqiqat işləri aparırdı. 323 nəfər aspiranturada təhsil alırdı. 116 problem üzrə 382 mövzu işlənirdi.

1991-2001-ci illərdə Elmlər Akademiyası müəssisələrində

1644 mühüm nəticə alınmış, 504 iş istehsalata tətbiq olunmuş, 20 minə qədər məqalə çapdan çıxmış, 200-ə qədər doktorluq, 650-yə qədər namizədlik dissertasiyası müdafiə edilmişdi.

Prezidentin 2001-ci il 15 may tarixli Fərmanına əsasən Azərbaycan Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" statusu verildi. Prezidentin Sərəncamı ilə Akademiya üzvlərinin ümumi sayı 200 nəfər müəyyən edildi. AMEA-nın həqiqi və müxbir üzvlərinin seçkiləri keçrilmişdir. Seçkilər nəticəsində 40 ixtisas üzrə 29 nəfər AMEA-nın həqiqi üzvü və 91 nəfər müxbir üzvü seçilmişdir. 2002-ci ilin əvvəllərində AMEA-da 60 akademik, 175 müxbir üzv, 3899 elmi işçi, 451 elmlər doktoru və 1924 elmlər namizədi çalışırdı. Elmi-tədqiqat müəssisələrinin strukturu təkmilləşdirildi. 2002-ci ilin ortalarında bir sıra elmi-tədqiqat institutları birləşdirildi. Naxçıvan Muxtar Respublikasında mövcud elmi potensialdan səmərəli istifadə etmək, Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şərait yaratmaq məqsədilə Prezident Heydər Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" 7 avqust 2002-ci il tarixli Sərəncamına əsasən AMEA-nın Naxçıvan Bölməsi yaradıldı. Bölmədə Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat, Təbii Ehtiyatlar, Bioresurslar institutları, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası fəaliyyət göstərirdi. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında" 2003-cü il 4 yanvar tarixli Fərmanı ilə təsbit edildi ki, Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasında elmin inkişafını təşkil edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, Azərbaycan Respublikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilatıdır.

Elmi və elmi pedaqoji kadrlar hazırlanması işini nizama salmaq üçün 1992-ci il aprelin 23-də Azərbaycan Ali Attestasiya Komissiyası (1994-cü ildən Azərbaycan Respublikasının

Prezidenti yanında Ali Attestasiya Komissiyası) təşkil edildi. Respublikanın elm və təhsil müəssisələrində 140-a yaxın ixtisas üzrə hər il 70-dək doktorluq və namizədlik dissertasiyasının müdafiəsi üçün İxtisaslaşdırılmış Şura fəaliyyət göstərir. Bakı ilə yanaşı Naxçıvan, Gəncə, Lənkəran kimi şəhərlərin ali təhsil müəssisələrində də belə şuralar yaradıldı.

2000-ci ildə respublikanın 137 elmi-tədqiqat müəssisəsində (95-i elmi-tədqiqat institutu idi) 26,4 minə qədər işçi (15,8 min elmi-texniki fəaliyyətlə məşğul olan işçi), o cümlədən 1512 elmlər doktoru və 8380 elmlər namizədi vardı. Bununla yanaşı, 10,6 minə qədər pedaqoji işçi, o cümlədən 834 elmlər doktoru və 5,4 min elmlər namizədi dərs deməklə bərabər elmi-texniki fəaliyyətlə məşğul olurdu.

Azərbaycan elminin maddi bazasının keyfiyyətcə yaxşılaşması yolunda mühüm addımlar atılmağa başlanmışdı. Elmlər Akademiyasında "Bakı Qovşağı"adlı Beynəlxalq Kompüter Mərkəzi təşkil olunmuşdu. Yeni elektron rabitə vasitələri azərbaycanlı alimlərə Transavropa tədqiqat və yaradıcılıq şəbəkəsi ilə əlaqə yaratmağa imkan verirdi. Dünya ictimaiyyəti azərbaycanlı alimlərin əsərləri, elmi xidmətləri ilə daha yaxından tanış olmağa başlamışdı. Elmi əlaqələr xeyli genişlənmişdi. Xarici elmi mərkəzlərlə ikitərəfli müqavilələr imzalanırdı. BMT İnkişaf Proqramı ilə əməkdaşlığa mühüm yer verilirdi. 1996-cı ildə Bakıda Amerika mesenatı Corc Sorosun yaratdığı "Soros" Fondunun İnformasiya Mərkəzi fəaliyyətə başladı. Bu fond Respublika Elmlər Akademiyasının internet ilə əlaqə yaratmasına kömək etdi, elmin inkişafı üçün 93 qrant ayırdı.

Respublikada ictimai elmi birliklər, müxtəlif elmi fondlar, mərkəzlər, klublar təşkil olunmuşdu. Onlar müstəqil elmi-tədqiqat işləri aparır, xarici ölkə alimləri ilə əlaqələr yaradırdı.

Azərbaycan Milli Aerokosmik Agentliyi Xüsusi Kosmik Cihazqayırma Konstruktor Bürosunda Rusiya Kosmik Tədqiqatlar İnstitutunun sifarişi ilə yerin maqnit sahəsinə günəş küləkləri təsirini öyrənən nadir aerokosmik cihaz yaradılmışdı.

Azərbaycan kosmosdan elmi, iqtisadi, müdafiə təhlükəsizlik, informasiya məqsədləri üçün fəzaya Azərkosmos (2010), Azərspace-1 (2013), Azərspace-2 (2018) peykləri buraxmışdır. Azərbaycanlı astronomların tədqiqatları dünyada yüksək qiymətləndirilirdi.AZT-8 və Üfüqi Günəş teleskopları üçün yeni avtomatlaşdırılmış müşahidə sistemləri yaradılmışdı. Beynəlxalq Astronomlar İttifaqının qərarı ilə astroidlərdən birinə "Hüseyn Cavid" adı verilmişdi. AMEA-nın müxbir üzvü Əyyub Quliyev Günəş sistemində hələ kəşf edilməmiş azı üç planetin olduğunu bildirmişdi. Azərbaycanlı alimin proqnozu özünü doğrultmağa başlamışdı. Neptun-Pluton sistemində yeni səma cismi aşkar olunmuşdu.

Azərbaycan geofizikləri Aşağı Kür çökəkliyində beş strukturdan ibarət tektonik zona kəşf etmiş və onu Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması şərəfinə "Qayıdış zolağı" adlandırmışdılar. "Şahdəniz" yatağında böyük qaz ehtiyatları, yeni qızıl yataqları kəşf olundu. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Aşqarlar Kimyası İnstitutunun apardığı elmi işlər ABŞ-ın "Qızıl Kateqoriya" mükafatına layiq görülmüşdü.

Ölkənin ali elmi təşkilatının – Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) təsis edilməsinin 80 illiyi ilə əlaqədar 2025-ci il 18 mart tarixində Prezident Sərəncam imzalamışdır.

Ədəbiyyat və incəsənət. Müstəqilliyin bərpa edilməsi ilə əlaqədar olaraq Azərbaycan ədəbiyyatı xəzinəsi yeni əsərlərlə zənginləşdi. Müstəqillik uğrunda mübarizə və sonrakı illərdə ədəbiyyatda Bəxtiyar Vahabzadə, Xəlil Rza (Ulutürk) və Məmməd Araz zirvələri daha aydın görünürdü. Xəlil Rzanın "Davam edir 37" şeirlər toplusu, Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması, "Göytürklər" pyesi böyük poetik və tərbiyəvi təsir gücünə malik idi.

Qabil, Nəbi Xəzri, Fikrət Qoca, İsa İsmayılzadə, Söhrab Tahir, Cabir Novruz, Nəriman Həsənzadə, Vaqif Səmədoğlu, Ramiz Rövşən, Fikrət Sadığın şeirləri dərin məzmunu və lirizmi ilə fərqlənirdi.

Ədəbiyyata 90-cı illərin birinci yarısındakı siyasi qeyri-sabitlik, müharibə, yeni iqtisadi münasibətlərə keçid, hakimiyyət uğrunda mübarizə şəraitində cəmiyyətdə, insanların mənəviyyatında baş verən dəyişiklikləri əks etdirən yeni mövzularda kitablar çıxmışdı. İsmayıl Şıxlının "Ölən dünyam", "Sapı özümüzdəndir", Bəxtiyar Vahabzadənin "Hara gedir bu dünya", Elçinin "Ah, Paris, Paris!", İsa Hüseynovun "Cəhənnəm", Sabir Rüstəmxanlının "Ömür kitabı", Nəriman Həsənzadənin "Pompeyin Qafqaza hücumu", Vidadi Babanlının "Ana intiqamı", Afaq Məsudun, Vaqif Nəsibin və başqalarının əsərləri bu dövrün ədəbi hadisələri idi.

Detektiv roman ustası Çingiz Abdullayevin əsərləri bütün dünyada böyük maraqla qarşılanmışdı.

Ənvər Məmmədxanlı, Əzizə Cəfərzadə, Aqil Abbasın tarixi romanları xalqın qəhrəman, ibrətamiz keçmişini işıqlandırır, böyük tərbiyəvi əhəmiyyət kəsb edirdi. İsi Məlikzadənin "Qırmızı şeytan", Aqşin Babayevin "Dünyanın axırı", Arif Abdullazadənin "Qanlı yaddaş", Əli Əmirlinin "Meydan", Məmməd Orucun "Köçürmə" əsərləri xalqın yaxın tarixinin realist səhnələrini əks etdirirdi.

Ədəbiyyatın, filologiyanın inkişafına diqqəti artırmaq üçün Prezident Heydər Əliyev 1996-cı ildə Füzuli adına Beynəlxalq mükafat təsis etdi. 1997-ci ilin noyabr ayında "Azərbaycan yazıçılarına dövlət qayğısını artırmaq haqqında" Fərman verdi. "Azərbaycan", "Qobustan", "Ulduz", "Literaturnı Azerbaydjan" jurnallarının, "Ədəbiyyat" qəzetinin nəşri dövlət hesabına həyata keçirilməyə başlandı.

1997-ci ilin noyabrında Azərbaycan yazıçılarının X qurultayı keçirildi. Qurultay ərəfəsində Prezident Heydər Əliyev qocaman və gənc yazıçılarla görüşlər keçirdi. Bu görüşlərdə ədəbiyyat qarşısında duran vəzifələr ətraflı müzakirə edildi. Noyabrın 10-da prezident "Azərbaycan Respublikasında ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında" Fərman imzaladı.

Azərbaycan ədəbiyyatçıları başqa xalqların ədəbi simaları ilə əlaqə saxlayırdı. 25 aprel 2016-cı ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda, Azərbaycan xalqının dostu, tanınmış şair,

yazıçı, ədəbiyyatşünas, diplomat Qazaxıstanın Xalq yazıçısı Oljas Süleymenova fəxri doktor adı verilməsinə həsr edilmiş mərasim keçrilmişdir.

Respublikada "Bakı Bələdiyyə Teatrı", "Tənqid-Təbliğ Teatrı", "Milli Dastan Teatrı", "Yuğ" teatrı, "Pantomim Teatrı" kimi yeni teatrlar təşkil olunmuşdu. 2000-ci ildə 26 dövlət teatrı fəaliyyət göstərirdi. 1996-cı ildə Azərbaycan Milli Dram Teatrı təmirdən sonra qapılarını yenidən tamaşaçıların üzünə açmışdı. 1995-2000-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının binasında əsaslı təmir işləri aparıldı.

Fərahim Fərzəlibəyov, Azərpaşa Nemətov, Hüseynağa Atakişiyev kimi istedadlı rejissorlar Azərbaycan rejissorluq məktəbinin ən yaxşı ənənələrini davam və inkişaf etdirirdilər.

Teatrlar xalqın qəhrəmanlıq tarixindən, müasir həyatından bəhs edən onlarla əsərə səhnə həyatı verdilər. Opera və Balet Teatrında 1997-ci ildə Üzeyir Hacıbəyovun "Koroğlu" operası, "Arşın mal alan" operettası, Milli Dram Teatrında Səməd Vurğunun "Fərhad və Şirin" pyesi, 1998-ci ildə Musiqili Komediya Teatrında Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" operettası, habelə onlarla başqa klassik əsər yenidən səhnə həyatı yaşamağa başladı. 2002-ci ildə Azərbaycan Milli Dram Teatrı V.Şekspirin "Hamlet" faciəsini yeni quruluşda tamaşaya qoydu.

1997-ci ildə ölkəmizdə 20, 2006-cı ildə isə 28 dövlət teatrı var idi. Azərbaycanın "Bakılı oğlanlar" klubu 2000-ci ilin noyabr ayında Moskvada "Şən və hazırcavablar" klublarının beynəlxalq yarışında XX əsrin ən yaxşı komandası adına və "XX əsr Çempionları Kuboku"na layiq görülmüşdü.

Musiqi yeni əsərlərlə zənginləşirdi. 1991-ci ildə görkəmli bəstəkar Fikrət Əmirovun "Nizami" baletinin tamaşaya qoyulması respublikanın mədəni həyatında əlamətdar hadisə idi. 1996-cı ildə Süleyman Ələsgərovun "Solğun çiçəklər" operası tamaşaya qoyuldu. Dünya şöhrətli bəstəkar Arif Məlikov VII simfoniyasını yazdı. Bu simfoniyanın səslənməsi üçün Türkiyədə İhsan Doğramacı tərəfindən xüsusi konsert salonu inşa olunmuşdu.

Bəstəkar Cövdət Hacıyevin dövrün dramatizmini, xalqın ümid və inamını musiqi dili ilə əks etdirən "Onu zaman seçib" adlı VIII simfoniyası, bəstəkar Sərdar Cəfərovun "Böyük vətəndaş haqqında" odası Heydər Əliyevə həsr olunmuşdu. 1997-ci ildə bəstəkar Vasif Adıgözəlov "Qarabağ" oratoriyası əsərini yazmışdı. Onun "Çanaqqala" oratoriyası respublikanın musiqi həyatında əlamətdar hadisə idi.

Musiqidə hərbi mövzu xeyli inkişaf etmişdi. Süleyman Ələsgərovun "Əsgər marşı", Ş.Musaoğlunun əsgər mahnıları xalqda qələbəyə inam hissi oyadırdı. Cavanşir Quliyevin "Əsgər marşı" dillər əzbəri olmuşdu.

Musiqi ifaçılığı sənəti də inkişaf etməkdə və geniş təbliğ olunmaqda idi. Muğam, xalq mahnıları və təsnif ifaçılarının ənənəvi müsabiqələri keçrilirdi. 1997-ci ilin noyabrında Bakıda vokalçıların Bülbül adına Birinci Beynəlxalq Müsabiqəsi keçirildi. Münsiflər heyətinə dünyanın adlı-sanlı musiqi xadimləri daxil olan bu nüfuzlu müsabiqədə Azərbaycanın və xarici ölkələrin gənc ifaçıları iştirak edirdilər.

İstedadlı gənc ifaçıların təqdimat konsertləri təşkil olunurdu. 1992-ci ildə Azərbaycan Dövlət Uşaq Filarmoniyası yaradılmışdı. Prezident tərəfindən 1996-cı il iyunun 22-də "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında", 1997-ci il sentyabrın 13-də "Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında" Fərmanlar verildi.

Fidan və Xuraman Qasımova bacılarının ifaçılıq sənəti yeni zirvələr fəth etmişdi.

Respublikanın musiqi kollektivləri, ayrı-ayrı ifaçılar tez-tez xarici ölkələrə qastrola dəvət olunur, Azərbaycan musiqisini dünyada təbliğ edirdilər. Müğənnilərdən Zeynəb Xanlarova, Alim Qasımov, Səkinə İsmayılova, caz vokal ustası və pianoçu Əzizə Mustafazadə və onlarla başqa sənətçinin ABŞ, Kanada, Fransa, İngiltərə, Almaniya və başqa ölkələrdə çıxışları böyük maraqla qarşılanırdı. 2000-ci ildə Alim Qasımov Avropada diskləri ən çox satılan 5 ifaçıdan biri idi. Lütfiyar İmanov, Xuraman Qasımova kimi

görkəmli vokal ustaları, onlarla başqa musiqiçi Türkiyə musiqi təhsili müəssisələrində dərs deməyə dəvət olunurdular.

Dövlət, teatr və musiqi kollektivlərinin yaşamasına, inkişaf etməsinə qayğı göstərirdi. Prezident Heydər Əliyev 1997-ci il dekabrın 2-də "Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin fəaliyyətini yaxşılaşdırmaq tədbirləri haqqında", 1999-cu il dekabrın 6-da "Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası işçilərinin sosial təminatının yaxşılaşdırılması haqqında", 2000-ci il iyunun 2-də "Azərbaycan Dövlət Xor Kapellasının sosial təminatını yaxşılaşdırmaq haqqında", 2001-ci il oktyabrın 15-də "Azərbaycan Dövlət Rəqs Ansamblı işçilərinin sosial təminatını yaxşılaşdırmaq haqqında" Fərmanlar verdi.

Müstəqil kinostudiyalar təşkil olunmuşdu. "Azərbaycanfilm" kinostudiyası 1994-cü ildən yenidən dövlət büdcəsindən maliyyələşdirilməyə başlanmış, Azərbaycanda istehsal olunmuş filmlərin toplanması, bərpası və səmərəli istifadə olunması üçün Dövlət Kino Fondu təşkil edilmişdi.

Azərbaycan kinosunun görkəmli rejissorları sırasına Vaqif Mustafayev, Ayaz Salayev, Hüseyn Mehdiyev kimi istedadlı sənətkarlar daxil olmuşdu. Vaqif Mustafayev Avropa Televiziya və Kino Akademiyasının üzvü seçilmişdi.

Azərbaycan kinematoqrafçıları "Əhli-kef", "Fransız", "Hər şey yaxşı olacaq" (rejissor V.Mustafayev), "Yarasa" (rejissor Ayaz Salayev), "Həm ziyarət, həm ticarət", "Yerlə göy arasında" (rejissor Rasim Ocaqov), "Uçurulmuş körpü", "Özgə vaxtı" (rejissor Hüseyn Mehdiyev) kimi bir sıra yüksək dəyərli filmlər yaratmışdılar. Müharibə, erməni quldurlarının vəhşiliyi, qaçqınlıq həyatının dəhşətləri Azərbaycan kinosuna yeni mövzular gətirmişdi. "Ağ atlı oğlan" (rejissor Ə.Əbluc), "Fəryad" (rejissor C.Mirzəyev) kimi təsirli, realist kinolentlər yaradılmışdı.

Sənədli kino da xeyli inkişaf etmişdi. Müstəqillik uğrunda mübarizə, həmçinin Qarabağ müharibəsini əks etdirən yüzlərlə kino-

videolent çəkilmişdi. Müdafiə Nazirliyinin sənədli kinostudiyası da bu sahədə fəal iş görürdü.

2023-cü ilin oktybrın 18-də Bakıda Nizami kino mərkəzində Heydər Əliyev Fondunun, Mədəniyyət nazirliyinin və digər təşkilatların dəstəyi ilə Böyük Britaniyanın "Broken Pot Media" şirkətinin istehsalı olan "Oğul" sənədli filminin nümayişi keçrilmişdir ki, bu film I Qarabağ müharibəsi zamanı müstəsna qəhrəmanlıq göstərmiş Milli Qəhrəman Natiq Qasımova həsr edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasında "Ermənistan və Azərbaycanın qadağan olunmuş tarixi" filminin təqdimat mərasimi keçrildi. Filimdə tarixi Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradılma prosesi, ermənilərin azərbaycanlılrara qarşı törətdikləri qətliamlar, Ermənistan ərazisində müsəlman memarlıq abidələrinin məhv edilməsi, alban kilsələri və Azərbaycan toponimlərinin ermənilşdirilməsi geniş şəkildə əks olunub.

Heydər Əliyevin ömür yolu haqqında rejissor Vaqif Mustafayevin yaratdığı "General", "Birinci", "Moskva-Kreml", "Lider" və "Bir həsədin tarixi" sənədli filmləri Azərbaycan kino tarixində əlamətdar hadisəyə çevrildi.

"Yarasa" bədii fılmi 1996-cı ildə Fransada keçirilən Beynəlxalq kinofestivalında "Avropanın tammetrajlı ən yaxşı bədii filmi" adına, Misir Beynəlxalq kinofestivalında ən yüksək mükafata layiq görüldü. 1997-ci ildə Beynəlxalq Madrid Kinofestivalında "Özgə vaxt" filmi yüksək qiymətləndirildi, onun yaradıcıları mükafata layiq gorüldülər. Həmin il "Cavan qadın üçün kişi" filmi (rejissor Murad İbrahimbəyov) Kolumbiyanın paytaxtı Boqotada XIV Beynəlxalq kinofestivalında bürünc mükafat aldı. 2001-ci ildə Moskvada Avrasiya teleforumunda "Əsil məhəbbət haqqında" sənədli film (rejissor V.Mustafayev) üç mükafata, 2002-ci ildə "Bir həsədin tarixi" filmi (rejissor V.Mustafayev) "Qran-Pri" mükafatına layiq görüldü.

90-cı illərin əvvəllərindən respublikanın şəhər və qəsəbələri, meydanlar, parklar kommunist təbliğatına xidmət edən heykəl və

abidələrdən təmizlənirdi. Dağüstü parkda Şəhidlər Xiyabanı salındı. Prezident Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə burada şəhidlərə 21 metr hündürlüyü olan möhtəşəm bir abidə və əbədi məşəl (müəllifləri - Ö.Eldarov, E.Qasımzadə, A.Abdullayev və N.Vəliyev) qoyuldu. Paytaxtda Hüseyn Cavidin (1994-cü il, heykəltəraş Ö.Eldarov), Şah İsmayıl Xətainin (1993-cü il, heykəltəraşlar İ.Zeynalov və Z.Mehdiyev), akademik Yusif Məmmədəliyevin (1998-ci il, heykəltəraş A.Ələsgərov), Xızıda Cəfər Cabbarlının (1999-cu il, heykəltəraş C.Qaryağdı) yüksək bədii dəyərli heykəlləri ucaldıldı. 1996-cı ildə Naxçıvanda möhtəşəm Hüseyn Cavid məqbərəsi (müəlliflər - Ö.Eldarov və R.Əliyev) tikildi. 1997-ci ilin baharında görkəmli heykəltəraş Ömər Eldarov akademik Zərifə Əliyevanın xatirəsinə həsr etdiyi məşhur "Elegiya" əsərini tamamladı.

25 aprel 2016-cı ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda, Azərbaycan xalqının dostu, tanınmış şair, yazıçı, ədəbiyyatşünas, diplomat Qazaxıstanın Xalq yazıçısı Oljas Süleymenova fəxri doktor adı verilməsilə əlaqədar mərasim keçrilmişdir.

Dövlət Müstəqilliyinin bərpa olunması ilə əlaqədar Azərbaycanın dünya xalqları ilə mədəni əlaqələri genişləndi. 2022-ci ildə Bişkekdə (Qırğızıstan) Azərbaycanın dəstəyi ilə yaradılan Qırğızıstan-Azərbaycan Dostluq Parkı və Heydar Əliyev adına məktəbin açılışı iki ölkə arasında dostluğun simvoludur. 2024-cü ildə Bakıda qırğız mədəniyyəti günləri keçrilmişdi. "Manas" dastanının sədaları Xəzərin sahillərində səslənərkən, qırğız xalqının qəhrəmanlıq ruhu Azərbaycan torpaqlarına yeni nəfəs gətirmişdi. 2025-ci ilin aprelində Bişkekdə keçrilən Azərbaycan mədəniyyəti günlərinin ahəngi ilə ümumi Türk ruhu yenidən dirçəlir.

Şəhərlərimizin siması memarlıq baxımından müasirləşir və gözəlləşir. Əsrimizin əvvəllərində Bakıda Ağ şəhər, Bayraq meydanı(2007-2010), Bakı Alov Qüllələri (2007-2013), Beynəlxalq Muğam Mərkəzi (2005-2008), Heydər Əliyev Mərkəzi (2007-2012), Milli Gimnastika Arenası, Milli Olimpiya Stadionu (2011-2015),

Xalça Muzeyinin müasir binası (2008-2014), Socarın yeni binası (2010-2016), Dövlət Neft Fondunun yeni inzibati binası (2007), Bakı Su İdmanı Mərkəzi (2013-2015), Bakı Kristal Zalı (2012), Heydər Əliyev adına Beynəlxalq Hava limanı, Füzuli, Zəngilan, Laçın hava limanları tikildi.

XXI əsr Azərbaycan memarlığının əzəmətli tikililərindən biri Bakıda inşa edilmiş Heydər Əliyev Mərkəzinin binasıdır. Binanın inşasına 2007-ci ildə başlanmış və 2012-ci il mayın 10-da istifadəyə verilmişdir. Heydər Əliyev Mərkəzinin layihəsinin müəllifi, dünya şöhrətli memar xanım Zəhra Hadiddir.Bu layihəyə görə o müzeyin mükafatına layiq görülmüşdür.

2002-ci ildə ilk dəfə Şirvanşah saray Kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər Dövlət tarixi memarlıq kompleksi YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edilmişdir. Xankəndində separatçıların izləri sökülüb atılır. 2024-cü ilin martın 3-də "Artsaxı azad etmiş döyüşçülər ittifaqı"ının binası söküldü. Bu bina 2013-cü ilin martın 1-də Xankəndində Xocalı cəlladı S.Sərkisyansın hakimiyyətə gəlməsi münasibətilə açılmışdır.

Oyuncuq Dağlıq Qarabağ Respublikasının parlamentinin binası söküldü. 2025-ci ilin iyulun əvvəlində Xankəndində Azərbaycan prezidenti Konqres Mərkəzinin açılışını etdi, islam ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO-nun) Zirvə görüşü bu mərkəzdə keçrildi.

Azərbaycan rəssamlarının əsərləri dünyanın sərgi salonlarında böyük uğurla nümayiş olunurdu. 1995-ci ildə ABŞ-da, 1996-cı ildə Almaniyada Səttar Bəhlulzadənin əsərlərinin sərgisi təşkil olunmuşdu. 1996-cı ildə Parisdə dünya rəssamları sərgisində Toğrul Nərimanbəyovun, 1997-ci ildə Vaşinqton, Nyu-York və Çikaqoda Kamil Nəsibzadənin əsərləri nümayiş etdirilmişdi.

Rəssamlarımız dəyərli sənət əsərləri yaratdılar. Tahir Salahovun yaratdığı "Heydər Əliyev porterti" böyük marağa səbəb oldu. 2021-ci il oktyabrın 14-də Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin Azərbaycan pavilyonunda SSRİ-nin, Azərbaycanın və

Rusiyanın Xalq Rəssamı, Sosialist Əməyi Qəhrəmanı Tahir Salahovun xatirə gecəsi və onun əsərlərinin sərgisi keçrilmişdir.

Azərbaycan Milli İncəsənət Muzeyində Belarus Milli İncəsənət Müzeyinin kolleksiyasına məxsus sərgi açılmışdı.

2025-ci ilin martında Braziliyanın Rio de Janeyro şəhərində Azərbaycanın gənc rəssamlarının sərgisi keçrilmişdir. Sərgidə 18 rəssamın 44 əsəri nümayiş etdirilmişdir. Sərginin açılışında Azərbaycanın Braziliyadakı səfiri, diplomatik korpusun və ictimaiyyətin nümayəndələri, yerli sakinlər, sənətsevərlər iştirak etmişdir.

Prezident İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamına əsasən 12 aprel 2021-ci ildə Bakıda Dənizkənarı Milli Parkda Hərbi Qənimətlər Parkı salınmışdır. Burada 44 günlük Vətən müharibəsində Ermənistan ordusundan qənimət götürülmüş rus silahları toplanmışdır. Bakıda həmçinin Xətai rayonunda, 8 Noyabr prospektində Böyük Qələbəmizin şərəfinə Zəfər parkı yaradılıb, 2024-cü ilin noyabrın 8-də bu parkın açılışı oldu. Parkda Zəfər muzeyi açıldı, burada ucaldılan Zəfər tağının hündürlüyü simvolik olaraq 44 metr, sütunların da sayı 44-dür. Hərbi Qənimətlər Parkı, Zəfər Parkı, Zəfər Muzeyi birlikdə Memorial Komleks adlanır.

2025-ci ilin mayın əvvəlində Şuşada "Xarı bülbül" Beynəlxalq Musiqi Festivalı keçrildi. 2025-ci il mayın 28-də Laçında Müstəqillik gününə həsr olunmuş konsertdə Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif iştirak etmişlər.

Xalça rəssamları Kamil Əliyev və Eldar Mikayılovun əsərləri yüksək bədii sənətkarlıq nümunələridir. K.Əliyevin Atatürkün, H. Əliyevin portretləri toxunmuş xalçalarında Azərbaycan xalçaçılıq sənətinin ən yaxşı ənənələri yaradıcılıqla inkişaf etdirilmişdi. 1996-cı ildə Brüsseldə E.Mikayılovun bənzərsiz gözəlliyə malik xalçaları böyük müvəffəqiyyətlə nümayiş etdirilmişdi. Xalça rəssamı Tahir Məcidovun Heydər Əliyevə həsr etdiyi "Qayıdış" xalçası yüksək sənətkarlığı ilə diqqəti cəlb edirdi.

Müstəqillik illərində Azərbaycan incəsənətində formaca ənənəyə bağlılıq və müasirlik, məzmunca milli və bəşəri dəyərlərin tərənnümü üstünlük təşkil edirdi.

İdman. Respublikanın iqtisadi cəhətdən inkişafı onun idman ölkəsinə çevrilməsinə təkan verdi. Ölkəmiz Beynəlxalq Olimpiya Komitəsinə (1991), Avropa Futbol Birliyinə (1994) və başqa beynəlxalq təşkilatlara üzv oldu.

Azərbaycan idmançıları müstəqillik illərində dünyanın ən nüfuzlu idman yarışı olan Atlanta (1996), Sidney (2000), Afina (2004), Pekin (2008), London (2012), Rio-de Janeyro (2016), Tokio (2020), Paris (2024) Olimpiya oyunlarında iştirak edərək mükafatlar qazanmışlar. Azərbaycan Milli Olimpiya Komandası ilk dəfə iştirak etdiyi Atlanta Olimpiyasında bir gümüş medal qazanmışdırsa, Paris Olimpiyadasını 7 medalla (2 qızıl, 2 gümüş, 3 bürünc) başa vurdu. Cüdoçular Hidayət Heydərova və Zelim Kotseyev Olimpiya çempionları oldular. İşğaldan azad olunmuş Xankəndi şəhərində 30 ildən sonra ilk dəfə olaraq 21 dekabr 2023-cü ildə "Qarabağ" və "MOİK" futbol komandaları arasında oyun olmuşdur. Qarabağ 1:0 hesabı ilə qalib gəlmişdir. Prezident İlham Əliyev şəxsən oyunu seyr etmişdir.

Bolqarıstanda keçrilmiş (2022-ci il mart) gənc güləşçilərin Avropa çempionatında idmançılarımız 16 medal (7 qızıl olmaqla) qazanmışdı. Onlar komanda hesabında birinci yer tutaraq Avropa çempionu olmuşlar.

Dünya Minifutbol Federasiyası tərəfindən təşkil edilən kişi minifutbol komandaları üçün Dünya çempionatı yarışları may-iyun 2025-ci ildə Bakıda keçrildi. Final oyununda Macarıstanı 4:2 hesabı ilə məğlub edən Azərbaycan komandası, çempion və Dünya Kubokunun sahibi oldu.

2025-ci il iyunun 5-7-də Polşada keçrilən çövkan üzrə Avropa çempionatında Polşa komandasını məğlub edən Azərbaycan milli komandası bu oyunların tarixində ilk dəfə qitə çempionu olmuşdur.

XXIII FƏSİL
Azərbaycan Respublikası III minilliyin əvvəllərində (2003-2025-ci illər).

Daxili siyasi həyat. Yeni Azərbaycan Partiyasının(YAP) lideri İlham Heydər oğlu Əliyev 2003-cü ilin oktyabrın 15-də ölkəmizdə növbəti dəfə keçrilmiş prezident seçkilərində səslərin 76,8%-ni toplayaraq ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu prezident seçkisi əvvəlki seçkilərdən fərqli olaraq yeni Seçki Məcəlləsi əsasında keçrilmişdir.

İlham Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində qulluqcu ailəsində anadan olmuşdur. 1967-1977-ci illərdə Bakıdakı 6 saylı orta məktəbdə təhsil almışdır.1977-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstituna daxil olmuşdur. Oranı bitirdikdən sonra İnstitutun aspiranturasına qəbul olmuş, 1985-ci ildə dissertasiya işini müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır. 1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda müəllim işləmişdir.1991-1994-cü illərdə özəl biznes sahəsində çalışmışdır. 1994-cü ildən 2003-cü ilin avqust ayınadək ARDNŞ-in vitse-prezidenti, I vitse-prezidenti olmuş, Ümummilli lider Heydər Əliyevin neft strategiyasının həyata keçrilməsində yaxından iştirak etmişdir. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti kimi (1997-ci ildən) idmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin Ali ordeni ilə təltif edilmişdir.

İlham Əliyev 1995 və 2000-ci illərdə Respublika Milli Məclisinə deputat seçilmişdir. 1999-cu ildə YAP sədrinin müavini, 2001-ci ildə sədrin I müavini, 2005-ci ildən isə partiyanın sədri seçilmişdir. 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur. 2003-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın büro üzvü seçilmişdir. 2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına görə AŞPA-nın fəxri üzvü

diplomu və AŞPA medalı ilə təltif edilmişdir. 2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş Naziri təyin edilmişdir.

İlham Əliyevin hakimiyyət dövrü ölkə tarixində yeni bir mərhələ kimi qiymətləndirilir. O, 2008-ci il oktyabrın 15-də və 2013-cü il oktybarın 9-da keçrilmiş prezident seçkilərində 5 il müddətinə prezident seçildi.

2009-cu il martın 18-də Respublika Konstitusiyasına dəyişikliklər və əlavələr edilməsinə dair ölkədə referendum keçrildi. Konstitusiyaya edilmiş 29 əlavə və dəyişikliklərin əksəriyyəti vətəndaşların hüquq və səlahiyyətlərinin genişləndirilməsi ilə bağlı idi. Konstitusiyada bir şəxsə iki dəfə prezident seçilmək səlahiyyəti verən maddə dəyişdirildi, xalqının rəğbətini qazanan şəxsə istənilən qədər prezident seçilmək səlahiyyəti verildi.

2016-cı il sentyabrın 26-də keçrilmiş ümumxalq səsverməsində (referendum) Azərbaycan Respublikasının Referendum Aktı qəbul edildi. Azərbaycan Respublikası Konstitusiyasına Azərbaycan Respublikasının I vitse-prezidenti və vitse-prezidentləri institutunun yaradılması haqqında maddələr daxil edildi. Prezident İlham Əliyevin 2017-ci il 21 fevral Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO (BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı) və İSESKO-nun(İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı) xoşməramlı səfiri Mehriban Əliyeva Azərbaycan Respublikasının I vitse-prezidenti təyin edildi. 2018-ci il aprelin 11-də keçrilmiş prezident seçkilərində İlham Əliyev 7 il müddətinə Respublika Prezidenti seçildi.

İşğaldan azad olunmuş ərazilər üzərində Azərbaycanın dövlət hakimiyyətini tam bərqərar etmək, legitimləşdirmək üçün hakimiyət orqanlarına yeni seçkilərin keçrilməsi zərurətə çevrildi.

2024-cü ilin fevralın 7-də ölkəmizdə növbədənkənar prezident seçkilərində 7 namizəd arasında İlham Əliyev 92,12% səs toplayaraq növbəti dəfə Respublika Prezidenti secildi. İşğaldan azad olunan ərazilərdə 30 ildən sonra seçkilərin keçrilməsi olduqca

əlamətdar hadisə idi. Prezident və ailə üzvləri Xankəndində səs verdi.

2005, 2010, 2015, 2020-ci illərdə Milli Məclisə seçkilər keçrildi. 28 iyun 2024-cü ildə Prezident İlham Əliyev 6-cı çağırış Azərbaycan Respublikası Milli Məclisinin vaxtından əvvəl buraxılması və 1 sentyabr 2024-cü ildə Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Sərəncam imzaladı.

2024-cü ilin sentyabrın 1-də Milli Məclisə seçkilər 125 seçki dairəsi üzrə 6478 seçki məntəqəsində keçrildi. Ölkədə fəaliyyət göstərən 25 siyasi partiya və təşkilatların nümayəndələri, həmçinin müstəqil şəxslər namizəd rolunda iştirak etdilər. Seçkilər işğaldan azad olunmuş ərazilərə də keçrildi. Milli Məclisə seçkilər majoritar(səs çoxluğu) sistem əsasında baş tutdu. Azərbaycanda hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyəti yaradılması istiqamətində tədbirlər görüldü. 2004, 2009, 2014, 2019-cu illərdə yerli özünüidarə orqanlarını formalaşdırmaq üçün bələdiyyə seçkiləri keçrildi. Ölkədə yeni bələdiyyə seçkiləri ərəfəsində yerli bələdiyyələrin birləşdirilməsi prosesi başlandı. 2025-ci il yanvarın 29-da Azərbaycanda mövcud olan 685 bələdiyyəyə seçkilər keçrildi. Seçkilərə qatılan namizədlər arasında 24 siyasi partiyanın təmsilçiləri olmuşdu.

Son illərdə ölkəmizin inzibati-ərazi quruluşunda bir sıra dəyişiklik edildi, əvvləlki yer adları bərpa edildi. 27 dekabr 2023-cü ildə Prezident Ağdərə rayonunun yaradılması haqqında qanun imzaladı. 1992-ci ildə ləgv olunan, ərazisi Kəlbəcər, Tərtər və Ağdam rayonları arasında bölüşdürülən Agdərə rayonu əvvəlki qaydada təşkil olundu. Madagiz əvvəki tək Suqovuşan, Stepanakert Xankəndi adlandırıldı. 2024-cü ildə ilk dəfə Azərbaycanla Ermənistan arasında 12,7 km. məsafədə (Qazax-Tavuş istiqamətində) sərhəd xətti demarkasiya və delimitasiya olundu. İşğal altındakı kəndlərimiz: Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı Azərbaycana qaytarıldı. İdarəetmə sistemində də təkmilləşdirmələr aparıldı. 2025-ci ildə Prezident

“Xüsusi icra məmurları haqqında” Qanunu təsdiq etdi. Buna müvafiq olaraq ölkəmizdə müstəqil, xüsusi icra məmurları institutu yaradılmasına başlandı. Rayonlar üzrə idarəçilik sistemindən regionlar üzrə idarəçilik sisteminə keçrildi. Regional idarələr yaradılmağa başlandı.

İslahatların mühüm istiqamətlərindən biri də antikorrupsiya tədbirləri idi. 2004-cü ildə “Korrupsiyaya qarşı mübarizə haqqında” Qanunun qəbul edilməsi bu istiqamətdə hüquqi baza yaratdı. Prezident 2004-cü ildə Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramını (2004-2006-cı illər) təsdiq etdi. Həmin ildə Respublika Baş Prokurorluğu yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsi yaradıldı.

Ölkəmiz 2011-ci ildə dövlət idarəçiliyində şəffaflıq və səmərəliliyi təmin etmək məqsədilə ABŞ-ın Beyəlxalq İnkişaf Agentliyinin (USAID) Açıq Hökümət Tərəfdaşlığı təşəbbüsünə qoşuldu. Lakin 2024-cü ilin 1 iyulundan pozuculq fəaliyyətinə görə təşkilatın fəaliyyəti dayandırıldı.

2013-cü ildən fəaliyyətə başlayan Asan Xidmət ölkə vətəndaşlarına operativ xidmət etdiyi üçün 2015-ci ildə BMT-nin Dövlət Xidmətləri mükafatına layiq görülmüşdü.

Dövlət idarəçiliyinin səmərəli fəaliyyətini təmin etmək üçün idarəetmə sisteminin müxtəlif pillələrində mövcud olan rüşvətxorluq, vəzifədən sui-istifadə, dövlət vəsaitinin dağıdılması və s. hallara qarşı mübarizə gücləndirildi. Bəzi rayonların icra hakimləri (Ağstafa, İmişli, Neftçala, Biləsuvar, Cəlilabad, Qax), maarif və səhiyyə şöbələrinin müdirləri, Mədəniyyət və Xarici İşlər Nazirliyinin Mərkəzi Aparatının, vergi, sosial təminat idarələrinin, bələdiyyələrin məsul işçiləri vəzifədən uzaqlaşdırıldı və məsuliyyətə cəlb edildilər.

Ordu dövlətin ən vacib strukturlarından biridir. Hökümət ordunun silah və hərbi texnika ilə təchizatı sahəsində xarici dövlətlərdən asılılığını azaltmaq məqsədilə milli hərbi sənaye yaratdı. Torpaqlarımızı işğaldan azad etmək zərurəti dövlət

büdcəsinn xeyli hissəsini (3.3 mlyrd. dollar) hərbi xərclərə yönəltməyə məcbur etdi. Ordumuz Türkiyə ordu modelinə keçrildi.

İctimaiyyətin ordumuzla bağlı müzakirə etdiyi ciddi məsələlərdən biri Tərtər işi idi. 2017-ci il aprel-iyununda Tərtərdə mühakimə olunan, ağır işgəncələrə məruz qalan, hətta güllələnən hərbçilərin taleyi ictimai müzakirələrə səbəb oldu.

Azərbaycan həqiqətlərinin daha geniş coğrafiyada ictimaiyyətə çatdırılması, diaspora quruculuğu işinin təkmilləşdirilməsi məqsədilə Dünya azərbaycanlılarının qurultayları (2006, 2011, 2016, 2022) keçrilmişdir.

Gənc nəslin milli - mənəvi dəyərlər ruhunda tərbiyəsinə diqqət yetrilir. 1918-ci il faciə qurbanlarının unudulmaması, onun nəticələrindən ibrət dərsi götürülməsi üçün hər ilin martında rəsmi tədbirlərdə soyqırım qurbanları anılır. AXC-nin 100 illiyi həm respublikamızda, həm də ondan kənarda geniş tədbirlərin keçrilməsi ilə qeyd olundu. Prezident İlham Əliyevin 2017-ci il 16 may və 2018-ci il 10 yanvarında imzaladığı Sərəncamlar bu tədbirlərin keçrilməsinin əsas istiqamətlərini müəyyən etdi.Vətən müharibəsi və digər əlamətdar hadisələrlə bağlı tədbirlərin keçrilməsi tarixi yaddaşımızı təzələyir.

Ölkəmizdə sabitliyi pozmaq üçün xarici dövlətlərə bağlı radikal dini qruplara - "meşə qardaşları"na, "Kərimə dövləti" yaratmaq istəyənlərə və digərlərinə qarşı tədbirlər görüldü. Xarici kəşfiyyatın və ölkəmizdə etnik zəmində yeni münaqişələr tötətmək cəhdi uğursuzluğa düçar oldu. Burada yaşayan xalqlar bir yumruq kimi birləşərək Vətən müharibəsindəki qələbəni təmin etdilər.

2020-ci ildən indiyədək, 5 ildir ki, Azərbaycan quru sərhədlərini bağlı saxlayır. Bu təcridçilik deyil, idarə olunan təhlükəsizlik siyasətidir. Azərbaycan dünya ilə tam inteqrasiya olunmuş ölkədir. Bu qərar yalnız hibrid müharibələrin (gizli əməliyyatlar, təxribatlar, kiber hücumlar) və qeyri-ənənəvi təhdidlərin artdığı bir dövrdə dövlətin öz suverenliyini və sabitliyini qorumaq üçün qəbul etdiyi zəruri tədbirdir.

Prezident İlham Əliyev təqvim illərinin hər biri üçün ölkəmizdə prioritet olan məsələni önə çəkmişdir. Prezidentin Sərəncamı ilə 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik ili" elan edildi.

İqtisadiyyat. Əhalinin sosial-məişət şəraiti. Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyası Ümumilli Lider Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının davamıdır. Bu strategiyanın əsas istiqamətləri: iqtisadi gücdən Dağlıq Qarabağ probleminin həllində təsirli vasitə kimi istifadə etmək, neft və qeyri-neft sektorunun inkişafının əlaqələndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi və inkişafı, regionların inkişafı, ərzaq təhlükəsizliyi və aqrar sahədə dövlət siyasəti, əhalinin məşğulluğunun təmin edilməsi, sahibkarlığın inkişafı, yoxsulluğun azaldılması və s. ibarət idi. Qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatına son 20 ildə 350 milyard dollar sərmayə qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir.

Əvvəlki dövrlərdə olduğu kimi, müasir dövrdə də Azərbaycan iqtisadiyyatının əsasını neft-qaz sənayesi təşkil edir. 2006-cı ilin martında Şahdənizdə qaz çıxartmaq üçün dünyada ən nəhəng platformalardan birinin tikintisi başa çatdırıldı. Neft hasilatında rekord nəticələr əldə edildi. 2006-cı ildə Azərbaycanda 32 mln ton, 2007-ci ildə isə 47 mln ton neft çıxarılmışdır. Xəzər dənizində yeni neft yataqları tapılması nəticəsində hasilat artmışdır. 2005-ci ilin fevralında Xəzərdə Azəri-Çıraq-Günəşli yataqlarında ilkin neft çıxarılmışdır. 2010-cu ildə Azəri-Çıraq-Günəşli layihəsi üzrə neft hasilatında ən rekord nəticə qazanıldı, 54,9 mln ton neft çıxarıldı.

Hasil edilən karbohidrogen ehtiyatlarının ixracı üçün təhlükəsiz və əlverişli istiqamətlərin seçilməsi mühüm əhəmiyyət kəsb edirdi. 2002-ci il sentyabrın 18-də Sənqəçalda əsası qoyulmuş Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixac boru kəmərinin 2003-cü ilin mayında Gürcüstan hissəsinin təməli qoyuldu. 2005-ci il mayında BTC-nin Azərbaycan, oktyabrında isə Gürcüstan hissələrinin doldurulması başa çatdırıldı.

2006-cı il iyulunda Azərbaycan, Gürcüstan, Türkiyə liderlərinin iştirakı ilə kəmərin Türkiyə hissəsinin açılışı oldu. BTC-nin uzunluğu 1768 km, nəqletmə imkanı 50 mln tondur. Yalnız Azərbaycanın deyil, dünya iqtisadiyyatının inkişafı üçün böyük əhəmiyyəti olan BTC boru kəməri Türkiyə və Avropanın enerji təhlükəsizliyi sisteminin ayrılmaz hissəsinə çevrildi. Bu kəmər vasitəsilə Azərbaycan nefti dünya bazarına ən qısa və strateji əhəmiyyət daşıyan yolla ixrac edilir. Şimal (Bakı-Novorossiysk) neft kəmərindən daha səmərəlidir.

2007-ci il iyulun 3-də Şahdəniz qazı Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə Cənubi Qafqaz boru kəməri vasitəsilə Türkiyənin qaz kəmərləri sisteminə daxil oldu. Azərbaycan qazının Avropaya çatdırlmasında Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) layihəsinin rellaşması üzrə Azərbaycanla Türkiyə arasında sazişlər imzalandı (2011-2012). 2019-cu ilin noyabrında TANAP istismara verildi.

Trans-Adriatik Qaz Boru Kəməri (TAP) layihəsi Azərbaycanın Xəzər dənizindəki "Şahdəniz-2"yatağından çıxarılan qazın Yunanıstan və Albaniya vasitəsilə Adriatik dənizinin dibindən keçməklə İtaliya və Qərbi Avropa ölkələrinə nəqli nəzərdə tutulurdu. 2020-ci ilin sonunda TAP istifadəyə verildi.

Dörd seqment: Şahdəniz-2, Cənubi Qafqaz boru kəməri,TANAP və TAP Cənub Qaz Dəhlizini təşkil edir. Hazırda dünya siyasətinin aktual məsələlərindən biri enerji təhlükəsizliyidir. Xüsusən Avropa ölkələri son illər öz enerji təhlükəsizliklərini təkmilləşdirməyə və gücləndirməyə ehtiyac duyur. Cənub Qaz Dəhlizi layihəsinin reallaşdırılmasının səbəbi Azərbaycanın uğurlu siyasi-diplomatik fəaliyyətidir. Bu cür layihələrin həyata keçrilməsi Azərbaycanı regionun lider dövlətinə çevirmiş, beynəlxalq aləmdə ölkəmizi etibarlı tərəfdaş kimi tanıtmışdır.Cənub Qaz Dəhlizinin reallaşmasına ABŞ və Böyük Britaniya dövlətləri güclü dəstək vermişlər.

“Əsrin müqaviləsi”nin müddəti 2017-ci ildən 2050-ci ilə qədər uzadıldı ki, bu da Azəri-Çıraq-Günəşli neft yatağında çoxlu neft ehtiyatının olduğunu göstərir.

XXI əsrin ən mühüm iqtisadi layihələrindən biri olan Bakı-Tbilisi-Qars dəmir yolu artıq layihədən reallığa çevrilib. Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğan Bakı-Tbilisi-Qars dəmir yolunu üç ölkəni bir-birinə möhkəm bağlayan “Dəmir ipək yolu” adlandırmışdır. Qeyd etmişdir ki, bu layihə bir tərəfdən Mərkəzi Asiya və Çini, digər tərəfdən Avropanı Qafqazla qovuşdurur. R.Ərdoğan regional əməkdaşlıqda Bakı-Tbilisi-Ceyhan neft kəmərini birinci, Bakı-Tbilisi-Ərzurum layihəsini ikinci, Bakı-Tbilisi-Qars layihəsini isə üçüncü vacib addım kimi qiymətləndirmişdir.

2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun təntənəli açılış mərasimi reallaşdı. Ümumi uzunluğu 846 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın, 263 kilometri Gürcüstanın, 79 kilometri isə Türkiyənin payına düşür.

Hazırda respublikamızda qeyri-neft sektorunda müşahidə edilən davamlı artım meyilləri, valyuta ehtiyatlarının həcmi, nəqliyyat-enerji layihələrinin reallaşdırılması ölkəmizin milli və iqtisadi təhlükəsizliyi üçün zəmin yaradır. Hökumət ölkəmizi tranzit enerji-nəqliyyat mərkəzinə çevirməyə çalışır.

Kimya sənayesini inkişaf etdirmək məqsədilə 2011-ci ildə prezident Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında Sərəncam verdi və o, artıq məhsul istehsal edir. 2017-ci ildə Balaxanı Sənaye Parkı açıldı. 2016-cı ildə təməli qoyulmuş Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları yaradılması nəzərdə tutulurdu. Ölkəmiz üçün yeni sahə olan əczaçılıq sənayesinin əsası qoyuldu. Əczaçılıq məhsullarının istehsalı üzrə ixtisaslaşdırılmış Pirallahı Sənaye Parkı yaradıldı. Burada ilk dərman zavodunun təməli qoyuldu və onun əhəmiyyəti - əhalinin məşğulluğuna təminat yaratdı, idxaldan asılılıq azaldı, ixrac

potensialı yüksəldi. Ağdam sənaye parkının salınması sahəsində geniş miqyaslı işlər görülür. Ələtdə azad iqtizadi zona yaradılır.

İqtisadiyyatın aparıcı sahələrindən biri kənd təsərrüfatıdır. 2015-ci il ölkəmizdə "Kənd təsərrüfati ili" elan olundu.Taxıl, heyvandarlıq məhsulları tələbatı tam ödəmədiyi üçün bu məhsulların müəyyən hissəsi idxal olunur. Pambıq istehsalı bərpa olunur. Ölkəmizin xarici iqtisadi əlaqələri də genişlənir. Cəmiyyətin sosial strukturunda dəyişikliklər baş verir. Kəndli-fermerlər təbəqəsi, sahibkarlar sinfi yaranır. Əhalinin 54,4%-i şəhərdə, 45,5%-i kənddə yaşayır.

Sahibkarlığın inkişafı dövlətin sosial-iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri oldu. Özəl sektorda investisiya fəallığını artımaq üçün Dövlət İnvestisiya Şirkəti yaradıldı. İnvestisiyaların təşviqi mexanizminin tətbiqinə başlandı. Ümumdaxili məhsulun (ÜDM) 83%-nin özəl sektorun payına düşməsi göstərir ki, sahibkarlıq iqtisadi inkişafın əsas lokomotivi rolunu oynayır.

Prezidentin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004-2008-ci illər)" təsdiq edildi.

Sosialist iqtisadi sisteminin dağılması, Ermənistanın təcavüzü əhalinin yoxsullaşmasına ciddi təsir etdi. Keçid dövründə iş yerlərinin məhdud olması və bu əsasda işsizliyin dərinləşməsi, əmək bazarında aşağı ödənişli iş yerlərinə malik olanların çox olması və s. yoxsulluğa gətirib çıxardı. Yoxsulluq dedikdə, hər bir şəxsin öz minimal ehtiyaclarını ödəmək iqtidarında olmaması başa düşülür.

2000-ci ildə BMT-nin qəbul etdiyi minilliyin Bəyannaməsində ifrat yoxsulluğun aradan qaldırılması əsas vəzifə kimi irəli sürüldü. Azərbaycan minilliyin İnkişaf Məqsədləri (MİM) çərçivəsində yoxsulluğun yarıya qədər azaldılması öhdəliyini götürən 128 ölkə arasında bu vəzifəni yerinə yetirən 18 ölkədən biri oldu. Yoxsulluğu aradan qaldırmaq üçün Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət proqramı (2003-2005) və 2008-2015-ci

illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişafa dair Dövlət proqramı təsdiq olundu.

Yoxsulluğun azaldılması strategiyasının əsas vəzifələri – məşğulluq səviyyəsinin yüksəldilməsi, təbəqələşmənin və gəlirlərin qeyri - bərabər bölgüsünün dərinləşməsinin qarşısını almaqdan ibarət idi. 2019-cu ildə respublikamızın 10 milyonuncu vətəndaşı dünyaya gəldi. O, birinci vitse-prezident Mehriban xanım Əliyevanın şərəfinə Mehriban adlandırıldı. Müstəqillik dövründə respublikamızın əhalisi 3 milyondan çox artmışdır. Əhalinin artması dövlətin gücünü artırır, həm də iqtisadi artımın artan əhalini önləməyi, yeni mənzillər, uşaq bağçaları, məktəblər və xəstəxanalar tikilməsini, yeni iş yerləri yaradılmasını zəruri edir.

Dövlət əhalinin mənzil şəraitini yaxşılaşdırmaq üçün müxtəlif imkanlar yaradır.Yeni yollar, qaz, işıq, internet xətləri çəkilir. Pensiyaların, müavinətlərin, təqaüdlərin artırılması sahəsində işlər görülür. Əhali istehlak tələbatını ödəmək məqsədi ilə banklardan kredit götürmək imkanına malikdirlər.

Tələbə gənclərin maddi vəziyyətini yaxşılaşdırmaq hökumətin diqqət mərkəzindədir. Prezident İlham Əliyev 2025-ci ilin sentyabrın 1-dən tələbə təqaüdlərinin artırılması barədə bir sıra fərman və sərəncamlar imzaladı.

Sosial həyatın bahalıq, işsizlik, narkomaniya, dələduzluq, boşanmalar, məişət zorakılığı və s.kimi hallarına qarşı tədbirlər görülür. Prezident 2023-cü il 27 noyabr tarixli Sərəncamı ilə məişət zorakılığına qarşı 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planını təsdiq etdi.

Azərbaycanda tolerantlıq və multikulturalizm mühiti mövcuddur. Ölkədə 31-i qeyri-islam olmaqla 809 dini icmanın dövlət qeydiyyatına alınması islam dini ilə yanaşı, xristianlığa, yəhudiliyə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşaması, dinə dövlət qayğısının təzahürüdür. Azərbaycanda məscid, kilsə və sinaqoqlar fəaliyyət göstərir. 1836-cı ildə Rusiya çar hökümətinin ləğv etdiyi Alban kilsəsi 2003-cü ildə öz fəaliyyətini bərpa etmişdir.

Vətən müharibəsi. Antiterror əməliyyatı. Suverenliyin tam bərpası. Atəşkəs olmasına baxmayaraq Ermənistanın ölkəmizə qarşı təxribatları davam edirdi. 2014-cü ilin avqustunda Azərbaycan hərbçiləri Qarabağ səmasında Ermənistan helikopterini vurdu. Avqustda zabit Samit İmanovun başçılığı ilə bir qrup Xüsusi Təyinatlı əsgərimiz düşmənin içərilərinə sızıb onların 20 hərbçisini məhv etdi və bəzi əməliyyatları həyata keçirdilər. 2016-cı ilin aprelində Ermənistan komandanlığının Azərbaycan korpusunu mühasirəyə almaq planı var idi. Lakin bu plan baş tutmadı. Aprelin 1-dən 2-nə keçən gecə Ermənistan hərbi hissələri Qarabağda qoşunların təmas xəttində mövqelərimizi və yaşayış məntəqələrimizi artilleriya-raket atəşinə tutdu. 32 yaşayış məntəqəsinin bombalanması nəticəsində aralarında 2 uşaq olmaqla 6 mülki şəxs həlak oldu, 26 şəxs ağır yaralandı, içtimai və şəxsi mülkiyyətə ciddi ziyan dəydi.

2016-cı il aprelin 2-5-dək Ordumuzun həyata keçiridiyi əməliyyatlar nəticəsində işğalçı orduya sarsıdıcı zərbələr endirildi. Qısa müddətdə əks hücumla bir neçə yüksəklik düşməndən azad edildi. Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən Lələtəpə yüksəkliyi düşməndən azad olundu. Ümumiyyətlə, bu əməliyyat nəticəsində Füzuli, Cəbrayıl və Tərtər rayonlarının 2.000 hektardan çox ərazisi işğaldan təmizləndi, Tərtər-Suqovuşan istiqamətində yollar nəzarətə götürüldü. Düşmənin çoxlu tankı, artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq hərbçisi yaralandı. Polkovnik leytenant Raqif Orucov (Murov qartalı), mayor Rasim Məmmədov,mayor Elnur Əliyev, Mİ-24 helkopterinin ekipajı mayor Təbriz Musazadə, mayor Ürfan Əlizadə, baş leytenant Əbu Bəkir İsmayılov,kapitan İnqilab Quliyev, baş leytenantlar Ziya Həsənov, Rəşid Mehdiyev və başqaları Vətənin azadlığı naminə şəhidlik zirvəsinə ucaldılar. Onların hər birinin döyüş yolu qəhrəmanlıq hekayəsidir. Mayor Samid İmanov Tərtərin Talış kəndi ətrafında yaralanıb, əsgərləri

onu döyüş meydanından çıxartmaq istəsələr də o, yaralı əsgəri (giziri) döyüş meydanından çıxartmağı əmr etdi. Əsgərləri onun əmrini yerinə yetirdilər. Sonra komandiri xilas etmək üçün geri dönsələr də, o çoxlu qan itirdiyi üçün artıq dünyasını dəyişmişdi.

2016-cı il aprelin 19-da Prezident İlham Əliyevin Sərəncamı ilə Aprel döyşünün iştirakçılarından 3 hərbçimizə (polkovnik-leytenant Murad Mirzəyev, Şükür Həmidov, mayor Samid İmanov)Azərbaycanın Milli Qəhrəmanı, 7 nəfər Azərbaycan bayrağı ordeni, bir neçə hərbçilərimiz müxtəlif orden və medallarla mükafatlandırıldı. 2 nəfər hərbçimiz general-mayor ali hərbi rütbəsi ilə təltif olundu.

2016-cı il aprelin 5-də Azərbaycanla Ermənistan arasında atəşkəs rejiminin bərpası ilə əlaqədar razılıq əldə edilməsinə baxmayaraq, aprelin 26-27-də erməni silahlı birləşmələri Azərbaycan ordusu mövqelərini Tərtər, Ağdam, Ağcabədi rayonlarının cəbhə xəttinə yaxın yaşayış məntəqələrini atəşə tutmuşdur. Nəticədə 1 nəfər mülki şəxs həlak olmuş, 8 nəfər yaralanmış, yaşayış və qeyri-yaşayış obyektlərinə zərər dəymişdir. Böyük dövlətlər, beynəlxalq güclər buna biganə qaldı. Belə təəssürat yaranır ki, beynəlxalq təşkilatlar, Minsk qrupu bütün səylərini Dağlıq Qarabağdakı separatçı qurumun təhlükəsizliyinin təmin edilməsinə yönəltmişdir. 4 günlük Aprel döyüşləri 23 ildən sonra xalqımıza qələbə sevinci yaşatdı. Ordumuzun öz gücünə inamının ən yüksək həddə çatmasında bu döyüşün tarixi əhəmiyyəti oldu. Aprel döyüşlərini Vətən müharibəsindəki uğurlarımızın baş məşqi adlandırmaq olar.

Aprel döyüşlərindən sonra ordumuzun boyük bir uğuru oldu. Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Ordusunun əks-hücum əməliyyatı nəticəsində (2018) Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı,Qaraqaya dağı erməni işğalından azad olundu,tarixi ərazimiz olan Dərələyəz mahalının Arpa kəndi də ordumuzun nəzarətinə keçdi. Döyüşlər nəticəsində ümumi sahəsi 11.000 ha olan ərazi düşməndən azad olundu. Ordumuz İrəvan-Yeğednadzor-Gorus-Laçın-Xankəndi avtomobil

yoluna nəzarət etmək imkanı qazandi. Döyüş zamanı əsgər Adil Tatarov şəhid oldu, Ermənistan tərəfi də bir neçə hərbçisini itirdi. 2020-ci il iyulun 12-də Tovuz rayonu ərazisində 4 nəfər Azərbaycan hərbçisi sərhəddə dövlət postunu yoxlayan zaman Ermənistan tərəfdən açılan atəş nəticəsində həlak oldular. Üstəlik Ermənistanın hərbi hissələri Tovuzun Əlibəyli, Hacıallar, Ağdam və Dondar Quşçu kəndlərini atəşə tutdu. Azərbaycanın bir çox rayonlarından əhali, xüsusən gənclər dövlət tərəfindən çağırış olmadan şəxsi maşınlarında döyüşmək üçün Tovuz rayonuna axın etdilər. 2020-ci il iyulun 14-dən 15-nə keçən gecə Bakı şəhərində Tovuzda həlak olmuş şəhid hərbçilərimizin şərəfinə yürüş təşkil olundu. Əhali Ermənistanın təcavüzkar hərəkətlərinə dözməyərək şəhərin müxtəlif yerlərindən küçələrə çıxaraq "Qarabağ", "Qarabağa azadlıq", "Cənab Baş Komandan, silah ver bizə", "Mübariz", "Vur, keç Azərbaycan əsgəri" şüarları ilə Azadlıq meydanına axışdılar. Onlar sonra Şəhidlər Xiyabanını ziyarət etmiş, bundan sonra Milli Məclisin binası qarşısında toplaşmışlar. Etirazçılar səfərbərliyin elan olunmasını və Dağlıq Qarabağın geri alınmasını tələb etdilər. Aksiyada hərbçilərə dəstək nümayiş etdirilmiş, şəhidlərin xatirəsi ehtiramla yad edilmişdir.

Rəsmi mənbələrə əsasən Tovuz döyüşləri zamanı Ermənistan tərəfinin atəşi nəticəsində 12 hərbçimiz (general Polad Həşımov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, baş leytenant Rəşad Mahmudov), 1 mülki şəxs həlak olub, 4 hərbçi yaralanmışdır. Prezident tərəfindən Polad Həşimova və İlqar Mirzəyevə şücaətinə görə Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Rusiya öz forpostunu yenidən Gürcüstan və İranın ərazisi, habelə hava məkanından istifadə etməklə silahlandırmağa başladı. Azərbaycanın etirazından sonra Gürcüstan həm Ermənistana, həm də Azərbaycana öz ərazisi və hava məkanını bağladı.Ekspertlər Tovüz hadisələrinin səbəblərini müxtəlif cür şərh edirlər:1.Ermənistanın Baş naziri N.Paşinyan daxili,siyasi və iqtsadi problemlərdən, xüsusən COVİD19-a qarşı mübarizədə düçar olduğu uğursuzluqdan diqqəti yayındırmaq istəyirdi; 2.Ermənistanın

Hərbi naziri David Tonayanın “yeni torpaqlar üçün yeni müharibə” prinsipini elan etməsi Azərbaycana qarşı ciddi təhdid oldu. Bununla da o, Ermənistanın Dağlıq Qarabağı qaytarmaq niyyətinin olmadığını, üstəlik Azərbaycanın yeni ərazilərinin işğal ediləcəyi anonsunu verdi.Ermənistan hərbi əməliyyatları Dağlıq Qarabağdan kənara keçirib, strateji cəhətdən Azərbaycanın Tovuz kimi məntəqəsini ələ keçirmək, buradan keçən Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft, Bakı-Tbilisi-Ərzurum qaz, Cənubi Qafqaz qaz dəhlizini, Bakı-Tbilisi-Qars dəmiryolu xətlərini öz nəzarəti altına almaq məqsədini güdürdü. Bununla Azərbaycan, Türkiyə, hətta Avropa ölkələrinin iqtisadi maraqları və enerji təhlükəsizliyinə zərbə vurmaq, həm də Azərbaycanı təcili sülhə məcbur etmək, yəni Dağlıq Qarabağın hüquqi cəhətdən (de-yure) Ermənistana keçməsini dövlətimizə qəbul etdirmək istəyirdi;3.N.Paşinyanın məqsədi Rus “NATO”sunu (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) Azərbaycan-Ermənistan münaqişəsinə cəlb etmək, onun köməyi ilə Azərbaycana sarsıdıcı zərbələr endirmək idi;4. Qərbin sifarişi ilə Rusiya və Türkiyəni Azərbaycan-Ermənistan münaqişəsinə cəlb edərək onları bir-biri ilə vuruşdurmaq.

1994-cü il 12 mayda elan olunmuş atəşkəs tam mənada həyata keçrilmədi. Atəşkəs dövründə ermənilərin atəşi nəticəsində çoxlu sayda Azərbaycan əhalisi, o cümlədən hərbçilər həlak oldu, külli miqdarda ictimai və fərdi mülkiyyət məhv edildi. Ermənistan tərəfi cəzasız qaldıqlarını, beynəlxalq təşkilatların və böyük dövlətlərin onları işğal etdikləri torpaqlarımızı tərk etməyə məcbur etmədiklərini görüb daha da ağzınlaşdılar. 2020-ci ilin 21 sentyabrında Ermənistanın dövlət müstəqilliyi günündə ermənilər bu müstəqillliyi qeyd etmək üçün Tovuz sərhəd xəttində hərbci Elşən Məmmədova atəş açaraq öldürdülər.

2020-ci il 27 sentyabr saat 06:00-da Qarabağda işğalçı Ermənistan ordusu hissələri mövqelərimizi və yaşayış məntəqələrimizi güclü atəşə tutdu. Dinc sakinlər və hərbçilər yaralandı, həlak oldu. Respublika hökuməti azğınlaşmış düşmənin hücumlarına birdəfəlik son qoymaq üçün dərhal tədbirlər gördü.

Xalqımız Ermənistanın torpaqlarımızda, xüsusən Qarabağda davam edən işğalına və ölkəmizə yönəlmiş təcavüzkarlığına qarşı Vətən müharibəsinə başladı. 27 sentyabrda prezident İlham Əliyev xalqa müraciət etdi. Müraciətdə deyilirdi: "Bu gün səhər Ermənistan Silahlı Qüvvələri bir neçə istiqamətdə müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi.....hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Bu, erməni faşizminin növbəti təzahürüdür. 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edildi. Prezidentin Sərəncamı ilə 28 sentyabr tarixində ölkə ərazisində qismən səfərbərlik elan edildi. Hərbi əməliyyatlar Murovdağ (Kəlbəcər), Ağdam-Ağdərə, Arazboyu istiqamətdə gedirdi. Əsas istiqamət Arazboyu idi.Ordumuz düşmənin alınmaz hesab edilən "Ohanyan xəttini" yardı.

Şanlı ordumuz tərəfindən rayon mərkəzi olan şəhərlərimiz Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa düşmən tapdağından xilas oldu. 44 günlük Vətən müharibəsində "dəmir yumruq əməliyyatı"nın gedişində 5 şəhər, 4 qəsəbə, 286 kənd, 8 yüksəklik düşməndən azad edildi. Müharibə nəticəsində 3000 nəfərə qədər əsgər və zabit şəhid olmuş, 1245 nəfər əsgər isə yaralanmışdır. Azərbaycan ordusu Ermənistanın gözləmədiyi şəkildə cənubdan Füzuli, Cəbrayıl və Zəngilan istiqamətində iti qılınc kimi (Turan taktikası)irəliləyərək sərhədlərimizi işğaldan azad etdi. Azərbaycan ordusu əməliyyatların ağırlığını Füzuli və Şuşa istiqamətlərinə saldı.

Dəniz səviyyəsindən 1400-1800 metr yüksəklikdə alınmaz qala sayılan Şuşaya xüsusi təyinatlılarımız gecə saatlarında Daşaltı və Qəribəli kəndi tərəfdəki meşəlikdən daxil oldular. Düşmənin 4 postunu məhv edəndən sonra Köhnə qala və Türməni ələ keçirən əsgərlərimiz düşmənin hücumlarını dəf etmişlər. Noyabrın 7-də Şuşa düşməndən təmizləndi. Düşmənin bir neçə əks-hücum cəhdi heç bir nəticə vermədi. Azərbaycan bayrağı noyabrın 8-də Şuşada ucaldıldı. Bu, Azərbaycanın zəfəri, Ermənistanın məğlubiyyətinin

elan edilməsi idi. Şuşadan sonra Azərbaycan ordusunun yeni hədəfi şərqdə Xocalı üzərindəki Xankəndi və qərbdə Laçın dəhlizi oldu. Azərbaycan tərəfi Ermənistan ordusuna Qarabağdan tam çəkilmək çağırışı etdi. 2020-ci il noyabrın 8-də Şuşanın alınması müharibənin gedişində əsaslı dönüş nöqtəsi oldu. Bundan sonra ermənilər ağ bayraq qaldırdı.

8 noyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev, vitse prezident Mehriban xanım Əliyeva Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdi, sonra isə Şəhidlər xiyabanını ziyarət etdilər. Şuşa şəhərinin düşmən əsarətindən azad olunması xəbərini xalqımıza çatdırdı. Noyabrın 9-da Bayraq günündə ordumuz 71 kəndi və bir qəsəbəni işğaldan azad etdi. Bu, ermənilərə daha sarsıdıcı təsir göstərdi.

2020-ci il noyabrın 10-da gecə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistanın Baş Naziri Nikol Paşinyan 9 maddəlik birgə bəyanatı imzalamışlar. Bu bəyanata uyğun olaraq hərbi əməliyyatlar dayandırıldı:

1.10 noyabr 2020-ci ildə tarixdə Moskva vaxtı ilə saat 00-00 dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra tərəflər adlandırılaraq Azərbaycan Respublikası və Ermənistan Respublikası hazırda tutduqları mövqelərdə qalacaqlar.

2.2020-ci il 20 noyabr tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3.Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4.Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. RF-nın sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi

niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır.

5.Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə, nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6.Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respubliksına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq. Laçın dəhlizi (5 kilometr enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7.Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

8.Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçrilir.

9.Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir.Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xdmətinin orqanları həyata keçirir.Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.

2020-ci il 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər, 1 dekabrda Laçın işğaldan azad olundu. Rus sülhməramlıları vaxtından əvvəl Qarabağdan çıxarıldı (22 aprel-12 iyun 2024).

2020-ci il dekabrın 2-də Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım günü, noyabrın 8-i isə Zəfər Günü kimi qeyd edilir.Azərbaycan Ordusu Qarabağın taleyini dəyişdi: status-kvo, təmas xətti, Dağlıq Qarabağ və Qarabağ ərazisi anlayışları faktiki olaraq birdəfəlik gündəlikdən çıxarıldı.

Azərbaycanın Ermənistanla müharibədə qalib gəlməsinin səbəbləri bu amillərlə bağlı idi:

İlham Əliyev kimi güclü və iradəli Prezident, Ali Baş Komandanın olması;

effektiv hazırlıqlı, texniki cəhətdən təchiz edilmiş müasir ordu;Azərbaycan əsgərlərinin və zabitlərinin ruh yüksəkliyi; müharibənin ədalətli xarakteri-işğal altındakı əraziləri azad etmək məqsədi;

hərbi planların savadlı tərtibi, döyüş əməliyyatlarının diqqətlə izlənilib hazırlanması;ordu və xalqın birliyi;

inkişaf etmiş hərbi-sənaye kompleksinin mövcudluğu;

güclü və çoxşaxəli iqtisadiyyat, ölkənin optimal siyasi sistemə malik olması.

Vətən müharibəsindəki məğlubiyyət erməni toplumunu mənəvi cəhətdən sarsıtdı. Məğlubiyyətin əsas günahkarı N.Paşinyan hesab edilsə də ona münasibət eyni deyildi.Onun istefasını hamı dəstəkləmirdi. Erməni xalqının böyük bir hissəsi revanşistlərin hakimiyyətə gəlməsini istəmirdilər.Çünki onlar revanşistlərin qatı təmsilçilərindən olan Qarabağ klanının zülmündən beziblər.

N.Paşinyan Azərbaycanla sülh bağlanmasının zəruriliyini anlayır.Lakin ölkə daxilindəki revanşistlərdən, erməni kilsəsindən, erməni diasporundan, bəzi beynəlxalq güclərdən (Rusiya, Fransa) çəkinir. Qarabağ ermənilərinin Azərbaycana reinteqrasiyasına Xankəndindəki xunta rejimi və Rusiya mane olurdu. Rusiya istəyirdi

ki,bölgədə barışıq, sülh olmasın,bu halda rus sülhməramlıları Qarabağı tərk etmiş olardı.

10 noyabr 2020-ci il bəyanatına uyğun olaraq Dağlıq Qarabağdakı erməni hərbçiləri buranı tərk edib Ermənistana çəkilməli idilər. Lakin rus komandanlığı bunu tələb etmədi. Azərbaycana qarşı müxtəlif təxribatlar törətdilər.Azərbaycanın Silahlı Qüvvələri məcbur olub mərhələ-mərhələ lokal əməliyyatlar keçirdi. 2022-ci il avqustun 3-də Azərbaycan Müdafiə Nazirliyi erməni separatçılarina qarşı "Qisas" əməliyyatını həyata keçirdi. Qarabağ silsiləsi boyunca Buzluq, Üçdik, Qırxqız, Sarıbaba və digər strateji əhəmiyyətli yüksəkliklər azad olundu. Paşinyan 10 noyabr bəyanatında uzərinə götürdüyü öhdəliyi yerinə yetirib Ermənistanın hərbi qüvvələrini buradan çıxarmadı. Müxtəlif bəhanələr gətirdi.Əvvəl qəbul edirdi ki, bu qüvvələr Ermənistana məxsusdur,sonra bildirdi ki,bu hərbi qüvvələr Dağlıq Qarabağın özünümüdafiə qüvvələridir.Biz bu işə müdaxilə edə bilmərik. Rus sülhməramlıları da onları müdafiə edir, silah, hərbi ləvazimat və ərzaqla təmin edirdi.Məqsəd onlardan Azərbaycana qarşı istifadə etmək idi. Erməni qüvvələri ruslara arxalanıb tez-tez təxribatlar törədirdilər. Qarabağ üzərindən uçan təyyarələrə maneçilik törədirdilər. Belə olanda Azərbaycan rəhbərliyi bu işə özü əncam çəkdi.Öncə 2023-cü il aprelin 23-də Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında DSX-nın nəzarət buraxılış məntəqəsi quruldu.

2023-cü il sentyabrın 19-20-də isə Ordumuz 23 saat 43 dəqiqə davam edən antiterror əməliyyatı həyata keçirdi. Döyüş cəmi 6 saat çəkdi, qalan vaxt təslim barədə danışıqlara sərf olundu. Erməni mənbələrinin məlumatına görə, 19-20 sentyabrda 200 erməni hərbçisi həlak olmuş, 400 nəfər yaralanmış, çoxlu sayda hərbçi itkin düşmüşdür.Nəticədə Ermənistan ordusunun 15 minlik ekspedisiya korpusu təslim oldu, ikinci dəfə kapitulyasiya aktına qol çəkdi. 2024-cü il sentyabrın 28-də "DQR" (Artsax Respubliası)"prezidenti" S.Şahramanyanın imzaladığı fərmanla 2024-cü il yanvarın 1-dən buraxıldı. İlham Əliyev 15 oktyabrda

Ağdərə, Xankəndi və Xocalıya dövlət bayrağımızı sancdı. Bununla da Azərbaycanda separatizmin kökü kəsildi. Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa etdi. Bu hadisə bizim çoxəsrlik tariximizdə xüsusi əhəmiyyətə malikdir.Vətən müharibəsindəki qələbimiz xalq, dövlət və ordunun birliyi nəticəsində mümkün olmuşdur.

Prezident İlham Əliyev 2024-cü il noyabrın 8-də Zəfər parkının açılışında demişdir ki, nə qədər güclü dövlət olsa da, nə qədər güclü silahlanmış ordu olsa da, nə qədər yaxşı hərbi planlar cızılsa da, müharibənin taleyini əsgərlər, zabitlər həll edir.Vətən müharibəsində qələbəni təmin edən Azərbaycan əsgər və zabitləridir, onlar sinələrini irəli verərək ölümə gedirdilər.

I Qarabağ müharibəsində(1991-1994) Azərbaycan 12 min nəfər şəhid vermiş,4 min nəfərdən artıq azərbaycanlı ermənilər tərəfindən əsir götürülmüşdür. Bu günədək onlar haqqında məlumat yoxdur. Atəşkəs dövründə (1994-2020) düşmən dayanmamış, xeyli hərbçimizi və mülki əhalimizi öldürmüş və yaralamışdır.Buna görə düşmənə vurulan zərbə daha kəskin oldu. Qeyd etmək lazımdır ki, həm I Qarabağ, həm də II Qarabağ müharibəsində könüllü olaraq tələbələr və məzunlar da qəhrəmanlıqla döyüşmüş, bəziləri şəhid və qazı olmuşlar. Azərbaycan Dövlət Pedaqoji Universiteti məzunlarından 29 nəfər I Qarabağ müharibəsində (S.S.Abbasov, N.V.Abdullayev, İ.N. Allahyarov, R.N.Baxışov, E.İ.Qəhrəmanov və b.), 15 nəfər isə II Qarabağ müharibəsində (İ.S.Ağaquliyev, E.H.Hüseynli, E.A. Zakirov, C.A.Nüsrətli və b.) şəhid olmuşlar. Döyüşçülərimizin qəhrəmanlığı haqqında çoxlu faktlar göstərmək olar. I Qarabağ savaşında iştirak etmiş tibb işçisi belə bir epizod danışdı: Biz, hospitalda minaya düşüb ağır yaralanmış Rafiq adlı bir döyüşçünün ayaqlarını amputasiya etdik. Ayılandan sonra nə qədər acı olsa da, biz ona bunu bildirdik. O, ah çəkərək dedi: “Canım Azərbaycanım, mən canımı sənə qurban demişdim, hayıf ki, ancaq ayaqlarımı qurban verdim”.

Qeyd etmək lazımdır ki, indiyədək 221 nəfərə Milli Qəhrəman fəxri adı verilmşdir, onlardan 201 nəfəri ölümündən sonra, 20 nəfəri

isə sağlığında bu ada layiq görülmüşdür. Düşmənə qarşı döyüşdə müstəsna qəhrəmanlıq göstərmiş gizir Mübariz Ağakərim oğlu İbrahimov Biləsuvar rayonunun Əliabad kəndində doğulmuşdur (7 fevral 1988 - 18 iyun 2010). Doğulduğu kənddə orta məktəbi bitirmişdir. Elə həmin il hərbi xidmətə çağırılmış, 2007-ci ildə tərxis olunmuşdur. Lakin o yenidən hərbi xidmətə dönür və onu ön xəttə göndərməyi komandanlıqdan xahiş edir. Vətən, Torpaq istəyi onu ön xəttə çəkir. 18 iyun 2010-cu ildə Tərtər rayonu yaxınlığında Şiştəpə adlanan ərazidə saat 23:30-da bir qrup erməni hərbçisi ilə döyüşə girir, təkbaşına çoxlu sayda düşməni məhv edir və qəhrəmancasına həlak olur. Prezident İlham Əliyevin 22 iyul 2010-cu il fərmanı ilə Mübariz İbrahimova Azərbaycanın Milli Qəhrəmanı adı verilir.

Əslən Gədəbəy rayonundan olan Natiq Qasımov(1971-1992) Xocalı soyqırımından sonra könüllü olaraq Qarabağdaki döyüşlərə qatılmışdır.Xocalı rayonu Pirlər(Xramort) kəndində altı əsgər yoldaşı həlak olduqdan sonra alban kilsəsində beş gün ermənilərlə təkbətək döyüşmüşdür. Kilsənin damına da Azərbaycan bayrağını sancmışdır. Ermənilər elə başa düşüblər ki, kilsədə çoxlu Azərbaycan əsgəri onlarla döyüşür.Onu təslim etmək üçün əsir götürdükləri Xocalı sakinini onun yanına göndəriblər ki, ona çatdırsın ki,təslim olmasa əsir götürülmüş xocalılardan 22 nəfərini güllələyəcəklər.Əgər təslim olsa 22 nəfəri buraxacaqlar. O, da həmin şəxslərin güllələnməməsi üçün Azərbaycan bayrağını əlinə alaraq düşmənə təslim olmuşdur. Qarabağ separatçılarının başçısı Vitali Balasanyan tərəfindən işgəncə ilə öldürülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2024-cü il tarixli sərəncamı ilə Natiq Qasımov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Polkovnik Şükür Həmidov 2016-cı ilin apreilində Lələtəpənin azad edilməsində şücaət göstərib, Azərbaycan bayrağını yüksəkliyə sancıb. Prezidentin 22 apel 2016 tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşdür. Polkovnik Ş.Həmidov 2020-ci il oktyabrın

22-də səhər radələrində doğulduğu Qubadlı rayonu ərazisində şəhid olmuşdur.

Vətən müharibəsi günlərində snayper Araz Bəşirov 19 düşmən hərbçisini, Rüfət Əsədullayev 7 düşmən tankını vurmuşdur. Elvin İbrahimov da igidliklə döyüşmüşdür, o bir qolunu itirsə də, ailəsinə dönərkən ağrı-acılarını çöhrəsindəki təbəssüm altında gizlətmişdir. Noybarın 4-5-də düşmənə növbəti top atəşindən sonra döyüş meydanında Vüsal Şahkərimov (Xaçmaz) Azərbaycan əsgərinə xas olan mətinliyini özünün şux qaməti ilə göstərdi. Onun bu cəsur duruşu sosial şəbəkələri və telekanalları zəbt etdi.

Azərbaycan Milli Konservatoriyasının Məbud adlı məzunu II Qarabağ savaşında əlindən yaralanmışdı. Əlində cərrahiyyə əməliyyatı aparılan zaman Qarabağ haqqında mahnı oxuyurdu. Bu, video sosial şəbəkələrin gündəmini zəbt etdi. Hikmət Abbaslı, Elvin Abbasov, İsa Abbasov, Nadir Abbasquliyev, Elşən Abdullayev, Bəhruz Abuşov (Şuşa qartalı) və başqa qəhrəmanlar Şuşa uğrunda döyüşdə şəhid oldular. Şuşa uğrunda döyüşlərdə fədakarlıq göstərmiş Vətən oğullarından bir neçəsi haqqında qısaca məlumat verək: Şuşa uğrunda döyüşlərdə müstəsna qəhrəmanlıq göstərmiş döyüşçülərdən biri Mehdi Şıxəliyevdir. O, Hacıqabul rayonunda anadan olub, Xüsusi Təyinatlı Qüvvələrin hərbçisi idi. 2016-cı Aprel döyüşlərinin iştirakçısı olmuş və İkinci Qarabağ savaşında ön cəbhədə döyüşən Mehdi Şuşaya qədər düşmənin tankını, zirehli maşınını,70-dən çox canlı qüvvəsini məhv etmişdir. Şuşada əlbəyaxa döyüş zamanı bir neçə erməni hərbçisini məhv edərək noyabrın 9-da qəhrəmancasına həlak olmuşdur.

Baş gızir Mehrab Niftəliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin 052 ”Yaşma” hərbi hissəsində xidmət edirdi. Döyşlərdəki cəsurluğuna görə dostları ona “Termınator” ləqəbi vermişdi. O,döyüşlərdə 100-ə yaxın düşmən əsgərini məhv etmişdir.Ən böyük arzusu Şuşaya bayraq sancmaq idi. O,noyabrın 8-də Şuşa uğrunda döyüşlərdə həlak oldu,Vətənə üç övladı yadigar qaldı.

Babək rayonu Cəhri kəndində doğulmuş Xansu Qarabağda döyüşlərdə iştirak etmiş, Şuşaya ilk daxil olan döyüşçülərdən biri idi.Döyüş dostları ona cəsurluğuna görə "Ölümsüz" ləqəbini vermişlər.O, qələbəyə iki saat qalmış həlak olmuşdur. Döyüş maşınının komandiri Rəşad Məmmədov 6 noyabrda Şuşa uğrunda döyüşdə bütün heyətlə birlikdə həlak oldu.

Düşmənin zirehli texnikasının qənimi olan 21 yaşlı Xəyal Əliyev ata yurdu Füzulinin, Yevlaxdan olan Əkbər Tağıyev və Özal Yusifli Suqovuşanın azad olunması uğrunda döyüşlərdə həlak oldular. Xudayar Yusifzadə "Vətən yaxşıdır"(sözləri Əliağa Vahidin,musiqisi Əlibaba Məmmədovun) mahnısı ilə əbədiyyətə qovuşdu.Dövlət Cəbrayılzadə general Polad Həşımovun qisasını alaraq erməni generalı və polkovnikini öldürmüş.sonda özü şəhid olmuşdur. Mühariədə elə ailələr oldu (Lerikdə, Mingəçevirdə) ki, Vətənə iki oğul qurban verdi.

Vətən müharibəsində şəhid olanlar haqqında statistik məlumatlar bir neçə dəfə dəyişmişdir. Ən son məlumata görə 2907 nəfər döyüşçümüz şəhid olmuş,4 nəfər isə itkin düşmüşdür. Əsgərlərimiz göstərdikləri şücaətə görə orden və medallarla təltif olunmuşdur. 83 nəfər hərbçiyə respublikanın ən ali fərqləndirmə dərəcəsi olan "Vətən müharibəsi Qəhrəmanı" adı və bu adın fərqlənmə nişanı olan "Vətən müharibəsi" medalı verilmişdir. Onların arasında yüksək rütbəli zabtlər: İlham Mehdiyev, Hikmət Mirzəyev, Namiq İslamzadə, Zaur Məmmədov və başqaları da vardır.

Xarici siyasət. Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətin əsas istiqamətlərini:yeni dünya düzənində respublikamızın mövqeyinin möhkəmləndirilməsi, dünyanın taleyini həll edən iri dövlətlərlə münasibətdə balanslaşdırılmış siyasət, qonşu dövlətlərlə qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi, Azərbaycanın geosiyasi mövqeyindən ölkənin iqtisadi və siyasi maraqları üçün istifadə olunması təşkil edir.Artıq Dağlıq Qarabağ münaqişəsinin uğurlu həlli möhtəşəm hərbi-diplomatik qələbədir.

2003-cü il sentyabrın 24-də BMT Baş Məclisinin 58-ci sessiyasındakı çıxışında İlham Əliyev Ermənistanın işğalçı dövlət olması həqiqətini dünyaya çatdırdı. Bildirdi ki, Azərbaycan heç zaman işğal faktı ilə razılaşmayacaq və torpaqlarının bir qarışını belə heç kimə verməyəcəkdir.

Hazırda Azərbaycan hökuməti xarici siyasətini iki xətt üzərindən həyata keçirir: Azərbaycan-Türkiyə və Azərbaycan-İsrail. Azərbaycan Respublikası fəal xarici siyasət yeritmək üçün müxtəlif təşkilati tədbirlər həyata keçirir. Xarici ölkələrdə diplomatik nümayəndəliklərin açılmasına mühüm diqqət yetrilir. 1991-2014-cü illərdə Azərbaycan Respublikasının Avstraliyadan başqa dünyanın bütün qitələrində 71 nümayəndəliyi açılmışdır. 2018-ci ildə Azərbaycanda iqamətgahı Bakıda olmaqla 65 ölkənin səfirliyi, 20 beynəlxalq təşkilatın nümayəndəliyi və 12 fəxri konsulluq akkreditasiya (vəkil) olunmuşdur. Bunların içərisində 25 səfirlik Avropa ölkələrinə məxsusdur.

Azərbaycan əvvəlki tək türk dövlətləri ilə münasibətlərə müstəsna üstünlük verir.Türk Dövlət başçılarının tədbirlərində fəal iştirak edirdi. Türk Dövlət başçılarının Antalyadakı (2006-cı il avqust)8-ci Zirvə toplantısında Türk Parlament Assambleyasının yaradılmasına dair Qazaxıstanın təklifi qəbul edildi. Bu qərara əsasən 2008-ci ilin noyabrında İstanbulda Türk dövlətlərinin Parlament Assambleyası yarandı. Parlament Assambleyasının yaradılması ilə bağlı keçrilən konfransda Azərbaycan, Türkiyə, Qırğızıstan parlamentlərinin sədrləri və Qazaxıstan Parlamenti sədrinin müavini iştirak etmişdir. Parlament Assambleyasının toplantıları ildə bir dəfədən az olmayaraq keçrilməli idi.

2009-cu ilin oktyabrında Naxçıvanda Türk Dövlət başçılarının 9-cu Zirvə görüşü keçrildi. Sammitdə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan prezidentləri iştirak edirdi. Türkmənistan öz nümayəndəsi ilə təmsil olunurdu. Özbəkistan isə bu sammitdə iştirak etmirdi. Naxçıvan sammitində türk dövlətlərinin Əməkdaşlıq Şurasının yaradılması barədə saziş və "Naxçıvan Bəyannaməsi" imzalandı. 2010-cu ilin sentyabrında İstanbulda keçirilən 10-cu

Zirvə toplantısında Türkiyə prezidenti Abdulla Gül, Azərbaycan prezidenti İlham Əliyev, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov, Qırğızıstanın keçid dövrü prezidenti R.Otunbayeva iştirak edirdilər. Özbəkistan bu Zirvədə yox idi.

Türk Dövlətləri Təşkilatı türk xalqları arasında hərtərəfli əməkdaşlığı genişləndirmək məqsədi ilə yaradılmış beynəlxalq təşkilatdır. Bu təşkilat Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstanın təşəbbüsü ilə 2009-cu il oktyabrın 3-də Türk Şurası adı ilə yaradılmışdı. Həmin gün həm də Türkdilli Dövlətlərin Əməkdaşlıq Günü elan edilib və bu tarix Türk Şurasının yaradılmasının ildönümü hesab olunur.

2021-ci ilin noyabrın 12-də isə İstanbulda keçirilən Türk Şurası Liderlərinin 8-ci Zirvə toplantısında Türk Şurasının adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatı adlandırıldı. Türk Şurasının yaradılmasında məqsəd türkdilli ölkələr arasında əməkdaşlığı dərinləşdirmək, regional sülh və sabitliyə töhfə vermək olub. Razılaşmaya əsasən, ölkələr xarici siyasət məsələlərində vahid mövqedən çıxış etməli, terrorizm və cinayətkarlığa qarşı mübarizədə fəaliyyətlərini əlaqələndirməli, ticarət və investisiyalar üçün əlverişli mühit yaratmalı, hərtərəfli iqtisadi inkişafı təmin etməli, elm, texnologiya, elmi-texniki sahədə əməkdaşlığı genişləndirməlidir. Qeyd edək ki, təşkilatın üzvü olan beş ölkə: Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan, müşahidəçilər - Macarıstan və Türkmənistandır. 2025-ci ilin yanvarın 7-də Prezident İlham Əliyev televiziya kanallarına müsahibəsində dünyaya açıq-aşkar bəyan etdi ki, biz nə Qərbin (Avropanın), nə də Şərqin(Rusiyanın) yanındayıq, bizim yerimiz türk birliyindədir.

2019-cu ildə Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmləndi, ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçrildi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşündə Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etmişdir. Azərbaycan 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına 2011-ci ildə üzv olmuşdur. Hərəkata üzv ölkələrin dövlət

və hökumət başçılarının 2016-cı ildə kecirilmiş 17-ci Zirvə görüşündə növbəti sammitin Bakıda keçrilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsı barədə yekdil qərar qəbul etmişdir. 18-ci Zirvə görüşü (2019-cu il oktyabr) Bakıda keçrilmişdir. Bu göstərir ki, dünya birliyinin böyük əksəriyyəti Azərbaycana etimad göstərir,onu dəstəkləyir.

Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli siyasətimizin əsas istiqaməti olmuşdur. Lakin bütün səylərə baxmayaraq bu məsələ 2020-ci ilədək həll olunmamışdır. Bunun əsas səbəbi Rusiyanın himayə etdiyi Ermənistanın qeyri-konstruktiv mövqeyi və danışıqlar prosesini süni şəkildə uzatmaq taktikası idi.

Digər səbəblər isə nüfuzlu beynəlxalq təşkilatların və böyük dövlətlərin xristian təəssübkeşliyindən çıxış edərək Ermənistana beynəlxalq hüquq normalarına əməl etməyi ciddi tələb etməmələri idi. Prezident İlham Əliyev bildirirdi: ”Dağlıq Qarabağın Azərbaycandan ayrılması mexanizmləri yoxdur və ola da bilməz... Bütün təzyiqlərə baxmayaraq, biz bu mövqeyi axıradək müdafiə edəcəyik".

Beynəlxalq hüquqa və Minsk qrupunun həmsədri kimi bitərəflik prinsipinə zidd olaraq Fransa açıq-aşkar təcavüzkar Ermənistanı dəstəkləyirdi və dəstəkləməkdədir. Fransa senatına ermənipərəst siyasətçilər qondarma “DQR"nın tanınmasının zəruriliyi haqqında 145 saylı qərar layihəsi təqdim etmişlər və 2020-ci il noyabrın 25-də layihə müzakirə edilərək qəbul edilmişdir.

2020-ci il noyabrın 26-da Fransanın Azərbaycandakı səfiri Azərbaycan Respublikası Xarici işlər nazirliyinə çağrılaraq 2020-ci ilin 25 noyabr tarixində Fransa senatı tərəfindən “Dağlıq Qarabağ Respublikasının tanınması zərurəti“ adlı qətnaməsinin qəbul edilməsi ilə əlaqədar nazirliyin etiraz notasını təqdim etmişdir. Rusiya və İran kimi qələbəmizi həzm etməyən Fransa da Laçın postunu zorla açaraq Qarabağ ermənilərinə yardım etmək, hətta qoşun göndəmək istədi.

Azərbaycan xarici siyasətdə beynəlxlaq təşkilatlarla - BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurası, NATO və s. əməkdaşlığa xüsusi önəm verir, lakin onlara bəslənən ümidlər çox zaman özünü doğrultmurdu. Onların bəzisi münaqişənin əvvəlində bizi məğlubiyyətimizlə barışıb torpaqlarımızı Ermənistana verməyə çağırırdılar. Belə olduqda Azərbaycan hökuməti İslam təşkilatları ilə əlaqələri genişləndirdi. Prezident İlham Əliyev 2005-ci ildə Məkkə şəhərində (Səudiyyə Ərəbistanı) keçrilən İslam Konfransı Təşkilatının (İKT) 3-cü Fövqəladə Zirvə toplantısında və 2006 -cı il İKT üzvü olan ölkələrin Xarici İşlər Nazirlər Şurasının 33-cü sessiyasında iştirak etmiş, ölkəmizin həyatı, Dağlıq Qarabağ münaqişəsinin mövcud durumu, Ermənistanın təcavüzü haqqında məlumat vermişdir.

Azad Xankəndi beynəlxalq tədbirlərin keçrildiyi yeni regional mərkəzə çevrilir. 2025-ci il iyulun 4-də Xankəndində İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) 17-ci Zirvə görüşü keçrilmişdir. Görüşdə Türkiyə prezidenti Rəcəb Tayib Ərdoğan, İran prezidenti Məsud Pezeşkian, Pakistanın baş naziri Şahbaz Şərif, Özbəkistan prezidenti Şavqat Mirziyoyev, Qırğızıstan prezidenti Sadır Jafarov və 3 müşahidəçi dövlətin nümayəndəsi, o cümlədən Talibanın (Əfqanıstan) nümayəndəsi, Quzey Kiprin lideri Ərsin Tatar da iştirak edirdi. Zirvə görüşünün əsas mövzusu "Dayanıqlı iqtisadi inkişaf və iqlimə uyğun regional əməkdaşlığın qurulması" idi. Görüşə belə bir deviz seçilməsi Qarabağ və Zəngəzuru artıq sabitlik və dirçəliş məkanı olmasının təsdiqi, bu istiqamətdə görülən işlərin beynəlxalq müstəvidə təqdimatı idi. Görüşün başlıca məqsədi təşkilat üzvlərinin iqtisadi əməkdaşlığını dərinləşdirmək idi. Görüşdə Şuşa şəhərinin 2026-cı il üçün "İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı" seçilməsi ilə bağlı prezident İlham Əliyev məlumat verib.

Müharibə bitdkdən sonra prezident İlham Əliyev Ermənisatana sülh danışıqlarına başlamağı təklif etdi. İlham Əliyev və Ərdoğan 3+3 əməkdaşlıq formulunu irəli sürdülər. 2022-ci ilin oktyabrın 6-da Praqada İlham Əliyev, N.Paşinyan, E. Makron və Avropa İttifaqı

Şurasının prezidenti Ş.Mişelin iştirakı ilə keçrilən görüşdə Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü tanıyan 1991-ci il Alma-Ata bəyannaməsinə sadiqliyini bildirdilər. Bu Ermənistanın rəsmən Dağlıq Qarabağdan imtinası demək idi. Hansı ki, N.Paşinyan 2019-cu ildə "Qarabağ Ermənistandır",-nöqtə demişdir. Şuşada sərxoş olub "yallı" getmişdir.

2025-ci ilin yazında Azərbaycan və Ermənistan 17 maddədən ibarət sülh mətnini razılaşdırdılar. İlham Əliyev bildirdi ki, Konstitusiyanızdan ölkəmizə qaşı ərazi iddiasını çıxardın və ATƏT-in Minsk qrupunun buraxılmasına müracət edin,sonra sülh imzalayaq.Ermənistan razılaşdı.

ABŞ və Türkiyənin xeyir-duası ilə 2025-ci il iyulun 10-da Əbu-Dabidə (BƏƏ) iki dövlət arasında sülh məsələsini müzakirə etmək üçün İlham Əliyevlə N.Paşınyan vasitəçilər olmadan görüşdülər. Danışıqlar zamanı sərhədlərin delimitasiyası və demarkasiyası, sülh müqaviləsi məsələləri müzakirə olundu. ABŞ hökuməti, Rusiya prezidentinin mətbuat katibi D.Peskov görüşü alqışladı. Lakin az keçməmiş Rusiya XİN-nin birinci müavini bildirdi ki,üçtərəfli bəyanatın iştirakçısı kimi biz də həmin danışıqlar masasında olmalıydıq.

Abu-Dabi görüşünün davamı ABŞ-ın patronajlığı ilə Vaşinqtonda davam etdi. Qeyd etmək lazımdır ki, dünyanın ən güclü dövləti olan ABŞ-la Azərbaycanın münasibətləri bütün zamanlarda sabit olmamışdır. Prezident İlham Əliyev 3-cü Şuşa Media Forumunda (2025) demokratların hakimiyyəti dövründə (xüsusən C.Baydenin) Azərbaycanla münasibətlərdə gərginlik yaşandığını, respublikaçı hökümətlərin, o cümlədən D.Trampın birinci prezidentliyi dövründə münasibətlərin normal olduğunu qeyd etmişdir.D.Tramp ikinci dəfə prezident seçildikdən sonra Azərbaycanla Ermənistan tezliklə sülh bağlanması yolunda səylərini əsirgəmədi. O, Azərbaycan prezidenti İlham Əliyevi və Ermənistanın Baş naziri Nikol Paşinyanı Vaşinqtona dəvət etdi. 2025-ci il avqustun 8-də Ağ Evdə Azərbaycan Respublikası hökuməti ilə ABŞ hökuməti arasında Anlaşma Memorandumu,

Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin Vaşinqton görüşünə dair D.Tramp, İ.Əliyev və N.Paşinyan tərəfindən Birgə Bəyannamə imzalandı. Azərbaycan və Ermənistanin Xarici işlər nazirləri (Ceyhun Bayramov və Ararat Mirzoyan) sülhə dair saziş layihəsini parafladılar və ATƏT-in fəaliyyətdə olan sədrinə Minsk qrupunun buraxılmasına dair birgə müraciət imzaladılar. Bununla da Ağ Evdə Cənubi Qafqazda uzunmüddətli sülhə, sabitliyə aparan yolun başlanğıcı qoyuldu. N.Paşinyan və İ.Əliyev sülhpərvər əməllərinə görə D.Trampın Nobel beynəlxalq sülh mükafatına layiq görülməsi barədə namizədliyini müdafiə etdilər. Bu Rusiya xarici siyasətinin böyük uğursuzluğu idi. Çünki Azərbaycanla Ermənistan arasında sülh bağlanmasına mane olduğu üçün,səmimi olmadığı üçün Rusiya özünü bu prosesdən kənarda qoydu. Həmçinin ABŞ lideri "Azadlığı müdafiə Aktı"nın icrasını dayandıran sənədi də imzaladı. ABŞ Konqresu Azərbaycana qarşı bu ədalətsz sənədi 1992-ci ilin oktyabrında qəbul etmişdi. Səbəbi də bu idi ki, guya respublikamız Ermənistanı mühasirədə saxlayır. Ona görə də ABŞ Konqresi Azərbaycana dövlət yardımını 907 saylı düzəlişlə qadağan etmişdi. 2025-ci il sentyabrın 1-də ATƏT Minsk qrupunun buraxılması barədə qərar qəbul etdi.Vaşinqton görüşü İlham Əliyev diplomatiyasının tarixi naliyyətidir. ABŞ lideri İlham Əliyevə Ağ evin simvolik açarını təqdim etdi, nəvələrinə isə doqquz qiymətli sikkə bağışladı. ABŞ-ın bəzi nüfuzlu şəxsləri Azərbaycanın İsraillə Ərəb ölkələri arasında bağlanmış "Avraam sazişinə" (İbrahim sazişi) qoşulmasını dəstəkləyir.Bu da ölkəmizə müəyyən dividendlər gətirmiş olar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib.

Rusiya-Azərbaycana münasibətləri Putinin hakimiyyəti dövründə nisbətən sabit idi. Baxmayaraq ki, Rusiya səmimi tərəfmüqabil deyil. İki fakta diqqət edək. Xarici mətbuat nümayəndələri ilə görüşdə o, deyir ki,beynəlxalq hüquqa görə Qarabağın erməni əhalisinin öz müqəddəratını təyin etmək hüququ varmı? Cavab verir ki,var. Bu barədə referendum keçirib öz

müstəqilliyini elan edə bilərmi? Edə bilər.Biz bu müstəqilliyi tanıya bilərikmi? Bilərik. Bu açıq-aşkar separatizmi dəstəkləməkdir. Görüşdə iştirak edənlərdən kimsə sual vermədi ki, siz Rusiyada yaşayan yerli qeyri-rus xalqlarına (muxtariyyətlərə) belə bir hüquq verərsinzmi?

44 günlük müharibə ilə bağlı V.Putin Rusiya dövlət televizyasına müsahibəsində bildirdi ki, müharibədə Ermənistan bizdən nə istədisə, hamısını verdik.O,bu müharibədə bizim qələbəmizə inanmırdı.

2025-ci ilin əvvəllərindən başlayaraq Azərbaycan-Rusiya münasibətləri heç vaxt olmadığı qədər gərginləşməyə başladı. Baxmayaraq ki, 2022-ci il fevralın 22-də Moskvada V.Putin və İ.Əliyev arasında ”Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qarşılıqlı fəliyyət haqqında” Bəyannamə imzalanmışdır. Gərginliyin günahkarı Rusiyanın özü idi. Məsələ ondadır ki, 2024-cü ilin dekabrın 25-də Azərbaycana məxsus Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsi Qazaxistanın Aktau şəhəri yaxınlığında qəzaya uğradı. Nəticədə təyyarədəki 67nəfərdən(5 ekipaj heyəti) 38 nəfəri, o cümlədən 23 nəfər bizim vətəndaş həlak oldu. Təyyarə Qroznı şəhəri səmasında ruslar tərəfindən raketlə vurulmuş, ekipaja yaxınlıqdakı hava limanlarına enməyə icazə verilməmiş, cinayətin izini itirmək üçün Xəzər dənizi istiqamətinə yönləndirilmişdi. Azərbaycan prezidenti öz dövlətinin və vətəndaşlarının haqqını müdafiə edərək Rusiya rəhbərliyi qarşısında üç tələb qoydu:təyyarənin vurulmasını etiraf etməli və üzr istəməli; cinayətkarları cəzalandırmalı; həlak olanların, yaralananların ailələrinə və Azərbaycan dövlətinə kompensasiya ödəməli. Rusiya bu tələbləri qarşılamaq əvəzinə ölkəmizə qarşı aqressiv və təkəbbürlü davranmağa başladı. Bir sıra təxribatlara əl atdı. 2025-ci ilin fevralında Rusiya ölkəmizin elektron sisteminə kiberhücumlar təşkil etdi.Lakin Azərbaycanın münasibətləri gərginləşdirmək məqsədi yox idi.Sadəcə tələblərin yerinə yetirilməsini istəyirdi.V.Putin İ.Əliyevi Faşist Almaniyası üzərində qələbənin 80 illiyi münasibəti ilə 2025-ci il il 9 Mayda Moskvada keçirilən

parada dəvət etdi.Azərbaycanı təmsil etmək üçün oraya bir dəstə xüsusi təyinatlı əsgərimiz göndərilsə də İlham Əliyev bu tədbirdə iştirak etmədi. Qəzəblənmiş Putin hökuməti Azərbaycanın suveren,müstəqil siyasət apardığını görüb Rusiyada yaşayan azərbaycanlılardan qisas almağa başladı. Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında Prezident İlham Əliyevin 2004-cü il aprelin 13-15-də qardaş ölkəyə rəsmi səfəri mühüm rol oynadı. Səfər zamanı İ.Əliyev prezident Ə.N.Sezər, Baş nazir R.T.Ərdoğan, Böyük Millət Məclisinin sədri Büləndd Arınç və digər rəsmi şəxslərlə görüşdü, parlament üzvləri qarşısında çıxışında dedi ki: "Türkiyəni özümə vətən hesab edirəm.Amma prezident kimi bu mənim ilk səfərimdir.Bu gün tam qətiyyətlə deyə bilərəm ki, bu səfər iki ölkə arasında olan münasibətlərin inkişafında mühüm rol oynayacaqdır". Görüşdə Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəmərinin və Bakı-Ərzurum qaz kəmərinin tikintisi, Xəzərin enerji ehtiyatlarının bu kəmərlər vasitəsi ilə nəqli, Dağlıq Qarabağ münaqişəsi və s. məsələlər müzakirə olunmuşdur. İlham Əliyev 2004-ci il aprelin 14-də Ankara yaxınlığında, mərhum prezident Heydər Əliyevin xatirəsinə həsr olunmuş 75 hektarlıq parkın açılışında iştirak etmişdir.Ankara valisi çıxışında demişdir ki, burada 81 min ağac əkilməsi nəzərdə tutulmuşdur (Heydər Əliyevin yaşı qədər). Türkiyə ilə əməkdaşlığın dərinləşməsi həm regional təhlükəsizliyin və sabitliyin qorunmasında, həm də Azərbaycanın Avropa dövlətləri ilə sıx inteqrasiya olunmasında Türkiyənin potensialından səmərəli bəhrələnməyə geniş imkanlar açır. 2008-ci ilin avqust hadisələrindən (Gürcüstana Rusiya müdaxiləsi) dərs götürən ABŞ bölgədə Rusiyanın mövqeyini zəiflətmək, özünün enerji maraqlarına təminatı gücləndirmək, habelə Orta Asiya regionuna, onun zəngin karbohidrogen resurslarına etibarlı çıxış əldə etmək üçün köhnə düşmənlər - Türkiyə və Ermənistanı barışdırmaq istəyirdi. ABŞ bununla da region ölkələrinə Moskvanın təsirini azaltmağa çalışır. Lakin bu zaman Qarabağ məsələsinin arxa plana sürüşdürülməsi, məsələnin həll edilməməsi Bakını ABŞ-ın bu siyasətindən narazı salmışdır.

16 avqust 2010-cu ildə Türkiyə - Azərbaycan arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalanmışdır. Bakıda Gülüstan sarayında keçrilmiş ziyafətdə A.Gül demişdir: ”Azərbaycanın problemi Türkiyənin problemidir. Türkiyənin dərdi Azərbaycanın dərdi olacaqdır. Azərbaycanın ərazi bütövlüyü, Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi sadəcə sizin məsələniz deyil, hamımızın məsələsidir.Mən ikinci vətənimdəyəm”,- deyən Türkiyə prezidenti bununla həm də ikinci vətəninin köklü maraqlarına ölkəsinin heç vaxt laqeyd olmayacağı, Azərbaycanı tək qoymayacağı barədə lazımı ünvanlara mesajlar çatdırdı.

Göründüyü kimi, Azərbaycan ilə Türkiyə münasibətlərinin strateji əməkdaşlıq xarakteri kəsb etməsi nəinki hər iki dövlətin mənafelərini təmin edir, eləcə də bütün regionda sabitliyin qorunması, sosial-iqtisadi tərəqqi və inteqrasiya üçün əlverişli şəraitin yaradılmasına təsir göstərən mühüm amil rolunu oynayır. Çoxşaxəli xarici siyasət kursu yürüdən Azərbaycan Respublikası Avropa strukturları ilə hərtərəfli inteqrasiya xəttini həyata keçirsə də, Türkiyə ilə qarşılıqlı münasibətlərin inkişafına xüsusi diqqət yetirir.Vətən müharbəsində olduğu kimi, indi də Türkiyə Azərbaycanın əsas dayağıdır.Şuşa bəyannaməsi (2021) bu əməkdaşlığın məhək daşıdır.

İranla münasibətlərdə Azərbaycan hər zaman qədim tarixi köklərə və beynəlxalq hüquqa söykənən prinsipləri əsas tutmuşdur. Lakin 2012-ci ilin mayında Azərbaycan Respublikası ilə münasibətlər aşağıdakı səbəblər üzündən çox gərginləşdi: Azərbaycanda islami rejimin qurulmasını hökumətimizin qəbul etməməsi; İranın özünə düşmən saydığı İsraillə Azərbaycanın sıx əlaqələr qurması; Xəzərin bölgüsü məsələlərində iki dövlətin fərqli mövqe tutması; Azərbaycanın NATO ilə əməkdaşlığa meyl etməsi; müstəqil dövlət olaraq Azərbaycanın varlığı. Bu zaman prezident İlham Əliyev İran ilə münasibətləri dialoq yolu ilə öz axarına sala bilmişdi. Torpaqlarımızın 30 ilə yaxın işğal altında qalmasında Rusiya kimi İran da Ermənistana çox kömək etdi. Vətən müharibəsi

dövründə də silah, yanacaq, ərzaq, kəşfiyyat materialları,terrorçu dəstələri göndərməklə böyük yardım etdi. Müharibədən sonra da təzyiqlər davam etdi: İran rəsmiləri Azərbayan hökumətini "Bakı rejimi" adlandırır, Qüdsə yol Bakıdan keçir, Şirin quyruğu ilə oynamayın, İsraillə əlaqəni kəsin, Zəngəzur bizim qırmızı xəttimizdir, Ermənistanın sərhədlərini kimsə dəyişdirə bilməz və digər bu kimi ruhda hədə-qoxular gəlirdi. SEPAH sərhədlərimizə qoşun yığır, hərbi manevrlər keçirirdi.Türkiyə isə hər zaman olduğu kimi "Azərbaycana hücum edən qarşısında bizi görər", - bildirirdi.

Azərbaycan Gürcüstanla münasibətlərdə çoxtərəfli əlaqələrin genişlənməsi, hər iki tərəfin təhlükəsizliyinə və iqtisadi faydasına yönəlmiş xətti əsas tutur. 2008-ci il avqustun 8-də Gürcüstan Rusiyanın təcavüzünə məruz qalanda Respublikamız M.Saakaşvili hökumətinə hər cür cür yardım etdi. Lakin 44 günlük müharibədə Gürcüstan bitərəf mövqe tutdu. Hal-hazırda Azərbycanla Gürcüstan arasında yüksək səviyyədə münasibətlər mövcuddur.

Mərkəzi Asiya respublikalarının əhalisi Vətən müharibəsi dövründə Azərbaycanı açıq dəstəkləsələr də, hökumətləri Rusiyanın qorxusundan buna səssiz qaldılar. Rusiya Qazaxistanın, Türkmənistanın,İranın hava məkanından istifadə edərək Ermənistana silah göndərirdi.

Azərbaycan dünyanın yeni güc mərkəzi Çinlə əlaqələrin genişlənməsinə xüsusi önəm verir.Prezident İlham Əliyevin Çin Xalq Respublikasına səfəri çərçivəsində 2005-ci il martın 18-də Azərbaycan-Çin biznes Forumu keçrildi. Forumda respublikamızın 40 şirkətinin və Çinin 400-dək şirkətinin nümayəndələri iştirak etmişdir. Məlumdur ki, 2005-ci ildə Çin iqtisadi miqyasına görə dünyada 1-ci yeri tuturdu. 22- 24 aprel 2025-ci il tarixdə prezident İlham Əliyev Çinin Sədri Si Sinpinlə, Çinin Baş naziri və başqa rəsmi şəxslərlə göüşdü. Prezident İlham Əliyevin Çinə dövlət səfəri öz möhtəşəm qarşılanma törəni ilə dünyanın diqqətini cəlb etdi,əməkdaşlığa dair bir sıra mühüm sənədlər imzalandı,o cümlədən viza rejimi ləğv edildi. Azərbaycan Çinin bir kəmər bir yol layihəsinə daxil olan orta dəhlizin dinamik inkişafında fəal

iştirak edir.Çin hökümətinin dəvəti ilə prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Çinin Tyanjin şəhərində keçrilən Şanxay Əməkdaşlıq Təşkilatının illik Sammitində (2025-ci il, 31 avqust-1 sentyabr) iştirak etmişlər.Azərbaycanın bu təşkilata üzv olmasına Rusiyanın təsirilə Hindistan veto qoydu. Buna görə də Pakistan da Ermənistanın həmin təşkilata üzv olmasına veto qoydu.Prezident və Birinici vitse-prezident 3 sentyabrda Pekində Yapon işğalına qarşı Çin Xalq Müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış qələbənin 80-ci ildönümünə həsr olunmuş paradda iştirak etmişlər.

2024-cü il noyabrın 12-22-də Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP) 29-cu sessiyasının ölkəmizdə keçrilməsi və 2025-ci il 19 martda ölkəmizin 8 müsəlman ölkəsini birləşdirən D-8 (İqtisadi Əməkdaşlıq Təşkilatına üzv qəbul edilməsi Azərbaycanın artan nüfuzunu göstərir.

İşğaldan azad olunmuş ərazilərdə bərpa quruculuq işləri. Böyük Qayıdış. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hazırladığı hesabatda işğalın 22 ili ərzində ümumilikdə ölkəmizə dəyən ziyan 265 milyard 281 milyon 198 min 203 dollar civarında müəyyən edilmişdir. Bu barədə digər rəqəmlər də göstərilir. Cənubi Qafqazın "Xirosiması" adlandırılan Ağdamda Ermənistanın törətdiyi dağıntılar nüvə silahının törətdiyi dağıntılardan daha pis olmuşdur. 23 noyabr 2020-ci ildə prezident İlham Əliyev Ağdama ilk səfəri zamanı demişdir ki, burada bir dənə də salamat bina qalmamışdır. Ağdam şəhəri erməni vəhşiliyinin şahididir.

Ermənistan beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş müharibə qaydalarını pozaraq mülki insanların yaşayış məntəqələrini, mülki obyektləri, mənzilləri, dinc əhalini atəşə tuturdu. Nəticədə 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək ölkəmizdə 92 mülki şəxs həlak olmuş, 404 nəfər xəsarət almış, 2971 ev,100 çoxmənzilli yaşayış binası və 502 mülki obyekt yararsız vəziyyətə düşmüşdür. Müharibənin ilk 11 günü ərzində düşmən Tərtər rayonuna 9809 artilleriya mərmisi atmışdır. Tərtər

şəhərinin əhalisi dəhşətli bombardmana baxmayaraq zirzəmilərə sığınıb doğma şəhəri tərk etmirdilər. Nahaq yerə deyil ki, Tərtəri "Azərbaycanın Stalinqradı" adlandırdılar.

Dağıntılara məruz qalmış şəhərlərimizdən biri Bərdə idi. 8 oktyabr 2020-ci ildə Ermənistan hərbçiləri Bərdəyə raket zərbəsi endirmiş, nəticədə ölən və yaralananlar olmuşdur.

İşğal olunmuş ərazilərimizdə ermənilər 67 məscidi dağıtmışlar.Həmçinin Şuşadakı 17 məsciddən 16-nı uçurtmuşlar, müsəlman aləminin rəğbətini qazanmaq üçün yalnız bir məscidi – Yuxarı Gövhərağa məscidini İran şirkətinə təmir etdirmişlər. Ermənilər məscidlərimizdə donuz, inək saxlayır, qətliamlar törədirdilər. 23 dekabr 2020-ci ildə İlham Əliyev Qubadlı və Cəbrayıl rayonlarına səfəri zamanı erməni vandallarının törətdiyi dağıntılara münasibət bildirərək demişdir ki, heç İkinci Dünya müharibəsində faşistlər belə dağıntı törətməyib. İlham Əliyev erməni vandallarını belə xarakterizə etmişdir: saxtakarlar, oğrular, yalançılar.

Azərbayan hökuməti doğru addım ataraq Ermənistanın vəhşi əməllərini əyani göstərmək üçün işğaldan azad olunmuş və cəbhəyanı rayonlara ölkəmizdəki diplomatik korpusun nümayəndələrinin mütəmadi səfərlərini təşkil edirdi. Hikmət Hacıyev 2021-ci il oktyabrın 16-da Tərtərdə səfərdə olan Azərbaycandakı diplomatik korpusun nümayəndələrinə ermənilərin raket və artilleriya atəşi nəticəsində bu rayonda törədilən dağıntılar barədə məlumat vermişdir. Tərtərin Şıxarx(ermənilərin Marağa adlandırdığı) qəsəbəsində Azərbaycandakı diplomatik korpusun nümayəndələri xatirə olaraq 150 şam ağacı əkmişlər.Onlara bildirilmişdir ki, 1978-ci ildə burada-Ağdərə rayonunda (keçmiş Mardakert) ermənilər Güney Azərbaycanın Marağa şəhərindən 200 erməni ailəsinin buraya gəlmələrinin 150 illiyi ilə bağlı abidə qoymuşlar. 1828-ci il Türkmənçay müqaviləsinə görə ermənilərin Qafqaza, xüsusilə Azərbaycana köçürülməsi başlanıb.Üzərində ermənicə "Marağa-150" yazılmış bu abidə 1988-ci ildə Azərbaycana qarşı ərazi iddiaları qaldıran ermənilərin özləri tərəfindən dağıdılıb.

Biz bu ərazini bərpa edib gələcək nəsillərə ötürəcəyik. Qoy onlar bilsinlər ki, ermənilər buraya köçürülüblər və ona uyğun olaraq da buranın adını Marağa qoyublar.

İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetlərindən biridir.Bu istiqamətdə I Dövlət Proqramı 2022-ci ilin noyabrın 16-da təsdiq olunmuşdur, I mərhələ 2022 -2026-cı illəri əhatə edir. Prezident İlham Əliyev müharibədən dərhal sonra işğaldan azad olunan ərazilərin sürətlə bərpası məsələsini ən vacib vəzifə hesab etdi. O,bildirdi ki, Baş planlar təsdiq olunduqdan sonra bərpa işləri azad edilmiş bütün torpaqlarda başlanacaq. Elə də oldu. Hava limanı istismara verilməzdən öncə buraya sınaq uçuşları həyata keçrildi. 5 sentyabr 2021-ci ildə Bakıdan H.Əliyev adına hava limanından qalxan "Qarabağ" adlı A340-500 tipli sərnişin təyyarəsi Füzuli hava limanına sınaq reysi etdi. Elə həmin gün Azərbaycanın "Silk vey" aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən olan "Boinq 747-400" tipli təyyarə də Füzuli hava limanına eniş etdi. Bu təyyarə ilk dəfə Qarabağa hava yolu ilə yükləri çatdırdı. Zəngilan və Laçında da hava limanları tikildi. Hava limanlarının açılışında Türkiyə prezidenti Ərdoğan da iştirak etdi.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli rayonuna səfərləri zamanı (17.01.2021-ci il) bir sıra sosial obyektlərin təməlini qoymuşlar.İşğal illərində ermənilər hər şeyi daşıyıb aparırdılar,yalnız talançılıqla,söküb-dağıtmaqla məşğul olublar.Dövlət başçısı İlham Əliyev dediyi kimi,burdan sanki vəhşi qəbilə keçmişdir.

Müharibədən sonrakı dövrdə ölkəmizdə əsas diqqət işğaldan azad olunmuş ərazilərin bərpa edilməsinə, yenidən qurulmasına yönəldilmişdir. Bu işlərin görülməsi üçün əvvəl ərazilərimizin minalardan təmizlənməsi, təhlükəsizliyin təmin edilməsi vacib idi.

Bərpa işlərinin uğurla həyata keçrilməsi üçün ikinci vacib şərt azad edilmiş torpaqlara aparan yolların çəkilməsi idi. Qarabağın bərpası da məhz yollardan başlayır. Çəkilən yollardan biri 2020-2021-ci illərdə inşa olunmuş Zəfər yoludur (Əhmədbəyli -Füzuli-

Şuşa yoli). Bölgədə görülən bütün quruculuq işlərinə Prezidentin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahı rəhbərlik edirdi.

Ən mühüm məsələlərdən biri də bölgənin elektrik energisi ilə təmin olunmasıdır. Buna görə azad olunmuş bütün rayonlarda əhalinin ehtiyaclarını təmin etmək üçün yarımstansiyalar qurulmuşdur. Suqovuşan su anbarı vasitəsilə azad olunmuş 30 min hektara yaxın ərazi suvarma suyu ilə təmin olunmuşdur.

Düşməndən təmizlənmiş ərazilərdə "ağıllı kənd" layihələri həyata keçirilir."Ağıllı kənd" özündə kooperativ idarəetmə sistemi, müasir texnologiyalar əsasında qurulmuş tarla, bağ və fermaları, dronlar vasitəsilə idarəetmə və nəzarəti ehtiva edir. Ağıllı təsərrüfatlar kəndlərdə meyvə, tərəvəz, ət və süd məhsulları istehsalını artırmağa, emal prosesini müasir tələblərə uyğun qurmağa imkan verir.

Qarabağ müharibəsi şəhidlərinin adına bulaq və abidələrin qurulması və təmiri sahəsində işlər görülmüşdür.2021-ci il oktyabrın 17-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli rayonunun düşməndən azad olunmasının bir illiyi münasibətilə bu rayona səfər etmişlər. Onlar bir il ərzində rayonda tikilmiş sosial obyektlərin açılışında iştirak etmiş, yeni inşa ediləcək obyektlərin təməl daşını qoymuşlar.

Qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonundakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 12 milyard manat vəsait xərclənmişdir. 2024-cü ilin dövlət büdcəsindən bərpa-quruculuq işlərinə 4 milyard manat vəsait ayrılmışdır. Azad edilmiş ərazilərin sosial-iqtisadi ehtiyaclarına uyğun yüksək ixtisaslı kadrlara tələbatı ödəmək məqsədi ilə Azərbaycan Pezidentinin 2023-cü il 16 dekabr tarixli Sərəncamı ilə Xankəndi şəhərində Qarabağ Universiteti yaradılıb.

Şuşa və Bakı bəyannamələri. 2020-ci il 27 sentyabrında Ermənistanın işğalçı siyasətinə qarşı başlanmış 44 günlük Vətən müharibəsinin ilk günündə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciət etdi: "Biz haqq

yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq". Qəhrəman xalqımız, müzəffər ordumuz prezident İlham Əliyevin başçılığı ilə düşmənə qalib gəldi. Xarici ölkələrin bir sıra hərbi ekspertlərinin qeyd etdiyi kimi, Azərbaycan ordusunun əməliyyatları dünya hərb doktrinasını dəyişdirdi. Ordumuzun 1992-ci ildə ermənlərin işğal etdiyi Şuşanı azad etməsi və digər əməliyyatları dünyanın müasir hərb tarixində gorkəmli yer tutur.

Azərbaycan hərbçiləri başda Ali Baş Komandan İlham Əliyev olmaqla noyabrın 8-də Şuşa şəhərini düşməndən azad edərək parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün ülvi xüsusiyyətləri nümayiş etdirmişlər.

2021-ci il iyunun 15-də tarixi Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalandı. Şuşa Bəyannaməsini Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzaladılar.Bəyannaməni imzalayarkən Azərbaycanın dövlət başçısı Qars müqaviləsini yada saldı: "Tarixi Qars müqaviləsi 100 il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir". Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapdı. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir.

Bəyannamədə deyilir: "Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə uyğun

zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçrilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır".

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət iki dövlət" ifadələrinin xalqımızın istinad nöqtəsi olan milli-mənəvi sərvət kimi dəyərləndirildiyini xüsusi vurğulayaraq, hər iki ölkə arasında ikitərəfli münasibətləri genişləndirmək və dərinləşdirmək perspektivlərini nəzərdən keçirərək bəyan edirlər:

Tərəflər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan 1991-ci ildən əsası qoyulmuş iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərdən məmnun qalaraq siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsinin və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edirlər.

Hər iki dövlət Vətən müharibəsində böyük qələbənin əhəmiyyətini yüksək qiymətləndirmişlər. Azərbaycan Respublikası Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək dəyərləndirmişdir.

Tərəflər Qafqaz regionunda sülhün bərqərar olunmasına, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan MR-in xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır.

Müttəfiqlik haqqında maddə Azərbaycanın və Türkiyənin təhlükəsizliyinə, üçüncü dövlət və ya dövlətlər təhlükə yaradacağı təqdirdə ona qarşı birgə çıxış etməyi nəzərdə tuturdu.Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən ölkəmizin qərb rayonları ilə Naxcıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur)

açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmiryolunun tikintisinin iki ölkə arasında nəqliyyat kommunikasiya əlaqələrinin intensivləşməsinə töhfə verəcəyini bildirdilər.

Şuşa Bəyannaməsi Türkiyənin Azərbaycanın ərazi bütövlüyünə daha çox sadiqliyini əks etdirir, Bəyannamədə ən vacib maddə üçüncü dövlət və ya dövlətlər tərəfindən ölkələrdən birinə ediləcək təcavüz təqdirində razılaşdırılmış fəaliyyətin təmin edilməsidir.Prezident İlham Əliyev Şuşa Bəyannaməsinə yüksək siyasi qiymət verərək demişdir: "Əməkdaşlığın adı müttəfiqlikdir və bu özü hər seyi deyir".

Bəyannamənin ticarət-iqtisadiyyat, enerji təhlükəsizliyi haqqında maddələrində görüləcək birgə tədbirlər göstərilirdi. Tərəflər regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qazın şaxələndirilməsini təmin edən Cənub Qaz dəhlizinin həyata keçrilməsində Türkiyə və Azərbaycanın rolunu vurğulayır, regionun enerji təchizatı təhlükəsizliyini gücləndirmək üçün enerji sahəsində də regional əməkdaşlığa töhfə verəcəklərini vəd etdilər.

Bəyannamədə nəqliyyat sahəsində əməkdaşlığın dərinləşdirilməsi, xüsusən hər iki ölkənin ərazisindən keçən Şərq-Qərb (Orta beynəlxalq) nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılmasına səy göstəriləcəyi bildirilirdi. Burada tərəflər arasında hərbi-siyasi əməkdaşlığın genişlənməsi önə çəkilirdi. Kiber təhlükəsizliyə qarşı birgə mübarizə aparılması bəyannamədəki vacib məsələlərdən biridir. Tərəflər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin regional və beynəlxalq sülh və rifaha töhfə verdiyini qeyd etmişlər. Azərbaycan və Türkiyə regional və beynəlxalq sabitlik və təhlükəsizliyə mənfi təsir edən təhdid və çağrışlara, terrorçuluğa, həmçinin Azərbaycan və Türkiyənin suverenliyinə, ərazi bütövlüyünə, sabitlik və təhlükəsizliyinə yönəlmiş terrorçuluğa, narkotik ticarəti, insan alveri və s. hallara qarşı mübarizə aparmağı qərara aldılar.

Tərəflər Ermənistanın 1915-ci il hadisələri ilə bağlı Türkiyəyə qarşı əsassız iddialarına, tarixin təhrif olunmasına və bu faktların

təhrif olunmaqla siyasiləşməsinə qarşı çıxir, bu məsələ ilə bağlı Türkiyənin öz arxivlərini açdığı kimi, Ermənistandan və digər dövlətlərdən də eyni hərəkəti gözləyir. 27 iyul 2021-ci ildə Bakıda Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin üçtərəfli görüsündə Bakı Bəyannaməsi imzalandı.Bəyannaməni Azərbaycan Respublikasının Milli Məclisinin sədri Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Əsəd Qeysər imzalamışdır. Parlament sədrləri üç dövlət arasında qarşılıqlı, tarixi və mədəni əlaqələr, qarşılıqlı hörmət və etimad əsasında münasibətlərin vacibliyini vurğulamışlar. Üç dövlət və millət arasında mövcud münasibətləri daha da dərinləşdirmək üçün bu üç ölkənin parlamentləri arasında dialoqun və əməkdaşlığın gücləndirməsini razılaşdırmışlar. Məxsus olduqları bölgələrdə sülh, sabitlik və inkişafın bərqərar olmasında və təşviqində bu üç dövlətin oynadığı rolu və bu işə verdiyi töhfələri qeyd etmişlər. Tərəflər xarici dəstəkli terror, daxil kiber hücumlar, hibrid savaş formalarına, dezinformasiya kompaniyalarına, bir çox ölkələrdə müsəlmanlara qarşı yönəlmiş islamafobiyaya qarşı mübarizə aparmağı razılaşdılar.Hər üç dövlət beynəlxalq hüququn prinsip və normalarına bağlılıqları beynəlxalq anlaşmalara və beynəlxalq sənədlər üzrə götürülmüş öhdəliklərə bağlılıqlarını bildirdilər.

Türkiyə və Pakistan Ali qanunverici orqanın sədrləri Azərbaycan hökümətini və xalqını Ermənistanın 30 il sürən işğal rejiminə son qoyduğu, ərazi bütövlüyünü təmin etdiyi üçün təbrik etdilər.Azərbaycan-Pakistan-Türkiyə üçlük Parlament sədrlərinin birinci görüşünə ev sahibliyindən ötrü Azərbaycan Milli Məclisinə təşəkkürlərini çatdırdılar .Hər üç dövlətin parlamentinin sədrləri bu üç qardaş xalqları daha da yaxınlaşdırmaq üçün ikili və çoxtərəfli səviyyələrdə parlamentlərarası dialoq və əməkdaşlığı inkişaf etdirməyi qərara aldılar. Beynəlxalq problemlərin həllində barış və təhlükəsizliyin möhkəmləndirilməsində ikitərəfli və çoxtərəfli parlament əlaqələrinin rolunu qeyd etdilər. Konstruktiv dialoq və uğurlu əməkdaşlıq platforması təqdim edən beynəlxalq təşkilatları

dəstəklədiklərini bildirdilər. Qadın parlamentarilərin qərar qəbul etmə prosesindəki rolunu, məsuliyyətlərinin artırılmasına yönəlik səyləri dəstəklədiklərini ifadə etdilər. Bölgə və beynəlxalq parlament platformalarında, islamafobiya, ayrı-seçkilik və müsəlman azlıqlara yönəlik təzyiqlərə qarşı mübarizədə ortaq səyləri koordinasiya etməyi qərar aldılar. Hər üç dövlətin parlamanet sədrləri nəqliyyat, ticarət, enerji, təhsil, elm və rabitə texnologiyaları sahəsində əməkdaşlıq etmək barədə konsessusa gəldilər.Tərəflər Ermənistanın Azərbaycana mina xəritələrini verməməsini qınadılar.

2024-cü il iyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarnın qeyri-rəsmi Zirvə görüşündə "Qarabağ Bəyannaməsi" qəbul edildi.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı. Bakı: 1991
2. Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində. Bakı: 1975.
3. Azərbaycan tarixi (Əhmədova N. Hüseynova S.). Bakı: 2025. 353 s.
4. Azərbaycan tarixi (İ.Əliyevin redaktorluğu ilə). Bakı, 1993
5. Azərbaycan tarixi (Cəbiyev Q. Allahverdiyev S.). Bakı: 2017
6. Azərbaycan tarixi (S.Məmmədovun redaktəsi ilə). Ən qədimdən 2006-cı ilə qədər. Bakı: 2007
7. Azərbaycan tarixi 7 cilddə, V cild. Bakı: 2008. 696 s.
8. Azərbaycan tarixi 7 cilddə, VI cild. Bakı: 2008. 568 s.
9. Azərbaycan tarixi 7 cilddə, VII cild. Bakı: 2008.608 s.
10. Azərbaycan tarixi üzrə qaynaqlar (S.S.Əliyarlının redaktəsi ilə). Bakı: 2007.
11. Azərbaycan tarixi(İ.Məmmədovun redaktəsi ilə). Bakı: 2009
12. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik (M. Abdullayevin elmi redaktorluğu ilə). Bakı:2024. 448 s.
13. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XXI əsrin əvvəli). Bakı: 2010
14. Azərbaycan tarixi: 1920-1991 (T.Qaffarov). Bakı: 1999
15. XX əsr Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. (T.T.Vəliyevin redaktəsi ilə). II cild. Bakı: Təhsil,2009.560 s.
16. Azərbaycan tarixi: Millət-Dövlət-Siyasət (Nəsibli N.). Bakı: Qanun nəşriyyatı, 2022. 656 s.
17. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, I-II cildlər. Bakı: 2004 – 2005 il.
18. Azərbaycan Xalq Cümhuriyyəti. Stenoqrafik hesabatlar. Bakı:1998.
19. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı:2008
20. Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv

sənədləri. Tərtib edəni: Nigar Maksvell. Bakı:2008
21. “Azərbaycan “qəzeti, №204(8520), 6 oktyabr 2021-ci il
22. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri(27 sentyabr-10 noyabr 2020-ci il). Dərs vəsiti. Bakı: BDU, 2021
23. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: 1992. 276 s.
24. Bərabər yürüdük, biz bu yollarda.Bakı: 2021
25. Bürcəliyev A. 44 günlük Zəfər tarixindən Gəncə şəhidləri Bakı: Az.Print mətbəəsi, 2021
26. Cahangir H.Ə. Yeni Qarabağnamə. Bakı:Təhsil, 2021
27. Cəfərov C.M. Azərbaycan kəndi kollektivləşmə illərində. 1920-ci illərin sonu – 30-cu illər. Bakı: Elm,2008. 300 s.
28. Cəfərov C.M. Stalinizm və Azərbaycan kəndi (1920-ci illərin sonları – 30-cu illər). Bakı: Elm, 2012. 144 s.
29. Cəfərli C.S. Bakı Şəhər Duması XIX əsrin sonu-XX əsrin əvvəllərində. Bakı: 2024. 303 s.
30. Cəfərli T.V. 44 gün Zəfərə doğru. Döyüşlərin xronologiyası. Bakı: 2022
31. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). Bakı: 1985
32. Əhmədli R.A. Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri. Bakı: Ozan, 2017. 448 s.
33. Əhmədov H. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: 2001
34. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: 1985
35. Əliyarlı S. Milli hərəkatın ilkin dönəmləri. “Azərbaycan” qəzeti, 1992. №2-10
36. Əliyev H.Ə Müstəqiliyimiz əbədidir. Bakı: 2008
37. Əliyev H.Ə. Müstəqillik yollarında. Bakı: 1997
38. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 46 kitabda. Bakı, 1997-2013.
39. Əliyev İ.H. Azərbaycan nefti dünya siyasətində. Bakı:1997.

40. Əliyev İ.H. Inkişaf - məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. 2003-2023.
41. Əliyev İ.H. Əziz Şuşa, biz qayitmışıq.. Baki: CBS Poli Graphic, 2021
42. Əliyev İ.H. İnkişaf məqsədimizdir. Birinci kitab. Avqust-oktyabr 2003. Bakı: Azərnəşr, 2008
43. Əlyev H.Ə Müstəqillik yollarında.1-IV cildlər. Bakı: 1997
44. Əmrahov M. İkinci Dünya müharibəsi tarixinin oçerkləri . Bakı: ADPU, 2015.
45. Əmrahov M. Məğlubiyyətdən zəfərə. II Qarabağ-Vətən müharibəsinə aparan yol, hərbi, siyasi, diplomatik və iqtisadi münasibətlərdə (1988-2020-ci illər). Baki: 2022
46. Əntiqə Q. 44 günlük savaşın 444 cənğavəri. Xaçmazlı döyüşçülər. I və II kitab. Bakı: Şərq-Qərb mətbəəsi, 2023
47. Əziz B. Cümhuriyyətə gedən yol: milli azadlıq hərəkatının aktuallığı, mənbələri, dövrləri və cərəyanları. Bakı: 2020.
48. Əziz B. Xocalı soyqırımı. Bakı: 2008.
49. Əzizov E.“Difai”: XX əsrin əvvəllərində erməni azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri. Bakı: 2009
50. Güney Azərbaycan: tarixi, siyasi və kulturoloji müstəvidə. Bakı: 2010.
51. Hacıyev E. Azərbaycan tarixi: siyasi və milli mücadilə (1990-1918-ci illər). Bakı: 2024.
52. Heydər Əliyev və Ordu quruculuğu: çıxışlar, nitqlər...iyun 1993-2003. Vəliyev X. Bakı: 2006
53. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı: 2009.
54. Həsənli C. Güney Azərbaycan: Tehran - Bakı - Moskva arasında (1939 - 1945).Bakı, 1998.
55. Həsənli C. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). II cild. Bakı, 2012.
56. Həsənli C. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı:2013

57. Həsənli C.Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı: 1993.
58. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: 2011.
59. Həsənov Ə. Azərbaycanın xarici siyasəti. Avropa dövlətləri və ABŞ (1991 - 1996). Bakı: 1998.
60. Həsənov Ə. M. Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri. (Azərbaycan, türk, rus.. dillərində). Bakı: 2017
61. Həsənov H. Nəriman Nərimanov milli təmayüllü kommunist. Bakı: 2005. 248 s.
62. Həsənov N. Oyanmış Təbriz və Səttarxan. Bakı: 1986
63. Həsənova L.L. İslahatdan sonrakı dövrdə Azərbaycanda torpaq icarə münasibətləri. Bakı: 1986
64. Hüseynli R. Azərbaycan ruhaniliyi (xanlıqlar çağından sovet işğalınadək olan dövrdə). Bakı: 2002
65. Hüseynov Y. Qarabağ tarixi mənbələrdə. Bakı:2012.
66. Hüseynova L.Ə. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri. Bakı, 2011.
67. Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı: 1997
68. İbrahimli X. Azərbaycan mühacirəti tarixi. Bakı: 2012.
69. İbrahimov T.A. İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və fəaliyyəti (1858-1906). Bakı: 1967
70. İbrahimova A.Z. Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi (1917-1918-ci illər). Bakı, 2010
71. İbrahimova A.Z. Azərbaycanda siyasi partiya və təşkilatların fəallaşması. ADPU,"Tarix və onun problemləri" 1999, №1
72. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Elmi redaktor, prof. Y.Mahmudov. Bakı: 2009. 574 s.
73. İsgəndərli A. Azərbaycan həqiqətləri: 1917-1920. Bakı:2012
74. İsmayılov Ç.N. Müstəqil Azərbaycan 20 il ərzində. Bakı: 2011.
75. İsmayılov E.Hakimiyyət və xalq. Azərbaycanda müharibədən

sonrakı stalinizim (1945-1953). Bakı:2003.
76. İsmayılov İ. Azərbaycanlıların İkinci Dünya müharibəsində iştirakı. Bakı:2000
77. İsmayılov İ. İbrahimov M. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi. Bakı,:1991
78. İsmayılov X. Azərbaycan dövləti və hüquq tarixi. Bakı, 2006
79. Kərimov Y. Zəfərə gedən yol. Şərq-Qərb. Bakı, 2022
80. Kərimov Z. Tarixi qələbə. Bakı:2024
81. Kərimov Z. Mirzəyev E. Azərbaycan tarixi (Vətən müharibəsi. Böyük qayıdış). Bakı: ADPU,2025.222 s.
82. Qarabağ Azərbaycandır. Zəfər epopeyası. Bakı:2021
83. Qasımlı M. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920). Bakı, 2014.
84. Qəniyev H. SSRİ-nin iqtisadi və mədəni əlaqələrində Azərbaycanın iştirakı (1960-1990-cı illər). Bakı: Mütərcim-2017
85. Piriyev Heydər Kamal oğlu.İkinci Qarabağ müharibəsi. Hərb nəşriyyatı. Bakı, 2022
86. Mehdiyev Ə. Əsrin müqaviləsi: Azərbaycan neft strategiyasının təməl daşı. Bakı: 2014
87. Mehdiyev Ə.Azərbaycan Respublikasının neft strategiyası: formalaşması və həyata keçirilməsi (1991-2023). Bakı:2025. 344 s.
88. Mehdiyev R.Ə. Milli məfkurə,dövlətçilik,müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr. II cild. Bakı: 2006
89. Mədətli E. İranda Azərbaycan tarixi məsələləri. Bakı: 2020
90. Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsində. Bakı: 1965.
91. Məmmədov Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu 1997-ci il). Bakı: Elm, 1999.
92. Məmmədov X. Azərbaycan milli hərəkatı (1875-1918-ci illər). Bakı: 1996
93. Məmmədov X. Məmmədov N.Erməni iddiaları və azərbaycanlıların soyqırımı. Bakı:2008.

94. Məmmədov X., Məmmədov N. Erməni iddiaları və azərbaycanlıların soyqırımı. Bakı: 2008
95. Məmmədov X.M. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları – XX yüzilliyin əvvəlləri). Bakı: 2005.
96. Məmmədov İ.S.Tariximiz,torpağımız, taleyimiz. Bakı: 2002
97. Məmmədova Vəfa. İkinci Qarabağ müharibəsi:yeni siyasət-regionun hüquqi reallığı. Bakı: 2023
98. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: 1992
99. Mirzəzadə A. Vətən müharibəsinin tarixi-siyasi dərsləri. Azərnəşr. Bakı: 2022
100. Muradəliyeva E.B. Azərbaycan milli şüurunun qatlarında Rusiya işğalı. – M.Ə.Rəsulzadə və ictimai-siyasi ideallar. Bakı:2005
101. Muradova Z. Şuşa, hər qayası, daşı tarix.. Bakı: Orxan NPM, 2022
102. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. Bakı: 1996.
103. Musayev İ. Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət (1907-1920-ci illər). Bakı: 1992.
104. Mustafayev V. Cənubi Azərbaycanda milli şüur (XX əsrin I yarısı). Bakı: 1998.
105. Müstəqil Azərbaycan - 20 il. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 2011
106. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.Stalinə məktub). Bakı: 2019. 128 s.
107. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər). Bakı: Elm, 1990.
108. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: 1993. 124 s.
109. Novruzoğlu R. Qarabağ: "Eçmiədzin"in məxfi qrifi altında. Bakı: 2012.
110. "Xalq qəzeti", 27 oktyabr 2021 -ci il
111. Onullahi S.M. Erməni millətçiləri və İran. Bakı: 2002
112. Rəhmanzadə F. Qarabağ-Azərbaycandır! (Tarixi-publisistik qeydlər). Bakı: Elm və təhsil, 2022

113. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: 1990.
114. Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti, Bakı: 1994.
115. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı: 1991.
116. Sadıqov B. Xilaskar İlham Əliyev. Hədəf nəşr. Baki, 2021
117. Seyidova S. Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı (1991-2005-ci illər). Bakı: Elm və Təhsil, 2021
118. Səfərli S.Vətən Sizə oğul dedi. (Şuşa şəhidləri və qazilərinin şərəfli yolundan bəhs olunur). Bakı: 2021
119. Səlimov Ş. Azərbaycan nefti beynəlxalq münasibətlərdə (1920-1922-ci illər).Bakı: 2005.
120. Sultanov O.B. 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı: 1995.
121. Süleymanov M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: 2008.
122. Süleymanov M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı: 1997
123. Şirinoğlu V.A. Güney azərbaycanlıların milli-azadlıq hərəkatı (1941-1946-cı illər) tarixinin tarixşünaslığı. Bakı:Elm və təhsil, 2023. 192 s.
124. Şirinoğlu V.A.Cənubi Qafqazın ictimai-iqtisadi və siyasi vəziyyətinin öyrənilməsində Zaqafqaziya Seyminin sənədləri mənbə kimi.Bakı:Füyuzat, 2022. 152 s.
125. Şirinoğlu V.A. Şimali Azərbaycanın sovet işğalının tarixşünaslğı. Bakı: Adiloğlu, 2021. 400 s.
126. Şuşanın qoxusi gəlir (Polkovnik Əlizamin Təhməzov). Bakı: Elm və təhsil, 2021
127. Şükürov K.K.Azərbaycan əhalisi: Öyrənilməsi tarixi və qaynaqları.(qədim zamanlardan müasir dövrədək). Bakı: 2004.
128. Tağıyeva Ş. Cənubi Azərbaycan. Bakı:2000
129. Vətən bizə oğul dedi. Bakı: 2022
130. Vətən müharibəsi şəhidləri (Tərtib edəni Abdulla Qurbanlı). Apostrof-A.Bakı, 2021
131. Yaqublu N. Bakının qurtuluşu. Bakı: 2008.

132. Yaqublu N. Müsavat partiyasının tarixi. Bakı: 1996.
133. Yunus O. Cığır. Tarixi roman. Bakı: 2022
134. Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. Azərbaycan Respublikasının Milli Arxiv idarəsi. Məsul red. A.Ə.Paşayev. Bakı: Adiloğlu, 2006.
135. Zeynalov İ. X. Azərbaycanın iqtisadi və sosial inkişafı (70 - 80-ci illər). Bakı: 1996.
136. Zəfər memuarları. Döyüşçülər, sərkərdə, və müharibə haqqında. Bakı: Şərq-Qərb, 2021.
137. Zəfər yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək. Hazırlayanlar akademik İ. Həbibbəyli, professor K.Şükürov, Bakı: Elm, 2021.
138. Балаев А. Азербайджанское национальное движение 1917-1918гг. Баку, 1998 117
139. Мамедов Х.М., Мамедова Э.К.Историческая география Азербайджана в Х1Х-начале ХХ1 века.Учебное пособие. Lap Lambert, 2025
140. Черный январь. Баку-1990: Документы и материалы. Баку, 1990.
141. Шюкюров К. В системе международных отношений (1648-1991). Баку, 2020
142. History of Azerbaycan/London 2014. (İ. Məmmədov) ingilis dilində.
143. Azərbaycan xanlıqları- Vikipediya -https://az.m.wikipedia. org. wiki/ Azerb.
144. Azərbaycanın Rusiya tərəfindən işğalının beynəlxalq nəticələri.Kayzen.az.blog.
145. Azərbaycanın xarici siyasəti - https://az.m. wikipedia. org.wiki/Azerb.
146. Heydər Əliyev-Vikipediya-https://az.m.wikipedia.org. wiki/ Azerb.
147. http:// www.history.az
148. http:// www.kitabklubu.org
149. http:// www.preslib.az

150. http://elibrary.bsu.az
151. http://www.anl.az
152. http://www.history.az
153. http://www.kitabklubu.org
154. http://www.preslib.az
155. https://apa.az/
156. https://az.wikipedia.org/
157. https://azertag.az/
158. https://www.millikitabxana.az/
159. https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag- muharibesi.html
160. Qarabağ abidələri-Virtual Qarabağ.www.virtualkarabakh. az.read.
161. Ulu Öndər Heydər Əliyev və müstəqil Azərbaycan elminin inkişafı/sia.az.news.interesting.404849-uluonder.
162. www.azerbaijans.com
163. www.bsu.edu.az
164. www.tarix.az
165. Respublika qəzeti: №198(6817), 29 sentyabr 2020-ci il
166. №224 (7120), 17 oktyabr 2021-ci il
167. № 257 (7153), 27 noyabr 2021-ci il
168. 203(7673), 20 sentyabr 2023-cü il
169. 204(7674), 21sentyabr 2023-cü il
170. 205(7675), 22 sentyabr 2023-cü il
171. 206(7676), 23 sentybr 2023-cü il
172. 207(7677), 24 sentyabr 2023-cü il
173. 208(7678), 26 sentyabr 2023
174. 209(7679), 27 sentyabr 2023
175. 210(7680), 28 sentyabr 2023
176. 211(7681), 29 sentyabr 2023
177. 212(7682), 30 sentyabr 2023
178. 213(7683), 1oktyabr 2023
179. 214(7684), 3 oktyabr 2023
180. 215(7685), 4 oktyabr 2023

181. 216(7686), 5 oktyabr 2023
182. 217(7687), 6 oktyabr 2023
183. 218(7688), 7 oktyabr 2023
184. 219(7689), 8 oktyabr 2023
185. 220 (7690), 10 oktyabr 2023
186. 221 (7691), 11 oktyabr 2023
187. 222 (7692), 12 oktyabr 2023
188. 223 (7693), 13 oktyabr 2023
189. 224 (7694), 14 oktyabr 2023
190. 225 (7695), 15 oktyabr 2023
191. 226 (7696), 17 oktyabr 2023
192. №227 (7697), 18 oktyabr 2023
193. № 228 (7698), 19 oktyabr 2023
194. № 229 (7699), 20 oktyabr 2023
195. №230 (7700), 21 oktyabr 2023
196. №231 (7701), 22 oktyabr 2023
197. №232 (7702), 24 oktyabr 2023
198. №233 (7703), 25 oktyabr 2023
199. №234 (7704), 26 oktyabr 2023
200. № 235 (7705), 27 oktyabr 2023
201. №237 (7707), 29 oktyabr 2023
202. №238 (7708), 31 oktyabr 2023
203. 243 (7713), 5 noyabr 2023
204. 244 (7714), 7 noyabr 2023
205. 246 (7716), 9 noyabr 2023
206. 11 (7769), 19 yanvar 2024
207. https ://kaspi.az> 10-647-herbci-suq..
208. https://report.az>xarici siyasət
209. https://oxu.az>politiks
210. https//:az.m.wikipedia .orq > wiki
211. https//:ereforms.qov.az>xeberler
212. https//:www.bizimyol.info>news
213. https//:toplum. tv> pasinyanin-setleri
214. https://www.youtube.com/ channel/UcztIohIY x63yMjzc PTF)

215. https://modern.az>aktual>İdquo...
216. https://yasamal-in>.qov. az>news
217. https://www. baki. xebercom >siyaset (Şuşa bəyannaməsi haq)https://banker.az/müdafi%C9%99-nazirliyi-qisas-%C9%99liyyatindan-goruntul%C9%99r-yayib/ Müdafiə Nazirliyi "Qisas" əməliyyatından görüntülər yayıb
218. https://baki-xeber.com>17951-bo..."Böyük Qayıdışın" içində azad rayonlara milli dəyərlərimizdə ...
219. https :// az.vikipedia .org Sürix protokolları
220. https :// oxu.az Qoşulmama Hərəkatının yaranma günüdür
221. https:// https:az . wikipedia.org ATƏT-in Minsk qrupu

Nəşriyyatın direktoru: *Hüseyn Hacıyev*
Redaktor: *Mustafa Şəfiyev*
Korrektor: *Səlimova Xəyalə*
Dizayn: *Müşfiq Hacıyev*
Cildçi: *Elmar Mikayılov*

Çapa imzalanmış 10.10.2025-ci il
Kağız formatı 60x84 1/16, çap vərəqi 43
Sifariş 105, sayı 100

ADPU-nun nəşriyyatı
Bakı, Ü.Hacıbəyli küçəsi, 68
Tel: (+912) 493-74-10
E-mail: poliqrafiya@mail.ru